Yerlik halda qrammatik-sintaktik əlaqə yaradılması üçün *–da* (-də) şəkilçisi işlənir və bu şəkilçinin qoşulduğu sözlər feillə idarə olunur: *evdə oturmaq, parkda gəzmək, çayda çimmək* və s. Yerlik hal şəkilçisi zaman, vaxt bildirən sözlərə qoşulduqda derivativ keyfiyyət kəsb edir. Bu halda həmin şəkilçini qəbul etmiş söz qrammatik yerlik hal məzmunundan uzaqlaşaraq zaman bildirən zərfə çevrilir: *yaz-yazda, yay-yayda, qış-qışda, əvvəl-əvvəllərdə, axır-axırda, səhərlər-səhərlərdə, gün-gündə* və s. Bəzən yerlik hal şəkilçisi *bir* sözünə də qoşulub zaman mənası bildirən söz əmələ gəlməsində iştirak edir: *bir-birində* (bir vaxt, bir zaman. *–Da* (-də) yerlik hal şəkilçisinin derivativ xüsusiyyəti müvafiq mənbələrdə də xatırlanır [3, s.144; 6, s.66-67; 7, s.60-61].

Çıxışlıq halda qrammatik funksiya bildirilməsi üçün *–dan* (-dən) şəkilçisindən istifadə olunur. Bu şəkilçinin qoşulduğu sözlər feillə idarə edilir: *evdən çıxmaq, yoldan çıxmaq, şəhərdən gəlmək, yoldan dönmək* və s. *–Dan* (-dən) şəkilçisi, eyni zamanda ad nitq hissələrinə məxsus sözlərə qoşularaq əsas etibarı ilə müxtəlif mənalı zərflərin əmələ gəlməsində iştirak edir. Bu şəkilçi bir sözünə qoşularaq tərzi-hərəkət zərfi bildirən *birdən*, zaman bildirən *axşam, səhər, dünən, sabah, ertə, bu il, keçən il, srağa gün, tez* sözlərinə *qoşularaq axşamdan, səhərdən, dünəndən, sabahdan, ertədən, bu ildən, keçən ildən, srağa gündən, tezdən, tənbəllik, qorxu, hündür, alçaq* kimi sözlərə qoşularaq *tənbəllikdən, qorxudan, dündürdən, alçaqdan, aclıq, toxluq kimi sözlərə qoşularaq aclıqdan, toxluqdan* və s. zərf mənalı sözlər düzəldir. *–Dan* (-dən) şəkilçisinin də derivativ xüsusiyyətləri barədə müvafiq tədqiqatlarda bəhs edilmişdir [3, s.145; 6, s.67-117; 7, s.60-61].

Xəbərlik bildirən şəkilçilərin derivativ funksiyası

Xəbərlik şəkilçilərinin sözdəyişdiricilikdən sözdüzəldiciliyə keçid prosesi digər kateqoriya şəkilçilərinə nisbətən məhduddur. Bu da ondan irəli gəlir ki, xəbərlik şəkilçilərinin qrammatiklik funksiyası daha intensivdir. Bununla yanaşı xəbərlik şəkilçilərinin özündə də qrammatiklikdən derivativliyə keçid meyillərinin baş verməsi müşahidə edilir. Məsələn, birinci şəxsin təkini bildirən *–am* (-əm, -yam, -yəm) şəkilçiləri *dostam, qardaşam, müəlliməm, ustayam, fəhləyəm* sözlərinin tərkibində işlənərək mübtəda ilə xəbər arasında şəxsə görə uzdaşma əlaqəsi yaradır. Bununla yanaşı birinci şəxs təkinin şəkilçi elementləri müəyyən sözlərdə derivativlik funksiyası bildirməyə xidmət edir. Məsələn, *Qulam* şəxs adında birinci şəxs təkini bildirən *–am* şəkilçisi [mən] *qulam* anlayışının onomastik bir vahid kimi formalaşdıraraq həmin sözün qrammatiklikdən leksikliyə keçidinə səbəb olmuşdur. Eləcə də birinci şəxsin təkini bildirən *–am* (-əm) şəkilçisinin iştirak ilə *üç* sözündən *üçəm* (üçü birlikdə), *dörd* sözündən *dördəm* (dördü birlikdə), *tək* sözündən birlikdə *təkəm* (təkəm-seyrək), *dar* sözündən *daram* (lap dar), *şır* imitativ tərkibindən *şıram* (kəsik, çapıq) sözləri formalaşmışdır. Nominativ anlayışa görə bu nümunələrdə verilən sözləri şərti olaraq [mən] *üçəm*, [mən] *dördəm*, [mən] *təkəm*, [mən] *daram*, [mən] *şıram* kimi təsəvvür etmək olar.

İkinci şəxsin təkini bildirən *–san* (-sən) şəkilçisinin qrammatiklikdən derivativliyə keçidi barədə müvafiq nümunələrə demək olar ki, təsadüf edilmir. Üçüncü şəxsin təkində də *–dır* (-dir, -dur, -dür) şəkilçisinin derivativliyə keçidi məhduddur. Bu şəkilçinin qrammatik funksiyası mübtəda və xəbər arasında qrammatik-sintaktik uzlaşma əlaqəsi yaratmaqdan ibarətdir: *Əli məktəblidir*; *Məktəb yaxındadır; Gülün rəngi qırmızıdır*. Üçüncü şəxsin təkini bildirən *–dır* (-dir, -dur, -dür) şəkilçisinin iştirakı ilə həmçinin bəzi leksik vahidlərin formalaşmasına rast gəlmək olur. Bunlara aid *quldur, dikdir, odur, budur* kimi kökü müstəqil olan sözləri nümunə göstərmək olar. Bu sözlərdə onların üçüncü şəxs mənasını konkret təsəvvür etmək mümkündür: [o] *quldur*, [o] *odur*, [o] *budur*. Bu sözlər kök-şəkilçi tərkibi üzrə müstəqil bir vahid kimi motivləşdiyindən, artıq onlarda nominativ üçüncü şəxs anlayışı özünün qrammatik mənadan uzaqlaşmışdır. *–Dır* (-dir, -dur, -dür) tərkibi elə sözlər də vardır ki, artıq onlarda sözün şəkilçi hissəsi fuziallıqla flektiv xarakter kəsb edərək sözlə birlikdə müstəqil bir vahidə çevrildiyindən onları asanlıqla kök və şəkilçiyə ayırmaq olmur. Belə bir əməliyyat aparmaq üçün ancaq rekonstruksiya üzrə təhlilə ehtiyac vardır. Bunlara dair *hündür, baldır, andır* (odur), *cındır, təndir, sudur* (sulu, suluq) [7, s.25] kimi nümunələri misal göstərmək olar.

Birinci şəxsin cəminə aid *–ıq* (-ik, -uq, -ük) şəkilçisi qrammatik funksiya etibarı ilə mübtəda və xəbər arasında şəxsə və kəmiyyətə görə uzlaşma əlaqəsi yaradır: [biz] *tələbəyik*; [biz] *qardaşıq* və s.

Bununla yanaşı birinci şəxs cəminə aid şəkilçinin həm də bəzi sözlərin tərkibində derivativ xüsusiyyət kəsb etdiyini də görmək mümkündür. Bunlara aid *çöp* ismindən düzələn *çöpük*, sifət mənalı *köp* sözündən düzələn *köpük* sözünü nümunə göstərmək olar. Birinci şəxs cəmini bildirən *–ük* şəkilçisi həmçinin, *köpük* sözünün də tərkibində işlənir ki, bu sözün kök və şəkilçi tərkibi flektivliyə görə fuziallıqla birləşib bir vəhdət təşkil etmişir. İsmin xəbərlik kateqoriyasına aid ikinci və üçüncü şəxs cəmini bildirən şəkilçilərin qrammatiklikdən derivativliyə keçidi barədə hər hansı nümunənin mövcudluğuna təsadüf olunmur. Bu da ad kateqoriyasına məxsus xəbərlik şəkilçilərinin daha çox qrammatiklik funksiyası daşıdığının nəticəsi hesab edilə bilər.

İstifadə edilən ədəbiyyat

Azərbaycan dilində

1. Aslanov A. Müasir Azərbaycan dilində inkarlıq və kəmiyyət kateqoriyaları. Bakı, Azərbaycan Elmlər Akademiyası. nəşr., 1963, 92 s.
2. Azərbaycan aşıq şeirindən seçmələr. 2 cilddə, I c., Bakı, Şərq-Qərb, 2005, 376 s.
3. Cəfərov S. Müasir Azərbaycan dili. Leksika, Bakı, Şərq-Qərb, 2007, s. 192.
4. Dəmirçizadə Ə. Azərbaycan dilinin üslubiyyatı, Bakı, Azərtədrisnəşrs. 1962, s.271.
5. Hadioğlu Muhsin. Türklük anlayışı və türk olmaq: Azərbaycan dilinə uyğunlaşdıran Bəsirə Əzizəli. Ədəbiyyat qəzeti, 2018, 4 avqust, s. 24-25.
6. Xəlilov B. Müasir Azərbaycan dilinin morfologiyası. 2 cilddə, I c., Bakı, Elm, 2007, 280 s.
7. İlkin Ə. Azərbaycan dilində məhsuldarlıq yaradan qeyri-məhsuldar şəkilçilər. (Monoqrafiya), Bakı, Elm və təhsil, 2015, 148 s.
8. Sabir M.Ə. Hophopnamə, 2 cilddə, I c., Bakı, Şərq-Qərb, 2004, 480 s.
9. Şah İsmayıl Xətayi. Əsərləri. Bakı, Şərq-Qərb, 2005, 384 s.

Rus dilində
10. Билалова Д.Н. Морфемное строение слова в башкирском и английском языках. Автореф.дис.канд.филол.наук. Чебоксары, 2016, 24 с.
11. Тараканова И.М. Образование имен существительных в хакасском языке (В сопоставительном аспект) Автореф.дис.канд.филол.наук. Новосибирск, 2005, 24 с.
İnternet resursları
12. Ariflərin haqqa qovuşma məqamı (Şəriət, Təriqət, Mərifət, Həqiqət) Bakı. İSBN: 978-9952-085-1. 2016, 600 s., s. 73; fedai.az arxiv /www fedai.az/ www/fedai.az./index 566 html.
13. Hüseynov A. Yeddi rəqəminin sirri.//Region plus, 19 mart 2022, Region plus.az/az/articlas /vien/ 4143.

Açar sözlər: *kəmiyyət, mənsubiyyət, hal, xəbərlik, derivativlik*
Ключевые слова: *количестко, принадлежности, надеж, изъявительное, дериватившость*
Key words: *quantative, relation, case, indicative, derivation*

Ad kateqoriyalarına məxsus qrammatik elementlərinsöz sonunda derivativ funksiyası

Xülasə

Qrammatik kateqoriya şəkilçiləri qrammatiklik bildirməklə yanaşı həm də derivativ funksiya daşımağa meyilli olurlar. Qrammatik şəkilçilərin nominativ funksiyası əslində cümlə daxilindəki sözlər, söz birləşmələri və cümlə üzvləri arasında qrammatik-sintaktik əlaqə yaratmaqdan ibarətdir. Bununla yanaşı qrammatik şəkilçilərin müəyyən hallarda derivativ funksiya daşıması da müşahidə edilir. Aqlütinativ dillər üçün bu təsadüfi deyildir. Çünki bu dillərdə sözyaratma prosesi daha çox morfoloji elementlərin hesabına baş verir. Bu prosesdə sözdəyişdirici şəkilçilərin iştirakı təsadüfi deyil. Çünki aqlütinativ dillərdən biri kimi Azərbaycan dilində morfoloji yolla sözdüzəltmə prosesi intensivdir. Odur ki, sözdüzəldici şəkilçilər müəyyən hallarda həmin tələbatı tamamilə ödəyə bilir. Bunun nəticəsidir ki, sözdüzəltmə vəzifəsi həm də sözdüzəldici (qrammatik) elementlərin üzərinə də düşə bilir. Sözdüzəltmə intensivliyi Azərbaycan dilindəki qrammatik ad kateqoriyası elementlərinin hamısında müşahidə edilir. Qrammatik şəkilçilərin sözdüzəltmə prosesindəki iştirakı zamanı artıq, onların qrammatik vəzifəsi başa çatmış olur, yəni söz qrammatik məna daşımır, leksik vasitəyə çevrilir. Bu prosesdə ismin kəmiyyət, mənsubiyyət, hal və xəbərlik kateqoriyası şəkilçilərinin özünəməxsus derivativ funksiyası müşahidə edilir. Qrammatik şəkilçilərin hamısı əlbəttə ki, bu prosesdə bərabərşəkilçili intensivliyə malik deyildir. Kateqoriyadixili şəkilçilərin bəziləri bu prosesdə passiv, bəziləri isə aktiv funksionallıq nümayiş etdirir.

Summary

Grammatical category suffixes tend to have a derivational function in addition to denoting grammaticality. The nominative function of grammatical suffixes actually consists in creating a grammatical-syntactic connection between words, word combinations and sentence members within a sentence. Along with this, it is also observed that grammatical suffixes have a derivative function in certain cases. For agglutinative languages, this is no accident. Because the process of word formation in these languages takes place mostly at the expense of morphological elements. The participation of modifying suffixes in this process is not accidental. Because, as one of the agglutinative languages, the process of word-correction by morphological means is intensive in Azerbaijani. Therefore, word-correcting suffixes can completely satisfy this requirement in certain cases. As a result of this, the task of correcting words can also fall on correcting (grammatical) elements. Word correction intensity is observed in all elements of the grammatical noun category in the Azerbaijani language. During the participation of grammatical suffixes in the word correction process, their grammatical task is completed, that is, the word does not have a grammatical meaning, it becomes a lexical tool. In this process, the unique derivative function of the noun's suffixes of the category of quantity, affiliation, case, and reporting is observed. Of course, not all grammatical suffixes have equal intensity in this process. Some of the intra-categorical suffixes show a passive and some an active functionality in this process.

Резюме

Суффиксы грамматических категорий, как правило, выполняют деривационную функцию в дополнение к обозначению грамматичности. Номинативная функция грамматических суффиксов фактически состоит в создании грамматико-синтаксической связи между словами, словосочетаниями и членами предложения внутри предложения. Наряду с этим также отмечается, что грамматические суффиксы в определенных случаях выполняют производную функцию. Для агглютинативных языков это не случайно. Потому что процесс словообразования в этих языках происходит преимущественно за счет морфологических элементов. Участие модифицирующих суффиксов в этом процессе не случайно. Потому что, как один из агглютинативных языков, в азербайджанском языке процесс исправления слов морфологическими средствами идет интенсивно. Поэтому словокорректирующие суффиксы в определенных случаях могут полностью удовлетворить этому требованию. Вследствие этого задача исправления слов может падать и на исправление (грамматических) элементов. Интенсивность словокоррекции наблюдается во всех элементах грамматической категории существительных в азербайджанском языке. При участии грамматических суффиксов в процессе исправления слова их грамматическая задача завершается, то есть слово не имеет грамматического значения, оно становится лексическим средством. В этом процессе наблюдается уникальная производная функция суффиксов имени существительного категории количества, принадлежности, падежа, сообщения. Конечно, не все грамматические суффиксы имеют одинаковую интенсивность в этом процессе. Некоторые из внутрикатегориальных суффиксов демонстрируют в этом процессе пассивную, а некоторые активную функциональность

RƏYÇİ: prof.L.Əhmədova.

Rəna Xatayıl qızı Məmmədzadə [3]

ZAMAN VƏ MƏKAN ANLAYIŞINA NƏZƏRİ VƏ METODOLOJİ YANAŞMALAR

Müasir kainatın ən vacib tərkib hissələrindən biri olan zaman və məkan kateqoriyaları universal və çox aspektli kateqoriyalardır. İlkin olaraq təbiətşünaslıqda, fiizikada və fəlsəfədə formalaşsa da, son dövrlərdə zaman və məkan problemi daha çox psixologiya, sosiologiya, filologiya, linqvistika kimi elmlərin tədqiqat obyektinə çevrilmişdir.

Zaman və məkan kateqoriyaları bir çox tədqiqatçıların diqqətini cəlb etmiş, İ.V. Barkova, A.Y. Qureviç, E.S. Kubryakova, V.İ. Postavalova, E.Q. Xomyakova, E.S. Yakovleva və bir sıra digər dilçilərin elmi işlərində öz əksini tapmışdır.

A.Y. Qureviçin fikrincə, nəzərdən keçirilən kateqoriyalar insanın tarixi inkişafının bütün mərhələlərində insana xasdır, çünki, onlar olmadan heç bir ideyaların, nəzəriyyələrin, fəlsəfələrin, konsepsiyaların və sistemlərin qurulması mümkün deyil [9, səh. 29]. Y.M. Lotmanın qeyd etdiyi kimi, bəşəriyyətin mövcud olması zaman və məkan reallığının çərçivələri daxilində mümkündür və təbiət obyektlərinin, məsələn, günəşin fırlanması, eləcə də təbiət mövsümlərinin bir-birilərini əvəz etmələri bir başa insan şüurunda dünyanın modelləşdirilməsinə və kateqoriyalara ayrılmasına təsir göstərir [12, səh. 176].

Zaman və məkan fərdin varlığıvə inkişafı üçün vacib amillərdən biridir, onlarsız insanın mövcudluğu mümkünsüzdür. İnsan ətraf aləmi yalnız zaman və məkan çərçivəlrəi daxilində qavrayır, çünki hər şey (obyektlər, təzahürlər, hadisələr) məkan və zamanda mövcuddur və bilavasitə onunla əlaqəli dəyişir.

Məkan anlayışına nəzəri və metodoloji yanaşmalar.

Linqvistik fənnlərdə məkan kateqoriyasının tədqiq olunmasına keçməzdən əvvəl məkanın əsas növlərini nəzərdən keçirək.

Müasir elmdə «məkan» kateqoriyası (daha ümumi mənada) müəyyən konseptual sistem çərçivələri daxilində müəyyən məna kəsb edir və tədqiqatın fənnlərarası xarakterini daşıyır. "Məkan" termini müxtəlif elmi istiqamətlərdə (fizika, fəlsəfə) müxtəlif cür işlənə bilər.

Fizika elmində məkan obyektiv varlıq kimi mövcuddur və «birlikdə mövcud olan obyektlərin koordinasiyasını ifadə edən münasibətlərin toplumu, onların bir-birinə qarşı nisbətdə yerləşməsi və nisbi kəmiyyət (məsafə və oriyentasiya)» kimi şərh olunur [6, səh. 837], daha geniş anlamda məkan fizikanın bütün bölmələrinin əsas anlayışıdır və fiziki qavrayışın empirik səviyyəsində başlıca rol oynayır.

Fəlsəfədə məkan «…əşyalar haqqında təsəvvürlərin qavranması forması, ali empirik təcrübənin əsas faktoru» [16, səh.421] kimi təqdim olunur.

Tədqiqatçılar məkan anlayışını müəyyənləşdirmək probleminə, məkan əlaqələrini izah edən bir sistemin hazırlanmasının əhəmiyyətinə, məkan sözlərinin (xüsusilə də, məkan mənası daşıyan sözönülərin) mikrosistemlərinin qurulmasının zəruriliyinə diqqət yetirirlər [13, səh. 174]. Lakin bütün bunlara baxmayaraq, dilşünaslığın inkişafının müasir mərhələsində məkanın təyin olunması problemi bu anlayışın müxtəlif mənalı şərhləri ilə əlaqədar olaraq həll edilmiş hesab edilə bilməz.

Ümumi dilçilikdə məkan anlayışı müxtəlif cür şərh olunur. Bir qism tədqiqatçılar bu kateqoriyanı məhdud qaydada nəzərdən keçirir və belə hesab edirlər ki, məkan anlayışı məhz obyektin lokativ yeri haqqında söhbət getdiyi hallarda tətbiq olunur (O.Y. Boquslavskaya, R. Qjeqorçikova, E. Semenyova). Digərləri isə əksinə, məkanı daha geniş şəkildə nəzərdən keçirir və məkanın müxtəlif növlərini qeyd edirlər: zaman (T.N. Malyar, O.N. Seliverstova), funksional (T.N. Malyar, O.N. Seliverstova), mental, fiziki (S.V. Kodzasov), vizual (S.E. Nikitina) məkan, xadimin, müşahidəçinin məkanı (N.N. Boldıryov), varlığın kvazi məkanı (E.S. Yakovleva).Q.E. Kreydlinin, B.B. Bazarovun elmi əsərlərində məkanın fiziki, sosial, mental, temporal, mətnin məkanı kimi növləri qeyd edilir [4,səh. 31].

Adətən, məkan dedikdə obyektiv reallıq, həssaslığın aprior forması, uzunluğu və həcmi ilə xarakterizə olunan materiyanın mövcud olma forması başa düşülür [11, səh. 56].

Bəzi alimlər belə hesab edirlər ki, məkan kateqoriyasının linqvistik aspekti fəlsəfi və fiziki aspektlərin mahiyyətinin dil vasitəsilə ifadə yollarının toplumu ilə təqdim olunur [10, səh. 117].

O.N. Seliverstova ilk işlərində məkanı «bir obyektin (elementin) yerləşə biləcəyi və ya hərəkətin və ya hadisənin müəyyən yeri» kimi təyin edir [17, səh. 142-143]. Daha sonrakı işlərdə isə tədqiqatçı bu terminin daha geniş tətbiqini qeyd edir: «məkan nəinki koordinatlarda təsvir olunan hündürlük, uzunluq məkanlarına və ya bu parametrlərdən («həndəsi məkan») birinə, eləcə də, məsələn, bəzi hadisə freymlərinə daxil olan fəaliyyətin toplumu kimi parametrlərə aiddir» [18, səh. 191].

Bir çox tədqiqatçılar qeyd edir ki, məkan münasibətləri insan üçün çox vacibdir. Ümumiyyətlə, məkan özü-özlüyündə mövcud ola bilməz, belə ki, məkan onu görən, qavrayan, və məqsədlərinə, varlığına uyğun olaraq ölçən insan olduğu üçün mövcuddur.

Dilçilik fənnləri çərçivələri daxilində məkan kateqoriyası koqnitiv linqvistika, mətnin linqvistikası, mətnin qrammatikası, mətn nəzəriyyəsi, mətnin filoloji təhlili kimi və digər istiqamətlərdə öyrənilir. Koqnitiv linqvistikada məkan dildə əks olunan, yazılı nitqdə və incəsənət əsərlərində qeydə alınan mədəniyyətin vacib konseptlərindən biri kimi nəzərdən keçirilir.

---

[3] **Azərbaycan Dillər Universiteti. Azərbaycan, Bakı şəhəri, Rəşid Behbudov küçəsi, 134, 1 №-li tədris binası (Qərbi Kaspi Universiteti, dissertant).**
rena.m6556@gmail.com +994(50)5177181

V.A. Maslova, rus dilinin konsept sahəsini tədqiq edərək belə bir nəticəyə gəlir ki, məkan konsepti zamanla birlikdə mədəniyyətin fundamental konseptləridir. İnsanın onu əhatə edən reallıq, dünyanı qavraması haqqında təsəvvürləri, eləcə də insanın müəyyən mədəni tarixi cəmiyyətə mənsubiyyəti məhz bu konseptlər əsasında formalaşır. Tədqiqat zamanı müəllif belə bir nəticəyə gəlir ki, məkanın qavranması məhz proksimal / distal əlamətə əsasən həyata keçirilir. Proksimal məkan «insana qarşı münasibətdə müəyyən bir şəkildə qurulmuş orqanizm kimi xarakterizə olunur» [14, səh.247] və insanın sosial tip kimi nəzərdən keçirildiyi distal məkandan fərqli olaraq bilavasitə insanın məkanını təmsil edir.

E.S. Yakovleva məkanın dörd modelini ayırır: nisbi dinamik model, mütləq statik model, kvazi məkan, varlığın başqa formasının məkanı. Məkanın bütün növləri mətnin bütün növləri üçün eyni şəkildə həll olunmur. Belə ki, V.N. Toporov belə güman edir ki, əgər söhbət «güclü» tipli mətnlərdən – bədii mətnlər, dini-fəlsəfi, mistik mətnlərin bəzi növləri haqqında gedirsə bu qarşılıqlı nisbətin təyin olunması daha əhəmiyyətli və daha mürəkkəbdir [20, səh. 258].

Mətnin bədii məkanı real məkan üçün xarakterik olan bəzi xassələri, məhz uzunluğu, fasiləsizliyi, fasiləliyi, üçhəddliliyi, formanı, yerləşmə mövqeyini, məsafəni, müxtəlif sistemlər arasındakı sərhəddləri qoruyub saxlayır. N.A. Nikolinanın fikrincə mətndə modelləşən məkan açıq və ya qapalı, konkret və ya mücərrəd, real və ya təxmin olunan, eləcə də, geniş və ya məhdud ola bilər. Bədii məkan bədii zamanla ayrılmaz olaraq əlaqədardır, çünki zaman da məkan kimi mətnin denotativ məkanının mütləq atributudur. Zaman və məkanın qarşılıqlı əlaqəsinin dərk olunması "ədəbiyyatda bədii baxımdan mənimsənilən zaman və məkan münasibətlərinin əhəmiyyətli qarşılıqlı əlaqəsini" ifadə edən xronotop kateqoriyasını qeyd etməyə imkan verir [5, səh. 379].

Mətn linqvistikasında məkan kateqoriyası funksional qrammatika nəzəriyyəsinin çərçivələri daxilində öyrənilən lokativlik kateqoriyası aspektində nəzərdən keçirilir və "...məkanın təfəkkür kateqoriyasının dil interpretasiyasını təmsil edən semantik kateqoriya" kimi başa düşülür [19, səh. 138].

Mətnə qarşı münasibətdə məkan kateqoriyası "məkan münasibətlərini həm verbal, həm də qeyri-verbal vasitələrin köməyi ilə, ilk növbədə, ikonik (təsviri vasitələr) əks etdirən" kateqoriya kimi şərh olunur [1, səh. 77]. Müəllif belə hesab edir ki, lokativliyin ifadə olunması vasitələri məkan kateqoriyası ilə əlaqədardır.

Zaman anlayışına nəzəri və metodoloji yanaşmalar.

İnsan məkan problemi ilə müqayisədə zaman problemi ilə daha çox maraqlanmışdır. Əsas səbəb ondan ibarətdir ki, zamana hakim olmaq, onu geriyə qaytarmaq mümkün deyildir, o insanın əlindən axıb gedir, zaman insanı özünə tabe edir, daima zamana uyğunlaşmaq lazımdır, halbuki məkanı tabe etmək mümkündür, insan məkanda maneəsiz hərəkət etməyə, onu zəbt etməyə qadirdir.

Zaman kateqoriyasının tədqiqatı və onun dildə verballaşması qədim tarixə malikdir. Hələ «Metafizikada» Aristotel qədim yunan dilində on kateqoriya ayırd etmiş və bu kateqoriyalardan biri də zaman kateqoriyası olmuşdur [2, səh. 251].

Zamanın adekvat xarakteristikası və öyrənilməsinin çətinliyi onun spesefik xassələri ilə əlaqədardır: zaman görünmür, eşidilmir, hiss olunmur. Bir çox alimlərin fikrincə, zaman kateqoriyası məkan kateqoriyası vasitəsilə əldə edilir [7, səh. 126; 15, səh. 127; 20, səh. 93].

Zaman haqqında təsəvvürlər hər bir dildə əks olunan dünya mənzərəsinin əhəmiyyətli və vacib fraqmentidir. Dil zaman ərzində mövcud olan reallığı təsvir edir və «buna görə də, o (dil) reallığın temporal aspektlərinin işarə olunması üçün daxili – qrammatik və leksik vasitələrin zəngin arsenalına malikdir» [3, səh. 9]. Müxtəlif dillər zaman anlayışının ifadə olunması üçün müxtəlif formalar təqdim edir (felin zaman kateqoriyaları, zərflik və s.).

N.D.Arutyunova iki zaman modeli qeyd edir: İnsanın yolu (həyatı) və ya Ənənəvi zaman modeli və Zaman axını (təbii maddələrin – suyun və ya havanın hərəkəti) [3, səh. 53]. Yol modeli hərəkət metaforalarına (getmək, gəlmək, yaxınlaşmaq, hücum etmək və s.) əsaslanır. Bu model zaman axını modeli ilə qarşıdurma yaratmır, onlar bir istiqamətə yönəlir [3, səh. 53], bu da tarixi zamanın universal xronoloji modelinə gətirib çıxarır və burada hadisələrin ardıcıllığı kauzal interpretasiya halını alır [3, səh. 61].

İngilis dilində zamanın təbii mahiyyəti məşhur ifadələrdə, atalar sözlərində geniş əks olunur:

- zamanın keçmişdən gələcəyə doğru hərəkəti: *Time marches on – Zaman gedir, The sun has stood still, but time has never did* – Günəş dayanır, ancaq zaman isə heç bir zaman dayanmır, *Time and tide wait for no man* – Zaman heç kimi gözləmir;

- zamanın dönməzliyi: *Lost time is never found again* – Ötən illəri qaytarmaq olmaz, zaman geriyə dönməz, dünəni tuta bilməzsən;*What is lost is lost* – İtirilən itir, geri qayıtmır.

Zaman hərəkəti metaforalar vasitəsilə də verilir:

- zaman axan suya, su axınına bənzədilir:*A mill can not grind with the water that is past* – Axan su dəyirman təkərlərini fırlada bilmir, *Time and tide wait for no man* – Zaman və su heç kimi gözləmir;

- zaman sürətli heyvana (quş) və ya oxa bənzədilir: : *Time flies* – Zaman uçur;

- zaman insan kimi çıxış edir: *Time is the rider that breaks youth* – Zzaman cavanlığı məhv edən atlıdır, *Time works wonders* – Zaman möcüzələr yaradır, *Time is a great healer* – Zaman böyük həkimdir, *Time cures all things* – Zaman hər şeyi müalicə edir, *Time will tell* – Zaman deyəcək, *Time will show* – Zaman göstərəcək. Bu atalar sözlərində zaman insanı manipulyasiya edən müəyyən subyekt kimi çıxış edir.

- zaman dəyərli predmet kimi çıxış edir: *Time is money, Friends are thieves of time* – Zaman puldur, dostlar zaman oğrularıdır. Zaman dönməzliyinə görə dəyərlidir. Zamanı geri qaytarmaq və yaxud onu pulla almaq qeyri mümkündür.

C. Lakoff və M. Conson zamanın bu cür işlədilməsini (ingilis dilinin materialları əsasında) belə əsaslandırırlar: «Bizim mədəni mühitimizdə zamana xüsusi əhəmiyyət verilir. Onun resursları bizim üçün məhduddur. Çünki, müasir qərb mədəniyyətində əmək anlayışı adətən, onun yerinə yetirilməsinə (həyata keçirilməsinə) sərf olunan zamanla əlaqələndirilir, zaman isə dəqiq kəmiyyət ölçüsünə məruz qalır (tabedir).

Beləliklə, yuxarıda aparılan təhlildən belə bir nəticəyə gəlmək mümkündür: məkan və zaman konseptləri mədəniyyətin fundamental konseptləridir.İnsanın dünyanı qavraması haqqında təsəvvürləri, onun müəyyən mədəni tarixi cəmiyyətə mənsubiyyəti və eləcə də onu əhatə edən reallıq məhz zaman və məkan konseptləri əsasında formalaşır.

Ədəbiyyat

1. Анисимова Е.Е. Лингвистика текста и межкультурная коммуникация(на материале креолизованных текстов) – М.: Издательский центр «Академия», 2003. – 128 с.
2. Аристотель Сочинения: В 4 т. /Аристотель. – М.: Мысль, 1976. – Т. 1. Метафизика. – 550 с.
3. Арутюнова Н.Д. Логический анализ языка. Язык и время. М.: Индрик, – 1997. 351 с.
4. Базарова Б. Б. Частицы с пространственным значением в современном английском языке // английский лексикон: познание и культура: сб. науч. тр. м.: мгЛу, 1997. вып. 438. С. 25–32.s.
5. Бахтин, М.М. Вопросы литературы и эстетики [Текст] / М.М. Бахтин. – М.: Художественная литература, – 1975. – С. 234 – 407.
6. Большой Российский Энциклопедический словарь. – М.: Большая Российская Энциклопедия, 2008. – 1887 с.
7. Гак, В.Г. Пространство вне пространства // Логический анализ языка. Языки пространств. – М.: Языки русской культуры, 2000. – С. 127–134.
8. Гак, В.Г. Языковые преобразования. – М.: Языки русской культуры, 1999. – С. 678–685.
9. Гуревич, А.Я. Категории средневековой культуры. М.: Искусство, – 1984. – 350 с.
10. Казанцева О.В. Психолингвистические аспекты пространственных отношений в русской, немецкой, бурятской культурно-языковой среде: Дис. на соиск. уч. ст. канд. филол. наук. М., 2001. - 231 с.n
11. Корбут, А.Ю. Текстосимметрика: Монография. / А.Ю. Корбут; науч. ред. Г.Г. Москальчук. – Иркутск: Издво Иркут. гос. пед. унта, – 2004. – 200 с.
12. Лотман, Ю.М. Внутри мыслящих миров: Человек – Текст – Семиосфера – История. – М.: Языки русской культуры, – 1996. – 447 с.
13. Лягушкина Н. В. Семантические представления, релевантные для описания значения ряда пространственных предлогов и наречий: Дис. на соиск. уч. ст. канд. филол. наук. М., 2002. - 201 с.
14. Маслова, В.А.Введение в когнитивную лингвистику – М.: Флинта, – 2008. – 296 с.
15. Нильсен, Е.А. Репрезентация концепта «время» в сознании носителей английского языка // Текст – Дискурс – Стиль: Сб. науч. статей. – СПб., – 2004. – С. 125– 131.
16. Новая философская энциклопедия. – М.: Мысль, 2001. – 692 с.
17. Селиверстова О.Н. Понятия «множество» и «пространство» в семантике синтаксиса // Изв. АН СССР. Сер. лит. и яз. – М., 1983. – Т. 42.– № 2. – С. 142 – 150.
18. Селиверстова О. Н. Семантическая структура предлога на / О. Н. Селиверстова // Исследования по семантике предлогов : сборник статей. – Москва : Русские словари, 2000. – С. 189-242. – ISBN: 5-93259- 001-7.
19. Теория функциональной грамматики – М. : Наука, – 1996. – 236 с.
20. Топоров, В.Н. Пространство и текст / В. Н. Топоров // Текст : семантика и структура / – М. : Наука, 1983. – С. 227–285.
21. Хайдеггер, М. Время и бытие. – М., – 1993.

Açar sözlər:koqnitiv linqvistika, konsept, universal kateqoriyalar, zaman və məkan anlayışı, nəzəri yanaşmalar

Ключевые слова: когнитивная лингвистика, концепт, универсальные категории, концепт времени и пространства, теоретические подходы

Key words: cognitive linguistics, concept, universal categories, concept of time and space, theoretical approaches

Zaman və məkan anlayışına nəzəri və metodoloji yanaşmalar

Xülasə

Məqalədə universal kateqoriyalar olan zaman və məkan kateqoriyalarına nəzəri və metodoloji yanaşmalar təhlil edilir. Müxtəlif elmlərin (təbiətşünaslıq, fiizika, fəlsəfə və s.) tədqiqat obyekti olan bu kateqoriyalar son dövrlərdə koqnitiv linqvistikada da bir çox tədqiqatçıların diqqətini cəlb etmişdir.

Linqvistika sahəsindəki bəzi alimlərinaraşdırmalarına nəzər salsaq belə bir nəticəyə gəlmək olar ki, məkan və zaman konseptləri mədəniyyətin fundamental konseptləridir.İnsanın dünyanı qavraması haqqında təsəvvürləri, onun müəyyən mədəni tarixi cəmiyyətə mənsubiyyəti və eləcə də onu əhatə edən reallıq məhz zaman və məkan konseptləri əsasında formalaşır.

Ümumi dilçilikdə məkan anlayışı müxtəlif cür şərh olunur. Bir qism tədqiqatçılar bu kateqoriyanı məhdud qaydada nəzərdən keçirir (obyektin lokativ yeri),digərləri isə əksinə, məkanı daha geniş şəkildə nəzərdən keçirir və məkanın müxtəlif növlərini qeyd edirlər: fiziki, sosial, mental, temporal, mətnin məkanı və s.

Zaman anlayışı isə hər bir dildə əks olunan dünya mənzərəsinin əhəmiyyətli və vacib fraqmenti kimi qiymətləndirilir. Dildə reallığın temporal aspektlərinin işarə olunması müxtəlif formalarla −qrammatik və leksik vasitələrin (felin zaman kateqoriyaları, zərflik və s.) köməyi ilə ifadə olunur.Zamanın təbii mahiyyətiniingilis dilində, məşhur ifadələrdə və atalar sözlərində geniş müşahidə etmək mümkündür.

Теоретико-методологические подходы к понятию времени и пространства

РЕЗЮМЕ

В статье анализируются теоретико-методологические подходы к универсальным категориям времени и пространства. Эти категории, являющиеся объектом исследования в различных науках (естествознании, физике, философии и др.), в последнее время привлекают внимание многих исследователей когнитивной лингвистики.

Если обратиться к исследованиям некоторых ученых в области языкознания, то можно прийти к выводу, что понятия пространства и времени являются фундаментальными понятиями культуры. На основе представлений о

времени и пространстве формируются представления о восприятии человеком мира, его принадлежности к определенному культурно-историческому обществу, а также окружающей его действительности.

В общей лингвистике понятие пространства трактуется по-разному. Одни исследователи рассматривают эту категорию ограниченно (локальное расположение объекта), другие, наоборот, рассматривают пространство шире и отмечают разные виды пространства: физическое, социальное, ментальное, временное, текстовое пространство и т. д.

Понятие времени рассматривается как важный и значимый фрагмент картины мира, отраженный в каждом языке. Обозначение временных аспектов действительности в языке выражается по-разному - с помощью грамматических и лексических средств (временных категорий глагола, наречия и т. д.). Природную сущность времени в английском языке можно широко проследить в крылатых выражениях и пословицах.

Theoretical and methodological approaches to the concept of time and space

Summary

Theoretical and methodological approaches to the time and space conceptions that are considered to be universal categories are analyzed in the article. Thesecategories, that are the research object of various sciences (nature studies, physics, philosophy, etc.) have recently attracted the attention of many researchers in cognitive linguistics.

If we pay attention to the researches of some scientists in the field of linguistics, we maycome to the conclusion that the concepts of space and time are fundamental perceptions of culture.Concepts of a person's perception of the world, his belonging to a certain cultural-historical society, as well as the reality that surrounds him, are formed on the basis of time and space concepts.

In general linguistics, the concept of space is interpreted in different ways.Some researchers consider this category in a limited way (locative location of the object), while others, on the contrary, consider the space more broadly and denote different types of space: physical, social, mental, temporal, textual space, etc.

The concept of time is estimated as an important and significant fragment of the world view reflected in every language.Marking of temporal aspects of reality in the language is expressed in different ways - with the help of grammatical and lexical means (tense categories of the verb, adverb, etc.). The natural essence of time can be widely observed, in popular expressions and proverbsin the English language.

RƏYÇİ: dos. E. VƏLİYEVA

Lalə Rasim qızı Əfəndiyeva[4]

EPİSTOLYAR MƏTNLƏR VƏ MÜASİR MƏKTUB FORMALARI

Məktublar qədim dövrlərdən bu günə qədər aktuallığını itirməmiş mədəni irs nümunələrdir. Məktublara, bunula da epistolyar üslubun yaranmasına tələbat bilavasitə əlaqə olmadan, uzaq məsafələrdə kommunikasiya qurmaq ehtiyacında yaranmışdır. Epistolyar üslub daha çox monoloji nitq forması olsa da kommunikasiyada şəxsiyyətlərarası ünsiyyət xarakteri daşımasıyır. Buna görə də məktublar adresant tərəfindən adresatın cavaba münasibətinin nəzərə alınmasını tələb edir. Böyük inkişaf dövrü ərzində məktubların bir janr kimi xüsusi forması, kompozisiya və strukturıru formalaşmışdır. Bir qayda olaraq, inkişaf etmiş xalqların standart işgüzar, rəsmi və şəxsi məktub formaları mövcuddur. Epistolyar janrda rəngarəng məktub formaları, müxtəlif ifadə tərzləri müşahidə edildiyinə görə onun hüdudlarını da konkret göstərmək çətindir. Məktubların asan dillə, sərbəst ifadə tərzində yazılmış, şifahi nitqə yaxın formaları daha geniş yayılmışdır. Daha geniş yayılmış qeyri-rəsmi məktublar üçün səmimilik, fikrin açıq, müəyyən ardıcıllıq gözləmədən, mövzudan asılı olaraq bəzən zarafatyana tərzdə ifadə edilməsi xarakterikdir.

Bədii ədəbiyyatda epistolyar janrın dz qədim və zəngin nümunələri yaranmışdır. Azərbaycan ədəbiyyatında məktub şəklində yazılmış əsərlər sırasında Məhəmməd Füzulinin "Şikayətnamə" ("Nişançı paşaya məktub") Şah İsmayıl Xətainin «Dəhnamə», M.F.Axundzadənin «Kəmalüddövlə məktubları»nı, Sultan Məcid Qənizadənin "Məktubati-Şeyda bəy Şirvani", Əbdürrəhim bəy Haqverdiyevin "Xortdanın cəhənnəm məktubları"nı nümunə göstərmək olar. Avropa ədəbiyyatında da geniş yayılmış bu janr məktub formasında yazılmış bədii əsərlərdir və bilavasitə müəlliflərinin yaradıcılıq imkanları, bədii zövqü, dünyagörüşü, əqidəsi, dövrün ictimai-siyasi hadisələrinə münasibətini əks etdirməsinə baxmayaraq, müəlliflərinin onları əhatə edən insanlarla, yaxınları, dostları, ailə üzvləri və övladları ilə yazışmalarının eyni ola bilməz. Qeyri-rəsmi məktublar müəllifə öz fikirlərini tam sərbəst ifadə etməyə imkan verir və o, bədiilik və ümumiləşdirmələr axtarmadan daha maraqlı ifadələr, deyim tərzi nümayiş etdirir. Texnologiyanın inkişafı ilə əlaqədar olaraq telefonla danışıq və nəhayət, internet resursları vasitəsilə kommunikasiya qurmaq imkanlarının genişlənməsi nəticəsində bu gün epistolyar mətnlərin aktuallığının azalmasına baxmayaraq, bunlar dövrün dil imkanlarını araşdırmaq istiqamətində maraq doğurur.

Müasir anlamda məktub distant ünsiyyət formasıdır və monoloq formasında olmasına baxmayaraq, dialoqla sıx əlaqəsi mövcuddur. "Epistolyar üslubda dialoq və monoloqun xüsusi kompozisiyası – nitq növləri fəaliyyət göstərir. Epistolyar üslub yazışma prosesində monoloqla dialoqun xüsusi qaynağından, onların qarşılıqlı əlaqəsindən ibarətdir. Məktublaşmada danışığın dialoq forması, bir növ, öz yerini monoloqa verir, aparıcı rolunu itirir: fikir birinci şəxs tərəfindən ikinci şəxsə müraciət şəklində söylənilir" (2, s. 392). Aydındır ki, dialoqda daha çox şifahi nitqin xüsusiyyətləri, konkretlik, sadə və yarımçıq cümlələr, replikalardan geniş istifadə, fikrin yarıda qırılması kimi xüsusiyyətlər özünü göstərir. Monoloq üçün isə yazılı dilə yaxın kitab leksikası, fikrin geniş ifadə tərzi, bitkinlik və məntiqi ardıcıllıq, tabeli mürəkkəb cümlələrdən geniş istifadə xarakterikdir. Bir qayda olaraq, məktub mətnlərində dialoqa xas olan cəhətlər daha çox təzahür edir. Məsələn, Əziz Şərifin 1938-ci ildə M.S.Ordubadiyə yazdığı məktubdan bir nümunədə bunu müşahidə etmək olar: «*Mən yazmışdım ki, göndərdiyin materiallarda dörd səhifə əskikdir. Sən cavab verirsən ki, «səhifələrin rəqəmləri yanlışdır, məsələlər bir-biri ilə əlaqədardır, çünki onları özüm nəzərdən keçirmişəm, oxumuş olursan, görəcəksən ki, mən yazdığım kimidir"… Hər halda, ixtiyar sahibi sənsən. Necə desən elə də elərəm. Mənə əmr eləsən ki, sənə dəxli yoxdu, sən mütərcim babasan, əlinə nə verirlər, dinməz-söyləməz tərcümə elə qurtar, artıq danışıq lazım deyil. Belə yazsan mən var qüvvəmlə əsərini tərcümə edərəm*» (3, s. 32).

Xüsusən də şəxsi məktubların dili şifahi məişət üslubuna yaxın olsa da, yazılı mətn olmaq baxımından düşünülmüş və əvvəlcədən hazırlanmış şəkildə tərtib edilir, yəni yazılı nitq normaları gözlənilir. Belə qeyri-rəsmi məktubların tematikası məişət şəraiti ilə bağlı olur. Şifahi nitqdə, istərsə də şəxsi məktublarda sərbəstlik, emosional dəyərləndirici informativlik özünü göstərir. Məmməd Əmin Rəsulzadə ilə Ceyhun Hacıbəylinin yazışmalarında bunu aydın müşahidə etmək olur: "*Əzizim, qardaşım! Yəqin ki, mənim biməfa çıxdığımı, etinasızlıq göstərdiyimi düşünür və əsəbiləşirsiniz. Ancaq elə deyil. Istədiyiniz kitabları almış, bağlamış, göndərmişdim. Fəqət, nədənsə, posta geri gətirdi. Nə yaxşı ki, sifarişlə göndərmişdim. Fəqət yanğında odda yandı. Indi öz əsərimim bir nüsxəsini göndərdim. Heyəti-müraxxəsə ünvanına getmişdir. Türk məsəllərinə aid kitabları da təkrar alıb göndərirəm. 27 aprel gününü buradakı mətbuatda qeyd etdik.*

Zöhrə xanıma salam, uşaqların gözlərindən öpürəm. Bu günlər rahat otaq tapmaq ümidindəyəm. Kağız yazaram. Məmməd Əmin" (4, s. 25).

Mətndən göründüyü kimi, müəllif bir-biri ilə əlaqəsi olmayan bir neçə məlumatı adresata lakonik şəkildə çatdırır və burada hımçinin onun həmin hadisə və adlarını çəkdiri şəxslərə münasibəti də ifadə tərzindən sezilir.

İnformasiya texnologiyalarının həyatın bütün sahələrini əhatə etdiri çağdaş dönəmdə ünsiyyəti müxtəlif virtual kommunikasiya vasitələrindən kənarda təsəvvür etmək mümkün deyil. Elektron formatlar kağız üzərində yazılmış mətnləri bütün sahələrdə sıxışdırıb aradan çıxarır: bir çox oxucular, xüsusən də gənc nəsil, elektron kitablardan istifadə edir, seminar və treninqlər əvəzinə vebinarlar təşkil edilir, distant təhsil tətbiq olunur, müxtəlif mövzu və istiqamətli məktublar elektron formatda yazılır və göndərilir. Müasir cəmiyyətin əsas ünsiyyəti bu «mail» və «sms»lər üzərində qurulur. Belə şəraitdə göndərilən məlumat daşıyıcısı ilə yanaşı, eyni zamanda, cəmiyyətin bütün kommunikasiya strukturu da dəyişmiş olur. İnternet şəbəkəsi üzərindən aparılan elektron yazışma kağız üzərində yazılmış məktubun ünvana çatdırılması üçün lazım

[4] Bakı Dövlət Universiteti, Azərbaycan dili və nitq mədəniyyəti kafedrası, filologiya üzrə fəlsəfə doktoru, dosent

olan zaman və məkan hüdudlarını aradan qaldırmaqla yanaşı, göndərilən məlumatların məzmununu, onların müəllif və adresat tərəfindən qavranması, həmçinin bütövlükdə kommunikasiya prosesinin mahiyyətini də dəyişdirir. Beləliklə, kommunikasiyada ciddi dəyişikliklər baş verir və bunlar da öz növbəsində, ictimai həyatın bütün sahələrinə təsir göstərir. Media vasitəsilə yaradılan kommunikasiyadakı dəyişikliklər texnoloji vasitələrin və ictimai fikir formalaşdırılması üsullarının dəyişməsinə də səbəb olur. Kommunikasiyanın inkişaf dinamikası elmin inkişaf istiqamətlərini dəyişdirir, şəxsiyyətlərarası yeni ünsiyyət üsulları şəxsiyyətin formalaşması, milli özünüdərk proseslərinə təsir edir. Bu cəhətdən şəxsiyyətlərarası ünsiyyət prosesindəki dəyişikliklərdə müasir virtual formatlı yazışmaların da mühüm təsirini nəzərdən keçirmək məqsədəuyğundur. Kağız üzərində yazılan və elektron məktubların məzmunundakı fərqlər, məktubun elektron formata keçməklə mahiyyətinin dəyişməsi, kağız üzərində yazılan məktublardakı polemikanın elektron formatda zəifləməsi (və ya itməsi) müasir elektron formatlı epistolyar mətnlərin mahiyyətini müəyyən edir.

Müasir dövrdəki epistolyar mətnlərin dil xüsusiyyətlərində baş verən fərqlər, xüsusi ixtisarlar, internet slenqləri, qrammatik normalardan kənara çıxmalar virtual yazışma vasitələrinin mahiyyəti ilə bağlıdır. Ənənəvi epistolyar mətnlərdə, adətən, adresant öz hislərini, düşüncələrini, arzu və gözləntilərini, öyüd-nəsihətlərini bütün təfərrüatları ilə ifadə edir və ona yazılan cavab məktublarında bunların qısa məzmunu öz əksini tapır. Belə ənənəvi məktublardan fərqli olaraq, elektron məktublarda istinad olaraq həmin hissələrin tam təkrarlanması imkanlarına görə bunlar «sual-cavab» əlaqə forması alır, nəticədə epistolyar mətn üçün səciyyəvi olan mənəvi-psixoloji əlaqə, fikir mübadiləsi itirilir. Elektron məktub sadəcə informasiya daşıyıcısına çevrilir. İşgüzar məktublarda yazışmanın xarakterinə uyğun olaraq fikrin dəqiq, konkret ifadə olunması tələb edildiyinə görə belə informativlik faydalıdırsa, şəxsi yazışmalarda müsahiblər arasındakı mühakimə yürütmə, hiss və həyəcanların təsviri, təbəddülatların ifadəsi səviyyəsində əlaqə itirilir» (5, s. 61). Bununla yanaşı, qeyd etmək lazımdır ki, elektron məktub istifadəçilərinin hamısı klassik ənənələrdən imtina etmir, yəni müəyyən müraciət etiketləri, əsas hissə və sonda xoş arzular, adresata hörmət ifadəsi və ayrılma etiketi saxlanılır.

Virtual məkanda ənənəvi şəxsi yazışma bu prosesi texniki imkanlarla təchiz edən müxtəlif servislərlə (e-mail, sosial şəbəkələr, görüntülü zənglər, Skype və s.) əvəz edilir, bunlar da öz növbəsində, texnoloji funksiyalarından asılı olaraq, müəyyən şərtlər irəli sürməklə məktub ənənəsində yeni meyillər yaradır. Elektron hüdudlar çərsivəsində ənənəvi məktubların bəzi səciyyəvi cəhətləri, xüsusən də təfərrüatlı mətn funksiyası itirilir. Adları çəkilən virtual vasitələr üzərindən şəxsi yazışmalar olsa da, bunlarda bir sıra əsaslı fərqlər müşahidə edilir: qeyd edildiyi kimi, «müraciət etiketlərinin əksəriyyətindən istifadə edilmir, bunlar yalnız ixtisar edilmiş şəkildə rəsmi və işgüzar məktublarda saxlanılır. Bununla da ənənəvi məktubların giriş hissəsindən adresatla adresant arasındakı münasibətləri nümayiş etdirən ifadələr itir. Müasir yazışmalarda bunlar adi hal almışdır, ancaq məktubun sonunda standart «Hörmətlə….» ifadəsi ənənəvi forma kimi qəbul edilir» . Nəzərə almaq lazımdır (1, s.49) ki, bu ifadə də artıq kompyuter vasitəsilə avtomatik rejimdə verilir, yəni məktub müəllifinin imzasına ehtiyac da qalmır. Sosial şəbəkələr üzərindən aparılan yazışmalarda əlaqə yaratma vasitəsi kimi standart salamlama ifadələri saxlansa da, sonda, demək olar ki, ayrılma etiketləri işlədilmir. Eyni zamanda, müasir məktublarda lirik haşiyələr, əlavə fikirlər, müəyyən təfərrüatlar da müşahidə edilmir, yalnız yazışmaya tələbat yaratmış əsaslandırmalar, əsas mahiyyət saxlanılır, yəni müəyyən söhbət fonu yaradan giriş, hal-əhval tutma, əvvəlki məktubla bağlı fikirlərin təkrarlanması vasitəsilə ənənəvi məktublarda mövcud olan dialoq təsiri, yuxarıda göstərildiyi kimi, ayrı-ayrı hissələrin surətinin avtomatik yerləşdirilməsi və cavablandırılması «sual-cavab» xarakteri alır.

Xarakterindən asılı olaraq elektron yazışmaların, ənənəvi məktublardan fərqli digər bir xüsusiyyəti də mövcuddur: kağız üzərində yazılan məktublar, bir qayda olaraq, adresatın əlində olur və orada yerləşdirilmiş məlumatlar da ona məxsus olur, halbuki elektron poçt və ya virtual şəbəkə vaitəsilə ötürülən məlumatların surəti onu göndərənin özündə avtomatik olaraq qalır. Buna görə də kağız üzərində yazılan məktublar öz ünvanına çatana kimi adresant orada yazdıqlarının müəyyən bir hissəsini, bəlkə də bütövlükdə mətni unuda bilər. Müvafiq olaraq, elektron yazışmalar məktub mətnlərindəki məlumatların səhihliyini saxlamaq və yeri gəldikdə istifadə üçün daha geniş imkanlar yaradır, eyni zamanda, belə məktubların tamamilə itirilməsi də istisna edilir.

Elektron məktubların daha bir xüsusiyyəti də müasir şəraitdə yazışmaların mahiyyətinə mühüm təsir göstərən amil kimi nəzərə alınmalıdır: e-mail məlumatlar adresata dərhal çatır ki, bu da təsvir edilən hadisə və ya ötürülən məlumatın aktuallığını saxlamış olur, halbuki əvvəllər məktub ünvanına çatdıqda və oxunduqda adresat tərəfindən zaman fərqi nəzərə alınmalı olurdu. Bu da öz növbəsində həmin məlumatların proses kimi deyil, fakt kimi qəbul olunmasını şərtləndirirdi.

Müasir dövrdə məktubları birbaşa bir neçə nəfərə göndərmək imkanı olduğuna görə bunlar kütləvi xarakter ala bilər və bu yazışma iştirakçılarının hər biri məktubu bir daha paylaşmaqla prosesə yeni iştirakçılar cəlb edə bilər.

Beləliklə də, eyni bir mətn müxtəlif mövqelərdən izlənə və izah edilə bilər, ancaq ənənəvi məktublardan fərqli olaraq, bunlar yalnız bir adresata məxsus olmur.

Deyilənləri nəzərə alaraq, kağız üzərində ənənəvi və elektron formatda aparılan yazışmalar arasında müqayisələr aparılması informasiya texnologiyalarının inkişaf etdiyi bir dövrdə ənənəvi məktubların öz aktuallığını saxlaması (və ya itirməsi) məsələsi maraq doğurur. Bu cəhətdən elektron yazışma sürətinə, etibarlılıq, qorunma imkanlarına görə ənənəvi yazışmanı üstələyir, məktuba əlavə materiallar daxil etməyə imkan verir, daha asan oxunur. Bununla yanaşı, kağız üzərində aparılan yazışma elektron məktublardan fərqli olaraq, məhz adresat və ya adresantın şəxsiyyətinə diqqət yönəldir və deməli, ənənəvi epistolyar janrlarda müzakirə olunan mövzulardan daha çox, məktublaşanların şəxsiyyəti maraq doğurur. Ənənəvi məktublar məktub müəllifi ilə sıx əlaqə münasibəti yaradır, onun xətti, yol verdiyi nöqsanlar, yazı üslubu müsahibi təsəvvür etmək üçün əlavə qeyri-verbal informasiya verir. Elektron məktublarda isə bu xüsusiyyətlər mövcud deyil və buna görə də

kommunikantlar ümumi şəxs forması alır. Bütün bunlara baxmayaraq, bu gün kağız üzərində məktub yazmaq ənənəsi tamamilə aradan çıxmaqdadır, ona, ümumiyyətlə, tələbat da qalmır. Ənənəvi məktublar, yuxarıda qeyd edildiyi kimi, xeyli zəhmət, zaman və material tələb etdiyinə görə buna yalnız müstəsna hallarda, tam zərurət olduqda müraciət edilir (İnternet olmazsa, sənədin orijinal variantına ehtiyac yaranarsa, ənənəvi olaraq təbrik və ya dəvətnamə formasında və s.).

Beləliklə, ənənəvi məktub formatlarının elektron məlumat-məktublarla əvəz edilməsi bunların linqvistik xüsusiyyətlərini, strukturu və praqmatik özəlliyini də dəyişdirir. Ənənəvi epistolyar janrın zəngin dil xüsusiyyətləri elektron məktublardakı konkretlik, şablon ifadə formaları, təfərrüatlı təsvir, izahat və əsaslandırmalar yeni vasitələrlə (internet resurslarına istinad, şəkillər əlavə edilməsi) əvəz edilir ki, bunlar kağız üzərində yazılan məktublarda olmurdu. Ancaq narahatlıq doğuran fakt kimi qeyd etməliyik ki, elektron məktublarda istinad və əlavələr üçün daha geniş imkanlar açılırsa, bunun əksinə olaraq, dilin zənginliyinin təzahürü baxımından burada kağız üzərində yazılan məktublardakı özəlliyi, zəngin ifadə imkanlarını müşahidə etmək mümkün deyil, hətta qrammatik normalar çərçivəsində yolverilməz qısaltmalar və üsluba diqqətsizlik də adi hala çevrilir. Burada əsas fərq və itirilən məqam isə məktubların məzmunlarının dəyişməsi ilə epistolyar janrın mahiyyətinin dəyişməsidir. Ənənəvi məktublar müəyyən fikir və ideyaların müzakirəsi, dünyagörüşünün izharı, emosional vəziyyətlərin, duyğuların ifadəsi, gündəlik şəxsi problemlərin çözülməsi ilə bağlı olduğu halda, müasir dövrdə bu, konkret praktik məsələlərin həllinə xidmət edir. Məktublaşma artıq şəxsiyyətlərarası ünsiyyət vasitəsi deyil, kommunikasiya alətinə çevrilir, əvvəlki məna və emosional yükdaşıma xüsusiyyətini itirir və yerini elektron formatlı yazışmalara verir.

ƏDƏBİYYAT

1. Hacıyev T. Azərbaycan ədəbi dilinin tarixi. II hissə. Bakı: Elm, 2012
2. Həsənov H. Nitq mədəniyyəti və üslubiyyatın əsasları. Bakı, 2003
3. Məmməd Səid Ordubadi arxivindəki məktublar. Bakı: Nurlan, 2002
4. Rəsulzadə M.Ə. Məktublar. Səfibəyçilik. Bakı: TEAS Press, 2018, 251 s.
5. Лутовинова О.В. Интернет как новая «устно-письменная» система коммуникации / О.В.Лутовинова / Известия Российского государственного педагогического университета им. А.И.Герцена. 2008. – Вып. 71. – стр. 58-65.
6. Протопопова О.В. Эпистолярный стиль. //Стилистический энциклопедический словарь русского языка. Под.ред. М.Н.Кожиной. Москва: Наука, 2011.

Açar sözlər: epistolyar mətnlər, məktublar, elektron yazışma, kommunikasiya, adresant, adresat

Key words: epistolary texts, letters, electronic correspondence, communication, addressee, sender

Ключевые слова: эпистолярные тексты, письма, электронная переписка, коммуникация, адресат, адресант

XÜLASƏ

Müasir dövrdə internet üzərindən aparılan rəsmi-işgüzar və şəxsi elektron yazışmalar əsrlər boyu kağız üzərində yazılmış epistolyar mətnləri sıxışdıraraq yeni kommunikasiya vasitəsi yaratmışdır. Epistolyar mətnləri təşkil edən məktublardan müəllifləri haqqında, onların şəxsiyyəti və həyatlarının müəyyən zaman kəsiyi haqqında məlumat əldə etməklə yanaşı, eyni zamanda, həmin dövrün dil-üslub xüsusiyyətləri haqqında da maraqlı informasiya almaq olur. Bunun əksinə olaraq, elektron məktublar müəyyən standart formalarda tərtib edilir, bunula da kağız üzərində yazılan məktublardakı canlılığı, emosionallığı, müəlliflərinin dünyagörüşü, sosial-ictimai mövqeyi və adresantla adresat arasındakı münasibətlərdən asılı olaraq təzahür edən zəngin nitq çalarlarını itirir. Məqalədə müasirdəki elektron resurslarda aparılan yazışmalarla ənənəvi epistolyar mətnlər arasındakı ciddi fərqlər, bunların yaranma səbəbləri və hər bir formanın üstün və zəif cəhətləri ümumiləşdirilir.

Epistolary texts and modern letter forms

Summary

In the modern period, new forms of official business and personal correspondence, carried out through Internet resources, have created new means of communication. From the texts of traditional letters, one can exhaust not only extensive information about the author, his character, and a certain period of his life, but also rich material about the linguistic and stylistic features of the time when they were written.

Unlike epistolary texts, e-mails are composed in a certain standard form, and as a result differing from paper-written letters, e-mails lose the liveliness, emotionality of the language, information about the worldview, social position (socio-public status) of an author, and various speech shades of texts related to the epistolary style.

The article identifies significant differences and reasons for their manifestations between modern electronic correspondence and traditional letters and summarizes the advantages and disadvantages of each of these forms.

Эпистолярные тексты и современные формы писем

Резюме

В современный период новые формы официально-деловой и личной переписки, осуществляющиеся через интернет-ресурсы, создали новые средства коммуникации. Из текстов традиционных писем можно почерпнуть не только обширные сведения об авторе, его характере и определённом отрезке его жизни, но и богатый материал о языковых и стилистических особенностях того времени, когда они были написаны.

В отличие от эпистолярных текстов, электронные письма составляются в определённой стандартной форме, вследствие чего они утрачивают присущие написанным на бумаге письмам живость, эмоциональность языка, информацию о мировоззрении, социально-общественной позиции автора и различные речевые оттенки текстов, относящихся к эпистолярному стилю.

В статье выявляются значительные различия и причины их проявлений между современной электронной перепиской и традиционными письмами, а также обобщаются преимущества и недостатки каждой из этих форм.

RƏYÇİ: dos. E.VƏLİYEVA

Fizuli Nəcməddin oğlu Mustafayev[5]

KİNO DİLİNDƏ AKTYOR DANIŞIĞININ TƏLƏFFÜZ XÜSUSİYYƏTLƏRİ

Giriş. Tədqiqatlardan məlum olur ki, kino dilində əsl gözəlliyi onun səslənməsində axtarmaq lazımdır. Bu səsli nitq isə yalnız o zaman gözəlliyini və qüvvətli təsirini göstərə bilir ki, ondan istifadə edərkən orfoepik normalara riayət edilmiş olsun. Ona görə ki, "orfoepik normalar ədəbi dilin təbii səslənməsində, dinləyicinin diqqətini söylənilən fikrin mənasını asan qavramağa cəlb etməkdə mühüm rol oynayır" [1, 91]. Bu baxımdan kino dili şifahi nitqimizin ən nümunəvi qolu sayıla bilər. Çünki buradakı danışığın əsasını indiki dövrdə cəmiyyətin tələffüzdə işlətdiyi neytral üslub təşkil edir. Müəyyən variant elementlərinin nəzərə çarpmasına baxmayaraq bu üslub özünün kifayət qədər dəqiq normalarını müəyyən etmişdir.

Kino dilində danışığın xarici forması kimi çıxış edən və intonasiya ilə birlikdə kinoaktyor oyununa təkan verən tələffüzün həqiqətən adi, ümumi qəbul edilmiş tərzdə olması xüsusilə vacibdir. Yalnız belə olduqda tamaşaçı məzmun və mənanı xarici danışığa xas olmayan tələffüz xüsusiyyətlərindən yan keçərək qavrayır. Buradakı hər hansı tələffüz səhvi auditoriyanın diqqətini yayındırar və danışıq tamaşaçı üçün öz semantik əhəmiyyətini itirə bilər.

Vaxtilə Kazım Ziya fikrin düzgün ifadəsində tələffüzün rolunu yüksək qiymətləndirərək yazmışdı: "Ahəngdən asılı olaraq eyni söz müsbət, ya mənfi, bir neçə mənanı ifadə edə bilər. Buna görə də aktyor mətni çox diqqətlə oxumalıdır. Biz mətni oxuyarkən fikri oxuyuruq. Beləliklə, fikri anlamaq üçün öncə mətni anlamaq lazım gəlir. Mətni lazımınca anlamaq və dərk etmək üçün mütləq dili, dilin qanunlarını yaxşı bilmək lazımdır" [2, 5]. Böyük sənətkarın səhnə dilində şamil etdiyi bu müddəa kino dili, onun tələffüz üslubunun normativliyi üçün də eyni dərəcədə əhəmiyyətlidir.

Səsli nitqin zərifliyi və evfonikliyi-evfemizm özünü onda göstərir ki, tələffüz zamanı çətinlik törədə bilən və xoş assosiasiya doğurmayan səslərin və hecaların qovuşmasına yol verilmir. Xüsusilə, **p, t, f, k, g** və başqa kar samitlər eyni vurğu və heca ilə tələffüz edilmir. Çünki onların bir yerə toplanması kinoaktyorun nitqini ölgünləşdirir və sözün ekspressivliyinin itməsinə səbəb olur. Rejissor və ilk növbədə isə aktyorlar belə xoşagəlməz səslənmə hadisəsinə yol verməməli, ağır tələffüz olunan sözlərdən. bəzi qrammatik formalardan xüsusilə, özündən əvvəl gələn səslərlə birləşərək müəyyən çətinliklər doğuran *"-mış, -miş, -muş, -müş"* – şəkilçilərindən, səs məxrəci yaxın olan sözlərin yanaşı işlədilməsindən bir çox hallarda imtina etməlidirlər.

Nəzərə almaq lazımdır ki, müasir kinonun səviyyəsi, hər şeydən əvvəl, düşünən və düşündürən, duyan və duyduran aktyorun professional səviyyəsi ilə ölçülür. Təsadüfi deyildir ki, görkəmli rejissor Mehdi Məmmədov aktyorun intellektual və emosional ləyaqətini "hər şeydən əvvəl, söz deməkdə, sözü fiziki və psixoloji iş materialı, idrak və təfəkkürün tərcümanı kimi işlətməkdə [3, 71] görürdü. Onun fikrincə, "səhnədən səslənən sözün bədii olması üçün o, mütləq texniki cəhətdən zədəsiz, qüsursuz səslənməli, aydın, səlis, dürüst tələffüz olunmalı, düzgün məntiqlə səslənməlidir" [3, 70]. Eyni zamanda bu söz düzgün olmaqla kifayətlənməməli, həm də aydın artikulyasiya edilməlidir. Radio "Ölgün, qeyri-səlis artikulyasiyanı, "dişarası" tələffüzü, ayrı-ayrı səslərin "buraxılmasını", yanaşı yerləşən saitlərin uzadılmasını, sözlərin ayrı-ayrı hissələrinin, xüsusilə vurğusuz sonluqların "əzilməsi"ni sevmir" [4, 8]. Burada danışığın hər bir dinləyiciyə aydın olmasını ancaq aydın diksiya təmin edə bilər. Bu sözləri eynilə kinoya da aid etmək olar. Ona görə də kino dilində "*övlad*" əvəzinə "*ö:lad*", "*nə təhərsən*" əvəzinə "*nətərsən*", "*gəlirəm*" əvəzinə "*gə:rəm*", "*xahiş*" əvəzinə "*xaiş*", "*sənə*" əvəzinə "*sə:ə*" və s. işlənməsi yolverilməzdir.

Bu cür kənaraçıxmalar kino dilində ancaq müvafiq personajları xarakterizə edərkən nitqə bəzək-düzək vurmaq məqsədilə işlədilə bilər. Bütövlükdə isə kino hər bir səsin aydın şəkildə artikulyasiya olunmasını tələb edir. Məsələn,

"Məsmə arvad: – Yuxu görürsən adam kimi yuxu gör. Daha xalqın *qızını* qaçırtma. Vallah Fərəcov *başva* bir oyun açar ki...

Əlabbas: – *Əşşi*, qaçırtmışam, lap əcəb *elləmişəm*. Fərəcov da *qəllət* eyləyir, onun o kenquruya oxşayan arvadı da! Onların minnəti olsun ki, *kürəkənnəri* olsun!..."

"Yuxu" bədii filmi. "Azərbaycanfilm" kinostudiyası. 2001.

Kinoaktyorlar cümlələri və sözləri elə aydın, səlis və rəvan ifadə edirlər ki, tamaşaçı sanki bir anlığa obrazın daxili dünyasına səyahət edir. Sözlərin artikulyasiyasının belə dəqiqliyi nitqə gözəllik gətirir və fikrin də asan qavranılmasına kömək edir. Məsələn,

"Cəfər: – Salam Eldar, gəl içəri. Əyləş kresloda. Nə sualın vardı ki? Atana, anana nəsə olub?

Eldar: – Yox, ciddi bir şey yoxdur. Mən sizdən Umbakı barədə soruşmaq istəyirdim.

Cəfər: Nəyinə lazımdır ki. Ora cüzamlıların qəsəbəsidir. Bədbəxt adamlar.

Eldar: – Onları sağaltmaq olar?

Cəfər: – Bəzən xəstəliyin inkişafının qarşısını almaq mümkün olur. Lakin tam müalicə demək olar ki, mümkün deyil. Xəstəliyin entimalogiyası məlum deyil. Hesab olunur ki, nəsilliklə ötürülə bilər. Hansısa genlə. Əvvəllər xüsusi araşdırmalar aparırdılar. Lakin ölkə dağılandan sonra bu işə maddi vəsait ayrılmadı. Tək-tük cüzamlı da olanda sadəcə Umbakıya aparıb orada yerləşdirirlər.

Eldar: – Heç bir ümid də yoxdur?

[5] AMEA Nəsimi adına Dilçilik İnstitutu, Tətbiqi dilçilik şöbəsinin aparıcı elmi işçisi, filologiya üzrə fəlsəfə doktoru, dosent mustafayev.fizuli8@gmail.com

Cəfər: – Deyirlər Moskvada onları müalicə edə bilirlər. Xüsusi tibbi avadanlıq lazımdır. Bizdə eləsi yoxdur. Bu çox mənhus xəstəlikdir. Üç-dörd nəsil keçəndən sonra da özünü büruzə verə bilər.

Eldar: – Bu xəstəlik keçicidir?

Cəfər: – Praktik olaraq yox. Axı, bu SPİD deyil".

"Məhkumların cənnəti" bədii filmi. "Azərbaycanfilm" kinostudiyası. 2012.

Bu epizodda kinoaktyorlar öz aydın diksiyası ilə sözləri elə canlandırırlar ki, tələffüz zamanı, sanki sözlərin ifadəliliyi də qat-qat artır.

Kino dilində tələffüz olunan hər bir ifadə müəyyən ritmik-melodik səciyyə daşıyır və bu əsasən danışığın estetik cəhətini təşkil edir. "Burada ritm, cümlələrin səslənmə yüksəklikləri hesabına yaranır. Bəzən də elə hallar olur ki... cümlələrin ya əvvəlki, ya da sonrakı sait səsləri özündən əvvəlki cümlələrdəki saitlərdə eyni dərəcədə uzanır, yəni sait səslərin uzun tələffüz edilməsi ilə cümlələrin səslənmə uzunluğu nizamlanır... Belə nitq zamanı səslənmənin ucadan, astadan, uzadılaraq davam etməsi nitqin dinamikasının dəyişməsinə şərait yaradır. Yəni səslənmə həmişə eyni yüksəklikdə, sabit tonda davam etmir" [5, 85]. Bu xüsusiyyət bütün kinofilmlərdə özünü göstərir.

Əlbəttə, bu xüsusiyyətlərin mövcudluğu heç də o demək deyildir ki, kino dilində tələffüz hər cür nöqsanlardan azaddır. Təəssüf ki, burada da ümumiyyətlə şifahi nitqə xas olan iki tip tələffüz nöqsanları özünü göstərir:

1. Sözlərin yazıldığı kimi deyilməsi.
2. Məntiqi vurğunun düzgün müəyyən edilməsi.

Bunlar, əsasən diqqətsizlikdən və tələsiklikdən irəli gələn nöqsanlardır.

Şübhəsiz kinoaktyorların məşqi zamanı diqqətli rejissor, yaxud ssenari müəllifi nöqsanları təshih edər və beləliklə də ən normativ tələffüzün bu çatışmazlıqlarını aradan qaldıra bilər.

Nəticə. Nəzərə almaq lazımdır ki, kino şifahi nitqin ən geniş tribunası, həmçinin Azərbaycan dilinin zəngin ifadə imkanlarını, onun estetik-emosional gözəlliyini əks etdirən ən populyar vasitədir. Ona görə də burada təkcə dil və üslub yox, həm də ənənəvi olaraq müəyyənləşmiş tələffüz xüsusiyyətləri də qorunub saxlanmalı, getdikcə cilalanmalıdır. Bu, hər bir kinoaktyorun və rejissorun mənəvi borcu olmalıdır.

Ədəbiyyat

1. Əfəndizadə Ə.R. Orfoqrafiya və orfoepiya məsələləri. Dil mədəniyyəti. Bakı, 1985. səh. 91
2. Kazım Ziya. Səhnə dili. Bakı. 1948, səh. 5
3. Məmmədov Mehdi. Dil dramaturqdan, danışıq aktyordan. Bakı, 1985, səh. 70, 71
4. Avanesov R.İ. Voprosı russkoqo sçeniçeckoqo proiznoşeniya. Kultura reçi na sçene i na ekrane. Moskva. 1986, səh. 8
5. Məmmədov Ə. Səhnə dilində nitq çalarları və intonasiya. AMEA-nın xəbərləri. Ədəbiyyat, dil və incəsənət seriyası. 1987. 2-ci sayı, səh. 85.

Filmlər

1. "Yuxu" bədii film. Bakı, 2001
2. "Məhkumların cənnəti" bədii film. Bakı, 2012

Açar sözlər: tədqiqat, orfoepiya, tələffüz, aktyor danışığı, nitq, ədəbi dil

Ключевые слова: исследование, орфоэпия, произношение, актерская речь, речь, литературный язык

Key words: research, research, orthoepy, pronunciation, acting, speech, literary language

Kino dilində aktyor tələffüz danışığının xüsusiyyətləri

Xülasə

Məqalə kino dilində aktyor danışığının xüsusiyyətlərinə həsr olunub. Tədqiqatdan məlum olur ki, dildəki əsl gözəlliyi onun səslənməsində axtarmaq lazımdır. Bu səsli nitq isə yalnız o zaman gözəlliyini və qüvvətli təsirini göstərə bilir ki, ondan istifadə edərkən orfoepik normaya riayət edilmiş olsun.

Məqalədə qeyd edilir ki, kino dilində danışığın xarici forması kimi çıxış edən və intonasiya ilə kinoaktyor oyununa təkan verən tələffüzün həqiqətən adi, ümumi qəbul edilmiş tərzdə olması xüsusilə vacibdir. Yalnız belə olduqda tamaşaçı məzmun və mənanı xarici danışığa xas olmayan tələffüz xüsusiyyətlərindən yan keçərək qavrayır. Ayrı bir yerdə isə yazıldığı kimi normativ tələffüz üslubi dil vahidlərinin, fonetik hadisə və qanunların məqsədə uyğun seçilib istifadə edilməsi ilə yaranır. Burada fonem məxrəcləri, səslərin variasiyaları sözlərin və fikrin aydın, düzgün tələffüzünə xidmət etməlidir.

Məqalənin maraqlı məqamlarından birində deyilir ki, orfoepiya normalarına əməl edilməsi, dialekt tələffüzünün məhdudluğu, sözlərin emosionallığı dolğunluqla tamaşaçıya çatdıran düzgün tələffüzün əsas yer tutması, danışığın neytral üsluba uyğun olması belə bir qəti fikrə gəlməyə əsas verir.

Особенности произношения актера на языке кино

Резюме

Статья посвящена особенностям актерской речи на языке кино. Исследования показывают, что истинная красота языка заключается в его звучании. Эта вокальная речь может показать свою красоту и мощный эффект только при соблюдении ортоэпической нормы при ее использовании.

В статье отмечается, что особенно важно, чтобы произношение, которое выступает внешней формой речи на языке кино и интонационно стимулирует игру киноактера, было действительно простым, общепринятым. Только в этом случае зритель воспринимает содержание и смысл, минуя особенности произношения, не характерные для иностранной речи. В отдельном месте, как написано, нормативное произношение формируется путем выборочного и правильного использования стилистических языковых единиц, фонетических явлений и

законов. Здесь знаменатели фонем, вариаций звуков должны служить ясному, правильному произношению слов и идей.

Одним из интересных моментов статьи является то, что соблюдение орфоэпических норм, ограниченное произношение диалектов, упор на правильное произношение, передающее аудитории эмоциональную наполненность слов, и нейтральность речи дают повод прийти твердый вывод.

Features of the pronunciation of an actor in the language of cinema

Summary

The article is devoted to the peculiarities of acting in the language of cinema. Research shows that the true beauty of a language lies in its sound. This vocal speech can show its beauty and powerful effect only if the orthoepic norm is observed when using it.

The article notes that it is especially important that pronunciation, which acts as an external form of speech in the language of cinema and intonationally stimulates the acting of a film actor, should be really simple and generally accepted. Only in this case the viewer perceives the content and meaning, bypassing the peculiarities of pronunciation that are not characteristic of foreign speech. In a separate place, as it is written, the normative pronunciation is formed through the selective and correct use of stylistic linguistic units, phonetic phenomena and laws. Here, the denominators of phonemes, variations of sounds should serve a clear, correct pronunciation of words and ideas.

One of the interesting points of the article is that adherence to orfhoepic norms, limited pronunciation of dialects, emphasis on correct pronunciation, conveying the emotional fullness of words to the audience, and neutrality of speech give rise to such a conclusion. solid conclusion.

RƏYÇİ: dos. S.Abbasova

Esmira Allahverdi qızı Quliyeva[6]

MÜSTƏQİL DÖVLƏTÇİLİK ƏNƏNƏLƏRİ VƏ DİL MƏSƏLƏLƏRİ

İnsanlar, xalqlar və ölkələr kimi dillərin də özünəməxsus tarixi, taleyi və obrazı vardır... Genoloji təsnifat baxımından türk dilləri qrupuna daxil olan Azərbaycan dilinin tarixi inkişafı assosiativ əlaqə və münasibətlərlə xarakterizə olunur. Leksik, qrammatik və semantik-funksional cəhətlərə görə bir-birinə çox yaxın olan türk, türkmən və qaqauz dilləri ilə eyni yarımqrupda (oğuz dilləri) olan Azərbaycan dilinin təşəkkülü və inkişafı III-VIII yüzillikləri əhatə edir. Artıq XI əsrdən oğuz tayfa dilinin təsiri ilə formalaşan Azərbaycan dili sonralar mükəmməl ədəbi dil kimi sənət-ədəbiyyat dilinə çevrilə bildi.

Müəyyən zamanlar kəsiyində işğallar nəticəsində ana dilimizin adı qəsdən dəyişdirilmiş, "Türki", "Türk dili", "Azərbaycan türkcəsi", "Tatar dili", "Qafqaz tatarlarının dili" və s. adlandırılmışdır.

1921-ci ildə N.Nərimanov D.Bünyadzadə ilə birlikdə Azərbaycan SSRİ-də dözlət dilinin türk dili olması ilə bağlı dekret imzaladılar. Elə həmin ildə Azərbaycan Sover Sosialist Respublikasının ilk Konstitusiyası qəbul olundu və oraya dövlət dili haqqında maddə qəbul olunmadı. 1924-cü ildə isə Mərkəzi İcraiyyə Komitəsinin Azərbaycanda dövlət dilinin türk dili olması ilə bağlı qərarı qəbul edildi.

1936-cı ildə Azərbaycanın yeni Konstitusiya layihəsi hazırlanarkən orada Azərbaycanın dövlət dili türk dili kimi qeyd edilir, lakin 1937-ci ilin aprel ayında qəbul olunan əsas qanunda dövlət dili haqqında maddə salınmır. Nəhayət, 1956-cı ildə Azərbaycanın 1937-ci ildə qəbul olunmuş Konstitusiyasına "Azərbaycanın dövlət dili Azərbaycan dilidir" məzmunlu bənd artırılır.

Dövləti, dövlətçilik ənənəsini və dili qoruyub saxlamaq mübarizliyi və ənənələri Azərbaycan xalqının tarixində həmişə ağır sınaqlarla üz-üzə qalıb. Hələ 60-cı illərdə ölkədə bütün rəsmi, eyni zamanda bütün qeyri-rəsmi yığıncaqlar rus dilində aparılır, sənədləşmə işləri rus dilində tərtib olunur və kiçik bir təşəbbüslə Azərbaycan dilinə sevgi aşılamaq cəhdi belə "millətçilik" ittihamı ilə nəticələnirdi. Həmin zamanda Heydər Əliyev haimiyyətə gəldi. Öz müdrik siyasəti ilə "ali"lərin hökm və qərarları sırasına yeri düşdükcə, məqam tapdıqca ölkənin, millətinin və dilinin xeyrinə tarixləşən, gələcək nəsillər üçün dəyərli faktlara çevrilən maddələr daxil edildi. "Bizim ən böyük sərvətimiz ondan ibarətdir ki, dilimiz yaşayıb və ilbəil zənginləşibdir" fikrini ortaya qoydu. Daha sonra H.Əliyev yazırdı ki, Azərbaycan ədəbi dilinin safliğina və təmizliyinə daim qayğı göstərilməlidir. Çünki dil xalqın sərvətidir, ədəbi dilin tərəqqisi olmadan mənəvi mədəniyyətin tərəqqisi mümkün deyildir. Lakin mədəniyyətin və elmin səviyyəsi yüksəldikcə, həyatın axarı sürətləndikcə dilin təkmilləşməsinə, onun söz ehtiyatının zənginləşməsinə daha çox qayğı göstərmək lazımdır. Məhz Heydər Əliyevin prinsipial və qətiyyətli yanaşması nəticəsində 1978-ci ildə qəbul edilmiş Azərbaycan SSR-nin Konstitusiyasının 73-ci maddəsində Azərbaycan dilinin dövlət dili kimi təsbit edilməsi hər bir azərbaycanlıda ümummilli liderə qarşı rəğbət doğurur. Ulu öndərin 18 iyun 1966-cı ildə Nazirlər Kabinetinin geniş iclasındakı çıxışı da unudulmayıb. O bildirmişdi ki, bizim rəhbər vəzifəli şəxslərə bir neçə dəfə xəbərdarlıq etmişəm ki, Azərbaycan Respublikasının dövlət dili – ana dilimiz Azərbaycan dilidir. Hər yerdə, bütün sənədlərdə, iclaslarda, dövlət dili işlənməlidir. Təəssüf olsun ki, bəzi rəhbər şəxslərimiz Azərbaycan dilini zəif bilir, onlar dövlər dilini bilmək üçün tədbirlər görməlidirlər...

Heydöər Əliyevin dil sevgisi bizə XVI əsrdə Azərbaycan dili uğrunda mübarizə aparmış Şah İsmayıl Xətaini və 1919-cu ildə ADR Cümhuriyyəti dövründə hərbi nazir işləmiş Səməd bəy Mehmandarovu (O, bütün millətlərdən olan hərbçilərə vaxt vermişdi ki, Azərbaycan dilini öyrənsinlər.Əgər öyrənməsələr, tutduqları vəzifədən azad olunacaqlar) xatırlatdı.

Respublikada dil siyasətinin birmənalı şəkildə formalaşdırılması, ana dilinin dövlət dili kimi tətbiqi işinin təkmilləşdirilməsi və dünya azərbaycanlılarının ünsiyyət vasitəsinə çevrilərək milli həmrəyliyin göstəricisi kimi beynəlxalq aləmdə rolu və nüfuzunun yüksəlməsi Azərbaycan xalğının ümummilli lideri H.Əliyevin adı ilə bağlıdır.

Müstəqil Azərbaycanın 1995-ci ildə ümumxalq səsverməsi ilə qəbul olunmuş Konstitusiyasında Azərbaycan dilinin Azərbaycan Respublikasının dövlət dili kimi təsbiti Azərbaycan Respublikası Prezidentinin dövlət dilinin tətbiqi işinin təkmilləşdirilməsi haqqında 2001-ci il 18 iyun tarixli 506 №-li və "Azərbaycan əlifbası və Azərbaycan dili gününün təsis edilməsi haqqında" 2006-cı il 9 avqust tarixli 522 №-li fərmaları, eləcə də "Azərbaycan Respublikasında dövlət dili haqqında" Azərbaycan Respublikasının Qanunu və dil diyasəti sahəsində normativ hüquqi aktlar, həmçinin digər tədbirlər Azərbaycanda dilçilik sahəsinin hüquqi əsaslarının icra mexanizmini müəyyən etmişdir.

Bu gün ölkənini siyası, ictimai, iqtisadi, elmi və mədəni həyatının bütün sahələrində işlədilən Azərbaycna dilinə sevgi təkcə sadə vətəndaş və ya alim, yazıçı, siyasətçi münasibəti ilə ölçülmür, deməli, bu dili qorumq və yaşatmaq üçün ona bir rəhbər sevgisi də lazımdır. Bu baxımdan ümummilli liderin layiqli davamçısı cınab İlham Əliyevin də dilimizin təəssübünü və şərəfini qoruyan tədbirlərini xatırlamalıyıq. Məsələn, o, 23 may 2012-ci il tarixində "Azərbaycan dilinin qloballaşma şəraitində zamanın tələblərinə uyğun istifadəsinə və ölkədə dilçiliyin inkişafına dair dövlət proqramı haqqında" sərəncam imzalayıb. Bu sərəncam da milli və dil sevgisi, qayğısı zərurətinin nəticəsi kimi meydana çıxıb. Sərəncamda göstərilir ki, son dövrlərdə müasir Azərbaycan ədəbi dilinin tükənməz imkanlarından lazımınca və düzgün istifadə edilmir. Ədəbi dilimiz özünəməxsus inkişaf qanunauyğunluqlarına xələl gətirə biləcək yad ünsürlərin üzə çıxarılması və qarşısının alınması istiqamətində mütəxəssislər heç də həmişə çeviklik nümayiş etdirə bilmirlər. Nəticə etibarilə dövlət dilimizin tətbiqi sahəsində bir sıra problemlər özünü qabarıq şəkildə biruzə verir. Dilin böyük ictimai-siyasi hadisə və mənəvi həyatımızın

---

[6] Azərbaycan Tibb Universiteti, Azərbaycan dili kafedrasının dosenti

mühüm amili olduğunu çox zaman nəzərdən qaçıran bəzi mətbuat orqanlarında, radio və televiziya kanallarında ədəbi dil normalarının pozulması adi hal alıb. Dublyaj edilən filmlərin, xarici dillər çevrilən elmi, bədii və publisistik əsərlərin tərcüməsi , bir qayda olaraq, yüksək estetik tələblərə cavab vermir, onlar sönük və yarıtmazdır, dilimizin hüdudsuz ifadə imkanları ilə müqayisə eilməyəcək qədər aşağı səviyyədədir. "Azərbaycan dilinin qloballaşma şəraitində zamanın tələblərinə uyğun istifadəsinə və ölkədə dilçiliyin inkişafına dair dövlət proqramı"nda deyilir ki, bu gün Azərbaycan dilinin milli dövlətçiliyin başlıca rəmzlərindən olaraq istifadəsi və əsaslı tətbiqi dilçilik elmi sahəsində vəziyyətin yaxşılaşdırılması üçün əlverişli zəmin yaradılmışdır. Eyni zamanda elm və texnikanın sürətlə inkişaf etdiyi hazırkı qloballaşma dövrü Azərbaycan dilinin zənginləşməsi və tətbiqi imkanlarının genişləndirilməsi istiqamətində aparılan işlərin yeni səviyyədə yüksəldilməsini tələb edir.

Burada xalqımızın görkəmli oğlu, təcrübəli dövlət xadimi, hərbi sərkərdə və məşhur şair Ş.İ.Xətainin bir kəlamını söyləmək yerinə düşər. O, gəncliyimizə nəsihətində yazmışdır: "Vətənin bir ovuc torpağını bir ovuc altundan dilimizin bir kəlməsini bir ölçü mücəvhərindən üstün bildim. Dilimizin və Vətənimizin əbədiyyən yaşaması üçün əlimdən gələni etdim. Məni lənətlə yad etməyin! Yaxşı nə etdimsə davam etdirin, xətalarımı təkrar etməyin.... Atalar sizə 3 əmanət qoyublar:Dilimiz, Qeyrətimiz, Vətənimiz!" (1).

Bu gün küçə və meydanlardakı reklamlarda , elanlarda, afişalarda Azərbaycan dilinin ən adi leksik və qrammatik qaydalarının, etik normalarının pozulması təkcə dil-nitq mədəniyyətinin deyil, ümumi mədəni səviyyənin aşağı düşməsinin göstəricisinə çevrilib.

Azərbaycan Respublikası Prezidentinin dünya azərbaycanlılarının birliyi, həmrəyliyi uğrundakı fəaliyyəti və yorulmaz mübarizəsi, sözsüz ki, ictimai-siyasi mahiyyəti ilə yanaşı, dil birliyi və dilimizin inkişafı naminə görülən işlərin əhəmiyyətini də artırır, çünki hər bir dilin arxasında milli qürur, ləyaqət, mənəviyyat, o dili istifadə edənlərin elmi-intellektual baxışları, ədəbi-estetik zövqləri, duyum və həssaslıq ölçüləri dayanır. Alman yazıçı-filosofu Germann Hesse yazırdı ki, yazıçı dilin kasıblığından və mükəmməl olmamasından çox əziyyət çəkir, nəinki başqa şeylərdən. Bəzən onun dildən zəhləsi gedir, onu günahlandırır və lənətləyir, ən çoxu da özünü ki, belə küt alətlə işləmək məcburiyyətindədir...

Biz anadilli ədəbiyyat tariximizi araşdırarkən Azərbaycan dilinin tarix meydan oxuyan ərəb və fars dilləri ilə bərabər fəlsəfi və estetik ideyalar ifadə edə bilmək potensialını açıq-aydın görürük. Hal-hazırda bu dildə danışan 50 milyon azərbaycanlının etnik psixologiyasında, ictimai-siyasi düşüncəsində və mədəni –etik münasibətlərində həmin dilin poetikası, fikri həssaslıqla ifadə edə bilən incə çalarları spesifik əlamətlər kimi diqqəti cəlb edir.

Orta əsrlərdə 3 dildə - türk, ərəb və fars dilində yaradılan Azərbaycan elmi, ədəbiyyatı və eləcə də sonrakı dövrlərdə bütünlükdə mədəniyyəti haqqında müstəqil Azərbaycanın təfəkkürü ilə söz demək üçün XX əsrin 30 cu illərində formalaşmağa başlamış azərbaycanşünaslıq kimi bir elm sahəsinin fəaliyyətini artırmaq zərurəti yarandı. "Azərbaycanşünaslıq nə dilçilik, nə ədəbiyyatşünaslıq, nə mədəniyyətşünaslıq, nə də tarixşünaslıqdır. Onun (azərbaycanşünaslığın) işi həmin elmlərin hər birinin, eləcə də bir sıra digər elmlərin faktlarından, nəticələrindən, ümumi müddəalarından istifadə etməklə Azərbaycan (və Azərbaycan xalqı!) haqqında ümumi elmi təsəvvür yaratmaqdan, Azərbaycanın (və Azərbaycan xalqının!) dünyadakı universal mövqeyini müəyyənləşdirməkdən ibarətdir ki, onların məhz Azərbaycana (və Azərbaycan xalqına!) mənsubluğu bir kompleks olaraq şübhə doğurmasın.... Lakin bir məsələ də var ki, bütün bunlar Azərbaycanın (və Azərbaycan xalqının!) mədəni-mənəvi, siyasi-ideoloji mənafeyinə xidmət etməlidir" (2).

Böyük inkişaf yolu keçmiş qədim ədəbi dillərdən biri olan ("Kitabi-Dədə Qorqud" faktını yada salsaq 1300 ildən çox yaşı olan) dilimizin adı artıq qəti şəkildə stabilləşib: Azərbaycan dili.

"Taleyimiz elə gətirib ki, məsələn, bizə tatar deyiblər. Amma biz tatar deyilik axı. Neçə illər bizə tatar deyiblər. Elə Həsən bər Zərdabi də özünə tatar deyibdir, o birisilər də özünə tatar deyiblər... Gəlin, türkdilli xalqlara baxaq. Bəli, biz türkdilli xalqlardan biriyik və türk mənşəli xalqıq. Kökümüz birdir. Özbək dili var, başqırd dili var, türkmən dili var, qumuq dili var. Demək, bu türkdilli xaqların də hər birinin öz adı var. Türkdilli xalaqlarda tatar dili də var, o biri qrup dillər var, onların da hər biri bu qrupa daxildir. Amma hər birinin öz adı var... Axı nə təhər Azərbaycan türkcəsi? Millətimiz nədir? Azərbaycan türkü. Nə təhər bu millətin iki adı olsun? Böəs niyə özbək özünə demir ki, Özbəkistan türkü, tatar niyə demir ki, Tatarıstan türküyəm?" (3).

Elmi-mədəni və siyasi-iqtisadi cəhətdən sürətlə inkişaf etməsi nəticəsində müasir Azərbaycan dilinin lüğət tərkibi də zənginləşir. Onun bütün üslublarında (işgüzar, mətbuat, bədii, elmi, məişət) bu inkişaf və zənginləşmə prosesi nəzərə çarpacaq dərəcədə hiss olunur.

"Dövlət dilinin tətbiqi işinin təkmilləşdirilməsi haqqında " Azərbaycan Respublikası Prezidentinin fərmanında (18 iyun 2001-ci il) deyilir ki, dilçilik elmimiz XX əsrdə sürətli inkişaf dövrü yaşamışdır. Həmin dövrdə ədəbi dilimizi tədqiq edən Bəkir Çobanzadə, Əbdüləzəl Dəmirçizadə, Muxtar Hüseynzadə, Əliheydər Orucov, Səlim Cəfərov, Əlövsət Abdullayev, Fərhad Zeynalv və başqa dilçi alimlərimizin böyük ordusu yaranmışdır. Dərin qürur və fərəh hissi ilə demək olar ki, Azərbaycan dilçiliyinin gərgin əməyi sayəsində dilçiliyin bütün sahələrində səmərəli işlər görülmüş, dil tarixi, dialektologiya, müasir dil, lüğətçilik sahələrində dəyərli tədqiqatlar aparılmışdır.

"...dilçilik ana dilinin düzgün dərk olunmasına, yaxşı mənimsənilməsinə kömək edən bir elmdir. Bu elm insanda ana dilinə şüurlu münasibət bəsləməyi aşılayır. Mılum olduğu kimi, insan kiçik yaşından ətrafdakılarla ünsiyyətə nitq vasitəsilə alışır. O, dili başqasından eşidərək qeyri-şüuri dərk edir. Belə dərketmə prosesində isə çox zəngin xəzinə olan dilin bütün xüsusiyyətləri, incəlikləri öyrənilə bilmir. Dilin bütün cəhətlərinin öyrənilməsinə imkan yaratmaq dilçiliyin üzərinə düşür" (4).

Bu gün bu ənənə davam edir. Çağdaş dilçilik elmimizin nümayəndələri bütün ruhu, tarixi-genetik yaddaş sevgisi ilə rəğbət bəslədiyi dilin tədqiq və təbliği ilə məşğuldur. Dilimizi sevək. Çünki sevdiyin dildə danışanda, yazanda bütün fikirlər səmimi, düşündürücü olur və ən əsası dil çoxcəhətli bir ictimai hadisə kimi dövlət, eyni zamanda dövlətçilik siyasətinin ən mühüm ifadə vasitəsidir. İndi Azərbaycan dilinin özünəməxsus inkişaf qanunları ilə cilalanmış kamil qrammatik quruluşu, zəngin söz fondu, geniş ifadə imkanları, mükəmməl əlifbası, yüksək səviyyəli yazı normaları vardır. Hazırda ölkəmizdə cəmiyyət həyatının elə bir sahəsi yoxdur ki, Azərbaycan dili orada rahat işlədilə bilməsin. Amma bununla belə ana dilimizin öyrənilməsi və tətbiqi sahəsində hələ də görüləsi işlər çoxdur. Ölkəmizin ümumtəhsil və ali məktəblərində Azərbaycan dilinin müasir dünya standartlarına, milli-mədəni inkişaf tariximizin tələblərinə cavab verən tətbiqi işinin təkmilləşdirilməsinə ehtiyac vardır.

İstifadə edilmiş ədəbiyyat

1. Azərbaycan Respublikası Konstitusiyası. Bakı, Azərnəşr, 1996
2. Azərbaycan Respublikası Prezidentinin "Dövlət dilinin tətbiqi işinin təkmilləşdirilməsi haqqında" 18 iyun 2001-ci il tarixli fərmanı. "Azərbaycan müəllimi" qəzeti 21-27 iyul 2001.
3. "Azərbaycan Respublikasında dövlət dili haqqında Azərbaycan Respublikasının qanunu". Xalq qəzeti, 04 yanvar 2003.
4. Azərbaycan Respublikası Prezidentinin "Azərbaycan dilinin qloballaşma şəraitində zamanın tələblərinə uyğun istifadəsinə və ölkədə dilçiliyin inkişafına dair dövlət proqramı haqqında" 23 may 1912-ci il.
5. Ş.İ.Xətai. Seçilmiş əsərləri, I cild, Bakı, 2004.
6. A.Qurbanov. Ümumi dilçilik. Bakı, Maarif, 1977
7. "Azərbaycan" qəzeti, 9 noyabr 1995
8. N.Cəfərov. Azərbaycanşünaslığın əsasları. Bakı, "Pedaqogika", 2005

Açar sözlər: milli dövlətçilik, qloballaşma siyasəti, Dövlət proqramı, dövlətçilik ənənələri, dilə sevgi

Ключевые слова: национальная государственность, политика глобализации, Государственная программа, традиции государственности, любовь к языку

Key words: national statehood, globalization policy, State program, traditions of statehood, love of language

Müstəqil dövlətçilik ənənələri və dil məsələləri

Xülasə

Milli kimliyimizin qarantına çevrilən dilimiz bizim milli ruhumuzun bərqərar olduğu ən böyük milli dəyərəmiz, ən ali atributumuzdur. Hər bir toplumu millət edən onun dilidir. Məlumdur ki, hər bir dili yaradan, onu yaşadan xalqdır, amma dili inkişaf etdirən, onun qayğısına qalan dövlətin dəstəyidir.Hər bir milli dəyər, ələlxüsus da, ana dili nə qədər xalqın keçmişini, qədimliyini özündə əxz etdirsə də, dövlət və rəhbərlik qayğısı olmadan ikinci planda durur və məişət dili səddini keçə bilmir, ali məqamlarda təmsil olunma iqtidarından məhrum olur.

Ana dilimiz əsrlərin qan yaddaşı, daş hafizəsidir. Heç bir dilin təsirində əriməyən, şirinliyini, axıcılığını, anlaşıqlılığını itirməyən, illər, əsrlər keçdikcə daha da cilalaşan və öz layiqli qiymətini alan dildir. Azərbaycan dilinin özünəməxsus inkişaf qanunları ilə cilalanmış kamil qrammatik quruluşu, zəngin söz fondu, geniş ifadə imkanları, mükəmməl əlifbası, yüksək səviyyəli yazı normaları vardır. Məqalədə ana dilimiz, onun təmizliyi və saflığı haqqında olan məsələlər ön plana çəkilmişdir. Eyni zamanda dövlət dilinin təkmilləşdirilməsi haqqında verilmiş qanun və sərəncamlar haqqında fikir bildirilmişdir.

Традиции независимости и языковые вопросы

Резюме

Наш язык, ставший гарантом нашей национальной идентичности, является нашей величайшей национальной ценностью, нашим высшим атрибутом, в котором утверждается наш национальный дух. Именно его язык делает каждое общество нацией. Известно, что народ создает каждый язык и сохраняет его живым, но именно поддержка государства развивает язык и заботится о нем.Каждая национальная ценность, в частности, сколько бы родной язык ни содержал в себе прошлое и древности народа, без попечения государства и руководства стоит в плане и не может перешагнуть через барьер повседневного языка, лишен власти представительства на высших должностях.

Наш родной язык – кровавая память веков, каменная память. Это язык, который не тает под влиянием любого языка, не теряет своей сладости, текучести, разборчивости, с годами и веками становится все более отшлифованным и получает свою заслуженную цену. Азербайджанский язык обладает совершенным грамматическим строем, отшлифованным со своими законами развития, богатым словарным запасом, широкими выразительными возможностями, совершенным алфавитом и высокими нормами письма. В статье на первый план выдвигаются вопросы о нашем родном языке, его чистоте и чистоте. В то же время были высказаны мнения об издаваемых законах и приказах по совершенствованию государственного языка.

Tradıtıons of ındependence and language ıssues

Summary

Our language, which has become the guarantor of our national identity, is our greatest national value, our highest attribute, where our national spirit is established. It is its language that makes every society a nation. It is known that the people create each language and keep it alive, but it is the support of the state that develops the language and takes care of it.

Every national value, in particular, no matter how much the mother tongue contains the past and antiquity of the people, without the care of the state and leadership it stands in the plan and cannot cross the barrier of everyday language, it is deprived of the power of representation in higher positions.

Our mother tongue is the blood memory of the centuries, the stone memory. It is a language that does not melt under the influence of any language, does not lose its sweetness, fluidity, intelligibility, becomes more polished over the years and centuries and receives its deserved price. The Azerbaijani language has a perfect grammatical structure polished with its own development laws, a rich vocabulary, wide expressive possibilities, a perfect alphabet, and high-level writing norms. In the article, issues about our mother tongue, its purity and purity are brought to the fore. At the same time, opinions were expressed about the laws and orders issued on the improvement of the state language.

RƏYÇİ: dos. E. Vəliyeva

Мусаева Н.М.[7]

РОЛЬ ИНОЯЗЫЧНОЙ ЛЕКСИКИ В ПЕРСИДСКОМ ЯЗЫКЕ

Словарный фонд и грамматическая система любого языка на протяжении своей истории развития и становления в силу политических, экономических и культурных контактов в разной форме подвергается иноязычному влиянию. Примером такого влияния может служить грамматическая система персидского языка. Процесс заимствования иноязычных слов в персидском языке наблюдается с древнейших времён и не прекращается поныне. Лексика иноязычного происхождения благодаря лёгкой проницаемости персидского языка служит одним из главных источников пополнения его словарного состава.

Согласно данным, как иранских, так и неиранских ученых-лингвистов, исследовавших лексический состав персидского языка, отмечают наличие в нём огромного количества иноязычных заимствований, среди которых абсолютное большинство занимают арабизмы. И эти заимствования представляют собой одно из основных средств пополнения словарного состава персидского литературного языка.

Специфика контактов персидского и арабского языков характеризуется тем, что арабские слова переходят в персидский язык, главным образом, через письменный литературный язык, где ведущее место занимает художественно-литературный стиль этого языка.

Арабизмы по характеру своего функционирования разделяются на: 1) те, которые употребляются в качестве лексической единицы персидского языка и 2) те, которые употребляются на арабском языке, т.е. только грамматически оформляются по законам этого языка. И если в контексте конкретного литературного памятника арабизмы первой группы можно назвать арабскими заимствованиями, то арабизмы второй группы вряд ли можно отнести к разряду этих заимствований. Для конкретного памятника понятие «арабизмы» значительно шире, чем понятие «арабские заимствования», хотя бы по той простой причине, что последние составляют лишь определённую часть первых. Это говорит о том, что характер использования арабизмов в конкретном художественно-литературном источнике, в той или иной степени, отличается от такового в персидском литературном языке в целом.

Характер функционирования арабизмов в отдельном литературном памятнике отличается от такового в литературном персидском языке целым рядом ещё и других особенностей, которые в общем плане можно изложить следующим образом: а) употребление арабских слов в конкретном литературно-художественном источнике в значительной мере носит индивидуально-стилистический характер, что и, главным образом, предопределяет факт приобретения ими контекстуальной многозначности и различных смысловых оттенков; б) с участием тех или иных арабских слов в конкретном памятнике образуются такие производные и сложные персидские лексические единицы, которые своим созданием большей частью обязаны автору данного памятника; таковые как раз и составляют в целом потенциальную основу тех арабизмов, которые в дальнейшем приобретают или могут приобрести статус общей для персидского языка заимствованной лексики. При этом вполне уместно напомнить и такое общеизвестное в теоретической лингвистике положение о том, что заимствованная лексика представляет собой один из важнейших источников развития и обогащения словарного состава того или иного языка, и что на данном этапе осуществления этого процесса значительная роль отводится творчеству виднейших писателей и поэтов, а конкретнее говоря – их отдельным литературно-художественным творениям.

В настоящей статье мы рассмотрим семантическое обогащение заимствованной лексики на примерах сложных глаголов на материале письменного литературного памятника XII века «Махзан-ул-эсрар» Низами Гянджеви.

У большого количества сложных глаголов, представленных в указанном памятнике, первый компонент (именная часть) выражен заимствованными из арабского языка масдарами и причастиями. Сопоставительный анализ фактов, собранных из поэмы «Махзан-ул-эсрар» показывает, что сложный глагол – результат длительного и постепенного процесса лексиколизации сочетания именного и вербального слов, первое из которых (арабское заимствование) служит обозначению предметной семантики, второе (персидский глагол) выполняет служебную, но весьма важную в данном процессе морфологическую функцию. При этом, именная часть в составе сочетания, благодаря вербальному компоненту, приобретает спрягательную способность, характерную глаголам. Иначе говоря, компонирующий глагол выполняет роль грамматического проводника между предметной семантикой именного компонента и категорией глагольного спряжения. Таким образом, вспомогательный глагол, наряду со всеми своими различными лексико-синтаксическими функциями в составе вербальной аналитической конструкции, способствует также расширению грамматического действия предметной семантики. Обычно в составе сложного глагола ослаблению лексического значения подвергается большей частью вербальный компонент, представленный во всех случаях персидским глаголом, который и благодаря этому ослаблению постепенно из лексически значимого слова превращается, как уже было указано выше, в служебную часть.

Анализ собранных фактов показывает, что в произведении «Махзан-ул-эсрар», в качестве второго компонента сложных глаголов выступают весьма различные глаголы ([кәрдән], [даштән], [авәрдән], [зәдән], [герефтән], [шодән] и многие др.). Однако, они отнюдь не в одинаковой степени участвуют в составе этих сложных

[7] BDU-nun dosenti

глаголов. В данной статье мы решили остановиться на некоторых сложных глаголах с компонирующим глаголом [кәрдән]. Нужно отметить, что в качестве первого компонента сложных глаголов могут выступать имена простые, производные, сложные. При этом в роли простого именного компонента выступает только арабское заимствованное слово; если же в роли первого компонента функционирует производное слово, то его производную основу составляет также арабское заимствованное слово, сращённое тем или иным словообразующим суффиксом персидского языка.

В том случае, когда первый компонент выражен сложным словом, то одна из составных частей последнего обязательно является арабским заимствованием, другая – персидским словом, хотя не исключено, что иногда обе части могут состоять из арабских слов.

Но следует подчеркнуть, что в обоих случаях этот сложный компонент представляет собой сложное имя, образованное по словообразующим правилам персидского языка и надо сказать, что эти сложные глаголы в «Махзан-ул-эсрар» как по лексическому составу, так и по структуре в преобладающем большинстве не отличаются от таковых в современном литературном персидском языке. Однако в семантическом плане между ними нередко наблюдается значительное различие. Для ясности приведём несколько примеров.

Сложный глагол [тәсәррофкәрдән] в поэме «Махзан-ул-эсрар» употреблён в значении «размешивать /глину с водой/»; ср.

["Дәр гелоабичэтәсәрроф кони"] «Сколько /лет/ ты будешь размешивать глину сводой».

Между тем в современном персидском языке этот глагол зафиксирован в значениях:

а) овладеть, завладеть;

б) оккупировать, захватывать;

в) вносить изменения, изменять.

Степень семантической «отдалённости» между указанными значениями этого глагола в исследуемом произведении Н.Гянджеви и в современном персидском языке не нуждается в особом объяснении. Почти такое же семантическое различие наблюдается в функционировании сложного глагола [тәфрәгә], первый компонент которого отражён арабским заимствованным словом [тәфрәгә кәрдән]. В поэме «Махзан-ул-эсрар» зафиксирован сложный глагол [тәфрәгәкәрдән], который употреблён в этом литературном памятнике XII в. в значении «разделить /плоды, прибыли/»: [тәфрәгә кон (hасәл-э-мә’лум-э-хиш] «раздели плоды своей прибыли».

Для современного литературного персидского языка употребление данного сложного глагола не характерно, здесь он, можно сказать, не встречается. В современном персидском языке функционирует сложный глагол [тәфрәгәәндахтән] в значении «сеять раздор, вносить раскол». [сабуhикәрдән] - опохмеляться: [шәркәсабуhи нә бә hенгам кәрд, хун-э-зийадәшсийаhәндам кәрд] «Ночь не во время опохмелялась утром, /поэтому избыток крови сделал её тело чёрным/».

Отметим, что в современном персидском языке данный глагол не употребляется, сейчас в этом языке встречается глагол [сабуhизәдән] «пить вино утром».

[тәртибкәрдән] - наводить порядок: [шаhкә тәртиб-э-вәлаййәт конәд, hокм-э-раиййәт бә раиййәт конәд] «Шах, наводящий порядок (буквально, который наводит порядок) / в стране, должен властвовать, соблюдая интересы подданных»

Для современного персидского языка не характерно употребление сложного глагола [тәртибкәрдән], поэтому он в словарях современного персидского языка не зафиксирован. Сейчас в персидском языке наличествует семантически близкий сложный глагол [тәртибдадән], имеющий и значение «приводить в порядок». [рәф’ кәрдән] – возвышаться: [адамим рәф-э-мәләк миконәм] «Я - человек и возвышаюсь до высот ангелов».

В современном персидском языке этот сложный глагол употребляется в значении «устранять, отменять, аннулировать», в значении же «возвышаться» сейчас он не функционирует. Исходя из этого положения, можно констатировать, что сложный глагол [рәф’ кәрдән] в историческом плане выступал в персидском языке в двух, весьма различных значениях:

1) возвышаться; 2) устранять, отменять, аннулировать.

Чем это можно объяснить? Для объяснения этого достаточно обратиться к самому арабскому языку, откуда заимствовано слово [рәф’], составляющее номинативный компонент сложного глагола [рәф’ кәрдән]. В арабском языке слово [рәф’ун] представляет собой масдар первой породы от глагола [рәфа’а], имеющего, наряду с другими, значения «поднимать, возвышать» и «снимать, удалять, устранять». Стало быть, все эти значения восходят к единому источнику. Таким образом, можно предположить, что в эпоху Н.Гянджеви, т.е. в период сильного воздействия арабского языка на персидский, заимствованное из арабского языка слово [рәф’] функционировало в персидском языке в обоих этих значениях, на почве которых, и был образован сложный глагол [рәф’ кәрдән] в значениях:

1) возвышаться; 2) устранять, отменять.

В дальнейшем данный сложный глагол в персидском языке утратил своё первое значение, но продолжал функционировать во втором значении, что вполне допустимое явление в процессе исторического развития и совершенствования лексического состава того или иного литературного языка, в том числе и персидского.

Хочется отметить, что в силу значительной ограниченности числа сложных глаголов в канун образования новоперсидской эпохи, персидский язык, по всей вероятности, сильно нуждался в аналитических типах глаголов со структурной моделью «имя + служебный (или вспомогательный) глагол». И если учесть, что арабские масдары и причастия отличаются своей полисемантичностью, то можно сказать, что на этой почве они становятся весьма подходящими и, даже необходимыми факторами образования сложных глаголов на персидской словообразовательной основе. В процессе связи двух языков персидский находит в арабских масдарах и причастиях тот подходящий материал, который был крайне необходим ему для восполнения «пробела», существующего в его лексическом составе на конкретном отрезке исторического развития и совершенствования. Можно сказать, что именно данная внутрилингвистическая ситуация послужила решающим фактором столь широкого и беспрепятственного проникновения арабских имен в персидский язык.

По своей синтаксической структуре сложный глагол, первый компонент которого выражен заимствованным из арабского языка именем, представляет собой словосочетание, которое, в сущности, является не простым объединением двух или более слов, а совокупностью групп, объединённых на определённой смысловой и грамматической основе. Важным и характерным моментом при этом является то, что в составе сочетания служебный глагол (и именной компонент) в той или иной степени теряет своё первоначальное или самостоятельное значение, превращаясь в одну из составных частей новообразовательнойсложной лексической единицы, имеющей уже совершенно новое значение.

Факт соединения арабского имени с персидским глаголом (гибридный сложный глагол) не означает свободное или простое сочетание двух слов: здесь правомерно видеть одну лексическую единицу и лексико-грамматическое целое. Анализ собранных из поэмы «Махзан-ул-эсрар» фактов, показывает, что сложный глагол данного типа – результат длительного процесса лексикализации сочетания именного и вербального слов, первое из которых (арабское заимствование) служит обозначению предметной семантики, второе (персидский глагол) выполняет служебную, но весьма важную в данном процессе морфолого-синтаксическую функцию. При этом благодаря вербальному компоненту именная часть в составе сочетания приобретает спрягательную способность, характерную, как известно, только для глаголов. Иначе говоря, компонирующий глагол выполняет роль грамматического проводника между предметной семантикой именного компонента и категорией глагольного спряжения. Таким образом, вспомогательный глагол, наряду со всеми своими различными лексико-синтаксическими функциями в составе вербальной аналитической конструкции, способствует также расширению грамматического действия предметной семантики.

Обычно в составе сложного глагола ослаблению лексического значения подвергается большей частью вербальный компонент, представленный во всех случаях персидским глаголом, который и благодаря этому ослаблению постепенно из лексически значимого слова превращается, как уже было указано выше, в служебную часть. В целом персидские глаголы проявляют такую «чувствительность» к арабским именам, что легко с ними сочетаются, способствуя тем самым образованию составного глагола аналитической конструкции.

Нередко в составе сложного глагола степень утраты первоначального или лексического значения, особенно глагольного компонента, бывает настолько незначительной, что вне контекста определить семантический оттенок, приобретённый тем или иным вербальным сочетанием, просто является невозможным, и это создаёт необходимость иллюстрировать все сложные глаголы (как контекстуальные, так и «неконтекстуальные») в контексте.

Важно учесть и то, что в исследуемом произведении сложные глаголы, именной компонент которых выражен арабским заимствованием, находятся, как показывает сопоставительный анализ фактов, на различной ступени процесса перехода их в разряд устойчивых сочетаний. Остановимся на следующем примере: [Дәр нәфәсе абад дәм суз сәдрнешин гәштешод ним суз].

Сложный глагол [сәдрнешингәштән], употреблённый в форме прошедшего результативного времени изъявительного наклонения III л. ед.ч. [сәдрнешингәште] выступает в значении «восседать на почётном месте»: «В царстве дыхания с полугорячим воздухом - «Восседая на почётном месте шах полудня /солнце/». Первый компонент данного сложного глагола, как видно из его структуры, представляет собой сложное слово, состоящее из арабского заимствованного имени [сәдр] «почётное место» и персидского [нешин] - основы настоящего времени глагола [нешәстән] «сидеть, восседать», второй же компонент – простой глагол [гәштән] «становиться». В отдельности сложное слово [сәдрнешин] по своему образованию является – причастием настоящего времени, имеющем первоначальное значение «восседающий на почётном месте». По контексту нетрудно догадаться, что как отдельно в сложном слове [сәдрнешин], так и в сложном глаголе [сәдрнешингәштән] отражены лишь те значения, которыми обладают [сәдр] «почётное место» и [нешин] «восседать». Вполне понятно, что само по себе сложное слово [сәдрнешин] как в качестве причастия, так и в качестве имени существительного, не обладает словоизменительными свойствами глагола, стало быть, не может пользоваться возможностями глагольного спряжения. Такую возможность, т.е. способность измениться по грамматическим категориям глагольного времени, лица и числа оно приобретает благодаря именно наличию в составе данной аналитической конструкции глагола [гәштән] «становиться» (ср.: возможность употребления глагола [сәдрнешингәштән]в различных временных формах изъявительного наклонения).

При этом глагол [гәштән] в составе сложного глагола полностью лишается своего лексического значения. Полагаем, что не ошибёмся, если скажем, что в данном случае семантическую основу образования сложного глагола составляет совокупность вещественных значений заимствованного арабского имени, представляющего производную основу сложного именного компонента, и основы настоящего времени, имеющей словообразовательную функцию в составе того же сложного именного компонента. Так обстоит дело и в других сложных глаголах, первый компонент которых выражен сложным именем, имеющем словообразовательную структуру: заимствованное арабское имя + основа настоящего времени персидского глагола.

Можно было бы увеличить число примеров подобного типа, но думаем, и приведённого вполне достаточно, чтобы убедиться в том, что глагольные аналитические конструкции, состоящие из арабских имен и персидских компонирующих глаголов, в произведении «Махзан-ул-эсрар» проявляют значительную семантическую специфичность, в той или иной степени отличающуюся от таковых в современном персидском языке. Это и вполне закономерно, поскольку, во-первых, указанная поэма – литературно- художественное произведение, а это весьма важный фактор для сообщения словам и словосочетаниям различных контекстуально-стилистических значений и семантических оттенков; во-вторых, созданное в XII веке данное произведение в сравнении с современным этапом персидского языка исторически, почти на восемь столетий, ближе к началу процесса контактирования арабского и персидского языка. И не будет преувеличением, если скажем, что почти каждый из зафиксированных в поэме «Махзан-ул-эсрар» сложных глаголов, первый компонент которых выражен заимствованным арабским именем, имеет свою «собственную» или специфическую семантику, приобретённую именно в контексте этого прекрасного литературно-художественного памятника, отличающегося своим богатым и семантически многогранным, поэтическим стилем. И следует отметить, что без контекста вряд ли можно правильно представить и точно определить то значение сложного глагола, которое обозначается им в исследуемом произведении.

ЛИТЕРАТУРА

1. Пейсиков Л.С. Лексикология современного персидского языка. М., 1975.
2. Рубинчик Ю.А. Грамматика современногоперсидского литературного языка. М., 2001.
3. Виноградов В.В. Об основном словарном фонде и его словообразующей роли в истории языка. М., 1977.

РЕЗЮМЕ

Лексика иноязычного происхождения является одним из главных источников пополнения словарного состава персидского литературного языка. Основная задача исследования – рассмотрение влияния арабских заимствованных слов на процесс обогащения словарного состава персидского литературного языка. Специфика контактов персидского и арабского языков характеризуется тем, что арабские слова переходят в персидский язык главным образом через письменный литературный язык, где ведущее место занимает художественно-литературный стиль этого языка.

SUMMARY

Vocabulary of foreign origins is one of the main sources of replenishment of the vocabulary of the Persian literary language. The main objective of the study is to consider the influence of Arabic loanwords on the process of enriching the vocabulary of the Persian literary language. The specificity of contacts between Persian and Arabic is characterized by the fact that Arabic words pass into the Persian language mainly through the written literary language, where the artistic and literary style of this language occupies a leading place.

RƏYÇİ: dos. N.Əfəndiyeva

Elmira Yolçu qızı Süleymanova, Ulduzə Səməd qızı İsmayılova[8]

TÜRKOLOGİYADA MƏNSUBİYYƏT ANLAYIŞININ KATEQORİYASI

Mənsubiyyət kateqoriyasını tədqiq edən A.Aslanov yazır ki, mənsubiyyət kateqoriyasının tərəfləri arasında idarə və uzlaşma əlaqəsi özünü göstərir. İkinci tərəf əsas və aparıcı rola malik olur. onun tələbinə görə birinci tərəf ismin yiyəlik halında idarə olunurMənsubiyyət kateqoriyası sahib şəxslə mənsub əşya arasında aidiyyat əlaqəsini bildirir.

Türk dillərində xüsusi nitq hissəsi kimi yalnız isimlərə məxsus olan bu kateqoriyanı görkəmli türkoloq alim N.K.Dmitriyev eyni vaxtda həm sahib şəxsi, həm də mənsub əşyanı ifadə etmək qabiliyyətinə malik kateqoriya kimi qiymətləndirir (10, 22-37). Doğrudan da, mənsubiyyət kateqoriyasının əsas qrammatik xüsusiyyəti ondan ibarətdir ki, söz öz lüğəvi mənasını və müstəqilliyini saxlaya-saxlaya şəkilçilərin köməyi ilə, özündən kənarda olan şəxsi və kəmiyyəti də göstərə bilir. Məhz bu cəhəti nəzərə alaraq, M.Hüseynzadə yazır ki, mənsubiyyət katrqoriyası iki söz arasında atributiv əlaqə bildirir. Bu kateqoriyanın məzmununda anlayışın tərkibi dərk edilir: yəni mənsubiyyət kateqoriyası şəxs əvəzlikləri ilə ifadə olunan sahib anlayışı və isimlə ifadə olunan mənsub əşya anlayışından ibarət olur (2, 44). Uyğun fikrə B.Xəlilovda da rast gəlirik: "Mənsubiyyət kateqoriyası sahib tərəflə mənsub əşya arasında olan münasibətdən yaranır. Burada mənsub əşya anlayışını geniş mənada başa düşmək lazımdır. Ona görə ki, mənsub tərəf yalnız əşyadan deyil, ailəvi, hüquqi, ictimai, insani, qohumluq, yaxınlıq və s. münasibətlərini ifadə edən sözlərdən də ibarət olur" (3, 190).

Türk dillərində mənsubiyyət kateqoriyasını tədqiq edən F.R.Zeynalov yazır: "Mənsubiyyət kateqoriyası əşyanın və ya hadisənin müəyyən üç şəxsdən (və ya şəxslərdən) birinə aid olmasını bildirməyə xidmət edir. Bu kateqoriya özünəməxsus morfoloji əlamətləri olan bir kateqoriyadır. Avropa dillərindən fərqli olaraq (həmin dillərdə bu proses sintaktik vasitələrlə ifadə olunur), türk dillərində mənsubiyyət həm sahib şəxslə mənsub əşyanın (yəni hər iki tərəfin) iştirakı ilə. həm də təkcə bir sözlə meydana çıxa bilər. Məs.: *bizim sevincimiz // sevincimiz"* (7, 111).

İsmin yiyəlik halında olan birinci tərəflə mənsubiyyət şəkilçili ikinci tərəf uzlaşma əlaqəsinə girir. mənsubiyyət şəkilçisini qəbul etmiş söz özündən əvvəl gəlmiş sözü tabe vəziyyətə salır. asılı sözə çevirir. onu idarə edir. tabe edən sözün tələbinə görə tabe söz mütləq ismin yiyəlik halında olmalıdır. Əgər birinci tərəf yiyəlik halda deyilsə, burada mənsubiyyət kateqoriyasından danışmaq olmaz. Burada elə bir möhkəm qanun yaranmışdır ki, mənsubiyyət şəkilçili söz ismin heç bir başqa halı ilə əlaqəyə girə bilmir (1, 7).

Qeyd eləmək lazımdır ki, türkoloji tədqiqatlarda mənsubiyyət anlayışı ilə mənsubiyyət kateqoriyası bir-biri ilə qarışdırılır. Bu məsələyə münasibət bildirən Y.M.Seyidov doğru olaraq yazır: "Mənsubiyyət bir anlayış kimi dillərin hamısında öz ifadəsini tapır. Ancaq dildə bu anlayışın morfoloji göstəriciləri varsa, bu anlayış həmin şəkilçilərin köməyi ilə ifadə olunarsa, bu vaxt morfoloji mənsubiyyət kateqoriyasından danışmaq olur. Rus dilində mənsubiyyət kateqoriyası yoxdur, lakin anlayışın ifadə vasitəsi var: *моя книга*. Eyni mənadır: *Kitabım - моя книга.* Bu, morfoloji kateqoriya forması deyil. Ona görə də "rus dilində bu kateqoriya yalnız sintaktik üsulla (*моя книга*) yarana bilir" fikri dəqiq deyil. N.K.Dmitriyev bu mənada doğru olaraq "kateqoriya" termini əvəzinə "məfhum" sözündən istifadə edir" (6, 271). Buradan aydın olur ki, Y.Seyidov mənsubiyyət anlayışı ilə mənsubiyyət anlayışının morfoloji yolla ifadəsini bir-birindən fərqləndirir. Müəllifin mənsubiyyət kateqoriyası ilə bağlı söylədiyi aşağıdakı fikir də bunu aydın göstərir: "Azərbaycan dilində mənsubiyyət kateqoriyası vahid söz üzərində morfoloji əməliyyat aparmaqla əmələ gələn, şəxs və kəmiyyətə görə silsilənən morfoloji kateqoriyadır" (6, 271).

Türkologiyada mənsubiyyət anlayışının (əksər alimlər bu mənada "mənsubiyyət kateqoriyası" terminini işlədir) ifadə vasitələri barədə ümumi bir fikir yoxdur. Məsələn, dilçilərin bir qismi türk dillərində mənsubiyyət anlayışının iki üsulla (morfoloji və morfoloji-sintaktik üsul) ifadə olunduğunu qeyd edir. K.M.Musayev karaim dilində mənsubiyyət kateqoriyasının sintetik (müq. et: *anam* "anam", *kozumuz* "quzumuz", *üvləri* "evləri" və s.) və analitik üsullarla (müq. et: *bizin ana* "bizim anamız") əmələ gəldiyini göstərir (13, 131-140). Elmlər Akademiyasının hazırladığı "Müasir Azərbaycan dili. Morfologiya" adlı əsərdə də mənsubiyyət anlayışının iki üsulla - morfoloji və morfoloji-sintaktik üsulla əmələ gəldiyi göstərilir (5, 35). B.Xəlilov Azərbaycan dilində mənsubiyyət anlayışının iki üsulla (morfoloji və sintaktik üsul) formalaşdığını söyləyir (3, 204-215). Türkmən dilində mənsubiyyət kateqoriyasını tədqiq edən T. Tacmuradov da bu fikirdədir (17, 3).

Türkoloq alimlərin bir qismi türk dillərində mənsubiyyət anlayışının üç üsulla (morfoloji, morfoloji-sintaktik və sintaktik üsulla) yarandığını göstərirlər. F.R.Zeynalov yazır ki, müasir türk dillərində mənsubiyyət anlayışı bir neçə yolla meydana çıxa bilir: 1. Morfoloji yolla; 2. Sintaktik-morfoloji yolla; 3. Sintaktik yolla. Məsələn: *atımız, bizim atamız, bizim at* (7, 113). Uyğun fikri V.D.Arakin də söyləyir (8, 22-23). Fərqanə uyğurlarının dilini araşdıran Q.Sadvakasov göstərir ki, burada mənsubiyyət anlayışı morfoloji (müq. et: *əşüləm* "mahnım", *balaŋ* "balan", *öşküsi* "keçisi" və s.), sintaktik-morfoloji (müq. et: *meniŋ əşnam* "mənim dostum", *seniŋ akaŋ* "sənin qardaşın", *biznіŋ yutuğumiz* "bizim uğurumuz" və s.), sintaktik (müq.et: *biznіŋ məmlikət* "bizim ölkə", *silə(r)niŋ koça* "sizin küçə" və s.) üsullarla meydana çıxır (15, 107-114).

Uyğun vəziyyətə müasir noqay dilində də rast gəlirik. Noqay dilini tədqiq edən M.F.Saruyeva yazır ki, bu dildə mənsubiyyət kateqoriyası üç üsulla yaranır: morfoloji üsulla: *atım* "(mənim) atım", *terezeŋ* "(sənin) pəncərən", *balası* "(onun) balası", *atımız* "(bizim) atımız", *küniŋiz* "(sizin) gününüz", *atı* "(onların) atı"; morfoloji-sintaktik üsulla: *menim atım* "mənim

[8] Bakı Dövlət Universiteti

atım", *seniŋ atıŋ* "sənin atın", *onıŋ atı* "onun atı", *bizim atımız* "bizim atımız", *siziŋ atıŋız* "sizin atınız", *olardıŋ atı* "onların atı"; sintaktik üsulla: *bizim yaşav* "bizim həyat", *siziŋ kolxoz* "sizin kolxoz" (16, 100-102).

Mənsubiyyət anlayışının bu şəkildə ifadə olunmasına müasir tatar (14, 133-137) və özbək dillərində də rast gəlirik (12, 86).

Azərbaycan dili şivələrində mənsubiyyət kateqoriyasını tədqiq edən M.Məmmədli də şivələrdə mənsubiyyət kateqoriyasının morfoloji, morfoloji-sintaktik və sintaktik üsullarla meydana gəldiyini şivələrdən gətirdiyi çoxsaylı faktlarla sübut edir (4, 113-151).

Bəzi türkoloqlar isə mənsubiyyət anlayışının türk dillərində dörd üsulla ifadə olunduğunu göstərirlər. Türk dilinin qrammatik quruluşunu araşdıran A.N.Kononov bu dildə mənsubiyyət kateqoriyası barədə yazır ki, türk dilində mənsubiyyət kateqoriyası aşağıdakı üsullarla yaranır: 1. Morfoloji üsul; 2. Morfoloji-sintaktik üsul; 3. Sintaktik üsul; 4. Morfoloji-leksik üsul (11, 73-74). A.N.Kononova görə, morfoloji üsulla mənsubiyyət kateqoriyasını ifadə etməyin iki vasitəsi müşahidə edilir: a) mənsubiyyət şəkilçiləri vasitəsi ilə. Müq. et: *kardeşim* "(mənim) qardaşım", *kardeşin* "(sənin) qardaşın", *kardeşi* "(onun) qardaşı", *kardeşimiz* "(bizim) qardaşımız", *kardeşiniz* "(sizin) qardaşınız", *kardeşi* "(onun) qardaşı"; b) -lı[4] morfemi vasitəsi ilə. Müq. et: *ablak ?ehreli* "girdə sifətli", *pembe yanaklı* "çəhrayı yanaqlı", *simsiyah üzüm gözlü* "qapqara üzüm gözlü" və s.

A.N.Kononov türk dilində mənsubiyyət kateqoriyasının morfoloji-sintaktik üsulla ifadəsini aşağıdakı kimi şərh edir: "Morfoloji-sintaktik üsulla mənsubiyyət kateqoriyasının ifadəsi odur ki, mənsubiyyət ideyası yiyəlik hal şəkilçisi qəbul etmiş şəxs əvəzlikləri və mənsub əşya adına artırılmış mənsubiyyət şəkilçiləri vasitəsi ilə meydana çıxır" (11, 76). Müəllif bu üsulla mənsubiyyət kateqoriyasının ifadəsinə *benim babam* "mənim atam", *senin baban* "sənin atan", *onun babası* "onun atası", *bizim babamız* "bizim atamız", *sizin babanız* "sizin atanız", *onların babası* "onların atası" nümunələrini misal göstərir (11, 76).

A.N.Kononova görə, mənsubiyyət kateqoriyasının sintaktik üsulla ifadəsi zamanı yiyəlik hal şəkilçisi qəbul etmiş şəxs əvəzlikləri mənsub əşyanın adını bildirən isimlərdən əvvəl işlənir. Müq. et: *benim baba* "mənim atam", *senin anne* "sənin anan", *bizim aşçı* "bizim aşbaz", *benim Orhan'cığım* "mənim Orhanım (əzizləmə nüansı ilə)" və s. (11, 76-77).

Müəllif müasir türk ədəbi dilində mənsubiyyət kateqoriyasının morfoloji-leksik üsulla da yarandığını qeyd edir. Onun fikrincə, mənsubiyyət kateqoriyasının bu üsulu şəxs, işarə və sual əvəzliklərinin, eləcə də adların yiyəlik hal formasına *-ka* şəkilçisi artırmaq yolu ilə düzəlir. Müq. et: *benimki* "mənimki", *seninki* "səninki", *onlarınki* "onlarınkı", *babanınki* "atanınkı", *Orhanınki* "Orxanınkı" və s. (11, 77).

Buna uyğun fikir özbək dilində mənsubiyyət kateqoriyasını tədqiq edən S.Asliddinov tərəfindən də söylənilmişdir (9, 12). B.Xəlilov yazır ki, şəxs əvəzliklərinə yiyəlik hal şəkilçilərindən sonra *-ka*[4] şəkilçisi əlavə olunmaqla mənsubiyyət kateqoriyası yaranır. Məs.: *mənimki, səninki, onunku, bizimki, sizinki, onlarınkı*. Burada *mənim, sənin, onun, bizim, sizin, onların* sözləri mənsubiyyət kateqoriyasının birinci komponentini - sahib tərəfi, *-ki* şəkilçisi isə ikinci komponenti - mənsub tərəfi bildirir (3, 214).

Qeyd eləmək lazımdır ki, A.N.Kononovun mənsubiyyət anlayışının morfoloji-leksik üsulla ifadəsi adlandırdığı formanı türkologiyada bəzən mənsubiyyət kateqoriyasının mücərrəd forması da adlandırırlar. Məsələn, M.F.Saruyeva noqay dilinin materiallarından çıxış edərək *meniki* "mənimki", *seniki* "səninki", *onıkı* "onunku", *bizdiki* "bizimki", *sizdiki* "sizinki", *olardıkı* "onlarınkı" söz-formalarını mənsubiyyət kateqoriyasının mücərrəd forması hesab edir (16, 102). Müasir uyğur dilində də bu cəhət qeyd olunur. Q.Sadvakasov uyğur dilindəki *meni(ŋ)ki* "mənimki", *seni(ŋ)ki* "səninki", *Özqənni(ŋ)ki* "Özqəninki", *kəlxozniŋki* "kolxozunku" söz-formalarını mənsubiyyət kateqoriyasının mücərrəd forması kimi qiymətləndirir (15, 114).

Buradan aydın olur ki, türkoloji dilçilikdə türk dillərində mənsubiyyət anlayışınım ifadə vasitələrinin təsbit olunması məsələsində müəyyən fikir ayrılığı var. Bu cəhət dillərin verdiyi faktik materiallardan deyil, həmin dilləri tədqiq edən ayrı-ayrı tədqiqatçıların problemə yanaşma tərzindən qaynaqlanır.

ƏDƏBİYYAT

1. Aslanov A. Müasir Azərbaycan dilində qrammatik kateqoriyalar, Bakı: ADU, 1985
2. Hüseynzadə M. Müasir Azərbaycan dili. Morfologiya, Bakı: Maarif, 1983.
3. Xəlilov B. Müasir Azərbaycan dilinin morfologiyası, I hissə, Bakı: Elm, 2000
4. Məmmədli M. Azərbaycan dili şivələrində ismin qrammatik kateqoriyaları, Bakı: Elm, 2003
5. Müasir Azərbaycan dili. II hissə. Morfologiya, Bakı: Azərbaycan SSR EA nəşriyyatı, 1980.
6. Seyidov Y. Azərbaycan dilinin qrammatikası. Morfologiya, Bakı: Bakı Universiteti, 2000.
7. Zeynalov F. Türk dillərinin müqayisəli qrammatikası, I hissə (Fonetika. Leksika. Morfologiya), Bakı: "MBM" nəşriyyatı, 2008.
8. Аракин В.Д. Категория принадлежности // Сравнительно-историческая грамматика тюркских языков. Морфология, М.: Наука, 1988.
9. Аслиддинов С. Категория принадлежности на современном узбекском литературном языке, АКД, Самарканд: 1964.
10. Дмитриев Н.К. Категория принадлежности // Исследования по сравнительной грамматике тюркских языков, ч. 2, Морфология, М.: Издательство АН СССР, 1956.
11. Кононов А.Н. Грамматика современного турецкого литературного языка, М.-Л.: Издательство АН СССР, 1956.
12. Кононов А.Н. Грамматика современного узбекского литературного языка, М.-Л.: Издательство АН СССР, 1960.
13. Мусаев К.М. Грамматика караимского языка. Фонетика и морфология, М.: Наука, 1964.
14. Сабиров К.С. Имя существительное // Современный татарский литературный язык. Лексикология, фонетика, морфонология, М.: Наука, 1969. стр.
15. Садвакасов Г. Язык уйгуров Ферганской долины (Лексика, морфология и языковая интерференция), ч. 2, Алма-Ата: Издательство "Наука" казахской ССР, 1976.
16. Саруева М.Ф. Имя существительное // Грамматика ногайского языка. Фонетика и морфология, Черкесск: Карачаево-черкесское отделение Ставропольского книжного издательства,1973.
17. Тажмурадов Т. Категория принадлежности на современном туркменском языке, АКД, Ашхабад: 1959.

XÜLASƏ

Türk dillərində mənsubiyyət anlayışı müxtəlif üsullarla ifadə olunur. Bu üsulların içərisində morfoloji üsul xüsusi seçilsə də, digər üsullar da (morfoloji-sintaktik, sintaktik, morfoloji-leksik üsullar) bu kateqoriyanın meydana çıxmasında müəyyən rol oynayır. Məqalədə ayrı-ayrı türk dillərinin materialları əsasında mənsubiyyət anlayışının ifadə olunması xüsusiyyətlərindən bəhs olunur.

РЕЗЮМЕ

Категория понятия принадлежности понятие принадлежности в тюркских языках выражается различными способами. Хотя морфологический метод специально выбран среди этих методов, другие методы (морфолого-синтаксические, синтаксические, морфолого-лексические методы) играют определенную роль в возникновении этой категории. В статье рассказывается об особенностях выражения понятия принадлежности на основе материалов отдельных тюркских языков.

SUMMARY

Phonetic and grammatical standards gave the opportunity to study the importance of borrowings in enriching the vocabulary of a language

he enriching of a language should be investigated at least in three layers of assimilation.Phonetic,grammatical,and lexical-semantic.

RƏYÇİ: dos.S.Abbasova

Quliyeva Rəhilə Ruhulla qızı[9]

ƏRƏB DİLİNDƏ POLİSEMANTIK SÖZLƏRİN YARANMA YOLLARI VƏ İŞLƏDİLMƏSİ

(1 məqalə)

Giriş

Polisemantik sözlər mövzusu çox geniş mövzu olub, demək olar ki, bütün dillər üçün xarakterik olan bir xüsusiyyətdir.

Dillərin meydana gəlməsi çox qədim dövrlərə aiddir. Bu isə o demək deyildir ki, o, köhnənin aradan çıxması, yeninin yaranması yolu ilə formalaşmışdır. Əksinə o, ictimai quruluşun, istehsalın, elmin, mədəniyyətin və s. tərəqqisi hesabına lüğət tərkibinin zənginləşməsi yolu ilə köhnə dilin əsasında yaranır və inkişaf edir. Bu inkişaf prosesində dilin lüğət tərkibi köhnə sözlərdən, arxaizmlərdən azad olur, sözlərin mənaları dəyişir. Bunun nəticəsində də dil təkmilləşir və genişlənir.

Əsas hissə

Lüğət tərkibi dilin ən qeyri-sabit şöbələrindəndir. O, ardı-arası kəsilmədən dəyişikliklərə məruz qalır. Hər bir yenilik ilk növbədə özünü dilin lüğət tərkibində göstərir. Ərəb dili də digər dillər kmi arxaik və lazımsız sözlərdən azad olmuş, sözlərin mənaları daha da genişlənmiş və dilə yeni ifadələr daxil olmuşdur. Bu barədə müasir ərəb tədqiqatçılarından biri belə demişdir: "Hazırda ərəb ədəbi dili adlanan dil artıq islama qədərki ərəblərin danışdığı, yaxud Abbasilər dövründə işlənən dil deyildir".

Dilin lüğət fondu daxil olmaqla dildəki bütün sözlərin məcmuuna dilin lüğət tərkibi deyilir. Dilin lüğət tərkibi dilin mənzərəsini əks etdirir. Zənginlik və çoxtərəflilik səviyyəsindən asılı olaraq dil bir o qədər zəngin və inkişaf etmiş olur.

Söz dilin əsas vahidini, təməlini təşkil edir. Ayrı-ayrı sözlər, leksik ifadələr və qrammatik vasitələrin köməyi ilə cümlələr və əlaqəli mətn yaranır. Sözün bir və ya bir neçə leksik mənası ola bilər. Sözün çoxmənalılığı dilin nəzəri və praktiki cəhətdən yüksək inkişaf etmiş bir dil olduğunu göstərir. Belə ki, dildə çoxmənalı sözlərin olması xalqın dəqiqliyini, onun əqli və fantaziyasını, onun müqayisə etmə qabiliyyətini, əşya və hadisəni qarşı-qarşıya qoyma bacarığını, onun oxşar və fərqli cəhətləri ayırma məharətini göstərir. İlk növbədə çoxmənalı o sözlər olur ki, onlar bu və ya digər dilin öz məhsuludur və kənar dillərdən keçməmişdir. Başqa dillərdən keçən sözlər isə əksər hallarda təkmənalı olur (1, s.92).

Ərəb dilində çoxmənalı sözlər çoxdur. Bəlkə də, bu cəhətdən o, dünyada ən zəngin dillərdən biri hesab edilə bilər. Sözlərin çoxmənalılığına misal olaraq külli miqdarda söz göstərmək olar. Məsələn (2, s.117,123,131).

ترك (u)

1) qoyub getmək, tərk etmək;
2) irs qoymaq;
3) atmaq;
4) imtina etmək;
5) vermək, icazə vermək.

ثبت (u)

1) möhkəmləndirmək;
2) vurmaq, bağlamaq, təhkim etmək;
3) təsdiq etmək, bərkitmək;
4) sübut etmək;
5) faktı müəyyənləşdirmək;
6) nizama salmaq, sabitləşdirmək;
7) foto (фиксировать) fokuslamaq.

بيان

1) aydınlıq;
2) izahetmə, izah;
3) bildiriş;
4) ərizə, bəyannamə;
5) müraciətnamə;
6) quruluşca gözəl;
7) məlumat, məruzə;
8) proqram.

İnsanlar bir-biri ilə ünsiyyətdə olduqda və ya hər hansı bir mətni oxuduqda çoxmənalı sözlərin danışığa və mətnə uyğun mənasını başa düşməkdə və seçməkdə çətinlik çəkmirlər. Bu onu göstərir ki, çoxmənalı sözlərin xalq arasında böyük praktiki əhəmiyyəti vardır. İnsanlar ifadə etmək istədiyi fikrin çoxmənalı sözlərin köməyi, onların müxtəlif məcazi mənalarının və çalarlıqlarının vasitəsi ilə ifadə edirlər. Bu onların nitqini və yazısını zənginləşdirir və dilin nə dərəcədə oynaq, lakonik olduğunu sübut edir. Çoxmənalı sözlərin xeyri praktik cəhətdən artıq çoxdan sübut olunmuşdur. Az sözlə çoxlu məna və məna çalarlıqları ifadə etmək bu dilin üstünlüyünü, onun xalqın təfəkkürü və fantaziyası, əqli və mənşəi ilə nə

[9] Bakı Dövlət Universiteti, baş müəllim zhala0325@mail.ru

dərəcədə bağlı olduğunu praktik cəhətdən sübut edir. Məhz, xalqın həyat və məişəti ilə əlaqədar olan sözlərin mənaları daha çox olur. Bunu sübut etmək üçün bir neçə misal göstərək:

(ساقة) سائق

1) qovan, aparan
2) sürücü
   سائق السيارة – sürücü (maşın)
   سائق القطار – maşinist
   سائق الطائرة – pilot
3) arabaçı, faytonçu
4) çarvadar

(ات) شذرة

1) zərrə, qətrə, dənəcik, qırıntı
2) xırda, xırda pul, əhəmiyyətsiz şey
3) azacıq, bir qədər, bir az, bir parça
   شذرة من تأريخ حياته – (kimin isə) tərcümeyi-halından bir parça

(صرحاء) صريح

1) aydın danışan
2) aydın, müəyyən olunmuş
3) açıq, səmimi, əsil
4) təmiz.
   العرب الصرحاء - əsil ərəblər (чистокровные арабы).

(مصاريع) مصراع

1) açar - فتح الباب على مصاريعه
   Qapını taybatay açmaq
2) misra (şeirdə)

Bu misallardan aydın olur ki, xalqın həyatında dərin kök salmış, artıq praktik cəhətdən sınaqdan çıxmış sözlərin daha çox mənası olur.

Müəyyən bir əşyaya onun bu və ya digər əlamətinə görə ad verilir, sonra isə həmin ad əşya və ya hadisənin bütövünü bildirir. Lakin sonralar sözün ibtidai (etimoloji) mənası unudula bilir. Əşya və hadisələrə verilən adlar təsadüfi əmələ gəlmir. Əgər belə olsaydı, onda dil təfəkkürlə əlaqədar olmazdı. Həmçinin bir əşyada olan müəyyən bir əlamət ikinci başqa bir əşyada da ola bilər. Belə olduğu halda II əşyanın adı birinci əşyanın adı ilə adlana bilər. Bunun nəticəsində dildə müxtəlif əşyaların oxşar əlamətlərini bildirən eyni səs komplekslərindən ibarət sözlər əmələ gəlir. Məsələn:

أنف الانسان – burun (insanda)
انف الجبل – burun (dağda)
انف السفينة – burun (gəmidə)
فم الانسان – ağız (insanda)
فم النهر – ağız (çayda)
اصل الشجرة – kök (ağacda)
اصل الكلمة – kök (sözdə)

Əksər hallarda sözün mənası dəyişilərkən o, öz yeni mənası ilə bərabər köhnə mənasını da saxlayır. Əsas semasiologiya qanunlarından biri odur ki, hər hansı səs kompleksi (dildə söz kimi işlədilən) yalnız bir sözün əmələ gəlməsi və ya bir mənanın ifadəsi üçün dil materialı olmur, eyni zamanda bir neçə mənanı ifadə edə bilir. Beləliklə də sözün çoxmənalılığa doğru meyli dilin dəyişməz xüsusiyyətini təşkil edir. Sözlərin bu spesifik xüsusiyyəti imkan yaradır ki, dil öz daxili ehtiyyatına qənaət etsin. Əgər insan fikrində yaranan hər hansı bir anlayışı xüsusi səs kompleksi ilə ifadə etmək mümkün olsaydı, o zaman dilin lüğət tərkibi hədsiz dərəcədə geniş olardı. Bu da dilin mənimsənilməsini çətinləşdirərdi (3, s.47).

Semasiologiyanın ikinci əsas qanunu isə çoxmənalılığın qarşılıqlı təsiri və sinonimləridir ki, o da dildəki polisemiyanın həddindən artıq inkişafının qarşısını alardı.

Dildə semantik inkişafın bu qanunauyğunluqları ərəb dili üçün də xarakterikdir. Bu dildə də eyni səs komplekslərı ilə müxtəlif mənalar ifadə oluna bilər. Məs.: برق – sözünün səs kompleksi həm “şimşək”, həm “parıltı”, həm də “teleqraf” mənalarını verir.

"جامد" – sözünü götürək. Onun ilk mənası “quru” olmuşdur. Sonralar həmin səs kompleksi birinci mənanı saxlamaqla, daha bir neçə məna ifadə etmişdir. Bunlar “bərk”, “donuq”, “hərəkətsiz”, “həyatsız”, “qeyri-üzvi”, “dəyişilməz” və “sabit” mənalarıdır.

Firuzabadinin lüğətində "تجريد" – sözünün ilk mənası “quraqlıq yer”, “bitkidən xali olan yer” deməkdir. İndi isə həmin səs kompleksi “məhrum etmə”, “dərisini soyma”, “çılpaq olma”, “qılıncı qınından sıyırma” mənalarını ifadə edir.

Sözün mənası öz mahiyyətinə görə əsrlərin məhsuludur. Elə buna görə də sözün mənası çox zaman sabit olur. Buradan heç də elə nəticə çıxmır ki, sözün mənası dəyişilmir. Sözün mənası dəyişilir, lakin bu dəyişmə özbaşına əmələ gəlmir. Cəmiyyətin ictimai-siyasi quruluşu, onun dünyagörüşü və s. ilə əlaqədar olaraq gedən bir prosesdir.

Söz tarixən bir cəmiyyətdə birləşmiş bu və ya digər insan kollektivi tərəfindən başa düşülən, varlığın və onun hissələrinin mövcudiyyətini əks etdirən qrammatik cəhətdən formalaşmış nitqimizin bir leksik vahidindən ibarətdir (4, s.21).

"Bağ" sözü bütün xalqlarda eyni məfhumu bildirdiyi halda, hər bir xalq onu müxtəlif səs kompleksi ilə ifadə edir. Məs.: Azərbaycan dilində - bağ, bağça; rus dilində - sad; ərəbcə (حديقة) hadiqatun; ingiliscə - (qarden) qaden.

Bundan başqa hər hansı bir dilin özündə də eyni məfhum müxtəlif səs kompleksi ilə ifadə oluna bilər. Məs.: simic – xəsis.

Eyni məfhumun müxəlif səs kompleksi ilə ifadəsinə aid misallar:

1) Ox – نشابة، نبلة، سهم
2) Havayı – بلا مقابل، بدون تمن، مجانا
3) Hədiyyə - نبوغ، تحفة، قريحة، موهبة
4) Bənd – حبس، جسر، سد
5) İsti - حام، حار
6) Pavilyon – جناح، سرادق، كشك
7) Səhv – عترة، صقط، زلّة، غلط، خطأ

Söz bir dildə danışan xalqın tarixi ilə əlaqədar olaraq hər hansı bir əşyanın, əlamətin, hadisənin, hərəkətin və s. adını ifadə etmək üçün müəyyənləşdirilmiş səs komplekslərindən ibarətdir.

Əşya, əlamət, keyfiyyət, hərəkət və s. bildirən səs komplekslori birdən-birə, hazır şəkildə haradansa alınma bir yolla meydana gəlməmişdir. Bunlar müəyyən bir ictimai hadisə, əlaqə və münasibət nəticəsində, bu və ya digər şəkildə ortaya çıxmışdır. Beləliklə, dildə sözlərin yaranması prosesi tarixi bir xarakterə malikdir. Yəni sözlərin yaranma prosesi bir xalqın yaranması ilə bağlı olaraq, onun bütün inkişafı ilə əlaqədar yaranmaqda davam edən bir prosesdən ibarətdir.

Təbiidir ki, müasir ərəb dilinin zəngin lüğət fondu da belə böyük tarixi inkişaf yolu keçmişdir. Əgər bu nöqteyi-nəzərdən sözlərə nəzər salınarsa, aydın olar ki, hər bir sözün özünə məxsus yaranma tarixi vardır. Məlumdur ki, dini abidə olan Quranın sayəsində ərəb ədəbi dilinin lüğət fondunun əsas və mühüm hissəsi dəyişilməmiş qalmışdır. Lakin bir çox sözlərin işlədilmə dairəsi genişlənmiş, çoxmənalı olmuş, daha doğrusu, bu sözlər daha ümumi və daha geniş mənalar kəsb etmişdir.

Məsələn: əvvəllər "bəhrə vermək" mənasını ifadə edən "انتج" feili müasir ərəb ədəbi dilində "istehsal etmək", "nəticə vermək" və s. mənalar ifadə edir.

Müasir ərəb ədəbi dili klassik ərəb dili əsasında formalaşmışdır.

Qeyd etdiyimiz kimi, ərəb dilinin lüğət tərkibinin əsas və mühüm hissəsi onun tarixi boyu dəyişilməmiş qalsa da, ərəblərin həyatında baş verən dəyişikliklər dildə öz əksini tapmış, köhnəlmiş sözlərin (بازل) – 9 yaşlı dəvə; (ذارع) - əla növ dəvə; və lazımsız sinonimlərin, məsələn; (طويل) mənasında işlədilən (امسق، اشق) çıxmasına səbəb olmuşdur. Bundan başqa bir sıra sözlərin mənaları daralmışdır. Məs.:

Oğlan (uşağı) - uşaq, körpə - ولد

Həmçinin bir sıra sözlər də mənalarının genişlənməsi nəticəsində yeni anlayışlar bildirməyə başlamışdır. Məsələn:

Qatar – karvan – قطار
Maşın – planet – سيارة
Səhnə - həyət – صحنة
Teleqraf – şimşək – برق
Kafedra – stul – كرسى
Telefon – qeybdən gələn səs – هاتف
Tur, gediş – gəzinti – جولة
Klaviş - barmaqlar – اصابيع
Səhm, pay – ox – سهم
Vena, anat – rabitə, əlaqə - ip – حبل
İdarə - cəmiyyət – iclas – iclas (salonu), yer – مجلس
İsti su, tər - حميم
Gərginlik, el – cəhd, zəhmət – جهد
Quranın 30/1 hissəsi – hissə, pay – جزء
Kassa – xəzinə - خزينة
Aristokrat – şəxsi mülkiyyət – xarakterik – xüsusiyyət – خاصة

Buradan aydın olur ki, hər hansı sözün mənalarından birisi əsas, qalanları isə ondan törəmiş olur. Bir neçə məna ifadə edən sözlərə çoxmənalı, yaxud polisemantik sözlər deyilir. Ərəb dilində çoxmənalı sözlərə (الكلمات العديدة المعانى) deyilir.

Sözün çoxmənalılığının əmələ gəlməsi üçün eyni səs tərkibindən ibarət olan sözün müxtəlif mənalarda işlədilə bilməsi əsas şərtdir. Bu da müəyyən bir əşya və hadisənin adının başqa bir əşya və hadisəyə keçə bilməsi ilə əmlə gəlir. Çoxmənalı sözlər bu və ya başqa bir əşyanın, hadisənin, prosesin, keyfiyyətin və sairənin adını ifadə edən müəyyən səs tərkiblərinin başqa bir əşyanın, hadisənin, prosesin, keyfiyyətin və sairənin adını ifadə edən müəyyən səs tərkiblərinin başqa bir əşyada,

hadisədə, prosesdə, keyfiyyətdə və s. olan oxşar əlamət və vəzifənin adını ifadə etməyə keçməsi ilə əmələ gəlir. Deməli, sözlərin bir mənadan başqa mənaya keçməsinin müxtəlif yolları vardır (5, s.47).

Məlum olduğu kimi, ruslar bir vaxt "quş" lələyi ilə yazarmışlar. Buna da "pero" deyirdilər. Metal perolar ixtira olunduqdan sonra quş lələyi ilə yazmırdılar, deməli, köhnə "pero" adı yeni əşyaya keçdi, halbuki, quş lələyi ilə metal "pero" arasında material cəhətdən heç bir oxşarlıq yoxdur. Lakin bunların arasında vəzifə birliyi vardır.

"Qanad" sözü hər hansı bir uçmaq qabiliyyətinə malik olan quşun qanadını bildirir. Bu söz eyni zamanda "təyyarənin" bir hissəsini və sərginin bir hissəsini bildirir. Ərəb dilində həm quşun qanadını, həm təyyarənin qanadını, həm də pavilyonu "جناح" adlandırırlar. Sözlərin bir anlayışdan digərinə keçməsi onların çoxmənalılığını əmələ gətirir.

Ərəb dilində sözlərin semantik inkişafı əsasən mənaların genişlənməsi hesabına baş verir. "اديم" sözünün ilk mənası "dəri" olmuşdur. Sonralar ilk məna ilə yanaşı "qalıq" (ağacda); "torpaq", "yer", "səth", "üz" mənalarında da işlədilmişdir. "قضية" sözü "sual", "problem", "iş", "hadisə", "məhkəmə işi", "teorem", "tezis" mənalarını ifadə edir (6, s.91, 92).

"قطار" sözü "dəvə qatarı", "karvan" mənalarını ifadə edir. Bu söz hal-hazırda "qatar" mənasında işlədilir. "Karvan" mənasında isə daha çox "قافلة" sözü işlədilir ki, bu da semantik inkişaf nəticəsində "cərgə", "səf" (nümayişdə) mənasını kəsb etmişdir. Əvvəllər "təyyarə" ilə "təyyarəçi" sözü eyni formadan, فَعَّال formasından düzəldilmişdi: طيار – pilot, طيارة – təyyarə mənasında işlədilirdi. Sonralar formaların differensiyası baş verdi. Bununla əlaqədar olaraq "təyyarə" sözü طائرة – formasını aldı.

Nəticə

Nəticə olaraq deyə bilərik ki, polisemantik sözlər mövzusu çox geniş mövzu olub, demək ola ki, bütün dillər üçün xarakterik bir xüsusiyyətdir.

Ərəb dilindəki polisemantik sözlərin böyük bir hissəsini isimlər və feillər təşkil edir. Çünki, bu dildə isim və feillər digər nitq hissələrinə nisbətən daha çox işlənir. Sözlərin semantik inkişafı əsasən mənaların genişlənməsi hesabına baş verir. Dildə semantik inkişafın bu qanunauyğunluqları ərəb dili üçün də xarakterikdir. Bu dildə də eyni səs kompleksləri ilə müxtəlif mənalar ifadə oluna bilir. Dildə polisemantik sözlərin çoxluğu həmin dilin mənimsənilməsini asanlaşdırır. Bir sözlə bir neçə məfhumu ifadə etmək dilin nə dərəcədə təfəkkürlə əlaqədar olduğunu, lakonikliyini göstərir.

Polisemantik sözlər və onların yaranması haqqında verilən məlumatlar göstərir ki, çoxmənalı sözlərin bir mənası əsas yerı tutaraq müstəqil mənada, onun qalan mənaları isə köçürmə və ya məcazi mənalarda işlədilir.

Ədəbiyyat siyahısı:

1. Məmmədov N. Dilçiliyin əsasları. Bakı: 1961, 365 s.
2. Баранов Х.К. Арабско-русский словарь. Москва: 1962, 1186 s.
3. Cəfərov S. Azərbaycan dilinin leksikası. Bakı: 1967, 270 s.
4. Дегтерова Г.А. Законы семантических развития в языке. 223 с.
5. Колшанский Г.В. О природе контекста. Вопросы языкознания, 1959, №4, 290 с.
6. Шарбатов Г.Ш. Современный арабский язык. Москва: 1967, 380 с.
7. Галкина – Федорун Е.М. Современный русский язык. М.: 1958, 296 с.
8. Шарафатдинова Р.Ш. Семитские языки. II ч. 1965, 250 с.
9. Юшманов Н.В. Строй арабского языка. Л.: 1938, 240 с.
10. Халидов Б.З. Учебник арабского языка. Ташкент: 1965, 368 с.
11. Муравитская М.П. Материалы для спецкурсов и спецсеминаров по лексикологии. Киев: Изд. Ун-та, 1964, 187 с.
12. Звегинцев В.Я. История арабского язкознания. Изд. Моск. Ун-та, 1958, 370 с.
13. كراتشكوفكى. دراسات فى الادب العربى. ٤٥٠ ص.
14. الزمخشرى. اساس البلاغة. ٣٨٥ ص.
15. المنجد. ٧١٠ ص.
16. الصيروز آبادى. القاموس المحيط. ٣٨٠ ص.

Возникновение полисемантических слов в арабском языке и их использование

РЕЗЮМЕ

Большую часть многозначных слов в арабском языке составляют существительные и глаголы. Потому что в этом языке существительные и глаголы используются больше, чем другие части речи. Семантическое развитие слов происходит в основном за счёт расширения значений. Большое количество многозначных слов в языке облегчает изучение этого языка. Выражение нескольких понятий одним словом показывает, насколько язык связан с мышлением, его краткостью.

Приведенные сведения о многозначных словах и их образования показывают, что одно значение многозначных слов занимает основное место и употребляется в самостоятельном значении, а остальные его значенияупотребляются в переносных или метафорических значениях.

Ключевые слова: *семантическое развитие, расширение значений, сочетаемость, различие, полисемантический признак, словарный состав.*

Ways of formation and use of polysemantic words in Arabic summary

SUMMARY

A large part of polysemantic words in Arabic are nouns and verbs. Because in this language, nouns and verbs are used more than other parts of speech. The semantic development of words takes place mainly due to the expansion of meanings. The abundance of polysemantic words in the language makes learning that language easier. Expressing several concepts in one word show the extent to which the language is related to thinking and its locanicity.

The information given about polysemantic words and their formation shows that one meaning of polysemantic words is used in an independent sense taking the main place, and the rest of its meanings are used in transfer or metaphoric meanings.

Key words: *semantic development, expansion of meanings, compatibility, difference, polysemantic feature, vocabulary compasition*

Rəyçi: dos. N. Əfəndiyeva

Ayşən Fizuli qızı İsmayıllı[10]

QARABAĞ BÖLGƏSİNDƏKİ ORNİTONİMLƏRDƏN ƏMƏLƏ GƏLƏN MİKROTOPONİMLƏRİN LEKSİK-SEMANTİK XÜSUSİYYƏTLƏRİ

Giriş. Ornitonimlərdən əmələ gələn mikrotoponimlər haqqında müxtəlif fikirlər qeydə alınmışdır. Ornitonim mənşəli etnonimləri tədqiq edən İlhami Cəfərsoyun fikrincə, "Türk dillərinin onomaloji leksikasının mühüm bir hissəsini ornitonim mənşəli etnonimlər təşkil edir. Türk etnosları quşlara tapınmış, onları özlərinə ərvah (töz) bilmiş, özlərini həmin ornitonimlərlə adlandırmışlar" [9, s. 181].

Fikrət Xalıqov yazır: "Türkdilli xalqların mifologiyasında quşlara inam, onların həyatın rəmzi, ilkin başlanğıcın əsas amillərindən olması və s. əlamətləri ilə bağlı şifahi xalq ədəbiyyatında çoxlu nümunələr vardır. Ümumiyyətlə, quşlara inam, onların mifikləşdirilməsi dünya xalqlarının əksəriyyətinin ilkin təsəvvürlərində, təfəkkür tərzində, mifoloji dünyagörüşlərində əsas yer tutur" [8, s. 147].

Zoonimlərdən (totemlərdən) törənən etnonimləri araşdıran Elmira Əhmədova hesab edir ki, "Azərbaycan etnonimiyasında xalqımızın qədim mifik təfəkkürü ilə sıx bağlı olan totemlərdən düzələn etnonimlərə, az da olsa, rast gəlinir. Məlum olduğu kimi, qədim dövrlərdən hər bir tayfanın özünəməxsus onqonu (totemi) olmuş, bir çoxları öz adını həmin adlardan almışlar. Türkdilli xalqlarda, o cümlədən azərbaycanlılarda ilan, qoyun, şahin (toğan), qurd və sairənin totem olması, onlara sitayiş edilməsini tarixi fakt və tədqiqatlar da təsdiq edir. Bunun izlərinə etibarlı mənbələrdən saydığımız bəzi zooetnotoponimlərin tərkibində rast gəlirik" [5, s. 81].

Afad Qurbanov isə bildirir ki, zootoponimlər Azərbaycan toponimik sistemində azlıq təşkil edir. Dilimizin zooloji leksikası təkcə toponimlərə deyil, antroponimlərə, məsələn, Tovuz, Göyərçin, Ceyran, Maral (qadın adları) və etnonimlərə də Quşçu, Qaraqoyunlu, Ağqoyunlu (tayfa adları) təsir göstərir [10, s. 195].

Əsas hissə. Qarabağ bölgəsində qeydə alınan ornitonimlərin bəzisi heyvan və quşlara tapınmanın nəticəsində, həmin adları qəbilələrin, tayfaların, nəsillərin götürməsi nəticəsində etnonimə çevrilmiş və daha sonra toponim olmuşdur. Müəyyən hissəsi isə ərazidə həmin heyvanın və quşun çox olması və ya görünməsi ilə əlaqədardır. Məsələn: Qarqar körpüsü, Laçın qayası kimi mikrotoponimlərin əsası quş adlarıdır, yəni bu mikrotoponimlər ornitonim mənşəlidir.

Qarabağ bölgəsində rast gəlinən ornitonim mənşəli mikrotoponimlərə bunları aid etmək olar: Xaçın körpüsü, Qarqar körpüsü, Sərçəli təpə, Laçın qaya, Qaraquş təpəsi, Çalağantəpə, Göyərçinqonan təpə (Ağdam rayonu); Xoruztəpə, Sərçəli dərəsi, Qarqar silsiləsi (Xocalı rayonu); Qarğalı çöl, Qarğabazar karvansarası, Quştəpə, Quşoturan (Füzuli rayonu); Quzğunlu qaya, Laçın qayası, Laçın silsiləsi, Sağsağan silsiləsi (Şuşa şəhəri), Quştəpə, Torağay dərəsi, Çalağan təpə (Ağcabədi rayonu) və s.

Bu mikrotoponimlərin bəzisinə diqqət yetirək:

Sərçəli təpə. Xocalı rayonu ərazisində qeydə alınmışdır. Mikrotoponim quş adı əsasında əmələ gəlmişdir. Oronimlər arasında yüzlərlə belə toponimik vahid vardır. Sərçəlitəpə də onlardan biridir. Zoonimdən əmələ gələn mikrotoponim Papravənd kəndindədir. Sərçəlitəpə ona görə belə adlanmışdır ki, həmin yerdə sərçələr çox olmuşdur.

Bəşir Əhmədov sərçə apelyativinin linqvistik aspektdən təhlilini verir: "Bu quşun adı onun çıxardığı səslə bağlıdır. Bir sıra türk dillərində sərçə yerinə cib-cib, cıpçıq, cik-cik kimi sözlər işlədilir. Görünür, sərçə həmin sözlərin dəyişmiş formasıdır. Tatarıstan dilçiləri özlərinin işlətdikləri cıpçıq kəlməsini quşun çıxartdığı səs əsasında izah edirlər. Özbəklər bunun yerinə, çimçuq işlədirlər" [7, s. 225]. Sərçə zoonimi müxtəlif fonetik dəyişikliyə uğrayaraq işlənmişdir.

Zoonim oğuzların və digər türk tayfalarının tarixi qaynaqlarından olan "Oğuznamə" də qeydə alınmışdır: "Sərçədən qorqan darı əkməz; Sərçəyə civ-civ ögrətmə" [13, s. 109-111].

Sərçə komponentli oronimlərdən bəhs edən Nadir Məmmədov yazır ki, Ağdaşda Sərçəli dərə, Xanlarda, Salahlıda Sərçəbazar dərəsi, Füzulidə Sərçə təpəsi, Kəlbəcərdə Sərçəli dağ, Sərçəbazar dərəsi (Samux rayonu, Salahlı kəndi), Sərçəlidağ (Şəki rayonu), Sərçəli dərə (Ağdaş rayonu, Ərəb kəndi), Sərçəli təpə (Ağdam rayonu, Papravənd kəndi), Sərçəli məhəlləsi (Masallı rayonu Ramazanlı məhəlləsi) [11, s. 244].

Sərçə sözü ilə bağlı olaraq el-oba adından bəhs edən B.Budaqov və Q.Qeybullayev paralelləri göstərirlər: "Sərçəbet Tiflis quberniyasının Borçalı qəzasında (indi Ermənistanın Taşir rayonunda) kənd adıdır; Sərçələr İrəvan xanlığının Zəngəzur mahalında kənd adı; Sərçəli 1590-cı ildə Rəvan əyalətinin Zebil nahiyəsində yarpaq adıdır. "Sarıcalı" adının təhrifidir. Torpağın sarı rəngə çalması ilə əlaqədardır. Şəki rayonunda Sərçəli dağ, Ağdam rayonunda Sərçəlidərə (ərəb kəndi) və Sərçəlitəpə (Papravənd) və b. adları ilə mənaca eynidir" [3, s. 369]. Fikirdən aydın olur ki, mikrotoponimin yayılma arealı genişdir.

Türkiyədə Sərçəboğazı Ərzurum; Sərçəkənd Aydın; Sərçələr Bucağı Bursa, Bismil, Dəmirçi, Manisa; Sərçəörən Balıkesir ərazisində kəndlər qeydə alınmışdır. Sərçə oniminin iştirak etdiyi toponimik vahidlər Türkiyə, Qərbi Azərbaycan (indiki Ermənistan) ərazisində arealları zəngindir. Hesab edirik ki, mikrotoponimi "sərçələrin çox olduğu təpə" kimi izah etmək olar.

Qarqar silsiləsi. Xocalı rayonunda rast gəlinən mikrotoponimlərdən biri Qarqar düzüdür. Toponimik vahidin adına orta əsr mənbələrində rast gəlinir. Mikrotoponim eyniadlı tayfanın adı ilə əlaqədardır. Bu etnonim də quş adından əmələ

[10] Nəsimi adına Dilçilik İnstitutunun doktorantı. aysheaxmedova4@gmail.com

gəlmişdir. Qarqar onomastik vahidi ilə bağlı müxtəlif fikirlər mövcuddur. O, Qarqar, karkar, gərgər kimi fonetik formalarda qeydə alınmışdır.

İlhami Cəfərsoy qeyd edir ki, Qafqaz və Anadolunun ən qədim etnoslarından olan qarqarlar haqqında çox yazılmış, ancaq onun ornitonim mənşəyi haqqında bir söz deyilməmişdir [9, s. 215].

Nazim Mustafa və Aydın Əliyev həmin tayfa adı ilə bağlı bu fikirləri bildirir: "Tarixdən məlumdur ki, III Ur sülaləsi (XXII-XXI əsrlər) çarlarının tutduqları yaşayış məskənləri sırasında Karxar yaşayış məntəqəsinin də adı var. Qarqarların bir hissəsinin Livanın quzeyindəki Oront çayı hövzəsində Karkar adlı yeni yurd yeri salmaları haqqında tarixi mənbələrdə məlumatlar verilmişdir. Miladdan əvvəl II minillikdə bəzi qarqar boyları Kiçik Asiyanın batı və Güney-batı ərazilərində yaşamışlar. III Salmanasarın 853-cü il yürüşü tarixə "Karkar döyüşü" kimi də düşmüşdür" [12, s. 159].

Afad Qurbanov mənbə və məxəzlərə əsaslanaraq qeyd edir ki, qədim mənbələrdə Albaniya ərazisində qarqar tayfası III əsr hadisələri ilə əlaqədar olaraq yad olunur. Lakin "Alban tarixi"ndəki qarqarlarla əlaqədar bəzi faktlar (I-II əsrlərdə qarqarların içərisində "xristianlığın yayılması, onların Makedoniyalı İsgəndərin dövründə buraya köçürülməsi və s. göstərir ki, qarqarlar Azərbaycan ərazisində daha qədimdən məlumdur. Bunu belə bir məlumatdan da görmək olar ki, Şimali Qafqazda qarqarların eradan əvvəlki əsrlərdə yaşadığı göstərilir" [10, s. 261-262].

Bu tayfalar Qarqar çayı sahilində yaşadığı üçün hidronimin adında qarqar etnonimi mühafizə olunmuşdur. Qarqar düzü bir zamanlar həmin ərazilərdə yaşayan Alban tayfalarının adını əks etdirir.

Nadir Məmmədova görə, "Bəzi tədqiqatçılar qarqarları etnik mənsubiyyətcə çeçen inquşların, digərləri isə rutul-saxurların ulu babaları hesab edirlər. Lakin Q.Ə.Qeybullayev və K.H.Əliyev qarqarların türkdilli olduğunu yazırlar. Qarqar tayfasının türkdilli olması ən əvvəl qarqar etnonimi ilə əlaqədar toponimlərin başqa türk xalqlarının yaşadığı ərazilərdə rast gəlinməsi və həmin türkdilli əhalinin yaşaması ilə təsdiq olunur" [11, s. 354]. Nadir Məmmədovun fikrindən aydın olur ki, qarqarların soykökü ilə bağlı ziddiyyətli məlumatlara rast gəlinir.

Elmira Əhmədova hesab edir ki, Azərbaycan, o cümlədən türkdilli xalqlar yaşayan ərazilərdə mövcud olan Qarqar, Gərgər, Hep-hep, Hop-hop toponimlər "qarqar" etnoniminin müxtəlif fonetik dəyişikliyə uğramış formalarıdır [6, s. 57]. Bu fonetik təhriflər özünü başqa ərazilərdə də göstərir.

"Keçən əsrə aid məlumata görə, Qarqar adlı çay və Qarqaris adlı dağ Tiflis quberniyasının Tnoneti və Axalcıx qəzalarında, Qarqara adlı dağ Dağıstanın Kürə nahiyəsi, Karkar meydan adlı kənd Teymurxanşura dairəsində və Karkardaş, Karkartəpə, Karkardağ Şimali Qafqazda mövcud olmuşdur" [2, s. 40].

Azərbaycan ərazisində Qarabağın Şuşa, Xocalı, Ağcabədi rayonlarında çay, Xocavənddə Qarqar kəndi qeydə alınmışdır. Deyilən fikirləri əsas tutaraq belə nəticəyə gələ bilərik ki, Qarqar körpüsü tayfa adı əsasında əmələ gəlmişdir. Tayfa öz adını ornitonimdən götürmüşdür. Qarqar etnonimi və ondan yaranan el-oba adları düz, dağ, çay haqqında müxtəlif mülahizələr irəli sürülmüşdür və tarixi dövr ərzində fonetik təhrifə uğrayaraq işlənmişdir. Fikrimizcə, əvvəlcə tayfanın quş adı alması nəticəsində etnonim yaranmış, daha sonra mikrotoponimə çevrilmişdir. Mikrotoponimi "qarqar tayfasına aid olan körpü" kimi izah etmək olar.

Çalağan təpə. Ağcabədi rayonunda qeydə alınan mikrotoponimlərdən biri də Çalağan qayadır. Çalağan quş növüdür. Daha çox meşələrdə və açıq ərazilərdə olur. Qaya isə müsbət relyef formasıdır. Çalağan quşunun adı ilə bağlı olaraq Ağdam rayonunda yaşayış yerinə rast gəlinir. "Abidə Ağcabədi rayonunun Boyat kəndinin cənub-qərbində, Ağdam-Hindarx şosse yolundan 190 m cənubda, Ağdam rayonu Əfətli kəndinin əkin sahələri arasında yerləşir. Bu şimal-cənub istiqamətində azca uzanmış, diametrləri 75x40 m, hündürlüyü 2,5 m olan təpədir" [1, s. 227]

Respublikamızda çalağan quşunun adı ilə bağlı olaraq zootoponimlər qeydə alınmışdır: Çalağan dağı, Çalağan təpəsi, Çalağan yalı, Çalağantəpə (Ağdam rayonu), Çalağan dərə, Çalağan qaya (Laçın rayonu), Çalağan Güney (Kəlbəcər rayonu), Çalağan təpə (Biləsuvar rayonu), Çalağançay (Oğuz rayonu), Çalağan dağı (Xocavənd rayonu).

Sağsağan silsiləsi. Şuşa şəhərində qeydə alınan mikrotoponimlərdən biridir. Mikrotoponim ərazidə sağsağanların çox olması ilə bağlı olaraq belə adlanmışdır. Daha çox meşəlik və insanlara yaxın ərazilərdə yaşayırlar. Sağsağanlar ailəsinə aid olan quşdur.

Nadir Məmmədov quşun adı ilə bağlı olaraq toponimləri qeyd edir: "Oroqrafik obyektlərə Sağsağan qayası (Kəlbəcər rayonu), Sağsağan dağı (Əsgəran, Laçın və Şuşa rayonu), Sağsağan dərəsi (Qazax rayonu), Sağsağan silsiləsi (Qarabağ silsiləsinin şimal-şərq qolu) və s. aid edilir" [11, s. 244]. Hesab edirik ki, mikrotoponimi "sağsağanlar çox olan qaya" kimi izah etmək olar.

Göyərçinqonan təpə. Mikrotoponim Ağdam rayonu ərazisində qeydə alınmışdır. Kaha qayalıq ərazilərdə, dağda oyuqlardır və ya mağaradır. Kaha müsbət relyef formasıdır.

Mirəli Seyidova istinad edən Fikrət Xalıqov yazır: "Müəllifin fikrincə, göyərçin türk xalqlarının bəzilərində sevib-sevilmək, məhəbbət rəmzi olmuşdur. Kömək duran, əl tutan göyərçinlər qərinələrin fikirlər, görüşlər, inamlar mübarizəsindən, qəbilə birləşmələrinin qaynayıb-qarışdıqları çağın keşməkeşlərindən bu günə kimi gəlmiş göyərçin zoomorfik toteminin izləri, qalıqlarıdır" [8, s. 149].

Nadir Məmmədov göyərçin ornitonimi ilə əlaqədar yer adlarını göstərir: "Bu adla bağlı aşağıdakı obyektlər məlumdur: Göyərçin qayası (Goranboy, Laçın, Samux rayonları), Göyərçinli dağ (Abşeron və Cəbrayıl rayonları), Göyərçinli təpə (Laçın rayonu Minkənd kəndi) və s." [11, s. 244]. Həmçinin Azərbaycan ərazisində Göyərçin dağı (Qazax), Göyərçin palçıq vulkanı (Qobustan), Göyərçin Veysəlli kəndi (Cəbrayıl) qeydə alınmışdır. Fikrimizcə, mikrotoponimi "göyərçin olan qaya və ya mağara" şəklində mənalandırmaq olar.

Nəticə. Qarabağ bölgəsi özünəməxsus relyef quruluşu, flora və faunasına görə fərqlənir. Bu isə ərazidə müxtəlif heyvanların və quşların mövcud olmasına şərait yaradır. Heyvan, həşərat, quş və s. adlarını bildirən onimlər zootoponimlər adlanır. Qarabağ bölgəsinin mikrotoponimik sisteminin çox az qismini ornitonimlərdən əmələ gələn onimlər əhatə edir. Tədqiqat nəticəsində aydın olmuşdur ki, təhlilə cəlb olunan ornitonimlər birbaşa və dolayı şəkildə yarana bilir. Qarabağ bölgəsində ornitonimlərdən əmələ gələn mikrotoponimlər toponimik leksikada mühüm əhəmiyyətə malikdir. Leksik-semantik xüsusiyyətlərinə əsasən fərqlənən ornitonimlər müxtəlif nitq hissələrinə aid ola bilir. Bu mikrotoponimlərin (Sərçəli təpə, Qarqar silsiləsi, Çalağan təpə, Sağsağan silsiləsi, Göyərçinqonan təpə) linqvistik aspektdən araşdırılması olduqca gərəklidir. İndiyə qədər ornitonim mənşəli mikrotoponimlərlə bağlı olaraq müəyyən araşdırmalar aparılıb. Lakin ətraflı tədqiqat aparılmamışdır. Ona görə də elmi nailiyyətlər əldə etmək üçün daha dərin təhlilə ehtiyac vardır.

İstifadə olunmuş ədəbiyyat

1. Alməmmədov X. Qarabağın arxeoloji abidələri toplusu. I kitab. Bakı: Çap Art, 2016, 448 s.
2. Azərbaycan toponimlərinin ensiklopedik lüğəti. İki cilddə. II cild. Bakı: Şərq-Qərb, 2007, 304 s.
3. Budaqov B., Qeybullayev Q. Ermənistanda Azərbaycan mənşəli toponimlərin izahlı lüğəti. Bakı: Nafta-Press, 1998, 452 s.
4. Budaqov B., Qeybullayev Q. Gürcüstanda türk mənşəli toponimlərin izahlı lüğəti. Bakı: "İsmayıl" Nəşriyyat-Poliqrafiya Müəssisəsi, 2002, 302 s.
5. Əhmədova E. Azərbaycan etnonimləri (leksik-semantik və struktur xüsusiyyətləri). Bakı: Nurlan, 2007, 128 s.
6. Əhmədova E. Azərbaycan dilinin etnonimlər lüğəti. Bakı: Elm və təhsil, 2017, 104 s.
7. Əhmədov B. Etimologiya lüğəti: (araşdırmalar, mülahizələr). Bakı: Altun kitab, 2017, 287 s.
8. Xalıqov F. Azərbaycan dilinin folklor onomastikası / filologiya elmləri doktoru dis. Bakı: 2001, 275 s.
9. İlhami Cəfərsoylu. Türk Urartu etnolinqvistik uyğunluqları. Bakı, 2008, 327 s.
10. Qurbanov A. Azərbaycan onomalogiyasının əsasları. II cild (2 cilddə). Bakı: 2019, 432 s.
11. Məmmədov N. Toponimika. Bakı: Bakı Universiteti nəşriyyatı, 2007, 408 s
12. Nazim Tapdıqoğlu, Əliyev A. Ağdam rayonu və onun toponimiyası. Bakı: Təhsil, 2006, 444 s.
13. Oğuznamə. Bakı: Şərq-Qərb, 2006, 216 s.

Açar sözlər: toponimik vahid, toponim, mikrotoponim, zoonim, zoomikrotoponim, ornitonim, leksik-semantik, ümumi, xüsusi

Key words: toponymic unit, toponym, microtoponym, zoonym, zoomicrotoponym, ornithonym, lexical-semantic, general, special

Ключевые слова: топоним, микротопоним, анатомический, специфический, номинация, географический объект, метафорический

XÜLASƏ

Toponimik vahidlər arasında mühüm əhəmiyyətə malik olan mikrotoponimlər dilin daxili qanunauyğunluqlarına əsasən müxtəlif söz qruplarının iştirakı ilə (antroponim, etnonim, fitonim, hidronim, zoonim, ktematonim, patronim, kosmonim, eklezionim, teonim, sənət, peşə, məşğuliyyət bildirən sözlər və s.) yarana bilir. Mikrotoponimlər sistemi leksik-semantik xüsusiyyətlərinə görə sabit deyildir. Yəni bu o deməkdir ki, mütəmadi şəkildə dəyişmələrə məruz qalır. Onlar leksik-semantik xüsusiyyətlərinə görə fərqli şəkildə təsnif edilmişdir. Xüsusi mikro onimlərdən bir qismi zoonimlərin əsasında əmələ gələ bilir. Zoonimlərdən əmələ gələn mikrotoponimlər zoomikrotoponim adlanır. Zoonim yunan mənşəli söz olub, zoo "heyvan, quş" və onim "ad" sözlərinin birləşməsindən yaranmışdır. Leksik-semantik xüsusiyyətlərinə görə alimlər zoonimləri ümumi və xüsusi zoonim şəklində təsnif etmişlər. Ümumi zoonimlər növ anlayışını ifadə edir. Qarabağ ərazisində qeydə alınan bəzi heyvan və quş adları makro və mikrotoponimyaratmada yaxından iştirak edir. Zootoponimlərin yaradılmasında ümumi zoonimlərdən istifadə olunur. Azərbaycan dilinin onomastik leksikasına daxil olan mikrotoponimlər quş adlarından – ornitonimlərdən də əmələ gəlir. Mikrotoponimik vahidlər dilin qanunauyğunluqlarına əsasən yaranır. Bu onimlərin əmələ gəlmə yollarını öyrənmək dilçilikdə bir çox problemlərin həll olunmasına kömək edə bilər. Ornitonimlərdən əmələ gələn mikrotoponimlər ən maraqlı leksik-semantik qruplardan biri kimi mühüm əhəmiyyət kəsb edir və daim diqqət mərkəzində olmalıdır.

LEXICAL-SEMANTIC CHARACTERISTICS OF MICROTOPONYMS DERIVED FROM ORNITHONYMS IN KARABAGH REGION

Summary

Among the toponymic units, microtoponyms, which have an important importance, are formed by the participation of various word groups (anthroponym, ethnonym, phytonym, hydronym, zoonym, ktematonym, patronymic, cosmonym, ecclesionym, theonym, art, profession, occupation, etc.) based on the internal regularities of the language knows. The system of microtoponyms is not stable due to its lexical-semantic features. This means that it is subject to constant changes. They are classified differently according to their lexical-semantic features. Some of the special micro-onyms can be formed on the basis of zoonyms. Microtoponyms formed from zoonyms are called zoomicrotoponyms. Zoonim is a word of Greek origin, from the combination of zoo "animal, bird" and onim "name". According to their lexical-semantic characteristics, scientists have classified zoonyms into general and special zoonyms. Generic zoonyms denote the species concept. Some names of animals and birds recorded in the territory of Karabakh are closely involved in macro- and microtoponymy. Common zoonyms are used to create zootoponyms. Microtoponyms included in the onomastic lexicon of the Azerbaijani language are also derived from bird names - ornithonyms. Microtoponymic units are formed according to the regularities of the language.

Learning how these onims are formed can help solve many problems in linguistics. Microtoponyms formed from ornithonyms are important as one of the most interesting lexical-semantic groups and should always be in focus.

ХАРАКТЕРНЫЕ ЧЕРТЫ АНАТОМИЧЕСКИХ МИКРОТОПОНИМОВ КАРАБАХСКОЙ ОБЛАСТИ

Резюме

Микротопонимы могут образовываться при участии различных лексических единиц. Некоторая их часть возникает в результате использования анатомических терминов в составе названий географических объектов. Как известно, анатомия является одной из наук, изучающих форму и особенности строения человека, животного, одним словом, живых существ. Термин анатомия происходит от сочетания греческих слов – «изнутри» и tome (темнеин) — «резать», что означает «разделение путем разрезания», «расчленение». В Карабахском регионе имеется значительное количество географических объектов, названных, в основном, по их специфическим признакам. Некоторые из них получили свои названия на основе анатомических терминов. Среди таких объектов имеются и микрообъекты. В этом регионе зафиксировано определенное количество анатомических микропонимов (названия, образованные на основе их аналогии с частями тела человека и животных). В ходе исследования было замечено, что при образовании микротопонимов были использованы апеллятивы. К таким апеллятивам можно отнести слова бедро, нога, рот, рог, голова, кость, грудь, глаз, нос, узда и т. д. В топонимике анатомические микропонимы не были полной мере вовлечены в исследование. Поэтому анализ таких микротопонимов, встречающихся в Карабахском регионе (ущелье Дахна, курган Султанбуд, Сюмюклютепе, населенный пункт Аяг Гарванд) с лингвистической точки зрения имеет важное значение.

RƏYÇİ: dos.T.Əliyev

Əlizadə Kübrə Ceyhun[11]

AZƏRBAYCAN DiLiNDƏ MORFEM SƏRHƏDLƏRiNiN DƏYiŞMƏSiNDƏN YARANAN SÖZ CÜTLƏRiNƏ DAiR

Araşdırmalar göstərir ki, ingilis dilində söz və morfem sərhədlərinin dəyişməsi ilə ikili məna ifadə edən birləşmələr olduğu kimi, Azərbaycan dilində də söz və morfem sərhədlərinin dəyişməsi ilə ikili, hətta üçlü məna ifadə edən birləşmələr vardır. İngilis dilinin materialından fərqli olaraq, Azərbaycan dilində bu qəbildən olan birləşmələr əsasən Azərbaycan el ədəbiyyatının lirik qolunu təşkil edən bayatılarda və aşıq yaradıcılığında müşahidə edilir.

Bayatılar yeddi hecadan və dörd misradan ibarət olan məzmunca çox çeşidli lirik bir janr növüdür. "Bayatı" bir söz termini kimi həm "köhnə, boyat" kəlməsi ilə əlaqələndirilmiş, həm də totem kimi mənalandırılmış (Mahmud Kaşqari), həm də Oğuz xan nəvəsi, Çün xanın ikinci oğlu Boyatın, sonralar isə əski azərbaycanlıların soy kökündə əhəmiyyətli rol oynamış eyni adlı qəbilə, tayfa, elin adı ilə bağlanmışdır [1, s. 5].

Azərbaycan dilində cinas sözlərin iştirakına görə bayatı və qoşmanı iki qrupa bölmək olur: 1) qafiyələri cinas sözlərdən olan bayatılar; 2) qafiyələri cinas sözlərdən olmayan bayatılar. Eyni prinsip üzrə qoşmanı da iki qrupa bölmək olar: 1) qafiyələri cinas sözlərdən ibarət olmayan qoşma; 2) qafiyələri cinas sözlərdən ibarət olan qoşma. Qafiyələri cinas sözlərdən ibarət olan (şəkilcə, formaca eyni, mənaca müxtəlif) şeir forması *təcnis* adlanır. Təcnis qoşmanın bir şeir növüdür. Məsələn:

Adət budur, yar xəbərin yar+alar, (açıq keçid)
Mənim yarım zəif canım yaralar.(qapalı keçid)

Təcnisin bir formasıda *cığalı təcnisdir*. Cığalı təcnis bayatı ilə təcnisin birliyindən formalaşır. Belə ki, təcnisin hər iki misrasından sonra cığa bəndi, yəni bir bayatı verilir. Belədə bayatının qafiyələri, təcnisin qafiyələri ilə eyni, həmahəng olur. Deyilənləri Aşıq Ələsgərin *"Başa-baş"* adlı cığalı təcnisinin bir bəndi ilə əyani şəkildə nəzərdən keçirək:

Ələsgərəm, dərdim budur, ay ağa!
Eynim yaşı leysan kimi a yağa.
Mən aşiqəm, ay ağa!
Piltə yanar a yağa.
Mərd sözünü üzə söylər,
Heç yapışmaz ayağa
Gah baş olan, gah da düşər ayağa,
Kimsə vurmaz fələk ilə başa-baş.

Bu cığalı təcnisin əsas (qoşma) bəndində iki morfemli *(ayağ+a)* cinas sözü özündən əlavə daha iki məna ifadə edə bilir ki, onların da açıq keçid (open juncture) təzahürü, formalaşması cümlə vurğusu ilə reallaşır. Belə ki, birinci misrada xitab kimi çıxış edən *"ay ağa"* birləşməsində cümlə vurğusunun birinci morfem *(ay)* üzərində olması ikinci morfemin vurğusunu zəiflədir və bu halda morfem sərhədi *[ay+ağa],* yəni **[y+a]** arasından keçir, ikinci misrada *"Ayağa"* sözü bu fonetik kontekstdə üç morfemdən *[a+yağ+a]* ibarətdir. Bu birləşmədə morfem sərhədi *a+yağa*, yəni **[a+y]** arasından keçir. Bu birləşmədə açıq keçid birinci **[a]** saitinin uzadılması (uzun variantda) və vurğunun sonuncu hecanın üzərində reallaşması ilə baş verir. Üçüncü misrada işlənən *"ayağa"* sözü üçüncü mənada *(ayağa düşmək)* qapalı keçiddə işlənir. Belə ki, üç morfemdən *(ay ağa, a yağa, ayağ-a)* ibarət olan "ayağa" sözü üçüncü misrada iki morfemlə söz kimi çıxış edir. Eyni morfem bölgüsü, məna müxtəlifliyi cığa bəndində olan cinas qafiyələrdə də özünü nümayiş etdirir: *ay+ağa – a+yağa – ayağa.* Beləliklə, bu cığalı təcnisdə iki morfem cinas sözü olan *[ayağ+a]* məna baxımından daha iki fərqli məna ifadə edən *[ay+ağa] [a+yağa]* açıq keçiddə qarşılaşdırılır.

Qafiyəsi *"Oda para"* birləşməsi olan bir bayatı daha iki morfem sərhədi ilə ayrıla bilir, hər üç halda fiziki forma, quruluş, eyni olmasına baxmayaraq, onların morfem sərhədlərindəki açıq keçid müxtəlif mənalar ifadə edir:

Mən aşıq oda+para,
Ay doğdu, o+da+para
Varmı bir odu sönmüş?
Canımdan od+apara[3, s. 243]

Araşdırmalar göstərir ki, dilin mənalı vahidlərinin (sözlərin, morfemlərin və s.) yalnız fonemlərlə deyil, prosodik vasitələrlə də hüdudlanır, yəni sözlərin və formalarının səddi müəyyən fonoloji vasitələrdə siqnal edilir. Azərbaycan dilində tərkibində cinas olan bəndlərin mənasının qavranılmasında, anlaşılmasında morfemlərin səddinin düzgün müəyyənləşdirilməsində vurğunun rolu böyükdür. Bu bayatıda *"od apara"* birləşməsi bənd daxilində cümlə vurğusu vasitəsilə müxtəlif element tərkibində morfemlərə üzvlənir və bəndin ümumi məzmununun qavranılması birləşmənin *(oda, o da, od)* kimi tanınması üçün akustik perseptiv təminat yaradır.

Azərbaycan dilində qafiyələri cinas olan söz və morfemlərin tanınması və mənanın anlaşılması, prosodik ünsürlərdən, xüsusilə cümlə vurğusundan asılı olur.

---

[11] **ADU**

Bayatılarla yanaşı, aşıq yaradıcılığında cinas sözlər də geniş yer alır. Bu baxımdan Aşıq Ələsgərin qoşmasından bir bəndə nəzər yetirək:

Tikdirmisən qəsr, eyvan, oda sən,
Bu nökərin, o sevdiyin o da sən;
Qıya baxdın məni saldın oda sən
İnsaf eylə gəl könlümün narın üz.

Qafiyələri cinas sözlərdən ibarət olan bu təcnisdə *"oda"* sözü cinasdır və bu sözlər leksik-qrammatik cəhətdən fərqləndiyi kimi prosodik cəhətdən də fərqlənir. Birinci misrada *"oda"* sözü isimdir və ev, otaq mənasında, üçüncü misrada mürəkkəb feilin bir hissəsi, yəni *"oda salmaq", "yandırmaq"* mənasında işlənmişdir. İkinci misrada bu söz bir növ iki morfemə bölünərək (o, əvəzliyi və bağlayıcı) özünü açıq keçid (open juncture) hadisəsi kimi nümayiş etdirir ki, bu hadisə də vurğunun *"oda"* sözünün son hecasından birinci hecaya keçilməsi ilə reallaşır, nəticədə sözün ifadə etdiyi məna da dəyişir. Bu bəndin birinci və üçüncü misralarında işlənən *"oda"* sözlərində vurğunun son hecası üzərində olsa da, bu sözlər həm məna, həm də prosodik baxımdan eyni deyildir.

Belə ki, birinci misrada işlənən "oda" sözü həmcins üzv olduğunda qalxan tonla ifadə edilir və əşya adı bildirdiyindən isimdir və iki morfemə bölünmə potensiyası məhduddur və təkmorfemlidir. Üçüncü misrada "oda" sözü iki morfemdən ibarətdir (od+a – yönlük hal) və bu söz forması statik vurğu ilə realizə olunur.

Qeyd edək ki, ingilis dilində ikili məna ifadə edən söz və morfem birləşmələri bu dildə kifayət qədərdir və onları reallaşdıran fonetik vasitələr müxtəlif və rəngarəngdir. Bu qəbildən olan söz və morfem birləşmələri ingilis dilinin rabitəli nitqində, tələffüzündə çox tez-tez baş verən xarakterik xüsusiyyətdir.

Azərbaycan dilində isə ikili, üçlü məna ifadə edən açıq keçid **/+/** əsasən cinas qafiyəli bayatılarda və aşıq yaradıcılığında, xüsusilə qoşmanın təcnis və cığalı təcnis formalarında çox tez-tez rast gəlinən və bu dilin folklor nümunələri üçün səciyyəvi olan bir hadisədir. Bayatılar *"Əziziyəm, əzizim"* və *"mən aşıq"* sözləri ilə başlayan lirik bir janrdır. Bununla belə, adi danışıqda da açıq keçid müşahidə edilir. Məsələn, *"Gözləyir göy çəməni"* ifadəsində *"göy çəmən"* təyini söz birləşməsində olduğu kimi, cümlə vurğusu birinci komponent üzərində olur və bu halda morfem sərhədi, yəni açıq keçid **/+/** vurğunun təsirindən *"göy+çəməni"* daha dəqiq ifadə edilərsə **[j+ʧ]** samitləri qovuşağından keçir. Əgər cümlə vurğusu *"çəməni"* sözünün birinci hecası üzərinə keçərsə, bu halda ifadə *"gözləyir Göyçə məni"* söyləmi kimi fonetik forma alır. Bu söyləmdə cümlə vurğusu *"Göyçə"* sözünün son hecasına yer alır və açıq keçid *[Göyçə+məni]* arasında baş verir: *[gözləyir göy+çəməni] – [gözləyir göyçə+məni].*

Azərbaycan dilində cinas qafiyəli bayatıları və təcnisləri nəzərdən keçirdikdə məlum olur ki, bu dildə cinas sözlər əsasən ikili, müəyyən hallarda isə üçlü məna ifadə etmək qabilliyyətinə malikdir.

İndi isə söz və morfem sərhədini nişanlayan fonetik vasitələrin təhlilini nəzərdən keçirək:

Əzizim gülə, naz…
Bülbül eylər gülə naz,
Girdim dost bağçasına,
Ağlayan çox, gülən az. (M.Füzuli)

Bu bayatının birinci və ikinci misralarında işlənən *"gülə naz"* birləşməsi üç morfemdən ibarətdir: *[gül+ə+naz]* dördüncü misrada üç morfemdən *[gül+ən+az]* ibarətdir. Birinci misrada yönlük hal şəkilçi morfemi *"gül"* morfemi ilə sıx bağlı olduğundan açıq keçid **[ə+n]** seqmentləri arasında baş verir. İkinci halda *gül+ə* morfeminə əlavə edilən **[n]** fonemi mənaca yeni morfem formalaşdırır **[ən]**, belə də açıq keçid *[gülən+az]***[n+a]** seqmentləri arasında olur. Bu birləşmə də qarşılaşma *[gülə+naz] – [gülən+az]* formasında baş verir. Düşünmək olar ki, sonuncu misrada **[n]** foneminin yer dəyişməsi yeni məna ilə çıxış edir və bu da həmin misrada kontrasiv vurğunun baş verməsinə səbəb olur. Digər tərəfdən, birinci cinas birləşmənin heca quruluşu da qarşılaşma yaradır: **CVC + CVC – CVCVC + VC**

"Nə yatmısan, oyan gül", "Bu yan bağça, o yan gül" cinas qafiyəli bayatı misrasının birinci bəndində işlənən cinas birləşməsində morfem sərhədi *[oyan+gül]* arasından keçir. İkinci misrada bu birləşmə üç morfem formalaşdırır: *[o+yan+gül]* və bir-birindən fərqli məna yaradır. Belə ki, *"oyan gül"* ikili morfem strukturu üçlü morfem strukturu ilə qarşılaşdırılır: *[oyan+gül] – [o+yan+gül].* Bu birləşmələrin ikili və üçlü morfem strukturun formalaşmasında cümlə vurğusu əsas vasitə kimi çıxış edir. Belə ki, ikinci misranın tərkibində olan *"bu"* və **"o"** əvəzliklərinin qarşılaşdırılması **[o]** foneminin *"oyanmaq"* feilinin əmr formasından ayırır və buda **[o]** və **[yan]** morfemlərini yeni məna kəsb etməsinə çıxış verir: *Bu yan bağça, / o + yan + gül.*

Qeyd edək ki, morfem sərhədinin dəyişməsi söyləmin heca strukturun da dəyişiklik yaradır: **VCVC + CVC – V + CVC + CVC**

"Bu aşıq qəm əridir", "Ay üzün qəmərdir" cinas qafiyəli bayatı misralarında açıq keçid (open juncture) qapalı keçidlə (close juncture) qarşılaşdırılır. Belə ki, birinci misrada morfem sərhədi **[m+ə]** samitləri arasından keçir *[qəm+əridir]*. Burada birinci söz *(qəm)* tək morfemdən, ikinci söz isə iki morfemdən ibarətdir *[ərit-ərid+ir].* İkinci misrada isə *[qəmər+i-dir]* sözü üç morfemdən ibarətdir. Burada *"əridir" "qəmərdir"* sözlərinin sonunda gələn *"dir"* morfemi formaca eyni olsa da, qrammatik məna baxımından eyni deyildir. Belə ki, *"əridir"* sözündə olan *"dir"* formasında birinci samiti olan **[d]***"əritmək"* feilində olan **[t]** samitinin cingiltiləşmiş variantıdır, *"ir"* morfemi isə indiki zaman şəkilçisidir. İkinci misrada olan *"qəmərdir"* sözündə *"dir"* isə sözdəyişdirici şəkilçi morfem kimi xəbərlik kateqoriyasının üçüncü şəxsin təkini bildirir. Bu sözdəki **"i"** morfemi isə sifət bildirən şəkilçidir.

Qeyd edək ki, qeyd edilən misralarda *"dır"* fonetik formaların eyni olsa da, onlar qrammatik mənalarına görə müxtəlifdir və bu da özünü vurğuların müxtəlif hecalarda olmasına dəlalət edir.

Belə ki, birinci misra *[Bu aşiq qəm əridir]* bir statik, bir əsas (nüvə) və bir ikinci dərəcəli vurğu ilə reallaşdığı halda, ikinci misra *[Ay üzün qəməridir]* isə bir statik, bir ikinci dərəcəli və nüvə vurğusu ilə reallaşır: *[qəm əridir – qəməridir]*. Birinci cinas qafiyədə *"qəm"* sözünün nüvə vurğusu ilə reallaşması onu *"əridir"* sözündən ayırır. İkinci halda *"qəməridir"* sözündə bir vurğu olduğundan morfem sərhədi bir növ bağlanır, qapanır. Digər tərəfdən, birinci fonetik forma olan *"dir"* ikinci dərəcəli vurğu, ikinci cinas qafiyədə morfem olan **[dır]** və vurğusuz reallaşır.

Bu deyilənlərlə əlaqədar bir məqamı da qeyd etmək yerinə düşərdi. Azərbaycan dilində üç *"dir"* forması özünü göstərir: 1) **[t]** samitinin iki sait arasında cingiltiləşməsi *(öyrət-öyrədir, ərit-əridir* və s.); 2) feil köklərinə artırılaraq, təsirsiz feillərdən təsirli, təsirli feillərdən isə icbar növdə olan feillər əmələ gətirir; 3) xəbər kateqoriyasının üçüncü şəxsin təkini bildirən şəkilçi morfem. Belə ki, birinci forma olan **"d+ir"**, əslində **"ir"**-dir vurğu daşıyıcısı kimi çıxış edir. İkinci və üçüncü formalar omonim şəkilçi morfemlərdir. Təsirli feillər yaratdıqda və icbar növdə olan feillərdə vurğulu olur *(güldür, düzdür)*. Xəbər şəkilçisi kimi işləndikdə vurğusuz olur. O, güldür, düzdür.

Açıq və qapalı keçidin qarşılaşdırılması bir morfem (heca) daxilində də baş verə bilər. Məsələn, *"Mən aşıq, otağından", "Qaşların o tağından"* misralarında *[otağından]* sözü bir morfem sərhədi ilə *[o+tağından]* qarşılaşdırılır və açıq keçid **"o"** və *"tağ"* morfemləri arasında keçir. Bu halda morfem sərhədi fonetik vasitə kimin *"otağından"* sözündən **[o]** saitinin vurğu vasitəsilə reallaşıb ayrılması baş verir və o, ayrılıqda morfem kimi funksiyasını yerinə yetirmiş olur: *[otağından] – [o+tağından]*

Açıq keçidi formalaşdıran amillərdən biri də iki söz qovuşuğunda samitlərin proqressiv və reqressiv istiqamətdə yer dəyişməsində özünü göstərir. Bu da birləşmələrdə fərqli məna yaranmasına səbəb olur. Məsələn, *"Əzizinəm kasad olmaz", "Mərd əli kasad olmaz", "Yüz namərd çörəyin, Doğrasan, kasa dolmaz"* misralarında cinas qafiyə yaradan [d] samitinin proqresiv, yəni ikinci komponentə keçməsi ilə baş verdiyini demək olar *[kasad+olmaz] – [kasa+dolmaz]*.

Qeyd edək ki, birinci və ikinci birləşmə mürəkkəb feildən ibarət olduğundan əsasən bir vurğu ilə reallaşır və vurğu isə birinci komponent üzərində olur *(kasad olmaz)*. Köməkçi feil isə vurğusuz olur. Digər tərəfdən, cingiltili samit olan **[d]** söz sonunda karlaşır. İkinci birləşmədə **[d]** samiti söz əvvəlində gəlir və onun üçüncü fazası, sonu saitə birləşdiyi üçün qüvvətli olur. Bu birləşmədə *"dolmaz"* əsas feil olduğundan vurğu ilə reallaşır *(Doğrasan, kasa dolmaz)*. Belə ki, bu cinas qafiyəli birləşmələrin qarşılaşdırılmasında əsas fonetik vasitə kimi cümlə vurğusu və **[d]** samitinin karlaşması və güclü sonluğa malik olması ilə şərtləndiyini demək olar.

Bununla yanaşı, bu birləşmələrin birinci tərəfinin əsas, ikinci tərəfinin köməkçi feil olduğundan əsas sözdə bir növ bitişik tələffüz olunur və birləşmədə bir növ qapalı keçid təəssüratı yaradır. İkinci birləşmədə hər iki element vurğu ilə reallaşdığından açıq keçid özünü daha aydın təzahür etdirir.

Cinas qafiyəli birləşmələrdə açıq keçidi (morfem sərhədini) formalaşmasına səbəb olan amillərdən biri də reqressiv istiqamətdə (söz qovuşuğunda sağdan sola) fonemin yerinin dəyişməsidir. Məsələn,

Əzizim qəlbi nara,
Tutuşdu qəlbi nara,
Üzdə dost deyənlərin,
Get öyrən, qəlbin ara.

Bu bayatının iki misrasında *"qəlbi nara"* birləşməsi, bir növ, təkrar olunur. Düşünmək olar ki, birinci misrada *"qəlbi"* sözü *"hündür", "uca"* nar ağacı mənasında ikinci misrada isə onun könlünün (onun qəlbi)nara meyilli olması mənasında işləndiyini demək olar. Digər tərəfdən, birinci misrada *"qəlbi"* sözü bir morfemdən, ikinci *"qəlb+i"* sözü isə iki morfemdən ibarətdir. Birinci halda **[i]** fonemini *"qəlbi", "hündür"* mənasında işləndiyindən həmin morfemdən ayrılmazdı, ikinci halda isə **[i]** fonemi həmin morfemdən ayrılıb götürülə bilər, çünki bu kontekstdə o qrammatik məna (mənsubiyyət) kəsb edir *(onun qəlb+i)*. Bu baxımdan ikinci misrada işlənən *"qəlbi nara"* birləşməsi mənaca dördüncü misrada işlənən *"qəlbi+n ara"* birləşməsi ilə daha yaxından səslənir *(Get öyrən, (onların) qəlbin ara)*. Bu cinas qafiyəli bayatıda *"qəlbi+nara"* birləşməsi *"qəlbin ara"* birləşməsi ilə qarşılaşdırılır: */qəlbi+nara/ – /qəlbin ara/*. Birinci birləşmədə açıq keçid **[i]** və **[n]**, ikinci də isə **[n+a]** fonemləri arasından keçir. Bu cinas qafiyəli misranın ikinci birləşməsində açıq keçidin formalaşmasına səbəb kimi **[n]** foneminin reqressiv yer dəyişməsini **[n]** sonorunun uzun tələffüzünü, *"ara"* sözünün ikinci hecasında vurğunun güclü reallaşması ilə nişanlandığını demək olar. Başqa sözlə, **[n]** foneminin yer dəyişməsi yeni morfem cütlərinin yaranmasına çıxış verir.

Araşdırmalar göstərir ki, cinas qafiyəli birləşmələrdə ikili morfem sərhədi ilə yanaşı, üçlü morfem sərhədi ilə müşayət olunan birləşmələr də vardır. Məsələn,

Bu yerdə su dayandı,
Od gəldi su da yandı,
Dərdimi suya dedim,
Alışdı su da yandı.

Birinci bayatıda "su dayandı" birləşməsi daha iki morfem sərhədi ilə özünü təzahür etdirir: */su dayandı/ – /suda+yandı/ – /su da + yandı/*.

Qeyd edək ki, cinas qafiyələr söz və morfemlərlə yanaşı iki sintaqm arasında da özünü nümayiş etdirir. Nümunə kimi aşağıdakı bir bayatını nəzərdən keçirmək yerinə düşərdi.

Gül-gülə qat, a bağlar,
Dərdi-qəmi at, a bağlar.
Yaxşı at minən igid
Ümüdin ata bağlar.

Bu bayatının birinci və ikinci misralarının hər biri iki sintaqmdan ibarətdir. Hər iki misrada *"a bağlar"* sözü çağırış ifadə edən vokativ (xitab) funksiyasında çıxış edir. Birinci misrada *"qat"* morfemi, ikinci misrada *"at"* morfemi ilə daxili qafiyə təşkil etsə də, əlavə fonemdə *"at"* morfemi ilə sıfır oppozisiya yaradır. İki sintaqmdan ibarət olan ikinci misrada *"at"* morfemi fasilə ilə *"a bağlar"* birləşməsindən ayrılır və sonuncu da ayrıca sintaqm təşkil edir. Dördüncü misrada iki morfemli *"bağlar"* sözünün əvvəlində gələn **[a]** fonemi birinci sintaqmda olan *"at"* morfeminə bağlanır və yeni məna yaradır, yəni fel kimi deyil, isim mənası kəsb edir və yönlük halda ºəkilçi morfemi çıxış edir. Başqa sözlə, iki sintaqmın elementləri olan *"at"* və *"a bağlar"* dördüncü misrada bir sintaqm kimi reallaşır. Belə də */at, a bağlar/ – "ata bağlar"* birləşməsi ilə qarşılaşdırılır. Birinci birləşmədə *"at"* morfemdən sonra sintaqm bölgüsü baş verdiyindən *"a bağlar"* birləşməsindən fasilə ilə ayrılır, *"bağlar"* sözündə olan **[a]** vurğulu olduğundan o, *"bağlar"* sözündən ayrılır və nisbətən uzun tələffüz olunur. *"at"* morfemində **[t]** samit söz sonunda gəldiyindən güclü nəfəslənmə ilə reallaşır. Sonuncu misrada **[a]** fonemi *"at"* morfeminə bağlanır, yeni forma məna yaranır və bir sintaqm daxilində reallaşır.

Beləliklə, Azərbaycan dilində iki söz və morfem qovuşuğunda açıq və qapalı keçidlərin (open and closed juncture) formalaşması mexanizmini üç növə bölmək olar:

1)cümlə vurğusunun yeri və dərəcələri ilə reallaşan açıq və qapalı keçidlərin qarşılaşdırılması;

2) fonemlərin proqressiv və reqressiv üsulla söz və ya morfem qovuşuğunda yerdəyişməsi ilə formalaşan söz və morfem cütləri;

3) cinas qafiyələri söz və birləşmələrinin vurğu və fonemlərin proqressiv və reqressiv üsulla yerdəyişməsindən formalaşan üçlü morfem sərhədləri.

İstifadə edilmiş ədəbiyyat siyahısı

1. Axundov A.A. Azərbaycan dilinin fonetikası. - Bakı: Maarif, -1988. -285 s.
2. Dəmirçizadə Ə. Müasir Azərbaycan dili. I hissə. -Bakı: Şərq – Qərb, -2007. -253 s.
3. Əfəndiyev P.Azərbaycan sifahi xalq ədəbiyyatı. -Bakı: Elm-təhsil, -2013, -593 s.
4. Əliyev R. Ədəbiyyat nəzəriyyəsi. – Bakı: Mütərcim, -2008 , -360 səh
5. Hüseynova Mahirə. Aşıq və el şairlərinin fonopoetikası. -Bakı:Mütərcim,-2015.
6. Trubetskoy N.S. Fonologiyanın əsasları. (Almancadan tərcüməsi, "Ön söz və qeydlər" F.Yadigarındır.) -Bakı: Mütərcim, -2001. -380 s.

Açar sözlər: fonem, morfem, vurğu, cinas sözlər, açıq qovuşaq, qapalı qovuşaq
Key words: phoneme, morpheme, stress, juncture, open juncture, closed juncture
Ключевые слова: фонема, морфема, ударение, сочетание, открытые сочетание, закрытые сочетание.

On word pairs resulting from the change of morpheme boundaries in the Azerbaijani language

Summary

The article deals with the juncture of phoneme in the Azerbaijani language. In the article an attempt is made to study the different features of Azerbaijani conconants in word pairs which are happened at the morpheme at word boundaries.

О парных словах, возникших в результате измения границ морфем в азербайджанском языке

Резюме

В статье рассматривается соединение фонем в азербайджанском языке. В статье предпринята попытка изучить различные особенности азербайджанских согласных в словарных парных словах, которые встречаются в морфемах на границах слов.

RƏYÇİ: dos. S.Abbasova

Əsli Camal qızı Piriyeva[12]

ALMAN DİLİNDƏ SİFƏTİN İŞLƏNMƏ XÜSUSİYYƏTLƏRİ

Alman dili dünya dilləri içərisində zəngin dillərdən sayılır və bu dildə danışanların sayına görə 10-cu yerdə durur. Dilin söz tərkibi sabit qalmır, elmin, texnikanın inkişafi ilə dildəki sözlər də çoxalır. Alman dilində olan sözlərin sayı təxminən 520000 hesab olunur. Bu sözlərin 50%-ni isimlər, 25% isə sifətlər təşkil edir (Der kleine Duden). Alman dilində sifətlərin düzgün işlənməsi alman dili öyrənən əcnəbilər üçün, o cümlədən də azərbaycanlı tələbələr üçün müəyyən çətinliklər yaradır. Bu məqalənin də sifət mövzusuna həsr edilməsi təsadüfi deyil.

Hələ Voltair demişdi: "Das Adjektiv ist der Feind des Substantivs". Sifət ismin düşmənidir. Böyük nəşriyyatçı Georges Clemenceau öz redaksiyalarında onunla işləyən jurnalistlər üçün belə bir lövhə asmışdır: "Əgər siz sifət işlətmək istəyirsizsə, onda mənim yanıma üçüncü mərtəbəyə gəlin və məndən soruşun, həmin sifət vacibdirmi?". Çünki sifətlərin düzgün işlədilməsi, yəni yerinə düşüb-düşməməsi, onların işlənmə zəruruyyəti alman dilində savadlı yazmaq və danışmaq üçün vacib dil elementlərindən biridir.

Köhnə qrammatika kitablarında feilə aid olan sifət zərf adlanırdı. Bugün isə həmin sifət "adverbialer Satzstellung" adlanır.

Cümlədə sifətin işlənməsi:

-təyin: das <u>hübsche</u>- Mädchen. Qız gözəldir. Burada sifət həmişə isimdən əvvəl işlənir.

-ismi xəbərdə: das Mädchen ist <u>hübsch</u>. Qız gözəldir.

-zərf kimi: das Mädchen singt <u>hübsch</u>. Qız gözəl oxuyur.

Sifətin mənaca növləri

Sifətlərin çoxu, **charakterisierende Adjektive** - əsli sifətlər (hər şeydən əvvəl sadə sifətlər) xüsusiyyətləri ifadə edir, əşyaları müxtəlif cəhətdən səciyyələndirir.

rəng rot weiβ grün rose hellblau
forna rund quadratisch spitz
ölçü groβ lang breit hoch tief alt
keyfiyyət gut schön intelligent zart

İkinci böyük qrup sifətlər, **relationale Adjektive** – nisbi sifətlər, əşyalar arasında münasibəti göstərmək yolu ilə əşyaların əlamətini bildirir. Bu sifətlər isimlərdən düzəlir:

ärztlich, beruflich, polizeilich, grammatisch, politisch, technisch və s.

ärztliche Berufe
polizeiliche Ermittlungen
berufliche Weiterbildung
grammatische Fragen

<u>Sifətin dərəcələri</u> (Steigerungsstufen der Adjektive)

Sifətin qrammatik kateqoriyası olub, onun qrammatik əlaməti hesab olunur. Alman dilində də Azərbaycan dilində olduğu kimi sifətin üç dərəcəsi var.

1. adi (Positiv) alt
2. müqayisə (Komporativ) älter
3. çoxaltma dərəcəsi (Superlativ) der, die, das älteste

<u>Adi dərəcə</u> zahiri cəhətdən hər hansı bir xüsusi şəkilçinin olmaması ilə fərqlənir. Azərbaycan dilində müqayisə dərəcəsi bir çox şəkilçi vasitəsi ilə əmələ gəldiyi halda alman dilində <u>-er</u> şəkilçisi və kök saiti a, o, u olan birhecalı sifətlər çox halda umlautla düzəlir:

älter, gröβer, jünger, ärmer, länger, stärker

Aşağıdakı sifətlər umlaut (səs dəyişmə) qəbul etmir: blank, blond, falsch, froh, klar, zart, rot, roh

Bəzi sifətlər isə: blass, glatt, schmal umlaut və umlautsuz işlənə bilir.:

blasser/blässer der blassest/blässest
glatt/gätter glattest/glättest
schmal/schmäler am schmalsten/am schmälsten

Alman dilində çoxaltma dərəcəsi (Superlativ) <u>–(e)st</u> şəkilçisi və umlautla düzəlir. Mütləq müəyyən artikl ilə işlənir.

das schönste Kleid
der schönsteFluss
die schönste Stadt
Ya da am .....sten
das Kleid ist am schönsten
der Fluss ist am schönsten
die Stadt ist am schönsten

Sifətin çoxaltma dərəcəsini düzəldən başqa sözlər də var.

---

[12] Bakı Dövlət Universiteti

1. grotten schlecht
2. urgemütlich, uraet, urplötzlich
3. oberflächlich, oberirdisch, oberschlau
4. horrend groβ
5. piep egal, piep jung

Sifətin dərəcələrinin işlənməsi sifətdən əvvəl gələn sözlər ilə də müəyyən olunur.

Positiv	Komporativ		Superlativ
recht, ziemlich, fast so, ganz, sehr, auβerordentlich, ungewöhnlich, phantastisch, wahnsinnig, höchst, überaus	viel erheblich wesentlich weit ein bisschen weitaus	gröβer	weitaus

Elə sifətlər var ki dərəcələnmir. Məsələn: tabu, nackt, blind, optimal, rund, richtig, schwanger, stumm, vollständig, tot, lebendig, wert, unsterblich, weiβ, pleite, einmalig, haushoch, mannshoch. Belə tipli sifətləri aşağıdakı kimi qruplaşdırmaq olar.

1. Dərəcələnməyən əlaməti ifadə edən sifətlər:
mündlich, nackt, stumm, viereckig, einzig, sterblich
2. Tərkibində isim olanmürəkkəb sifətlər:
schneeweiβ, blutjung, steinreid, brandheiβ, blütenweiβ, blutverwandt.
3. Artıq çoxaltma dərəcəsini ifadə edən sifətlər:
maximal, optimal, ideal,historisch.
4. Tərkibində inkar edici sözdüzəltmə elementi olan sifətlər:
obdachlos, unüberhörbar
5. Hallanmayan sifətlər:
prima, lila, oliv

Elativ (der absolute Superlativ) – Çoxaltma dərəcəsini –st şəkilçisiz, sözlə bildirən absolut çoxaltma dərəcəsi:
Partikel: besonders, ganz und gar, völlig, sehr, überausş
Sözdüzəltmə vasitələri ilə: bildschön, federleicht, grundfalsch, nagelneu, spottbillig, stockdunkel, todsicher, haarscharf, felsenfest, strohdumm.

Əgər sifət başqa bir sifətə, ya da zərfə aid olursa (onu müəyyən edirsə) onda birinci söz dərəcələnir.

gut gebaut	besser gebaut	am besten gebaut
leicht verdaulich	leichter verdaulich	am leichtesten verdaulich

İki sifətdən düzəlmiş, birgə yazılan mürəkkəb sifətlərdə ikinci söz dərəcələnir.

altklug	altklüger	am altklügsten
kaltblütig	kaltblütiger	am kaltblütigsten
schwerhörig	schwerhöriger	am schwerhörigsten

Sifətlərin isimləşməsi (Nominalisierung der Adjektive)

Alman dilində bütün nitq hissələri isimləşə bilir. Bu zaman isimləşmiş sözlər böyük hərflə yazılır, artikl qəbul edir və hallanır. Yəni isimə xas olan qrammatik xüsusiyyətləri qəbul edir. Sifət də isimləşir və bu xüsusiyyətləri qəbul edir. Ancaq hallanarkən sifət kimi hallanır. Məsələn müəyyən artikllə: alt sifəti der Alte, die Alte, das Alte.

N der Alte	die Alte	das Alte
G des Alten	der Alten	des Alten
D dem Alten	der Alten	dem Alten
A den Alten	die Alte	das Alte

Qeyri-müəyyən artikl ilə

N ein Arbeitsloser		eine Arbeitslose
G eines Arbeitslosen	einer Arbeitslosen	
D einem Arbeitslosen	einer Arbeitslosen	
A einen Arbeitslosen	eine Arbeitslose	

Artiklsız işlənirsə, sifətlərin qüvvətli hallanma qaydasına riayət edir.

Təkdə	Cəmdə
N (ein) Arbeitsloser	(die) Arbeitslosen
G (eines) Arbeitslosen	(der) Arbeitslosen
D (einem) Arbeitslosem	(den) Arbeitslosen
A (einen) Arbeitslosen	(die) Arbeitslosen

Onu da qeyd etmək lazımdır ki, isimləşmiş sifətlərin qarşısında viel, etwas, nicht, mancherlei, allerlei sözləri gəlirsə isimləşmiş sifət –s, alles, einiges, vieles, manches sözlərindən sonra isə -e qəbul edir:

viel alles

etwas		einiges	Gute
nicht	Gutes	vieles	
mancherlei		nanches	
allerlei			

Sifətin quruluşca növləri

Sadə sifətlərin sayı alman dilində azlıq təşkil edir (neu, groβ, schön, rot). Sifətlərin əksəriyyəti düzəltmə və mürəkkəbdir.

Düzəltmə sifətlər Präfix və Suffixlə düzəlir. Çox az alman präfixi, lakin sayca çox xarici präfix var. Präfixlər vasitəsi ilə ancaq sifətlərdən sifət düzəlir. Tez-tez işlənən Präfixlər və onların mənaları:

a(n) –	nicht	asozial, anormal, anorganisch
anti –	gegen	antiautoritär, antidemokratisch
erz –	sehr	erzreaktionär, erzkatholisch
in – (il -, im -, ir -)	nicht	indiskret, illegal, immobil, irreal
inter –	zwischen	international,interkulturell
post –	nach	postmodern, postindustriell
pro –	für	prowestlich, proarabisch
trans –	jenseits	transatlantisch, transsibirisch
un –	nicht	ungenau, undicht, unzufrieden
ur –	sehr	uralt, urkomisch, urgemwtlich

Bu präfixlərin əksəriyyəti (erz – və ur - kimi) qüvvətləndirmə ifadə edir.

Suffixlə düzələn sifətlər: Belə sifətlər əsasən feildən və isimdən, bununla yanaşı suffixlər sifət və zərflərdən də sifət düzəlir. Ən çox işlənən alman və əcnəbi sifət suffixləri:

feil+	
-abel	akzeptabel, reparabel, transportabel
-bar	essbar, lösbar, lesbar, trennbar
-sam	erholsam, sparsam, sorgsam, wirksam
-e(r)n	golden, seiden, gläsern, hölzern
isim+	
-haft	fehlerhaft, rätselhaft, jungenhaft
-ig, -osch, -ir	windig, rumänisch, sportir
-los	schlaflos, sinnlos, geschmacklos
-mäβig	planmäβig, zweckmäβig
isim, feil, sifət+	
-lich	rechtlich, käuflich, grünlich
zərf+	
-ig	heutig,morgig, hiesig

Mürəkkəb sifətlər: Birinci söz müxtəlif nitq hissəsi, ikinci söz isə sifətdən və ya partisipdən ibarət ola bilər.

sifət+sifət (part) isimdən düzələn sifətlər	isim+sifət	feil+sifət
1) hellrot, lauwarm, weitgehend, feuchtwarm, dunkelblond, nasskalt, schwarzweiβ, schwülheiβ, dickflüssig 2) kurzärmelig, gleichseitig, langstellig, dunkelhaarig, blauäugig, dickschalig, feinkörnig, schmalspurig, feingliedrig, kaltblutig, gutmütig 3) vielstellig, sechsarmig, zwölfprozentig	1) heyvan adları+sifət spinnefeind, lammfromm, aalglatt, hundemüde, pudelnass, rabenschwarz, bärenstark, mäuschenstill, mausetot, pudelnackt, rehbraun 2) digər isimlər+sifət grundfalsch, felsenfest, marmorglatt, rosenrot, haarscharf, haargenau, haarfein, nagelneu, baumstark, honigsüβ, spindeldürr, spottbillig, federleicht, haushoch, blutjung, goldrichtig, todkrank, menschenleer, eiskalt, stocksteif, steinreich, strohdumm, termingemäβ, regelmäβig	schreibfaul, kochfertig, treffsicher

İsimlə sifətdən düzəlmiş bəzi mürəkkəb sifətlərdə iki söz arasında s, n birləşdirici elementlər işlənir: hilfsbereit, lebensmüde, arbeitsfrei, sonnenklar.

Mürəkkəb sifətlərdə ən çox rast gəlinən məna çalarlıqları aşağıdakılardır:

Dərəcə bildirən dunkelblau tieftraurig hocmodern

Müqayisə bildirən steinhart butterweich grasgrün
Səbəb bildirən altersschwach regenglatt schreckensbleich
Baxış bildirən schreibfaul treffsicher computererfahren

Sifətlərin idarəsi

Sifətlər də feillər kimi isimləri və əvəzlikləri präposition və ya präpositionsuz idarə edir. Tez-tez işlənən (präpositionlu) sifətlərin siyahısı əlavə olunur.

1. Akkusativ tələb edən sifətlər:

alt Das Baby wird morgen einen Monat alt.
Breit, groβ, hoch, lang Die Tür ist einen Meter breit.
Schwer Dieses Paket ist etwa 7 Kilo schwer.
Gewohnt İch bin fetten Lammbraten nicht gewohnt.

2. Dativi tələb edən sifətlər:

Ähnlich Er ist seinem Bruder sehr ähnlich.
behilflich Der Assistent war mir mit Literaturhinweisen behilflich.
bekannt Sein Name ist mir nicht bekannt. İhm ist alles egal.
gleich Das Volumen des eingetauchten Körpers ist gleich dem Volumen der verdrängten Flüssigkeit.

3. Präposition tələb edən sifətlər:

abhängig *von* Meine Entscheidung ist vom Ausgang der Wahlen abhängig.
beliebt *bei* Er ist bei seinen Kollegen beliebt. charakteristisch *für*
Hitze und Feuchtigkeit sind charakteristisch für die Tropen.
dankbar (D) *für* İc bin İhnen sehr dankbar für İhre Hilfe bei der Wohnungssuche.
fertig *mit* İch bin mit der Arbeit fertig.
frei *von* Hoffentlich bleibt der Kranke frei von Schmerzen.
glücklich *über* Er ist glücklich über das Ende des Romans.
interessant *für* Der Vortrag erwies sich als interessant für uns.
müde *von* İch bin müde von der langen Reise.

Ədəbiyyat

1. Yusif Seyidov, Azərbaycan dili, Bakı 2001, 133-141
2. F. Clomer / E.C.Heilmann, übungsgrammatik für die Grundstufe
3. Friedrich Clamer / Erarb C. Heilmann / Helmut Röller, übungsgrammatik für die Mittelstufe
4. C.Helbig / J.Buscha Deutsche Grammatik
5. J.Buscha Deutsches Ubungsbuch
6. Wolf Schneider Deutsch! Das Handbuch für attraktive Texte
7. Deusch Grammatik, Rund 90000 zuverlössige Angaben
8. Langenscheidt Groβwörterbuch DaF.

Açar sözlər: sifətin dərəcələri, düzəltmə sifətlər, mürəkkəb sifətlər, sifətlərin isimləşməsi, sifətlərin hallanma növləri, sifət qrupları, mənaca növləri
Schlüsselwörter: Steigerungsstufen, abgeleitete Adjektive, zusammengesetzte Adjektive, das nominalisierte Adjektiv, Deklinationsarten, die Adjektivgrubbe, Bedeutung
Ключевые слова: степени сравнения прилагательных, производные и сложные прилагательные, прилагательные группы, значения прилагательных, склонение прилагательное, прилагательное как сушейвительное
Keywords: degrees of comparison, derived adjectives, compound adjectives, the nominalized adjective, types of declension, the adjective pit, meaning

Xülasə

Məqalədə sifət haqqında qısa məlumat verilir. Sifətin alman nitq hissələri arasında yeri, Azərbaycan dili sifətlərindən fərqli cəhətləri, sifətlərin suffikslə düzəlməsi və dərəcələnməsi yolları göstərilir.

Резюме

В статье дана краткая информация о прилагательном. Указываются место прилагательного среди немецких частей речи, его отличия от азербайджанских прилагательных, способы образования прилагательных с суффиксами и градация.

Summary

The article provides brief information about the adjective. The place of the adjective among the German parts of speech, its differences from the Azerbaijani adjectives, ways of forming adjectives with suffixes and grading are indicated.

RƏYÇİ: dos.L.Ələkbərova

Leyla Məmmədova [13]

MÜASİR FARS DİLİNDƏ FRAZEOLOJİ CÜMLƏLƏRDƏ FEİL KATEQORİYALARININ İFADƏSİ

Frazeoloji vahidlər istənilən dilin düşüncə və stilistik çalarlarının daha parlaq və özünəməxsus vasitələrlə çatdırılması və ifadə edilməsinə xidmət edir.Hər bir dilin sabit söz birləşmələrinin əmələgəlmə qanunauyğunluğu və məna ifadə etməsi mühüm spesefik xüsusiyyətlərini təşkil edir.Frazeologizmlər fars dilinin quruluşuna çox dərin nüfuz etmiş ,müxtəlif səviyyələrin elementləri ilə sıx bağlıdır.Bu səbəbdən dilin frazeoloji quruluşunun problemləri dilin müxəlif sahələrinin ,xüsusilə leksik ,morfoloji və sintak quruluşunun araşdırılması ilə yanaşı aparılmalıdır.Fars dilinin frazeologiyası mövzusu və bu mövzu ətrafında olan məsələlər yetərincə araşdırılmamışdır.Son illər fars dilinə məxsus frazeologizmlərin klassifikasiyası , frazeoloji vahidlərin semantik və quruluş müxtəlifliyi mövzusunun daha dərin araşdırılması prosesinin şahidi oluruq.Son illər İranda frazeologizmlərin tədqiqi sahəsində irəliləyişin şahidi oluruq.Danışıq leksikası , sabit söz birləşmələri ,atalar sözləri və məsəllər toplusunu özündə əks etdirən lüğətlər çap edilmişdir.Bu lüğətlərdə semantik və qrammatik quruluşları özündə əks etdirən frazeologiyanın həcmini müşahidə etmək olar.

Rubinçik Y.A özünün " Основы фразеологии персидского языка" əsərində qeyd edir ki , "fars dilinin frazeoloji materialı o qədər geniş və rəngarəngdir ki , onu müxtəlif əlamətlərinə görə - komponentlərin və onları semantik əlaqələrinin qrammatik idarə olunmasına görə,frazeoloji vahidlərin stilistik funksiyalarının təyinatına görə,frazeoloji vahidlərin mənşəyinə görə ,əsas sözün bu və ya digər nitq hissələrinə görə nisbəti və s . görə təsnif dilir."Lakin bu fakt da aydındır ki , frazeoloji vahidlər komponentlərinin xarici quruluş və semantik birləşməlinin müxtəlifliyinə baxmayaraq dəyişən söz birləşmələri və cümlələrdən ibarət sintaktik modellar əsasında təşkil olunmuşdur.(8)

Mustafa Rəhimi Niyanın "Zərb olməsəlha-ye farsi və estelahat-e amiyane" kitabında sayda frazeoloji birləşmələr , atalar sözləri ,zərbülməsəllər , məşhur şairlərin əsərlərindən xalq arasında məsəllərə çevrilmiş nümunələr toplanmışdır. Məqalədə araşdırma bu kitabda verilmiş nümunələr üzrə aparılmışdır. Müəllif kitabın ön sözündə məsəllərə belə tərif verir:

مثل جمله ای است مختصر ،مشتمل بر تشبیه با مضمون حکیمانه که به واسطه ی روانی الفاظ ، روشنی معنا و لطافت ترکیب ، بین عامه مشهور مس شود و آن را بدون تغییر یا با تغییر جزئی در محاورات خود به کار می برند

"Zərbülməsəllər təşbeh, rəvan sözlər ,aydın məna ilə ifadə olunan ibrətamiz məzmuna malik müxtəsər cümlədir ki , cəmittətdə məşhurlaşır və dəyişiklik olmadan və ya cüzi dəyişikliklə danışıqda istifadə edilir." (5)

Qoleva G.S. özünün " Фразеология современного персидского языка " kitabında fars dilində olan frazeologizmləri funsksional , semantik- quruluş və qrammatik xüsusiyyətlərinə görə aşağıdakı növlərə ayırmışdır:

nominativ , nominativ- kommunikativ və kommunukativ" .Nominativ növə substantiv (میوه ی دل ، نور چشم ،عصای پیری) , adverbial frazeoloji vahidlər (خالی از همه چیز ، به قیمت) , adyektiv (از شیر مادر حلالتر ، خشک و خالی ،دست و دل باز،مثل سوراخ سوزن) daxil edilir. (7)Nominativ- kommunikativ növə feili frazeoloji vahidlər (مگس پراندن ، لنگر انداختن) daxil edilir.Kommunikativ frazeologizmlərə isə mənsubiyyət şəkilçiləri ilə dəyişən frazeoloji cümlələr ,sabit , dəyişməz frazeoloji cümlələr , gündəlik ünsiyyət zamanı işlənən frazeologizmlər , poetik deyim və aforizmlər aid edilir.Bu baxımdan frazeoloji birləşmələri sintaktik quruluşuna görə aşağdakı növlərə ayırmaq olar: söz birləşməsi və cümlə quruluşuna malik frazeoloji birləşmələr.Söz birləşməsi quruluşuna malik olan frazeoloji vahidlərin təsnifatında əsas sözün hansı qrammatik xüsusiyyət daşımasından asılı olaraq ismi , feili və bağlayıcılı vahidlərə ayırmaq olar.İsmi frazeoloji vahidlər komponentlərin arasında olan qrammatik əlaqələrə əsasən izafət , ön qoşma ,kopulyativ ,yanaşma və qarışıq tipli əlaqələrlə düzəlir.İsmi frazeoloji vahidlərin ən geniş yayılmış növü izafət əlaqəsi ilə yaranan birləşmələrdir.

Feili fraeoloji vahidlər iki əsas komponentdən (ad və feil)ibarət olan sabit söz birləşmələridir.Öz növbəsində ad hissəsi bir və ya bir neçə sözdən , feil hissəsi sadə , düzəltmə və mürəkkəb feillərin birləşməsindən ibarət olur.Feili frazeoloji vahidlər cümlə daxilində vahid üzv kimi çıxış edir , şəxsə , zamana və şəklə görə dəyişə bilir.

Frazeoloji vahidlərin üçüncü növü olan mürəkkəb bağlayıcılar tabeli mürəkkəb cümlələrdə tabelilik əlaqəsinin ifadə edilməsində istifadə edilir. Mürəkkəb bağlayıcıların çoxunun tərkibində " که " universal bağlayıcısı iştirak edir(وقتی که ، موقعی که ، زمانی که ، برای این که ، در صورتی که).Çöxüzvlü feili frazeoligizmlər üç və daha artıq leksemlərdən ibarət olan sabit söz birləşmələridir.Bu tip birləşmələr feilə məxsus bütün morfoloji kateqoriyaları özündə əks etdirir.Formaca çoxüzvlü feili frazeologizmlər təqribi eyni quruluşa malikdir.Müxtəlif qrammatik vasitələrlə bir -biri ilə birləşən iki ya üç ad hissə və feilin məsdər formasından ibarət olur:

آب از دهان سرازیر شدن - Ağzının suyu axmaq
آب به آسیاب کسی ریختن - Kiminsə dəyirmanına su tökmək
آب حمام تعارف کردن (Hamam suyunu tərifləmək) – Dəyərsiz bir şeyi tərifləmək
آب خوش از گلو پایین نرفتن (Su boğazından keçməmək)- Rahatlığı olmamaq
آب را گل آلود کردن و ماهی گرفتن (Suyu bulandırmaq və balıq tutmaq)- İxtilaf salıb şəraitdən mənfəət görmək
آتش از قبر کسی بر خاستن (Qəbrindən alov çıxmaq) – Öldükdən sonra da əziyyət vermək
آرزو را به گور بردن (Arzunu gora aparmaq) – Arzusu ürəyində qalmaq
از چاله در آمدن و به چاه افتادن (Çaladan çıxıb quyuya düşmək)- Yağışdan çıxıb ,tağmura düşmək
از چشم کسی افتادن – Kiminsə gözündən düşmək

[13] BDU şərqşünaslıq fakültəsi ,İran filologiyası kafedrası , müəllim *Leyla200910@mail.ru*

انگشت در سوراخ زنبور کردن (Barmağını arı yuvasına soxmaq)- Təhlükəli iş görmək

Ad hissəsi müxtəlif sintaktik əlaqələrlə (izafət , ön qoşma, "və" bağlayıcısı,yanaşma) işlənir. Feil hissəsi isə müxtəlif quruluş növünə malik feillərdən ibarət olur.

Cümlə quruluşuna malik olan frazeoloji vahidlər fars dilində geniş yayılmış və əsas quruluş növlərindən biridir. Frazeoloji cümlləri araşdırarkən onları sərbəst mənalı cümlələrlə qarşılaşdırmaq , onların fərqləndirən xüsusiyyətləri qeyd etmək lazımdır.Frazeoloji cümlələr quruluşca sərbəst cümlə quruluşuna malik olmasına baxmayaraq , müəyyən konteksə malik sabit ümumi məna , komponentlərin tərkibinə görə sabit keyfiyyət və kəmiyyət quruluşuna malikdir.Bu cür cümlələrin özünəməxsus qrammatik xüsusiyyətləri vardır .Belə ki ,tərkibə daxil olan feil əsasən üçüncü şəxsin təkində işlənir , feilin bütün zaman və şəkillərini özündə əks etdirmir.Bir çox frazeoloji cümlələr özüünün sintaktik və semantik quruluşuna görə feili komponentlərini dəyişə bilmir .Bu cür cümlələrin mühüm qrammatik xüsusiyyəti şəxsə , zamana , şəklə görə dəyişə bilən feil komponentlərinin imkanlarının məhdud olmasıdır. Frazeoloji cümlələr üçün xarakterik olan qrammatik formaları nəzərdən keçirək:

1.sadə və ya mürəkkəb quruluşlu feillə ifadə olunan feili komponent üçüncü şəxsin təkində ifadə olunur.Konteksin şərti və ifadə məqsədindən asılı olaraq feili komponent müxtəlif zaman və şəkillərdə verilir.(دستش به دهانش می رسد "dəstəş be dəhanəş miresəd" - "o pis yaşamır", کاسه ی صبرش لبریز شد "kase-ye səbrəş ləbriz şod" – "səbri tükəndi " , شوخی اش گل کرده است "şuxiyəş qol kərde əst " – "zarafat etmək istəyir" və s.)

2. Feili komponent sadə və ya mürəkkəb feilin zaman və şəklinin yalnız bir qrammatik formasında ifadə olunur.(از توی علف سبز نشده ایم "əz tuye ələf səbz nəşodeim"- "yerdən çıxmamışıq" , دست به دلم مگذار "dəst be deləm məqozar" – "məni incitmə" və s.)

Frazeoloji cümlələr sərbəst cümlələrin malik olduğu bir çox xüsusiyyətləri özündə əks etdirir.Frazeoloji cümlələr əsasən danışıq dilində istifadə edilir. Bu səbəbdən belə cümlələrə danışıq dili ilə yanaşı , bədii ədəbiyyat nümunələrində , xüsusilə dialoqlarda rast gəlinir.Cümlələr təsdiq və inkarda verilir. Frazeoloji cumlələrin əsas qrammatik xüsusiyyəti feil komponentlərinin şəxsə ,zamana və şəklə görə məhdud işlənmə imkanıdır. Məqalədə frazeoloji cümlələr bilavasitə feilə xas olan və onu səciyyələndirən qrammatik kateqoriyalardan biri olan feilin şəkil kateqoriyası baxımından araşdırılmışdır .Qeyd etmək lazımdır ki , şəkil kateqoriyasının dildəki vəzifəsi söz söylənən nöqteyi- nəzərindən müəyyən hərəkətin , hadisənin ,işin gerçəkliyə münasibətini bildirməkdən ibarətdir.Şəkil kateqoriyası modallığın qrammatik – morfoloji vasitə ilə ifadəsidir.Bu kateqoriya konkret morfoloji (qrammatik) əlamətlərin , qrammatik mənaların məcmusundan ibarət olub qrammatik kateqoriya kimi , yalnız feilə (felin şəxsli formasına) aiddir.

Cümlə quruluşuna malik olan frazeoloji vahidlər predikativ xüsusiyyətlərə malik olan müxtəlif növ sözlərin birləşməsini özündə əks etdirir.Öz quruluşuna görə bu növ frazeologizmlər rəngarəngdir Müasir fars dilçiliyində dil faktorları ilə təsbit olunmuş şəkil kateqoriyasının aşağıdakı bölgüsü mövcuddur: xəbər şəkli (وجه خبری) , əmr şəkli (وجه امری) , vacib şəkli (وجه واجب), lazım şəkli (وجه التزامی), arzu şəkli (وجه آرزو), şərt şəkli(وجه شرطی) , bacarıq şəkli (افعال اقتداری). Qeyd etmək lazımdır ki , vaxtilə feilin şəkillərindən biri kimi tədris olunan "bacarıq şəkli" hazırki qrammatika kitablarında mürəkkəb feillərin xüsusi növü kimi şərh edilir.

Xəbər şəkli.Xəbər şəkli özünün xüsusi qrammatik mənasına görə , yəni işin , hərəkətin gerçəkliyə münasibətindəki reallığa görə , ayrıca olaraq , zaman kateqoriyası kimi izah edilir. Feilin xəbər şəkli iş , hal , hərəkətin icrasının zamanı və icraçı vəzifəsini ifa edən şəxs anlayışı ilə bilavasitə bağlıdır.İş , hal və hərəkətin müxtəlif vaxtlarda (keçmişdə , hal-hazırda və gələcəkdə) icrası dildəki qrammatik zamanın varlığını əsaslandıran mühüm amildir.Xəbər şəklini digər şəkillərdən fərqləndirən və şərtləndirən əsas cəhət onun zaman anlayışına , xüsusən də müxtəlif zaman kəsiyi formalarına malik olması , həm də müəyyən şəxslə bilavasitə bağlı olmasıdır.Feilin xəbər şəkli iş , hal , hərəkətin icrasının zamanı və icraçı vəzifəsini ifadə edən şəxs anlayışı ilə bağlıdır.

Məlumdur ki , obyektiv zaman üç ümumi zamanı – keçmiş , indiki , gələcək zamanları əhatə edir. Fars dilində üç zamanın hər birinin daxili bölgüləri mövcuddur:keçmiş zaman formaları (ماضی مطلق ، ماضی استمراری ، ماضی نقلی ، ماضی بعید ، ماضی التزامی ، ماضی استمراری ، ماضی ملموس) , indiki zaman formaları(زمان حال ، مضارغ ملموس) , gələcək zaman formaları (زمان آینده ی مستقبل ، زمان کنونی)

Fars dilində frazeoloji vahidli cümlələr sintaktik quruluşuna görə əsasən sadə cümlələrdir. Nadir hallarda tabesiz və tabeli mürəkkəb quruluşlu cümlələrə də rast gəlinir. Sadə və ya mürəkkəb feillə ifadə olunan feil komponenti 3-c şəxsin təkində işlənir.Konteksin şərtinə və ifadə məqsədinə görə müxtəlif zaman və şəkillərdə işlənə bilir.(دلم تنگ شد ، دستش از دهانش می رسد ، کاسه ی صبرش لبریز شد ، شکمش گوشت نو بالا آورده است ، پایش لب گور است) Bəzi hallarda frazeoloji cümlərin xəbərinin isimlə ifadə olunduğunun şahidi oluruq.

. آبادی میخانه زویرانی ماست – Meyxanənin abadlığı bizim viranəliyimizdəndir.

آب از سرچشمه گل آلود است. -Su çeşmənin başlanğıcından gillidir.

در خانه ی مور شبنمی طوفان است . - Qarışqanın evində şeh tufandır.

در شهر کوران آدم یک چشم پادشاه است. – Korlar şəhərində bir gözlü adam padşahdır.

Verilmiş məqalədə bu növ frazeoloji vahidlərin quruluş- qrammatik modellərini və feillərin daha çox ifadə edildiyi zaman kateqoriyaları və şəkillərini nəzərdən keçirək:

Xəbəri şühudi keçmiş zamanla ifadə olunan frazeoloji cümlələr:

آفتاب به زردی افتاد ، تنبل به جلدی افتاد - Günəş saraldı , tənbəl əl ayağa düşdü

آنجا رفت که عرب نی انداخت (Ərəbin neyi atdığı yerə getdi – it bat oldu)

اجل مهلتش نداد (Əcəl möhlət vermədi – dünyasını dəyişdi)
هر چه بدم امد سرم امد (Xoşuma gəlməyən başıma gəldi)
پیاز هم خودش را داخل میوه ها کرد (Soğan da özünü meyvələrin içinə daxil etdi – özünü mühüm adam sandı)
تیرش به سنگ خورد (Oxu daşa dəydi – Arzusuna çatmadı)
خرش از پل گذشت (Ulağı körpüdən keçdi – Arzusuna çatdı)
طشتش از بام افتاد (Teşti damdan düşdü- Rüsvay oldu)
خون چشمایش را گرفت (Qan gözlərini tutdu- Əsəbləşdi)
شیطان زیر جلدش رفت (Şeytan dərisinin altına girdi- Kimsə yoldan çıxartdı)
گوشت بدنش ریخت (Bədəninin əti tökülüb – Arıqlayıb)

Nəqli keçmiş zamanla ifadə olunan cümlələr:

آب زیر پوستش رفته است (Su dərisinin altına getmişdir – Maddi vəziyyəti yaxşılaşmışdır)
آفتاب از کدام طرف در آمده است (Günəş hansı tərəfdən çıxmışdır – Gözlənilməz hadisə baş vermişdir)
آن درسی که تو خوانده ای ما ازبر کرده ایم (Sən oxuyan dərsləri biz əzbərləmişik- Sən gedən yolları mən çoxdan keçmişəm)
آن قدر مار خورده است تا افعی شده است (O qədər ilan yemişdir ki , əfi olmuşdur – onu heç kim aldada bilmir)
از دهان فیل افتاده است (Filin ağzından düşmüşdür – Özündən razı olmuşdur)
جیبش تار عنکبود بسته است (Cibini hörümçək toru bağlamışdır- Çox kasıb olmuşdur)
ریش خود را در آسیا سفید کرده است (Öz saqqalını Asiyada ağartmışdır- Təcrübəli olmaq)
روزه خوردنش را دیده ایم نماز خواندنش را ندیده ایم (Oruc tutmağını görmüşük ,namaz qılmağını görməmişik- Yaxşı iş gördüyünü görməmişik)
کفگیر به ته دیگ خورده است (Kəfgir qazana dəymişdir – Pulu bitmişdir)
دماغش بالا رفته است (Burnu yuxarı qalxmışdır) – Özündən razı olmuşdur.

Qeyd etmək lazımdır ki , misallarda nəqli keçmiş zamanda verilmiş frazeoloji cümlələrdə "مگر" (məgər) bağlayıcısından daha çox istifadə edildiyinin şahidi oluruq :

مگر ریشم را در آسیا سفید کرده ام؟ (Məgər saqqalımı dəyirmanda ağartmışam) – Məni nə hesab edirsən?
مگر کله ی گنجشک خورده ای ؟ (Sərçe başı yemisən ?) – Nə çox danışırsan?
مگر شش ماهه به دنیا آمده ای؟ (Altı aylıq dünyaya gəlmisən ?) – Niyə tələsirsən?

Bitməmiş keçmiş zaman və uzaq keçmiş zamanla ifadə olunan frazeoloji cümlələrin sayı məhduddur.

احمدک کار نمی رفت وقتی می رفت جمعه می رفت (Əhməd işə getmirdi , gedəndə də bazar günü gedirdi – Tənbəl haqqında deyilir)
تا روباه شده بود در چنین سوراخی گیر نکرده بود (Tülkü olsa da belə deşiyə girməmişdi – Çətinliyə düçar olmaq)

İndiki zamanla ifadə olinan cümlələr:

آب توی دلش تکان نمی خورد (Su ürəyinin içində tərpənmir – Astagəl olmaq mənasında
آب را گاو می کشد ناله را چرخ می کند (Suyu inək çəkir , naləni çarx- Əziyyət çəkən yox , digəri nalə çəkir)
آبکش به کفگیر می گوید چقدر سوراخ داری (Abkeş kəfgirə deyir ki , nə qədər deşiyin var- Kor kora kor demesə bağrı çatlar)
آبمان یک به یک جوی نمی رود(Suyumuz bir arxdan keçmir- Razılaşmamaq)
آدم به کیسه اش نگاه می کند (Adam kisəsinə baxır – İmkanına görə pul xərcləyir)
آسمان به زمین نمیآید (Səma yerə düşməz – Dünya dağılmaz)
از حلوا حلوا گفتن دهان شیرین نمی شود (Halva – halva deməklə ağız şirin olmaz)
اسب پیشکشی را دندانش را نمی شمارند (Bağışlanan atın dişini saymazdar)
بار کج به منزل نمی رسد (Əyri yük evə çatmır- Yalan ayaq açar yeriməz)
به خر دستش نمی رسد پالانش را می زند (Ulağa əli çatmır ,palanı vurur)
سگ صاحبش را نمی شناسد، (İt yiyəsini tanımır)
سرش به تنش سنگینی می کند (Başı bədəninə ağırlıq edir) – Özünü təhlükəyə atır.
نخودچی توی جیبم می کنی و سرم را می شکنی ؟ (Cibimə noxud töküb başımı yarırsan?) – Cüzi yaxşılığın müqabilində mənə böyük ziyan vurursan

Qəti gələcək zaman

دیدار ما به قیامت خواهد افتاد (Görüşümüz qiyamətə qalacaq) – O dünyada görüşərik

Əmr şəkli .Əmr şəkli həm məna zənginliyinə ,həm də qrammatik formasına görə feilin digər şəkillərindən fərqlənir.Qeyd etmək lazımdır ki , əmr sözü hərfi mənada deyil , qrammatik- terminoloji mənada qəbul edilir.Çünki feilin bu şəkli vasitəsi ilə təkcə əmr deyil , həmçinin xahiş , yalvarış ,icazə , məsləhət ,istək , çağırış və s. Kimi məna çalarları da ifadə edilir. (6,)

آب حیات ار دم افعی مجوی (Həyat suyunu ilanın quyruğunda axtarma)- Pis adamdan yaxşılıq gözləmə
آستین نو پلو بخور (Yeni paltarın qolu , plov ye) – Kiməsə geyiminə görə hörmət etmək
بخور انجیر پاره کن زنجیر (Ənciri ye , zənciri qır) – Əncirin qüvvətli qida olmasına işarədir
بخور آش بشکن جاش (Aşı ye , qabını sındır) – Nankorluq etməyə işarətdir
برادریت را ثابت کن بعد ادعای ارث و میراث کن (Qardaşlığını sübut et , sonra mirasa iddia et)- Dürüstlüyünü sübut etməyə işarədir
حرف راست را از بچه بپرس - Sözün düzünü uşaqdan soruş

خری را که به بام برده ای خودت پایین بیاور (Ulağı dama özün çıxartmısan , özün də düşürt) – Səhv əməlinə görə özün cavab ver

زدی ضربتی ضربتی نوش کن (Zərbə vurmusan , zərbəni nuş et) – Haqq etdiyini al

کم بخور ، همیشه بخور – Az ye , həmişə ye

کار امروز به فردا مفکن - Bu günün işini sabaha qoyma

کار خود کن ، کار بیگانه مکن (Öz işini gör , başqasının deyil) – Öz işlərinlə məşğul olmaq mənasında

برو عقلت را آب بکش (Get ağlını yaxala) – Ağıllı ol

Vacib şəkli. Feilin vacib şəklinin əsas mənası müəyyən işin ,hərəkətin icrasının zəruri olmasını ,vacibliyini bildirməkdir.Fars dilində vacib şəklinin Azərbaycan dilində olduğu kimi morfoloji əlaməti yoxdur. Bu dildə vacib şəklinin qarşılığı təsviri vasitə ilə (بایستن feilinin iltizam formasının III şəxsin təki olan باید, əsas feilin مضارع التزامی formasının şəxsə görə dəyişməsi) verilir.

آدم باید نگاه به سرمایه اش بکند نه به همسایه اش (Adam gərək öz imkanına baxsın,qonşusunun deyil) – Yorğanını öz ayağına görə uzat

طمع را نباید که چندان کنی ، که صاحب کرم را پشیمان کنی (Nəfsini elə etməlisən ki , mərhəmət sahibini peşman etməyəsən) – Naşükürlük etməməyə işarətdir

علف باید به دهن بزی شیرین بیاید (Ot keçinin ağzına şirin gəlməlidir) – Başqalarının bəyənmədiyi işi görmək

Şərt şəkli. Şərt şəklinin qrammatik mənası iş ,hal , hərəkətin icra olunub – olunmamasının müəyyən şərtdən asılılığını bildirməkdir.Məhz buna görə də feilin şərt şəkli tabeli mürəkkəb cümlə daxilində reallaşa bilir.Fars dilində şərt şəkli bilavasitə şərt bağlayıcılarının (اگر ،هرگاه ، در صورتی که) iştirakı ilə düzəlir.Frazeoloji cümlələrdə “ اگر “ şərt bağlayıcısının ən çox işləndiyinin şahidi oluruq:

اگر دیر آمدم شیر آمدم (Əgər gec gəldimsə də , şir kimi gəldim) – Gec də olsa işi mükəmməl görmək

اگر خدا بخواهد از نر هم می دهد (Əgər Allah istəsə ərkək dəvə də bala verər) – Allah hər şeyi mümkün edə bilər

اگر سنگ از آسمان ببارد او کار خودش را می کند (Əgər göydən daş da yağsa , öz işini görür) – Laqeyd insana işarədir

اگر شب ها همه قدر بودی شب قدر بی قدر بودی (Əgər hər gecə qədr gecəsi olsaydı , qədr gecəsi dəyərsiz olardı) – Hər bir şey az olanda dəyərli olur

اگر قبر مفت پیدا کردی برو توش بخواب (Əgər müftə qəbir tapdınsa gir içində yat) – Müftə çeydən yararlanmaq mənasında

اگر دنیا را آب ببرد او را خواب می برد (Əgər dünyanı su bassa , onu yuxu basar)- Laqeydliyə işarətdir

اگر صدا از دیوار در آمد از او هم در آمد (Daşdan səs çıxır , ondan yox) – Çox sakit adama işarətdir

اگر پیش سگ بیاندازنند بو نمی کند (İtin qabağına atsan iyləməz) – Dəyərsiz olmaq mənasında

İltizam şəkli .

Frazeoloji cümlələrdə feil aorist və ya feilin arzu şəklində təşəkkür , təbrik , salamlaşma , qarğış mənalarında işlənir.

خدا از دهنت بشنود (Allah ağzından eşitsin) – Arzuların çin olsun

دست شما درد نکند (Əlləriniz ağrımasın) – Minnətdarlıq mənasında

حلالت باد (Halalınız olsun) – Halal xoşunuz

آدم نمی داند به کدام سازش برقصد (Adam bilmir hansı sazına oynasın) – Tez -tez fikrini dəyişən adam haqqında deyilir.

از گدا چه یک نان بگیرند و چه یک نان به او بدهند. (Dilənçidən bir çörək alsın , ya çörək versin fərq etmir) – İşini bilməyən adama işarədir.

شوهرم برود کاروانسرا نانش بیاید حرمسرا (Ərim karvansaraya gedər , çörəyi evə gələr) – Evin ehtiyaclarını ödəyə bilmək mənasında işlənir .

چشمتان روز بد نبیند (Gözünüz pis gün görməsin) – Allah pis gün yaşatmasın

Bildiyimiz kimi mübtədası olmayan və şərti də olsa təsəvvür edilməsi mümkün olmayan təktərkibli cümlələr şəxssiz cümlələr adlanır.Fars dilində təktərkibli şəxssiz cümlələr feili xəbərli və ismi xəbərli şəxssiz cümlələrə bölünür.Frazeoloji cümlələrdə də şəxssiz cümlələrə rast gəlirik:

با یک دست دو هندوانه نمی توان برداشت - Bir əllə iki qarpız götürmək olmaz

خر مردم را باید یک لنگی سوار شد - Başqasının ulağına bir ayaqla minmək lazımdır (Baəqasının malına göz dikməmək mənasında)

علاج واقعه پیش از وقوع باید کرد - Hadisə baş verməmiş ona əlac qılmaq lazımdır.

باید از دیوار شکسته و سگ درنده زن سلیطه ترسید -Sınmış divardan ,yırtıcı itdən və deyingən qadından qorxmaq lazıdır.

Nəticə.Verilmiş məqalədə müasir fars dilində cümlə quruluşuna malik frazeologizmlərin təsnifi funksional , quruluş və qrammatik əsaslara görə araşdırılmışdır. Fars dilində əhəmiyyətli sayda feili frazeoloji vahidlər və cümlələr mövcuddur.Frazeoloji cümlələrin əksəriyyəti adi cümlələrin əsas xüsusiyyətlərini – modallıq , zaman , şəxs kateqoriyalarını özündə əks etdirir. Lakin bəzi frazeoloji cümlələrdə qrammatik kateqoriyaların təzahür edilməsində bəzi məhdudiyyətlərin şahidi oluruq. Məqalədə konkret olaraq frazeoloji cümlələrdə feilə xas olan , onu səciyyələndirən qrammatik kateqoriyalardan biri olan şəkil kateqoriyasının bir neçə bölgüsü araşdırılmışdır. Məlum olmuşdur ki , fars dilinə məxsus frazeoloji cümlələrdə əsasən xəbər , əmr , vacib , şərt şəklindəndən daha çox istifadə edilir.

İstifadə olunmuş ədəbiyyat

1. لغت نامه ی دهخداvajehyab.com
2. فارسی عمید فرهنگvajehyab.com
3. فرهنگ اصطلاحات و لغات عامیانه محمد علی جمل زاده
4. فرهنگ فارسی معین
5. ضرب المثل های فارسی و اصطلاحات عامیانه تالیف : مصطفی رحیمی نیا چاپ پنجم ۱۳۸۹

6.T.Rüstəmova , Fars və Azərbaycan dillərinin qarşılıqlı- müqayisəli qrammatikası , Bakı-2010
7. Г. С. Голева , Фразеология современного персидского языка , Москва -2006
8.Ю . А . Рубинчик , Основы фразеологии персидского языка , Москва - 1981
Açar sözlər: fars dili , frazeoloji vahidlər, frazeoloji cümlələr, feil kateqoriyaları
Ключевые слова: персидский язык , фразеологизмы-предложения , категории глагола
Key words: Persian language, phraseological units-sentences, verbal categories.

Выражение категорий глаголав фразеологических предложениях на современном персидском языке

РЕЗЮМЕ

В данной статье проведено исследование по характеристике и выражению категорий глагола в фразеологических предложениях на современном персидском языке по функциональным , структурным и грамматическим основам. ФП обладают синтактическими свойствами , характерными для обычных предложений : изменения по лицам , временам и наклонениям .Они могут иметь форму утвердительных и отрицательных предложений.

Expression of Verbal Categories in Phraseological Sentences of Modern Persian Language

SUMMARY

In this article, a study was conducted on the characteristics and expression of the categories of the verb in phraseological sentences in modern Persian Language on functional, structural and grammatical bases. Phraseological sentences have syntactic properties, characteristic of ordinary sentences: changes in persons, tenses and moods. They can take the form of affirmative and negative sentences.

Rəyçi: dos. Ə.Məmməova

Münəvvər Zeynalova [14]

SOSİAL SİNİFLƏRDİLDƏ SOSİAL DİALEKTLƏRİN YARANMA SƏBƏBİ KİMİ

İnsanların həyatının bütün tarixi onların digər insanlarla münasibətləri və eyni zamanda qarşılıqlı münasibətləri tarixidir. Bu qarşılıqlı əlaqə nəticəsindəhər cəmiyyətdə sosial icmalar və qruplar yaranır.Sosial qrup- xüsusi sosial qurumlar tərəfindən tənzimlənən və ümumi normalara, dəyərlərə və adət-ənənələrə əsaslanan insanların birliyi olaraq nəzərdən keçirilir. Sosial qrup,həmçinin sosial quruluşun əsas komponentlərindən biridir. Sosial qruplar, cəmiyyətin sosial quruluşunun elementlərindən biri olaraq da xarakterizə edilir. Sosial qruplar ümumi , xüsusi xüsusiyyətlər (cins, yaş, milliyyət, peşə, gəlir, güc, təhsil və sair), maraqlar, məqsədlər və fəaliyyətlər ilə əlaqəli olaraq yaranan insanların birliyidir. Yer üzündə fərdlərdən daha çox sosial qrup var, çünki eyni bir fərd bir neçə qrupa daxildir. Pitirim Sorokin qeyd edir ki, tarix bizə qrupdan kənar bir insan vermir. Doğurdan da, doğuşdan hər bir fərd hansısa bir qrup üzvu olur,məsələn, üzvləri qohumluq əlaqələri və həyat icması ilə bağlı olan bir ailə buna misal ola bilər .Yaşlandıqca qrupların dairəsi genişlənir, həyətyoldaşları, bir məktəb ,bir sinif, idman komandası, iş kollektivi, şənlik iştirakçıları və s. Sosial qrup daxili təşkilat, ümumi məqsəd, ortaqfəaliyyət,qayda və normalar, qarşılıqlı əlaqə (aktivünsiyyət) kimi əlamətlərlə xarakterizə edilir. Sosiolektlərdən digər terminlə desək,sosial dialektlərdən danışarkən idiolekt terminin də araşdırılmasına ehtiyac duyulur.

İdiolektlər hər hansı fərdin özünə məxsus nitqi kimi xarakterizə edilir. İdiolekt termini yunan sözləri olan idio (şəxsi) və lekt (dialekt sözündən) birləşməsi kimi bilinir və dilçi Bernard Blochtərəfindən araşdırılmışdır.İdolektlər fərdi, şəxsi xarakter daşıyır və daima dəyişikliklərə məruz qalır. İdiolektlər də sosiolektlər kimi sosial faktorlardan asılıdır – cari ətraf mühit, təhsil, dost qrupları, hobbi və maraqlar və bu kimi çoxlu sayda amillər. Əslində hər bir fərdin idiolekti birbaşa onun həyatının hər bir aspekti, sahəsi ilə sıx əlaqədədir. Sosiolektlər kimi idiolektləri də hər bir fərd özünə uyğun şəkildə seçir və ona ən uyğun olanına daha çox üstünlük verir. Hər kəsin idolekti onun dildən fərdi şəkildə istifadə forması və tərzidir deyə bilərik.

Sosiolekt	İdiolekt
• Sosial qrupların təsirinə məruz qalır. • Paylaşılan variantdır. • Yaş, iqtisadi status, cins kimi faktorların təsirinə məruz qalır. • Əksər insanlar fərqli-fərqli sosialektlərin istifadəçisi ola bilər.	• Fərdə məxsusdur. • Bənzəri yoxdur. • Fərdin bütüm həyat tərzini əhatə edir. • Əksər insanlar fərqli-fərqli idiolektlərdən istifadə edə bilir.

Sosial qruplar dedikdə ortaq maraq və eyni sinfi cəmiyyətli paylaşan insanlar qrupunu nəzərdə tuturuqsa,sosial qruplar aşağıdakılardır əsasında formalaşa bilər:

- Yaş
- Sinif
- Cins
- Din
- Milli mənsubiyyət
- Ailə
- Maraq dairəsi
- Peşə fəaliyyət

Dil variasiyaları tez-tez bizim hansı sosial təbəqəyə aid olduğumuzun xəbərçisi rolunda çıxış edir, məhz bu səbəbdən insanlar özlərinin hansı sosial təbəqə nümayəndəsi olduğunu bildirmək, göstərmək üçün dil variasiyası seçimi edirlər. Məsələn,müəyyən peşə sahibləri və yaxud ortaq maraqları bölüşən insanlar öz professionallıq dərəcələrinin göstəricisi olaraq jarqon sözlərdən istifadə edirlər (əsasən ən diqqət çəkən söz). Məsələn, həkimlər "kəsik", "ağrı" sözlərini "lesion" sözü ilə ifadə edirlər, çünki bu söz ortaq lüğət tərkibində mövcuddur. Yəni, bu sözü hər bir həkim anlayır, başa düşür. Yadda saxlamaq lazımdır ki, dil daim dəyişikliklərə məruz qalır. XII əsrdə danışılan ingilis dili bu gün istifadə olunan ingilis dilindən əsaslı şəkildə fərqlənir. Ancaq bu faktı da qeyd etməliyik ki, əksər sözlər müasir ingilis sözləri ilə oxşar olsa da, əsasən tələffüzdə fərqliliklərmüşahidə edilməkdədir. Bu fakt əsasən biz o zamankı dili müasir dövrdə istifadəsi geniş yayılan slənqlərlə müqayisə edərkən özünü doğrulayır. Misal olaraq Şekspirə "omg your plays are dope, no cap" deyilsəydi, təbii ki, o heç nə başa düşməyəcəkdi.

Zaman keçdikdə, bizim sosial qruplar içərisində rolumuz da dəyişir, hətta bütövlükdə sosial qrupu tamamilə dəyişə bilirik. Təbii olaraq böyüyürük, yaşlanırıq- hətta yaşayış yerimizi, şəhəri, kəndi dəyişirik, yeni iş tapırıq, yeni hobbilərlə məşğul oluruq. Hər bir yeni vəziyyətdə bizlər müxtəlif sosial qruplarla ünsiyyət saxlamaq üçün fərqli dil variasiyalarına üz tuturuq, sonda bizim dilimiz daxil olduğumuz sosial qrupların bir vəhdəti halına gəlmiş olur,yəni həmin sosial qrupları özündə əks etdirən bir sosiolekt, digər terminlə adlandırsaq,sosial dialekt formasını almış olur.

[14] **Azərbaycan Dillər Universiteti. Ümumi Dilçilik kafedrası . 5704.01-Dil nəzəriyyəsi ixtisası**

Sosial linqvistika ilə məşğul olan zaman biz digər terminlərlə tanış oluruq, hansı ki, onlarən da araşdırılmasına ehtiyac duyulur. Bunlar language style və register terminləridir. Language style-bizim öz auditoriyamızla danışıq tərzimizdir. Bu zaman biz müəyyən sözlər və xüsusi danışıq tərzi müəyyən etmiş oluruq, hansı ki, məhz bu yolla özümüzü ifadə edir və öz tərzimizi müəyyən etmiş oluruq.Misal olaraq,bizlərin qarşımızdakı şəxsin yaxud şəxslərin kimliyini nəzərə alaraq seçdiyimiz söz,ifadə,cümlə quruluşlarını göstərə bilərik.Hər kəsin nitqinin fərqli olmasına səbəbiyyət verən xüsusiyyətlərdən biri də məhz bu ifadə formasidir. Register – araşdırılmasına ehtiyac duyulan digər termin kimi register termini xüsusi situasiya yaxud məzmunla bağlı olaraqmeydana çıxır.

Register-ə təsir edən faktorlar bunlardır:

- Mövzunun, söhbətin hansı sahəyə aid olması
- Tərzi (vəziyyətin hansı dərəcədə rəsmi olması)
- Forması (yazılı yaxud şifahi olması)

Bu o deməkdir ki, biz məktəb müdiri ilə söhbət edərkən istifadə etdiyimiz dil variantı ilə meil göndərərkən yaxud dostlarımızla söhbət zamanı istifadə etdiyimiz nitq formasından, dil tərzindən nəzərə çarpacaq dərəcədə fərqlənəcəkdir. Bu zaman sosiolektin izahına yenidən ehtiyac yaranır. Yuxarıda izahanı versək də, burada qeyd edilməsi yerinə düşər ki, sosiolektlər bəzən də bizim bilərəkdən hansısa sosial qrupun nümayəndəsi, hissəsi kimi görünmək istəyimizdən irəli gələrək üz tutduğumuz dil variasiyasıdır. Tez-tez hansısa sosial qrupa aid olduğumuzu bildirmək üçün xüsusi aksent və müəyyən sözlərdən istifadə edirik. Sosiolektlər effektiv ünsiyyətin təminatçısı rolunda çıxış edir, (məs, diş həkimləri xüsusi jarqondan istifadə edir) xüsusi bir sosial qrupa aid olduğunu bildirir və digərlərini həmin qrupdan "xaric edir". Dil bəzən insanlar arası "aid olma" anlayışının əsasında dayanır yaxud da cəmiyyət daxilində "bölünmələrə" səbəb olur. Keçmişdə RP (Received pronounciation) aksenti (bəzən də "Queen`s English" adlandırılırdı) daha çox yuxarı sinif nümayəndlərinin adı ilə bağlı idisə, ərazi aksentləri (məs, Cockney) isə daha çox fəhlə sinfinə aid edilirdi. Dil və sosial qrupları sahəsində bir çox nəzəriyyəçilərin araşdırmaları mövcuddur. Bunlardan biri kimi Howard Giles Communication Accommodation nəzəriyyəsini göstərə bilərik. Giles öz nəzəriyyəsində insanların necə öz davranışlarını dəyişdirdiklərini göstərməyə çalışmışdır. Bunlara misal olaraq, Konvergensiya (Convergence) –başqa birinin dil və ünsiyyət xüsusiyyətlərini qəbul edərək özü və digərləri arasında sosial məsafəni qısaltmağa yönələn nəzəriyyəni vəDivergensiya (Divergence) –Dil və ünsiyyətdəki fərqlilikləri daha da vurğulayaraq hər hansı bir sosial qrupdan ayrılma, uzaqlaşmağa yönələn nəzəriyyəni göstərə bilərik.Bunlardan danışarkən Labovun sosial linqvistikada əsas nəzəriyyəçilərdən biri olduğunu vurğulamaq yerinə düşərdi. Dilin cəmiyyətədki rolu haqqında çoxlu sayda tədqiqatlar aparan biri olaraq, Labov daha çox dil və onun xüsusi sosial qruplarda inkişaf mexanizminin araşdırılmasına diqqət çəkmişdir. Onun ən diqqətə layiq araşdırmaları qeyri-ənənəvi ingilis dili (non-standart English), Afrika-Amerikan Vernakulyar İngilis dili (African American Vernacular English) və Martha`s Vineyard sahələrindəndir. Martha`s Vineyard adlı təcrübəsində LabovAmerikada Masaçutes ştatında Martha`s Vineyard adlı adada bir qrup balıqçılar tərəfindən istifadə olunan sosiolekti öyrənib araşdırmışdır. Tədqiqatın sonunda o aşkara çıxarmışdır ki, adanın digər sakinləri qeyri-ixtiyari şəkildə yerli balıqçıların ənənəvi tələffüz formasını bir növ imitasiya edirdilər. Çünki balıqçıların istifadə etdiyi həmin o sosiolekt güc və cəsarəti ifadə edirdi. Bu tədqiqat göstərir ki, insanlar daha bəyəndikləri və bir hissəsi olmaq istədikləri sosial sinfin, qrupun danışıq formasını mənimsəyə bilirlərş Məhz həmin adada sakinlər öz nitqlərini (sosiolektlərini) dəyişdirərək daha ənənəvi, güclü və cəsarətli olduqlarını nümayiş etdirmək istəyirdilər. Artıq qeyd olunduğu kimi, insanların danışıq tərzinin, nitqinin formalaşmasına onların yaşadığı ərazinin və ətraf mühitin (sosial faktorlar) bir başa təsiri olduğu faktını bir daha vurğulamağa ehtiyac vardır.

Məhz bu səbəbdən eyni coğrafi məkanı bölüşən insanların nitqi, danışıq tərzi fərqlənir. Buna səbəb olan sosial-iqtisadi mənsubiyyət, yaş, cins faktorları zaman etibari ilə dəyişə bilən olduqlarından şəxslərin, fərdlərin nitqləri də dəyişkəndir. Bu faktorlar insanların ərazi dialektlərindən nə dərəcədə istifadə etdiyinə də öz təsirini göstərir. Nitqdə bəzi hərflər yaşlı nəslin nitqində gənc nəslin nitqinə nisbətən daha tez-tez istifadə edilir. Məsələn, ABŞ-da sözlərin tələffüzü zamanı ["r"] səsinin düşməsi fərqli-fərqli regionlarda fərqli status nümunəsi kimi təqdim olunur və yaxud başa düşülür. Məs, Charlestonda yüksək statusa malik qrupların nitqində "r" səsinin düşməsi, fəhlə sinfi yaxud aşağı statusa malik qrupların nitqinə nisbətən daha tez-tez təsdüf edilir. Ancaq eyni zamanda New York City-də "r" səsinin nitq zamanı düşməsi, daha çox fəhlə sinifi və yaxud aşağı statusa malik qruplarda müşahidə olunur. Sosial dialektlər hal-hazırda mövcud olduqları cəmiyyət daxilində daha surətlə yayılır və çoxalır, buna səbəb insanların daha asan və rahat şəkildə ünsiyyət qura bildiklərindən irəli gəlir. Kasıblıq siniflər arası ziddiyyət, rasizim kimi səbəblər sinifləri, qrupları digərlərindən təcrid vəziyyətinə də sala bilər. Hal-hazırda Amerika Birləşmiş Ştatlarında üç ən əsas sosial dialektin mövcud olduğunu qeyd edə bilərik. Bunlar: Black English (ebonics)/-Afrika-Amerikan, Slanq, İnternet Dialekti. Müstəqillikdən öncə Yeni Dünya quldarlığın mövcud olduğu bir ölkə idi. XVI əsrdən XIX əsrə qədər təqribən 12 mln Afrikalı Amerikaya gətirilmişdir. Kənd təsərrati üçün Amerikanın cənub hissələrinin daha uyğun olduğu faktını nəzərə alsaq qullar daha çox bu hissəyə göndərilirdi. Bu qullar ağ dərili insanlar və yeri Amerikanlar üçün işləməyə məcbur edilirdilər.Afrikakı qullar və onların sahibləri ünsiyyət üçün yol axtarırılar. Bu axtarış təbii olaraq qullar üçün Afrika dillərinin, sahibləri üçün isə Amerikan İngilis dilinin sadələşdirilərək ortaq bir ünsiyyət vasitəsilə tapmalarına gətirib çıxardı. Bu proses bir sıra Afrika dillərinin yaranmasına səbəb oldu: Gullah

English, Cameroonian English və West-African English.Bu tarixi proses zamanı Afrika-Amerikan Vernakulyar İngilis dili də yaranmış oldu. Bu sosiolekt nümunəsi American İngilis variantından tələffüz və qrammatika baxımından əhəmiyyətli dərəcədə fərqlənir, digər sosiolektlərdə isə bu cür fərqli xüsusiyyətlər az nəzərə çarpmaqdadır. AAVE-də ən çox nəzərə çarpan tələffüz fərqlilikləri aşağıdakılardır.

Dil-diş frikativləri. AAVE danışanlar "th" əvəzinə daha çox "d" istifadə edirlər. Bu daha çox qulların holland və yaxud alman sahiblərə malik olması faktı ilə əlaqələndirilirdi.AAVE-in çox yayğın olan xüsusiyyəti sonunda "no" səsinin olmamasıdır. "Sitting", "having" kimi feillərin sonu sittin, havin kimi tələffüz edilir.

Qeyd etmək yerinə düşər ki, bu vəziyyət AAVE istifadə etməyənlərin də nitqi üçün hal-hazırda xarakterikdir.Hərflərin yerdəyişməsi - tez-tez "ask" kimi sözlər "aks" olaraq tələffüz edilir. M, nkimi burun samitlərindən əvvəl e və i eyni səs kimi tələffüz edilir. Bu daha çox cənubi Amerika İngilis variantı üçün də xarakterikdir.AAVE-də çox maraqlı qrammatik dəyişikliklər mövcuddur. İki ard-arda gələn sözün surətli tələffüzü nəticəsində yeni sözün meydana çıxması buna misal ola bilər: Məsələn, "He finna go outside" cümləsinin mənası əslində, o bayıra çıxmağa hazırlaşır, yəni, He is about to go outside. Burada finna sözü fixing to ifadəsinin surətli tələffüzünün nəticəsi olaraq meydana çıxmışdır.Bu günlərdə AAVE yaxud Black English Amerikada yalnız qaradərili insanlar tərəfindən istifadə olunmur, bu sosiolekt eyni zamanda məhşur rep və hip-hop musiqi dili kimi də geniş yayılmaqdadır. Bəzən Qafqazdan gələnlərin də nitqi bu cür qəbul edilməkdədir. Slənqlərdən danışarlən, yeniyetmələrin öz aralarında ünsiyyət vasitəsi olaraq yaradıldığı faktını yaddan çıxarmamalıyıq.

Onlar slənqlərdən istifadə edərək, qısa müddət ərzində kimin onların qrup üzvü olub-olmadığını müəyyənləşdirə bilirlər. Həmçinin onlar slənqləri valideynlərinin başa düşə bilmədiyi "gizli dil" kimi də istifadə edirlər. "Gizli dil" olduğundan o tez-tez dəyişikliklərə məruz qalır, yəni sosial mühitdə olan hər hansı kiçik bir yenilik də slənqdə öz əksini tapmalı olur. Zaman keçdikcə yeniyetmələrin "gizli dili" valideynləri və kiçik uşaqlar tərəfindən aşkar edilir, sözlərin mənası aydınlaşır və onlar yeni gizli sözlər tapmalı olurlar. Məsələn, cool kimi slənq sözlər bəzən illərlə mövcud ola bilsə də, bəzilərinin ömrü bir neçə ay və yaxud bir neçə il çəkir, məsələn bling bling kimi.Amerika Birləşmiş Ştatlarında hal-hazırda geniş yayılmış sosiolekt nümunəsi olaraq İnternet dialektini də qeyd etməliyik. Bütün dünyada insanlar bir-biri ilə ünsiyyət qura bilmək üçün mesajlaşma, çat qruplar, e-maillər forumlardan istifadə edirlər. Məhz bu səbəbdən internet və yeni medianın təsiri altında formalaşmış yeni dil formaları yaranmışdır. İnternet və media istifadəçiləri öz aralarındakı ünsiyyəti təmin etmək üçün yeni sosial dialektin yaranmasına səbəb olmuşdular. Sosial dialekt nümunəsi olaraq brb (be right back), Lol (laugh out loud), ROTFL (Roll on the floor laughing), smh (shake my head) və ttyl (talk to you later) kimi sözləri göstərə bilərik. İnternet dialektinin hətta öz onlayn lüğəti də artıq var ki, burada fərqli sözlərin mənasını axtarıb tapmaq mümkündür. Bu cür sözlərin yazılışında müəyyən qaydalar da mövcuddur, məsələn LOL sözündə hərflər böyük olaraq yazılmalıdır, əgər lol yazılarsa bu sözün təsir gücünün azaldığına işarədir.

Bu cür sözlərin dildə istifadəsi az və ya çox dərəcədə lazımdır, ancaq ifrata yol verilməlidir. Çünki bu cür sosiolekt nəticəsi olaraq bəzən rəsmi və akademik vəziyyətlərdə də internet sosiolekti nümunələrinə rast gəlinir və bu da sonda dilin "korlanmasına" gətirib çıxara bilər. Məsələn, gündəlik işlənən sözlərdən olan "guy" sözü tələbələr tərəfindən imtahan vərəqlərində asanlıqla istifadə edilir və yaxud "you" əvəzinə "u", "two" əvəzinə "2" görmək mümkündür.Tənqidçilərin fikrincə peşəkar və biznes ünsiyyətində internet sosiolekti yol verilməzdir. Qısaltmalar, smayllar və internet slənqi biznes və akademik "dillərdə" istifadə olunmamalıdır. Eyni zamanda digər tənqidçilər internet slənqinin də dilə öz töhfəsi olduğunu qeyd edirlər. Bunu mütəmadi olaraq mesajlaşmağın insanların lüğət bazasının zənginləşməsinə səbəb olduğu faktı ilə izah edirlər ki, bu da onların oxu vərdişinin inkişafına səbəb olur.

İstifadə olunmuş ədəbiyyat

1.Bloch B.Outline of Linguistic Analysis (with G.L.Trager)Waverley Press,Baltimore,1942,54 p.
2.Smelser N. The Sosiology of Economic life,Englewood Cliffs ,N.J.Prentice-Hall, 1963, 95 p.
3.Питрим.А.С. Система социологии ,Астрель,2008,115 с.
4.Eckert,Penelope [2003].Language and Gender. McConnell-Ginet ,Sally.Cambridge:Cambridge University Press .
5.Janet Holmes [1997]. Women ,language and identity .Journal of Sociolinguistics .

Açar sözlər:sosial iqtisadi status,sosial sinif,jarqon,idiolekt,sosial dialekt,instrumental funksiya,dəstəkləyici funksiya.
Ключевые слова: социально-экономический статус, социальный класс, сленг, идиолект, социальный диалект, инструментальная функция, опорная функция.
Keywords: social economic status, social class, slang, idiolect, social dialect, instrumental function, supporting function.

Резюме

Статья посвящена взаимосвязи социальных классов и классов в языке как причине возникновения социальных диалектов.Каждое общество состоит из совокупности различных социальных классов и групп.Индивиды, принадлежащие к разным социальным классам, то есть носители разных языков, хотя они, естественно, используют один и тот же язык, в разных социальных они выступают в роли диалектных (социолектных) носителей.Представители каждого социального класса, существующего в обществе, становятся участниками процесса общения, используя только свои фонетические и лексические языковые нормы класса они принадлежат.

В то же время автор попытался уточнить вопрос о том, что такое социальный класс в статье.Как известно, социальные классы образуются в соответствии с экономическими классами людей и сходными политическими и

экономическими интересами между этими классами . В языкознании социолектом (социальным диалектом) называется вариант языка, которым пользуются представители определенной социальной группы или социального класса внутри одного общества.

Summary

The article is devoted to the interrelation of social classes and classes in language as the reason for the emergence of social dialects. Every society consists of a collection of different social classes and groups. Individuals belonging to different social classes, that is, speakers of different languages, although they naturally use the same language, different social they act in the role of dialect (sociolect) users. Representatives of each social class existing in society become participants in the communication process using only their own phonetic and lexical language norms of the class they belong to.

At the same time, the author tried to clarify the question of what is social class in the article. As we know, social classes are formed according to the economic classes of individuals and the similar political and economic interests between these classes.

Rəyçi : f.e.d., prof . A .Y .Məmmədov

	Example		
Positive	*as...(adj.)...as:* • Your house is as big as ours	**Positive**	*as...(adj.)...as:* • Math is as difficult as Chemistry
Comparative	*adj.+ er than:* • Your house is bigger than ours	**Comparative**	*more...(adj.) than:* • Math is more difficult than English
Superlative	*adj.+ est (preposition):* • Your house is the biggest house in the city	**Superlative**	*most ...(adj.) preposition:* • Math is the most difficult among other subjects.

Table 2. *Irregular Comparison (Adapted from: Sargeant, 2007:41)*

Positive	Comparative	Superlative
good	better	best
bad	worse	worst
little	less	least
many	more	most

qrammatikasını mənimsənilməli ;, xüsusən də ərin yol verdiyi ıcaq.
iniifadə etmək *as*istifadə edə və ya daha çox ifətdə müqayisə iyi kimi *-er* qısa

səviyyələrinin olaraq qaydasız deyil, linqvistik est' sifətidir.Bu

lim edir.Birinci aydalı sifətlərin ünlük formaları

Bu iki cədvəldən aydın şəkildə gördüyümüz kimi, müqayisədəki dəyişikliklər müxtəlif yollarla özünü göstərir.Bununla belə, orta məktəbin keçmiş tədris təcrübələrinə nəzər salsaq qeyd etməliyik ki, öyrəncilərinəksəriyyəti bu təsnifatı aydın başa düşməkdə çətinlik çəkirlər və sifətin müqayisəsindən istifadə edə bilmirlər.Bu, təbii ki, asanlıqla həll edilə bilməyən bəzi problemlərdən qaynaqlanır.

Ənənəvi olaraq qəbul edilir ki, Qrammatik Tərcümə Metodunun kökündə qrammatikanın öyrədilməsi dayanır.Bununla belə, bu yanaşma dilin tədrisi və öyrənilməsinin erkən tarixində ən klassik üsullardan biri hesab olunur.Larsen-Freeman və Anderson (5,13) iddia edirdilər ki, 20-ci əsrin əvvəllərində Qrammatik Tərcümə Metodunun məqsədi ilk olaraq öyrənənlərə xarici dil ədəbiyyatını oxumağa və dəyərləndirməyə kömək etmək idi.Bu üsul vasitəsilə onlar həm də ümid edirdilər ki, öyrəndikləri dillərin qrammatikasını öyrənməklə tələbələr tədricən öz ana dilinin qrammatik modelinə daha çox öyrəşəcəklər.Bundan əlavə, bu tanışlıq daha sonra tələbələri ana dillərində daha yaxşı danışmağa və ya yazmağa aparır.Bu, aydın görünür ki, hədəf dilin qrammatikasını öyrənmək istər ingilis, istərsə də digər dilləri öyrənmək üçün ilk dilimizin qrammatik modelini dərk etmək üçün ciddi səy tələb edir.

Qrammatikanın tədrisi ingilis dilinin tədrisi və öyrənilməsi tarixinin ən vacib hissəsi hesab edilmişdir.Bunu Rutherford Purpura, (7, 1) dəstəkləyir, o qeyd edir ki, qrammatika əvvəlcə dil sisteminin təhlilini başa düşmək üçün istifadə olunurdu və qrammatikanın öyrənilməsi yalnız dil öyrənmənin vacib xüsusiyyəti hesab edilmir,lakin öyrənənlərin əslində başqa bir dil əldə etmələri üçün kifayət olduğu düşünülürdü.Buna görə də güman edə bilərik ki, qrammatika termini çox vaxt müəyyən bir dildə bütün müntəzəm nümunələri yaratmaq üçün lazım olan qaydaların tam dəstinə istinad etmək üçün istifadə olunur.

Harmerə (4, 239) görə qrammatika tədrisi bəzən tələbələr tərəfindən görülən digər işlərə görə baş verir.Məsələn, tələbələr audio oxumaq və ya dinləmək üzərində işləyərkən gözlənilmədən hər hansı xüsusi qrammatik nümunə tapılar və tələbə yəqin ki, bu barədə öyrənmək istəyir.Buna görə də, bir dil müəllimi olaraq, ilk növbədə, bu məqamı izah etmək və ya ən azı tələbələrimizin üzləşdiyi hər hansı qrammatik problemin öhdəsindən gəlməyə tam hazır olmaq bizim vəzifəmiz olardı.

Müqayisə edilən şeylərin fərqli və ya oxşarlığından asılı olaraq, müqayisələrin müxtəlif növləri olduğu ümumiyyətlə qəbul edilir.Cowan (1, 582) iki əsas müqayisə növü olduğunu irəli sürdü. Birincisi, bərabərlik müqayisələri və bərabərsizlik müqayisələrinə bölünən adidərəcə idi.Digəri isə müqayisə və üstünlük formalardır.Aşağıda onların ətraflı fərqləri verilmişdir.

Sifət iki şeyi bərabər dərəcədə müqayisə etdikdə, birinci yerdə as… as əlavəsi gəlir.Cowan (1, 575-576) iddia etdi ki, biz iki şeyi bir neçə aspektdə bərabər təqdim etmək istədikdə, müqayisə olunan iki şeyi birləşdirən as…as istifadə edərək ifadə edə bilərik.Daha sonra əlavə etdi ki, bərabərlik müqayisələri bir sıra yollarla da ifadə edilə bilər, məsələn, the same + isim (noun) + as/similar to/equal/identical və ya like istifadə etməklə.Bu nümunələri ən yaxşı şəkildə aşağıdakı nümunələrlə ifadə etmək olar:

- *My motorcycle is the same color as your motorcycle*

[15] BDU

- *Andy's book is identical to mine*
- *You are just like my brother, etc.*

Bununla belə, əks məna və ya bərabərsizlik ifadə etmək üçün birinci bənddə sadəcə olaraq ***not*** əlavə edə bilərik.Buna görə də cümlələrə ***not*** əlavə etdikdən sonra müqayisələr qeyri-bərabər olardı.Bu dəyişiklikləri misal göstərmək üçün aşağıdakı cümlələri nəzərdən keçirək:

•*My motorcycle is not the same color as your motorcycle*
• *Andy's book is not identical to mine*
• *You are not just like my brother.*

Bundan əlavə, Cowan (1, 574), bərabərsizlik müqayisəsini, məsələn, 'x' 'y'dən böyükdür və əksinə, təsvir edir.Bu əlaqə həqiqətən də Cowanın (1, 574) üstünlük və azlıq adlandırdığı digər fikirlərin əsasını təşkil edir.Birinci adətən müqayisəli formalarda *more* və ya *–er*, istifadə etməklə ifadə olunur.Sonuncu *less* + (sayılmayan isimlər) və *fewer* + (sayıla bilən isim) istifadə etməklə göstərilir.Məsələn:

•*Airplane is faster than train (superiority)*
• *Alice has fewer friends than Nadine (inferiority)*

Müqayisəli dərəcə müqayisə edilən iki ismin qeyri-bərabər keyfiyyətini, ölçüsünü, ölçülərini və ya digər cəhətlərini təsvir edir.Yuxarıda aydın şəkildə görə bildik ki, bu müqayisənin düsturu bir hecalı *sifət + er* və *more + iki və ya daha çox hecalı sifətlərdən* istifadə edir.Murphy (6, 210) iddia etdi ki, biz qısa sifət (bir heca) üçün –er istifadə edirik və daha uzun sifət (iki və ya daha çox heca) üçün more istifadə edirik.Bu nümunələrin hər ikisi than istifadə etməklə tamamlanır.Üstünlük dərəcəsi də oxşar nümunə alır. Murphy (6, 216) əlavə etdi ki, *biz qısa sifətlər üçün –**est**, daha uzun sifətlər üçün isə **most*** istifadə edirik. Eyni şəkildə, bu nümunələr əhatə dairəsini və ya müqayisənin nə dərəcədə həll olunduğunu aydınlaşdırmaq üçün sözönlərindən istifadə edilir.Sözönləri*in, on, among, at* və başqaları ola bilər. Bundan əlavə, ***'the'*** + qısa sifətin (bir heca) istifadəsi də həlledici olaraq nəzərə alınır. Bunu praktikada tətbiq etmək üçün burada nümunələr var:

•*Going by plane is faster than by train*
• *Diamond is more expensive than gold*
• *Winter is the coldest season in a year*
• *New Year's celebration is the most enjoyable party in my life.*

Sifətin müqayisəsindəki digər forma qaydasız müqayisədir.Bu cür müqayisə yuxarıdakı digər formalarda göstərildiyi kimi müntəzəm olaraq dəyişmir və müqayisəli və üstün dərəcəni ifadə etmək üçün -est və most tələb etmir.Onun öz dəyişiklikləri və qaydaları var.Məsələn, *bad – worse – worst, good – better – best, far – further/farther – furthest/farthest*

İngilis dilinin qrammatikasının öyrədilməsi əsasən qrammatik qaydaların təqdim edilməsi və ya ayrı-ayrı mərhələlərdə tədricən izah edilməsi ilə həyata keçirilir.Bu ilk cəhdin ardınca bu strukturları tələbələrin anlayışına daxil etmək üçün çoxsaylı nümunələr aparılır.Nəticə etibarı ilə tələbələrə qrammatik cəhətdən düzgün cümlələr yarada biləcəklərinə ümid edilir.Bu məşhur yanaşma Təqdimat Təcrübə və İstehsal və ya PPP adlanır.Kitabının əvvəlki seriyasında Harmer (3, 64) iddia edirdi ki, müəllim tədris prosesinə öyrədilən dili kontekstləşdirən müəyyən situasiya təqdim etməklə başlayır.Hər şeydən əvvəl, bu yanaşma tələbələrə öyrəndikləri müəyyən fənlər haqqında aydın təqdimat və ya mühazirə verməklə başlanacaqdır.Tələbələrdən yavaş-yavaş dil nümunəsini və ya quruluşunu xor təkrarı, fərdi təkrar və replika-cavab məşqləri kimi bir sıra üsullarla tətbiq etmələri xahiş olunur.Sonda tələbələrə yenicə öyrəndikləri dil formasından və ya nümunələrindən bir neçə üsul və ya kontekstdə istifadə etmək tövsiyə olunur.Bu son mərhələ "istehsal mərhələsi" adlanırdı.

Qrammatikanın tədrisində müxtəlif dərsliklər üçün bir sıra qrammatik oyunlar mövcuddur. Bu, radio, televiziya və insanların çoxunun evdə oynadığı bəzi oyunların bir çoxunun tədris məqsədləri üçün də uyğunlaşdırıla biləcəyini iddia edən Harmer (4, 253) ilə uyğun gəlir. Başqa sözlə, hər hansı bir oyun tələbələrə öyrədilən qrammatik diqqət və ya aspekt əsasında hazırlana bilər. Müqayisəli qrammatika oyunu tələbələrə sifətlərdə müqayisə dərəcələrini öyrənməyə kömək etmək üçün vacib hesab olunur. Tədris prosesinə başlamaq üçün müəllim tələbələrə ingilis dilində müqayisə aparmağı öyrədir. Bu bir neçə yolla edilə bilər. Məsələn, müəllim iki tələbədən xahiş edə bilər - bir şagird həmkarından uzun görünür - bir-birinin yanında durub sinifdən kimin daha uzun olduğunu soruşa bilər. Sonra, üstünlük formaları göstərmək üçün müəllim digər ən hündür tələbədən də boy fərqlərini göstərmək üçün həmin iki şagirdlə bir sırada dayanmağı xahiş edə bilər.

Bu fəaliyyət öyrənmə prosesinin öyrənmənin mərkəzi kimi tapşırığın yerinə yetirilməsinə yönəldildiyini yüksək şəkildə qəbul edən Tapşırıq Əsaslı Dil Tədris (TBLT) yanaşmasının prinsiplərinə uyğunlaşdırılmışdır.Bu, ilk növbədə ona görədir ki, "tapşırıq" öyrənmə vasitəsi kimi görünür.Bundan əlavə, Edwards və Willis (2,3) müəyyən etdi ki, "tapşırıq" dinləmə, danışma, oxuma və yazma kimi hər hansı və ya bütün dörd dil bacarıqlarını əhatə edə bilər.Başqa sözlə, tapşırıq əsaslı dil öyrətmə yanaşması bütün dil bacarıqlarına uyğunlaşdırıla bilər ki, onun həyata keçirilməsində qrammatika, lüğət, tələffüz və digər dil komponentləri yüksək nəzərə alınacaq.

Ədəbiyyat

1. Cowan, R. (2008). The teacher's grammar of English a course book and reference guide. Cambridge: Cambridge University Press.

2. Edward, C. & Willis, J. (2005). Teachers exploring task in English language teaching. Hampshire: Palgrave Macmillan.
3. Harmer, J. (2007). The practice of English language teaching (4th edition). United Kingdom: Pearson Education Limited.
4. Harmer, J. (2015). The practice of English language teaching (5th edition). England: Pearson Education Limited.
5. Larsen-Freeman, D. & Anderson, M. (2011). Techniques and principles in language teaching (3rd edition). United Kingdom: Oxford University Press.
6. Murphy, R. (2012). English grammar in use: A self-study reference and practice book for intermediate learners of English (4th edition). Cambridge: Cambridge University Press.
7. Purpura, J. E. (2004). Assessing grammar. Cambridge: Cambridge University Press.

Xülasə

Sifətin dərəcələrini öyrənməkdəxüsusən də müqayisə və üstünlük formalardan istifadə etməkdə bir çox tələbələr hələ də çətinlik çəkirlər.Tələbələrin çətinlikləri həm müqayisə, həm də üstünlüyü necə tərtib etmək və müqayisə dərəcələrinin istifadəsini ayırd edə bilməmələri ilə yanaşı, həm də müqayisə və ya üstünlüyün necə aparılacağını izah edərkən müəllimin aydın olmayan izahat verməsindən qaynaqlanır.Bu o deməkdir ki, tələbələr hələ də sifətin dərəcələrindən xüsusilə müqayisə və üstünlük formada istifadə etməkdə çaşqınlıq yaşayırlar.Müqayisə dərəcələri haqqında ümumi anlayış əldə etmək üçün müqayisənin nə olduğunu təsvir etmək daha yaxşı olardı.İnsan idrak prosesinin ən əsas və güclü cəhətlərindən biri iki şeyin oxşar və ya fərqli olduğunu dərk etmək və ifadə etmək bacarığıdır.Müəllim sifətin dərəcələrini öyrətməkdə yaradıcı olmalıdır, məsələn, bütün tələbələri təlim fəaliyyətində iştirak edə bilən oyunlar və ya şəkillərdən istifadə etməlidir.Müəllim tələbələrəsifətin dərəcələrindən istifadə etmək bacarığını artırmaq üçün onlara motivasiya verməli və stimullaşdırmalıdır.

Резюме

Многие студенты до сих пор испытывают трудности с изучением степеней прилагательных, особенно при использовании форм сравнительной и превосходной степени. Трудности учащихся возникают из-за того, что они не могут различать, как ставить сравнительные и превосходные степени, и как использовать степени сравнения, а также из-за нечеткого объяснения учителем того, как ставить сравнительные и превосходные степени. Это означает, что учащиеся все еще путаются в использовании степеней прилагательных, особенно в сравнительной и превосходной степени. Чтобы получить общее представление о степенях сравнения, было бы лучше описать, что такое сравнение. Одним из самых основных и мощных аспектов когнитивного процесса человека является способность распознавать и выражать сходство или различие двух вещей. Преподаватель должен творчески подходить к преподаванию прилагательных степеней, например, используя игры или картинки, которые могут вовлечь всех учащихся в учебную деятельность. Преподаватель должен мотивировать и стимулировать студентов к улучшению их способности использовать степени прилагательных.

Summary

Many students still struggle with learning adjective degrees, especially when using comparative and superlative forms. Students' difficulties stem from not being able to distinguish between how to make comparatives and superlatives and the use of degrees of comparison, but also from the teacher's unclear explanation of how to do comparatives or superlatives. This means that students are still confused about using adjective degrees, especially in comparative and superlative forms. To get a general understanding of degrees of comparison, it would be better to describe what a comparison is. One of the most basic and powerful aspects of the human cognitive process is the ability to recognize and express whether two things are similar or different. The teacher should be creative in teaching adjective degrees, for example using games or pictures that can involve all students in the learning activity. The teacher should motivate and stimulate students to improve their ability to use adjective degrees.

Rəyçi: F.f.d. Seyidova Nigar Vaqif qızı

Günel Mahmudova[16]

AZƏRBAYCAN VƏ İNGİLİS DİLLƏRİNDƏ YEMƏK VƏ İÇKİ ADLARI

Sahə leksikasının qədim tərkib hissəsi olub, xalqın maddi mədəniyyətinin bir növ güzgüsü sayılan, onun məişətini, milli xüsusiyyətlərini koloritli şəkildə əks etdirən xörək adları quruluş və məna etibarilə müxtəlif cəhətlidir. Xörək adlarının terminoloji səpgidə – həm onomasioloji (əşya-söz), həm də semasioloji (sözün mənası – əşya) istiqamətlərdə araşdırılması kulinariya mədəniyyətinin zəngin olmasından, milli yemək adlarının arealını, təsərrüfatdan alınan qida məhsullarının növ və çeşidlərini göstərməklə bərabər, coğrafi-dialektoloji, tarixi-etimoloji, tarixi-müqayisəli və linqvotipoloji tədqiqlər üçün də faydasız qalmaz.

Qida xalqların maddi mədəniyyətinin mühüm ünsürlərindən biri olub xalqın tarixini, adət-ənənəsini dərk etməkdə zəngin mənbədir. Qida kulinariya mədəniyyətinin əsasında durur. Qida məhsulları əhalinin həyatında aparıcı rol oynayır, hətta məişətdə əsaslı dəyişikliklər baş verdikdə belə aradan çıxmır. Ənənəvi məhsullar sırasına tədricən yeniləri əlavə olunur, onların növlərini zənginləşdirir. Bütün qida məhsulları müxtəlif terminlərdə, terminoloji ifadələrdə öz əksini tapır. Belə terminlərin meydana gəlməsinin dildaxili amilləri, şübhəsiz, müəyyən tələbatla, insanın qidaya, ərzağa olan ehtiyacı ilə bağlıdır. Qədim insanlar lazım olan ərzağı əldə etmiş, ondan qidalanmış və sonra həmin yeməyin dadına, nədən hazırlanmasına və digər əlamətlərinə əsasən ad seçmişlər. Beləliklə, insanın meydana gəlməsi ilə yanaşı, onun yeməyə olan ehtiyac və tələbatı xörək adlarını formalaşdırmışdı.

Qida (yemək) insanın fiziki mövcudluğunun ilk əsas amili olduğu üçün, praktik olaraq, bütün mədəniyyətlərdə o, mistik, ritual və simvolik (rəmzi) məna əldə edir. Bu da dilin leksik-frazeoloji səviyyəsində əks olunur və möhkəmlənir. Müəyyənləşdirilmişdir ki, verbal olmayan "qida dili" – mühüm mədəni kodlardan biridir. Bu da dilin ifadə etdiyi əsas mənanın müxtəlif dini sistemlərdə müxtəlif şəkillərdə təzahür etməsinə səbəb olur.

"Yemək" konsepti böyük həcmli koqnitiv-semantik kateqorial mahiyyət təcəssüm etdirir. Buraya təkrar olunan və ya eyni olan detonativ semləri olan böyük miqdarda leksik vahidlər daxildir. Dilin semantik sistemində bütün bu leksik vahidlər işarələnənləri və ya digər yeməyin hazırlanmasının texnoloji prosesi ilə əlaqəsi olan işarələr şəklində təcəssüm etdirir.

Elmi ədəbiyyatın təhlili göstərir ki, "qida dili" dairəsində derivasiyanın bu üsulu ilə kompleks araşdırma nə ingilis, nə də Azərbaycan dilində hələ araşdırılmamışdır. Halbuki məhz belə derivatlar "yemək" fenomenin dil konseptuallaşdırılmasının relevant vasitəsi kimi çıxış edir. Yemək və içki adlarını nominasiya edən leksik vahidlər konseptual-məntiqi və tematik mövqedən müəyyən tematik-koqnitiv bloklar üzrə bölünmüşdür. .

İngilis yeməyi ənənəsi müxtəlif və çoxdur. Milli yeməklər, günorta çayı (Afternoon Tea), tam ingilis səhər yeməyi (The Full English Breakfast), Bazar lançı (Sunday Lunch) və ingilis pabı (British Pub) ənənələrini buna misal göstərmək olar.

Tədqiqat zamanı bəzən Azərbaycan leksikasına müraciət olunacaq, belə ki, bu mövzuda artıq Azərbaycan dilində müfəssəl tədqiqatlar aparılmışdır. Məsələn, H.A. Əsgərov, B. Məhərrəmli, K. Dənziyeva, İ. Məmmədovun monoqrafiyalarında məişət leksikasına müraciət etmişlər. Məmmədova S.N. "Azərbaycan dilində xörək adları" mövzusunda namizədlik dissertasiyası müdafiə etmişdir. Məhz bu səbəbdən biz tədqiqat işində əsasən, ingilis dilinə müraciət etmişik.

Qeyd etməliyik ki, mövzunun aktuallığı onunla müəyyənləşdirilir ki, yemək denotativ dairənin bütün həcmində və müxtəlifliyində insanın həyat və fəaliyyətində ən mühüm faktorlardan biridir. Bu da dil semantikasında və kommunikativ fəaliyyətdə öz təcəssümünü tapır. Lakin bu konseptin linqvokulturoloji və koqnitiv spesifikası ingilis və Azərbaycan dil şüurunda hələ kifayət qədər öyrənilməmişdir. Aktuallıq bir də ondadır ki, ingilis və Azərbaycan dillərində bu sahədə ümumi və fərqli əlamətlərin olmasına baxmayaraq, bizim məlumatımıza görə, "Yemək" konseptinə tətbiqən bu aspektlər sistemli təhlilə və təsvirə məruz qalmamışdır. "Yemək" fenomeninin insanın özünün mövcudluğunun onsuz mümkün olmadığı varlığın ayrıca, müstəqil mədəni sahənin öyrənilməsi kimi də aktualdır. "Yemək" konseptini formalaşdıran, bədii mətn və dünyanın dil xəritəsinin dəyərli və informasiya məkanının yaradılması və identikləşdirilməsi də aktualdır. Yemək tiplərinin nominasiyası problemi də aktuallığı ilə seçilir, belə ki, koqnitiv struktur konseptini fiksə edən səs qurumunu təcəssüm etdirir.

Tədqiqat göstərdi ki, kulinar kitabları da birmənalı şərhlə mətnlərin nümunələrini təmsil edir. "Yemək" fenomeni ilə əlaqədar olan öz dövrünün mədəni-milli üstünlüyünü və qurğusunu saxlamışdır. Hər bir xalqın öz etolanu var. Etalon funksiyasında yeməklərin nominasiyası çıxış edir: 1) yalnız müəyyən bir xalq üçün fərdi spesifik olan yemək; 2) müxtəlif xalqlarda rast gəlinən yemək, lakin hər bir etnosun həmin xalqın mədəni və ictimai-tarixi inkişafı ilə şərtlənən məxsusi təsəvvürləri vardır.

Yemək adlarını "Ümumi yemək adları", "Məxsusi yemək adları", "Xüsusi yemək adları" və "İçki adları" kimi leksik-semantik qrupa bölmək olar. "Ümumi yemək adları" *meal, food* və *dishes* kimi verilir. *Course* sözünü də buraya əlavə etmək olar.

"Məxsusi yemək adları" isə *breakfast, elevenses, brunch, lunch, afternoon tea, dinner (supper), snack* sözləri ilə işarələnir. Azərbaycan dilindən fərqli olaraq, ingilis dilində üç yemək vaxtı (səhər, günorta, şam yeməyi) əsas sayılmır.

Breakfast – saat 7-9 arası yeyilən günün birinci yeməyi, səhər yeməyi (4, 143). Bu sözdən *bed and breakfast* "balaca otellər və şəxsi evlərdə yataq və yemək xidməti" (4, 97), *continental breakfast* "yağ və jemli çörək və kofedən ibarət yüngül yemək" (4, 267), *English breakfast* "taxıldan hazırlanmış məmulatlar, bişirilmiş bekon və yumurta, çay və ya kofedən ibarət

[16] BDU. İngilis dili müəllimi

yemək”(4, 416), *wedding breakfast* “nigah mərasimindən sonra verilən xüsusi yemək” (4, 1467) söz birləşmələri əmələ gəlmişdir. Pal Piəs öz kitabında bir neçə səhər yeməyinin adını çəkərək, onların təsnifatını və düzəldilməsi qaydasını vermişdir. Məsələn: Breakfasts at High Noon, Two Bride-Elect Breakfasts, Silver Wedding Day Breakfast, A Family Breakfast, Light Informal Breakfast və s. (2,13-16).

Lunch – saat 12-13.00 arası, günün ortasında yeyilən yeməkdir (4, 768). Bu sözdən *lunch box* birləşməsi əmələ gəlmişdir ki, evdən yemək üçün yemək aparılan, yerləşdirilən qab, konteyner mənasını verir. *Lunch* sözündən *luncheon* sözü törəmişdir ki, bu da eyni mənanı verir, əsasən, *lunch* sözünün daha da formal işlədilməsidir. *Lunch* sözündən *lunch hour, lunch room, lunch time* birləşmələri də əmələ gəlmişdir, bu sözlər də *nahar saatı, nahar otağı, nahar vaxtı* mənalarını kəsb edir.

Brunch səhərin bir az gec vaxtında yeyilən qəlyənaltıdır (4, 151).

Dinner – nahar (günorta yeməyi) (2, 438). Bu sözdən *dinner dance, dinner jacket, dinner lady, dinner party, dinner service, dinner suit, dinner table, dinner theater, dinner time* söz birləşmələri əmələ gəlmişdir.

Ənənəvi olaraq ingilislər yeməklərin adlarını *breakfast, dinner, tea* adlandırırlar. Ənənəvi ingilis səhər yeməyi yumurta, bekon, sosiska, qızardılmış çörək, göbələk və bişmiş lobyadan ibarətdir. Lakin indiki dövrdə səhər yeməyi bir kasa taxıl bitkiləri, bir stəkan təzə sıxılmış portağal şirəsi, bir fincan kofedən ibarətdir. *Lunch* çox vaxt səndviçdən, çips, bir parça meyvə və içkidən ibarətdir. Axşam yeməyi *tea, dinner* və ya *supper* adlanır. Bazar günləri yemək əsas olaraq günün ortasında axşama yaxın yeyilir. Yemək, əsasən *roast meat* (qızardılmış ət), *Yorkshire pudding* (Yorkşir pudinqi) və bir neçə növ tərəvəzdən ibarətdir. Hər bir ət öz sousu ilə yeyilir, məsələn, mal əti isti ağ qıtığotu ilə yeyilir, donuz şirin alma sousu ilə, qoyun yaşıl nanə şousu ilə yeyilir.

Yeməyin dil konseptuallaşması biliyi ümumiləşdirən koqnitiv konstruksiya kimi mədəni və linqvokulturoloji kompetensiyasının mövcudluğunu nəzərdə tutur. O, müəyyən dil işarəsinə təhkim olunmuş mədəni mənanın, habelə xalqın bütün mədəni qurum və ənənələrinin təbiətinin dərindən başa düşülməsinə kömək edir. “Yemək” konsepti mürəkkəb mental yaranmadır. Məsələn, Baba Məhərrəmlinin fikrincə, “aş ismi ilə as- felinin semantik yaxınlığı mövcuddur. Yəni “yemək bişirmək” mənasında olan as- feli aş isminin allomorfudur. Bəzi çağdaş türk dillərində indi də as sözünün “yemək” anlamında (ş~s) işlənməsi fikrini təsdiqləyir. Həmin fakt da bu sözün çox qədimlərdən türk dillərində işləndiyini sübut edir. Qeyd edək ki, Orxon-Yenisey abidələrində də bu söz as (“yemək, xörək”) variantında işlənmişdir. Təsadüfi deyildir ki, türk dilləri ilə genetik bağlılığı ehtimal olunan və dünyanın qədim dillərindən biri olan şumer dilində *a* morfeminin bir neçə mənalarından biri də “yemək” olmuşdur (6, 61). Onda Azərbaycan və ingilis linqvokulturologiyasında qismən uyğun gələn və çarpazlaşan müəyyən əlamətləri ayırmaq olar. Dissertasiya mövzusunun seçilməsinin əhəmiyyəti də bununla müəyyənləşmişdir.

Lançda, əsasən, səndviçlərdən istifadə olunur. Bunlar da müxtəlif növdür. Bunlara club sandwich (double decker), submarine (submarine sandwich), hamburger, pitta (pita), cheese and tomato roll, canape yemək adlarını misal göstərmək olar.

İngilis və Azərbaycan dillərində “Yemək” superanlayışının dil konseptuallaşdırılmasının ənənəvi derivasion mexanizmi kimi uyğun xörəyin və ya içkinin xüsusi ad bazasında yaranmasının üsulu çıxış edir. Bu da iki nominasiya aspektinin – məfhumi və fərdi-şəxsi aspektlərin sintezidir. Belə nominasiya (adlandırma) əhəmiyyətli sosio- və etnomədəni informasiya həcminə malikdir, mədəni-koqnitiv konnotasiya və sözyaratma potensialına malikdir və ətraf aləmi kateqoriyalaşdırma və verballaşdırma proseslərində vərəsəlik və inkişaf prinsiplərini həyata keçirir.

İçkilərdən İngiltərədə ən çox *tea* (çay), *coffee* (kofe), *beer* (pivə), *wine* (çaxır) içilir. İngilislər çay içən millət kimi tanınmışdır. Ənənəvi olaraq çay adam başına bir çay qaşığı quru çay nəzərdə tutulmuş çini çaydanda dəmlənir. İngilislər çayı tünd sevərlər, lakin azərbaycanlılardan fərqli olaraq onlar çaya bol süd qatmağı xoşlayırlar. Çay sevgisi o qədər güclüdür ki, çayla bağlı bir sıra sözlər, məsələn, *Tea break, High tea, tea time, tea party, tea towel* kimi söz birləşmələri yaranmışdır. Tea break üçün ən yaxşı vaxt saat 11 (Elevensee) və günorta saat 5-dir; bu zaman çayla biskvit də verilir.

Aparılan təhlildən belə nəticəyə gəlmək olar ki, “Yemək” konseptinin daxil olduğu milli konsept-dairənin yaranması və təşəkküründə hər hansı bir dili, o cümlədən ingilis və Azərbaycan dillərinin lüğət ehtiyatının tarixi formalaşmasından danışmaq olar. Konseptin potensiyalarının açıqlığı onun müxtəlif kontekstlərdə işlənməsi yolu ilə baş verir; konsept mətn və həyat kontekstində açıqlanan məna daşıyır.

Müəyyən edilmişdir ki, “Yemək” konsepti linqvokulturoloji kateqoriya kimi təqdim olunmuşdur. Konseptin formalaşması onunla əlaqədardır ki, hər hansı məzmun düyününü işarələyən müəyyən şəraitlərdə ona daxil olan siniflərin xüsusiyyətlərinə varis ola bilər. Mühüm faktor kimi konseptlərarası fəallaşan inteqral sem çıxış edir.

Ədəbiyyat:

1. Əsgərov H.A. Azərbaycan dilində maddi mədəniyyət leksikası. Bakı, 2006, 445 s.
2. Məmmədov Y. Azərbaycan dilində sözlərin leksik-semantik inkişafı. Bakı. APİ nəşri, 1987, 84 s.
3. Trubetskoy N.S. Fonologiyanın əsasları. Bakı, 2001, 375 s.
4. Балли Ш. Общая лингвистики вопросы французского языка, М., 1955, 300 с.
5. Красильникова М.С. Морфологическая структура имен. М., 1977, 122 с.
6. Соссюр Ф. Труды по языкознанию, М., 1977, 697 с.
7. Щерба Л.В. «Избранные работы по языкознанию и фонетике», т.1, 1958, 182 с.
8. Ullmann S. Words and Their Use, Glasgow, 1951, 199 p.

Açar sözlər: söz yaradıcılığı, morfoloji, sema, ad düzəldən şəkilçilər, tabesizlik əlaqəsi

Ключевые слова: словообразование, морфологический, сема, именные аффиксы, сочинительная связь
Key words: word formation, morphological, sema, nominal affixes, coordinative connection

Словообразование в бытовой лексике

Резюме

Статья посвящена бытовой лексики в английском языке. Автор пытается исследовать бытовой лексики в морфологическом уровне. Она пришла к выводу, что наиболее продуктивным суффиксом в этом уровне суффикс -er, которого вы можете увидеть в словообразования.

Word formation in household lexicon

Summary

The article is dedicated to the household lexicon in English language. The author tries to investigate household lexicon in morphological level. She got to the conclusion that the most productive suffix in this level is -er siffix, which you could see in word formation.

RƏYÇİ: dos. L.Ələkbərova

Мамедова Рена

ЭТНОГРАФИЧЕСКАЯ ЛЕКСИКА «КАБУС-НАМЕ»

Как известно, *«Этногра́фия (от др.-греч.ἔθνος -«этнос» (народ) и γράφω - «графо»(пишу)) - часть исторической науки, изучающая народы-этносы и другие этнические образования, их происхождение (этногенез), состав, расселение, культурно-бытовые особенности, а также их материальную и духовную культуру»*[4].

К этнографической лексике относят слова обозначающие такие понятия, как: *«1.Материальная культура (пища; способы добывания пищи и порож-даемые ими формы хозяйства; приручение животных; орудия; утварь; ору-жие; средства сообщения; жилище; одежда и украшения). 2.Социальный строй (брак и семья; общественные союзы).3. Духовная культура (язык и рели-гия; нравственность; искусство; поэзия; письмо)»*[5].

В «Кабус-наме» отображается многогранная и яркая картина условий, в которых жил народ,его основные занятия, верования, особенности хозяйства, жилища и т.д., и поэтому служит хорошим материалом для изучения этногра-фической лексики той эпохи. В связи с этим М.Т. Бахар отмечает: *«с точки зрения познания древней культуры, народного быта и изучения правил жизни, которые включены в вышеуказанной книге, ее нужно назвать сборником (хрестоматией) исламской культуры домонгольского периода»*[6, с.114]. В статье рассмотрены некоторые из перечисленных выше подгрупп этнографической лексики. В первую очередь приведем примеры на предметы обихода, утварь, пищу, одежду, жилище.

1). В лексико-семантическом пространстве «Кабус-наме» в этнографической лексике слова обозначающие **названия одежды** отображают специфику материальной и духовной культуры Востока. Частотными являются следующие наименования: دستارچه – платок, خلعت – халат, میان – пояс, خرقه – хырка**.**

صد دینار در آستین داشت بر ***دستارچه*** بسته. [3, с.109]

*Было у него в рукаве сто динаров, завязанные в **платок**.*[1, с.130]

امیر ایشان را ***خلعت*** فرمود. [3, с.133]

*Эмир повелел дать им **халаты**.*[1, с.151]

من آن زر از ***میان*** بگشادم و بدو دادم. [3, с.163]

*Я достал золото из **пояса** и дал ему.*[1, с.177]

و اگر ***خرقه*** بنهند موافقت کند و بیرداشتن همچنین. [3, с.255]

*Если наденут **хырку**, пусть и он делает то же, если снимут - точно так же.*[1, с.254]

2). Наименования построек. Такие наименования позволяют сделать интересные выводы как лингвистического, так и исторического характера. К таким наименованиям можно отнести следующие слова: سرای - дворец, کاخ -замок, خانه -комната, حجره -худжра, زندان -зиндан, حرم -гарем, مسلخ -раздевальная, گرمابه –баня,*قلعه* -башня. Более частотным в этой этнографической лексике является слово «комната».

اما اینجا در ***سرای*** من در ***حجره ای*** بنشین و یک ماه مهمان من باش. [3, с.73]

*Здесь же в моем **дворце** поселись в **комнате** и этот месяц будь моим гостем.*[1, с.101]

Наименование «комната» так же выступает в метафорических словосочетаниях. Например: خانۀ خدا - Дом Божий

شنیدم که درویشی و توانگری وقتی قصد ***خانهء خدای*** کردند و گویند که آن توانگر رئیس بخارا بود.

[3, с.21]

*Слыхал я, что однажды правитель Бухары задумал посетить **дом Бо-жий**.* [1, с.58]

Среди названий построек есть слова с омонимичным значением, например: «гарем», которое имеет значение: **женская половина дома** у богатых мусульман и **жёны** богатого мусульманина.

پس اگر پادشاه باشی پادشاهی پارسا باش و چشم و دست از ***حرم*** مردمان [دور] دار.[3, с.227]

*Знай же, о сын, что если будешь ты царем, то будь праведен и отвращай глаза и руки от чужого **гарема**.*[1, с.232]

Так же можно привести в качестве примера слово «диван», имеющее значения: канцелярия, присутственное место и альманах стихов.

شنیدم که صاحب اسماعیل عباد روز شنبدی در ***دیوان*** چیزی می‌نبشت.[3, с.207]

*Слыхал я, что Сахиб Исмаил ибн-Аббад (было это в субботу) что-то писалв **диване**.*[1, с.215]

چون ویرا بگرفتند، بند کردندو در مهدی نشاندند و بر وی موکلان کردند و **بقلعه** چناشک فرستادند.

[3, с.100]

Схватили его, связали, положили в носилки, приставили к нему верных людей и отправили в **замок** Джанашк.[1, с.124]

پس بچندگاه این مرد حیلتی کرد و از ***زندان*** بگریخت.[3, с.231]

*Потом этот человек ухитрился бежать из **зиндана**.*[1, с.235]

3). Наименования пищи: хлеб- نان, розовая вода- گلاب, ароматная трава- اسپرغم, сладости- طعم شیرین, сладкая вода- شربت, овечье молоко- شیر گوسفندان, музаввара (диетическое блюдо)- مزوره, миндаль- بادام , халва- حلوا , ногул- نقل.

هر روز بیست تا ***نان*** بر طبقی نهاده، بر روی آب فرود آمدی، و من جهکردمی، و دو سه ***نان*** بگرفتمی. [3, с.31]

*Каждый день по воде проплывало двадцать **хлебов** на блюде. Я ловчился, два-три из этих **хлебов** схватывал и тем хлебом питался.*[1, с.67]

*و چیزی از پنهان نخورد اگر همه یك **بادام** باشد .* [3, с.254]

*Тайно от людей пусть ничего не ест, даже если бы это была одна **миндалина**.*[1, с.254]

*و در زنبیل این پسر منعمگر پاره‌ای **حلوا** بود و در زنبیل این پسر درویش **نان خشك** بود.* [3, с.262]

*В корзине богача были **хлеб** и **халва**, в корзине сына нищего- **пустой хлеб**.*[1, с.259]

*و چون مهمانان نان خورده باشند،بعد از دست شستن، **گلاب** و عطر فرمای.* [3, с.72]

*Когда гости поедят, после омовения рук прикажи принести **розовой воды** и ароматов.*[1, с.101]

*و اندر مجلس **نقل** و **اسپرغم** بسیار فرمای نهادن، و مطربان خوش فرمای آوردن.* [3, с.72]

*И во время бесед прикажи побольше разложить **сладостей** и ароматных трав [**испаргам**]и хороших музыкантов прикажи привести.*[1, с.101]

4). Названия предметов домашнего обихода: блюда- طبق, кувшин- کوزه, кубок- قدح, скатерть- خان, свеча- شمع, лампады- قندیل , сосуд- قاروره, глубокая тарелка- کاسه.

*هر روز بیست تا نان بر **طبقی** نهاده، بر روی آب فرود آمدی، و من جهکردمی، و دو سه نان بگرفتمی .* [3, с.31]

*Каждый день по воде проплывало двадцать хлебов на **блюде**. Я ловчился, два-три из этих хлебов схватывал и тем хлебом питался.*[1, с.67]

*و**کوزه‌ای** در میخی آویخته بود.*[3, с.57]

*Он повесил **кувшин** на гвоздь.*[1, с.90]

*مردی لقمه از **کاسه** برداشت، مویی در لقمهء او بود مرد همی ندید.*[3, с.65]

*Кто-то достал кусок из **касы**, на котором был волос.*[1, с.96]

*سیری در لقمهء باز پسین بود چنانکه مستی در **قدح** باز پسین.* [3, с.69]

*Пресыщение в последнем глотке, так же как опьянение в последнем **кубке**.*[1, с.98]

*پس چون مجسه معلوم کردی اندر **قاروره** نگاه کن.* [3, с.183]

*Когда выяснишь пульс, посмотри в **сосуд**.*[1, с.193]

*و در مزگت‌کوی جماعت بپای دار، و ماه رمضان **بشمع** و **قندیل** فرستادن تقصیر مکن.* [3, с.141]

*В мечети своей улицы проводи пятничную молитву, а в месяц рамазанне упускай послать туда **свечи** и **лампады**.*[1, с.141]

5). Наименования орудий борьбы и оружий: копье- زوبین, дротик- نیزه, меч-شمشیر, нож- کارد, шило- درفش и т.д. Как видно по примерам, в тексте преимуществом пользуются названия металлических оружий наступательно-колющего характера.

*پدرم رحمه الله مرا بوی سپرد تا مرا سواری و **زوبین** و **تیر** انداختن و **نیزه** باختن و **کمند** افگندن جمله هر چه در باب فروسیّت و رجولیت بود بیاموختم.* [3, с.133]

*Отец мой, да помилует его Аллах, вручил меня этим двум, чтобы они научили меня верховой езде, владению **копьем**, бросанию **дротика**, забрасыванию **аркана** и всему, что относится к рыцарским мужественным делам.* [1, с.151]

*مگر اتفاق چنان افتاده بود که بکودکی در سرای پدر خویش آهنگران دیده بود که **کاردها** و **تیغها** و **رکابها** و **دهانها** کردندی مجاور.* [3, с.136]

*А случайно вышло так, что в детстве во дворце своем видел он кузнецов, которые делали железные вещи- **мечи**, **ножи**, **стремена** и **удила**- поблизости [от него].*[1, с.154]

*که هر که با خداوند خویش لجاج کند پیش از اجل بمیرد که با **درفش** مشت زدن احمقی بود.* [3, с.198]

*Ибо сказано в поговорке: кто с царем поспорит и будет упорствовать, умрёт ранее смертного часа, ибо бить рукой по **шилу**- глупость.*[1, с.207]

*تا بروم و **بشمشیر** ولایت بستانم و آن منشور بر عام عرضه کنم تا بفرمان[و]منشور رعیت بر من مطیع باشند.* [3, с.208]

*Или я покорю область **мечом**, или же подданные будут повиноваться мне по приказу и маниуру твоему.*[1, с.216]

6). Названия денежных и весовых единиц. Называя этнографические реалии следующие наименования создают историческую картину той эпохи. Встречаются такие слова, как: монета, дирхем, хаббэ, данк, динар, ратли, золото, серебро. Золото- زر, серебро– سیم в примерах также использованы в значение монеты.

*جدّ تو سلطان محمود رحمه الله بری رسولی فرستاد و گفت: باید که خطبه بر من کنی و **زر** بنام من زنی وخراج بپذیری.* [3, с.146]

*Дед твой, султан Махмуд ибн-Себуктегин, послал к ней гонца и сказал: «Нужно, чтобы ты ввела хутбу и чеканила **монету** на мое имя и согласилась на дань.»*[1, с.163]

*و نبید کم کن تا **سیم** بحاصل کنی، چون مقصود خویش بحاصل کردی و **سیم** یافتی آنگه تن اندر نبید نه.* [3, с.196]

*Вина пей мало, пока не получишь **серебра**, а как получишь **серебро**, тогда и наслаждайся вином.*[1, с.205]

*دخل **درمی** بود و خرج **درمی** و **حبّه‌ای**، هرگز آن خانه بی‌نیاز نبود.*[3, с.104]

*Например, доходу **дирхем**, а расходует **дирхем** и **хаббэ** и всегда будет в нужде.*[1, с.127]

هر چه از رنج و بی‌رنج بدست آید زود جهد آن کن که از هر **درمی** دو **دانگ** بنفقات خویش و آن عیالان خویش بکار بری.[3, c.106]

Из всего, что трудом и без труда тебе достается, старайся на один ***дирхем*** *два* ***данка*** *потратить на свой дом и семью.*[1, c.128]

صد **دینار** در آستین داشت بر دستارچه بسته. [3, c.109]

Было у него в рукаве сто ***динаров****, завязанные в платок.*[1, c.130]

Названия весовых единиц ограничиваются функционированием слова: **Ратл- رطل** равняется 84 мисгалам или половине мана.

و بهتر متاعی آنکه **بمن** و **رطل** خرند و **بدرمسنگ** فروشند و بترین متاعی بر خلاف اینست.

[3, c.167]

Лучшим товаром считай тот, который покупают на ***ратли****, а продают на* ***драхмы****, а худшим - то, что наоборот.*[1, c.181]

چون معامله بپایان رسید، میان بیاع و تاجر در حسابی خلاف بود **بقیراطی** زر. [3, c.168]

Когда заключение сделки подошло к концу, между купцом и перекупщиком вышло разногласие насчет ***опилка*** *золота.*[1, c.182]

7). Названия праздников, обычаев и обрядов.

В обрядах, обычаях восточных народов отражаются особенности их культурных традиций. Например, на Востоке согласно исламским установлениям, мальчикам устраивали обрезание. В «Кабус-наме» читаем:

و بوقت **سنّتکردنسنّتکنی** و بحسب طاقت خویش شادی کنی. [3, c.132]

А когда наступит время ***обрезания****- сверши обряд и, по мере возможности своей, устрой празднество.*[1, c.151]

Подарок гостю является одним из видов оказания внимания гостю.

پسر مقله بخندید و گفت: خط و برات بستان و برو بسلامت که این زر **بندان مزد** بتو دادم. [3, c.74]

Сын Мукла рассмеялся и сказал: «Бери расписку и ступай с миром, эти деньги я дарю тебе, как **подарок гостю** [**дандонмузд**].»[1, c.102]

[3, c.168].چون تاجر برفت، شاگرد بیاع از پس تاجر بدوید و گفت: ای خواجه **شاگردانهء** من بده

Подручный перекупщика побежал за купцом и сказал: «Эй, ходжа, дай ***чаевые****».*[1, c.182]

Частотностью среди названий праздников отличается «новруз».

شنیدم در حکایتی که چوپان احمد فریغونروز **نوروز** پیش وی رفت بی‌هدیهء نوروزی و گفت: زندگانی خداوند دراز باد!

[3, c.127]

Слыхал я рассказ, что пастух Ахмад-и-Феригуна пришел к нему в ***навруз*** *без новогоднего подарка и сказал: «Да продлится жизнь господина!».*[1, c.146]

8). Терминология родства: сын- پسر дочь- دختر , дед- جد , внук- نبیره , зять- داماد

وشمگیر مولی امیر المؤمنین،با **فرزند** خویش [3,c.3]چنین گوید جمع کنندهء این کتاب پندها ،الامیر عنصر المعالی کیکاوس بن اسکندر بن قابوس بن گیلان شاه.

Так говорит составитель этой книги, эмир Унсур-ал-Меали Кей-Кавус ибн-Искендер ибн-Кабус ибн-Вушмагир ибн-Зиар, клиент повелителя правоверных, ***сыну*** *своему Гиланшаху.*[1, c.45]

بود بروزگار کیخسرو. [3, c.4]**جدّت** ملك شمس المعالی قابوس بن وشمگیر بود که **نبیرهء** آغش و هادان بود و آغش و هادان ملك

Дед *твой- Шемс-ал-Меали Кабус ибн-Вушмагир,* ***внук*** *[Аргиша сына Фер-хадванда, а Аргиш сын Ферхадванда был] царем Гиляна в дни Кей-Хосрова.*[1, c.46]

اما اگر **دختر** دوشیزه باشد **داماد** دوشیزه کن. [3, c.137]

Если ***дочь****- девушка, то и* ***зятя*** *ищи неженатого.*[1, c.155]

و نیز ای **پسر** بروزگار **خال** تو سلطان مسعود[رحمه الله چون بپادشاهی نشست]طریق مردانگی و شجاعت نیك دانستی.[3, c.231]

Знай, о ***сын****, что, когда сел на царство Масуд (твой* ***дядя*** *по матери), он вступил на путь смелости и мужества.*[1, c.236]

Этнографическая лексика находится в тесной связи с историей восточных народов. Эти наименования отражают культурное развитие, общественную и духовную жизнь общества, а также культурные взаимоотношения с другими народами. Исследуя этнографическую лексику мы приобретаем сведения о повседневной жизни народа, об особенностях его хозяйства, жилища, древнейших верованиях и психологии народа. **Литература:**

1. Бертельс Е.Э. Кабус-намэ. Издательство восточной литературы, Москва, 1958, с. 296.
2. Рубинчик Ю.А. Персидско-русский словарь, Москва, 1983, с. 864.
3. Юсофи Голам-Хосейн. Кабус-наме (на персидском языке). Наука и культура. Тегеран, 1378/2000, 609 с.
4. 188. *https://ru.wikipedia.org/wiki/Этнография*
5. 190. www.dslib.net›...›**Ошибка! Недопустимый объект гиперссылки.** 6. بهار، محمدتقی، سبکشناسی یا تاریخ تطوّر نثر فارسی، جلد دوم، تهران: امیر کبیر، ۱۳۸۲، ۴۴۸ ص.

Ключевые слова- Кей-Кавус, Кабус-наме, этнографическая лексика.
Açar sözlər- Keykavus, Qabusnamə, etnoqrafik lüğət.
Key words- Keikavus, Qabus-nameh, ethnographic vocabulary.

Xülasə

Məqalə əmir Ünsürülməali Keykavus ibn İskəndər ibn Qabus ibn Vəşmgir ibn Ziyar tərəfindən XI əsrdə yazılan Qabusnamə əsərinə həsr edilmişdir. Əsər klassik fars dilində yazılan ilk nəsr nümunəsidir. Məqalədə əsərin etnoqrafik lüğəti araşdırılır.

Summary

The article deals with Qabus-nameh written by Onsor-al-Ma'ali Keikavus ebn-e Eskandar ebn-e Qabus ebn-e Vushmagir ebn-e Ziyar in the XIth century. The literary work is the first example of prose which has been written in classic Persian language. This article considers the ethnographic vocabulary of the work.

Рецензент: доц.Мамедова А.Б.

İradə Elman qızı Bədəlova ,[17] Rübabə Ötərxan qızı Musayeva[18]

İNGİLİS DİLİNDƏ TOPONİMLƏR VƏ ONLARIN İNGİLİS BƏDİİ ƏSƏRLƏRİNDƏ İŞLƏNMƏSİ

Giriş hissə. Hər bir xalqın tarixi, dili, təfəkkürü,məşğuliyyəti haqqında dəyərli məlumat verən toponimlər onomastik vahidlər sırasında öz zənginliyi ilə seçilir. Bir elm sahəsi kimi toponimika coğrafi obyektləri, onların yaranma yollarını, meydana gəlmə səbəblərini, mənşəyini müəyyənləşdirməyə kömək edir. Toponimik materiallar xalqın tarixi, dini, dili ilə bağlı problemlərin həllində tutarlı dəlil, inandırıcı fakt rolunu oynadığı üçün toponimlərin 3 funksiyasını qeyd etmək olar:

1) İdeoloji funksiya daşıyır.
2) Maarifləndirmək xarakteri daşıyır.
3)Toponimlər digər elmlərlə sıx əlaqədardır.

İngilis dili uzun illər german tayfalarının - anqlosaksların, yutların, keltlərin, skandinaviyalıların, normandların təsirinə məruz qalmışdır. Bunun üçün də İngilis toponimləri müasir formada hansısa mənada germanları xatırladır. Bunlar hidronim və oronimlərdə daha çox öz əksini tapmışdır. Kelt mənşəli toponimlər Şotlandiyada, İrlandıyada; Skandinaviya mənşəli adlar isə Yorkshire və Lancashire-də tez-tez təsadüf olunur.

Əsas hissə. İngilis coğrafi adların yaranmasına tarixin müxtəlif dövrlərində müxtəlif dillərin təsiri olub:

1. Kelt elementləri. Bu Böyük Britaniya ərazisində *britlərin* və *anqlosaksların* məskunlaşması ilə əlaqədardır.
Məsələn:
--***Wal***- elementi keltlərin məskunlaşdığı ərazilərdə olan coğrafi adlarda rast gəlinir. *(məsələn: Walden, Walton, Walcott, Walbrook)*
-***Pen***- kelt komponenti "yamac" mənasını ifadə edir və *Pencoyd, Penketh* kimi coğrafi adlarda öz əksini tapır.
-***Tre***- kelt mənşəli toponimdir və "kənd" mənasını verir. Bu toponim Karnoulda *(Tredrustan, Tregavethan),* Derbşir və Lankaşirdə *(Trelleck, Trehill)* təsadüf olunur.
-***Lan***- "kilsə" mənasını verir və *Landulf, Lanreath* kimi coğrafi adlarda rast gəlinir.
2. Latın elementləri. Roma dövründə latın elementləri ilə yaranan coğrafi adlar aşağıdakılardır:
London-Londonium
Manchester-Mamucian
Lincoln-Lindum coloma
3. Skandinaviya elementləri
-***By***- elementi Skandinaviyalıların güclü təsiri olduğu yerlərdə rast gəlinir.
Məs: *Derby, Moorby, Blackforby*. Burada -by- "kənd" mənasını ifadə edir.
-***Thorp***- "torpaq" mənasını ifadə edir və *Simonstrop, Rinsthrop* kimi coğrafi adlarda rast gəlinir.
-***Toft*** - elementi "malikanə" deməkdir. *Longtoft, Fishtoft, Moortoft* kimi adlarda rast gəlinir.
-***Holm***- "ada, adacıq" mənasını ifadə edir. Məsələn: *Bromholm, Oxenholm*
4. Fransız elementləri
-***Mont***- fransız mənşəli komponent "dağ" mənasını ifadə edir. Məs: *Eamont, Grostmont*
-***Ville***- (malikanə) əsasən *Coalville, Bronville* coğrafi adlarda rast gəlinir.

Quruluşuna görə İngilis toponimləri aşağıdakı kimi təsnif olunur:
1. Sadə toponimlər. Məs: *Stock, Road, Lee*
2. Mürəkkəb toponimlər. Məs: *London, Manchester, Bristol, Roadshy, Scaldwell*
3. Tərkibi toponimlər. Məs: *Little Saxham, Stock-on-Trent, Stratford-on Avon*

Məna cəhətdən mürəkkəb coğrafi adlar arasında məskunlaşma yerini, onun xarakter və formasını, tipik əlamətlərini ifadə edən toponimlər var:
-***gham***- "ev, qəsəbə" mənasını ifadə edir. Məs: *Bermingham, Rockingham*
-***ton***- "ev, qəsəbə" mənasını ifadə edir. Məs: *Haughton, Boston, Bathampton*

Bəzən hər 2 element -***gham*** və -***ton***- eyni coğrafi adda rast gəlinir. Məs: *Northghamton*
-***ber***- -***bury***- elementi daha çox ölkənin qərb şəhərlərinin adlarında təsadüf olunur. "Möhkəmlənmə" mənasını ifadə edir. Məs: *Limber, Middlesbury*
-***stock***- elementi "yeni kənd" mənasını ifadə edir. Məs: *Woodstock*
-***chester***- "düşərgə" mənasını ifadə edir. Məs: *Manchester, Chester, Colchester*
-***clough***- "dərə, vadi" mənasını ifadə edir. Məs: *Cowclough*
-***was***- "nəm, rütubətli" deməkdir. Məs: *Alrewas*
Anqlosaks mənşəli -***cot***- elementi "saray" mənasını ifadə edir. Məs: *Woodcot, Willcot.* Qeyd etmək lazımdır ki, müəyyən komponentlər Great və Little öz yerini Magna (böyük) və Parva (kiçik) sözlərinə verir. Məs: *Ashby Magna, Ashby Parva*

Müərkkəb adlarda bir sıra tipik terminlər var ki, bunlar müəyyən mənalar ifadə edir.

---

[17] AzTU, "xarici dillər"kafedrasının baş müəllimi

[18] ADİU "Xarici dillər"kafedrasının baş müəllimi

Məs: bridge (körpü), town (şəhər), field (sahə, tarla), wood (müşə), market (bazar), house (ev), water (su), dyke (bənd, arx), hill(təpə) və s. Məs: *Cambridge, Stockbridge, Sheffield, Woodstock.*

Yeni toponimlər *Newton, Newport, Newcastle* Şotlandiya, İrlandiya və Uelsdə rast gəlinir. Semantik xüsusiyyətlərinə görə,toponimlər aşağıdakı kimi təsnif olunur:

1) İngilis toponimləri ***relyef*** terminləri ilə işlənir. ***-ness-*** "burun"deməkdir.
2) ***Landşaft*** terminləri. Bura əsasən çökəklik, bataqlıq adları daxildir.
3) Müəyyən ***torpaq*** sahəsini bildirmək üçün terminlər. Məs, medaw - çəmən, sand - torpaq.
4) ***Geobotanik*** termin. Məs: oak- palıd.
5) ***Hidroqrafik*** terminlər. Məs: brook - kiçik bulaq.

Toponimlər yazılı ədəbiyyatda xalqın başqa xalqlarla ictimai, siyasi, tarixi, mədəni, iqtisadi və s. əlaqələri təsvir və tərənnüm edir. Bədii ədəbiyyatda emosional əhval -ruhiyyə yaradan coğrafi adlar İngilis ədəbiyyatında zəngin üslubi keyfiyyətlərə malikdir. Bu da əsərin ideyasının qüvvətlənməsinə və üslubi cəhətdən zəngin olmasına xidmət göstərir. İngilis əsərlərində toponim yer haqqında məlumat vermək üçün istifadə olunur. Məsələn:

- *"Somebody had left an evening paper and he turned it over with his foot, nothing the headline about the five hundred soldiers who refused to embark in **Glasgow** at King George`s Dock for Singapore" (J.Lindsay "Betrayed Spring")*
- *"They`re the enemy I`ve felt ever since I landed at Liverpool, ambushed in all the shadows,in every cranny of greed" (J.Lindsay "Betrayed Spring")*

Bəzən toponimlər frazeoloji birləşmələrin tərkibində əsərlərdə rast gəlinir. Məsələn:

*"This very morningI said to him: You`re grinning like my grannyy at a hot puff-cake, anyone`d think you enjoyed yourself. And he only **grinned** the wider. **Like a Cheshire cat** chewing growl. And now he won`t grin no more ..." (J.Lindsay "Betrayed Spring")*

Burada ***Grin like a Cheshire cat*** - Boş və mənasız yerə gülmək - mənasını verir.

*"It`s no goof smiling at me **like a Cheshire cat.** Mr. Lubin ..." (B.Show "Back to Methuselah")*

Məsələn: *"And that`s a fine thing to do ... though it`s not exactly what we understand by **coming Yorkshire over us** in London." (Ch.Dickens "Nicolas Nickleby")*

Burada - ***come Yorkshire over smb*** - kimisə aldatmaq mənasını ifadə edir.

Bu cür frazeoloji birləşmələr adi halda da rast gəlinir. Məsələn:

Smithfield bargian - razılaşdırılmış evlilik.
Tyburn clossom - cavan, gənc oğru.
Bristol compliment - Hədiyyə verənin özünə lazım olmayan hədiyyə.
Kentish fire - haylı-küylü ifadə, kəskin etirazlar.
Cheshire cat - mənasız, boş yerə gülən adam.
Hull cheese- tünd pivə.
To go to Bungay - rədd olub getmək.
Smithfield match - xüsusi məqsədlərlə razılaşdırılmış nikah.

Toponimlər sifət birləşmələrində də geniş yayılmışdır. Məsələn:

As poor as the Bishop of Chester - Həddindən artıq varlı.
As true as Ripon steel - etibarlı
As plane as Dunstable road - açıq sözü üzə deyən.
As big as Dorchester buft - həddindən artıq kök.

Toponimlər qafiyədə də işlənə bilər. Məsələn:

As true as Conventry blue - etibarlı.
Harley Street - tibb dünyası, Londonda məşhur həkimlərin yaşadığı yer.
Scarborough warning - qısa müddətə edilmiş xəbərdarlıq.
Come Yorkshire over smbd. - kimisə aldatmaq.

Toponimlər bədii əsərlərdə həmcins üzvlər kimi də işlənə bilir. Məs: "***Kensington, Hammersmith, Cheswick, Kew Bridge, Bretford*** were all passed and yet went on assteadily asif they had only just begun their journey." (Ch.Dickens "The Adventures of Oliver Twist") Qeyd etmək lazımdır ki, toponimlər ingilis şeirlərində də tez-tez rast gəlinir:

Upon the ühite Rock England, a Female Shadow, as deadly damps of the Mines of ***Cornwall*** and ***Derbyshire***, lays upon his bosom heavy, Moved by the wind in columns of thick cloud, retunrning, folding round. (William Blake) İngilis ədəbiyyatında toponimlər təyin kimi də işlənə bilər. *"She came from anout of the way country district on the Pennine slopes, and kept lots of old **Lancashire** ways ofthought and speech, which Dick had never heard before but which somehow went warmly to his blossom." (J.Lindsay "Betrayed Spring")*

İngilis ədəbiyyatında yazıçının öz təxəyyülünə əsaslanan süni toponimlər də işlənir.Məsələn: *Great Scoldings, Sleepy Hollow, Weary Road, Great Gloom, Great Mountain.*

"... There happened an extraordinary accident which hadlike to have put a period to the fate of that monarchy, at least as it`s now instituted, **Lindalino**, the second city in the kingdom, was the first his Majesty visited in his progress ..." (J.Swift "Gulliver`s Travels")

Sonda qeyd etmək olar ki, dilçiliyin bir sahəsi olan toponomika tədqiqat obyekti olaraq dilçilər arasında böyük marağa səbəb olub. Belə ki, coğrafi adlar vasitəsi ilə müxtəlif millət və xalqların tarixini və dilini tədqiq etmək mümkündür.

Ədəbiyyat

1. Mauer A. *Problems of place-names study*. Cambridge press, 1929
2. Peany P.H. *The origin of English Place names*. Cambridge Press, 1960
3. Cameron K. *English Place names. London*. Batsford, 1996
4. Ekwall E. *The Place names of Lancashire*. Manchester. University Press, 1922
5. Ekwall E. *The Concise Oxford Dictionary of English Place names* - Oxford: Clarendon Press, 1974

Açar sözlər: toponim, onomastika, mürəkkəb adlar, morfoloji, semantik, Anqlosaks
Key Words: toponym, onomastics, compound names, morphological, semnatic, Anglo-Saxon
Ключевые слова: топоним, ономастика, сложные имена, морфологический, семантический, Англосакс

English toponyms and their usage in English Fiction

Summary

The article "English place names and their usage in English literature" deals with the place - names (toponyms) and their usage forms in English literature. The article touched upon the problems such as the classification of place names and their usage in English literature, In literary works toponyms portray cultural, historical, economic relations between different peoples and give emotional coloring to the work. Different languages have greatly influenced the origin of English toponyms at various times in history. As a result of the research, we come the conclusion that there are Celt, Scandinavian, French and Latin elements in English toponymy. The article presents passages chosen from English literary works representing stylistic possibilities of geographhic names.

Английские топонимы и их испольсование в Английской литературе

Резюме

В статье "Английские географические названия и их использование в английской литературе" рассматриваюттся названия мест (топонимы) и формы их использования в английской литературе. В статье затрагиваются такие проблемы, как классификация географических названий в соответсвии с морфологическими и лексическими формами, функции географических названий и их использование в английской литературе. В литературных произведениях топонимы изображают культурные, исторические, экономические отношения между разными народами и придают эмоциональную окраску работе. Различные языки сильно повлияли на происхождение английских топонимов на различных этапах истории. В результате исследования мы пришли к выводу, что в английской топонимии имеются элементы Кельтского, Скандинавкого, Французского и Латинского языков. В статье представлены отрывки, выбранные из английских литературных произведений, представляющих стилистические возможности географических названий.

Rəyçi: filologiya elmləri doktoru, dosent Yusif Süleymanov

Quliyeva Dilşad Mahmud qızı[19]

İNGİLİS DİLİNDƏ SÖZ YARADICILIĞI

Müasir dövedə "söz yaradıcılığı" terminlərinin dəqiq, hamı tərəfindən qəbul edilmiş istifadəsi yoxdur. Bəzən sözün formasının dəyişməsi ilə bağlı bütün proseslərə, məsələn, morfologiyaya aid olan affiksasiyaya aid edilir. Daha geniş mənada söz yaradıcılığı yeni leksik vahidlərin yaradılması proseslərini bildirir. Sözün morfoloji dəyişməsi ilə yeni termin yaradılması arasındakı fərqi dərk etmək olduqca asan görünsə də, bəzən hələ də morfoloji dəyişiklik, yoxsa yeni söz əmələ gəlmə ilə bağlı mübahisələr yaranır. Əlbəttə, heç bir mübahisə doğurmayan və dillərin əksəriyyətində çox oxşar olan çoxsaylı söz əmələgəlmə prosesləri var.

Ən kiçik məna vahidi *Morfem* adlanır; morfemlər sərbəst və ya müstəqil morfemlər, eləcə də asılı olmaqla iki yerə bölünür. Sərbəst morfemlər iki növdür, ya leksik, həm də funksionaldır. Lakin təkbaşına dayana bilməyən asılı morfemləri də iki qolludu: əsas köklər, və affikslər. Söz yaratmaq prosesi mövcud materiallardan yeni sözlər yaratmaq üsuludur. Söz əmələ gətirmə prosesi bəzi qaydalara əsaslanaraq yeni sözlərin necə hazırlanmasıdır.

Morfemlər məna və ya qrammatik funksiyaya malik olan sözləri və ya sözlərin hissələrini təşkil edən ən kiçik dil vahidləri kimi müəyyən edilə bilər. Yazıda tək morfemlər adətən öz qrafik forması və ya yazılışı ilə göstərilir, məsələn, *-es, -er, un-, re-*; və ya transkript arasında onların qrafik forması ilə, *{ }*; məsələn, *{-es}, {-er}, {un-}, {re}.*

Dilin ən kiçik mənalı vahidlərini (yəni morfemləri), onların müxtəlif formalarını, sözlərin daxili quruluşunu, sözlərin əmələ gəlməsi proses və qaydalarını öyrənən dilçiliyin sahəsinə *morfologiya* deyilir. (6,1). Morfemləri eyni xüsusiyyətlərə malik daha kiçik hissələrə bölmək olmaz. Onun aşkarlanması dildəki sözlərin morflara bölünməsi ilə başlayır; sonra məzmun və formaca oxşar morflar və tamamlayıcı və ya təzadsız pozulma halında rast gəlinir. Belə hal yarandığından həmən dildə danışanlar sözü başa düşə bilərlər ki, söz formaları bir sıra vahidlərdən ibarət ola bilər. Məsələn , İngilis dilində plays, player , playing and playing kimi parçalara bölünə bilən söz formaları bir vahid - *play* və (-s , -er , -ed , və -ing) kimi bir sıra digər elementlərdən ibarətdir.) Məhz bu elementlərə *morfemlər* deyilir. (4,32)

Hər bir morfemi sərbəst və ya asılı morfem kimi təsnif etmək olar

Sərbəst morfemlər və ya müstəqil morfemlər – sərbəst məna bildirən sözlər (city, money, cat, door və s.) müstəqil fəaliyyət göstərə bilirlər. Bu morfemlər tək və ya sərbəst şəkildə baş verə bilən minimal sərbəst morfem kimi qəbul edilir (1,6).

Sərbəst morfemlər iki növdür:

Leksik morfemlər Bunlar isimlər (Baghdad , Sam ... və s.), fellər (to go, to ride, to read və s.), sifətlər (short, small, long və s.), sözönləri (in , on , under və s.) və zərflər (out, carefully və s.). Onlar semantik məzmun daşıyırlar. Onlar fərdlərə (isim: Con, mother) istinad etmək, xassələri aid etmək (sifətlər: kind, smart), hərəkətləri, prosessor hallarını (fellər: hit, read və s.) ifadə etmək üçün istifadə olunur (2,42-43) Onlar dildə açıq sözlər sinfini (və ya məzmun sözlərini), yəni dilə yeni üzvlərin daxil olması səbəbindən böyümə ehtimalı olan sözlər sinfini təşkil edirlər. (6,1).

Funksional morfemlər Onlar sərbəst morfemlərdir, özlüyündə az və ya mənası yoxdur, lakin cümlələrdə və cümlələr arasında qrammatik əlaqələri göstərirlər.(6,1). Onlar cümlədə qrammatik məlumat və ya məntiqi əlaqələrə işarə edir. Buraya daxildir:

1. Artikllar : a , an , the .
2. İşarə əvəzlikləri : this , that , these , those .
3. Əvəzliklər : I ,you , we , they; my , your , his , her , who , whose, ... və s.
4. Bağlayıcılar : and , yet , if , but , or ... və s. (2, 42-43)

Asılı morfemlər

Onlar yalnız sözlərin hissələri kimi, həmişə köklərlə və ya sərbəst morfemlərlə, bəzən də digər bağ morfemləri ilə birləşərək görünür; məsələn, Un- yalnız mənalı bir söz yaratmaq üçün digər morfemlərlə birləşir (3,2) Bu morfemlər belədir:

1. -mit as in permit, remit , commit , admit.
2. -ceive as in perceive , receive , conceive , deceive.
3. Pred- as in predator , predation, predatory
4. Sed- as in sedate , sedent , sediment

Onlar iki növdür

Bağlanmış Köklər

Məzmun sözləri əmələ gətirmək üçün digər bağlı morfemlərə qoşulduqda leksik məna kəsb edən bağlı morfemlərdir; məs. – *ceive as in receive* və – *taln as in retain* və s. onlar digər affikslərə ön və ya son şəkilçi ola bilər.

Affikslər

Onlar adətən sözlərə marjinal bağlanan və həmin sözlərin funksiyasının mənasını dəyişən morfemlərdir. Məsələn, ***ment*** as in development, və ***en***- as in enlarge, and ***'s*** as in John's, və s.

Affiksasiya

Bu, yeni sözlər yaratmaq üçün köklərə törəmə affikslərin (yəni, prefikslər, infikslər və şəkilçilər) əlavə edilməsinə aiddir. Məsələn, *pass* sözünə ***-able*** şəkilçisi əlavə olunarsa, *passable* sözü yaranır. Eynilə, *pass* sözünə ***in***- (daha doğrusu

[19] BDU,

onun allomorfi-) prefiksi əlavə olunarsa, başqa söz əmələ gəlir, yəni inpassable. Affiksasiya sintetik dillərdə çox yayılmış və məhsuldar morfoloji prosesdir. İngilis dilində derivasiya yeni sözlər yaradan affiksasiya formasıdır. (6, 4)

Mürəkkəbləşmə

Mürəkkəb sözlər birdən çox sərbəst morfemadan ibarət sözdür. İngilis dilində, bir çox başqa dillər kimi, birləşmələrdən tez-tez istifadə edir. İngilis birləşmələri söz sinifləri və ya komponentlərinin semantik əlaqəsi kimi bir neçə yolla təsnif edilə bilər. (5,3). Məsələn, *blackboard, heartfelt, brother-in-laware* mürəkkəb sözlərdir; onlar köklərdən (eyni ürək və hiss, qara və lövhə) ibarətdir. (6, 4).

Bundan əlavə, birləşmə prosesi ilə yaranan yeni sözlər bunlardır: - battlefield, audio dub, aussieland, part mate, hack boat və s. - battlefield sözü (döyüş + yer), audio dub audio dublajdan (audio+dub), aussieland (Aussie +land), part mate (top +mate), hack boat(hack +boat) hazırlanmışdır. Yuxarıdakı izahatdan görünür ki, həmin yeni sözlər iki sözü birləşdirərək başqa sözə çevirir. (5, 27).

Simvolizm

Simvolizm (və ya morfemin daxili dəyişməsi) qrammatik funksiyaları göstərmək üçün morfemin daxili fonemik quruluşunu dəyişdirməkdən ibarətdir. Məsələn, goose \gu...s\ və *tooth* \tu...T\ cəmlərini yaratmaq üçün İngilis dilində \u...\ fonemi \i...\ fonemi ilə əvəz olunur, beləliklə, müvafiq olaraq *geese* \gi...s\ və *teeth* cəm formalarını verir._...T\. Bənzər şəkildə cəm hallarını yaradan digər sözlər bunlardır: - man /moen\ → ,/men / - woman \ "wUm n\ → women \ "wIm n\ - mouse \mAUs\ → mice\maIs\, louse \lAUs\ → lise laIs\ və s. Eynilə, bir neçə fel yalnız daxili halları keçərək aşağıdakı keçmiş zaman və keçmiş zaman formalarını göstərir:. Qeyd etmək lazımdır ki, simvolizm prosesi ilə yaranan yeni sözlər adətən qeyri-qanuni formalar hesab edilir və dilin inkişafındakı tarixi dəyişikliklər nəticəsində yaranmışdır (6, 6).

Təkrarlanma

Reduplikasiya yeni söz yaratmaq üçün kökün hamısının və ya bir hissəsinin təkrarlanmasından ibarətdir. Giriş kökü və ya gövdəsi təkrarlanırsa, proses tam (və ya ümumi) təkrarlanma olur və yeni söz təkrarlanan birləşmə hesab olunur. Ümumi reduplikasiya İndoneziya, Tojolabal (Meksika), Hausa (Sudan) və Havayda kifayət qədər tez-tez baş verir. Məsələn, Tojolabalda [-otS] "daxil olmaq", [-otSotS] "az-az daxil olmaq" deməkdir. Eynilə, İndoneziya dilində [rumah] 'ev', [rumahrumah] 'evlər'; [ibu]'ana' [ibuibu] 'analar'; [lələt]uçur', [lalatlalat] 'uçur'.

Havay dilində holo 'qaçış', holoholo 'gəzinti və ya gəzintiyə getmək' deməkdir; lau 'yarpaq', laulau 'yarpaq qida paketi' deməkdir. Kök və ya gövdənin yalnız bir hissəsi təkrarlanırsa, proses qismən, təkrarlanan hissəsi isə reduplikativ adlanır. Bu cür reduplikativlər kökə və ya gövdəyə əvvəlcədən qoyulmuş, interpozisiya edilmiş və yerləşdirilə bilər; lakin, reduplikativlər söz-başlanğıc və söz-medial olaraq daha çox yayılmışdır. Qismən reduplikasiya Snohomish və Taqaloqda kifayət qədər yaygındır. İngilis dilində, qismən reduplikasiya ümumi reduplikasiyadan bir az daha çox yayılmışdır, hər hansı bir reduplikasiya növü ilə əmələ gələn sözlərə reduplikativlər (həmçinin 'jingles' adlanır) aid edilir. Tam reduplikasiya nümunəsi olaraq, bye-bye, goody goody ("şüurlu şəkildə fəzilətli insan"). Qismən reduplikasiyaya gəlincə, onlar deyirlər ki, reduplikativlərin tərkib hissələri ilkin samitlərdə, məsələn, walkie-talkie olduğu kimi və ya medial saitlərdə, məsələn, crisscross sözündəki kimi fərqlənə bilər. (6, 6)

Əlavə

Bu, kök formasının tam dəyişməsindən (yəni aword) və ya kökün müxtəlif qrammatik məzmunlarda eyni məna komponenti olan başqa bir morfoloji əlaqəsi olmayan köklə əvəz edilməsindən ibarətdir. Məsələn, good və well və ya, bad və worse. Eynilə, indiki zamana dəyişikliklər olur; am/is – was/were. Göründüyü kimi, bu proses tamamilə nizamsız formalar verir. Əlavə formalar dilin qrammatik paradiqmalarında boşluqları doldurmağa kömək edir. (6,11)

Yuxarıda qeyd edilən söz yaradıcılığı vasitələrindən başqa dilin zənginləşməsinə və yeni sözlərin yaranmasına kömək edən digər vasitələr aşağıdakılardır: neologizmlər, qarışıq sözlər (blends), genişlənmələr, çevrilmələr (conversions), alınma sözlər (borrowings), onomotopiya və s.

Beləliklə, cəmiyyət inkişaf etdikcə, ölkələrarası əlaqələr genişləndikcə dildə daima inkişaf edəcək və yeni sözlər nitqə daxil olaraq və ya dildəki sözlər dəyişərək yeni sözlər yaranacaq. Dilin belə inkişafi insanların bir-birini daha da yaxşı başa düşməsinə səbəb olacaq.

Ədəbiyyat

1. Elson, Benjamin Franklin and Pickett , Velma Bernice . An Introduction to Morphology and Syntax . Michigan : Summer Institute of Linguistics, 1968
2. Katamba , Francis . and Stonham , John . Morphology . New York :PALGRAVE MACMILLAN , 2006
3. Kumar , Pawan .(2014) 'Morpheme' . Retrieved from
4. https://www.academia.edu/16941925/Morpheme?show_app_store_popup=true
5. Lieber , Rochella . Introducing Morphology . New York , Cambridge University Press , 2009
6. Ratih, Elisa. And Gusdian, Rosalin Ismayoeng. (2018) "Word Formation Process in English Dictionary (OED) Online". Celtic A Journal ofCulture English Language Teaching Literature and Linguistics. VOL. 5(2)DOI: 10.22219/CELTICUMM.Vol5.No2.24-35
7. Zapata, Argenis. (2007) 'Unit 1: Types of Words and Word- Formation Processes in English'.

Xülasə

Elm və texnologiyanın inkişafı ilə ingilis dilində bir çox yeni sözlər meydana çıxır. Dil lüğəti hər zaman getdikcə daha yüksək sürətlə dəyişir. Dilin inkişafi onun müxtəlif səviyyələrində irəliləyişlərə səbəb olur, məsələn, Leksikologiyada.

İnsan dilinin səciyyəvi xüsusiyyətlərindən biri yaradıcılıqdır ki, bununla biz bir dilin ana dilində danışanların öz dillərində yeni formalar yaratmaq və anlamaq qabiliyyətini nəzərdə tuturuq. Yaradıcılıq ən çox cümlə qurarkən özünü büruzə versə də, psixi leksikonumuza müntəzəm olaraq yeni sözlərin əlavə olunduğu leksik biliklərimizdə də özünü göstərir.

Bu tədqiqatda bir dildə danışanların öz dillərində yeni sözlər yaratmaq üçün müntəzəm olaraq (həm də şüursuz şəkildə) istifadə etdikləri söz əmələ gəlmə proseslərinin ən əhatəli ekspozisiyası iki fəsildə təqdim olunur.

Резюме

С развитием науки и техники в английском языке появляется много новых слов. Словарный состав языка постоянно меняется со все более высокой скоростью. Развитие языка приводит к прогрессу на разных его уровнях, например, в лексикологии.

Одним из отличительных свойств человеческого языка является креативность, под которой мы понимаем способность носителей языка производить и понимать новые формы в своем языке. Несмотря на то, что креативность наиболее очевидна, когда речь идет о построении предложений, она также проявляется в нашем лексическом знании, когда новые слова регулярно добавляются в наш ментальный лексикон.

В этом исследовании в двух главах представлены наиболее полные описания процессов словообразования, которые носители языка регулярно (и бессознательно) используют для создания новых слов в своем языке.

Summary

With the development of science and technology a lot of new words appear in the English language. The language vocabulary is changing all the time at an increasingly higher speed. The development of a language brings about advancements on its different levels, for example, in Lexicology.

One of the distinctive properties of human language is creativity, by which we mean the ability of native speakers of a language to produce and understand new forms in their language. Even though creativity is most apparent when it comes to sentence formation, it is also manifest in our lexical knowledge, where new words are added to our mental lexicon regularly.

In this research the most comprehensive expositions of word formation processes that speakers of a language use regularly (and unconsciously too) to create new words in their language are presented in two chapters.

Rəyçi: F.f.d.Seyidova Nigar Vaqif

Pərvanə Hüseynova*

MƏSDƏR SUBSTANTİV FEİL FORMASI KİMİ

Çağdaş dövrdə türk dilçiliyində ad, ismi əlamət və feli əlamət kimi çıxış edən feil formaları kateqoriyası haqqında fərqli təsəvvürlər formalaşmışdır. Bu mövzuya maraq dil daşıyıcılarının tipoloji fərqliliklərinə görə, nitqdə feil formalarının istifadəsini özünə daha çox cəlb edir ki, bu da onları uzun mürəkkəb cümlələr qurmaqdan xilas etmiş olur.

Əvvəlcə Azərbaycan, daha sonra türk dilçiliyində ənənəvi qrammatika kitab və dərsliklərində məsdər adı ilə tanınan feil formalarına münasibətə nəzər salaq. Bildirək ki, substantiv feil formaları bütün dövrlərdə işlək olma nöqteyi-nəzərindən həmişə diqqət mərkəzində olmuşdur. Əski və orta türk dilləri yazılı abidələrində, onun fonetik xüsusiyyətləri, ifadə formaları, həmçinin tərkiblərinin funksional semantikası barədə mühüm araşdırmalar aparılmışdır. Lakin buna rəğmən türk dilçiliyində ad kimi çıxış edən feil formaları ilə bağlı mübahisəli məsələlər öz həllini tapmamışdır. Buna sübut kimi: "*Türkologiyada uzun müddət bu və ya digər məsələnin şərhində rus dilçiləri tərəfindən türk dillərinin qrammatik strukturunun özünəməxsusluğu, spesifikliyi nəzərə alınmamış və nəticədə bir sıra dolaşıqlıq, elmi cəhətdən özünü doğrultmayan müddəalar formalaşmışdır*" [1, 11].

Bəzi dilçilərin fikrincə, dilimizdə substantiv feil formalarının zaman və şəxslə heç bir əlaqəsi yoxdur. Onlar sadəcə feilin, hərəkət və ya vəziyyətin adını bildirir. Vəliyeva N.Ç. haqlı olaraq yazır: "*Hər şeyin adı olduğu kimi, iş və hərəkətin də adı vardır. "Oxumaq" bir işin adı, "yazmaq" isə başqa bir hərəkətin adını bildirir. Lakin feilin bəsit qismi belə, heç bir xarici əlamət (şəkilçi) qəbul etmədən məzmunca müəyyən şəxs və müəyyən zaman ifadə edir. Bütün feil kökləri, hətta heç bir şəkilçisi olmayan və parçalanması qeyri-mümkün olan ən bəsit feil kökü yenə də məzmunca ikinci şəxsin təkini və nisbətən gələcək zamanı ifadə edir. Odur ki, feillərdən zaman və şəxs məfhumunu ləğv edib, onları isim halına, yəni yalnız feillərin adlarını bildirmək iqtidarına malik olmaq halına salmaq üçün dildə xüsusi şəkli əlamətlər yaranır. Dilimizdəki* ***-maq, -mək*** *şəkilçiləri feillərin adlarını bildirmək üçün yeganə vasitə olaraq meydana çıxır*" [2, 301].

Məlum olduğu kimi dilimizdə substantiv feil formaları feil əsasına ***-maq, -mək***şəkilçisilərinin əlavə edilməsi ilə düzəlir və bununla iş, hal və hərəkətin adını bildirir. Bu nöqteyi-nəzərdən substantiv feil formaları ikili xarakter daşımış olur. Yəni, onlar bir tərəfdən isim, digər tərəfdən isə feillərə yaxınlaşır.

Bir sıra tədqiqatçıların fikrincə, ***-maq*** şəkilçisi-***m***və-***aq***şəkilçilərinin birləşməsindən, digərlərinin fikrincə tarixən mövcud olmuş ***-man***[2]şəkilçisindən, üçüncü bir qisminin fikrincə isə ***-ma***[2] və tarixən yönlük hal şəkilçisi kimi çıxış etmiş ***-qa/-ğa*** şəkilçilərindən yaranmışdır.

Bizcə, azərbaycan dilçiliyində mövcud olan bu fikirlər özünü doğrultmur. "*Doğru fikir odur ki,* ***-maq***[2] *şəkilçisinin özü tarixən mövcud olmuş qədim şəkilçidir*" [3,186]. Bunu, dilimizdə feildən ad yaradan ***-ma*** şəkilçisinin ***-maq*** substantiv feil forması şəkilçisindən yaranmasını aşağıdakı misallar göstərə bilər: *qovurmaq-qovurma, basdırmaq-basdırma, dondurmaq-dondurma* və s. Yəni, bu isimlər substantiv məna çalarına məxsus feil formalarından **q**samitinin düşməsi ilə yaranmışdır.Belə ki, hal-hazırda dilimizdə istifadə etdiyimiz *qovurma, basdırma, dondurma* və s. sözlərinin ilkin forması substantiv feil formaları olub.

Ad bildirən substantiv feil formasının qədim şəkilçisi kimi ***-maklık, -məklik*** şəkilçilərini də göstərmək olar. Türk dilçiliyində ad bildirən substantiv feil forması *geniş feil forması* adlanır və ***-ma*** şəkilçili formasının sinonimi kimi özünü göstərir. Qeyd edək ki, türk dilçiliyində ***-maklık, -məklik***şəkilçi forması ***-ma*** şəkilçili forması ilə müqayisədə daha az işlənib.

Dilimizdə aktiv şəkildə ad kimi çıxış edən feil formaları, müxtəlif səviyyədən olan dil struktur vahidləri kimi, ilk öncə beynimizdə və təfəkkürümüzdə formalaşan fikir və düşüncələrin ifadəsinə xidmət edir. Bu zaman situasiyadan asılı olaraq insan beynində müxtəlif söyləm zəncirləri əmələ gəlir ki, həmin dil struktur vahidləri ilkin şəkil formasını dəyişdirməklə ikinci təqdimat formasında çıxış edir. Bəzi alimlər dilimizdə aktiv şəkildə istifadə olunan feil formalarını ikinci təqdimat kateqoriyasının başlıca elementi kimi şərh edirlər. *"Okkazional ehtiyaclar səbəbindən nitq prosesində bəzən bir sıra adlar və feillər öz nominal, ilkin mənası ilə yox, birdəfəlik və ya müvəqqəti nitq ehtiyacını ödəmək məqsədilə həmin nitqdə mücərrəd əşya və əlamət mənası ilə çıxış edirlər"* [4, 42] ki, dilçilik ədəbiyyatında *"ikinci təqdimat və ya reprezentasiya hadisəsi kimi təqdim edilir"* [5, 17].

İkinci təqdimat kateqoriyası azərbaycan və həmçinin türk dillərində həm adlarda, həm də feillərdə özünü göstərir. Bu zaman onların əsas funksiyası birdəfəlik nitq ehtiyacları ödəməyə xidmət edən okkazional formaları yaradaraq həmin nitq ehtiyaclarını ödəməkdir.

Dilimizdə ad bildirən feil formaları **-maq, -mək** şəkilçisinin köməyi ilə müxtəlif feil əsaslarından düzələn mücərrəd okkazional feil formalarıdır. Belə ki, istənilən feil köklərinə artırılan bu şəkilçi formaları onu mücərrəd ismə, yəni, vəziyyət və hərəkətin adına çevirirlər. Buna görə, dilimizdə olan substantiv feil formaları isimlər kimi hallanır, şəxsə və kəmiyyətə görə dəyişə bilir. Həmçinin feili xəbərlik şəkilçisi yox, ismi xəbərlik şəkilçisi (*Məqsədim öyrənmək**dir***) qəbul edib, cümlədə ismin çıxış etdiyi funksiyalarda işlənir. Substantiv feil forma şəkilçisi qəbul etmiş feil forması bunun tam əksinə olaraq cümlədə heç vaxt feili xəbər kimi iştirak edə bilmir. Bunun üçün o öncə **-maq, -mək**şəkilçilərindən azad olmalıdır.

Substantiv feil formalarının linqvo-psixoloji mahiyyətini onun okkazionallığı vasitəsilə izah edə bilərik. Belə ki, insan ətraf aləmi bir dəfəyə tam yox, yavaş-yavaş onun müxtəlif gerçəklik vahidlərini dərk edir. Bu zaman dərk olunan gerçəklik vahidi onun ən üzdə olan, fərdin şəxsi ehtiyaclarına uyğun xüsusiyyətləri ilə mənimsənilir. Məhz bu xüsusiyyətlər

*BakıAvrasiyaUniversiteti müəllimi, Ümumifilologiyakafedrasınındissertantı partur_83@mail.ru

dərk olunan gerçəklik elementi adlanır. Gerçəklik vahidi ilə təmas anında gerçəklik vahidinin yadda qalmasını təmin edən gerçəklik elementi seçilib, müəyyən olaraq yadda saxlanılır.

Mayıl Əsgərovun dediyi kimi *"gerçəklik vahidlərinə ad bəzən onların mahiyyətlərinə uyğun, bəzən də təsadüfi verilir"* [6]. Hətta deyə bilərik ki, gerçəklik vahidinin mahiyyətinə verilən ad, onun ən önəmli xüsusiyyətini yox, ona ad verən şəxsin ehtiyacını ifadə edir. Məsələn, *daraq, açar, yataq* və s. adlar həqiqi mənada gerçəklik vahidinin adını, mahiyyətni təcəssüm etdirir. İlk baxışdan bu belə görünə bilər, amma nəzərə almalıyıq ki, *daramaq, açmaq, yatmaq*funksiyaları həmin gerçəklik vahidləri üçün yox, onlara bu adı verən şəxs üçün vacibdir.

Linqvo-psixoloji vəhdət nəzəriyyəsi bazasından çıxış edərək bildirək ki, dildə bütün sözlərin mahiyyəti var, yəni, hər bir söz hər hansı bir gerçəklik vahidinin adını bildir. *Oynamaq, əylənmək* aktiv bir hərəkətin adıdırsa, *yatmaq,oturmaq* isə passiv bir vəziyyətin adını ifadə edir.

Məsələn, ***udmaq*** feilini götürsək

1. Həsən kişinin acı sözlərini ***udmaq*** ona çox çətin gəlirdi.
2. Oyunda ***udmaq***, qalib gəlmək ona baş ucalığı gətirdi.
3. Boğazı şişmişdi deyə, ağzına aldığı tikəni ***udmaq*** onu incidirdi.

Verilmiş nümunələrdə substantiv feil forması ilə ifadə olunan cümlə üzvləri mücərrəd isim kimi çıxış edir. Birinci cümlədə həmin forma *qəbul etmək*, ikinci cümlədə *qalib gəlmək,* üçüncü cümlədə isə *yemək* sözlərinin nisbi sinonimləri kimi çıxış edir.

Qeyd edək ki, ad kimi çıxış edən feil formaları ənənəvi qrammatika kitab və dərsliklərində fərqli şəkildə təqdimata ehtiyac duyurlar. Məsələn, *Arzum sağlam və xoşbəxt* ***yaşamaqdır***. Nədir? – *yaşamaqdır*. Ad kimi çıxış edən feil forması burda ismi xəbər kimi çıxış edir. ***Təhsil almaq****gözəldir*. Nə gözəldir? – *təhsil almaq.Təhsil almaq* burda artıq tam olaraq substantivləşmə gedərək, sıradan bir ismə çevrilmişdir sanki*; Dahi sənətkar ol****maq*** *istəyimdir.* Nə istəyimdir? – *dahi sənətkar olmaq*, burda da həmçinin substantivləşmənin baş verdiyini görə bilirik.

"Linqvo-psixoloji vəhdət nəzəriyyəsi" son dövrlərdə yaranmış ən məhsuldar, müxtəlif səviyyəli dil struktur vahidlərinin yaranma və mənimsənilmə mexanizmi şərh edə biləcək nəzəriyyədir. "Linqvo-psixoloji vəhdət nəzəriyyəsi"nə əsasən bildirək ki, kommunikativ nitq total modullaşma yolu ilə istənilən dərketmə aktının dördüncü fazasında yaranır [6, 123].

Dördüncü fazanın ilkin pilləsində, yəni nitq söyləminə daxil edilməsi nəzərdə tutulan gerçəklik vahidləri sıralanan zaman, bəzi elementlər məqsədyönlü formada ixtisar edilir. Nitqin birdəfəlik ehtiyaclarının ödənilməsinə xidmət edən okkazional formalar elə bu anda yaranır [6, 72].

Bildiyimiz kimi, birdəfəlik və ya başqa sözlə müvəqqəti nitq ehtiyaclarını ödəməyə xidmət edən okkazional formalar dildə lakonikliyin, qənaətin və ixtisarların nəticəsi olaraq rahat yadda qalmaya kömək edir. "Linqvo-psixoloji vəhdət nəzəriyyəsi"nin linqvistik əsası okkazional formaların yaranmasından ibarətdir.

Bildiyimiz kimi, məsdər adı ilə tanıdığımız ad kimi çıxış edən substantiv feil formalarının araşdırılması bir sıra alimlər məşğul olmuşlar. Onlardan bir neçəsini göstərmək olar: Ə.Dəmirçizadəni, M.Hüseynzadəni, M.Şirəliyevi, Y.Seyidovu, S.Cəfərovu, A.Qurbanovu, A.Axundovu, A. Babayev. Lakin bu dilçilərin heç biri bu formaları okkazional semantik məna çaları ilə çıxış edən formalar kimi təqdim etməmişlər. Bu formalara reprezentasiya kateqoriyası kimi, V.Q.Quzev, M.Ş.Mamatov, N.N.Tıdıkova, M.B.Əsgərovun əsərlərində rast gələ bilərik.

Nəticə

Məqalənin sonunda onu deyə bilərik ki, müvəqqəti nitq ehtiyaclarından yaranaraq, okkazional xarakter daşıyıb feillərə əlavə olunub hərəkət məzmununa malik olan sözləri ikinci dəfə mücərrəd varlıq, ismi və ya feili əlamət, substantiv feil forması kimi təqdim edən ***-maq, -mək*** şəkilçilərini dilçiliyimizdə feillərə artırılaraq müvəqqəti nitq ehtiyacının ödənilməsi ilə okkazional şəkildə yaranmış formalar kimi reprezentasiya kateqoriyası adlandırmaq olar.

Ədəbiyyat:

1. Ergin Qəhrəmanova Y. ""Kitabi-Dədə Qorqud" dastanında feilin təsriflənməyən formaları". Bakı, "Elm və Təhsil", 2011.
2. Vəliyeva Nigar Çingiz qızı. "Müxtəlifsistemli dillərdə feili birləşmələrin tipoloji təhlili". Bakı, "Avropa" nəşriyyatı, 2008, 864 s.
3. Buludxan Əziz oğlu Xəlilov. Azərbaycan dilində feil. Dərslik. Bakı, "Adiloğlu" nəşriyyatı, 2018, 224 səh.
4. Маматов.М.Ш. К вопросу о категории номинализации: (на материале узбекского языка). Советская Тюркология, 1988, №5, с.41-52
5. Гузев.В.Г. Система тюркских словоизменительных категорий в функционально-семантическом аспекте. Диссертация на соискание ученой степени доктора филологических наук. Ленинград, 1986, 356 с.
6. M.B.Əsgərov Linqvo-psixoloji vəhdət nəzəriyyəsi. Bakı, Elm və təhsil, 2015,192 s.

Açar sözlər:*məsdər, substantiv feil, linqvopsixologiya, ikinci təqdimat kateqoriyası, okkazional forma, kommunikativ nitq*

Ключевые слова*: инфинитив, субстантивный глагол, лингвопсихология, категории вторичной репрезентации, окказиональная форма, коммуникативная речь*

Keywords:*infinitive, substantive verb, linguopsychology, the category of second presentation, okkazional form, communicative speech*

ИНФИНИТИВ КАК СУБСТАНТИВНАЯ ФОРМА ГЛАГОЛА

Резюме

В статье речь идет о представлении инфинитива, известного нам под его традиционным названием из грамматических книг и учебников, как субстантивной глагольной формы как категории вторичной репрезентации.

Таким образом, формы субстантивного глагола, представленные как категории вторичной репрезентации, если первый раз обозначают название какого-либо действия, то во второй раз оно выступает как абстрактная сущность.

Глагольные формы, действующие как существительные, требуют другого представления в традиционных книгах и учебниках по грамматике. Исходя из теории лингвопсихологического единства, констатируем, что суффиксы ***-maq, -mək,*** возникающие из потребностей временной речи, носят окказиональный характер и прибавляются к глаголам и имеют деятельностное содержание, представляют второй раз как абстрактная сущность, существительное или глагол как знак, субстантивная форма глагола, в нашем языкознании может быть названа категорией репрезентации как формы, создаваемые изредка путем увеличения глаголов для удовлетворения временной потребности в речи.

INFINITIVE AS SUBSTANTIVE VERB FORM

Summary

The article deals with the presentation of the infinitive, which we know by its traditional name from grammar books and textbooks, as a substantive verb form as the second category of presentation. Thus, the substantive verb forms presented as the second presentation category, if the first time denotes the name of any action, the second time it appears as an abstract entity.

Verb forms acting as nouns require a different presentation in traditional grammar books and textbooks. Proceeding from the basis of the theory of linguological-psychological unity, let us state that the suffixes ***-maq, -mək,*** which arise from the needs of temporary speech, are occasional in nature and are added to verbs and have action content, present the second time as an abstract entity, a noun or a verb as a sign, a substantive verb form ın our linguistics, it can be called the category of representation as the forms created occasionally by increasing the verbs to satisfy the temporary need for speech.

Rəyçi: fil.ü.f.d.,dos.S.R.Rzayeva

Sevinc Mübaiz qızı Hümbətəliyva [20], Könül Tariyel qızı İbrahimova[21]

AZƏRBAYCAN DİLİNİN ŞİFAHİ NİTQİNDƏ NİTQ ETİKASININ NÜANSLARI VƏ NORMATİV QAYDALARI

Giriş. Etika yunanca ethos, latınca ethika sözlərindən olub adət, xasiyyət mənasındadır. Nitqin etikası dedikdə mədəni, ədəbi, nəzakətli nitq nəzərdə tutulur.

Nəzakələ danışmaq, başqasının dediklərinə hörmətlə yanaşmaq Azərbaycanda mədəni etiket normalarından biri olmuşdur və indi də belədir. Atalar sözləri və məsəllərdə, klassik şairlərin və müasir yazıçıların əsərlərində bu barədə dəyərli fikirlər və nümunələr vardır. Məsələn, ***adın nədir Rəşid, birini de, birini eşit*** atalar məsəlində dərin fikir ifadə olunur. Bunun mənası odur ki, sən öz danışığına diqqətli olduğun kimi qarşıdakının dediklərinə də hörmətlə yanaşmalısan, özünü ondan üstün tutmalısan. Böyük Nizami Gəncəvi başqaları ilə danışıqda həssas və səbrli olmağı, hətta başqası kobud söz işlətdikdə onun səviyyəsinə enməməyi məsləhət görür:

Nəlayıq söz ilə etsələr xitab; Sən gərək sükutla verəsən cavab. Müasir dövrün adamları belə hikmətləri qulaqlarında sırğa etməli, öz sözlərinə diqqətli olmaqla bərabər müsahibini də diqqətlə dinləməli və nalayiq sözlərin işlənməsinə yol verməlidirlər.

Əsas hissə. Həm danışıqda, həm də yazıda mədəni nitqin tələblərinə əməl olunmalıdır. Bu normalar və formalar əsasən aşağıdakı hallarda özünü göstərir: 1. Görüşmə, hal-əhval tutma zamanı. 2. Müraciət zamanı. 3. Şad və pis xəbərləri çatdırıma zamanı. 4. Dinləmə zamanı. 5. Danışığının intonasiyasında. 6. Mimika və jestlərdə. Şifahi nitqdə bu halların hamısı müşahidə olunur. Bunlardan hal-əhval tutma, müraciət, şad və pis xəbərləri çatdırma həm də yazılı nitqdə aiddir.

Adamlar bir-biri ilə görüşdükdə bir qayda olaraq aşağıdakı sözlərdən istifadə edirlər: ***salam***, ***sabahınız xeyir***, ***axşamınız xeyir***, ***hər vaxtınız xeyir***, ***salaməleyküm***, ***kefiniz necədir***, ***necəsiz*** və s.

Bütün bu sözlər başqalarına hörmət, diqqət əlamətidir. Əgər birisi tanışını gördükdə belə sözlərdən birini işlətmərsə, deməli, ona laqeydlik göstərir, ona diqqətsiz olur. Elə buna görə də çox zaman ondan inciyirlər, hətta küsürlər.

Bu sözlər məqamında işlədilməlidir. İstər tək bir adama müraciətdə olsun, istərsə də bir necə adama, auditoriyaya olsun, konkret şəraitdə hansı sözü işlətmək barədə düşünmək lazımdır. Hansı söz xoş təəsürat yaradırsa o söz işlədilməlidir. Məsələn, möminlərlə rastlaşdıqda ***salaməleyküm*** sözünün işlədilməsi məsləhətdir .Bəzi yerlərdə isə bəzən bu sözü işlətmək yaxşı təəsürat yaratmır. Məktəblərin birində müəllimlər uşaqlarla ***sabahınız xeyir***, yaxud ***salam*** deyə görüşürdülər. Buraya yeni işlətməyi gəlmiş gənc müəllim sinfə daxil olub uşaqlara ***salaməleyküm*** dedi. O, həm sözü təhrif etdi, həm də qəribə bir intonasiya ilə dedi. Buna görə də şagirdlər onu yaxşı qarşılamadı. Bəzisi heç cavab vermədi, bəziləri isə güldü.

Başqalarına necə müraciət etmək nitq mədəniyyətində xüsusi yer tutur. Müraciətin özünəməxsus məqamları var: şəxsin yaşı, cinsi, vəzifəsi, ictimai mövqeyi, habelə müraciət olunan yer (ev, tədris prosesi, idarə, kücə, iclas və s.), müraciət edənlə müraciət olunanın münasibəti (qohumluq, dostluq, rəsmi və s . münasibətlər) və sairə.

Eyni məzmunlu müraciəti müxtəlif formalarda ifadə etmək olar. Məsələn, səviyyəsindən asılı olaraq adamları ***kitabi ver*** məzmununu müxtəlif şəkildə deyirlər: *kitabı ver, zəhmət olmasa kitabı ver, xahiş edirəm kitabı ver, oğlum, kitabı ver, o kitabı mənə verə bilərsənmi* və s. Zaman keçdikçə müraciət formalarında dəyişikliklər olur. Məsələn, kişilərə müraciət formaları dövrdən asılı olaraq dəyişmişdir. Sovet hakimiyyəti qurulana qədər ***mirzə***, ***ağa*** və ***bəy*** sözləri geniş işlənmişdir və illər keçdikçə onlar dəbdən düşmüşdür. Son zamanlar isə onlar yenidən dirçəldirir. Sovet dövründə *yoldaş* sözü geniş işlənirdi. Azərbaycan müstəqilik qazandıqdan sonra bu söz, demək olar, işlənmir.

1990-cı illərdə *bəy* sözü geniş işlənirdi. O zaman Xalq Cəbhəsinin nümayəndələri hakimiyyət başında idilər. Bu söz əsasən onların təşəbbüsü və vasitəsi ilə yayılmışdı. Lakin onlar özlərini hörmətdən saldıqdan sonra *bəy* sözü də hörmətdən düşdü demək olar, işlənməməyə başladı . İndi nadir hallarda işlənir.

Müəyyən hallarda *vətəndaş* sözündən də istifadə olunur. Rəsmi vəzifə tutanlar, məhkəmə prosesində hakimlər adamlara belə müraciət edirlər. Yaxud küçədə, nəqliyyatda adamlar tanımadıqlarını bəzən *vətəndaş* deyə cağırırlar. Kişilərə müraciət formaları olan sözlər bir sıra hallarda adlarla yanaşı işlənir. Əhməd bəy, Fuad bəy, canab İsmayıllov, cənab Köçərli və s. Hazırda kişilər arasında ən çox *müəllim*, *cənab* sözlərindən istifadə olunur. Bunlar da məqama görə işlədilir. Hər adama, məsələn fəhləyə, bağbana, baytara *müəllim* deyə müraciət etmək məqbul deyildir. Müraciət olunanın peşəsindən asılı olaraq da xüsusi müraciət sözləri işlədilir. Məsələn, müəlimlərə müraciətlə deyirlər: ***Akif müəllim***, həkimə müraciətlə ***doktor Akif***, yaxud ***Akif həkim*** və s. deyə müraciət olunur.

Kişilərə müraciətdə qohumluq əlaqələri də rol oynayır. Əmiyə *Rauf əmi*, yaxud *əmi*, dayıya *Rauf dayı*, yaxud *dayı* deyə müraciət edirlər. Bunu da qeyd etmək lazımdır ki, əmi və dayı sözləri ümumi münasibətdə də işlənilir. Məsələn, bir nəfər özündən yaşlı adama *əmi*, yaxud *dayı* deyə müraciət edir.

Qadınlara müraciət forması olaraq *xanım* işlədilir. Sovet dövründə bu müraciət forması, demək olar, qadağan olunmuşdu. Çünki əvvəlki dövrlərdə varlı və çox nüfuzlu adamların – mülkədərin, xanın, bəyin arvadına ***xanım*** deyərmişlər. Sonralar bu söz əvvəlki mənasından uzaqlaşmış, hörmət bildirən, müraciət olunanın şəxsiyyətini ucaldan söz kimi işlədilmiş. İndi də həmin məzmunda işlədilir. Qadınlarda müraciətdə qohumluq bildirən sözlər də işlədilir. *Xala, bibi, ana, nənə* və s. Bu

---

[20] Fillogiya üzrə fəlsəfə doktoru, müəllim

[21] ADİU, "Azərbaycan dili" kafedrası b\m

sözlərdən təkcə qohumlar arasında deyil, ümumi müraciət formaları kimi də istifadə olunur. Yəni adamlar özündən yaşlı qadınlara da xala, bibi, nənə , bəzən ana sözləri ilə müraciət edirlər.

Həm kişilərə, həm də qadınlara ümumi müraciət formaları da var. *Sən* və *siz* sözləri buna misal ola bilər. Bir qayda olaraq rəsmiyyət və ehtiram, hörmət məqamlarında siz sözu işlədilir. Hələ Xl əsrdə Mahmud Kaşqarlı yazırdı ki, türklər özlərindən yaşca və vəzifəcə kiçiklərə *sən*, böyüklərə *siz* deyirlər.

Aşağıdakı hallarda siz müraciət formasının işlədilməsi məqbul deyil: Ailə üzvləri arasında, dost yaxud yoldaşlar arasında, müəllimin şagirdlərə müraciətində.

Müraciət zamanı əzizləmə, həddən artıq hörmət bildirmə mənasında da bir sıra sözlər işlədilir. Məsələn, çox hörmət olunan həm yaşıda *qardaşım*, yaxud *mənim qardaşım* deyə müraciət edirlər. Yaxud, yaşlı adamlar özlərindən kiçiklərə *oğlum, balam, əzizim, qızım* və s. deyə müraciət edirlər.

Adamların bir- birinə müraciət sözləri çox zaman sonra bildirilən fikir üçün bir qiriş xarakteri daşıyır. Bunun məzmunu müxtəlif ola bilər. Adamlar arsında sevinc, şadlıq, yaxud kədər, gəmginlik məzmunlu fikir insan psixologiyasına güclü təsir göstərir . Buna görə də şad və pis məzmunlu xəbərləri başqasına bildirdikdə son dərəcə ehtiyatlı və həsas olmalı, sözləri diqqətlə seçməli və dinləyicinin psixoloji əhvalını nəzərə almaq lazımdır. Həm şad, həm də pis xəbərləri qəflətən, sərt sözlərlə bildirmək məsləhət deyil. Həyatda belə hallar olmuşdur ki, qəfil şad və ya pis xəbərdən şəkər xəstəliyinə tutulmuşlar, hətta vəfat etmişlər. Buna görə də həmin xəbərləri bildirməkdən əvvəl dinləyicini, yaxud müraciət olunanı müəyyən sözlərlə psixoloji cəhətdən hazırlamaq lazımdır. Televiziya verilişlərindən birində müxbir müharibənin od-alovundan çıxmış, Mehdi Hüseynzadə ilə birlikdə ağır əsirlik həyatı keçirmiş rəsam Cabbar Quliyevdən yaşının çox olmasına baxmayaraq çox gümrah qalmasının səbəblərini soruşduqda o cavab vermişdir ki, bunun səbəblərindən biri, bəlkə də birincisi həyat yoldaşımdır. O heç vaxt mənə bəd xəbərləri qəflətən xəbər vermir. Yaxın adamlarımdan biri vəfat etmişdi. Bundan xəbərim yox idi . Mən evə gələndə həyat yoldaşım məni gülər üzlə qarşıladı. Xörək gətirdi. Yeməkdən sonra dedi ki, gəlsənə filankəs gilə gedək. Dedim, xeyir ola. Dedi ki , deyirlər xəstələnib. Sonra asta-asta məni başa saldı ki, həmin adam vəfat edibdir. Beləliklə, mən heç bir psixoloji stress keçirmədim.

Şad və pis xəbərləri bildirməyin təsiri haqqında maraqlı bir hekayət var. Padşah yuxuda görür ki, bütün dişləri tökülüb, yalnız biri qalıb. Padşah yuxuyozanı çağırıb yuxusunu söyləyir. Yuxuyozan deyir ki, padşah sağ olsun, bu o deməkdir ki, bütün qohumların öləcək sən tək qalacaqsan. Padşah onun boynunu vurdurur. Baqa bir yuxuyozanı cağırır. O isə deyir ki, padşah sağ olsun, sən gözəl bir yuxu görübsən. Bu o deməkdir ki, sən çox uzun ömür sürəcəksək və bütün qohumlarından çox yaşayacaqsan. Padşah ona qiymətli ənam verir .

Nitq etikasının vacib məsələlərindən biri də başqasını səbrlə dinləməyi bacarmaqdır. Başqasının nitqini yersiz replikalarda kəsmək, ona diqqətlə qulaq asmamaq mədəniyyətsizlikdir. Əlbəttə, zəruri hallarda başqasının sözünü kəsmək olar. Lakin bu mədəni qaydada edilməlidir. Aşağıdakı hallarda danışanın nitqinə müdaxilə etmək mümkündür. Danışan bəhs etdiyi məsələdən çox uzaqlaşdıqda, eyni fikri yersiz olaraq dönə-dönə təkrar etdikdə, yaxud danışanı ruhlandırmaq , onun nitqini qüvvətləndirmək isdədikdə. Birinci halda kobud bir şəkildə *düz demirsən, çərənləmə, bir şeyi bilmirsən, danışma, vaxtımızı alma* və s. kimi ifadələrdən istifadə etmək olmaz. Bunun əvəzinə *bağışlayın, siz mətləbdən uzaq düşürsüz, üzr istəyirəm , bu fikri indicə dediniz, başqa məsələyə keçin* və s . sözləri işlətmək olar. İkinci halda *doğrudur, bu yenilikdir, halal olsun* və sair kimi sözlərdən istifadə etmək mümkündür. Ola bilər ki, başqası danışan zaman onun dinləyən öz fikrini dərhəl bildirmək qərarına gəlsin, buna zəruriyyət hiss etmin. Belə məqamda da *bağışlayın, sözünüzü oğlunun toyunda kəsim* kimi ifadələrdən istifadə etməlidir ki, həmsöhbətinin xətrinə dəyməsin.

Şəraitdən, məkandan asılı olaraq nitq etiketləri müxtəlif cür ola bilər. İctimai yerlərdən kənarda bir-birinə yaxın adamlar arsında uca tonla danışmaq, ərkyana sözlər (bu bəzən kobud məzmunda olsa da) söyləmək mümkündür. Lakin ictimai yerlərdə, yəni avtobusda, iclasda, toy və yas mərasimlərində və s. yerlərdə iki nəfər arsında ərkyana deyilən sözlərdən istifadə etmək , uca tonla danışmaq qəbahətdir.

Bəziləri digəri ilə danışdıqda özünü ondan üstün tutur, daha ağıllı görünmək üçün yalanlar söyləyir, həmsöhbətinə danışmağa imkan vermir. Halbuki mədəni adam özünü müsahibinə bərabər tutmalı, hətta bəzən təvazokarlıq edərək qarşıdakının ondan üstün olduğunu hiss etməlidir . Bu onun hörmətini artırar.

Adamların söhbətində xoşa gəlməyən cəhətlərdən biri qiybət etməkdir. Söhbətdə iştirak etməyənlər haqqında, xüsusilə onun mənfi cəhətləri barədə danışmaq mədəniyyətdizlikdir.

Nitq etikasında intonasiyanın da böyük rolu vardır. Hər bir söz onun deyiliş intonasiyasından asılı olaraq müsahibə həm xoş, həm də pis təsir bağışlaya bilər. Ünsiyyətin tonu insanın xarakterindən , ümumi mədəniyyətindən çox asılıdır. Elə adam var ki, ucadan danışmağa adət edibdir. Elə adam da var ki, səsi güclə eşidilir. Başqaları ilə ünsiyyətdə olarkən "anadangəlmə" intonasiya xüsusiyətinin əsiri olmamalı, konkret danışıq məqamına, şəraitinə uyğun intonasiya seçilməlidir. Bu intonasiya bir qayda olaraq diqqətli, hörməti ifadə etməlidir. *Salam* sözünə intonasiya ilə bir neçə məzmun vermək olar. Əgər çoxdan bəri görmədiyin adamla görüşdən sevinc hissini, ona məhəbbəti bildirmək istəyirsənsə bu zaman həmin söz xoşagəln bir tembrlə və *salam* sözündəki ikinci *a* səsi uzadılaraq tələffüz edilir. Əgər bu sözlə görüşdüyün adamdan xoşun gəlmədiyini bildirmək istəyirsənsə bu zaman həmin söz kobud və quru tembrlə və sözdəki səslər qısa tələffüz olunur .

Nitq etikasında mimika və jestlər, yəni üz ifadələri və əl-qol hərəkətləri də müəyyən rol oynayır. Bunlar, demək olar, nitqi tamamlayır. Onların vasitəsilə müsahibə hörmət və məhəbbəti, yaxud laqeydliyi və nifrəti ifadə etmək mümkündür. Bunlar həm də ünsiyyəti gücləndirir, ona emosional çalar verir .

Mimika və jestlər konkret məqama uyğun olmalıdır. Əgər üz -gözünü turşudaraq başqasına müraciət edirsənsə, yaxud belə vəziyyətdə onun salamını alırsansa bununla ona soyuq münasibətini, laqeydliyini ifadə etmiş olursan. Əgər ünsiyyətdə gülərüzlük göstərirsənsə, bu müsahibinə hörməti ifadə edir və onda xoş təəsurat yaradır. Jestlər nitqi gücləndirməklə bərabər auditoriyanı ələ almaq, onu idarə etmək, nəzarətdə saxlamaq üçün təsirli vasitələrdəndir. Bir dəfə natiq auditoriyaya daxil olarkən səs-küy olur, ağız deyəni qulaq eşitmir. Natiq sözlə nə qədər çalışırsa sakitlik yarada bilmir, onun dediklərinə heç kəs qulaq asmır. Bu zaman natiq əl-qol ataraq guya danışır, əslində isə heç nə demir. Bu vaxt auditoriyadakılar bir-birini sakitləşdirərək natiqin nə demək isdədiyini eşidmək isdiyirlər. Auditoriya sakitləşdikdən sonra natiq öz sözünə başlıyır .

ƏDƏBİYYAT

1. Abdullayev N., Məmmədov Z. Müəllimin nitq mədəniyyəti. Bakı, 2001
2. AbdullayevA. Nitq mədəniyyəti və natiqlik məharəti haqqında. Bakı, 1968
3. Azərbaycan nitq mədəniyyəti problemləri. Bakı, 1988
4. Dil mədəniyyəti (məcmuə). Bakı, 1972, 1974, 1979, 1985
5. K. Əliyev . Nitq mədəniyyəti və üslubiyyatın əsasları. Bakı, 2001
6. Nitq mədəniyyəti məsələləri . Bakı, 1969, 1985, 1992

Açar sözlər: etika, nitq mədəniyyəti, yazılı nitq, şifahi nitq, jestikulyasiya

Key words: ethics, speech culture, written speech, oral speech, gesticulation

Ключевые слова: этика, культура речи, письменная речь, устная речь, жестикуляция

SUMMARY

Intonation also plays a big role in speech ethics. Depending on the intonation of each word, the interview can have both a good and a bad effect. The tone of communication depends a lot on a person's character and general culture. There are people who are used to speaking loudly. There are people whose voices are barely audible. When communicating with others, one should not be a prisoner of the "innate" intonation feature, one should choose the intonation suitable for the specific moment of conversation and the circumstances. As a rule, this intonation should express attention and respect.

Резюме

Интонация также играет большую роль в речевой этике. В зависимости от интонации каждого слова интервью может иметь как хороший, так и плохой эффект. Тон общения во многом зависит от характера человека и общей культуры: есть люди, которые привыкли говорить громко, есть люди, голоса которых еле слышны. При общении с окружающими нельзя быть пленником «врожденной» интонационной особенности, следует выбирать интонацию, подходящую к конкретному моменту разговора и обстоятельствам. Как правило, эта интонация должна выражать внимание и уважение.

Rəyçi: Filologiya üzrə fəlsəfə doktoru, dosent Rəfiq Cəfərov

Günay Qəhrəman qızı Məhərrəmova, Züleyxa Hafiz qızı Zeynalova[22]

DÜNYA DİLLƏRİNİN TƏSNİFATI VƏ BU TƏSNİFATDA İNGİLİS DİLİNİN ROLU VƏ ƏHƏMİYYƏTİ

Giriş. İnsan düşünen və danişan varlıq kimi formalaşmağa başladığı dövrdən dil də yaranmağa başlamışdır. Dilin yaranması hissin və insan şüurunun inkişafi gedişində baş vermiş qanunauyğun hadisədir.qeyd etmək lazımdır ki, əvvəlcə konkret əşya və onların əlamətlərini göstərən sözlər yaranır, sonra isə səslər ümumi anlayışlar, məfhumlar yaranır. Dil onun daşıyıcısı olan insanlarla bərabər daim inkişafdadır. "Dil ayrıca bir xalq, ayrıca bir milləti bütün bəşəriyyətlə birləşdirir. Millət də, bəşəriyyət də dilin təzahüründə öz ifadələrini tapır".

Dil dedikdə səslənən bir hadisə nəzərdə tutulur. Bu hadisə, yəni dil danışılır, qulaq vasitəsilə eşidilir. Hər bir dil cüumlələrdən, cümlələr isə sözlərdən ibarətdir. Sözlərin maddi qabığını isə danışıq səsləri təşkil edir. Dil cəmiyyət daxilində ən vacib ünsiyyət vasitəsi olmaqla yanaşı, insanların düşünmə vasitəsi, təfəkkürün ifadə olunma alətidir. İnsanların dilə olan tələbatı, demək olar ki, hər şeydən qüvvətlidir. Cəmiyyət üzvlərindən bircə gün belə dilə müraciət etməyən, sözlərlə fikirləşməyən və ya dinib danışmayan adama rast gəlmək qeyri-mümkündür. Axı insan daim düşünmək, öz arzu və istəklərini başqalarına çatdırmaq istəyir. Dilin istifadə dairəsi çox əhatəlidir. İnsan yaşadıqca onun dilə olan tələbatı, gələcəkdə yenə də qüvvətli olacaqdır.

Ana dili insan şəxsiyyətinin inkişafının əsasını təşkil edir. Yəni hər bir şəxs ömrünün axırınadək dilinə arxalanır. Yer üzərindəki dünya dillərinin sayı 5000-7000 arasında dəyişir. Amma biz bu sayı dəqiq olaraq qəbul edə bilmərik. Çünki yer üzərində çoxlu sayda coğrafi areallar vardır ki, oradakı dillərin sayı da bu areallardan asılı olaraq dəyişir. Hər bir dilin yaşaması üçün ən azı onun 100-200 nəfər daşıyıcısı olmalıdır. YUNESKO ekspertlərinin fikrincə, gələn əsrədək dünya dillərinin yarısının itib-batacağı gözlənilir. Çünki onlardan danışıq dili kimi istifadə olunmur. Yer üzərində 400-dən artıq dil vardır ki, zaman keçdikcə onlar yox olub gedir. Yalnız müəyyən yaşlı əhali bu dillərdə ünsiyyət yaradır. Bunlardan bəzilərinə aşağıdakıları aid etmək olar:

"1. Afrikada **bikia, qoundo, elmolo** dilləri.
2. Cənubi Amerikada **tehulçe,itonama** dilləri.
3. Şimali Amerikada **kaquila, çinuk,kansa** dilləri.
4. Rusiyada **kerek, udeqe** dilləri.
5. Avstraliyada **alaua** dili (http//www.teach-learn.narod.ru/languages).

Məsələn, bu dillərdən **bikia** dilində yalnız 1 nəfər, **qoundo** dilində 30, **çinuk** dilində 12, sonuncu, **alaua** dilində isə təqribən 20 nəfər danışır.

Dünya dillərinin sayı kimi, dillərin təsnifatına da dəqiq, biryönümlü yanaşma mövcud deyildir. Əsasən dünya dilləri morfoloji quruluşları və qohumluluğuna görə təsnif edilir. Bunlardan birincisi dillərin tipoloji təsnifi, ikincisi isə geneoloji təsnifat adlandırılır. Çox zəngin və müxtəlif tədqiqatların olmasına baxmayaraq, dillərin qrammatik quruluşa görə təsnifatda ənənəvi morfoloji bölgü öz gücünü hələ də saxlamaqdadır. " Hazırda dünya dilçilik elmində dillərin tipoloji təsnifinə maraq artmışdır. İndi tipologiya hər şeydən əvvəl, dəqiq nəzəri və təsviri tədqiqatlara möhtacdır. Həmin bölgüyə əsasən dünyada mövcud olan bütün dillər dörd müxtəlif qrupa ayrılır: 1. Kök dillər. 2. Aqlütinativ dillər, 3. Flektiv dillər. 4. İnkorporativ dillər.

Dillərin morfoloji quruluşca üçüncü tipini flektiv dillər təşkil edir. "Onlara **flekləşdirən, üzvi, formal, fuziyalı, insirafi** dillər də deyilir". Belə dillərdə sözün dəyişməsi isə onun sonundakı şəkilçinin və ümumiyyəytlə, sözün səs cildinin dəyişməsi ilə olur. Belə dəyişmə **fleksiya** adlandırılır və iki yerə: daxili və xarici fleksiyaya ayrılır. Bu qrup dillərə ərəb, ingilis, rus və s. dilləri aid etmək olar. Flektiv dillərdən biri olan ingilis dilində də daxili fleksiyaya rast gəlinir. Məsələn, qaydasiz fellərin keçmiş və feli sifət 2 forması: to write, wrote, written, və ya bəzi qaydasiz isimlərdə cəm formasının düzəlməsi: man-men, goose- geese və s.

Əsas hissə. Yuxarıda haqqında danışdığımız dünya dillərinin öz morfoloji quruluşlarına əsasən tipoloji təsnifatı əks olunsa da, dilçilikdə dillərin geneloji təsnifatına daha da geniş yer ayrılır. Dünya dillərinin qohumluğa görə qruplaşdırılması tarixi başqa təsnifat növlərinə nisbətən daha qədimdir. Dunya dilləri 23 dil ailəsinə bölünür. Hər bir dil ailəsi özü də qrup və yarımqruplara bölünür. Dil ailələrini bir- birinə birləşdirən ümumi qrammatik, leksik və fonetik eynilikdir. Bu təsnifat zamanı dillərin arasındakı qohumluq əlaqələri və bağlantılarının dərəcəsi müəyyən edilir. Dil ailələri içərisində Hind-Avropa dil ailəsi dillərin sayı, tədqiq olunması və zənginliyinə görə ən böyük dil ailəsi hesab edilir.

Dünya dilləri içərisində **ingilis dilinin** rolu danılmazdır. Demək olar ki, hər bir təhsilli şəxs bu dilin sirlərinə yiyələnməyə çalışır. Məhz yaşadığımız əsrdə ingilis dili yüksək karyera qazanmağın əsas açarlarından birinə çevrilib. Hind-Avropa dillərinin ən böyük qruplarından biri olan german qrupunun qərbi german yarımqrupuna daxil olan ingilis dili daha çox "biznes dili", "beynəlxalq ünsiyyət dili", "turizm dili" kimi də xarakterizə edilir. Əslində də belə olmalıdır, çünki dil ünsiyyət vasitəsi olaraq insan fəaliyyətinin bütün sahələrindən ona lazımdır. Əgər dil insan fəaliiyətinin müxtəlif sahələrində əmələ gələn bu və ya digər yeniliyə əks etdirə bilməsə,ünsiyyət vasitəsi keyfiyyətini itirmiş olar. Təqribən dünyanın 59 dövlətində o rəsmi olaraq dövlət dili kimi qəbul edilir. 1 milyarda yaxın insan isə onu ikinci dili kimi öyrənir. Ərazisində ingilis dilinin rəsmilik statusunu qazanan dövlətlərə, İngiltərə, İrlandiya, Hindistan, Kanada,Filippin və s.aid etmək olar.

[22] Azərbaycan Dövlət Dəniz Akademiyası "İngilis dili" kafedrasının baş müəllimləri

Yayılma arealına görə ən son 2014- cü il göstəricilərinə görə ingilis dili 3-cü yeri tutur. Bu siyahıda ilk yeri tutan çin dilinin daşıyıcıları olan, ABŞ əhalisinin sayından daha çox olan 300 milyona yaxın çinli ingilis dilini öyrenir. Bu siyahıya görə ingilis dili 335 milyon nəfər üçün doğma hesab edilir. 101 ölkədə bu dildən istifadə edilir, 55,5% veb saytlar bu dildə istifadəçilərin xidmətinə verilir. Yuxarıdakı siyahıda ilk yeri çin dili tutsa da, hələ də bildiyimiz kimi bütün dünyada ingilis dilinin beynəlxalq dil kimi qəbul edilməsi heç bir şübhə doğurmur. Amma məntiqə görə hər şey əksinə olamlı idi. Belə ki, əgər yer kürəsindəki əhalinin əksəriyyətinin danışdığı dildə, həmçinin "dünya fabriki" də danışırsa, o zaman bu dil beynəlxalq dil hesab edilmelidir. Əgər yaxın keçmişdə bu dil ingilis dili idisə də, artıq XXI əsrdə çin dili "dünya emalatxanasının dili" dir. Belə ki, bütün yer kürəsində istehsal edilən əhəmiyyətli və daha az əhəmiyyətli məhsullar bu dövlətdə istehsal edilir.

İngilis dilinin tarixi İngiltərənin tarixi ilə sıx sürətdə bağlıdır. Belə ki, romalılar Britaniyanı tərk edəndə özləri ilə bərabər latın dilini də apardılar. Adanın ilk sakinləri **britlər kelt** dillərindən istifadə etməyi davam etdirirdilər. 449- cu ildə adanı işğal edən german tayfalarından olan **anqlar, sakslar və yutlar** aşağı german dillərinin əsasında yaranan dialektlərdə danışırdılar. Beləliklə həm yerli, həm də işğalçı tayfaların dilləri Hind-Avropa dillərinə aid olsa da, brittlərin dili bu dil ailəsinin german budağı deyil, kelt budağına aid idi. Bununla da hal-hazırda yalnız müəyyən qədər kelt sözlərinin əlavə olunduğu işğalçı tayfaların dili **anqlosaks dili** adlandırılır. Məlum olduğu kimi tayfa və xalqların parçalanmaları və ya qarışmaları, millətlərin əmələ gəlməsi prosesində, qəbilə dillərindən tayfa dillərinə,tayfa dillərindən xalq dillərinə, xalq dillərindən milli dillərə doğru inkişaf prosesində də dilin hamı üçün ünsiyyət xidməti əsasən qalmış və bu dövrlərdə bütün nəsillərə dil bu və ya digər şəkildə xidmət etmişdir.

Müasir diplomatiyada ingilis dilinin rolu danılmazdır. Artıq bildiyimiz kimi daha əvvələr diplomatiya dili **fransız dili** hesab edilirdi. Hələ bir əsr bundan öncə bu dil Birləşmiş Millətlər Təşkilatında digər başqa dillərlə yanaşı eyni statusa malik dünya dillərindən biri hesab edilirdi. Hal-hazırda BMT katibliyinin işgüzar dilləri ingilis və fransız dilləri hesab edilir və ingilis dili Milli Təhlükəsizlik Şurasının altı dilindən biri hesab edilir.Eləcə də ingilis dili bundan başqa **YUNESKO, ATƏT, NATO** və s. beynəlxalq təşkilatlarının da rəsmi dili hesab edilir. Hər bir ingilis dilini öyrənən insana bu dili niyə "beynəlxalq ünsiyyət statusu alması" maraqlıdır. Bu dilin "beynəlxalq ünsiyyət statusu" alması son yüz ilə təsadüf edir. Hələ Şekspirin dövründə ingilis dili yalnız 6 milyon insanın danışdığı "əyalət dili" idi. Axı beynəlxalq statuslu dil ərəb, rus və ya fransız və s. dillərindən biri də ola bilərdi. Çox əsr bundan qabaq İngiltərə zəbt etdiyi ölkələrdə- Britaniya imperiyasının koloniyalarında ingilis dilini yaymışdı. Bununla yanaşı İngiltərədən olan mühacirlər bu maraqlı dili özləriylə bərabər Şimali Amerikaya və dünyanın digər hissələrinə aparmışdılar. İqtisadiyyat və ticarətin qloballaşması, həmçinin "amerikanlaşma" Amerikan ingilis dilinin yayılmasına şərait yaratdı.

İngilis dili informasiya əsrinin dilidir. 80 %-dən artıq informasiya milyonlarla komputerlərdə ingilis dilində saxlanılır. Artıq bildiyimiz kimi əksər komputer proqramlarının təlimatları, proqramların özləri də ingilis dilində olur. Beş əsas teleşirkətlər**, CBS, NBC, ABC, BBC və CBC** öz potensial izləyici toplusunu, yəni 500 milyona qədər insanı, yalnız ingilis dilində olan yayımına görə əldə saxlaya bilər. İngilis dili müasir insan üçün təkcə mədəniyyət nöqteyi- nəzərindən deyil, həm də biznes-faktoru kimi lazım olan güclü alətdir. Dünyada aparılan biznesin 80%- dən çoxu, eləcə də bir çox tanınmış universitetlərdə tədris ingilis dilində aparılır. Təəccüblü deyil ki, məhz buna görə hər il milyonlarla insan ingilis dilini öyrənir və bu dilə doğma dili olmasa da ən azı da ikinci ana dili kimi yiyələnməyə çalışır.

Dil, xüsusən onun lüğət tərkibi insanın istehsal fəaliyyəti ilə əlaqədar surətdə daima dəyişməli olur, çünki dildən istifadə edənlərin inkişaf tələbatına cavab verməlidir. Həmçinin ingilis dili artıq hər bir millətin öz dili ilə assimlyasiya olunmuşdur. Belə ki, hər birimizin tez-tez istifadə etdiyi "komputer", "biznes", "prezentasiya", "imic", "internet" sözləri insanların irqi, dinindən asılı olmayaraq dünyanın əksər yerlərində eyni cür səslənir

Beləliklə, bu dil hər addımımızda bizimlədir. Bu bizim hər gün yanından keçərək işə tələsdiyimiz bir mağazanın adı, iş masamızın üstündəki ingilis dilində çap etdirilir. Bütün dünyada dövri mətbuatın yarıdan çoxu bu dildə nəşr etdirilir. Həmçinin bu dil XXI əsrin tibb və kosmik texnologiyası dili hesab edilir. İngilis dilinin "beynəlxalq biznes dili" adlandırılması, hal-hazırda internet əsrindəki iş sövdələşmələrinin əsasən bu dildə aparılmasından irəli gəlir. Həmçinin bunu bir faktla da sübut etmək olar ki, əksər sənaye məhsullarının istehsal yeri və göstəriciləri ingilis dilində göstərilir. İngilis dilini eləcə də çoxmillətli korporasiyalardan "Nissan", "Toyota", "Tetrapark" və digər beynəlxalq banklar özlərinə iş dili olaraq seçmişlər.

Artıq bildiyimiz kimi müasir ingilis dilinin özünəməxsus variantları vardır. Bu variantlara ingilis dilinin Avstraliya variantını, Amerika variantını, Britaniya variantını, Kanada variantını, Sinqapur variantını, Pakistan variantını və s. misal göstərmək olar. Azərbaycanda əksər orta və ali məktəblərdə şagird və tələbələrə bu dilin Britaniya variantı tədris edilir. Ingilis dilini bu variantında analitik dilin əksər qrammatik qanunlarına həm danışıq, həm də yazılı nitqdə riayət olunur. Hərf birləşmələri və müəyyən fonetik dəyişmələri yeganə fonetik qanunlara tabedir.

İngilis dilində ilk və əvvəl olaraq Yeni Cənubi Uelsin ilk mühacirələrinin övladları danışırdı. Bu ilk nəsil uşaqlar bir dialekt yaratdı ki, hansı ki, daha sonralar bütün millətin dilinə çevrildi. Ümumiyyətlə, bu dilin Avstraliya variantındakı orfoqrafik qaydalar əksər hallarda İngiltərə variantı ilə eynilik təşkil edir. Yəni, belə ki, ilk variantda olduğu kimi burada da bəzi sözlərin sonundakı – re(centre), -our(harbour), -ise, -ize (recognize) sonluqlar özünü qoruyub saxlayır. Amma bu variantda Amerika variantında olduğu kimi bəzi sözlər üçün bu dildə qəbul olunduğu yeganə,real orfoepik qaydalar pozulur. Sanki ingilis dilinin Avstraliya variantının daşıyıcıları əksər sözləri özünüküləşdirilər".

İngilis dili ilə yer üzü əhalisinin ən çox hissəsinin danışdığı çin dili arasında fərq ilk növbədə ingilis dilinin daha sadə fonetikaya məxsus olmasında özünü göstərir. Eləcə də bu dil çin dili kimi mürəkkəb heroqliflərə məxsus deyildir.

Amerika variantında danışanlar amerikanlar da ingilis dilində özlərinin həyata olan optimistik baxışlarını möhkəmləndirməyə çalışırlar. Hər hansı amerikalı birbaşa fikirləşdiyini danışır. Başqa millətlərin daha çox sevdiyi dil incəlikləri, gizli və ya sətiraltı məna bu insanları özündən çıxara bilər. Məhz bu səbəbdən ingilis dilinin Amerika variantı dildə "amerikanizmlər" yaranmasına şərait yaradır. Amerikanizmlər özlərini qrammatika, söz ehtiyatı və orfoqrafiyada əks etdirir. Qrammatikada amerikanizmlər özlərini aşağıdakı hallarda göstərir:

1) Keçmiş qeyri- müəyyən zamanın indiki və keçmiş bitmiş zaman əvəzinə işlənməsi. Məsələn, He never thought about it.

2) İngilis dilinin Amerika variantında mürəkkəb cümlələrdə zamanların uzlaşmasına rast gəlinmir. Məsələn,I thought it is Tuesday today.

3) Cümlələrdə söz sırasında tez-tez zərflər feildən qabaq gəlir. Məsələn, I then asked for another appointment.

Lüğət tərkibində çoxlu sayda sözlər vardır ki, onlar arasında fərqlər özünü açıq-aydın göstərir. Belə sözlərə ən çox ümumişlək sözlər aid edilsə də, müxtəlif elm sahələrində, xüsusilə iqtisadiyyat elmində də belə sözlər az deyildir. İşgüzar sahədə çalışan tərcüməçilərin bu terminləri bilməsi zərurəti yaranır.

Artıq bildiyimiz kimi İngiltərə və Amerika Birləşmiş Ştatları dunyanın ən aparıcı dövlətləri olduqları üçün işgüzar və savadlı insanlar ingilis dilinin Britaniya və Amerika variantlarını öyrənməyə meyllidirlər. Eyni zamanda məhz bu iki variantı "müasir ticaret, iqtisadiyyat, incəsənət dili" adlandıra bilərik.

İngilis dilində bir çox iqtisadi terminlər də vardır ki, onlar əksər dünya dillərinə olduqları kimi keçmişdir. Belə terminlərə bunları aid etmək olar: agent - agent, auction – auksion, audit – audit, balance – balans, bank – bank və s.

Nəticə. Beləliklə, hazırki qlobal dünyanın daha çox danışılan və daha tələbatlı dili olan ingilis dili demək olar ki, həyatımızın bütün sferalarında hər addımbaşı bizimlədir. Gwnə başlarkən əlimizə aldığımız hər hansı bir ərzaq məhsulunun adı, geyimlərimizin müəyyən qismi üzərindəki yazı, hər gün üzərimizdə gəzdirdiyimiz mobil telefon və ya komputerlərin təlimatının əksəriyyətləri ingilis dilindədir. Respublikamızda təhsil alan şagird və tələbələrimiz artıq neçə onilliklərdir ki, təhsil ocaqlarında bu dilin sirlərinə yiyələnirlər. Dünya iqtisadi arenalarında, xarici şirkətlərlə aparılan danışıqların əksəriyyəti bu dildədir.Artıq bütün yuxarıda misal cəkdiyimiz faktlar ingilis dilinin dünya dilləri arasında nə qədər böyük nüfuza və statusa malik olmasını bir daha sübut edir. Bu dilin incəliklərinə yiyələnməyə çalışın, çünki o sizin karyera həyatınızda uğur açarınız ola bilər.

İstifadə olunmuş ədəbiyyat

1. Axundov A. Ümumi dilçilik Bakı: Şərq- Qərb, 2006
2. Babayev A. Dilçiliyə giriş. Bakı: Maarif, 2004
3. Rəcəbli Ə. Dilçilik tarixi. Bakı: Nurlan, 2007

Açar sözlər: ingilis dili, beynəlxalq dil, təsnifat, inkişaf, nitq

Ключевые слова: английский язык, международныйязык, классификация, развития, речь

Key words: English, language international, classification, development, discure

Классификация мировых языков и в этой классификации роль и значение английского языка

Резюме

В мире насчитывается несколько тысяч яэыков. Наиболее иэвестные справочники включают только современные (т.е.живые и недавно вымершие) яэыки. Семьёй яэыков считается генетическое яэыковое объединение как индоевропейские яэыки, то есть распавшееся примерно 6 -7 тыс. лет наэад. Германские яэыки - распространены на территории ряда стран Эападной Европы (Великобритания, Германия, Австрия, Нидерланды, Бельгия, Швейцария.

Classification of world languages and in this classification role and importance of english language

Summary

There are thousands of languages in the world. The most popular of them are modern, live and recently dead languages. Language families are considered genetic language union like Indo- Europen language disintegrating 6-7 thousand years ago. German languages are widely spread in the territory of some western European countries (Great Britain, Germany, Austria, Netherlands, Belgium and Switzerland).

Rəyçi: filologiya elmləri doktoru, dosent Yusif Süleymanov

Məhərrəmova Ülkər Akif qızı[23]

FRAZEOLOJİ VAHİDLƏR VƏ ONLARIN TƏRCÜMƏSİ

Dilçilər öz mədəniyyətlərinə xas olan təcrübəni müxtəlif yollarla şərh etməyə çalışırlar. Nəticə etibarı ilə frazeoloji vahidlərə münasibətdə tərcüməçinin üzləşdiyi böyük problem mədəni özəlliyə hörmətlə yanaşaraq əcnəbini bu dillə tanış etmək istəyini uzlaşdırmaqdır. Məqsəd, onların əsaslandığı mədəni obrazları məhv etmədən, dilin çalarlarını bu mədəniyyətlə tanış olmayan birinin istifadəsinə verməkdir. Frazeologiyanın tərcüməsində bəlkə də başqa növlərdən daha çox tərcüməçi mədəniyyətlər və dillər arasında əsl vasitəçiyə çevrilir. Və bu, şübhəsiz ki, 'çətin bir meyar'dır.

Dilin lüğət tərkibi təkcə sözlərlə deyil, həm də frazeoloji vahidlərlə zənginləşir. Frazeoloji vahidlər nitq prosesində dəyişə bilməyən söz qruplarıdır; dildə hazır vahidlər kimi mövcuddurlar. Tərcümə tarix boyu iki mədəniyyətin və dilin kəsişdiyi hər bir dövrdə əsas rol oynamışdır. Və hər dəfə bir mədəniyyət yazılı mətn hazırladıqda, tərcüməçilər bir mədəniyyətin savadlı üzvlərinin digərinin hazırladığı yazılı materiala sabit qalmasına imkan verən körpü rolunu oynayır.

Frazeologiya insanın milli şüurunun və mədəniyyətinin təcəssümü olur, eyni zamanda ünsiyyət vasitəsi və reallıq haqqında bilik kimi xidmət edir. Son onilliklərdəki xüsusi ədəbiyyatıntəhlili göstərir ki, dilçilərin əksəriyyəti dillərarası frazeolojiuyğunluqların/uyğunsuzluqların növlərinin müəyyənləşdirilməsində əsas meyar kimi semantik quruluşun, qrammatik (və ya sintaktik) təşkilin və komponent (leksema) strukturun üst-üstə düşməsini əsas meyar hesab edirlər.

Bəzi dilçilər atalar sözlərini və deyimləri xalqın nitqindən götürüldüyü və ağızdan-ağıza gəzərkən dəyişikliyə uğradığı üçün frazeoloji birliklər kateqoriyasına aid etmirlər. Amma hər halda onlar frazeoloji vahidlərdir, çünki birbaşa məna daşıyırlar, ancaq bəzən əks mənada ola bilər. Frazeoloji vahidlərlə bağlı bütün bu anlayışlar arasında frazeoloji birləşmələr ən çətin tərcümə olunur, çünki dəqiqlik azdır. Onların mənasını komponent elementlərinin mənalarından çıxarmaq olmaz. Hər bir dildə ana dilində danışanların öyrəşdiyi və ya fikrini başa düşmək üçün onların təriflərini etibarlı mənbələrdə axtardığı frazeoloji vahidlər kimi nümunələr var. Bunlardan bəzilərinin ekvivalenti var, bəzilərinin isə yoxdur və ingilis dilindən tərcümədə fərqli xüsusiyyətlər çox maraqlı görünür, ona görə ki, bəzilərinin söz-söz tərcüməsi ola bilər, bəzilərində isə ekvivalentlər və ya sadəcə izahat ola bilər.[3, s23]

Frazeologiyalar xalqın mədəni adətlərinin əks olunduğu qalereya kimi təsvir edilə bilər. Bu baxımdan, bu dil sahəsi təkcə ən rəngarəng deyil, həm də yəqin ki, lüğətin ən bərabərlik sahəsidir və öz resurslarını daha çox məşhur nitqin ən dərinliklərindən götürür.Bundan əlavə, sinonimlərin və antonimlərin öyrənilməsi ilə yanaşı, frazeologiya dilçilikdə ən ifadəli elmlərdən birini təmsil edir.Məhz ifadə zənginliyinə və heterojenliyinə görə frazeologiyanın sərhədlərinin hansı olduğunu müəyyən etmək çətin görünür.Frazeologiyanın tədqiq obyektinin məhdudlaşdırılması və vahid təsnifat sisteminin tapılması çətin məsələ kimi görünür (Gläser 1988, Mel'cuk 1988, Howarth 1998, Ruiz Gurillo 1997, Cowie 1998, Moon 1998, Corpas Pastor 2000).Əslində, dilçilərin (Fernando və Flavell, 1981, Gläser 1988, Corpas Pastor 2000) həm ümumi intizam, həm də onun öyrəndiyi elementlərə istinad etmək üçün istifadə etdikləri eyni terminoloji müxtəliflik onun qeyri-sabitliyini vurğulayır.Son əlli ildə frazeologiya üzrə tədqiqatların həcminin artmasına və nəticədə onun tədqiqat obyektini təşkil edən vahidlərin sərhədlərinin müəyyənləşdirilməsi ilə bağlı təkmilləşməyə baxmayaraq, meyarların hələ də çox müxtəlif olduğu görünür.Bu, bu mövzunun sistemli və elmi tədqiqinin konsolidasiyasına mane olur. [1, s 53-56]

Frazeologiya həm lüğətşünaslığa, həm də vahid məna ilə səciyyələnən sabit söz birləşmələrini, həm də sintaksisə, istinad ədəbiyyatına yaxın olan vasitəçi sahədir, çünki frazeoloji hadisələr müxtəlif növ sintaktik əlaqələrlə müəyyən edilir.Frazeoloji hadisələrin ifadə xarakterini nəzərə alaraq bunlar həm də stilistika ilə əlaqələndirilmişdir.Frazeoloji vahidləri təhlil edərək dilin üslub və funksional variantlarını fərqləndirmək imkanlarını nəzərə alaraq, o, funksional stilistikaya daha da yaxınlaşmışdır.

Anlayışları müxtəlif müəlliflər fərqli şəkildə müəyyənləşdirir, bəzən dəqiq bir tərif vermir və ya bir çox alimlərin ayırmağa üstünlük verdiyi bir neçə termini birləşdirir.Bununla belə, mövcud tədqiqatların böyük əksəriyyətinə daha yaxından müqayisəli baxmaq, adətən, frazeoloji tədqiqatlara aid edilən bir sıra parametrləri müəyyən etməyə imkan verir.Biz hesab edirik ki, bütövlükdə birgə baş verən hadisələrin, xüsusən də frazeologiyanın ciddi tərifi ən azı aşağıdakı altı parametrlə bağlı mövqe tutmalıdır.

- frazeologizmdə iştirak edən elementlərin xarakteri;
- frazeologizmdə iştirak edən elementlərin sayı;
- ifadənin frazeologizm hesab edilməzdən əvvəl nə qədər tətqiq edilməli olduğu;
- frazeologizmdə iştirak edən elementlər arasında yol verilən aralıq;
- cəlb olunan elementlərin leksik və sintaktik fəallıq dərəcəsi;
- tərifdə semantik vəhdət və semantik qeyri-kompozisiya/qeyri-proqnozlaşdırılmazlığın oynadığı rol.

Birinci meyara gəlincə, qəbul edəcəyimiz frazeologizmin tərifi ən geniş təsəvvür edilənlərdəndir. [1, s 98-100]

Biz frazeologizmi leksik elementin forma və ya lemmasının və hər hansı digər növ linqvistik elementin birgə təzahürü hesab edirik, məsələn:

İngilis alimi U.Vaynrayx iddia edir ki, idiom - deyim ən azı iki çoxmənalı tərkib hissəsini özündə birləşdirən frazeoloji vahiddir və subsenslərin qarşılıqlı kontekstual bölməsi mövcuddur.[5, s 18]

[23] Azərbaycan Dövlət Bədən Tərbiyəsi və İdman Akademiyası Aliyevau@rambler.ru

C.Ştraslerin deyimə verdiyi tərif belədir: "İdiom birdən çox leksemin birləşməsidir ki, mənası onun tərkib hissələrinin mənalarından törənmir və feldən əlavə zərf və ya ön sözdən ibarət deyildir". Fikirlərdə müxtəliflik olsa da, bütün dilçilər eyni fikirdədirlər ki, frazeoloji vahidlər və ya idiomlar, yəqin ki, "millətin adət-ənənələrini və təəssüratlarını, keçmiş tarixinə aid xatirələri, xalq mahnılarının hissələrini əks etdirən dilin lüğətinin ən mənzərəli, ən rəngarəng və ifadəli hissəsidir.Amma onları dildə mövcud olan başqa söz və birləşmələrdən fərqləndirmək lazımdır".[2, s 78-79]

R.S.Qinzburq da "frazeoloji vahidlər" anlayışını qəbul edir və onun verdiyi tərif belədir: "Frazeoloji vahidlər nitqdə sərbəst şəkildə düzələ bilməyən, lakin hazır vahidlər kimi çoxaldılan [..]motivsiz söz qruplarıdır. ." [3, s 121]

N.N.Amosova da öz növbəsində frazeoloji vahidləri sabit kontekstin vahidləri, yəni müəyyən leksik komponentlərin spesifik və dəyişməz ardıcıllığı və onlar arasında mövcud olan özünəməxsus semantik əlaqə ilə səciyyələnən kontekst kimi müəyyən edir.İdioma tərifimiz və təhlilimiz deyimlərin lüğətə daxil ediləcək bütün digər növ ifadələrlə bağlı öyrənilməsinə əsaslanır.Modelimizdəki idiom bütövlükdə metaforik ifadə funksiyasını yerinə yetirən iki və ya daha çox sözün birləşməsi kimi müəyyən edilir. Nəzərə almaq lazımdır ki, məcazlaşdırılan onun bir hissəsi deyil, bütün ifadəsidir.[6 ,s.141]

Müəllifin müşahidə etdiyi frazeoloji vahidlərin müxtəlif təsnifatlarının müqayisəli təhlilini nəzərə alaraq, A.V.Kuninin işləyib hazırladığı aşağıdakı təsnifatı ən müfəssəl təsnifat hesab etmək olar. O, mövcud təsnifatların əksəriyyətini tənqidi şəkildə araşdırmış və bu dil hadisələrinin daha dolğun təhlilinə əsaslanan frazeoloji vahidlərin öz təsnifatını işləyib hazırlamışdır. A.V.Kunin öz təsnifatında frazeologiyanın digər tədqiqatçılar tərəfindən vurğulanmayan elementlərini diqqətlə izləyir, ingilis dilinin inkişafını da nəzərə alır.A.V.Kuninin frazeoloji vahidlərin təsnifatı müxtəlif dillərə aid geniş nəzəri və praktiki materiallara əsaslandığından, bu məqalənin müəllifi bu təsnifatın digər dillərin frazeoloji sistemlərinə də şamil oluna biləcəyini düşünür.Vinoqradovun təsnifatına görə bütün frazeoloji vahidlər frazeoloji birləşmələrə, frazeoloji birliklərə və frazeoloji birləşmələrə bölünür.Frazeoloji birləşmə semantik cəhətdən bölünməyən frazeoloji vahiddir ki, məna heç vaxt onun tərkib hissələrinin mənalarına təsir etmir [4, s 44].Bu o deməkdir ki, frazeoloji birləşmələr birləşmənin ən yüksək mərhələsini təmsil edir.Komponentlərin mənası bütövün mənası, ifadəliliyi və emosional xüsusiyyətləri ilə tamamilə mənimsənilir.

Once in a blue moon - çox nadir hallarda;

To cry for the moon – qeyri-real tələb etmək;

Under the rose - sakitcə.

Bəzən frazeoloji birləşmələr dilçilərin daxili formanın tam itirilməsini başa düşdüyü idiomlar adlanır. İdiomların mənasını izah etmək mürəkkəb etimoloji problemdir (tit to tat "qisas almaq" deməkdir, lakin heç kim tit və tat sözlərinin mənasını izah edə bilməz). Frazeoloji birlik semantik cəhətdən bölünməyən frazeoloji vahiddir, bütün mənası onun tərkib hissələrinin mənaları ilə şərtlənir [4, s45].

Frazeologiyanın təşkil etdiyi hadisələrin müxtəlifliyi təsnifat cəhdlərini çətinləşdirir.Frazeologizmlərin müəyyən bir kateqoriyasını tanımaq üçün xarici işarələr qrupun forması, elementlərin sabit sırası, onları ayırmaq imkanlarının azaldılması, bu və ya digər elementin dəyişdirilməsinin qeyri-mümkünlüyü ilə əlaqədardırbütöv ansambl vahid bir sözə ekvivalent olan vahid düşüncə aktını, qrupa xas olan müəyyən sintaktik-semantik hadisələrin mövcudluğunu (müəyyən leksik, semantik və ya sintaktik arxaizmlərin, ellipsis və ya artıqlığın mövcudluğu) təcəssüm etdirir.

Beləliklə, yuxarıdakılarınəzərə alaraq qeyd etmək lazımdır ki, bu ifadələri hər hansı dilə tərcümə edərkən bütün komponenetlər nəzərə alınmalıdır.Eyni zamanda biz müşahidə etdik ki, idiomlar nadir hallarda hərfi tərcümə oluna bilir və onların tərcüməsi mənbə dildən deyimlərin semantik və üslub xüsusiyyətlərini ifadə etməyə qadir olan müvafiq ekvivalenti tapmaq deməkdir.İdiomların təkcə dil sisteminin bir hissəsi deyil, həm də mədəni çərçivədə mühüm və ifadəli komponent olduğunu göstərən bir neçə növ ekvivalentlik təqdim etdik.Bütün bu ekvivalentlik kateqoriyalarından frazeoloji lüğətlərdən, məqalələrdən və kitablardan çoxsaylı nümunələr gətirərək tam, qismən və sıfır ekvivalentliyin linqvistik konsepsiyasında tətqiqetmək lazımdır. Belə nəticəyə gəlirik ki, deyimlərin bir dildən digər dilə və əksinə dillərarası köçürülməsində frazeoloji vahidlərin xüsusi sintaktik və semantik xüsusiyyətlərinə baxmayaraq, müxtəlif ekvivalent qanunauyğunluqlara rast gəlmək olar və tərcümə zamanı buna diqqət yetirilməlidir.[6,s.30]

Ədəbiyyat

1. Coltun, Gheorghe, Spirescu, Monica, Aspecte ale frazeologismelor de origine biblica, in Language and Literature. European Landmarks of Identity, Pitesti, Editura Universitatii din Pitesti, 2009.
2. C. Shrtasler, Language as Discourse: Perspectives for Language Teaching, London and New York, Longman 1994.
3. Dejica, D. "Idiomatic expressions". In "Approaching the information universe for translation purposes: the atomistic perspective". In Romanian Journal of English Studies, 2010
4. Кунин А.В. Английская фразеология. (Теорет. курс.) М., «Высшая школа»,1970
5. **У. Вайнрайх**. ОДНОЯЗЫЧИЕ И МНОГОЯЗЫЧИЕ. (Новое в лингвистике. - Вып. 6. Языковые контакты. - М., 1972
6. Н. **Н. Амосова**. Основы английской фразеологии. Ленинград : Изд-во ЛГУ, 1963.

Açar sözlər: frazeoloji vahid, deyimlər, tədqiqat, leksik birləşmələr, lüğət tərkibi, sabit söz birləşmələri, sözlərin təsnifatı

Ключевые слова: фразеологизм, исследование, лексические сочетания, словарный состав, устойчивые словосочетания, классификация слов.

Keywords: phraseological unit, idiom, research, lexical combinations, vocabulary composition, stable word combinations, classification of words

Xülasə

Frazeoloji vahidlərin tərcüməsi müasir tərcüməçilik üçün aktualdır. Bir çox görkəmli mütəxəssislərin fikrincə, frazeoloji vahidlər leksik birləşmələrdir, mənası bütöv ifadə ilə müəyyən edilir. Frazeoloji vahidin ən fərqli xüsusiyyəti onun emosional ekspressivliyi və düşüncə ifadəsinin yığcamlığıdır. Çox vaxt frazeoloji vahidlər qəzet üslubunda fəaliyyət göstərir. Qeyd etmək lazımdır ki, frazeoloji vahidlər çox tez-tez "birlikdə ifadələr"ə çevrilir. Tərcümə prosesində mətndə frazeoloji vahidlərin müəyyənləşdirilməsi və ona ekvivalentin tapılması tərcüməçi üçün ən vacib mərhələdir. Frazeoloji vahidi tərcümə etmək üçün tərcüməçi frazeoloji lüğətlərdən istifadə etməlidir və tərcümə prosesində kontekst mühüm rol oynayır. Sonda qeyd etmək lazımdır ki, frazeoloji vahidlər müəyyən bir xalqın mədəniyyətini və milli mentalitetini əks etdirir. Bu səbəbdən frazeoloji vahidlərin tərcüməsi müasir tərcüməşünaslığın aktual məsələlərindən biridir. Frazeoloji vahidlər hər hansı bir dilin və ya mədəniyyətin tərkib hissəsidir və bu vahidləri bilmək və onlara uyğun şərh etmək bütöv ifadənin və ya bədii əsərin düzgün tərcüməsinə sübutdur.

Резюме

Перевод фразеологических единиц актуален для современного переводоведения. По мнению многих выдающихся специалистов, фразеологизмы представляют собой лексические сочетания, значение которых определяется целым выражением. Наиболее отличительной чертой фразеологизма является его эмоциональная выразительность и лаконичность выражения мысли. Довольно часто фразеологизмы функционируют в газетном стиле. Следует отметить, что фразеологизмы очень часто трансформируются в «словосочетания». Определение фразеологических единиц в тексте и умение найти им эквивалент в процессе перевода – важнейший этап для переводчика. Для того, чтобы перевести фразеологизм, переводчику необходимо пользоваться фразеологическими словарями, и контекст играет важную роль в процессе перевода. В заключение следует отметить, что фразеологизмы отражают культуру и национальный менталитет конкретного народа. По этой причине перевод фразеологизмов является одной из актуальных проблем современного переводоведения. Фразеологические единицы являются неотъемлемой частью любого языка или культуры, и знание этих единиц и их правильное толкование является свидетельством правильного перевода всего выражения или художественного произведения.

Summary

Translation of phraseological units is topical for the contemporary translatology nowadays. According to many outstanding specialists, phraseological units are lexical combinations, the meaning of which is detined by the whole expression. The most distinctive feature of phraseological unit is its emotional expressiveness and conciseness of thought expression. Fairly often, phraseological units are functioning in the newspaper style. It should be noted that phraseological units are very often transformed into "stock phrases". Defining phraseological units in the text and the ability to find an equivalent to it during the translation process is the most important stage for the translator. In order to translate a phraseological unit, the translator should use phraseological dictionaries and context plays an important role during the translation process. In conclusion it should be noted that phraseological units reflect culture and a national mentality of a definite nation. Due to this reason, translation of phraseological units is one of the topical issues for the contemporary translatology. Phraseological units are an integral part of any language or culture and knowing these units and appropriate interpretation of them is an evidence of appropriate translation of the whole expression or a work of art.

Dos. S.Abbasova

Маммадбайли Фираван Адиль-Герай[24]

КАТЕГОРИЯ ВИДА В АСПЕКТОЛОГИИ

Присущие глаголу грамматические признаки характеризовали эту часть речи и в древнерусском языке. Категория вида как важнейшая категория глагола, по-разному характеризуя действия (вѣсти – водить, сѣдѣть – садити), представляло несовершенный вид как нейтральную характеристику процесса в отношении времени его осуществления, а совершенный вид как окончание, начало или ограниченное действие (писать – написать, петь – запеть, прыгать – прыгнуть).

«Ко времени появление старейших славянских текстов видовую оппозицию глаголов следует считать вполне оформившееся», – отмечают историки языка [4, с. 274]. Все древнерусские глаголы можно охарактеризовать как относящиеся либо к несовершенному, либо к совершенному виду. Но в древнерусском языке вид и время выступали как автономные категории, функционирующее самостоятельно, в отличие от современного русского языка, в котором видовое значение неотделимо от временного.

В древнерусском языке вид является постоянной характеристикой глагольной основы. Основным средством образования видов была префиксация. С помощью приставок создавались многочисленные глагольные формы совершенного вида от бесприставочных глаголов несовершенного вида. Приставки изменяли лексическое значение глаголов совершенного вида: писати, дописати, переписати, подьписати. Не меняли лексическое значение глаголов грамматические суффиксы: переписати - переписывати.

В глагол как в часть речи обычно объединяют различные с точки зрения морфологических признаков словоформы. С одной стороны, это личные формы изъявительного наклонения, обладающее категориями вида, залога, времени, лица, числа в настоящем и будущем времени, с другой стороны – категориями вида, залога, времени, числа и рода в прошедшем времени и сослагательном наклонении.

В повелительном наклонении глагола имеет грамматические категории вида, залога, лица и числа. Причастие как форма глагола обладает грамматическими категориями вида, времени, залога, рода, числа и падежа, а у деепричастия и инфинитива глагола обнаруживаем только вид. Таким образом в системе глагола во всех его формах – как спрягаемых, так и неспрягаемых есть одна общая категория – категория вида.

Категории вида охватывает все глаголы русского языка, обозначая отношение действия, выраженного глаголом к его внутреннему пределу. «Глаголы несовершенного вида – это глаголы, не содержащие указание на достижение предела действия», а для глаголов совершенного вида в качестве семантического содержания выводится значение действия, достигшего своего предела [5, с. 327].

Данная характеристика распространяется на видовые пары, т.е. глаголы образующие «видовую оппозицию» при лексическом тождестве форм совершенного и несовершенного вида. Видовые пары отличаются только видовым значением. «Глаголы, входящие в видовую пару противопоставлены друг другу по грамматическому значению [5, с. 327]. Следовательно, вид понимается как «грамматическая категория особого качества. Это лексико-грамматическая (классификационная) категория» [5, с. 329].

Между учёными существуют разногласия по вопросу о том, считать ли вид морфологической категорией. Большинство глаголов русского языка имеет морфологическое средство выражения видового значения. Таким средством служат аффиксальные элементы – суффиксы и префиксы (сдать –сдавать, толкать – толкнуть, делать – сделать, строить –построить). Однако возможны случаи, когда видовой показатель вообще отсутствует в глагольной словоформе: гнать, сесть, стучать. Нулевой показатель может выступать и в совершенном, и в несовершенном виде.

В русском языке формы противоположного вида образуются не от всех глаголов. Глаголы, не имеющие видовых пар и не вступающие в видовую оппозицию, называетсяодновидовыми. Значение одновидовых глаголов связаны с различными частными значениями предела действия,поэтому в аспектологии они рассматриваются как различные способы действия. выражаемые глаголами только несовершенного или только совершенного вида. Так, одновидовые глаголы несовершенного вида могут выражать значение прерывистой кратности (побаливать, постукивать); длительно-дистрибутивное значение (распевать расхаживать); сопроводительное значение (подыгрывать, притопывать), взаимные действия (перемигиваться, перебраниваться), длительно-смягчительное значение (насвистывать, нашептывать).

Одновидовые глаголы только совершенного вида, характеризуясь со стороны способ действия, выражают следующие значения: начинательное (возненавидеть, закричать), однократное(толкнуть, сглупить), усилительное, протекающее с особой интенсивностью, замкнутое в сфере субъекта (разгневаться, разволноваться), значениедействий, осуществляемых не в полную меру (пригрозить, подтолкнуть); результативное со значением достижения конечного итога, результата(выстирать, побить, побелить).

Рассмотренные значения, характеризующие одновидовые глаголы, могут проявляться и в группе соотносительных по виду глаголов, выступающих в видовую оппозицию. Например, финитивноезначение может иметь соотносительный глагол *отогреть*; однократное значение – соотносительные глаголы *бросить, решить;* усилительное значение – глагол *разыграть(ся)*; начинательное значение – приставочные глаголы *запеть,*

[24] BDU.Rus dilçiliyi kafedrasə

вскочить; смягчительное (действие не в полную меру) – приставочные глаголы *пригореть, приостановиться*. Однако к каждому из этих глаголов подбирается видовая пара, образованная заменой суффиксов: отогреть – отогревать, бросить – бросать, решить – решать; разыграть(ся) – разыгрывать(ся), запеть – запевать, вскочить – вскакивать,приостановить(ся) – приостанавливать(ся). Вывод таков: «если значение способа действия данного глагола сочетается значением обоих видов, то этот глагол может быть соотносительным, т.е. может иметь формы обоих видов или образовывать пару с глаголом противоположного вида; если же значение способа действия совместимо со значением лишь одного из видов, то глагол оказывается несоотносительным, т.е. имеет формы одного вида и не образует пары с каким-либо глаголом противоположного вида»[2, с. 44].

Вид как важнейшая категория глагола интерпретируется в аспектологии либо как лексико-грамматическая (классификационная), либо как собственно грамматическая (морфологическая). По мнению авторов, академическойграмматики 1970 года, вид противопоставляет друг другу разные глаголы, а не формы одного и того же глагола. Авторы данных изданий рассуждают следующим образом:1. суффиксы и префиксы, формирующие те глаголы которые образуют видовую пару, не являются формообразовательными, это словообразовательные морфемы; 2. глаголы, образующие видовую пару, имеют разные формы спряжения и разные инфинитивы [5, с. 339]. В этом же источники указывается, что «основную роль ... в создании видовой пары играет суффиксация и префиксация, причём суффиксация создаёт более близкое соотношение, более тесную видовую пару, члены которой всегда имеют тождественное лексическое значение (решить – решать, переписать – переписывать). Пары, образованные путём префиксации, могут быть тождественны лексически (делать – сделать), но могут давать и незначительные семантические различия (стирать –выстирать; совершенный вид с оттенком полноты действия). Это наблюдается, когда у входящих ввидовую паруглаголов нет более тесного соотношения по виду, т.е. нет лексически тождественной пары [5, с. 338].

Возникает таким образом противоречивое положение: с одной стороны, видовые пары противопоставлены только по семантике вида (целостность и не целостность действия) при лексическом тождестве видовых пар (в этом случае перед нами разные формы одного и того же глагола); с другой стороны – это разные глаголы, так как они осложняются новыми лексическими значениями или оттенками таковых или образование форм совершенного или несовершенного вида (в этом случае перед нами разные в лексическом отношении глаголы). Непоследовательность в аргументации сущности категории вида очевидна.

Если сопоставить пары глаголов: ставить – поставить, читать – прочитать, слабеть – ослабить, греть – согреть со стороны морфологической структуры, то в характере основ инфинитива настоящего, будущего или прошедшего времени не наблюдается расхождений. Совпадает и спряжения данных глаголов: обе формы несовершенного и совершенного вида принадлежат соответственно II (ставить – поставить, строить – построить) илиI спряжению (читать – прочитать, греть – согреть, слабеть – ослабеть). Расхождения в морфологической структуре глаголов несовершенного и совершенного вида наблюдаются в суффиксальных видовых парах (толкать – толкнуть, разыграть – разыгрывать, узнать – узнавать, бросать – бросить), но и в этом случае большинство глаголов принадлежит одному и тому же спряжению.

О разных глаголах в пределах видовых форм можно говорить, если в глаголе совершенного или несовершенного вида в сравнении его с противоположной формой вида не наблюдается лексического тождества в большинстве их значений. В аспектологии это явление связывают со способами глагольного действия (начинательности, результативности, интенсивности, полноты или прерваности действия и др.).

Определяя вид как грамматическое явление, А. Бондарко и Л. Буланин в своей книге "Русский глагол" (1967 г.) указывают ряд обстоятельств в пользу своего тезиса:

«1. Вид охватывает всю глагольную лексику. Каждый глагол так или иначе определяется в отношение вида.

2. Охватывая все глаголы двучленная категории вида, естественно, имеет очень абстрактную семантику.

3. Значение каждого вида не является обобщением значений каких-либо лексических групп способов действия...» [2, с. 46].

4. Категории вида охватывает не только всю глагольную лексику, но и все глагольные формы.

5. Формы глагола в своём большинстве соотносительны по виду, образуя «ряды» типа *применял – применил, применяй – примени, применявший – применивший.* Это подчёркивает парадигматичность вида.

6. Категории вида опирается на систему морфологических средств формального выражения, из которых основными являются приёмы имперфективации и перфективации», (т.е. суффиксации и префиксации).

Указывая далее, что грамматические категории русского языка делятся на словоизменительные и классификационные учёные подчеркивают, что «члены категорий первого типа противопоставлены в рамках одной лексемы, представляя собой грамматические формы одного и того же слова. Таковы, например, категории наклонения, падежа, рода имён прилагательных. Классификационные же категории не создают противопоставления в рамках одной лексемы. Члены таких категорий представляют собой разные слова. Такова, например, категория рода имен существительных».

В видовой системе русского глагола двувидовые глаголы, не имея формальных показателей, отличаются только видовым значением. Один и тот же глагол способен выражать значение то совершенного, то несовершенного вида. Поэтому выбор одного из видовых значений обусловлен контекстом в котором употреблен

двувидовой глагол: Люди *женятся.* Гляжу – не женат лишь я хожу (несовершенный вид, настоящее); Они *женятся* осенью (будущее, совершенное). Среди глаголов такого типа выделяются: *адресовать, арендовать, велеть, женить(ся), заимствовать, использовать, исследовать, казнить, конфисковать, миновать, мобилизовать, оборудовать, приветствовать, ранить, рапортовать, стартовать, унифицировать, электризовать и др.*

И.Г. Милославский сравнивает категорию вида глагола с категории числа имён существительных. Противопоставленные по номинативному значению формы числа существительных являются, по его мнению, разными лексемами. "Число (как и род) рассматривалось как морфологическая категория существительных на основании обязательного синтаксического элемента значения. Глаголы разных видов тоже обладают различными синтаксическими элементами значения. Однако в отличие от числа и рода существительных глаголы не обуславливает выбор сочетающихся с глаголом словоформ, а влияет лишь на выбор сочетающихся лексем» [6, с. 176].

Кроме того, в русском языке ряд глаголов способен сочетаться только с инфинитивами глаголов несовершенного вида. Это так называемые «фазовые глаголы» типа начинать, продолжать, кончать; а также глаголы выражающие «субъективное отрицательное отношение к действию»: не привык, избегаю разучился, разлюбил, не нравится, не люблю, не советую, не рекомендую (начинать печатать, продолжать спорить, кончать красить; не привык трудиться, разучился понимать, не люблю ждать, не рекомендую вмешиваться, разлюбила охотиться). Данные свойства некоторых глаголов несовершенного вида подмечены И. Г. Милославским и рассматриваются им как проявление синтаксического элемента значенияглаголов, обусловленного их сочетательной способностью.Глагол в конкретной видовой форме как бы «избирает» то или иное контекстуальное окружение, более полно и точно выражающее его видовую семантику. Таким образом, по Милославскому [6, с. 180], рассмотрение вида в морфологии представляет собой дань традиции [6, с. 176], хотя именно в морфологии рассматривает учёный данную категорию русского языка.

К глаголам, не входящим в видовую оппозицию, относятся одновидовые глаголы только несовершенного или только совершенного вида или двувидовые глаголы, совмещающие значения обоих видов - и совершенного, инесовершенного в одной глагольной лексеме.

Академик В.В. Виноградов придерживается того мнения, что «соотносительные парные формы совершенного и несовершенного вида – при отсутствии различий в лексических значениях – являются формами одного и того же глагола. Таковы, например: *возделать – возделывать, выиграть– выигрывать, группировать – сгруппировать, делать – сделать, решить – решать, дичать – одичать...»* [3, с. 395].

Но формы совершенного и несовершенного вида могут объединяться в составе одного и того же слова. Это наблюдается в двувидовых глаголах, указанных Виноградовым: велеть*, жениться, казнить, крестить, ранить, родить, позвонить, молвить, рушиться, даровать, миновать, наследовать, исследовать, обследовать, расследовать, исповедовать, обещать, воздействовать, образовывать, использовать, сочетать военизировать* и др. [3, с. 395].В. Виноградов указывает также на длинный ряд заимствованных глаголов на –овать, -зировать,-ировать: *арестовать, атаковать, организовать, телеграфировать, конфисковать, парализовать,пролетаризировать, реквизировать, национализировать и т.п.* [3, с. 395]. У данных глаголов нет формальных средств выражения видовых значений; они имеют одинаковую форму будущего совершенного и настоящего несовершенного, прошедшего совершенного и прошедшего несовершенного. Отличными друг от друга оказываются только две формы: будущее совершенное простое и будущее несовершенная составное: молвит – будет молвить, расследуют – будут расследовать. Однако некоторые составные формы будущего времени мало употребительны (ср. будет арестовать, будутобразовать, будешь велеть). В таких конструкциях предпочтительнее иные аналитические сочетания с функцией составного сказуемого: *станетатаковать, были образованы (кружки), стану велеть, молвить*; но и здесь сфера действия двувидовых глаголов ограничена.

Пытаясь обосновать вид как грамматическую категорию русского языка, учёные в целом сходятся во мнениях. Объектом споров стало определение характера данной категории: является ли вид словоизменительной или классификационной категорией?

Из рассмотренного можно прийти к следующим выводам

1. Вид как грамматическая категория глагола охватывает всю глагольную лексику.

2 Если данная категория противопоставляет друг другу *тождественные* в лексических значениях глаголы, то вид словоизменительная или собственно грамматическая категория глагола, т.к. в этом случае вид противопоставляет друг другу разные формы одного и того же глагола

3. Если данная категория противопоставляет друг другу разные в лексическом отношении глаголы, то вид – классификационная или лексико-грамматическая категория глагола, т.к. в этом случае противопоставленными оказываются совершенно разные по лексическому значению глагола

4. Охватывая всю глагольную лексику вид как грамматическая категория русского языка, распространяясь и на не соотносительные по виду глаголы не имеет формального выражения в них семантических оттенков видовых значений.

СПИСОК ИСПОЛЬЗОВАННОЙ ЛИТЕРАТУРЫ

1. Авилова Н.С. Вид глагола и семантика глагольного слова. М., 1976

2. Бондарко А.В., Буланин Л.Л. Русский глагол. Л., 1967
3. Виноградов В.В. Русский язык. Грамматическое учение о слове. М., 1976
4. Горшкова К.В., Хабургаев Г.А. Историческая грамматика русского языка. М., 1981
5. Грамматика современного русского языка. /под. редакцией Н.Ю. Шведовой. М., АН СССР, 1970
6. Милославский И.Г. Морфологические категории современного русского языка. М., 1981
7. Мучник И.В. Грамматические категории глагола и имени в современном русском литературном языке. М., 1971

ASPEKTOLOGİYADANÖV KATEQORİYASI

Rus dilində felin növ kateqoriyası felin bütün qrammatik formalarını əhatə edir. Qədim rus dilində bitməmiş məna kəsb –edən fellər əsas qrammatik forma kimi qəbul olunurdu. Bitmiş məna üçün sözönü morfem işlənilirdi. Felin növ kateqoriyası zaman kateqoriyasından ayrılırdı. Müasir rus dilində felin zaman kateqoriyası felin kateqoriyası ilə sıx bağlıdır. Felin növlərinin yaranması üçün imperfektivasiya və perfektivasiyadan istifadə olunur. Onların yaranması üçün şəkilçi və sözönüdən istifadə olunur.

Açarsözlər: Rus dili, növ kateqoriyası, qrammatik formalar, morfem

THE CATEGORY OF ASPECTS IN ASPECTOLOGY

The type category of the verb in Russian includes all grammatical forms of the verb. In ancient Russian, verbs with an unfinished meaning were perceived as the main grammatical form.A prepositional morpheme was used for the finished meaning. The type category of the verb was separated from the tense category.In modern Russian, the tense category of the verb is closely related to the category of the verb. Imperfection and perfection are used to form the types of the verb. For their formation, suffixes and prepositions are used.

Keywords: Russian, category of the verb, grammatical forms, morpheme,

RƏYÇİ: dos. L.Ələkbərova

Məhbubə Tofiq qızı Umudova [25]

MÜASİR İNGİLİS DİLİNDƏ METAFORLARIN NÖVLƏRİ

Danışıqda işlədilən metaforlar əsasən təfəkkür, təxəyyül, geniş və zəngin dünyagörüşlə bağlıdır. S.Seyidov yazır: "Bir insan onu əhatə edən xarici aləmdəki obyektləri və hadisələri başqalarından fərqli şəkildə görür və eyni zamanda təqdim edə bilirsə o insan yaradıcı təfəkkürə və metaforik düşüncəyə sahibdir (1, s. 9). Doğrudur, adi insanlarda da metaforik düşüncə kifayət qədər inkişaf edə bilər, lakin bu yaradıcı insanlarda daha geniş şəkildə nəzərə çarpır.

Metaforların növlərinin müəyyən olunması, onların bölgüsü bir qədər müqayisə doğuran mövzudur. Belə ki, adətən linqvistik və konseptual metaforlar qrupunu fərqləndirirlər. C.Lakof və M.Conson yazırlar: "Metafor bizim gündəlik həyatımızda geniş yayılmış bir anlayışdır və o, təkcə dildə deyil, eyni zamanda bizim düşüncə və davranışlarımızda özünü göstərir. Bizim konseptual sistemimiz istər düşüncə, istərsə də fəaliyyət baxımından metaforik təbiətə malikdir (2, s. 67). A.Kielbauska linqvistik metaforlarla konseptual metaforları fərqləndirərək yazır: "Linqvistik metaforalar yalnız dildə mövcud olduğu halda konseptual metaforalar müxtəlif ifadə formalarında gerçəkləşir: dildə, görünüşdə, musiqidə, rəsm əsərində, teatrda və s. Metaforaların yalnız verbal şəkildə deyil, həm də sadalanan bu cür müxtəlif tərzlərdə, hətta insanların qeyri-verbal ünsiyyət vasitəsi hesab edilən jestlərdə də mövcud ola bilməsi onların konseptual təbiətindən xəbər verir (3, s. 19).

Müasir elmi-nəzəri ədəbiyyata əsaslanaraq müəyyən etmək olur ki, ingilis dilində metaforların linqvistik və konseptual bölgüsü ilə yanaşı, onların bir xeyli növü müəyyənləşmişdir. Onları aşağıdakı kimi qruplaşdıra bilərik:

1) Müstəqil metaforlar. Bu növdə müşahidə olunan metaforlar asanlıqla digərindən fərqləndirilə bilmir. Belə ki, metaforun bu növündə subyektlə metafor arasında heç bir əlaqə müşahidə edilmir. Nümunəyə nəzər salaq:

I am the dog end of every day. Metaforik tərcümə: "Mən hər günü it kimi başa vururam".

That is worth less than a dead digeridoo. Metaforik tərcümə: "Bu bir ölü nəfəsli alətdən daha dəyərlidir".

We faced a scallywag of tasks. Metaforik tərcümə: "Biz tapşırıqların rəzilliyi ilə üzləşdik".

2) Mürəkkəb metafor. Bu növdə ifadə olunan ədəbi (bədii) məna hər hansı digər məcazi növlə əks oluna bilər. Yaxud bu növü belə izah edə bilərik: sadə metafor ikinci dərəcəli metaforik elementə əsaslana bilir.

Mürəkkən metafora aid belə nümunə verə bilərik.

Anger is not a hot fluid in a container. "Qəzəb konteynerdəki isti maye deyil". Bu metaforik ifadəni belə izah edə bilərik: "Əgər səbrimiz tükənirsə, o halda biz hirslənə bilərik və bu yaxşı nəticə verməyə bilər".

Digər nümunələr:

This problem lends weight to the argument. "Bu problem münaqişəyə istiqamət verir".

They stood alone, frozen statues on the plain. "Onlar düzənlikdə dondurulmuş heykəllər kimi tənha dayandılar".

The ball happily danced into the net. "Kürə xoşbəxtliklə torun içində rəqs etdi".

K.Zoltan yazır ki, mürəkkəb metaforlar sadə metaforlar əsasında yaranır. Bu da təcrübədə sıx rastlanan, yerli korrelyasiyaya əsalanan növ kimi təqdim edilir (4, s. 68).

Bəzi sadə metaforların birləşməsindən mürəkkəb metaforlar yaratmaq olar. Məsələn, *heartbreak* "ürək çatışmazlığı" mürəkkəb ismindən və *broken heart* "sınmış ürək, qırıq qəlb" kimi mürəkkəb metaforik birləşmə yarana bilər. Müəlumdur ki, *heart* "ürək" məfhumu bir çox mədəniyyətlərdə emosional hissləri (həm müsbət, həm mənfi) ifadə etmək üçün əsas ifadə vasitəsi hesab edilir. Belə ki, insanlar həddindən çox sevinəndə, aşiq olanda, xəstələnəndə, kədərlənəndə hər şeyi ürəklə əlaqədar ifadə edə bilirlər. Məsələn, kiməsə aşiq olanda *sənin üçün ürəyin gedir*, yaxud kimdənsə qəlbi sınanda *ürəyin səndən qırılıb*, yaxud xəstələndə *ürəyim buz kimi bir şey istəyir* və s. kimi ifadələr işlədə bilər. Ümumiyyətlə, ürək orqanizmin əsas aparıcı orqanı olduğu kimi, bir çox insanı hisslərin çatdırılmasında da müşahidə olunur.Məsələn, bir qrup *heart* metaforlarını nəzərdən keçirdək:

Metafor	İzahı	Azərbaycan dilində tərcüməsi
to have a heart to lead	having your emotions weigh you down; being full of negative feeling	pis hissi olmaq, kədərli olmaq
the heart of a lion	brave and courageous	*məc.*şir ürəyi; cəsur və cəsarətli
to have a heart of gold	to be a very kind person	qızıl kimi qəlbi olmaq; mehriban olmaq
give (somebody) fresh heart	to make somebody feel positive	kimisə özünü yaxşı hiss etməyə kömək etmək; *məc.* kimsə yaxşı təsir göstərmək
somebody's heart is in their mouth	somebody feels nervous or frightened about something	həyəcanlanmaq, *məc.* qəlbi ağzından çıxmaq
with heart and soul	with a lot of energy and enthusiasm	çox enerji və coşğu ilə
somebody's heart sinks	to suddenly depressed or sad	kədərlənmək, özünü kədərli hiss

[25] Azərbaycan Turizm və Menecment Universiteti. mahbuba@yahoo.com

	about something	etmək

C.Lakof və M.Conson yazırlar ki, bəzi mürəkkəb metaforların yaranması bir sıra kultural inanclarla bağlıdır (2, s. 75). Məsələn, *A purposeful life is a journey* "Məqsədyönlü həyat tərzi səyahətdir". Yaponların inanclarına görə insanlar çox səyahət etməli və həyatda heç nəyə çox bağlanmamalıdır, çünki həyat sanki bir səyahətdir (5, s. 34).

3) Konseptual metafor, yaxud koqnitiv metafor. Bu zaman bir metaforik fikir digər termin vasitəsilə başa düşülür. Koqnitiv dilçilikdə digər konseptual məfhumu anlamaq üçün metaforik ifadələr əks etdirən konseptual mənbə hədəf mənbəyi kimi tanınır. Bu şəkildə başa düşülmüş konseptual sahə hədəf sahəsi hesab edilir (4, s.45).

C.Lakof və M.Conson konseptual metaforların üç kateqoriyasını təqdim edirlər (2, s. 56):

a) orientasional metaforlar;

b) ontoloji metaforlar

c) struktural metaforlar və s.

a) orientasional metafor məkan, istiqamət əlaqəsi əks etdirən ifadələri əhatə edir. Məsələn, *up-down* "yuxarı-aşağı", *in-out* "içəri-bayıra", *on-off, front-back* "qabağa-arxaya" və s. (2, s. 34).

Up sözü yuxarı mənanı ifadə etdiyindən, bu sözün metafor tərkibində işlədilməsi əsasən müsbət anlam əks etdirir, *down, off, back* və s. kimi sözlər isə *aşağı, kənar, geri* mənalar ifadə etdiyindən onlar əsaəsn mənfi anlam əks etdirən metaforların tərkibində işlədilir.

İndi isə onların bir qismini nəzərdən keçirdək:

Mübət məna ifadə edənlər	*Mənfi məna ifadə edənlər*
Happy is up "Xoşbəxtlik yüksəklik".	*Sad is down* "Kədər ümidsizlikdir".
Conscious is up "Şüurluluq yüksəklikdir".	*Unconscious is down* "Şüursuzluq ümidsizlikdir".
Health and life are up "Sağlamlıq və həyat yüksəklikdir".	*Sickness and death are down* "Xəstəlik və ölüm düşmədir, zəifləmədir".
He is feeling up. "O, özünü yaxşı hiss edir".	*I am feeling down.* "Mən özümü kədərli (pis) hiss edirəm".
That boosted my spirits up. "O, mənim əhval-ruhiyyəmi gücləndirdi".	*Her status is down.* "Onun vəziyyəti aşağıdır".
Thinking about him always gives me up. "Onun barəsində düşünmək həmişə məni ruhlandırır".	*I felt down into a depression.* "Mən depressiyaya uğradım".
Virtue is up. "Xeyirxahlıq yaxşılıqdır".	*Depravity is down.* "Əxlaqsızlıq pislikdir".
Rational is up. "Səmərəlilik yaxşılıqdır, yüksəlişdir".	*Emotional is down.* "Duyğusallıq yaxşı vərdiş deyildir".

b) konseptual metaforların ikinci növü olan ontoloji metaforlar konkret bir şeyi əksinə olaraq ifadə etmək anlamını verir. Qeyd etmək lazım gəlir ki, bu metaforları C.Lakof və M.Conson konseptual metaforların növü kimi qəbul etməyi təklif etmişdir (2, s. 23). C.Lakof və M.Conson yazır: "Bu metaforlar bizim düşüncəmizdə təbii olaraq və həmçinin də inandırıcı, məntiqi olaraq əks olunur. Onlar adətən mental fenomenlərin birbaşa təsvirinə şərait yaradırlar" (2, s. 23). Alimlər daha sonra yazırlar ki, ontoloji metaforlar təcrübəmizi anlatmaq üçün yaratdığımız ən müvafiq fiqur hesab edilir.

3) Konseptual metaforların üçüncü növü structural növ hesab edilir. C.Lakof yazır ki, struktural metaforlar eksplisit olaraq müəyyən edilə bilmir, onlar sadəcə olaraq mənanı aydınlaşdırır. Struktural metaforlarda bir mürəkkəb konsept digər konkret bir konsept vasitəsilə təqdim edilir və diskursiv kontekstdə hərəkəti əks etdirir (9, s. 25).

4) Metaforların növbəti növü *yaradıcı metaforlar* adlanır. Bu metaforlar eyni zamanda peotik metaforlar, bədii metaforlar, roman metaforları da adlanır. Yaradıcı metaforlar konvensional və ölü metaforlara qarşı qoyulur. Amerikalı filosof R.Rorti yaradıcı metaforları müəyyən edilmiş qaydalara və adi anlayışlara meydan oxuyan metaforlar kimi xarakterizə edir. O yazır: "Yaradıcı metaforlar digər variantla insanın hislərini əks etdirən danışıq növüdür. Onlar həmçinin bir kəsin həyat tərzini və dilini də əks etdirən ünsiyyət dili hesab edilir (10, s. 34).

5) Metaforların növbəti növü ölü metaforlar adlanır. Bu metaforlar olduqca çox istifadə edildiklərindən öz güclərini və təxəyyül təsirlərini itirmiş hesab edilirlər. Bu metaforlar, eyni zamanda donmuş, yaxud tarixi metaforlar da adlandırıla bilər. Son bir neçə ildə koqnitiv dilçilikdə ölü metaforlar belə izah olunur: "Bu metaforlara yanaşmada səhv bir təməl müşahidə olunur. Belə ki, bizim işlətdiyimiz metaforlar, yaxud metaforik ifadələr hələ də yaşayan, fəal olan və sanki süurlu olan birləşmələrdir". Əksinə, qədimdə işlədilən və artıq çox işlədiləməyən, lakin daha səmərəli və güclü, həssas və zərif olan və ölü hesab edilən metaforlar yenə də işlədilə bilər" (11, s. 98). İ.A.Riçardz yazır: "Ölü metaforlarla yaşayan metaforlar arasında əsas fərq onların yenidən kəskin şəkildə öyrənilməsidir (12, s. 56).

C.Lakof və M.Consonun da dediyi kimi, ölü metafor termini artıq öz istifadəsini itirməkdədir. Belə ki, ölü hesab olunan metaforlar dildə o qədər işlədilmişlər ki, artıq onlar metafor kimi deyil, gündəlik danışıq termini kimi müşahidə olunur. Aşağıdakı nümunələr ingilis dilində ölü metafor kimi qəbul edilir:

The thread flew through the eye of the needle. "İynənin gözündən keçən sap".

Face of a clock "satin üzü"*; Hands of a clock* "saatin əlləri", *Life is no bed* "Həyat yataq deyildir".

6) Metaforların növbəti növü qarışıq növ adlanır. Bu metaforlar adətən uyğun olmayan və gülünc metaforlar kimi tanınır. Bu səbəbdən də bu metaforları bəzən "miksafor" da adlandırırlar.

Nümunəyə nəzər salaq:

Red trains cough Jewish underwear smells of silence. Gravy snot whistling like sea birds (15, s. 12). "Qırmızı qatarların səsküyü sanki yəhudi altpaltarları kimi qoxuyurdu. Qatarların səsi sanki dəniz quşları kimi fit verirdi".

7) Kök metaforları. Kök metaforları fərdin dünya haqqında təsəvvürlərinin imicini, xarakterini, yaxud formasını xarakterizə edir. Bu metafor növü həmçinin əsas metafor, baş metaphor və mif metaforları da adlanır. M.MakKormak kök metaforları barədə yazır: "Bu növ metaforlar dünya haqqında insanların beynində formalaşan gümanları əks etdirir və onları işlətməklə biz istədiyimiz hər şeyin təsvirini verə bilərik (10, s. 99).

Kök metaforları konsepti amerikalıl filosof S.C.Pepper tərəfindən verilmişdir. O, bu məsələni "Dünya haqqında gümanlar" kitabında izah etmişdir. O, kök metaforunu belə izah edirdi: "Bu metaforlar dünya gümanlarının mənşəyinin əsası haqqında empirik müşahidələrin mənbəyi adlanır" (13, s. 76).

Məqalənin aktuallığı. Müasir ingilis dilində işlənən metaforların işlənmə dərəcəsi və yeri xüsusi önəm daşıyır və bu da onların aktuallığını şərtləndirir.

Məqalənin elmi yeniliyi. Metaforların semantik xüsusiyyətlərinin müəyyənləşməsi, araşdırılması.

Məqalənin praktik əhəmiyyəti. Məqalədə fərqləndirilən vasitələrin tələbələr, müəllimlər, tədqiqatçılar və digərləri tərəfindən düzgün istifadəsinə yardımçı olmaq.

ƏDƏBİYYAT

1. Seyidov S. Yaradıcılığın fenomenologiyası. Bakı: Çaşıoğlu, 2013
2. Lakoff G., Johnson M. Metaphors We Live By. Chicago: Chicago of University Press, 2008, 256 p.
3. Kielbawska A. Metaphor, language and gesture // From Conceptual Metaphor Theory to Cognitive Ethnolinguistics. Volume 3. Frankfurt: Peter Lang Edition, 2014, pp.1-24.
4. Kövecses Z. Metaphor: A Practical Introduction. Oxford: Oxford University Press, 2002, 400 p.
5. Kövecses Z. Metaphor in Culture: Universality and Variation. Cambridge: Cambridge University Press, 2005, 336 p.
6. Lakoff G. The contemporary theory of metaphor. In Metaphor and thought. Chapter 2. Ed. Andrew O. Cambridge: Cambridge University Press, 1993, pp.202-251
7. Lakoff G. The Invariance Hypothesis: Is Abstract Reason Based on Image-Schemes? Cognitive Linguistics N1, 1990, p. 39-74.
8. Kukharenko V.A. A Book of Practice in Stylistics. Moscow: Moscow Publishing Press, 1986, 201 p.
9. Lakoff G. Philosophy in the Flesh: The Embodied Mind And Its Challenge To Western Thought. Cambridge: Basic Books, 1998, 640 p.
10. Earl R. Mac Cormac. Metaphor and myth in science and religion. UK: Duke University Press, 1976, 167 p.
11. Samuel G. Objects of Metaphor. Oxford: Clarendon Press, 2005, 316 p.
12. Allan P. Imagery and Verbal Process. Holt, Rinehart and Winston: Psychology Press, 1978, 608 p.
13. Stephen C. P. World Hypotheses: A Study in Evidence. California: University of California Press, 1942, 348 p.

Bədii ədəbiyyat

14. Ezra P. In a Station of the Metro. Mission and History, 1888
15. Josephine H. Damage. New York: York Publishing House, 1991, 216 p.

Açar sözlər: metafor, növ, qarışıq, təfəkkür, konsept, müasir

Key words: metaphor, type, mixed, brain, concept, modern

Ключевые слова: метафора, тип, смешанный, мозг, концепция, современный

The kinds of the metaphors in modern english

Summary

The article deals with the kinds of the metaphors in English. The metaphor is known to be a figure of speech that describes an object or action in a way that isn't literally true, but helps explain an idea or make a comparison. It may express that one thing is *another thing*. The article states that metaphors are able to equate those two things not because they actually are the same, but for the sake of comparison or symbolism. The article highlights the usage of the metaphors in different places such as in poetry, literature, and anytime someone wants to add some color to their language. The kinds of the metaphors have been widely touched upon in the article as well.

Виды метафоров в современном английском языке

Резюме

В статье рассматриваются виды метафор в английском языке. Известно, что метафора фигура речи, описывающая объект или действие таким образом, который не соответствует действительности в буквальном смысле, но помогает объяснить идею или провести сравнение. Он может выражать, что одно является другим. В статье утверждается, что метафоры способны отождествлять эти две вещи не потому, что они на самом деле одинаковы, а ради сравнения или символизма. В статье подчеркивается использование метафор в разных местах, таких как поэзия, литература и в любое время, когда кто-то хочет добавить красок в свой язык. В статье также широко затронуты виды метафор.

Rəyçi: *fil.e.d., prof. Ç. Qaraşarlı*

Gülümsər Nəbi qızı Abbasova[26]

TABELİ MÜRƏKKƏB CÜMLƏLƏRDƏ QƏLİB SÖZ FUNKSİYASINDA İŞLƏNƏN LEKSİK VAHİDLƏR

Tabeli mürəkkəb cümlələr dildə mühüm bir qat təşkil edir və maraqlı bir dilçilik sahəsi kimi tədqiqatçıların diqqətini çəkir. Azərbaycan dilinin, xüsusilə də qrammatikasının araşdırıcıları olan Ə.Abdullayev, Y.Seyidov, A.Həsənov, F.Cəlilov, Q.Kazımov, T.Müzəffəroğlu, Z.Şahbazova, Ə.Cavadov, X.Məmmədova və s. dilçi-alimlər özlərinin bir sıra məqalə və monoqrafiyalarını tabeli mürəkkəb cümləyə həsr etmişlər, maraqlı və sistemli elmi fikirlər söyləmişlər. Tabeli mürəkkəb cümlələr, onların bağlanma vasitələri və digər xüsusiyyətləri ilə bağlı bir sıra məsələlərə aydınlıq gətirmişlər. Bu sıradan Ə.Abdullayevin "Müasir Azərbaycan dilində tabeli mürəkkəb cümlələr" (1), T.Müzəffəroğlunun "Azərbaycan dilində mürəkkəb cümlənin struktur semantikası" (4) və X.Məmmədova, Ə.Cavadovun "Tabeli mürəkkəb cümlələrin semantik-qrammatik xüsusiyyətləri" (3) əsərlərini xüsusi göstərmək olar. Lakin bu mövzu dilin elə bir sahəsidir ki, onun araşdırılması hər zaman üçün aktualdır.

Tabeli mürəkkəb cümlələrin formalaşmasında bir sıra dil vahidlərinin: bağlayıcı, bağlayıcı sözlər, ədatlar və bir çox leksik ünsürlərin çox mühüm rolu vardır. Bunların içərisində bağlayıcılar daha çox diqqət çəkir. Tədqiqatçılara görə, "Cütözəkli TMC-nin formalaşmasında və qurulmasında zaman (elə ki, o zaman ki, o vaxt ki, onda ki...), səbəb (çünki, ona görə ki, ondan ötrü ki); nəticə (belə ki, buna görə də, ona görə də, onun üçün də...); şərt (əgər, hərgah, madam ki, indi ki...) bildirən, qarşılaşdırma budaq cümlələrində işlənən (hərçənd, amma, ancaq, lakin) bağlayıcı birləşmələri və bağlayıcılar iştirak edir" (3, s. 24). Lakin qeyd edək ki, Q.Kazımov burada göstərilənlərin əksəriyyətini bağlayıcı yox, bağlayıcı söz hesab edir. Bağlayıcılar tabeli mürəkkəb cümlələrdə baş cümləni budaq cümləyə bağlayan vasitə kimi çıxış etməklə yanaşı, budaq cümlələrin müəyyənləşdirilməsində müəyyən rola malik oladuqları halda, bağlayıcı sözlər yalnız baş cümləni budaq cümləyə bağlayan ünsür kimi dəyərləndirilir. Bu yazımızda isə digər leksik vahidlərin qəlib söz funksiyasında işlənmə məqamlarına diqqət yetirməyi hədəfləmişik.

Belə ki, tabeli mürəkkəb cümlələrin qurulmasında müəyyən rola malik olan bir sıra dil vahidlərinin özünəməxsus yeri var. Araşdırma zamanı aydın olur ki, bu istiqamətdə yazılan əsərlərin əksəriyyətində həmin məsələyə münasibət heç də birmənalı olmamışdır, mövzu ilə bağlı fərqli yanaşmalar mövcuddur. F.Cəlilov özünün "Bağlayıcısız tabeli mürəkkəb cümlə komponentlərinin struktur-semantik və leksik-qrammatik vasitələrlə bağlanması" adlı məqaləsində baş və budaq cümələləri bir-birinə bağlayan leksik-qrammatik vasitələr barəsində yazır: "Bağlayıcısız tabeli mürəkkəb cümlə komponentlərinin bağlanmasında iştirak edən vasitələrin bir qismini qrammatik cəhətdən cümlə üzvləri ilə əlaqəsi olmayan sözlər (modal sözlər, modal birləşmələr, ədatlar, xitablar) təşkil edirsə, digər qismini cümlə üzvü yerində çıxış edə bilən sözlər (nisbi əvəzliklər, qeyri-müəyyən əvəzliklər, zərflər və leksik məzmunu ilə seçilən bəzi sözlər) təşkil edir. Xəbərin ifadə forması da komponentlərin bağlanmasına yardım edən vasitə kimi çıxış edir" (2, s. 40). Buradan aydın olur ki, müəlif bağlanma vasitələrini iki qismə ayırır və həmin bölgülərə müvafiq olaraq hər biri haqqında fikirlərini nümunələrlə əsaslandırır. Ə.Abdullayev isə öz kitabında (1) "Tabeli mürəkkəb cümlənin qurulmasında leksik ünsürlərin rolu" adı altında belə leksik vahidlər hesab etdiyi əvəzlik, əvəzlik-zərf, zərf, qarşılıq bildirən bağlayıcılar, modal sözlərinin, həmçinin müxtəlif cümlə üzvü "qəlibləri" kimi işlənən (o zaman, o vaxt, onda, ona görə, o səbəbə, o məqsədlə, o dərəcəyə, o dərəcədə) sözlərin rolundan ayrılıqda nümunələr verməklə təqdim edir. Lakin bu bölgülərdə bizə lazım olan məhz qrammatik deyil, qəlib funksiyasında çıxış edə bilən leksik vahidlər lazımdır və onların qəlib rolundan bəhs etmək bizim məqsədimizə daha uyğundur. Belə leksik vahidlər sırasında əvəzliklər, əvəzlik-zərflər, zərflər və müxtəlif cümlə üzvü qəlibləri kimi işlənən sözləri göstərə bilərik. Onlara ayrılıqda nəzər yetirək:

Əvəzlik-zərf xarakterli sözlər. Tabeli mürəkkəb cümlənin formalaşmasında mühüm rol oynayan leksik vahidlərdən biri Ə.Abdullayevin təbirincə desək, əvəzlik-zərf xarakterli sözləridir (1, s. 136). Məsələn: o qədər, onda, oraya, orada, oradan, o saat, bir o qədər sözləri bu qəbildəndir. Bu tipli leksik vahidlər də baş cümlədə işlənərək qəlib söz funksiyasını daşıya və ya qarşılıq (korrelat) sözlər kimi çıxış edə bilirlər. Bu qəbildən olan sözlər, əsasən, kəmiyyət, zaman, yer və şərt budaq cümlələrinin baş cümləsində işlədilir. Belə budaq cümlələrin baş cümlələrinə xüsusi diqqət yetirək.

Kəmiyyət budaq cümləsinin baş cümləsində işlənən bir o qədər, o qədər kimi dil vahidlərinin qəlib söz mövqeyində olması aşağıdakı nümunələrdən də aydın görünür. Məsələn, Nə qədər ki, əzəli və əbədi torpağımız olan Qarabağdan ermənilərin ayağı kəsilməyib, o qədər də mövcud münaqişə davam edəcək. Müzəffər ordumuz düşmənə döyüş meydanında nə qədər ibrət dərsi verdilərsə, bir o qədər də onları dünya ictimaiyyəti qarşısında rəzil etdilər və s.

Zaman budaq cümləsinin baş cümləsində onda, o saat leksik vahidləri qəlib kimi çıxış edir. Məsələn, Elə ki, 27 sentyabr 2020-ci ildə Vətən müharibəsi başlandı, onda bütün qoşun növlərimiz səfərbər olaraq döyüş bölgəsində yer aldılar. Elə ki, elektrik xətlərində qəza baş verdi, o saat idarədən işıqları söndürdülər və s.

Yer budaq cümlələrinin baş cümləsində oradan, orada, oraya kimi əvəzlik-zərf xarakterli sözlər qəlib mövqeyindədir. Məsələn, Harada aş, orada baş. Hara istəyirsən, oraya get. Haradan sual verirsən, oradan da cavab verir və s.

Şərt budaq cümləsinin baş cümləsində də artıq zaman budaq cümləsinin baş cümləsində istifadə etdiyimiz onda sözü istifadə edilir. Əgər zaman budaq cümləsində bağlayıcı söz kimi *elə k*i dil vahidi işlənirdisə, şərt budaq cümləsində isə *əgər* bağlayıcısı və ya bağlayıcı sözü, baş cümləsində isə *onda* sözü qəlib kimi işlənir. *Əgər* bağlayıcısı işlənməsə də, budaq

[26] BDU-nun Azərbaycan dili və ədəbiyyatının tədrisi metodikası kafedrasının baş müəllimi. gabbasova56@gmail.com

cümlənin xəbəri feilin şərt şəklində olur, həm də əgər şərt bağlayıcısı da asanlıqla bərpa edilir. Məsələn, Əgər müharibə dayanarsa, onda şəhid qanı da axmaz. Həqiqətən də, sənin oxumağa həvəsin varsa, onda mən sənə hər cür köməklik edəcəyəm və s.

F.Cəlilov yazır: "Bağlayıcısız tabeli mürəkkəb cümlədə tərəflər arasında əlaqə yaradan zərfləri iki qismə ayırmaq olar: əvəzlik-zərf xarakterli sözlər və sırf zərflər. Əvəzlik-zərf xarakterli sözlər (necə, nə qədər, o qədər, bir qədər, nə cür, haçan, bura, ora, elə, belə və s.) bağlayıcısız tabeli mürəkkəb cümlədə (nisbi və işarə əvəzliklərində olduğu kimi) tərəflərin bağlanmasına yardım edir. Nə cür istəyirsiniz, o cür də edin; Məni necə verib, elə boşasın.

Bağlayıcısız tabeli mürəkkəb cümlənin komponentləri yenə, yenicə, təzəcə, ha, birdən, az, çox, daha, hələ kimi zərflərlə də bağlana bilir. Məsələn, Təzəcə qalxmışdıq, Əli gəldi" (2, s. 45).

Zərflər. Qeyd edək ki, bir neçə zərf var ki, onlar tabeli mürəkkəb cümlələrin baş cümləsində qarşılıq və ya korrelyat söz kimi çıxış edir. Digər leksik vahidlərdə olduğu kimi bunların da özünəməxsus xüsusiyyəti və işləndiyi müəyyən budaq cümlələrin baş cümlələri var. Belə zəflərə qəsdən, birdən, çox, yenə, yenə də, bir qədər, bir az, təzəcə, yenicə kimi leksik vahidlər daxildir. Adı çəkilən bu zərflər əsasən zaman, qarşılaşdırma və məqsəd budaq cümlələrinin baş cümləsində işlənir:

1) Zaman budaq cümləsinin baş cümləsində birdən, yenicə, təzəcə, bir az, bir qədər, çox zərfləri budaq cümlənin növünü müəyyənləşdirir və qəlib funksiyasını üzərinə götürürlər. Məsələn: Vətən müharibəsi elə başlamaq üzrə idi ki, birdən paşikin başına yekə bir daşın düşdüyü xəbəri gəldi. Düşmən tərəf hücuma keçmək istəyirdi ki, birdən cənab prezident əkshücuma keçmək əmri verdi. Ə.Abdullayev qeyd edir ki, "Zaman budaq cümlələrində bəzi kəmiyyət zərfləri iştirak edərək orada ifadə olunan zamanı məhdudlaşdırmağa xidmət edir. Bunlardan bir az, bir qədər, çox; yenicə, təzəcə sözlərini göstərmək olar; Məsələn, Bir az getməmişdi ki, Göyçək onun qabağına çıxdı. Aradan bir qədər keçməmişdi ki, qarşıdan birisinin mənə tərəf gəldiyini gördüm. Çox getməmişdilər ki, yolda bir neçə cavan onların qabağını kəsdi. Səltənət yenicə başını qaldırmışdı ki, həyət qağısı açıldı; Müqavilənin müzakirəsi təzəcə axıra çatmışdı ki, birdən tap arxa cərgədən kim isə söz istədi" (1, s. 137). Bu nümunələrin sayını aşağıdakı cümlələrlə də zənginləşdirmək olar. Əsgərlərimiz bir az irəliyə getməmişdi ki, düşmənin geri çəkilmə xəbəri gəldi. Müharibənin başlanmasından bir qədər keçməmişdir ki, əzəli torpaqlarımızın düşmən tapdağından azad olma xəbəri hamımızı sevindirdi. Verilən nümnələrdəki kəmiyyət zərflərinin mahiyyətində, bizcə, kəmiyyət anlamı zamanı üstələyir. Ancaq buna baxmayaraq kəmiyyət budaq cümləsi deyil, zaman budaq cümləsi hesab olunur.

2) Qarşılaşdırma budaq cümlələrinin baş cümləsində isə yenə və yenə də zərfləri istifadə olunur. Məsələn: Düşmən nə qədər müqavimət göstərməyə çalışsa da, yenə rəşadətli əsgərlərimiz müasir döyüş texnologiyalarından məharətlə istifadə edərək irəliləyirdilər. Düşmənlərimiz məğlub və rəzil olsalar da, yenə fitnələrindən əl çəkmirlər.

3) Məqsəd budaq cümləsinin baş cümləsində isə qəsdən sözü işlənir. Məsələn, ruslar ermənilər bizim dədə-baba torpaqlarına sanki qəsdən yerləşdirmişdilər ki, bu gün bizi rahat buraxmasınlar və ruslar öz məkirli siyasətlərini həyata keçirsinlər, lakin bunu görməzlər.

Qeyd edək ki, yuxarıda təqdim etdiyimiz nümunələrdən də aydın görünür ki, bəzi hallarda cümlələrdə verilən sözlərin ifadə etdiyi semantik yüklə onun haqqında verilən qayda üst-üstə düşmür. Bunun üçün də biz də professor Tofiq Müzəffəroğlunun aşağıdakı fikirləri ilə razılaşmalı oluruq. Tədqiqaçı haqlı olaraq yazır ki, "Burada bir məsələyə toxunmaq istərdik. Bəzən baş və budaq cümləni bağlayan leksik vasitələr içərisində "yenə", "yenə də", "birdən", "qəsdən", "təzəcə", "yeni" və s. zərflərin olduğu da göstərilir ki, bu fikirlə razılaşmaq mümkün deyil. Həmin sözlər istər qrammatik, istərsə də semantik əlaqələnməni formalaşdırmır, sadəcə olaraq, mövcud əlaqəni gücləndirir. Məsələn: 1) Kərəm sözünü müxtəsər eləyib getmək istəyirdi ki, birdən qabaqlarına bir ceyran çıxdı; 2) Sahəyə yenicə çatmışdı k,birdən sədrin həmişəki gur səsini eşitdi; 3) Vaqif qəsdən belə dedi ki, yaxınlaşan təhlükənin ağırlığını hiss etməsinlər. Birinci nümunədə "birdən", ikincidə "yenicə", üçüncüdə "qəsdən" sözü leksik vahid olmaqla müvafiq cümlələrin tərkib hissəsidir., bununla belə, onların komponentlər arasındakı məna əlaqəsinin meydana çıxmasındakı rolunu inkar etmək olmaz. Birinci və ikinci konstruksiyalarda zaman, üçüncüdə məqsəd məna əlaqəsinin ifadə və qavranılmasında həmin sözlərin rolu vardır.

Bütün bunlar isə onu göstərir ki, mürəkkəb cümlədə komponentlərin bağlanmasında iştirak edən vasitələr məna əlaqələrinin formalaşmasında, habelə funksional müəyyənləşmədə müxtəlif dərəcəli rola malikdirlər. Onların bəzisi bu sahədə hətta həlledici rol oynayırsa, bəzilərinin heç bir rolu olmur" (4, s. 274).

Müxtəlif cümlə üzvü qəlibləri vəzifəsini ifa edən sözlər. Belə leksik vahidlərə o zaman, o vaxt, onda, ona görə, o səbəbə, o məqsədlə, o dərəcədə, o dərəcədə kimi sözlər daxildir və onlar, əsasən zaman, məqsəd, səbəb və dərəcə budaq cümlələrinin baş cümləsində işlədilir. T.Müzəffəroğlu bu tipli leksik vahidlərin bəzilərinin özünəməxsus keyfiyyətləri barədə belə yazır: "Məlumdur ki, "o", "bu" işarə əvəzlikləri müvafiq mürəkkəb cümlələrdə budaq cümlə ilə əlaələnib, təyin budaq cümləsini formalaşdırır. Bəzi hallarda həmin əvəzliklər, xüsusilə zaman məzmunlu sözlərlə (vaxt, zaman, an, il və s.) birləşib üzvlənməyən vahid yaradır: bu vaxt, bu zaman, bu an, bu il və s. Baş cümlədə işlənən bu vahidlər müvafiq olaraq zaman budaq cümləsini tələb edir, çünki onlarda işarə əvəzliyi və zaman bildirən söz ayrılmır, bir vahid kimi çıxış edir. Məsələn: Zəminə o zaman yetişdi ki, sonuncu maşın artıq yola düşürdü (M.Qocayev)" (4, s. 81). Belə leksik vahidlərin işləndiyi məlum budaq cümlələrə ayrılıqda diqqət yetirək:

- zaman budaq cümləsinin baş cümləsində onda, o vaxt və o zaman kimi leksemlər işlənərək qəlib funksiyasına malik olurlar. Məsələn, Mühasirə o vaxt başlamışdı ki, müridləri keçib getməyə qoymamışdılar (6, s. 32). Bu xəbər məhləyə o zaman yayıldı ki, gecədən xeyli keçmişdi (5, s. 56). Elə ki Kərəm xan onun sözünü təsdiq etdi, onda mən hirslənib özümdən çıxdım (9, s. 160) və s.

- məqsəd budaq cümləsinin baş cümləsində o məqsədlə və ona görə kimi leksik vahidlər işlənərək qəlib funksiyasına yerinə yetirir. Məsələn, Şahnaz ona görə ehtiyatla addımlayırdı ki, kola-kosa ilişməsin, səs-küy salmasın (5, s. 258). Müharibəni o məqsədlə başladıq ki, torpaqlarımızı işğaldan azad edək və s.

- səbəb budaq cümləsinin baş cümləsində o səbəbə və ona görə kimi sözlər qəlib sözlər kimi çıxış edir. Məsələn, Sən o səbəbə şəriətdən çıxırsan ki, şəriətin əmrlərinə maneə törədirsən (7, s. 112). Ona görə arxayın çıxdı ki, özünün partiya kitabçasını, şəxsi işini, vəsiqələrini, yoxlamalarını tamam yığışdırıb aparırdı (8, s. 215) və s.

- dərəcə budaq cümləsinin baş cümləsində o dərəcədə və o dərəcəyə kimi leksik ünsürlər işlənir və qəlib funksiyasını daşıyır. Məsələn, Mənfur düşmənlərimiz o dərəcədə qudurmuşdular ki, yeni torpaq iddiası ilə yaşayırdılar, arzuları gözlərində qaldı. Düşmən bizi o dərəcəyə çatdırdı ki, əks hücuma keçərək torpaqlarımızı işğaldan azad etdik və s.

Belə nəticəyə gəlmək olar ki, budaq cümlənin növünün müəyyənləşməsində rolu olan və əvəzlik qəlib kimi çıxış edən sözlər təkcə işarə əvəzliklərindən ibarət deyildir. Həmçinin dilçilikdə əvəzlik-zərf kimi təqdim edilən leksik vahidlər, zərflər və digər sözlər də bu funksiyanı yerinə yetirə bilir.

İstifadə olunmuş ədəbiyyat

1. Abdullayev Ə. Müasir Azərbaycan dilində tabeli mürəkkəb cümlələr. (Dərs vəsaiti). Bakı: Maarif, 1974, 419 s.
2. Cəlilov F.A. Bağlayıcısız tabeli mürəkkəb cümlə komponentlərinin struktur-semantik və leksik-qrammatik vasitələrlə bağlanması // Elmi əsərlər. Dil və ədəbiyyat seriyası. Bakı: ADU, 1979, səh: 38-46
3. Məmmədova X., Cavadov Ə. Tabeli mürəkkəb cümlələrin semantik-qrammatik xüsusiyyətləri. Bakı: Mütərcim, 2000, 76 s.
4. Müzəffəroğlu T. Müasir Azərbaycan dilində mürəkkəb cümlənin struktur semantikası. Bakı: Azərnəşr, 2002, 304 s.
5. Elçin. Seçilmiş əsərləri. II cild. Bakı: Çinar-Çap, 2002, 523 s.
6. Kərimzadə F. Xudafərin körpüsü. Bakı: Yazıçı, 1982, 208 s.
7. Məmmədquluzadə C. Əsərləri. I cild. Bakı: Öndər, 2004, 664 s.
8. Mir Cəlal. Seçilmiş əsərləri. Bakı: Şərq-Qərb, 2005, 384 s.
9. Əfəndiyev İ. Seçilmiş əsərləri. I c. Bakı: AVRASİYA PRESS, 2005, 280 s.

Açar sözlər: tabeli mürəkkəb cümlə, baş cümlə, budaq cümlə, qəlib söz

Key words: subordinate complex sentence, main sentence, branch sentence, pattern word

Ключевые слова: придаточное сложное предложение, главное предложение, ветвь предложения, шаблонное слово

Tabeli mürəkkəb cümlələrdə qəlib söz funksiyasında işlənən leksik vahidlər

Xülasə

Məqalə tabeli mürəkkəb cümlələrdə budaq cümlənin növünün müəyyənləşməsində rolu olan qəlib sözlərə həsr edilmişdir. Göstərilir ki, Azərbaycan dilində mövcud olan qəlib sözlər təkcə əvəzlik qəlib kimi təqdim edilən işarə əvəzliklərindən ibarət deyil. Həmçinin məqalədə təqdim etdiyimiz digər leksik vahidlər də həmin funksiyaya malik ola bilir.

Lexical units that are used in the form of a word perform a function in subordinate complex sentences

Summary

The article is devoted to pattern words that have a role in determining the type of branch sentence in subordinate complex sentences. It is shown that the qalib words that exist in the Azerbaijani language do not consist only of marked pronouns presented as pronoun qalib. Also, other lexical units presented in the article can have that function.

Лексические единицы, которые употребляются в форме слова, выполняют функцию в придаточных сложных предложениях

Резюме

Статья посвящена шаблонным словам, которые играют роль в определении типа ответвления в подчинительно-сложных предложениях. Показано, что существующие в азербайджанском языке галибовские слова состоят не только из отмеченных местоимений, представленных как местоимения галиб. Также эту функцию могут выполнять и другие лексические единицы, представленные в статье.

RƏYÇİ: dos. S.Abbasova

Nərmin Cahandar qızı Axundova[27]

ÜSLUBİ NEOLOGİZMLƏR LEKSİK KATEQORİYA KİMİ

Dilçilikdə kateqoriya anlayışı çox genişdir. Çünki dilçilikdə həm leksik səviyyədə, həm morfoloji səviyyədə və həm də sintaktik səviyyədə kateqoriya anlayışına baxılır. Yəni müasir dilçilikdə ənənəvi olaraq kateqoriya dedikdə yalnız qrammatik səviyyədə kateqoriya terminin anlaşılması düzgün deyil.

Bədii dilin əsas elementlərindən biri olan üslubi neologizmlər həm də leksik kateqoriya səviyyəsindədir. Üslubi neologizmlər, adətən, bədii mətnə ekspressivlik, emosionallıq verir.Üslubi neologizmlər fərdi söz yaradıcılığı olduğuna görə çox zaman onlar fərdi-bədii söz yaradıcılığının məhsulu hesab olunur. Adətən, söz, yəni leksem səviyyəsində olan üslubi neologizmlər *leksik okkazionalizmlər* adlanır. Dilçilikdə okkazionlizm anlayışı çox genişdir. Okkazionalizmlər həm morfoloji, həm sintaktik, hətta frazeoloji səviyyələrdə ola bilir. Hətta bəzən dilçilikdə *fonoloji neologizm* terminindən istifadə olunur. Fonoloji neologizm dedikdə süni yaradılan abreviaturlar nəzərdə tutulur.

İndiyə qədər dünya dilçiliyində bədii üslubun nəzəri məsələləri ilə bağlı V.Humboldt, R.Yakobson, Ş.Balli, E.Kuriloviç, V.V.Vinoqradov, Q.O.Vinokur, K.Fossler, T.Mayer və A.A.Potebnyanın mühüm fikirləri, nəzəri konsepsiyaları vardır. Roman Yakobson "Dilçilik və poetika" əsərində bədii dilin leksik-semantik aspektləri şərh edilmişdir (12). Böyük rus dilçisi, akademik V.V.Vinoqradov "Bədii nitq haqqında nəzəriyyələr" adlı əsərində bədii dilin mahiyyətini və funksiyalarını dəqiq şəkildə izah etmişdir (4). A.A.Potebnya "Dil və fikir" adlı əsərində dilin poetik imkanlarını yüksək dəyərləndirmişdir (7).

Hər bir yaradıcı söz sənətkarı bədii ədəbiyyata yeni üslubi çalarlı sözlər gətirir və beləliklə, bədii təxəyyülün nəticəsi kimi dildə gerçəkləşən yeni sözlər milli dilin daxili potensialını gücləndirir. Digər tərəfdən, üslubi neologizmlər milli ədəbi dilin etnomədəni düşüncə tərzinin ifadəsi kimi gerçəkləşir. Məsələn, Azərbaycan şairləri Mikayıl Müşfiqin poeziyasında *yataqdaş, qızılgöz, alovgöz, işılğan*, Rəsul Rzanın şeirlərində işlənən *çimərlik, işıqfor,* Xəlil Rza Ulutürkün şeirlərində işlənən *gölmə* tipli sözlər şair bədii təfəkkürünün məhsulu kimi ortaya çıxmış üslubi neologizmlərdir. Bu tipli sözlər etnolinqvistik mahiyyət daşıyır, dilin lüğət tərkibində işlənmə dərəcəsinə və funksiyasına görə bəzən aktiv, bəzən isə passiv lüğət fonduna daxil olur.

Müasir dilçilikdə bəzən üslubi neologizmlərlə okkazionalizmlər arasında sərhəd qoyulur. Halbuki bunlar sinonim terminlərdir. İstər üslubi neologizmlər, istərsə də okkazionalizmlər dilin, demək olar ki, bütün səviyyələrində özünü göstərir. Doğrudur, leksik səviyyədə üslubi neologizmlər daha çoxdur və statistik cəhətdən dominantlıq təşkil edir. Ancaq, eyni zamanda, öncə də qeyd etdiyimiz kimi, fonetik, morfoloji, sintaktik, hətta frazeoloji səviyyədə üslubi neologizmlər mövcuddur.

Müqayisə üçün qeyd edək ki, rus ədəbiyyatında V.Karamzin, V.Lomonosov, V.V.Mayakovski,**V.Xlebnikov, İ.Severyanin, D.Burlyuku və V. Kamenski** rus dilinəonlarla üslubi neologizmlər gətirmişlər. Azərbaycan ədəbiyyatında isə C.Cabbarlı, M.Müşfiq, R.Rza və digərləri üslubi neologizmlərlə Azərbaycan bədii dilini zənginləşdirmişlər.

Nəzəri dilçilik tarixində bu mövzuya həsr olunmuş ilkin araşdırmalardan biri N.İ.Feldmanın 1957-ci ildə yazdığı məqalədir. N.İ.Feldman "Voprosı yazıkoznaniya" jurnalında dərc etdirdiyi "Okkazional sözlər və leksikoqrafiya" (10, s.64-73.) adlı həmin məqaləsində ilk dəfə *okkazionalizm* termini işlədilmişdir. Doğrudur, həmin məqalədə daha çox sovet ideologiyası aspektindən yazılmışdır. Ancaq buna baxmayaraq, bu sahədə ilkin tədqiqatlardan biridir. Okkazional sözlər leksikoqrafik baxımdan da maraqlı dil faktlarıdır. Belə ki, müəllif leksikoqrafiyası məhz üslubi neologizmləri ehtiva edir.

N.İ.Feldman göstərir ki, rus ədəbiyyatında daha çox S.Şedrinin və V.V.Mayakovskinin yaradıcılığında okkazional sözlər işlənmişdir, ancaq alman və yapon ədəbiyyatında bu tipli sözlər daha çoxdur (10, s.68). N.İ.Feldmanın fikrincə, leksikoqraflar neologizmlərlə leksik okkazionalizmləri fərqləndirməli və onları lüğətə daxil etməməlidirlər (10,s.72). Ancaq bu fikirlə, təbii ki, razılaşmaq olmaz, çünki elə üslubi neologizmlər var ki, onlar dilin əsas lüğət fonduna daxil ola bilir və ümumişləklik qazanır. Azərbaycan dilinin timsalında buna çoxlu faktlar göstərmək mümkündür.

Çox zaman ədəbi dilə dialekt sözlər, üslubi neologizmlər, ümumiyyətlə, neologizmlər, məhz bədii ədəbiyyat vasitəsilə daxil olur. Məsələn, vaxtilə Azərbaycan xalq şairi Səməd Vurğunun canlı xalq danışıq dilindən gətirdiyi *sayrışmaq* sözü indi də poetik dildə, yəni bədii üslubda geniş işlənir. Yəni bu tipli (*sayrışmaq, gölmə, ilğım*) sözlər "Azərbaycan dilinin izahlı lüğəti"nə daxil olmuşdur.V.V.Lopatinin fikrincə, bu tipli sözləri dildən təcrid etmək olmaz, axı onlar həm dil, həm də nitq faktıdır(6,s.63).

A.Arjanov üslubi neologizmləri *eqologizmlər* adlandırır. Onun fikrincə, (*eqo* latınca *mən* deməkdir) bu tipli neologizmləri ancaq subyektiv mahiyyət daşıyır (6, s.64).Əslində, bu fikir doğru deyil, çünki elə üslubi neologizmlər var ki, onlar ümumişlək dil vahidinə çevrilə bilir.

Qeyd edək ki, aparılan araşdırmalar göstərir ki, morfoloji səviyyədə düzələn üslubi neologizmlərin əksəriyyəti hər bir dilin sözyaratma modelləri əsasında yaranır, yəni dilin morfoloji söz yaratma üsulundan kənara çıxmır. Bu baxımdan da üslubi neologizmləri dilin ümumi lüğəvi sistemindən təcrid etmək olmaz. Adətən, dilçilikdə üslubi neologizmlər və yaxud okkazionlizmlər semantik okkazionalizmlər, qrammatik okkazionlizmlər və sintaktik okkazionlizmlər şəklində təsnif edirlər.Müasir dünya dilçiliyinin dildən daha çox, nitqi öyrənməsi faktı çox önəmlidir. Deməli, vaxtilə hələ XIX əsrdə Ferdinand de Sössürün dil və nitq dixotomiyası indi də öz aktuallığını itirməmişdir. Üslubi neologizmlər problemi də birbaşa fərdi nitq

[27] **AMEA Nəsimi adına Dilçilik İnstitutunun dissertantı.narminaxundova88@mail.ru**

hadisəsidir. Təsadüfi deyil ki, rus tədqiqatçısı V.V.Lopatin yazır ki, V.V.Mayakovskinin yaratdığı sözlərin əksəriyyəti rus dilinin qanunları əsasında yaranmışdır, onlar bu baxımdan adi dil neologizmlərindən heç nə ilə fərqlənmir. Ancaq bu tipli sözlərin əksəriyyəti dilin lüğət tərkibinin aktiv fonduna daxil olmur, ümumişləklik qazanmır. Onlar ancaq V.V.Mayakovski tərəfindən yaradılan müəyyən bir kontekstlə bağlı olur. V.V.Lopatinin fikrincə, nitq dillə müqayisədə daha geniş yaradıcılıq imkanlarına malikdir, çünki dildən fərqli olaraq nitq danışanın özünün yaradıcılığıdır. Nitqdə dilin ümumi vasitələri ilə fikir ifadə olunur. Eyni zamanda, nitq fərdi xarakterli olduğuna görə,nitqdə fərdi dil vasitələri də özünü göstərir, hansı ki, danışıq prosesinin hər hansı bir məqamına, mətnə aid olur(10, s.63).Qənaətimizcə, V.V.Lopatinin fikirləri həqiqəti əks etdirir.V.V.Lopatinin qənaətinə görə, bu tipli sözlərin neologizm adlandırılması düzgün deyil, onların *okkazionalizm* (latınca *occasio* "təsadüf" deməkdir) adlandırılması daha düzgündür. Çünki onlar nitqə təsadüfi nitq faktı kimi daxil olur. Onun fikrincə, okkazionalizmlər adi sözlərə nisbətən emosional yük baxımından daha da geniş imkanlara malik ola bilir (10, s.63-65).

İndiyə qədər dünya dilçiliyində üslubi neologizmlər daha çox bədii üslubun spesifik elementi kimi öyrənilirdi. Ancaq indi dünya dilçiliyində yeni tendensiyalar, yeni konsepsiyalar mövcuddur. Belə ki, müasir dilçilikdə bədii mətnə koqnitiv, psixolinqvistik, praqmatik aspektlərdən də baxılmaqdadır. Buna görə də hal-hazırda dünya nəzəri dilçiliyində üslubi neologizmləri bir neçə aspektdən öyrənirlər:

1) Taksonomik aspektdən;
2) Psixolinqvistik aspektdən;
3) Funksional-praqmatik aspektdən.

Taksonomiya termini biologiyadan dilçiliyə gətirilmiş termindir. Bu termin istənilən bir elmdə klassifikasiya qanunlarını, təsnifat nəzəriyyəsinin öyrənir. Məlumdur ki, klassifikasiya bütün elmlərdə sistemli tədqiqatın əsasını təşkil edir. Dilçilikdə tipoloji tədqiqatlar artdıqca taksanomiya da dil vahidlərinin iyerarxiyasını izləmək üçün tətbiqi zəruriləşmiş anlayışlardan birinə çevrilir. Çünki tipologiya dil vahidlərinin müxtəlif tiplərə, formalara görə təsnifatına, bölgüsünə əsaslanır. Deməli, tipologiya ilə taksanomiya arasında bağlılıq vardır. Taksanomiya iyerarxiya şəklində hər hansı bir mürəkkəb sistemin struktur cəhətdən təsnif edilməsi prinsiplərinə əsaslanır.

Taksanomiya aspektindən üslubi neologizmlər probleminə yanaşsaq, onların fonoloji, leksik, morfoloji və sintaktik səviyyələrdə mövcudluğu isbat edir ki, üslubi neologizmləri də sistemləşdirmək, onların təsnifatını aparmaq mümkündür. Üslubi neologizmləri semantik cəhətdən, struktur-semantik cəhətdən, funksional cəhətdən, troplar yaradan vasitələr baxımından təsnif etmək mümkündür.

Psixolinqvistik baxımdan bu məsələnin öyrənilməsi o mənada aktualdır ki, üslubi neologizmlər, ilk növbədə, söz yaradıcılığı faktıdır. Psixolinqvistikanın da əsas tədqiqat obyektlərindən biri məhz sözün yaranması prosesinin psixolinqvistik analizidir. Buna görə də bədii mətnlərdə yeni üslubi sözlərin yaranmasının psixolinqvistik aspektləri mövcuddur. İlk növbədə, bədii mətnin semantik-koqnitiv cəhətdən dərk olunmasında üslubi neologizmlər xüsusi mövqeyə malikdir.

Müasir dilçilikdə üslubi neologizmləri həm də semantik sahə nəzəriyyəsi baxımdan tədqiq edirlər.Funksional - praqmatik baxımdan isə üslubi neologizmlər müəllif söz yaradıcılığıdır. Onları şair və ya yazıçılar özləri yaratdıqlarına görə bu tipli dil faktlarına subyektiv münasibət ifadə edirlər.

Dilçilik tarixində üslubi neologizmlərin yaranması daha çox XX əsrlə bağlıdır. XX əsrin əvvəllərindən başlayaraq ədəbiyyat sahəsində bir çox yeni cərəyanlar yarandı (məsələn, futuristlər kimi). Bu cərəyanların bir qismi köhnəliyi rədd edir, yeniliyi təbliğ edirdilər. Üslubi neologizmlərin tədqiqi fərdi nitqdə söz yaradıcılığının imkanlarının öyrənilməsi baxımından da maraqlıdır.Çünki üslubi neologizmlər, ilk növbədə, nitq faktıdır. Məlumdur ki, məhz nitqdə dil sapmaları daha çox təzahür edir, dilə nisbətdə nitq daha qeyri-sabitdir, dəyişməyə daha meyillidir. Baxmayaraq ki, okkazional sözləri çox zaman situativ mahiyyətli dil vahidləri hesab edirlər, ancaq onların bir çox qismi dildə sabitləşərək, normallaşaraq ümumişləklik qazanır.

Dilçilikdə bəzən adi, potensial, standart sözləri *uzual leksika*, onların əksi olan sözləri isə qeyri-standart, yəni *okkazional* sözlər adlandırırlar. Təbii ki, üslubi neologizmlərin yaradılmasında məqsəd, ilk növbədə, bədii əsərdə stilistik priyomlardan istifadə etməklə onun emosionllığını, ekspressivliyini gücləndirməkdir.

Müqayisə üçün qeyd edək ki, rus dilçiliyində Azərbaycan dilçiliyindən fərqli olaraq ayrı-ayrı yazıçı və ya şairlərin yaradıcılığında üslubi neologizmlərlə bağlı araşdırmalar aparılmışdır.

D.Rozental, İ.Qolub və M.Telenkovanın birgə yazdıqları "Müasir rus dili" adlı kitabda qeyd olunur ki, ümumişlək neologizmlərdən başqa, dildə fərdi-müəllif neologizmləri də var ki, onlar konkret bir müəllif tərəfindən yaradılır. Müəlliflər həmin neologizmlər*okkozional neologizmlər* də adlandırırlar. Onların fikrincə, bədii səciyyəli neologizmlər daha çox metaforik məzmun daşıyır. Metaforalar kimi, onlar da rəngarəng və təkrarsızdırlar (8, c.129).*Occasio*- latınca "təsadüfən" deməkdir.

Həqiqətən də, üslubi neologizmlər bədii dilin spesifikləşməsində mühüm rol oynayır. Onların spesifik cəhətlərindən biri də polifunksional olmalarıdır. Üslubi neologizmlər uzual dil vahidlərinə qarşı duran leksik, morfoloji və sintaktik vahidlərdir. Yəni onları leksik səviyyədə olan üslubi neologizmlər, morfoloji səviyyədə olan neologizmlər və sintaktik səviyyədə olan neologizmlər kriteriyalarına bölmək mümkündür.

İndiyə qədər üslubi neologizmlər həm leksik-morfoloji cəhətdən, həm funksional-üslubi baxımdan, sözyaradıcılığı baxımdan, həm də onomasioloji baxımdan öyrənilmişdir. Müqayisə üçün qeyd edək ki, rus dilçiliyində A.İ.Smirnitski, O.S.Axmanova,N.M.Şanski, E.İ.Xanpira, N.Q.Babenkonun yaradıcılıqlarında neologizmlər müxtəlif aspektlərdən öyrənil-

mişdir. Bir sıra ədəbiyyatlarda fərdi-müəllif neologizmləri kimi də adlandırılan üslubi neologizmlər fərdi nitq faktı kimi də önəmlidir. Onlar həm məhsuldar, həm də qeyri-məhsuldar vasitələrlə yarana bilər.

Dünya nəzəri dilçiliyində poetik dilin bədii-fəlsəfi konseptləri haqqında fundamental fikirlər mövcuddur. Məsələn, "Praqa dilçiləri öz tədqiqatlarında funksional dil və üslub məsələlərinə geniş yer vermişlər. Məişət ("xalq") dilinə nisbətən ədəbi dilin daha çox inkişaf etmiş və daha dəqiq funksional diferensiyalı olduğunu irəli sürmüşlər. Onların fikrincə, ədəbi dil bir sıra funksional üslublara bölünür. Funksional dillərdən Praqa dilçilərini ən çox "iqtisadiyyat dili", xüsusilə də, "poetik dil" (bədii ədəbiyyat dili) məşğul etmiş və bunu onlar "ən qabarıq şəkildə düşünülmüş, məqsədəuyğun və bütöv dil növü" hesab etmişlər ki, bu dil növünün digər dil növləri içərisində səciyyəvi poetik funksiyasına görə xüsusi ifadə vasitələri vardır (1, s.155.). Beləliklə, məşhur Praqa dilçilik məktəbininin nümayəndələri tərəfindən poetik dil nəzəriyyəsi irəli sürülmüşdü.

Tanınmış Azərbaycan dilçisi Səlim Cəfərov "Müasir Azərbaycan dili" əsərində qeyd edir ki, "söz ustaları tərəfindən yaradılan yeni sözlər dilin daxili inkişaf qanunlarına uyğun olduqda ədəbi dildə özünə möhkəm yer tapır və onun lüğət tərkibini zənginləşdirir. Məsələn, C.Cabbarlının dilimizə *Aydın, Dönməz, Solmaz, Oqtay* kimi onlarca şəxs adları və başqa sözlər gətirmişdir. Yazıçı tərəfindən dilə gətirilən söz dilin daxili ruhuna uyğun olmadıqda, dildə uzun zaman işlənmir və tezliklə dildən çıxarılır. Buna şair R.Rzanın işlətdiyi *bizimləşən* sözünü misal göstərmək olar. *Bizimləşən* mənasına görə feili sifətdir, dilimizdə isə heç bir zaman şəxs əvəzliyindən feil və ya feili sifət düzələ bilmir" (2, s.77.). Bu tipli sözlərin başqa dilə tərcüməsi də filoloji cəhətdən çoxaspektlidir. Çünki onların bəzən qarşılığını, ekvivalentini tapmaq üçün tərcüməçidən böyük istedad tələb olunur.

Ədəbiyyat:

1. Adilov, M., Verdiyeva Z., Ağayeva F. Dilçilik problemləri. – Bakı: Elm, – 2019.
2. Cəfərov S. Müasir Azərbaycan dili. – Bakı: Maarif, – 1982.
3. Бабенко Н.Г. Окказиональное в художественном тексте: структурно-семантический анализ. – М.: Прогресс, 1997.
4. Виноградов, В.В. Стилистика. Теория поэтической речи.Поэтика. М.: 1963.
5. Грищева Е.С. Структурно-семантическое и функциональное описание лексических окказионализмов в рамках теории элокутивного поля /Диссертация. кандидата филологических наук : Абакан: 2006, 232 с.
6. Лопатин, В.В. Рождение слова. Неологизмы и окказиональные образования. М.: Наука, 1973. — 152 с.
7. Потебня, А.А. Мысль и язык / А.А.Потебня. – Киев: СИНТО, – 1993. – 192 с.
8. Розенталь Д.Э., Голуб И.Б., Теленкова М.А. Современный русский язык. – Введение. Лексикография. Орфоэпия.Графика и орфография. Словообразование. Пунктуация. Москва: Айрис Пресс, 2010, 448 с.
9. Терентьева Л.П. Семантика и прагматика лексическихокказионализмов: Автореф. дисс. кфилн. – М., 1983. – 26 с.
10. Фельдман Н.И. Окказиональные слова и лексикография / Москва: Вопросы языкознания, – 1957. №4, – с.64-73.
11. Ханпира Э.И. Окказиональные элементы в современной речи // Стилистические исследования. – М.: Наука, 1972.
12. Якобсон, Р. Лингвистика и поэтика // - В кн.: Структурализм: "за" и"против". М.: Прогресс, 1975, с. 194-218.

13. ***Açar sözlər: bədii dil, üslubi neologizm, leksik kateqoriya, fərdi söz yaradıcılığı, ekspressivlik.***
14. **Key words:** artistic language, stylistic neologism, lexical category, individual word formation, expressiveness.
15. **Ключевые слова**: художественный язык, стилистический неологизм, лексическая категория, индивидуальное словообразование , выразительность.

Xülasə

Məqalədə üslubi neologizmlərin leksik-semantik aspektlərindən bəhs olunur. Onların linqvistik baxımdan hərtərəfli, kompleks səciyyəsi verilir. Araşdırmada üslubi neologizmlərin bədii ekspressiv, emotiv funksiyaları haqqında məlumat verilir. Müəllif məqalədə üslubi neologizmlərin leksik kateqoriya kimi dilin ümumi leksik-semantik sistemindəki mövqeyini təsbit edir. Girişdə kateqoriya anlayışının müxtəlif aspektləri açıqlanır. Məqalədə üslubi neologizmlərin leksik kateqorial əlamətləri geniş təhlil olunur. Araşdırmada üslubi neologizmlərin okkazional cəhətləri də təsbit olunur və onların dilçiliyin ən yeni inkişaf istiqamətləri əsasında öyrənilməsindən bəhs olunur. Eyni zamanda, məqalədə ayrı-ayrı dilçilərin üslubi neologizmlər haqqındakı fikirləri geniş təhlil olunur, onlara müəllif tərəfindən subyektiv münasibət bildirilir. Məqalədə üslubi neologizmlərin müxtəlif terminlərlərlə ifadə edilməsi faktı da xüsusi qeyd olunur. Araşdırmada N.İ.Feldmanın, V.V.Lopatinin, A.Arjanovun, Səlim Cəfərov kimi alimlərin əsərlərinə istinad edilir. Məqalədə üslubi neologizmlərin leksik kateqoriya kimi səciyyəvi əlamətləri kompleks şəkildə araşdırılır, onların yaranmasının nəzəri -metodoloji aspektləri müəyyənləşdirilir.

Резюме

В статье рассматриваются лексико-семантические аспекты стилистических неологизмов. Им дана исчерпывающая, комплексная характеристика с лингвистической точки зрения. В исследовании представлены сведения о художественно-выразительных, эмоциональных функциях стилистических неологизмов. В статье автор определяет место стилистических неологизмов как лексической категории в общей лексико-семантической системе языка. Во введении объясняются различные аспекты понятия категории. В статье подробно анализируются лексико-категориальные признаки стилистических неологизмов. В исследовании также выявляются окказиональные черты стилистических неологизмов и обсуждается их изучение на основе новейших направлений развития языкознания. В то же время в статье подробно анализируются мнения отдельных языковедов о стилистических неологизмах, а автор дает субъективное отношение к ним. В статье также особо отмечается тот факт, что стилистические неологизмы выражаются в разных терминах. В исследовании упоминаются работы таких ученых, как Н.И.Фельдман, В.В.Лопати, А.Аржанов, Салим Джафаров. В статье всесторонне исследуются характерные черты стилистических неологизмов как лексической категории, определяются теоретико-методологические аспекты их образования.

Summary

The article deals with the lexico-semantic aspects of stylistic neologisms. They have been given comprehensive description from a linguistic point of view. The study presents information about the artistic, expressive, emotional functions of stylistic neologisms. In the article the author determines the place of stylistic neologisms as a lexical category in the general lexico-semantic system of the language. The introduction explains various aspects of the concept of a category. The article analyzes the lexical and categorical features of stylistic neologisms. The study also reveals occasional features of stylistic neologisms and discusses their study based on the latest trends in the development of linguistics. At the same time, the article analyzes the opinions of individual linguists about stylistic neologisms, and the author gives a subjective attitude towards them. The article also highlights the fact that stylistic neologisms are expressed in different terms. The study mentions the works of such scientists as N.I. Feldman, V.V. Lopati, A. Arzhanov, Salim Jafarov. The article comprehensively examines the characteristic features of stylistic neologisms as a lexical category, defines the theoretical and methodological aspects of their formation.

RƏYÇİ: dos. G. Rəfibəyli

Ruzanə Nemət qızı Süleymanova [28]

YUNUS ƏMRƏ POEZİYASININ İNGİLİS DİLİNƏ TƏRCÜMƏ XÜSUSİYƏTLƏRİ

Məqalədə XIII əsr Türk dünyasının mütəsəvvüf şairi Yunus Əmrə ədəbi irsinin ingilis şərqşünaslığında tədqiqindən bəhs edilir. Burada əsasən şotland əsilli, türk poeziyasının, eləcə də Azərbaycan şairlərindən Qazi Bürhanəddin, İmaməddin Nəsimi və Məhəmməd Füzuli kimi dünya şöhrətli şairlərin poetik incilərini ingilis dilinə çevirən E.C.V.Gibbin fəaliyyətindən danışılır. Gibb öz tədqiqatında böyük şairin həyatı, yaşadığı dövr, mühiti ilə bağlı geniş məlumat verir. Təzkirəçilərin şairlə bağlı fikirlərinə öz münasibətini bildirən şərqşünas eyni zamanda şairin Divanından üç qəzəl və bir məsnəvisini ingilis dilinə çevirmişdir. Şərq ədəbiyyatına, Şərq mədəniyyətinə heyran olan, ərəb, fars dillərinə, xüsusilə Türk dilinə böyük sevgi göstərən Gibb Yunus Əmrə ədəbi irsinə dərindən bələd olan bir şərqşünas kimi diqqəti çəkir. Şərqşünasın şairin Divanından tərcümə etdiyi qəzəllər Yunus Əmrənin ən ümdə, xarakterik cəhətlərini ehtiva edən sənət nümunələridir. Məqalədə eyni zamanda tərcümə edilən bu poetik nümunələr orijinalla müayisə edilir, fərqli və oxşar cəhətləri göstərilir.

Türk dünyasının böyük mütəsəvvif şairi, əsərləri ilə Şərq dünyasında, eləcə də Qərb aləmində şöhrət tapmış, XIII yüzilliyin poeziya zirvəsində duran Yunus Əmrə yaradıcılığı əsrlər keçsə də, daim diqqət mərkəzində olmuş, poetik aləmi dönə-dönə tədqiq edilmişdir. Şeirin bir çox formalarında "qəzəl, məsnəvi, ilahi, nəfəs və s. şeir şəkillərinin yer aldığı Yunus Əmrə Divanı heca və əruz vəznində yazılmış... adı və sənəti yaşadığı gündən son əsrlərə qədər o qədər əziz və müqəddəs olmuşdur ki, onun təxəllüsü ilə şeirlər yazılmışdır ki, sonrakı dövrlərdə bu nümunələr onun divanına daxil edilmişdir" [1, s. 48]. Yunus Əmrə dövründə monqol istilahlarının törətdiyi qırğınlar, dağıntılar və bu ağır, məşəqqətli çağlarda fırtınalı bir həyat tərzi keçirən böyük şair dərviş libası geyərək eldən-elə, obadan-obaya geçərək həyatın əzablı çağlarını, ərşəyə qalxan zülmün sədasını poetik bir biçimdə xalqa çatdırırdı:

Mən dərvişəm deyən kişi işbu yola ar gərəkməz,
Dərviş olan kişilərin könlü gendir dar gərəkməz...
Dərviş olan kişilərin miskinlikdir sərmayəsi,
Miskinlikdən özgə bizə malü, mülkü şar gərəkməz [2, s. 135].

Həqiqətən də deyildiyi kimi, "şair Yunus bu qism dərvişlərdən idi və əsərlərindən də bu qism dərvişləri-insanı ülviliyə, haqqa-həqiqətə qovuşduran dərviş zümrəsini tərənnüm edirdi... Yunusa görə dərviş adını daşıyan qəlbində tanrı işığı gəzdirməli, hamıya və hər kəsə dost gözü ilə baxmalıdır" [3, s. 347].

Yunus Əmrə ədəbi irsi Şərq dünyasını fəth etməklə bərabər eyni zamanda Qərb dünyasini da cəlb etmiş, Avropa tədqiqatçıları bu böyük şairin yaradıcılığı ilə bağlı elmi-nəzəri fikirlər söyləməklə yanaşı, yeri gəldikcə onun poetik incilərindən də öz doğma dillərinə tərcümə etmişlər. Onu da qeyd edək ki, Yunus Əmrə poeziyasının ingilis dilinə tərcümə edilməsi və tədqiqi xüsusi olaraq araşdırılmamışdır. Şairin poetik nümunələrinin ilk dəfə ingilis dilinə tərcümə edilməsi şotland əsilli, türk poeziyasının, eləcə də Azərbaycan şairlərindən Qazı Bürhanəddin, İmadəddin Nəsimi, Məhəmməd Füzuli kimi dünyaşöhrətli şairlərimizin şeirlərini ingilis dilinə çevirən Elyas Con Vilkonson Gibbin adı ilə bağlıdır. Şərqşünas Yunus Əmrənin həyatı, yaşadığı dövr, mühiti ilə bağlı geniş məlumat verməklə bərabər şairin Divanından ingilis dilinə üç qəzəl, bir məsnəvi tərcümə etmişdir. Gibbin yazdığına görə təzkirəçilərin heç biri Yunus Əmrə ilə bağlı geniş məlumat vermir. Lakin Vələd Çələbinin öz məqaləsində göstərdiyinə görə Yunus Əmrənin öz şeirlərinin birində qeyd edilən tarixdən anlaşılır ki, şair təzkirəçi Taş-Köprülzadə və onun davamçısı olan İldırım Bəyazidin dövrü olan 1340-1403 [hicri 792-805]-cü ildən bir əsrə qədər daha qabaq yaşamışdır.

'And seven hundred and seven was the date,
'When Yunus laid down his life [i.e. devoted himself] in this Path' [4, s. 165].

Sətri tərcüməsi:

Tarix dəxi yeddi yüz yeddi idi,
Yunus öz canını bu yolda qoymuş idi.

Yunus Əmrənin təhsili haqqında təzkirəçilərin fikirlərini önə çəkən Gibb onların gəldiyi nəticəyə görə Yunus Əmrə savadsız olmuş, lakin istedadının Allahın verdiyi elm nəticəsində olduğunu qeyd etmişlər. "Yunus Əmrə necə savadsız ola bilərdi ki, türk poeziya sənətinin, bütövlükdə türk ədəbi dilinin bu gün də qüvvədə olan və əsrlər keçdikcə daha böyük həyati qüvvə kəsb edəcək qanunlarını vermişdir...bir şair, bir alim, bir sənətkar kimi ancaq öz şeirləri ilə!" [5, s. 149]. Belə ki, Yunus Əmrənin istedadı bir Allah vergisidir. Beləliklə Aşıq Çələbiyə görə Yunus Əmrə ilahi qüdrətin mülk dünyasından mələklər dünyasına apardığı kamil insanlardandır. Savadsız olmağına rəğmən Allahın lütfü ilə elm sahibi olanlardandır. O, dünyavi dili qəlb dilinə çevirən, qəlbin dilinin səsiylə sirlər söyləyən vəlilərdəndir və qəlbin gözü ilə oxuyanlardandır. Şərqşünas şairin Divanında olan şeirlərini xarakterizə edərkən onun incə tərzdə kinayələr və mükəmməlliklər ehtiva dən varsağı üslubunda yazılmış şeirlərindən danışır və qeyd edir ki, bu şeirlərdən Yunus Əmrənin Tohid elminə və ilahi sirlər sırasında fövqaladə bir biliyə sahib olduğu açıq-aşkar görünməkdədir. Doğrudan da, "Türk ruhunun bədii ifadəsi kimi səslənən Yunus Əmrə şeiri geniş mənada ümumtürk miqyasında islami dəyərlərlə insani-mənəvi keyfiyyətlərin birlikdə tərənnüm edilməsinin məcmusundan ibarət olan müdrık sənət nümnəsidir. Bu aqilanə poeziya bütövlükdə insanın şəriətə yiyələnməklə və təriqətdən keçərək mərifət vasitəsilə özünü inkişaf etdirməklə həqiqətə qovuşa bilməsinin poetik təsdiqidir" [6, s. 11]. Onu da da qeyd edək ki, Şərq ədəbiyyatına, Şərq mədəniyyətinə böyük maraq göstərən Gibb "ərəb, fars, xüsusən türk dilləri ilə

[28] Gəncə Dövlət Universitetinin doktorantı. Azərbaycan Dövlət Aqrar Universitetinin ingilis dili müəllimi, *ruzanesuleymanova@gmail.com*

ciddi məşğul olmuşdur. Gibbin ən yaxın dostu olan Edvard Braunun yazdığına görə, Gibbdə Şərqə maraq E.Vilyam Leynin və Con Peynin ingilis dilinə tərcümə etdikləri "Min bir gecə" əsərini oxuyandan sonra yaranmışdır" [7, s. 68]. Gibbin Yunus Əmrə divanından etdiyi ilk nümunə "mənəm" rədifli "Kəbəvü büt iman mənəm, çərx uruban dönən mənəm" misrası ilə başlayan qəzəlidir.

Kəbəvü büt iman mənəm, çərx uruban dönən mənəm,
Bulut oluban havaya yağmur olub yağan mənəm.

İldırım olub şaxıyan, şaxıyıb nəfsi toxuyan,
Yerin karında bərkiyən, ol ağılu ilan mənəm.

Həmzəyi Qafdan aşıran, əlin-ayağın şaşıran,
Çoxları taxtdan düşürən, hikmət issi sultan mənəm...

Gerçək aşiq gəlsin bəri, göstərəyim doğru yolu,
Məqam durur könül şari ırılmayıb duran mənəm [8, s.199-200].

İngilis dilinə edilmiş qəzəlin tərcüməsinə baxaq:

Faith, idol, Kaba-fane am I; who smites the sphere a spin am I;
The cloud upon the heavens' face, likewise the rains that rain am I.

The thunderbolt that flasheth forth, that, flashing, weaves itself in birth;
The poison-snake that deep in earth to creep and cower is fain am I.

The one who Hamza drew o'er Qaf, who swelled his hands and feet therewith;
Who many from their thrones drave off, the King of Wisdom's Rayne am I

Let him come here who suffers woe that I to him a place may show;
My heart his home, mine eye his town; Time in the Cycle-train am I [9, s. 170-171].

Biz qəzəlin ingilis dilinə edilən tərcüməsinə baxanda görürük ki, tərcümə istər dil və üslub baxımından, eləcə də forma və məzmun baxımından orijinalla eyniyyət təşkil edir. Halbuki, Qərb poeziyasının forma baxımından Şərq şeirindən fərqli olması məlumdur. Lakin bu çətinliyə baxmayaraq Gibb tərcüməsində Yunus Əmrə sənətkarlığına dərindən bələd olan, onun hissini, qəlb dünyasını duyan bir istedadlı mütərcim kimi bu çətinliyin öhdəsindən məharətlə gəlmiş, tərcümə uğurlu alınmışdır. Gibbin Yunus Əmrənin digər bir qəzəlinin ingilis dilinə etdiyi tərcüməsinə baxanda, şərqşünasın Şərq ədəbiyyatını, eləcə də türkdilli şeirin bütün incəliklərinə bələd olduğunun şahidi oluruq. Buna bariz misal olaraq biz Yunus Əmrənin digər bir qəzəlinin tərcüməsini nümunə verək:

Ol Qadiri Kün-feyəkun lütfedici Rəhman mənəm,
Kəsmədin rizqini verən cümlələrə sultan mənəm.
Nütfədən Adəm yaradan yumurtadan quş törədən,
Qüdrət dilini söyləyən zikr eyləyən Sübhan mənəm.
Kimini zahid eyləyən, kimini fasik eyləyən,
Ayıblarını örtücü dəlililə bürhan mənəm...
Bu yeri-göyü yaradan, bu Ərşi Kürsi durduran,
Min bir adı vardır Yunus ol sahibi-Quran mənəm [10, s. 214-215].

Bu möhtəşəm qəzəlində böyük şair əzmlə, sənətkarlıqla dilin bütün imkanlarından istifadə edərək "yaratmış olduğu poetik dil möcüzələri" [11, s.476] vasitəsilə Qüdrət sahibini heyranlıqla vəsf etmişdir. Yunus Əmrə dünyasına incə bələdliyi, eləcə də islami dəyərlərin sirlərini duyan və mənimsəyən Gibb heç bir ixtisara yol vermədən böyük şairin bu mükəmməl qəzəlini uğurla tərcümə etmişdir. Qəzəlin ingilis dilinə tərcüməsinə baxaq:

The Mighty One of 'Be! And 'tis, that Lord of gracious sway am I,
That King who ere 'tis cut provides for each his bread each day am I.

The One who maketh man of speed, who maketh bird from egg proceed,
Who makes the Tongue of Power to speak, He who remembereth aye am I.

Who maketh some ascetics be, and some to work iniquity;
That Argument and Proof who veils their faults and flaws always am I…

He who did earth and sky create, who maketh Throne and Stool rotate;
Thosand and one His Names; Yunus, He of the Koran, yea, am I [12, s. 171-172].

Gibbin Yunus Əmrə ədəbi irsindən, onun zəngin poetik incilərindən seçərək etdiyi tərcümələr şairin ən ümdə, ən xarakterik cəhətləri ehtiva edən sənət nümunələridir. Tərcümə zamanı şeirin forma, məzmunu caxlanılmaqla bərabər onda

olan ritm, intonasiyanın da qorunmasının vacibliyini bilən mütərcim tərcümədə bütün bunlara riayət etmişdir. Məhz bu baxımdan Gibbin bütün tərcümələri uğurlu alınmışdır. Biz buna barız misal olaraq Yunus Əmrənin "gəl" rədifli qəzəlinə baxaq:

Yoldaş olalım ikimiz, gəl dosta gedəlim gəl,
Haldaş olalım ikimiz, gəl dosta gedəlim gəl...

Bu dünyaya qalmayalım, fanidir aldanmayalım,
İkimiz ayrılmayalım, gəl dosta gedəlim gəl.

Dünya deyildir payidar, aç gözünü canın uyar,
Olgil bizə yoldaşu yar, gəl dosta gedəlim gəl.

Ölüm xəbəri gəlmədən, əcəl yaxamız almadan,
Əzrayıl həmlə qılmadan, gəl dosta gedəli gəl.

Gerçək Aşiqi görəlim, hakkın xəbərin alalım,
Aşiq Yunusu bulalım gəl dosta gedəlim gəl [13, s. 172-173].

Gibb haqlı olaqaq Yunus Əmrənin yüksək sənətkarlıqla yazdığı bu qəzəlini təsəvvüf həyatı dərk etmək üçün bir çağırış olduğu qənaətinə gəlir. Qəzəlin ingilis dilində tərcüməsi belədir:

Come and let us two be comrades, come and let us seek the Loved One;
Come and let us two be helpmates, come and let us seek the Loved One.

Let us quit the world together, cheated not, for it doth wither;
Let us two be parted never, come and let us seek the Loved One.

Soothly in the world unstable; open thine eye, thy soul is sleeping;
Unto us be fere and comrade, come and let us seek the Loved One.

Ere the clutch of Fate impel us, ere the voice of Death do hail us,
Ere that 'Azrail' assail us, come and let us seek the Loved One.

Let us see the loyal lover tidings of The Truth to gather,
Let us find the lover Yunus, come and let us seek the Loved One [14, s. 173].

Gibb Yunus Əmrə Divanından cəmi bir məsnəvini tərcümə edərək ingilis oxucularına çatdırmışdır. Şair bu məsnəvisində Allaha xitabən bir çox batil məzhəb əhli olanları çox cəsarətlə ittiham edir:

Ya ilahi, əgər sual etsən mənə,
Bu durur cavabım onda sənə.
Mən mənə zülm eylədim etdim günah,
Neylədim nə etdim sənə ey padişah.
Gəlmədin dedim hakumə kəm deyə,
Doğmadın dedin asi Adəm deyə...
Hər nə dersən hökmdə işlədüm,
Nə tuşa durdumsa, sən tuşladın...
Gözüm açıb gördüyüm zindan içi,
Pür həvavü dopdolu şeytan içi.
Həbs içində ölməyəyim deyə ac,
Mismül murdar yedim bir-iki kaç...
Çün Yunusdan gəlmədi hərgiz ziyan,
Sən bilirsən aşikaravü nihan [15, s. 371].

Müraciət, sual formasında qurulan Yunus Əmrə məsnəvisində bu fani dünyadan axirət yolunadək keçid məqamları bir-bir sadalanır.

Şərqşünas bu məsnəvini çox uğurla tərcümə etmişdir. Məsnəvidə ifadə olunan dini terminlərin ingilis oxucularının anlaması üçün geniş şərhini verir, bir-bir izah edir. Bütün bunlar göstərir ki, Gibb şərq ədəbiyyatını, şərq mədəniyyətini, eyni zamanda islami dəyərləri dərindən bilən bir istedad sahibidir. Yunus Əmrə məsnəvisinin ingilis dilinə tərcüməsinə nəzər salaq:

O my God, if so be Thou should question me,
Lo then, this would be mine answer unto Thee:-
'Gainst myself I've sinned and mine own hurt have sought;
But to thee, O King, what have I done or wrought?

Ere I came Thou didst decree me frail to be;
Ere my birth Thou sadist: 'A rebel he 'gainst me!'
When I opened mine eyes a prison met my view,
Grammed with fiends and devils, and with lust a-stew.
Saying, 'Lest within this jail I hungered die,
Times have been when clean and unclean eat have I…
Now from Yunus there hath sprung no evil deed;
And Thou knowest all that is, revealed and hid [16, s. 174-175].

Yunus Əmrə ədəbi irsi tükənməz bir xəzinədir. Bu böyük sənətkarın əsərlərini bütün xalqların dillərinə tərcümə edilməsi günümüzün ən vacib məsələlərindən biri kimi qarşıda durur.

İstifadə olunmuş ədəbiyyat

1. Quliyev E. Yunus İmrə. Yaradıcılığı. Türk xalqları ədəbiyyatı. Bakı: Qismət, 2009
2. Yunus Əmrə. Salam olsun. Divan. Elm və təhsil, Bakı, 2021
3. Azadə R. Yunus İmrə Cazibəsi. Mənəvi dünənimiz bu günün işığında. Bakı: Elm, 2011
4. E.J.W.Gibb. Yunus Emre. A history of ottoman poetry. In 6 volume. Vol.I, London, 1900
5. Nəbiyev B. Yunus İmrə haqqında düşüncələr. Yunus Əmrə Əmrə Azərbaycan ədəbiyyatşünaslığında. Bakı: Elm və təhsil, 2014
6. Həbibbəyli İsa. Yunus Əmrə dastanı. Yunus Əmrə. Salam olsun. Divan. Bakı, Elm və təhsil, 2021
7. Əliyeva L. Füzuli və ingilis şərqşünaslığı. Bakı: Ozan, 1977
8. Yunus Əmrə. Salam olsun. Divan. Bakı: Elm və təhsil, 2021
9. E.J.W.Gibb. Yunus Emre. A history of ottoman poetry. In 6 volume. Vol.I, London, 1900
10. Yunus Əmrə. Salam olsun. Divan. Bakı: Elm və təhsil, 2021
11. Nəbiyev Bəkir. Dilimiz-mənəviyyatımız, ədəbi dildə alınmalar məsələsinə dair. Seçilmiş əsərləri beş cilddə. Beşinci cild. Bakı: Çinar-Çar:, 2009
12. E.J.W.Gibb. Yunus Emre. A history of ottoman poetry. In 6 volume. Vol.I, London, 1900
13. Yunus Əmrə. Salam olsun. Divan. Bakı: Elm və təhsil, 2021
14. E.J.W.Gibb. Yunus Emre. A history of ottoman poetry. In 6 volume. Vol.I, London, 1900
15. Yunus Əmrə. Salam olsun. Divan. Bakı: Elm və təhsil, 2021
16. E.J.W.Gibb. Yunus Emre. A history of ottoman poetry. In 6 volume. Vol.I, London, 1900

Açar sözlər: Yunus Əmrə, E.C.V.Gibb, şərqşünas, poeziya, ədəbiyyat.
Key words: Yunus Emre, E.C.W. Gibb, orientalist, poetry, literature.
Ключевые слова: Юнус Эмре, Э.К.В. Гибб, востоковед, поэзия, литература.

Translatıon peculiarities of Yunus Emre's poetry ınto englısh

Summary

The article deals with the study of the literary heritage of Yunus Emre, a Sufi poet of the 13th century Turkic world, in English oriental studies. Here we talk about the activities of Scottish origin E.J.W.Gibb, who mainly translated the poetic pearls of Turkish poetry, as well as Azerbaijani poets Gazi Burhaneddin, Imadeddin Nasimi and Muhammad Fuzuli into English. In his research, Gibb provides extensive information about the great poet's life, period, and environment. Expressing his attitude to the views of the commentators on the poet, the orientalist also translated three ghazals and one Masnawi from the poet's Divan into English. Admiring Eastern literature and Eastern culture, showing great love for Arabic and Persian languages, especially Turkish, Gibb draws attention as an orientalist who is deeply familiar with the literary heritage of Yunus Emre. Ghazals translated by the Orientalist from the poet's Divan are examples of art that contain the most important and characteristic features of Yunus Emre. At the same time, in the article these poetic examples translated are compared with the original, their differences and similarities are shown.

Особенности перевода поэзии Юнуса Эмре на английский язык

Резюме

В статье рассказывается об исследовании литературного наследия суфийского поэта тюркского мира XIII века Юнуса Эмре в английском востоковедении. Здесь речь идет о деятельности шотландца по происхождению Э.Дж.В.Гибба, в основном переводившего поэтические жемчужины турецкой поэзии, а также азербайджанских поэтов Гази Бурханеддина, Имадеддина Насими и Мухаммеда Физули на английский язык.

В своем исследовании Гибб предоставляет обширную информацию о периоде жизни и окружении великого поэта. Выражая свое отношение к взглядам комментаторов на поэта, востоковед перевел на английский язык три газели и один маснави из «Дивана» поэта. Восхищаясь восточной литературой и восточной культурой, проявляя большую любовь к арабскому и персидскому языкам, особенно к турецкому, Гибб привлекает внимание как востоковед, глубоко знакомый с литературным наследием Юнуса Эмре. Газели, переведенные им из «Дивана», являются образцами, передающими лучшие и наиболее характерные черты Юнуса Эмре.

Газели востоковеда с дивана поэта - примеры лучших и наиболее характерных черт Юнуса Эмре. В статье эти переведенные поэтические образцы сравниваются с оригиналом, указываются их отличия и сходства.

RƏYÇİ: dos. L.Ələkbərova

Əntiqə Nazim qızı Quliyeva[29]

XIX ƏSR AZƏRBAYCAN DİLÇİLİYİ: ABBASQULU AĞA BAKIXANOV

Dilçilik dünyanın ən qədim elmlərindən biri hesab olunur. İnsanın özünü dərk etdikdən sonra məşğul olduğu problemlər içərisində dil məsələləri birinci sırada özünü göstərir. İnsanların dil haqqında ilkin düşüncələri dilçiliyin rüşeymlərinin yaranmasına gətirib çıxarır. Prof. B.V.Çobanzadənin bu barədəki fikri maraqlıdır: "İnsanlar çox qədim zamanlardan bəri dil və onun mənşəyi haqqında düşünməyə başladılar. Dillərin müxtəlifliyi, qaib olması, unudulması haqqında ibtidai mədəniyyətə malik olan insanların bir qrup məsələlər törətdiyini onların bizə qədər qalmış, yazılmış əsərlərindən, abidələrindən öyrənirik. Gərək Bibliyan qələsi ətrafında dillərin tanrı tərəfindən bir afət, lüğət əsəri olmaq üzrə dillərin qarışdığına dair hekayə, gərəksə Quranda və ona təfsir yazan dil üləmasının ifadə etdiyi vəchlə Adəm peyğəmbərə Allah tərəfindən hər şeyin ismi öyrədildiyi haqqındakı iddiaları dilçilik elminin birinci nəzəriyyələri kimi qəbul etmək lazım gəlir" [1, s, 20-21].

Azərbaycan dilçiliyinin tarixi tam və sistemli şəkildə araşdırılmadığı kimi dövrləşməsi də dəqiqləşdirilməmişdir. Dilçiliyimizin inkişaf tarixini ardıcıl izlədikdə aydın olur ki, Azərbaycan dilçiliyinin dövrləşməsi dünya dilçiliyinin tarixi dövrləşməsinə tam uyğundur. Azərbaycan dilçiliyinin tarixini dörd dövrə bölmək olar:

1) Azərbaycan dilçiliyinin ilkin təşəkkül dövründən XIX əsrə qədərki dövrüdür. Bu, Azərbaycan dilçiliyinin və Azərbaycanda dilçiliyin və ümumi türkologiyanın təşəkkül tapıb formalaşması dövrüdür. Bu dövrdə dilçiliyin tətbiqi sahələri nəzəri dilçiliyə nisbətən daha irəli getmişdir. Bu dövrdə Azərbaycan dilçiliyi daha çox ərəb dilçilik ənənələrinə söykənirdi;

2) Azərbaycan dilçiliyinin elm kimi formalaşması, nəzəri problemlərinin tədqiqə cəlb edilməsi dövrü. Bu dövr XIX əsri və XX əsrin 20 ilini əhatə edir. Bu dövrdə Azərbaycan dilçiliyi Rus və Avropa, habelə şərq dilçiliyi ənənələrindən qidalanaraq müstəqil şəkildə inkişaf etməyə başlayır. Bu dövr milli dilçi kadrlarımızın yetişməsi, məhz ana dilimizin qrammatik qanunlarını tədqiqata cəlb edilməsi ilə səciyyələnir;

3) Dilçilik tarixinin üçüncü dövrü sovet hakimiyyəti illərini əhatə edir. Bu dövr öz ziddiyyətləri, inkişafı və tənəzzülləri ilə diqqəti cəlb edir. Üçüncü dövr Azərbaycan dilçiliyinin artıq dünya miqyasına çıxması ilə də səciyyələnir. Bu dövrdə Azərbaycan dilçiliyi həm eninə, həm də dərininə inkişaf etmişdir. Eyni zamanda bu dövr dilçiliyimizin şaxələnməsi, dilin həm struktur, həm də ekstralinqvistik problemlərinin geniş və hərtərəfli tədqiq edilməsi dövrüdür;

4) Müasir dövr adlandırdığımız dövr isə SSRİ-nin dağılması, Azərbaycanın müstəqilləşməsi, dilçilik elminin imperiya siyasətindən, "Partiyalılıqdan" xilas olması dövrüdür. Bu dövrdə dilçiliyin inkişafında xüsusi perspektivlər açılır. Dilin tarixi və başqa ekstralinqvistik problemləri haqqında milli mənafeyimizə uyğun istiqamətdə tədqiqat aparmaq imkanı meydana gəlir [1, s, 19-20].

XIX əsr Azərbaycanın siyasi həyatında olduqca çətin dövrdür. Belə ki, 1828-ci ildə Türkmənçay sülh müqaviləsi ilə Azərbaycanın şimali Rusiyanın, cənubu isə İranın tərkibinə qatıldı.

Əsrin 30-cu illərindən başlayaraq, Azərbaycanda rus məktəbləri fəaliyyət göstərir. 50-ci illərdən etibarən köhnə məktəblər tədricən "Üsuli-cədid" adlanan yeni məktəblərlə əvəzlənməyə başlayır. 1879-cu ildə Qori müəllimlər seminariyasının Azərbaycan şöbəsi təşkil edilməklə yüksək ixtisaslı müəllim kadrları hazırlanmağa başladı.

XIX əsrdə Azərbaycan dilinin nüfuzunun sürətlə artması bir neçə səbəblə əlaqədardır:

1) Rusiya imperiyasının Azərbaycana xüsusi diqqət verməsinin nəticəsidir (çünki Azərbaycan iqtisadi baxımdan varlı, gəlirli ölkə idi);

2) Azərbaycan Rusiya üçün Türkiyə və İrana, bütün Ön Asiyaya çıxış idi;

3) Azərbaycan dili digər türk dilləri ilə müqayisədə daha çox orta mövqe tuturdu və bu, Azərbaycan ədəbi (xüsusilə yazı) dilinə də aid idi [2, s, 468].

XIX əsr dünya xalqlarının tarixində xüsusi diqqətə layiqdir. Bu dövrdə elm və mədəniyyət yüksək inkişaf prosesi keçirir. Bu baxımdan yanaşdıqda XIX əsri inkişaf əsri hesab etmək olar. Dilçilik bir elm kimi XIX əsrdə formalaşaraq fəlsəfənin çərçivəsindən çıxmışdır. XIX əsr Azərbaycan dilçiliyinin inkişafında görkəmli nümayəndələrimizin mühüm xidmətləri olmuşdur. A.A.Bakıxanov, S.Vəlibəyov, M.C.Topçubaşov, M.Rzayev, M.Kazım bəy, N.Nərimanov və b. XIX əsr Azərbaycan dilçiliyinin inkişafında mühüm rol oynamışlar.

XIX əsrdə dilçiliyin lüğətçilik və qrammatika sahələrində yüksəliş özünü göstərir. M.Kazım bəyin nəşr olunmamış türkcə-rusca lüğəti ("Qısa lüğət"), L.M.Lazarevin "Турецко-татарско-русский словарь"ı (1864), S.M.Qənizadənin "Русско-татарский словарь"ı (1891) mərhələnin əsas lüğətləri sayılır [2, s, 473].

Qrammatika kitabları içərisində M.Kazım bəyin məşhur əsərlərindən sonra L.Budaqovun "Практическое руководство турецко-татарского азербайджанского наречия" (Moskva, 1857), M.Ə.Vəzirovun "Учебник татарско-азербайджанского наречия" (Спб., 1861), Mirzə Məhəmməd Əfşarın "Fənni-sərfi-türki" (80-ci illər), S.M.Qəniyevin "Полнейший самоучитель татарского языка кавказско-азербайджанского наречия" (Bakı, 1890), N.Nərimanovun "Türk-Azərbaycan dilinin müxtəsər sərf-nəhvi" (Bakı, 1899) əsərləri diqqəti cəlb edir və hansı həcmdə və keyfiyyətdə tədris olunduğu barədə müəyyən təsəvvür yaradır [2, s, 473-474].

XIX yüzilliyin birinci yarısında Azərbaycan mədəniyyətinin, elminin ən böyük nümayəndələrindən biri kimi Abbasqulu ağa Bakıxanovun mühüm xidmətləri olmuşdur. A.Bakıxanov fars dilini mükəmməl bilirdi. Rusiya-İran

---

[29] Bakı Dövlət Universitetinin magistrantı

müharibələri dövründə tez-tez İrana getməsi onun fars dili sahəsindəki biliklərini daha da dərinləşdirməsinə gətirib çıxardı. O özü fars dilini öyrənməsi haqqında yazır: "Bu müddət ərzində öyrəndiyim bir şey varsa, o da fars dilinə kifayət qədər aşina olduğumdur. Siyasət aləmində baş verən müharibələr olcağın ailəmiz Qubaya köçdü. Qubaya köçən zamandan 10 il müddətində bəzi elmlərin öyrədilməsinə əmək sərf etdim. Maddi və qeyri səbəblərin mane olmasına baxmayaraq, bu müddət ərzində elmlər sahəsində cüzi şöhrət qazanmağa müvəffəq oldum" [4, s, 399].

A.Bakıxanov müasirləri arasında şairlikdən çox alim kimi tanınırdı. O, özündən əvvəlki alimlərdən elmə gətirdiyi yeniliyi və müasirliyi ilə seçilirdi. A.Bakıxanova qədər fəaliyyət göstərən alimlər dil, ədəbiyyat, məntiq, tarix və s. elmlərdən əsər yazarkən bunları dini nöqteyi-nəzərdən izah edirdilər. Bununla bağlı olaraq elm sahəsində durğunluq özünü göstərirdi. Belə bir şəraitdə A.Bakıxanov "Qanuni-Qüdsi", "Əsrarül-mələküt", "Təhzibül-əxlaq", "Gülüstani-İrəm" kimi əsərləri ilə elmdə qəti dönüş yaratdı.

A.Bakıxanovun elmi əsərləri içərisində "Qanuni-Qüdsi" əsəri xüsusilə seçilir. Müəllif elmi əsərini 1829-cu ildə Tiflisdə yazmışdır. F.Qasımzadə bu əsərin gah 1828-ci ildə, gah da 1831-ci ildə yazıldığını qeyd edir. Başqa mənbələrdə qeyd olunur ki, bu əsər Tiflisdə 1828-ci ildə fars dilində, 1842-ci ildə rus dilində çap edilmişdir. T.Ələsgərovanın fikrincə, əsərin fars nəşrinin titul vərəqində hicri 1248-ci il (1832-1833), rus dilində nəşrinin titul vərəqində isə 1841-ci il tarixi qeyd olunmuşdur. Lakin əsərin 1829-cu ildə yazıldığı təsdiq olunmuşdur. Bu əsər fars dilinin sərf və nəhvinə aid yazılmış əsərdir.

Azərbaycan şərqşünası M.Sultanov A.Bakıxanovun "Qanuni-Qüdsi" əsəri haqqında yazır: "Qanuni-Qüdsi"- A.Bakıxanov bu əsəri uşaqlara fars dilinin sərf və nəhvini sadə dildə öyrətmək məqsədilə yazmışdır. Bu dərslik kitabı farsların özlərindən də çox qabaq dilin təlimi üçün yazılan ilk əsərlərdəndir. A.Bakıxanov əsəri üç fəslə bölür: fonetika, morfologiya və sintaksis. Burada müəllif, əsasən, ərəb və rus dillərinin qrammatik prinsiplərinə əsaslanmış, onları orijinal fars dilinin daxili qanunlarına uyğunlaşdırmağa çalışmışdır. O, Şərqdə bir ənənə şəklini almış qaydaya riayət edərək, bəzi misalları şeirlə vermişdir və bu şeirlərdə atalar sözlərini xatırladan hikmətamiz fikirlər ifadə etmişdir... Əsər ilk dəfə 1831-ci ildə fars dilində, 1841-ci ildə isə Tiflisdə rus dilində nəşr edilmişdir [4, s, 403-404].

"Qanuni-Qüdsi" əsəri 41 səhifədən ibarətdir. Əsərin 1841-ci ildə yazılmış rusca nəşri olan "Краткая грамматика персидского языка" əsəri isə 97 səhifədən ibarətdir. Əsərin farsca olan nüsxəsi üstündə yazılıb: "Padşahın mübarək əmrilə çap olundu" [1, s, 79]. Bu elmi əsər girişdən, "Hərflər", "Kəlmələr" və "Cümlə" başlıqları ilə verilmiş üç ayrı fəsildən ibarətdir. Girişdə müəllif dilin tərifini verdikdən sonra əsəri nə münasibətlə və hansı prinsiplər əsasında yazması haqqında qısa izahat verir. Girişdən aydın olur ki, bu əsər ilk elmi əsərdir, bu vaxta qədər fars dilinin sərf və nəhvinə aid belə bir elmi əsər yazılmamışdır. Eyni zamanda girişdən aydın olur ki, müəllif əsəri yazarkən fars dilinin qanunlarını kitablardan deyil, canlı danışıq dilindən mənimsəmişdir.

Bu qrammatikada həm rus, həm də ərəb qrammatika ənənələrindən istifadə edilmişdir. Buna görə də əsərdə iki istiqamətlilik hiss edilir. Belə ki, nitq hissələrinin təsnifi ərəb dilçilik ənənələrinə uyğun şəkildə verilir, qrammatik qaydalara yanaşma metodu baxımından müəllif Rus-Avropa dilçilik məktəblərinə meyl etmişdir. Müəllif bunun səbəbini əsərin rus variantının müqəddiməsində belə izah edir: "Fars dilinin qayda-qanunlarının yazılmasında bu dilin öz qanunlarını əsas götürdüm, ancaq fikirlərimin tərtibində müəyyən dərəcədə ərəb və fars dillərinin sərfləri mənə kömək etdi. Birincidən mən qaydaların əsl məzmununu götürdüm, ikincidən isə bir sıra qayda-qanunların izahında müsəlman xalqlarında qəbul edilmiş və fars dilinin öz xüsusiyyətlərinə daha çox uyğun gələn ərəb sərfçilərinin tərtibatını mühafizə etdim" [4, s, 405].

Əsərin birinci hissəsində fonetika məsələlərindən bəhs edilir. Həmçinin rus variantında da birinci hissə fonetikaya həsr edilmişdir. Lakin bu hissələr arasında fərqlər özünü göstərir. İlk öncə, əsərin rusca variantında fonetika farsca variantına nisbətən daha genişdir. İkincisi, rusca variant rus oxucuları üçün nəzərdə tutulduğundan müəllif fars dilinin səslərini, daha doğrusu, ərəb əlifbası hərflərinin ifadə etdiyi səsləri rus və fransız dillərinin uyğun səsləri ilə müqayisə edir, bu isə farsca-rusca-fransızca müqayisəli fonetikadır.

Əsərin ikinci hissəsində isə nitq hissələrindən bəhs edilir. Ərəb dilçiləri kimi, A.Bakıxanov da nitq hissələrini üç qrupa bölür: 1)isim (ad), 2)feil və 3)horuf (hərflər)- bu hissə ərəblərin "ədat" adlandırdığı hissəyə uyğun gəlir və rəlabt, Zəvayed, Təşbih, Əvamel və Əvatef hissələrini əhatə edir [4, s, 407].

"Qanuni-Qüdsi"də ərəb təsiri özünü daha aydın şəkildə göstərir. Belə ki, ərəb dilinin təsiri ilə yazılmış qrammatika kitablarında üçüncü şəxs əvvəldə, sonra ikinci şəxs, nəhayət birinci şəxs verilir. A.Bakıxanovun qrammatikasında da buna əməl edilmişdir. Məsələn:

Təkdə:	**Cəmdə:**
Konəd (edər)	*Keştənd*
Kondi (edərsən)	*Keştid*
Konəm (edərəm)	*Keştim* [1, s, 81]

Feillərdən danışarkən müəllif məsdər və müzare haqqında da məlumat verir. Məsələn:

Məsdər:	**Müzare:**
Arəstən (bəzəmək)	*Arəd (bəzəyər)*
Budən (olmaq)	*Başəd (olsun, olar)*
Dadən (vermək)	*Dəhəd (verər)*
Amədən (gəlmək)	*Ayəd (gələr)* [1, s, 82]

Feilin zaman kateqoriyasına gəldikdə müəllif feilin üç zamanını göstərir: müzare (gələcək), maziha (keçmiş), indiki zaman əvəzinə isə məsdər. Məsələn:

Müzare:	**Maziha:**	**Məsdər:**
Şenəvəd (eşidər)	*Şenid (eşitdi)*	*Şenidən (eşitmək)*
Qozarəd (keçər)	*Qozəşt (keçdi)*	*Qozaştən (keçmək)* [1, s, 82]

Müəllif esme-ədəd (say) haqqında danışarkən sıra saylarını fars dilində olduğu kimi verir. Fars dilində miqdar saylarının sonuna *om* şəkilçisi artırmaqla sıra sayları alınır.

Müəllif qrammatikasında *be, əz, dər* kimi önqoşmaların funksiyası haqqında da məlumat verir. Be (sarı, doğru), əz (dan, dən), dər (içində, da, də) mənalarını verir.

Əsərin üçüncü hissəsi isə cümlə başlığı altında verilir. "Dər bəyane comlə" (Cümlə haqqında) bəhsində müəllif deyir: Cümlə kəlmələr tərkibindən ibarətdir, kəlmələrin bir-biri ilə birləşməsidir ki, ona sərf istilahı ilə cümlə deyirlər və cümlə də odur ki, onun səbəbinə mətləb tamam aydın (anlaşılmış) olur [1, s, 83]. Bu hissə iki fəsildən ibarətdir: "Kəlmə" və "Sözlərin bir-birilə birləşməsi". Birinci fəsildə morfologiya məsələləri-bağlayıcılar, isim və saya aid sözdüzəldici şəkilçilər haqqında məlumat verilir. İkinci fəsil isə "Sintaksis" adlanır. Müəllif fars dilinin sintaksisini hərtərəfli araşdırır. Hətta tabeli mürəkkəb cümlə, baş və budaq cümlə məsələlərinə də nəzər yetirir.

Ərəb dilçilik ənənələrinə uyğun olaraq, A.Bakıxanov da cümlə üzvlərinə predikat-feil mövqeyindən yanaşır. Bu isə cümlə ilə hökmü eyniləşdirməkdən irəli gəlirdi. Cümlə üzvlərini feil (iş)- fail (iş görən subyekt)- məful (üzərində iş görülən obyekt) deyə müəyyənləşdirmək cümləyə hökm mövqeyindən yanaşmaqla bağlıdır. Belə ki, feil-fail-məful P-S-O hökm sxemidir.

A.Bakıxanovun qrammatikası öz dövrünə görə mükəmməl dilçilik əsərlərindən biri kimi mühüm əhəmiyyətə malikdir.

İstifadə olunmuş ədəbiyyat siyahısı

1. Babayev A. Azərbaycan dilçiliyinin tarixi I hissə, Bakı: Mütərcim, 2015, 338 s.
2. Xudiyev N. Azərbaycan ədəbi dili tarixi, Bakı: Elm və təhsil, 2012, 687 s.
3. Qasımzadə F. Abbasqulu ağa Bakıxanov Qüdsi, Bakı: Azərbaycan uşaq və gənclər ədəbiyyatı nəşriyyatı, 1956, 167 s.
4. Rəcəbli Ə. Dilçilik tarixi, Bakı: Nurlan, 2006, 616 s.

Açar sözlər: Dilçilik, Azərbaycan dilçiliyi, Abbasqulu ağa Bakıxanov, Qanuni-Qüdsi

Key words: Linguistics, Azerbaijani linguistics, Abbasgulu agha Bakikhanov, Ganuni-Gudsi

Ключевые слова: Лингвистика, Азербайджанское языкознание, Аббасгулу ага Бакиханов, Кануни-Кудси

XIX əsr Azərbaycan dilçiliyi: Abbasqulu ağa Bakıxanov

Xülasə

Dilçilik dünyanın ən qədim elmlərindən biridir. XIX əsr Azərbaycanın siyasi həyatında olduqca çətin dövrdür. Siyasi hadisələrlə yanaşı, mədəni baxımdan da XIX əsr xüsusilə diqqəti cəlb edir. Bu dövrdə xeyli məktəblər açılır, lüğətçilik və qrammatika sahəsində xeyli irəliləyiş özünü göstərir. XIX əsrin görkəmli nümayəndələri sırasında Abbasqulu ağa Bakıxanovun xidmətləri olduqca mühümdür. Müəllifin "Qanuni-Qüdsi" əsəri dövrün ən mükəmməl qrammatikası hesab olunur. A.Bakıxanov əsərində həm ərəb, həm də rus qrammatika ənənələrindən istifadə edərək mükəmməl əsər yazmışdır.

XIX century Azerbaijani linguistics: Abbasgulu agha Bakikhanov

Summary

Linguistics is one of the oldest sciences in the world. The 19th century was a very difficult period in the political life of Azerbaijan. In addition to political events, the 19th century is particularly interesting from a cultural point of view. During this period, many schools were opened, considerable progress was made in the field of vocabulary and grammar. Among the outstanding representatives of the 19th century, the services of Abbasgulu agha Bakikhanov are very important. The author's work "Ganuni-Gudsi" is considered the most perfect grammar of the period. A.Bakikhanov wrote a perfect work using both Arabic and Russian grammar traditions in his work.

Азербайджанское языкознание XIX века: Аббасгулу ага Бакиханов.

Резюме

Лингвистика-одна из древнейших наук в мире. XIX век был очень тяжелым периодом в политической жизни Азербайджана. Помимо политических событий, XIX век особенно интересен с культурной точки зрения. В зтот период было открыто много школ, достигнут значительный прогресс в области лексики и грамматики. Среди выдающихся представителей 19 века очень важны заслуги Аббасгулу ага Бакиханова. Авторский труд "Кануни-Кудси" считается самой совершенной грамматикой того периода. А.Бакиханов написал прекрасное произведение, используя в своих произведениях как арабскую, так и русскую грамматические традиции.

RƏYÇİ: dos. E.Vəliyeva

Pərvin Eyvaz oğlu Eyvazov[30]

İTALİYADA TÜRKOLOJİ ARAŞDIRMALAR

Giriş. Avropada türk xalqlarının dili, ədəbiyyatı və tarixinin öyrənilməsinə dair ilk əsərlər XIV əsrin sonlarından etibarən qələmə alınmağa başlanmışdır. 1396-cı ildə İldırım Bəyazidə əsir düşən bavariyalı *İohan Şiltbergerlə* başlayan bu araşdırmalar sonradan italyan *Filippo Argenti* və *Pyetro Ferruqato* tərəfindən davam etdirilmişdir.

Avropada türk dilinin qrammatikasına dair ilk əsərin 1612-ci ildə alman əsilli *Hiyeronim Miqiza* tərəfindən nəşr edildiyini qeyd olunur. Həmçinin XVII əsrdə bu sahədə *Pyetro della Vale* (1620), *Andre Dü Rye* (1630), *G.Molino* (1641), *M.Moggio* (1642), *Bernard di Parigi* və *Pietro de Albavilla* (1665), fransız *M.Meninski* (1680), *Şiferdeker* (1695) və başqalarının fəaliyyətlərini də göstərmək olar. Ümumiyyətlə, XV əsrdən başlayaraq Avropada şərq dillərini öyrənmək və öyrətmək məqsədi ilə bir çox məktəblər və institutlar açılmış, universitetlərdə kafedralar təşkil olunmuş, qrammatika kitabları və lüğətlər hazırlanmışdır. Bu baxımdan, tarixi və iqtisadi-siyasi münasibətlər zəminində meydana gələn türk - italyan əlaqələri nəticəsində İtaliyada türk dünyasına qarşı maraq artmış və bu istiqamətdə türk xalqlarının dilinə, tarixinə və ədəbiyyatına dair çox sayda əsərlər yazılmışdır. İtalyanların türkologiya sahəsindəki fəaliyyətləri Avropada mühüm əhəmiyyət daşıdığı kimi türk dünyasında da xüsusi diqqət çəkir.

1. Türk-italyan münasibətlərinin tarixinə qısa nəzər

Türk-italiyan münasibətləri türklərin Anadoluya gəlişi ilə başlayan uzun tarixi bir prosesə söykənir. 1015-ci ildən Anadoluda məskunlaşan türklərin, Bizans təbəələri (vətəndaşı) olan müxtəlif etnik qruplara və dinlərə mənsub yerli insanlardan başqa görüb təmas etdikləri ilk avropalılar italyanlardır. Ümumiyyətlə, gəmiçilik və ticarətlə məşğul olan kiçik İtaliya şəhər dövlətləri Bizans İmperiyası ilə qurduqları əlaqələr nəticəsində Anadoluda müxtəlif hüquq və imtiyazlar əldə etmişdilər. Bu hüquq və imtiyazlardan istifadə edən italyanlar İstanbulda və Anadolu sahillərindəki böyük liman və ticarət yolları üzərində yerləşən şəhərlərdə məskunlaşmış, hətta bəzi yerlərdə öz koloniyalarını (müstəmləkələrini) yaratmağa müvəffəq olmuşdular. Beləliklə, əsrlər boyu ticarət məqsədilə Anadolu coğrafiyasına üz tutmuş italyanlarla buranın yeni sakinləri olan Səlcuqlular arasında ilk əlaqələr yaranmış, Səlcuqlu sərhədlərinin genişlənməsi və dövlətin gücünün artması ilə bu münasibətlər daha da inkişaf etmişdir.

İtalyanların Səlcuqlularla əlaqələrinin və Anadoludakı mövqelərinin müəyyənləşməsində səlib yürüşləri xüsusi yer tutur. Çünki italyanlar əvvəllər bu yürüşlərə ordunu yerləşdirmək, daha sonra Şərqdə məskunlaşıb müstəmləkə qurmaq məqsədi ilə qatılsalar da, əldə etdikləri böyük mənfəətlər nəticəsində qısa müddətdə varlı bir cəmiyyətə çevrilərək Levantdakı (*həmçinin Transiordaniya və Məşriq olaraq tanınır. Aralıq dənizinin şərqindən Mesopotamiyaya qədər uzanan tarixi ərazinin bəzi qaynaqlardakı adı. Osmanlı İmperiyası zamanında Genuya və Venesiyalı tacirlərinin burada çoxlu ticari faktoriyaları olduğu üçün Levanten adlandırılırdılar*), yəni Şərqi Aralıq dənizi bölgəsindəki ticarət üstünlüyünü ələ keçirmişdilər. Uzun illər Anadoluda qurduqları möhkəm ticarət əlaqələrinin də təsiri ilə bu vəziyyət onları getdikcə böyüyən Səlcuq türkləri ilə yaxınlaşmağa vadar etmişdir. Bu baxımdan Anadoluda və Aralıq dənizi bölgəsindəki ticarəti əllərində tutan, dolayısı ilə Asiya ilə Avropa arasındakı ticarətə nəzarət edən italyanlarla Səlcuqlular arasındakı münasibətlər, əsasən, iqtisadi maraqlara yönəlmiş və əsrlərlə davam edən bu əlaqələr hər iki xalqın mədəni həyatında da müəyyən izlər buraxmışdır. "Həqiqətən də, Avropa və ya Qərb sivilizasiyası ilə münasibətlərdən söz açarkən etiraf etmək lazımdır ki, fransızlar, almanlar və ya anqlo-saksonlardan əvvəl türklərə və türk mədəniyyətinə ilk və ən böyük italyanların təsiri olub" (6, s. 449). Anadoluda məskunlaşan türklərin, mühüm liman şəhərlərində və ticarət mərkəzlərində qarşılaşdıqları italyanlarla çox keçmədən Bizansla olduğu kimi müqavilələr bağlamaları Səlcuqlu Türkiyəsinə gələn italyanların sayını daha da artırmış və onların dil, din, gündəlik həyat tərzi, bir çox adət-ənənələri ilə Anadolu coğrafiyasında yerləşməsinə imkan yaratmışdır.

Səlcuqlu hökümdarları I Qiyasəddin Keyxosrovun və İzzəddin Keykavusun zamanında Venesiyalılara Səlcuqlu dövlətində sərbəst ticarətlə məşğul olmaları üçün icazələrin verilməsi, I Əlaəddin Keyqubadın dövründə 8 mart 1220-ci il tarixində imzalanan müttəfiqlik və ticarət müqaviləsi ilə onların xüsusi imtiyazlar əldə etmələri türk-italyan əlaqələrinin tarixini bir qədər də əvvələ aparır. Bu səbəbdən başda Venesiya olmaqla İtaliya şəhər dövlətləri ilə qurulan ticarət əlaqələri türklərə qarşı ciddi maraq yaratmış, bu münasibətlər Bəyliklər və Osmanlı İmperatorluğu dövründə də davam etmişdir. Venesiyalıların 1320-ci ildə Elxanilərlə, 1331-ci ildən sonra isə Aydınoğulları və Menteşeoğulları Bəylikləri ilə oxşar ticarət müqavilələri bağlamaları bu faktı bir daha təsdiqləyir. "Genuyalılar 1387-ci ildə I Muradla bağladıqları müttəfiqlik və ticarət müqaviləsi ilə Osmanlı torpaqlarında ticarət hüququ əldə etdilər. Üç il sonra bu imkana Venesiyalılar da İldırım Bəyazidin bir məktubu ilə sahib oldular. Beləliklə, italyanlar Bizans İmperatorluğu zamanı əldə etdikləri hüquq və imtiyazları Osmanlı dövründə eyni səviyyədə olmasa da, qoruyub saxlaya bildilər" (6, s. 450). Fateh Sultan Mehmed dövrünə qədər Osmanlı imperiyası ilə sıx əlaqələr quran italyan şəhər dövlətləri əsasən Genuya və Venesiya idi. Florensiya isə yalnız İstanbulun fəthindən sonra osmanlılarla münasibətlər qurmuşdu. Ancaq osmanlıların Avropaya doğru irəliləməsi italyanların Levantdakı torpaqlarına da istiqamətləndiyi üçün hər iki tərəf arasında uzun sürən müharibələr qaçılmaz hala çevrilir. Beləliklə, digər avroplalılar kimi italyanlar da biləyini bükə bilmədiyi türklərin yaşadığı bölgələrə müxtəlif məqsədlərlə elçilər, səfirlər, tacirlər, missionerlər göndərməyə başlayırlar; nəticədə, XIV-XV əsrlərdən etibarən italyan müəlliflər türklər haqqında müxtəlif mövzuları (dil, ədəbiyyat, tarix, mədəniyyət) əhatə edən əsərlər qələmə alırlar.

---

[30] **Bakı Dövlət Universiteti, "Türkoloji araşdırmalar" ETL-in elmi işçisi**

Səlcuqlular dönəmində yalnız böyük liman şəhərlərində deyil, ticarət əhəmiyyətli Konya, Sivas, Ərzincan kimi şəhərlərdə də məskunlaşan və türk ordusunda muzdlu əsgər kimi xidmət edən italyanlar Foça, Amasra və Samsunda öz mövqelərini möhkəmləndirməklə yanaşı, Bəyliklər zamanında Qərbi Anadoludakı liman şəhərlərinə də yerləşmişlər. Osmanlı İmperatorluğunun yüksəlişi dövründə isə ticarətlə bərabər, dövlət işlərində də fəal iştirak etməyə, hətta sarayla əlaqələr qurmağa başlamışlar. Bu onu göstərir ki, italyanların türklərlə münasibətləri dövlət səviyyəsində də davam etmişdir. Osmanlı İmperatorluğu sarayında islam dinini qəbul edərək məsul vəzifələrdə çalışan italyan əsilli dövlət məmurlarının olması da mühüm tarixi faktlardan biridir. Əldə etdikləri imtiyazlar nəticəsində Anadolunun fərqli bölgələrində özlərinə müstəqil iş qurmuş italyanların sayı sonradan daha da artmışdır. Nəticədə italyanlar tərəfindən açılan və idarə olunan məktəblər, xəstəxanalar və mədəni müəssisələr yalnız dövlət səviyyəsində deyil, həm də cəmiyyət tərəfindən rəğbətlə qarşılanmışdır.

Bu iki millət arasında həyatın müxtəlif sahələrini əhatə edən qarşılıqlı münasibətlər onların bir-birilərinin dillərini öyrənməsini də zərurətə çevirmişdir. "Tacir kimi Şərqə üz tutan, Aralıq dənizi və Qara dəniz bölgələrində koloniyalar yaradan italyanlar məskunlaşdıqları bölgələrdə danışılan dilləri öyrənməyə xüsusi əhəmiyyət verirdilər. Nəticədə, ticarət məqsədli də olsa, həmin dillərə aid lüğətlər tərtib edirdilər. Bunun ən gözəl nümunələrindən biri 1303-cü ildə Suğdaqda hazırlanmış Kodeks Kumanikusdur" ("Kodeks Kumanikus" adlı lüğət türk dili haqqında ilk italyanca kitablardan biri hesab olunur: 5, s. 345). Bu cür fəaliyyətlər sonrakı əsrlərdə də davam və inkişaf etdirilmişdir. "XVI-XVIII əsrlərdə ikidilli lüğətlər hazırlanarkən italyan dili Fateh Sultan Mehmetin sarayında məşhurlaşır. İtalyan dili ilə maraqlanan Fateh Sultan Mehmet italyan rəssam Bellinini İstanbula dəvət edərək ona öz portretini çəkdirir" (3, s. 1242).

İtalyanlar, xüsusilə Venesiyalılar Osmanlıların dil və mədəniyyətini yaxından tanımaq üçün lüğət və qrammatika kitablarının hazırlanmasına ciddi yanaşmış, hətta Venesiyada bir Şərq dilləri məktəbi də təsis etmişlər. Həm də yaradılacaq məktəbin tədris planını tərtib etmək və buna uyğun kitabların siyahısını hazırlamaq Neqri adlı bir Rum Osmanlı vətəndaşına tapşırılmışdır. O da əslində xəfiyyə kimi çalışaraq, hazırladığı kitabların siyahısını səfirlik vasitəsilə İstanbuldan Venesiyaya göndərmişdir. Osmanlılar isə italyan şəhər dövlətləri ilə bağlı dil və tərcümə kitablarının tərtib olunması üçün daha çox milli azlıqlardan ibarət divan tərcüməçilərindən istifadə edirdilər.

2. Klassik italyan türkologiyası: İtaliyada ilk türkoloji araşdırmalar

İtaliyada klassik türkologiya dövrü XIV əsrdən başlayır, müasir şərqşünaslıq və türkologiyanın yaranıb inkişaf etdiyi XIX əsrə qədər davam edir. Klassik mərhələdə italyanlar türklər haqqında xeyli sayda müxtəlif mövzulu əsərlər yazmışlar. XV əsrə qədər italyan tarixçilərinin və humanistlərin türklər barəsində məlumatları məhdud idi. Türklərlə bağlı ilk qeydlər XIV əsrə təsadüf edir ki, yunan mənbələrinə əsaslanaraq latınca yazılmış bu məlumatlar ümumi tarix kitablarının məzmununda, mühüm tarixi şəxsiyyətlərin məktublarında və hesabatlarda öz əskini tapmışdır. XIV əsrin ortalarında Venesiya Respublikasının 54. Hersoqu, eyni zamanda salnaməçi **Andrea Dandolonun** (1306-1354) qələmə aldığı "Chronicaper Extensum Descripta" ("Geniş təsvir edilmiş xronika") adlı əsəri İtaliyada türklər haqqında yazılmış ilk mənbə hesab olunur. Əsərdə türklərin mənşəyi troyalılarla əlaqələndirilir, türklərin Troyanı tərk etdikdən sonra İskit bölgəsinə getdikləri və bu bölgədən qayıdaraq tarix səhnəsinə yenidən çıxdıqları fikri müdafiə olunur: "Türklərin ölkəsi Qafqaz dağlarının digər tərəfləridir. Onlar Troyalı Kral Priamosun oğlu Troilosun oğlu Turkusun soyundan gəlirlər" (5, s. 128). İtalyan humanist **Coluccio Salutati** (1331-1406) də 1397-ci il tarixli məktubunda XIV əsrdə Qərbi Avropada türklərin ya Qafqaz, ya da İskit mənşəli olduqları ilə bağlı görüşlərin geniş yayıldığını bildirmişdir. XV əsrin ikinci yarısından etibarən türklərin Qərbə doğru uğurlu yürüşləri və fəthləri Avropada böyük qorxu və narahlığa səbəb olmuşdur ki, bu da Qərbdə türklərə qarşı marağı daha da artırmış, digər avropalılar kimi italyanlar da onları öyrənmək üçün mühüm təşəbbüslər göstərmişlər.

Şimali Avropa ölkələrində, xüsusən Almaniyada sürətlə yayılan protestantlığın qarşısını almaq və "xristianlığı Avropa xaricindəki mədəniyyətlərə çatdırmaq" məqsədilə aktiv xristian olan ispan əsilli İqnati de Loyola (1491-1556) tərəfindən 1540-cı ildə Romada "Həzrəti İsa Cəmiyyəti" qurulmuş və bu cəmiyyətin mənsublarına "Hz. İsanın əsgərləri" mənasında "jesuit" (cizvit) deyilmişdir. "Cəmiyyətin təməl siyasəti bacarıqlı və istedadlı uşaqları Mərkəzdəki təhsilə cəlb etmək, mükəmməl təhsil verdikdən sonra onları təhsil və sosial xidmətlər təqdim edən missionerlər qismində protestant və müsəlmanların yaşadıqları bölgələrə göndərmək idi. Gənc yezuit şagirdlərin Romadakı mərkəzdə aldıqları təhsil çoxşaxəli idi: sxolastik ilahiyyat, məntiq, fizika, metafizika, dialektika, riyaziyyat, astronomiya və bəlağətlə yanaşı, teatr, rəqs, musiqi, memarlıq, atçılıq və qılıncoynatma kimi mədəniyyət və incəsənət dərsləri də tədris olunurdu. Dil təlimi isə Tövrat və İncil təfsirləri üçün zəruri olan latın, ibrani və yunancaya əlavə olaraq göndəriləcək bölgələrin dillərini də əhatə edirdi. Türk, ərəb, fars, siryani, arami və kəldanicə tədris labüd idi. Yezuitlərin Türkiyəyə gəlişi Qanuni Sultan Süleymanın zamanına təsadüf edir" (4, s. 109). Həmin vaxt Osmanlı hökuməti İtaliya ilə dostluq və işbirliyi əlaqəsində idi. Bu isti münasibətlər fonunda katolik təbliğatının genişləndirilməsinə ehtiyac duyulduğundan türk dilini bilən missionerlərin olması vacib idi. Bu baxımdan bir çox Avropa ölkələrində olduğu kimi, İtaliyada da ilk türkoloji araşdırmalar məhz yezuitlərin fəaliyyəti ilə bağlıdır.

Bir müddət Florensiyanın İstabul konsulluğunun katibi vəzifəsində çalışan **Filippo Argenti** 1533-cü ildə "Türkçə danışıq qaydaları" ("Regola del parlare turcho") adlı əsərini yazmışdır. İtalyan tacirlərə kömək məqsədilə yazılan bu kiçik kitab Florensiyanın Mərkəzi Milli Kitabxanasında 1938-ci ilə qədər əlyazma şəklində saxlanmışdır. Avropada türk dilinin ilk qrammatikasını yazanlardan biri messinalı italyan keşişi **Pyetro Ferraquto** (1580-1656) olmuşdur ki, onun yazdığı "*Türkcə qrammatika*" (Grammatica Turchescd) adlı kitab Neapol Milli Kitabxanasında 1940-cı ilə qədər əlyazma şəklində qalmışdır. "İtalyan kitabxanaları bu tarixdən sonra italyan və latın dillərində yazılan türkcənin qrammatikası ilə bağlı əlyazmalarla

zəngindir. İtalyan yezuit papalarından biri olan Pyetro Ferruqatonun 1611-ci ildə yazdığı əsər, alman əsilli Hiyeronium Miqizanın 1612-ci ildə Avropada ilk türkcə qrammatika kitabı olaraq nəşr etdirdiyi əsərdən daha qədimdir. Sonra İtalyan Pyetro Della Vallenin 1620-ci ildə yazdığı qrammatika kitabı gəlir" (2, s. 270).

Yeri gəlmişkən qeyd edək ki, türk dilinin Avropada çap olunmuş ilk qrammatikası 1612-ci ildə **Hiyeronim Miqizanın** (d.1553, Ştutqart - ö. 1616 Linz-Avstriya) latınca yazdığı dörd hissəli "*Türk dilinin əsasları*" adlı əsəridir. Kitabın çalışmalar bölümündə türk atalar sözləri və deyimlərindən nümunələr verilmişdir. Demək olar ki, bir atalar sözü kitabı olan bu qrammatikada latın, italyan və alman dillərində 220 türk atalar sözü qarşılıqları ilə birlikdə təqdim edilmişdir. XVI və XVII əsrlərdə italyanca-türkcə danışa bilən tərcüməçi çatışmazlığını aradan qaldırmaq üçün 1551-ci ildə İstanbulda (konsulluq nəzdində) "Giovani della Lingua", yəni "Dil oğlanları" adlı məktəb yaradılmışdı. Bu məktəbdə türk, ərəb və fars dillərini bilən, *turkimanno* və ya daha çox *draqomanno* adlanan tərcüməçilər hazırlanırdı. Bu tərcüməçilər təkcə İstanbulda deyil, Levant bölgəsində də iqtisadi (ticarət) və diplomatik vəzifələrə təyin edilmişdilər. Ancaq zamanla maliyyə çatışmazlıqları, diplomatik dil öyrənməyin çətinliyi, tərcüməçilərin öz ölkələrindən kənarda aldıqların təhsilin uzunmüddətli olması, habelə onların, yəni italyanların türk qadınları ilə evlənərək İslamı qəbul etmələri ilə bağlı şübhələrin ortaya çıxması həmin məktəbdə təhsil alanların sayının azalmasına səbəb oldu. Əsrin ortalarına doğru məktəbin fəaliyyəti, xüsusilə Giritin fəthi ilə başa çatan Osmanlı - Venesiya müharibəsi (1645-1669) nəticəsində dayandı.

1681-1684-cü illərdə İstanbulda Venesiya səfiri vəzifəsində çalışan **Covanni Battista Donado** osmanlı-türk həyatı və mədəniyyəti ilə yanaşı, ədəbiyyatı ilə də yaxından maraqlanmış və "Türklərin ədəbiyyatına dair" adlı əsər yazmışdır. Venesiyaya qayıtdıqdan sonra 1688-ci ildə müəllifin nəşr etdirdiyi bu araşdırma Avropada türk ədəbiyyatı ilə bağlı yayımlanan ilk kitab kimi dəyərləndirilir (3, s. 1241). 140 səhifəlik əsərdə Osmanlı və İstanbul sosial-mədəni həyatı ilə bərabər osmanlı türkcəsinin bəzi qrammatik qaydalarından və iki sözlükdən danışılmış, türk şeirinin özəlliklərinə toxunularkən Hafiz, Füzuli və Bakinin adları çəkilmişdir.

C.B.Donadonun əsərindən sonra rahib **Giambattista Todericnin** 1787-ci ildə Venesiyada çap olunan üç cildlik "Türk ədəbiyyatı" əsəri mühüm araşdırmalardan biri sayılır. Venesiyada doğulan və yezuit papası olan G.Toderini 1781-1786-cı illərdə İstanbulda olmuş və müəllim vəzifəsində çalışmışdır. Onun kitabxanaçılıq və nəşriyyat sahəsi ilə yaxından maraqlandığı, türk ədəbiyyatı ilə bağlı araşdırmalarının olduğu qeyd edilir. G.Todericnin əsəri öncəliklə türklərə və türk mədəniyyətinə aid bir çox məsələləri Qərb dillərində əks etdirən ilk qiymətli mənbələr sırasında dayanır. Uzun müddət avropalı türkoloqların istinad etdiyi bu mühüm əsər fransız və alman dillərinə, o cümlədən 2012-ci ildə "Türklerin Yazılı Kültürü (Türklerin Edebiyatı)" adıyla Türkiyə türkcəsinə tərcümə olunmuşdur.

3. İtaliyada müasir türkologiya

Bütün bu tarixi əlaqələr, türk dili, türk ədəbiyyatı, mədəniyyəti və tarixi sahəsindəki araşdırmalar fonunda demək olar ki, türkologiya sistemli şəkildə bir elm sahəsi kimi İtaliyada XIX əsrdə yaranmışdır.

1870-ci ildən sonra Avropada davamlı olaraq "Millətlərarası Şərqşünaslar Konqresləri"nin keçirilməsi ilə şərqşünaslıq və türkologiya sahəsindəki tədqiqatlar daha da sürətlənir. 1899-cu ildə Roma və Florensiyada XII. Şərqşünaslıq konqresi keçirilir və bu konqresin "Orta Asiya, türk dili və ədəbiyyatı" seksiyasına Luici Bonelli rəhbərlik edir. Bütün bu proseslərlə bərabər İtaliyada 1888-ci ildə tarixi 1732-ci ilə söykənən, Avropa qitəsinin ən qədim məktəblərindən biri Neapol Şərq İnstitutu açılır və 1892-ci ildən burada Luici Bonellinin rəhbərliyi ilə türk dili, türk ədəbiyyatı və tarixindən dərslər keçirilməyə başlanır. Həmin dönəmdə **Luici Bonelli** ilk tədqiqatı olan "Türkcə qrammatika" (1899) kitabını, sonra isə türk ədəbiyyatı və tarixi haqqında müxtəlif əsərlər yazır.

1927-ci ildə Roma Universitetində yaradılmış Türkologiya kafedrasında çalışan **Ettore Rossi**nin çoxşaxəli tədqiqatları sayəsində türkologiya elm sahəsi kimi İtaliyada formalaşır və geniş məzmunda italyan elmi ictimaiyyətinin maraq dairəsinə daxil olur. Buna görə də **Luici Bonelli və Ettore Rossi müasir italyan türkologiyasının qurucuları hesab olunurlar**. Sonradan bu iki alimin yetişdirdiyi **Alessio Bombaci** və **Aldo Qallotta** kimi tanınmış türkoloq-mütəxəssislər italyan türkologiyasında yeni ənənələrin və istiqamətlərin formalaşmasına mühüm töhfələr vermişlər.

Hazırda Neapol Şərqşünaslıq Universiteti, Ka Foskari Venesiya Universiteti, Florensiya Universiteti, Leççe Salento Universiteti nəzdindəki Türkologiya kafedralarında türk dili və ədəbiyyatı üzrə tədris və tədqiqatlar aparılır. Roma Sapientsa Universitetinin Türkologiya kafedrası isə mütəxəssis çatışmazlığı səbəbindən bir neçə il öncə fəaliyyətini dayandırmışdır.

Luici Bonelli (1865-1947). Müasir italiyan türkologiyasının qurulmasında böyük xidmətləri olan L.Bonelli İtaliyanın Breşia şəhərində anadan olmuşdur. Dil öyrənməyə böyük marağı və istedadı olan L.Bonelli 1887-ci ildə universiteti bitirdikdən sonra Romaya gəlmiş, həm ərəbcə mətnlər üzərində araşdırmalar aparmış, həm də türk və fars dillərini mükəmməl şəkildə öyrənmişdir. Roma Casatense Kitabxanasındakı Şərq əlyazmaları kataloqunu hazırlayan L.Bonelli buradakı türkcə əlyazmaları elm aləmində tanıtmışdır. 1890-1891-ci illərdə Neapol Şərqşünaslıq İnstitutunda türk dili və ədəbiyyatından dərslər aparmağa başlamış, həm də bir müddət institutun direktoru vəzifəsini icra etmişdir. 1907-ci ildə professor elmi adını alan L.Bonelli İtaliyada türkologiya sahəsindəki uğurlu elmi-pedaqoji fəaliyyəti ilə yanaşı, bu istiqamətdə yüksəkixtisaslı kadrların hazırlanmasına da mühüm töhfələr vermişdir. Çağdaş italyan türkologiyasının tanınmış nümayəndələrindən biri **Alessio Bombaci** də onun yetirmələrdən biridir.

İtaliyada türkologiya üzrə ilk professor hesab olunan L.Bonellinin araşdırmaları, əsasən, qrammatika və lüğətçilik istiqamətindədir: "Türk və italyan dilləri arasındakı söz mübadiləsi", "Osmanlı türkcəsinin qrammatikası", "Türkcənin yerli dialekt özəllikləri", "İtaliyanca-türkcə lüğət", "İtalyanca-türkcə danışıq kitabı", "Türklər üçün yeni italyan qrammatikası" və

s. Ərəb dilini mükəmməl şəkildə bilən L.Bonellinin mühüm elmi xidmətlərindən biri "Qurani-Kərim"in italyancaya tərcüməsidir. Müəllif bu tərcüməsini düzəliş və şərhlərlə 1940-cı ildə Neapolda yenidən nəşr etdirmişdir.

Ettore Rossi (1894-1955). Milana yaxın bölgədə anadan olan E.Rossi Pavia Universitetinin Ədəbiyyat fakültəsində "Yunan filologiyası və antik tarixi" ixtisası üzrə təhsil almışdır. Birinci Dünya müharibəsi başlayanda hərbi xidmətə çağırıldığından 1914-cü ildə ali təhsilini yarımçıq qoymuşdur. Liviyadakı əsgərliyi isə onun həyatında dönüş nöqtəsi olmuşdur. Tripolidə öncə ərəbcəni, ardınca türk əsgərlərindən türk dilini öyrənmişdir. Universiteti başa vurub doktorluq dissertasiyasını müdafiə etdikdən sonra 1922-ci ildə İtaliyaya qayıtmış və Romada Şərqşünaslıq İnstitunda fəaliyyətə başlamışdır. Burada çalışdığı müddətdə institutun elmi jurnalı olan "Müasir Şərq" dərgisində müxtəlif məqalələr dərc etdirməklə yanaşı, həm də fars dilini öyrənmişdir. 1927-ci ildən Roma Universitetində yaradılan Türk dili, tarixi və ədəbiyyatı kafedrasının dosenti vəzifəsində çalışmış, 1939-cu ildə isə həmin kafedranın müdiri təyin olunmuşdur.

1938-ci ildə Karlo Alfonso Nallinonun vəfatından sonra Şərqşünaslıq İnstitunun və "Müasir Şərq" jurnalının rəhbəri təyin edilmişdir. Jurnala rəhbərlik etdiyi vaxtda Liviyadan Əfqanıstana qədər geniş coğrafiya haqqında siyasi-filoloji məqalələr yazan alim həm də bu dərgidə türk siyasi və mədəni dəyərləri, eyni zamanda Yunus Əmrədən Abdulxalıq Həmidə qədər müxtəlif türk şair və mütəfəkkirləri barəsində yazılar dərc etdirmişdir. Görkəmli türkoloq 1939-cu ildə "Türk dili əl kitabı" dərsliyini nəşr etdirmişdir. Türkiyə türkcəsinin müxtəsər qrammatikasını və kiçik sözlüyü əhatə edən 159 səhifəlik bu əsər L.Bonelli tərəfindən nəşr olunmuş qrammatika kitabının yerinə yeni dərslik kimi təsdiq olunmuşdur. Qeyd edək ki, Böyük İtalyan Ensiklopediyasında Türkiyə, türklər və türk ədəbiyyatı ilə bağlı dərc olunan bir çox məqalə və oçerklərin müəllifi də E.Rossidir.

İkinci Dünya müharibəsi dövründə Roma Universitetinin professoru olsa da, ölkəsinin taleyinə biganə qalmamış, 1940-1942-ci illərdə italyan hərbi geyimində Yunanıstan və İtaliyanın işğalı altında olan Albaniyaya getmiş və burada araşdırmalar aparmışdır. İtaliyada məsul vəzifələrdə çalışan və dəfələrlə Türkiyəyə gələn E.Rossi dövlət xətti ilə müxtəlif ölkələrə səfərlər etmiş, burada yaxından tanış olduğu mənbələr və sənədlərlə bağlı tədqiqatlar aparmışdır. Səmərəli və məhsuldar fəaliyyətinə görə, İtaliya hökuməti E.Rossini Xarici İşlər və Koloniyalar nazirinin müşaviri təyin etmişdir. 1943-cü ildə İtaliya ilə Müttəfiq dövlətlər arasında İtaliyanın təslim olduğunu əks etdirən müqavilənin dünya ictimaiyyətinə elan edilməsindən sonra müharibədə məğlub olan İtaliya Faşist Partiyası dağılmış, lakin elmi-ictimai fəaliyyəti və şəxsi nüfuzundan dolayı Ettore Rossiyə toxunulmamışdır.

Məhsuldar alim kimi tanınan E.Rossi "Türk dili əl kitabı" (1939), "Müasir fars dilinin qrammatikası" (1947), "Dədə Qorqud kitabı"nın yeni əlyazması" (1952), "Vatikan kitabxanasında aşkar olunan türkcə əlyazmaların siyahısı" (1953), "Türkiyədə dil inqilabının onuncu ili" (1942) və s. kimi qiymətli əsərlərin, ümumən, iyirmidən çox kitabın və 170-dən çox elmi, yüzlərlə ədəbi-tənqidi məqalənin müəllifidir. Özündən sonra yetişdirdiyi tələbələri - Alessio Bombaci və Aldo Qallotta onun yolunu uğurla davam etdirmişlər. Ölümündən sonra ailəsi alimin kitabxanasını Şərqşünaslıq İnstitutuna bağışlamışdır.

Roma papası tərəfindən yaradılmış Vatikan Apostol Kitabxanasında az tanınan və ya elmə məlum olmayan əsərləri, əlyazma mətnləri elmi ictimaiyyətə tanıdan E.Rossinin türkoloq kimi ən mühüm fəaliyyəti Vatikan Kitabxanasındakı "Kitabi-Dədə Qorqud" epsounu ortaya çıxararaq nəşr etdirməsidir. E.Rossinin kəşfinə qədər yalnız Drezden (Berlin) nüsxəsi məlum olan "Dədə Qorqud Kitabı"nın yeni əlyazmasını xarakterizə edən özəllikləri müəllif "Dədə Qorqud kitabı"nın yeni əlyazması" adlı məqaləsində belə təqdim edir: nüsxə hərəkə ilə yazılmışdır ki, mətnin daha yaxşı anlaşılması və linqvistik araşdırmaların rahatlığı baxımından Vatikan əlyazması daha qiymətlidir; Drezden nüsxəsindən daha dəqiq və aydın qələmə alınmışdır; Drezden nüsxəsi Azərbaycan dilinin özəlliklərini daşıdığı halda, Vatikan əlyazması əski osmanlıcaya daha yaxındır; Vatika nüsxəsi yalnız altı boyan ibarətdir.

Məqalədə nüsxə əsasında dastanın dili: fonetik, leksik və qrammatik quruluşu, o cümlədən isim, əvəzlik, feilin təsriflənməyən formaları və zamanları haqqında məlumat verilmiş, hər iki əlyazmanın bəzi dil özəlliklərinə toxunulmuşdur. "Dədə Qorqud kitabı"nın dilinin, xüsusilə Drezden nüsxəsinin Azərbaycan dilinə yaxın olduğu, burada *mən, mənüm, mana* şəkillərinin, Vatikan əlyazmasında isə *ben, benim* formalarının işləndiyi göstərilmişdir.

E.Rossinin Azərbaycanın görkəmli dövlət xadimi və yazıçısı M.Ə.Rəsulzadənin "Azərbaycan Cümhuriyyəti" və "Əsrimizin Siyavuşu" əsərlərinin təhlilinə və redaktoru olduğu "Yeni Qafqasya" dərgisinin təhlilinə həsr olunmuş bir məqaləsindən söz açan tərcüməçi C.Cəmşidov yazır: "Məhəmməd Əmin Rəsulzadənin "Azərbaycan Cümhuriyyəti" və "Əsrimizin Siyavuşu" əsərlərinin təhlilinə və redaktoru olduğu "Yeni Qafqasya" dərgisinin fəaliyyətinə həsr olunmuş bu yazını oxuduqdan sonra, sovet senzurasının E.Rossiyə olan soyuq münasibətinin səbəblərini anladım. 1955-ci ildə ağır xəstəlikdən sonra 60 yaşında vəfat edən görkəmli türkoloq bu məqaləni 1924-cü ildə, türkologiyada ilk müstəqil addımlarını atarkən, Azərbaycan Cümhuriyyətinə və türk dövlətçiliyinə böyük sevgi, erməni riyakarlığına və bolşevik şovinizminə laqeyd qalmadan yazmışdı" (1).

Alessio Bombaci (1914-1979) Siciliyanın Messina şəhərində anadan olmuşdur. Neapolda ali hüquq təhsilini başa vurduqdan sonra Luici Bonelli ilə tanış olmuş, onun dərslərində iştirak edərək Neapol Universitetini bitirmişdir. L.Bonelli təqaüdə ayrıldıqdan sonra elə həmin universitetdə türk dili və ədəbiyyatından dərslər verməyə başlamışdır. Müxtəlif illərdə elmi dərəcə və adlar almış, iki dəfə (1961; 1967) Neapol Universitetinin rektoru seçilmişdir. Türkcə ilə yanaşı ərəb və fars dillərini yaxşı bilən A.Bombaci təkcə türk ədəbiyyatı deyil, həm də tarix, dilçilik və fəlsəfə sahələrində də araşdırmalar aparmış, E.Rossidən sonra italyan türkologiyasına əvəzsiz töhfələr vermişdir. "Türk ədəbiyyatı tarixi" adlı əsəri İtalyada

türkologiya üzrə tədqiqat və tədris aparan alim və müəllimlərin stolüstü kitabıdır (Qeyd edək ki, əsər bu yaxınlarda Orxan Söyləməz və Sərxan Dərin tərəfindən Türkiyə türkcəsinə tərcümə olunmuşdur).

Öz müəllimləri kimi əsasən türk ədəbiyyatı və tarixi ilə bağlı araşdırmalar aparan A.Bombacinin M.Füzulinin "Leyli və Məcnun" poeması haqqında tədqiqatı Avropada mühüm elmi mənbələrdən biri sayılır. Sofi Huri tərəfindən türkcədən ingilis dilinə çevrilən və UNESCO tərəfindən nəşr edilən Füzulinin "Leyli və Məcnun"una L.Bombaci "Leyli və Məcnun"un tarixi" adlı 112 səhifəlik bir fəsil yazımışdır. Müəllif həm də E.Rossi tərəfindən tapılan "Kitabi-Dədə Qorqud" dastanının Vatikan nüsxəsilə də bağlı təqdimat xarakterli məqalə yazmışdır.

A.Bombaci "1553-cü ildə bir italyan tərəfindən yazılmış türk dili qrammatikası" (1937), "Peter Pyetro Ferruqato və onun yazdığı türk dili qrammatikası" (1940), "Füzulinin türkcə "Leyli və Məcnun" məsnəvisi" (1943), "Transkripsiyada türkcə mətnlərin yeni nəşrləri" (1949), "Qutadqu bilik haqqında bəzi mülahizələr" (1953) və s. onlarla elmi əsərin müəllifidir.

Səmərəli elmi fəaliyyətinə görə Türkiyənin Türk Dil Qurumunun, həmçinin Türk Tarix Qurumunun müxbir və həqiqi üzvü seçilmiş A.Bombaci "Osmanlı və Osmanlı Öncəsi Millətlərarası Komitə"nin yaradılmasında mühüm rol oynamışdır.

Aldo Qallotta (1941-1997) Luici Bonelli ilə əsası qoyulan, Ettore Rossi və A.Bombacinin fəaliyyətləri nəticəsində inkişaf edən italyan türkologiyası ənənələrini uğurla davam etdirən alimlərdən biridir. Neapol Universitetində uzun müddət Xarici dillər və ədəbiyyatlar bölümünə rəhbərlik etmişdir. İtalya arxiv və kitabxanalarında müxtəlif əlyazmaların üzə çıxarılması ilə məşğul olan alimin "Florensiya Dövlət Arxivinin türkcə sənədləri", "Əlcəzairdən Toskana böyük hersoquna məktublar", "Turin Kral Kitabxanasının türk əlyazmaları", "Neapol III. Vittorio Emanuale Kitabxanasının türkcə əlyazmaları" adlı əsərləri vardır. Alim italyan ensiklopediyalarında türk ədəbiyyatı, ümumən türklərlə bağlı oçerklərin hazırlanmasında yaxından iştirak etmiş, "Kodeks Kumanikus"un yeni tapılan nüsxəsi haqqında Ankarada keçirilən Türk Dili Qurulayında məruzə etmişdir.

Anna Masala (1934-2015). Ettore Rossinin tələbəsi olmuş Anna Masala ***İtaliyanın ilk qadın türkoloqudur***. E.Rossinin ölümündən sonra Roma Universitetində Türkologiya kafedrasının müdiri olan və 2009-cu ildə təqaüdə ayrılan professor A.Masala türk dili və ədəbiyyatı məsələlərinə daha geniş aspektdən yanaşmış, qədim türk dastanları dövründən başlayaraq çağdaş türk ədəbiyyatına qədər bir çox mövzularda əsərlər yazmışdır. O, "Oğuz xaqan dastanı və türk mifologiyasında qurd" əsəri ilə yanaşı, türk təsəvvüf ədəbiyyatına da maraq göstərərək "Anadolu türk mistisizmi" adlı antalogiya hazırlamış, Yunus Əmrənin əsərlərini, həmçinin "Divan"ının tərcüməsini nəşr etdirmişdir. Bundan başqa, Molla Nəsrəddin (Nasrettin Hoca) lətifələrini nəşrə hazırlayan A.Masalanın ən yeni dövr türk ədəbiyyatı ilə bağlı tədqiqləri də vardır. Türk dilinə yaxından bələd olan alim Türkiyədə keçirilən müxtəlif simpozium və qurultaylarda məruzəçi kimi çıxış etmiş, buradakı səfərlərindən və xatirələrindən bəhs edən "Türkiyəyə eşq məktubları" adlı kitabını yazmışdır.

Asım Tanış (1942). 1942-ci ildə Kəmərhisarda (Niğdə) anadan olan Asım Tanış 1960-cı ildə İtaliya hökumətinin verdiyi təqaüdlə ali təhsil almaq üçün İtaliyaya gəlmiş, Roma və Perugia Xaricilər Universitetində italyan və latın dillərini öyrənmişdir. 1966-cı ildə Pavia Universitetinin Ədəbiyyat fakültəsində ədəbiyyatşünaslıq üzrə doktorluq dərəcəsi alan A.Tanış 1970-ci ildə Venesiya Universitetində Şərq dilləri və ədəbiyyatı kafedrasında müəllim kimi fəaliyyətə başlamışdır. 1997-ci ildə Venesiya Universitetinin Türkologiya kafedrasından təqaüdə ayrılan alim "Venesiya-Türk Mədəniyyət və Dostluq Dərnəyi"nin qurulmasında mühüm rol oynamışdır.

Balkan ölkələrinə səhayət edərək Makedoniya və Kosovada yaşayan türklərin dilləri ilə bağlı araşdırmalar aparan Asım Tanış bu coğrafiyaya aid tədqiqlərini Üsküp və Priştinada dərc olunan jurnal və qəzetlərdə nəşr etdirmişdir. Həm də 2000-ci illərin əvvəllərində Niğdə valisinin xahişi ilə italyan arxeoloqlarla görüşərək İtaliyadan iki arxeoloji heyətin Türkiyəyə gəlməsinə və Kəmərhisarda arxeoloji qazıntıların başlanmasına nail olmuşdur.

Müxtəlif mövzularda araşdırmalar aparan professor Asım Tanış "Hər kəs üçün konstruktiv üsulla italyanca" (1974) və italyanlara türk dilini öyrətmək üçün nəşr etdirdiyi "Müasir türkcənin tədrisi" adlı kitabların müəllifi, habelə 1986-2014-cü illərdə çap olunmuş "İtalyanca-türkcə böyük, orta, kiçik, cib kitabçası" lüğətlərinin həmmüəlliflərindən biridir.

Uqo Marazzi (1948) Roma Sapientsa Universitetinin Şərqşünaslıq fakültəsində təhsil almış, sonradan Neapol Universitetində tədqiqatçı kimi fəaliyyətə başlamışdır. O, italyan türkologiyasının Alessio Bombaci, Aldo Gallotta kimi tanınmış simaları ilə birlikdə çalışmış, 2015-ci ildə Neapol Universitetindən təqaüdə ayrılmışdır. Osmanlıca mətnlər, Sibir və Orta Asiya Şaman ədəbiyyatı, Cənubi Sibirdəki türk folkloru ilə bağlı araşdırmalar aparan U.Marazzi xüsusilə mətnşünaslıq sahəsinə maraq göstərmiş, "Yəhudi transkripsiyalı osmanlı anonim xronikası", "Süryani xarakterli Osmanlı mətnlərinin əhəmiyyəti", "Süryani transkripsiyalı xristian dini mətnləri" adlı tədqiqatlarını nəşr etdirmişdir. Sibir və Orta Asiyadakı şaman mətnləri haqqında müxtəlif araşdırmaları ilə bərabər, Anadoluda xalq inancları ilə bağlı mövzulara dair də əsərlər yazmışdır. Müasir türk ədəbiyyatı sahəsindəki fəaliyyətinə gəlincə isə, Lətifə Təkinin "Sevgili arsız ölüm" əsərini italyan dilinə tərcümə etmişdir.

Giampiero Bellingeri (1950) Ka Foskari Venesiya Universitetində Şərq dilləri və ədəbiyyatları bölümündə, sonradan isə Ankara Universitetində Dil, tarix və coğrafiya bölümündə təhsil almış, "Koroğlu" dastanı haqqında yazdığı dissertasiya işi ilə universiteti fəxri məzun kimi bitirmişdir. Türkcənin İran və Zaqafqaziya ədəbiyyatına təsiri ilə bağlı araşdırmalar aparan müəllif M.Şəhriyarın "Heydərbabaya salam" poemasını italyancaya çevirmişdir ki, bu, Avropada Cənubi Azərbaycan ədəbiyyatına dair ilk tərcümə əsəridir. Alimin bu təşəbbüsündən sonra "Heydərbabaya salam" əsəri alman və fransız dillərinə də çevrilmişdir. Molla Pənah Vaqif, Qövsi Təbrizi, Mirzə Əli Möcüz kimi şəxsiyyətlər haqqında tədqiqatlar aparan G.Bellingeri Türkiyə və tatar ədəbiyyatına, rus-tatar ədəbi əlaqələrinə dair də əsərlər yazmışdır. Türkiyə

ədəbiyyatına böyük maraq göstərən G.Bellingeri Yəhya Kamal Bayatlının "Öz göy qübbəmiz" adlı əsərini italyancaya çevirmiş, Nazim Hikmət, Orxan Vəli, Yaşar Kamal, Tezer Özlü, Orxan Pamuk kimi türk şair və yazıçıları haqqında məqalələr qələmə almışdır.

Ermanno Visitainer (1961). İtaliyanın Trento şəhərində anadan olan E.Visintainer Venesiya Ka Foskari Universitetinin Şərq dilləri və ədəbiyyatları fakültəsi Türkologiya kafedrasının məzunu olmuş və Əhməd Yasəvi haqqında dissertasiya işi yazmışdır. Alim Türkiyə və Qazaxıstanda keçirilən beynəlxalq konfranslarda məruzəçi kimi çıxış etmiş, türk ədəbiyyatı və Türkiyənin geopolitik vəziyyətinə dair araşdırmalar aparmışdır. 2010-cu ildə "Əhməd Yasəvi" monoqrafiyası, 2015-ci ildə isə "Qazaxıstan tarixi" adlı kitabı nəşr olunmuşdur. Müəllifin Orxon abidələri, türk ədəbiyyatında buddizm motivləri mövzusunda da tədqiqləri vardır.

"İtaliyada unudulmuş türk varlığı: Moena türkləri" adlı araşdırmasında İtaliyanın Moena ərazisində yaşayan türk əsilli toplumdan bəhs etmişdir. Qeyd edək ki, "Moena türkləri məşhur italyan türkoloqları Alessio Bombaci və Ettore Rossinin yolunu davam etdirən Roma Universitetinin professoru Anna Masalanın da diqqətini çəkmişdir" (7).

Mattihas Kappler (1962) 1962-ci ildə Almaniyada anadan olmuşdur. Bir müddət Kıbrıs Universitetində çalışan M.Kappler sonradan Venesiya Ka Foskari Universitetində türk dili və ədəbiyyatından dərslər aparmağa başlayır. Türk və yunan dillərinə yaxşı vaqif olan M.Kappler öz yaradıcılığında, əsasən, Balkanlardakı dil və din məsələləri ilə bağlı mövzulara yer vermişdir. Bu mənada, türk və yunan xalqlarının dilləri və ədəbi əlaqələri istiqamətində araşdırmalar aparmış, xüsusilə qaramanlıca adlandırılan və yunan əlifbası ilə türk yazısına əsaslanan mətnlərə diqqət ayırmışdır. Bundan başqa, alimin Balkan coğrafiyasının multikultural vəziyyəti, dil və din birlikləri, Osmanlı şəhrəngizlərində etnik stereotiplər, Aralıq dənizi coğrafiyasında dil planlaşdırılması və dil siyasəti, Kıbrıs türkcəsi və ədəbiyyatı, Şimali Kipr Türk Cümhuriyyətinin dil siyasətinə dair tədqiqatları vardır. Müəllifin "Osmanlı ibtidai məktəbləri üçün türkcə-yunanca sözlərin siyahısı" (1996), "Osmanlı türkcəsinə dair Avropada ilkin qrammatika kitabları" (2001), "Qaramanlı mətnlərinə linqvistik yanaşma" (2004), "Balkanlarda din və dil" (1996), "Kıbrıs türkcəsinin sintaksisində dilxarici təsirlər" (2008), "Kiprin şimal hissəsində dil siyasəti və dil planlaması" (2011) adlı əsərləri türkoloji dilçilik üçün maraqlı məlumatları özündə əks etdirir.

Vera Kostantini (1976) 2004-cü ildən Ka Foskari Universitetində müəllim kimi çalışır, burada türk dili və ədəbiyyatından, Osmanlı tarixi və pleoqrafiyasından dərslər aparır. 2004-cü ildə "XVI-XVII əsrlərdə Kıbrısda Venesiya və Osmanlı idarəçiliyi və burada tətbiq olunan vergi sistemləri" mövzusunda doktorluq dissertasiyası müdafiə etmiş və həmin tədqiqatını 2009-cu ildə monoqrafiya kimi nəşr etdirmişdir. 2011-ci ildən Kolumbiya Universitetində Osmanlı və Balkanlarla bağlı araşdırmalar aparmış, 2016-cı ildə türkologiya tarixi üzrə dosent elmi adını almışdır.

Nəticə

Həmçinin İtaliyanın Florensiya Universitetində Ayşə Saraçgil (1954) və Fulvio Bertucelli (1984), Salento Universitetində Rosita D'Amora (1971), Neapol Şərqşünaslıq Universitetində Lea Nocera (1977) və Valentina Mercella (1984) kimi alimlər türkologiyanın ayrı-ayrı istiqamətləri üzrə öz fəaliyyətlərini davam etdirirlər.

Qeyd edək ki, bunlarla yanaşı İtaliyada Dei Linçei Milli Elmlər Akademiyasında, Beynəlxalq Şərq və Aralıq Dənizi Araşdırmaları Dərnəyində, Quqlielmo Scalise İtalyan-Asiya Mədəniyyət Mərkəzində, Georgi Gini Vəqfi Venesiya Şərq İnstitutunda, C.A.Nallino adına Şərqşünaslıq İnstitutunda, Yaxın Şərq Araşdırmaları Assosiasiyasında türkologiyanın müxtəlif sahələrinə və aktual problemlərinə həsr olunmuş araşdırmalar aparılır.

İstifadə olunmuş ədəbiyyat

1. Cəmşidov C. Ettore Rossinin Məhəmməd Əmin Rəsulzadə haqqında məqaləsi / https://www.avanqard.net/index.php?action=static_detail&static_id=58155 (26.10.2022)
2. Karakartal O. Başlanğıcından Günümüze Genel Bir Bakışla İtalya'da Türkoloji Çalışmaları // Türk Dili Araştırmaları Yılhğı Belleten, [1996] 1994, s. 253-298 / https://dergipark.org.tr/tr/download/article-file/688164
3. Karakartal O. İtalya'da Türk Dili "İtalyanca-Türkçe" ve "Türkçe-İtalyanca" Sözlüklere ve Gramer Kitaplarına Dair Bir Not, Türk Dili, S. 533, Mayıs 1996, s. 1241.
4. Kazımbəy M. Türk-tatar dilinin ümumi qrammatikası. Bakı: Zərdabi LTD, 2017
5. Turan Ş. Türkiye-İtalya İlişkileri I: Selçuklular'dan Bizans'ın Sona Erişine. İstanbul: Metis Yayınları, 1990
6. Turan Ş. "İtalya (İslam Dünyasıyla İlişkileri ve Sömürgecilik Faaliyet- leri)", Türkiye Diyanet Vakfi İslam Ansiklopedisi, C. 23, 2001, s. 448-452.
7. İtalya'da Unutulmuş Türk Varlığı: Moena Türkleri / https://azixantrop.livejournal.com/196137.html
8. Aldo Gallotta: https://islamansiklopedisi.org.tr/gallotta-aldo
9. Alessio Bombaci: https://islamansiklopedisi.org.tr/bombaci-alessio
10. Anna Masala: https://www.arkeolojikhaber.com/haber-ord-prof-dr-anna-masala-17934/
11. Asım Tanış: https://www.facebook.com/Tanis.Asim
12. Bellingeri Giampiero: https://www.unive.it/data/people/5591125
13. Costantini Vera: https://www.unive.it/data/people/5590852
14. Kappler Matthias: https://www.unive.it/data/people/5592050
15. Ugo Marazzi: https://www.linkedin.com/in/ugo-marazzi-302487172/?originalSubdomain=it

Açar sözlər: İtaliya, türkologiya, türkoloji mərkəzlər, italyan türkoloqlar, əsas istiqamətlər və araşdırmalar.
Key words: Italy, Turkology, Turkological centers, Italian Turkologists, main directions and researches.
Ключевые слова: Италия, тюркология, тюркологические центры, итальянские тюркологи, основные направления и исследования.

XÜLASƏ

Məqalədə italyan türkologiyasının tarixindən bəhs olunur. Qeyd edilir ki, Avropada türk xalqlarının dili, ədəbiyyatı və tarixinin öyrənilməsinə dair ilk əsərlər XIV əsrin sonlarından etibarən qələmə alınmağa başlanmışdır. 1396-cı ildə İldırım Bəyazidə əsir düşən bavariyalı *İohan Şiltbergerlə* başlayan bu araşdırmalar sonradan italyan *Filippo Argenti* və *Pyetro Ferruqato* tərəfindən davam etdirilmişdir. XV əsrdən başlayaraq Avropada şərq dillərini öyrənmək və öyrətmək məqsədi ilə bir çox məktəblər və institutlar açılmış, universitetlərdə kafedralar təşkil olunmuş, qrammatika kitabları və lüğətlər hazırlanmışdır. Bu baxımdan, tarixi və iqtisadi-siyasi münasibətlər zəminində meydana gələn türk - italyan əlaqələri nəticəsində İtaliyada türk dünyasına qarşı maraq artmış və bu istiqamətdə türk xalqlarının dilinə, tarixinə və ədəbiyyatına dair çox sayda əsərlər yazılmışdır. İtalyanların türkologiya sahəsindəki fəaliyyətləri Avropada mühüm əhəmiyyət daşıdığı kimi türk dünyasında da xüsusi diqqət çəkir. Bu baxımdan məqalədə türk-italyan əlaqələrinin tarixindən və İtaliyada türk dünyasına dair araşdırmalardan geniş söz açılmışdır. Burada klassik və müasir italyan türkologiyasının inkişaf yolu ətraflı şərh olunmuş, xüsusilə çağdaş türkologiyanın formalaşmasında rolu olan görkəmli italyan türkoloqlar və əsas türkoloji mərkəzlər haqqında məlumat verilmişdir.

TURKOLOGICAL RESEARCHES IN ITALY

ABSTRACT

The article deals with the history of Italian Turkology. It is noted that the first works on the study of the language, literature and history of the Turkic peoples in Europe began to be written from the end of the 14th century. In 1396, these researches started with the Bavarian Johan Schiltberger, who was captive by Ildırım Beyazid, and then continued by the Italians Filippo Argenti and Pietro Ferrugato. Starting from the 15th century, many schools and institutes were opened in Europe for the purpose of learning and teaching Eastern languages, departments were organized in universities, grammar books and dictionaries were prepared. From this point of view, as a result of the Turkish-Italian relations formed on the basis of historical and economic-political relations, interest in the Turkish world has increased in Italy, and in this direction, many works have been written on the language, history and literature of the Turkish people. The activities of Italians in the field of Turkology are of great importance in Europe as well as in the Turkic world. From this point of view, the article discusses the history of Turkish-Italian relations and researches about the Turkish world in Italy. Here, the development path of classical and modern Italian Turkology is explained in detail, especially the prominent Italian Turkologists and main Turkological centers who played a role in the formation of modern Turkology are given information.

ТЮРКОЛОГИЧЕСКИЕ ИССЛЕДОВАНИЯ В ИТАЛИИ

РЕЗЮМЕ

Статья посвящена истории итальянской тюркологии. Отмечается, что первые работы по изучению языка, литературы и истории тюркских народов в Европе стали писаться с конца XIV века. В 1396 году эти исследования были начаты баварцем Йоханом Шилтбергером, находившимся в плену у Ильдырима Беязида, а затем продолжены итальянцами Филиппо Ардженти и Пьетро Ферругато. Начиная с 15 века в Европе открывалось множество школ и институтов с целью изучения и преподавания восточных языков, организовывались кафедры в университетах, готовились грамматические книги и словари. С этой точки зрения, в результате турецко-итальянских отношений, сформировавшихся на основе исторических и экономико-политических отношений, в Италии возрос интерес к тюркскому миру, и в этом направлении написано много работ на языке , история и литература турецкого народа. Деятельность итальянцев в области тюркологии имеет большое значение как в Европе, так и в тюркском мире. С этой точки зрения в статье обсуждается история турецко-итальянских отношений и исследования тюркского мира в Италии. Здесь подробно объясняется путь развития классической и современной итальянской тюркологии, особенно приводятся сведения о выдающихся итальянских тюркологах и основных тюркологических центрах, сыгравших роль в формировании современной тюркологии.

Rəyçi: filologiya üzrə fəlsəfə doktoru Ramil Bayramov

Ələsgərova Zərifə İsrafil qızı[31]

ORNİTONİM TƏRKİBLİ FRAZEOLOJİ VAHİDLƏR, ONLARIN AZƏRBAYCAN VƏ İNGİLOS DİLLƏRİNDƏ İŞLƏNMƏ METODLARI

Ornitonim tərkibli frazeoloji vahidlər haqqında məlumat verərkən, öncədən hər iki dildə yer alan frazeoloji vahidlərdə həm variantlılıq, həm də sinonimlik hallarının çox sıx şəkildə bir-biri ilə qarşılıqlı surətdə bağlı olduğunu görürük. Tədqiqat işlərini araşdırarkən məlum olur ki, burada işlənən sinonimlik, heç də, həmişə deyil, lakin, bir çox hallarda variantlıq xüsusiyyəti daşıyaraq həm semantik, həm də fərqlilik kəsb edərək, variantlardan birinin fərdiliyindən yaranmışdır. lakin, bu heç də o demək deyil ki, bu məqam variantlılıq və sinonimiya situasiyalarının eyniləşməsinə imkan verəcək. Amma burada bir məqamı qeyd etmək yerinə düşər ki, ornitonim frazeoloji vahidlərdəki variantlıq məsələlərini araşdıran zaman, bütövlükdə frazeologiyada variantlılıq problemlərinin araşdırılması əsas qayə hesab olunur.

Bu barədə tədqiqatçı M.Mirzəliyevanın fikirləri çox maraqlıdır. Onun fikrincə frazeoloji variantlılığın iki əsas forması var:

1. Komponentlərin forma variantlığı.
2. Komponentlərin tərkib variantlığı.

Müəllifə görə komponentlərin forma variantlığı, fonetik və morfoloji səciyyəli formal variant ola bilər. Məsələn: Bir saatlıq xəlifə, ya da saatlıq xəlifəlik.

Komponentlərin tərkib variantlığı ilə həmçinin leksik variantlılıq kimi də tanınır. Amma bu frazeoloji vahidin tərkib hissəsi olan leksik variantlılıqdan fərqlənir. Bu barədə müəllif yazır: Tədqiqatçıların gəldiyi qənaətə görə leksik dəyişmələr nəticəsində eyni frazeoloji vahidin variantları deyil, frazeoloji sinonimləri əmələ gəlir. Əlbəttə, bu fikirlə, qətiyyən razılaşmaq olmur. Axı leksik əvəzlənmə zamanı heç də frazeoloji vahidin malik olduğu obraz, xüsusiyyətə həmişə dəyişmir. Məsələn: *ürəyinə dəymək qəlbinə dəymək könlünə dəymək // xətrinə dəymək.* (3, səh. 132). Onu da qeyd etmək yerinə düşər ki, həm Azərbaycan, həm də İngilis dillərindəki ornitonim tərkibli frazeoloji vahidlər arasında forma və tərkib variantlığı, bildirən frazemlər kifayət qədərdir. Hər iki variantlıq haqda tədqiqatçı Fatimə Vəliyevanın yazdığı dissertasiyada çox maraqlı fikirlərə rast gəldik. Müəllif bu barədə yazır: "Forma variantlılığı situasiyası eyni bir frazemin funksional mövcudiyyətinin tərkib hissəsi sayıla bilər. Yəni əzəldən mövcud olan variantlılıqdan başqa eyni bir ifadənin müəyyən mətn kontekstinin tələblərinə müvafiq olaraq fərqli formal göstəricilər əldə etməsini qeyd etmək olar. Məsələn: *caunt one's chickens before they are hatched*və *don't count your chickens before they hatched.*Göründüyü kimi, burada qrammatik səciyyəli düzəlişlərə yol verilmişdir.

Azərbaycan dilindəki forma variantlılığına gəlincə, aşağıdakı nümunələrə diqqət yetirmək olar: *qanadsız quş kimi // qanadsız quş tək: ağzıyla quş tutmaq // ağzı ilə quş tutmaq* və s. Bu zaman forma variantlığı, komponent variantlılığı qədər o qədər də maraqlı deyil" (5, səh. 36).

Komponent variantlılığında fərqli cəhətlər mövcuddur. Məsələn, Cockbrain "hərbi tərcümədə: *"Xoruzbeyin"* və *"birdbrain""quşbeyin"* ifadələri tam adekvat komponent variantlılığı təəssüratlığı yaratsalar da, *"cock""xoruz"*ornitonimininzoometaforik mahiyyətinin fərqliliyi burada özünü göstərmiş olur. Məhz bu hər iki halda leksik semantik tutumun *"axmaqlıq"*, *"səfehlik"* semantikası ilə bağlı olmasına baxmayaraq, *"xoruz"*zoometaforizminin*"lovğalıq"* mənasını da ifadə etməsi, sinonimliyin ortaya çıxa biləcəyini düşünməyə əsas verir. İngilis dilində xoruz ornitonimi ilə bağlı olan çoxsaylı -ornimetaforlar mövcuddur. Onların əksəriyyətində, semantik məna tutumu, "*xoruzunlovğalığı yersiz təkəbbür"* nümunəsi kimi səciyyələndirilməsinə əsaslanır. Məsələn: *cock-a hoop* (hərfi tərcümədə: *xoruz banlaqlı*)*özünə arxayın, lovğa, gənc cock* (hərfi tərcümədə: *xoruzqanlıq*) *özünü dartmaq*. Lakin leksik semantikada bunların variantlıq nümunəsi təcəssüm etdirməsi əsla şübhə doğurmur. Buna aid digər misallarda göstərmək olar. Məsələn: *chicken – hearted* – hərfi tərcümədə - *cücə ürəkli – qorxaq* və *chicken – lizered* (hərfi tərcümədə: *cücə ciyərli – qorxaq* (2, səh. 15).

Digər misallara nəzər salsaq: *"crows don't pick crow's eyes"*hərfi tərcümədə: *"qarğa qarğanın gözünü çıxarmaz"* (Azərbaycan dilində ekvivalent: *"İt itin ayağını basmaz"*). Digər bir misal: *"hawks don't pick hawks eyes" "qırğı qırğının gözünü çıxarmaz"* (7, səh. 364).

Elə ornitonim tərkibli frazemlər də vardır ki, orada ornitonim komponenti yer almaya bilər.Bu iki halda özünü büruzə verir:

1) Komponentin ümumi semantikaya xələl gəlmədən elliminasiyası zamanı.

2) Komponentin digər zoonim və ya fərqli mahiyyətli komponentlə əvəzlənməsi zamanı.

Hər iki halda olan ifadələrə N.Vəliyevanın müəllifi olduğu frazeoloji birləşmələr lüğətində daha çox rast gəlinir. Məsələn, birinciyə misal olaraq aşağıdakıları göstərmək olar:

1. Elliminasiya zamanı: *İlan ağzından qaçıb qurtaran quş kimi // İlan ağzından çıxan kimi // İlan boğazından çıxan kimi.*

2. Komponentlə əvəzlənmə zamanı: *İlan ağzından qaçıb qurtaran qurbağa kimi.*

Bəzən də bir çox hallarda variantlılıq sinonimlikdən başqa, antonimlik xarakter daşıyır. Məsələn: *ağzı ilə quş tutmaq – someone will cut off the sales of your shoes from under you – right on the march / a desperado.*

---

[31] **İngilis dili (humanitar faklütələr üzrə) kafedrasının baş müəllimi**

Frazeoloji birləşmələrin komponentlərinin dəyişmiş variantına nəzər salsaq görərik ki, burada da bir növ uyğunlaşma müşahidə edirik. Məsələn: *ağzı ilə milçək tutmaq – to count flies to catch flies / to sit twidlingone's thumbs / to gape about / to sit like a dummy / to cape about / to sit with idle hands / to sit like a log / to keep one's hands in pockets / to fold one's arms / day – dream*və s. (6, səh. 32).

Azərbaycan dilində də kifayət qədər komponent variantlılığına əsaslan ornitonimli frazemlər var. Məsələn: *quşu gözündən atmaq / quşu gözündən vurmaq / quş olub göyə uçmaq / quş olub göylərə çəkilmək: gözü ilə quş tutmaq / ağzı ilə quş tutmaq.*

Fərqli variantlara da rast gəlmək olur. Məsələn: *özünü qaz kimi çəkmək // özünü xoruz kimi dartmaq: qarğa – quzğun kimi şığımaq // alıcı kimi şığımaq.*

Mürəkkəb komponentli əvəzlənmə ilə tanınanornitonim frazemlər də mövcuddur (1, səh. 177).

Azərbaycan dilindəki bu ifadələrin ingilis dilindəki ekvivalentliklərini araşdırarkən məlum olur ki, buradakı komponent əvəzlənməsi bütövlükdə semantik tutumun dəyişməsinə səbəb ola bilər. Birinci vəziyyətdə pozitiv səciyyələndirmə yer alırsa, ikinci halda neqativ situasiyanın təsbiti yer alır. Məsələn: *O, çox fərasətli adamdır, zalım oğlu ağzı ilə quş tutur.*Yaxud: *boşluqdur da oturub ağzı ilə milçək tutur.* Göründüyü kimi birinci halda üstün bacarıqdan. İkinci halda isə mənasız bir işlə məşğul olmaqdan söhbət gedir. Yəni, buradakı komponent əvəzlənməsi tamamilə yeni mənanın, özü də antonimik mənanın meydana gəlməsinə yol açır. Eyni hallar ornitonim tərkibli frazeologizmlərdə sinonimiya situsiyalarında da yaranır. Məsələn: *alıcı quş dimdiyindən tanınır* // *Ət yeyən quş dimdiyindən bilinir, tanınır* variantlığı,*"quş nəğməsindən, aslan isə nəriltisindən bilinir"* frazeoloji vahidi ilə sinonimiya baxımdan eynilik yaradır: Digər bir misalı nəzərdən keçirək. *A bird in the land is worth two in the bush."Əldəki bir quş, koldakı iki quşdan yaxşıdır ifadəsi, Better an egg today than a hen tomorrow".Bu günki yumurta, sabahkı toyuqdan yaxşıdır"* ifadəsi ilə sinonimdir" (5, səh. 39).

Antonimik və sinonimik variantlıqlarda bəzən cərgələnərək özünü büruzə verə bilər. Məsələn: *to seek a hare in a hen's nest* (hərfi tərcümədə *dovşanı toyuq hinində axtarmaq*) boş, səfeh, mənasız işlərlə məşğul olmaq və *to shoe the goose* (hərfi tərcümədə: *qaza ayaqqabı geyindirmək*) – lazımsız, səfeh işlə məşğul olmaq: *to teach an eagle to fly (qazlara uçmaq öyrənmək)*, yəni, *"lazımsız işlə məşğul olmaq". "Qarğadan qırğı olmaz", "Qarğanı yüz il bəsləsən də tərlan olmaz",* habelə *"qarğa beyni yemək"* və *"quşbeyin olmaq"* frazeoloji vahidləri də sinonim frazemlərdir (6, səh. 285; 2, səh. 44, 46, 48).

Ornitonim frazeologizmlərdə antonimiya məsələlərində bir-birinə tamamilə, ya da nisbətən zidd məna yükünü ifadə edən frazeoloji vahidlərdə mövcuddur. Məsələn: *qəfəsdəki quş kimi - azad quş kimi; old-bird – Qoca quş, yəni "təcrübəli adam" və "spring chicken" – "təcrübəsiz gənc"* (6, səh. 39, 46).

Bir çox hallarda ornitonimli frazeoloji vahidlərdə məna tutumu ilə əks olan komponentlərə də rast gəlmək olur. Məsələn: *to eat like a bird "quş kimi yemək",* yəni *"az yemək", "to have a raven's appetite""qarğa kimi iştahası olmaq",* yəni *"yaxşı iştahası olmaq", "to eat like a horse" "at kimi yemək"*, yəni *"həddindən artıq çox yemək"; to live too close to the frightend* (hərfi tərcümədə: *"meşəyə çox yaxın yaşayanın bayquşlardan nə qorxusu")*, yəni *"İslanmışın yağışdan nə qorxusu; "ölmək ölməkdir, xırıldamaq nə deməkdir"* mənasında. Bəzən isə elə olur ki, fərqli komponentlərin olduğu frazemlər, nisbi-situativ antonim kimi çıxış edə bilir. Məsələn: *(The) scalded dog fears cold water* (Hərfi tərcümədə:*bir dəfə yanmış it soyuq sudan da qorxar*), yəni *"süddən ağzı yanan qatığı da üfləyə-üfləyə içir"* (2, səh. 44).

Azərbaycan və ingilis dillərindəki bir çox ornitonim tərkibli frazeoloji vahidlərin müqayisəli təhlili həmin ifadələrin yer alan quşların "davranış" spesifikasını mənimsənilməsində müəyyən eyniliyi göstərir. Bu barədə tədqiqatçı F.M.Vəliyeva yazır: "Həmin davranışların" və ya verilən səciyyənin az və ya çox dərəcədə oxşarlığı, müqayisə etdiyimiz dillərin frazeologiyasında "frazen yaratma potensialı" da müəyyən paralelliyi izləməyə imkan verir. Hər iki dilin daşıyıcıları üçün, quşlarım bu vı ya digər konkret təbii xüsusiyyətlərindən doğru təəssürat müəyyən səviyyədə eyniyyət kəsb etdiyindən, onlarla bağlı frazemlərdə bir çox halda kəskin məna fərqi müşahidə olunmur. Həmin xüsusiyyətlərin antropomorfonikləşməsi (yəni, quşların təbii özəllikləri və "qavramış özünəməxsusluqları"nın insanların fiziki və davranış özəlliklərinə "köçürülməsi") bir çox halda, paralel məcrada reallaşan proseslərin nəticəsindən başqa bir şey deyil.

Təmiz qeyib dolanginən gül kimi,
Hər gün oxu dərsini bülbül kimi (Abdulla Şaiq).

Burada şair öz nəsihətlərində məktəblinin səliqəli olmasının vacibliyi ilə bərabər, onun dərslərinin yüksək səviyyədə mənimsəyib "bülbül kimi oxuması"nın əhəmiyyətini də vurğulayır. Bülbül kimi oxumaq, bülbül kimi cəh-cəh vurmaq, bülbül kimi ötmək kimi variantlarda təzahür tapan bu frazeologizmin ifadə etdiyi mənalar aşağıdakılardır:

1) "Bülbül kimi gözəl nəğmə oxumaq".

2) "Bülbülün oxuduğu nəğməsi gözəl və səlis nitqdə danışmaq".

3) "Çox danışmaq", "zəvəzəlik etmək" və ya "danışmayan"ları israrlı təkid, tənə və yox həddən sonra danışdırmaq" (kinayə ilə). Bütün bu mənalardan belə anlaşılır ki, şairə görə, şagird dərslərində bülbül kimi ötməlidir (1, səh. 43).

Azərbaycan və ingilis dillərindəki ornitonim tərkibli frazeoloji vahidlərin üslubi semantik imkanlarını araşdırarkən və müqayisə edərkən, çox maraqlı nüanslara rast gəlmək olur. Məlumdur ki, frazeoloji vahidlər, xalqın bədii təxəyyülünün obrazlı ifadələrini sinvolikləşmiş şəkildə özündə ehtiva edir. Ümumi halda götürdükdə "frazeologiya" və onun tərkib hissələri olan idiomlar, atalar sözləri, zərb məsələlər, paremioloji vahidlər, xalqın metafora (bənzətmə), qabiliyyətini əyani şəkildə ortalığa çıxarmaqla, həmçinin dilin antromorfik potensialını bir daha aşkar etmiş olur. Məhz bu baxımdan hər bir xalqın folklor və yazılı ədəbiyyatında vüsət tapmış və inkişaf etmiş frazeoloji vahidlər, o dilin "linqvistik üslubiyyatına sıx bağlıdır". Bu barədə tədqiqatçı R.C.Məhərrəmova yazır: "A.İ.Smirnitski, bu qəbildən olan dil vahidlərinin atalar sözləri ilə

birlikdə, linqvistikanın özünün sərhədlərini aşaraq ədəbiyyat və folklor sahəsinə yaxınlaşdığını qeyd edir". Burada əsasən romantizm cərəyanına mənsub olan Avropanın ingilis dilli ədiblərinin yaradıcılığı ilə Azərbaycanın eyni cərəyan nümayəndələrinin əsərlərinin dilinin müqayisəli təhlilini apararaq, həmin əsərlərin dilindəki bir qrup maraqlı leksik mücərrədləşmə faktlarına diqqət ayrılmaqdadır. Burada məhz söhbət ornitonim tərkibli frazeoloji birləşmələrdən gedir.

Müəllifə görə frazeoloji bədii ədəbiyyatın elə mühüm ifadə vasitələridir ki, onları öyrənmədən hər hansı bir yazçının dilini, üslubunu hərtərəfli tədqiq etmək olmaz (4, səh. 268).

Ornitonim tərkibli frazeoloji birləşmələr, dünya dilləri üçün bir növ universallıq, hərtərəflilik statusu daşıyırsa da, burada xalqların yaşadığı ərazilərn flora və faunası, inanc və dəyərləri, mətbəx vərdişlərinin fərqliliyi də qeyd olunması önəmli şərtlərdən hesab olunur. Bu baxımdan ornitofauna lazım bildiyi populyasiya seçiminin bu və ya digər quş növlərinin artımına, digər quş növlərinin azalmasına yol açа bilər. Başqa bir tərəfdən, əgər hər hansı bir xalqın təsəvvüründə, o xalqa məxsus olan bir inancı bildirən hər hansı bir quş, bir xalqın təsəvvüründə müsbət mənada formalaşırsa, digər bir xalqın təsəvvüründə mənfi bir məna obrazında çıxış edə bilər. Məsələn, Avropa xalqlarının inanclarına görə, bayquş, əsasən müsbət anlamda qavranılırsa da, və ya, həm müsbət, həm də mənfi obrazda təsəvvür olunursa, digər bir xalqın təsəvvüründə o, mənfi obrazda ifadə edilə bilər və ya əksinə. Məsələn, Avropada yuxarıda qeyd etdiyimiz kimi bayquş ornitonimi müsbət mənada qəbul olunursa, Azərbaycan və Şərq millətlərinin təsəvvüründə, bu quş uğursuzluq gətirən, bəd bir hadisənin xəbərçisi kimi tanınır. Məsələn: İngilis dilində: *as wise as an owl - bayquş kimi// owl (bayquş) – səfeh adam* kimi xarakterizə olunur. Beləliklə, hər iki dilin materialları arasında apardığımız bu tədqiqat işində ornitonim tərkibli kifayət qədər frazeoloji vahidlərin olduğunun əyani şahidi oluruq. Məhz bu frazeoloji vahidlər hər iki dilin frazeoloji lüğətlərinin tərkib hissəsinin zənginləşməsində müstəsna əhəmiyyət kəsb edir.

Ədəbiyyat

1. Azərbaycan dilinin izahlı lüğəti. IV cild. Bakı, Şərq-Qərb – 2006, səh. 797.
2. Hacıyeva A.K. İngiliscə-Azərbaycancazoometaforizmlərlüğəti. Bakı. Nurlan – 2004, səh. 260.
3. Mirzəyeva M. Türk dilləri frazeologiyasının nəzəri problemləri. Azərbaycan ensiklopediyası nəşriyyatı. Bakı, 1995, səh. 196.
4. Məhərrəmova R.C. Mirzə Ələkbər Sabirin söz dünyası. Bakı, Nurlan – 2006, səh. 323.
5. Vəliyeva F.M. Azərbaycanvəİngilisdillərindəornitonimtərkiblifrazeolojibirləşmələrinleksik-semantikxüsusiyyətləri. Dissertasiya. Bakı – 2014, səh. 179.
6. Vəliyeva N.Ç. Azərbaycanca-İngiliscə frazeoloji lüğət. Bakı, Nurlan – 2006, səh. 460.
7. Кунин А.В. Англо-русский фразеологический словарь. 4-е издание. Русский язык, 1984, стр. 944.

Açar sözlər: frazeologiya, frazeoloji vahidlər, metodlar, ornitonimiya, variantlılıq, fərdilik, sinonimiya, antonimiya, zoometaforizmlər, semantika, komponentlər, antonimik variantlılıq, sinonimik variantlıq.

Rus dilində:фразеология,фразеологические термины, методы, орнитонимия, вариантность, индивидуальность, синонимия, зоометафоризмы, семантика, компоненты, антонимические варианты, синонимические варианты.

İngilis dilində:phraseology, phraseological units, methods, ornithonym, variants, individuality, synonyms, antonymies, zoometaorisms, semantics, components, antonymic variants, synonymic variants.

Xülasə

Xalxın tarixinin, məişətinin, onun öz dilində əksini tapması ilə əlaqədar olaraq aparmış tədqiqat əsərlər tarix boyunca, müxtəlif səviyyələrdə araşdırılmış, digər dillərlə müqayisə edilmiş, hətta, tədqiqatçılar arasında mübahisə predmetinə belə çevrilmişdir. Belə ki, daşıyıcısı olduğu xalqın tarixinin inikası olduğu üçün frazeoloji vahidlərdə həmin xalqın bir növ mənşəyinin, güzəranının, əxlaq kodeks və eləcə də mənəvi dəyərlərinin bir növ məhdud formaya sığınacaq qədər lakonikləşmiş və bədiiləşmiş aynasıdır. Məhz bu səbəbdəndir ki, bir çox tədqiqatçılar, dilçiliyin əsas məqsəd və amalının, dilin tədqiqi vasitəsi ilə, insanın bir fərd olaraq daxili aləm və psxologiyasının, eləcə də, insanın bir cəmiyyət fərdi olaraq, cəmiyyətə münasibətinin, bütövlükdə insan cəmiyyəti tarixinin və daxili təşkilatlanmasının xüsusiyyətlərinin öyrənilməsinin vacibliyini qeyd etmişlər.

Резюме

Научные работы, связанные с отражением истории народа, его повседневной жизни на родном языке, исследовались на разных уровнях на протяжении всей истории, в сравнении с другими языками, и даже становятся предметом дискуссий среди исследователей. Итак, поскольку он является отражением истории народа, он является носителем во фразеологизмах своеобразного происхождения, образа жизни, морального кодекса и нравственных ценностей этого народа, лаконичных и художественных до предела. укрытия в виде ограниченной формы зеркала. Именно по этой причине многие исследователи считают, что основным назначением и функцией языкознания является изучение внутреннего мира и психологии человека как личности, а также отношения человека к обществу как личности, истории человеческой общества в целом и особенности его внутренней организации через изучение языка.

Summary

Research works related to the reflection of people's history, everyday life in their own language have been investigated at various levels throughout history, compared with other languages, and even become the subject of debate among researchers. So, because it is the reflection of the history of the people it is the bearer of, in the phraseological units, a kind of origin, way of life, moral code and moral values of that people are laconicized and artisticized to the point of sheltering in a kind of limited form mirror. It is for this reason that many researchers believe that the main purpose and function of linguistics is to study the inner world and psychology of a person as an individual, as well as the relationship of a person to society as an individual, the history of human society as a whole, and the characteristics of its internal organization through the study of language. have noted its importance.

RƏYÇİ: dos. L.Ələkbərova

Səfixanova Afət, Abıyeva Validə[32]

ADJECTIVES AS A MAIN PART OF SPEECH

In linguistics,an adjective is a word whose main syntactic role is to modify a noun or noun plurace. It's semantic role is to change information given by the noun.

Adjectives are one of the main parts of speech of the English language, although historically they were classed together with nouns. Certain words that were traditionally considered to be adjectives, including the, is,my etc, are today usually classed separately as determiners.

Adjective comes from Latin nomer adjectivium, a calgue of Ancient Greek. In the grammatical tradition of Latin and Greek, because adjectives were inflected for gender,number,and case,like nouns (a process called declension),they were considered a type of noun. The words that are today typically called substantive nouns. The terms noun substantive and noun adjective were formerly used in English but are now obsolete.

A given occurrence of an adjective can generally be classified into one of three kinds of use.

1.Attributive adjectives are part of the noun purase headed by the noun they modify,for example, happy is an attributive adjective in " happy people ". In some languages ,attributive adjectives precide their nouns in athers,it depends on the adjectives or on its exact relationship to the noun. In English attributive adjectives usually precede their nouns in simple phrases but follow when they are modified or qualified by a phrase acting as an adverb. For example: compare I saw three happy kids with " I saw three kids happy enough to jump up and down with glee.

• Predicative adjectives are liked via a copula or other linking mechanism to the noun or pronoun they modify for example,happy is a predicate adjective in " they are happy " and in " that made me happy". Nominal adjectives act almost as nouns. One way this happens is by eliding a noun that leaves behind its attributive adjective. In the sentence," I read two boded to them,he feared the sad bode,but the preferred the happy",happy is a nominal adjective that for " happy one" or " happy book" another way this happens is in pleases like " out with the old, in with the new", when " the old means that which is old "or "all that is old" and similarly with " the new". In such cases, the adjective may function as a mass noun. In English, it may also function as a plural count noun denoting a collective group, as in " The meek shall inherit the Earth", where " the meek" means " those who are meek" or " all who are meek".

• Adjectives asa part of speech in most languages. In some languages, the words that serve the semantic function of adjectives are categorized together with some people class,such as nouns or verbs, in the phrase a " ford car", " Ford" is unquestionably a noun but its function is adjectival: to modify " car" in some languages adjectives can function as nouns: as for "confusion " with verbs, rather than an adjective meaning " big", a language might have a verb that means " to be big" and could then use an attributive verb construction analogous to" big-being house " to express what in English is called a " big house ". Different languages do not use adjectives in exactly the same situations. For example, where English uses "to be hungry " (hungry being an adjective) In languages that is usually an open class; that is, it is relatively common for new adjectives to be formed such process as derivation.

Linguists today distinguish determiners from adjectives, considering them to be two separate parts of speech. But formerly determiners were considered to be adjectives in some of their uses. Determiners are words that are neither nouns nor pronouns, yet reference a thing already in context. They generally do this by indicating definiteness, quantity (one vs, some vs, many) or another such property.

An adjective acts as the head of an adjective phrase or adjective phrase. In the simplest case, an adjective phrase consists solely of the adjective, more complex adjective phrases may contain one or more adverbs modifying the adjective (very strong) or one or more complements (such as " worth several dollars ", " full of toys"or " each to please ")

In English,attributive adjective phrases that include complements typically follow the noun that they qualify. Unlike adjectives,nouns acting as modifiers usually are not predicative; a beautiful park is beautiful, but a car park is not " car". The modifier often indicates origin, purpose, semantic patient (" man eater ") or semantic subject (a child actor") however, it may generally indicate almost any semantic relationship. It is also common for adjectives to be derived from nouns, as an boyish, birdlike, behaviroral (behavioral), famous manly , angelic and so on.

Many languages havespecial verbal forms calledparticiples that can act as nouns modifiers sometimes participles develop into pure adjectives. Examples in English include relieved, speak (as in " the spoken word ") and going (the present participle of the verb go, used as an adjective in such phrases as " the going rate"

In many languages,some adjectives arecomparable and the measure of comparison is called degree. For example: a person may be " polite and a third person may be " most polite" of the three. The word " more" here modifies the adjective " polite" to indicate a comparison is being made and " most" modifies the adjective to indicate an absolute comparison (a superlative) among languages that allow adjectives to be compared, different means are used to indicate comparison. Some languages do not distinction between comparative and superlative forms.

An English, many adjectives can be in fleeted to comparative and superlative forms by taking the suffixes "er" and "est" (sometimes requiring additional letter) before the suffix " great" , " greater". Many adjectives do not naturally lend themselves to comparison. For example: some English speakers would argue that it does not make sense to say that one thing

[32] **Azərbaycan Tibb Universiteti. asefixanova@gmail.com**

is “ more ultimate “ than another or that something is “ most ultimate”, since the word “ ultimate “ is already absolute in its semantics.

Comparative and superlative forms are also occasionally used for other purposes than comparison. In English comparatives can be used to suffers that a statement is only tentative ortendentious; one might say “good is more the slay and retiring type”. Where the comparative “ more” is not really comparing him with other people or with other impressions of him , but rather could be substituting for “ on the wide “. In some languages ,adjectives after their form to reflect the gender, case and number of the noun that they describe.

Ədəbiyyat

1)O.Musayev. İngilis dilinin qrammatikası,1996
2)Guide to English grammer “ yunusou D.A, Bakı,2004
3)A Grammar of present day “ Gordon E.M.Kryloos İ.p/1974
4)Communicative languace teaching journal. Numan D. 1987
5)English for all. Ərəbov, Süleymanova Bakı 2004

Keywords: adjectives, parts of speech, noun, pronoun, verb
Açar sözlər: sifət, nitq hissələri, isim, əvəzlik, fel
Ключевые слова: прилагательные, существительные, главнее, гости реши, местоимение

Summary

Adjectives are words that give more information about a noun or pronoun and can go in different positions in a sentence. They give more information about the new words. Reading clear explanation sentence help us to understand how adjectives used in sentences. Put your grammar knowledge into practice by doing exercises. We know that adjectives is a word that tell us about a noun.(the big dog was angry). In this sentence the adjective is in bold and the noun that it modifies the word. A green car,a dark sky etc… And sometimes an adjective comes after a verb: my car is green. We know that adjective is the main part of speech in all languages. Each language has its own different beauties. Linguists distinguishes these beauties in the languages. We know that nominal adjectives act as nouns. And we can say that they act the same function in all languages.

Xülasə

Sifətin əsas nitq hissəsi kimi cümlədə rolu

Xarici dildə danışarkən cümlə quruluşuna fikir vermək lazımdır. Cümləni qurmaq üçün mütləq şəkildə qrammatikanı bilmək önəmlidir. Bir dildə danışarkən nitqimizin səlist olmadı vacibdir. Cümlə qurarkən, sözləri yerinə görə istifadə edərkən qrammatkk qaydalara riayət etmək lazımdır. Qrammatikanı bilməsək, dili müəyyən məqamlarda istifadə etmək çətinlik törədir. İngilis dilinin qrammatikası digər dillərlə müqayisədə daha asan şəkildə başa düşüləndir. İngilis dilində ən çox istifadə omun nitq hissələrindən biri olan sifətdir. İngilis dilində sifətin bildirdiyi məna istifadə zamanı və məkanı diqqətlə nəzərdən keçirilir. Ümumiyyətlə, sifətlər əşyaların rəngini, formasını, fiziki keyfiyyətini göstərir. Azərbaycan dilində olduğu kimi, İngilis dilində də şəxs və ya əşyanın əlamətini, keyfiyyətink və s. Bildirəm nitq hissəsidir. Sifət məna baxımından iki qrupa bölünür. Sifətin dərəcələri də onun spesifik xüsusiyyəti kimj qeyd olunur. Dilçilikdə bütün dillərin nitq hissələrinə nəzər salsaq sifətin təsnifatında dəyişikliyi görə bilərik. Müasir ingilis sifətə zad olan xarakterik xüsusiyyətlərdən biri ondan ibarətdir ki, sifət zərflə təyin oluna bilər və həmçinin sifətlər morfoloji quruluşuna və mənasına görə təsnif olunur.

Rəyçi: Prof Məmmədova Z.Ş

Röya Nadir qızı Qəhrəmanova[33]

AZƏRBAYCAN VƏ İNGİLİS DİLLƏRİNDƏ FEİLİ TƏRKİBLƏR SİLSİLƏSİNDƏN CERUND VƏ ONUN FEİLİ-İSMİ XÜSUSİYYƏTLƏRİ

Giriş. Feilin şəxsiz formalarından biri də cerunddur. Cerund ancaq ingilis dilinə xas olan bir nitq hissəsidir. Nə german qrupuna daxil olan başqa dillərdə, nə də Hind-Avropa dillərində cerunda muvafiq nitq hissəsi yoxdur. Cerund da məsdər kimi, ikili xarakterə malikdir. Onun həm feili, həm də ismi xüsusiyyətləri var. Məsdərdən fərqli olaraq, cerund davamlılıq məna çalarlarına malikdir.

Cerund məsdərin sonuna (**to** ədatsız**)** **-ing** sonluğu əlavə etməklə düzəlir. Əmələgəlmə formasına görə cerund feili sifətdən (Patriciple) fərqlənmir. Öz əsas feli xüsusiyyətlərinə görə cernd feli sifətin və məsdərin xüsusiyyətlərinə uyğun gəlir. İsmi xüsusiyyətlərinə görə isə cerund məsdərə uyğun gəlir.

I. Cerundun ismi xüsusiyyətləri;

Yuxarıda qeyd ediyimiz kimi, cerundun ismi xüsusiyyətləri var. Cerund aşağdakı ismi xüsusiyyətlərə malikdir:

a) Cerund cümlədə mübtəda, vasitəsiz tamamlıq və mürəkkəb ismi xəbərin ad hissəsi ola bilər.Məs: Heating the substance up to 85°C was absolutely necessary.

Bu maddəni 85°C-dək qızdırmaq tamamilə zəruri idi.

b) Cerunddan əvvəl sözönü işlədilə bilər. Bu zaman cerund cümlədə tamamlıq, təyin və ya zərflik vəsifəsində olur.Məs: I think of making her a present.Mən ona bir hədyyə vermək haqqında düşünürdüm.

c) İsim kimi cerund da yiyəlik hada olan isimlə və yiyəlik əvəzliyi ilə işlədilə bilər:Məs: I object to his playing football all day long.Mən onun bütün gün futbol oynamağınn əlehinəyəm.

II. Cerundun feili xüsusiyyətləri (The verb Functions of the Gerund)

Cerund feili sifətlə eyni xüsusiyyətlərə malikdir.

a) Cerund vasitəsiz tamamlıq qəbul edə bilir. Məs:

I remember reading that novel-O novellanı oxuduğum yadımdadır.

b) Cümlədə cerund zərflə təyin oluna bilər:Məs:She likes playing alone- O, tək oynamağı xoşlayır.

c) Cerundun öz zaman və təsirli feillərin cerundunun növ kateqoriyası var.

Müasir ingilis dilində cerundun aşağdakı formaları var:

	active	passive
İndefinite	writing	being witten
Perfect	having written	having been writton

Indefinite cerund sadə növlü cerund olub, indiki zaman feili sifəti Participle İ kimi, felin kökünə - ing suffiksi əlavə etməklə əmələ gəlir:

Məs: Speak – speaking

tell - telling

İndenfite cerundun məchul növü **to be** felinin sadə cerund forması və əsas məna daşıyan felin keçmiş zaman feili sifəti (Participle İİ) vasitəsi ilə əmələ gəlir Məs: Being written

İndefinite cerund cümlədə əsas feilin zamanı ilə eyni vaxtda icra olunan hərəkəti göstərir.Buna görə də İndefinite cerund əsas məna daşıyan felin zamandan asılı olaraq indiki, keçmiş və gələcək zamana aid ola bilər.Məs:

She insists on my singing to them - O təkid edir ki, mən onlar üçün oxuyum.

Perfect cerund məlum növü **to be** felinin İndefinite cerundu və əsas məna daşıyan felin keçmiş zaman feili sifəti (Participle İİ) ilə əmələ gəlir: having written.

Perfect cerundun məchul növü köməkçi to be felinin Perfect cerund forması (having been) və əsas məna daşıyan felin keçmiş zaman feili sifəti (Participle II) vasitəsilə əmələ gəlir: having been written.

Perfect cerund cümlədə əsas məna daşıyan feilin göstərdiyi hərəkətdən əvvəl icra olunmuş hərəkəti göstərir:

She denies her having spoken with them – O, onlarla danışdığını danır.

Cerundun inkar forması **not** inkar sözü vasitəsilə əmələ gəlir: not writing, not having written.

Cerundun cümlədə vəzifəsi (The Functions of the Gerund in the Sentence)

Cerund cümlədə aşağdakı funksiyalarda çıxış edə bilər.

1. Mübtəda funksiyasında.Məs:Talking with you is a real pleasure – Sənlə danışmaq həqiqətən ləzzətdir.

2. Mürəkkəb ismi xəbərin ad hissəsi funksiyasında.Məs:Our aim is mastering English – Məqsədimiz ingilis dilinə yiyələnməkdir.

3. Mürəkkəb feili xəbərin bir hissəsi funksiyasında.Məs:The teacher stopped reading when the dean entered the room Dekan otağa daxil olanda müəllim oxunu dayandırdı.

4. Tamamlıq funksiyasında.Məs:He insisted on my going there – O, oraya getməyi təkid edirdi.

5. Təyin funksiyasında həmişə **of** sözönu ilə işlədilir:

I don't like the idea of going there – Ora getmək fikri xoşuma gəlmir.

---

[33] ADPU, Müasir Azərbaycan dili kafedrasının doktorantı, "Xarici dillər"mərkəzinin müəllimi

6. Zərflik funksiyasında cerund həmişə **after, in spite of, before, on (upon), in,at, by,for, without, owing to** sözönlükləri ilə işlədilir.
Məs: On hearing a short report she immediately left the room (zaman zərfliyi)
Güllə səsini eşidən kimi onlar dərhal otağı tərk etdilər.

Gerund və məsdər (Gerund and indefinite)

Cerund məsdərə nisbətən ümumi, mücərrəd xarakterə malikdir. Məs: He likes reading. He does not like to read today.

Cerunda mübtədanın göstərdiyi icraçıya aid olmaqdan başqa digər bir icraçıya da aid ola bilər, məsdər isə cümlədə mübtədaya aid olur.
Bir sıra feillər və söz qrupları var ki, onlar həm cerund, həm də məsdərlə işlədilə bilər. Belə feil və söz qruplarının ən çox işlədilənləri aşağdakılardır:

To be afraid, to begin, to cease, to hate, to continue, can (cannot),to forgot, to like (dislike), to fear, to prefer, to remember, to start, to stop, to dread.

At last he began to speak – Nəhayət o, danışmağa başladı.
He began speaking again – O, yenə də danışmağa başladı.

Bu məqalədə bizim məqsədimiz həmçinin **silent** sifəti və onun sinonimləri vasitəsilə əmələ gələn söz birləşmələrini İngilis və Azərbaycan dillərində müqayisəli – semantik təhlilini təqdim etmək, onlar ararsında oxşar və fərqli cəhətləri aşkara çıxarmaqdan ibarətdir.

İngilis dilində **sakit** mənasını ifadə edən " silent " sifəti müxtəlif məna çalarlarına malik olduğu kimi " sakit " anlayışlı sifətlər də başqa isimlərlə birləşərək müxtəlif məna ifadə etməklə dilə rəngarənglik gətirir və onun leksik-semantik və üslubi imkanlarini genişləndirir, bədii ifadə vasitələrini rəngarəngləşdirir. "Silent " sifəti "man" – adam, " person" – şəxs və müxtəlif şəxs əvəzlikləri ilə birləşərək, haqqında danışılan şəxsin " **sakit" , "dinc" , "dinməz", " fağır**" kimi cizgilərini üzə çıxarır. Məsələn:1) He began to climb the badder and the silent soldier his stengun... Luige was silent and forgot for a while be a film manBut this evening she was silent for a moment. But he was silent. (carter D).,

İngilis dilində olduğu kimi, Azərbaycan dilində də "sakit" sifəti şəxs adları bildirən xüsusi isimlərə birləşərək, birləşmə daxilində adamın "sakit" , "dinc" və s. Oldugu bildirir. Məsələn: Bu səs işçilərin qulağında bir top mərmisi kimi partladı: hər kəs sakit gənc Məhərrəmi dinləməyə başladı.

İngilis dilində olduğu kimi, Azırbaycan dilində "sakit" sifəti "heyvan" anlayışını bildirən isimlərlə birləşərək, sakit, dinc mənasını anladır. Məsələn:

1) Axı mənim ulağım sakit ulağdır

2) Əlimi atın hər tərəfinə gəzdirdim, at sakit idi, amma elə ki, əlim atın quyrugunun altına toxundu, heyvan çırpındıIngilis dilində olduğu kimi Azərbaycan dilində də adamın dinc sakit olmasını ifadə etmək üçün "quzu kimi", "dilsiz – ağızsız" kimi metaforik birləşmələrdən istifadə olunur. Məsələn: The younger knights told eachoyher with their eyes in silent correspondence.

Azərbaycan dilində isə adamın öz fikirlərini danışmadan, pünhan işarə ilə bir-birinə çatdırmaqları "sakit" sifətinin sinonimi "dinməz", "səssiz-səmirsiz", "lal" sifətləri vasitəsilə ifadə olunur: məsələn:Lal baxışlar toqquşanda elə bil ildırım çaxdı.

"Silent" sifəti "house", "church", "wood", "lake", "room" və s. Cansızlıq bildirən konkret isimlərlə birləşərək, müəyyən bir məkanın sakit, kimsəsiz olduğunu ifadə edir. The wood was silent and empty Ingilis dilində olduğu kimi Azərbaycan dilində də "**sakit" "səssiz" sifəti "bina" "tarla", "küçə", "meşə", "çöl**" və s. Isimlərlə birləşərək, olarda sakitliyin hökm sürdüyünü, kimsəsizliyi ifadə edir. Məsələn: Qəza şəhərinin küçələri sakit və boş idi. Beləliklə, yuxarıda müqayisə olunan nümunələrə əsasən deyə bilərik ki, hər iki dildə təhlil olunan " sakit" sifətləri çox mənalıdır və bunlar birləşmə daxilində semantik valentliyə uyğun müxtəlif məna ifadə edirlər.

Araşdırmalar göstərir ki, ingilis dilində "sakit" mənasını "silent" sifətilə yanaşı, "still", "quiet", "motiolles" və s. Sifətləri ifadə edir. Fikri daha rəngarəng , dəqiq və sahmanlı ifadə etmək üçün ingilis dilində sinonim sözlərdən istifadə olunduğu kimi, Azərbaycan dilində də "sakit" sifətinin sinonimlərindən ("dinc" "fəqir" "səssiz" "lal" "ölgün" " hərəkətsiz" və s.

İngilis və Azərbaycan dillərində "sakit" mənasını ifadə edən sifətlərlə əmələ gələn söz birləşmələri təhlil edilərkən onların arasında həm oxşar, həm də fərqli cəhətlərə təsadüf olunur. Bu fərqli və oxşar cəhətləri aparılan təhlillərdən və aşağıda verilmiş cədvəldən aydın görmək olar:

1. Semantik quruluşu və birləşmə qabiliyyətinə görə müqayisə olunan sifətlər arasında həm ümumi, oxşar, həm də fərqli cəhətlər özünü göstərir.

2. Müxtəlif söz birləşmələrində İngilis dilində "silent" və Azərbaycan dilində "sakit" sifətləri nitqdə daha çox işlədilir, halbuki onların sinonimləri haqqında bu sözləri demək olmaz. Hər iki sifət sinonimlik cərgədə dominantliq təşkil edir və çoxmənalı leksik vahid kimi çıxış edir.

3. İngilis dilində "silent" sifətinin çoxmənalılığı Azərbaycan dilindəki "sakit" sifətinə nisbətən daha genişdir. Böyük Oksford lüğətində "silent" sifətinin 5 mənası verilir. Lakin bizim bədii ədəbiyyatdan götürdüyümüz nümunələrə əsasən demək olar ki, "silent" sifəti quruluşuna görə birləşmə daxilində 7 mənada, "sakit" sifəti isə 3 mənada çıxış edir.

4. Azərbaycan dilində işlədilən "sakit" sifətinin ekvivalentlərini birləşmə sahəsi, ingilis dilində işlədilən "silent" sifətinin ekvivalentlərinin birləşmə sahəsinə nisbətən genişdir. Burada sahə daxilində qarşılıqlı kompensasiya qanuni işə düşmüş olur.

5. Azərbaycan dilində işlədilən "sakit" sifəti semantik quruluşuna görə ingilis dilində işlədilən "silent" sifətinin semantik quruluşu ilə tamamilə müqayisə oluna biləndir. Başqa sözlə birləşmə daxilində hər iki sifət müqayisəli şəkildə qarşılaşdırıla bilən ümumi və fərqli əlamətlər kəsb edir.

6. İngilis dilində işlədilən "silent" sifətinin ifadə etdiyi rəngarəng məna çalarları Azərbaycan dilində "sakit" sifətindən savayı digər eyni və yaxud da leksik-semantik qrupa daxil olan digər sifətlərlə ifadə olunur, -yəni:

1) Lal və hərəkətsiz sifəti (sakit-dinməz canilər lala və hərəkətsidilər)

2) "Quzu kimi" söz birləşmələri (sakit adam haqda quzu kimi adam , quzu kimi uşaq)

3) "Dilsiz –ağızsız" sifəti (sakit-sakit haqda, dilsiz- ağızsız uşaq və s.)

Nəticə. Cerundu feli sifətdən fərqləndirən cəhətlər aşağdakılardır:

1. Cerund sözönü ilə işlədilir.
2. Cerund yiyəlik halda isim və yiyəlik əvəzlikləri ilə təyin edilir.
3. Cerund mübtəda, tamamlıq və predikativ vəzifəsində olur.
4. Zərflik və təyin vəzifəsində həm feili sifət, həm də cerund işlədilir, lakin bu halda cerunddan əvvəl həmişə sözönü işlədilir.

ƏDƏBİYYAT

1. Xudiyev N. Azərbaycan dilinin lüğət tərkibinin zənginləşmə yolları. 1963
2. Qarayev A. Müasir Azərbaycan dilində Avropa mənşəli alınmalar. 1972
3. Haugen E. The analyse of indiguistic horriwing. Lang, 1950
4. Horn P. "crungries der neupersisielie etimologie", "Strasbourg",1993
5. Cəfərov R.C. Azərbaycan dilində işlənən Qərbi Avropa mənşəli alınma sözlər. Bakı, 2001
6. Həsənov H.Ə. Müasir Azərbaycan dilinin leksikası. Bakı: ADU, 1978

Açar sözlər: İngilis dili, feili tərkiblər, feili bağlama, Azərbaycan dili, məsdər

Ключевые слова: английский язык, глагольные формы, глагольная связка, азербайджанский язык, инфинитив

Key words: English language, verb forms, verb binding, Azerbaijani language, infinitive

РЕЗЮМЕ

В статье рассматриваются употребление Cerunda в английском языке и его эквиваленты в азербайджанском языке, а также анализируются некоторые форм Cerunda в простых и сложных предложениях в разных ситуациях.

В данной статье нашей целью является также представить сравнительно-семантический анализ словосочетаний **silent**, образованных через прилагательное молчание и его синонимы в английском и азербайджанском языках, выявить сходства и различия между ними.

SUMMARY

The article speaks about the use of the Gerund in English and its equivalent in Azerbaijani, also analyses some forms of Gerund in simple and complex sentences in various situation

In this article, our goal is also to present a comparative semantic analysis of word combinations silent, formed through the adjective silence and its synonyms in English and Azerbaijani languages, to identify similarities and differences between them.

Rəyçi: filologiya üzrə fəlsəfə doktoru,dosent Adilə Zeynalova

Ülkər Bahadır qızı Səlim[34]

MİR CƏLALIN NƏSR DİLİNDƏ FRAZEOLOJİ BİRLƏŞMƏLƏRİN KOMİK ÜSLUBİ İMKANI

Dilin frazeoloji tərkibi obrazlılıq, emosionallıq, ekspressivlik keyfiyyətlərinə malik olduğundan bədii əsərdə fikrin parlaq ifadəsini, forma gözəlliyini şərtləndirən mühüm dil vasitələri kimi çıxış edir, dövrün mühüm problemlərini yüksək poetik dildə əks etdirmək işində yazıçıya geniş imkanlarverir. Frazeoloji material düzgün seçildikdə, ondan ustalıq və yaradıcılıqla istifadə edildikdə, sənət əsərinin ümumi dil-nitq fonu dilin ecazkar ifadəlilik vasitələri ilərənglənmiş olur,yerinə düşən tutarlı ifadələr, hikmətli sözlər, aforizmlər dilin bədiilik keyfiyyətini qat-qat artırıb ona güclü təsir edir. Ümumxalq dili frazeologiyası komik potensialına görə spesifik xarakterə malikdir və bədii nitqin xüsusi ifadəlilik vasitələrinə çevrilə bilir. Doğrudur, bədii əsərlərdə yazıçının seçib işlətdiyi ifadələrlə yanaşı, fərdi-üslubi frazaların da müəyyən rolu olur, lakin böyük və ya kiçikliyindən asılı olmayaraq, söz ustasının müraciət etdiyi əsas mənbə ümumxalq dili, onun frazeoloji tərkibidir. Sənətkarın ustalığı da məhzbelə bir mənbədən necə istifadə etməsi, ümumxalq dili ifadələrini bədii əsərin dilində işlədə bilmə bacarığı ilə ölçülür. Nəzərə almaq lazımdır ki, ümumxalq dili elə tükənməz imkanlara malikdir ki, onu heç bir fərdi yaradıcılıq məhsulu əvəz edə bilməz.

Böyük yazıçımız Mir Cəlalın nəsr əsərlərinin dili ümum xalq dili frazeologiyasının ən seçmə nümunələri ilə zəngindir. Məsələn, Mir Cəlalın "Dirilən adam" romanında və hekayələrindəki "dil açdı", "acığı tutdu", "özünü itirdi", "dili dolaşdı", "rəngi qaçdı", "gözdən itmişdi", "yada düşdü", "dili tutulmuşdu", "qaş-qabağın salladı", "beyninə batmadı", "yuxuma girirdi", "yola salmışdı", "dara düşməmişdi", "dardaq oymuşdu", "göz-gözü görmürdü", "özündən getdi"… tipli saysız-hesabsız ifadələrə rast gəlmək mümkündür. Bu tipli frazeoloji vahidlərin işlənməsi müəyyən məqsədlərlə bağlı ola bilər. Həm qeyri-satirik təsvir, həmkomik təəssürat yaratmaq üçün yazıçılarımız bu birləşmələrdən bəhrələnir. Təsvirin komik keyfiyyət qazana bilməsi yazıçının məqsədindən, təsvir etdiyi obrazlara, əşya və hadisələrə münasibətindən asılı olur. Buna görədə yazıçı komik fon yaratmaq üçün mətn daxilində söz və ifadələri ustalıqda əlaqələndirməyi bacarmalıdır.

Sözlər təklikdə çox az hallarda gülməli olur, fraza–sözlərin birləşməsi isə müxtəlif əşyaların, hadisələrin, keyfiyyətlərin, xüsusiyyətlərin müqayisəsinə geniş imkan verir. Gözlənilməz müqayisələr mətnin komik rəng almasına səbəb olur və bu yolla yaradılmış frazalar komik ziddiyyətlərin açılmasına şərait yaradır. "Bəzən bir mənfi hadisəyə bir frazailə gülmək, onu bir fraza ilə ifşa etmək olur" (2, s. 159). Frazeoloji materialın bu cür mənimsənilməsini Mir Cəlal yaradıcılığında da öz əksini tapır. Məsələn: "Onun təbəssümünü görüb qaradovoylar əl-ayağa düşdülər, gülmək üçün gücəndilər" (4, s. 85). "Əl-ayağa düşdülər" ifadəsi təklikdə işlənən zaman gülüşdoğurmaz. Sonrakı hissədən aydın olurki, qaradovoylar qubernatora xoş gəlmək üçün gücənir, əl-ayağa düşür, gülməyə çalışırlar. Namuslu və müstəqil insan şəxsiyyəti üçün yaramaz hal olan yaltaqlığın bu cür ifşası oxucunu güldürür, ictimai quruluşun tərbiyə sistemi insanda ikrah hissi doğurur. Bu cür ifadənin komik planda işlədilməsi üslubla, yazıçının məqsədi ilə bağlıdır. İfadə mətnin məzmunu, hadisələrin gedişi və komik mühit ilə müxtəlif çalarlar kəsb edir, onun mənası təhkiyə intonasiyasından asılı olur. Yaxud, "xodunualmaq" ifadəsi "Maşının xodunu aldı", "Lampanın xodunu aldı" – cümlələrində adi təbəssümə belə səbəb olmursa, Mir Cəlalın obrazının, "nöqtəsiz, vergülsüz danışan" Çəpəl Sayalının nitqi ilə əlaqədar cümlədə lağ, dolama məzmununa malikdir: "Çəpəl səsinin xodunualdı" (5, s. 28). Bu cür hallarda bəzən ifadə məfhumi mənasından uzaqlaşdırılır, başqa məna ifadə edir: "O, siğəsindən savay, dörd arvad yola salmışdı" (4, s. 76) .– cümləsində isə "yola salmışdı" ifadəsini Mir Cəlal "boşamışdı" mənasında işlətmişdir.

Lirik, epik və dramatik əsərlər üçün material olan adi, ümumişlək ifadələr öz potensialı hesabına , ustalıqla əlaqələndirmə nəticəsində komik mətn daxilində komizm vasitəsinə çevrilir. Bu, frazeoloji vahidlərin satirik və yumoristik əsərlərə xidmətinin mühüm bir formasıdır.

Dilimizdə elə frazeoloji vahidlər də vardır ki, gülüş çalarları onların öz təbiətindədir. Sözsüz, komik əsər yaradan satira ustası belə vasitələrdən yan keçə bilməz. Bu qrupa daxil olan frazeoloji vahidlər mənşə, yaranış etibarilə komik semantikaya malik olur və tarixənən kiçik satirik əsər kimi formalaşır. Frazeoloji vahidlərin və ümumiyyətlə xalq dili frazeologiyasının bir qisminə aid olan bu xüsusiyyət komizmin dil vasitələrinin hududunu xeyli genişləndirir.

Bu cəhəti nəzərə alaraq, K.Məmmədov frazeoloji vahidlərin (idiomların), atalar sözləri vəməsəllərin, aforizmlərin həmin qrupunu satirik janra daxil edir və müstəqil satirik əsər kimi qiymətləndirir: "Satiranın Azərbaycanşifahi və yazılı ədəbiyyatında çox müxtəlif janrları mövcuddur: satirik aforizm və idiomlar, satirik atalar sözü və məsəllər, atmacalar, qaravəlli, lətifə, satirik nağıl, satirik bayatı, təmsil, həcv, bəhri-təvil, kuplet, meyxana, hərbə-zorba, intermediya, məzhəkə, satirik rübai, satirik qəzəl, taziyanə, parodiya, felyeton, pamflet, komediya, satirik miniatür, satirik hekayə, satirik povest və roman, satirik poema vəs." (2, s. 167). Müəllif "satirik aforizm və idiomlar", "satirik atalar sözü və məsəllər" deyərkən, istər-istəməz idiomların, aforizmlərin, atalar sözləri və məsəllərin qeyri-satirik növlərini də nəzərdə tutur və beləliklə, bütövlük də frazeologiya ədəbi janrlara daxil edilməklə yanaşı, onların satirik və qeyri-satirik növlərində xüsusiləşdirilmiş olur. Bu fikir bizim komik nəsr ustalarımızın bədii yaradıcılıq materialı ilə də təsdiq olunur. Məsələn, Mir Cəlalın nəsrindən aşağıdakı nümunələrə nəzər salaq: Allah göstərməsin, "cəhənnəm dən bez bilet qaçan" beləsinə deyirlərmiş; Odur, Həsənəli uşağı gəlib-getməkdən yolu yırtdılar. Hər gün bir düdük verib yola salıram; Birdə yadına düşdüki, heyvanın ziyanını istəyəcəklər,

---

[34] **Bakı Dövlət Universitetinin dissertantı**

“dərimə saman təpəcəklər”; Qarı bu yerdə şəltəsini işlədə bilmədi; Bizim qarnımız doysun, altda qalanın canıçıxsın; Hacının “ab-havasından” bildi ki, məsələ ciddidir. Özünü bərk çəkdi; Bunlar Durmuş da öz kəlləsinə yaxşı cavurmuşduvəs.

Bu misallarda “cəhənnəmdən bezbilet qaçan”, “əlinə düdük vermək”, “dərisinə saman təpmək”, “şəltəsini işlətmək”, “altdaqalanın canı çıxsın”, “özünü çəkdi”, “kəlləsinə vurmuşdu” kimi ifadələr öz-özlüyündə komik keyfiyyətə malik olub, aşkar satirik münasibət bildirir. Bu cür dil faktlarının komik təsirliliyi komik mühit və başqa sözlərlə əlaqə kimi amillərlə o qədər də bağlı deyildir. Çünki bunlar, əvvəl qeyd etdiyimiz kimi, tarixən müstəqil satirik və yumoristik əsərlər kimi formalaşır və yaradıcılığın sonrakı inkişafi dövründə şifahi və yazılı ədəbiyyatın tərkib elementləri sırasına, dilin komizm vasitələri sırasına daxil olur. Mənşə etibarilə ümumxalq dili frazeologiyasına aid olsada, yazıçının onlardan sərrast istifadəsi bir tapıntı mahiyyəti daşıyır. Şübhəsiz, burada yazıçının komik duyğu və təbiətinin də mühüm rolu vardır. Bu hal klassiklərə təkrarı aradan qaldırmaqla yanaşı, ədibin fərdi üslubunun spesifikasını müəyyənləşdirməyə də kömək edir.

Nəsr dilində gülüş çalarına malik olmayan bəzi ifadələr vardır ki, onların tərəfləri arasına və ya əvvəlinə müxtəlif söz və ya birləşmələr əlavə edilməklə frazeoloji vahid kimi komizm vasitəsinə çevrilir. Məsələn, Mir Cəlal bu üsuldan aşağıdakı şəkildə istifadə etmişdir: cavab verdi–istiot kimi tünd cavab verdi;cövrünü çəkib–cövrünü lələşin çəkib; həsrət çəkirdi – Qıssanın xorultusuna həsrət çəkirdi; başına daş düşsün – Hacının daşı sənin başına düşsün; lənət tüpürdü – şimala doğru bir kök lənət tüpürdü; and olsun –sosializmə and olsun; qurban olduğum – tükünə qurban olduğum; damarıdurdu–namus damarı dimdik durdu və s. Göründüyü kimi, belə hallarda ifadənin komik semantikasını artıran əsas vasitəonu obyekt, tərz, zaman, məkan və s. cəhətdən izah edən sözlər vəbirləşmələrdir.

Frazeoloji vahidlər həm təhkiyə dilində, həm də obrazların nitqində işlənmiş, müəllif və obraz nitqinin komik ahəng almasında mühüm rol oynamışdır. Yazıçının təhkiyə dilində işlənən ifadələr onun obraz və hadisələrə münasibətindən asılı olaraq komik rəng alır. Müəllif münasibətinin müəyyənləşməsində bu cür ifadələrin rolu çoxdur. Məsələn, Mir Cəlalın aşağıdakı cümlələrinə diqqət yetirək: Tayqılça Kazımın cini başına vurmuşdu; Bütün bunlar Sarıqlı mollanı cücəyə döndərdi; Namus bəyə güc gəldi, qan başına vurdu, gözü kəlləsinə çıxdı; Əntərzadə "neçin-neçin" deyə, get-gedə özündən çıxırdı; Sarı, buxara papaqlı biri sitarı bağrına basıb,özündən getdi;Əkbərin gözü qızın gözlərinə sataşanda dünya bir-birinə dəydi və s.

Nəsr əsərlərində bir çox ifadələr müəllifin təhkiyə dilində olsa da, ayrı-ayrı obrazların düşüncəsinin məhsulu kimi çıxış edir. Aydın hiss olunur ki, müəllif öz nitqi ilə qarışıq şəkildə obraz düşüncəsini ifadə edir; yazıçının təhkiyə dilində rast gəldiyimiz bir çox ifadələr əslində obraz təfəkkürünün məhsuludur və müəllif nitqi ilə birləşdirilmişdir. Məsələn, "Əli-ayağı əsə-əsə" gədə-güdəyə" əncam çəkmək üçün Bəbir bəyin yanına xahişə getdi" (5, s. 130) – cümləsində "gədə-güdə" sözünü Mir Cəlal özü dırnaqda vermişdir. O bu sözü dırnaqda işlətməklə onun mənfi obrazın düşüncəsinin ifadəçisi olduğunu göstərmək, kinayə ilə işləndiyini bildirmək istəmişdir.

Frazeoloji vahidlərin semantik imkanları – sinonim qrupları, antonimliyi, çoxmənalılığı və omonimliyi onların komizm vasitəsi kimi yararlılıq dərəcəsinə ciddi təsir edir. Frazaların sinonimliyi satira və yumor dilində daha mühüm rol oynayır. Məfhumun əlavə məna çalarlarının əhatəlii fadəsi üçün satira ustalarımız xalqın zəngin frazeoloji yaradıcılığından az bəhrələnməmişlər. Satirik nəsrin dilində sinonim ifadələr kinayəli-emosional nitqin zəruri tərkib elementləri kimi çıxış edir. Məsələn: Evi aparmaq fikrini eşidən kimi, bəy özünü itirdi. Nədənsə, başını tovladı, rəngi qaçdı, dilidolaşdı; Sayalı arvad... düyünləri açır, tilsimləri sındırırdı; Namusbəyə güc gəldi,qan başına vurdu, gözü kəlləsinəçıxdı; Adamlar bəlkə də özlərinə dəxli olmayan şey üçün baş ağrıdır, boğaz cırır,çənə çıxarırdılar; Nə danışırsan, a sağ olmuş; Belə olsa Bəbir bəy heç məhəl qoyar, heç xərc tökər,özünü dilə-dişə salar?; Mən güman etdimki, bu adamın təbi gəlib, eşqi qalxıb və s. (4, s. 121-122, 127, 156). Nümunələrdə komik təəssürat doğuran sinonim frazeoloji vahidlərlə qabarıq şəkildə ifadə olunmuşdur. Bəzən isə sinonim frazeoloji vahidlərdən birinin–sonrakının komponentlərindən biri daha da vulqarlaşdırılmaq lakomizm gücləndirilmişdir. Məsələn: Mir Cəlal "qələt eləyir"–"qələt dartışdırır" tipli ifadələri bu cür sinonimləşdirmişdir.

Tək-tək frazeoloji vahidlərlə yanaşı, tarixən tərəfləri müstəqil olub, tədricən bir frazeoloji vahid şəklinə düşmüş frazeoloji kontaminasiyalarda nəsr dilində komik effekt yaradan dil vasitələrindəndir. “Əl-ələ, baş-başa çıxarıq”, “beynini tüstü, duman bürümüşdü”, “baş-beyninizi aparar”, “əl-qolunu ölçə-ölçə”, “əl-ayağa düşdü”, “əl-qolu açılacaq”, “əldən-ayaqdan gedirdi” və s. kimi frazeoloji kontaminasiyaların bir qismi indi də asanlıqla iki ifadəyə ayrıla bilər (əl-ələ çıxarıq, baş-başa çıxarıq; beynini tüstü bürümüşdü, beynini duman bürümüşdü; başını aparar, beynini aparar və s.). Tarixən sinonim və ya yaxın mənalı frazeoloji vahidlərin birləşməsindən ibarət olan bu cür ifadələri parçaladıqda əvvəlki məna zəifləyir və bəzən də başqa mənalar ifadə edilmiş olur.

Bəzən frazeoloji birləşmələr tərkib hissələrinə parçalanmış, komponentlər antonims özlərlə əlaqələndirilmiş, emosionallıq və komizm gücləndirilmişdir. Belə hallarda sanki frazeoloji birləşmənin etimoloji komponentləri bərpa edilir. Məsələn, Mir Cəlal “günü ah-vayla keçir” ifadəsini Əntərzadəni lağa qoymaq üçün aşağıdakı şəklə salmışdır: “Onun səhərləri ahla açılır, axşamları vayla qovuşurdu” (4, s. 186). Buradakı antonim sözlər (axşamları – səhərləri; açılır – qovuşur) ənənəvi ifadəyə nisbətən, fikrin təsir gücünü, kinayəliliyi xeyli artırmışdır.

Nəsr dilində komik feli birləşmələr ismi birləşmələrdən zəngindir. Düzdür Mir Cəlal nəsrində “çörək itirən”, “başı gora titrəyən”, “tuş alan”, “can verən”, “canlar alan”, “ayaq tutan”, “ələ keçən”, “əl çalan”, “məscidə dönmüş”, “işin içi”, “kafir əli”, “canımda canvar”, “göydən düşmə”, “tülkü hiyləsi”, “şəhvət bazarı”, “kefi saz”, “cibi dolu”, “güldən ağır” kimi ismi birləşmələr çoxluq təşkil etsələrdə feili frazeoloji birləşmələr daha çox işlənir. Feli frazeoloji vahidlərin işlək morfoloji formaları əmr və xəbər şəkilləridir. Lakin əmr və xəbər şəkillərində də nisbət eyni deyildir. Əmr şəklinə nisbətən, xəbər şəklində olanlar kəmiyyət üstünlüyü ilə diqqəti cəlb edir. Məsələn “cəhənnəm ol”, “ağzını yum”, “yerində köp”, “qırxıçıxsın”, “xatanı sov”, “salavat çevir”, “cəzasına çatdırın”, “böyüklük eləsin”, “çimdik götürsünlər”, “yadına sal”,

"başına dəysin", "rədd ol", "üz verməsin", "boynuma minməsin", "kef çəksinlər", "başa düş", "özündən çıxma" və s. kimi frazeoloji vahidlər Mir Cəlalın obraz nitqi ilə bağlı olub, dialoq komizminin yaranmasında əsas vasitələrdəndir. Xəbər şəklində olan komik frazeoloji vahidlər isə Mir Cəlalın təhkiyə dili ilə daha çox əlaqədardır.

Feli frazeoloji vahidlərin bir qismini məsdər, "qarovul çəkmək", "cızığından çıxartmaq", "qiyamət qoparmaq", "yaş axıtmaq", "ələ gətirmək", "gözünə girmək", "sözündən çıxmaq", "yaraşığa salmaq", "hövsələni basmaq", bir qismini feli bağlama "bağrına basanda", "şübhəyə düşüb" bir qismini isə felin digər təsrif şəkillərində olan ifadələr təşkil edir. Şübhəsiz, bu hal təbiidir və hər hansı bir frazeoloji vahid felin bütün zaman və şəkillərində işlənə bilər. Lakin bunları qeyd etməkdə məqsədimiz komik frazeoloji vahidlərin işlək formalarını nəzərə çarpdırmaqdır. Şühudi keçmişdə, indiki zaman və nəqli keçmişin hekayəsində və ümumiyyətlə, xəbər şəklində komik sabit birləşmələr daha işləkdir. Bu ümumi hal ayrı-ayrı yazıçıların dilindəki spesifik işlənmə məqamını inkar etmir.

Mir Cəlal yaradıcılığı frazeoloji vahidlərin intensiv işlənmə imkanları və fərdi üslubi keyfiyyətlərindən kənarda qalmamışdır. Əsas mənbə kimi yazıçı –dilin frazeoloji tərkibinin istifadəsindən bəhrələnmişdir. Bu hal isə ümumxalq dili frazeologiyasının sabitliyi, davamlılığı ilə bağlıdır. Ümumxalq dili frazeologiyasının əsas hissəsi zəruri, həyati məfhumların ifadəçiləri olduğundan, heç bir sənətkar onlardan yankeçə bilmir. Hər bir yazıçı ümumişlək ifadələrlə yarada bildiyi əlavə məna çalarları ilə başqalarından az-çox seçilir və ədəbi dili zənginləşdirməklə öz fərdi üslubunu da formalaşdırır. Bu hal daha çox ifadələrin usta sənətkar tərəfindən uğurla işlədilməsi, semantik cəhətdən zənginləşdirilməsi və bədii əsərə müvəffəqiyyətlə daxil edilməklə kütləviləşdirilməsi yolu ilə olur. Mir Cəlal nəsridə buna bariz nümunədir.

Ədəbiyyat siyahısı

1. İsmayılov Y. Mir Cəlal yaradıcılığı. Bakı, 1975
2. Kazımov Q. Seçilmiş əsərlər. On cilddə. İkinci cild. Bakı, 2008
3. Kazımov Q. Komik bədii vasitələr. Bakı, 1983
4. Mir Cəlal. Secilmiş əsərlər . Beş cilddə. İkinci cild. Bakı, 2013
5. Mir Cəlal. Secilmiş əsərlər. Bakı, 2005

Açar sözlər: frazeologiya, nəsr, yazıçı, üslub, bədii əsər, komik

Ключевые слова: фразеология, проза, писатель, стиль, художественное произведение, комический

Key words: phraseology, prose, writer, style, work of art, comic

Резюме

В статье рассматриваются стилистические возможности фразеологических сочетаний, используемых Мир Джалалом в прозе. Чаще всего комический характер фразеологии затрагивался с целью повышения образности и эмоциональности в художественных произведениях. В художественных произведениях писателю естественно обращаться к просторечию как к основному источнику и его фразеологическому составу. Универсальный язык обладает такими неисчерпаемыми возможностями, что никакой индивидуальный творческий продукт не может заменить его. Язык прозаических произведений нашего великого писателя Мир Джалала богат отборнейшими образцами народной фразеологии. Сможет ли описание приобрести комический характер, зависит от цели писателя, его отношения к описываемым образам, предметам и событиям. Поэтому , писатель должен уметь умело соединять слова и фразы в тексте, чтобы создать комический фон. Несомненно, сатирик, создающий комическое произведение, не может избежать таких средств. В прозе Мир Джалала комизм фразеологических сочетаний проявляется как в вдохновении писателя, так и в языке образов.

Summary

The article examines the stylistic possibilities of the phraseological combinations used by Mir Jalal in prose. The comic nature of phraseology is touched upon in order to increase imagery and emotionality in works of art. It is natural for a writer to refer to the national language and its phraseological structure as the main source in works of art. The national language has such inexhaustible possibilities that no individual creative product can replace it. The language of the prose works of our great writer Mir Jalal is rich in the most selected examples of phraseology of the national language. The comic quality of an image depends on the writer's purpose, his attitude to the images, objects and events he describes. Therefore, the writer must be able to skillfully combine words and phrases within the text to create a comic background. Of course, the master of satire, who creates a comic work, can not avoid such means. In Mir Jalal's prose, the comic nature in the phraseological combinations manifests itself both in the writer's narration and in the language of images.

RƏYÇİ: dos. S.Abbasova

Yusif Əşrəf oğlu Süleymanov[35]

İNGİLİS DİLİNDƏN AZƏRBAYCAN DİLİNƏ YENİ SÖZLƏRİN TƏRCÜMƏSİ PROSESİNDƏ NƏZƏRƏ ÇARPAN UYĞUNLUQLAR VƏ ÇƏTİNLİKLƏR

Giriş. Azərbaycan dili son illər ərzində yeni sözlər, terminlər, istilahlar və ifadələrlə zənginləşmiş və bir çox dəyişikliklərə məruz qalmışdır . Xalqımızın şüuru, ruhu, mədəniyyəti və bədii zövqü dəyişdiyi kimi dünyada baş vermiş siyasi-iqtisadi və ictimai dəyişikliklər nəticəsində onun ifadə tərzi də, düşünmə formaları da dəyişmişdir. Bu baxımdan son dövrlər də tərcümə köklü dəyişikliklərə məruz qalmış və eyni zamanda müasir dövrün tələblərinə cavab verməlidir və yeni siyasi, iqtisadi, ictimai şüurun formalaşmasına xidmət etməlidir. Hər bir dildəki söz və ifadələr özlərinə məxsus forma və mənaya malik olur. Müxtəlif dillərin bir-birindən fərqi odur ki, dil vahidləri formasına görə bir-birindən fərqləndiyinə halda məzmununa, başqa sözlə mənasına görə uyğun gəlir. Burada xüsusi qeyd etmək lazımdır ki, dil vahidlərinin əksəriyyəti çoxmənalı olur və mətn daxilində sözlərin özünəməxsus üslub xüsusiyyətləri meydana çıxır. Ona görə də tərcümə zamanı sözlərin çoxmənalığına, mətn daxilindəki məna çalarlığına diqqət yetirmək xüsusi əhəmiyyət kəsb edir. Bundan əlavə tərcümə prosesində orjinal mətnin üslubunu, emosionallığını, ifadə tərzini olduğu kimi saxlamaq lazımdır.

Müasir dövrdə həm yazılı, həm də şifahi tərcümə geniş yayılmışdır. Yazılı və şifahi tərcümə eyni zamanda bədii və elmi tərcümə kimi iki növə ayrılır. Elmi tərcümənin əsas qollarından biri siyasi publisistik əsərlərin tərcüməsidir. Şifahi tərcümənin iki əsas növü var: a) fasilə və b) ardıcıl (sinxron) tərcümə. Yazılı tərcümədə tərcüməçi daha artıq imkanlara malik olduğu halda şifahi tərcümədə vaxt imkanı məhdudlaşır. Sinxron tərcümə zamanı danışanın nitqi ilə tərcüməçinin tərcüməsi fasiləsiz olaraq həyata keçirilir. Bu növ tərcümədən elmi və ictimai-siyasi konfranslarda, qurultaylarda, yığıncaqlarda və təkbəkət siyasi görüşlərdə istifadə edilir. Siyasi mətnlərin tərcüməsində üslubi cəhətlərin tərcüməçi tərəfindən dərindən öyrənilməsi nəticə etibariylə onun, yəni tərcüməçinin məharətinə və düzgün formada tərcümə etməsinə gətirib çıxarır.

Əsas hissə. Tərcümədə iki başlıca moment özünü biruzə verir : a) tərcümə olunacaq fikrin tam başa düşülməsi; b) başa düşülənin adekvat şəkildə ana dilində ifadə olunması. Bu iki momentin vəhdətindən ibarət olan tərcümə prosesində özgə dildə söylənilmiş fikri semantik, üslubi və qrammatik nöqte-yi – nəzərdən təhlil olunur. Hər bir sözün leksik mənası və üslubi xüsusiyyəti ilə yanaşı onun qrammatik məna və vəzifəsi müəyyən olunur (1, s. 43-49).

Elmin, texnikanın inkişafı ilə əlaqədar yaranan yeni anlayışların adlarını ifadə edən yeni sözlər, yaxud neologizmlər adlanır. Dildə yeni yaranan neologizmlər bir müddət sonra, ümumişlək sözlər sırasına keçə bilər, hətta köhnələrək dildən çıxa bilər.

Neologizimlər İngilis dilində böyük əhəmiyyətə malikdir. Zaman keçdikcə, texnologiynın inkişafı nəticəsində Azərbayca dilində olduğu kimi İngilis dilində də yeni sözlər yaranmağa başladı. yalnız bu amillər deyil, eləcə də bir sıra amillər neologizmlərin yaranmasına gətirib çıxartdı. Yeni sözlər dilə gözəllik gətirir və onun istifadə əhatəsini genişləndirir. Neologizmlər inkişaf ərzində dilə daxil olan istənilən yeni sözlərə deyilir. Yeni sözlər və ifadələr yeni sözlərin yaranmasındanda irəli gəlir.

Neologizmlərin taleyi barədə əvvəlcədən xəbər vermək mümkün deyil, çünki onların bəziləri az yaşayır, bəziləri isə uzun ömürlü ola bilir. Neologizmlər eləcə də yeni kəşf olunmuş sözlərə deyilir. İstənilən dilin lüğəti eyni qalmır, daim dəyişir. Yeni anlayışların olması onların yeni adlarla adlandırmağı tələb edir. Neologizimləri başqa dildən alınmış, yaxud dildə mövcud olan sözlər üçün yeni yaranmış mənada adlandırmaq olar. Elmin, iqtisadiyyatın inkşafı nəticəsində çoxlu neologizmlər yaranmışdır. Öz mənasını dəyişərək yeni məna kəsb edən sözər də neologizm hesab olunur.

Neologizmlər yeni mədəni konteksdən götürülən ixtiraların, yeni hadisələrin və köhnə fikirlərin eyniləşdirilməsində xüsusilə yaradılır. Neologist elə şəxsdir ki neologizmi inkişf etdirir və neologizmin təqdim olunma fəaliyyəti ilə məşğul olur.

Dildə yeni olmaq o deməkdir ki, bu qəbidən olan sözlər digər işlək sözlərdən fərqlənir. Neologizmlər ictimai həyatın, elmin, texnikanın, mədəniyyətin, siyasətin və iqtisadiyyatın inkişafı ilə bağlı olaraq yaranır, 5-10 il ərzində dilin lüğət tərkibində yeni sözlər olaraq qalır. Hamı tərəfindən başa düşüldükdən sonra, öz yeniliyini itirir. Məsələn: **kosmos, lazer şüaları**, **yarımkeçiricilər, neytron bombası** və s. kimi dil nümunələri bir zamanlar neologizmlər olsa da, hazırda əksəriyyət tərəfindən başa düşülür, çünki onların işləklik dərəcəsi genişdir. (2, s. 123-129)

Sözə tarixi kateqoriya kimi yanaşanlar haqlıdırlar. Ona görə ki, söz də yaranır, yaşayır, getdikcə dildə sabitləşir, bəzən köhnəlir, bəzən də dildən çıxır. Bu mənada müəyyən dövrdə **neologizm** hesab olunan söz başqa bir dövrdə öz yeniliyini itirir . Belə ki, əşya, hadisə, anlayış yeni olanda onu adlandıran söz də yeni olur. Əşya, hadisə, anlayış öz yeiliyini itirdikdə onu adlandıran söz də öz yeniliyini itirir. Artıq bu tipli sözlər qəbul olunmur. Onlar neologizm mahiyyətini itirmiş, köhnəlmiş və tarixizmlər cərgəsinə daxil olmuşlar. Hazırda həyatımıza, məişətimizə daxil olan yenilik neologizmlərin yaranması səbəbinə çevrilir**: interner, biznesmen** və s.

Neologizm anlayışı nisbi anlayışdır. Bu anlayışın yenilik əlaməti də müvəqqətidir. Get-gedə neologizm hesab olunan belə sözlər də sabitləşəcək, hamı tərifindən başa düşüləcək və beləliklə öz yeniliyini itirəcəkdir. Yaxud da

---

[35] Azərbaycan Mühəndislik Unuversiteti "İngilis dili" kafedrasının dosenti, filologiya elmləri doktoru

dildə köhnəlmiş sözlər cərgəsinə keçməklə arxaizmlər sırasında olacaqdır. Yeni əşyanı, hadisəni, məfhumu ifadə edən sözlər kimi dərk olunur, dilin lüğət tərkibinin işlək sahəsinə düşə bilmir .

Neologizmlər əmələ gəlmə yollarına və mənbələrinə görə dilin daxili imkanları hesabına, başqa dillardən söz almaq yolu ilə, yaxud fərdi üslubi şəkildə yarana bilər.

Dilin lüğət tərkibinə daxil olan sözlər həmişə neologizm olaraq qalmır. Get-gedə dəyişir, hamının hamı tərəfindən anlaşma dərəcəsindən asılı olaraq öz yeniliyini itirir və neologizmlikdən çıxır. Bu mənada zaman keçdikcə neologizmlərin bir çoxu öz yeniliyini itirsə də, bəzi dilçilik ədəbiyyatlarında hələ də neologizm kimi verilir. Əlbəttə, bu, həmin dilçilik əsərlərinin belə sözlərin neologizm olduğu dövrdə yazılması ilə bağlıdır. Burada zamanın, dövrün dəyişməsi neologizm kim qəbul olunmuş onlara verilən (neologizmlərə) tələblərilə ayaqlaşa bilmir.

Elmi-texniki, ictimai, iqtisadi və mədəni həyatda baş verən yeniləşmələr dildə öz təsirini aydın göstərir. Bu təsir bütün elmi anlaışları ifadə etmək imkanına malik olan, daim yeniləşən və zənginləşən terminologiyada daha qabarıq müşahidə olunmaqdadır.

Cəmiyyətin ictimai-siyasi həyatında baş verən dəyişikliklər dilin daxi inkşaf qanunlarına, onun leksik qatının yeniləşməsinə təsir edən əsas amillərdən biridir.

Elmi-texniki tərəqqi, Avropaya inteqrasiya, ictimai-siyasi həyat bir çox terminlərin meydana gəlməsi ilə nəticələnir .

Tərcümə dil öyrənənin yaddaşını mökəmlətməklə yanaşı onun söz ehtiyyatını zənginləşdirir və istifadə olunan üslubun mahiyyətini dərk etməklə ona dərindən kömək edir. İctimai-siyasi əsərlərdə hər hansı müəyyən bir məzmuna malik olan məlumat hökmən təbliğat-təşviqat səciyyəli olduğu üçün bu qəlibdən olan əsərlərdə üslubi vasitələrə daha geniş yer verilir. bunların arasında sintaktik üslubi və ifadə vasitələri daha çox üstünlük təşkil edir . Qeyd etmək lazımdır ki, ictimai – siyasi əsərlərin dili yazılı nitqin elementlərini özündə daha çox daşımasına baxmayaraq, danışıq dilinin, başqa sözlə, şifahi nitqin elementləri üslubi vasitə kimi bu növ əsərlərdə xüsusi əhəmiyyət daşıyır. Əsər və ya nitq bir başa oxucuya və ya dinləyiciyə yönəldiyi üçün orda emossional təsir qüvvəsinə malik olan üslubi vasitələrdən ritorik suallardan, təkrarın müxtəlif növlərindən, paralel konsruksiyalardan nitqin kəsilməsindən, ellipsislərdən, antitezadan və sairdən geniş istifadə olunur. Bir sıra dilçilər ictimai – siyasi əsərlərin dili və üslubu ilə bədii əsərlərin dili və üslubu arasında daha çox yaxınlıq olduğunu və **neytral tərcümənin** ifadəsinin əleyhinə çıxırlar, çünki onların fikrincə neytral üslub və neytral tərcümə özlüyündə quru olduğu üçün heç bir emossional çalarlığa malik olmur və bunun ictimai-siyasi üsluba şamil edilməsi qeyri mümkündür. İctimai-siyasi mətnlərin tərcüməsi hər iki dildə işlənən terminlərin dəqiq olması ilə yanaşı ayrı-ayrı frazaların sərbəst surətlə işlənməsinə yol verir və bu ümumi məzmuna heç bir xələl gətirmir. İctimai – siyasi mətnlərin tərcüməsində hər iki dildə işlənən terminlərin dəqiq olması ilə yanaşı ayrı-ayrı frazaların sərbəst surətdə işlənməsinə yol verir və bu ümumi məzmuna heç bir xələl gətirmir. İctimai – siyasi mətnlərin tərcüməsində hər sözün, hər ifadənin, hər cümlənin üslubi və leksik cəhətdən düzgün verilməsi xüsusi əhəmiyyət daşıyır və tərcüməçidən həm siyasi savad, həm dərin bilik, həm geniş dünyagörüşünü, həm hər iki dilin incəliklərini və üslubi xüsusiyyətlərini fərqləndirmə qabiliyyəti, həm də zəngin söz bazası tələb edir və onun **tərcüməsinin yalançı dostlarının** toruna düşməməlidir. Tərcümənin yalançı dostları hər iki dildə formaca oxşar, lakin məzmunca və məna etibarilə müxtəlif olan xüsusi leksik **mikrosistemi** əhatə edir. Adətən, bu sözlər eyni nitq hissəsinə aid olur və eyni kontekstlərdə təsadüf edilirlər. Elə bu səbəbdəndə onlardan istifadə edərkən və tərcümə zamanı səhvə yol verilir (3, s. 160-168).

Açıq-aydın metaforik olmasına baxmayaraq artıq ənənəvi terminə çevrilmiş **tərcüməçinin yalançı dostları** ifadəsi hərfi mənada başa düşülməməlidir və hər iki dildə işlənən bu omonim sözlərin semantik-üslubi və qrammatik xüsusiyyətlərini nəzərdə tutaraq, müasir danışıq dilinin emosional ekspressiv cəhətlərinə istinad etmək labüddür. Məsələn, ingilis dilindəki **analogical** sözünün qarşılığı kimi Azərbaycan dilində səhfən **analoji** sözünü götürürlər. Lakin ingilis dilindəki analogical sözünün aşağıdakı iki halda özünü göstərir: 1) Əşyaların və hadisələrin nisbi oxşarlığına əsasən (məs: **the analogical method**; 2) Məcazi mənada (**məs: the analogical usage of words)** Azərbaycan dilindəki **analoji** ingilis dilinə tərcümədə "oxşar" mənasını daşıyır, məsələn: analoji hadisələr, anoloji konstruksiya quruluşa malik olan **identical in design** kimi tərcümə olunur. İngilis dilindəki **conductor** sözü

a) rəhbər, aparıcı rol daşıyan şəxs, b) bələdçi, c) dirijor, d)keçirici və s. mənalar daşıdığı halda, Azərbaycan dilindəki **konduktor** sözü yalnız **biletsatan** və ya **biletyığan** mənalarında işlənir və ingilis dilinə **ticket collector** kimi tərcümə olunur . **Dispatcher** sözü ingilis dilində; a) **ekspeditor** (əmtəəni və ya məktubları göndərildiyi yerə çatdıran adam), b) nəqliyatın və ya müəssisənin işini idarə edən adam; c) cəmdə amerikan ingiliscəsində hər iki tərəf eyni olan oyundaşı mənasında işləndiyi halda, Azərbaycan dilindəki **dispatcher** sözü ingilis dilinə tərcümədə yalnız (traffic controller) mənasını verir . **Execution** ingilis dilində; a) həyata keçirmə, realizə etmə; b) ifa etmə (musiqi və s.); c) ölüm cəzasını həyata keçirmə; d) məhv etmə, darmadağın etmə mənalarında işləndiyi halda Azərbaycan dilindəki **ekspressiya** 1) a) flogging (fiziki cəza vermə); b) strapping (qayışla döymə); c) birching (çubuqla döymə mənalarında) . 2) Məhkəmə və ya inzibati qərarın icrası (execution of a sentence); 3) Kütləvi cəza (punitive execution) və s. mənalarda işlənir.

Nəticə. İngilis və Azərbaycan dillərində cümlənin struktur münasibətlərinin fərqli cəhətlərini nəzərə alsaq, tərcümə prosesində aşağıdakı üslubi və qrammatik vasitələrdən istifadə olunur: 1. Mətnin sıxlaşdırılması. 2. Məlum növün məchul növ əvəzinə işlənməsi. 3. Cümlə əvəzinə tərkiblərdən istifadə etmə. 5. Üslubi inversiyalarda istifadə olunması. 6. Cümlənin

strukturunda ümumi dəyişiklik etmə. 7. Konkretləşdirmə. 8. Ümumiləşdirmə. 9. Tərcümə edərkən mənanın açılması. 10. Antonim tərcümə. 11. Tam dəyişiklik etmə. 12. Kompensasiya etmə. 13. Təyini söz birləşmələrinin tərcüməçi. 14. Neologizmlərin tərcüməsi. 15. Ekvivalenti olmayan leksikonun tərcüməsi. 16. Frazeoloji vahidlərin tərcüməsi. 17. Atalar sözlərinin və zərbi-məsəllərin tərcüməsi. 18. Onomastik vahidlər (toponimlərin, antroponimlərin, zoonimlərin, fitonimlərin, kosmonimlərin və s.) tərcümədə işlənmə yolları. 19. Rəsmi terminlərin və titulların tərcüməsi və s.

ƏDƏBİYYAT:

1. Molhova J. Outlines of English Lexicology. M., 2006, pag: 43-49.
2. Gamperz J. Socio cultural know ledge in conversational inference L., 1997, pag: 123-128.
3. Dijk T.A. Studies in the pragmatics of discourse. H., 1981, pfg: 160-168.

Açar sözlər: İngilis dili, tərcümə, yeni sözlər, proses, Azərbaycan dili, sinxron
Key words: traslation in Eniglis, nouvels words, process, Azerbaidjani language, sinkhron
Ключевые слова: Английскийязык, перевод, неологизм, процесс, Азербайджанский язык, синхрон

Summary

The article deals with the English neologism covering all spheres of the science and social life. Their importance in the English language calls forth observance of specific methods of translation and it requires learning lexical – semantical fealtures of English neologisms. Like other lexical groups neologisms acquire connotative meanings in the text and they denote emotional colour in the communication. Their fore the article is devoted to reveal stylistic features of neologisms.

Резюме

Статья посвящена изучению английских неологизмов, которые охватывают все сферы науки и общественной жизни. Их важное место в языке вызывает необходимость соблюдения специфических методов и требует изучению лексико – семантических особенностей неологисмов. Как другие лексические группи неологизмы приобретают коннотативные значения тексте и обозначают эмоциональная функция в языке. Настояшая статья посвящена изучении сетилистических оттенков неологизмов.

Rəyçi: fililogiya üzrə fəlsəfə doktoru, dosent Nuriyyə Rzayeva

Aytən Çapay qızı Hacıyeva[36]

ZAMANLARIN UZLAŞMASI PROBLEMİ VƏ TABELİ MÜRƏKKƏB CÜMLƏLƏR

Şərt budaq cümləsi baş cümlədəki hal – hərəkətin şərtini bildirir. Baş cümlənin bir üzvünə aid olan budaq cümlələrdən fərqli olaraq, şərt budaq cümləsi baş cümlənin ümumi məzmunu ilə bağlı olur və orada (baş cümlədə) ifadə olunan məzmunun şərtini bildirir. Başqa cür demiş olsaq, baş cümlədə görülən iş, budaq cümlədəki işlə şərtlənir.

Şərt budaq cümlələrində məlum olduğu kimi hərəkət və ya hal – vəziyyət ya icra edilib, ya icra edilməyib, ya da icra olunacağı təxmin edilir. Bu nöqteyi – nəzərdən Azərbaycan alimlərindən Ə. Abdullayev şərt budaq cümləli tabeli mürəkkəb cümlələrin baş cümlələrini üç qismə ayırmışdır:

1. İşin icra olunduğunu bildirən baş cümlələr
2. İşin icra olunmadığını bildirən baş cümlələr
3. İşin icra olunacağı ehtimal edilən baş cümlələr (1, s. 323).

Ə.Abdullayevdən fərqli olaraq Q.Kazımov şərt budaq cümlələrinin təsnifatını verən zaman "budaq cümlə + baş cümlə" modelini göstərmişdir (3, s. 388). Müəllif Ə.Abdullayevin qeyd etdiyi təsnifatın məhz budaq cümlənin baş cümlədən əvvəl gələn hallarında baş verdiyini göstərmişdir (3, s. 388). Bundan əlavə şərt budaq cümləsindən danışan zaman Q.Kazımov budaq cümləni baş cümləyə bağlayan bağlayıcıların növlərinə görə aşağıdakı təsnifatı vermişdir:

1. Asindetik şərt budaq cümlələri
2. Sintetik şərt budaq cümlələri
3. Analitik şərt budaq cümlələri
4. Analitik-sintetik şərt budaq cümlələri (3, s. 388-390).

Lakin fars dilində şərt budaq cümləli tabeli mürəkkəb cümləli cümlələrdə budaq cümləni baş cümləyə bağlayan bağlayıcılar rəngarəng olmadığı üçün bu məsələyə görə təsnifat verməyə ehtiyac duymuruq.

Yuxarıda adlarını qeyd etdiyimiz müəlliflərlə yanaşı İ.Rəhimov ingilis dilində şərt budaq cümləsindən danışan zaman hər iki müəllifdən fərqli olaraq, işin icrasını zaman baxımından təsnif edərək aşağıdakı fikirlərini qeyd etmişdir:

1. Real şərt budaq cümlələri
2. İndiki və gələcək zamana aid olan qeyri-real şərt budaq cümlələri
3. Keçmiş zamana aid olan qeyri-real şərt budaq cümlələri (5, s. 253).

Bundan əlavə İ.Rəhimov ingilis dilində şərt budaq cümləsinin hər üç növündə zamanların uzlaşmasını izah etmişdir (5, s. 254-256).

Ə.Abdullayev Azərbaycan dilində şərt budaq cümləsini araşdıran zaman aşağıdakı zaman uyuşmalarını göstərmişdir:

1. Budaq cümlənin xəbəri xüsusi şərt şəkli ilə, baş cümlənin xəbəri müzarə zamanla ifadə olunur
2. Xəbər, budaq cümlədə felin xüsusi şərt şəkli ilə, baş cümlədə isə qəti gələcək zamanla ifadə olunur
3. Xəbər, budaq cümlədə xüsusi şərt şəkli ilə, baş cümlədə isə əmr şəkli ilə ifadə olunur
4. Xəbər, budaq cümlədə xüsusi şərt şəkli ilə, baş cümlədə isə iltizam şəkli ilə ifadə olunur
5. Xəbər, budaq cümlədə felin xüsusi şərt şəkli ilə, baş cümlədə isə vacib şəkli ilə ifadə olunur (1, s. 331-333)

Yuxarıda qeyd etdiyimiz bəndlərin hər birinə aid misallar göstərən müəllif zamanların bu cür uzlaşmasının səbəbini aydınlaşdırmamışdır.

Müəllif qeyd etmişdir ki, şərt budaq cümlələrində baş cümlənin xəbəri, demək olar ki, şühudi və nəqli keçmiş zamanla ifadə olunmur, çünki şərt budaq cümləsində ifadə olunan iş baş cümlədəki işdən irəli düşməlidir. Əks təqdirdə budaq cümlədəki işin icrası üçün şərt ola bilməz (1, s. 335).

Bizdə müəlliflə razılaşaraq qeyd etmək istəyirik ki, Azərbaycan, ingilis və s. digər dillərdə bəlkə də bu hadisəyə təsadüf olunmur. Lakin fars dili haqqında bu sözü deyə bilmərik. Çünki fars dilində baş cümlənin xəbərinin şühudi keçmiş (ماضی مطلق) zamanda gəlməsi hadisəsinə təsadüf olunur. məs.:

اگر نفوذ پدرش نبود' خودش در زمینه ی کار و فعالیتهای اجتماعی عرضه ی ابراز وجود نداشت. (9, s. 36)

Əgər atasının nüfuzu olmasaydı, özünü ictimai iş və fəaliyyət sahəsində göstərmə qabiliyyəti yox idi.

Həmin nümunədə baş cümlənin xəbərinin (وجود نداشت) şühudi keçmiş zamanda gəlməsinin şahidi olduq. Lakin Azərbaycan dilinə tərcümə olunan zaman keçmiş zamanın hekayəsində verilmişdir. Bu da Fars və Azərbaycan dillərində zamanların təsnifatının müxtəlifliyindən irəli gəlir.

Şərt budaq cümlələrində bildiyimiz kimi daşlaşmış və norma kimi qəbul olunan zamanların uzlaşması məlumdur. İndiyə qədər bu budaq cümləni araşdıran iranistlər şərt budaq cümləsində hərəkətin indiki və keçmiş zamana aid olması baxımından iki təsnifat növünü göstərmişlər: real şərt budaq cümlələri və qeyri – real şərt budaq cümlələri. Əgər şərt budaq cümləsindəki hərəkətin icrası indiki və gələcək zamana aiddirsə, o zaman budaq cümlə indiki zaman iltizam şəkli ilə (مضارع التزامی), baş cümlə isə indiki zamanla (زمان حال) ifadə olunur. Topladığımız nümunələrin sayından da məlum olur ki, bu hala dildə daha çox təsadüf olunur.

اگر همسرت به این رفتارش ادامه بده' من دیگه پا به خونه ی شما نمی گذارم. (9, s. 16)

Əgər arvadın bu rəftarına davam etsə, mən artıq sizin evinizə ayaq qoymaram.

اگر سکوت کند' فاجعه ی بزرگی به وقوع می پیوندد. (9, s.53)

---

[36] **BDU-nun baş müəllimi. ayten.haciyeva.73@mail.ru**

Əgər sakit dursa, böyük bir faciə baş verər.
اگر هم طوری بشه می ریم خارج زندگی می کنیم. (9, s. 75)
Əgər başqa cür olsa, gədər xaricdə yaşayarıq.

Göstərilən nümunələrin hər üçündə baş cümlədəki işin həyata keçməsi, budaq cümlədəki iş – hərəkətin reallaşmasından asılıdır. Yəni, əgər budaq cümlədəki hərəkət həyata keçsə, baş cümlədəki hərəkət hökmən icra olunacaq.

Bundan əlavə şərt budaq cümləli tabeli mürəkkəb cümlələrdə hərəkət keçmiş zamana aid olarsa, məlum olduğu kimi, hər iki komponentin xəbəri keçmiş davamedici (ماضی استمراری) zamanda verilir. məs.:
اگر حسام هزار گاهی برای اشخاص با نفوذ خوش خدمتی می کرد' او هم به چنین اقداماتی دست می زد. (9, s. 36)
Əgər Hesam xoş nüfuzlu şəxslər üçün min addım xidmət göstərirdisə, o da belə işlərə əl qoyurdu.
اگر حسام دنبال کاری غیر از شغل اصلی خود می رفت' او هم بی درنگ دست به دامن پدرش می شد. (9, s. 36)
Əgər Hesam öz əsil peşəsindən başqa bir iş arxasıyca gedirdisə, o da dərhal atasının ətəyindən yapışırdı.
اگر دلش می خواست به یک اشاره می توانست تمام ثروت پدرش را از شوهرش پس بگیرد. (9, s. 13)
Əgər ürəyi istəsəydi, bir işarə ilə atasının bütün sərvətini ərindən ala bilərdi.

Yuxarıda qeyd etdiyimiz bu nümunələrdə hər iki cümlənin davamlı keçmiş zamanda verilməsinin şahidi olduq. Bu cümlələrdəki hərəkətlərin danışılan anda və ya ondan sonra həyata keçməsi artıq mümkün deyil. Hərəkətlərin icrasının indiki zamanla heç bir əlaqəsi yoxdur. Keçmiş zamanda da bu iş və hərəkətin qəti olaraq reallaşması məlum deyil. İndiki zamana aid olan budaq cümlələrdə olduğu kimi, burada da baş cümlələrdəki hərəkətlərin reallaşması budaq cümlədəki hərəkətin icrası ilə şərtlənir.

Qeyd olunan nümunlərə şərt budaq cümlələrində zamanların uzlaşmasında norma kimi qəbul olunan qaydalardır. Lakin toplanılan nümunələr, aparılan araşdırmalar göstərir ki, şərt budaq cümlələrində zamanların uzlaşması heç də bunlarla məhdudlaşmır. Budaq cümlənin tələbi ilə baş cümlədəki hərəkətin reallaşması baxımından müxtəlif zamanlardan istifadə olunur. Bu hallarda felin zamanlarının da ifadə etdikləri mənalar önəm kəsb edir. məs.:
اگه قرار شد فامیل شوهرت به دیدنت بیاد چند تا دونه اسپند زیر تشک و بالشت قایم کن. (9, s. 6)
Əgər qərar oldu ki, ərinin ailəsi səni görməyə gəlsin, döşşək və balışın altında bir neçə üzərik gizlət.
اگر آن تابستان مه بانو تصمیم نداشت عروسی پسرش را در خانه به راه بیندازد' بدون شک دلش می
خواست تمام تابستان را به مسافرت برود. (9, s. 77)
Əgər o yay Mehbanu qərar verməsəydi ki, oğlunun toyunu evdə yola versin, şübhəsiz, ürəyi istəyərdi ki, bütün yayı səfərdə keçirsin.

Birinci nümunədə budaq cümlənin xəbərinin şühudi keçmiş zamanda verilməsinə baxmayaraq, hərəkətin icrası gələcəkdə nəzərdə tutulub. Bu cümlədə hərəkətin hələ də reallaşması mümkündür. Çünki onların (ərinin qohumlarının) gəlib gəlməməsi məlum deyil, ola bilsin ki, gəldilər və baş cümlədəki iş icra olundu.

İkinci şərt budaq cümləsində də budaq cümlənin xəbəri şühudi keçmiş zamanda verilmişdir. Lakin birinic nümunədən fərqli olaraq burada baş cümlədəki işin artıq reallaşması mümkün deyil. Çünki budaq cümlənin felinin məzmunundan məlum olur ki, bu iş keçmişdə artıq bitib qurtarıb. İndiki zamanla heç bir əlaqəsi yoxdur. Yəni, artıq qərar verilib ki, oğlunun toy məclisini evdə keçirsin.

Azərbaycan alimlərindən Ə.Abdullayev qeyd etmişdir ki, Azərbaycan dilində şərt budaq cümləsində baş cümlənin xəbəri, demək olar ki, şühudi və nəqli keçmiş zamanla ifadə olunmur. Çünki şərt budaq cümləsində ifadə olunan iş baş cümlədəki işdən irəli düşməlidir. Əks təqdirdə budaq cümlədəki iş baş cümlədəki işin icrası üçün şərt ola bilməz (1, s. 335).

Qeyd edə bilərik ki, müəllifin bu fikri məhdud dil materiallarına əsaslanır və biz bu fikri fars dilinə şamil edə bilmərik. Çünki fars dilində hər iki komponentin şühudi keçmiş zamanda verilməsi məlumdur. Şərt budaq cümləsində zamanların uzlaşmasını araşdıran Pərviz Natel Xanləri qeyd etdiyimiz kimi nümunələr əsasında bunu sübuta yetirmişdir.

Bundan əlavə toplanılan nümunələrdən məlum oldu ki, fars dilində baş cümlənin nəinki şühudi keçmiş zamanda, hətta nəqli keçmiş zamanda gəlməsi də məlumdur. məs.: اگر جا بزند' برای همیشه باخته است. (8, s. 13)

Fars dilində şərt budaq cümlələrinin xəbərinin uzaq keçmiş (ماضی بعید) zamanda gəlməsinə də təsadüf olunur. məs.:
اگر اشکان در منزل بود' مرجانه به کمک و حمایت او' می توانست هر طوری دلش می خواست بازی
کند و هر رفتاری که دوست داشت در پیش بگیرد. (9, s. 40)
Əgər Əşkan evdə oldu, Mərcanə onun köməkliyi və himayəsi ilə ürəyi necə istəyirdisə oynaya bilirdi və sevdiyi hər rəftarı edirdi.
اگر عروسی در تهران بود' به دیده ی مینا می آمدیم. (9, s. 70)
Əgər toy Tehranda olsaydı, Minanı görməyə gedərdik.

Birinci nümunənin məzmunundan belə aydın olur ki, baş cümlədəki hərəkətin reallaşması, həyata keçməsi mümkündür. Bu hadisə keçmişdə də icra oluna bilər, gələcəkdə də. Budaq cümlənin xəbərində gələcək zaman mənası da mövcuddur. Budaq cümlə ilə baş cümlənin məzmunlarından belə məlum olur ki, baş cümlədəki iş ya icra olunmuşdur, yaxud o mövcuddur, real bir vəziyyətdədir.

İkinci cümlədə isə artıq baş cümlədəki işin reallaşması mümkün deyil, onun indiki zamanla əlaqəsi yoxdur. Yəni, toy Tehranda olmadı, biz də Minanı görə bilmədik. Kaş olaydı, görərdik. Baş cümlədəki iş reallaşmamışdır. Budaq cümlə ilə baş cümlə elə bir münasibətdədir ki, baş cümlədə ifadə olunan məzmun həyata keçməmişdir, başqa şəkildə desək, qeyri – real bir vəziyyətdədir.

Bundan əlavə şərt budaq cümləsinin xəbərinin keçmiş zaman iltizam şəklində, baş cümlənin isə qəti gələcək zamanda verilməsinə də təsadüf olunur. məs.:

(9, s. 94) اگر اشکان با مرجانه ازدواج نکرده باشد، من از خانه فرار خواهم کرد.

Əgər Əşkan Mərcanə ilə evlənməmiş olsa (evlənməsə), mən evdən qaçacağam.

Burada baş cümlədəki hərəkətin icra olunub olunmaması hələki məlum deyil. İcra olunması sual altındadır. Əgər reallaşsa, budaq cümlədəki hərəkət qəti şəkildə gələcəkdə yerinə yetiriləcək.

Şərt budaq cümlələrində hər iki komponentin xəbərinin davamlı keçmiş zamanda (ماضی استمراری) gəlməsi də məlumdur. məs.:

اگر سوزن خیاط گم نمی شد روزی یک قبا می دوخت. (امثال و حکم).

Əgər dərzinin iynəsi itməsəydi, bir gün qəba tikərdi.

Cümlənin məzmunundan da aydın olur ki, işin həyata keçməsi artıq mümkün deyil. Davamlı keçmiş zamanda verilməsinin səbəbini bu cür izah etmək olar ki, bu hərəkət keçmişdə müntəzəm olaraq, davamlı şəkildə icra olunub. Yəni, dərzinin iynəsi həmişə itib və o, qəba tikə bilməyib. Bu hadisə bir dəfə baş verməyib, dəfələrlə təkrar olunub.

Şərt budaq cümləsində aparılan araşdırmalar göstərir ki, tabeli mürəkkəb cümlənin bu növündə zamanların uzlaşması, deyə bilərik ki, zaman budaq cümləsindən daha rəngarəngdir. İndiyə qədər yazılmış fars dili dərsliklərində, qrammatika kitablarında bu budaq cümlənin iki, üç zamanı verilirdisə, araşdırmalar göstərdi ki, şərt budaq cümləli tabeli mürəkkəb cümlələrdə zamanların uzlaşmasının geniş tədqiqata ehtiyacı vardır. Baş cümlədəki işin icrasının məhz budaq cümlə ilə şərtlənməsi, budaq cümlənin ümumi olaraq baş cümlənin bütün məzmununa aid olması burada zamanların uzlaşmasında heç bir məhdudiyyət yaratmır, yəni mənanı və məntiqi uzlaşmanı qorumaq şərtilə komponentlərin xəbərlərini istənilən zamanda vermək mümkündür. Fars dilinin zənginliyi, xüsusilə də poeziya dilinin rəngarəngliyi və şərt budaq cümlələrinin daha çox danışıq dilində işlənməsi bu budaq cümlələrdə zamanların uyuşmalarını geniş tədqiqata cəlb edir.

ƏDƏBİYYAT

1. Abdullayev Ə., Müasir Azərbaycan dilində tabeli mürəkkəb cümlələr, Bakı: Maarif, 1974.
2. Axundov A., Felin zamanları, Bakı: ADU, 1961.
3. Kazımov Q., Müasir Azərbaycan dili, Bakı: Təhsil, 2007.
4. Kərimov A., Fars dili, Bakı: Adiloğlu, 2011.
5. Rəhimov İ., Hidayətzadə T., İngilis dilinin praktik qrammatikası, Bakı: Maarif, 1966.
6. Sultanov R. Fars dilinin tədrisi metodikası, Bakı: ADU, 1973.
7. Şəfai Ə., Rüstəmova T., Ələkbərova A., Zülfüqarova F., Müasir fars ədəbi dilinin morfologiyası, Bakı: ADU, 1982.
8. نسرین قدیری (کافی)، حاکم کیست؟ حاکم چیست؟ تهران، نشر پیکان، ۱۳۷۸
9. نسرین قدیری (کافی)، عشقی به لطافت باران، تهران، نشر پیکان، ۱۳۷۹

Açar sözlər: Tabeli mürəkkəb cümlə, şərt budaq cümləsi, zaman anlayışı, zamanlarn uzlaşması

Ключевые слова: сложноподчинённое предложение, придаточное предложение, понятие времени, согласование времен

Key words: Subordinate complex sentence, conditional branch sentence, concept of time, coordination of times

Xülasə

Şərt budaq cümləsi baş cümlədəki hal – hərəkətin şərtini bildirir. Baş cümlənin bir üzvünə aid olan budaq cümlələrdən fərqli olaraq, şərt budaq cümləsi baş cümlənin ümumi məzmunu ilə bağlı olur və orada (baş cümlədə) ifadə olunan məzmunun şərtini bildirir. Başqa cür demiş olsaq, baş cümlədə görülən iş, budaq cümlədəki işlə şərtlənir. Şərt budaq cümlələrində bildiyimiz kimi daşlaşmış və norma kimi qəbul olunan zamanların uzlaşması məlumdur. İndiyə qədər bu budaq cümləni araşdıran iranistlər şərt budaq cümləsində hərəkətin indiki və keçmiş zamana aid olması baxımından iki təsnifat növünü göstərmişlər: real şərt budaq cümlələri və qeyri – real şərt budaq cümlələri. Əgər şərt budaq cümləsindəki hərəkətin icrası indiki və gələcək zamana aiddirsə, o zaman budaq cümlə indiki zaman iltizam şəkli ilə, baş cümlə isə indiki zamanla ifadə olunur. Şərt budaq cümləsində aparılan araşdırmalar göstərir ki, tabeli mürəkkəb cümlənin bu növündə zamanların uzlaşması, deyə bilərik ki, zaman budaq cümləsindən daha rəngarəngdir. Baş cümlədəki işin icrasının məhz budaq cümlə ilə şərtlənməsi, budaq cümlənin ümumi olaraq baş cümlənin bütün məzmununa aid olması burada zamanların uzlaşmasında heç bir məhdudiyyət yaratmır, yəni mənanı və məntiqi uzlaşmanı qorumaq şərtilə komponentlərin xəbərlərini istənilən zamanda vermək mümkündür.

Проблема согласования времени в сложных предложениях с условными п ридаточными предложениями

Резюме

Условно придаточное предложение выражает условие действия. В отличие от ветвящихся предложений, которые принадлежат одному члену главного предложения, условное придаточное предложение связано с общим содержанием основного предложения и выражает состояние содержания, выраженного в нем (в основном предложении). Другими словами, работа, проделанная в основном предложении, обусловлена работой, проделанной в придаточном предложении. Как мы знаем, в условных предложениях есть согласование времен.

До сих пор иранисты, изучавшие придаточное предложение, выделяли два типа классификации в условно придаточном предложении с точки зрения того, принадлежит ли действие настоящему и прошедшему времени:

реальные условные придаточные предложения и нереальные условные придаточные предложения. Если действие в условно придаточном предложении относится к настоящему и будущему времени, то ветвь выражается в настоящем времени в форме обязательства, а главное предложение выражается в настоящем времени. Исследование условного придаточного предложения показывает, что по комбинации времен в этом типе, сложноподчиненные предложения более красочны, чем придаточные предложение. Условность согласования главного предложения с придаточным, принадлежность придаточного предложения главному предложению не создает никаких ограничений временным согласованиям, т.е указывание компонентов возможно в любое время, при условии сохранения смысла и логической последовательности.

The problem of matterıng tımes ın complex sentences wıth condıtıonal branch sentences

Summary

The conditional clause refers to the terms of the condition of the action in the main clause. Unlike branch sentences, which belong to one member of the main sentence, the conditional branch sentence is related to the general content of the main sentence and expresses the condition of the content expressed therein (in the main sentence). In other words, the work done in the main sentence is conditioned by the work done in the branch sentence. As we know in conditional clauses, it is known that there is a coincidence of petrified times and accepted as the norm. So far, Iranians who have studied this branch sentence have identified two types of classifications in the conditional branch sentence in terms of whether the action belongs to the present and the past tense: real conditional branch sentences and unreal conditional branch sentences. If the conditional action in the branch sentence refers to the present and future tenses, then the branch sentence is expressed in the present tense in the form of an obligation, and the main sentence is expressed in the present tense. Research in the conditional branch sentence shows that the combination of tenses in this type of subordinate compound sentence, we can say that time is more colorful than the branch sentence. The fact that the execution of the work in the main sentence is conditioned by the branch sentence, the fact that the branch sentence belongs to the whole content of the main sentence does not create any restrictions on the harmony of tenses, ie the messages of the components can be given at any time.

RƏYÇİ: dos. S.Abbasova

Ramil Əkbər oğlu Bayramov[37]

FİNLANDİYADA TÜRKOLOGİYA

Giriş. Çağdaş dünyada özünün mükəmməl təhsil sistemi ilə diqqət çəkən Finlandiya uzun və mürəkkəb tarixi inkişaf mərhələsi keçmişdir. Finlandiya xalqı da bəzi türk xalqları, xüsusilə Azərbaycan xalqı kimi uzun müddət başqa xalqların nüfuz dairəsində olmuşdur. Belə ki, fin xalqı müəyyən zamanlarda İsveç və Rusiyanın hakimiyyəti altında yaşamışdır. Tarixdən bəllidir ki, digər hakimiyyətə tabe olan xalqlar assimilyasiya olaraq öz köklərindən tam uzaqlaşmamaq üçün milli mədəniyyət nümunələrini daha geniş öyrənməyə başlayırlar. Bu məsələ fin xalqına da aiddir. Finlandiya xalqı milli kimliklərini, varlıqlarını qorumaq üçün mübarizə aparırdı. Həmin varqlıqların əldə edilməsi işində fin xalqının tarixinin digər xalqların, xüsusilə türk xalqlarının tarixi ilə əlaqələr fonunda araşdırılmasına ehtiyac var idi. Beləcə finlər öz köklərini daha ətraflı, aydın araşdırmaq və öyrənmək üçün türk xalqlarının tarixinə, ədəbiyyat və mədəniyyətinə də nəzər yetirməli olur. Bu isə onu deməyə əsas verir ki, Finlandiyada türkoloji araşdırmaların əsası fin xalqının millət olaraq öz tarixi köklərini və milli-mədəni varlıqlarını tədqiq etməyə başlamaları ilə qoyulmuşdur. Deməli, milli mənsubiyyətlərini ortaya qoymaq üçün xalqın keçmişinə aid məlumata yiyələnmək istəyi fin elm adamlarını Monqolustana və Sibirə qədər aparıb çıxarır. Məlum ərazilərdə araşdırmalar apararkən fin xalqının keçmişini türk boylarından, türk dillərindən ayrı tədqiq edə bilməyəcəklərini bir daha anlayırlar və bu işi daha da sürətləndirirlər. F.Zeynalovun da qeyd etdiyi kimi "Finlandiyada türkoloji araşdırmalar XIX əsrdən uqro-fin dillərinin tədqiqi ilə bağlı aparılmağa başlamışdır. Burada həmçinin Orxon-Yenisey abidələri də öyrənilmişdir (Avqust Kellqren, M.Kastren və b.). Bu ölkədə XX əsrin əvvəllərindən başlayaraq altayşünaslıq çox geniş vüsət tapmış, bu nəzəriyyənin sübutu üçün (türk, monqol, tunqus, mancur dillərinin eyni mənşəli olmasını iddia edən nəzəriyyə) çoxlu əsərlər yazılmışdır (Q.İ.Ramstedt, M.Pəsənen və b.)" (5, s. 91-92). Deməli, fin xalqının uzaq keçmişini öyrənərkən türklərin də uzaq keçmişini araşdırmaları fin-uqor və Altay dillərinin qohumluq əlaqələrini təsbit etmələri, beləliklə də, onların yaxınlıqlarını ilk olaraq sübut etmələri baxımından fin elm adamlarının tədqiqatları həm türkologiyada, həm də dilçilik elmində böyük əhəmiyyət kəsb edir.

XIX əsrin əvvəllərinə qədər altı əsrdən çox İsveç krallığının bir parçası olan, Napaleon müharibələri (1803-1815) dövründə Rus çarlığı tərəfindən ələ keçirilən Finlandiya öz müstəqilliyinə ancaq I Dünya müharibəsinin başlamasından və Rus çarlığının süqutuna səbəb olan Oktyabr İnqilabından sonra (6 dekabr 1917) qovuşur. Adı təkcə Türkiyədə deyil, dünya türkologiyasında tanınmış olan Hasan Eren əsrlər boyunca qonşu dövlətlərin hakimiyyəti altında qalan Finlandiyanın bu ölkələrin mədəni və siyasi təzyiqinə qarşı savaşmaq məcburiyyətində qaldığını və bu savaşın şifrəsini Arvidsonun "*İsveçli deyilik, rus olmaq istəmirik, finli olmaq arzumuzdur*" sözləri ilə açıqlayaraq, Finlandiyanın o zamankı yerini və vəziyyətini ən gözəl şəkildə dilə gətirmişdir. Hasan Eren eyni zamanda belə bir təzyiq altında qalmış finlilərin beynəlxalq təcrid duyğusu içində yaşadıqlarını və bu hissdən xilas olmaq üçün finli elm adamlarının fin xalqının uzaq keçmişini araşdırma ehtiyacı duyduqlarını, tarixi sənədlərin azlığı qarşısında ana dillərinin qaynaqlarına müraciət etməkdən başqa yol tapmadıqlarını, beləliklə də, Finlandiyada dil sahəsində tədqiqatlara, xüsusilə müqayisəli dilçilik və dialektologiya sahəsindəki tədqiqatlara prioritet verildiyini əlavə etmişdir [bax: 3, s. 60].

Hasan Erenin sözlərindən də göründüyü kimi, finlilərin millət olaraq keçmişlərini və köklərini araşdırmaları Finlandiyada türkoloji tədqiqatların başlamasına və inkişafına vəsilə olan çox əhəmiyyətli bir faktordur. Finlandiyada türkoloji araşdırmalar XIX əsrdən uqor-fin dillərinin tədqiqi ilə bağlı aparılmağa başlamışdır. Burada həmçinin Orxon-Yenisey abidələri də öyrənilmişdir.

Türkoloji mərkəzlər. Fin xalqının uzaq keçmişinə aid hər hansı bir sənəd finli elm adamları üçün böyük əhəmiyyət kəsb edir. Bu səbəblə Monqolustanda və Sibirdə tapılmış əski türk kitabələrinə maraq göstərmişlər. Bu məzar daşları və yazılı əsərlərdə öz kimliklərinə aid bilgi axtararkən qarşılarına türklər və türkcə ilə bağlı məlumatlar çıxmışdır. Beləliklə, Finlandiyada aparılmış olan dilçilik sahəsindəki elmi araşdırmaların böyük bir qismini Altay dilləri və türk dilləri ilə bağlı tədqiqatlar təşkil etməkdədir. Bu tədqiqatların önündə, heç şübhəsiz, Fin Arxeoloji Cəmiyyəti və Fin-Uqor Cəmiyyətinin apardığı tədqiqat işləri gəlir. Monqolustana və Sibirə təşkil etdikləri səyahətlərlə və səyahətdən sonra ortaya qoyduqları əsərləri ilə bu iki cəmiyyətin türkologiyanın inkişafındakı töhfəsi çox böyükdür.

Fin-Uqor Cəmiyyəti. Fin-Uqor Cəmiyyəti finli elm adamı Otto Donnerin təklifi ilə 1883-cü ildə Helsinkidə fin-uqor dillərini araşdırmaq məqsədilə yaradılmışdır (2). Ancaq daha sonralar göründüyü kimi, cəmiyyət təkcə fin-uqor dillərini deyil, türk dillərini də araşdırmağa başlamış, xüsusilə Altay dilləri mövzusunda ardıcıl tədqiqat işləri ortaya qoymuşdur. Çünki bu dərnək hər nə qədər Altay dilini araşdırsa da, həmişə türk dilləri ilə üz-üzə gəlmişdir. Fin-Uqor Cəmiyyəti bu məqsədlə 1890-cı ildə bir başqa finli elm adamı - Heikelin başçılığı ilə Orxon vadisinə akademik heyət göndərir. Bu səyahətin nəticəsi olaraq 1891-ci ildə nəşr edilmiş atlasın Orxon abidələri ilə bağlı araşdırmaların sürətlənməsindəki rolu böyükdür. Otto Donner bu atlasa əsaslanaraq Yenisey kitabələrinin dilini əks etdirən lüğət hazırlamışdır (1892). Cəmiyyət nəşr etdirdiyi jurnallarla türkologiyaya böyük xidmətlər göstərmişdir.

Fin Arxeoloji Cəmiyyəti. Finlandiyada türkoloji tədqiqatlar deyəndə ağla gələn digər mühüm dərnək isə Fin Arxeoloji Cəmiyyətidir. Türkiyəli alim Ahmet Bican Ercilasun qeyd edir ki, Fin Arxeoloji Cəmiyyəti 1887 və 1888-ci illərdə fin arxeoloqu İohan Aspelinin başçılığı ilə Abakan və Altay bölgələrinə iki dəfə səfər təşkil etmiş, qədim və yeni abidələrin surətlərini götürmüş, 32 abidənin surətini ehtiva edən əsəri 1889-cu ildə "Yenisey kitabələri" adı ilə nəşr etdirmişdir. Necib

[37] Bakı Dövlət Universiteti. Filologiya üzrə fəlsəfə doktoru. rbayramov924@gmail.com

Asımın "Orxon abidələri" kitabının müqəddiməsində yada salınan əsərin adı "Yeniçay mahkukatı" (mahkukat – həkk edilmiş) şəklində göstərilmişdir. Fransa inqilabından sonra millətçilik hərəkatının sürətlənməsi ilə macarların, finlərin öz milli-irqi keçmişlərini öyrənmək arzu və ehtiyacları türkologiyanın inkişafına, türk tarixi, dili və mədəniyyəti haqqında çox mühüm əsərlər yazmış finli elm adamlarının yetişməsinə səbəb olmuşdur. Finlandiyadakı filoloji və türkoloji araşdırmalar o qədər irəliləyir ki, Finlandiyanın böyük dövlət adamı Maresal Karl Qustav Mannerheym də bu araşdırmalara qatılır. Danimarkalı Vilhelm Tomsenin Monqolstandakı və Sibirdəki araşdırmaları da finlər tərəfindən nəşr olunur.

Fin türkoloqları. Finlandiyadakı elmi araşdırmalar türkologiyaya məşhur elm adamları qazandırır: onlara Matias Aleksandr Kastren (1813-1853), Aksel Olav Heykel (1851-1924), Heykki Paasonen (1865-1919), Qustav Con Ramstedt (1873-1950), Kay Donner (1888-1935), Marti Rəsənen (1893-1976) və dövlət adamı Maresal Karl Qustav Emil Mannerheym (1867-1951) və s. kimi alim-türkoloqları aid etmk olar.

Matias Aleksandr Kastren. Təbii ki, bu türkoloqların önündə, heç şübhəsiz, Matias Aleksandr Kastren gəlir. M.A.Kastren V.Sottun fikirlərini inkişaf etdirməklə ural və altay dillərinin qohumluğu nəzəriyyəsini genişləndirmişdir. O həm də ilk dəfə olaraq Ural və Altay dillərini müqayisəli-tarixi istiqamətdə, hərtərəfli öyrənmişdir. Atasını kiçik yaşda itirdiyi üçün əmisinin himayəsinə keçən Katsren Aleksander Universitetini (günümüzdəki Helsinki Universiteti) qazandıqdan sonra, əvvəllər həyatını Fin dilinin mənşə etibarilə bağları olduğu düşünülən yunan və ibraniceyi öyrənməyə həsr etsə də, daha sonra ana dilinə olan sevgisi onu fin dili və folkloruyla əlaqədar araşdırmalara yönəldir. "Kalevala dastanı" Kastrenin baxış bucağını dəyişdirərək onun həyatını bundan sonra fin xalqının və onunla qohum olan digər bütün xalqların dilini, dinini, adətlərini araşdırmağa vəsilə olur. Hələ tələbə olarkən "Kalevala"nı tərcümə etməyi qarşısına məqsəd qoyan Kastren tərcüməyə başlayanda işinin, sadəcə, tərcüməylə məhdudlaşmayacağını anlayır. Tərcümə zamanı qarşılaşdığı bir çox qədim söz və ifadələr, əşya adları və adətlərlə bağlı açıqlamalar onda "Kalevala"nın vətəni olan Kareliyaya səyahət etmək arzusu yaradır. Bir çox maddi çətinliklərə baxmayaraq, nəhayət, xəyalını qurduğu səyahətə çıxır. Əvvəlcə, Laplandiya, daha sonra da Rusiya Kareliyasına etdiyi səyahətlərinin məqsədi ana dilinin mənbələrinə aid məlumat toplamaq olsa da, hər səfərində qarşısına çıxan türk dili və dialektləri ilə bağlı araşdırmaların da qaçılmaz olduğunu anlayır. Rusiyanın və Sibirin şimal bölgələrini gəzərkən türk dilləri üzərində də dayanaraq əsl araşdırma mövzusunu təşkil edən Samoyed dilinin moğol və türk dili ilə əlaqələrini təsbit edir.

Kastrenin türkologiyada ən mühüm xidməti "Altay dilləri nəzəriyyəsi"ni yaratmasıdır. Kastren səyahətləri nəticəsində əldə etdiyi türk dilləri ilə əlaqədar vəsaitlərini ya özü nümayiş etdirmiş, ya da tələbələri nəşr etdirmişdir. Səyahətləri əsnasında qarşılaşdığı çətinlikləri, həmçinin həyatını təhlükəyə atdığı vəziyyətləri də diqqətə alsaq, Kastrenin sadəcə sağlamlığını və gəncliyini deyil, bütün həyatını vətəninə, millətinə və dilinə həsr etdiyini söyləmək mümkündür. Kastren səkkiz il davam edən səyahətlərində Finlandiyaya xəstə olaraq dönmüş və bir daha sağlamlığına qovuşmur. Həyata gözlərini yumuncaya qədər ölüm döşəyində belə araşdırmalarına davam edir. Tamamlaya bilmədiyi əsərləri ölümündən on il sonra Sifner tərəfindən hazırlanmış və 12 cilddə Peterburq Akademiyası tərəfindən nəşr edilmişdir. M.A.Kastrenin illərlə davam edən elmi-tədqiqat məqsədli səyahətlərində Ural-Altay ailəsinə daxil olan dilləri yerində öyrənmişdir. Həmçinin bu dillərdən biri Kastrenin ana dili idi. O, eyni zamanda qarşılaşdırmalı dilçilik təhsili də almışdır. Onun dil duyumuna görə bu dillər arasındakı qohumluq əlaqələri hind-Avropa dilləri arasındakı qədər gözəçarpacaq mahiyyətdə olmamışdır. Kastren Ural-Altay dilləri qrupunu başlıca beş sahəyə ayırmağı düzgün hesab etmiş və bu dil ailəsinə sadəcə Altay adını vermişdir. Bu qruplar bunlardır: *fin-uqor, samoyet, türk-tatar, monqol, tunqus və şivələri.* Bu dil sahələri arasında həqiqi bir yaxınlığın mövcud olduğuna inanmayan Kastren heç olmasa fin, samoyet və türk dilləri arasında müşahidə olunan bir oxşarlığın olduğu fikrini irəli sürmüşdü (bax: 1, s. 87-90). M.A.Kastren, o cümlədən ayrı-ayrı dillərə də tədqiqat əsərləri həsr etmişdir: "Samodi qrammatikası" (1854), "Tunqus dilinin əsas xüsusiyyətləri" (1856), "Müxtəsər lüğətin əlavəsi ilə buryat dilinin öyrənilməsi təcrübəsi" (1857), "Koybal və karakas dillərinin öyrənilməsi təcrübəsi" (1857) və s.

XIX əsrin sonu və XX əsrin əvvəllərində alimlər Ural-Altay dillərinin əhatə dairəsini genişləndirmiş, bu ailəyə yapon və koreya dillərini də daxil etmişlər. Bu münasibətlə çoxsaylı tədqiqatçılar içərisində alman alimi, şərqşünas Q.Vinklerin xidmətləri, xüsusi olaraq diqqəti cəlb edir. O, Ural-Altay dillərinin qohumluğunu, xüsusilə M.A.Kastrenin mövqeyini müdafiə etmişdir. Q.Vinkler də, M.A.Kastren də digər alimlər kimi ural-altay ailəsi ilə fin-uqor, samodi, türk, monqol, tunqus-mancur dillərinin bağlılığını və onların hərtərəfli leksik-qrammatik xarakterini vermişdir. Q.Vinkler Ural-Altay dillərinə aid "Ural-Altay xalqı və dili" (1884), "Ural-Altay protodili, fin və yapon dilləri" (1909) adlı tədqiqatları ilə xüsusi diqqət göstərmisdir.

Qustav Con Ramstedt. "Fin türkoloqu. 1906-cı ildə dosent, 1917-ci ildə Helsinki Universitetində professor oldu. Orta Asiya dilləri üzərində işləyirdi. 1919-cu ildə Finlandiya nümayəndəsi kimi Yaponiyaya göndərilmiş və bir müddət dil təhsilindən uzaq qalmışdır. 1930-cu ildə universitetə qayıtdıqdan sonra yenidən təhsilini davam etdirir. Onun məruzələrinə Altay xalqlarının tarixi və dilləri, müqayisəli monqol-türk tarixi fonologiyası, qırğız, monqol, kalmık, mançu, tunquz dilləri daxildir. Monqol-türk müqayisəli fel quruluşu araşdırması Altay dilçiliyi sahəsində ən mühüm əsərlərdən biridir. Tam poliqlotdur. Yunan, latın, sanskrit, həmçinin ivrit, türk, monqol, Koreya və yapon kimi klassik dillərdə danışırdı. O, monqolist, türkoloq və altaist idi. O, monqolizm və altruizmin banisidir (6).

Deməli, Finlandiyadakı türkoloji araşdırmalar deyərkən yada düşən ən mühüm adlardan biri Qustav Con Ramstedtdir. Helsinki Universitetinə qəbul olunmuş və ilk illərdə siyasətçi kimi tanınmış Ramstedt fin dili və ədəbiyyatı professoru Emil Nestor Setələnin fin-uqor dərslərində iştirak etmiş və nəticədə onda Altay dillərinə maraq yaranmışdır. Finli alim Otto Donnerin tövsiyəsi ilə Monqolustana gedərək monqol dilini öyrənmişdir. Sonralar isə həmin universitetin Altay

dilləri bölümündə professor olaraq çalışmışdır. 1917-ci ildə Finlandiya müstəqilliyini əldə etdikdən sonra 1920-ci ildə Finlandiyanın nümayəndəsi kimi Yaponiyaya göndərilmiş və doqquz il (1929) orada qalmışdır. Bu illərdə Tokio Universitetində də müəllim kimi fəaliyyət göstərmişdir.

Vətənə döndükdən sonra universitetdə Altay xalqlarının tarixi və dilləri, monqol və türk dillərinin müqayisəli-tarixi fonologiyası, qırğız, monqol, kalmık, mancur, tunqus dillərindən dərslər aparmışdır. Ural-Altay dillərinin qohumluğunu tənqid edən Ramstedt buraya koreya və yapon dillərini də aid etmişdir. Həmçinin o, türk dillərinin təsnifini vermiş, onları çuvaş dili, yakut dili, Qərb qrupu, Şərq qrupu və Cənub qrupu olmaqla beş qrupa ayrımışdır. Dilçilik fəaliyyəti ilə yanaşı, diplomat kimi də tanınan Ramstedt türk, monqol, tunqus və koreya dillərinin qohumluğunu isbat etməklə türkologiyada altayşünaslığın yaradıcılarından biri hesab olunur.

Ümumiyyətlə, Q.Ramstedt yalnız altay dillərinin qohumluğunu qəbul etmişdir. O, "Altay dilinin digər dil qruplarına münasibəti" adlı məruzəsində Ural-Altay nəzəriyyəsini inkar etmişdir. Altay dillərinə məxsus sintaktik xüsusiyyətləri göstərmişdir. Onun göstərdiyi sintaktik xüsusiyyətlər təkcə altay dillərinə deyil, bütövlükdə Ural-Altay dillərinə aiddir. Həmin sintaktik xüsusiyyətlər bunlardır: Mübtəda cümlənin əvvəlində yerləşir; təyin edənlə təyin olunan bir vahid intonasiyada olur; əgər təyin olunan baş vurğunu qəbul edirsə, onda təyin edən ikinci dərəcəli vurğunu qəbul edir; təyin olunan müxtəlif şəkilçilər qəbul edə bilir, amma təyin edən şəkilçi qəbul etmir; zərf xəbərin qabağında dayanır. Ural və Altay dillərinin qrammatik xüsusiyyətlərini F.Vidmen, B.Munkeç və Q.İ.Ramstedtdən başqa, fin alimi P.Ravil, macar alimi M.İrai, leksik uyğunluqlar əsasında fransız alimi A.Sovane və fin ural-altayşünası M.Rəsənen göstərmişdir [bax: 4, s. 48]. Q.İ.Ramstedtin dediklərindən çıxış edərək N.Poppe ulu altay dilini iki qola ayırmışdır: 1) türk-monqol-tunqus-mancur dilləri. Hansı ki bunlar proto-türk və monqol-tunqus-mancur dillərindən formalaşmışdır; 2) qədim koreya dili, hansı ki, təcrid olunmuş şəkildə bundan müasir koreya dili yaranmışdır. N.Poppe koreya dilinin tunqus-mancur dilinə yaxın olduğunu ümumi altay dilləri fondu ilə əsaslandırır.

Tunqus-mancur dilləri öz növbəsində fonetik xüsusiyyətlərinə görə, türk dilinə nisbətən monqol dilinə daha yaxındır. N.Poppenin fikrincə, buradan iki nəticə üzə çıxır: ya prototürk dil digər altay dillərindən çox erkən ayrılmışdır, ya da o, fonetik xüsusiyyətlərini çox tez inkişaf etdirmişdir. Türk dillərinin monqol-tunqus-mancur dillərindən ayrılması ilə bağlı bütün ehtimallar cox uzun sürmüsdür.

Marti Rəsənen. Ramstedtin tələbələrindən biri olan Marti Rəsənen (1893-1976) tanınmış finli türkoloqlardan biridir. Atilla Jorma yazır ki, "Marti Rəsənen müstəqil Finlandiyanın tək türkoloqu olub türk dillərinin fonologiya və morfologiyası haqqında almanca önəmli əsərlər yazmışdır. Əsərləri ruscaya da tərcümə olunmuşdur. Şimal-şərqi Anadoluda folklor materialları toplayıb yayımlamışdır" (1, s. 96). Deməli, o, əvvəlcə, çuvaş və tatarca, daha sonra isə Anadolu dialektləri üzərində araşdırmalar aparmışdır. Həmçinin əski türkcədə uzun saitlər haqqında fikirlər söyləmişdir. 1932-ci ildə çap olunmuş saitlər ahənginin tarixi inkişafı ilə bağlı məqaləsi və 1947-ci ildə Bilgə Xaqan abidəsinin qərb üzündəki son parçanı yenidən tədqiq və təhlil etməsi alimin bu sahədəki uğurlu araşdırmaları hesab edilir. Marti Rəsənenin türkologiyadakı daha çox diqqətçəkən araşdırması 1969-cu ildə nəşr olunan "Türk dillərinin etimoloji lüğəti" kitabıdır. Türkiyəli alim Hasan Erenin 1999-cu ildə nəşr olunan "Türk dilinin etimoloji lüğəti"nin girişində qeyd etdiyinə görə, Rəsənen bir çox məsləkdaşından, hətta Hasan Erendən də lüğətin ilk varinatlarını oxumaq və düzəlişlər etmək üçün söz almışdı. H.Eren isə sonra bu lüğət üzərində işləməkdən imtina etmiş və burada etdiyi düzəlişləri öz tədqiqat işinə köçürdü. İstər Resənenin, istərsə də Erenin lüğətlərində ortaq nöqtə hər ikisinin sistemli olmayıb, yazarlarının uzun illər apardıqları etimoloji tədqiqatların əlifba sırasına görə düzülüşüdür. Hətta Marti Rəsənenin yeni Atatürk Türkiyəsini tanıdan bir kitabı da 1937-ci ildə çap olunmuşdur (bax: 1, s. 96).

M.Rəsənen ural-altay dillərinin fonetikası və leksikası ilə bağlı tədqiqatları da mövcuddur. Bu dillərin leksikasına aid ilkin araşdırmalarını fin dilində olan iki tədqiqatında yayımlamışdır. O bu işlərində ural-altaycada leksik uyğunluq yaradan 180 sözü nümunə gətirmişdir. Nəticədə, o, leksikaya aid bir çox işlərin nəticəsi olaraq "Ural-Altay leksikasına aid tədqiqatlar" adlı əsərini nəşr etdirmişdir. M.Resenenin Ural-Altay dillərinə aid "Türk dillərinin tarixi fonetikasına dair materiallar" adlı tədqiqatı 1955-ci ildə rus dilində çap edilmişdir. Müəllif Ural-Altay dillərinin fonetik praformalarını bir neçə samitlər üzrə bərpa etməyə cəhd göstərmişdir. Bu kitab təkcə türkoloqların deyil, həm də ural-altayşünasların böyük elmi marağına çevrilmişdir [bax: 4, s. 53-54]. 1932-ci ildə nəşr edilmiş sait ahənginin tarixi ilə əlaqəli məqaləsi və 1974-cü ildəki Bilgə Xaqan kitabəsinin Qərbdə olan son parçasını yenidən şərh etdiyi əsərləri onun əhəmiyətli əsərlərindən ancaq bir neçəsidir. Rəsənen türk dilinin dialektləri, eləcə türk sistemli dillərin leksik, fonetik və qrammatik quruluşunun tədqiqi ilə məşğul olmuş, onlara maraqlı, sanballı əsərlər həsr etmişdir.

M.Rəsənen türk dillərini təsnif edərkən Q.C.Ramstedtin təsnifini əsas götürməklə yanaşı, bir sıra dəqiqləşmələr də aparmışdır. Məsələn, Q.C.Ramstedtdən fərqli olaraq qıpçaq qrupunu qərb qrupu adlandırmışdır. M.Rəsənen və A.N.Samoyloviç onu "şimal-qərb" qrupu kimi bölmüşdür. A.N.Samoyloviç türkmən, Azərbaycan, türk və qaqauz dillərini ol-qrupuna (yəni cənub-qərb) daxil etmişdir. M.Rəsənen isə onu cənub-şərq qrupu kimi (Q.İ.Ramstedt cənub qrupu demişdir) adlandırmışdır. Bundan başqa, M.Rəsənen yakut dilini türk dilinin müstəqil bir qrupu kimi ayırmışdır. O, bir çox alimlərin çuvaş dilini "türkləşmiş fin-uqor xalqlarının qarışıq dili" hesab etmələrinin əleyhinə olmuşdur. Çox haqlı olaraq, M.Rəsənen çuvaş dilini qarışıq dil yox, əsl türk dili kimi qeyd etmişdir. Çuvaş dili türk dillərinə aid çoxlu arxaik və itirilmiş xüsusiyyətləri qoruyub saxlamışdır [bax: 4, s 72]. N.Poppe səthi bir şəkildə türk dillərinin təsnifi ilə bağlı fikir söyləmişdir. M.Resenendən fərqli olaraq N.Poppe türk dillərini iki əsas qrupa ayırmışdır: 1) r qrupu dilləri — volqa-bulqar (qədim) və müasir çuvaş dili; 2) z qrupu dilləri — yerdə qalan digər türk dilləri.

Nəhayət, F.Zeynalovun təbirincə desək, "M.Rəsənen türk dilinin dialektləri, eləcə də türk sistemli dillərin leksik, fonetik və qrammatik quruluşunun tədqiqi ilə məşğul olmuş, onlarla maraqlı, sanballı əsərlər nəşr etdirmişdir. Q.İramstedtin və M.Rəsənenin əsərləri rus dilinə tərcümə olunmuş və yüksək qiymətləndirilmişdir" (5, s. 92).

Qeyd olunanlardan belə qənaətə gəlmək olar ki, çox qədim tarixə malik olan türk dillərinin öyrənilməsi digər ölkələrlə yanaşı, Avropa ölkələrinin də diqqətindən kənar qalmamışdır. Bu ölkələrin arasında Finlandiya xüsusilə seçilir. Deməli, digər Avropa ölkələrində olduğu kimi, Finlandiyada da türkoloji mərkəzlər yaranmağa və türkologiya bir elm kimi inkişaf etməyə başlamışdır. Tarixən Finlandiyada fəaliyyət göstərən türkoloji mərkəzlər türk dillərinin müxtəlif problemlərinin öyrənilməsinə öz töhfələrini vermişlər. Belə ki, Finlandiyada türkologiyanın - türk dillərinin tədqiqinin əsası finlilərin öz tarixini və köklərini araşdırmağa başlamaları ilə qoyulmuşdur. Öz köklərini araşdıran finli elm adamları fin xalqının tarixini və dilini türk boylarından, türk dillərindən təcrid olunmuş şəkildə araşdırmağın mümkünsüzlüyünü dərk edərək bu işə başlamışlar. Fin türkoloqu M.A.Kastren V.Şottun fikirlərini inkişaf etdirməklə Ural və Altay dillərinin qohumluğu nəzəriyyəsini genişləndirmişdir. Q.Ramstedt yalnız Altay dillərinin qohumluğunu qəbul etmişdir. O, "Altay dilinin digər dil qruplarına münasibəti" adlı məruzəsində Ural-Altay nəzəriyyəsini inkar etmişdir. M.Rəsənen türk dillərini təsnif edərkən Q.C.Ramstedtin təsnifini əsas götürməklə yanaşı, bir sıra dəqiqləşmələr aparmış, Ramstedtdən fərqli olaraq qıpçaq qrupunu qərb qrupu adlandırmışdır. Finlandiyada aparılan türkoloji tədqiqatların əsasını Altay və türk dilləri ilə bağlı tədqiqatlar təşkil edir. Deməli, qədim və zəngin tarixə malik türk dillərinin Avropada öyrənilməsinə xüsusi maraq göstərilmiş və bu istiqamətdə çoxşaxəli, zəngin elmi araşdırmalar aparılmışdır. Hətta bəzi tanınmış avropalı türkoloqlar təkcə sanballı elmi tədqiqatlar ərsəyə gətirməklə kifayətlənməmiş, həm də türk dünyasına böyük töhfələr verəcək çox sayda elm adamları yetişdirmişlər.

İstifadə olunmuş ədəbiyyat

1. Atilla Jorma (Makedoniya). Finlandiyada türkologiya tarixi // Türkologiya. Beynəlxalq elmi jurnal. № 4. Bakı, 2018, s. 87-96
2. Bağdagül M. Finlandiya türkoloqları və Finlandiyada türkoloji tədqiqatların bibloqrafiyası. Türklük bilimi araştırmaları, 2012, s. 221-245 https://www.researchgate.net/publication/273143642_Finlandiya%27da_Turkoloji_Calismalari_Turcologists_of_Finland_and_A_Bibliography_of_Turcology_Studies_In_Finland
3. Eren. H. " Türkoloji", Türk Ansiklopedisi, Milli Eğitim Basımevi, Ankara. 1983. 433 s.
4. Xəlilov B. Türkologiyaya giriş. Bakı: Bakı Çap evi, 2013, 384 s.
5. Zeynalov F. Türkologiyanın əsasları. Bakı: Maarif, 1981, 346 s.
6. https://eksisozluk.com/gustav-john-ramstedt--1420240

Açar sözlər: Finlandiya, türkologiya, türkoloji mərkəzlər, fin türkoloqıları, türkoloji araşdırmalar

Ключевые слова: Финляндия, тюркология, тюркологические центры, финские тюркологи,

Key words: Finland, turkology, turkological centers, Finnish turkologists, turkological researches

Finlandiyada türkologiya

Xülasə

Məqalədə Finlandiyada türkologiya və onun tarixi inkişafından bəhs olunur. Finlandiyada türkoloji tədqiqatlara marağın yaranma səbəbləri diqqətə çatdırılır. Tarixən türk və fin xalqları arasında müxtəlif istiqamətli əlaqələr mövcud olmuşdur. Belə yaxın əlaqələr fin xalqının öz kökünü, tarixini, mədəniyyətini araşdırarkən türk xalqlarının da tarixinə nəzər yetirmək kimi zərurət yaratmışdır. Nəticədə isə fin alimlərinin türkologiyaya diqqəti artmış, sonradan daha peşəkar bir fəaliyyətə çevrilmişdir. Məqalədə tarixən türkologiyaya öz tədqiqatları ilə töhfə vermiş bir neçə fin türkoloqu haqqında məlumatlar verilir. Finlandiyada mövcud olmuş türkoloji mərkəzlərin fəaliyyəti dəyərləndirilir.

Тюркология в Финляндии

Резюме

В статье рассказывается о тюркологии и ее историческом развитии в Финляндии. Причины возникновения интереса к тюркологическим исследованиям в Финляндии доводятся до сведения. Исторически сложилось, что между тюркским и финским народами существовали разнонаправленные связи. Такие тесные связи создали такую необходимость, как изучение финским народом своих корней, истории, культуры, а также взгляд на историю тюркских народов. В результате внимание финских ученых к тюркологии возросло, что впоследствии стало более профессиональной деятельностью. В статье представлена информация о нескольких финских тюркологах, которые исторически внесли свой вклад в тюркологию своими исследованиями. Оценивается деятельность существующих в Финляндии тюркологических центров.

Turkology in Finland

Summary

The article deals with Turkology and its historical development in Finland. The reasons for the interest in turkological research in Finland are highlighted. Historically, there were Relations of various directions between the Turkic and Finnish peoples. Such close relations made it necessary to look at the history of the Turkic peoples while studying the roots, history and culture of the Finnish people. As a result, the attention of Finnish scientists to Turkology increased, and later it became a more professional activity. The article provides information about several Finnish Turkologists who have historically contributed to Turkology with their research. The activities of turkological centers in Finland are evaluated.

RƏYÇİ: dos. E.Vəliyeva

Nailə Kamil qızı Məmmədova[38]

KÜTLƏ QARŞISINDA NİTQ VƏ BU NİTQİ TƏSİRLİ EDƏN ƏSAS VASİTƏLƏR

Kütlə qarşısında nitq bir sıra tələblərə cavab verməlidir ki, nitq inandırıcı, bəlağətli, sübutlu, məntiqli, düşünülmüş və gözəl olsun. Bu tələblərdən bir neçəsini müəyyənləşdirək:

1. Nitq əvvəldən axıra qədər çox maraqlı, cəlbedici və faydalı olmalıdır.
2. O, kompozisiya baxımından düzgün tərtib edilməli və girişə, mənanın yerləşdiyi əsas hissəyə və yekuna malik olmalıdır.
3. Nitq fərdi həmsöhbət yaxud böyük auditoriya qarşısında çıxış üçün nəzərdə tutulmasından asılı olaraq, dinləyicilərə yönəlmiş olmalıdır.
4. Nitq tərkibi müxtəlif olan auditoriyaya hesablanmalıdır.
5. O yalnız eşitməklə qavranılaraq, məqsədə yetişməlidir. Nitqin məqsədi tam olmasa da, bilavasitə çıxışın mövzusu ilə bağlı olmalıdır. Nitqin mövzusunun seçilməsi sizin biliklərinizə və maraqlarınıza uyğun gəlməlidir. Bu zaman aşağıdakı məsləhətlər nəzərə alınmalıdır:

- ədəbiyyata, təcrübəyə, yaxud şəxsi biliklərinizə müraciət etmək;
- mütəxəssislərlə, bu məsələdə maraqlı olan şəxslərlə, yaxud gözlənilən dinləyicilərlə ilkin söhbətlər keçirmək;
- çıxışın mümkün varıantlarını düşünüb qeyd etmək;
- mövzunu daha yaxşı əhatə etmək üçün mövzudan doğan və yaxud onların verəcəyi sualları müəyyənləşdirmək;
- vəziyyətə, şərtlərə, zamana uyğun mövzu seçmək;
- auditoriyaya uyğun gələn mövzunu seçmək.

Sonuncu halda auditoriyanın spesifik maraqlarını nəzərə almaq lazımdır. Bunun üçün onun əsas, qrup halında, ən mühüm və konkret maraqlarının nə təşkil etdiyini müəyyənləşdirmək lazımdır. Başlıca maraqlar, adətən, əsas həyat fəaliyyətinə (həyat, sağlamlıq, təhlükəsizlik, nüfuz, etibarlılıq və gələcək rifahın təminatı) aiddir.

"Əsas maraqlarla əlaqədar olan mövzunun seçilməsi həmişə aktualdır və dinləyicilər adətən bu növ sualların müzakirəsinə, əgər onlar mücərrəd şəkildə qoyulmayıbsa, həvəslə qoşulurlar. Qrup maraqları - çıxış üçün digər yaxşı mövzudur. Natiq onları müəyyənləşdirdikdən sonra öz nitqi ilə kollektivi daha çox birləşdirir, insanları qrup maraqları ətrafında cəmləşdirir" (2, s. 56). Belə maraq kollektiv hobbi, yaxud qrupları birləşdirən motiv ola bilər. Uğurlu mövzünun seçilməsi də nitqi uğurlu edir. Nəzərə almaq lazımdır ki, istənilən mövzu aktuallaşdırıla bilər. Başlıcası, bunu süni şəkildə etməməkdir, bunun üçün konkret maraqlara diqqət yetirmək lazımdır. Konkret maraqlar- insanların gündəlik maraqları, onları ən çox məşğul edən məsələlərdir. Konkret maraqlar öz mahiyyətinə görə insanların çoxluğunun aktuallaşdırılmış əsas maraqları, onların konkret əşyalara tələbatlarıdır (yaşayış yeri, qida, nəqliyyat, iş şəraiti, əyləncələr və s).

Müxtəlif maraqları nəzərdə tutaraq, kütlə qarşısında çıxışın məqsədlərini formalaşdırmaq tələb olunur. Nitqin konkret məqsədi sadə və anlaşıqlı tezislə ifadə oluna bilər. Məsələn: «Mən sizə yeni vəzifə təlimatlarını izah edərəm». Belə məqsəd sadə və anlaşıqlıdır. Yalnız bir şeyi nəzərə almaq lazımdır ki, konkret məqsəd hamıya məlum olan anlayışlarla formalaşdırılmalıdır. Konkret məqsədi müəyyənləşdirdikdən sonra konkret məqsəd istiqamətini formalaşdırmaq lazımdır. O, auditoriyaya, və natiqin özünə istiqamət verir. Məsələ bundadır ki, dinləyicilər öz özlüyündə natiqin hansı motivlərlə hərəkət etdiyini araşdırmağa meylli deyillər.

Buna görə natiq özü nitqlə nəyə nail olmaq istədiyini (məsələn, dinləyicilərə vəzifə bölgüsünün yeni prinsipləri haqqında məlumat vermək istəməsi barədə onları xəbərdar etmək və bu bölgünün tanışlıqdan dərhal sonra qüvvəyə minəcəyini söyləmək) aydınlaşdırmalıdır. Kütlə qarşısında çıxışın vasitələri sırasında məhz məntiqi vasitələri, isbat və dəlilləşdirmə metodlarını, faktik vasitələri, tatkita metodlarını, psixoloji üsulları, quruluş-kompozisiya və təşkilati-metodik vasitələri, xüsusi üsulları və qeyri-verbal təsir üsullarını müəyyənləşdirmək lazımdır.

"Kütlə qarşısında nitqin məntiqi vasitələri nitqin mübahisəli predmeti, yaxud müddalarını ziddiyətsiz və nəzakətlə əsaslandırmağa imkan verən qaydaların birliyindən ibarətdir" (4, s. 89).

Zarafatyana nümunələr də kütlə qarşısındaki nitqlərdə istifadə olunur və o, çox zaman kifayət qədər ciddi məsələləri kölgədə qoya bilər. Nümunədən istifadə qaydaları aşağıdakıları nəzərdə tutur:

1. Nümunə məqsədli olmalıdır.
2. Nümunənin mənasını zorla qəbul etdirmək olmaz.
3. Bir nümunənin köməyi ilə olduqca çox məsələni izah etmək olmaz.
4. Eyni nümunəni bir neçə dəfə təkrar etmək olmaz. Nümunənin tətbiqi zamanı müəyyən qaydaları nəzərə almaq lazımdır: a) Nümunə nə qədər yerinə düşür? b) O, tipikdirmi? c) Nitqdə kifayət qədər nümunə varmı? d) Nümunədə dinləyicilərin hisslərinə müraciət varmı? (4, s. 95).

Əyani vəsaitlər də kütlə qarşısında çıxışın faktiki dəlilidir. Əyani vəsaitlər sırasına sxemlər, xəritələr, plakatlar, illüstrasiyalar, modellər (son dövrlərdə İKT vasitəsilə təqdim edilən nümunələr) daxildir. İstənilən əyani vəsait nəinki fikri təsdiq edir, həm də sadəcə, diqqəti cəlb edir, maraq doğurur.

Əyani vəsaitlərdən istifadə edərkən aşağıdakıları nəzərə almaq lazımdır:

---

[38] **BDU-nun dosenti**

a) əyani vəsaitlərdən məqsədyönlü şəkildə, yəni yalnız şərh edilən materialın aydınlaşdırılması, maraq oyadılması və diqqətin başqa istiqamətə yönəldilməsi məqsədilə istifadə edilməlidir;

b) əyani vəsait qabaqcadan hazırlanmalıdır;

c) onlar hamı üçün görünməlidir;

d) nitq əyani vəsaitlərin istifadəsi ilə sıx əlaqələndirilməlidir;

e) nitq söyləyərkən əyani vəsaitə yox, dinləyicilərə müraciət etmək lazımdır;

f) ona olan ehtiyac ödənildikdən sonra əyani vəsaiti yığışdırmaq lazımdır, yoxsa o, dinləyicilərin diqqətini yayındıra bilər.

"Natiqin ustalığı dinləyicilərin emosional-iradi və əqli imkanlarını öz nitqində nəzərə almaqla bəlağətli nitqin üsullarını və nitq taktikasını yerində tətbiq etmək bacarığından ibarətdir. Əslində, natiq başqalarına təlqin etdiklərini hiss etməyə və duymağa borclu deyil. O, dinləyicilərini inandırmaq istədiyinə özü inanmaya da bilər. Lakin o, nitqin qavranılması zamanı dinləyicilərin nə hiss edəcəklərini, yaxud hansı addımı atacaqlarını aydın təsəvvür etməlidir" (3, səh. 62). Natiq, sadəcə gözəl nitqə malik insandan, natiqlik ustalığı, istedadı, həm də hansı dinləyici qrupu üçün və hansı məqsədləri həyata keçirməyin yerinə düşəcəyini, daha təsirli olacağını düşünə bilmək qabiliyyəti ilə fərqlənir. Beləliklə, natiqin nitqinin səmərəliliyi, təsirliliyi ilk növbədə onun səmimiliyi ilə müəyyənləşdirilir. Şifahi monoloji nitq ustalığı təcrübə nəticəsində yaranır. Bəzi cavan natiqlər camaat qarşısında çıxxışla bağlı sıxıntı, hətta qorxu hiss edirlər. Kifayət qədər çıxış təcrübəsinə malik olmayan belə natiqlər çox zaman öz imkanlarını düzgün qiymətləndirmir, lazım olan səviyyədə psixoloji baxımdan məqsədyönlü və ritorik baxımdan səmərəli nitq üsulları və taktikasına malik olmurlar.

Natiqin sıxıntı keçirməsinin bəzi səbəbləri bunlardır: Daxili narahatlığa həddindən artıq aludə olma. Bu maneəni aradan qaldırmaq, yaxud zəiflətmək üçün mütəxəssislər natiqə diqqətini nitqin məzmununa istiqamətləndirməyi və bu zaman «Mənim təmsil etdiyim mövqe mənim şəxsiyyətimdən daha mühümdür» fikrini özünə təlqin etməyi məsləhət görürlər. Lakin bunun üçün, ən azı, dəqiq, düşünülmüş mövqeyə malik olmaq lazımdır. İmkanlarının lazımınca qiymətləndirilməməsi. Özünü çıxışa əla hazırlamış olmağınıza, mövzü üzrə toplanmış materialın çox zəngin olduğuna və dinləyicilərə lazımi təsir göstərə biləcəyinə inanmağa məcbur etmək lazımdır.

Yeri gəlmişkən, insanların başqaları tərəfindən anlaşılmamasının adi səbəblərindən biri onların ifadə etmək istədikləri fikri özlərinin lazımınca anlaya bilməmələridir. Bu səbəbdən, qarşıdaki nitq ünsiyyətinə diqqətlə hazırlaşmaq öz imkanlarınıza inanmağa imkan verər. Təcrübə çatışmazlığı. Bunu yalnız bir vasitə ilə - təcrübə toplayaraq aradan qaldırmaq mümkündür. Təklif edilir ki, ünsiyyət biliklərinizi bütünlükdə inkişaf etdirmək üçün istənilən imkandan istifadə edəsiniz: tez-tez seminarlarda çıxış etmək, idman, siyasət, mədəniyyət və başqa mövzularda, xüsusilə dostlarınızın əhatəsində müzakirələrə qatılmaq və s. səmərəlidir.

Bəzi təcrübəsiz natiqlər auditoriyanın istənilən kiçik mənfi davranışını özlərinə pis münasibət kimi qiymətləndirməyə meyllidirlər. Bəzən bu, həqiqətən də belə olur, lakin çox vaxt auditoriya xüsusilə cavan, yeni işə başlayan natiqə münasibətdə bitərəf, yaxud xeyirxah mövqe tutur. Bu səbəbdən natiq dinləyiciləri pis niyyətli, bədxah adamlar kimi yox, onu başa düşən tərəfdaşlar kimi qəbul etməyə hazır olmalıdır. Uğursuzluq haqqında xatirələr. Belə bir fikirlə barışmaq lazımdır ki, çxıışlarınızdan biri həqiqətən də uğursuz alına bilər (yeri gəlmişkən, hətta təcrübəli natiq də uğursuzluqla rastlaşa bilər, heç də bütün çıxışların tam bir razılıq hissi doğurmadığını isə ümumiyyətlə söyləmirik). Uğursuzluğun nəticələrinin aradan qaldırılması natiqin formalaşması prosesinin tərkib hissəsidir, özü də uğursuz çıxışın, məlumatın şərhi üsullarının, əsas müddəaların dəlillərlə möhkəmləndirilməsi, şərhin tərzinin və çıxış zamanı qeyri-verbal davrabışın (mimika, jestlər, duruş və s.) incəliklərinə qədər təhlili yolu ilə həyata keçirilir. Bu zaman cavan natiq söz birləşməsi natiqin yaşını yox, təcrübəsini nəzərdə tutur. Heç bir natiq, çıxışa nə qədər diqqətlə hazırlaşsa belə, uğursuzluqdan tamamilə sığortalanmır. Lakin təcrübəli natiq nitq prosesində baş verən müxtəlif qüsurlara sürətlə və dəqiq münasibət göstərməsi ilə digərlərindən fərqlənir. Məsələn, çıxış edən birdən sözünü yarımçıq kəsir və daha nə deyəcəyini bilmir. Onun yerində başqası, sadəcə, nitqi bitirər, yaxşı halda, yeni mövzuya keçər. Bəs peşəkar natiq nə edər? Hər şeydən əvvəl o, sakitliyini mühafizə edər: qorxulu heç nə olmayıb, hamının başına gələ bilər, mövzunun davamı üçün nəqlin «ip ucunu tapmalıyam!» fikrini cəmləyib, nitqinin sonuncu cümləsini bir daha təkrar etdikdən sonra başqa sözlərlə, «Mən bir daha qeyd etmək istəyirəm ki,... « dil modelindən istifadə edir. Əgər bu kömək etməsə, vaxtı uzatmaq lazımdır. Məsələn, sonuncu cümlədəki fikri yeni cümlənin başlanğıcı etmək, yaxud sanki sonuncu cümlə ilə əlaqədar olan maraqlı bir hadisəni danışmaq olar- bu həm çıxışı gözəlləşdirər, həm də bəlkə onun ardını xatırlamağa kömək edər. əgər bu da bir nəticə verməsə, təəssüf ki, çıxışı bitirmək lazımdır (təxminən aşağıdaki sözlərlə); «Məsələ ilə bağlı demək istədiklərim, əsasən bu qədərdir. əgər müzakrələrin gedişində daha bir imkan yaranarsa, mən öz çıxışıma əlavələr etməyə hazıram».

"Az əhəmiyyətə malik olan (əhəmiyyətsiz) səhvləri düzəltməyə dəyməz sadəcə, çıxışı davam etdirmək lazımdır. Bəzi dinləyicilər bu səhvi, ümumiyyətlə hiss etməyəcək, hiss edənlərin çoxu da natiqə güzəştə gedəcəklər. əgər bu səhvə görə, hər halda mülahizənin mənası pozulursa, həmin anda səhvinizi düzəltməlisiniz" (3, s. 120).

Bəzən dinləyicilər əsnəyir, bir-biri ilə söhbət edir, kinayə ilə ağızlarını əyir, yerdən nə isə qışqırır, bəziləri isə çxıışın ortasında zalı tərk edirlər. Burada yadda saxlamaq lazımdır ki, dinləyicilərin hər bir mənfi (yaxud mənfi kimi qəbul etdiyimiz) reaksiyasının səbəbi natiq deyil, yaxud məhz ona aid deyil. Bu münasibəti şəxsiyyətiniz üçün təhqir, yaxud çıxışın məzmununa hörmətsizlik kimi qiymətləndirmək lazım deyildir. Auditoriyadakı söhbətlər onunla da bağlı ola bilər ki, sizdən əvvəlki natiq eynilə sizin dediklərinizi, yaxud tamamilə zidd olan fikirlər söyləmişdir, və dinləyicilər təəssüratlarını bölüşür, bəlkə də uğurlu verilmiş məlumatı müzakirə edirlər. Əgər dinləyicilər şüurlu surətdə çıxışa mane olurlarsa, onlara çıxışın

mövzüsunun və sonrakI şərhinin zalda əyləşənlər üçün əhəmiyyətini bir daha xatırlatmaq və bütünlükdə dinləyicilərin nüfuzuna əsaslandırmaq olar. Zaldan atmacalar eşidilir- təcrübəli natiq bununla əlaqədar nitq vəziyyətinin dəyişilməsini o an qiymətləndirir: bu atmaca nitqin məqsədinə nə dərəcədə mane olacaq (heç bir halda, əhəmiyyətsiz dərəcədə, əhəmiyyətli şəkildə?) bu dəyərləndirməyə müvafiq olaraq, natiq ya sadıcı, həmin atmacaya əhəmiyyət verməmək, ya onu qeyd etmək, ya da onlara həmin anda, bəzən isə çıxışın müvafiq hissəsində dəlillərlə cavab vermək qərarına gələ bilər. Məlumdur ki, idarəetmə sahəsində və işgüzar aləmdə daha böyük uğurlar çox zaman öz peşə bilikləri ilə yanaşı həm də yaxşı danışmaq, insanları inandırmaq, öz tərəfinə çəkmək, özünü və ideyalarını reklam etmək bacarığına malik olan şəxslərin payına düşür. Nəticə etibarı ilə kütlə qarşisinda çıxış edən natiq auditoriyaya köklənməlidir, nitqinin məzmununun auditoriyanın maraqlarına uyğun olub-olmadığını araşdırmalıdır. Çıxış zamanı inamlı olmaq və söylənilən sözlərə qəti inam nümayiş etdirmək lazımdır. Yalnız sakitlik yarandıqdan sonra danışmağa başlamaq və nitqini auditoriyaya qısa xitabla başlamaq ,bunun ardınca ani (ehtiyac yaranarsa daha uzun) pauza verilməlidir. İlk sözdən başlayaraq, auditoriyanın reaksiyası diqqətlə müşahidə edilməlidir. Nitqin aydın olmasını nəzarətdə saxlamaq, çox sürətlə və heç bir halda yeknəsəq danışmaq olmaz. Əgər auditoriyanın bir qismi az diqqətlə dinləyirsə, sanki məhz onlara müraciət edirmiş kimi, baxışlarınızı onlara tərəf yönəldilməlidir. Əgər auditoriyanın yorulduğunu hiss olunarsa, yavaş danışmağa başlanmalı, sonra birdən səs ucaldılmalıdır.

ƏDƏBİYYAT SİYAHISI

1. Плевако Ф.Н. Избранные речи. М. Юрайт, 2009
2. Stanislavski K. Mənim səhnə həyatım. Bakı, 1963
3. Şiriyev F. Azərbaycan dilinin nitq mədəniyyət və ritorika. Bakı, 2014.
4. Yusifov M. Nitq mədəniyyətinin əsasları. Bakı. 1998.

Açar sözlər: nitq, natiq, çıxış, mövzu, kütlə, auditoriya
Ключевые слова: речь, оратор, речь, тема, толпа, аудитория
Key words: speech, speaker, speech, topic, crowd, audience

Xülasə

Məqalədə kütlə qarşısında nitq və bu nitqi təsirli edən əsas vasitələrindən bəhs olunur. Kütlə qarşısında nitq söyləyən natiq xüsusi bacarıqlara malik olmalıdır. Kütlə qarşısında nitq bir sıra tələblərə cavab verməlidir ki, nitq inandırıcı, bəlağətli, sübutlu, məntiqli, düşünülmüş və gözəl olsun. Bu tələblər məqalədə əks olunub. Nitq əvvəldən axıra qədər çox maraqlı, cəlbedici və faydalı olmalıdır. Nitq fərdi həmsöhbət yaxud böyük auditoriya qarşısında çıxış üçün nəzərdə tutulmasından asılı olaraq, dinləyicilərə yönəlmiş olmalıdır.

Выступление перед толпой и основные инструменты, которые делают это выступление эффективным

Резюме

В статье говорится о выступлении перед толпой и основных инструментах, которые делают это выступление эффективным. Оратор должен иметь специальные навыки. Публичное выступление должно отвечать ряду требований, чтобы речь была убедительной, красноречивой, доказательной, логичной, продуманной и красивой. Эти требования отражены в статье. Выступление должно быть очень интересным, привлекательным и полезным от начала до конца. Речь должна быть направлена на аудиторию в зависимости от того, предназначена ли она для отдельного собеседника или речь перед большой аудиторией.

Speech in front of the crowd and the main tools that make this speech effective

Summary

The article talks about speech in front of the crowd and the main tools that make this speech effective. A public speaker must have special skills. Public speaking should meet a number of requirements so that the speech is persuasive, eloquent, evidential, logical, thoughtful and beautiful. These requirements are reflected in the article. The speech should be very interesting, attractive and useful from the beginning to the end. The speech should be aimed at the audience, depending on whether it is intended for an individual interlocutor or a speech in front of a large audience.

RƏYÇİ: dos. E.Vəliyeva

Asifə Telman qızı Əliyeva[39]

ŞİFAHİ NİTQİN XÜSUSİYYƏTLƏRİ VƏ FORMALARI

"Nitq – müəyyən kollektivin digər üzvləri ilə əlaqə saxlamaq məqsədilə dildən istifadə edən şəxsin fəaliyyəti, danışığı; mürəkkəb məzmunun həm informasiya, həm çağırış – müraciət, həm də dinləyicini təhriketmə və s. ifadəsi üçün dilin müxtəlif vasitələrinin işlədilməsidir" (1, s. 187). Dil və nitq eyni bir hadisənin bir-biri ilə qarşılıqlı əlaqədə olan iki cəhətidir. Nitqin aydınlığı və təsirli ola bilməsi üçün dil, öz növbəsində dilin mövcudluğu üçün nitq zəruridir. Hər hansı dilin sistemini yalnız nitqdəki təzahürünə görə müəyyənləşdirmək olur. Nitq nəinki dili təzahür etdirir, həm də onu inkişaf etdirir, formalaşdırır. Nitq fəaliyyətdə, yəni öz funksiyasını yerinə yetirməkdə olan dildir, nitq aktıdır. Nitq dilin konkret ünsiyyət şəraitində realizə olunması, informasiyanın ötürülməsi və əldə edilməsidir. Dil ünsiyyət vasitəsidirsə, nitq ünsiyyətin özüdür.

İsveçrə dilçisi məşhur F.de Sössürün "Ümumi dilçilik kursu" adlı əsərində dil və nitqin oxşar və fərqli cəhətləri ilk dəfə ətraflı şəkildə şərh olunmuşdur. O, dil və nitqi iki müxtəlif hadisə hesab etmiş, göstərmişdir ki, dil qrammatik sistem və lüğət tərkibindən, yəni dil vahidlərindən, nitq həmin vahidlərdən ünsiyyət məqsədilə istifadədir. Nitq fərdi danışıq və eşitmə faktorlarından ibarətdir (6, s. 65). Sonralar bu tezislə bağlı müxtəlif nəzəriyyələr meydana gəlmiş, fikirlər söylənilmişdir. Bu fikirlər nəticə etibarilə belə ümumiləşdirilmişdir ki, dil və nitq fərqli kateqoriyalar olsa da, bu iki anlayış bir-birinə bağlıdır, bir-biri ilə dialektik vəhdətdədir. Dilin funksiyaları (məlumatvermə, ünsiyyət, təsirgöstərmə) nitqin də funksiyalarıdır. Dil nitqin hesabına, nitq də dilin hesabına zənginləşir. Dil nitqdə fəaliyyət göstərir. Nitqdən təcrid olunanda o mücərrəd bir mahiyyət daşıyır, ünsiyyət, anlama üçün yararsız olur. Nitq ünsiyyət prosesi olduğundan nitq və dil arasındakı qarşılıqlı əlaqələr bu prosesdə baş verir.

Nə qədər yaxın və qarşılıqlı əlaqədə olsa da, dil və nitqin özünəməxsus cəhətləri vardır ki, bu onları bir-birindən fərqləndirir. Bu fərqlər aşağıdakılardır:

1. Dil həcmcə nitqdən genişdir;
2. Dil ümumxalq, nitq fərdi səciyyə daşıyır;
3. Dil ünsiyyət vasitəsi, nitq ünsiyyət prosesidir;
4. Nitq fikrin ifadəçisidir, dil təfəkkürün formasıdır;
5. Dilin əsas mahiyyəti ünsiyyət vasitəsi olmasıdır. Nitqin əsas cəhəti məzmunluluq, aydınlıq, mənalılıq, təsirlilik və dəqiqlikdir;
6. Dil nitqin silahıdır, məhsuludur, nitq dilin hər dəfə ünsiyyət vasitəsi kimi işlədilməsidir;
7. Dil dilçiliyin, nitq psixologiyanın tədqiqat obyektidir.

Nitq *yazılı* və *şifahi* formada təzahür edir. Hər bir fərd öz fikrini şifahi və yazılı formada ifadə edir. Nitq aktının baş verməsində şərait, məkan, danışanın mədəni səviyyəsi, savadı mühüm rol oynayır. Nitqin şifahi və yazılı növləri arasında əlaqə və bağlılıq var. Şifahi və yazılı nitqin formalaşmasında, kommunikativ funksiya daşımasında fiziloji amillərlə yanaşı, görmə, eşitmə, duyma kimi hiss üzvləri də iştirak edir. Nitqin mədəni səviyyəsinin müəyyənləşməsində həmin üzvlərin mühüm rolu var. Şifahi və yazılı nitq arasında qarşılıqlı əlaqə ilə yanaşı, fərqlər də mövcuddur. Belə ki, şifahi nitqin törəmə prosesi öz-özünə əmələ gələn axından ibarətdir, danışan söhbət zamanı danışıq üzvlərinin fəaliyyətindən xəbərsizdir. Yazılı nitqdə isə danışan öz fəaliyyətinə tam nəzarət edir. Şifahi nitqdə dil, yazılı nitqdə əl və göz fəaldır. Göz əlin hərəkətini düzgün istiqamətləndirir. Şifahi nitq eşitmə, dinləmə, qavrayış üçün nəzərdə tutulan səsli, tələffüz edilən nitqdir. Danışan adamlar nitq zamanı birbaşa bir-birinin üzünü və bədəninin hərəkətini görür, səsini, ahəngini duyur, nitqin məzmununu anlayır. Bu nitqdə məqsəd danışanın dinləyicinin anlayacağı şəkildə öz fikrini ifadə etməsidir. Şifahi nitqin əsas vəzifəsi ədəbi dilin normalarına yiyələnməkdir.

"Şifahi nitqin düzgün təşkil edilməsinin ilkin şərti ədəbi dili bilmək, ondan istifadə etməyi bacarmaqdır. Burada dilin düzgünlüyünə və təmizliyinə daha çox diqqət yetirilməlidir. Şifahi nitqdə ləhcə elementlərinə və əcnəbi sözlərin təhrif olunmuş formasına yol verilməməlidir " (5, s. 85). Varvarizm, vulqarizm və jaqron sözlər mümkün qədər şifahi nitqdə işlədilməməlidir. Şifahi nitq canlı, ifadəli və obrazlı olmalıdır. Nitqi zənginləşdirmək və onun aydınlığını gücləndirmək üçün sinonimlərin işlədilməsinin də əhəmiyyəti çox böyükdür. Şifahi nitq nə qədər canlı, təsirli və ekspressiv olsa, dinləyicilər bir o qədər ona maraqla, heyranlıqla qulaq asarlar.

Şifahi nitq intonasiya, mimika və jestlərlə təmin olunur. Bu nitqdə intonasiyanın rolu böyükdür. Nitqin avazı, nitqdə vurğu, fasilə, durğu nitqin tezliyi intonasiyanın tərkib hissələridir. Şifahi nitqin əsas xüsusiyyətləri bunlardır:

Şifahi nitq danışılır və eşidilir;

Şifahi nitq leksikasında hamıya aydın, ümumişlək sözlərə daha çox yer verilir;

Şifahi nitqdə cümlələr, əsasən, qısa və aydın olur;

Şifahi nitqdə danışıq dilinin xüsusiyyətləri mühafizə olunur;

Şifahi nitqdə intonasiya, vurğu və s.vasitələrdən istifadə olunur;

Mimika, jest və digər hərəkət vasitələri özünü göstərir; Şifahi nitqdə nitq axını sürətli olur. Adi halda insan 1 dəqiqədə 80-100 söz tələffüz edir, lakin bəziləri isə bir dəqiqədə 120-dən artıq söz söyləyə bilirlər.

---

39 Bakı Dövlət Universitetinin dosenti

"Şifahi nitqdən fərqli olaraq, yazılı nitqdə fonetik, leksik və qrammatik normaların düzgün əməl edilməsinə, durğu işarələrinin düzgün işlədilməsinə xüsusi diqqət yetirilir. Burada dil vasitələrinin seçilməsinə, cümlələrin bütövlüyünə, nitq parçalarındakı məntiqi ardıcıllığa, məntiqi əlaqə və formalara fikir verilir" (2, s. 45).

Yazılı nitqin dərk edilməsində durğu işarələri mühüm rol oynayır. "Durğu işarələri yazılanı oxumaq üçün musiqi notları təsiri bağışlayır" (4, s. 45). Yazılı nitqin xüsusiyyətləri bunlardır:

Yazılı nitq yazılır və oxunur;
Yazılı nitqdə elmi, texniki, siyasi və başqa terminlər çox işlədilir;
Yazılı nitq ədəbi dilin normaları əsasında inkişaf edir;
Yazılı nitqdə intonasiya, fasilə, durğu və s. şifahi nitq ünsürlərini əks etdirən durğu işarələrindən istifadə edilir;
Yazılı nitqdə jest, mimika kimi vasitələr rol oynamır;
Yazılı nitq hər hansı bir məlumatın, fikrin nəsildən-nəsilə keçməsində əsas rol oynayır.

Nitqin bu iki növü ilə yanaşı, digər növləri vardır ki, bunlar da özünü, əsasən, şifahi nitq daxilində göstərir. Nitqin monoloji və dialoji forması şifahi ünsiyyətin əsas formalarıdır.

Monoloji nitq. Monoloq danışanın öz-özünə müraciətlə söylədiyi nitqdir. Monoloji nitq hər hansı müəyyən bir ideya, fikir, məsələn, məlumat, informasiya, xatirə və s. bir nəfərin ardıcıl, rabitəli, geniş və ya qısa nitqi kimi özünü göstərməlidir. Bu nitqdə fasilə sürət, ahəng, ton xüsusi rol oynayır. Buraya mühazirə, məruzə, məlumat, çıxış, məktub, məqalə və s. daxildir. Monoloji nitq müxtəlif məqsədli və məzmunludur: öyrətmə, inandırma, məlumat vermə, müxtəlif təbiət və cəmiyyət hadisələri haqqında daxili fikir, hiss və həyəcanları yerinə yetirmə, məzmunluluq və s. monoloqun daha mürəkkəb formalarıdır. Hər adam monoloji nitqə qabil deyil. Adamların çoxu rabitəli danışa bilmir. Şifahi nitqin monoloji forması danışandan yüksək nitq mədəniyyəti tələb edir. Monoloji nitqin aşağıdakı növləri var:

1. Nəqletmə monoloqu – baş vermiş hadisənin məzmununun danışılmasıdır: dinləyiciyə baş verənlərin təfərrüatları çatdırılır.

2.Təsviri monoloq – mövcud varlıqların xarici və daxili əlamətlərinin dinləyiciyə çatdırılmasıdır. Nəqletmədən fərqli olaraq, təsviri nitq "portret" xarateri daşıyır və danışandan ustalıq tələb edir. Maraqlı bir nüansa baxaq: gözləri anadangəlmə görməyən bir adamda nəyinsə təsəvvürünü yaratmaq baş vemiş hadisəni nəql etməkdən daha çətindir.

Məlumatverici nitq – informasiya xarakteri daşıyır. Burada informasiya yükü ümumi məsələlərdən tutmuş əsas faktlara qədər olan məlumatları əhatə edir. Məlumatverici nitqdə təkcə olmuş hadisələr deyil, hazırda baş verən və gələcək işlər barəsində də xəbər vermək məzmunu daşıyır.

Monoji nitqin digər növləri bunlardır:

4. Daxili nitq
5. Lirik.
6. Dramatik.
7. İnandırma.
8. Təbliği monoloq.

İctimai-siyasi həyatda monoloji nitqin, əsasən, dörd forması vardır:

- Mühazirə
- Məruzə
- Nitq
- Çıxış

Şifahi nitqin dialoji forması. Dialoq iki və daha çox şəxs arasında gedən qarşılıqlı söhbətdir. Dialoq replikalardan təşkil olunur. Dialoji nitq, əvvəla, birbaşa reaksiya tələb edir, ikincisi, dialoq danışan şəxslərin emosional-ekspressiv, rabitəli nitq şəraitində baş verir, üçüncüsü, dialoq müəyyən şərait və ya obyektlə bağlı olur. Bu nitq müəyyən konkret şəraitdə ünsiyyətin ikitərəfli canlı formasıdır. Dialoji nitqin 5 forması var.

1. Monoloji.
2. Söhbət və danışıq.
3. Sual-cavab.
4. Müsahibə.
5. Müzakirə

Demək ki, şifahi nitqin monoloji və dialoji formaları nitqin bu formasını bütün təfərrüatı ilə əhatə edir. Şifahi nitqin bütün incəlikləri: onun quruluşu, mədəni səviyyəsi, normativ strukturu, kommunikativ keyfiyyəti monoloji və dialoji şəraitdə özünü büruzə verir. Teleradio aparıcılarının dilində, tamaşalarda, filmlərdə obrazların mənəvi keyfiyyəti, nitq mədəniyyəti onların tək – özü-özünə danışığı və ya başqa qəhrəmanlarla ünsiyyəti nəticəsində ortaya çıxır. Burada diqqəti çəkən bir sıra məqamlar olsa da, ancaq ikisi dinləyici aspektindən maraqlıdır: danışanın diksiyası və nitq etiketləri.

ƏDƏBİYYAT SİYAHISI

1. Abdullazadə N., Xalıqov F. Azərbaycan dili. Bakı, 2006
2. Ağayev F. Azərbaycan dilinin intonasiyası. Bakı, 1978
3. Babayev A. Azərbaycan dili və nitq mədəniyyəti. Bakı, 2015
4. Əliyev K. Nitq mədəniyyəti və üslubiyyatın əsasları, Bakı: Bakı Universiteti, 2001
5. Əfəndiyeva T. Azərbaycan ədəbi dilinin üslubiyyat problemləri. Bakı, 2001

Açar sözlər: nitq, dil, monoloq, dioloq, ünsiyyət, yazılı, şifahi

Ключевые слова: речь, язык, монолог, диалог, общение, письменное, устное
Key words: speech, language, monologue, dialogue, communication, written, oral

Xülasə

Məqalədə şifahi nitqin xüsusiyyətləri və formaları haqqında məlumatlar əks olunb. Dil və nitq eyni bir hadisənin bir-biri ilə qarşılıqlı əlaqədə olan iki cəhəti olmasıda məqalədə qeyd olunub. Nitqin aydınlığı və təsirli ola bilməsi üçün dil, öz növbəsində dilin mövcudluğu üçün nitq zəruridir. Hər hansı dilin sistemini yalnız nitqdəki təzahürünə görə müəyyənləşdirmək olur. Nitq nəinki dili təzahür etdirir, həm də onu inkişaf etdirir, formalaşdırır. Nitq fəaliyyətdə, yəni öz funksiyasını yerinə yetirməkdə olan dildir, nitq aktıdır. Nitqin monoloji və dialoji forması şifahi ünsiyyətin əsas formalarıdır. Monoloq danışanın öz-özünə müraciətlə söylədiyi nitqdir. Monoloji nitq hər hansı müəyyən bir ideya, fikir, məsələn, məlumat, informasiya, xatirə və s. bir nəfərin ardıcıl, rabitəli, geniş və ya qısa nitqi kimi özünü göstərməlidir. Dialoq iki və daha çox şəxs arasında gedən qarşılıqlı söhbətdir. Dialoq replikalardan təşkil olunur. Dialoji nitq, əvvəla, birbaşa reaksiya tələb edir, ikincisi, dialoq danışan şəxslərin emosional-ekspressiv, rabitəli nitq şəraitində baş verir, üçüncüsü, dialoq müəyyən şərait və ya obyektlə bağlı olur.

Характеристики и формы устной речи

Резюме

В статье представлены сведения о коммуникативной функции речи и ее формах. В статье отмечается, что язык и речь - это два взаимосвязанных аспекта одного и того же события. Чтобы речь была ясной и эффективной, язык, в свою очередь, необходим для существования языка. Систему любого языка можно определить только по его проявлению в речи. Речь не только проявляет язык, но также развивает и формирует его. Речь - это действие, то есть язык, выполняющий свою функцию, акт речи. Монологические и диалогические формы речи являются основными формами устного общения. Монолог - это обращенная к себе речь. Речь монолога - это любая конкретная идея, мысль, например информация, информация, память и так далее. он должен представлять собой связную, связную, широкую или короткую речь человека. Диалог - это разговор двух или более людей. Диалог состоит из реплик. Диалогическая речь требует, во-первых, прямой реакции, во-вторых, диалог происходит в эмоционально-выразительной, связной речи говорящих, в-третьих, диалог связан с определенной ситуацией или объектом.

Characterıstıcs and forms of oral speech

Summary

The article contains information about the communicative function of speech and its forms. The article notes that language and speech are two interrelated aspects of the same event. For speech to be clear and effective, language, in turn, is necessary for the existence of language. The system of any language can be defined only by its manifestation in speech. Speech not only manifests language, but also develops and shapes it. Speech is an action, that is, a language that performs its function, an act of speech. Monologic and dialogic forms of speech are the main forms of oral communication. A monologue is a self-addressed speech. Monologue speech is any specific idea, thought, for example, information, information, memory, and so on. it should present itself as a person's coherent, coherent, broad, or short speech. Dialogue is a conversation between two or more people. The dialogue consists of cues. Dialogic speech requires, firstly, a direct reaction, secondly, the dialogue takes place in the emotionally-expressive, coherent speech of the speakers, and thirdly, the dialogue is related to a certain situation or object.

RƏYÇİ: dos. E.Vəliyeva

Yeganə Vasif qızı Qəhrəmanlı[40]

ŞUŞALI DİLÇİ-ALİM

Xalqımıza neçə-neçə ziyalı, tanınmış yazıçılar, ədiblər bəxş edən Şuşanın Azərbaycan xalqının qəlbində özünəməxsus yeri və dəyəri var. XIX əsrdə Şuşada 95 şair, 22 musiqişünas, 38 xanəndə, 19 xəttat, 16 nəqqaş, 11 nüsxəbənd, 4 astronom, 18 memar, 16 həkim, 42 müəllimin olması faktı Şuşanın Azərbaycanın mədəniyyət mərkəzi olduğu fikrini sübut edir. Molla Pənah Vaqif, Qasım bəy Zakir, Yusif Vəzir Çəmənzəminli, Kərim bəy Mehmandarov, Üzeyir Hacıbəyli, Bülbül, Niyazi, Xan Şuşinski, Firudin bəy Köçərli, Əbdürrəhim bəy Vəzirov, Əbdürrəhim bəy Haqverdiyev, Nəcəf bəy Vəzirov, Xurşidbanu Natəvan, Həmidə xanım Cavanşir, Əhməd bəy Ağaoğlu, Münəvvər Rzayeva, Cabbar Qaryağdıoğlu, Lətif Səfərov, Süleyman Sani .Axundov, Ceyhun Hacıbəyli, Lətif Kərimov kimi məşhur ziyalılar Şuşanın yetişdirdiyi şəxsiyyətlərdəndir. Şübhəsiz ki, dövrün tanınmış ziyalıları içərisində görkəmli dilçi-alim, metodist, əlifba islahatçısı, publisist, ədəbiyyatşünas Fərhad Ağazadənin adını xüsusi qeyd etmək lazımdır. Bəlkə ona görə ki, o, digər ziyalılar kimi əsl vətənpərvər olaraq bir yox, bir neçə sahədə çalışıb hərtərəfli və yaradıcı şəxsiyyət olsa da, uzun müddət cəmiyyətimizin həyatında hökm sürən siyasi və ideoloji iqlimin təsirindən diqqətdən kənarda qalmışdı. Onun Azərbaycan elmi-mədəni fikir tarixində əvəzsiz xidmətlərini, çoxşaxəli fəaliyyətini araşdırmaq Azərbaycan elmi, əlifbası və tədrisi işinə töhfələr vermiş görkəmli alimin xatirəsinə ehtiramın ifadəsi, Şuşanın Azərbaycanın həm də elm mərkəzi olduğunun sübutudur.

Azərbycan xalqının zəngin tarixində XX əsrin ilk illəri qədər problemli və ziddiyyətlərlə dolu bir dövr təsəvvür etmək çətindir. Bu əsrin meydana gətirdiyi elmi-mədəni problemlər içərisində dil məsələləri xüsusi yer tuturdu. Ədəbi dilin yazısında əsaslı islahat aparmaq üçün ictimai-siyasi və mədəni zəmin yarandığından bu dövrdə əlifba məsələsi yenidən müzakirə edilməyə başlanır. Bu böyük mübarizə meydanına ilk atılanlardan biri də Fərhad Ağazadə idi.

Fərhad Məşədi Rəhim oğlu Ağazadə "Şərqli" 1880-ci il avqust ayının 12-də Şuşa şəhərində anadan olmuşdur. O, 1893-cü ildə Zaqafqaziya Qori müəllimlər seminariyasının məzunu Camal bəy Fətəlibəyovun Şuşa şəhərində açdığı məktəbə daxil olur və 1895-ci ildə oranı bitirir. Elə həmin il Camal bəyin təşəbbüsü ilə Fərhad Qori müəllimlər seminariyasının hazırlıq sinfinə daxil olur və 1900-cü ildə oranı müvəffəqiyyətlə bitirir. Seminariyanı bitirdikdən sonra 1900-cü ildə Xaçmaz, 1901-ci ildə Şuşa, 1902-1905-ci illərdə isə Gorusda müəllimlik edir. 1905-ci ilin dekabrında F.Ağazadə Bakıya köçürülür və IV rus-müsəlman məktəbində müəllim, 1906-cı ildə müdir vəzifəsinə təyin olunur. 1906-cı il avqustun 1-də "Nicat" maarif cəmiyyətinin yaradılmasında iştirak edir və həmin cəmiyyətin idarə heyətinə üzv seçilir. Məhz burada o, H.Zərdabi, S.S.Axundov, Ü.Hacıbəyov və başqaları ilə tanış olmuş və birlikdə işləmişdir.

Bədii qiraəti sevən, musiqi ilə maraqlanan, hətta seminariyada skripka çalmağı da öyrənən Fərhad Ağazadə hərtərəfli və geniş dünyagörüşünə malik bir şəxsiyyət idi. O, bir tərəfdən dünya klassik ədəbiyyatını mütaliə edir, onu sevə-sevə öyrənir, Şərq ədəbiyyatına maraq göstərir, digər tərəfdən də bir musiqiçi-skripkaçı kimi mərasim və tədbirlərdə iştirak edirdi. "Bu fakt da məlumdur ki, 1908-ci ildə Üzeyir Hacıbəylinin "Leyli və Məcnun" operasının ilk tamaşasında Fərhad Ağazadə skripkaçı kimi iştirak etmişdir" (7). 1908-ci ilin yanvarın 12-də Bakıdakı Tağıyev teatrında göstərilən, nəinki Azərbaycanda, hətta Yaxın Şərqdə ilk opera incisi olan "Leyli və Məcnun"un ilk tamaşasında orkestrdə Əli Terequlov, Ağəli Qasımov, Qaibov, İsmayılov və b. yanası, Fərhad Ağazadə də çalırdılar. 1907-ci ildən Bakıda fəaliyyət göstərən və xalqın maariflənməsində, milli oyanışında mühüm rolu olmuş müsəlman ruhani xeyriyyə cəmiyyəti - "Səadət" cəmiyyəti tərəfindən Bakıda açılmış "Səadət" məktəbində Fərhad Ağazadə, Üzeyir və Ceyhun Hacıbəyli qardaşları, Axund Molla Ağa Əlizadə, Molla Qədir İsmayılzadə, Məmməd Hənəfi Terequlov, Əli Hüseynov, Kərim bəy Məlikov və b. müəllimlik edirdilər. Məktəbin müdiri Əli bəy Hüseynzadə idi. Cəmiyyətin bütün məktəb proqramlarına Fərhad Ağazadə rəhbərlik edirdi. 1909-cu ilin sentyabrından o, "Səadət" cəmiyyətinin məktəbinə müdir müavini təyin olunur və 1920-ci ilə qədər burada çalışır.

Fərhad Ağazadə XX əsrin bütün problemlərinə, eləcə də dil məsələlərinə həmişə mütərəqqi mövqedən yanaşmış, obyektiv olmuş, qabaqcıl ziyalılar cəbhəsində dayanmışdır. 1900-cü ildən pedaqoji fəaliyyətə başlayan F.Ağazadənin 1906-1909-cu illərdəki ictimai və pedaqoji fəaliyyəti geniş vüsət alır. O, "İrşad", "Həyat" qəzetləri və "Dəbistan" jurnalında məqalələri ilə çıxış edir. F.Ağazadə ömrünü ərəb əlifbasının latın əlifbası ilə dəyişdirilməsi uğrunda mübarizəyə həsr etmiş və bu haqda çoxlu məqalələr, dərsliklər və monoqrafiyalar yazmışdır. 200-dən artıq pedaqoji və publisistik məqalənin, onlarca kitabın müəllifi olan Fərhad Ağazadə həm də mənən, ruhən zəngin, dünyanın gözəlliklərindən zövq almağı bacaran, daxilən möhkəm, cəsarətli şəxsiyyət və əsl vətənpərvər idi. Siyasi görüşlərinə görə 1909-cu ildə Həştərxana sürgün edilən Nəriman Nərimanovun arxasınca gedən ilk ziyalılardan biri olmuşdur. Onun səhhətində olan ciddi problemlərə baxmayaraq, əzmlə çalışmış, ömrünün son illərində Azərbaycan SSR EA-nın tarix şöbəsinə rəhbərlik etmişdir. "Məktəb", "maarif", "təhsil" kəlmələrindən istifadə etmədən Fərhad Ağazadənin həyat yolundan, əqidə, amalından, elmi, pedaqoji, publisistik fəaliyyətindən söz açmaq mümkün deyildir. Onun istər çar Rusiyası, istər Azərbaycan Xalq Cümhuriyyəti və istərsə də sovet hakimiyyəti illərindəki fəaliyyəti dediklərimizə tutarlı əsasdır. Fərhad Ağazadənin bütün fəaliyyəti xalqının maariflənməsi üçün idi.

Dilçi-alimin həyatı, ictimai və pedaqoji fəaliyyətini, elmi və ədəbi irsini öyrəndikdən sonra əlifba, dilçilik və metodistlik sahəsində gördüyü işləri aşağıdakı kimi ümumiləşdirmək olar:

[40] Bakı Dövlət Universiteti. yeqana@bk.ru

1. M.F.Axundovdan başlayaraq ərəb əlifbasının latın əlifbası ilə əvəz olunması uğrunda mübarizədə F.Ağazadənin müstəsna rolu var. O, bu yolda ən barışmaz və ardıcıl mübarizə apararaq əməli, praktik tədbirlərlə yanaşı, latın əlifbasını nəzəri cəhətdən təsdiqləyən əsərlərin: 4 kitab ("Nə üçün ərəb hərfləri türk dilinə yaramır?" "Yeni türk əlifba ideyalarının yaranma tarixi və həyata keçirilməsi", "Yeni türk əlifbası layihələrinin unifikasiyası üzrə materiallar", "Yeni əlifba hərəkatının inkişaf tarixi və uğurları haqqında oçerk" və çoxsaylı məqalələrin: "Əlifba tarixində türklərin vəziyyəti" (1919), "Dilimizin türkləşməyinə çarələr" (1919), "Əlifbanın dil yanlışlıqlarına təsiri"(1921), "Əlifba məsələsi Azərbaycanda doğulduğu kimi yalnız orada da həll ediləcəkdir"(1921), "Türk əlifbasını islah etmək olarmı?" (1922), "Türk əlifbasının islahı mümkündürmü?" (1922), "Böyük inqilab və yeni əlifba" (1923), "Yeni əlifbanın Şərqdəki nəticələri" (1927), "Yeni əlifbanın birləşməsi"(1927), "Yeni əlifbanın Şərqdə intişarı" (1927), "Yeni əlifba tarixindən bir parça" (1927) və s. müəllifi kimi çıxış edərək yeni türk əlifbasının tarixini yazmışdır. "Yeni əlifba uğrunda mübarizənin özünü canlı orqanizm kimi təsəvvür etsək, onun bel sütunu Fərhad Ağazadə idi. Zənnimcə, F.Ağazadə kimiləri heç kimlə müqayisə etmək olmaz. Yalnız belələrinin kimliyini görmək, dərk etmək, onların Azərbaycanın mənəvi tarixindəki yerini anlamaq üçün sadəcə, onların həyatlarını yaxşı öyrənmək lazımdır" (5, s. 24)

2. F.Ağazadə bu sahədəki xidmətlərinə görə "Mirzə Fətəlinin ən səmimi davamçısı" (3, s. 8), "yeni əlifba uğrunda hərəkatın liderlərindən biri" (1), "yeni əlifba uğrunda mübarizənin bel sütunu"(5), "Azərbaycan türkcəsinin keşikçisi və qoruqçusu" (6, s. 15), "latın əlifbasının düşmənləri arasında belə bu əlifbanın ən nəhəng nəzəriyyəçilərindən biri" (2), "Azərbaycan dili, Azərbaycan türkçəsinin saflığı uğrunda qeyrətlə, ləyaqətlə döyüşən, mənsub olduğu xalqın dilini onun varlığı hesab edən bir ziyalı" (5), "işinin bilicisi" (4) kimi qiymətləndirilmişdir. Əlifba dəyişdirilməsi məsələsini hər hansı ziyalının adı ilə bağlamaq olmaz. Bunu dövlət həyata keçirməsəydi, mümkün olmayacaqdı. Sadəcə ümumi axında hərənin öz payını müəyyənləşdirmək lazımdır və F.Ağazadə bu axında fərqlənənlərdən, öndə gedənlərdən idi.

3. F.Ağazadənin özünün 1906-cı ildə tərtib etdiyi əlifba layihəsi var idi.

4. Səhhətinin pis olmasına baxmayaraq, əsl milli ziyalı mövqeyindən çıxış edərək F.Ağazadə AYTƏK-in sədri və üzvü, ÜMYTƏK-in və Elmi Şurasının üzvü, Türkoloji Qurultayın fəal iştirakçısı, Azərb.SSR EA tarix şöbəsinin müdiri kimi həmişə bu amal uğrunda fədakarlıqla çalışmış və arzularının gerçəkləşdiyinin - ərəb əlifbasının latın əlifbası ilə əvəz olunmasının şahidi olmuşdur. Ən azı o, Türkoloji qurultayın digər bütün üzvləri kimi, uğrunda canını fəda etdiyi iş üstündə günahkar sayılıb repressiya olunmadı və ölənə qədər ideyalarının, arzularının gerçəkləşdiyini gördü və onların sonradan necə alt-üst olduğundan xəbərsiz dünyadan köçdü Bu baxımdan onu xoşbəxt şəxsiyyət hesab etmək olar.

5. F.Ağazadə Azərbaycan dilçiliyində ən aparıcı alimlərdən biri, dilçiliyimizin yaradıcılarından olmuş, onun formalaşmasında müstəsna xidmətlər göstərmişdir. O, Azərbaycan dilinin praktik problemlərinin (əlifba, fonetika, orfoqrafiya, soz yaradıcılığı, leksika, ədəbi dil) həlli üzərində işləyirdi. Onun nəinki dilçiliyə aid əsərlərində, eləcə də bütün yaradıcılığında qəti, inadlı, heç bir vaxt tərəddüd etməyən, mübariz F.Ağazadə üslubu özünü göstərir.

6. F.Ağazadənin dilçilik görüşləri tam yeni və müasir elmi əsaslarla səsləşməkdədir. Bunu onun bir çox əsərlərində görmək olar. Onun dilimizin müxtəlif sahələrinə aid əsərləri bu gün də elmi əhəmiyyətini itirməmişdir.

7. F.Ağazadə yeni əlifba əsasında dilimizin yeni orfoqrafiya qaydalarını tərtib edənlərin birincisi idi. Onun orfoqrafiya sahəsindəki xidmətləri yeni əlifba uğrunda apardığı işdən heç də geri qalmır. "Türk qrameri"ndə «İmla» bəhsi, "Vahid imlamız olmalıdır", "Qamuslarda iki-üç imla", "Türk adları, ölçüləri və təqvimi", "Türk dili və onun imlası", "Yeni əlifba ilə Şuralar İttifaqının türk-tatar ölkələrinin coğrafi adlar lüğəti tərtib edilməlidir", "İmla qaydalarında ixtisar imkanlarına dair" məqalələri bu məsələyə həsr olunmuşdur.

8. F.Ağazadə "Türk dilində vurğu məsələsi" əsəri ilə Azərbaycan dilçiliyində ilk dəfə vurğu haqda müfəssəl məlumat vermişdir. Əsərdə vurğuya aid bir çox mühüm məsələlərə: Türk dilində vurğu və onun yeri, adi və məntiqi vurğu, fel, feli bağlama, zərfdə vurğu qəbul etməyən şəkilçilər, həmçinin qoşmaların bəzilərində vurğu qəbul etməyənlər və onun səbəbi, vurğusu dəyişməklə mənası dəyişən sözlər və onların yazıda fərqləndirilməsi, mürəkkəb sözlərdə vurğu, xitab və sual əvəzliklərində vurğunun dəyişməsi, vurğu əlaməti və onun ərəb əlifbasında mümkünsüzlüyü, əruz vəzninin türk dilinə təsiri, alınma sözlərdə vurğu, uzun heca, ərəb dilinin hərflərinin türk dilinə və vurğuya təsiri, bəzi sözlərdə iltisaqiliyin pozulması və s.məsələlərə işıq salmış, nəinki öz dövrünün, hətta bugünkü dilçiliyimiz üçün də dəyərli fikirlər söyləmişdir.

9. Azərbaycan dilçiliyində durğu işarələri haqqında ilk məlumat F.Ağazadəyə məxsusdur. Azərbaycan ədəbi dilinin yazısı öz inkişafında bu mərhələni XX əsrin 20-ci illərindən başlayaraq keçmişdir. Burada F.Ağazadə dilimizdə işlənən durğu işarələrinin meydana gəlməsi tarixi, işlənmə məqamı haqda məlumat verir.

10. Ana dilini düşdüyü ağır vəziyyətdən çıxarmaq üçün yollar axtaran F.Ağazadə söz yaradıcılığına aid "Türk dilinin dirilmək və zənginləşdirmək yolları" (tükənəklər) adlı əsəri ilə ilk dəfə - bu sahədə dəyərli tədqiqatlar aparan B.Çobanzadədən qabaq şəkilçiləri (430 şəkilçi) sistemli şəkildə toplamış və «şəkilçi» əvəzinə «tükənək» sözünü işlətmişdir. Bu şəkilçilər türk dilinin söz yaradıcılığında istifadə edildikdə dilimiz ərəb-fars təsirindən uzaqlaşmış olur. Bu əsəri «Türk dilinin dirilmək və zənginləşdirilmək yolları"nda böyük addım hesab etmək olar.

11. F.Ağazadə müsəlman dünyasında istifadə olunan rəqəmlərin əvəzinə indiki Avropa rəqəmlərini, yəni ərəb rəqəmlərini Azərbaycanda ilk dəfə işlətmişdir. Bu barədə özünün "Yeni türk əlifba ideyalarının yaranma tarixi və həyata keçirilməsi" (1926, rus dilində) əsərində məlumat vermişdir.

12. F.Ağazadə ümümxalq danışıq dilini ədəbi dil üçün əsas mənbə hesab edirdi. Bu barədə fikirləri onun "İmla üçün lisani-əsas" adlı əsərində ümumiləşdirilmişdir. Fərhad Ağazadə bu əsərdə imla üçün əsas olan ədəbi dilin quruluşu,

nədən ibarət olması, necə yaradılması, imla hansı prinsiplərlə yazılmalıdır, tələffüz qaydaları, orfoqrafiyası haqda dəyərli məlumatlar vermişdir.

13. F.Ağazadə Azərbaycan dilinin leksik semantikası haqqında "Boyaqların adları başlı-başınamı qoyulmuşdur? (yaxud haradan götürülmüşdür?) Türk filologiyasına doğru balaca basğıc (qədəmə) əsərini yazmışdır. Əlyazma şəklində əski əlifba ilə yazılmış, 29 səhifədən ibarət olan bu əsərdə rənglərin adları və onların hansı sözdən yarandığı, mənşəyi, etimologiyası, dəyişməsi və inkişafı haqda məlumat verir, həmçinin təkcə dilimizdəki rənglərin deyil, həm də həmin sözlərin rus, fars və ərəb dilindəki qarşılığı və onların etimologiyası verilir. Bu baxımdan əsər indi də çox maraqlı və aktualdır.

14. F.Ağazadə 30 illik müəllimlik fəaliyyəti dövründə görkəmli pedaqoq və 7 dərslik müəllifi olan metodist kimi məşhurlaşmışdır. Onun metodikaya aid elmi əsəri olmasa da, F.Ağazadə bir sıra məqalələrində qiymətli metodik mülahizələr irəli sürmüşdür. Onun müştərək müəlliflərlə yazdığı "Əlifba"(1906), «İkinci il» (1908, 1912, 1925), «Ədəbiyyat məcmuəsi» (1912), «Yeni türk əlifbası» (1922), «Zəhmət məktəbi» (1926), «İşçinin II kitabı» (1921), «Savada doğru» (1928) "Türk qrameri" (1929) dərslikləri, "Şəkillərdə hərflər" (1923), «Kubçalar ilə xırda çocuqlara savad öyrədişi» (əlyazma(1923)), «Звуковой или американский метод препадование на новом алфавите?» (1928), «Türk-tatar dillərindəki hərflərin faiz üzrə münasibətini bilməyin lüzumu» (1928), "Məktəb kitabları və istilahları" (1926) məqalələri onu görkəmli metodist kimi tanıdır. «Şəkillərdə hərflər» (Savad öyrədişinə yardımçıdır) adlı məqaləsi (3.07.1923, əlyazma) məktəblərdə əlifbanın şagirdlərə asan öyrədilməsi yollarından bəhs edir.

15. Fərhad Ağazadə uşaq bağçasının böyük qruplarında məktəbdə təhsil almağa hazırlıq prosesinin nəzəri əsasını və metodikasını işləmiş, «Kubçalar ilə xırda çocuqlara savad öyrədişi» adlı məqaləsi ilə uşaq bağçalarında yeni əlifba ilə savad öyrədilməsinin əsasını qoymuşdur.

16. F.Ağazadə əsl vətənpərvər kimi Vətəninin bütün problemlərinə mütərəqqi mövqedən yanaşaraq dövrü mətbuatda müxtəlif hadisələrə, o cümlədən ermənilərin törətdiyi qırğınlara aid çoxsaylı məqalələri ilə dövrünün qəzet və jurnallarında mütəmadi çap olunan görkəmli bir publisist kimi tanınmışdır.

17. F.Ağazadə eyni zamanda dərin biliyə malik olan ədəbiyyatşünas idi. Ədəbiyyatşünaslıq aləmində dilçilikdə qazandığı mövqeyə qalxa bilməsə də, onun bu sahədə "Əkinçi" və ya "Həsən bəy Zərdabinin tərcümeyi-halı" (1926), "Fürudin bəy Köçərlinin bioqrafiyası" adlı dəyərli əsərləri vardır.

18. Tarix və coğrafiyaya aid "Firəngistan" (1915) adlı əsəri də maraqlıdır.

Buna görə də onun həyatı, çoxmiqyaslı elmi və ədəbi irsi tədqiq edilməyə layiqdir. Biz burada F.Ağazadənin demək olar ki, dilçiliyə aid bütün əsərlərini və dərsliklərini nəzərdən keçirməyə çalışdıq. Onun ədəbiyyatşünaslığa aid əsərləri və publisistikası geniş və dərin tədqiqini gözləyir.

Ədəbiyyat

1. Ağayev Ə. Fərhad Ağazadənin pedaqoji görüşləri.Bakı: Maarif, 1987, 122 s.
2. Ağamalıoğlu S. F.Ağazadə haqqında rəyi (7 mart 1929, rus dilində), Fond-515,sax.vahidi 68. AR Milli Arxiv İdarəsi Azərbaycan Dövlət Ədəbiyyat Arxivi.
3. Ağazadə F. Türk dilinin dirilmək və zənginləşdirilmək yolları: tükənəklər; tərt.ed. N. Cəfərov ; Azərbaycanda Atatürk Mərkəzi. Bakı : Nurlan, 2006, 46 s.
4. Çobanzadə B. F.Ağazadə haqqında rəyi (11 mart 1929, rus dilində), Fond-515, sax.vahidi 69. AR Milli Arxiv İdarəsi Azərbaycan Dövlət Ədəbiyyat Arxivi.
5. Xələfli Əli Rza. Fərhad Ağazadə kimin qohumudur? Kredo qəzeti, 16 s. № 27 26.06.2010, № 34, 08.10.2011
6. İsaxanlı İ. Azərbaycanda latın əlifbasında keçid və Fərhad Ağazadə. Xəzər Universiteti Nəşriyyatı, Bakı, 2011, 171 s.

Açar sözlər: Şuşa, Fərhad Ağazadə, dilçi, türk dili, latın əlifbası, metodist, publisist

Key words: Shusha, Farhad Aghazadeh, linguist, Turkish language, latin alphabet, methodist, publicist

Ключевые слова: Шуша, Фархад Агазаде, лингвист, турецкий язык, латинский алфавит, методист,

Xülasə

Bu məqalədə fəal ictimai xadim, görkəmli dilçi, bacarıqlı müəllim, təcrübəli metodist, publisist və yeni latın qrafikalı əlifba uğrunda yorulmadan mübarizə aparan Fərhad Ağazadənin Azərbaycanın mədəniyyət mərkəzi olan Şuşa mühitində müstəsna yeri müəyyənləşdirilmişdir. Həmçinin onun çoxşaxəli irsinə nəzər salınmış, Azərbaycan dilçilik tarixində mövqeyi, təcrübəli metodist və publisist, ümumən görkəmli bir şəxsiyyət kimi rolu haqqında ümumiləşmələr aparılmışdır.

LİNGUİST SCİENTİST FROM SHUSHA

Summary

This article defines the exceptional place of the active public figure, prominent linguist, skilled teacher, experienced methodologist, publicist and tireless fighter for the new Latin alphabet in the Shusha environment of Farhad Agazade. Also, the multifaceted heritage was reviewed, generalizations were made about its position in the history of Azerbaijani linguistics, its role as an experienced methodologist and publicist, as a prominent figure in general.

УЧЕНЫЙ-ЛИНГВИСТ ИЗ ШУШИ

Резюме

В этой статье определяется исключительное место активного общественного деятеля, видного лингвиста, квалифицированного педагога, опытного методиста, публициста и неутомимого борца за новый латинский алфавит в шушинской среде Фархада Агазаде. Также было рассмотрено многогранное наследие, сделаны обобщения о его положении в истории азербайджанского языкознания, его роли как опытного методиста и публициста, как выдающейся фигуры в целом.

RƏYÇİ: dos. S.Abbasova

Səfa Məhəmməd qızı Şərifova[41]

QLOBALLAŞMANIN İNGİLİS DİLİNƏ TƏSİRİ

İngilis dili və onunla bağlı mövzular həm çox aktual, həm də çox genişdir. Müasir dünyamızda baş verən müxtəlif tipli hadisə və proseslər yüz, hətta min illər boyu bir-birindən ayrılıb təcrid olunmuş, parçalanmış, diferensiallaşmış hadisələri - milli, yaxud regional xüsusiyyətləri, vərdişləri, kompleksləri modern texnologiyaların güclü təsiri altında görünməmiş bir sürətlə bir-birinə yaxınlaşdıraraq qovuşdurur.

Hal-hazırda dünyada baş verən heç bir hadisə lokal xarakter daşımır inkişaf edərək digər ölkələrdə də əks-səda verir. Aydındır ki,bu və ya digər hadisənin şərhində həm maddi, həm də mənəvi-ideoloji xarakterli məqsədlər, maraqlar kifayət qədər dərindən iştirak edə bilər, ancaq bu, mahiyyəti dəyişdirmir. Çünki qloballaşmanı səciyyələndirən inteqrasiya, beynəlxalq ünsiyyət heç də həmişə obyektiv nəticələrə gəlməyi nəzərdə tutmur. Onun maraqlı, cəlbedici xüsusiyyətlərindən biri də elə budur ki, müxtəlifliklər, fərqliliklər bir araya gətirməklə yanaşı diskussiyalara, müxtəlif maraqların özünümüdafiəsinə və konyukturlara da geniş meydan açır.

Qloballaşma, hər şeydən əvvəl, beynəlxalq ünsiyyətin durmadan miqyaslanmasını tələb edir ki, bu da "insanlar arasında ən mühüm ünsiyyət vasitəsi" (V.İ.Lenin) olan dilin (əslində, dillərin!) təbiətinə əhəmiyyətli dərəcədə təsir edir. Bu gün dünyada mövcud olan yüzlərlə dildən yalnız bir neçəsi beynəlxalq statusa və ya nüfuza malikdir ki, bunlar ingilis, fransız, alman, ispan, Çin, ərəb, rus və s. dillərdir. Həmin dillərin içərisində isə ingilis dilinin xüsusi mövqeyi vardır. Müasir dünyada, o cümlədən də Azərbaycanda (Azərbaycan Respublikasında) ingilis dilinin nüfuzunun sürətlə artması müşahidə olunur ki, bunun ən azı iki səbəbi mövcuddur:

1) dünyada ümumi bir ünsiyyət vasitəsinə (dilə) getdikcə güclənən ehtiyacın olması;

2) belə bir ehtiyacı ödəmək üçün digər nüfuzlu dillərlə müqayisədə ingilis dilinin üstünlükləri.

Bu gün dünyanın dil mənzərəsi rəngarəng və zəngin olsa da, hərtərəfli qloballaşma bu mənzərəyə çox ciddi təsir göstərir (1).

Dünya alimlərinin araşdırmalarına əsasən XXI və XXII əsrlərdə dünyada mövcud olan 6417 dildən hər il bir çoxu ölüb aradan çıxacaq.Buna səbəb isə həmin dillərdə danışan insanların sayının get-gedə azalması və yaxud da yalnız ailə ortamında işlənməsi olacaq.

Alman alimi H.Haarman da qeyd edirdi ki, elmin və texnikanın, ölkələr arası iqtisadi və sosial münasibətlərin inkişafı zaman keçdikcə dünyada mövcud olan dünya dillərinin 40 % aradan çıxaracaq. Alman Dili Cəmiyyəti 2008-ci ildə "Almanlar öz dilləri və xarici dillər haqqında nə düşünürlər?" mövzusunda sosial sorğu keçirib. Sorğunun əsas məqsədi Avropa İttifaqında işlənən dillərin hansı dillər olduğunu və ilk növbədə də Alman dilinin mövqeyini oyrənmək idi. Sorğunun nəticələri çox maraqlı alındı.Belə ki, sorğuda iştirak edənlərin 13 % -i Avropada vahid dil olmasına səs versə də, səs verənlərin 11 %-i ingilis, 2 %-i isə alman dilini seçib. Resipientlərin 9 %-i heç bir dildə seçim edə bilməyib. Sorğuda iştirak edənlərin 78 %-i Avropada dillərin saxlanılmasına səs verib və ¼ %-i Avropada vahid dilin – ingilis dili olması üçün səs vermişlər.Bu meylin günü-gündən güclənməsi sorğunu keçirən Cəmiyyətin həyəcan təbili çalmasına səbəb olur ki, alman dili get-gedə Avropada sıxışdırılaraq bir dialektə çevrilə, ya da ölüb gedə bilər.

Qeyd etmək yerinə düşər ki, dillərlə bağlı gələcək haqqında dəqiq öncəgörmə vermək o qədər də asan deyildir. Uzun müddətdir ki, dünyada təkdilliliyə meyil güclənməkdədir (2).

Danılmaz faktdır ki, dünyada öz soykökərindən ayrı düşən milyonlaral insanlar var. Bugünkü milli dövlət anlayışı daha çox respublika layihəsinə oxşayır. Son illərdə ABŞ-da gedən proseslər bunu açıq-aydın göstərir. ABŞ da daxil olmaqla dünyanın bir çox yerlərində də, yalnız ana dilindən istifadə edən milli dövlət sayı çox azdır. Bu gün Azərbaycanda ən azından 10-15 dildə danışılır, Almaniyada bu rəqəm 100-ə bərabərdir. Ola bilsin ki, bu gün ana dili və ata yurdu anlayışları artıq köhnəlmiş hesab olunur.Bu həm də çoxdilliliyin artıq bir normaya çevrildiyini göstərir. Bu gün Avropa eyniliyi, milli eyniliyi daha çox üstələyir. Avropa Birliyi bir və ya ikidilliliklə (ingilis və fransız dilləri) vahid şəkildə nə vaxta qədər dözə biləcək? İngilislərin bu mənada qayğısız görünməklərinin əsas səbəbi onların dilinin dominantlıq təşkil etməsidir.

İngilis alimi D.Kristal "İngilis dili qlobal dil kimi" əsərində (2002, s. 57-60) yazırdı ki, dünyanın 70-dən çox ölkəsində ingilis dili rəsmi dil statusu qazanıb. Onun fikrinə görə dünya əhalisinin 2 milyardan çoxu ingilis dilindən ünsiyyət vasitəsi kimi istifadə edir. Onlardan 1,4 milyardı bu dildən birinci dil kimi, 735 milyona qədəri isə ondan ikinci dil kimi istifadə edir. İngilis dilindən xarici dil kimi istifadə edənləri də buraya əlavə etsək görərik ki, dünya əhalisinin yarısı ingilis dilində danışır.

Qloballaşma vahidliyin mühüm amillərindən biridir. İngilis dilinin dünya dili statusuna qalxmasının əsas amillərindən biri qloballaşma ilə bağlıdır. Xüsusi olaraq qeyd etmək lazımdır ki, qloballaşmanın əks təsiri də olur. Xırda xalqlar heysiyyət məsələsini ortalığa ataraq milli məhdudiyyəti hər cür əsaslandırmağa, dili milli kimliyin simvoluna çevirməyə çalışırlar. Bu isə öz növbəsində yeni dillərin meydana gəlməsinə səbəb ola bilər.

Professor F.Veysəlli ingilis dilinin dünyadakı hegemonluğunu bu cür qiymətləndirir: "... qloballaşma şəraitində ingilis dilinin hökmranlığı bu dilin anası sayılan ABŞ-ın və Böyük Britaniyanın iqtisadi, siyasi və hərbi vasitələrdən istifadə etməklə həmin dilin qəbul etdirilməsinə gətirib çıxardır ki, bununla da başqa xalqların dillərinə və mədəniyyətlərinə öldürücü zərbə dəymiş olur". Əslində bu ingilis dilinin uğuru hesab edilməlidir. O qeyd edir ki, "indi gənclər qrammatikaya

---

[41] BDU-nun ingilis dili (humanitar fakültələr üzrə) kafedrasının müəllimi

və tələffüz qaydalarına fikir vermirlər. Danışanda elə bil saqqız çeynəyirlər. Onların dilində sms, top, hot, super, hendi, mobil, çat, download, portal, webside kimi yüzlərlə söz işlənir ki, heç onların fərqinə varmırlar. Bu sözlər qlobal dilin digər dillər üzərində aşkar qələbəsidir.

Professor F.Veysəllinin həyəcanlarını başa düşmək o qədər də çətin deyil... Qloballaşan dünyanın ümumünsiyyət vasitəsinə çevrilən ingilis dili, doğrudan da, ərəb, alman və ya fransız dili qədər dil- təfəkkür dahiləri yetirməmişdir. Lakin nəzərə almaq lazımdır ki, ingilis dilinin olduqca çevik, işgüzar, müasir dünyanın nəbzini tutan "polifoniya"sı, "diplomatiya"sı onunla konkurensiyaya girə biləcək heç bir beynəlxalq dildə yoxdur.

Vaxtilə Ferdinand de Sössür dili dəb-moda ilə müqayisə edirdi. Və doğrudan da, dil ünsiyyət vasitəsi kimi müxtəlif ədalardan (hətta ədabazlıqlardan!), müasir görünmək "stilizasiyalar"ından məhrum deyil. Ona görə də nə qədər "dağıdıcı" olursa olsun dünyanın ikinci, üçüncü və s. dərəcə - səviyyəli dillərinə müəyyən "anomaliyalar"ın az və ya çox daxil olmasına hər halda təbii baxmaq lazımdır. Bir də ona görə ki, həmin "anomaliya" - neologizmlər elə ingilis dilinin özü üçün də tarixi hadisə deyil, tamamilə yenidir... Və başqa dillərə "dağıdıcı" təsir edən nitq xüsusiyyətlərinin yalnız ingilis dilinin təbiətindən irəli gəldiyini güman etmək də düzgün olmazdı, çünki beynəlxalq ünsiyyət vasitəsinə çevrilən hər hansı dil tədricən, mənsub olduğu xalqın və ya millətin mental səlahiyyətlərinin coğrafiyasından kənara çıxmaqla transmilli əlamətlər qazanır.

Professor F.Veysəllinin "bu gün özümüzdə istehsal olunan məhsullara və ya öz düşüncəmizə uyğun şeylərə xarici adların verilməsi heç cür başa düşülən deyil. "Bonaqua, Nightbar, supermarket, medical club, Talkshow? Job Center? Service Point" kimi bildiriş xarakterli sözlərə nə ehtiyac var, görəsən?" sual-etirazı da maraq doğurmaya bilməz. Lakin nəzərə alsaq ki, bütün bunlar, nə qədər paradoksal olsa da, qloballaşmanın tələbindən (və təbii olaraq!) irəli gəlir, onda professorun bu həyəcan- etirazı da, çətin ki, özünü doğrultsun və ya ağrılı qəbul edilsin. Ancaq fakt faktlığında qalır. Bu gün İngilis dili vahid lidere çevrilməkdə davam edir. Çünki qloballaşma milli dillərə və ümumən mədəniyyətlərə, birinci növbədə, paradokslarla daxil olur, ziddiyyətlər, görünən və ya görünməyən qarşıdurmalar yaradır.

İngilis dilinin gələcəyi və inkişafı dünyada baş verən qloballaşmadan da asılıdır. Çünki, dünyada gedən iqtisadi, mədəni, siyasi hadisə və inkişafların dilə təsirinin qarşısını almaq mümkün deyil. İnsanlar qlobal olmayan dilləri öyrənməyə, ondan hər yerdə istifadə etməyə o qədər də maraq göstərmirlər. Heç bir millətin üzvləri özləri öz dillərinə belə o qədər maraq göstərmirlər.

İllər öncə bütün Hindistan (qədim dünya mədəniyyətinin beşiklərindən olan nəhəng bir ölkə) Böyük Britaniyanın müstəmləkəsi olduğundan ingilis dilini öyrəndi. Və həqiqət naminə etiraf etmək lazımdır ki, bu, ölkənin yüksəlişinə əhəmiyyətli təsir göstərdi. Bu gün də göstərməkdədir... Lakin məşhur zarafatda deyildiyi kimi, bir ingilis bir hindliyə lağ edəndə ki, siz bizim müstəmləkəmiz olmusuz, hindli qürurla cavab verir: biz də sizin dilinizi öz müstəmləkəmizə çevirdik, onunla necə istədiksə o cür də davrandıq.

Bu gün hər hansı bir ölkədə restoranda ingiliscə yaxşı bilən iddialı bir qarsona ingilis dilində yemək və ya qəhvə sifariş verəndə bir neçə dəfə özünü eşitməməzliyə vurursa, buna da təbii baxmaq lazımdır.

Keçən əsrin 50- ci illərində dilin "bazis", yaxud "üstqurum" olub - olmaması ilə bağlı sovet müzakirələri də göstərdi ki, dil xüsusi hadisədir; onu nə "bazis", yəni iqtisadi- maddi xarakterli, nə də "üstqurum", yəni mənəvi- etnoqrafik xarakterli təsisatlara aid etmək olmaz. Lakin bütün dünya üçün ümumi- universal olan səhv təsəvvürlər dili həmişə mənəvi- etnoqrafik (mədəni!) hadisələr sırasına daxil etməklə özünü çıxmaza salmışdır. Qloballaşma isə, onun tərəfdarlarının, yaxud əleyhdarlarının nə düşünüb - düşünməmələrinə baxmayaraq, mövcud anlayış- təsəvvürlərə analitik izah tələb edir; elə bir izah ki, orada yalnız bir metodoloji istinad mənbəyi var, o da insanın taleyidir.

Professor F.Veysəlli, tamamilə doğru olaraq, qeyd edir ki, "beynəlxalq səviyyədə qlobal dil siyasətinə qarşı təkcə sayca az olan millətlərin nümayəndələri mübarizə aparmırlar. Sayca yüz milyonlarla adamların danışdığı alman, fransız, ispan, rus və s. dillərin təmsilçiləri də mübarizəyə qoşulduqlarını elan edirlər (5).

Lakin heç bir mübarizə qloballaşan dünyada ingilis dilinin hər gun daha da lider dilə çevrilməsinə mane ola bilmir. Bunun isə əsas səbəbi bu dilin sahibi hesab edilən iki nəhəng dövlətin günü-gündən hökmran davranışının artmasıdır.

İstifadə edilmiş ədəbiyyat

1. ADU. Dilçilik Ensklapediyası. Bakı 2006
2. https://www.facebook.com/www.gulf.az/posts/520197311339551
3. http://xalqqazeti.com/az/news/news/60070
4. Khazar University English Language And Literature Department. Course Syllabus. Baku 2012.
5. http://www.veyselli.com/10.htm

Açar sözlər: inkişaf, ingilis dili, müasir texnologiya, beynəlxaq dil,xarici dil

Keywords: a foreign language, modern technology, the English language, international language, development.

Ключевые слова: иностранный язык, современные технологии, английский язык, международный язык, развитие

Xülasə

Məqalədə ingilis dilinin dünyadakı rolu və bu dilin sabahının dünyada gedən ictimai, sosial, iqtisadi və mədəni hadislərdən birbaşa asılı olduğu göstərilmişdir. Dünyada baş verən bütün növ iqtisadi, mədəni, siyasi inkişafın dilə təsirinin qarşısını almaq mümkünsüz olduğu hər birimizə aydındır. Dünyada baş verən inkişafdan və dəyişikliklərdən asılı olaraq insanlar lazımsız və az istifadə olunan dilləri öyrənməyə, ondan ictimai yerlərdə istifadə etməyə cəhd etmirlər. İngilis dili isə

uzun illər liderliyini qoruyub saxlamış və istifadə coğrafiyasını genişləndirməklə dillər sırasındakı liderlik mövqeyini qoruyub saxlamışdır.

The impact of globalization on the English language

Summary

This article shows the role of the English language and the future of this language directly depending on the social, economic and cultural events taking place in the world. It is clear to us that it is impossible to prevent the influence of all kinds of cultural, economic and political development on language. Depending on the development and changes taking place in the world, people do not try to learn unnecessary and little-used languages and use them in public places. The English language has maintained its leadership and position among languages for many years by expanding the geography of its use.

Влияние глобализации на английский язык

Резюме

В данной статье рассматривается роль английского языка в мире и будущее этого языка полностью зависит от социальных, экономических и культурных событий, происходящих в мире. Всем ясно, что невозможно предотвратить влияние всякого рода экономического, культурного, и политического развития на язык. В зависимости от развития и изменений, происходящих в мире, люди не пытаются учить ненужные и малоиспользуемые языки и использовать их в общественных местах. Английский язык уже много лет сохраняет свое лидерство и лидерские позиции среди языков за счет расширения географии своего использования.

RƏYÇİ: dos. L. Ələkbərova

Р. Г. Багиров[42], С.Т. Исмаилова

ИЗОБРАЖЕНИЕ АЗЕРБАЙДЖАНСКИХ ПАМЯТНИКОВ КУЛЬТУРЫ И АРХИТЕКТУРЫ В РУССКОЙ ПОЭЗИИ

(толкование легенды о Девичьей Башне русскими писателями).

Веков кровавый свет в тебе,
Года торжеств и бед в тебе,
Неизгладимый след в тебе
Тех лет, Девичья башня…
(Расул Рза)

Девичья башня (Гыз Галасы) – самый известный исторический памятник не только Баку, но и всего Азербайджана.

Многие века Девичья башня была, и остается, символом Баку, а с 2000 года включена в список объектов Всемирного наследия ЮНЕСКО. Тем не менее, несмотря на такой интерес, о ней самой мало что известно.

С давних времен главная достопримечательность Баку окутана множеством тайн, историй и легенд, которые перерастают друг в друга и передаются из поколения в поколение, а историческая наука не может точно идентифицировать даже дату ее постройки. Ученые-археологи выдвигали несколько версий причин строительства и использования этого уникального сооружения азербайджанского зодчества, не имеющего аналогов на Востоке:

1. Зороастрийский храм.
2. «Башня молчания» (Дахма).

На крыше таких башен огнепоклонники выставляли тела умерших на растерзание птиц.

3. Астрономическая обсерватория древности.
4. Сторожевая или сигнальная башня.
5. Маяк
6. Неприступная оборонительная крепость (название интерпретируется, как «Девственная башня», т.е. ни разу не покорившаяся врагу).

Историки придерживаются именно этой версии, несмотря на красивые легенды.

Многие легенды появились от слова «дева», и самая распространенная из них – сказание о шахе и его дочери. Отец собирался выдать ее замуж за человека, которого она не любила. В некоторых версиях – шах сам решил жениться на своей дочери. Она попросила отца построить башню и отложить свадьбу до окончания строительства, надеясь, что шах изменит свое решение. Но когда башня была возведена, девушка поднялась на нее и бросилась оттуда в море.

Есть версия другого финала этой истории – у девушки был возлюбленный, который убил шаха за смерть девушки. Но оказалось, что она не погибла, ее спасли русалки, и с тех пор влюбленные не расставались.

Сюжет легенды о дочери взят за основу первого немого фильма, снятого в Азербайджане. По этой истории известный композитор Афрасияб Бадалбейли в 1940 году создал первый балет в

Азербайджане «Легенда о любви» (по сути это был первый балет на мусульманском Востоке).

В народе всегда ходила легенда, написанная в стихах:

У любви одна дорога,
И ведет она к страданью.
Лейла юношу любила,
Но не ровню на беду.
И во гневе старцы рода
Предали ее изгнанию,
Чтоб любовь свою забыла
И смирила сердца стук.
Ее отец воздвигнул башню
Из камней глухих и серых.
Неприступна башня в море,
Без единого окна.
Лейла плакала на башне,
Песнь любви, как лебедь пела,
И из глаз сочилось горе,
Гребень слез несла волна.
И однажды в час прибоя,
Когда волны бились в камень,
Когда ночь плыла, качаясь
Черной бездною без звезд,

[42] Проф. БГУ

Лейла птицею ночною,
Тонкими взмахнув руками,
С криком бросилась, отчаясь,
В пену моря с башни слез…

Этой легенде посвятили свои стихи и поэмы многие азербайджанские и русские известные и малоизвестные поэты, давая различные интерпретации этой истории: Джафар Джабарлы, Расул Рза, Мирза Петр, Патканов Павел, Ларский Михаил, Красик Эльвира, Юрканская Анна, Фоменко Владимир, Лисакович Сергей, Элизабет Тюдор и др.

У каждого из названных писателей своя история любви, причина строительства башни и место ее расположения, хотя неоспоримо одно, о стены башни плескался седой Каспий (Хазар).

Наиболее известна и близка народному дастану поэма Джафара Джабарлы «Девичья башня». По этой причине, рассматривая произведения русских писателей, посвященных этой истории любви, на наш взгляд уместен был бы сопоставительный анализ некоторыхиз них с поэмой Джафара Джабарлы, поскольку причины, имена и некоторые другие детали конфликта разнятся здесь. В одних произведениях девушку полюбил, вопреки шариату отец-хан, в других девушка полюбила парня-неровню и по этой причине отец заточил ее в башне.

Если у Джафара Джабарлы шах Кантемир влюблен в собственную дочь Дурну:

…Но, увы, не отцовской любовью
Любит дочь свою хан Кантемир…
Но хотя шариата страшится
И аллаха могучего кар,
Пусть и власти, и чести лишится
Лишь бы в сердце угаснул пожар… (1, 18)
…Я еще никому не сдавался,
Предо мной же склонялся весь мир… (1,29)
…Бился с гибелью, в пламя кидался,
Пил не воду, а кровь Кантемир.
…И не думай, что горькие годы
Кантемира согнули Дурна… (1,29)

То у Владимира Фоменко хан Бакыхан влюблен в красавицу Пери, сердце которой принадлежит другому:

О красавице Пери легенды слагали
Как зарница Востока красотою слыла.
Ей бакинские ханы подарки дарили,
Но она Неприступной в любови была!
Грозный хан-бакыхан, с волей тверже кристалла.
В чьем гареме красавиц не счесть,
Пожелал чтобы Пери в короне блистала
И ему отдала свою девичью честь.
Чтоб дух Пери сломить и о милом забыть
Хан дал страже приказ их на век разлучить…
Но для Пери угроза совсем не страшна,
Она клятве любимому другу верна!...(6)

У Анна Юрканской героиню зовут Лейла (видимо стереотип несчастной любви Лейли и Меджнуна из азербайджанской классической поэзии и здесь имел место):

У любви одна дорога, и ведет она к страданью.
Лейла юношу любила,
Но не ровню на беду.
И во гневе старцы рода
Предали ее изгнанью… (5, 10)

Как мы уже отмечали, причина строительства башни у названных писателей также разнится, хотя цель везде одна – заточение. У Джафара Джабарлы красавица Дурна просит построить башню, для того, чтобы живя там, вдалеке от людских глаз, скрыть свой позор, вызванный подлым желанием родного отца:

Распрямилась Дурна наконец,
Губы сжала и быстрым движеньем
Обернулась: - Послушай, отец!
Нынче выскажу слово прямое.
Оборвалось меж нами родство…
…Я противиться страсти не буду:
Пусть узнает весь мир наконец,
Что предался преступному блуду

С низкой дочерью подлый отец… (5, 38)
- Слушай, хан! – продолжает Дурна,
Мною хочешь владеть ты, я знаю,
И тебе я останусь верна…
…Только- просьба! Ее ты исполнишь;
Если искренно любишь меня… (5, 40)
…Чтоб людская молва и злословье
Обнажить мой позор не могли,
Схорони за могучей оградой
От укоров тупой клеветы… (5, 40-41)
…Так исполни ж любимой желанье!
Видишь этот залив впереди?
Для возлюбленной гордое зданье
В этих синих волнах возведи…
Пусть таинственной «Девичьей башней»
Именуется здание то! (5, 41)

В поэме Владимира Фоменко причина строительства, несколько иная. Красавица Пери, зная, что желание грозного Бакы-хана «тверже кристалла», пытаясь отложить сроки свадьбы, просит его построить для нее башню:

Чтоб в любовной игре обыграть бакы-хана,
Свадьбы пир отложить на года,
Пери просит построить, высокую башню,
Символ чистой любви на века! (6)

В «Легенде о Девичьей башне» Анны Юрканской причиной возведения этой башни является желание отца Лейлы отдалить ее от возлюбленного:

Чтоб любовь свою забыла
И смирила сердца стук.
Ей отец возвигнул башню
Из камней глухих и серых.
Неприступна башня в море,
Без единого окна… (5, 15-16)

Наконец кульминация и развязка этой трагедии - смерть героини этого сказания о любви у всех вышеназванных авторов описана по-разному. Вот как описывает гибель главной героини ДжафарДжабарлы:

И, кровавым зрачком пламенея,
Хочет двинуться к ней Кантемир.
И Дурна встрепенулась, как птица,
Оглянулась пугливо кругом…
…Вот она на краю парапета
И глядит с сокрушением вниз. (1, 59)
…Так прощай же, земля дорогая,
И прощай, башня девичья, ты!
И, кудрями лицо закрывая,
Кыз бросается вниз с высоты. (1, 61)

Если в поэме Джафара Джабарлы героиня – Дурна погибает во имя избежания свадьбы, то у Владимира Фокина Пери бросается с башни уже непосредственно во время свадебной процедуры:

Срок пришел. Диво-башня над морем восстала.
На вершине ее вся восточная знать собралась,
От свадебных подарков вся Башня блистала,
От ашугов, в мугамах, хвалебная песня лилась!...
…К восхищенью гостей Пери в танце блистает,
К краю башни все ближе, она под фатой,
В своей песне зовет и Хазэр отвечает,-
Бьет о Башню, в подножье, могучей волной!
И на этот призыв Пери в бездну шагает
И Хазэр Дэнизи принимает волной,
Нежно, с лаской он в волнах ее укрывает,
Каспий дал ей навеки любовь и покой. (6)

У Анны Юрканской героиня – Лейла бросается с башни от безысходности, потеряв надежду воссоединится с возлюбленным:

И однажды в час прибоя,
Когда волны бились в камень,
Когда ночь плыла, качаясь
Черной бездною без звезд,
Лейла птицею ночною,
Тонкими взмахнув руками,
С криком бросилась, отчаясь,
В пену моря с башни слез. (5, 16)

В этих трех рассмотренных поэмах три разные истории, но одна трагическая судьба героини, вызванная глубоким чувством любви и верности.

Красивая и увлекательная легенда, описанная в поэмах, разбивается о камни правды и истории. По-разному она описана, но главное, она связана со значением слова Дева – девственно чистая и неприступная. И по этой причине, сегодня, став символом великой любви и верности, она стала местом паломничества многих девушек, которые, будучи невестами, приносят цветы к подножию этой башни.

Список использованной литературы.

1.Джафар Джабарлы. Девичья башня. (Перевод с азербайджанского Б.Брик). Баку: Азербайджанское Государственное издательство, 1937, 62с.
2.Ларсский М. Девичья башня. (Восточная легенда). Поэма. Баку: Азербайджанское Государственное издательство, 1925, 48с.
3.Мирза П. На бакинские темы. Лирика. Баку, 1910, 60с.
4.Патканов П. Девичья башня. (Кыз-кала). Поэма. –Кавказский вестник, 1905, № 4.
5.Юрканская А. Цвета радуги. Стихи. –М. ОАО «Оригинал», 1996, 240 с.
Интернет ресурсы.
6.https: // stihi.ru 2011/07/09.

Резюме

Азербайджан обладает богатым культурно-архитектурным наследием. Одним из таких исторических памятников культуры является Девичья Башня.

Девичья Башня (Гыз Галасы) была и остается символом столицы Азербайджана – Баку. И этому символу было посвящено немало поэтических творений не только азербайджанских, но и русских поэтов. В их ряду такие известные и малоизвестные поэты как В. Мануйлов, С. Обрадович, В. Маяковский, Т. Толстая–Вечорка, П. Мирза, М. Ларский, Э. Красик, А. Юрканская, В. Фоменко, С. Лисакович, Э. Тюдор, М. Валео и др.

В данной научной статье анализируются жанрово-стилевые особенности стихотворений русских поэтов, посвященных символу Баку – Девичьей Башне.

Ключевые слова: Баку, архитектурные памятники, Ичери Шехер, Девичья башня, Дж. Джабарлы, Вл. Фокин, А. Юрканская.

Summary

Azerbaijan possesses a rich cultural and architectural heritage. One of such historical monuments of culture is the Maiden Tower.

The Maiden Tower (Giz Galasy) was and still is the symbol of Baku, the capital of Azerbaijan. There are many poetic works dedicated to this symbol not only by Azerbaijani, but also Russian poets. Among them are such famous and little-known poets as V. Manujlov, S. Obradovich, V. Mayakovsky, T. Tolstaya-Vechorka, P. Mirza, M. Larsky, E. Krasik, A. Yurkanskaya, V. Fomenko, S. Lisakovich, E. Tudor, M. Valeo, etc.

This scientific article analyzes the genre and stylistic features of the poems of Russian poets dedicated to the symbol of Baku - the Maiden Tower.

Keywords: Baku, architectural monuments, Icheri Sheher, Maiden Tower, J. Jabarli, V. Fokin, A. Yurkanskaya.

RƏYÇİ: dos. E.Vəliyeva

Bənövşə Məmmədova[43]

A.S.BAYETTİN DİL KİMLİYİ VƏ KREBB ROBİNSON "MASKASI": MƏTN "MİSTİFİKASİYASI" TEXNOLOGİYASINA DAİR

Müasir Britaniya ədəbiyyatının ən görkəmli nümyəndələrindən sayılan Antonia Syuzan Bayettin 1990-cı ildə işıq üzü görmüş olan və elə həmin ildə nüfuzlu Buker mükafatına layiq görülmüş "Possession: A Romance" romanı dil kimliyi probleminin tədiqiqi baxımından, xüsusilə də bu və ya digər dil şəxsiyyətinin fərqli "nitq maskası" (və ya "müəllif maskası") "taxmasının" mexanizmlərinin izlənilməsi baxımından maraqlı araşdırma materialı təşkil edir. Əsərin rizomatik strukturlu mətn "montajı" knstruksiyasında iki Britaniya ədəbiyyatının tədqiqatçısının (Roland Michell və Maud Bailey) iki ingilis ədəbiyyatı "klassikinin" (Randolph Henry Ash və Christabel LaMotte) məktublaşmalar, gündəlik yazıları əsasında bərpasına istinad edir.Məktublarda və eləcə də gündəliklərdə real və irreal hadisələrin pərcimlənmiş formatda təqdim edilməsi A.S.Bayettin mətn strukturlaşmasındakı strateji məqsədinə xidmət edir: oxucunu bu hadisələrin və belə bir iki ingilis "klassikinin" mövcudluğuna inandıraraq müvafiq müəllif "oyununa" cəlb etmək, təhkiyə labirintinə salmaq. Məsələn, əsərdə Roland Mitçellin oxuduğu gündəliklərdən biri Kreb Robinsona (Crabb Robinson) məxsusudur. Xatırladaq ki, bununla yanaşı romanda daha üç şəxsin: baş qəhrəmanın həyat yoldaşı Ellen Padubun, Blanş Persşettin (Blanche Glover), Sabina de Kerkozun (Sabine de Kercoz) gündəliyindən geniş iqtibaslara yol verirlir. Real olanla irreal olanın çuğlaşması sanki işıq və kölgənin "oyunu" kimi çox uyarlı gerçəkləşdirilmişdir. Belə ki, bu dörd nəfərdən biri Britaniya ədəbiyyatı tarixinin real personajıdır. Henry Crabb Robinson (1775-1867) [1] həqiqətən də Britaniya ədəbi-mədəni elitası ilə sıx təmalara malik olub uzun illər William Blake, Coleridge, William Wordsworth, Charles Lamb, və başqaları ilə münasibətlərinin, söhbətlərinin əksini tapdığı gündəliklər tutmuşdur Onun gündəlikləri (Diary, Reminiscences and Correspondence) ölümündən sonra 1869-cu ildə işıq üzü görmüşdür. Maraqlısı odur ki, oxucusunu intellektual "oyuna" cəlb edən müəllif müəyyən mənda"mistifikasiya maskası"nı taxmaqla Robinsonun üslubunu tam mənimsəyir və bilavsitə Robinsonun dil kimliyinə uyğun olaraq, yəni onun "müəllif maskası"nı istifadə edərək gündəliklərinə "əlavələr edir".

Epiqrafik və "əlavə olunmuş" mətnlərin (gündəlik və məktubların) A.S.Bayettin adıçəkilən romanında müəllif üslubu ilə uyarlılıq səviyyəsini dəyərləndirmiş M.Y.Samuylova Ronald Mitçellin üzərində işlədiyi Robinson gündəliyinin bədii mistifikasiya olduğunu, bu hissələrin müəllifə vacib olan informasiyanı əks etdirdiyini qeyd etmişdir. M.Y.Samuylov A.S.Bayettin əsas kimi real sənəddən istifadə etdiyini, Robinsonun üslubunu və qeydlər aparma tərzini saxlamaqla bədii müstifikasiyaya yol verdiyini vurğulamışdır [2 , s.18]. Sözsüz ki, artıq tərəfimizidən də qeyd edildiyi kimi, dərin ədəbiyyat tarixi bilicisi kimi A.S.Bayett Krebb Robinson gündəliklərindən xəbərdar idi və onun üslubunu müvəffəqiyyətlə mənimsəmişdir. Bu məqamda biz, şübhəsiz ki, M.Y.Samuylova ilə razılaşırıq. Lakin M.Y.Samuylova Robinsona istinadən verilən bütün hissəslərin Bayett qələmindən çıxdığını önə sürərkən yanılır: təqdim edilən mətn parçaları sırf "bədii mistifikasiya" olmayıb, intertekt formatını da təcəssüm etdirir. Belə ki, aşağıda izləyəcəyimiz kimi, Bayett bəzi abzasları eynilə sista şəklində təqdim etməklə "gündəliklərin" autentiklik əmsalını yüksəltməyə çalışmışdır.

"*I early found that I had not the literary ability to give me such a place among English authors as I should have desired; but I thought that I had an opportunity of gaining a knowledge of many of the distinguished men of the age, and that I might do some good by keeping a record of my interviews with them.*" [3, s. 28]

Bu hissə olduğu kimi götürülüb, yəni allyuziyanın tam sitat növünə aid edilə bilər. Müqayisə edək: *I early found that I had not the literary ability to give me such a place among English authors as I should have desired; but I thought that I had an opportunity of gaining a knowledge of many of the most distinguished men of the age, and that I might do some good by keeping a record of my interviews with them* [4]. Bu iqtibas hissəsi romandakı birbaşa Ribinson (orijinal) gündəliyi sitatı olan kimi fakt deyil və irəlidə bir daha təkararlanır[44]. Məhz real iqtibas faktları L.A.Bertoldi tədqiqatçıların və digər Krebb Robinsonun gündəliklərini intertekst mənbəyi kimi qeyd etməsinə yol açmışdır [5]. Əks halda sadəcə olaraq, real müəllifin adından yazılmış mistifikasyon mətn kimi səciyyələndirməsilə razılaşmaq olardı.

My breakfast party *went off* very well indeed, as far as talk was *concerned. I* ***had with me Bagehot, Ash, Mrs Jameson, Professor Spear, Miss LaMotte*** and her friend ***Miss Glover***,	After ***my breakfast*** I ***accompanied Mr. Wordsworth, Mr. Hutton, and a Mr. Smith*** to look at some fields belonging to the late ***Mr. Wordsworth***, fand which were to be sold by

[43] **Azərbaycan Dillər Universiteti.** benovshem.m@gmail.com

[44] *Were this my last hour (and that of an octogenarian cannot be far of) I would thank God for permitting me to behold so much of the excellence conferred on individuals. Of women, I saw the type of her heroic greatness in Mrs Siddons; of her fascinations, in Mrs Jordan and Mlle Mars; I listened with rapture to the dreamy monologues of Coleridge—"that old man eloquent"; I travelled with Wordsworth, the greatest of our lyrico-philosophical poets; I relished the wit and pathos of Charles Lamb; I conversed freely with Goethe at his own table, beyond all competition the supreme genius of his age and country. He acknowledges his obligations only to Shakespeare, Spinoza and Linnaeus, as Wordsworth, when he resolved to be a poet, feared competition only with Chaucer, Spenser, Shakespeare and Milton.* [3, s. 28-29]

the last somewhat taciturn. Ash had never met ***Miss LaMotte***, who indeed came out exceptionally to please me and to speak to her dear Father, whose *Mythologies* I have had some hand in bringing before the English public. [3, s. 29]	auction this evening. I may here mention a singular illustration of the maxim, A prophet is not without honor save in his own country." (12 September 1816) [4]

Qarşılaşdırmalı təhlil ilk olaraq, onu göstərir ki, ***breakfast party*** ifadəsini təsadüfən işlətməmişdir. Belə ki, 1) gündəlik mətni ilə tanışlıq K.Robinsonun öz müasiri olan "aydınlarla" – dövrün ən görkəmli mədəniyyət, incəsənət, ədəbiyyat nümayədələrilə görüçlərini məhz, səhər yeməyi və axşam yeməyində keçirdiyini təsbit etməyə imkan verir[45]; 2) breakfast sözü Robinsonun orijinal gündəliyində təxminən 150 dəfə işlənməklə ən yüksək işlənmə tezliyi nümayiş etdirmiş leksemlər sırasına daxil edilir. Heç şübhəsiz ki, K.Robinsonun xatirə gündəliyi ilə yaxından tanış olmuş A.S.Bayett məzh bu faktları nəzərə almaqla "əlavələrini" etmişdir. Və bilərəkdən seçilmiş kod-sözlər mətnin orijinal Robinson gündəliyi ilə autentikliyi təəssüratının yaradılması üçün istifadə olunmuşdur. Bununla da oxucusu ilə "oyuna" girən A.S.Bayet onun diqqətinin yayındırılması məqsədini güdmüşdür. Analoji digər fakta nəzər salaq: Robinsonun orijinal gündəliyində "Lady Byron" onomastik vahidinin yüksək işlənmə tezliyi müşahidə edildiyindən (bu onim original gündəlik mətnlərində on iki dəfə işlədilmişdir)[46], A.S.Bayett bu predsedent onimini də öz mistifikasiya oyununa cəlb etmişdir. *We discussed also the so-called "**spiritual**" manifestations, about which **Lady Byron wrote to me** with great feeling* [3, s. 29]. Bayett Robinsonun Lady Byronla onun münasibətlərinin formatını və onların müzakirə etdirkləri mövzuların spektrini nəzərə alaraq, müvafiq qeydini qələmə almışdır. Robinsonun gündəliklərilə tanışlıq Lady Byronun doğurdan da Robinsonla məktublaşmasınınn real fakt olduğunu ortaya qoyur.Onu qeyd edək ki, məhz ***spirit*** konsepti Robinsonun gündəliyində ən aktual olan və fərqli freymlər səviyyəsində təzahür tapan əsas konseptlərdəndir. Təkcə onu demək kifayətdir ki, original Robinson gündəliyində ***spirit*** və ondan törəmə (***spiritual, spiritualism***) sözlər 300 dəfədən çox işlədilmişdir. Təkcə bir cümlə ilə bağlı qeyd edilən bu üç fakt onu deməyə əsas verir ki, A.S.Bayett həqiqətən də Robuinsonun gündəliyi ilə və ümumiyyətlə onun yazı üslubi ilə yaxından tanış olduqdan onumn dil kimliyinə dərindən bələd olduqdan sonra müvafiq "əlavələri" yüksək ustalıqla "pərçimləməyə" müvəffəq olmuşdur.

Bayettin "mətn imitasiyasındakı" ustalığına dəlalət edən daha bir məqam onun məhz, Robinsonun dil kimliyinə uyğun olaraq, emossional gəlginliyi zəif olan, bir qədər neytral tonlu qeydlər aparması ilə bağlıdır. Belə ki, Viktorina dövründə qələmə alınmış gündəliklərin emossional tutumunun verbal reprezentasiyasını araşdırmış tədqiqtçılar Robinsonun digər müasirləri ilə müqayisədə daha az ekspressiv təhkiyəçi olduğunu vurğulayırlar [6]. Bayett də eynilə orijinal mətndə olduğu kimi, Robinsonun "əlavələrini" emossionallıqla yükləmir.

Məlumdur ki, bir mətnin digə mətnində təqlidi, daha dəqiq desək, imitasiya intensiyası ilə təqlidi bilavasitə dil oyunları texnikalarında hesab edirlir (dil oyunlarının linvistik aspektdən dəyərləndirməsilə bağlı daha ətraflı bax: [7]). Söhbət hər hansı müəllifin digər müəllif üslubunun leksik və qrammatik prinsiplöərini özününküləşdirməyə çalışaraq onu təqdim etməsindən getmir. Dil oyunları çərçivəsindəki imitasiya texnikası bir müəllifin müəllifi olduğu bədii mətnin süjet-kompozisiya tələblərinə uyğun olaraq, digər müəllifə aid olan üslubunun təqlidini, əsərinin mövzusunun "inkişafını" nəzərdə tutur. Bədii mətndə dil oyunları problemini izləmiş tədqiqatçılar bu zaman məhz, həm allyuziv prinsipin, həm də imitativ prinsipin ön plana çıxdığını vurğulayırlar (imitasiya texnikasının dil oyunlarındakı inikası haqında daha ətraflı bax: [8, s. 64-71]). "***Dil oyunun imitativ prinsipi*** – mətnin nitq kodunda müəllif tərəfindən istifadə edilən ***prototip xüsusiyyətlərnin "tanınmasını" köklənən texnikaları əhatə edir***...Dil oyunun imitativ prinsipi onun müəllif nitqinin elementi kimi (***nitq maskası kimi***) və habelə personajların nitqləri kimi təzahür tapmasını mümkün edir. (kursiv bizimdir. – B.M.)" [9, s. 101-110]. O da məlumdur ki, "dil oyunu prinsipi kimi imitasiya assosiativ kontekstə malik olur" və asosiativliyin məqsədi ".. kiminsə üslub və nitq tərzinin təqlid edilməsinə işarə etmək" məqsədini güdür [10, s. 23-24]. Başqa sözlə desək, A.S.Bayett qəsdən, yəni assosativlik işarəsi olaraq, Robinsonun terminologiyasından yararlanmış, onun müraciət etdiyi predsedent onimlərdən istifadə etmişdir. A.S.Bayett Viktorian dövrünü və ümumiyyətlə Britaniya ədəbiyyatının dərin bilicisi kimi ustalıqla yararlandığı predsedent fenomenlərdən birinə diqqət edək. A.S.Bayett Robinsonun "gündəliyindən" iqtibas qeyd edir: *We discussed also the so-called "spiritual" manifestations, about which **Lady Byron wrote to me** with great feeling. There was talk of **Mrs Stowe**'s claim to have conversed with the spirit of **Charlotte Brontë**.* [3; 45]. Yalnız dərin ədəbiyyat bilicilərinə məlum olan bir fakta görə, "Tom dayının daxması" dahi Amerika yazıçısı Harriyet Biçer Stou (Harriet Beecher Stowe) ona Şarlotta Brontenin ruhu ilə danışmaq nəsib olduğunu etiraf etmişdir. Stou hətta Brontenin "ruhunun" ona ədəbi tənqidçilərin kobudluğundan, qərəzliliyindən şikayət etdiyini dilə gətirmişdir. Bronte tədqiqatçıları Emily Midorikawa və Emma Claire Sweeney burada söhbətin yazıçının ikinci əsəri "Şerli"dən (Shirley) gedə biləcəyini önə sürmüşlər [11].

---

[45] "*Mr. Robinson's **breakfast and dinner** parties were characteristically interesting. He did not seek to gather about him **either the lions or the wits of the day**. There were witty men and eminent men at his table, but not as such were they invited. None were allowed to come there who sliowed themselves to be either intolerant or subservient. He liked to gather around him cultivated and earnest representatives of **various phases of political and religious thought***" (kursiv bizimdir. – B.M.) [4].

[46] *Dr. King called, and in the evening I called by desire on **Lady Byron**, — a call which I enjoyed, and which may have consequences. ... I was informed that **Lady Byron** wished me to call on her ; which I did last Tuesday.I was much pleased with **Lady Byron**. She is a very remarkable woman, and is most generous and high-minded* [4]

Maraqldır ki, Stou özü də Bronte ruhu ilə mükaliməsini məktubda – gözəl həmkarlıq, dostluq münasibəti qurduğu Corc Eliota yazdığı məktubda qeyd etmişdir. 11 may 1852-ci ildə Eliota yazdığı məktubda öz "spiritik təcrübəsini" xatırladan Snou qarşı tərəfdən birmənalı reaksiya ala bilməmişdir. Be3lə ki, Eliot Snounun Brontenin "ruhu" ilə söhbəti əhvəlatını "fövqəladə qeyri-adilik" (enormously improbable) kimi qiymətləndirmişdir [12]. Müqayisə üçün qeyd edək ki, Snounun Brontenin "ruhu" ilə söhbəti məsələsi eynilə reallıqda olduğu kimi, A.S.Bayetin əsərində də məktubda xəbər çatdırılır. Və eynilə reallıqda olduğu kimi [13], burada da həmin "faktı xatırladan" Robinson (yəni, A.S.Bayettin "Robinsonu") hadisəyə aşkar münasibət, yəni eynilə sərgiləmir, Eliot kimi inanıb-inanmadığını açıq şəkildə bildirmir. Bronte "ruhu" ilə bağlı məqamı ümumiləşdirərək qeyd edək ki, 1) hissə real "şaquli kontekstə" əsaslanır; 2) hadisənin formatı assosiasiyaya əsasən romanın süjetinə adaptə olunur; 3) dil oyunu real və irreal olanın çuğlaşdırılması və "müəllif maskası" vasitəsilə imitasiya formatında verilməsilə gerçəkləşir. Bununla da, Krebb Robinsonun "müəllif maskasını" mənimsəmiş A.S.Bayett öz mətnini Robinson qələmindən çıxmış orijinal mətn kimi oxucusuna "sırımağa" çalışmış, onunla maraqlı "dil oyunu" başlatmışdır. A.S.Bayett oxucusunu "labirintə" salır: məhz, hazırlıqlı oxucu harda real intertekstin, harda isə mistifikasiya nəticəsi olan mətni fərqləndirə bilir. Bu məqamda "ehtimalın mücərrəd modelinin – labirint" olduğunu önə sürən U.Ekonun sözlərini xatırlatmaq yerinə düşərdi. "Labirintin üç növü" olduğunu önə sürən Eko üçüncüsünün tor formatına malik olduğunu vurğulayır: "Bu, Delez və Qvattarinin "rizoma" adlandırdıqlarıdır. Rizoma elə qurulmuşdur ki, buradakı bir yol digəri ilə kəsişmə şansına malik olur. Potensial olaraq, belə struktur nəhayətsizdir. ***Ehtimalın məkanı – elə rizomanın məkanıdır***" [16].

Heç şübhəsiz ki, "Possession" romanındakı ehtimallar "düyün"ündə, "müəllif maskalarında" A.S.Bayettin öz real dil kimliyi, şəxsiyyəti deşifrə edilmişdir. Belə ki, onu tanıyan və mükaliməyə girmək imkanına malik olmuş insanların ortaq rəyinə görə, Bayettlə birbaşa açıq dialoq qurmaq olduqca çətindir. əsərlərində də "o, öz həmsöhbətini yanlış məcraya yönlənrir və obrazların mozaikliyində oynayır. Onun əsərlərində də bütöv süjet xəttləri "hiyləylə" gizlədilmiş allyuziyalara köklənirlər". Həmin allyuziyaların haləsinin altından isə Bayett onun oyununa qoşulmuş öz "oxucusuna razı bir gülüşlə göz vurur" [14]. Oxucu isə müəllifin "eyhamlarını" – allyuziyalarını çözməyə çalışır. Bu zaman oxucunun bədii mətnin interpretasiyasındakı linqvopersonoloji özəllikləri, br növ "oyuna" girmiş olur. Belə ki, bədii mətnin hermenevtikasının linqvopersonoloji aspektlərini araşdırmış O.V.Tvarjinskayanın da qeyd etdiyi kimi, əgər professional interpretasiya, yəni professional dilçi və ədəbiyyatçıların təhlili bilavasitə mətnin özünə və müəllifin dil şəxsiyyətinə əsaslanırsa, sıravi oxucunun interpretasiyası məhz həmin oxucunun dil kimliyi özəlliklərinə istinad edir [15;18]. "Possesion" romanını ilə bağlı eyni fenomeni izləmək mümkündür. Belə ki, 1990-cı ildə işıq üzü gördüyü dövrdən günümüzədək dilçi və ədəbiyyatçılar əsərdəki allyuzial fonları "açıqlığa qovuşdurmağa", bu və ya digər leksik vahid və ya ifadələrin "şaquli kontekstini" müəyyən-ləşdirməyə çalışdırqları halda, Bayett hər il romanı sadəcə iki nəfərin sevgi hekayəsi kimi dəyərləndirən sıravi fermer və işçilərdən minlərlə məktub almaqda davam edirdi [14]. Göründüyü kimi, burada da linqvopersonoloji özəlliklər, fərdin dünyanın dil mənzərəsi faktorları həlledici rol oynayır. Bayettin çoxyaruslu təhkiyəsindəki alt semanik şərtlənmələri isə yalnız hazırlıqlı oxucu və ya U.Ekonun terminologiyası ilə desək, "müttəfiq oxucuya" bəlli olur. Xatırladaq ki, U.Eko mətndəki eyhamların, rizomatik ehtimalların çözümü barəsində yazırdı: " Mən öz işimdə hansı ideal oxucuya yönəlik fəaliyyət göstərmişəm? Təbii ki, müttəfiqə. Hansı ki, mənim oyunumu oynamağa hazırdır" [16].

Göründüyü kimi, A.S.Bayettin "Possesion" romanı öz strukturu baxımından rizomatik matrisanı təcəssüm etdirməklə, müəllifə fərqli paralel mətn bölümlərində fərqli "müəllif maskası" seçimi imkanından yararlanmağa münbit şərait təqdim edirdi.

İstifadə olunmuş ədəbiyyat

1. Henry Crabb Robinson https://www.britannica.com/biography/Henry-Crabb-Robinson
2. Самуйлова М. Е. Поэтика эпиграфических и вставных текстов (дневник, письмо) в романе А.С. Байетт "Обладать", автореферат дис. ... кандидата филологических наук, Великий Новгород, 2008, 22 с.
3. Byatt A. S. Possession: A Romance, New York: Random House, 1990, 573 pp. http://www.unife.it/letterefilosofia/lm.lingue/insegnamenti/letteratura-inglese-
4. Full text of Diary, reminiscences, and correspondence of Henry Crabb Robinson .."https://archive.org/stream/diaryreminiscenc00robi/diaryreminiscenc00robi_djvu.txt
5. Bertoldi L.A. 'Literary Critics Make Natural Detectives' ? Intertextuality and Intratextuality in A. S. Byatt's Possession, Tesi di Laurea, Università degli Studi di Padova, Facoltà di Lettere e Filosofia Anno Accademico 2011/2012 http://tesi.cab.unipd.it/42871/1/Bertoldi_Alessandra2012.pdf
6. Anne-Marie Millim. The Victorian Diary: Authorship and Emotional Labour https://books.google.az/books?id=99aXCwAAQBAJ&pg=PT80&lpg=PT80&dq=Diary,+Reminiscences+and+Correspondence+%D0%90%D0%B2%D1%82%D0%BE%D1%80%D1%8B:+Henry+Crabb+Robinson&source=bl&ots=UiSvT6iha7
7. Ahti-Veikko Pietarinen. Game Theory and Linguistic Meaning https://books.google.az/books?id=A6nzAgAAQBAJ&pg=PA92&lpg=PA92&dq=language+game+imitation+linguistics&source=bl&ots=iIFeGhg1dO&sig=ACfU3U1p4_d2b0wIL_xIUA-
8. Benz, A., Jäger, G., & van Rooij, R. An introduction to Game Theory for linguists. In Benz, A., Jäger, G. & van Rooij, R. (eds.), Game Theory and pragmatics, Basingstoke: Palgrave MacMillan 2005, pp. 1–82. https://pdfs.semanticscholar.org/7bb4/c2e0066ae8932c3bb180239597296fe8097a.pdf
9. Гридина Т.А. Художественный текст как поле языковой игры // Уральский филологический вестник. Серия: Психолингвистика в образовании. 2012. № 5. - С. 101-110. https://cyberleninka.ru/article/n/hudozhestvennyy-tekst-kak-pole-yazykovoy-igry
10. Гридина Т.А. Языковая игра: стереотип и творчество: Монография. – Екатеринбург: Урал. гос. пед. ун-т, 1996., 225 с. https://www.twirpx.com/file/2479225/
11. Coe A. That Time Charlotte Brontë's Ghost Haunted Harriet Beecher Stowe, 31.10.217, https://www.lennyletter.com/story/charlotte-brontes-ghost-haunts-harriet-beecher-stowe
12. Atlas N.The Literary Friendship of George Eliot and Harriet Beecher Stowe, June 26, 2017 https://www.literaryladiesguide.com/literary-musings/the-literary-friendship-of-george-eliot-and-harriet-beecher-stowe/
13. Midorikawa E. The Ghost of Charlotte Brontë, October 15, 2014 https://somethingrhymed.com/2014/10/15/the-ghost-of-charlotte-bronte/
14. Ланчиков В. К., Псурцев Д. В. Послесловие переводчиков // Байетт А.С. Обладать, М.: «Азбука-Аттикус», 2002, https://www.e-reading.club/chapter.php/3880/65/Baiiett_-_Obladat%27.html
15. Тваржинская О.В. Обыденная герменевтика поэтического текста: лингвоперсонологический аспект, автореферат диссер... канд. филол. наук., Кемерово 2013, 28 с.

16. Эко У. Заметки на полях «Имени розы» https://www.e-reading.club/book.php?book=67026
Açar sözlər: dil kimliyi nəzəriyyəsi, A.S.Bayett, Henri Krebb Robinson, "müəllif maskası", intertekt və "şauli kontekst".
Key words: theory of language personality, A. S. Byatt, Henry Crabb Robinson, "author's mask", intertextuality, "vertical context".
Ключевые слова: теория языковой личности, А.С.Байетт, Генри Крабб Робинсон, «авторская маска», интертекст и «вертикальный контекст».

A.S.Byatt's Language Personality and Crabb Robinson Mask: about the Technology of Text Mystification

Summary

In this article the writer's language personality which is expressed in A. S. Byatt's novel of "Possession: A Romance" is analyzed. It becomes clear that this work written in postmodern novel genre possesses a complex rhizomatic structure. A. S. Byatt mastered the written language traditions of Victorian epoch deeply in order to create the impression of the authenticity of the letters, diaries which were presented as a historical document in that novel. More particularly A.

S. Byatt who cited from H. C. Robinson's diary, realized text mystification and made additions to Robinson's diary parallelly. In her additions A. S. Byatt succeeded in mastering Robinson's language personality thoroughly and in using his "language mask".

Языковая личность А.С.Байетт и «маска» Крабб Робинсона: о технологии «мистификации» текста

Резюме

А статье исследуется писательская языковая личность А.С.Байетт в романе «Обладать». Становится известно, что данное произведение, написанное в жанре постмодернического романа имеет сложную ризоматическую структуру. А также становится известно, что для аутентичного воспроизведения стиля писем и дневников, А.С.Байетт тщательно изучила традиции эпистолярного письма Викторианской эпохи. Конкретно сказать, А.С.Байетт мастерски использует интертекстуальные вкрапления из реальных исторических дневников Г.К.Робинсона и параллельно с этим «мистифицирует» над текстом его дневников, то есть делает к нему свои авторские «поправки». Эти «добавочные» тексты самой А.С.Байетт позволяют констатировать факт мастерского использования «авторской маски» Робинсона.

Rəyçi:fil.f.d., dos.T.Əmirova

Əliyeva Simuzər Əliyulla qızı

C. MƏMMƏDQULUZADƏNİN FELYETONLARINDA UŞAQ DÜNYASININ BƏDİİ TƏQDİMİ

XIX əsr Azərbaycan ədəbiyyatı satiranı yüksək pilləyə qaldırarkən birinci növbədə həya-tımızda baş verən oyanışdan yüksəlişdən qidalanırdı.Felyeton janrının ciddi-tərbiyəvi-təlimi əhə-miyyəti,təsiri haqqında hələ inqilabdan əvvəl belə çox maraqlı fikirlər söylənilmişdi.

Azərbaycan ədəbiyyatında felyeton janrının geniş və maraqlı inkişaf tarixi vardır. Azər-baycan dövrü mətbuatın inkişafı ilə əlaqədar olaraq felyeton janrı ictimai şüurun ən yığcam və parlaq bədii ifadəsini,həm də həyat həqiqətlərinin səciyyəvi sahələrinin öz vaxtında inkişafı üçün lazımi şərait yaratmadır.Ədəbiyyat və mətbuatımızın tarixində H.Zərdabi, N.Vəzirov, C.Məm-mədquluzadə,N.Nərimanov,Ü.Hacıbəyli,Ə.Qəmküsar və bir çox başqalarının fəaliyyətini onların felyeton yaradıcılığından təcrid edilmiş şəkildə öyrənmək təqdim etmək qeyri-mümkündür.

Felyeton (fransız sözü olub,əslində " feuilleton" – vərəqə mənasını ifadə edir) ədəbi bir janr kimi XVIII əsr fransız mətbuatında geniş yayılmışdır.Onun əsas məğzi satirik formada olan fikirdir. Dünya ədəbiyyatında felyeton həm satirik tənqid,həm də yumor üçün böyük imkanlar ya-radır.

Azərbaycan felyetonlarından bəhs edərkən onun məhz 1875-ci ildən nəşrə başlayan ilk Azərbaycan qəzeti "Əkinçi"nin yaradıcılığından təşəkkül tapdığını qeyd etmək lazımdır.Sonra isə bu janrın inkişafını "Ziya","Ziyayi Qafqaziyyə","Kəşkül ","Şərqi-Rus" və başqa Azərbaycan mətbuatı səhifələrində görmək olar.XIX əsrin sonu,XX.srin əvvəllərindən başlayaraq Azərbycan mətbuatının inkişafında aparıcı rola malik olan " Molla Nəsrəddin "(1906-1930),"Bəhlul"(1907), "Zənbur" (1909-1910),"Arı"(1910-1911),"Kəlniyyət" (1912-1913),"Babayi-Əmir"(1915-1916),
"Tuti"(1914-1917),"Məşəl"(1919-1920),əsasən demokratik,satirik mətbuat idi.Beləliklə də,XX əsrin əvvəllərində,"Molla Nəsrəddin"(1906-1930) jurnalı felyeton janrının bayraqdarı oldu.

C. Məmmədquluzadənin felyetonları mövzu baxımından müxtəlif məzmundadır.Onun felyetonlarında maarifçilik,təlim-tərbiyə,ana dilinin təmizliyi,gənc nəslin,uşaqların savadlı bir vətəndaş kimi yetişməsi,vətənpərvərlik kimi mövzular xüsusi yer tutur.C. Məmmədquluzadənin epik növə daxil olan "Yuxu","Şərq fakültəsi", "Məcmuəmizdə dil məsələləri" ,"Utanmalıq", "Pirverdinin xoruzu"," Dəllək","Buz","İki alma","Poct qutusu","Saqqallı uşaq"," Quzu " kimi əsərlərində satirik formada o dövrdə xalqın acınacaqlı vəziyyəti,savadsızlıq uşaq dünyasının bədii təqdimatında verilir.C.Məmməquluzadənin yaradıcılığında uşaq dünyasına müraciət tədqiqatcılar tərəfindən həmişə yüksək qiymətləndirilmişdir:"Realist uşaq nəsrinin əsasın qoyan C.Məmmədquluzadənin hekayələri böyülər üçün yaranan nəsrin ifadə tərzindən,təhkiyə üsulundan tam azad olmasa da,bu əsərlərdə uşaqların tərbiyəsi ilə bağlı cəmiyyəti düşündürən bir sıra problemlər öz əksini tapmışdır.Onun parlaq yaradıcılığı Azərbaycan uşaq ədəbiyyatının doğulub formalaşmağa doğru getdiyi dövrə təsadüf edir.Yazıcı müsəlman dünyasının həqiqətlərini uşaq əsərlərində də verməkdən çəkinmir,cəmiytin nöqsanların burada da tənqid obyektinə çevirir."Pirverdinin xoruzu","Dəllək","Buz","İki alma","Poçt qutusu","Saqqallı uşaq" və digər hekayələrində böyük həqiqətlər açmağa meyl göstərən yazıçı təxminən Andersen və Perro ədəbi ənənələrini yeni tərzdə inkişaf etdirir."(V.Əhməd "Şahnaz sədası".Bakı,Şərq-Qərb,1994.)

Realist uşaq nəsrinin əsasını qoyan C.Məmmədquluzadə ənənələrində mövzu müxtəlifliyi xüsusilə diqqəti cəlb edir.Sənətkar əsərlərini sadə dildə yazmış,xalqın içərisində yaşayaraq həmvətənlərinin balalarının arzu və istəklərinə,sevinc və kədərinə şərik olmuşdur.C.Məmməd-quluzadə bu əsərlərində satirik formada dövrünün çətinliklərini,çatışmamazlıqlarını çəkinmədən oxucuya çatdırır.

C.Məmmədquluzadə "Pirverdinin xoruzu" felyetonunda azyaşlı qız uşaqlarının cəhalətin qurbanına çevrildiyindən,məktəbyaşlı uşaqların lazımsız işlərlə məşğul olmağa məcbur olun-duğundan bəhs edilir.

Əsərin sonu müəllif təhkiyəsi ilə qurtarır və oxucuda hadisənin sonluğunun necə bitəcəyini bilmək arzusu oyanır:" Az qalmışdı ki,həmin hekayəni tamam edəm,yoldaşım mozalan gəlib dedi ki,dur ayağa gedək Qasım əminin övrətlərinin dava-məzəkəsinə tamaşa edək.Bu səbəbdən nağılını tamam edə bilməyib burada qaldım."(1)

Qeyd edək ki,C.Məmmədquluzadə felyetonlarında cəhaləti,savadsızlığı,dövrün çatışmamazlıqlarını göstərməklə yanaşı,onlarla mübarizənin sanki sadə yollarını da göstərir.Müəllifin "Seir bülbülləri " adlı felyetonunu
Əvət,əvət,o qadın iştə bak nasıl bakıyor,
Əvət,əvət,o qadın iştə bak nasıl sanıyor(1)
epiqrafi ilə başlayır.Müəllif bu felyetonda ailə başçısının ərəb dilində yazılmış seirləri özü də başa düşmədiyi halda tərifləmməsini kinayə ilə göstərir.C.Məmmədquluzadə " Seir bülbülləri " adlı felyetonda təsvir etdiyi Zeynəb arvadın dilindən söylənilən nağılda ev sahibinin evladlarının,
onun həyat yoldaşının,hətta evə gələn qonağının da doğma dilimizə münasibəti və sevgisini kina-yə ilə oğulun və Molla dadaşın dilindən söyləyir.

"Cavan məni küçə qapısına tək yola saldı və pilləkəndən enə-enə mənə belə dedi:
"- Molla dayı,vallah doqquz ildi ki, müsəlman dərsi də oxuyuram,amma yenə bu sairlərin dilini qanmıram.
Bunun cavabında mən buna əl verib ayrılanda dedim:
-Sənə bir sözüm var,amma gərək atan bilməsin.
Cavan and içdi və mən ona dedim:
-Sənin dədənin və mənim əziz dostumun o qəribə şairlərinin dilini mən də qanmadım.
Cavan mat qaldı."(2, s.515)

Ədib " Sirkə" felyetonunda da ana dilimizin orfoepiya məsələsinə toxunmuşdur.Felyetonda ev sahibi olan Əhməd Fitrətin qonağı olanlardan biri ona müraciət edərək :

"Mən ölüm ay Əhməd Fitrət, o yediyin balığın adını ata-anamız "Balıx" qoyub,sən də elə balıx de,"Balıq" demə,"- deyir.

C.Məmmədquluzadə bu felyetonda XX əsrin əvvəllərində bəzilərinin azərbaycan dilində sözlərin sonunda "x" səsinin işlənməsinin əleyhinə idilər.Onların bəziləri hətta "x" səsi ilə bitən əsl Azərbaycan sözlərinin sonluğunun "d" ilə bitməsinin düzgünlüyünü iddia edirdilər.C.Məmmədquluzadə Əhməd Fitrətin dili ilə bu fikrə qarşı cıxır: " Mərhum atamız,doğrudur " Balıx" de-yibdir,amma biz gərək "Balıq " deyək,nəinki "Balıx".(2, s.506)

C.Məmmədquluzadənin uşaqlar üçün yazdığı əsərlərdə cəhaləti,savadsızlığı və s. göstərməklə yanaşı pedaqoji fikirləri,təlim-tərbiyə ilə bağlı öyüd-nəsihətlərini mətnaltı mənada satirik formada kinayə ilə ooxucuya çatdırır."Buz","Saqqallı uşaq"," İki alma" kimi əsərlər buna misal ola bilər.

"Saqqallı uşaq" hekayəsində əsas obrazlardan biri olan Kəblə Əzim yazıb-yaratmağı bacar-madığı üçün öz ailəsinin hesabatını divarda çəkdiyi cizgilərlə aparır.Əvvəl ev sahibi uşaqlara hirslənir,fikirləşir ki,tərbiyə verməkdə hansı səhvlərə yol verib.Lakin məlum olanda ki,bu cizgi-ləri Kəblə Əzim çəkib,uşaqlarını çağıraraq onlara deyir: "Balalarım ,bu yazını yazan da sizin kimi uşaq idi;ancaq bircə təfavətünüz ondadır ki,onun saqqalı var,sizin hələ saqqalınız yoxdur." (2, s. 556)

"Yeni yol " qəzetinin 83-84 -cü nömrələrində əsər bu sözlərlə qurtarır:"Həmin fəqərədən üç – dörd il keçir.Amma "Saqqallı uşaq"hekayəsi uşaqlarımızın yadından çıxmır.Bəlkə də hec cıxmayacaq."

C.Məmmədquluzadə felyetonlarında uşaq dünyası,uşaq humanizmi,uşaq xeyirxahlığı və bu kimi müsbət keyfiyyətlərə toxunarkən valideynlərin yersiz xəsisliyi müxtəlif cür nəsihət,tərbiyə vermək üsullarının şahidioluruq.Müəllifin "İki alma" hekayəsini buna nümunə göstərə bilərik.Əsərdə o dövrün müxtəlif tərbiyə üsullarının bir xüsusiyyətinə toxunulur. C.Məmmədquluzadə kasıblara dilənçilərə kömək etmək olmaz,çünki bu onlarda vərdiş halına gətiribçıxarılmasına səbəb olan kimi düşünənləri bir hekayədə kiçik bir uşağın hərəkəti ilə tənqid edir.Əsərdə atanın uşağına aldığı iki almadan birini dilənçi uşağa vermək istəmədiyi və oğlunun humanist hərəkətindən utanaçaq çəkdiyi peşmançılıq bəhs olunur.

C.Məmmədquluzadə felyetonlarında dil məsələlərinə,ana dilimizin təşəkkülünə, təmizliyinə həmişə ciddi yanaşması və "Molla Nəsrəddin" məcmuəsində çalışan digər həmkar-larının da bu işdə fəaliyyət göstərməyə ruhlandırmışdır.Məlumdur ki, ədib felyetonlarını güclü yumorla təmiz,əlvan,şirin Azərbaycan dilində,canlı danışıq dilində yazmışdır.O,əsərlərində,ümumiyyətlə dilimizin burjua mətbuatında işlədilən rəsmi sözlərin,bizə yad olan ərəb – fars, rus,osmanlı sözlərinin tərkib və ifadələrin işlədilməsi əleyhinə olub. Ömrünün sonuna qədər Ana dilimizin saflığı uğrunda mübarizə aparıb.Ədib zəhmətini satan,ana dilində danışmağı özünə ar bilən " çox yaxşı" ifadəsini " pek iyi " kimi və s. yabançı sözlərə üstünlük verən burjua müheccirlərini öz satiralarında tənqid atəşinə tuturdu.Onun "Şərq fakultəsi ","Məcmuəmizdə dil məsələləri", "Utanmadıq" felyetonlarında dilimizin təmizliyinin qorunması satirik formada oxucuya çatdırılır."Şərq fakültəsi" adlı felyetonda professor Süleyman bəy və müdərris Əhməd Zəkinin timsalında əcnəbi sözlərə üstünlük verən (leksiya,tema,bəistilahi-rus,meşok) burjua ziyalılarını tənqid edir.

" Məmmədquluzadənin dil məsələləri" adlı felyetonunda " Molla Nəsrəddin" məcmuəsinin ana dilli mətbuat olduğu qeyd edilir.Felyetonda göstərilir ki,"... bu dilə o səbəbdən ana dili adı qoyuruq ki, bu dildə yazı yazanda və ortalığa " ana" söhbəti gələndə biz " ana"nı"ana"da ya-zırıq ,xah o vədə və xah indi yazılarında "ana" ləfzi rast gələndə, " ana" sözü əvəzinə " madər ", "ata" sözü əvəzinə " pədər" yazırlar.Felyetonda ərəbcə,fars dilində savadı olmayanların "padər","madər","nan","həfid","ehvad" kimi sözlərin başa düşülmədiyini vurğulayır.Ədibin təbirincə desək " qatış-bulaş dilin adını " ədəbi dil " qoyub,açıq ana dilini çoban dili adlandıranla-rı satira atəşinə tutur.C.Məmmədquluzadə bu felyetonda dilçilərimizə,camaatımıza başa düşülən dildə çatdırılmağı tövsiyə edir.

"Utanmadıq" adlı felyetonda "Şeir Bülbülləri"ndə təqdim olunan fikirlər ana dilimizin təmizliyi,ana dilində işlənən lazımsız alınma sözlərdən imtina edilməsindən bəhs edilir.Ədibin fikrincə "Açıq ana dilində,açıq türk dilində yazmaq eyibdir,cünki yazanın savadının azlığına dəlalət edir."- bu sətirlər " Molla Nəsrəddin " jurnalında dərc olunmuşdur. C.Məmmədquluzadə " Utanmadıq " felyetonunda daha bir fikri irəli sürür:

"Elə böyük cürətimiz o oldu ki,biz utanmadıq.Cünki biz görürdük hər bir əlinə qələm alan türk bəndəsi "Ana" sözünü bir yerdə yazmaqdan utanır,"Ana" yerinə "Madər" yazır.Ancaq biz "Ana" yazdıq,səbəb də bu idi ki,bilmirdik niyə "Ana" sözünü yazmaqdan utanaq,!"Bundan əlavə felyetonda Əli bəy Hüseynzadənin də bu fikrə müsbət mövqeyi göstərilir:"Açıq yazmağı da bacarmaq lazımdır". (1)

Bütün bunları yekunlaşdıraraq deyə bilərik ki,Cəlil Məmmədquluzadə Azərbaycan ədəbiyyatının magikanla-rındandır.Professor Xalid Əlimirzəyev Cəlil Məmmədquluzadə yaradıcılığına belə qiymət vermişdir:

" Cəlil Məmmədquluzadənin yaradıcılığı ictimai mündəricəsinə,orijinallığına,milli və bəşəri məzmununa görə dünyəvi əhəmiyyətə malikdir."(6, s. 5)

Cəlil Məmmədquluzadənin felyetonlarının mövzu dairəsi çox genişdir.Bu mövzular – azadlıq,demokratiya,maarifçilik,Ana dilimizin təmizliyi uğrunda mübarizə,təlim-tərbiyə,vətən-pərvərlik, uşaq dünyasının bədii təqdimi,hal-hazırki müasir dövrdə də aktualdır.Bu əsərlər istər uşaqlar,istərsə gənclər,istərsə də yaşlı nəsil tərəfindən yenə də sevilə-sevilə oxunmaqdadır.

İstifadə edilmiş ədəbiyyat

1.C.Məmmədquluzadə, Dram və nəsr əsərləri,Bakı,1958.
2.C.Məmmədquluzadə, Dram və nəsr əsərləri,Bakı,1958 ,səh.515.
3.C. Məmmədquluzadə.Dram və nəsr əsərləri.Bakı,1958,səh.506.
4. Cəlil Məmmədquluzadə.Dram və nəsr əsərləri." Saqqallı uşaq",Bakı,1958,səh.556.
5.C.Məmmədquluzadə. Dram və nəsr əsərləri,Bakı ,1958.

6.X.Əlimirzəyev.Problemlər və xarakterlər dranmaturgiyası.”Yazıçı”,Bakı,1979,səh.5.

РЕЗЮМЕ

Подъему на вершину азербайджанской сатиры способствовало пробуждение, произошедшее в нашей жизни в XIX веке.Много мнений высказывалось о жанрах сатиры еще до революции. Жанр фельетона имеет давнюю историю развития. В этой развивающейся истории невозможно исследовать творчество Х.Зардаби, Н.Вазирова, Ч.Мамедгулузаде, Н.Нариманова, У.Гаджибейли, А.Гамкусара и многих других, далеких от фельетонных произведений.

Содержание фельетон Дж. Мамедгулузаде имеют разное по содержанию.Особое место занимают такие темы, как образование, воспитание, чистота родного языка, воспитание подрастающего поколения, детей - как образованных граждан, патриотизм в его фельетонах.В литературных произведениях Дж. Мамедгулузаде, таких как «Сон», «Восточный факультет», «Языковые проблемы в нашем журнале», «Позор», « Петух Перверди», «Парикмахер», «Лед», «Две яблоки», « Почтовый ящик», «Бородатый ребенок» и «Овечка», бедственное положение народа в то время, безграмотность представлены в детском мире в сатирической форме.Обращение к детскому миру в творчестве Дж. Маммагулузаде всегда высоко оценивалось исследователями:«Хотя рассказы Дж. Мамедгулузаде, заложившие основу реалистической детской прозы, не полностью свободны от стиля выражения и метода развития прозаического творчества для взрослых, в них отражен ряд проблем, связанных с воспитанием детей в этих литературных работах.Его блестящее литературное творчество совпадает с периодом зарождения и началом становления азербайджанской литературы для детей. Писатель не стесняется излагать истины мусульманского мира в своих детских литературных произведениях, и здесь делает объектом критики недостатки общества.В своих произведениях «Петух Пирверди», «Парихмахер», «Лёд», «Две яблоки», «Почтовый ящик», «Бородатый ребёнок» и других рассказах писатель, стремящийся к раскрытию великих истин, развивает литературные традиции Андерсена и Перро в новых стильях." (В.Ахмед "Звуки Шахназ". Баку, Восток-Запад, 1994г.)

Серьезный подход Дж. Мамедгулузаде к языковым проблемам, формированию и чистоте нашего родного языка вдохновлял в своих литературных произведениях и других коллег, работающих в «Молла Насреддин» в этом направлении.Известно, что он писал литературные фельетоны с сильным юмором на чистом, милом, живом азербайджанском языке.Он был против использования словиз буржуазной печати, а также чужые нам сочетания слов и выражений арабо-персидских, русских, османских слов в свохи литературных произведениях.Он до конца жизни боролся за чистоту нашего родного языка.Литератор критиковал буржуазных эмигрантов, которые, торгуя своим трудом и стыдясь говорить на родном языке, употребляют словосочетание «очень хорошо» как «пек ийи» и предпочитают иностранные слова.

SUMMARY

The rising to the peak of Azerbaijani satire was facilitated from the awakening , that took place in our life in XIX century.Many opinions were expressed about the genres of satire even before the revolution. The feuilleton genre has a long history of development. It is impossible exploring the activities of H. Zardabi, N. Vazirov, C. Mammadguluzade, N. Narimanov, U. Haji-beyli, A. Gamkusar and many others' creaytivity far from feuilleton creations in this developing history .Content feuilleton J. Mammadguluzade have different content. The special place is involved by thems, such as education, upbringing, the purity of the native language, the upbringing of the younger generation, children - as educated citizens, and patriotism in his feuilletons.In J. Mammadguluzade's literary works, such as "Sleep", "Easten Faculty", "Language problems in our journal", "Shame", "Perverdi's cock ", "Barber", "Ice", "Two apples", "Post box" "Bearded child" and "Lamb",the plight of the people at that time, ,the illiteracy are presented in the of the children' world in a satirical form.The pealing to the children' world in the creation of J. Mammaguluzade has always been highly appreciated by researchers:“Although J. Mammadguluzade's stories, who laid the foundation for realistic children' prose, aren't completely free from the style of expression and the method of developing prose creating for adults, a number of problems associated with the upbringing of children, are reflected in these literary works.His brilliant literary work coincides with the period of origin and the beginning of the formation of Azerbaijani literature for children literature. The writer doesn't hesitate for presenting the truths of the Muslim world in his children' literary works, and here he makes the lackings of society the object of criticism.In his literary works “Pirverdi 's cock”, “Barber”, “Ice”, “Two Apples”, “Post box ”, “Bearded Child” and other stories, the writer, striving to reveal great truths, develops the literary traditions of Andersen and Perrault in a new style ." (V. Akhmed "Sounds of Shahnaz". Baku, East-West, 1994)

J. Mammadguluzade's seriously approaching to language problems, the formation and purity of our native language inspired in his literary works and other colleagues,who work in the " Molla Nasreddin" on this direction.It is known, that he wrote literary feuilletons with strong humor in pure, sweet, lively Azerbaijani language.He was against the useing of words from the bourgeois press, as well as combinations of words and expressions from Arab-Persian, Russian, Ottoman words alien to us in his own literary works.He fought for the purity of our native language until the end of his life.

RƏYÇİ: dos. E.Vəliyeva

Pərvinə Əyyub qızı Əzizova[47]

ƏDƏBİ NÖV VƏ JANR HAQQINDA

Mətn anlayışının mürəkkəbliyi və çoxcəhətliliyinə görə mətnlərin tipologiyası məsələsinə fərqli yanaşmalar mövcuddur. Təsnifin əsasında, adətən, linqvistik və ekstralinqvistik, mətnyaratmanın və mətnin dərkinin obyektiv və subyektiv amilləri qoyulur. Mətnlərin təsnifinin ən çox yayılmış təsnifi janr və üslub aidliyi üzrə bölgüdür. Bu meyarla mətnlər bədii, elmi, publisistik, işgüzar, danışıq növlərinə bölünür. Mətni qurulma xarakterinə, özgə nitqinin verilməsinə, kommunikasiya iştirakçılarının sayına (monoloq, dialoq, poliloq), təyinat məqsədinə (təbliğat, təlimat, məlumat, təşviqat), funksional məzmun xüsusiyyətinə (mətn – təsvir, mətn –nəqletmə, mətn – mühakimə), cümlələrarası əlaqə forması (zəncirvari, paralel, qarışıq əlaqəli mətnlər) və s. də təsnif edirlər. Mövzuya, informasiyanın verilmə tərzinə, şərh formasına əsaslanan təsniflər də vardır.

Mətnləri bir-birindən fərqləndirmək müasir dilçilikdə xüsusi aktuallıq kəsb edən məsələlərdən biridir və bu, kommunikativ məqsədlə dil vasitələri əsasında yaradılan nitq məhsulunun bir tam şəkildə tədqiqata cəlb etməkdən irəli gəlir. Məlumdur ki, bədii, elmi, publisistik, rəsmi və s. mətnlər vardır ki, onlardan hər birinin təyini müəyyən meyarlara əsaslanır. Məsələn, bədii mətn şair və yazıçıların yaratdıqları əsərlər, habelə folklor nümunələri hesab edilir.

Mətn dilçiliyi əsərə bir tam kimi baxır və mətnin təyini zamanı bu tamın sərhədlərini müəyyənləşdirməyə çalışır. Mətnin əsas təsnifat bölgülərində onun mövzu və məzmuna görə, ekstra və intra mətn fərqləndirici əlamətlərinə görə (yazılı-şifahi, spontan -qeyri-spontan, monoloji və dialoji, monoadresatlı və poliadresatlı və s.), mətndaxili əlamətlərə görə (mətn strukturunun qurulma qanunauyğunluğu), ekstramətn amillərinə (real kommunikasiya amilləri) bölgüsündən danışılır.

Mətni üslubi xüsusiyyətlərinə görə tiplərə ayırma zamanı müvafiq üslubda istifadə olunan mətn növlərinin adlarından istifadə olunur. Məsələn reportaj, müsahibə, xəbər mətnləri publisistik üsluba aid mətnlərdir. Mətnə kommunikativ aktın vahidi kimi yanaşıldıqda isə onun tiplərinin təyin edilməsi üçün danışan və dinləyənə görə mətnin funksiyası, forması əsas götürülür. Təsnifat zamanı seçilən meyarlar sırasında mətnin informativliyi, funksionallığı, struktur-semiotik və kommunikativlik xüsusiyyətləri ön plana çəkilir. Ümumiyyətlə, mətnlərin təsnifi məsələsinə ən azı dörd istiqamətdən yanaşmaq mümkündür. Birinci istiqamət mətnlərin funksional tipologiyasıdır. Bu zaman mətnin sosial funksiyası və işlənmə sahələri meyar kimi çıxış edir. İkinci istiqamət mətnin quruluşuna görə təsnifidir. Bu zaman mətni təşkil edən daxili elementləri, struktur hissələri meyar olur. Üçüncü istiqamət üslubi təsniflə bağlıdır və burada da işlənmə sferası, mətnin hansı sahəyə aidliyi vacib element kimi götürülür. Nəhayət, dördüncü istiqamət mətnin kommunikativ xüsusiyyətlər üzrə təsnifini əhatə edir.

Mətnlərin müxtəlif tiplərə bölünməsi, bu tiplərdən hər birinin özünün spesifik xüsusiyyətlərin mövcudluğu ayrı-ayrı mətn qrupları, o cümlədən də bədii mətn üçün müəyyən struktur, semantik normalar sistemi əmələ gətirir. Qəbul edilmiş normalar mətnin düzgünlüyünü pozmağa mane olur, onu müəyyən çərçivəyə salır. Bununla belə, bədii mətn üçün norma hüdudlarını aşma səciyyəvidir və bu, söyləmlərin təşkilinin xarakterinə təsir göstərir [1, s. 25].

Bədii mətn gerçəkliyin fərdi, müəllif şərhidir. Yazıçı, şair gerçəkliyin ona məlum olan fraqmentlərini təsvir edir, hadisələri özünün düşüncə və təsəvvürünə uyğun şəkildə inkişafına çalışır, bu məqsədlə dil vasitələrindən, həmçinin yaradan üçün fərdi məzmuna malik metaforlardan istifadə edir. Bədii əsərdə təsvir olunan dünya mənzərəsi müəllifin dünya mənzərəsinin strukturlaşması və verballaşması olub, qabardılan, vurğulanan səciyyəyə malikdir [2, s. 55].

Bədii mətn sənətkarın spesifik daxili vəziyyətindən, halından asılı olaraq nitq söyləmləri formasında yaranan, maddi aləmi, onun hadisə və obyektlərini ruhən, hissi qavrama məhsuludur [3, s. 120].

Bədii mətn qavrama, dərketmə prosesində formalaşan estetik dəyərli kommunikativ istiqamətlənmiş verbal əsərdir [4, s. 3].

B.A.Maslova bədii mətnə B.A.Pişalnikovanın verdiyi izahı olduğu kimi qəbul etmiş, onu kommunikativ və psixolinqvistik baxımdan açmağa çalışmışdır. Müəllifin fikrinə görə, kommunikativ və psixolinqvistik nöqteyi-nəzərdən bədii mətn həmişə oxucu üçün yaradılır, hətta müəllifin özünü təqdim etmək məqsədin güdən bədii mətnin də adresatı vardır [5, s.15].

Tədqiqatçıların az olmayan bir qismi bədii mətndə estetik özünəməxsusluq amilini əsas fərqləndirici əlamət hesab saysalar da, digər mətn tiplərində (publisistik, elmi, epistolyar və s.) estetik dəyərlik amilinin mövcudluğunu inkar etmirlər. Bədii mətnin dili digər tipli mətnlərin dilindən fərqlənir. Sənətkar ümumi dildən istifadə etməklə yanaşı, hadisələrin təsviri və canlandırılmasında özünün dünya dərkindən, fərdi fəlsəfəsindən istifadə edir. Müəllifin real gerçəklik haqqında təsəvvürü, müəyyən ümumi ideyanı təqdimat tərzi bədii mətnə fərqlilik gətirir. Mətnin estetikliyi müəllifin istedadından asılıdır. Bədii mətn onun dərkindən, adresatda oyatdığı düşüncələrdən asılı olmayan özünəməxsusluq daşıyır. Bədii mətnin fərqləndirici cəhəti obyektiv şəkildə ona mənsub olmalıdır[6, s. 18-19].

Bədii ədəbiyyatın üç növü -epik, lirik və dramatik növləri fərqləndirilir. Epik növdə (yun. epos - nəqletmə) predmet, hadisələr, predmetin mövcudluq, hadisənin başvermə şəraiti nəql edilir. Müəllif oxucuya müəyyən hadisə, predmet haqqında məlumat verərkən müxtəlif üsullardan istifadə edir. Burada üç üsul mövcuddur. Birinci üsuldan istifadə edərkən müəllif predmet, hadisə və onunla bağlı məsələlər danışır, nəql edir və ya onun seçdiyi personajlardan biri bu işi yerinə yetirir. Nəqletmə şəklində yaradılan ədəbi növ epik növdür.

---

[47] Azərbaycan Tibb Universiteti. Filologiya üzrə fəlsəfə doktoru, dosent

Lirik əsərlərdə daxili aləm, hiss və həyəcan, təəssürat qələmə alınır. Lirik əsərlər nəzm formasında yazılır. Dramatik növdə predmet və hadisə fəaliyyət şəklində göstərilir. Əsər iştirakçıların dialoji, poliloji və monoloji nitqləri əsasında qurulur.

Ədəbiyyatın epik (qədim yun. epos – söz, nitq) növündə nəqletmən personajlar və baş verən hadisələr haqqındadır. Burada danışılanla onun predmeti arasında zaman fərqi mövcuddur. Hadisələr danışıldığı, qələmə alındığı zamanla müqayisədə keçmişə aid olduğuna görə keçmiş zaman qrammatik formasına üstünlük verilir. Müəllif və ya danışan üçün əvvəl baş verənləri xatırlayan mövqeyi səciyyəvidir. Təsvir olunan hadisənin zamanı ilə onun danışılma zamanı arasındakı fərq epik formanın xüsusi əhəmiyyətli cəhətlərindən biridir.

Nəqletmədə müəllif mövqeyi əlahiddə durur, implisitliyi ilə seçilir, çox zaman ortada olmur. Nəqledən, əsasən, müəllifin özü olur, bəzən nəqletməni müəllif personajlardan birinə və ya bir neçəsinə verir. Nəqletməyə əsaslanan və ya nəqletmə üzərində qurulan bədii əsərlər epik əsərlər adlandırılır. Beləliklə, epik növdə hadisələr, qəhrəmanların taleyi, onların hərəkətləri və işlərindən bəhs olunur, baş verənlərin zahiri tərəfləri təsvir edilir. Burada personajların hiss və duyğularından da onların təzahür tərəfindən danışılır. Müəllif baş verən hadisələrə birbaşa münasibət bildirmək imkanına malikdir və bunu reallaşdırmaqda sərbəstdir.

Epik əsərlərdə personajların danışdıqları, onların dialoq və monoloqları da nəqletməyə qoşulur. Nəticədə epik bədii əsər nəqletmə ilə personajların nitqinin vəhdətini təşkil edir. Epik növün həcm ölçüləri üçün dəqiq sərhəd yoxdur. Bu növdə qısa hekayədən başlayaraq romana, epopeyaya kimi irihəcmli bədii əsərlər yaradılır.

Epik əsərdə nəqledən bəhs edilən hadisə ilə onun iştirakçıları, eləcə də oxucuları arasında vasitəçi rolunu oynayır. Çox zaman o, hadisələrin şahidi qismində çıxış edir. Epik mətndə nəqledən, onun taleyi, hadisələrin iştirakçıları ilə qarşılıqlı əlaqələrdən bəhs edilmir. Bununla belə, epik əsərlərdə nəqletmə formalarında da dəyişmələr baş verir. Nəqletmənin ən geniş yayılmış nüvündə nəqledənlə personajlar arasında demarkasiya xətti mövcuddur.

"Dadaş həmişə oturub-durub deyirdi: "Adamım olsaydı, indi bəlkə də zamministr işləyirdim."

Arvadı hərdən qorxa-qorxa söz salardı:

- Ay Dadaş...
- Ay Bəli.
- Bəs haçan təzə ev tikəcəksən? Qonşu Mürsəli görürsən? İkimərtəbə qaldırıb" [7, s. 41-42].

Hekayənin əvvəlindən götürülmüş bu parçada nəqledən hadisələrin şahidi dir və bütün əsər boyu o, əvvəlki mövqeyini saxlayır.

Nəqledənlə iştirakçılar arasında ayrılma bədii əsərin epik növündə həmişə aktuallaşır. Son əsrlərdə subyektiv nəqletməyə malik epik nümunələr artmaqdadır. Bu cür əsərlərdə nəqledən hadisələrə personajların birinin cüzü ilə baxır və beləliklə də iştirakçıya çevrilir. Bəzən nəqledən iştirakçıların arasında olduğunu qeyd edir, bəzi hərəkətləri yerinə yetirir, amma əsərdə personajlarla dialoqa girmir.

"Bizim kiçik idarəmiz düz bir ay bir gün müdirsiz qaldı. Axır ki, təzə müdir gəlib çıxdı" [7, s. 31].

Verilmiş cümlələrlə başlayan hekayədə nəqledən hadisələrin cərəyan etdiyi idarədə işlədiyini qeyd edir. Nəqletmə birinci şəxsin cəminin dilindən gedir və axıra qədər bu şəkildə davam edir. "Yarım saatdan sonra bizim sazəndələr dəstəmiz müdirin kabinetində əmrə müntəzir oturmuşdu. ... Çox oyun havaları çaldıq və müdirimiz çox sındırdı. Nəhayət, əldən düşüb özünü kresloya saldı.

- Bəsdirin daha...
- Dayandıq" [7, s. 33].

Eyni əsərdən götürülmüş bu mətn fraqmentlərindən aydın olur ki, nəqledən (müəllif) sazəndələr dəstəsinin üzvüdür və müdirin otağında oturub, oyun havalarını çalanlar arasında o da vardır və s. Bu əsərdə nəqledən həm hadisələrin iştirakçısı, həm də şahididir. Lakin əsərdə onun nitqi səslənmir, o başqa personajlarla danışmır.

Elə epik növlü əsərlər vardır ki, orada nəqledən iştirakçı olmaqla yanaşı digər personajlarla danışır, oxucuya olduğu yer barədə, gördüyü iş haqqında məlumat verir.

Lirikada hadisələrin özünün təsvirindən çox onların müəllifə təsirinin oyatdığı duyğu və hisslərdən bəhs olunur. Burada müəllifin daxili aləmi, yaşantıları, təəssüratı, ürək çırpıntıları qələmə alınır. Lirikada hiss və duyğular, qəhrəmanın daxili aləmi emosional vəziyyəti ifadəsini tapır. Hiss və duyğular əsas hadisə rolunu oynayır. Kiçik həcmli lirik əsərdə hadisələr xətti ifadəsini tapdıqda buna olduqca az yer verilir, detallaşdırma aparılmır.

"O gecə toy idi,
Mən qonaq, sən qonaq,
Bir hava çalındı
İkimiz oynayaq
Bir addım mən atdım,
Bir addım sən atdın" [Nüsrət Kəsəmənli]

Lirika əsasən kiçik formalarda – şeirlərdə ifadəsini tapır. Müasir nəzm əsərləri şeir və poema kimi iki qola ayrılır. Poema orta ölçülü lirik və ya lirik-epik formalı, nəqletmə şəklində qurulan süjetə malik əsərdir.

Ədəbi növlərdən ikisi – epik və dram növləri nəsrə, lirika isə nəzmə aid edilir. Onu da qeyd edək ki, dram əsərləri lirik formada qələmə alına bilər. Bu halda dram həm formaca, həm də ekspressiya baxımından lirikaya meyl edir. Belə dramların təsiri daha güclü olur.

Dramatik əsərdə epik bədii mətnlərdə olduğu kimi hadisələr sırası, iştirakçıların fəaliyyət və əməlləri, onların qarşılıqlı münasibətləri canlandırılır. Bu növlü bədii mətnlərdə də müəllif inkişaf edən fəaliyyət prinsiplərini rəhbər tutur. Bununla belə, dramda hadisələr nəql və ya təsvir edilmir. Müəllif nitqi bu ədəbi növdə yardımçı və epizodikdir. İştirak edənlərin siyahısı, onlar barədə qısa məlumatlar, fəaliyyətin məkanı və zamanı haqqında informasiya, pərdələrin və epizodların əvvəlindəki şəraitin səhnə təsvirləri, eləcə də qəhrəmanların ayrı-ayrı replikalarına aid şərhlər, onların hərəkətləri, mimika və jestlərinin, həmçinin danışıq intonasiyaları haqqında məlumatların verilməsi də yardımçı səciyyə daşıyır. Belə müəllif nitqləri remarkalar adlanır və dramlarda müəllif nitqi ancaq bundan ibarət olur. Remarkalar dram əsərlərində əlavə mətni təşkil edir. Əsas mətn personajların söyləmləri, replika və monoloqlarından ibarət olur. Dramaturq epik əsərin yaradıcısının istifadə etdiyi predmeti təsvir vasitələrinin yalnız cüzi qismindən bəhrələnir. Dram səhnə tələblərinə uyğunlaşdırılmış şəkildə yazılır. Dram ədəbi növündə qəhrəmanların özlərinin nitq təqdimatı, dialoq və monoloqlar aforizm və sentensiya ilə zənginliyi, effektiv təsiri gücü ilə seçilir. "Kənara) remarkası ilə verilən replikalar şərti səciyyə daşıyır. Belə hesab olunur ki, onlar səhnədə olan başqa personajlar üçün mövcud deyil, yalnız tamaşaçılar bi nitqi eşidir. Qəhrəmanların təklikdə söylədiyi monoloqlar da tamaşaçılar üçün deyilir. Bu formalar, əslində, daxili nitqin canlandırılmasının səhnə üsuludur. Dram növlü əsərdə nitq çox zaman bədii-lirik nitqə yaxınlaşır. Bu baxımdan dram növü epik başlanğıcla (hadisələr ardıcıllığı) lirik ricəti (nitq ekspressiyasını) özündə birləşdirir.

Dramaturgiyada predmet fəaliyyətdə təsvir olunur. Oxucu və ya tamaşaçı baş verən hadisələri seyr edir. Dram əsərləri tamaşaya qoyulmaq üçün yazılır və səhnədə oynanılır. Təbii ki, bu növdə olan bütün əsərlərin teatr tamaşaları olmur. Ona görə də oxucu bu növdə əsəri kitabdan da oxuya bilir. Belə olan halda hadisələr sanki oxucunun gözləri qarşısında canlanır. Müəllifin nitqi remarkalarda, personajların replikalarında adda-budda səslənir.

Qeyd edilən ədəbi növlərin hər biri janrlara bölünür. Janr ümumi məzmun və forma əlamətlərinə görə birləşmiş əsərlər qrupudur. Roman, hekayə, povest, poema, komediya, şeir və s. bu qrupları əmələ gətirir. Ədəbiyyatşünaslıqda ədəbi növ anlayışından da istifadə olunur. Ədəbi növ janrdan geniş anlayışdır. Məsələn, roman bədii ədəbiyyat növü, romanın müxtəlif növləri (tarixi, psixoloji roman, roman-pritça, roman-antiutopiya və s.) janrlar sayılır.

Janr tarixən yaranmış və inkişaf etmiş ədəbi əsər tipidir (bədii, publisistik, elmi və s.). Məsələn, roman, monoqrafiya, reportaj, müsahibə və s. Ənənəvi olaraq bədii janr adı altında bədii əsər tipləri birləşdirilir. M.M.Baxtin müxtəlif mətn tiplərini tədqiq etmək üçün vahid metodologiyanın işlənib hazırlanmasını vacib sayır, "nitq janrları" anlayışını irəli sürürdü. Nitq janrı mətnin nisbi dayanıqlı tematik, kompozisiya və üslub tipidir. Nitq janrının əsas xüsusiyyətlərinə onun fərdi münasibətdə obyektivliyi və normativliyi, tarixiliyi, müəyyən dövrdə sosial həyatın konkret şəraiti ilə bağlı adamlar tərəfindən yaradılması, gerçəkliyi xüsusi qiymətləndirmə münasibətilə səciyyələnmə, fərdləri sosiumda birləşdirmə funksiyasını reallaşdırma, yaradıcılıq məhsulu olma və s. aid edilir. M.M.Baxtin bir sözlü məişət replikasından tutub elm və ədəbiyyatın irihəcmli əsərlərinə qədər hər cür mətni nitq janrı adlandırmışdır [8]. Mətnin mühüm konstitutiv xüsusiyyəti nitq subyektlərinin dəyişməsi və bitkin tamlıq hesab edilir.

Povest orta və ya irihəcmli əsər olub, hadisələr haqqında onların təbii ardıcıllığı ilə danışır. Romandan fərqli olaraq povestdə material xroniki qaydada çatdırılır, kəskin süjet, qəhrəmanın daxili aləminin təhlili verilmir. Povestdə qlobal tarixi səciyyə daşıyan məsələlər qoyulur.

Roman insanı onun formalaşma və inkişafetmə prosesində təsvir edən çoxproblemli bədii əsərdir. Romandakı hadisələr daxili və xarici konfliktlərlə zəngin olur. Nizaminin poemalarını mənzum roman adlandırırlar. Roman-epopeya tarixi dönəmlərdə xalq həyatını təsvir edən bədii əsərdir. Məsələn, S.Rəhimov "Şamo", L.Tolstoy "Hərb və sülh", M.Şoloxov "Sakit Don" və s.

Hekayə məhdud miqdarda personaja malik olan epik əsərdir. Hekayədə, adətən, bir problem qoyulur, bir hadisədən bəhs olunur. Novella gözlənilməz finalı ilə hekayədən fərqlənir.

Pritça alleqorik formada olan əxlaqi nəsihətnamədir. Pritçada təmsildən fərqli olaraq bədii material insan həyatından götürülür.

Dram kəskin konfliktli olub faciə ilə müqayisədə qəhrəmanın ölümü ilə nəticələnməyən, münaqişənin bu və ya başqa şəkildə həllini tapdığı bədii əsərdir. Komediya xarakterlər, hadisələr gülməli formada nəql edilən dram növüdür. Faciə kəskin həyati münaqişəli, əsas qəhrəmanın ölümü ilə nəticələnən dram növüdür.

Bədii əsərlər də müəyyən janrlara bölünür. *Hekayə, novella, oçerk, esse, povest, roman, şeir, bayatı, nağıl, dastan* və s. ədəbiyyata aid olan bölgünün vahidləridir. Onların hər biri müəyyən xüsusiyyətləri əsasında təyin olunur. Bu xüsusiyyətlər arasında əsərin həcmi, forması, nəqletmə üsulu, yazılma forması kimi müxtəlif məsələlər yer alır. Şübhəsiz ki, sırf ədəbi təyinetmə linqvistik təyinetmədən fərqlənir. Çünki ədəbiyyatda daha çox əsərin ədəbi-bədii dəyəri, onun məzmunu, yazılma və yaradılma forması əsas götürülür, obrazların daxili aləmənin açılması nəzərə alınır. Linqvistika isə müəyyən əsərin yaradılmasında dilin müxtəlif səviyyə vahidlərinin işlənmə xüsusiyyətləri, onların bir-birini izləməsi, bir-biri ilə yaxın və uzaq ətrafda işlənməsi, yəni distributiv imkanları, eləcə də üslubdan asılı olaraq əsərin kəsb etdiyi xüsusiyyətləri ön plana çəkir.

Janr tarixi kateqoriyadır. Bu və ya digər dövrdə müəyyən janr daha populyarlığı ilə diqqəti cəlb edə bilər. Bədii ədəbiyyat xalq yaradıcılığı, folklor kimi meydana gəlmiş və müəllif yaradıcılığına keçmişdir. Ona görə də bədii ədəbiyyatın şifahi xalq ədəbiyyatı və müəllif yaradıcılığı qolları vardır. Onu da qeyd edək ki, epik, dram və lirika növlərinin hər biri xalq və müəllif növü olmaqla iki qrupa bölünür. Xalq epik növünə mif, epos, dastan, nağıl, rəvayət, əfsanə, ballada, pritça,

tapmaca, yanıltmaca, lətifə daxildir. Müəllif epik növünə roman, povest, hekayə, novella, ləitifə, pritça, ballada, ədəbi nağıl, esse aid edilir.

Xalq dram növündə oyun, mərasim, tamaşa yer alır. Müəllif dram növündə faciə, komediya, dram, vodevil janrları vardır.

Lirikanın xalq növündə mahnılar, el nəğmələri, müəllif növündə oda, himn, elegiya, sonet, qoşma, müxəmməs, qəzəl, şeir, madriqal, həcv, romans, rondo, epiqramma və s. qeydə alınır.

Zamandan asılı olaraq janr sistemində dəyişmələr baş verir. Məsələn, antik ədəbiyyatda sonet olmamışdır. XVII-XVIII əsrlərdə populyar olan oda janrı indi, demək olar ki, köhnəlmişdir.

Ədəbi janr bədii əsərlərin ümumi forma və məzmun əsasında birləşmiş qrupudur. Roman, povest, poema, hekayə, pritça, novella, esse, mənsur şeir, bəhri-təhvil və s. belə qruplara aiddir. Ədəbiyyatşünaslıqda "ədəbi növ" anlayışından da istifadə olunur. Məsələn, roman ədəbi növ olduqda, onun psixoloji, detektiv, sərgüzəşt, roman, pritça və s. alt növləri fərqləndirilir.

Azərbaycan şifahi xalq yaradıcılığının atalar sözü, zərbi-məsəllər, tapmacalar, bayatılar, acıtma, alqış, and, bədyə, varsağı, vəsfi-hal, qaravəlli, dolama, düzgü, yanıltmac, laylay, lətifə, mif, rəvayət, əsatir, dastan, epos, mahnı, nağıl, öləng, öymə, sınama, sicilləmə və s. növləri vardır.

Azərbaycan aşıq yaradıcılığında şeir növləri rəngarəng və müxtəlifdir. Burada qoşma, ustadnamə, təcnis, bağlama, vücudnamə, qıfılbənd, deyişmə, divani, dodaqdəyməz, dildönməz, zəncirləmə, əlif-lam, gəraylı, gözəlləmə, müxəmməs, cinas, cığa və s. kimi şeir növlərində çoxsaylı bədii nümunələr yaradılmışdır. Azərbaycan klassik ədəbiyyatında da nəzm əsərlərinin növ rəngarəngliyi diqqəti cəlb edir. Klassik ədəbiyyatda qəzəl, qəsidə, qissə, qitə, həcv, ərzi-hal, mədhiyyə, mərsiyyə, məsnəvi, müəşşər, müəmma, mükalimə, mülaimə, münazirə, münacat, mürəbbə, müsəbbə, müsəddəs, müsəmmən, müstəzad, müşairə, nadirə, nəzirə, nəsihətnamə, rübai, rəddü-əcəz, saqinamə, sinəzən, taziyanə, təkbeyt, tərkibənd, tərcibənd, təsdis, təxmis, tövbənamə, fəxriyyə, çarparə və s. şeir növ və şəkillərindən istifadə edilmişdir.

Müasir dövrdə bədii ədəbiyyat nümunələrini nəzm və nəsr əsərlərinə bölürlər. Yeri gəlmişkən qeyd etmək lazımdır ki, lirik-epik şəkildə qələmə alınan əsərlərdə vardır. Ümumiyyətlə, bədii yaradıcılığın nəzmdən nəsrə doğru inkişafı ehtimalı var. Bununla yanaşı, mif və rəvayətlərin daha qədimdə nəsr formasında yayılması istisna oluna bilməz.

"Kitabi-Dədə Qorqud" eposunda nəzm və nəsrin vəhdəti aşkardır. Azərbaycan dastanları da bu qəbildəndir. Azərbaycan dastanlarında həm nəsr, həm də nəzmdən istifadə olunur. Məsələn, «Kitabi-Dədə Qorqud» eposu epik-lirik növdədir. Müasir ədəbiyyatda bəzi müəlliflərin epik-lirik növdə yaratdıqları əsərlər də az deyildir.

Nəsr əsərləri hekayə, povest, roman kimi üç əsas növə bölünür. Bununla yanaşı, bədii yaradıcılıqda novella, mənsur şeir, esse, pritça, nağıl, təmsil kimi kiçik janrlı əsərlər də yazılır.

Müxtəlif xalqların ədəbiyyatında fərqli növdə olan bədii əsərlər yer alır. Məsələn, oda, sonet, romans, rondo, epiqramma və s.

Dramaturgiyada dram və pyes növləri geniş yayılmışdır. Dram əsərlərinin faciə və komediya janrları arasındakı fərqlər onların dil və üslub məsələlərinə ayrı-ayrılıqda baxmağa əsas verir.

Mətnlərin təsnifi məsələsi ilə bağlı araşdırmalarda «mətnin tipi» anlayışından geniş istifadə olunur. Müasir kommunikativ dilçilikdə «mətnin tipi» anlayışı «mətnin janrı» termini ilə eyniləşdirilir. Nəticədə mətn tipi eyni funksional xüsusiyyətli, eyni şəkilli dil və üslub aktuallaşmasına məruz qalmış mətn sinfi kimi təzahür edir.

Mətnlərin funksional-kommunikativ siniflərinə məişət danışıq dili mətnləri, publisistika və mətbuat mətnləri, elmi mətnlər, rəsmi mətnlər və s. aid edilir. Belə siniflərdən hər biri üçün vahid konstruktiv parametrlər səciyyəvidir. Həmin parametrlər aşağıdakıları özündə birləşdirir: 1) müəyyən sosial ünsiyyət sahəsinə aid əsas ictimai-kommunikativ məqsəd; 2) sosial ünsiyyət sahəsinə aid kommunikasiya predmeti; 3) kommunikasiya aktının həyata keçirildiyi şəraitə uyğun əlamətlər; 4) kommunikativ şərait üçün səciyyəvi olan ünsiyyət kanalı.

Müasir dilçilikdə mətnin formaları, tipləri, janrları ilə bağlı müxtəlif elmi fikirlər və bölgülər vardır. Bu bölgülər biri əsasında təyin olunan mətn tiplərinin başqa bölgü əsasında müəyyənləşdirilən formalarla qarşılıqlı müqayisəsi müəyyən ziddiyyətləri üzə çıxarır. Bu ziddiyyətlərin meydana çıxmasının əsas səbəbini, zənnimizcə, mətnin hansı aspektdən tədqiq olunmasıdır.

ƏDƏBİYYAT

1. Гальперин И.Р. Текст как объект лингвистического исследования. Москва, Наука, 1981, 134 с.
2. Белянин В. П. Основы психолингвистической диагностики: модели мира в литературе. **Москва,** Тривола, **2000,** 248 с.
3. Адмони В.Г. Система форм речевого высказывания. Москва, Наука, 1994, 151 с.
4. Пищальникова В.А. Проблемы лингво-эстетического анализа художественного текста. Барнаул, 1984.
5. Маслова В.А. Филологический анализ художественного текста. Минск, 2000.
6. Мурзин Л.Н., Штерн А.С. Текст и его восприятие. Свердловск, 1991
7. Rzayev Y. Əks-səda. Bakı, Gənclik, 1981, 103 s.
8. Бахтин М.М. Эстетика словесного творчества. Москва, Искусство, 1979, 423 с.

Açar sözlər: mətn, bədii mətn, ədəbi növ, janr, roman, povest, epos, dram, lirika
Ключевые слова: текст, художественный текст, литературный вид, жанр, роман, повесть, эпос, драм, лирика
Key words: text, literary text, literary genre, genre, novel, epos, drama, lyrics

Ədəbi növ və janr haqqında

Xülasə

Məqalədə mətnlərin təsnifi, bədii mətnlərin növləri, janrları məsələlərinə baxılır. Mətnlərin təsnifində bədii mətnlər ayrıca növ kimi ayrılır. Bədii mətnlər də daxili bölgüyə malikdir. Məqalədə ədəbi əsərlərin epik, dram və lirika kimi üç əsas növə ayrılması və bu növlərin əsas xüsusiyyətləri də araşdırılmışdır. Tarixi kateqoriya olan janrın təyini, ədəbi əsərlərin janrlar üzrə təsnifi, habelə bədii əsərlərin nəzm və nəsr əsərləri olmaqla iki qrupda birləşdirilməsi məsələlərinə münasibət bildirilir. Tədqiqat və təhlil göstərir ki, nəsr və nəzmdən istifadə etməklə yaradılan, qarışıq növlü əsərlər də vardır. Azərbaycan şifahi xalq və aşıq yaradıcılığına aid olan dastanlarda eyni zamanda nəzm və nəsrdən istifadə olunur. Belə nümunələr müasir müəllif yaradıcılığında da qeydə alınır.

О литературной категории и жанре

Резюме

В статье рассматривается классификация текстов, типы художественных текстов и их жанры. Здесь художественные тексты делятся на отдельные виды. Они также имеют внутреннее разделение. В статье анализируются три основных типа литературных произведений, такие как эпос, драма и лирика, и основные черты этих видов. Выражается отношение к определению жанра исторической категории, жанровой классификации литературных произведений, а также объединению произведений в две группы. Исследования и анализы показывают, что есть также работы смешанного типа, созданные с использованием прозы и поэзии. В эпосах устного народного и ашугского творчества Азербайджана также используются проза и поэзия. Такие примеры также исследуются в современных авторских произведениях.

About literary category and genre

Summary

The article deals with the classification of texts, types of literary texts are divided into individual types. They also have inner division. The article analyzes three main types of literary works, such as epics, drama and lyrics and the main features of these types. The article expresses attitude to the definition of the genre of the historical category, the genre classification of literary works, as well as the association of works in two groups. Studies and analyses show that there are also mixed works created using prose and poetry. Prose and poetry are also used in the epics of oral folk and ashug art of Azerbaijan. Such examples are also explored in contemporary author's works.

Rəyçi: dos.E.Vəliyeva

İsmayılova Əfsanə Şəmsəddin qızı[48]

CƏNUBİ AZƏRBAYCAN ŞAİRİ MİRZƏ MEHDİ ŞÜKUHİNİN MƏSNƏVİLƏRİNDƏ KLASSİK ƏNƏNƏ

XIX əsr Azərbaycan ədəbiyyatı tarixinin ziddiyyətli və eyni zamanda janr, mövzu və məzmun baxımından məhsuldar dövrüdür. Bu dövrdə geniş yayılmış şeir formalarından biri olan məsnəvinin klassik üslubla sıx vəhdəti, xüsusilə, Şərq ədəbi ənənələrini davam və inkişaf etdirməsi, yaranmış nümunələrlə Şərqin məşhur məsnəvilərini müqayisə etmək imkanınıyaradır.

XIX əsrin yetirdiyi görkəmli şəxsiyyətlər bütövlükdə Azərbaycan ədəbiyyatının mövcud metod və prinsiplərini əsasən maarifçilik, realizm, ictimai tənqid istiqamətində uğurla inkişaf etdirsələr də, klassik poema yaratmaq ənənəsi bir sıra sənətkarların yaradıcılığında öz mövqeyini saxlayır.Xüsusilə əsrin 50-ci illərindən başlayaraq klassik Şərq poetik üslubuna müraciət azalmağa başlayır, bir sıra nümunələrdə Nizami, Füzuli vəŞərqin digər görkəmli klassiklərindən bəhrələnmə müşahidə olunur. Dövrün məsnəviləri mövzu, süjet problematikasına görə folklor və klassik ənənə ilə vəhdət təşkil edir, əsasən, nəziraçilik klassik ədəbi ənənə kimi öz aktuallığını qoruyub saxlayır. Bir sıra epik məsnəvilərin mövzusu birbaşa xalq yaradıcılığından və klassik ədəbiyyatdan alınsa da, burada tarixi faktların, ictimai-siyasi ziddiyyətlərin təzahürünə də geniş rast gəlinir, XIX əsrdəşifahi xalq şeiri ilə yanaşı, Şərq poeziya üslubunda yazıb-yaradan bir sıra sənətkarlar meydana gəlmişdir ki, onlardan biri də Cənubi Azərbaycan şairi Mirzə Mehdi Şükuhidir. Şükuhi dövrünün görkəmli satiriki olmaqla bərabər, eyni zamanda klassik poetik ənənələri davam etdirənməsnəvilər müəllifidir.

"Münazireyi-Əqlü Eşq" məsnəvisi də belə əsərlərn biridir. Müəllif əsərdəfolklor motivlərinə müraciət etsə də, burada klassik ənənə daha çox dominantlıq təşkil edir. Şükuhi irsinin görkəmli tədqiqatçısı Məhəmmədəli Müsəddiqin fikrincə, bu*əsər Füzulinin "Bəngü Badə", bəzi xüsusiyyətlərinə görə "Leyli və Məcnun" və Əssar Təbrizinin "Mehr və Müştəri" məsnəvisini xatırladır* [4, s. 73]. Lakin, fikrimizcə, "Münazireyi-Əqlü Eşq" əsəri görkəmli alimlər Yolçu Piriyev və Zaman Əsgərlinin də qeyd etdikləri kimi, Füzulinin "Bəngü Badə" məsnəvisinə nəzirədir. Füzulinin poeması kimi alleqorik tərzdə qələmə alınmış bu məsnəvi yersiz müharibələr əleyhinə yazılmışdır. Buna baxmayaraq,əsərdə ətraflı olmasa da məhəbbətlə bağlı səhnələrə də yer verilmişdir. Şükuhi klassik mövzuya müraciət etsə də, buradaminacat, nət, əsərin yazılma səbəbi və s. standart qəliblərdən kənara çıxır, nağılvari şəkildə mövzuya giriş edir:

Bu nəqli həkimi-qissəpərdaz
Bu tərzilə eyləyibdür saz.
Əvvəl var idi cahanda bir şah
Xurşidkolah, asemancah [1, s. 67].

Məsnəvidə alleqorik obrazlar qəhrəmanların daxili aləmini, mənəviyyatını, xarakteristikasını təyin edən xüsusiyyətlərə malikdir. Əsər Ruh adlı padşahın oğlanları - Əql və Eşq adında iki qardaş arasında baş verən konfliktlə başlayır. Əql-işğalçı, şöhrətpərəst, xudbin, hakimiyyət uğrunda qan tökməyə razı olan hökmdardır. Eşq isə, xoşbəxtliyi məhəbbətdə, şən, qayğısız yaşamaqda görür. Padşah Əqli vəliəhd seçərək taxt-tacını ona bağışlayır. İki qardaş arasında sonadək davam edən konflikt də buradan başlayır. Əql Eşqi taxt-taca rəqib hesab edərək öldürtmək qərarına gəlir:

Çün Əql onu gördü mayeyi-nəng,
Məmur qılıb bir-iki sərhəng,
Ta öldürələr onu nəhani,
Afaqidan itsin adı-sanı [1, s. 68].

Əqlin çirkin niyyətindən xəbər tutan Eşq başqa məmləkətə yola düşür. Ölkə valisi Eşqi hörmətlə qarşılayır, Məhəbbət adlı qızını ona ərə verir. Valinin ölümündən sonra ölkəni Eşq idarə edir. İllər sonra Eşqin qızı Hüsnün sorağı Əqlin oğlu Dilin qulağına çatır. Dil dostları ilə qələndər libası geyinir, ov bəhanəsilə ordu toplayıb Hüsnün vətəninə gedir.

Əsərin orijinallığını şərtləndirən əsas xüsusiyyətlərdən biri də şairin klassik və folklor üslublarını vəhdət halında saxlamasıdır. Belə ki, Şükuhi məsnəvinin bu hissəsini nağılvari üslubda qələmə alır. Məlumdur ki, aşiqin görməzə-bilməzə məşuqəyə vurulması, dərviş libasında onun ölkəsinə getməsi, gənclərin bir-birini görərkən bihuş olması dastan və nağıllarda geniş yayılmış motivlərdəndir. Folklora xas epizodlardan biri də Dillə Hüsnün qarşılaşdığı səhnədir. Bağda seyrə çıxmış Hüsn rəfiqələri ilə Dilin çadırına yaxınlaşır, Dili görüb ona vurulur. Hüsnü görən Dilin də bədəni titrəyir, bihuş olub yerə yıxılır. Bu zaman Hüsn belə bir məsləhət edir ki:

Bica yerə etməyin təəssüf,
Əzasinə cin edər təsərrüf.
Etsə, edəcək bu dərdə dərman,
Əlbəttə, ocaği-Şeyx Sənan [1, s. 73].

Dilin onun məmləkətinə gəlməsini eşidən Eşq qoşun toplayır və Dili axtararkən Əqlin sərhəd kəndlərini talan edir. Bundan qəzəblənən Əql güclü qoşunla Eşqə müharibə elan edir. "Aqil eyləməz cəng" - deyən Eşq müharibə etmək istəmir, lakin qardaşı nə qədər güclü rəqib olsa da, müharibə meydanından çəkilmək də onun xarakterinə ziddir. Odur ki, Eşq əzmlə döyüşüb qalib gəlir. Eşq öz müsbət keyfiyyətlərini burada da nümayiş etdirir. O, Əqldən xərac alsa da, taxt-tacını özünə

[48] **AMEA M.Füzuli adına Əlyazmalar İnstitutunun dissertantı. efsane.ismayilzade@inbox.ru**

qaytarır, Dillə Hüsnün xoşbəxtliyinə razı olur. Əsər boyu bütün epizodlarda Şükuhinin Eşqə olan rəğbəti açıq-aşkar hiss olunur. Poemanın əsas ideyasını insanlara ağılla eşqin vəhdətini dərk etdirmək, insanların ruh dünyası ilə yaşadığı mühit arasında ziddiyyət təşkil etsə də, əsər nikbin sonluqla bitir.Məlumdur ki, Məhəmməd Füzuli "Bəngü Badə" məsnəvisində Bənglə Badə arasındakı konfliktə, yersiz müharibələrə, mənəm-mənəmlik, şöhrətpərəstlik kimi mənfi xüsusiyyətlərə öz etirazını bildirmişdir. Tədqiqatçı Yolçu Piriyev hər iki əsərdə bənzər beytləri öz tədqiqatında göstərmişdir[2, s. 55]. Alimin fikrinə əlavə olaraq deyək ki, hər iki əsərdə müxtəlif situasiyalar zamanı beytlər daxilində hətta eyni ifadələrə rast gəlinir ki, bu, da Şükuhinin Füzulidən bəhrələndiyini bir daha təsdiq edir. Məsələn:

Füzulidə:

Bəsi evlər xərabdır səndən,
Çox bağırlar kəbabdır səndən [2, s. 250].

Şükuhidə:

Aləm hami dilkəbab səndən,
Çox evlər olu xərab səndən [1, s. 81].

Füzulidə:

Göndərəm qasid ilə, pənd verəm,
Bir neçə pəndi-sudiməndverəm [2, s. 237].

Şükuhidə:

Vermə mənə pəndi-sudiməndi,
Get,ver özüvə bu novi pəndi [1, s. 85].

M.Müsəddiqin fikrincə, "Münazirəyi-Əqlü Eşq"in digər klassik poemalardan fərqi alleqorik şəkildə yazılmasına baxmayaraq, əsərdə əsatir, əfsanə, sufizmin mistik cəhətlərinin olmamasıdır [4, s. 75]. Ümumiyyətlə, əsər realist xarakter daşıyır. Müəllif burada qəliz ərəb-fars tərkibli ifadələrə çox yer vermişdir. Odur ki, yazılma tarixi arasında 3 əsr olmasına baxmayaraq, "Bəngü Badə" poemasının dili daha anlaşıqlıdır.

Şükuhinin avtobioqrafik səciyyəli "Şükuhinin vəsfi-halı" adlı məsnəvisi isə şairin fələk və zəmanədən şikayətindən, ötüb keçən gəncliyi üçün göz yaşı axıtmasından bəhs edir. Əsər qocalığın təsviri ilə başlayır. Şair ötüb keçmiş cavanlığını təəssüflə xatırlayır, saçlarının ağarmasının, nəfəsinin zorla gedib-gəlməsinin səbəbini fələyin amansızlığında görür:

Cavanlıq gedib bilmədim qədrini,
Necə görmədim, arizi bədrini [1, s. 161].

Xəstəhal qəhrəman əl-ələ gəzən gənclərə həsrətlə baxıb göz yaşı axıdır. Ondan kimliyini soruşan gözələ gülərək zarafatyana "Mən sənə aşiqi-müstəmənd" deyən şair qızın onu ələ salmasından qüssələnir. Nazənin ağsaçlı şairin eynəyinə və əlindəki əsaya gülərək, onu "yel dəmində yuna bənzədir":

Nə kaftarə ahu olur həm nəfəs?
Nə zağ ilə bülbül gərək həmqəfəs?
Səninki tutar piri-fərtut ilə,
Cənazə münasibdi tabut ilə [1, s. 64].

Özünü "bəxti qarə" adlandıran şair onun bu hala düşməsinin səbəbini qocalıqda yox, möhnət, qəm-qüssədə görür. Tay-tuşlarından heç kəsin qalmadığını düşünən Şükuhi yaşamağın gözəlliyini dərindən dərk edir, tezliklə dünyadan köçəcəyinə təəssüf edir.

Y.Piriyev yazır: "*Şair əsərində gənclik günlərini xatırlamaqla heç də öz peşmançılığını ifadə etmək istəməmişdir. Burada gəncliyə ömrü mənalı keçirmək üçün bir çağırış vardır*" [192, s. 61-62]. Y.Piriyevin mülahizəsi doğru olsa da, qeyd edək ki, burada zəmanədən şikayət motivləri də çoxdur. Qocalıq təbiətin qanunlarından biri olsa da, şair vaxtından əvvəl qocalmasını keçirdiyi acınacaqlı yaşayış tərzi ilə əlaqələndirir.

Dedim: Qarədir, bəs ki bəxtim mənim,
Nə bəxtimdir oğlan, nə vəqtim mənim.
Olanda Kərimxan giytifüruz,
Deyildi mənim buğ yerim tər hənuz.
Tökən nuzladır dürri-dəndanımı,
Bükən qüssədir qəddi-çövkanimi [1, s. 64-65].

Məsnəvi məzmununa görə Nizaminin "Qocalıq" qəsidəsini xatırladır. Həyat ağacının kölgəsiz, budağının bəhərsiz qaldığını acı təəssüf hissi ilə qələmə alan dahi Nizami də bəzən qocalığı ilə barışmayıb, fələyi günahkar bilir:

Bu əyri qədli fələklər qazır məzar mənə,
Bəyazı saçlarımın eylər əcəl haqda xəbər [3, s. 134].

Şükuhi də Nizamidə olduğu kimi, bədii təsvir vasitələrinə yaradıcı şəkildə yerli-yerində müraciət edir, gənc ikən insanın malik olduğu "bülbül zənguləsini" bayquş səsinə bənzədir. Nizami:

Yetişdi ömr sona, istəyirəm bayquş tək
Gələndə qəm şərqindən yeni ulduzlu səhər [3, s. 134].

Şükuhi isə deyir:

Zəmani ki, bayqu kim, bannaram,
Özüm nitqə gəlləm, özüm annaram [1, s. 62].

Öz dahi sələfi kimi Şükuhi də qocalığı insan ömrünün qışı, ağ saçları dağ başındakı qara bənzədir. Şükuhinin:

Ağardı mənim hər tüküm bərfvar,
Məhasın sifidəm, siyəh rüzigar [1, s. 62].

- beyti sanki Nizaminin:

Ağardı saç, başıma sanki qalın qar yağdı,
Vücud çardağı uçmaqla görrəm indi xətər [70, s. 136].

- misralarının davamıdır.

Hər iki şair qüvvətli təzadla ağ saçları qara rüzigarın nəticəsi kimi təsvir edir. Onların yeganə həmdəmi gəncliyi, dünyadan köçmüş dost-tanışları üçün axıdılan göz yaşlarıdır. "Olub ömrümün çar fəsli təmam" ömrünü dərd-möhnət içərisində başa vurduğu üçün təəssüflənir:

Gözüm ağlar oldu, çox oldu yaşım,
Çox olduqca yaşım, çox oldu yaşım [1, s. 61].

Göründüyü kimi, şeirdə Şükuhinin yaşadığı mühitdən şikayət əsas yer tutur. Nümunələrin eyni məzmun çalarlarına malik olması ilə bərabər, bir sıra beytlərdə məcazların təqlidi Şükuhinin Nizamidən bəhrələnməsini aşkar şəkildə göstərməkdədir.

Məlumdur ki, klassik poeziyada əsas yer tutan motivlərdən biri də peyzaj lövhələridir. Şükuhinin də yaradıcılığında təbiət təsviri özünəməxsus səciyyə daşıyır. Poetik ənənəyə uyğun olaraq klassik bahariyyə mövzusuna müraciət edən şair təbii boyalarla işlənmiş bədii təsvir və ifadə vasitələrinə müraciət edərək mükəmməl peyzajlar yaradır:

Çəkərdi nalə bülbül sübhgahi,
Edərdi zikr təsbihi-ilahi.
Xəzandan bağrı dağlı lalə dağə
Çıxıb etsin təmaşa bağü rağə.
Geyinmiş səbz xələt bidü şümşad,
Səbadən rəqsə gəlmiş sərvi-azad [1, s. 94].

Göründüyü kimi,Şükuhinin məsnəviləri sabit poetik struktura malik olması ilə yanaşı, mövzu etibarilə də klassik Şərq poeziyası ənənələrini davam etdirmişdir.

Novatorluq bacarığının nümayişi, ənənəvi mövzulara yaradıcı münasibət, xüsusən ana dilinin bütün zənginliklərindən istifadə etməklə, qəhrəmanların daxili aləmini, əhval-ruhiyyətlərini inandırıcı təsvir etmək Şükuhi məsnəvilərində öz inikasını tapmaqdadır.Şairin əsərlərini nəzərdən keçirdikdə bir daha aydın olur ki, Azərbaycan klassik ədəbiyyatını ümumşərq ədəbiyyatı kontekstindən ayrı təsəvvür etmək mümkün deyildir. Bu baxımdan Mirzə Mehdi Şükuhi yaradıcılığında humanizm ideyalara, saf məhəbbətə, zəhmətə və elmə çağırış, sosial bərabərsizliyə, dini xürafat və ədalətsizliyə qarşı mübarizə klassik üslubun fonunda təzahür edir.

Ədəbiyyat

1. Cənub ulduzları / tərt.ed. Ə.Hüseyni, Y.Piriyev). – Bakı: Yazıçı, – 1984. – 271 s.
2. Füzuli, M.S. Əsərləri. [6 cilddə] /M.S.Füzuli, tərt. ed. H.Araslı. – Bakı: Şərq-Qərb, – c.2. – 2005. – 336 s.
3. Gəncəvi, N.Y. Lirika / N.Y.Gəncəvi, elmi red. X.Yusifli. – Bakı: Lider nəşriyyatı, –2004, –160 s.
4. Müsəddiq, M.H. Mirzə Mehdi Şükuhi: Həyat və yaradıcılığı / M.H.Müsəddiq. – Bakı: Yazıçı, – 1988. – 126 s.
5. Piriyev, Y. XIX əsr Azərbaycan ədəbiyyatında poema janrı / Y.Piriyev. – Bakı: Yazıçı, – 1988. – 182 s.

Açar sözlər: XIX Cənubi Azərbaycan, Mirzə Mehdi Şükuhi, məsnəvi, klassik üslub, poema.

Ключевые слова: XIX век, Южный Азербайджан, Мирза Мехти Шукухи, маснави (двустишие), классический стиль, поэма.

Key words: XIX century, South Azerbaijan, Mirza Mehdi Shukuhi, distich (masnavi), classic style, poem.

КЛАССИЧЕСКАЯ ТРАДИЦИЯ В МАСНАВИ ЮЖНОГО АЗЕРБАЙДЖАНСКОГО ПОЭТА МИРЗА МЕХДИ ШУКУХИ

Резюме

Мирза Мехди Шукухи - один из самых известный деятелей во второй половине XIX века в литературе Южного Азербайджана. Известно, что в XIX веке в развитии художественной литературы классический стиль играл важную роль. В своем творчестве талантливый поэт Шукухи обращался к Низами, Физули и другим классикам Востока и создавал интересные произведения.

THE CLASSICAL TRADITION İN THE MASNAVIES OF THE SOUTH AZERBAIJAN POET MIRZA MEHDI SHUKUHI

Summary

Mirza Mehdi Shukuhi one of the prominent poets of South Azerbaijan literature in the second half of XIX century. It is known that

In the 19th century, the classical style played an important role in the development of fiction literature. In his work, the talented poet Shukuhi turned to Nizami, Fuzuli and other classics of the East and created interesting works

RƏYÇİ; dos.N. Əfəndiyeva

Vaqif Allahverdiyev[49]

ALTMIŞINCI İLLƏR AZƏRBAYCAN POEZİYASININ İNKİŞAFINDA YENİ MƏRHƏLƏ KIMI

1950 – ci illərin ikinci yarısında cəmiyyətdə baş verənsiyasi – içtimai islahatlar keçmişSSRİ-nin totalitar rejiminin zaman – zaman möhkəmləndirib keçilməz qalalara çevirdiyi sərhədlərinin üzərindəki qara pərdələri qaldıraraq dünyaya pəncərə açmaq üçün müəyyən imkanlar yaratdı. Mədəniyyət xadimləri, o cümlədən şair və yazıçılar az da olsa xarici mühitlə ünsiyyətə girməyə, onunla əlaqə saxlamağa nail ola bildilər.

Ədəbiyyatın başqa janrları içində daha çevik və operativ sahə sayılan poeziya cəmiyyətdə və mədəni mühitdə baş verən bu dəyişikliklərə ilkin reaksiya verməklə, qısa bir müddətdə yeni ruhlu və ideya – bədii cəsarətilə seçilən əsərlərlə zənginləşməyə başladı. Artıq obrazlı təfəkkür tərzinə qovuşmağa başlayan poeziyada sözçülüyün, təsvirçiliyin , fikrin birbaşa ifadə vasitələrinə, zahiri patosun daxili əlamətlərlə , insanın mənəvi aləminə nüfuz edən bədii çalarlarla, patetik vəst və tərənnümün müəyyən milli – içtimai etirazlarla əvəz edilməsi prosesi get - getdə güclənməyə başladı.

R.Rza bu yeni mərhələnin ilk pillələrində ədəbi həyatda hadisəyə çevrilən"Qızıl gül olmayaydı" kimi dərin siyasi – içtimai səciyyə daşıyan üsyankar ruhlu poetik faciəsini yaratmaqla poeziyada və ümumiyyətlə ədəbi – içtimai fikirdə dönüş məqamının əsasını qoydu.

A.Tvardovskinin " Üfüqlərdən – üfüqlərə" və V. Loqovskoyun "Əsrin ortaları" poema – epopeyaları ilə ideya – bədii səciyyə baxımından yanaşı dayanan bu əsər tezliklə özünün təsir dairəsini genişləndirdi. Poeziyamızda represiya illərinin faciələrini və ümumiyyətlə sovet dövründə baş verən ayrı –ayrı ədalətsizlikləri və haqsızlıqları müxtəlif vasitələrlə əks etdirən dolayı və sətraltı misralar çoxalmağa başladı.

"Qızıl gül olmayaydı" əsərində alovlu və talesizşair Mikayıl Müşfiqin həyatının bəzi məqamları fonunda bütöv bir tarixi dövrün, siyasi –içtimai və həm də ədəbi mühitin səciyyəvi mənzərələri əks etdirilir. R.Rza poeziyasının tədqiqatçılarından Arif Abdullazadənin qeyd etdiyi kimi "bu mənada Müşfiqin obrazında ümumiləşdirilən "Qızıl gül olmayaydı" poemasının əsas qəhrəmanı 30 –cu illərin , daha doğrusu bu illərin faciəli hadisələridir.Ədəbiyyatda həmişə öncüllərdən olan novator şair R.Rza bu poemasında da həmin illərin əsl iç üzünü açan ilk ədib oldu. (1 -96)

1950 – ci illərin ikinci yarısında xarici səfərlərə Şərq ölkələrindən başlayan R.Rzanınilk baxışda təkcə səfər təəssuratlarısəciyyəsi daşıyan bir sıra şeirləri həm də onun novator axtarışları yollarında obrazlı təfəkkür tərzinə qarşısıalınmaz meylinin konkret ədəbi məhsullardan ibarət idi.Belə obrazlı ifadələr, forma əlvanlığı ilə seçilən "Əlcazair meydanında" , "Açın qapıları - insan gəlir", "hələ bu harasıdır" kimi şeirləri bu dövrdə sanki ikinci nəfəsi açılan R.Rzanın yaradıcılığında "Qızıl gül olmayaydı" poeması ilə başlanan tamamilə yeni bir mərhələnin davamı sayıla bilər.1957 –ci illərdə xarici səfərlərini Avropa ölkələrində Fransa, İsveçrə, Türkiyə, Hollandiya, İtaliya, Yunanıstan, Bolqarıstan və Ruminiyada davam etdirən şair

Xurmaları daşıdılar gəmi –gəmi,
Ərəbə bir qamış daxma qaldı,
Bir də dərdi qəmi - (4 -15)

kimi Şərq ölkəsindən aldığı ilkin təəssuratları daha ətraflıvə monumental siyasi-içtimai mövzularla genişləndirir. Bu silsilədən olan "Luvr", "Zəfər ilahəsi" , "Miloslu qızı" kimi Fransa həyatına həsr edilmiş şeirlərdəki daxili genişlik və məna çalarları xüsusilə fərqlənir.

Obrazlı poetik təfəkkürün artıq sistem halına düşdüyü bu yaradıcılıq mərhələsinin sonlarına yaxın R.Rzanın qələmə aldığı "Mən torpağam", "İnsan şəkli", " Soruş" kimi şeirləri və"Bir gündə insan ömrüdür" poeması ümumilikdə poeziyamızın inkişaf problemlərinin konkret zaman vahidində xüsusi səciyyəsi baxımından maraq doğurur. Bu əsərlərlə şeirdə fikir məsələsilə əlaqədar olaraq "fikir poeziyası" anlayışı ədəbi termin mənasını almağa, xüsusi bir istiqamətə çevrilməyə başlayır. Çünki buarada obrazlı ifadə tərzi ilə poetikləşən fikir adi fəlsəfi konsepsiya, didaktik nəsihətçilik çərçivəsindən çıxaraq əsl poeziya materialı kimi komponentləşir, ümumi kompleksin ayrılmaz tərkib hissəsinə çevrilir.Sözçülük, təsvirçilik, ritorik pafos belə əsərlərdə özünə yer tapa bilmir.

1950 – ci illərin sonları, 1960 – ci illərin əvvəllərinin poeziyası ədəbiyyata bir sıra istedadlı gənclərin –mahiyyət etibari ilə tamamilə yeni bir ədəbi nəslin gəlməsi ilə də əlamətdadır. Bu prosses həm də poeziyada obrazlı poetik təfəkkürün xüsusi inkişaf səviyyəsinə yüksəlməklə,assositiv ifadə tərzinə keçid mərhələsinə təsadüf edir. Ədəbiyyata yenicə qədəm basan şairlərdən Ç. Novruz, T.Bayram, H.Həsənzadə, X.Rza , Ə.Kürçaylı kimi gənc şairlər daha çox ənənəvi forma və patetik ifadə tərzinə,Ə.Kərim, M.Araz, S.Tahir, F.Qoca, F.Sadiq, İ.İsmayılzadə, A.Abdullazadə obrazlı poetik təfəkkürə , Ə.Salahzadə, V.Səmədoğlu isə R.Rza və Ə.Kərimlə başlanan obrazlı assositiv istiqamətə meyl edirlər.

Obrazlı poetik təfəkkür tərzinə keçid mərhələsini daha tez uğurla adlayan , Ə.Kərim, M.Araz və S.Tahir, bir az sonra isəF.Qoca, F.Sadiq, İ.İsmayılzadə, A.Abdullazadə kimi ədəbiyyata 1950 – ci illərin sonlarında gəlmiş gənclərin içində Ə.Kərim daha çox fərqlənir. Hələ ilk qələm təcrübələri hesab edilən "Qaytar ana borcunu" , xüsusən " İki sevgi" şerləri ilə oxucuların rəğbətini qazanan Ə.Kərimin bu mərhələdə hər bir sözə və misraya poetik çəki və sanbal vermək, fikrin obrazlı ifadəsinə nail olmaq bacarığı dərhal diqqəti cəlb edir. Poetik müqayisə və paralellər aparmaq, orijinal bənzətmə və teşbehlər axtarmaq onu əsl poeziya yoluna çıxaran əsas cəhətlərdəndir. Bu axtarışlar şairin eyni dövrdə qələmə aldığı "Kürə yağış

[49] **ADPU- Ağcabədi filialının dosenti**

yağırdı", "Fəhlələr", " İtki ", "Qayıt ", " Yox, mənə deməyin ", "Füzuli"kimi şeirlərində və "İki simfoniya" poemasında daha uğurlu tapıntılarla nəticələnir.

Sözə qiymət vermək, onu misra daxilində yerində və fikir elementi kimi işlətməyi bacarmaq,misra və bəndlərin məna dəyərini və tutumunu gücləndirməklə ümumilikdə şeirin obrazlı poetik sistemini qorumaq M.Araz poeziyasınında hələ ilk nümunələrindən hiss edilməyə başlayır. Doğrudur, 1950 – ci illərin ortalarında -M.Araz ilk şeirlərini çap etdirdiyi dövrdə bu cəhətlər hələ 1970-ci illərdəki kimi dolğunluq və tamlıq mahiyyəti kəsb etmirdi.M.Araz şeirində hələ həmin o 1970 – ci illərin yüksək səviyyəsinə təbii və ardıcıl hazırlıq prossesi gedirdi. Ancaq bu illərdə yazdığı əsərlərdə də obrazlı ifadə tərzinə meyl, Ə.Kərimin ilk şeirlərində olduğu kimi, açıq-aşkar hiss edilir. Daha çox təbiət və məhəbbətlirikasına üstünlük verən şairin bu və ilk mərhələdəki torpağa, vətənə bağlılıq hissini ifadə edən şeirlərində də konkret detallar və onların vasitəsilə təbliğ edilən vətənpərvərlik ruhu aparıcı mahiyyət daşıyır.

Ümumiyyətlə , 1960 – ci illər poeziyası inkişafında istər mövzunun əhatə dairəsi, istər ideya istiqaməti, istərsə də obrazlı ifadə tərzinin yeni və daha mürəkkəb çalarları baxımından xüsusi mərhələ mahiyyəti daşıyır. Poeziyamızın bu yeni səciyyəsi həm də keçmiş Ümumittifaq miqyasında gələcəkdə aparıcı mövqeyə yüksələcək "Yeni dalğa" adlanan ədəbi istiqamətin yaranması ilə əlamətdardır. Rusiyada J.Jevtuşenko, R.Rojdestvenski, A. Voznesenski, V.Axmadulina, Qazaxıstanda O.Süleymenov, Litvada E.Mejalaytıs, Gürcüstanda O.Çiladze, X.Berulov, ÖzbəkistandaA.Aripov, TürkmənistandaA.İtalmaz kimi poeziyaya yeni ruh, yeni nəfəs gətirən və orijinalı fikri ifadə tərzinə malik olan bir sıra şairlər həmin "Yeni dalğa"nın nümayəndələri hesab edilirdilər.Bu dalğanın nümayəndələri həm də poeziyada intellektual başlanğıcın əsas istiqamətverici nümayəndələri kimi qiymətləndirilirlər. Azərbaycanda isə hələlik R.Rza,Ə.Kərim vəM.Arazla yanaşı, F.Qoca, F.Sadiq, İ.İsmayılzadə, Ə.Salahzadə, A.Abdullazadə, V.Səmədoğlu,M.İsmayıl kimi ədəbiyyata yenicə qədəm basan bir sıra şairlər bu ədəbi istiqamətin daşıyıcıları sırasında dayanırdılar.

F.Qocanın hələ 1959 –cu ildə yazdığı "Qaragül dərili quzu", "Risk" və "Öldü varlı ata" kimi milliliklə bəşəriliyin sintezinin uğurlu nəticəsi olan şeirlərilə onun poeziyası onun poeziyası obrazlı – bəşəri mahiyyəti ilə bərbər, həm də milli bəşəri səciyyə qazanır. Bir müddət sonra onları "Dənizdə ay çimində" kitabında " Doğma yurdum,dostlarım" başlığı altında bir yerə toplayıb nəşr etdirən şair eyni kitabda gedən "Kəsə yolla" silsiləsi ilə davam etdirir ki, sonralar bu cəhət onun yaradıcılığının xüsusi istiqamətinə çevrilir.

Bu cəhət F.Sadiq şeirinin də əsas mahiyyətini təşkil edir. Onun bu mərhələdə qələmə aldığı "Qızıl lalələr", "Gah sevincdir, gah da kədər", "Sizə nə var ki "şeirlərində xüsusən "Gül ləçəkləri" silsiləsindəki poetik parçalarda sözə qənaət, lakoniklik, fikir və məna tutumunun bir neçə misrada obrazlaşdırılması səciyyəsi xüsusi bir poeziya əlaməti kimi təqdim edilir.

Şairin iri həcmli şeirlərində da obrazla poetik detallara tez – tez təsadüf edilir. "İnsan və kainat" silsiləsindən olan "Əgər məndən soruşsalar..", "Mən adicə insanam", "Bir təyyarə uçur", " Afrika - 1960" şeirlərində , M.Ə.Sabirə həsr olunmuş "Ömrün bir günü" poemasında belə poetik detallar, obrazlı ümumiləşdirmələr onun tədricən yaradıcılıq vərdişinə çevrilir. F. Qoca, ondan əvvəl isə Ə.Kərim şeirinin aparıcı mahiyyətini təşkil edən milliliklə bəşəriliyin sintezi onların həmnəsli olan F.Sadığın əsərlərində də aparıcı mahiyyət daşıyır.

1960 – ci illərin əvvəllərindən başlayaraq poeziyamızda obrazlı –assosativ ifadə üsulunu, intellektual başlanğıcın ilk nümunələrinə təsadüf edilir ki, bu da ənənəyə qayıdışın yeni forması kimi qəbul edilməlidir. Xalq şeirində, xüsusən bayatılarda və klassik poeziyamızda ayrı-ayrı nümunələrinə rast gəldiyimiz assosativ bədii təfəkkürün müxtəlif formaları XX əsrin ikinci yarısında özünün poeziyada təkrar doğuluşu ilə yeni mahiyyət kəsb etməyə başlayır.

Assosativ təfəkkürün sistemli şəkildə ilk nümunələrinə R.Rzanın "Rənglər" silsiləsində rast gəlirik. Ancaq hələ bundan əvvəl Ə.Kərimin "Babəkin qolları", "Habilə", "Şəhidliyin zirvəsi", "Başının üstünə bax", "Eyni vaxtda" və elə R.Rzanın özünün "Dəniz nəğmələri" silsiləsində, "Realizm", "Belədir" şeirlərində , "Canavar və quzu", "Buruqların söhbəti" , "Qaranquş və sərçə" kimi obrazlı- alleqorik səpkili poetik nümunələrdə assosativ ifadə tərzinin müxtəlif səciyyələrdə müəyyən əlamətləri ilə qarşılaşırıq.

Ə.Salahzadə şeirində assosativ ifadə tərzinin ilk nümunələri əsasən təbiət təsvirlərində və beynəlxalq mövzularda qələmə alınan poetik parçalarda özünü büruzə verir. Metaforik qarşılaşdırmalar gənc şairin assosativ təfəkkürünün əsas ifadə vasitələrindəndir. Belə əsərlərdə müxtəlif assosativ çalaralara zəmin yaratmaq üçün mövzu ilə əlaqədar olaraq sual-cavab üsuluna müraciət edərək fikrin poetik təqdiminə nail olmağa çalışır.

V.Səmədoğlunun ilk yaradıcılıq mərhələsində - 1960 – ci illərin əvvəllərində yazdığı şeirlərdə isə assosativ ifadə tərzinin istiqaməti bir qədər başqa mahiyyətdə olmaqla, R.Rzanın " Rənglər" silsiləsinin forma xüsusiyyətlərinə yaxınlaşır. İntellektual başlanğıc daxili gərginliyin bir qədər zahiri təmkin və hətta soyuqqanlılıqla ifadə edilməsi onun yaradıcılığına xas olan əsas səciyyə əlamətlərindəndir. Ə.Salahzadədən fərqli olaraq V.Səmədoğlu bəzən sual-cavab üsulunda bir qədər də irəli gedərək şeirin ancaq cavabsız, daha doğrusu, cavabı özündə olan suallar üzərində qurur. V.Səmədoğlunun assosativ mahiyyətli şeirlərində metaforalar xüsusi sistem təşkil etmir, ancaq şeirin özü bütövlükdə metaforik səciyyə daşıyır. Bu cəhət onun bir sıra adsız və "Diogenin çırağı", "Kölgələr", "Araz", " Maqnitafon", "Dünyanın ən ağır qanteli" kimi şeirlərində daha çox nəzərə çarpır.

Şeirimizdə assosativ təfəkkürün daha sistemli nümunəsi də R.Rzanın bu dövrdə qələmə aldığı " Rənglər" silsiləsidir.

"Rənglər" silsiləsi ilk dəfə çap olunduqdan sonra mətbuatda onu qəbul etməyənlərin sayı, tərəfdarlarında qat-qat çox olmuşdur.Tədqiqat göstərir ki, M.Arif, bir az sonra isə G.Əlibəyovdan başqa tənqidçilərin və şair həmkarlarının əksəriyyəti onu "tapmaca" və ya " müəmma" adlandırmış, şeirimizin çoxəsrlik ənənələrinə zidd təhlükəli bir təmayül kimi rədd etmişdir.

Ə.Ağayevdən tutmuş Ə.Hüseynova, hətta R.Rza şeirinin ardıcıl tədqiqatçısı İ.Əbilova qədər bir çox tənqidçilər sonralar bu silsiləyə yenidən qayıdıb onu təqdir etsələrdə, ilk təşəbbüslərində şairlə heç çür razılaşmadıqlarını bildirmişdilər.

Lakin, qısa bir zamanda aydın oldu ki, bu silsilə təkcə Azərbaycan poeziyasının inkişafında xüsusi bir mərhələ təşkil etməklə qalmayıb, ümumilikdə XX əsr dünya söz sənətinin ən yaxşı nümunələri ilə müqayisə edilə bilər.

Beləliklə, ümumilikdə belə bir əsaslı qənaətə gəlmək mümkündür ki, 60 –cı illər Azərbaycan poeziyası mahiyyət etibarilə bir sıra ideya-bədii keyfiyyət dəyişiklikləri və novator axtarışlarının yeni səciyyəsi ilə əlaqələndirdiyindən , yeni bir mərhələ kimi özünü göstərir. Bu inkişaf prosesində ritorik pafosdan , patetik ifadə tərzindən uzaqlaşma, fikrin ifadə tərzində konkretliyə, obrazlı, daha sonra isə assosativ təfəkkür tərzinə keçid və novator keyfiyyətlərinə meyl istiqamətində müxtəlif problemlərlə qarşılaşan həmin dövrün poeziyası öz növbəsində bütövlükdə ədəbiyyatının qarşısında müəyyən problemlər qoymuşdur.

İstifadə olunmuş ədəbiyyat:

1. Arif Abdullazadə " Od nə çəkdi" Bakı, Azərnəşr 1990.
2. Arif Abdullazadə Seçilmiş əsərləri. Bakı, Azərnəşr 1991.
3. Arif Abdullazadə "Şairlər və yollar". Bakı, Elm 1984.
4. Rəsul.RzaSeçilmiş əsərləri. 5 cilddə II cild Bakı Yazıcı 1980.
5. VaqifZaur. "Poeziyanininkişafyolları, Bakı,Ozan 1997.
6. MüasirAzərbaycanədəbiyyatı (Dərslik) Bakı 2007.
7. Azərbaycansovetədəbiyyatı (Dərslik) Bakı "Maarif" 1968.

Açar sözlər: Altmışıncı illər, ideya-bədii, R.Rza, obrazlı, poetik təfəkkür, şair, Assosativ təfəkkür, sözçülük, təsvirçilik, ritorik pafos, poeziya, ifadə üsulu.

Key words: Sixties, idea-artistic, R. Rza, figurative, poetic thinking, poet, Associative thinking, rhetoric, imagery, rhetorical pathos, poetry, method of expression.

Xülasə

Beləliklə, Azərbaycan poeziyası 1960 – cı illərin ortalarına doğru artıq bir sıra yeni ideya-bədii keyfiyyətləri ilə yetkinləşmə mərhələsinə qədəm qoymağa başlayır. Bütün bunlar isə hələ 1960 – cı illərin sonlarında cəmiyyətdə baş verən içtimai - siyasi islahatların ədəbiyyatda, o cümlədən poeziyada da öz əskini tapması ilə mövcud şərait və imkanlardan istifadə etməklə, ədəbi yaradıcılığın ümümi mənzərəsini dəyişmək, sənətdə ideya-bədii cəsarətin səviyyəsini yüksəltmək amili ilə bağlıdır.

Ümumilikdə belə bir əsaslı qənaətə gəlmək mümkündür ki, 60 –cı illər Azərbaycan poeziyası mahiyyət etibarilə bir sıra ideya-bədii keyfiyyət dəyişiklikləri və novator axtarışlarının yeni səciyyəsi ilə əlaqələndirdiyindən, yeni bir mərhələ kimi özünü göstərir. Bu inkişaf prosesində ritorik pafosdan, patetik ifadə tərzindən uzaqlaşma, fikrin ifadə tərzində konkretliyə, obrazlı, daha sonra isə assosativ təfəkkür tərzinə keçid və novator keyfiyyətlərinə meyl istiqamətində müxtəlif problemlərlə qarşılaşan həmin dövrün poeziyası öz növbəsində bütövlükdə ədəbiyyatının qarşısında müəyyən problemlər qoymuşdur.

Summary

Thus, in the middle of the 1960s, Azerbaijani poetry begins to enter the stage of maturation with a number of new ideas and artistic qualities. All this is related to the factor of changing the general landscape of literary creativity and raising the level of idea-artistic courage in art by using the existing conditions and opportunities as the social and political reforms that took place in the society in the late 1960s found their reflection in literature, including poetry.

In general, it is possible to come to such a reasonable conclusion that the 60s of Azerbaijani poetry manifests itself as a new stage, as it is essentially associated with a number of ideological-artistic quality changes and a new characteristic of innovative searches. In the process of this development, the poetry of that period faced various problems in the direction of moving away from rhetorical pathos and pathetic expression, moving to concreteness in the way of expression, figurative and then to associative thinking and tending to innovative qualities.

RƏYÇİ: dos. S.Abbasova

Məlahət Osmanova[50]

ÇAĞDAŞ ALMAN ROMANINDA MİLLİ-KİMLİK PROBLEMI
(Multikultutalizmin problemləri müstəvisində)

Azərbaycan-Avropa ədəbi əlaqələrinin yeni kontekstdə öyrənilməsi şübhəsiz ədəbiyyatşünaslığımızda multikulturalizmin və onunla bağlı ədəbiyyatın öyrənilməsi ilə əlaqəli sahələrdəndir. Multikulturalizmdə çoxsayli mədəniyyətlərin birgə mövcudluğundan, insanlar arasında qarşılıqlı anlaşmadan bəhs edilir. Bu baxımdan mədəniyyətlərin qarşılıqlı əlaqəsi, ayrı-ayrı mədəniyyətlərin multikultural cəmiyyət çərçivəsində rolu, onların bir-birinə təsir mexanizmləri haqqında suallar aktuallaşır. Qlobal cəmiyyətin problemlərindən biri müxtəlif mədəniyyətlərin inteqrasiyası ideyasını təşkil edir ki, bu da mədəniyyətləri qoruyub saxlamağa, onların bərabər şəraitdə qarşılıqlı əlaqəsini və zənginləşməsini təmin etməyə imkan verir. Alman-rumın və alman-türk nəsri almandilli multikultural ədəbiyyatın ən aparıcı seqmentlərindən biridir. Almaniyada ən böyük milli azlığın səsini təmsil edən Herta Müller və Emine Sevgi Özdamarın romanları bu baxımdan geniş oxucu auditoriyasına malikdir. H.Müllerin "Qəlbdəki heyvan" (Herztier, 1994) romanı Rumıniyada yaşayan almanların doğma dilinin itirilməsindən qorxan və təzyiq altında öz dillərini qoruyub saxlaması istəyi diktator rejimində kimlik mübarizəsi kimi təqdim edilir. E.Özdamarın "Qızıl Buynuz körpüsü" (Die Brücke vom Goldenen Horn, 1998) romanındakı hadisələr isə Almaniyaya iş arxasınca gələn türklərin "özgə" diyarda adaptasiyası, marginalların inkişaf etmiş Almaniyanın yüksək mədəniyyəti ilə tanışlığından və qəhrəmanın iki mədəniyyət, iki mentalitet və iki "vətən" arasındakı kimlik axtarışlarından bəhs edir.

E.Özdamarın "Almaniyadakı Qaragöz" (Karagöz in Alamania,1982) dramı, "Ana dili" (Mutterzunge,1990) hekayələr toplusu, "Almaniyadakı Keloğlan"(Keloğlan in Alamania), "Həyat bir karvansaraydır, iki qapısı var, birindən girdim, digərindən çıxdım" (Das Leben ist eine Karawanserei, hat zwei Türen, aus einer kam ich rein, aus der anderen ging ich raus, 1992) romanı kimlik axtarışları, dil, din, adət-ənənə ilə bağlılıqdan, bu kimi məsələlərin gətirdiyi çətinliklərdən bəhs edirsə, "Qızıl Buynuz körpüsü" (Die Brücke vom Goldenen Horn", 1998) romanındakı hadisələr Almaniyaya iş arxasınca gələn türklərin "özgə" diyarda kimlik axtarışları yazıçının mədəni kimlik konsepsiyası kimi təqdim edilir.

Alman dilində yazan rumıniyalı Herta Müller totalitar rejimlərdə yaşayan və repressiyaya məruz qalan insanın sosial sistemin "qurbanına" çevrilməsindən, təqiblərə məruz qalmasından yazır, özgələşmiş insanın faciəsindən söz açır. Rumıniyanın Banat əyalətindən olan, şvab kəndli ailəsində doğulan yazıçı siyasi təqiblərə məruz qalmış, rumın gizli polis rejimi ilə əməkdaşlıqdan boyun qaçırdığına görə Qərbi Almaniyaya mühacir etməyə məcbur olmuşdur. Elə bu səbəbdən Herta Müllerin əsərləri bioqrafik xarakter daşıyır.Yazıçı "Tülkü hələ o zamana ovçu idi" (Der Fuchs war damals schon der Jäger), "Kaş bu gün özümlə görüşməyəydim" (Heute wär ich mir lieber nicht begegnet), "Nəfəs yelləncəyi" (Atemschaukel), "Qəlbdəki heyvan" (Herztier) əsərlərində insanın siyasi quruluşa qarşı nifrətindən, cəmiyyət tərəfindən özgələşməyə səbəb olan faciəsindən və kimlik mücadiləsindən bəhs edir. Mühacirət həyatı ona "Tək ayaqlı yolçu" (Reisende auf einem Bein) romanını yazmağa material vermiş və bu əsərində özü kimi mühacir həyatı yaşayan qaçqının ağrı-acılarından bəhs etmişdir. Repressiya sistemində dialoq və qarşılıqlı əlaqələr qura bilməyən insan faciəsindən yazan yazıçı demək olar ki, bütün əsərlərində müxtəlif insanlar arasında yaşanan ünsiyyətsizliyi, onu yaradan maneələri dəf etməyin yollarını arayır. Yazıçının poetik dili rumın mənşəlidir və bu səbəbdən alman dilinə tərcümədə "Qəlbdəki heyvan" (Herztier) romanının adında rumın söz oyunu "inima" (qəlb) və "animal" (heyvan) sözlərindən istifadə olunub. Görünür bu rumın dilinə ikili münasibətdən qaynaqlanır. Bir tərəfdən o, rumın dilinə poetik obrazlılığın mənbəyi kimi baxır, digər tərəfdən onu qorxu və təhdid dili kimi də dərk edir (Herta Müllerin ailəsi Rumıniyanın Çauşesku siyasi rejimində yaşayan alman azlıqlarına aiddir – O.M.). Totalitar rejimin iç üzünü açıb ifşa edən yazıçı insanlar arası münasibətlərin yox olmasını acı gerçəklik kimi təsvir edir. Bu münasibətlərin yoxluğunu totalitar rejimin idarəetmə mexanizmi ilə əlaqələndirir və göstərir ki, insanın ictimai həyatını məhv etməklə belə sistemlər özünü qoruyur. Brigid Hayns yazır ki, Herta Müller insanlararası münasibətlərdə qorxu və şübhə dolu insan həyatını nəyinki ayrı-ayrı fərdlərin timsalında, hətta nəsillər arası münasibətlərdə də önə çəkir: Yaşlı nəsil öz travma və xatirələri ilə təcrid olunub, gənclər isə terror və repressiyalardan qorxurdular (3, s. 88).

Rumıniyanın qərbində yerləşən Timişoara şəhərinin sakinləri və onların həyat tərzi hadisələrin faciəvi tonu kimi bütün əsər boyu oxucu gözündə canlanır. Yazıçı doğma dilini itirməkdən qorxan almanların təzyiq altında da olsa öz dilini qoruyub saxlamaq istəyini diktatura rejimində özünü qoruma kimi təqdim edir. O, almanların biri-biri ilə sıx ünsiyyətini sonuncu ümid yeri kimi göstərir. Diktaturanın mövcudluğunu nümayiş etdirən Herta Müller hakimiyyətin repressiv gücünü vurğulamaq üçün "parçala hökm sürür" prinsipini mövcud quruluşun alman dilinə qarşı təzyiqi kimi önə çəkir.Rumın dili ilə öz dili arasında seçim etməli olan almanlar isə icma şəklində yaşamağa məcbur olurdular. Bu səhnə həmçinin diktatura rejimlərinin ifşası, bu rejimlərin "qurbanı" olan insanların təsviri ilə yanaşı eyni zamanda da "təqiblərə, nəzarətə və xəyanətlərə baxmayaraq, özünü qoruma və kimliyini dərk etmə" kimi də dəyərləndirilir (13, s.14).

Müharibədən sonra Şərqi Avropadan qovulan almandilli rumıniyalı şvablar əmək düşərgələrinə sürgün edilir, təqiblərə məruz qalır, Rumıniyada hökm sürən kommunist rejimində isə ağır təzyiqlərlə üzləşir, ana dilinin itirilməsi ilə qarşılaşırlar. Qəlbdəki heyvan romanındakı hadisələr də şvab icmasının bir üzvü tərəfindən məşəqqətli həyat hekayəsi kimi nəql edilir. Rumıniyanın şərqində yaşayan almandilli azlıqların – şvabların həyatı Herta Müllerin "Qəlbdəki heyvan"romanından başqa "Nəfəs yelləncəyi", "Tülkü hələ o zaman ovçu idi" romanlarında da əsas problem dairəsini təşkil edir.

---

[50] **Dövlət İdarəçilikAkademiyası**

Yazıçının realist təsviri almandilli ailələrdə yaşanan təzyiqlərdən də yan keçmir. Təqiblərə məruz qalan almanlar Almaniya mühacirətini qəbul etməsələr də övladlarını icma daxilində saxlamaq üçün onlara güclü nəzarət edirlər. Alman və rumın dilləri arasında qalan gənclər Almaniyaya köçsələr də burada da dil baryeri yaşayırlar. Arzu etdikləri ölkədə də paradokslarla qarşılaşır, Rumıniyada alman olduqları halda Almaniyada rumın olduqlarını anlayırlar. Onlar xəyal etdikləri Almaniyada sosial, mədəni və dil çətinlikləri ilə qarşılaşır, yeni problemlərlə üzləşirlər.

Biz susanda narahat oluruq, biz danışanda gülməli oluruq (Wenn wir schweigen, werden wir unangenehm, wenn wir reden, werden wir lächerlich) (8, s.2) ifadəsi ilə başlayan roman danışmaq, ucadan danışmaq, səmimi anları, xatirələri kollektiv yaddaşa köçürmək problemləri ilə bağlıdır: "Susmaq pauza deyil, özü-özünə qalmaqdır. Hər hansı bir ifadə əvvəlkinin artıq olmamasından sonra gəlir. Susanda isə hamı birdən gəlir... amma hamı da elə içəridə asılı qalır: uzun müddət deyilməyənlərlə heç vaxt deyilməyənlər. Özünə qapanma sabit vəziyyətdir. Danışmaq isə özünü yeyən bir sapdır, onu hər dəfə yenidən düyünləmək lazımdır (8, s.26).Əsərin vacib məqamlarından biri də bütün personajlar arasında dialoqun yoxluğu problemidir. Dialoq böhranı onları biri-birindən təcrid edir, inamsızlıq yaradır və bu şəkildə hər biri o biri üçün potensial rəqibə, satqına çevrilir. Görünür bu problemin yaranmasında müstəsna rolu siyasi vəziyyət – geniş yayılmış qorxu və inamsızlıq mühiti oyadır.

Təhkiyəçi etiraf edir ki, universitet illərində hamı ona qorxulu, potensial xain kimi görünür, yalnız otaq yoldaşının davranışları, insanlara münasibəti fərqli olur. Onun intiharından sonra digər tələbə yoldaşları ilə birdəfəlik əlaqəni kəsir, lakin tapılan gündəliyin köməyi ilə keçmiş ilə qiyabi də olsa əlaqə yarada bilir. Gündəlik repressiya rejimində təqiblərə məruz qalan insan faciəsinin sənədinə çevrilir. Digər tərəfdən gündəlikdəki qeydlər təhkiyəçinin özünü, kimliyini dərk etməsinə yol açır: Onun yazdıqlarını ucadan səsləndirmək olardı, amma onları yenidən yazmaq qətiyyən mümkün deyildi. Bu ifadələr danışılan yuxu kimi idi, onları yazmaq mümkün deyildi (8, s. 21). Karin Bauer haqlı olaraq qeyd edir ki, Müllerin əsəri siyasi xarakter daşıyır və "totalitar hakimiyyətə açıq müqavimət forması kimi" maraqlıdır. Elə bu səbəbdən tədqiqatçı əsərdəki personajları "mürəkkəb və birmənalı olmayan obrazlar" (9, s.422) adlandırır.

Yazıçı diktaturanın süqutundan sonra da insanlararası münasibətlərin yox olmasını sağ qalanların travması kimi təsvir edir. Herta Müllerin romanlarını təhlil edən Maria Dedikova da "Qəlbdəki heyvan" romanını diktatura rejimlərinə qarşı yazılan əsər kimi qeyd edir və yazır ki, o, "labirintdən çıxmaq və ölkədəki vəziyyəti dəyişdirməyin qeyri-mümkünlüyünü görəndə öz fikirlərini bildirmək haqqını qoruduu... "Qəlbdəki heyvan" romanı totalitar sistemdə məhv edilən fərdin həssaslığına, gücünə və həyata olan sevgisinə işarədir" (11, s. 25). Yazıçı isə özü müsahibələrinin birində əsərini belə şərh edir: "Bu çox şəxsi kitabdır. Onu yalnız mənimlə o vaxt yaşayan anlaya bilər, amma o, da hələ bəzi əlamətləri qəbul edər"(7, s.48). Alman azlıqlarının təzyiqlərlə üzləşməsi və məhz alman olduqları üçün təqiblərə məruz qalması səhnəsi bu həyatı yaşayan Herta Müllerin əsərində daha inandırıcı görünür. Yazıçının baş verən hadisələri bu və ya digər şəkildə yaşaması əsəri daha da canlı edir. Oxucu gerçək həyat səhnələri ilə üz-üzə qalır, totalitar rejimin gətirdiyi həqiqətləri bütün çılpaqlığı ilə görür və faciənin miqyasını dərk edir. Bu səbəbdən ədəbi tənqiddə "Qəlbdəki heyvan" romanı "qorxu və təzyiqlərə məruz qalan insan" (14, s.116) faciəsi kimi şərh edilir: "Qorxu, təcrid və atılmış hissi hər bir personajın xarakterik xüsusiyyətidir. Müəllif göstərir ki, qorxu öz həyatını yaşayır. O, subyektdən kənarda da mövcuddur" (15, s.523).

Herta Müller öz şəxsi təcrübələrini ümumxalq təcrübəsi ilə birləşdirərək kollektiv yaddaşın formalaşmasında iştirak edir və bu şəkildə onu gələcəyə ötürür. Göründüyü kimi Herta Müllerin "Qəlbdəki heyvan" romanı ənənəvi alman romanının sərhədlərini aşır və ümumiyyətlə, müasir alman ədəbiyyatı haqqında fikirləri dəyişir. Son illər alman ədəbiyyatı Almaniyada yaşayan etnik azlıqların və ora köçən mühacirlərin də ədəbiyyatı hesab olunur. Bu sıraya alman-rumın mənşəli Herta Müllerin romanları da aid edilir. Herta Müller "başqa" ədəbiyyatı "yerli" ədəbiyyatla bir arada təsvir edən yazıçı kimi alman romanının ən gözəl nümunələrini yarada bildi, onu dünya ədəbiyyatının ədəbi-bədii problemləri müstəvisinə çıxardı.

Alman ədəbiyyatında mədəni kimlik konsepsiyasını irəli sürən Emine Sevgi Özdamarın "Qızıl Buynuz körpüsü" (Die Brücke vom Goldenen Horn, 1998) romanı "özgə" diyarda milli-kimlik, özümlülük axtarışlarından bəhs edir. Xüsusi yazı üslubu və sözlə oynamaq bacarığı olan türk əsilli alman yazıçısı bu romanında türk sözlərini alman dilinə tərcümə etməklə onlara inanılmaz gözəllik verir. Görünür elə bu səbəbdən onun romanları alman oxucusu üçün qeyri-adi və maraqlı gəlir. E.S.Özdamar mətndə istifadə etdiyi türk idiomları və bədii ifadə vasitələrini, atalar sözlərini alman dilində səsləndirir, beləcə, alman romanına yeni üslubi priyomlar gətirir. "Özdamar alman dili ilə oynayır, onlara xarici dildə səslənən sözlər, ekzotik dil konstruksiyaları, metaforalar yerləşdirir"(2. s.75) deyən tədqiqatçısı Annet Verşke də bu baxımdan haqlıdır. E.S.Özdamarın "Qızıl Buynuz körpüsü" romanı onun yaradıcılığında xüsusi yerlərdən birini tutur və Almaniyanın ədəbiyyat üzrə Adelbert fon Şamisso mükafatına (Adelbert von Chamisso Prize) layiq görülür. "Qızıl Buynuz körpüsü" romanı din, dil, "özgə" mentalitet və "başqa" yaşam tərzi ilə qarşılaşan gənc qızın həyatından bəhs edən, özündə multikultural dəyərləri daşıyan ən gözəl əsər kimi təqdim edilir.

Yazıçının bu romanı Almaniyadakı türk diaspora ədəbiyyatı nümunəsi hesab edilir (12). Cino Kellino da əsər haqqında haqlı olaraq yazır ki, E.S.Özdamar əsərində "nələr yaşandı, ondan yazdı" (6, s. 14). Əsərin qəhrəmanı Almaniyaya gələn türk işçi dalğası – alman iqtisadiyyatının dirçəldiləməsində iştirak edən qastarbayterlərdəndir (Alman dövlətinin dəvəti ilə Almaniyanın iqtisadi dirçəlişində iştirak edən əcnəbi işçilərə "gastarbeiter" deyilir – M.O.). O, on altı yaşında immiqrasiya orqanlarını aldadaraq Almaniyaya keçir və alman iqtisadi möcüzəsi fonunda böyüyür, şəxsiyyət kimi formalaşır. Onun

İstanbulla Berlin arasındakı həyatı doğma diyarı üçün həsrət və kədər hissiylə keçir, amma o, yeni ölkədə azadlığına qovuşur, kimliyini əldə edir. Yazıçı onun simasında yüzlərlə gənc qızın dünyanı kəşf etmək, nəyisə yaşamaq arzularını təsvir edir. Berlinə köçüb almanları yaxından tanımaq, qərbli kimi düşünmək və gələcəyə baxmaq istəyi qarşıya çıxan bütün çətinlikləri dəf etməyə güc verir. Elə buna görə qəhrəman yaşını gizlədir, Berlində fəhlə həyatı yaşayır, dil öyrənir, özünü aktyor həyatına hazırlayır. İki hissədən ibarət olan romanın "Talesiz vağzal" adlı birinci hissəsi mühacir həyatından, onun çətinliklərindən bəhs edir. Almaniyada bir illik iş icazəsi alan qəhrəman Berlinin mərkəzi inzibati rayonu olan Friedrichshayn-Kroyzbergdə yerləşən yataqxanada yaşayır. Onun yaşadığı yataqxananın qarşısında "Hebbel teatrı"(Hebbel-Theater), digər tərəfdə isə İkinci Dünya müharibəsi dövründə bombardmanlarda dağılan "Anhalt vağzalı" (Anhalter Bahnhof) yerləşir. Müharibənin əks-sədasını özündə daşıyan bu vağzala qəhrəman "der beleidigter Bahnhof" deyir, vağzal qalıqlarını incidilmiş, talesiz, incidilmiş insan kimi təsəvvür edir.

Gənc qız radio üçün lampalar hazırlayan Berlin fabrikində işləyir. Qadınlara alman dili öyrədən yataqxana gözətçisindən dil dərsləri alır, onun köməyi ilə Şərqi Berlin teatrında Bertold Brextin pyeslərinə baxır. Daha sonra Boden gölünə yaxın yerdə yerləşən Göte İnstitutunda alman dili dərslərinə yazılır. Bir müddətdən sonra isə Qərbi Berlinə qayıdır. Burada türk qadınlarına alman dilini öyrədir. Paris səfərində isə ispan tələbəsinə aşiq olur. Daha sonra Berlinə qayıdır və Berlin tələbə hərəkatında iştirak edir. Alman polisinin qəddarlığı ilə üzləşir və birinci hissə belə sona yetir.

İkinci hissə 60-70-ci illər Türkiyə tarixində baş verən siyasi mübarizələr dövrünü əhatə edir. İstanbul teatr məktəbinə qəbul olmaq üçün ölkəsinə dönən gənc qız şəhəri bürüyən kütləvi nümayişlərə qoşulur, tələbələrin universitetlərdəki üsyanlarını yaxından izləyir. Daha sonra tələbə etirazlarına yatırmaq istəyən Amerika dəniz donanmasının İstanbul sərhədlərinə yan alması fonunda onun Peter Vaysın "Marat Sad" pyesində qadın obrazını canlandırmasını görürük. İkinci hissədə "İnqilabçı Gənclik"(Devrimci Gençlik) təşkilatının yaranması və onun fonunda baş verən hadisələr öz əksini tapır. Əsərin bu hissəsi Türkiyə tarixində acı xatirə kimi yadda qalan sosial-siyasi mübarizələr dövrü, hərbi çevriliş və yeni hökumətin qurulmasından bəhs edir. Qızıl Buynuz körpüsü romanı qəhrəmanın İstanbuldan Berlinə köçüb yenidən teatrda işləmək arzusu ilə bitir.

Məlumdur ki, ədəbi əsərlər mədəniyyətin, tarixin, sosial-siyasi problemlərin izini daşıyır. Elə bu səbəbdən bədii əsərlərdə tarixi, siyasi, iqtisadi məsələlər dövrün problemləri müstəvisində göstərilir. E.S.Özdamarın "Qızıl Buynuz körpüsü" romanı da bu baxımdan istisna deyil. Burada da siyasi-tarixi fon oxşar obrazlarla, oxşar problemlərlə verilir, "özgə" və "özününkü" kimi qlobal məsələlər həm türk, həm alman mühitində əks olunur. Amma maraqlıdır ki, yazıçı türk və ya alman tarixində baş verən problemləri ayrı-ayrı kontekstdə vermir, onları bütöv şəkildə, bəşəriyyətin problemlər kimi təqdim edir. Bəzən isə hadisələrin təsvirində istehza və yumordan da istifadə edir. O, alman mühitində özünə ciddi-cəhdlə "yer edən" türk qadınının həyat hekayəsində sarkastik təsvirlərdən də yan keçmir. "Qastarbayter" ifadəsi altında işləyən, özü və onun kimi vətəndə qalan qohum əqrəbası üçün çətinliklərə sinə gərən insanları da gülərək təsvir edir. Katrin Steynborn yazır ki, o, "mürəkkəb sözləri ayırır və onları tərkib hissələrinə bölür. O, "gastarbeiter" sözünə belə baxır: "Mən bu sözü sevirəm, həmişə qarşımda iki nəfər görürəm, biri orada qonaqdır, biri işləyir" (10). Bu yolla o, dil daşıyıcının nəzərdən qaçırdığı sözə istehza qatır.

Əsərdəki istehza ilk növbədə qəhrəmanın şəxsi həyatına yönəlib, amma eyni zamanda da tarixi fonu da özündə ehtiva edir. Yazıçının Türkiyədə baş verən tarixi hadisələrə münasibəti də bəzən istehzalı ton alır. 60-cı illər sadəlövh qızın nəzərləri ilə deyil, illərin sınağından çıxan, müdrik qadının baxışlarıyla təsvir edilir. "Qızıl Buynuz körpüsü" romanında inqilabçı gəncliyin düşüncələrini, dünyagörüşünü müəyyən edən nəsnələrlə vidalaşan, yeni reallığa diqqət edən və kitab həqiqətlərindən əl çəkən bir yazıçı baxışlarını görmək olur. Elə bu səbəbdən oxucu qəhrəmanın gənc şairlə söhbətində bu fikirlə rastlaşır: "Kitablardan mən bir şeyi öyrəndim. – Gecələrin birində inqilab baş verəcək, sonra isə cənnət olacaq. Amma ona qədər uzun bir yol olacaq, bu yol cəhənnəm olacaq. – Yox,- dedi şair, cəhənnəm sonra başlayacaq" (5, s. 320).

Almaniyada yaşayarkən o, qadın yataqxanasında yalnız qadınlarla ünsiyyət qurur, bu qadınların hər birində öz anasını, doğma insanı görür. Digər qadınlar da onun kimi başqasında bacısını, anasını, dostunu görür və beləcə, ətraf aləmdən qorunur. Şəhərin küçələrində yalnız birlikdə hərəkət edirlər. Belə davranış daimi qorxu hissindən qaynaqlanır və özünü qoruma mexanizmidir. Qəhrəmanın Qərb mədəniyyəti və siyasətinin əsas ənənələri ilə yaxından tanışlığına və onları özününküləşdirmək istəyinə baxmayaraq yazıçı iki dünya, iki mentalitet arasındakı gərginliyi də göstərməkdən çəkinmir. Yazıçı hadisələri ənənəvi türk təhkiyəsi – meddahların bir hadisəni improvizə edərək danışdığı şəkildə ötürür, beləcə tarixi-siyasi hadisələrə özünəməxsus ton verir. Eyni zamanda da alman tərbiyə romanından gəlmə elementlər də oxucunun gözündən yayınmır, qəhrəmanın həyatına təsir edən donmuş, daşlaşmış stereotiplərdən qurtulduğunu, özü olmaq haqqını əldə etdiyini görür. Əgər Almaniyada türk işçi qadınlarından birinin dediyi: "biz sürüdən uzaq düşdük, indi isə sürü üçün xiffət çəkirik" (5, s.33) fikri qəhrəmanın kimliyinin parçalanması dövrünü əhatə edirdisə, öz kimliyi uğrunda mücadiləsi bir şəxsiyyət kimi yetişməsinə gətirib çıxarır. Alman oxucusu "Qızıl buynuz körpüsü" romanında türk tarixi, mədəniyyəti haqqında müəyyən bilgilər əldə edir, "özgə" mədəniyyətlə yaxından tanış olur. Yazıçı türk sözləri ilə yaratdığı oyun məkanında iki mədəniyyətin qarşılıqlı əlaqəsini yaradır, görünür elə bu səbəbdən onun yazı üslubundakı "dil oyunlarını" (4, s.37) romanlarının əsas xüsusiyyəti kimi dəyərləndirilər. Yazıçı gənclik illərini Türkiyədə yaşamış, daha sonra Almaniyaya iş arxasınca gedən yüzlərlə türk ailələrindən biri kimi orada həmişəlik qalmışdır. İki mədəniyyət və iki ölkə arasında yaşayan yazıçının yaradıcılığında hər iki dilin metaforik söz birləşmələri biri-biriylə üzvü vəhdətdədir. Elə bu səbəbdən oxucu onun əsərlərində "özgə" mədəniyyətlərlə qarşılaşır, başqa dünyalarla təmasda olur. E.S.Özdamarın yaradıcılığını öyrənən Vişakha Saqdeonun da yazıçının üslubunu "metaforik dil" adlandırması görünür elə bu səbəbdən təsadüfi deyil (16, s.58).

E.S.Özdamarın yaratdığı multikultural toplumun əksi və bu toplumda yaşananların təsviri yazıçının bədii özəlliyidir. Türkcə düşünən, almanca yazan E.S.Özdamar müasir dünyanın problemlərindən yazır, dəyişən dünyanın gerçəkliyindən bəhs edir. Elə bu səbəbdən E.S.Özdamar alman oxucusunu maraqlandırır, onun əsərlərində "alman oxucusu ilə mədəni ünsiyyət baş tutur" (1, s.61) deyən Ancela Veber də haqlıdır.

E.S.Özdamar "Qızıl Buynuz körpüsü" romanında kimlik problemini qaldırır, qəhrəmanın timsalında türk qadınının azadlığını, öz haqları uğrunda mübarizəsini həyat prioriteti kimi önə çəkir. Əsərin bu ideyası "Qızıl Buynuz körpüsü" romanında körpü metaforasını müəyyən edir və qəhrəmanın iki ölkə, iki mədəniyyət arasında kimlik axtarışları "körpü" metaforasına aydınlıq gətirir. O, da körpü kimi bir ayağı ilə Almaniyada, digər ayağı ilə Türkiyədədir, eyniylə İstanbulun Asiya və Avropa hissələrini birləşdirən Boğaziçi körpüsü kimi. İkili kimlik, iki mədəniyyət, iki ölkə vətəndaşı olan adsız qəhrəman yeni tip qəhrəmandır. O, multikultural dəyərləri özündə daşıyan, çoxmədəniyyətliliyi və tolerantlığı bölüşən, birgəmövcudluq şəraitində yaşayan insan obrazıdır. Bu insan obrazı dünyanın istənilən yerini öz evi, insanlığın vətəni hesab edir. Görünür elə bu səbəbdən atası onu təqdim edəndə böyük fərəh hissi ilə "mənim qızımdır, o, Almaniyadan yeni gəlib. O, Avropanı görüb"(5, s. 300) deyir.

Nəticə olaraq onu da qeyd edək ki, qəhrəman müasir dünyanın insanı kimi öz həyatını idarə edir, israrla arzu və istəklərinin arxasınca gedir və əsas məqsədindən - aktrisa olmaqdan əl çəkmir. Almaniya və Türkiyə arasında yaşayır, həyat təcrübələrini qazanır, müxtəlif mədəni dəyərləri mənimsəyir. Zülmə, həyatın bütün çətinliklərinə tabe "şərqli" qadın haqqındakı stereotipləri dəf edir, bütün taleyüklü qərarları müstəqil qəbul edən qadın kimi yenidən "doğulur".

Ədəbiyyat:

1. 1.Angela Weber. Im Spiegel der Migrationen: Transkulturelles Erzählen und Sprachpolitik bei Emine Sevgi Özdamar. Transcript Verlag, Bielefeld, 2009, 316s.
2. 2.Annette Wierschke. Schreiben als Selbstbehauptung: Kulturkonflikt und Identität in den Werken von Aysel Özakin, Alev Tekinay und Emine Sevgi Özdamar. IKO,Frankfurt am Main, 1996, 173s.
3. 3.Brigid Haines. Die akute Einsamkeit des Menschen': Herta Müller's 'Herztier' // Herta Müller. Ed.Bettina Brandt, Valentina Glajar. Oxford: Oxford University Press, 2013, hier: 87-108.
4. 4.Cornelia Zierau. Wenn Wörter auf Wanderschaft gehen. "Aspekte kultureller, nationaler und geschlechtsspezifischer Differenzen in deutschsprachiger Migrationsliteratur. Stauffenberg Verlag, Tübingen, 2009, 201s.
5. 5.Emine Sevgi Özdamar. Die Brücke vom Goldenen Horn. Kiepenheuer & Witsch, Köln, 1998, 336s.
6. 6.Gino Chiellino. Die Fremde als Ort der Geschichte in : Ingrid Ackermann, Harald Weinrich (Hrsg.), Eine nicht nur deutsche Literatur, Piper. München, Zürich, 1986, hier: 13-14.
7. 7.Grazziella Predoiu. Rumäniendeutsche Literatur und die Diktatur. Verlag Dr. Kovač, Hamburg, 2004, 205s.
8. 8.Herta Müller. Herztier. Carl Hanser Verlag, München, 2007, 261s.
9. 9.Karin Bauer. Der Druck der Erfahrung treibt die Sprache in die Dichtung: Bildlickeit in Texten Herta Müller by Ralph Köhnen// The German Quarterly, 72(4), 1999, hier: 421-22.
10. 10.Katrin Steinborn. Meine deutschen Wörter haben keine Kindheit // Literaturkritik.de. Nr.11, November 2001, https://literaturkritik.de/-public/rezension.php?rez_id=4293
11. 11.Marie Dedikova. Raumfigurationen in Herta Müllers Werken Herztier und Niederungen // Magisterská diplomová práce.Masarykova Univerzita, 2013, hier: 25-
12. 12.Nasrin Amirsedghi, Thomas Bleicher. Literatur der Migration. Verlag Kinzelbach, Donata, Mainz, 1997, 220s.
13. 13.Roxana Nubert, Ana-Maria Dascalu Romitan. Das Bild der Diktatur in Herta Müllers Roman Herztier – Mit besonderer Berücksichtigung der sprachlichen Mittel // Germanistische Beiträge. Issue 36. 2015, hier: 13-32.
14. 14.Sarah Schmidt. Vom Kofferpacken. Zur fragilen Allianz der Dinge mit den Worten im Werk Herta Müllers // Zeitschrift für Germanistik. Neue Folge, Vol. 22, No. 1, 2012, hier: 115-128.
15. 15.Valentina Glajar. Banat-Swabian, Romanian, and German: Conflicting Identities in Herta Müller's "Herztier" // Monatshefte. Vol. 89, No. 4, Libuše Moníková / Herta Müller: Sprache, Ort, Heimat. Winter, 1997, hier: 521-540.
16. 16.Vishakha Sagdeo. Frauen schreiben dazwischen. Eine interkulturelle Studie über die Migration von Frauen und die Globalisierung der Literatur am Beispiel des Romanwerks von Anita Desai und Emine Sevgi Özdamar. Königshausen & Neumann, Würzburg, 2011, 481s.

Açarsözlər:almanromanı, milli-kimlik, H.Müller, Ə.S.Özdamar

Ключевые слова:немецкий роман, национальная идентичность, Г.Мюллер, Э.С.Оздамар

Key words:german novel,national identity, H.Müller, E.S.Özdamar

Проблема национальной идентичности в современном немецком романе (в контексте проблем мультикультурализма)

РЕЗЮМЕ

Немецко-румынская и немецко-турецкая проза является ведущим сегментом в мультикультурной немецкоязычной литературе. С этой точки зрения внимание широкой читательской аудитории привлекают романы Герты Мюллер и Эмине Севги Оздамар, в которых озвучиваются чаяния самых крупных национальных меньшинств Германии. Роман Г. Мюллер «Сердце-зверь» представляет борьбу за национальную идентичность в условиях диктаторского режима, повествует о страхе живущих в Румыниинемцев потерять свой родной язык и, невзирая на давление, их непреодолимом желании его сохранить. В романе Э. Оздамар «Мост через бухту Золотой Рог» повествуется об адаптации турков на «чужбине» – в Германии, прибывших сюда с целью трудоустройства, о знакомстве маргиналов с высокой культурой этой страны, и поисках героем,оказавшимся между двумя культурами, двумя менталитетами и двумя «родинами», своей идентичности.

The Problem of National İdentity in Modern German Novel (on the context of the problems of multiculturalism)

SUMMARY

German-Romanian, German-Turkish prose are one of the important segments in multicultural German literature. Herta Muller and EmineSevgiOzdamar's novels being one of the greatest representatives of national minorities voice in Germany have a large reader audience. H.Miller's novel "The Land of Green Plums" describes German living in Romania, their fear of loss of native language, protection of their native tongue a hard pressure circumstances, identification struggle in dictator

regime. In its turn E.Ozdamar's“Golden Horn” novel deals with the adaptation proses of Turkish who came to Germany to find a job, the acquaintance with the marginally development German high culture, main hero's identification search between two cultures, two mentalities and two “motherlands”.

RƏYÇİ: dos.L.Ələkbərova

Cəfərova-Qurbanova Rahilə Mustafa qızı [51]

AZƏRBAYCAN BƏDİİ MƏDƏNİYYƏTİ ESTETİK İDEAL BAXIMINDAN

Azərbaycan bədii yaradıcılığının qədim tarixi və estetik çoxcəhətliliyi özümüzə də, başqalarına da kifayət qədər yaxşı məlumdur. Onu ən müxtəlif aspektlərdən təhlil etmək mümkündür, bu fikir milli bədii mədəniyyətimizdə estetik idealın çoxcəhətliliyinə, onun məna və çalarlar zənginliyinə də aiddir. Biz isə onların arasında dialektik vəhdətdə olan iki cəhətin qarşılıqlı nisbətinə xüsusi diqqət yetirməyi daha vacib sayırıq. Bunlar milli bədii mədəniyyətimizin, onun özəyini təşkil edən incəsənətimizin milli özünəməxsusluğu və eyni zamanda onun mahiyyətinə üzvi surətdə hopan ümumbəşəriliyi.

Bədii yaradıcılıqda millilik dedikdə hər hansı bir xalqın və ya millətin milli xüsusiyyətlərinin, milli xarakterinin incəsənətdə inikası başa düşülür. Həmin xüsusiyyətlərin formalaşması, uzun tarixi dövr ərzində bir sıra amillərin təsiri altında baş verir. Həm də onun qavranılması, dərki və təcəssümü təkcə elmi təfəkkürlə məhdudlaşmayib, eyni zamanda bədii yaradıcılığa da aiddir. Buna görə yüksək bədii dəyərə malik əsərlərdə biz sənətkarın öz xalqının, millətinin həyatı ilə üzvi bağlılığını hiss edir və duyuruq. Qəti təsdiq edə bilərik ki, aləmin estetik mənimsənilməsi nəticəsi kimi sənətkar tərəfindən tərənnüm olunan ideallar milli xüsusiyyət kəsb edir. Əslində milli özünəməxsusluq bədii yaradıcılığın bədiilik dərəcəsini müəyyən edən əsas amillərdən biridir, onu milli mənəvi mədəniyyətin tərkib hissəsinə çevirən başlıca şərtdir.

Milli özünəməxsusluq, milli kolorit Azərbaycan bədii yaradıcılığının gözəl nümunələrinə xasdır. Amma bədii yaradıcılıqda milli özünəməxsusluğun mahiyyətini müəyyən etməzdən əvvəl milliliyin nə olduğunu aydınlaşdırmaq yerinə düşərdi. Bu isə kökü etibarilə millət anlayışına söykənir. Mövcud fəlsəfi ədəbiyyatda millət dedikdə insanın elə nisbi, sabit tarixi birliyi başa düşülür ki, vahid dilə, ərazi, iqtisadi əlaqə və mənəvi sima birliyinə əsaslanmış olsun (1, 289

Bu baxımdan millət tarixi kateqoriyadır. Deməli, onun mədəniyyəti, o cümlədən, bədii yaradıcılığı da tarixi səciyyə daşıyır. Lakin hər bir milli mədəniyyətdə olduğu kimi, Azərbaycan mədəniyyətinin də elementləri millət kimi formalaşmağımızdan çox-çox əvvəl meydana gəlmişdir. Onları ümumi bir anlayışla mədəniyyətin etnik özünəməxsusluğu, yaxud qədim dövr və orta əsrləri nəzərdə tutsaq xəlqiliyi kimi səciyyələndirə bilərik.

Bədii yaradıcılıq ictimai şüurun və insan fəaliyyətinin spesifik forması, gerçəkliyin bədii obrazlarla əks olunması, aləmin mənimsənilməsinin mühüm üsullarından biridir. Öz məzmunu etibarilə bədii yaradıcılıq cəmiyyətin sosial- iqtisadi strukturlarındakı dəyişikliklərlə sıx bağlıdır. Bədii yaradıcılıq cəmiyyətin mənəvi həyatının özünəməxsus sahəsi olub, ictimai şüurun digər formalarından bir sıra mühüm xüsusiyyətlər ilə fərqlənir. Bədii yaradıcılığın predmetini insanın gerçəkliyə münasibəti, aləmi bədii şəkildə mənimsəməsi təşkil edir. Məhz buna görə də bədii əsərlərin mərkəzində insan, onun ictimai əlaqə və qarşılıqlı münasibətləri, konkret tarixi şəraitdə həyat və fəaliyyəti durur. Gerçəkliyi əks etdirməyin və bədii obraz yaratmağın vasitələrinin spesifikliyi bədii yaradıcılığın xüsusiyyətlərini müəyyən edir. Məsələn, ədəbiyyatda aləmin təcəssüm etdirilməsi söz, təsviri sənətdə rənglər , heykəltəraşlıqda plastik obrazlar, həcm-məkan formaları, musiqidə səs intonasiyaları, xoreoqrafiyada ritmik hərəkətlər, teatr və kinoda aktyor oyunu vasitəsilə həyata keçirilir.

Bədii yaradıcılığın özünəməxsusluğuna dəlalət edən materialı hər bir sənət əsərində tapmaq olar. Fikrimizi təsdiq etmək üçün Səməd Vurğun yaradıcılığına müraciət edək. Onun yaradıcılığında Azərbaycan poeziyasının milli özünəməxsusluğu öz parlaq təcəssümünü tapmışdır. Ədəbi yaradıcılığa XX əsrin 20-ci illərində başlayan şairin ilk əsərlərindəcə onun yaradıcılıq dəst-xəttinin özünəməxsusluğu, fərdiliyi və təkrarolunmazlığı hiss olunmağa başlamışdır. Səməd Vurğunun yaradıcılıq axtarışlarında Azərbaycan poeziyasının ən gözəl ənənələri mühüm rol oynamış, yazılarının ana xəttini milli ruh təşkil etmişdir. Doğma vətəninə həsr etdiyi «Azərbaycan» şeiri milli himn kimi səslənir, ana yurdun təkrarolunmaz özünəməxsusluğunu, gözəlliyini xüsusi vurğunluqla vəsf edir. Bu da onun əsərlərinin estetik dəyərindən irəli gəlir. Səməd Vurğun yaradıcılığı xalq həyatının tipik cəhətlərinin dolğun əks etdirilməsi, milli xarakterin dərin izahı, hər hansı bir sadə hadisəni bədii ümumiləşdirmə səviyyəsinə qaldıra bilmək bacarığı ilə səciyyələnir.

Azərbaycan xalqının qədim keçmişi, qəsbkarlara qarşı qəhrəmanlıqlarla dolu çoxəsrlik mübarizəsi, müasir həyatı bədii təsvir predmeti olmaqla, əsərin konkret məzmununa çevrilməklə onun milli özünəməxsusluğunu şərtləndirir. Ölkənin həyatından konkret materiallara müraciət olunması hələ əsərin milli xüsusiyyət kəsb edəcəyinə təminat vermir. Ölkənin iqliminin, idarə üsulunun, təsərrüfat fəaliyyətinin, məişətinin təsviri bədii əsərin, bədii yaradıcılığının hələ milli özünəməxsusluğu deyildir. Bədii yaradıcılığın milli olması üçün bütün bunlar xalqın mənəvi şüuru ilə daxili əlaqədə təsvir edilməlidir. Bir sıra hallarda xalqın həyatına həsr olunmuş əsərlərdə qəhrəmanların xarici görkəmi və məişəti ən xırda incəliklərinə qədər təsvir edilsə də, əsər milli xüsusiyyət kəsb edə bilmir. Bunun səbəbini xalqın mənəvi ruhunu belə verə bilməməkdə axtarmaq lazımdır. Nəticədə əsər öz bədii-estetik dəyərini itirir. Lakin bu tələbi mütləqləşdirmək olmaz. Hegel göstərir ki, incəsənət yalnız doğma mövzularla kifayətlənə bilməz. Sənətkar başqa xalqların həyat və məişəti ilə də maraqlana bilər, öz mövzusunu başqa xalqların həyatından da götürə bilər, bu heç də onun milliliyinə xələl gətirməz. Əsas məsələ başqa xalqın həyat və məişətində öz xalqına yaxın olan cəhətləri tapmaqdır.

Millətlər yalnız maddi həyat sahəsinə yox, həm də mənəvi simaları ilə bir-birindən fərqlənirlər. Mənəvi sima xalqın uzun tarixi inkişafının məhsuludur. Bu anlayış altında müxtəlif mənəvi dəyərlər--mərdlik, cəsarətlilik, humanizm kimi

[51] **ADPU**

keyfiyyətlər başa düşülür. Əlbəttə, bunlar əxlaqi keyfiyyətlərin hamısı deyildir. Həm də bu qəbildən olan keyfiyyətlər hansısa bir xalqın mənəvi inhisarı deyil, ümumbəşəri olmaqla bütün millətlərin nümayəndələrinə xasdır.

Lakin ümumi heç də xüsusini, ayrıcanı istisna etmir, onlar dialektik vəhdətdədir. Ayrıca isə ilk növbədə milli xarakterdə təzahür edir. Milli xarakterin bədii təcəssümü və ya tədqiqi prosesində hər hansı bir cəhətin mütləqləşdirilməsinə yol vermək olmaz. Sosioloqlara görə, belə təhlildə hər bir etik xarakteristikanın nisbiliyini nəzərə almaq lazımdır. Çünki mütləq formada deyilən fikirlər labüddən dolaşıqlığa gətirib çıxarar. Milli xarakter dialektik kateqoriya olub daim dəyişir. Cəmiyyətin ictimai-iqtisadi, siyasi-mənəvi həyat şəraitində baş verən dəyişikliklər millətin mənəvi-psixoloji simasında da öz əksini tapır, bədii yaradıcılıqda adekvat ifadəsini tələb edir. Azərbaycan xalqının xarakteri, əmək fəaliyyəti daxili və xarici düşmənlərə qarşı mübarizənin gedişində formalaşmışdır. Azərbaycanın qabaqcıl mütərəqqi sənət adamlarının yaradıcılığında Azərbaycan milli xarakteri öz dolğun inikasını tapmışdır. Fikrimizin inandırıcı olması üçün faktlara müraciət edək. Azərbaycanın görkəmli dramaturqu Cəfər Cabbarlının «Sevil» əsərindəki Sevil obrazı keçmiş Azərbaycan qadınının real vəziyyətini, onun öz insan ləyaqəti uğrunda mübarizəsini əks etdirir. Dramaturji xəttin başlanğıcında Sevil hüquqsuzluq və mütilik mücəssəməsidir: ərindən icazəsiz qonaqların üzünə belə çıxa bilməz, çünki adətlər, qaydalar buna yol vermir. Əsərin sonunda Sevil artıq azad bir insan kimi ölkədə gedən yeni həyat quruculuğunda fəal iştirak edir. Bunların hamısı cəmiyyət həyatında baş verən köklü dəyişikliklərin nəticəsi kimi təqdim olunur. İlyas Əfəndiyevin «Körpü salanlar» əsərindəki Səriyyə obrazını Sevillə müqayisə etsək, milli xarakterdəki əsaslı dəyişikliklərin təsdiqini görə bilərik. Bu dəyişiklikləri şərtləndirən yeni maddi həyat şəraiti, yeni sosial-mədəni mühitdir.

Millətlər bir-birindən öz təbii emosionallığına görə də fərqlənirlər. Bu onların ifadə etdikləri hisslərin xarakterində də özünü göstərir. Həmin fərq mahnı və rəqslərdə daha qabarıq nəzərə çarpır. Elə bir xalq tapmaq mümkün deyildir ki, ona kədər, şadlıq, sevinc hissi xas olmasın, lakin onların təzahür forması müxtəlifdir: şimalda yaşayan xalqlara sakitlik, təmkinlik xasdırsa, cənublular qızğın temperamentləri ilə seçilirlər. Bu, ətraf gerçəkliyin bədii qavranılmasının xarakterində, ideya-estetik mənimsənilməsində, emosional qiymətləndirilməsində də özünü göstərir, estetik idealın mühüm struktur elementinə çevrilir. Estetik idealın təcəssümünün vasitə və üsullarının seçilməsi sənətkarın yaradıcılıq fərdiyyətindən asılıdır. Hətta tənqidi-alleqorik janrlarda yaradılan bədii əsərlərdə də personajlar gülüş hədəfinə çevriləndə belə, estetik ideal inkarı inkar yolu ilə ifadə olunur. Fikrimizi aydınlaşdırmaq üçün Cəlil Məmmədquluzadə və Mirzə Ələkbər Sabirin yaradıcılığını nəzərdən keçirmək kifayət edər. Onların yaradıcılığında satira təkcə gülüş doğurmur, həyatın eybəcərlikləri, çirkinlikləri üzə çıxarılıb tənqid edilir, estetik ideal dolayısı yolla--əsərin məzmunundan alınan nəticə formasında təzahür edir.

Həyatın naqis cəhətlərinin komik və ya satirik təsviri müxtəlif mənalı gülüş doğurur. Bu cür əsərlərdə insanlar çirkin mühitə, ədalətsiz quruluşa qarşı çıxır, avam insanların əməllərinə gülür. C. Məmmədquluzadənin «Poçt qutusu» hekayəsindəki Novruzəli sadəlövh, saf, avam, yazıq, fağır, savadsız kəndlinin tipik obrazıdır. Onun avam hərəkətləri gülüş doğurur. Lakin bu gülüşün başqa hədəfi də var: Novruzəlini bu hala salan ictimai mühitdir, bu bizi düşündürür, onu dəyişdirməyə səfərbər edir. Müəllifin estetik idealı da elə budur.

Komik əsərlərdə ikiüzlülük, hiyləgərlik, yaltaqlıq, qorxaqlıq kimi mənəvi eybəcərliklər kinayəli gülüş oyadır. C. Məmmədquluzadənin «Qurbanəli bəy» hekayəsi buna parlaq nümunədir. Qurbanəli bəy Azərbaycan bəylərinin mənfi xarakterlərinin milli xüsusiyyətlərini özündə cəmləşdirən obrazdır. Özündən vəzifəcə böyüklərin yanında aciz, qorxaq, yaltaq, şəxsiyyətini, qururunu itirmiş bir şəxsdir. Lakin özündən aşağıların yanında canavardır. Onlara əzab verməkdə, incitməkdə, təhqir etməkdə «mahirdir». Onun hərəkətləri, mənəvi eybəcərlikləri gülüş doğurur. O, pristava, naçalnikə yaltaqlanmaqla onların hörmətini qazanmaq istəyir amma özü öz yaltaqlığının qurbanı olur.

Komik gülüşün təzahür sahələrindən biri də uyğunsuzluqdur. Uyğunsuzluq ictimai inkişafın qanunauyğunluğu ilə ziddiyyətdə, fərdi şüur ilə fəaliyyət arasında ciddi fərqdə özünü göstərir, həyatda baş verən proseslərə münasibətdə qeyri-normallıq kimi təzahür edir. Qeyri-normal hərəkətə gülüş estetik idealı təsdiq edir. C. Məmmədquluzadənin «Ölülər» əsərində bütövlükdə bədii situasiya, xüsusən də İsgəndər obrazı buna misaldır. İsgəndər xaricdə təhsil alıb, yeniliklər etmək ümidi ilə vətənə qayıdıb, öz həmvətənlərini təhsilli görmək istəyir, dünya işlərindən baş çıxara bilmələrini, mədəni olmalarını arzulayır, lakin qaranlıq bir mühitə düşür, arzularını həyata keçirmək üçün nə qədər çalışsa da, heç bir nəticə vermir. İsgəndər avam camaatı ələ salan Şeyx Nəsrullanı ifşa edir, onun iç üzünü açıb göstərir. İsgəndərin kinayəli gülüşləri, istehzalı sözləri keçmişlə vidalaşmaq, xoş gələcəyə çağırış kimi səslənir. Bu baxımdan «Ölülər» əsərinəverilən ictimai qiymət öz dəyərinə görə bu qün də əhəmiyyətini saxlayır.

M.Ə.Sabir də ictimai-siyasi bərabərsizliyə, ədalətsizliyə, köhnə adət-ənənələrə qarşı çıxmaqla öz dövrünün milli varlığının xüsusiyyətlərini əks etdirmişdir. O da insanların kölə vəziyyətinə düşməsinin əsas səbəbini savadsızlıqda, cəhalətdə, avamlıqda görür. Satiralarının əsas idealı insanları pis əməllərdən uzaqlaşdırmaq, xurafat əsarətindən xilas etmək, cəmiyyət üçün yararlı şəxsiyyətə çevirməkdir. «Ata nəsihəti», «Bilməm nə görübdür bizim oğlan oxumaqda», «Təhsili-elm», «Həyatın gop-gopuna cavab», «Arzu», «Vah, bu imiş, dərsi-üsuli-cədid?!», «Oxutmuram, əl çəkin», «Neçin məktəbə rəğbətim olmayır?» və s. satirik şeirlərində görkəmli maarifpərvər şairin idealı insanların şüurundan xurafatı silmək, onların elmə meyllini gücləndirməkdir.

M. Ə. Sabir «Küpəgirən qarının qızlara nəsihəti», «Ay nənə, bir qırmızı saqqal kişi», «Gavur qızı», «Qoyma gəldi», «Çatlayır, Xanbacı, qəmdən ürəyim» və s. satiralarında qadınların hüquqsuzluğunun, kölə vəziyyətində yaşamasının, köhnə adət- ənənələrə uymasının səbəbini cəhalətdə, savadsızlıqda görür və satira atəşinə tutur. Şair oxucunu güldürməklə kifayətlənmir, həm də onu düşündürür, ictimai hadisələrin mahiyyətinə varmağa istiqamətləndirir.

İstər C. Məmmədquluzadə, istərsə də M.Ə.Sabir yaşadıqları dövrün aktual problemlərini, maarif-cəhalət, varlı-yoxsul, kəndli-mülkədar, fəhlə-kapitalist, yenilik-köhnəlik arasındakı konfliktləri əsərlərində əks etdirir. Bu onları birləşdirən cəhət. Lakin hər biri öz əsərlərində bu hadisələri fərdi yaradıcılıq üslubunda satira atəşinə tutur.

İncəsənətin digər növlərində--musiqi, xoreoqrafiya, teatr, bədii kino, dekorativ-tətbiqi sənət və s. sahələrində də milli təsvir-ifadə vasitələrindən istifadə estetik ideala milli kolorit gətirir, həm öz xalqının milli xarakterinin təcəssümünə xidmət edir, həm də milli sərvətə çevrilmək imkanı qazanır. Lakin musiqi, ritmik hərəkətlər, rəng-boya, sənətin söz dilindən fərqli olaraq öz təbiəti etibarilə daha miləldir, tərcüməsiz» başa düşüləndir. Bununla belə, hər bir xalqın musiqisi özünün müstəsna ahəng və məqam (lad) özünəməxsusluğu ilə fərqlənir. Məsələn, Azərbaycan xalq musiqisinin 7 məqamı vardır ki, bunların hər biri öz emosional ifadə imkanlarına malikdir, hər biri müxtəlif musiqi əsərlərində müxtəlif tərzdə formalaşır, musiqi dilini zənginləşdirir. Öz milli musiqi mədəniyyətinə söykənən Azərbaycan bəstəkarları həmçinin Şərq və Qərb musiqisindən də yaradıcılıqla istifadə edərək, öz əsərlərinin milli formasında ümumbəşəri idealları tərənnüm etməyə çalışırlar. Azərbaycanın görkəmli bəstəkarı Fikrət Əmirov yeni musiqi janrı olan simfonik muğamın yaradıcısıdır. Onun «Şur» və «Kürd ovşarı» simfoniyalarının melodik əsasını xalq müvafiq xalq muğamları təşkil edir. Xalq musiqisinin təbiətini, məqam və intonasiya xüsusiyyətlərini dərindən duyan bəstəkar öz əsərlərində milli mahnı sənətinin mütərəqqi ənənələrindən məharətlə istifadə etmişdir. Fikrət Əmirovun simfonik muğamlarında millilik sadəcə xalq musiqisindən iqtibas kimi təzahür etməyərək, onun iliyinə, qanına hopmuş şəkildə təzahür edir. O, Azərbaycan milli üslubu ilə dünya musiqi mədəniyyətinin klassik ənənələrini birləşdirir, onların üzvi vəhdətinə nail olur və bununla da estetik idealı ümumbəşəri məzmun kəsb edir.

Fikrət Əmirovun və Qara Qarayevin musiqi dili biri-birindən kəskin surətdə fərqlənir. Onların hər ikisi görkəmli Azərbaycan bəstəkarıdır və hər ikisinin yaradıcılığı öz doğma xalqının mədəniyyəti ilə bağlıdır. Lakin milli xüsusiyyət hər birində özünəməxsus şəkildə təzahür edir. Bəşəriyyətin mənəvi mədəniyyət tarixi aydın göstərir ki, hər bir epoxanın ideyaları özündən sonra gələn ideyalar üçün zəmin rolunu oynayır. Bu ümumi qanunauyğunluq bütünlüklə bədii mədəniyyətə də aiddir.Hər bir yeni nəsil özündən əvvəlki nəslindən miras qalan bədii dəyərləri əxz edir, onu yeni dövrün estetik idealları baxımından sərf-nəzər edir, yeni tələblərə uyğun istifadə edir.

Azərbaycan bədii mədəniyyəti məzmunu etibarilə millilik və ümumbəşəriliyin vəhdətindən ibarətdir. Peşəkar incəsənətimizdən əvvəl milli folklorumuz ümumbəşəri idealların carçısı olmuşdur. Ümumiyyətlə, hər bir mədəniyyət həqiqi milli sərvətə çevrilmək üçün ümumbəşəri mənəvi dəyərlərə əsaslanmalı, onları öz milli formasında «özününküləşdirə» bilməlidir. Bunsuz milli hüdudlarını aşa bilməz, digər xalqlar tərəfindən qəbul olunmaz.

Ümumiyyətlə, milli və beynəlmiləlin dialektikası olduqca mürəkkəb və özünəməxsusdur. Milli mədəniyyətlərin qarşılıqlı təsiri prosesində bir xalqın bədii yaradıcılığına məxsus xüsusiyyətlər başqa xalqların bədii yaradıcılığına da nüfuz edərək onun daxili mahiyyət elementinə çevrilir. Bununla da hər bir millətin mənəvi mədəniyyəti, bir tərəfdən, başqa xalqların mütərəqqi ideyalarını, mənəvi sərvətlərini özününküləşdirməklə zənginləşir, digər tərəfdən, onun özü ümumbəşəri mədəniyyət xəzinəsinə layiqli töhfə verir. Azərbaycan mədəniyyəti milli zəmini qoruyub saxlamaqla yanaşı başqa xalqların bədii mədəniyyətləri ilə təmasda yeni ünsürlərlə zənginləşmiş, keçmişdə olmayan yeni bədii formalar yaratmışdır. Bunlara misal olaraq simfonik və balet musiqisini, romans və opera mahnılarını, bədii kino sənətini və s. göstərmək olar. Eyni zamanda onun bədii ifadə vasitələri də genişlənir. Bir sözlə, bədii mədəniyyətlərin qarşılıqlı təsiri ümumi qanunauyğunluqdur, onların daha da zənginləşməsinin mühüm vasitələrindəndir. Burada milli ədəbiyyatların qarşılıqlı təsiri haqqında G.V. Plexanovun bir fikrini yada salmaq yerinə düşər: «Bir ölkənin ədəbiyyatının digər ölkənin ədəbiyyatına təsiri bu ölkələrin ictimai münasibətlərinin uyğunluğu ilə düz mütənasibdir... Bu qarşılıqlı təsir prosesində hər bir xalq o birindən nə isə götürə bilir» (2, 65).

Beləliklə, belə bir nəzəri nəticə çıxara bilərik: müasir dövrdə, milli mədəniyyətlərin inkişafında yeni bir mərhələ başlayır ki, bu da , bir tərəfdən, milli mədəniyyətlərin özəlliyini qoruyub saxlamaq meylində, digər tərəfdən isə, mədəniyyətlərin qarşılıqlı təsirinin güclənməsi və zənginləşməsində özünü göstərir. Bu iki meyl dialektik surətdə bir-biri ilə bağlıdır, obyektiv qanunauyğunluq xarakteri daşıyır və vahid prosesin müxtəlif cəhətləridir. Ümumbəşəri mədəniyyətin formalaşması prosesi milli mədəniyyətlərin ölüb- getməsi, aradan çıxması ilə yox, onların hər birinin inkişafı və çiçəklənməsi zəminində baş verir.

ƏDƏBİYYAT

1. Fəlsəfə ensikloppedik lüğət. Bakı: AE Baş redaksiyası, 1997, 520 s.
2. Плеханов Г.В. Литература и Эстетика. М: Госполитиздат, 1958, 670 с
3. Əfəndiyev O. N. Estetik idrak və onun folklorda təcəssünü. B. ADU. 2002, 661 s.
4. Norvuzov T. C. Sabir ədəbi məktəbi. Bakı: Yazıçı, 1992, 216 s
5. Qasımov H. XX əsr Azərbaycan ədəbiyyatşünaslığı məsələləri: Bakı: Adiloğöu, 2007, 740 s.
6. XX əsr Azərbaycan ədəbiyyatı məsələləri. 2 kitab, Bakı: Elm, I kitab, 2006, 427 s.
7. Hüseynov H. XIX əsr Azərbaycan ictimai və fəlsəfi fikir tarixindən. Bakı: Zəkioğlu, 2006, 544 s.

XÜLASƏ

Müəllif məqalədə milli bədii mədəniyyətimizdə estetik idealın çoxcəhətliliyinə, məna çalarlarının zənginliyinə, onların arasında dialektik vəhdətdə olan iki cəhətin qarşılıqlı nisbətinə xüsusi diqqət yetirmisdir. Bunlar milli bədii mədəniyyətimizin özəyini təşkil edən incəsənətimizin milli özünəməxsusluğu və eyni zamanda onun mahiyyətinə üzvi surətdə hopan ümumbəşəriliyi.

Bədii mədəniyyət, estetik ideal, özünəməxsusluq, ümumbəşərilik, xəliqlik, bədilik, ictimai şüur, bədii yaradıcılıq, bədii obraz, mənəvi dəyər

RƏYÇİ: dos. E.Vəliyeva

Əflatun Şükür oğlu Baxşəliyev[52]

SƏMƏD VURĞUNUN BƏDİİ OBRAZI ÖZBƏK DRAMATURGIYASINDA

Səməd Vurğunun bədii obrazı dramaturgiya janrında da özünəməxsus bir yerə malikdir. Türk xalqları ədəbiyyatı içərisində Səməd Vurğuna həsr olunmuş bu janrda yaranan əsərlər də mövcuddur. Özbək müəlliflərindən Rəzzaq Əbdülrəşid öz pyeslərinin birində Səməd Vurğuna həsr etdiyi "Şeirə dönmüş ürək" adlı radio-pyesini qələmə almışdır. Böyük Azərbaycan şairi Səməd Vurğun haqqında yazılmış bu sənədli radio-pyes xalq şairi Xəlil Rza Ulutürk tərəfindən azərbaycan dilinə tərcümə edilərək azərbaycan oxucularına çatdırılmışdır. Bu pyesdəki hadisələr Səməd, Mehdi, Aşıq Şəmşir, Leyla, Nənə, Təbib və digər obrazların dili ilə nəql olunur. Müəllif əvvəlcə Azərbaycan şairi Səməd Vurğunun poeziyadakı uğurlarından, şan-şöhrətindən danışır. Şairin xəstəliyi ilə apardığı gərgin mübarizəsindən, dönməz iradəsindən pyesdə bəhs olunur. Pyesdə eyni zamanda qardaşı Mehdixan Vəkilovun onun yanına gəlməsi, xəstə yatdığı günlərdə ona ürək-dirək verməsi, ona dayaq olması, kənddən-kəsəkdən, eldən-obadan ona xəbər gətirməsi, şairin xəyalən gənclik illərinə, sevdalı çağlara qayıtmasından söhbət açır. Nənəsi ilə görüşləri, Dədə Şəmşirlə dostluq əlaqələri saz tutub, söz qoşması bu pyesin leytmotivini təşkil edir. Rəzzaq Əbdürrəşidin bu pyesdəki üstünlüyü ondan ibarət idi ki, o, əsərin gedişatında Səməd Vurğunun əsərlərindən yeri gəldikcə istifadə edir ki, bu da hər şeydən əvvəl əsərin daha canlı, daha dolğun alınmasına xidmət etmişdir. Əlbəttə, bu nəcib yaradıcılıq keyfiyyətləri oxucuda yüksək zövq, xoş ovqat aşılayır. Onu mənən və ruhən yeniləşdirir və onda yüksək mənəvi zənginlik yaradır. Bu pyesdə həmçinin M.P.Vaqifin, Aşıq Ələsgərin, Aşıq Şəmşirin qoşmalarından da yeri gəldikcə istifadə edilmişdir. Bu da onu göstərir ki, Özbək şairi Rəzzaq Əbdürrəşid Azərbaycan ədəbiyyatına xüsusi ilə onun poeziyasına və folkloruna yaxından bələd imiş. Səməd Vurğun poeziyasını isə daha çox sevmiş, bu poeziyaya yüksək rəğbət və ehtiram bəsləmişdir.

Rəzzaq Əbdürrəşidin qələmə aldığı bu pyes aftoqrafik bir mahiyyət kəsb edir. Bu pyesi oxuyan hər kəs də şairin həyat və yaradıcılığı haqqında bütöv bir məlumat yaranır. Oxucuda onun poeziyasından gətirilən nümunələr şairin xoş ovqat, səmimi şeirləri ilə oxucusunu tanış edir.

Pyes Mehdinin Mehdi - (Mehtixan Vəkilovun) bədii obrazıdır. Səmədgilin evinə gəlişinin təsviri ilə başlanır. Mehdinin səsinə bir qadın cavab verir. O qadın Mehdini içəri mənzilə dəvət edir. Mehdi qadınla söhbətində şəhərə gəlişindən, işlərinin çoxluğundan söz açır və onu da bildirir ki, işi nə qədər çox olsa da, Səmədi görmədən getməyəcəyini qadına söyləyir. Qadın Səmədin bir az kefsiz olduğunu Mehdiyə bildirdikdə o pəjmürdəhal olur. Səməd olan otağa keçir. Bu zaman Səməd zəif bir səslə təzə yazacağı şeirlərdən birinin misralarını dodağı ucunda pıçıldayırdı. Pyesdə Mehdi ilə Səmədin uzun-uzadı etdikləri söhbət təsvir edilmişdir. Bu söhbət əsasında Səmədin kənd-kəsəklə, el-oba ilə, qohum-əqraba ilə, cocuqlarla maraqlanması təsvir olunur. Onlar da öz uşaqlıq illərinə qayıdaraq, o unudulmaz, şirin çağları bir də yada salır, bir də xatırlayırlar. Söhbətin bu məqamında Mehdi ona daha da əzimli və iradəli olmağı, xəstəliyin əlinə yaxa verməməsini tövsiyyə edir. Ona bir şair kimi səcdə etdiyini və onun şöhrətinin bütün dünyaya yayıldığını Səməd Vurğuna bildirir. Hətta onun bir qəzəlini də sazın müşaəti ilə söyləyərək Vurğunun könlünü şad edir: "Bu gün şeirimizin pələngisən.

Vurğun: -Qoy görək, küyə basma! (gülümsəyir).

Mehdi: Mən zarafat eləmirəm. Sənin kimi Arslana xəstəlik, sayruluq neyləyə bilər? Dərdə təslim olmaq şairə yaraşmaz!

Vurğun: Düz deyirsən, dostum, həyat bizə öyrədib ki, səngər tutaq, cəbhəni əldən verməyək. Bəli, Mehdi bəy, hələ təslim olmaq fikrində deyiləm. Ancaq fikirə dalanda görürəm ki, dünya ilə əlaqəm, söhbətim indi yalnız bu pəncərə sayəsindədir. Otaq biraz sıxır məni.

Mehdi: -Bunlar keçib gedəcək.

Vurğun: -Bəlkə də. Ötüb keçəcək, amma haçan? Həkimlərin nəzarətindən haçan qurtula biləcəm? Özün dediyin kimi, mən insanlara qaynayıb qarışmağa öyrənmişəm. Ova, səyahətə eşqim böyükdür. Kənd-kənd, oba-oba gəzmək, yurddaşlarımı görmək, bir-iki ağır şirin söhbət eşitmək həsrətindəyəm. Lakin çıxa bilmirəm.

Mehdi: - İnşallah, tezliklə çıxarsan.

Vurğun: - Bəlkə də.... Amma bu sözlərimi şikayət bilmə. Mən hələ əllərimi qoynuma qoymamışam. Nəğmələrim var, hələ könlümdəki şeir nəhrləri qurumayıb. Onun dalğalarında əl-qol atıram hələ. İlhamın köməyi ilə bu dalğaları kağıza köçürürəm. Özün görürsən ki, başqa bir aləmə tələsmirəm.

Mehdi: -Çox gözəl!

Vurğun: - (fikirli) Gördüyün arslana bənzəyirəmmi!

Mehdi: -Bənzəmək az olar, arslanımızsan.

Dostlar, badələri qaldırın içək,
Gecə ulduzludur, hava da sərin.
Demirəm məst olub dünyadan köçək,
Deyirəm mehriban düşüncələrin,
İsti qucağında qızınaq bir az.
Qoy uzansın gecə, geciksin səhər,

[52] **AMEA Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutu, filologiya üzrə fəlsəfə doktoru, dosent. E-mail: ehmedova_1984@bk.ru. İndeks:**821(=512.1)

Yuxuya getməsin məclisdəkilər.
Mənim söhbətimdən yorulmaq olmaz.
Hələ yer üzündə insan yanında,
Deyib danışmaqdan doymamışam mən.
Uzadaq ömrünü hər bir anın da,
Yel kimi keçməsin vaxt üstümüzdən,
Bu aylı gecədə, bu dağ döşündə,
Bu sazlı söhbətli bulaq başında
Bu saat, bu dəm,
Heç yerə, heç yana, mən tələsmirəm. (7,141)

Rəzzaq Əbdürrəşidin bu pyesindəki Səməd Vurğun yaradıcılığından götürdüyü bu say-seçmə şeirlər pyesə xüsusi bir dərinlik və poetik siqlət gətirir. Həm də Özbək müəllifinin Vurğun yaradıcılığına necə də dərindən bələd olduğunu göstərir. Şairin ən məhşur və dillər əzbəri olan şeirlərini pyesin gözünə qatmaqla əsərlərin poetikasını, oradakı xəlqilik ruhunu bir daha artırır, ona xüsusi ahəngdarlıq, harmoniya, yüksək şeiriyyət bəxş edir. Məhz pyesin sambalı və kamilliyi də buradadır. Əsərdə Vurğunla Mehdi arasındakı digər dialoqlar da maraqlıdır. Bu hissədə Mehdi şairin böyüklüyündən, dünya şöhrətindən danışsa da Səməd ömründən ötən 50 ildə xalqı üçün nə etdiyindən, xalqın ulu tarixinə nə verdiyindən söhbət açır. Təşnəsi olduğu gənclik illərinə xəyalən bir də qayıdır. Mehdiyə deyir ki, o illərə dönək, o çağları bir də yaddaşımızda çözələyək. Bir xatirəyə dönmüş o günlərimizi bir daha vərəqləyək. Şair hətta qəzəlindən son beyitləri də sazın üstündə söyləyir. Mehdi isə məhz elə bu qəzəli bütün toylarda oxunduğunu, bu qəzəlsiz bir toy da ötüşmədiyini böyük fəxarət hissi ilə qeyd edir.

Mehdi: -Sərraflar düz deyiblər ki, böyük şairlərin şeirlərində dəniz dərinliyi var. Doğrudan da bu cür əsərlərin şeiriyyəti o qədər pakdır ki, hər oxuyanda yeni-yeni məna cilvələri tapırsan.

Vurğun: -Çoxdan bəri xəyalların hökmündəyəm. Bu gün əl yazmalarımı qarşıma qoyub, xeyli fikirləşdim, ömrün dərslərini düşündüm.

Mehdi: - Nə düşündün söylə, biz də bilək.

Vurğun: - El dilində məsəl var: "Hesablı dost ayrılmaz". Düzdürmü? İndi bax, yaşım əlliyə yaxınlaşır, saçlarıma qırov düşür. Çox gəzmişəm. Çox görmüşəm. Yaxşı, bu əlli il içində həyatdan nə aldım, əvəzində nə verdim, xatirəyə, nağıla çevrilən çağında adımı yaşatmağa nəyin qalacaq? Elə bilmə mən xəyal düşgünüyəm, biz realist kişilərik. Bu gün olmasa da sabah tarixə dönəcəyik. O zaman ortada layiqli nəyimiz qalacaq? Bu barədə düşünürəm. Bu işıqlı dünyaya gəlişimin bütün səbəbkarlarına borcluyam. Atam Yusif ağa Hacıməmməd oğluna, Anam Məhbubə xanım Mehdixan qızına, məni yetimlik çəkməyə qoymayan dövrümüzə, məni şair eyləyib gözü üstündə yer verən elimizə borcluyam. Çox borcluyam bu dünyaya.

Mehdi: - Sən borcunu yeyib üstündən su içənlərdən deyilsən, Səməd! Bütün yaradıcılığın bunu sübut edir.

Vurğun: - Bayaqkı qəzəlimi oxuyub həyacanımı artırdım, çox şeyləri yadıma saldım (gülümsəyir). Gəl, bu gün eyni mövzuda konuşaq. Ömrün cığırlarıyla qayıdaq gəncliyimizə, yaxşımı?

Mehdi: - Yaxşı. (Vurğun xəyallı, həyacanlı sazı götürür, bayaqkı qəzəlin ardını oxuyur)

Sus, ey bülbül, kəs ey tufan,
Məramım istirahətdir.
Bu yerlərdə payım yoxmuş,
Əlacım bir səyahətdir.
Ölüm! Eyvah, o neymətdir,
O bir canlı səadətdir,
Əgər vaxtsız ölər isəm,
Rəqibim bəxtiyar olsun.

Mehdi: - Oxumamışam, oxuyanların dilindən eşidib yadımda saxlamışam. Elə bir toyumuz məclisimiz olurmu ki, bu qəzəlsiz sovuşsun?

Vurğun: - Deyilən söz atılan oxa bənzər. Xalqın müdrikliyinə mən bir daha iman gətirirəm.(7,151)

Onu da qeyd etmək yerinə düşər ki, Rəzzaq Əbürrəşid bu pyesdə əsl şair necə olmalıdır? ideyasını öz güclü fantaziyasına qovuşduraraq pyesdə təqdim etmişdir. Şair təvazökarlığı, vətənə bağlılığı, şairin tarixə nə verməsi və s. müddəalar pyesdə yer almışdır.

Pyesin əsas süjet xətti Səmədlə Mehdi arasındakı dialoqdan ibarətdir. Bu söhbətin axarında Səmədin saz və skripkanı gözəl bir şəkildə dinləndirməsindən söhbət açılır. Səməd saz sənətinə belə qəlbən bağlandığını, atasının saz çalmaq məharətindən pərvəriş tapdığını, qanadlandığını etiraf edir. Xəyallar qanadında o günlərə geri dönür. Eləcə də şair illərin axarına qoşularaq ötən çağları - gənclik çağlarına, sevdalı məqamlara səyahət edir. Pyesdə təsvir olunan bu detallar, onu göstərir ki, pyes müəllifi şair Səməd Vurğunun həyatındakı ən incə məqamları öyrənərək onu pyesin məzmununa daxil etmişdir. Pyesin daha bir maraqlı cəhəti də ondan ibarətdir ki, bu xatirələr içərisində o, hələ 11 yaşında olarkən 28 may Cümhuriyyət gününü xatırlaması idi. Milli dövlətçiliyimizin, Cümhuriyyətin qurulduğu günü nəzərindən keçirir. Xalqın azadlığa qovuşma saədətini yad etməsindən ibarət idi. Təsvir edib göstərdiyimiz bu mənzərəni özündə yaşadan, canlandıran bir parçanı nəzərdən keçirmək təqdirə layiqdir: "Vurğun:—Bu saz mənim 50 illik könüldaşımdır, atamdan qalıb. Atam bunu bağrına basıb həzin-həzin çalardı, bir küncdə dayanıb dinləməyi mən neçə xoşlayırdım. Rəhmətliyin qiyafəsi hələ də

gözümün önündədir. Gözlərini azca yumar, boynunu bükər dodaqlarını dişi ilə azca sıxarmış kimi çalardı. Ürəyindən nələr keçdiyi təkcə özünə əyan idi. Ancaq onun çaldıqlarını dinlərkən hönkürüb ağlamaq istərdim. Axşamlar onu dinləyərkən xəyal qanadlarında uzaqlara uçardım. Bəzən varlığıma bir asimanlıq işıq doğar, bəzən də başımın üstündə qara buludlar oynaşardı. Atamın həsrətini çəkəndə bu saz dadıma yetir.

Və ya başqa bir parçanı göz önündən keçirək. Vurğun:—Vurğunluğu təkcə sazla bağlama. Vurğunluğumun tarixi özgədir. Sazdan başqa çox şeylərə aşiq oldum. Səni bilmirəm, Mehdi bəy, amma mən yeniyetməlik çağımızı tez-tez anıram. Gəncliyimiz qızğın alovlu illərə düşdü. On-on bir yaşında ikən üzümüzə 28 may günəşi doğdu. Yoxsulların komasına işıq doldu, bəylər, ağalar dünyasına od vuruldu. Min illər boyu mürgüləyən yorğun, yeknəsək dünya təzə həyat görmək eşqi ilə yenidən canlandı, nəğmələr üstündə qanadlandı. Adamlar öz gələcəyini aydın görməyə başladılar. Cəbhələrdə döyüş marşı gurladı. Həmin illərin öz cingiltisi, öz atəşi ilə dolu türküləri vardır.

Əlbəttə, bu, özbək şairinin nəinki Azərbaycanın söz-sənət sərraflarına, eləcə də onun möhtəşəm tarixinə bələdçiliyi bu pyesin ictimai-siyasi ruhunu ortaya çəkir, müəllifin yaradıcılığının ideya-bədii istiqamətlərini bir daha müəyyənləşdirməyə xidmət edir, pyesin, sambalını nümayiş etdirərək, oxucuda yüksək ruh aşılayır.

Pyesdə başqa bir səhnəni nəzərdən keçirək. Əsərin bu yerində səhnədə Bəsdi nənə görünür, öz nəvəsinə dua edərək, ona dinclik və rahatlıq verməyən fələyin gərdişinə küfr oxuyur. Allahdan nəvəsinə xoş gün, xoş güzaran diləyir. Səmədin ayaq səslərini eşidən Bəsdi nənə ona müraciət edərək özünün sevgi dolu hisslərini nənəsinə bildirir:

"Bəsti nənə: -Ey pərvərdigar, sən bir yetimin başına nə qədər bəla gətirirsən. Bu ölkədə gör nə qədər yaman adamlar var. Fırıldaqçılar, əqrəblər, başkəsənlər var! Nə üçün qəzəbini onların üstünə tökmürsən? Gəlib, yumruq boyda uşağa gücünü göstərirsən. Vay, küfrə batdım. Mən başı batmış gör nələr deyirəm. Dilim–ağzım qurusun. Özün keç, suçumdan Xudaya! Nəvəmə rəhmin gəlsin Səmədimə səbr ver, onu şeytan vəsvəsəsindən gözlə. Özün ona ağıl, kamal əta qıl. Səməd, əziz balam gəldinmi? Yarı canım yanında idi, quzu balam.

Səməd:–Çox gəzmişəm, nənə, çox gəzmişəm."

Səmədin məyusluğu nənəni narahat edir. Onun saz çalmasını, oxumasını qınayır. Səməd nənəsinin giley-güzarına cavab olaraq saz çalmağına görə onu tənbeh etdiyinə görə saz çalmağın nə vaxtdan günah sayılır, dedikdə nənəsi ona saza görə yox, el içində qızlar arasında onun barədə söz-söhbət yayıldığını bildirir. Nənə Səmədə Araz bəyin qızı Leylaya şeir, qəzəl qoşub, onun arxasınca düşdüyünü bildirdikdə, Səməd Leylanın ağıllı qız olduğunu nənəsinə söyləyir. Araz bəy buna heç bir vəchlə razı olmayacağını nəvəsinə desə də Səməd öz fikrində israr edir, öz fikirindən dönmür:

Səməd:—Məgər, xəyala dalmaq, saz çalmaq yaman işdir?

Bəsti nənə: Saz çalmağını yamanlamıram. Qızların, gəlinlərin dilindən xoşagəlməz sözlər eşidirəm. (Səməd heyrət içində) — O nə sözdür nənə?

- Deyirlər sən Araz bəyin qızı Leyla xanıma aşıq olmusan. Ona şeir, qəzəl qoşub ardınca deyirsən düzmü?

- Səməd sıxılaraq: Nənə özün bilirsən ki, qadınlar zarafatcıl olublar Leyla yaxşı qızdır nənə. Görsəniz özünüz də aşiq olacaqsınız.

- Bəsti nənə ayılmış kimi: - Yaxşı qız olmağına sözüm yox. Axı sənin ağzından süd iyi gəlir. Nə üçün evdə çöldə haqqında bu cür söhbətlər getsin. Səməd: —Dünyanın gözəlliyi uşağa da halaldır böyüyə də.

Ondan zövq ala bilmək səadətdir ay nənə. Mən heç bir yaman söz deməmişəm. Leyla doğrudanda gözəldir.

Bəsti nənə: Sən böyüyü kəsib kiçik eləmək istəyirsən bala. Axrı xeyr olsun, Ancaq bu sözümü yadda saxla, Araz bəy dövləti başından aşan bir cahangir kişidir. Qətiyyən razı olmaz ki, qızının adı sənin adınla qoşa çəkilsin. Bu söhbətlər onun qulağına çatmamış ağlını başına yığ. Sən biçarə yetimsən, balasan, O dünyaya sıxmaz havalı bir dövlətli. Yorğanına görə ayağını uzat, başımıza bəla gətirmə.

Səməd:—Qorxma nənə, səni bəlaya salmaram". (7,153)

Pyesdə göstərilir ki, hətta Mehdi də bu söhbətə müdaxilə edərək, bu sevdanın sonu ilə maraqlanır. Pyesdə yaradılmış obrazlar qalereyasının hər bir surəti müəyyən fantaziya ilə göstərilir, yəni real adlar deyil, müəllifin əsərdəki adları (Səməd və Mehdidən başqa) hamısı uydurma adlardır. Bu pyes avtobioqrafik bir əsər adlandırıla bilər. Maraqlı cəhət burasındadır ki, Özbək müəllifi Azərbaycanın, xüsusi ilə Vurğunun doğulduğu Qazax rayonun etnoqrafik xüsusiyyətlərini, milli adət-ənənələrini çox dərindən bilmiş və bu əsəri yazarkən həmin adət-ənənələrdən yerli-yerində lazımi qədər istifadə etmişdir. Bu da, əlbəttə, əsərin daha real alınmasına dəlalət edir. Pyesin bir hissəsi isə romantik duyğularla daha zəngindir. Vurğunun gəncliyinin sevda dolu səhifələri tam dolğunluğu ilə canlandırılır. Şairin xəyali söhbətləri əks olunur. Əlbəttə, bu səhnədə Özbək şairi Rəzzaq Əbdürrəşidin fantaziyası da mühüm rol oynayır. Eyni zamanda burada sənətin ecazkar qüdrəti ilə ürəkləri ovsunlamaqdan, sözün sehri ilə könülləri fəth etməkdən söz açılır. Şairanə duyğuların təntənəli, şəhanə bir qələbəsinin möhtəşəmliyindən danışılır. Vurğunun sevgilisi Leyla ilə zəngin romantika ilə dolu söhbəti əsərdə xüsusi önəmli bir məzmun daşıyır. Belə ki, pyesdə iki sevgilinin romantik dialoqu bu qarşılqlı məhəbbətin böyüklüyü və əzəmətini bir könül tərənəsinə çevirərək şaqraq ahəngi ilə şair qəlbini ehtirasa gətirir. Bu tərənəyə Vurğunun şeirləri qoşularaq daha möcüzələr yaradır və könülləri diqqətə gətirir. Tamaşaçı duyğularını təlatümlü bir dənizə çevirir. Lirik bir mənzərə yaradan bu səhnələr pyesin şirinliyini birə-beş artırır:

"Leyla: — Yaşa, Səməd! Sən sazı dinləndirəndə bütün aləm diqqət kəsilir.

Səməd: —Sənsəmi Leyla?

Leyla:—Mənəm Səməd. Sən axşamlar hamımızı əfsunlayırsan.

Səməd:—Səni də mi Leyla?

Leyla:—Bəli, məni də. Türküləri, şərqiləri çox sevirəm mən. Bayatıları dinləməkdən doymuram, amma sən qəmli havaları çox çalırsan. Sənin sazın məni yandırıb yaxır. Oxuduğun şeir gözəldir. Özünmü yazmısan?

Səməd:— Yox, Leyla oxuduğum şeir M.P.Vaqifin qoşmasıdır.

Leyla:— Aha bildim, Sən mənə öz şeirlərindən oxu. (Səməd nazlanaraq)—Səni eşitmək istəyirəm:—

Yenə qılıncını çəkdim üstümə,
Qurbanı olduğum o ala gözlər
Yenə cəllad olub durdu qəsdimə,
Qələm qaş altından piyalə gözlər.

Leyla: — Şeirin gözəldir Səməd! Deyirlər özünə Vurğun ləqəbi seçmisən hə Səməd! (Gülümsəyir). Nədən doğdu bu yeni ad.

Sən kimin aşiqisən, kimin Vurğunusan Səməd?

Səməd:— Bu sirdir Leyla.

Leyla: (Gülümsəyərək) doğrudanmı, düzünü de görək, bu adla ovsunlu şeirləri kimə qoşmusan?

Səməd: — Desəm inciməzsən ki, Leyla,

Leyla:—(heyrətlə) yox. Niyə inciyirəm ki, lirik axarda təsvir olunan bu hadisələr tamaşaçını bir anda belə böyük heyrətə salır, onları əsərə — səhnəyə daha möhkəm bağlayır. Bu səhnə əsəri Özbək müəllifinin S.Vurğunun romantik, lirik düşüncələrini sanki, özü yaşayır. Bu təbiilik səhnədə nümayiş etdirilən əsərə xüsusi gözəllik və canlılıq gətirir. Özbək şairinin Səməd Vurğunun məxfi dünyasına bələdçiliyi bir daha nümayiş olunur. Bu, eyni zamanda Özbək şairinin böyük məharəti idi ki, belə bir səhnə əsəri qələmə almış xalqına çatdırmış. Bu əsər pyes janrında qələmə alınsa da belə bu janrda olan gərginlik dramatizm gözə çarpmır, əksinə dərin lirizm, axıcılıq, romantik əhval-ruhiyyə bu əsərin əsas qayəsini təşkil edir. Özbək müəllifi səhnədə lirik səhnələr bolluğu yaradır. Əsərin lirik ovqatını daha da zənginləşdirir. Səmədlə Leyla arasındakı lirik mükalimə buna canlı sübutdur:

Səməd:— Bu şeirləri sənə qoşmuşam Leyla! Mən sənin Vurğununam Leyla!

Leyla:—Vay (öncə tərəddüd edir sonra köks dolusu qəhqələr içində uğunub gedir, qaçır). (ardınca "Leyla!" deyə Səməd baxa-baxa qalır, Səməd sazı sinəsinə basaraq): (7,155)

Xumar–xumar baxmaq göz qaydasıdır,
Lalə tək qızarmaq üz qaydasıdır.
Pərişanlıq zülfün öz qaydasıdır
Nə badi, Səbadan, Nə şanədəndir.

Ah, Leyla, niyə qaçıb getdin? Heç bilmədin ürəyimdə sənə deyiləsi nələr var. Kimin Vurğunusan. Doğrudanmı, bilmir kimin Vurğunuyam. Ya bəlkə sınayır? Niyə gülüb qaçdı? Niyə bir ağız söz ilə cavab vermədi? Bəlkə həyəcanlandı? Bəlkə incidi? Kimin Vurğunu ola bilərdim ki? Gözümü açdım, səni gördüm. Səni görən gündən gözüm açıldı. Saz çaldım, kökü, pərdələri sən oldun. Şeir yazdım, vəzni ruhi sən oldun, beynimə qəlbimə ömrümə doldun. Könlümə doğulan türkilərin anası Leyla!"

Bu əsərdə güclü şair təxəyyülündən, sənətkar fantaziyasından istifadə edilməsi oxucuya və dinləyiciyə açıq-aydın görünməkdədir. Əlbəttə, bu da əsərin xeyrinədir. Bu radio pyesində Səməd Vurğunun anaya olan tükənməz sevgi və istəyi də yer alır. Onun anasının ziyarətinə getməsi nənəsi ilə anası haqqındakı söhbətlərində bu bir daha üzə çıxır. Bu səhnədə eyni zamanda nənənin Vurğuna tövsiyyə və nəsihətləri mühüm yer alır. Bununla da nəvəyə olan təəssübkeşliyi üzə çıxır. Bu tövsiyyələr əlbəttə, Vurğun üçün onun yollarına işıq saçan bir çıraq idi. Nənə eləcə də Vurğunun Leylaya olan sevgisini də tənbeh edir. Səmədi atıb başqasına ərə getdiyi üçün onu danlayır.

Leylanın bu hərəkəti nə üçün bir qınağa çevrilir: "Bəsti nənə:—bir halda ki, sənə ana əvəziyəm, deməsən də dərdin mənə ayandır. Sən Leylanı düşünürsən gecə-gündüz onun fikriylə çırpınırsan.

Beləliklə, deyə bilərik ki, türk xalqları ədəbiyyatında Rəzzaq Əbdürrəşidin "Şeirə dönmüş ürək" pyesi S,Vurğun haqqında yazılan ən məşhur bir sənət nümunəsidir.

Ədəbiyyat:

1. Arzumanlı Vaqif. Ədəbiyyata qovuşan sənət. B., "Gənclik", 1976, 112 s.
2. Aripov Abdulla. Qardaşlıq əlaqələri bayramı. "Kommunist", 2 oktyabr 1975.
3. Cəfərzadə Əzizə. Ustad Qafur Qulamla görüş. "Ədəbiyyat və incəsənət", may 1979.
4. Qulam Qafur. Ömrün baharında. B., "Yazıçı", 1979, 96 s.
5. Muxtar Əsqəd. Qardaşlıq əlaqələri. "Ədəbiyyat və incəsənət", 30 may 1980.
6. Nəzrullayev Nərmurad. Dost sözü, qardaş sözü. "Ulduz", 1975, №10, s.47-48.
7. Rəzzaq Əbdürrəşid. "Şeirə dönmüş ürək".Bakı, "Yazıçı", 1979,s.141, 151,153,155.
8. Ulutürk Xəlil Rza. Turan çələngi. B., "Elm", 1992, 792 s.

XÜLASƏ

Səməd Vurğunun bədii obrazı Özbək dramaturgiyasında

Açar sözlər: pyes, süjet, mövzu, ideya, üslub

"Səməd Vurğun özbək dramaturgiyasında" adlı məqaləsində tədqiqatçı alim Özbək şairi Rəzzaq Əbdülrəşidin Səməd Vurğuna həsr etdiyi "Şeirə dönmüş ürək" adlı pyesini tədqiqata cəlb edir. Alim bu pyesi haqlı olaraq mövzu baxımından aktual, məzmunca dəyərli olduğunu göstərir.

Məqalədə göstərilir ki, pyesdə yaradılmış obrazlar qalereyasının hər bir surəti müəyyən fantaziya ilə bağlıdır. Yəni real adlar deyil, müəllifin əsərdəki adları (Səməd və Mehdixandan başqa) hamısı uydurma adlardır. Məqalə müəllifi qeyd edir ki, Özbək şairi Azərbaycanın, xüsusilə Vurğunun doğulduğu Qazax rayonunun etnoqrafik xüsusiyyətlərini, milli adət-ənənələrini çox dərindən bilmiş və bu əsəri yazarkən həmin adət-ənənələrdən yerli yerində lazımı qədər istifadə etmişdir.

Məqalə müəllifi onu da qeyd edir ki, S.Vurğunun gəncliyinin sevda dolu səhifələri əsərdə tam dolğunluğu ilə canlandırılır. Şairin xəyali söhbətləri xüsusi yer alır. Tədqiqatçı həm də qeyd edir ki, belə romantik səhnələrdə pyesin müəllifi Rəzzaq Əbdürrəşid fantaziyası mühüm rol oynayır. Məqalə müəllifi eyni zamanda əsərin bədii nailiyyətlərindən, sənətin ecazkar qüdrətiylə ovsunlanmaqdan, sözün sehri ilə könülləri fəth etməkdən söz açır.

РЕЗЮМЕ

Художественный образ Самеда Вургуна в узбекской драматургии

Ключевые слова: пьеса, сюжет, тема, идея, стиль

В статье анализируется пьеса узбекского поэта Раззака Абдулрашида «Душа, воплотившаяся в стихотворение», посвящённая Самеду Вургуну. Исследователь считает эту пьесу актуальной и ценной.

Автор подчёркивает, что каждый персонаж, входящий в галерею образов этой пьесы является плодом фантазии, кроме Самеда Вургуна и Мехтихана, все имена придуманы авторам. Исследователь подчёркивает глубокие знания узбекского поэта в области этнографии Азербайджана, в частности Казахского района – родины С.Вургуна, также национальных обычаев азербайджанского народа, и руководствовался этими знаниями, когда создавал пьесу. Автор статьи также отмечает, что пьеса богата романтическими чувствами. Автор статьи отмечает большую роль фантазии Раззака Абдурашида, так как в пьесе занимают значительное место мысленные беседы поэта, воспоминания юности, полной любви.

SUMMARY

Literary image of Samad Vurgun in the Uzbek dramaturgy

Keywords: play, plot, theme, idea, style

The researcher in his article "Samad Vurgun in the Uzbek dramaturgy", studies the play "A Heart Turned to Poetry" dedicated to Samad Vurgun by the Uzbek poet Razzag Abdulrashid. The scholar rightly points out that this play is relevant in terms of topic and valuable in terms of content. In the article is shown that each copy of the gallery of images created in the play is related to a certain fantasy. That is, they are not real names, the author's names in the work (except Samad and Mehdikhan) are all fictitious names. The author of the article notes that the Uzbek poet knew very deeply the ethnographic features and national traditions of Azerbaijan, especially the Gazakh region, where Vurgun was born, and while writing this work, he used those traditions as much as necessary in his local place. The author of the article also notes that the play is polished with richer, romantic emotions. The author of the article also notes that the love-filled pages of Samad Vurgun's youth are fully revived in the work. The imaginary conversations of the poet have a special place. The scholar also notes that the fantasy of the author of the play, Razzaq Abdurrashid, plays an important role in such romantic scenes. At the same time, the author of the article talks about the artistic achievements of the work, being enchanted by the wonderful power of art, and conquering hearts with the magic of words, and speaks about the grandeur of a triumphant triumph of emotions.

RƏYÇİ: dos. S.Abbasova

Гулиева. И. Н.[53]

НИЗАМИ ГЯНДЖАВИ –НАЧАЛО ПУТИ

В прошлом году Низами Гянджеви исполнилось 900 лет. Перед Азербайджаном была поставлена почетная, но и трудная задача – достойным образом отметить этот знаменательный юбилей гениального азербайджанского поэта.

Значение творчество Низами выходит за рамки собственно азербайджанской литературы. Его произведения – такое же изумительное достижение человеческого гения, как творения величайших мастеров мира: Фирдоуси, Данте, Шекспира и т д.

Мы добились того, чтобы к моменту празднования юбилея его поэмы стали доступны всем народам, населяющий нашу необъятную планету. Это потребовало большой и напряжённой работы, так как, к сожалению, пока в изучения Низами, как в прочем, и вообще в отношении изучения литератур Востока, сделано мало. Показать в данный момент все богатство и глубину творчества Низами невозможно. Особенно же трудно сделать это в популярном изложении, которое обязательно требует, что бы ему предшествовала долгая и кропотливая исследовательская работа.

Настоящая статья – одна из первых попыток ознакомится более широким кругом читателей с жизнью и творчеством Низами. Поэтому она не может ставить цель разрешение всех связанных с изучением его творчества проблем. Всякая попытка всестороннего освещения его творчества может быть осуществлена только в виде объёмной монографии, но не в рамках журнальной статьи. На данном этапе задача более скромная. Я только хочу ознакомить читателей с основными фактами, показать, кто такой Низами, из чего складывается его творчество и почему это творчество обладает такой огромной ценностью.

XI-XII века нашей эры в истории Переднего Востока – один из самых бурных и беспокойных периодов. Если к началу X века распространению халифата был положен конец и отложившиеся от него по всем окраинам местные династии снова решительно пытаются занять господствующее положение, то уже в начале XI века из степей Средней Азии начинается приток сельджуков, передвигающихся на своих конях со сказочной быстротой и повсюду отбрасывающих хозяев на второй план.

История этих веков – сплошная цепь столкновений. Местная родовая аристократия борется между собой, разоряя друг у друга владения и ослабляя друг друга, сельджуки поочередно выбивают из седла не сумевших объединиться мелкие князьков, объединяют мелкие владения в крупное целое, но, в результате внутренних раздоров, снова дают им распасться на их составные части. Можно сказать, что карта Переднего Востока в это время почти непрерывно меняет свои очертания, границы отдельных владений перекраиваются чуть не каждый год, а, иногда, годами остаются неопределенными, колеблется то в одну, то в другую сторону.

Любопытно, что это неустойчивое положение, тем не менее, не только не парализовало литературную жизнь Переднего Востока, но даже как будто содействовало увеличению числа литературных деятелей. Причина этого в характере литературного быта той эпохи. Нужно иметь в виду, что поэтическое творчество в это время требовало освоения чрезвычайно сложной поэтической техники, без знания которой, руководствуясь просто чутьем, писать стихи было совершенно невозможно. Затрата времени на освоение этой техники обычно было столь велика, что иметь наряду с этим какое-нибудь побочное ремесло было крайне трудно. Таким образом, если поэт не был обеспеченным человеком, или дервишеским шейхом, ему надо было во что бы то не стало найти себе покровителя. Таких покровителей можно было искать только среди правящих кругов, в рядах феодальной аристократии. Следовательно, чем больше появлялось феодальных дворов, чем сильнее дробилась страна, тем больше было надежд для поэта найти себе подходящее пристанище.

Большинство правителей довольно охотно привлекало талантливых поэтов к своим дворам. Задача этих придворных певцов была, с одной стороны – прославить настоящие или воображаемые подвиги своих повелителей, с другой – развлекать их во время попоек изящными экспромтами, страстными газелями или, подчас, безудержно циничными и грязными сатирами.

Создававшаяся при дворах конкуренция делала положение таким поэтов не особенно завидным. За свои место приходилось бороться, каждую подачку нужно было выпрашивать, всегда был риск, что конкурент сумеет найти более раболепную и пышную гиперболу для прославления хозяина. В результате, притворные поэты в погоне за оплатой, зачастую, совершенно теряли всякую меру и впадали в гиперболизм, противоречащий всякому здравому смыслу.

Неудивительно поэтому, что многие из наиболее крупных представителей этой профессии под конец жизни отказывались от своей прежней деятельности и вспоминали о ней с величайшим отвращением, как о работе, недостойной порядочного человека.

Законченный тип придворного поэта впервые сложился в бывшем халифате во владениях бухарских Саманидов, уже к началу X века. Саманидский двор на долгие годы стал образцом всех династий возникавших Переднем Востоке, его церемониал перешел в XI век к Газневидам, позднее и к сельджукам. Эти подражания

[53] **Доктор философии. Азербайджанский Технический Университет. ilahi80@mail.uk**

Саманидам, закрепленное традицией, привело к тому что в качестве литературного языка для этой поэзии во всех концах халифата был избран впервые широко введенный в придворный обиход Саманидами язык персидский. Обычно устанавливают такую градацию: богословие и находящиеся под сильным давлением его науки требуют применения арабского языка художественное творчество должно пользоваться языком персидским местным же языки сохраняют за собой область разговорной речи и могут быть в очень малой степени допущены в литературу сатирическую. Другими словами, создается трехстепенная градация. Это положение хотя и сужало и без того узкий круг потребителей литературы, но зато давало поэтам и известным преимущество. При специализации на местном языке поэт был бы повсюду прикован к одной небольшой области, что иногда могло поставить его в совершенно безвыходное положение. Пользуясь языком персидским, поэт мог найти себе применение от берегов Ганга до Средиземного моря и от Сыр-Дарьи до Месопотамии. Изменяется это положение только после монгольского нашествия, когда арабский язык отходит на второй план, языком науки становится персидский, а в литературу все сильнее начинают проникать различные местные языки.

Поэтому не приходится удивляется, что и а Азербайджане XI-XII веков основным литературным языком был персидский, он единственный язык, имевший доступ ко двору и отвечавший к требованиям феодальной аристократии.

Азербайджан XII века дает ту же картину раздробленности на отдельные мелкие владения, которые так характерна для всего бывшего халифата в это время. Арран с главным городом Гянджой, с серединыX века находившийся во власти династий шеддадидов, во второй половине XI века был захвачен сельджуками. Ширван с середины XII века управлялся династией кесранидов, в южном Азербайджане с центром в Ардебиле сидели сельджукскиминаместниками атабеки, с 1136 году известные под названием ильдигизидом, Мерага и прилегающие области были во власти атабеков-аксонкоридов.

Из всех этих правителей придворную поэзию больше всех ценили ширваншахи, которые привлекли к своему двору таких крупных поэтов этого времени, как Абу-л-Ала и его ученика Хакани и Фалаки. Все эти три поэта, хотя и работали в Ширване, но родом были из Гянджи. Это показывает, что в культурной жизни Азербайджана того времени Гянджа занимала весьма важное место. Это было связанно со значительным экономическим усилением этого города. С момента разгрома Бердаа русскими, Гянджа выдвинулась на первое место среди городов «мусульманского» Кавказа. Хотя ее положение на самом стыке с грузинскими владениями и ставило ее под угрозу нападений и заставляло жителей ее постоянно быть готовыми к обороне, но это же положение в связи со значительным развитием шелководства представляло ей и значительные выгоды. Что город этот крайне разросся и в тогдашних масштабах был исключительно крупный центром, показывает хотя бы сохранившееся у историков упоминание о землетрясении, постигшем Гянджу в 1138-9 годах. Хроники утверждают, что во время этой катастрофы погибло триста или двести тридцать тысяч человек. Допустим, что эта цифра сильно преувеличена, но даже если мы сократим ее в несколько раз, то, принимал во внимание, что все население было истреблено землетрясением, все же придется признать, что это был весьма крупный город. В этом городе родился и тот поэт, которому было суждено затмить славу подвизавшихся при ширванском дворе его предшественников.

Низамаддин Абу-Мухаммед Ильяс ибн-Юсиф ибн-Зеки-Муаййад, известный под поэтическим псевдонимом Низами, родился в Гяндже около 1140-41г. О его происхождении источники сведений не сохранили. Можно, однако, с полной уверенностью утверждать, что его семья была связана с городским населением и никакого отношения к феодальной аристократии не имела. Все же она должна была обладать известным достатком, позволявшим дать сыновьям блестящее по тому времени образование. Брат Низами, получивший известность под прозванием Кивами Мутарризи, был так же выдающимся поэтом. Из его произведений до нашего времени сохранилось мало, но из имеющихся образцов ясно видно, что сложная техника поэтического мастерства была им усвоена в полном мере. Это без обширной подготовки и глубокого тзучения арабской и персидской поэзии не было бы возможно.

Мать Низами была курдского происхождения. Надо думать, поэтому, что уже с раннего детства он владел, во всяком случае, двумя языками, - обстоятельство крайне благоприятное для развития языкового чутья и облегчающее в дальнейшем изучение новых языков.

Низами рано осиротел и остался на попечении своей матери, старавшейся сделать все возможное, что бы ее сын расширил свое образование. Где учился Низами, мы не знаем. Можно только сказать, что он прекрасно разбирался во всех областях тогдашней науки. Его произведения показывают весьма глубокое познания в философии, астрономии и медицине. Эти знания могли быть приобретены только при условии совершенного владения, наряду с языком персидским, еще и арабским языком. Поэтическая техника Низами показывает, что, кроме наук, он уделял громадное внимание также и поэзии, как персидской, так и арабской.

Сопоставление сохранившихся в источниках дат показывает, что Низами женился довольно поздно, не ранее 26-27 лет. В 1174-1175г. У него родился сын – Мухаммед, которого поэт сильно любил.Отношение между отцом и сыном были дружественные. Отецпосвящал его в свои творческие планы и считался с его советами. Только, благодаря уговором четырнадцатилетнего Мухаммеда, Низами взялся за разработку романа о Маджнуне и создал одно из замечательных своих произведений. Весьма возможно, что эта страстная любовь Низами к

Мухаммеду выросла еще от того, что вскоре после его рождения Низами потерял свою первую жену. Судя по посвященным ей в одной из поэм строкам, поэт всегда с глубокой скорбью вспоминал о ней. После ее смерти Низами женился еще раз, но и вторую жену тоже скоро потерял. Только с третьей ему было суждено прожить продолжительное время. Заслуживает внимание то обстоятельство, что Низами за всю свою жизнь не воспользовался своим правом иметь несколько жен одновременно. Конечно, это можно было бы объяснить отсутствием необходимых для этого материальных средств. Однако, его поэмы ясно говорить о том глубоком уважении, которое он питал к женщине. В противоположность взглядам правящих кругов, женщина для него не была товаром, покупаемым для забавы или для ведения хозяйства. Женщина в его глазах верный спутник, помогающий мужчине в его работе и вдохновляющий его на всякие подвиги.

Изучив науки, доступ к которым открывали существование ученые труды, Низами на этом не остановился. Официальное правоверие, видимо, не вполне удовлетворяло его. Он стремился еще более приблизится к истине, которую искал. Эти поиски привели его в круги суфийских шейхов. Мы не знаем, в какой мере суфийские учения удовлетворили его. Надо думать, что уже хотя бы известная свобода взглядов суфизма, то, что суфизм не всегда считал только одно мусульманское правоверие единственным возможным путем к истине, должно было произвести на Низами большое впечатление.Живя в пограничном городе, сталкиваясь в повседневной жизни с представителями различнейщих наров, Низами рано сумел выйти за рамки узкой национальной ограниченности. Как мы увидим далее, портретов представителей чуть ли не всех известных ему народов, причем ко всем подходит с великой объективностью, стараясь подчеркнуть положительные черты. Возможно, что такие взгляды его в известный степени крепли под влиянием тех суфийских кругов, с которыми он сблизился. Принял его в суфийскую среду некий шейх Ахи Фаррух Зенжани. К сожалению, об этом шейхе нам ничего неизвестно. Но заслуживает внимания его титул – Ахи, который, как будто, указывает на его связь с анатолийским движением ахи, сыгравший большую роль в истории Переднего Востока. Ахи в какой то степени продолжали движение фугувва, тайных организаций, ставивших себе задачей охрану прав городских ремесленников. Движение ахи приводило к таким серьезным последствиям, как известное восстание Бедреддина Симави. Другими словами, из всех многочисленных суфийских организаций, это была одной из самих активных, не склонных ограничиваться одним пассивным созерцанием, и, иногда, умевших поднять массы на борьбу с эксплуататорами. Связи Низами с этим шейхом еще лишний раз подчеркивает близость поэта с городским населением. Понятно, что именно эта среда с ее учением о необходимости действенной помощи нуждающимся и угнетенным позволила развиться великому гуманизму Низами. Здесь он мог научится видеть всю несправедливость существующего стоя, научится проникать пытливым взором в самые тайники человеческих сердец, разгадывая сокровеннейшие их побуждения.

Список литературы

1. Ахундов М. Ф. Есерлери. 3 жилдде. II жилд : Сочинения в 3 т. Т. 2. – Баку: Азерб. ССР ЕАнешр., – 1961. (На азерб. яз.)
2. Крымский А. Е. Низами и его современники. – Баку: Элм, 1981.
3. Низами Г. Лирика. Прозаический перевод / Пер., вст. статья и комментарии проф. Р. Алиева – Баку: Языҹы, 1981.
4. Низами Г. Сборник статей. – Баку: Изд-во АН Азерб. ССР, 1947

Ключевые слова: любопытный, монография, талант, литература.

Acar sözlər: maraqlı, monoqrafiya, istedad, ədəbiyyat.

Keywords: curious, monograph, talent, literature.

РЕЗЮМЕ

В статье рассматривается ранние этапы жизнь и творчество Низами Гянджеви. А также идет речь о его личной жизни. Затронуто не только творчество великого поэта так же его семейная жизнь. Взаимоотношения поэта с простым людьми города Гянджи. Как религиозные поверия времен Низами повлияло на его творчество.

XÜLASƏ

Məqalədə Nizami Gəncəvinin həyat və yaradıcılığının ilkin mərhələlərindən bəhs edilir. Həmcinin şairin şəxsi həyatına da aiddir. Böyük şairin təkcə yaradıcılığı deyil, ailə həyatının bəzi məqamlarına toxunulub. Şairin Gəncə şəhərinin sadə camaatı ilə münasibəti. Nizami dövrünün dini inancları onun yaradıcılığına necə təsir göstərmişdir.

SUMMARY

This article discusses the early stages of Nizami Ganjavi's life and work.It also deals with his personal life. Not only the work of the great poet is touched upon, but also his family life. Relationship of the poet with common people of Ganja. How the religious beliefs of Nizami's time influenced his works.

RƏYÇİ: dos.L.Ələkbərova

Rəsmiyə Səyaf qızı Hacıyeva [54]

"KİTABİ-DƏDƏ QORQUD" DASTANI İNGİLİS ELMİ ARAŞDIRMALARINDA

Araşdırmalar göstərir ki, son illərdə "Dədə Qorqud" eposunun ingilis dilinə tərcüməsi, nəşri və araşdırılmasına maraq xeyli artmışdır. 1956-cı ildə C.S.Mandi özünün "Polifem və Təpəgöz" adlı məqaləsi ilə "Dədə-Qorqud" haqqında ilk dəfə ingilisdilli oxuculara və tədqiqatçılara məlumat verir [3, s. 5]. Dastanın ilk dəfə ingilis dilində çapı isə 1972-ci ildə Londonda edilmişdir. Bu tərcümənin və nəşrin müəllifləri türk alimləri Faruk Sümər, Əhməd Üsyal və Texas universitetinin professoru türkoloq Varren Valkerdir."Dədə Qorqud" kitabı üzərində ilk çalışmanın nəticəsi olan bu nəşrə giriş, müqəddimə, 12 boy, hekayələrin tərcüməsi, 6 fotoşəkil, bir xəritə, izahlar və biblioqrafik məlumatlar daxil edilmişdir. Bu kitab haqqında görləmli qorqudşünas O. Şaiq "Dədə Qorqud" kitabının ingiliscə çevirilər" adlı məqalə ilə mətbuatda çıxış etmiş, boyların tərcüməsində yol verilən dil xətalarını açıqlamışdır [7, s. 14].

Bir il sonra oxucular türk alimi S.Sakaoğlunun "Dədə Qorqud" haqqında 1973-cü ildə TFA dərgisində ingilis dilində nəşr olunmuş məqaləsi, yenə həmin ildə T.S.Halmanın ABŞ-ın Oklohoma ştatının Norman şəhərində "Dədə Qorqud türklərin epik kitabıdır" məqaləsi ilə tanış oldular. Dastanın ingilis dilində II tərcüməsi C.L.Luisə məxsusdur. Bu tərcümə girişdən, boyların tərcümə mətnindən və qeydlərdən ibarətdir. 1974-cü ildə Londonda Pinqvin kitab kompaniyası tərəfindən kütləvi tirajla çap olunmuşdur. Kitaba yazılan müqəddimə göstərir ki, müəllif dastanı tərcümə etməzdən əvvəl bir sıra tədqiqat əsərləri ilə yaxından tanış olmuş, eposun ayrı-ayrı nəşrləri haqqında kifayət qədər məlumat əldə etmişdir. Xüsusən də müəllifin O.Şaiq, V.M.Jirmunski, M.Ergin araşdırmalarına bələd olması açıq hiss olunur. Kitab ikinci dəfə 1982-ci ildə Londonda nəşr edilmişdir. C.Luis oğuzlar, onların tarixi, həyat tərzi, eləcə də dastanın öz tarixi, müəllifi, dili, poetikası haqqında ingilisdilli oxuculara məlumat verir. Alim "Dədə Qorqud" boylarının XV-XVI əslərdə yaranmasını güman edən bəzi araşdırıcıların fikirlərini yanlış hesab edir. Çox doğru olaraq yazır ki, xalq yaradıcılığı nümunələrinin xüsusən də dastanların yarandığı dövrdə dərhal yazıya alındığını söyləmək doğru deyil. Ola bilsin dastanın boyları XIII əsrdə indiki əlyazmaları şəklində formalaşıb, bizə gəlib çatıb, ancaq boyların tarixi daha qədimdir. İslam tarixindən xeyli əvvəl yaranıb, köçəri oğuzların həyat tərzi ilə İslam mədəniyyətini birləşdirən bir körpüdür [1, s. 3].

Tərcüməçi boyların Azərbaycan dilində yazıya alındığını, orada təsvir edilən hadisələrin də əsasən Azərbaycan ərazisində baş verdiyini qeyd edir. Türk, ərəb və fars dillərini dərindən bilən, bir müddət Yaxın Şərqdə işlədiyi üçün bu ərazidə yaşayan xalqların adət - ənənələrinə və tarixinə bələd olan C.Luis bu dastanı çox böyük uğurla indilis dilinə tərcümə etmişdir. Dastanın hər iki əlyazmasından məharətlə istifadə edən və özünün dediyi kimi "daha mükəmməl hissəni" həssaslıqla seçməyə çalışan C.Luis tərcümə zamanı nə ifrat sərbəstliyə yol vermiş, nə də hərfi tərcüməyə arxalanaraq quru bir tərcümə işini başa çatdırmışdır. Şərq və Qərbin qədim dastanlarına yaxşı bələd olan alim ingilis dilinin zənginliklərinə istinad edərək, xalqımızın bu böyük mənəvi sərvətini dünyanın ən geniş yayılmış dilində böyük oxucu auditoriyasına təqdim etməklə ədəbiyyatımıza əvəzsiz xidmət göstərmişdir [2, s. 24].

Tərcümənin orjinalla müqayisəsi göstərir ki, C.Luis dastanın dilini və üslubunu diqqətlə tədqiq etmiş, əsərdə cərəyan edən orta əsrlər tarixini öyrənmiş, dastan haqqında yazılmış elmi tədqiqat işlərini araşdırmış və tərcümə işinə böyük məsuliyyət hissi ilə yanaşmışdır. Sələfləri kimi C.Luis də öz işinə "Ön söz" yazmışdır. Burada oğuzların tarixinə, dastanın yaranma yerinə, dilinə, tarixinə dair maraqlı və orijinal fikirlər söyləyən müəllif bəzi mübahisəli məsələlərə də toxunmuşdur. O, tarixi faktlara əsaslanaraq oğuzların Altay dağlarından Anadolu vadilərinə qədər uzun bir yol keçdiyini bir xalq kimi, həm də qüdrətli bir imperiya yaradan xalq kimi formalaşdığını yazır. Dastandan götürdüyü "Oğuz zamanında belə bir qayda vardı ki, bir gənc kişi evlənərkən ox atar və ox hara düşərsə orada o, bəylik çadırını qaldırardı", "Oğuz bəyləri arasında yalan yox idi", "Oğuz zamanında Qanlı Qoca deyilən bir adam var idi" kimi nümunələrə əsaslanan Luis yazır: "Boylar mövcud formalarına salındığı vaxt oğuz türklərinin özlərinin arasında "oğuz" termini tədricən "türkmən" sözü ilə əvəz olunmağa başlayır və bu proses XIII əsrin əvvəllərinə qədər tamamlanır". "Dədə-Qorqud" kitabında şaman və islam əxlaqının paralel şəkildə mövcud olmasını oğuzların müxtəlif dövrlərdə yaşadıqları həyat tərzi ilə əlaqələndirən müəllif yazır: "İslam çalarlarının İslamdan əvvəl yaranmış bu boylara sonradan əlavə edildiyini görmək üçün elə də araşdırma aparmağa ehtiyac yoxdur. Boylarda düşmənə "kafir" deyirlər və qəhrəmanlar çətinliyə düşdükdə Məhəmməd Peyğəmbərə salavat çəkir və müsəlman rituallarını icra edirlər. Boylardakı bəzi islam adətləri və inancları ilə bağlı onlarda kifayət qədər məlumat yoxdur" [6, s. 13].

Müəllif "Dədə Qorqud"un şəxsiyyətindən danışarkən tarixçi Rəşidəddinin Dədə Qorqudun şəxsiyyəti haqqında verdiyi məlumatları, Qazaxıstan ərazisində yerləşən Korkut şəhərinin yaxınlığında, eləcə də Dərbənd şəhərində onun qəbrinin olmasını əsas götürür və onun varlığını inkar edən heç bir dəlil olmadığını yazır. Dədə Qorqudun dastanların yeganə müəllifi olub - olmaması ilə bağlı olaraq C.Luis yazır: "12 boyun dördündə aydın şəkildə deyilir ki, Dədə Qorqud "bu oğuz boylarını düzüb qoşmuşdur". Digər tərəfdən boyların indiki halı belə bir fərziyyəni təsdiqləyir ki, bunlar onun qoşduğu ilk variantdır. Dədə Qorqud əksəriyyətində özünün də iştirak etdiyi hadisələri təsvir etməklə düzüb qoşmuşdur. Lakin boyların yarısında kiçicik fərqlə "hanı dediyim bəy ərənlər, əcəl aldı, yer gizlədi" şeir parçası ilə başlayan bir hissə var və bu hissə onu deyir ki, bunlar Dədə Qorqudun sözləri ola bilməz". Müəllif kitabın kim tərəfindən və nə zaman tərtib edildiyini müəyyənləşdirməyin asan bir iş olmadığını qeyd edərək yazır: "Çox güman ki, XIII əsrin əvvəllərində qısaldılaraq bugünkü şəklə salınmış bu əsərin tarixi daha qədimlərə gedir" [6, s. 16].

---

[54] **Bakı Dövlət Universitetinin əməkdaşı, filologiya üzrə fəlsəfə doktoru**

Dastanın bəzi tədqiqatçıları qalın Oğuz elinin başında Bayandır xanın durmasını Ağqoyunlu dövləti zamanında baş vermiş hadisələrin nəticəsi ilə əlaqələndirirlər. C.Luis dastanın Ağqoyunlu xanədanlığı dövründə düzülüb qoşulduğuna da inanmır. O, dastandakı Bayandır xanla Ağqoyunlu sultanı Bayandır xanı eyniləşdirməyin düzgün olmadığını qeyd edir: "Bunun doğruluğunu inkar edən məsələ bundan ibarətdir ki, Ağqoyunlu şəcərəsində Bayandır xanın atasının adı Gök xandır, onun atasının adı da Oğuz xandır. Bizim kitabımızda isə onun atasının adı kimliyi bilinməyən Qan Ğandır" [6, s. 19] . C.Luis bəzi tədqiqatçıların dastanda adları çəkilən qəhrəmanları tarixi şəxsiyyətlərlə əlaqələndirib onun tarixini müəyyənləşdirməyə çalışdıqlarını yazır və əsərdə adları çəkilən qəhrəmanları tarixi şəxsiyyətlərlə eyniləşdirməyin və buna əsaslanıb əsərin tarixi ilə bağlı fikirlər söyləməyin inandırıcı olmadığını qeyd edir.

Əsərin müəllifinin böyük poetik istedada malik şərhçi olduğunu qeyd edən C.Luis dastanın ritm, alliterasiya, assonans kimi poetik fiqurlarla zəngin nəsr və qafiyələr əsasında yazılmış söyləmələrdən ibarət olduğundan, dilinin daim dəyişdiyindən, rəngarəng və canlılığından bəhs edir, bütün bunları öz tərcüməsində saxlamağa çalışdığını qeyd edir. Bəzi mübahisə doğuran cəhətlərinə baxmayaraq C.Luisin tərcüməsini "Kitabi-Dədə Qorqud"un dünya dillərinə tərcüməsində yeni bir mərhələ hesab etmək olar. Bu tərcümənin özünəməxsusluğu hərfi-informativ və bədii-poetik tərcümənin üzvi vəhdətdə olmasındadır. Mətnə sədaqət, məzmun planına daha çox diqqət yetirmək aparıcı olsa olsa da, tərcüməçi bədii formanın olması üçün bacardığını etmişdir [5, s. 39]. Tədqiqatçının 16 səhifəlik "Ön sözlə" başlanan bəhs etdiyimiz kitabı 24 səhifəlik şərh və izahlarla yekunlaşmışdır.

C.Luisin tərcüməsinin nəşrindən bir il sonra Azərbaycan alimi prof. Vaqif Aslanov ""Kitabi-Dədə Qorqud" ingilis dilində" məqaləsi ilə mətbuatda çıxış etmiş, BDU-nun Xarici Dillər kafedrasının ingilis dili müəllimi Seyran Əliyev öz yazısında dastanın ingilis dilində hər 3 nəşrini əhatə etmiş, bu nəşrlərdən ikisinin haqqında O.Şaiqin və V.Aslanovun mətbuatda çap olunmuş məqalələri ilə də yaxından tanış olmuş, tərcümələr barədə onların tənqidi qeydlərinə öz şəxsi iradlarını da bildirmişdir. S.Əliyevin araşdırmalarından aydın olur ki, C.L.Luis tərcümə zamanı bir qədər sərbəstliyə, hətta bəzi hallarda ixtisar və əlavələrə də yol vermişdir [1, s. 8]. Tərcümə barədə V.Aslanov və S.Əliyevin iradları nəzərə alınmaqla bir sıra xətalar aşkar edilmişdir. Müəyyən olmuşdur ki, Luis özündən əvvəlki tərcüməçilərdən fərqli olaraq dastanın "Giriş" hissəsini "Dədə Qorqudun müdrikliyi" adı ilə XIII boy hesab etmiş və tərcüməsinin sonunda vermişdir.

"Dədə Qorqud" eposunu üçüncü dəfə ingilis dilinə Paul Mirobil tərcümə etmiş, kitaba 64 səhifəlik mükəmməl bir "Ön söz" yazmışdır. Kitabın sonunda isə qeydlər, izahlar və biblioqrafiya əlavə edilmişdir. P.Mirabil C.Luisin tərcüməsini yüksək qiymətləndirmiş və öz tərcüməsini başqa bir məqsədlə və fərqli bir istiqamətdə başa çatdırmışdır. O, hərfi tərcümədən istifadə etmiş, özünün qeyd etdiyi kimi "hibrit bir mətn" yaratmaq istəmişdir. Özü dastanın orijinaldakı gözəlliyini saxlamaq naminə tərcümədə bu üsuldan istifadə etdiyini qeyd etmişdir [4, s. 2]. "Ön söz"dən aydın olur ki, P.Mirabil epos ilə bağlı dərin araşdırma aparmış, özündən əvvəlki nəşrlərlə , türk xalqlarının qədim və orta əsr dövrlərinə aid tarixi əsərlərlə, yazılı qaynaqlarla tanış olmuşdur. O, Dədə Qorqudu dastanını yeganə müəllifi hesab etmir və yazır: "Ola bilsin ki, boylar yazıya alınana kimi Dədənin səsi Monqolustandan Altay dağlarına və oradan Anadolu vadilərinə qədər uzanan ucsuz-bucaqsız bir sahədə dolaşan məzhəkəçilərin, aşıqların, dastan danışanların səsinin bir həlqəsidir, həm də sonuncu həlqəsidir, hətta bəlkə də bu sənətkarların nə ən məşhuru, nə də ən istedadlısıdır, lakin onun adı dastanların hifz etdiyi yeganə addır". Bu orijinal fikirlə yanaşı Mirabil Dədə-Qorqudun eposda, xüsusən də oğuz cəmiyyətində yerini, nüfuzunu da düzgün müəyyənləşdirib. Onu yalnız qopuz gəzdirən bir aşıq (ozan), nağıl söyləyən, obalar dolaşan bir şair hesab etmir. O, Dədəni oğuz cəmiyyətində bir mənəvi ata, ozan, məsləhətçi, şaman, peyğəmbər, hətta bir cəngavər, əbədi həyat təminatçısı kimi bəşəri dəyərlərlə səciyyələndirir. Müəllifə görə o, həm də təbiət hadisələrinin bilicisi, səma ilə yer arasında vasitəçidir. Dədənin gənclərə verdiyi insan adları da adi adlar yox, metoforik adlardır.

"Ön söz"də həmçinin oğuzların tarixi, boyların məzmunu və təhlili, ilk dəfə yazıya alınması və digər məsələlər barədə yığcam məlumatlar verilir, azərbaycan türkcəsini osmanlı türklərinin dilindən fərqləndirən bəzi morfoloji və sintaksis xüsusiyyətlər göstərilir. Müəllif tərcüməsinin sonuna əlavə etdiyi 100 səhifəyə yaxın izahlarda tarixi və coğrafi adlarla bağlı mübahisəli məsələlərə də öz şəxsi münasibətini bildirmiş, maraqlı elmi mülahizələr söyləmişdir. C.Luis ingilis dilinə tərcümə zamanı dastandakı qəhrəmanların bəzilərinin adlarını olduğu kimi saxlamış və Tərs Uzamış, Banu Çiçək kimi adları tərcümə etməmiş, lakin, şəxs adlarının qarşısında işlənmiş "qara" sözünü "black" şəklində tərcümə etmiş və bunu "qara" sözünün titul göstəricisi olması ilə əlaqələndirmişdir. Belə bir tərcümə uğurlu alınmamışdır, çünki qədim türk dilində qara sözü "böyük", "əzəmətli" anlamlarında işlənmişdir. Bu söz "black" şəklində tərcümə olunduğu üçün orijinaldakı məna itir. Bu eynilə "Google-eye" kimi tərcümə olunan "Təpəgöz" və "Wild Domrul " kimi tərcümə olunmuş Dəli Domrul adlarına da aiddir. "Wild" və "Crazy" sözlərinin müvafiq olaraq "hirsli", "qızğın" kimi tərcümə olunduğunu nəzərə alsaq bu adların bu şəkildə tərcümə olunmasını heç də uğurlu hesab etmək olmaz. Bunu nəzərə alan P.Mirabel şəxs adlarını əsasən tərcümə etməyib, onları orijinalda olduğu kimi saxlamışdır [8, s. 62]. Tədqiqatçıya görə "Dədə Qorqud kitabı", "Roland haqqında nəğmələr", "Beovulf", "Sid" və "Nibelunq" kimi dastanlarını iki həyat tərzinin - köçəri və oturaq həyatın və iki mədəniyyətin izlərini özlərində təcəssüm etdirir və o, bu dastanlardakı ümumi oxşarlığı həm də onlardakı oxşar motivlərlə əlaqələndirir [3, s. 8].

İstifadə edilmiş ədəbiyyat siyahısı

1. Aslanov V. "Kitabi-Dədə Qorqud" ingilis dilində. (Dastanın 1973-cü ildə Texasda nəşr olunmuş tərcüməsi haqqında). /"Ədəbiyyat və incəsənət", 1975, 22 mart.
2. Əliyev S. C.Luisin "Dədə Qorqud kitabı"nın ingilis dilinə tərcüməsi. //"Dədə Qorqud" elmi-ədəbi toplu, II, Bakı: Nurlan, 2012, s. 20-35.
3. Əliyev S. P.Mirobil: "Dədə Qorqud kitabı" və Orta əsr Avropa eposlarında işlənmiş ümumi motivlər. //"Dədə Qorqud" elmi-ədəbi toplu, III, Bakı: Səda, 2002, s. 3-14.
4. Əliyev S. "Kitabi-Dədə Qorqud" ingilis dilində. /"Ədəbiyyat və incəsənət", 1990, 28 sentyabr.
5. Həsənova A. "Kitabi-Dədə Qorqud" ingilis tədqiqatında. //"Kitablar aləmində", 1989, № 1, s. 39-40.

6. Lewis G. The book of Dede-Korkut. London: Penguin, 1974, 230 p.
7. Məmmədli H. Dünyanı düşündürən "Dədə Qorqud". Bakı: Yurd, 1999, 343 s.
8. Nağıyeva Ş. Xüsusi adlar milli koloritin daşıyıcısı kimi. ("Kitabi-Dədə Qorqud" dastanının ingilis dilinə tərcümə variantları əsasında), Bakı: Çinar çap, 2003, 74 s.

Açar sözlər: "Kitabi-Dədə Qorqud" dastanı, ingilis alimləri, tərcümə, tədqiqat, orijinal
Ключевые слова: эпос "Китаби-Дада Горгуд", английские ученые, перевод, исследование, оригинал
Keywords: "Kitabi-Dada Gorgud" epos, English scholars, translation, research, original

"Kitabi-Dədə Qorqud" dastanı ingilis elmi araşdırmalarında

Xülasə

Məqalədə "Kitabi-Dədə Qorqud" dastanının ingilisdilli mənbələrdə araşdırılması tarixindən bəhs edilir. Son dövrlərdə İngiltərədə "Kitabi-Dədə Qorqud" dastanının tərcüməsi, nəşri və araşdırılmasına maraq xeyli artmışdır. İlk dəfə 1956-cı ildə C.S.Mandi dastan haqqında "Polifem və Təpəgöz" adlı elmi məqaləsini ingilis dilində nəşr etdirir. "Kitabi-Dədə Qorqud" dastanı ilk dəfə tam şəkildə 1972-ci ildə Londonda ingilis dilində çap edilmişdir. Bundan sonra bir sıra ingilis alimləri "Kitabi-Dədə Qorqud" dastanı haqqında çoxlu elmi məqalələr yazmışlar.

Эпос "Китаби-Дада Горгуд" в английских научных исследованиях.

Резюме

В этой статье мы обсудили история изучение эпоса "Китаби-Дада Горгуд" в англоязычных научных источниках. В последнее время возрос интерес к переводу, публикации и исследованию эпоса "Китаби-Дада Горгуд" в Англии. Дж. С. Манди опубликовал научную статью об этом эпосе "Полифем и Единоглазый" на английском языке впервые в 1956 году. Полная версия эпоса "Китаби-Дада Горгуд" была опубликована в 1972 году впервые на английском языке. После этого некоторых английских ученых написали множество научных статей об эпосе "Китаби-Дада Горгуд".

The "Kitabi-Dada Gorgud" epos in the English scientific researches

Summary

In this article we have discussed the studying history of the "Kitabi-Dada Gorgud" epos in the english-language scientific sources. The interest in the translation, publication and investigation of the "Kitabi-Dada Gorgud" epos has been increased in England recently times. J.S.Mundy published a scientific article named by "Polyphemus and the Only Eyed" in the english language about this epos for the first time in 1956. The full version of the "Kitabi-Dada Gorgud" epos was published in the english language for the first time in 1972. After that, a number of English scientists wrote many scientific articles about the "Kitabi-Dada Gorgud" epos.

Rəyçi: dos S.Abbasova

Hicran Sədi qızı Nəsibova[55]

SÜLEYMAN RƏHİMOVUN HEKAYƏLƏRİNDƏ QƏHRƏMAN TİPLƏRİ

Giriş. Xalq yazıçısı, Sosialist Əməyi Qəhrəmanı Süleyman Rəhimov (1900-1983) ədəbi yaradıcılığı, ictimai fəaliyyəti sovet dönəminə təsadüf edən qüdrətli qələm sahiblərindən biridir.

Ədibin janrından asılı olmayaraq irili-xırdalı nəsr yaradıcılığı bir küll halındaxalq həyatını, onun əxlaqi-mənəvi dünyasına xas olan səciyyəvi cəhətləri bütün mənzərəsi ilə canlandıran nümunələr kimi bu gün də öz dəyər və əhəmiyyətini qoruyub saxlamaq iqtidarındadır.

Tənqidçi Qulu Xəlilov bir yazıçı kimi Süleyman Rəhimovun nəsr yaradıcılığına xas olan səciyyəvi xüsusiyyətlərə toxunaraq onun bitkin süjet və kompozisiya yaratmaq məharətinə toxunaraq belə qənaətə gələrək yazırdı: "S. Rəhimov süjet və kompozisiya məsələsində mövcud ədəbi qəhrəmanlarla, prinsiplərlə istedadını, imkanını məhdudlaşdıran və bunların əsiri olan sənətkarlardan deyildir. O, tamam orijinal nəfəsli, özünəməxsus məziyyətləri və nöqsanları olan yazıçıdır. Ona görə də ədib hadisələrin gedişində, təsvirində qələminə və gücünə inanan sənətkar kimi, əksər hallarda süjeti yeni materiallarla zənginləşdirməyi sevir. Əsər boyu yeni-yeni süjet xətlərinin, hadisə və surətlərin əlavə olunması və romanın, necə deyərlər, ümumi quruluşuna axıb tökülməsi də müəllifin "hər şeyi" əhatə etmək və dövrün, zamanın çoxcəhətliyini mükəmməl vermək arzusundan irəli gəlir. Belə hallarda doğmatik sxemlər, yapmaqalıb ölçülər həqiqi və sərbəst yaradıcılıq qarşısında tab gətirə bilmir, təsvir və təhkiyə üçün geniş imkan yaranır" (3, s. 84).

Hekayə janrı da ədibin yaradıcılığında aparıcı yerlərdən birini tutmuş, bir-birindən mövzu və ideya-sənətkarlıq xüsusiyyətləri ilə seçilən bu hekayələrdə saflıq, mənəvi zənginlik, insan qəlbinin dərinliklərinə nüfuz etmək başlıca niyyət və məqsəd kimi müəyyənləşmişdir.

Vaxtilə mərhum tənqidçi Məsud Əlioğlu özünün "Müasir həyat və hekayələrimiz" məqaləsində hekayə yaradıcılığına məxsus başlıca xüsusiyyətləri ümumiləşdirərək belə bir yekun nəticəni diqqətə yönəldirdi: "Hekayə yaradıcılığında önmühüm cəhət mətləbin dürüstlüyü, fikrin, məzmunun yığcam, dəqiq tərzdə əks etdirilməsidir. Nəsrin başqa formalarında (məs., roman, povest) təfərrüata, əsas ideyanın inkişafına kömək edən əlavə və yardımçı xətlərə, ricətlərə ehtiyac vardır. Hekayədə isə lüzumsuz, artıq haşiyələrə və yersiz təfərrüata yol verilə bilməz. Bu janrın təbiəti elədir ki, tək bircə artıq söz, cümlə belə mətləbi ağırlaşdırır, əsas fikri hədəfdən yayındırır və hadisələrin cərəyanını ləngidə bilir.

Yığcamlıq və üslub aydınlığı hekayəçilik sənətində elə mühüm meyardır ki, bu meyarla nəinki yazıçının sənətkarlıq qüdrətini və məharətini, həmçinin həyata münasibətini, istedadının dərəcəsini və dünyagörüşünün mahiyyətini də müəyyənləşdirmək olar" (2, s. 211).

Əsas hissə. Bir nasir kimi Süleyman Rəhimovun hekayə yaradıcılığında tələb olunan belə bir yaradıcılıq məziyyətlərini demək olar ki, bütünlüklə müşahidə etmək mümkündür. Doğrudur, ədibin hekayə yaradıcılığında "Şamo" kimi həyati keşməkeşləri, öz haqlarını tələb edən kəndli inqilabçıların mübarizəyə qalxmaq səhnələrini geniş epik vüsətlə təsvirindən sonra kiçik janrın geniş imkanlarına yiyələnmək o qədər də asan başa gəlmir. Bəzən belə monementallığın, hadisə və süjet xəttinin şaxələnməsinin yazıçının hekayə yaradıcılığına da sirayət etdiyini danmaq olmaz. Hər halda sonrakı yaradıcılıq mərhələrində bu mühüm tələblərin yazıçının yaradıcılıq axtarışlarında nəzərə alındığını xüsusi olaraq qeyd etmək lazımdır.

Sovet adamının istehsalat və quruculuq işlərindən, sovet gəncliyinin zərbəçi əməyindən, xarüqələr yaratmaq qüdrətindən bəhs edən sovet nəsri üçün xarakterik mövzulara demək olar ki, ədibin hekayələrində rast gəlinmir. Sətiraltı eyhamlarla dilə gətirilməsi mümkün olmayan mətləblərə toxunmaq, əsas fikir və ideyanı bu ədəbi üsulla çatdırmaq məharəti Süleyman Rəhimovun hekayələrinə yeni özünüifadə tərzi aşılayan məziyyətlər sırasında özünəməxsus yer tutmaqdadır.

Ədibin hekayələri özünün mövzu müxtəlifliyi ilə də diqqətçəkici xüsusiyyətlərə malikdir.

Yazıçının hekayə yaradıcılığını mövzu baxımından belə qruplaşdırmaq olar:

1. Rəvayət, əfsanə, təmsil və məzhəkələr əsasında qələmə alınan hekayələr; 2. Folklor motivlərindən,süjetlərindən vəqəhrəmanlarından bəhs edən hekayələr; 3. Ağa-mülkədar ilə rəncbər-kəndli münasibətlərindəki ziddiyyətləri təsvir predmeti seçən hekayələr; 4. Uşaq dünyasının və psixologiyasının incəliklərini aparıcı mövzu istiqamətinə yönəldən hekayələr.

Yazıçının vaxtilə nəşr olunan "Pəri çınqılı" (1958), "Gülən balıq" (1964), "Gülsabah" (1968) adlı kitablarında toplanan hekayələrdə belə bir cəhd özünü qabarıq şəkildə nümayiş etdirməkdədir.Onu da xüsusi olaraq qeyd etmək lazımdır ki, Süleyman Rəhimovun adı çəkilən kitablarında yer alan hekayələrdə uşaq dünyasına məxsus xüsusiyyətlər həssaslıqla qələmə alınmış, yazıçı folklar təfəkküründən və düşüncəsindən boy göstərən mərdliyi, alicənablığı, dərin humanist dəyərləri böyüməkdə olan gənc nəslə aşılamaq başlıca qayəyə çevrilirdi.

Süleyman Rəhimovun hekayələri üçün seçdiyi qəhrəman tipləri müxtəlif zümrələri təmsil edən, dünyagörüş etibarı ilə tamamilə seçilən insanlardır. Bu insanlar daha çox sadə əməklə, təsərrüfat qayğıları ilə məşğul olan, öz alın təri ilə, halal zəhmətilə dolanan, gün-güzəran keçirən bir təbəqənin nümayəndələridir. Yazıçı onların ağır zəhmətlə keçən həyatlarını, bu insanların üzərində mülkədar, ağa-bəy özbaşınalığını təbii və inandırıcı lövhələrlə canlandırır, xarakterlərinə məxsus səciyyəvi cəhətləri üzə çıxarmağa böyük sənətkarlıqla, peşəkar yazıçı məharəti ilə nail olur.

Süleyman Rəhimovun hekayələrində yaradılan tipik surətlərinin bölgüsünü şərti olaraq belə qruplaşdırmaq olar:

---

[55] AMEA-nın Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunun aparıcı elmi işçisi, filologiya üzrə fəlsəfə doktoru, dosent

1. Xalq içərisindən çıxan, zülm və istibdad əleyhinə mübarizəyə qatılan qəhrəman surətləri; 2. Maarifçi-ziyalı surətləri; 3. Əməkçi, zəhmətkeş insan surətləri; 4. Öz sevgisi və səadəti uğrunda fədakarlıq göstərən gənc və yeniyetmə surətləri; 5. Bəy-qolçomaq surətləri; 6. Bəy-qolçomaq əsarətinə və özbaşınalığına qarşı etraz səsini qaldıran surətlər; 7. Qadın surətləri; 8. Yeni quruluşun və siyasi cəmiyyətin təsisat sistemini bəyənən, onun üstünlüklərinə dərin inam bəsləyən, sovet adamı anlayışı adı altında ümumiləşdirilən insan surətləri

"Gülən balıq", "Qartal və qarğa", "Güzgü göl əfsanəsi", "Kəsilməyən kişnərti" kimi nağıl-əsərlərdə səciyyəvi olan cəhət təkcə azadlıq , ədalət, xeyirxahlıq kimi mücərrəd məfhumların təcəssümü və təbliği deyildir; bu əsərlərdə əsas cəhət xalq müdrikliyinin ifadəsidir, xalq iradəsinin qələbəsidir. Həyatdakı pis əməllər – xainlik, paxıllıq, tamahkarlıq, mənsəbpərəstlik, təkəbbür və s. faciələr də doğura bilər. Lakin azad yaşamaq, qurub-yaratmaq, xalq işinə yaramaq istəyən insan oğlu, daim ucalmaq yüksəlmək eşqi ilə çırpınan mərdanə simalar bütün bu miskin, alçaq qüvvələrdən yuxarıda dururlar. Ulduzların kəsilməyən kişnərtisi mərdləri sayıqlığa və intiqama çağırdığı kimi, namərdlərin ürəyinə də vahimə salır" (1, s. 232-233).

Yazıçının "Su ərizəsi" hekayəsi bu baxımdan diqqəti cəlb edir. 1942-ci ildə qələmə alınan bu hekayədə müəllif həyatını süründürməçilikdən cana yığılan, öz haqlarını tələb edən sadə insanların tipik nümayəndələrindən olan Qədim dayının yanıb-yaxılan əkin sahəsini sulamaq üçün mirab Zülqədərlə mübahisəsi hər iki surətin və tipin daxili-mənəvi aləminin açılışına rəvac verən, onların kimliyi barədə əyani təsəvvür yaratmaq əsas məqsədə çevrilir.

Şübhəsiz ki, belə bir yanaşma hekayə kimi nəzərdə tutulan əsərə geniş epik vüsət verir, süjet xəttinin şaxələnməsinə, surətlər aləminin miqyaslı şəkil almasına əlverişli zəmin də hazırlayır, nəticə etibarilə yazıçının həyati gerçəkliklərə daha təfərrüatlı münasibətinin bir təzahürü kimi oxucunu düşündürür, cərəyan edən hadisələri, insan talelərini sona qədər izləməyə vadar edir.

Bu hekayə doğrudan da bir mənada roman janrının təsirindən tam qurtarılmayan bir yaradıcılıq ənənəsini bütün mənzərəsi ilə göz önündə canlandırır. Bu doğrudur ki: "Yazıçının "Su ərizəsi" hekayəsində bir romanın məzmunu var. Yayda pambığını suvarmaq üçün padşaha ərizə yazan kəndliyə qışın oğlan çağında cavab gəlir. Hökumət adamları xəstə kəndlini qar altında qalmış torpağı suvarmağa məcbur edirlər. Bəyin adamları Qədim dayını lilli suya basıb doyunca içməyə məcbur edirlər. Beləliklə, padşahın dərkənar qoyduğu "rəiyyətə su lazımdır" kəlamını tərsinə yazub onu sətəlcəm edib öldürürlər" (1, s. 116).

Əgər "Su ərizəsi"ndə ədalətsevən bir əməkçi insan kimi öz haqqını tələb edən Qədim dayının faciəvi taleyi əsas mövzu və xətt kimi ön plana çəkilirsə, "Pəri çınqılı" hekayəsinin qəhrəmanı Qaçaq Nəbi Qədim dayıların heyfini, nahaq yerə öldürülən, alçaldılan və təhqir olunan insanların intiqamını qudurğan padşahlardan, pristavlarda, mirablardan alan bir surətlə rastlaşırıq. Sadə xalq içərisindən çıxan bu qəhrəman hakim dairələri həyəcanlandıran, onların şirin yuxusuna zəhər qatan, milli hisslərlə yaşayan, həyatını, taleyini risq altına ataraq öz idealı uğrunda mücadilə aparan müsbət qəhrəman səviyyəsinə qaldırılır.

Süleyman Rəhimov "Üzsüz qonaq", "Xoruzlu dəsmal", "Muzdur əhvalatı", "Küp qarısı", "Malyeməz", "Paxıl adam", "Minnətsiz çörək", "Gəlin qayası" "Macəra", "Xahişnamə", "Mozalan kəndi", "Ögey", "Könülsevən", "Suçu uşaq", "Divan daşı", "Dillənən duz", "Sevəsi olmadı", "Torpaq bitirir", "Zəncirli buynuz", "Cığal", "Bir çimdik duz", "Ustad", "Padşah və qaraçı", "Natalya", "Həyat açarı", "Torpağın səsi", "Ali hakim", "İki oyadıcı", "Güzgülü dünya" kimi hekayələrdəmüxtəlif xarakterli surətlər qaleriyasını yaradır, onların daxili aləmini konkret situasiyalarda açmağa nail olur.

Yazıçı bir-birinin tamamilə əksi olan, halal-haram qütblərində qərarlaşan bu surətləri konkret situasiyalarda sınaqlara çəkir, saf təbiətli, mərdanə xasiyyətli əməkçi təbəqə cah-cəlal içində yaşayan əyanlarla müqayisə müstəvisinə çıxarır, mənəviyyat sahibi olan, min bir əzab-əziyyət içərisində yaşayan, halalıqla ömür sürən bu insanların azğın, eyş-işrət içərisində yaşayanlar üzərində mənəvi qələbəsi ilə nəticələnir.

"Üzsüz qonaq" hekayəsinin qəhrəmanı Ocaqqulu buna ən bariz nümunə kimi göstərilə bilər. Həyət-bacasını qardan təmizləyən Ocaqqulunun hər gün bir kəndlinin evində qarnını otaran koxa Vəliyullahla rastlaşması özünün maraqlı detalları və təfərrüatları ilə yadda qalır. Dağ görkəmi ilə seçilən atının yemlənməsi bəhanəsi ilə Ocaqqulunun həyətinə qədəm qoyan koxanın bir qədər sonra qarnını doydurmaq onu hörmət və izzətlə qarşılayan ev sahinin üzərinə vazkeçilməz bir borc olaraq düşür.

Müəllif koxanın əsil simasını hekayənin əvvəlində oxucuya böyük məharətlə təqdim edir. Görəsən, "Kəndin o biri başında gecələyən Vəliyullah koxa.." nə üçün topdağıtmaz xarabasında gecələmir, özünün xudmani yorğan-döşəyində yatmır, ailə-uşağının qayğıları ilə maraqlanmır?

Yazıçı bu suallara cavablar axtarır, son dərəcə sadəlövh olan Ocaqqulunun özünün doğması, yaxını bildiyi Vəliyullah koxaya itaətkarcasına boyun əyməsini də belə epizodlarda açmağa nail olur, Allah qonağı olan qonağın üzsüz olması fikri də elə ev sahibinin dilində səslənir.

Surətlərin daxili-mənəvi dünyasını yazıçı müxtəlif təsvir və ifadə üsulları ilə verməyə nail olur. Mükalimələr, dialoqlar bu mənada yazıçının qələmində ən münasib və məqsədyönlü vasitələrdən biri kimi müəyyənləşdirilir, surət və obrazların iç dünyasına, xislətinə xas olan əsas xüsusiyyətlərin belə məqamlarda üzə çıxarılmasına bir vəsilə olur.

Süleyman Rəhimov hekayənin mənfi surəti olan Vəliyullah koxanın xislətinə, bəd əməllərinə, insanlıq simasını itirdiyinə görə onu üzsüz adlandırması bu mənada orijinal epitet kimi qeyri-adiliyi ilə diqqəti cəlb edir. Adətən xalq içərisində bu tipli adamların üzlü adlandırılmasına tez-tez rast gəlinsə də, əslində yazıçı üzsüz deyəndə, insanlıq üçün vacib olan bütün

sifətləri itirənlərin tipik surəti olan Vəliyullah koxanın iç dünyasını bütün təfərrüatı ilə oxucuya çatdırır, onun simasızlığını əyani şəkildə təsdiqləməyə cəhd göstərir.

Ocaqqulunu yazıçı heç də bütün hallarda müsbət qəhrəman səviyyəsində təqdim etmir. Onun itaətkarlığı, mütiliyi, koxa qarşısında acizliyi yazıçının kəndli psixologiyasını dəqiq cizgilərlə canlandıran ibrətamiz epizodlara bir nümunə kimi göstərilə bilər. Ocaqqulu xarakteri, dünyagörüşü etibarilə aciz, yuxarı zümrənin qarşısında təzim edən, onların xidmətində dayanmağı özünə şərəf bilən tipik kəndli surətidir.

Bununla belə, müəllif saflıq, sadəlövhlük timsalı olan Ocaqqulunu aşağıların hesabına yuxarı zümrədə qərar tutan, hökm-fərma olan koxaları, kəndxudaları müqayisə müstəvisinə çıxarır, onların özbaşınalığını, qeyri-insani əməllərini belə bir qarşılaşma nəticəsində üzə çıxarır.

"Pəri çınqılı"da Həcər, "Gəlin qayası"nda Gülbahar, "Küp qarısı"nda Zöhrə və qarı, "Minnətsiz çörək"də Həlimə xatun, "İki oyadıcı"da Şərafət, "Muzdur əhvalatı"nda Sərvinaz xanım və Nabat, "Malyeməz"də Fatmanisəyazıçının müxtəlif kaletelərdə yaratdığı silsilə qadın surətləridir.

Adı ilk çəkilən iki hekayənin qəhrəmanları olan Həcər və Gülbahar öz idealları və sevgiləri yolunda fədakarlıqla çarpışan müsbət surətlər kimi yadda qalır. Yazıçı ömür-gün yoldaşı ilə çiyin-çiyinə haqsızlığa, ədalərsizliyə qarşı mübarizə meydanına atılan Həcəri ər qeyrətli qadın kimi silaha sarılan, yağılara, xalqı soyub talayan azğınlara qan udduran ideal bir qadın surəti kimi yazıçı tərəfindən yaradılırsa, Gülbahar öz sevgisinə qovuşmaq yolunda rastlaşdığı maneələri dəf edən, öz namus və ləyaqətini ən təhlükəli məqamlarda belə qoruyb saxlayan mübariz, əyilməz xarakteri ilə fərqli bir səciyyə daşıyır. Yazıçı bu surətlərin daxili-mənəvi dünyasına məxsus əsas xüsusiyyətlərdən bəhs edərkən həyat yoldaşına, sevdiyi, könül verdiyi insana sədaqəti başlıca amil kimi hər iki hekayədə ideal səviyyəsinə qaldırmağa müvəffəq olur.

Maarifçi-ziyalı surətləri Süleyman Rəhimovun hekayələrinin əsas və aparıcı qəhrəmanlarıdır. Bu silsilədən olan surətlər iki müxtəlif və bir-birinə zidd quruluşun ziyalı tipini və obrazını özündə təcəssüm etdirir. Ancaq hansı quruluşdan və formasiya dəyişikliyindən, inqilabi çevrilişlərdən asılı olmayaraq Sülüeyman Rəhimovun yaratdığı ziyalı surətləri cəmiyyət və insanlıq qarşısında öz vəzifələrini namusla, vicdanla yerinə yetirən, cəmiyyətə fayda verən, onun inkişafına fayda verə biləcək əsil vətəndaş əqidəsinə sahiblənən yeniyetmələrin yetişməsində, tərbiyə olunmasında yaxından iştirak edir. Yazıçının ziyalı obrazlarının xarakter və səciyyəsinin açılışında seçmiş olduğu üsul və vasitələrdə təbii ki, cəmiyyəti irəliyə və inkişafa doğru istiqamətləndirə biləcək yeganə qüvvə olan bu təbəqəyə dəyşən dövrlərin münasibətindən irəli gələn münasibətin müəyyən fərqli yanaşmalarını da sezmək olar.

Sovet həyat tərzinin üstünlüklərinə, əməyə, zəhmətə alışmaq sahəsində görülən məqsədyönlü tədbirlərə önəm verilməsi Süleyman Rəhimovun hekayələrində heç də siyasi-ideloji dönəmin əxlaq kodeksinin müddəalarını tərənnüm etmək səviyyəsində özünü büruzə vermir, əksinə, xalqın min illər boyu alın təriylə, öz gücü ilə halal çörək qazanmaq, gün-güzəran keçirmək ənənəsini və yaşayıb-yaratmaq təcrübəsinin davam və inkişafi kimi anlaşılır. Bu tipli hekayələrdə nəsihət və didaktikanı konkret situasiyanın özü yaradır. Tipik surətlərin hadisəyə əvvəlcə qeyri-adekvat münasibətinin nəticələrini həyat özü korrektə edir, sınaq və təcrübi yollarla onun yararsızlığını üzə çıxarır.

1959-cu ildə yazdığı "Həyat açarı"nda S.Rəhimov müəllif təhkiyyəsi ilə yeniyetmə bir gəncin həyat hekayəsini təqdim edir.

Bakıya təhsilini davam etdirmək üçün gələn bacıoğlu (Qərənfilin oğlu) cəsarətli, ayıq, həm də bacarıqlı oğlandı, "zəmanə uşağı"dır. Həyatda amalına çatmaq üçün gərəkli situasiyaları dəyərləndirməyi bacaran lazım gələndə dayısının köməyini istəməkdən çəkinməyən bu gənc zamanın tələbləri qarşısında aciz qalanlardan deyil. Məsələn, Neft Sənaye Texnikumunun qəbul imtahanlarında yüksək qiymətlər alsa da, qəbul olanlar siyahısında öz adını görməyəndə dayısının yanına gəlir:

-İşlər çox şuluqdur, dayı!

-Niyə?

-Çünki maşınlı dayılar texnikuma doluşublar!

-Nə üçün?

-Bacıoğullarını siyahıda saxlamaq üçün! (5, s. 18)

Dayının telefon zəngindən sonra texnikumun direktoru: - "Bəli Aslanzadə. Özü də imtahanlardan aslan kimi çıxıbdır!" – deyə təsdiqləyir... (5, s. 18)

Zamanın hər cür neqativ halları ilə vuruşan, işlədiyi zavoda yüzminlərlə gəlir gətirən bu ağıllı, cəsur gənc bacarıqları, işgüzarlığı ilə yaratdığı ixtiralarını istehsalatda tətbiq etmək üçün hər cür maneələrə qalib gəlir. Lakin dağlar qoynunda saf təbiətdə böyümüş bu mükəmməl qəhrəmanın xarakterindəki "qüsuru" ötəri də olsa yazıçının qınağına tuş gəlir. Kiçik də olsa "həyat dərsi" alan qəhrəman ona saxta üzük satan "abırlı" adamı polisə təhvil verir. Həyatda aldanışlar, yalanlarla mübarizə apararaq axşam ali təhsil alıb, gündüz zavodda işləyib, vaxt tapanda zavodun işçiləri üçün tikilən binanın inşaatında fəhləlik edən bu qəhrəman yaşadığı dövrün real tipik gəncliyinin obrazıdır. Minlərlə gənclərin xarakterik cizgilərini, həyat mücadiləsini özündə əks etdirən bu gənc tipi yazıçının realist sənətinin qəhrəman obrazlarından biridir. Əməyinin, bacarıq və qabiliyyətinin nəticəsi kimi "həyat açarı"nı (ona verilən evin açarı) qazanan ağıllı, zəhmətkeş bir gənc tipidir.

Nəticə. Şübhəsiz ki, belə bir yaradıcılıq təcrübəsi ədibin bir-birindən fərqli surətlər yaratmaq məharəti barədə kifayət qədər mülahizə yürütməyə əsas verir. Bunu yalnız tipik surətlərin səciyyəvi xüsusiyyətləri ilə məhdudlaşdırmaq da düzgün olmazdı, bəzən surət və surətlər silsiləsi zamanın və dövrün ümumi mənzərəsi, cəmiyyətdaxili münasibətlərdəki fərqli məqamları da bir ahənnüma kimi əks etdirməyə yönəldilir.

Bütövlükdə, Süleyman Rəhimovun hekayələrində real həyat həqiqətlərinə, gerçəkliyə obyektiv baxış bucağından fəal münasibət diqqətçəkici məziyyətlərdən biridir. Yazıçı belə bir yaradıcılıq stixiyasının həyata keçirilməsində tipik surətlərin yaradılmasına önəmli yer ayırmış, onların vasitəsilə öz ideallarını, həyat, zaman və insan haqqında fərdi düşüncələrini ifadə etməyə böyük sənətkarlıqla müvəffəq olmuşdur.

Ədəbiyyat:

1. Arif M. Həyat çeşməsi, "Sənətkar qocalmır". Bakı: Yazıçı, 1980.
2. Əlioğlu M. Müasir həyat və hekayələrimiz, "Amal və sənət". Bakı: Yazıçı, 1980.
3. Xəlilov Q. Süjet və tipiklik (Roman janrı üzrə), "Həyat və idrak", Bakı: Yazıçı, 1980
4. Rəhimov S. "Üzsüz qonaq". Seçilmiş əsərləri, On cilddə, səkkizinci cild. Bakı: Yazıçı, 1979
5. Rəhimov S. "İki oyadıcı", Seçilmiş əsərləri, On cilddə, doqquzuncu cild. Bakı: Yazıçı, 1980.
6. Rəhimov S. Yazıçı və həyat. Bakı, "Azərbaycan Dövlət Nəşriyyatı", 1960.

Açar sözlər: Süleyman Rəhimov, hekayə, qəhrəman, mühit
Ключевые слова: Сулейман Рагимов, рассказ, персонаж, окружающая среда, характер
Key words: Suleiman Rahimov, story, hero, environment

Süleyman Rəhimovun hekayələrində qəhrəman tipləri

Xülasə

Məqalədə Süleyman Rəhimovun hekayələrində mövzu müxtəlifliyi ilə bağlı qəhrəman tiplərinin səciyyəvi cəhətləri araşdırılır. Xalq içərisindən çıxmış, zülmə və haqsızlığa qarşı çıxan qəhrəman surətləri, maarifçi-ziyalı obrazları, zəhmətkeş insan obrazları, qolçomaq –bəy surətləri, qadın obrazları və s. qəhrəmanlar yazıçının yaratdığı tiplər bölgüsündə səciyyələndirilir. Göstərilir ki, yazıçının yaşadığı dövrün reallıqları fonunda təsvir etdiyi obrazlar canlı, mükəmməl və gerçəkdir. Müxtəlif mühitlərin qəhrəman tipləri yazıçının həyat həqiqətləri haqda sənətkar mövqeyini əks etdirir. S.Rəhimovun hekayələrində bir-birindən ictimai mənşəyinə, dünyagörüşünə, əxlaqına görə fərqlənən surətlər qarşılaşdırılır. Qeyd olunur ki, yazıçı yaratdığı qəhrəman tipləri ilə onların mühitləri və insanları haqda real təsəvvür yaratmağa nail olmuşdur. Bu, S.Rəhimovun hekayələrində sənətkarlıq xüsusiyyətlərinin ən başlıca məziyyətlərindən biridir.

Типы персонажей в рассказах Сулеймана Рагимова

Резюме

В статье анализируются характерные свойства в зависимости от темы каждого рассказа. Автор статьи характеризует героев-выходцев из народа, борцов за справедливость, борцов против насилия, образы интеллигентов-просветителей, простых трудящихся, кулаков и беков, женские образы и др.

Исследователь разделяет их на разные типы. Подчёркивает, что типы персонажей, принадлежащих разным прослойкам, отражают творческую позицию писателя.

В рассказах С.Рагимова противопоставлены образы, отличающиеся друг от друга по социальному статусу, происхождению, мировоззрению и поведению. Автор подчёркивает, что писателю удалось создать реальное представление как о типажах своих персонажей, также об окружающей их среде. Эти является одним из главных преимуществ рассказов С.Рагимова.

Types of heroes in Suleiman Rahimov's stories

Summary

The article deals with the characteristic features of the hero types in the stories of Suleiman Rahimov regarding the variety of topics. Images of heroes who came out from among the people and opposed oppression and injustice, images of intellectuals, hardworking people, kulak-beys, women and other heroes are characterized in the division of types created by the writer. It is stated that the characters described by the writer against the background of the realities of the time he lived in are lively, perfect and real. The types of heroes of different environments reflect the artistic position of the writer on the truths of life. In the stories of S.Rahimov, characters who differ from each other according to their social origin, outlook and morals are compared. It is noted that the writer had managed to create a realistic image of the hero types he created and their environments and people. This is one of the main merits of artistry in S.Rahimov's stories.

Rəyçi: fil.ü.fəl.doktoru, dosent Nəzakət Qafqazlı

Allahverdiyeva Aytən Fərman qızı[56]

NASİR XOSROV VƏ ONUN "SƏFƏRNAMƏ" ƏSƏRİ

Əbu Muinəddin Nasir Xosrov əl-Qubadiyani əl-Mərvəzi Şərqin görkəmli mütəfəkkir şairlərindəndir. O, 1004-cü ildə vaxtilə Xorasan vilayətinə daxil olan Bəlx şəhərinin yaxınlığında yerləşən Qubadiyan şəhərində anadan olmuşdur. Kiçik yaşlarından elmə, ədəbiyyata böyük həvəs göstərən Nasir Xosrov dövrünün elmlərini mükəmməl öyrənmişdir. Əsərlərindən hiss olunur ki, o, qüdrətli şair olmaqdan əlavə, riyaziyyat, astrologiya, fəlsəfə, fiqh və sair elmləri də dərindən bilmiş, rəssamlıq və kalliqrafiya sənətlərində kamil ustad olmuşdur.

Nasir Xosrovdan qalan zəngin ədəbi və elmi irsə onun "Camiül-hikməteyn", "Zadül-müsafirin", "Vəche-din", "Səfərnamə" kimi nəsrlə yazılmış əsərləri, "Rövşənayinamə" və "Səadətnamə" məsnəviləri, lirik şeirlərindən ibarət divanı və s. əsərləri daxildir. İran ədəbiyyatında o, Nasir Xosrov Ələvi kimi daha çox məşhurdur. Bu da onun "Ələvi" və "İsmaililik" təriqətinin böyük ideoloqu və təbliğatçısı olması ilə əlaqədardır.

Nasir Xosrovun yaşadığı illər səlcuqilərin hakimiyyəti dövrünə təsadüf edir. Müəllif özü yazır ki, o, XI əsrin 40-cı illərində Xorasan hakimi Əbu Süleyman Çağrı bəy ibn Davud ibn Səlcuqun sarayında xidmət etmiş, Mərvdə vergi toplamış, dövlət məmurları arasında böyük hörmət qazanmış və firavan həyat keçirmişdir.

1045-ci il Nasir Xosrovun həyatının və dünyagörüşünün kökündən dəyişməsi ili olur. O, gecə yatarkən yuxuda bir "müqəddəs" kişi ona bu təmtəraqlı həyatdan əl çəkməyi və Məkkəni ziyarət etməyi məsləhət görür. Səhərisi gün Nasir Xosrov xidməti vəzifəsindən istefa verir, varidatından cüzi bir hissə saxlamaqla qalan hissəsindən əl çəkir və kiçik qardaşı Əbu Səid və hindli nökəri ilə Məkkə səfərinə hazırlaşır. Ola bilsin ki, Səlcuqilərlə alınmayan münasibətlər, onların hakimiyyətinin ilk illərində Xorasanda mədəni həyatın tənəzzülü də onu bu addımı atmağa vadar edir.Varlığın dərki ilə bağlı ona rahatlıq verməyən suallara cavab tapmaq və gizli sirləri aşkara çıxarmaq, bəlkə də, bu səfərin başlıca səbəbi idi. [2,73]Onun bu səfəri yeddi il davam edir. Nasir Xosrov "Səfərnamə" əsərində həmin səyahətin geniş təsvirini vermişdir.

Əsər orta əsrlərdə yazılmış ilk nəsr nümunələrindəndir. Müəllifin bu əsərdə Asiya və Afrika qitələrində yaşayan bir çox xalqların tarixi, mədəniyyəti, təsərrüfatı, iqlimi, coğrafi şəraiti, dövlət quruluşu, yaşayış tərzi, adət-ənənəsi, dili, dini, əqidəsi və s.haqqında verdiyi məlumatlar tarixşünaslıq, dilşünaslıq, ədəbiyyatşünaslıq, islamşünaslıq və s.baxımdan çox maraqlı və faydalıdır. Nasir Xosrov əsərdə yaşadığı dövrün təzadlı həyatını böyük məharətlə oxucunun gözü önündə canlandırır. Oxucu gah arpa çörəyinə möhtac olan, illərlə yağış suyundan qeyri içməli, axar su görməyən, yağış suyunu yığıb aylarla işlətməli olan, həyatı boyu dəvə südündən başqa bir şeylə qidalanmayan, ömründə çimməyən, çiy kərtənkələ, it əti yeyən yazıq adamlarla, gah öz həmcinsi olan insanları parçalamağa can atan vəhşi səhra adamları ilə, köçəri qəbilələrlə, bədəvilərlə tanış olur, gah da firavan yaşayan, oğurluq, əyrilik bilməyən, gecələr dükanlarının qapısını açıq qoyub evinə gedən adamlarla, ağıllı, ədalətli dövlət başçıları, elm və mədəniyyət xadimləri, səxavətli, mehriban, qonaqpərvər insanlarla, qüdrətli şairlərlə rastlaşır.

Əsər eyni halda oxucunu əsrin dəhşət və fəlakətləri ilə-aclıq, quraqlıq,susuzluq, xəstəlik, vəhşilik və s. acınacaqlı vəziyyəti ilə tanış edir. Nasir Xosrov səyahət etdiyi ölkələrdə mövcud olan cəhalətin, nadanlığın, səfalət və müsibətlərin səbəblərini, ictimai köklériniaçıb izah edə bilməsə də, dövrünün və gəzdiyi ölkələrin ictimai, iqtisadi və siyasi mənzərəsini ətraflı və real surətdə təsvir etmişdir.

"Səfərnamə"nin xeyli hissəsi müsəlmanların müqəddəs saydığı Məkkənin, orada dini ayinlərin icra olunmasının təsvirinə həsr olunmuşdur ki, bu da özlüyündə bütün dünya oxucuları, ələlxüsus islamşünaslar, şərqşünaslar və müsəlmanlar üçün maraqlıdır.

Nasir Xosrov Məkkə ziyarətinin təsvirini bütün təfərrüatı ilə verməkdən əlavə, oraya gedib-qayıtmağın çətinliklərini, fəlakətlərini, əzab və əziyyətlərini də aydın və real bir surətdə təsvir etmişdir. Nümunə olaraq bəzi parçalara nəzər salaq:

"Bu il Məğribdən də çoxlu qafilə gəlmişdi. Onlar Məkkəni ziyarət edib qayıdanda...Mədinənin darvazasında ərəblər onlardan xifarət istədilər. Onlar savaşmağa başladılar. Məğriblilərdən iki mindən artıq adam həlak oldu və çoxu Məğribə qayıtmadı".[1,83]

"Səfərnamə"də belə faciəli hadisələrin təsviri çoxdur. Bu baxımdan əsərdən gətirilən aşağıdakı parça çox səciyyəvidir.

"Həmin gün Şam və Misir yolu ilə həccə Xorasandan da çoxlu adam gəlmişdi. Onlar...Mədinəyə gəlmişdilər. Zəvvarların Ərəfata çatmalarına 104 fərsəng qalmışdı. Onlar demişdilər: - Kim bizi ziyarət mərasiminin başlanmasına qalan bu üç günün ərzində Məkkəyə çatdırsa və bizim həcc mərasimini keçirməyimizi təmin etsə, hər birimiz ona 40 dinar verərik.

Bədəvi ərəblər gəlirlər və elə edirlər ki, onları iki gün yarıma Ərəfata çatdırırlar. Lakin onlar pulu zəvvarlardan qabaqcadan alırlar. Ərəblər zəvvarların hamısını tez qaçan dəvələrə bağlayırlar və Mədinədən Ərəfata qədər qovurlar. Onlardan ikisi yolda dəvənin üstündə ölmüşdü, dörd nəfəri isə diri qalsa da, yarımcan idilər..."[1,84]

"Səfərnamə"də ziyarətə gələnlərlə Ərəbistanın bir çox yerlərində, xüsusilə də bədəvilərin yaşadığı səhralarda, çöllüklərdə qeyri-insani rəftar edilməsinin təsvirini oxuduqca insanı dəhşət bürüyür, tarixin cəhalət, nadanlıq, barbarlıq dövrləri göz önündə canlanır. Nasir Xosrov yazır:

"Orada köçərilərin hər qəbiləsinin öz otaraq yeri, sahəsi var. Heç bir yad adam gözətçisiz, bələdçisiz, müşayiətçisiz oradan keçə bilməz. Çünki köçərilər bələdşisiz adam ələ keçəndə dərhal onu tutur, soyundurur və qarət edirlər. Ona görə də hər hansı bir qəbilənin sahəsindən keçmək istəsən, bələdçini həmin qəbilənin üzvlərindən götürməlisən..."[1,106]

---

[56] **BDU Şərqşünaslıq fakültəsi**

Və yaxud:

"Təsadüfən bizim gedəcəyimiz yolun üstündə yerləşən və Bəni Suad adlanan köçəri qəbilənin başçısı Cözə gəlib çıxdı. Biz onu bələdçi tutduq... Onun müşayiəti ilə yola çıxdıq. Bir dəstə adam bizim üstümüzə töküldü. Onlar elə hesab edirdilər ki, ov tapıblar. Çünki onlar hər yad adam görəndə onu ov hesab edirlər... Əgər qəbilə başçısı yanımızda olmasaydı, ola bilsin ki, onlar bizi həlak edərdilər..."[1,107]

Əsərdəki təsvirlər Ərəbistan yarımadasının ucqarlarında, şəhərlərdən aralı yerlərdə səfalət içərisində yaşayan insanların acınacaqlı taleyi ilə də tanış edir. Əsərdə oxuyuruq:

"...Qəbilədə yetmiş yaşlı qoca ərəblər bizə danışdılar ki, onlar ömürləri boyu dəvə südündən qeyri bir şey yeməmişlər. Çünki bu səhralarda dəvələrin otladığı şoran otdan başqa bir şey yoxdur. Onlar elə güman edirdilər ki, bütün aləm o cürdür..."[1,107]

"Hər yer qorxulu və təhlükəli idi"-deyə yazan müəllif özünün də keçirdiyi əzab dolu günləri oxucularına xəbər verir. O, yazır:

"Bizim yol yoldaşlarımız kərtənkələ görən kimi onu öldürür və yeyirdilər. Harada köçəri ərəb gördümsə, onların hamısı dəvəni sağır və südünü içirdi. Mən nə kərtənkələ yeyə, nə də dəvə südü içə bilirdim. Yol boyu ağaclarda paxla boyda olan meyvələrdən bir qədər toplayır və onları yeməklə keçinirdim".[1,107]

Nasir Xosrov səfərdən qayıdanda və Bəsrəyə çatanda özünün və qardaşının vəziyyətini və başlarına gələn bir əhvalatı belə nağıl edir:

"Biz oraya çatanda çılpaqlıqdan və zəiflikdən divanələrə oxşayırdıq. Üç ay idi ki, başımızı qırxdırmamışdıq. İstədim ki, hamama gedim, bir az isinim. Hava soyuq idi, paltarım yox idi. Mən və qardaşım- hər ikimiz bədənimizi rəngli, nimdaş cındırla örtmüş, belimizə də soyuq dəyməsin deyə palaz bağlamışdıq... Hamamçı bizi divanə hesab edib, üstümüzə qışqırdı:

-Çıxın burdan gedin...

Hamamın qarşısında uşaqlar oynayırdılar. Onlar da bizi dəli hesab etdilər, bizim dalımızca düşdülər. Onlar bizi daşa basıb gülüşdülər..."[1,115]

"Səfərnamə" yol xatirələri və gündəlik tərzində yazılsa da, ciddi elmi əsər təsiri bağışlayır. Hər şeydən əvvəl oradakı təsvirlər reallığı və zənginliyi ilə diqqəti cəlb edir. Nasir Xosrov bəzən əsərə eşitdiklərini əlavə etmiş olsa da, əsas hissəni real hadisələr, faktlar, müəllifin öz müşahidələri təşkil edir. O, gəzdiyi ölkələrdə müxtəlif millətlərin-farsların, azərbaycanlıların, türklərin, xaçpərəstlərin, ərəblərin, yəhudilərin, zəncilərin və müəllifin öz təbirincə desək, başqa dinsiz, imansız tayfaların nümayəndələri ilə təmasda olmuş və onları öz aglına, mərifətinə, bacarığına, qonaqpərvərliyinə görə eyni səmimiyyətlə təsvir etmişdir."...Dağın o üzündə böyük düzənlik və otaraq var. Orada "beca" adlanan böyük bir tayfa yaşayır. Onların nə məzhəbi, nə də dini var...və heç bir peyğəmbərin və rəhbərin arxasınca getmirlər. Pis adam deyillər, oğurluqla, qarətçiliklə işləri yoxdur. Günlərini mal-qara saxlamaqla keçirirlər. Müsəlmanlar və başqa tayfalardan olan adamlar onların uşaqlarını oğurlayır, müsəlman şəhərlərinə aparıb satırlar".[1,89]

Göründüyü kimi, qatı müsəlman olan Nasir Xosrov öz zəhmətilə dolanan becalara müsəlmanların və qeyri millətlərin etdiyi zülmü, onların körpələrini oğurlayıb bazarlarda satmalarını təsvir etməklə heç bir dini təəssübkeşlik də etməmişdir. Əsərdə bu cür səhnələr, təsvirlər az deyil. Bütün bunlar müəllifin humanizmini və əsərin reallığını göstərmək üçün əsas ola bilər.

Nasr Xosrov səfəri zamanı Azərbaycanın bir sıra kənd, qəsəbə və şəhərlərindən də keçmişdir. Onun Azərbaycanın vilayətləri, şəhərləri, kəndləri, qəsəbələri, dəniz və çayları, elm və mədəniyyət xadimləri barədə verdiyi məlumatlar, söylədiyi mülahizələr çox əhəmiyyətlidir. Məsələn, o, dahi Azərbaycan şairi Qətran Təbrizi (1012-1088) ilə görüşü haqqında yazır: "Təbrizdə Qətran adlı şairlə görüşdüm. Gözəl şeir oxuyurdu, lakin fars dilini yaxşı bilmirdi. Yanıma gəldi. Məncik və Dəqiqinin divanlarını gətirib, mənim üçün oxudu. Ona çətin olan hər bir sözü məndən soruşdu. Mən izah etdim, o, izahları yazdı. Sonra öz şeirlərini də mənə oxudu".[1,22]

Məlum olduğu kimi Qətran Təbrizi fars dilində böyük divan yaratmış bir şairdir. Bütün İran alimləri, təzkirəçiləri onu fars dilində yaranan şeirin ən böyük ustadlarından hesab edirlər. Belə olduqda Nasir Xosrovun "o, fars dilini yaxşı bilmirdi", "ona çətin olan hər bir sözü məndən soruşdu" kimi təsvir və mülahizələri üzərində fikirləşmək lazım gəlir. Əlbəttə, Nasir Xosrovun səhv etdiyini söyləmək doğru olmaz. Lakin onun mülahizələrini düzgün başa düşmək üçün bəzi izahlara ehtiyac vardır.

Əvvəla, onu demək lazımdır ki, Dəqiqi və Məncik X əsrdə, yəni Qətrandan bir əsrqabaq yaşamış şairlərdir. Yüz il ərzində bəzi kəlmə və ibarələrin əvvəlki mənasını müəyyən dərəcədə dəyişməsi baş verə bilər. Digər tərəfdən də, belə bir mühüm və əsas faktı nəzərə almaq lazımdır ki, farsdilli xalqlar, tayfalar çoxdur. Ümumiyyətlə, hər bir xalqda olduğu kimi, farsdilli xalqlarda da bir çox ləhcələrdə danışırlar. Onların arasından çıxmış mütəfəkkirlər, şairlər bəzən öz vilayətinin, hətta kəndinin, obasının ləhcələrində işlədilən məhəlli kəlmələrdən də şeirlərində istifadə etmişlər. Bizə elə gəlir ki, Qətran Təbrizi Nasir Xosrovdan məhz belə kəlmələri, yəni lüğətlərdə izahı verilməyən, fars ədəbi dilində olmayan, lakin Qəznə və Xorasan tərəflərdə, xalq arasında, ləhcələrdə işlədilən və Məncikin, Dəqiqinin şeirlərində əksini tapan sözləri soruşa bilərdi ki, bu da təbii haldır və onun fars dilini yaxşı bilmədiyini söyləmək üçün əsas ola bilməz. Fikrimizcə, məsələyə bu cür yanaşılsa, daha düzgün olar.

Nasir Xosrovun Təbriz şəhəri, onun abadlılığı, əhalisi, Azərbaycanın paytaxtı olması haqqındakı təsvirləri də diqqətəlayiqdir. O. yazır:

"Səidabaddan keçdim və 438-ci ilin səfər ayının 20-də Təbrizə gəldim... Bu şəhər Azərbaycanın paytaxtıdır. Əhalisi çox olan abad bir şəhərdir. Mən onun en və uzununu addımladım. Hər tərəfi 1400 addım oldu... Mənə nağıl elədilər ki, bu şəhərdə 434-cü ilin rəbiüləvvəl ayının 17-də cümə axşamı gecəsi mostərəqə günlərin birində, yatmaq namazından sonra zəlzələ olmuş, şəhərin bir hissəsi dağılmış, digər hissəsinə isə zərər dəyməmişdir. Deyirdilər ki, zəlzələ zamanı 40000 adam həlak olmuşdur".[1,22]

Nasir Xosrovun Təbriz zəlzələsini əsərində qeyd etməsi, xüsusən də oradakı tələfatı göstərməsi Azərbaycan tarixi üçün faydalı material sayıla bilər. Müəllifin Azərbaycanın Sərab, Səidabad, Mərənd, Xoy, Bərkəriyyə, Xəndan və s. şəhər, qəsəbə və yaşayış məntəqələri, kəndləri, habelə vaxtilə "Abesqun" adlanan Xəzər dənizi, onun adaları haqqındakı yazıları, qeydləri də maraqlı və əhəmiyyətlidir.

Nasir Xosrov Qətran Təbrizidən əlavə, Təbriz hakimi Əbu Mənsur Vəhsudan, filosof Əbülfəzl Xəlifə ibn Əli kimi bir neçə azərbaycanlı haqqında da məlumat verir. Ümumiyyətlə, o, azərbaycanlılar barədə çox səmimi söhbət açmış, onların qonaqpərvərliyindən, istiqanlı və sədaqətli olmalarından, mərhəmətindən, mərdanəliyindən razılıqla bəhs etmişdir. Əsərdə oxuyuruq:

"Şəmiranda yaxşı bir adam gördüm. Dərbəndli idi. Adı Əbülfəzl xəlifə ibn Əli əl-Feylasuf idi. Ləyaqətli, xoşrəftar adam idi. Bizə səxavət göstərdi, əliaçıqlıq etdi. Çoxlu söhbət etdik. Dostlaşdıq...

-Xahiş edirəm, qayıdanbaş buradan keç ki, səni bir də görüm,– dedi".[1,21]

"Səfərnamə"də Azərbaycanın 900 il bundan əvvəlki mənzərəsini müasir oxucuların gözü önündə canlandırmaq üçün də xeyli məlumat verilmişdir.

"Səfərnamə" həm doqquz əsr bundan əvvəl fars dilində yazılmış nəsr nümunəsi, həm də Yaxın və Orta Şərq xalqları haqqında zəngin və maraqlı məlumatlar verən bir əsər kimi, xüsusən də müsəlmanların qibləgahı olan Məkkəyə gedib-gəlməyin və müqəddəs Kəbəni ziyarət etməyin ayin və qaydalarını ətraflı təsvir etdiyindən Şərq ölkələrində böyük şöhrət qazanmışdır.

Əsər XIX əsrdən başlayaraq Avropa ölkələrində də öyrənilməyə başlamış, ingilis, fransız və rus dillərinə tərcümə olunmuşdur. Nasir Xosrovun "Səfərnamə" əsəri 1997-ci ildə filologiya elmləri doktoru Tahir Məhərrəmov tərəfindən Azərbaycan dilinə ilk dəfə olaraq tərcümə olunmuşdur.

Ədəbiyyat siyahısı:

1.Nasir Xosrov. "Səfərnamə"(fars dilindən şərhli tərcümə fil.elm.dok.Tahir Məhərrəmovundur). Bakı:Elm, 1997, 180 s.
2.Mehdi Kazımov. Farsdilli ədəbiyyatın yeddi əsri, "Nafta-Press" nəşriyyatı, Bakı, 2012, 391 s.
3.سفرنامه ناصر خسرو قبادیانی به تصحیح و تعلیقات م.غنی زاده. انتشارات منوچهری1372

РЕЗЮМЕ

НАСИР ХОСРОВ И ЕГО ПРОИЗВЕДЕНИЕ «САФАРНАМЕ».

НасирХосров-один из ярких представителей восточной поэзии 11-го века. Его произведение «Сафарнаме» было написано на классическом персидском языке. В статье исследуются жизнь, творчество и призведение «Сафарнаме» НасираХосрова.

Ключевые слова: Персидская литература, НасирХосров, «Сафарнаме».

SUMMARY

NASIR KHOSROV AND HIS "SAFARNAMA"

Nasir Khosrov is one of the prominent representatives of the 11th century Eastern poetry. His work "Safarnama" was written in classical Persian. The article examines Nasir Khosrov's life, literary creativity and work "Safarnama".

Key words: Persian literature, Nasir Khosrov, "Safarnama"

RƏYÇİ: dos. S.Abbasova

Nəzərova Aytən Miboyat qızı[57]

"MANAS" VƏ "ALPAMIŞ": YARANMA TARİXİ VƏ YAYILMA AREALI TİPOLOJİ QARŞILAŞDIRMA MÜSTƏVİSİNDƏ

Dastan şifahi xalq ədəbiyyatının epik janrları içərisində həcmcə böyük olan əsərdir. Dastanlar əsasən aşıq yaradıcılığının məhsuludur. Orta Asiya xalqlarında isə onlar belə adlandırlırlar: qırğızlarda - manasçı, özbəklərdə - ırçı, qaraqalpaqlarda – jraular, qazaxlarda – akın və s. qopuzla ifa olunur. Qopuzun- sazın türk xalqları arasında ən geniş yayıldığı yer qədim oğuzların məskunlaşdığı ərazilər hesab olunur. Oğuzların qədim və erkən orta əsrlər tarixini araşdırmaq baxımından "Kitabi – Dədə Qorqud" dastanı tarixi mənbə kimi əvəzsizdir.

Professor P.Xəlilovun fikrincə, bu dastan orta əsr dastanlarının başlanğıcı və sonrakı babasıdır. "Manas", "Alpamış", "Koblandı batır", "Koroğlu" kimi dastanlar "Dədə Qorqud" çeşməsindən su içirlər. "Dədə Qorqud"un bir boyuna yerləşən qəhrəmanlıq sonralar baş qəhrəmanı Manasdan, Alpamışdan, Koroğludan ibarət monumental dastanlar üçün örnək olmuş, onlara material vermişdir. (5, 133)

"Alpamış" dastanına gəldikdə onun versiyaları Qazan şəhərində müəyyən fasilələrlə çap olunmuşdur. Bu dastan iki hissədən ibarət olub, hər hissə 5 nəğməyə bölünür. Türk dastanlarında olduğu kimi nəsrlə nəzmin növbələşməsi burada da özünü göstərir. Dastanın son variantı XVI əsrdə yazılmışdır. Bütöv şəkildə, 14000 şeir sətrindən ibarət olan bu dastan məşhur baxşı Fazıl Yoldaşev tərəfindən 1927 ildə qələmə alınmış və ömrünün sonuna kimi onun tərəfindən ifa edilmişdir. Baş verən hadisələr Özbəkistan və Kalmık ölkəsində cərəyan edir. Professor P.Xəlilovun fikrincə, əsərin iki hissəyə bölünməsi, görünür, qəbilənin iki yerə ayrilması, kiçik qardaşın Kalmık ölkəsinə köçü ilə bağlıdır. (5,143) Hal- hazırda Özbəkistanda "Alpamış" dastanının 10-dan artıq variantı qorunub saxlanılır.

"Manas" dastanına gəldikdə isə ilk tədqiqatçısı qazax xalqının ensiklopedisti Çokan Vəlixanov hesab olunur. O, dastanı 1862-1869 illərdə rus akademiki V. V. Radlov ilə birlikdə dastanın bəzi hissələrini ırçı dilindən yazıb XIX əsrdə çap etdirmişlər. Türk xalqlarının ədəbiyyatı və tarixində möhtəşəmliyi ilə seçilən, trilogiya təşkil edən dastan 3 nəslin- Manasın, oğlu Semeteyin, nəvəsi Seytekin ömrü fonunda qırğız xalqının həyatını, tarixi hadisələrini oxucunun gözü qarşısında canlandırır. "Manas" dastanının sonuncu variantı həcminə görə qəhrəmanlıq dastanı olan "Şahnamə"dən 5 dəfə, 24 dəfə "İlliada"dan, 20 dəfə "Odisseya"dan möhtəşəm abidə sayılır. (7,49) Tədqiqatçıların qənaətinə görə tarixi hadisələr ən çox I hissədə, yəni "Manas"da öz əksini tapmışdır.

"Manas" yeganə dastandır ki, ancaq şeirlə yazılmışdır. "Manas" trilogiyası poeziya okeanıdır. Hər bir qəhramanın taleyi bitmiş novella və ya nağıl kimi qısa epizodlarda verilmişdir. "Manas" dastanını "Alpamış" və digər eposlarla müqayisə etsək oxşar və fərqli cəhətləri görmək olar ki, bu da mədəniyyətlərin eyni kökdən ibarət olmasını sübut edir. "Alpamış" və "Manas" dastanları bir çox cəhətdən tarixi uyarlıq, tipoloji və geneoloji oxşarlıq təşkil edir. "Manas "eposunda təsvir olunan qırğızların həyatı gün-güzəranı eynilə oğuzlar kimidir. Yarımköçəri oğuzlardan fərqli olaraq qırğızlar tam köçəridirlər. Heyvan dərilərindən pal-paltar tikib geyinir, belə dərilərdən məişətdə digər məqsədlər üçün istifadə edir və s. Ox, yay, nizə, qılınc, qalxan qırğızların da əsas döyüş texnikasıdır. (2,181-182)

"Manas" dastanında 300-dən artıq obraz iştirak edir. İlk səhifələrdən biz Manasın ulu babaları ilə tanış olur, nəslin kökü Qaraxandan başlayıb Cakiba qədər, ata tərəfindən babaları isə 3 nəfərdir: Noqoy, Şıqay, Çıyır. Əsas qəhrəman isə Manasdır. "Manas"ın başlanğıcına nəzər yetirsək görərik ki, "Alpamış" dan fərqli olaraq burada Manasın nəsli haqqında geniş məlumat verilir. "Ulularımızdan qalan söz var: Qaraxan və Oğuz xandan sonra Alança xanın nəslindən Bayqurun oğlu Bəbir xandan Tübey, Tübeydən Kököy, Kököydən isə üç oğul- Noqoy, Sıqay və Çıyır dünyaya gəldi. Bu üç qardaşın dünyalar tutmayan var-dövləti oldu. Noqoyun 4 oğlu doğuldu: Orozdu, Üsön, Bəy və Cakıb..." (4,18) Bundan başqa Cakıbın 2 arvadı (Şakan və Bəydövləti), aul (kənd) yoldaşları, ilxıçısı, naxırçısı, çobanları, çobanbaşı və s. obrazlar vardır ki, bunlar bir daha Manasın nəsli, ailəsi haqqında geniş epik təfsilat verir.

"Alpamış" dastanının ilk səhifələrində Daban və Alpin bəyin törəmələri Bayburi və Baysarı qardaşları ilə tanış oluruq. Onların hər ikisi qonaqlığa dəvət olunur və övladları olmadığından onları çox soyuq qarşılayıb, qara çadırda aşağı başda otuzdurub, qabaqlarına qonaqlardan qalan artıqları gətirirlər. Bunun səbəbini öyrənəndə qardaşlara bildirirlər ki, Bayburi, Baysarı! Var-dövlətdən və qeyrətdən nə desəzsə, sizə cavabımız çox sadədir: Toy o insanlardan ötəridir ki, onların varisləri var. Ancaq sizə, övladsız bəylər ümidlər çox pisdi. Hanı sizin igidləriniz, hanı sizin gözəlləriniz? Siz öləndən sonra var-dövlətinizə görə bir çox elə varislər meydana gələcək ki, bizim bədbəxtçiliyimizdən, insanı diri-diri udarlar. Sizin var-dövlətiniz bizə heç də şirin deyil. Ona görə də sizə qonaqlardan qalan artıq yeməklər verirlər." (1,35)

Övladsız olduqlarından belə qarşılanmalarına görə pis olub, məclisi tərk edirlər. Həmin axşam yuxuda müqəddəs insan- Qələndər hər 2 qardaşa övladları olacağını bildirir. Baysarının qızı Barçın, böyük qardaş

[57] **Bakı Slavyan Universitetinin dosenti, filologiya üzrə fəlsəfə doktoru.ayten.nazarovaa@mail.ru**

Bayburinin əkizi- qızı Kaldırqaç aim və oğlu Alpamış dünyaya gəlir. Xalqın ənənəsinə uyğun olaraq Alpamış və Barçın beşikdən nişanlandırılırlar. Bu epizod "Kitabi – Dədə Qorqud" dastanlarından "Bayburanın oğlu Bamsı Beyrək Boyu" ilə səsləşir ki, Baybura övlad həsrəti ilə yaşayır, Oğuz bəyləri Allah taalaya dua etdikdən sonra onun bir oğlu, Baybecanın isə dualardan sonra bir qızı dünyaya gəlir."Manas" dastanında da Manas ilə Akunun bir-birinə verdiyi söz, yəni əgər onların qız və oğlu olursa onları nişanlandıracaqlar "Alpamış" dastanı ilə səsləşir.

"Alpamış" əsərinin qəhrəmanı Hakim bəy artıq 7 yaşına çatanda babası Alpin bəyin 14 batmanlıq ağırlığında oxu ilə elə bir qəhrəmanlıq göstərir ki, ona Alpamış adı verirlər. Alp-özbək dilində igid, qəhrəman mənasındadır.

"Alpamış" dastanı ilə eynilik təşkil edən bu epizodu "Manas" dastanında da görmək olar ki, əsərin qəhrəmanı ilk qəhrəmanlığını 14-15 yaşında olarkən kalmıklara qalib gəlib onları dəf edəndən sonra ətrafdakılar bunu görüb onu xan seçir və tayfanın taleyini Manasa tapşırırlar. Onun haqqında səs-küy digər ölkələrədə gedib çatır. Çin hakimi Esen xan bundan narahat olub Manası yox etmək istəyir, lakin Manas ona da qalib gəlir.

Qəhrəmanlıq dastanlarında olan ənənə, səciyyəvi xüsusiyyətlər "Alpamış" və "Manas" dastanlarına da xasdır. Əsərin baş qəhrəmanları hər birində olduğu kimi xalqını sevən, onun taleyini düşünən döyüşçü - igiddir. Ancaq bu igidin dünyaya gəlməsi də hər bir xalqın dastanında maraq doğurur, hətta bu süjet xətti eynilik təşkil edir.

"Alpamış" dastanında olduğu kimi "Manas" da da xüsusilə qəbilə-tayfa münasibətləri dövründə ailənin ictimai həyatının özəyi, nəslin davamı kimi, övlada, xüsusilə oğula olan ehtiyac duyulur.

Alpamışın ailəsinə, nişanlısına görə apardığı mübarizə, nəinki onun şəxsi sevgisi, taleyi yolunda mübarizəsi idi, hətta bu yeni ictimai əlaqələrə də aid idi. Ona görə də Alpamışın apardığı qara qüvvələrlə mübarizəsi sosial məna da daşıyırdı.

Konqratların qürbət ölkəyə, Kalmık ölkəsinə köçməsi və Alpamışın başına gələn sonrakı bəzi hadisələr "Manas" dastanı ilə demək olar ki, eynilik təşkil etmir. "Alpamış"da on minlik tayfa birliyinin "kafir" (xristian) elinə köçməsi, incimiş qardaşın kafir hökmdara sığınması sübut edir ki, oğuz dastanlarında xüsusi süjet təşkil edən köç motivi Qafqaz oğuzlarında dəbdən düşmüşdür; o, "Dədə Qorqud"da ancaq ötəri hələ, acıq əlaməti kimi qalmışdır. (5,145)

Nişanlısının dalınca qürbətə, Kalmık ölkəsinə gedən Alpamış bir neçə sınaqlardan keçir ki, Barçına evlənmək haqqı qazansın. Alpamış Barçının kəsdiyi şərtdə ona elçi duşmüş pəhləvanlarla birlikdə 4 sınaqdan keçir və qalib gəlir.

"Manas" dastanında isə ata-oğul arasında narazılıq başqa səbəbdən olur. Yuxarıda qeyd etdiyimiz kimi Esenxan Manası məhv etmək üçün müharibə elan edəndə, atası Cakıb bu müharibədən oğlunun uzaq olmasını məsləhət görür. Bundan qəzəblənən Manas atasına qarşı çıxır və onun yığdığı var-dövləti xalqa paylayanda Cakıb oğlundan üz döndərir və bununla da hörməti aşağı düşür. Prof. P.Xəlilov qeyd etdiyi kimi Manas azadlıq istəyən ölkənin yeni qüvvəsini təmsil edir və bunu başa düşdükcə daha məğrur, daha ardıcıl olur. Öz elinin sahibi olmaq, özünü dərk etmək, öz gücünü yığıb hünər meydanına çıxmaq əzmi dastanın ideya-məzmununu müəyyənləşdirir. (5, 137)

"Alpamış" dastanının süjet xəttini izləyəndə görürük ki, "Manas" dastanları ilə səsləşməyən bəzi epizodları da vardır. Bu əsasən tayfa başçıları, iki zəngin qardaşların, Baybura və Baysarının münasibətlərində özünü göstərir. Qardaşa itaətsizlik, hörmətsizlik "Alpamış" dastanının 2-ci hissəsində daha aydın görünür.

Belə ki, Alpamış Kalmık elinə ikinci dəfə əmisini xilas etməyə gələndə, uğursuzluq baş verir, zindana düşür. Onu zindana saldıran 7 oğlu Alpamış tərəfindən öldürülən, qisas hssi ilə yaşayan Surxayıl qarıdır. Yeddi il Çilbir çöldə, zindanda qalan Alpamış haqqında ölkəsinə ölüm xəbəri yayılır.

Qəhrəmanların vətənlərinə qayıtmaları da dastanlarda eynilik təşkil edir ki, "Manas" elinə-obasına qayıdanda xəbər tutur ki, onun yoxluğundan istifadə edən əfqan xanı Şooruk və Tülki qırğızlara hücum edib, sürülərini də oğurlayıblar. Qəzəblənən Manas onları ölkəsindən qovub, qalib gəlir.

"Alpamış" dastanından fərqli olaraq "Manas" dastanında Allaha, Məhəmməd peyğəmbərə olan inanc özünü göstərir. Manasın 60 yaşı olanda evladı dünyaya gəlir ki, o, Məkkəyə, Mədinəyə Həzrəti Məhəmmədin məzarını ziyarət etməyə gedir. Belə bir epizod da var ki, mömin Ayqoca 500 yüz ildən sonra Məhəmməd Peyğəmbirin əmanətini "Açalbars" adlı qılıncı ona çatdırır. Bu qılınc Manasa sanki qüvvət verir, İslamı onun düşmənlərindən qoruyub hifz etməyə yardımçı olur.

"Manas" dastanın da belə bir obraz var ki, o, hətta Manas öləndən sonra belə əsər boyu iştirak edir. Bu müqəddəs – Bakaydır. Böyük hörmətə layiq olan Bakay Qələndərdən fərqli olaraq əsərin bütün hissələrində iştirak edir və qırğızlar tərəfindən çox sevilir. O, qırğız qəhrəmanlarına ad qoyur, ağıllı məsləhətlərilə Manası zəfərdən-zəfərə ucaldır və s. Bir fərq var ki, Qələndər el ağsaqqalıdır, Bakay isə Manasın əmisi oğludur, ona ən yaxını və sadiq olanıdır. Hər zaman Manasın məsləhətçisi və köməkçisi, hər bir səyahətində qoşun başçısı vəzifəsində, qayda-qanuna, intizama riayət edən, Manası səhvlərdən qoruyandır. O, hətta qeyd etdiyimiz kimi Manas öləndən sonra onun oğlu və nəvəsinə sadiq qalan bir insandır. Dul qalan Kanıkeyə və Semeteyə

Buxaraya qaçmağa kömək edir, qırğız dövlətinin Manas öləndən sonra bərpasını təmin edir və Semeteyin baş məsləhətçisi olaraq qalır.

"Alpamış" dastanından fərqli olaraq bir başqa müqəddəs obraz çıxış edir ki, bu da Xızır peyğəmbərdir. "Manas" dastanında qəhrəmanın adını məhz o, qoyur və çətin anında gözünə görünüb ona gələcəkdə də kömək edəcəyinə söz verir.

Dastanlarda təsvir olunan qadın obrazlarına gəldikdə isə onlar da bir qəhrəman kimi keçmişin ənənələrinin təcəssümünə çevrilmişlər. "Kitabi-Dədə Qorqud" dastanında Burla xatun, Selcan xatun, Banuçiçək və s. obrazları ətraflı təsvir edilmiş, o dövrün qadınları üçün səciyyəvi olan öz ocağını, torpağını mühafizə etmək kimi bütün cəhətləri və yüksək əxlaqi prinsipləri göstərilmişdir. Oğuzlarda qadınlar cəsur və igiddirlər.

S.P.Tolstovun qənaətinə görə, dastandakı qadın obrazları kişilərlə bərabər hüquqludurlar. Onlardan geri qalmayıb nəinki dünyəvi işlərdə, hətta müharibə işlərində belə iştirak edirlər. Bu Orta Asiya dastanına xarakterik cəhətdir ki, bir çox xalqların dastanlarından yüksək yerdə durur. (8,12)

Manas" dastanında qadın obrazlarına gəldikdə bu əsasən Kanıkey obrazında özünü büruzə verir. Kanıkey obrazında xalq qadın idealı təmsil olunmuşdur. Manas üçün həyat yoldaşını atası Cakıb tapır. Baxmayaraq ki, Manasın iki arvadı var idi o, özünə əsl həyat yoldaşı istəyirdi. "Manas" dastanında olduğu kimi Kanıkey də onu bəzi sınaqlardan keçirib, sonra onunla ailə həyatı qurur. Manasın həyat yoldaşı olan Kanıkey (yəni Xan Nigahlısı) nəinki gözəl, hətta "Kitabi-Dədə Qorqud" dastanında olan qadın obrazları ilə oxşarlıq təşkil edən ağıllı, mərd, həyat yoldaşının həm məsləhətçisi, həm dostu, həm də həyat yoldaşıdır.

Beləlikə, gördüyümüz kimi həm "Kitabi – Dədə Qorqud" dastanında, həm "Manas" dastanında vətənpərvərlik, yurda, doğma ocağa bağlılıq hissləri güclüdür. "Manas" dastanında olduğu kimi "Kitabi – Dədə Qorqud" dastanında oğuzlar tərəfindən qonşu ölkələrə yürüşlər edilir ki, bu da qoçaqlıq, cəsurluq rəmzi kimi verilirdi.

ƏDƏBİYYAT SİYAHISI

1. «Алпамыш» Узбекский народный эпос. М.,Сов.писатель, 1982, 230s.
2. Cəmil A. "Manas" eposu və türk dastançılıq ənənəsi. B., Elm, 2002, 204s.
3. Dədə Qorqud dünyası. Məqalələr. B., Öndər nəşriyyat, 2004, 350s
4. Türk xalqları ədəbiyyatı. IV cilddə. II cild. B., Çaşıoğlu, 2006, səh.15-31
5. Xəlilov P. Türk xalqlarının və Şərqi Slavyanların ədəbiyyatı. B., Maarif, 1994, 452s.
6. Ауэзов М. Мысли последних лет. Алма-Ата, 1959
7. Богданова М. Киргизская литература. М., 1947
8. Жирмунский В.М. Народный героический эпос. М., 1962. 11.Манас героический эпос киргизского народа. Фрунзе, 1968
9. Жирмунский В.М., Зарифов Х.Т. Узбекский народный героический эпос. М.,1947, 420s.
10. Толстов С.П. Древняя культура Узбекистана. Ташкент, 1943.

Açar sözlər: Akın, oğuz, nəsil, ənənə, dua.

Key words: Akyn, Oghuz, offspring, custom, prayer.

Ключевые слова: Акын, огуз, потомство, обычай, молитва.

XÜLASƏ

Qəhrəmanlıq dastanlarında olan ənənə "Alpamış" və "Manas" dastanlarına da xasdır. Qeyd olunan məqalədə "Alpamış" və "Manas" dastanlarının oxşar və fərqli cəhətləri araşdırılmış və açıqlanmışdı. Əsərin baş qəhrəmanları hər birində olduğu kimi xalqını, vətənini sevən, onun taleyini düşünən döyüşçü- igiddir. Özbək və qırğız xalqının dastanlarındakı obrazlar ayrı- ayrılıqda təhlil edilmişdir. Dastanları müqayisə edərək belə nəticə əldə edilmişdir ki, "Alpamış " və "Manas" Orta Asiya xalqlarının dastanları üçün bir mənbədir.

SUMMARY

"Manas" and "Alpamysh": the history of creation and distribution area at the level of typological comparison

The traditions related to the heroic dastans are also related to the epics "Alpamysh" and "Manas". In this article, various and similar features of the epics "Alpamysh" and "Manas" were revealed and compared. The main images in both dastans are warrior-heroes who love and think about the life of their people and homeland. In this article, the images of the dastans of the Uzbek and Kyrgyz peoples were analyzed separately. As a result of the comparison, it was concluded that "Alpamysh" and "Manas" are sources for the epics of the peoples of Central Asia.

РЕЗЮМЕ

«Манас» и «Алпамыш»: история создания и ареал распространения на уровне типологического сравнения

Традиции относящиеся к героическим дастанам относятся и к эпосам "Алпамыш" и "Манас". В данной статье были раскрыты и сравнены различные и сходные черты эпосов "Алпамыш" и "Манас". Главные образы в обоих дастанах любящие и думающие о жизни своего народа и родины воин- герой. В данной статье были анализированы по отдельности образы дастанов узбекских и киргизских народов. В результате сравнения был сделан такой вывод, что "Алпамыш" и "Манас" являются источниками для эпосов народов Средней Азии.

RƏYÇİ: dos. S.Abbasova

Yeganə Abdullayeva[58]

MÜRIEL SPARKIN YARADICILIĞINDA SATİRA
(“Dəstək və təhrik” romanı əsasında)

İngilis yumoru və satirası ədəbiyyatşünaslıqda və ədəbi tənqiddə ayrıca öyrənilən sahə kimi diqqətdə saxlanan problemlərdəndir. Ədəbiyyatşünaslıqda ingilis yumoru, ingilis satirası deyilən terminin mövcudluğu da bu problemin özünəməxsusluğundan xəbər verir. Elə bu səbəbdən yaradıcılığı ənənəvi ingilis yumoru və satirası ilə bağlı yazıçılardan biri – MürielSparkın romanlarını öyrənmək xüsusi əhəmiyyət kəsb edir. Belə ki, ingilis yumor və satirasının xüsusiyyətlərinin M.Sparkın romanlarında müəyyən edilməsi ədəbiyyatşünaslığımızda az öyrənilən sahələrdəndir. Halbuki, yazıçının yaradıcılığı birbaşa bu problemlə bağlıdır və məhz onun romanları ingilis yumorunu və satirasını özündə geniş şəkildə ehtiva edir.Məlumdur ki, ingilislərin yumor hissi həyatın vacib atributu kimi qəbul edilir. İngilis yumoru və satirası çox özəldir və o istənilən Avropa ədəbiyyatında mövcud olan gülüş növündən fərqlənir. İngilislərin incə yumor hissi əsərlərdə xüsusi tona və eyhama hədəflənir.İngilis satirası isə insan ağlının və davranışlarının nə qədər natamam və ağılsız olduğunu göstərir[5. s.459]. İngilis satirasının vacib elementlərindən biri də istehzadır. İstehzadahəqiqi məna gizli qalır və ya açıq mənaya zidd mövqedə olur. Satirada sarkazmın olması da vacib elementdir. Məhz onun vasitəsilə yazıçınəzərdə tutulan mənaya zidd olan sözlərdən istifadə edir. Bəzən ona istehzanın ən yüksək dərəcəsi, satirik ifşa, əsərin mənasına əks olan sözlərdən istifadə üsulu da deyilir [6, s.1133]. İngilis milli xüsusiyyətlərindən biri də həddindən artıq ciddi olmağın özü də yersiz əlamət sayılır. İngilis cəmiyyətində bütün münasibətlərdə ingilis yumordan istifadə etmək bir norma, həyat tərzidir. İngilislərin söhbətləri zarafatla, yumorla, istehza və ya sadəcə gülməli ifadələrlə müşayiəti olunur. İngilis yumorunun və satirasının özünəməxsusluğu məhz onun istehzasındadır. Yumor ingilis mədəniyyətinin tərkib hissəsidir və elə bu səbəbdən İngiltərə mədəniyyətinə yaxından bələd olmaqla ingilis yumorunu və satirasını daha yaxşıanlaya bilərik. Özlərinə, öz nöqsanlarına gülməyi bacaran, onları “bəla”adlandıran ingilislər həddən artıq ciddi olan cəmiyyətə və onun qaydalarına gülür, özlərinin “seçilmiş” olmasını və ya öz nailiyyətlərinin şişirdilməsi kimi tabuları da ingilis istehzasıyla ələ salırlar. İngilis yumoru və satirası hay-küylü gülüşə səbəb olmasa da, çox vaxt özündə sətiraltı və gizli yumoru daşıyır. Bu satira və yumor ingilis ədəbiyyatında xüsusi məna kəsb edir və C.Svift, H.Fildinq, U.Tekkerey, C.Ostinin əsərlərində “xalis ingilis yumoru”nu ifadə edir [10, s.7]. Məlumdur ki, satira XX əsr ədəbi-bədii fikrinin ayrılmaz bir hissəsidir və görünür elə bu səbəbdənM.Spark öz müsahibələrində bu haqda deyirdi ki, müasir incəsənət satirik və ironikdir. Yazıçı yaradıcılığında bir tərəfdən mövcud ənənəvi ingilis satirasına söykənir, digər tərəfdən müasir ingilis ədəbi prosesini yaradıcılığındaəks edirdi. Elə bu səbəbdən yazıçı ənənəvi satirik romanla yanaşı, postmodernist estetikanın təsirində olan satirik romanlardan da yan keçmir, satirik istehzadan yararlanan “Pir”(1991), “Dəstək və təhrik”(2000), “Məktəb məzunu”(2004) və s. əsərlərini yazır. Yazıçın yaradıcılığını öyrənən Allan Boldhaqlı olaraq M.Sparkı ingilis satirik ənənələrini davam edən yazıçı kimi dəyərləndirir və yazır ki, o, ənənə ilə müasirliyi bir arada verə bilirdi [3, s.48].

Məlumdur ki, XX əsr ədəbiyyatında satira köklü dəyişikliyə məruz qalır və satirik istehza, postmodernist istehza anlayışlarına bölünür. M.Fletçer yazır ki, müasir dövrdə “satira obyektsizdir”[4, s.49]. Başqa sözlə hər hansı obyekti ifşa etmək məqsədi daşımır, ümumən həyatın satirik təsviridir. Belə əsərlərdə satirik üsullardan istifadə edilir, amma müəyyən faktların və ya obrazların ələ salındığı normalar yoxdur. M.Spark da əsərlərində öz təhkiyə texnikasına gülür, onu personajların dili ilə ələ salır, bəzən isə satirik ənənələrlə oynayır, onları parodiya edir. Belə əsərlərdən biri də M.Sparkın2000-ci ildə qələmə aldığı “Dəstək və təhrik” (Aiding and abbeting, 2000) romanıdır. Roman ingilis cəmiyyətinin satirik təsviri və mənəvi dəyərlərin böhranını əks edir.M.Spark 1974-cü ildə baş vermiş real hadisəni – qraf Lukanın yoxa çıxmasını əsərə köçürür: “Yeddinci lord Lukan yeddi noyabr 1974-cü ilin gecəsi yoxa çıxdı, həyat yoldaşını başından aldığı güllə yarası ilə xəstəxanaya apardılar, ölənə qədər döyülən uşaqların baxıcısı isə evdə qalmışdı”[8, s.4]. Bu hadisə cəmiyyətdə sensasiyaya səbəb oldu, lord Lukan isə polisdən qaçıb gizlənə bildi. İngilis yazıçısı ConApdaykM.Sparkınbu əsərinə şərh verir və yazır ki, “M.Spark köhnə qalmaqalı araşdıran əsərində” gerçək hadisələri “içəridəki qanlı döngələrlə göstərə bildi” [11]. M.Sparkın roman yaradıcılığını öyrənən FoteyneApostolu və Fotini E. Apostulunun birgə hazırladıqları monoqrafiyada əsər təhlilə çəkilir və qeyd edilir ki, məhz bu roman onun yaradıcılığına yekun kimi dəyərləndirilməlidir. Çünki postmodernizmin tənqidi oyunları yazıçının satirasını daha da önə çıxarmış, yazı eksperimentləri etməyə şərait yaratmışdır. Görünür elə bu səbəbdən monoqrafiya müəllifləri “Dəstək və təhrik” romanını “mətnlər, obrazlar, səhnələr öz qurbanlarını dəstək və təhrik prosesində təqib edirlər” fikri iləəsaslandırırlar. [7, s.52].

Yazıçının satirik üslubunu vurğulayan “İndepend‍ent” qəzetindəisə adı çəkilən əsəri şərh edərək yazırdılar ki, “Spark özünə xas kəskin yanaşmasını qoruyub saxlayır”[1]. Yuxarıda qeyd edilənləri nəzərə alaraq onu demək olar ki, yazıçı “Dəstək və təhrik” romanında ingilis qara yumorundan və satirasından istifadə etmiş, ingilis cəmiyyətinin ironik, parodik təsvirini canlandırmışdır. Roman iyirmi beş ildə qrafla ola biləcək hadisələrin ehtimalları üzərində qurulur. Maraqlıdır ki, müəllif personajlar vasitəsilə biri-birini aldadıb özləri haqqında ağlasığmaz əhvalatlar uydurur və onların hər birini uydurulmuş hadisələrin mərkəzinə cəlb edir. Bir uydurma digəri ilə kəsişir və ya üçüncü hadisə ilə tərs mütənasib olub gözdən yayınan, əsərin əsas ideyası olan bədii xətdən yan keçir. Beləcə, mətnin strukturunda hər bir obraz bir neçə yöndən açılır. Əsərin baş qəhrəmanı uğurlu karyera edən parisli psixoloq HildeqardVulfdur. Universitet tələbələri onun məşhur güzgü metodunu bəyənir və öyrənirlər. Onun tətbiq etdiyi metoda görə Vulf xəstələri dinləmir, əksinə özü haqqında danışır,

---

[58] **ADU**

öz problemlərindən bəhs edir və elə buna görə onlardan küllü miqdarda pul alır. Həkim və xəstə arasında rolların yerdəyişməsi onun metoduna görə güzgü effekti verməli, düşdüyü vəziyyəti və çətinliklərini danışmağa gələn xəstələrin psixoloji durumunu dəyişməlidir. Beləcə, HildeqardVulf yanına gələn rahibə mənəvi böhrandan çıxmaq üçün tanrı ilə yerdəyişməsini təklif edir. Həkim HildeqardVulfa görə rahib artıq kilsəyə gələn insanlara ömrü boyu danışdığı dini moizə və söhbətlərini çatdırmamalı, susub tanrının səsini dinləməlidir.

Bir dəfə həkim Vulfun yanına iyirmi il axtarışda olan qatil lord Lukan gəlir, lakin onun müalicəsi çətinləşir. Onun xəstəliyinin müalicəsi ona görə çətinləşmir ki, özünün də dediyi kimi iblislə sazişə girib cinayət törədir. Çətinlik ondan ibarətdir ki, lord Lukanın xəstəliyinə güzgü effektini tətbiq etmək olmur, çünki onun artıq əksi – öz əkizi var. Həm lord Lukan, həm də onun əksi axtarışda olan qatilin xarakterinə uyğun gəlirlər. Onlar üzün illər bir şəhərdə yaşayır, lakin biri-birinin mövcudluğundanxəbərsizdilər. Həkim onlardan birinin dəli olduğunu bilir, lakin hansının dəli olduğunu deyə bilmir. HildeqardVulfdüşünür ki, güzgü metodundan istifadə edib psixoloq maskasını məxfi qulluqçunun maskası ilə yerdəyişmə etsin, lakin gözlənilmədən, onun özünün də bilmədiyi şəkildə yerdəyişmə baş verir. Lukanları təhdid etmək əvəzinə hər iki Lukan onun özünü təhdid edir. Lukanlardan biri gerçəkdir, digəri isə onunla əlbirdir, ola bilsin ki, ikisi də gerçək Lukandır, amma müəllif təhkiyəsində hər ikisi əlbir olub özlərini Lukan adı ilə təqdim edir. Hər ikisi həkimin gəncliyi ilə bağlı sirri bilir və onu təhdid edir. Oxucuya məlum olur ki, həkim Vulf gəncliyində özünü müqəddəs vaiz elan etmiş, möcüzə axtaran möminləri aldadaraq müəyyən miqdarda pul toplamışdır. Bundan sonra baş verən hadisələr Lukanların biri-birlərini təqib etməsi, daha sonra Hildeqardın çoxsaylı yerdəyişmələri və gözlənilməz hadisələr fonunda baş verən faciələrlə davam edir. Əsərin sonunda Hildeqard güzgü metodu ilə yerdəyişmə edir vəözünü qoruya bilir, Lukanlarisə qurduqları oyuna düşür və uduzurlar. Onlardan biri Şaxta Baba roluna girib gizlənir və sonra ölkəni tərk edir. Digər Lukanısə Afrikadakı vəhşi qəbilə üzvləri öldürüb yeyirlər. Vulf ağır maliyyə durumunu düzəltmək üçün mifik-dini ayinləri icra etmiş, özünü müqəddəs elan edərək tərəfdaşlar toplamış və müəyyən müddət maliyyə fırıldaqlarına baş vurmuşdu. Lakin fırıldaqlarının üstü açılan kimi şəhəri tərk etmiş, az sonra həmin pula psixiatr kimi fəaliyyət göstərməyə başlamışdı. Yeni obrazında savadlı həkim kimi çıxış edir, güzgü metodunu işə salıb yenidən pul qazanmağa başlayır. Mənəvi-etik normalara məhəl qoymayan Vulf xəstələri şüurlu şəkildə manipulyasiya edir, mistifikasiyaları ilə onların inamını qazanır və beləcə, cahil, avam kütlələri idarə edir. Müəllifin gülüş hədəfi dini doqmalara riayət edən və ona inanan insanlardı. Məhz onlar Vulfun hədəfinə tuş gəlir, onun tərəfindən idarə olunur. Maraqlıdır ki, bu insanlar tanrıya inanır, lakin tanrı qanunlarına riayət etmirlər. Müəllif onların öz ruhlarını iblisə satdığını dilə gətirir: "İyirmi beş il əvvəl mən öz ruhumu iblisə satdım" deyir həkimin yanına gələn xəstələrdən biri. Beləcə M.Spark tanrı sevgisindən uzaqlaşan və onun insanlara buyurduğu qanunları unudan insanları gülüş hədəfinə çevirir. Elə bu üzdən istehza və kinayə, sarkazm əsərin bütün mətnini bürüyür, ilk baxışdan tanrı sevgisi ilə yola çıxan, amma əslində onun buyurduğu qaydalara zidd çıxan insanlar ələ salınır.

Əsərin satirasına tuş gələn əsas ideyalardan biri də yüksək ingilis cəmiyyətidir. Qraf Lukanın titulundan başqa heç nəyi maraqlı deyil və müəllif təhkiyəsində o, "adi", "yorucu", "maraqsız" epitetlərlə təsvir edilir. Onun yeganə maraq dairəsi qumar oyunlarıdır. Ona ən uyğun gələn isə "maraqsız" epitetidir. Beləcə, müəllif personajının yeknəsəqliyini vurğulayır. Digər tərəfdən o, özündən razı, daima zadəgan nəslindən olması ilə qürrələnən lovğa bir insan obrazıdır. Yüksək zümrədən olması ona çox vaxt etdiyi cinayətləri ört-basdır etməsinə şərait yaradır, cəzasızlığın təminatçısı kimi çıxış edir. Lukan cinayət törədir, amma cəzadan yayınır. Qumar oyununa pul lazım olanda o, həyat yoldaşını öldürməkdənbelə çəkinmir: "Nədən o, cinayət törədəndən sonra cəzadan yayına bilməsindən bu qədər arxayın idi? Görəsən bu adam hansı detektiv romanlar oxumuşdu? Görəsən hansı uydurulmuş mədəniyyət ona təsir göstərib?"[8, s.64] bu sözləriHildeqardVulfLukan haqqında deyir və müəllif bilərəkdən onu sual şəklində qoyur və cavabı oxucunun öhdəsinə buraxır.

Görünür müəllifin ünvanlandığı sualın cavabı əsərin adında –"Dəstək və təhrik"də gizlənir. Lukanın həyat yoldaşını və qulluqçunu qəddarcasına qətlə yetirməsi oxucunu düşündürür, amma eyni zamanda da nədən yüksək cəmiyyətdəki dostlarının ona kömək edib cəzadan qurtara bilməsinə yardımçı olması sualı da maraq doğurur. Məhz onların köməyi ilə Lukan iyirmi beş il sirli şəkildə yoxa çıxmış və cəzasız qalmışdır: "O, mənsub olduğu zümrəyə uyğun davranır və yaşayırdı. Onun həyat şüarı – mən yeddinci qrafam, mən aristokratam, elə ona görə də necə istəyirəm elə də davranıram, mən toxunulmazam"[8, s.79]. Müəllif bununla Lukan və onun çevrəsinin qəddarlığını, eqoizmini vurğulayır, onların qətlə yetirilən qıza qarşı nə qədər vicdansız olduğunu göstərir. Müəllif vurğulamağa çalışır ki, cəmiyyətin yüksək zümrəsini təşkil edən belə insanlar onlardan olmayan hər bir kəsə acımasız davranır, özlərindən aşağıda görürlər. Əsərin bir yerində qraf Lukan qulluqçunu öldürəndən sonra onun ətrafında yaranan qan gölməçəsindən danışır və bunu aşağı təbəqədən olması ilə izah edir: "Bu mənim arvadım olsaydı bu qədər qan çıxmazdı. Görünür bu aşağı təbəqədən olan insanlara xas xüsusiyyətdir"[8, s.89]. Qraf dəfələrlə özünün və onun kimi yüksək cəmiyyətin insanlarını "seçilmiş" hesab edir və qulluqçunun ölümü zamanı ətrafa yayılan qanın çoxluğuna rişxənd edir. Ali insanların, aristokratların bu qədər qanlı olmasını ağlına belə gətirmir, lakin əsərin sonunda vəhşi tərəfindən öldürüləndəözü də qan gölünə qərq olur. Personajlardan biri Lukanın yoxa çıxmasını cavablandırarkən eyni sözləri təkrarlayır, beləcə suallardan yayınır: "Lord Lukanla mən bric oyununu sevirdik. Biz yalnız kart oynayırdıq. Bütün məsələ elə bundan ibarətdir"[8, s.126]. Özünü aristokrat sayan və hər vəchlə Lukanı qorumağa çalışan və ya ən yaxşı halda etinasız yanaşan dostları isə kasıb qızın ölümünü ciddiyə almır, sıradan xəbər kimi qarşılayır.

Əsərin sonunda oxucu hər iki Lukanın Afrikanın ucqar yerlərinə gəldiyini öyrənir və məlum olur ki, onlar qəbilə başçısının oğullarına at yarışlarında iştirak etməyi, aristokratların sevdiyi kart oyunlarını öyrədirlər. Hər iki Lukan centlmenlər kimi geyinir, amma təşkil olunan poker oyununda tərəf müqabilini aldadır və oyun qaydalarını pozur. Oxucu

özünü aristokrat hesab edən Lukanların iç üzünü görür, əməlləri ilə hərəkətlərinin fərqli olduğunu anlayır. Qraf Lukan çoxdan müflis olsa da özünü varlı kimi qələmə verir, yoxsullara həqarət edir, aristokrat həyatı yaşadığını göstərir. Onun əksi olan Lukan da ikiqat yalançı, onun kimi riyakardır. Lakin müəllifin acı gülüşü və sarkazmı Lukandan yan keçmir. Qraf Lukan günahsız qızı öldürür və heç bir təəssüf keçirmir. Onu öldürən və yeyən afrikalı da eynilə təəssüf hissini yaşamır. O, bunu qəbilə ayini kimi icra edir, çünki onun icmasında bu cinayət sayılmır. Göründüyü kimi müəllif istehzası ingilis qara yumoruyla ifadə olunur."MürielSpark ilk yazıçıdır ki, Uoterqeyt və onu əhatə edən mənəviyyatsızlığı faciənin deyil, farsın materialı olduğunu göstərmişdir" – deyən C.Sted də haqlıdır [9].Məlumdur ki, postmodernist yazıçılar ciddi hadisələrə etinasız yanaşır, onu gülüş hədəfinə çevirir və istehza tonu əlavə etməklə onu nəql edirlər. M.Sparkın "Dəstək və təhrik" romanı da bu sıradandır. Əsərin istehzası digər afrikalının Parisə gəlib yerli dili öyrənib, təhsil alıb, geyim tərzini dəyişməsinə baxmayaraq daxilən dəyişməməsində, qətl hadisəsini cinayət hesab etməməsində özünü göstərir. Müəllif bu vəsilə ilə görünüşün dəyişdiyini, mahiyyətin isə eyni qaldığını oxucuya çatdırır.Göründüyü kimi əsərdə mənəviyyatsız insanlar satiranın hədəfinə tuş gəlir, mənəvi böhran acı gülüşlə ifadə olunur.

Romanın bədii özəlliklərindən biri də onun janr xüsusiyyəti ilə bağlıdır. Müəllif müxtəlif oxucu auditoriyası üçün bir neçə roman növü təqdim edir. Oxucu əsərdəki ölüm və cinayət hadisələrinə görə onu detektiv kimi də qəbul edə bilər. Cəmiyyətin yüksək təbəqəsində hökm sürən özbaşınalıq və laqeydliyin ifşasıyla onu sosial roman, həyat, ölüm, inam, əqidə problemlərinin qaldırılamsında isə onu roman-pritça kimi də qəbul edə bilər. Bu roman-pritçada qəhrəman yoxdur, ali hakim isə gülüş və satiranın dili ilə ifadə olunan fikir, düşüncə və inamdır. Hər bir oxucu əsərin oxunuşunda onu müxtəlif janr modifikasiyasına aid edə bilər. Bu onunla bağlıdır ki M.Spark yaradıcılığının son illərinə təsadüf edən "Dəstək və təhrik" romanı postmodernist estetikanın qanunlarına uyğun yazılıb və elə bu səbəbdən ədəbi tənqid əsəri postmodernist epoxanın romanı kimi dəyərləndirir. Sonda onu da qeyd edək ki, roman nəşr olunan kimi ABŞ-ın "KirkusReviews" ədəbi jurnalında əsər haqqında qısa məlumat verilir: "Əyləncəli, kəskin süjetli, bəzən sirli və bəzən cəlbedici, lakin əslində rahat oxunan bir əsər. Sparksayağımöhtəşəmbir gediş"[2].M.Sparkyaradıcılığını əlamətdar edən üç hadisə – satira, fəlsəfi-psixoloji problematika və postmodernist oyun "Dəstək və təhrik" romanının aparıcı prinsipləri kimi önə çıxır. Postmodernist strategiya mürəkkəb fəlsəfi-psixoloji problemlərin quruluşunu müəyyən etmək üçün nəzərdə tutulursa, satira və total istehza müasir ingilis cəmiyyətində hökm sürən mənəvi problemləri əhatə edir. Görünür elə bu səbəbdən yazıçının yaradıcılığında satirik istehza ilə postmodernist istehza bir arada qərar tuta bilir. Satirik istehzanın, kinayəli üslubun və fars elementlərinin vəhdəti də bu sırada yer alır. Digər tərəfdən "Dəstək və təhrik" romanında satira daha çox dialoji mahiyyət daşıyır və personajların özlərinin ifşasına yönəlir. Hər bir personaj biri-birinin şüurunda əks olunur, biri-birini ifşa edir və beləcə oxucuya baş verənləri dəyərləndirməyə imkan verir.

Ədəbiyyat:

1. Aiding and AbettingbyMurielSpark// İndepended. Culture. Books. Reviews. 18 September 2001
2. "Aiding and Abetting" // Kirkus. 1 November 2000https://www.kirkusreviews.com/book-reviews/muriel-spark/aiding-and-abetting/
3. Bold A. MurielSpark: An OddCapacityforVision. Vision Press Ltd. 1984. 208p.
4. Fletcher M. D. Contemporary Political Satire. Narrative Strategies in the Post-Modern Context. Lanham, MD: Univ. Press of America, Cop., 1987. 202 p.
5. Oxford Advanced Learner's Dictionary. Oxford University Press, 2004.
6. OxfordguidetoBritish and AmericanCulture. OxfordUniversity Press 2003.
7. PhoteineApostolou, Fotini E. Apostolou. Seduction and DeathinMurielSpark'sFiction. Westport, Connecticut, Lnd: Greenwood Press, 2001. 128p.
8. Spark M. Aiding and Abetting. London: Anchor. 2002. 176p.
9. Stade G. TheAbbess of Crewe. A Modern Morality Tale byMurielSpark // TheNewYorkTimes. 20 October , 1994.

Açar sözlər:M.Spark, "Dəstək və təhrik", satira, ənənə və müasirlik

Ключевыеслова:M.Спарк, «Пособники и подстрекатели», сатира, традиция и современность

Key words:M.Spark, "Aiding and abbeting",satire, tradition and modernity

Сатира в творчестве МюриэлСпарк
(На основеромана«Пособники и подстрекатели»)

Резюме

Последние романы М. Спарка, связанные с традиционным английским юмором и сатирой, славятся не только сатирой, но и постмодернистской иронией. Один из таких романов — «Пособники и подстрекатели», написанный в 2000 году. Роман отражает кризис нравственных ценностей в английском обществе. М.Спарк объектом сатирической иронии делает нравственные, религиозные и социальные проблемы английского общества. Автор статьи изучает и анализирует решение данной проблемы.

Satirein Murie lSpark'screativity
(based on the novel "Aiding andabetting")

Summary

Being connected to the traditional English humor and satire latest novels from M. Spark's creative activity are famous not only for their satirical irony, but also for postmodern irony. One of such novels is "Aiding and abetting" written in 2000. The novel reflects the satirical description of English society and the crisis of moral values. M. Spark makes the moral, religious, social problems of English society target for satirical irony.The author of the article studies and analyzes the solution to this problem.

RƏYÇİ: dos. E.Vəliyeva

Seyidnisə Bəxtiyar qızı Lətifli[59]

DÜNYA ƏDƏBİYYATINDA DETEKTİV NƏSRİN TARİXİ MƏRHƏLƏLƏRİNƏ ELMİ-NƏZƏRİ BAXIŞ

Giriş. Ədəbiyyat cəmiyyətin güzgüsüdür. Müxtəlif dövrlərin aktual problemləri daim elm və incəsənət insanlarını düşündürmüş və bu istiqamətdə işlərin aparılması yolunda əsərlər yaradaraq cəmiyyətə işıq tutmağa çalışmışlar. Cinayət mövzusunun qədim dövrlərdən müasir zamana qədər mövcud olmasının səbəbi bu problemin insan həyatında qorxulu iz buraxmasıdır. Tarixdə cinayətin tədricən artması, zaman keçdikcə çoxalması və bu kimi hadisələr ədəbiyyata təsirsiz ötüşə bilməzdi.

Əsas hissə. Bəşər tarixində cinayətin, öldürmənin kökləri Habil və Qabil qardaşlarının hekayəsi ilə başlanğıc götürmüşdür. Yəhudiliyin müqəddəs kitabı olan Tanaxda qeyd edildiyinə əsasən insanlıq tarixində ilk cinayət Qabilin Habili öldürməsi ilə baş vermişdir. Bəşəriyyət müxtəlif sivilizasiyalardan keçsə də, texnologiya sürətlə inkişaf etsə də, cinayət faktoru daim dünyanın ən qaranlıq guşələrində mövcud olmuşdur. Pul, qısqanclıq, hakimiyyət üzərində gedən çaxnaşmalar, qəzəblərinə məğlub olan insanlar bəşəriyyətin bütün dövrlərində rast gəlinən cinayətə sürükləyən vacib faktorlardır. Yunan və Roma mifologiyasında, hind və ərəb əfsanələrində müdrik hakimlər günahkarı ifşa edib onu layiqincə cəzalandırırdılar. Məsələn, Yunan mifologiyasında Teselyanın ən qədim qəbiləsi olan Lapitlərin kralı İksionun həyat yoldaşının atası olan Deineusu öldürməsi və Heraya qarşı etdiyi sui-istifadəyə görə Zevs tərəfindən cəzalandırılmışdır. Yaxın Şərq xalqlarının məhsulu olan "Min bir gecə nağılları"nda Şəhrazadın Şəhriyara danışdığı "Üç Alma" (Öldürülən qadının hekayəsi) adlı nağılda qadın cəsədi olan sandıq tapıldıqdan sonra xəlifə Harun ər-Rəşid vəzirlərindən birinə üç gün ərzində qatili tapmağı tapşırır. Bu hekayədə cinayətkarın araşdırılması, şahidlərin tapılması, qatilin cəzalandırılması kimi elementlərə rast gəlirik.

Cinayət, cinayətkarın cəzalandırılması, ədalətin bərpa olunması bir sözlə bu motivin kökləri qədim zamana qədər uzanır və müxtəlif xalqların dini görüşlərində, mifologiyasında da öz əksini tapmışdır. Bütün bu ünsürlər ədəbiyyatda detektiv növün yaranmasına şərait yaratdı. Bir növ olaraq detektivin nəsrin başlıca xüsusiyyəti bilinməyən və açıqlığa çıxarılması lazım bilinən hadisənin izlərinin araşdırılması və sübuta yetirilməsidir. "Detektiv" sözü latın dilindən tərcümədə mənası tədqiqat, axtarış, öyrənmə, həmçinin xəfiyyə deməkdir. Mənasından da göründüyü kimi müəmmalı cinayət hadisələrinin axtarışı, faktların məntiqi təhlil yolu ilə araşdırılması detektiv nəsrin başlıca xüsusiyyətidir.

Dünya ədəbiyyatında ilk dəfə olaraq detektiv nəsrin təməlini Amerika romantizm ədəbiyyatının görkəmli nümayəndəsi Edqar Allan Poe (1809-1849) tərəfindən qoyulmuşdur. Müəllif 1840-cı ildə yazmış olduğu "Morq küçəsində qətl" əsəri ilə detektiv nəsrin banisi hesab olunur. O, yazmış olduğu 4 qısa hekayədə ("Morq küçəsində qətl", "Mari Rojenin sirri", "Qızıl böcək", "Oğurlanmış məktub" və s.) özünəqədərki bütün detektiv nəsrin prinsiplərinə əməl edərək yeni növ detektiv ünsürlər yaratmışdır.

Detektiv nəsrin əsası ABŞ-da Edqar Allan Po tərəfindən qoyulduqdan sonra sürətli şəkildə inkişaf etməyə başladı. XIX əsrin 40-cı illərində dövlət dəstəkli polis təşkilatı və onların detektiv hissələrinin meydana çıxması, cəmiyyətdə dini mövqeyin zəifləməsi və sosial mühitdə baş verən hadisələrin ədəbiyyata cığır açması detektiv nəsrin formalaşmasına təkan verdi. XIX əsrin 40-90 cı-illər ərzində detektiv nəsr Avropa və ABŞ-da geniş şəkildə inkişaf etdirildi. William Russel (İngiltərə), Uilyam Uilki Kollinz (İngiltərə), Emil Qaborion (Fransa), Enn Ketrin Qrin (ABŞ), Artur Konan Doyl (İngiltərə), Gilbert Kiyt Çesterson (İngiltərə) tərəfindən detektiv nəsrin nümunələri yaradılmış və bu nəsrin nəzəriyyə prinsipləri işlənib hazırlanmışdır. XIX əsrin 40-ci illərində İngilis detektiv yazarlardan biri də William Russel olmuşdur. Müəllif 1856-cı ildə yazmış olduğu "Dedektiv polis işçisinin hekayələri" (Recollection of a Detective Police-Officer) əsərində "Waters" imzasından, 1856-cı ildə qələmə aldığı "Sahil mühafizəsinin nağılları" (Tales of the Coast Guard) əsərində isə "Lieutenant Warneford, R.N." imzasından istifadə etmişdir. Uilyam Uilki Kollinz modern ingilis detektiv yazarlarından biri olmuşdur. O, 1859-cu ildə "Ağ paltarlı qadın" və 1868- ci ildə "Ay daşı" detektiv romanlarını qələmə almışdır.

Detektiv ifadəsini ilk dəfə 1878-ci ildə Amerikalı yazıçı Enn Ketrin Qrin (1846-1935) tərəfindən istifadə olunmuşdur. Yazıçı Amerikada ilk detektiv əsər yazan qadınlardan biridir. 1878-ci ildə onun ilk novellası olan "Lüvenuortun işi" (The Leavenworth Case) adlı əsərinin çap olunması ilə Enn Ketrin Qrin beynəlxalq səviyyədə 1887-ci ildə detektiv nəsrdə yeni bir canlanma müşahidə edildi. İngilis yazıçısı Artur Konan Doyl Şerlok Holms və Dr. Vatsona həsr etdiyi "Skarletdə araşdırma" başlığı altında dörd roman və əlli altı hekayə dərc etdirdi. Onun yazmış olduğu "Qorxu vadisi", "Dördlərin işarəsi", "Baskervillərin iti", "Al-qırmızı etüd" roman və hekayələrində Şerlok Holms obrazı ağıllı və məntiqi fikir yürütməyi bacaran, iti zəkalı unikal bir fenomen olaraq təsvir edilmişdir və tanınmağa başlamışdır. Corc Simenonun yaratdığı İnspektor Meqre, Cilber Kit Çestersonun ərsəyə gətirdiyi keşiş Braun Ata, Edqar Ponun Düpini, Aqata Kristinin ortaya çıxardığı Ekyül Puaro, Cəmşid Əmirovun təsvir etdiyi Əli Rəsulov kimi sürətlər bədii kitab səhisələrindən, teatr səhnələrindən dünya xalqlarının yaddaşına hopmuş, insanlara tərbiyəvi təsir göstərib onları düz yolla getməyin zərurətinə inandırmış və cəmiyyətə bütövlükdə xeyirli təsir göstərmiş obrazlardır [1, s. 75]. Məhz Şerlok Holms da bənzərsiz bir obraz olaraq bəşəriyyəti heyran qoymuşdur.

Detektiv nəsrin ilk nəzəriyyəçisi görkəmli ingilis yazıçısı Gilbert Kit Çesterson olmuşdur. Onun detektiv əsərlərinin baş obrazı keşiş Broun Ata olmuşdur. Müəllifin 1901-1930-cu illərdə detektiv nəsrin nəzəriyyəsi, prinsipləri ilə bağlı olaraq bir sıra məqalələr yazmışdır. O, 1901-ci ildə yazmış olduğu "Detektiv ədəbiyyatın müdafiəsində" adlı məqaləsində qeyd

[59] Azərbaycan Milli Elmlər Akademiyası, Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunun doktorantı, seyidnise.m@gmail.com

etmişdir: "Detektiv hekayələr təhlükə və surprizlər ilə doludur çünki həyatın özü də bu istiqamət üzrə cərəyan edir" [2, s. 35].

1920-1930-cu illər detektiv nəsrin qızıl dövrü olaraq tarixdə yer almışdır. Klassik detektiv daha da inkişaf etdirilərək müxtəlif prinsiplər hazırlanmışdır. Bu dövrün detektiv əsərlərinin əsası süjet və tapmacaya əsaslanırdı. Cinayətin açılması bu dövrün detektiv nəsrinin əsas xüsusiyyəti olan deduktiv prosesdir. Bu nəsrin ən diqqət çəkən cəhətləri çox şübhəli və onu sələflərinfən fərqləndirən ciddi şərti sübutların rasional təhlilidir [3, s. 60].

1928-ci ildə Amerikalı detektiv yazar SS Van Dyne "Detektiv hekayələri yazmaq üçün iyirmi qayda" adlı məqalə çap etdirmişdir. Bu qaydaları ümumiləşdirərək demək mümkündür ki, SS Van Dyne detektiv hekayəni oyun adlandıraraq oyunun qaydaları olmalıdır fikrini irəli sürürdü. 1930-cu ildə ingilis detektiv yazarları birləşərək Detektiv klubu yaradırlar. Bu klubun ətrafında Aqata Kristi, Ronald Knox, Friman Vills Kroft, Riçard Austin Frimen və başqa görkəmli yazarlar toplaşmışdı. Klubun ilk rəhbəri G.K.Çesterson olmuşdur. Klubun məqsədi detektiv əsərlər üçün ümumi prinsiplər hazırlamaq və onlara əməl etmək idi. Klubun üzvü olan Ronald Knox detektiv əsər yazmağın "on əmr" qaydasını irəli sürmüşdür və klub üzvləri də bu qaydalara əməl edəcəyinə dair söz vermişlər. Onun fikrincə detektivin əsas marağı sirri həll etmək olmalıdır, cinayətin elementləri maraq oyada biləcək şəkildə oxucuya verilməlidir.

1930-1940-cı illər də Amerikada detektiv yazarlar statik sakitlikdən, mürəkkəb tapmacadan, induktiv məntiqdən imtina edərək sürətli hərəkətə sahib, danışıq dili ilə fərqlənən yeni detektivi sərt detektiv ədəbiyyatı ərsəyə gətirdilər. Sərt detektivin əsası Kerol Con Deyli və Deşil Hemmet tərəfindən qoyulmuşdur. Onların yaradıcılığında sərt detektiv şər qüvvələrə qarşı onun öz üsulları vasitəsi ilə mübarizə aparırdı.

Detektiv nəsrin Qərb ədəbiyyatında köklərinin dərinliyinin şahidi olduq. Keçmiş Sovetlər ölkəsində isə detektiv kommunist ideologiyasının tələblərinə cavab vermədiyindən ədəbiyyatda özünə mövqe qazana bilməmişdi. 1870-ci illərdə detektiv ilk yerli romanların meydana çıxması, bir sıra xarici və daxili ədəbi amillərin birləşirilməsi detektiv nəsrin rus ədəbiyyatında kök salmasına kömək etdi. Görkəmli rus yazıçısı Fyodor Dostoyevskinin "Cinayət və cəza" romanında detektiv nəsrin ilk rüşeymləri özünü göstərmişdir. Bundan əlavə Nikolay Leskovun "Mtsensk rayonundakı Ledi Makbet essesi", Lev Nikolayeviç Tolstoyun "Canlı Cəsəd" əsərlərində cinayət motivləri əks olunmuşdur. İkinci Dünya müharibəsindən sonra rus ədəbiyyatının detektiv istiqamətində canlanma baş verdi. Casus və hərbi kəşfiyyatlara həsr edilmiş əsərlər yazılmağa başlanıldı. Bu dövrün detektiv istiqamətində yazılmış əsərlərinə Vasili Ardamatskinin "Saturn demək olar ki, görünməzdir", Georgi Vayner Qardaşlarının "Mərhəmət Dövrü" , "Mən müstəntiqəm", Yuliyan Semyonovun "Petrovka 38", "Oqaryova 6" və başqalarının əsərlərini göstərmək olar.

Nəticə. Tədqiqatımıza əsasən demək mümkündür ki, detektiv nəsrin bu gün dünya ədəbiyyatında tutduğu mövqe müəyyən mərhələlər keçərək formalaşmışdır. Ümumi və nəzəri prinsiplərin yaradılması bu istiqamətdə işlərin öyrənilməsinə geniş təkan vermişdir. Detektiv nəsrin dünya ədəbiyyatında sürətlə formalaşmasında ədəbiyyatşünasların hazırlamış olduğu ümumi konsepsiya modellərinin tətbiq olunmasının böyük əhəmiyyəti olmuşdur.

İstifadə olunmuş ədəbiyyat

1. Əhmədov Q. Artur Konan Doylun detektiv yaradıcılığının kompleks tədqiqi. Bakı: Mütərcim, 2016, 352 s.
2. G.K.Chesterson. İn defence of detective literature. The Chesterson Review, 1984, 11-118 p.
3. Stephen K. Crime Fiction 1800-2000: Detection, Death, Diversity. Houndmills, UK: Palgrave Macmillan, 2004, 56-76 p.

Açar sözlər: Detektiv, nəsr, dünya, mərhələ, cinayət

Key words: Detective, prose, world, stage, crime

Ключевые слова: Детектив, проза, мир, сцена, криминал

Dünya ədəbiyyatında detektiv nəsrin tarixi mərhələlərinə elmi-nəzəri baxış

Xülasə

Müxtəlif dövrlərin aktual problemləri daim elm və incəsənət insanlarını düşündürmüş və bu istiqamətdə işlərin aparılması yolunda əsərlər yaradaraq cəmiyyətə işıq tutmağa çalışmışlar. Cəmiyyətdə təzahür edən proseslərin müxtəlifliyi, ziddiyyəti, sosiallığı, ictimailiyini və s. fərqli prizmalardan analiz etmək mümkümdür. Təbiidir ki, tarixdə hər dövrü xarakterizə edən aktual problemlər mövcud olmuşdur. Bu problemlərdən biri də dünyada baş verən cinayət hadisələri, bu cinayətlərin araşdırılması, istintaq prosesinin həyata keçirilməsi, cinayətkarın yaxalanması və ədalətin bərqərar olmasıdır. Dünyada baş verən cinayət proseslərinin artması ədəbiyyatda cinayət mövzularının yaranmasına zəmin yaratmışdır. Cəmiyyətdə əxlaq kodeksinin formalaşması nəticəsində günahkarların cəzalandırması kimi məsələlər ön plana çıxdı. Hər bir kəs öz günahına görə məsuliyyət daşımalı idi. Cinayət ilə bağlı süjet və elementlərə qədim dövr ədəbiyyatında, antik ədəbiyyat, əfsanə rəvayətlər və nağıllarda təsadüf edilir.

Dünya detektiv ədəbiyyatı bu cəhətdən zəngin süjetlərə malikdir. Bu məqalədə detektiv nəsrin dünya ədəbiyyatında qədim kökləri, inkişafı və formalaşması, detektiv nəsrin ədiblər tərəfindən yazılmış prinsipləri və s. tədqiq edilmişdir.

A scientific-theoretical review of the historical stages of detective prose in world literature

Summary

Actual problems of different eras have always made people of science and art think and they have tried to shed light on the society by creating works in the way of doing work in this direction. Processes manifested in society include diversity, contradiction, sociality, sociality, etc. it is possible to analyze from different prisms. It is natural that there have been actual problems characterizing every era in history. One of these problems is the criminal events occurring in the world, the investigation of these crimes, the implementation of the investigative process, the arrest of the criminal and the establishment

of justice. The increase in criminal processes in the world has created the basis for the emergence of criminal topics in literature. As a result of the formation of the moral code in the community, issues such as punishment of the guilty came to the fore. Everyone had to be responsible for his own sin. Plots and elements related to crime can be found in ancient literature - ancient literature, legends and stories, fairy tales.

World detective literature has rich plots in this regard. In this article, the ancient roots, development and formation of detective prose in world literature, the principles of detective prose written by writers, etc. has been studied.

Научно-теоретический обзор исторических этапов детективной прозы в мировой литературе

Резюме

Актуальные проблемы разных эпох всегда заставляли людей науки и искусства задуматься, и они пытались пролить свет на общество, создавая произведения на пути работы в этом направлении. Процессы, проявляющиеся в обществе, включают многообразие, противоречие, социальность, социальность и др. можно анализировать с разных призм. Естественно, что существовали актуальные проблемы, характерные для каждой эпохи в истории. Одной из таких проблем являются криминальные события, происходящие в мире, расследование этих преступлений, осуществление следственного процесса, задержание преступника и установление правосудия. Рост уголовных процессов в мире создал основу для появления криминальной тематики в литературе. В результате формирования нравственного кодекса в обществе на первый план вышли такие вопросы, как наказание виновных. Каждый должен был отвечать за свой грех. Сюжеты и элементы, связанные с криминалом, можно найти в древней литературе – старинной литературе, легендах и рассказах, сказках.

Мировая детективная литература имеет на этот счет богатые сюжеты. В данной статье античные корни, развитие и становление детективной прозы в мировой литературе, принципы детективной прозы, написанной писателями и др. был изучен.

Rəyçi: F.e.d.,dos. Əlizadə Əsgərli Bayram oğlu

Jalə Elşən qızı Zeynallı[60]

XX ƏSR TÜRKİYƏ ƏDƏBİYYATINDA QADIN HÜQUQLARI MÖVZUSU

Sənət hər zaman insanlar üçün düşüncəsini, ehtiyacını əks etdirə bildiyi, gələcək nəsillərlə aramızda ən önəmli ünsiyyət vasitəsi olan bir daşıyıcı kimi varlığını qorumuşdur. Tarix boyu ictimai və siyasi səbəblərdən insanın sənətə olan münasibəti və əlaqəsi dəyişmişdir. Sosial şərait, cəmiyyətdəki problemlər sənətçilərin əsərlərində öz əksini tapmaqla yanaşı sənətin inkişafında önəmli rol oynayırdı. Zaman keçdikcə də insan və cəmiyyətin olduğu hər yerdə sənət də yarandı, mövcudluğunu qoruyub saxladı. Bəzi tədqiqatçılar insanların həyatında sənətin rolunu din və elmlə bir səviyyədə tuturlar. Fərdin sosiallaşmasında sənətin çox böyük rolu vardır. Çünki sənət insanı başqa insanlarla duyğu və düşüncədə birləşdirərək onu sosiallaşdırır. Zaman keçdikcə sənətin həm ictimai, həm də fərdi əhəmiyyəti artaraq, sənətin varlığı sosial elmlərin də maraq dairəsinə girdi. Bununla da, sənətlə sənəti yaradan cəmiyyət arasındakı münasibətləri araşdırmaq, yəni sosial strukturların dəyişməsinin, inkişafının sənətdə əksi bir çox elm sahəsinin diqqət mərkəzinə çevrildi. Sənətin də bir çox sahəsi vardır: rəssamlıq, musiqi, ədəbiyyat və s. Bizim daha çox yönəlib tədqiq edəcəyimiz sahə isə ədəbiyyatdır. Deyə bilərik ki, mədəniyyət və sivilizasiyanın yarandığı vaxtdan ədəbiyyat da insan həyatının bir parçası olmuşdur. Müxtəlif dövlərdə, müxtəlif mədəniyyətlərdə baş verən sosial-ictimai hadisələri və insanların həyat tərzini qiymətləndirmək baxımından ədəbiyyat bizim üçün önəmli mənbə rolunu oynayır. Sənət sahələri arasında ədəbiyyat sosial həyatı müxtəlif aspektdən əks etdirməsi baxımından seçilir. Ədəbiyyat konkret insan və hadisələri görmək və şərh edə bilmək sənətidir. Yazıçı isə gördüklərini şərh edərkən ən uyğun dil və üslub vasitələrini tapa bilən insandır. Ədəbiyyat cəmiyyət içində doğulur və cəmiyyətin bir ifadəsi olaraq mövcudluğunu davam etdirir. Lap qədimdən bəri ədəbiyyat və cəmiyyət arasındakı əlaqəyə dair araşdırmalarda yanaşma tərzi ədəbi əsərləri sosial bir sənəd və ya sosial gerçəkliyin rəsmi kimi nəzərdən keçirmək olmuşdur. Həqiqətən də, ədəbiyyat cəmiyyət tarixinin konturlarını çıxarmaqda ən əlverişli vasitələrdəndir. Yazıçı obrazları yaradarkən hadisə və məkanın cəmiyyətlə qarşılıqlı təsirini nəzərə alır, mövcud vəziyyəti qiymətləndirir. "Mərkəzdə insan həyatı olmaq şərtiylə ədəbiyyatda toxunulmayan mövzu yoxdur. Bütün dünyanı dövr edən gözdür ədəbiyyat; bütün dünya insanlarını və insanların həyatındakı xırda detalları, gizli bucaqları, sirləri, ağrıları və kədərləri, cəmiyyətlərarası əlaqəni, sosial problemləri, böyük sosial dəyişimləri, müharibələri, köçləri, sevgini, işçi insanı, yoxsulluğu, yəni dünyada nə baş verirsə, ədəbiyyatda əks etdirilmiş və mənalandırılmışdır" [2, s. 23]. Yazıçını, əsəri və oxucunu sosial şərtlər müəyyənləşdirir. Məsələn XIX əsr Türkiyə ədəbiyyatı nümunələrinə nəzər salmaqla o illərdə Türkiyədəki insanların həyat tərzi, dünyagörüşü, adət-ənənələr, dövlət quruluşu və s. haqqında məlumat əldə edə bilirik. Odur ki, qadın hüquqları və qadın azadlığı ilə bağlı araşdırma apararkən ədəbiyyata müraciət etmək təsadüfi deyil. Bu baxımdan ədəbiyyatın ən geniş yayılmış janrlarından biri olan roman həm həcminin genişliyi, həm də hadisələri daha təfərrüatlı verə bilməsi baxımından ən çox müraicət edilən janrlardan biridir. "Romanın əsl ünsürü insandır. İnsanın özü, ailəsi və mühitlə qarşıdurması romanın daxili teksturasını təşkil edir. Bütün romanlarda insan, ailə və cəmiyyətlə bağlı dəyişikliklərə yer verildiyini görürük" [1, s. 158]. Dili, mövzusu, obrazları və sosial məkanı əks etdirməsiylə roman sənətçinin beynindəki estetik inikasdır. Hər hansı bir romanda təsvir edilən qadın obrazı əslində bütün cəmiyyətin aynası kimi təhlil edilə bilər. Bir qadın obrazının timsalında böyük bir cəmiyyətdəki qadınların ortaq dərdləri və problemləri ilə tanış ola bilərik.

Fərd və cəmiyyət anlayışlarının roman üçün əhəmiyyəti aşkardır. İndi isə gender bərabərsizliyi problemi və feminist ədəbi tənqidə əsaslanan ədəbiyyatda qadın hüquqları mövzusuna nəzər salaq. Feminist ədəbi tənqid sənətdə və ədəbiyyatda qadınlarla kişilər arasındakı ayrıseçkiliyin səbəblərini araşdırır. XX əsr Türkiyə ədəbiyyatında roman janrının yüksəlişi və bu dövrdə yazılan bir çox önəmli əsərin məhz bu janrda qələmə alınması bizi həmin dövr cəmiyyətini və insanların həyat tərzini analiz etmək üçün romana müraciət etməyə sövq edir.

Dünya tarixində özünəməxsus yeri olan Osmanlı dövlətinin hakimiyyəti dövründə Tənzimat fərmanının elanından sonra cəmiyyətdə əsaslı dəyişikliklər baş verdi. Sosial həyatda baş verən bu dəyişikliklər ailə quruluşuna da təsirsiz ötüşmədi. Xüsusən Osmanlı qadınının həyatında baş verən dəyişiklikləri görməzdən gəlmək mümkün deyildir. Geyim tərzi, moda anlayışı, günlük həyat tərzi, xarici dil öyrənmək, musiqi ilə məşğul olmaq və s. kimi fəaliyyətlər bunlardan sadəcə bir neçəsidir. XIX əsrin sonlarından etibarən bütün dünyada təhsil sahəsində görülən işlər və texnologiya inqilabı Osmanlıya da təsirsiz ötüşmədi. "Liberal qərb təfəkkürünün təsiri altında olan Şəmsəddin Sami qadın hüquqları və azadlığı ilə bağlı yazılar yazmazdan əvvəl Namiq Kamal qadın bərabərliyi ilə bağlı ilk çıxışlarını modern İslami təfəkkürlə qələmə almışdı" [5, s. 283]. Patriarx və müsəlman Osmanlı cəmiyyətində qadın hüquqları yox deyiləcək qədər az idi. Qız uşaqlarının təhsili məhəlli məktəblərdə başlayır və bitirdi. Evlənmək qərarında qadın söz sahibi deyildi, evliliklə bağlı qanunlar da onun əleyhinə idi. Kişi istədiyi zaman arvadını boşaya bilər və ya birdən çox qadınla evlənə bilərdi" [6, s. 32]. Odur ki, həm Tənzimat dövründə, həm də Cümhuriyyət dövründə yazıçılar roman üçün çox önəmli material olan bu məsələlərə əsərlərində geniş yer verirdilər. Qadının sosial həyatı ilə bağlı tənzimləmələrin olduğu bu dövrdə yazılan romanlarda müasirləşmə və qərbləşmənin təsiri ilə qadın obrazlarına daha çox yer verilir, qadınlar ön plana çəkilirdi. Sözsüz ki, bütün yazıçılar qadın obrazlarını müsbət rolda, ideal şəkildə yaratmırdı. Bir qisim yazıçılar bu müasirləşməni və qadının cəmiyyətdəki rolunun artmasını ailə quruluşu üçün təhlükəli hesab edirdi. Cəmiyyətdə hələ də qadını müti, söz sahibi olmayan, hər vəziyyətdə kişidən asılı olan bir varlıq kimi görmək istəyən bir kəsim var idi. Bu düşüncə tərzində dindar təbəqənin də rolu böyük idi. Başqa bir kəsim isə qərbləşmə meyillərinin cəmiyyəti əxlaqsızlığa sürükləyəcəyini, türk

[60] Bakı Dövlət Universitetin doktorantı, j.zeynalli@mail.ru

mentaliteti və ailə-məişətinə uyğun olmadığı fikrində idi. Odur ki, bu dövr romanlarında bütün bu fikirlərin ümumiləşmiş ifadəsini tapırıq. Yaradıcılığı cümhuriyyətin ilk dönəmlərinə təsadüf edən yazıçı Rəşad Nuri Güntəkin romanlarında həmin dövr cəmiyyətinə güzgü tuturdu. Boşuna deyil ki, həmin əsərlər bu gün də böyük maraqla, sevilərək oxunur. Bu əsərlərdə həm müsbət, həm də mənfi qadın obrazları ilə qarşılaşır, qərbləşmə meyillərinin cəmiyyətə təsirini hərtərəfli analiz etmək fürsəti tapırıq. Müxtəlif yazıçıların qələmindən ailəsinə bağlı olan, eyni zamanda təhsil və mədəniyyət səviyyəsini yüksəldən qadın obrazları da görürük. Qısası, bu dönəm yazıçıları, o cümlədən bütünlüklə cəmiyyətdə yekdil fikir formalaşmamışdı. İnsanlar yeni qayda-qanuna və həyat tərzinə uyğunlaşmağa çalışır, bəziləri bu inkişafın müsbət tərəflərini mənimsəyir, bəziləri də qərbləşmə adı altında uçuruma sürüklənirdi. Bu çaşqınlıq və fikir ayrılıqları ədəbiyyata da öz təsirini göstərirdi. "Qərbləşmə prosesində romanlarda sosial cinsiyyət rollarının birdən-birə tərsinə çevrilməsi bir qarışıqlıq və narahatlıq yaratmışdı. İfrat dərəcədə qərbləşmiş qadın əxlaqsızlaşmış, ifrat dərəcədə qərbləşmiş kişi də "qadınlaşmış" şəkildə təsəvvür edilirdi" [7, s. 138]. Tənzimatdan sonra qadınlar cəmiyyətdəki mövqeyi, ailədəki statusu, hətta geyim tərzi ilə sanki bir sivilizasiyadan digər sivilizasiyaya keçid edirdi. Bu xüsusən də orta və üst təbəqədən olan qadınların həyat tərzində özünü daha çox göstərirdi. Lakin buna baxmayaraq bu gün belə qadın cəmiyyətdə öz yerini tamamilə tapa bilməmiş, hələ də hüquqları tapdanan, əzilən cins olaraq varlığını davam etdirir. "Tənzimatın bəlkə də ən böyük uğuru 1862-ci ildən etibarən qızların orta təhsil almasını təmin etmək olub. Qız uşaqları əvvəllər məhəlli tipli məktəblərdə təhsil aldığı halda buranı bitirdikdən sonra təhsilini davam etdirməsi fikri çox böyük cəsarət tələb edirdi. Tənzimat dönəmində qızlar üçün tikiş evi kimi ev işlərini öyrədən peşə məktəbləri və təhsil müəssisələri açıldı, bununla yanaşı qızları müəllim kimi yetişdirəcək məktəblər də fəaliyyətə başladı. Lakin bunların bütün imparatorluq ərazisində baş verdiyini zənn etməyək. Əsasən, İstanbulda və bir-iki vilayətdə ağır templə də olsa bu yolun açılması Tənzimatın uğurudur. Qız məktəblərinin açılmasının bir başqa önəmli nəticəsi qadınlar arasında peşəyə yiyələnməyə doğru gedən yolun açılması olmuşdur. İlk dəfə bir qadın müəllimin işə təyinatı 1873-cü ildə oldu. 1881-ci ildə ilk dəfə bir məzuniyyət yığıncağında bir qadın çıxış etdi. Qadınların məktəb idarəçiliyi işlərinə təyinatı 1883-cü ildə başladı və bu tarixdən sonra vilayətlərdə də bu yol açılmış oldu..." [3, s. 231].

Beləliklə, aydın olur ki, qadınların təhsil və iş sahəsində ilk addımları Tənzimatla başlamışdır. Lakin dönəmin romanlarından anlaşılır ki, qadının ilkin fəaliyyəti hələ də məişətdəki rolundan ibarətdir. Tənzimatdan sonra Qərb mədəniyyəti və ədəbiyyatı ilə əlaqələr də genişləndi. Bununla da, qərb romanlarındakı sevgi motivləri, əsərlərdə qadınların daxili aləminə və duyğularına daha çox yer verilməsi Osmanlı dönəmi oxucuları üçün tanış olmasa da, böyük maraqla qarşılandı. "Bu marağın səbəbi möhkəm bağları olan Osmanlı ailə quruluşunda heç olmayan flirt münasibətlərinin sərbəst şəkildə qiymətləndirilməsidir. Bu romanların Türkiyə sosial həyatında və ailə həyatında təsiri tam şəkildə araşdırılmasa da, sosial dəyişmədəki böyük təsirini inkar edə bilmərik. Xüsusilə də, qadının sosial həyatda istər müsbət, istərsə də mənfi mənada daha çox yer almağa başlamasında bu romanların böyük rolu olduğunu söyləmək olar" [8, s. 236].

Tənzimat dönəmində yazılan romanlardakı qadın obrazlarına qısaca nəzər salmaqla yuxarıda haqqında danışdığımız məqamlarla bağlı fikir əldə etmiş olarıq: "Şəmsəddin Saminin "Taaşşuk-ı Talat və Fitnat" (Talat və Fitnatın eşqi) adlı romanın qəhrəmanı Fitnat qadının azad olması problemini, Əhməd Midhət Əfəndinin "Fəlatun bəy ilə Rakım Əfəndi" əsərindəki Canan, Samipaşazadə Səzainin "Sərgüzəşt" əsərindəki Dilbər kişi yazıçıların idealındakı mələk xasiyyətli, gözəl və kişi dominantlığını sevə-sevə qəbul etmiş qadın obrazlarıdır. Tənzimat yazıçılarının yaratdığı mənfi tip və ya ölümcül qadın obrazı isə oxuculara kişinin dominant olduğu cəmiyyətdə hegemonluğa baş qaldıran, azad qadını təmsil etdiyi üçün mələk deyil, şeytan kimi təqdim olunur. Hiylə, yalan, intriqa, cinayət onun məharətlə istifadə etdiyi silahlardır". Namiq Kamalın "İntibah" əsərindəki Mahpeykəri, Nəbizadə Nazimin Zəhrasını, "Yer üzərində bir mələk"dəki Arifəni bu tiplərə örnək verə bilərik" [4, s. 253]. Yaradıcılığı 1889-1943-cü illəri əhatə edən Hüseyn Rəhmi Gurpınarın qadın obrazları isə, əsasən, kasıb, cahil, batil inancların əsiri olmuş qadın obrazlarıdır. Samipaşazadə Səzainin "Sərgüzəşt" əsərinin mövzusu isə Türkiyə ədəbiyyatının ilk realist romanıdır. Bu romanda əsir bir qızın başına gələn faciəvi hadisələrdən bəhs edilir. Yazıçı bu romanda iki önəmli məsələyə diqqət çəkir: birincisi, köləliyin və əsir ticarətinin vəhşilik olduğu, ikincisi, insanların bərabər olduğu, heç bir irqin və cinsin digərindən üstün olmadığı fikri. Romanda Qafqaz əsilli bir qız olan Dilbərin əsir düşməsi və Cəlal bəyin ona aşiq olması, lakin ailəsinin təzyiqi ilə Dilbər başqa bir tacirə satılır və nəticədə Dilbər intihar edir. Ümumlikdə, belə bir nəticəyə gələ bilərik ki, cəmiyyətdəki yeniliklərlə bərabər patriarxal ideyalogiya hələ də hökmranlıq edir, qadının tabe olması arzu edilir, dəyərsizləşdirilir və bunun təbii bir hal olması fikri irəli sürülürdü. Tənzimat dövrü qadın obrazlarını ümumiləşdirsək, məsum, namuslu, müti xarakterli, kişinin dominantlığını qeyd-şərtsiz qəbul edən qadınlar olduğu qənaətinə gələ bilərik. Bir tərəfdən qadınların lehinə genişmiqyaslı islahatlar keçirilir, digər tərəfdən də qadın üzərinə yüklənmiş ənənəvi məişət rollarının altında əzilir. Təhsil sahəsində də gender bərabərsizliyi üzərində qurulmuş bu sistemdə qadınların vəziyyəti heç də ürəkaçan deyildi. Qadının cəmiyyətdəki roluna əsərlərində geniş yer verən yazıçılardan biri də Xalidə Ədib Adıvardır. Adıvar əsərlərində qadınların daxili aləminə, düşüncələrinə geniş yer vermiş, qadını heç də kişidən aşağıda görməmişdir. Romanlarındakı qadın obrazları sədaqətli, kişilərdən geri qalmayacaq cəsarət və mərdliyə sahib qadınlardır. Bu qadınlar müasir, intellektual və müsbət xüsusiyyətlərə malik olan, lakin kişilər tərəfindən əzilən, aşağılanan qadınlardır. Bu kişilər öz ailəsindəki dəyərli xəzinədən xəbərsiz, öz qadını ilə dost olmaqdan, ona dəyər verməkdən çəkinən, məsafəli, soyuq münasibətdə olan, kobud obrazlardır.

Əsərlərində yaratdığı rəngarəng qadın obrazları ilə diqqəti çəkən yazıçılardan biri də Xalid Ziya Uşaklıgildir. Yazıçının əsərlərindəki qadın obrazlarını iki qrupa bölmək olar: birinci qrupa İstanbulda yaşayan, yüksək təbəqədən olan burjua nümayəndələrinin ailəsindəki qadınlar aiddir. Bu qadınların ən önəmli xüsusiyyətləri namuslu və sədaqətli olmasıdır. İkinci qrupa isə yüngül təbiətli, fəzilətsiz, iradəsiz qadınlar və xəyalpərəst, kədərli, həssas gənc qızlar aiddir. Yazıçı bu qadın

obrazlarının hər birini yaradarkən öz taleyi üzərində söz sahibi olan, əzilməyən tiplər yaratmışdır. Bununla yanaşı, bu qadın obrazlarının bir çoxu üçün ortaq cəhət anası ilə olan gərgin münasibətləridir. Burada qadının düşməni olaraq yalnız mənfi rolda olan kişilər deyil, həm də qadının qadına olan düşmənliyi ön plana çəkilmişdir.

Cümhuriyyət dönəmi romanlarında yaradılan qadın və kişi obrazları arasında milliyyətçi obrazları da xatırlamaq lazım gəlir. Xalidə Ədibin romanları bunun ən yüksək səviyyədə təmsil edildiyi əsərlərdir. Bu zehniyyətdə müasir kişilərin arvadı olmağa layiq görülən təhsilli müasir qadınlar "cinsiyyətsiz" qadınlara çevrilir, cinsiyyəti və arzuları yox olur, həyatında vətən sevgisindən başqa heç bir sevgiyə yer qalmır. Müasir qadın arxaik patriarx düşüncənin gözündə formalaşan ət yığını, maşın, xidmətçi olmaqdan çıxır və millətin anası, müəllimi olur" [7, s. 139]. Odur ki, Xalidə Ədibin romanlarında milli əxlaq və dəyərlərə sadiqliyi ilə seçilən bu qadın obrazları çox güclü və müsbət obrazlar kimi təqdim edilir, hətta ideal qadın səviyyəsinə çatdırılır. Xalidə Ədibin qadınlara qazandırdığı bu xüsusiyyətlər onun ailədəki daşlaşmış məcburi öhdəliklərini dağıtmış, qadının ailədəki və cəmiyyətdəki roluna yeni məna qazandırmışdır. Yazıçının romanlarındakı qadın obrazlarının əldə etdiyi hüquqlara nəzər salsaq işləmək hüququ, təhsil hüququ, çoxarvadlılığın rədd edilməsi, icazəsiz küçəyə çıxa bilmək, ərə gedəcəyi insanı seçə bilmək, siyasətə girə bilmək kimi hüquqlar qazandığını görərik.

Bu dövrdə yazılan romanlarda yalnız İstanbul həyatı və şəhərli qadın obrazları deyil, eyni zamanda kəndli qadınlar da diqqət mərkəzində idi. Bu tipli əsərlərə ən çox Yaşar Kamal, Fakir Baykurt, Kamal Tahir və s. kənd ədəbiyyatı cərəyanının nümayəndələrinin yaradıcılığında rast gəlirik. İncə Məməd, İlanların intiqamı, Irazcanın dirliği, Qara Əhməd dastanı, İlanı öldürsələr kimi romanlar Türkiyə ədəbiyyatında kənd həyatına həsr olunmuş ən dəyərli əsərlərdən hesab olunur. Bu romanlardakı qadın obrazlarına nəzər salsaq, görərik ki, qadınlar daha çox ev işləri ilə məşğul olan, əkin-biçində, mal-qaranın saxlanmasında ərinə kömək edən, nəslin davam etməsini təmin edən, evliliklə bağlı rəsmi olaraq heç bir hüququ olmayan cahil insanlardır. Kəndli qadınların kişilər tərəfindən şiddətə və təhqirə məruz qalması isə olduqca geniş yayılmış, adi hala çevrilmişdir. Yaşar Kamalın romanlarındakı Iraz və Döndü, Hatçe, Fakir Baykurtun romanlarındakı Irazca, Hatçe kimi obrazlar əzilən, hüquqsuz, təhsilsiz, ərinə və ya oğluna müti şəkildə bağlılığı olan qadınlardır. Diqqət yetirsək hər iki yazıçının romanlarındakı qadın obrazlarının adları da eynilik təşkil edir. Bu həm də kəndli qadınları eyniləşdirmək, eyni taleyi, eyni həyatı, eyni əzab-əziyyəti hətta eyni adları paylaşması kimi başa düşülə bilər. Ümumiyyətlə, bu dövr yazıçılarının əsərlərindəki qadın obrazları xarakter, həyat tərzi və ailədəki mövqeyi baxımından oxşarlıq təşkil edir. Çünki bu dövrün sosial mühit və ailə quruluşu bunu tələb edirdi. Odur ki, bu dövrdə yazılan romanlar həmin dövrün sosial təsvirini vermək, insanların həyat tərzi və cəmiyyətdəki mövqeyi ilə bağlı fikir söyləməyə əsas verir. Bu baxımdan ədəbiyyat hər zaman müəyyən bir dövrü araşdırmaq, o dövrün ictimai-siyasi təsvirini verə bilmək üçün ən önəmli vasitələrdən olmuşdur.

Ədəbiyyat

1. Açıkgöz, N. Edebiyat ve Sosyoloji, Sorgulanan Sosyoloji, Ankara, Eylül Yayınları, 2002. 162 s.
2. Alver, K. Edebiyata Giriş, Edebiyat Sosyolojisi İncelemeleri. Ankara: Hece Yayınları, 2012. 47 s.
3. Berkes, N. Türkiye'de Çağdaşlaşma. İstanbul: Yapı Kredi Yayınları, 2015. 598 s.
4. Moran, B. Edebiyat Kuramları ve Eleştiri. İstanbul: İletişim Yayınları, 1999a. 352 s.
5. Moran, B. Türk Romanına Eleştirel Bir Bakış. İstanbul: İletişim Yayınları, 1990. 328 s.
6. Ortaylı, İ. İmparatorluğun En Uzun Yüzyılı. İstanbul: Timaş Yayınları, 2014. 304 s.
7. Sancar, S. Türk Modernleşmesinin Cinsiyeti. İstanbul: İletişim Yayınları, 2014. 339 s.
8. Yalçın, A. Cumhuriyet Dönemi Türk Romanı. Ankara: Akçağ Yayınevi, 2012. 336 s.

Acar sözlər: qadın, gender bərabərsizliyi, sənət, ədəbiyyat, cəmiyyət

Ключевые слова: женщина, гендерное неравенство, искусство, литература, общество

Key words: woman, gender inequality, art, literature, society

XX əsr Türkiyə ədəbiyyatında qadın hüquqları mövzusu

Xülasə

Müxtəlif dövlərdə, müxtəlif mədəniyyətlərdə baş verən sosial-ictimai hadisələri və insanların həyat tərzini qiymətləndirmək baxımından ədəbiyyat bizim üçün önəmli mənbə rolunu oynayır. Qədim dövrlərdən bu günədək sosial-ictimai həyatda baş verən dəyişiklər yazıçılar tərəfindən əsərlərdə əks etdirilmişdir. İstənilən dövrün problemləri, aktual məsələləri ilə bağlı araşdırma apararkən ədəbiyyata müraciət edə bilərik. Odur ki, XX əsr Türkiyə cəmiyyətini və həmin dövr qadınlarının həyat tərzini öyrənmək üçün ədəbi əsərlərə baxmaq olduqca təbii haldır. Həmin dövrün görkəmli yazıçılarından Rəşad Nuri Güntəkin, Yaşar Kamal, Fakir Baykurt, Xalidə Ədib Adıvar öz romanlarında qadın obrazlarını yaradarkən mühim ictimai-siyasi məsələlərə toxunmuş, dövrün aktual problemlərini əks etdirmişdir. Qadınların ailədəki mövqeyi, Anadolu qadınının həyat tərzi, məişəti, çətinliklərlə mübarizə üsulları bu yazıçıların əsərlərində daha çox ön plana çəkilmişdir. Bu qadınlar əməksevər, ailəsinə bağlı, yeri gəldikdə öz etiraz səsini ucaltmaqdan çəkinməyən, lakin bir o qədər də istismar olunan, hakim qüvvələr tərəfindən əzilən, haqqı tapdanan obrazlardır. Bu yazıçıların qələmə aldığı bir çox əsərləri bugün üçün də öz aktuallığını qoruyub saxlayır. Çünki qadın və qadına münasibət hər zaman istər ədəbiyyatın, istərsə də digər incəsənət növlərinin hər zaman diqqət mərkəzində durmuş, ən çox müraciət edilən mövzulardan olmuşdur.

Тема прав женщин в турецкой литературе XX века

Резюме

С точки зрения оценки социально-общественных явлений и образа жизни людей, происходящих в разных обществах и культурах, литература служит для нас важным источником. С древнейших времен до наших дней, изменения, происходящие в социально-общественной жизни нашли отражение в произведениях писателей.

Проводя исследования по проблемам, актуальным вопросам любой эпохи, мы можем обратиться к литературе. Поэтому вполне естественно смотреть на литературные произведения, чтобы изучить турецкое общество XX века и образ жизни женщин того времени. Из выдающихся писателей того времени Рашад Нури Гюнтекин, Яшар Кемаль, Факир Байкурт, Халиде Адиб Адывар при создании женских образов в своих романах затрагивали различные общественно-политические вопросы, отражали актуальные проблемы того времени. Положение женщин в семье, образ жизни Анатолийской женщины, ее быт, способы борьбы с невзгодами все больше выдвигаются на первый план в произведениях этих писателей. Эти женщины-трудолюбивые, привязанные к своей семье персонажи, которые не боятся поднять свой собственный голос протеста, когда придет время, но которые не менее эксплуатируются, угнетаются правящими силами, попираются по праву. Многие произведения, написанные этими писателями, сохраняют свою актуальность и сегодня. Потому что женщина и отношение к ней всегда были в центре внимания, одними из самых обсуждаемых тем, как в литературе, так и в других видах искусства.

The topic of women's rights in 20th century Turkish literature

Summary

Literature plays the role of an important source for us in terms of evaluating social events and people's lifestyles in different eras and cultures. The changes in social life from ancient times to the present have been reflected in writers' works. While conducting research on the problems and current issues of any era we can turn to literature.

Therefore, it is quite natural to look at literary works to study the 20th century Turkish society and the lifestyle of women of that time. Rashad Nuri Guntekin, Yashar Kamal, Fakir Baykurt, Khalida Adib Adivar, one of the prominent writers of that period, touched on important social and political issues and reflected the current problems of the time while creating female characters in their novels. The position of women in the family, the way of life of the Anatolian woman, the way of dealing with difficulties are more prominent in the works of these writers. These women are hard-working, devoted to their families, who do not hesitate to raise their voice of protest when the time comes, but they are exploited, oppressed by the ruling forces, and their rights are trampled on. Many works written by these writers retain their relevance even today. Because women and the attitude towards women have always been in the focus of literature and other types of art and have been one of the most frequently addressed topics.

Rəyçi: prof. Firuzə Ağayeva

Mehriban Cavadova[61]

HEYDƏR ƏLİYEV VƏ AZƏRBAYCAN ƏDƏBİYYATI

Ümumilli lider, dahi şəxsiyyət Heydər Əliyevin Azərbaycanda hakimiyyətdə olduğu dövrdə siyasi, sosial-iqtisadi sahələrlə yanaşı, mədəni sferada da böyük nailiyyətlər əldə edildi. Ölkənin üzləşdiyi ağır siyasi-iqtisadi çətinliklərin öhdəsindən böyük məharətlə gələn Heydər Əliyevin prezidentliyi dövründə Azərbaycan mədəniyyəti yüksək səviyyədə inkişaf etməyə başladı. Azərbaycan ədəbiyyatının qüdrətli nümayəndələrinin yaradıcılığının, irsinin öyrənilməsi prosesi genişləndi.

Heydər Əliyev Azərbaycan ədəbiyyatını öz qayğı və diqqəti ilə himayə edən qüdrətli şəxsiyyətlərdən idi. Nizami, Füzuli fəlsəfəsini dərindən bilən dahi şəxsiyyət Heydər Əliyev söz xiridarı olmaqla yanaşı, sözə qiymət verməyi bacaran böyük insan idi.

Heydər Əliyev dövlət rəhbəri kimi Azərbaycan ədəbiyyatının görkəmli nümayəndələrini yüksək qiymətləndirir, söz ucalığında dəyərləndirirdi. Onun prezidentliyi dövründə Azərbaycan klassikləri dönə-dönə nəşr olundu, adları bir daha əbədiləşdirildi, abidələri ucaldıldı. Eləcə də dövrümüzdə yaşayıb-yaradan sənətkarlarımızı daim hörmətli, şərəfli tutdu. Respublika, eləcə də keçmiş SSRİ miqyasında Azərbaycan ədəbiyyatı xadimlərini ən yüksək diqqət mərkəzinə çəkdi. Neçə yazarlarımız SSRİ-nin ən ali mükafatlarını aldılar. Söz yox ki, bunlar Heydər Əliyevin təqdimatı, qayğısı sayəsində olmuşdu.

Onun Azərbaycan ədəbiyyatına, ümumiyyətlə, ədəbiyyat dünyasına göstərdiyi xidmətlər saysız-hesabsızdır. O, ədəbiyyat nümayəndələri ilə daim təmasda idi. Çünki söhbətlərində də, çıxış və nitqlərində də dəfələrlə deyirdi ki, Azərbaycanı dünya boyda ucaltmaq, dünya durduqca yaşatmaq üçün onun ədəbiyyatını qorumaq və yaşatmaq lazımdır. Sözünün sahibi idi. Ədəbiyyatın istər yaşlı, istər gənc nəsli üçün həmişə hüdudsuz söz meydanı verirdi. Sovet ideologiyasının tüğyan etdiyi vaxtda belə Heydər Əliyev deyilən sözün, yaranan ədəbiyyatın mənəvi köməkçisi, qoruyucusu olmuşdur.

Sovet imperiyası zamanında, yana-yana "azadlıq, azadlıq" deyə hayqıran Xəlil Rzaya toxunan olmadı, Bəxtiyar Vahabzadəni, Anarı, digər istiqlalçı ədəbiyyatçıları qoruyaraq dedi: "Ədəbiyyat varsa Azərbaycanda onun mədəniyyətində, dilində tərəqqi, inkişaf olacaqdır. Əgər şair Azərbaycanı vəsf edirsə və Azərbaycanın nə qədər gözəl, nə qədər qüdrətli, nə qədər iftixar hissi doğuran bir ölkə olduğunu öz şerində göstərirsə, demək bu, hər bir azərbaycanlıda öz Azərbaycanına, vətəninə, torpağına məhəbbət hissi yaradır" [1;12].

Ədəbiyyat vətəndaşlıq, vətənpərvərlik, insanpərvərlik məktəbidir. Ədəbiyyat Vətənin canıdır, qanıdır. Məhz bu məntiqdən o, ədəbiyyatı bütün elmlərdən ucada saxlayırdı. Bütün bunları vətən, torpaq, Azərbaycanın istiqlalı naminə edirdi. Heydər Əliyev ədəbiyyatımızı göz bəbəyi kimi qoruyur, şərəfləndirirdi. Onun bu sahədəki xidmətlərini sadalamaqla bitən deyil. Bir ordunun görə biləcəyi iş qədər onun ədəbiyyatımız qarşısında xidmətləri vardır. Bütün bunları yığıb-yığışdırıb bir məqaləyə yerləşdirmək qeyri-mümkündür. Bu yazı isə onun bu sahədə gördüyü işlərdən ilk olaraq fikrimə gələn, ürəyimdə-könlümdə dolaşan, xatirimdən çıxmayan qeydlərimdir.

Azərbaycan dili ilk dəfə Heydər Əliyevin respublikada rəhbər olduğu zamanda həqiqi dövlət dili statusu aldı və Azərbaycan SSR-in 1978-ci il Konstitusiyasında təsbit olundu. Danılmaz həqiqətdir ki, mənəvi mədəniyyətin tərəqqisi ədəbi dilin tərəqqisi ilə mümkündür. Müstəqil dövlətimizi qurduğumuz zamanda ən böyük uğurlarımızdan biri də odur ki, bizim öz dilimiz vardı. Dilimizin formalaşmasında, inkişafında, belə yüksək səviyyəyə yetməsində qələm adamlarımızın, xüsusən, şair və yazıçılarımızın, ədəbiyyatşünas və dilçi alimlərimizin xidmətləri daha çoxdur [2;5].

Təsadüfi deyil ki, hələ sovet dövründə ilk dəfə Yazıçılar İttifaqının qurultayında ölkə başçısı Heydər Əliyevin Azərbaycan dilində nitq söyləməsi böyük, sevindirici, fərəhləndirici hadisə kimi qarşılandı. Çünki o vaxtlar dövlət adamları yüksək tədbirlərdə ancaq rus dilində danışırdılar. Azərbaycan dili isə dövlət dili yox, ancaq xalq dili və ədəbiyyatın dili olmuşdu.

Bu fakt Azərbaycan ədəbi dilinin saflığının qorunmasına, inkişafına böyük təkan idi. "Yazıçı dilin, nitq mədəniyyətinin ədəbi normasının qanunvericisi olmalıdır... Mətbuat, radio, televiziya, teatr, kino işçilərinə, müharizəçilərə və müəllimlərə xüsusi tələbkarlıqla yanaşmaq " lazımdır ki, dil xətalarına yol verməsinlər. 20 il əvvəl ölkə rəhbəri olduğu zaman sovet ideologiyası vaxtında bu tapşırıq milli ləyaqətin, milli qürurun hər şeydən ucada dayandığına gözəl sübutdu.

"Niyyətin hara, mənzilin ora". Bu hadisədən düz 20 il sonra isə onun taleyində unudulmaz, tarixi məqam yaşandı. Müstəqil dövlətimizin "Dövlət dilinin tətbiqi işinin təkmilləşdirilməsi haqqında" Fərmanı imzaladı. Bu fərmana əsasən Respublika Prezidenti yanında Dövlət dili Komissiyası yaradıldı. Eyni zamanda "Azərbaycan Respublikasında Dövlət Dili haqqında" Qanun layihəsinin hazırlanması tapşırıldı. Həmin layihə mütəxəssislər tərəfindən hazırlandı, bir ildən çox dəfələrlə müzakirə olundu.

Nəhayət, 2002-ci il 30 sentyabr tarixində "Azərbaycan Respublikasında Dövlət Dili haqqında" Azərbaycan Respublikasının Qanunu imzalandı. H. Əliyevin dil siyasəti aydın və qəti idi: "Bizim birinci nailiyyətimiz o olmalıdır ki, öz dilimizi Azərbaycanda hakim dil etməliyik. Budur müstəqilliyimizin nəticəsi. Vaxtilə buraya, mərkəzdən Azərbaycan KP II katibi vəzifəsinə rus millətindən olan adamlar gəlirdi. Mən onlara Azərbaycan dilini öyrədə bilmirdim. Onlara neçə dəfə deyirdim ki, Azərbaycan dilini öyrənin, ancaq öyrənmək istəmirdilər. Amma bu gün Rusiyanın səfiri öyrənir, Amerikanın səfiri öyrənir, İngiltərənin, Fransanın səfiri öyrənir. Bunların hamısı böyük hadisədir, nailiyyətdir". Danılmaz həqiqətdir ki, dövlət müstəqilliyimiz, milli azadlığımız Azərbaycan dilini əbədiləşdiribdi [3].

---

[61] Bakı Musiqi Akademiyasının Humanitar elmlər və dillər kafedrasının dosenti

"Azərbaycan xalqının milli sərvəti və intellektual mülkiyyəti, eyni zamanda Azərbaycan ədəbiyyatıdı, mədəniyyətidi. Bizim iqtisadi potensialımız olduğu kimi, bir potensialımız da intellektual potensialımız da vardır. Bizim mənəvi potensialımız-ədəbiyyatımız, mədəniyyətimiz intellektual potensialımızın əsasını təşkil edir. Bunu yaradanlar var". Bu kontekstdən yanaşanda ölkə başçısının yazarları dinləməsi, şəxsi və ümumi qayğılarına ürəkdən yanaşması təbii və səmimi görünür. Eyni zamanda bu yanaşma qələm əhli üçün də ruh mənbəyinə çevrilir. Heydər Əliyev ilk dəfə ölkə rəhbəri kimi 1971-ci ildə Azərbaycan yazıçılarının qurultayında (V qurultay) iştirak etsə də, ondan əvvəlki qurultaylarda da kənarda olmamışdı. V, VI, VII qurultaylarda iştirak etmiş və nitq söyləmişdi. 1991-ci ildə keçirilən IX qurultaya isə yazıçıların dəvəti ilə qonaq kimi gəlmişdi.

Nəhayət, Azərbaycanın dövlət müstəqilliyi, azadlığı şəraitində keçirilən ilk qurultayında ölkə Prezidenti kimi iştirak etmək də qismətinə düşdü. Bu, Yazıçılar Birliyinin X qurultayı idi və buradakı nitqində o, bildirdi ki, "bəziləri birinci gündür qurultaydadırlar, mən isə üç gündür ki, qurultaydayam, amma bundan məmnunam". Ədəbiyyata, mədəniyyətə canıdildən bağlı olan, ona daim qəlbində, ruhunda hörmət, məhəbbət bəsləyən ziyalı üçün bunlar yorulmaz, unudulmaz görüşlərdir. O, qurultaydan əvvəlki günlər yazıçılarla əvvəlcə yaşlı, sonra isə gənc nəsillə görüşlərini nəzərdə tuturdu.

Ədəbiyyat qayğıkeşi sovet dövründə yazıb-yaratmış sənətkarlarla bu gün dövlət müstəqilliyimiz günündə üzbəüz söhbət edərkən də ürəyi rahatdır: "Azərbaycanda dissident olmayıbdır. Amma Sizin dissident olmağınızı müsbət mənada deyirəm. Yaxşı ki, dissident olmusunuz. Əgər dissident olmasaydınız, Azərbaycan xalqında bu milli ruhu, əhval-ruhiyyəni qaldıra bilməzdiniz. Bunları nəzərə alsaq, ən böyük dissidentlərdən biri mən olmuşam ".

Sənət hamisi gənc nəsillə görüşündən məmnunluğunu bildirməkdən çəkinməmişdi: "Bəzən sənət ustalarına hədsiz vurğun oluruq, sənət ustasının, yaxud böyük bir ədəbiyyat xadiminin olması bizi sevindirirdi. Düşünürsən ki, bundan sonra nə olacaqdır. Amma görürsən ki, ondan sonra yeni, ona bənzər, bəlkə, ondan da parlaq bir insan gəlir. Bu bizim xalqımızın böyük istedada, fitri potensiala malik olmasını göstərir". Məhz bu amalla o, gənc yazarlara prezident təqaüdləri ayırdı, bir neçə gəncin ev problemini həll etdi.

Gənclik orqanı "Ulduz" un nəşrinə başlandı, onların kitablarını çap etdirdi, xüsusi qayğı, diqqət göstərdi. Müstəqilliyin lövhələrindən biri də o idi ki, həmin gün — qurultay günü hamı "heç kəsdən, heç bir mərkəzdən, ideologiyadan asılı olmayaraq" sərbəst şəkildə milli ədəbiyyatımızı, milli mədəniyyətimizi araşdırır, müzakirə edirdi.

Azərbaycan ədəbiyyatı tarixində elə bir ədib yoxdur ki, Heydər Əliyev onun yaradıcılığına, şəxsiyyətinə biganə yanaşsın. Bu, yaxşı mənada həm qələm adamları, həm də Heydər Əliyev üçün böyük xoşbəxtlik idi. Birinci qisim daim diqqət mərkəzində olduqlarından, hörmət, izzət gördüklərindən nə qədər məmnun idilərsə, Heydər Əliyev də bir o qədər mənəvi rahatlığından məmnun qalır və təmənnasız olaraq etdiyi yaxşılıqlarından səsin, sözün yetdiyi ucalığacan ucalırdı.

Yazıçılar, şairlər ədəbiyyat fədakarları öz təfəkkürlərinin məhsulu olan bədii əsərləri üçün ölkənin, bir vaxtlar SSRİ-nin ən ali mükafatlarını almaq şansları qazanıblar. Söz yox ki, Moskvaya bu təqdimatlar respublika rəhbərliyi xətti ilə çatdırılardı. Hamını yaxından tanıdığından ölkə başçısının özünün də rəyi olurdu. Bu gün adları bizə doğma olan yaşlı nəsildən hər kəs istər SSRİ dövlətinin, istərsə də respublikanın ən ali mükafatlarına layiq görülmüşdü. Təsadüfi deyil ki, müstəqil Azərbaycanın ən yüksək ordeni "İstiqlal" ordeni ilə də ilk dəfə ədəbiyyat xadimləri Bəxtiyar Vahabzadə, Məmməd Araz, və Xəlil Rza təltif olunmuşdular. Əldə etdiyimiz milli azadlıq milli oyanışın, milli dirçəlişin, milli ruhun canlanması ilə qazanılmışdır. Bu isə birbaşa ədəbiyyat adamlarının xüsusən də şairlərin nailiyyətidir. Xalqın mübarizlik duyğulanı öz şeirləri ilə coşdurmuşdular, ona görə də ali mükafat ilk növbədə sözün söz cilalayıcılarınındır. Heydər Əliyevin düşündüyü, söz yox ki, bu məntiq idi.

YUNESKO ənənəvi olaraq hər il görkəmli ziyalıların, o cümlədən yazıçıların, şairlərin yubileylərinin qeyd olunması haqqında qərarlar qəbul edir. " Kitabi-Dədə Qorqud", Nizami, Nəsimi, Füzuli yubileylərinin keçirilməsi haqqında da YUNESKO-nun xüsusi qərarları olub. Bu isə o deməkdir ki, həmin yubilyarlar bütün dünyada təbliğ olunub, yubiley məclisləri keçirilib, kitabları nəşr olunub — bir sözlə, imkan çatan hər vasitə ilə dünyada anılıb. Belə tədbirlərin daha geniş, daha yaddaqalan keçirilməsi, bütün imkanlardan səmərəli istifadə olunması söz yox ki, hər bir ölkənin, xalqın özündən asılıdır. Məhz məsələyə xüsusi diqqətin ayrılması yüksək nəticə verə bilir [2;7].

1994-cü il YUNESKO xətti ilə Füzuli ili elan olundu. Respublika rəhbəri isə "Füzulinin 500 illik yubileyinin yüksək səviyyədə keçirilməsi üçün" xüsusi komissiya yaratmışdı. Füzulinin 500 illik yubileyi yüksək səviyyədə dünyanın çox-çox ölkələrində keçirildi. Moskvada, Sankt- Peterburqda, Kərbəlada, Kərkükdə, Bağdadda, Ankarada, İstanbulda, İranda, Tehranda, Gürcüstanda, Özbəkistanda, Dərbənddə, Mahaçqalada, Parisdə, YUNESKO-nun baş qərargahında, Bakıda keçirilən tədbirlər əsl bayram idi. Azərbaycan adı dünyanın hər yerində anılırdı. Füzuli poeziyası vasitəsilə həmin günlər milli mədəniyyətimizin, dövlətçiliyimizin, müstəqilliyimizin bayramını qeyd edirdik [2;7].

Yaxın illərin yaddaşı olduğundan, yəqin ki, hər kəsin xəyalında qalar. Bu tədbirlə bağlı ölkə rəhbərinin hər adi şey üçün narahatçılığını unutmaq olmaz: Dahi Füzulinin kitablarının nəşrinə xüsusi diqqət yetirildi. "Füzuli ensiklopediyasının" hazırlanması, "Füzuli" beynəlxalq mükafatının təsis olunması, Füzuli qəbrinin Bakıya köçürülməsi... bir çox məsələlərə münasibət bildirildi və s. Füzuli yubileyi
şərəfinə bütün dünyadan Azərbaycana qonaqlar gəldi. Şərqə məxsus qonaqpərvərliklə qarşılanan qonaqlar müstəqil Azərbaycan ölkəsini bir daha gözləriylə gördülər. Bu müqəddəs yurdun azadlığının, milli müstəqilliyinin, poeziya gözəlliyinin şahidi oldular.

O vaxtdan çox-çox illər qabaq 1973-cü ildə YUNESKO xətti ilə Nəsiminin 600 illik yubileyi keçirilirdi. Heydər Əliyev o günləri belə xatırlayır: "Nəsiminin 600 illik yubileyini keçirdiyimiz zaman bu, dünyada nə qədər əks-səda doğurdu,

Azərbaycanı nə qədər tanıtdı! Nəhayət 600 ildən sonra biz Nəsiminin Hələb şəhərindəki məzarını tapdıq. İndi onun məzarı oraya gedən adamlar üçün bir ziyarətgahdı [2;7-8].

Məhz Azərbaycan xalqına mənsub olan Nəsimi kimi nadir bir şəxsiyyəti dünya ictimaiyyətinə, elminə, dünya mədəniyyətinə tanıtmaq, şübhəsiz ki, xalqımızın hörmətini qaldırmaq deməkdir". 1970-ci illərdə Suriyaya səfəri ərəfəsində xüsusi olaraq Hələb şəhərinə gedib Nəsiminin qəbrini ziyarət etməsi Heydər Əliyevin Azərbaycan adına, onun poeziyasına, böyük şəxsiyyətlərinə məhəbbəti ilə bağlı idi. O, məhz bunlarla milli-mənəvi sərvətlərimizlə qürurlanaraq ucalara ucalmışdı [4].

Ötən yaxın illərdə isə YUNESKO-nun qərarı ilə möhtəşəm " Kitabi-Dədə Qorqud" dastanının 1300 illiyinin qeyd olunması faktı da böyük hadisə idi. Türkdilli ölkələr dünyasında bu abidə kitabın yubileylərinin yüksək səviyyədə keçirilməsi də Heydər Əliyevin birbaşa diqqəti ilə bağlı idi. Onun dediyi fikirlər "Biz bu gün iftixar hissi keçiririk. Çünki bizim "Kitabı Dədə-Qorqud" kimi böyük tarixi abidəmiz vardır. Çünki biz bu gün sərbəstik, azadıq, müstəqilik və öz tarixi keçmişimizi, öz mənəvi dəyərlərimizi, öz mədəniyyətimizi olduğu kimi təhlil edib xalqımıza, millətimizə və gələcək nəsillərə çatdırmağa qadirik" Nizami Gəncəvinin yubileyləri Azərbaycanın günəş kimi bərq vurduğu illərdi. Bu dünya miqyaslı yubileylərin keçirilməsinin arxasında Azərbaycanın dahilərini oğul məhəbbəti ilə duyan bir ürək sahibi dayanırdı.

Müstəqil Azərbaycan dövlətində dahi Şəhriyarın 90 illik yubileyi keçirildi. 1998-ci ildə keçirilən bu yubiley məclisində Heydər Əliyevin dediyi fikirlər dərin mənaya malikdir: "Bu günkü və gələcək nəsillərin yüksək mənəvi dəyərlərlə zənginləşdirilməsində böyük rola malik olan dahi sənətkarın yaradıcılığının dərindən öyrənilməsi, tədqiq və tədris edilməsi sənət və elm xadimlərimizin müqəddəs borcudur". Bəli, bu sözlər təkcə Şəhriyar yaradıcılığına yox, cəmi cənubda yaşayıb-yaradan ədiblərimizin yaradıcılığına, eyni zamanda gənc nəsillərin qarşılıqlı münasibətlərinə, doğmalaşmasına, gələcək taleyinə aiddir.

Bu gün artıq gün kimi aydındır ki, milli tarix və ədəbiyyatımızın Nizami Gəncəvi, İmadəddin Nəsimi, Məhəmməd Füzuli, Şah İsmayıl Xətai, Molla Pənah Vaqif, Aşıq Ələsgər, Mirzə Fətəli Axundzadə, Mirzə Şəfi Vazeh, Cəlil Məmmədquluzadə, Mirzə Ələkbər Sabir, Nəriman Nərimanov, Üzeyir Hacıbəyli, Hüseyn Cavid, Cəfər Cabbarlı, Səməd Vurğun, Babək, Əcəmi Naxçıvani, Cəmşid Naxçıvanski, Mehdi Hüseynzadə, Həzi Aslanov və bir çox digər tarixi simalarının müasir Azərbaycan cəmiyyətinə geniş və kütləvi surətdə tanıdılmasında, təbliğində, sevilməsində Heydər Əliyevin hələ respublikaya rəhbərlik etdiyi birinci dövrdə (1969-1982) atdığı addımların, qəbul etdiyi dövləti qərarların, verdiyi rəsmi sərəncamların müstəsna və misilsiz rolu olmuşdur [5;17].

Yekun olaraq eyd etmək lazımdır ki, Heydər Əliyev bütöv Azərbaycan ədəbiyyatının, mədəniyyətinin, tarixinin qayğıkeşi idi. Onun bu yöndəki işləri yaşadığımız dövr üçün sərkərdə xidməti dəyərindədir. Yaxşı ki, onun başladığı müqəddəs ənənə onun varisi, möhtərəm Prezidentimiz İlham Əliyev tərəfindən ləyaqət və uğurla davam etdirilir.

İstifadə olunmuş ədəbiyyat siyahısı

1. Ülvi. A Müharibə ağrılarım. I kitab, Bakı, 2005
2. Ülvi A. Ədəbiyyat ömrü yaşayan ədəbiyyat memarı. Bakı, 2004
3. Fərəcova Z. Ana dilim-qürur yerim. Azərbaycan.- 2019.- 1 avqust.- S.1; 5.
4. Xalq öz dühaları ilə dünyada tanınır. Mədəniyyət qəzeti xüsusi buraxılış, 2019 iyul s.3
5. Teymur Kərimli, Vilayət Quliyev, Heydər Əliyev və klassik ədəbiyyat //Heydər Əliyev və Azərbaycan ədəbiyyatı. Bakı, "Şərq-Qərb", 2009
6. Nizami Cəfərov, Türkiyə Atatürkün, Azərbaycan Heydər Əliyevin əsəridir. Bakı, AzAtaM, 2002
7. İsa Həbibbəyli, Heydər Əliyev dövlətçilik təlimi və müasir dövr. Naxçıvan, "Əcəmi" Nəşriyyat-Poliqrafiya Birliyi, 2013
8. Bəkir Nəbiyev, Seçilmiş əsərləri. Beş cilddə, 4-cü cild, Bakı, "Çinar-Çap", 2009
9. Viktor Andriyanov, Hüseynbala Mirələmov, Heydər Əliyev. Bakı, "Nurlan", 2008

Резюме

В работе говорится о значимости азербайджанской литературы для Гейдара Алиева. Гейдар Алиев, как глава государства, высоко ценил выдающихся представителей азербайджанской литературы. В период его президенства неоднократно издавались азербайджанские классики, вновь увековечивались их имена, возводились им памятники. Гейдар Алиев также уважал и почитал наших художников, живших и творивших в наше время. Многие наши писатели и поэты получили высшие награды СССР. Излишне говорить, что все это произошло благодаря вниманию и заботе великоко лидера Гейдара Алиева.

Summary

The paper discusses Heydar Aliyev's appreciation for Azerbaijani literature. As president, Heydar Aliyev praised the outstanding representatives of Azerbaijani literature. During his presidency, Azerbaijani classics were published again and again, their names were immortalized, and monuments were erected in their honor. Heydar Aliyev also admired and respected our contemporary artists. Many of our writers and poets received the highest Soviet awards. Needless to say, all of this occurred as a result of the great leader Heydar Aliyev's attention and care.

Rəyçi: dos. L.Ələkbərova

Nigar Rauf Əsgərova[62]

MULTİKULTURAL ƏDƏBİYYATDA MİLLİ-MƏDƏNİ KİMLİK PROBLEMİ VƏ ONUN ELMİ-NƏZƏRİ ƏSASLARI

Ənənəvi olaraq ABŞ ədəbiyyatı irqi və etnik müxtəlifliyi ilə seçilən və digər milli ədəbiyyatlardan bu özəlliyi ilə fərqlənən ədəbiyyatdır. Çoxsəsli və çoxqütblü mədəni ənənələrin mövcudluğu kimi problemlər keçən əsrin ortalarından başlayaraq ABŞ-da önə çıxmış və ədəbi-mədəni fikirdə multimədəniyyət anlayışını ifadə etmişdir. Elə bununla bağlı multikulturalizm nəzəriyyəsi təşəkkül tapmış, nəyinki ABŞ-da, həmçinin irqi və etnik müxtəlifliklər ilə seçilən digər Qərb ölkələrində toplumun xarakterik xüsusiyyət kimi öyrənilməyə başlanmışdır. Müasiri olduğumuz dövrdə multikulturalizm bir çox ölkələrdə inkişaf edir, bəzən isə dövlət proqramı kimi əsaslandırılır. Multikulturalizm fərqli mədəniyyətlərin və millətlərin birgə yaşaması, birgəmövcudluğunu ifadə edən tarixi-mədəni hadisədir. Lakin onu da qeyd etməliyik ki, ABŞ-da bu anlayış xüsusi məna kəsb edir. ABŞ-da dünyanın bütün qütblərində mövcud olan irqlər və etnik qruplar yaşayır. Görünür elə bu səbəbdən amerikan mədəniyyətində dini, etnik, irqi və mədəni kimlik problemlərinə xüsusi həssaslıqla yanaşılır, bu problemləri yaradanlara cəza tətbiq edilir. Lakin bununla belə ölkədə vahid milli mədəniyyətin yaradılmasına ehtiyac duyulur və elə bununla bağlı milli-mədəni kimlik və öz müqəddəratını təyin etmə məsələləri ölkə hüdudlarında önə çıxır.

Vahid amerikan millətinin yaradılması meyliləri keçən əsrin əvvəllərinə təsadüf edir və bu xüsusi bir assimilyasiya konsepsiyası – "ərimə qazanı" (melting pot) metaforik adla əlamətdar olur. Bu obraz müxtəlif etnik qrupların bir "qazanda" "əriməsi" və nəticədə vahid amerikan mədəniyyətinin yaranması ilə başa çatmalıydı. Etnik inkişaf modeli olan "melting pot" anlayışı cəmiyyətdəki sosial və etnik konfliktlərin yox olmasına gətirib çıxarmalıydı. Amerikalı tədqiqatçısı A.Manna görə "ərimə qazanı" ifadəsi yüzilliyin milli somvoluna çevrilmişdi" [17, s.48]. Bu metaforanı indi də işlədənlər var. Lakin bu konsepsiyaya qarşı çıxanlar "ərimə qazanı"nın bütün millətləri ümumi bir millət anlayışına birləşdirilməsinin əleyhinə çıxır, müxtəlif mədəniyyətlərin birgə mövcudluğunu və öz milli-mədəni kimliyini qoruyub saxlamağı irəli sürürlər [1; 6]. Keçən əsrin 50-60-cı illərindən başlayaraq multikulturalizm konsepsiyası yarandı və beləcə, amerikan gerçəkliyini özündə daha uyğun şəkildə əks etməyə iddialı oldu. Onun əsası etnik qrupların öz mədəni xüsusiyyətlərini vahid milli amerikan mədəniyyəti çərçivəsində qorumaq istəyi ilə bağlıdır. Amerikan multikulturalizminin xüsusiyyəti həmçinin etnik mənsubiyyətindən asılı olmayaraq bu ölkədə yaşayan yazıçıların ingilis dilində yazması idi. Onlar məhz ingilis dilində yazır və elə bu səbəbdən milli amerikan mədəniyyəti və ümummilli ABŞ ədəbiyyatını yaradır, eyni zamanda da ABŞ ədəbiyyatında öz etnik mədəni kodlarını qoruyub saxlayırlar. İnsanın özünüdərk prosesi ilk növbədə onun kimliyi və digərlərindən fərqliliyi ilə seçilir. Bir qayda olaraq sosiologiyada belə bir bölgü var ki, kimlik anlayışı çoxplanlıdır, daha çox sosial və sinfi, etnik və dini, ideoloji və siyasi fərqliliklərlə bağlıdır. Çağdaş dövrümüzdə isə o daha çox mədəni kimlik anlayışı kimi qlobal mahiyyət daşıyır. Mədəni kimlik iki müxtəlif mədəniyyətlərin coğrafi yaxınlığı, ticari əlaqələri və ya "görüşü" nəticəsində önə çıxır və etnik müxtəlifliyi təhlükə qarşısında birləşdirən ən güclü vasitəyə çevrilir. O bütün xalqlara təsir edən müstəmləkə ekspansiyasından bəri qlobal vüsət almış, İkinci Dünya müharibəsindən sonra isə qarşısıalınmaz xarakter kəsb etmişdir. Amma biz ilk növbədə kimlik (identity) anlayışının mahiyyətinə toxunmaq və daha sonra mədəni kimlik probleminə münasibət bildirmək istərdik. Kimlik anlayışı mürəkkəb struktura malik olan çox şaxəli hadisədir və müxtəlif fərdi-psixoloji və sosial-mədəni funksiyalar daşıyır. Psixoloji mənada kimlik anlayışı fərdin özümlülüyü, dəyişkən sosial situasiyalarda özgürlüyünü qoruyub saxlaması, şəxsiyyətini dərk etməsi, digərindən fərqliliyi ilə seçilir. "Identity crisis" konsepsiyasının müəllifi amerikalı psixoloq Erik Erikson kimliyin psixoloji şərhini üç vacib aspektlə işarələyir və birincini kimlik hissi, ikincini kimliyin formalaşma prosesi və üçüncünü kimlik nəticə kimi adlandırır[18, s.104-105]. Sosial planda isə fərdin kimliyi etnik, cinsi, dövlətdaxili qurum ilə birgəmövcudluğunun dərki kimi meydana çıxır. İspan sosioloqu Manuel Kastelsinin kimlik anlayışı ilə bağlı sosioloji şərhi də maraq doğurur. O, yazır ki, kimliyi formalaşdıran bir neçə formalar mövcuddur. Bu ilk növbədə dominant sosial institutlara aid olan sosial mənsubiyyətli əlaqələr, yəni legitimləşdirilmiş kimlikdir. Digəri sosioloqa görə müəyyən bir cəmiyyətdə fərqlənən və ya olanlara qarşı çıxan, müqavimət göstərən, yaşam mexanizmlərini formalaşdıran və sosial amillərdən yaranan müqavimət kimliyidir. Sonuncu isə sosial münasibətləri dəyişdirən və cəmiyyətdəki mövqelərini yenidən müəyyənləşdirən kimlik, yəni sosial faktların yenidən layihələndirdiyi kimlikdir [3, s.109]. Hər üç formanı Manuel Kastels müxtəlif kimlik konfiqurasiyaları kimi dəyərləndirir. Müasir tədqiqatçılar həmçinin mədəni kimlik anlayışını irəli sürür və onu fərdin öz "mən"ini mədəniyyətin subyekti qismində qavramasıyla əlaqələndirir. Fərdin özünüdərki eyni zamanda adət-ənənələrin, mədəni dəyərlərin, dil formalarının, davranış qaydalarının mədəniyyətin semantik sahələrinə daxil olmasıyla şərtlənir. Mədəni kimliyin başlıca xüsusiyyəti subyektin öz müqəddəratını təyinetməsi, sosial-mədəni özümlülüyünü müəyyən etməsidir. Subyektin mədəni kimliyi digər fərdləri təmsil edən mədəni inkişaf modellərinin interpretasiyası və onlarla əlaqəni əhatə edir. Görünür elə bu səbəbdən dünyanın bir çox ölkələrində milli-mədəni kimlik problemini aparıcı amil kimi qəbul edir, onun həlli yollarını axtarırlar. Fərdin kimliyi şübhəsiz və birmənalı şəkildə mədəniyyətlə əlaqəlidir və o mədəni fenomen kimi çıxış edir. Mahiyyəti etibarilə mədəniyyət dialoji xarakter daşıyır və özündə universal və spesifik xüsusiyyətlərə malikdir. Hər bir mədəniyyət isə öz növbəsində obyektiv və subyektiv formada biri-birilə qarşılıqlı əlaqədədir. Bu qarşılıqlı əlaqə bütün sahələrdə mədəni kimliyi qoruyub saxlayır və onun mövcudluğunu təmin edir. Burada kimlik mühüm dəyər kimi görünür və elə bununla bağlı müəyyən bir cəmiyyətin inkişafı prosesində zəruri olan mədəni dəyərin dərk edilməsi kimi çıxış edir. Belə halda kimlik

[62] **Bakı Slavyan Universiteti**

anlayışı hər hansı bir xalqın digər xalqın mədəniyyəti ilə dialoqu prosesində vacib fakta çevrilir və özündə multikultural dəyərləri ehtiva edir. Yürgen Habermasa görə "milli şüur mədəni inteqrasiya kimi müasir dövrün spesifik xüsusiyyətidir"[14, s.102]. Y. Habermas əmin idi ki, demokratik vətəndaşlıq ideyası universal və millətüstü xarakter daşıyır. Elə bu səbəbdən o, liberal prinsiplərin universal anlamını təklif edir və hesab edir ki, siyasi cəmiyyətin kimliyi ilk növbədə həyatın etnik-mədəni formasında deyil, əksinə qanuni prinsiplərin siyasi mədəniyyətinə köklənir. Demokratik dövlət öz dövlətçiliyində heç bir imtiyazlı mədəni həyat formasının mövcudluğuna imkan vermir. Bu kimi dövlətlərdə hər kəs bərabərhüquqludur[14]. Qloballaşan dünyada milli mədəni kimliyin formalaşması sənaye cəmiyyətinin təşəkkülü ilə sıx bağlıdır. Dünyanın bir qitəsindən digər qitəsinə yeni həyat arxasınca gedən insanlar şübhəsiz iqtisadi və sosial problemlərin həlli yollarını axtarırlar. Amma eyni zamanda da bu yerdəyişmə yeni mədəniyyətlərlə təmas və öz növbəsində öz milli mədəniyyətlərini də tanıtmaq imkanına malikdir. Bu baxımdan Y.Habermasın milli şüurla bağlı fikirləri anlaşılan və başa düşüləndir. "Sivilizasiyaların toqquşması və dünya nizamının yenidən qurulması" (The Clash of Civilizations and the Remaking of World Order) əsərinin müəllifi Samuel Hantinqton isə qloballaşma prosesi ilə bağlı yazır ki, Avropa, Asiya və Amerikanın böyük dövlətlərini kimlik böhranı bürüyüb və bu da öz növbəsində milli kimliyin fraqmentlərə bölünməsiylə nəticələnib. Mühacir axını və sərhədlərin şəffaflığı sosioloqa görə milli dövlətlərin tərkibində başqa mədəniyyətlərin mövcudluğu, sivilizasiyaların toqquşması ilə nəticələnəcək. "Xalqlar arasında qalan yeganə real fərq mədəni mənsubiyyətdir" [15, s.207] deyən S.Hantiqton özünün "Biz kimik? Amerikanın milli kimliyinə təhdidlər" (Who Are We? The Challenges to America's National Identity) traktatında bu problemi davam edir və amerikan kimliyinin mahiyyətindən danışır və bu problemlə bağlı mülahizələr irəli sürür. Sosioloqa görə dövlətlərin mübarizəsi müxtəlif sivilizasiya qrupları arasında mədəni dəyərlərin və istəklərin ödənilməsi uğrunda mübarizə ilə əvəzləndi. Elə bu səbəbdən mübarizə müxtəlif siyasi və sosial-iqtisadi sistemlər arasında deyil, müxtəlif sivilizasiyaların mədəniyyətləri arasında gedir. Mübahisənin predmeti sivilizasiya kimliyinin tanınmasına çevrilir və bu halda əsas prioritet mədəni diferensiasiya prosesi olur. Məhz bu səbəbdən S.Hantiqton beynəlxalq münasibətlərdəki müasir prosesləri anlayıb başa düşmək üçün müasir dünyanın dinamik inkişafı çərçivəsində yeni modelin yaranmasını təklif edir. Çağdaş dünyada sərhədlər öz mahiyyətini itirməkdədir və dünyada etnik, milli anlayışlar qloballaşmış mədəni məkana daxil olarkən yenidən və yeni şəkildə dəyərləndirlir. Milli kimlik və ya milli-mədəni kimlik nədir, onlar arasında hansı əlaqələr mövcuddur suallarına cavab axtarılır, müxtəlif konsepsiyalar və nəzər nöqtələrinin mövcudluğu bu problemə aydınlıq gətirməkdən daha çox onun mürəkkəb və dolaşıq fikirlərə yol açmasına səbəb olur. Görünür elə bu səbəbdən mədəni kimliyin mahiyyətiylə bağlı ümumi bir fikir yoxdur, bəzən isə fikir ayrılığı gözə çarpır. Mədəniyyətşünaslıqda kimlik insanın mədəni dünyasının müəyyən mədəniyyətlə, ənənəylə, müəyyən mədəniyyəti ifadə edən dəyərlər sistemi və normalarla birliyi deməkdir [12, s.6]. Milli özünüdərk isə fərdin kimliyinin müəyyən millətə və ya etnosa aid olduğunu ifadə edir. Milli kimlik həmçinin millətin mədəniyyətinin, dilinin, adət-ənənəsinin birləşdirən hisslərdir. O, millət və vətəndaşlıq anlayışlarına təsir edən fakt olsa da onunla eyni deyil. Yəni o anadəngəlmə xüsusiyyət deyil, müəyyən insanların ortaq mədəniyyəti, tarixi, dili dərk etməsi nəticəsində əldə edilir. Milli kimlik mürəkkəb anlayışdır və o özündə bir neçə xüsusiyyətləri birləşdirir. Öz dövlətləri olmayan xalqlarda bəzən regional etnomədəni kimliyin daha geniş siyasi dövlətlə bağlı olan milli kimlik birliyini görmək olur. Mühacirlərin milli kimliyini isə həm mənşəyi, həm də yeni dövləti və onun mədəni mühiti ilə özünü eyniləşdirməsi müəyyən edə bilir. Necə ki, biz bunu Böyük Britaniyada, ABŞ-da və ya digər qərb ölkələrində görə bilirik.

Mədəni kimlik insanın bu və ya digər mədəniyyətə aidiyyətini dərk etməsi, mədəni nümunələri ilə özünü eyniləşdirməsi kimi başa düşülür. Mədəni kimlik bu halda müxtəlif mədəniyyətlərin təsiri nəticəsində formalaşan insanı ifadə edir.

Əgər mədəni təsir fərdlə qarşıdurma yaratmırsa bu halda şəxsiyyətin kimliyi onu əhatə edən mədəniyyətlə vəhdət təşkil edir. Bu problemin qoyuluşu ilə bağlı müxtəlif fərziyyələr irəli sürülür. Bəzən mədəni kimliyi şəxsiyyətin kimliyini formalaşdıran əsas element, bəzən isə onu sosial kimliyinin aspekti kimi irəli sürürlər. Amma o da məlumdur ki, insanda milli-mədəni kimliyin yoxluğu onu digər mədəniyyətlərlə təmasda özünü bir fərd kimi müəyyənləşdirə bilməməsiylə nəticələnir.

Mədəni kimlik problemi R.Baumaysterin "Kimlik: Mədəni dəyişim və özü üçün mübarizə" (Roy F. Baumeister. Identity: Cultural Change and the Struggle for Self) [8], Karl Rocersin "Şəxsiyyətə çevrilərkən"(On Becoming A Person) [9], Yurgen Habermasın "Digərinin daxil edilməsi: Siyasi nəzəriyyənin tədqiqi"(The Inclusion of the Other: Studies in Political Theory) [7], Erik Eriksonun "Kimlik və yaşam dövrü" (Identity and the Life Cycle)[4] əsərlərində geniş şəkildə təhlilə çəkilir. Bu problem fəlsəfə, psixologiya, sosiologiya və mədəniyyətşünaslığın əhatə dairəsində öyrənilir. Həmçinin bu problemin öyrənilməsinə Z.Freyd, K.Q.Yunq, E.Fromm və digərləri müraciət etmişlər. Onların hər biri bu və ya digər dərəcədə mədəni kimlik anlayışını fərdin özünü, öz obrazını mədəniyyətlə vəhdətdə dərk etməsi kimi dəyərləndirir.

Fəlsəfədə mədəni kimlik problemi müxtəlif yönlərdən öyrənilir və müxtəlif anlayışların köməyi ilə açılır (S.Kerkeqor, K.Yaspers, M.Haydegger, E.Husserl, C.Mid, M.Fuko və digərləri). M.Haydeggerin fəlsəfi görüşlərində kimlik məsələsi varlığın məcmusudur. M.Haydeggerə görə hər bir varlıq özü ilə eynidir, amma eyni zamanda hər bir varlıq digər varlıqla da eyniyyət təşkil edir. Məhz bu yanaşma başqa bir varlıq kimi təkcə fərqi deyil, həm də dəyişikliyi istisna edir. Fərd gərgin vəziyyətində qorxu, dəhşət, mərhəmət, ümidsizlik kimi ekzistensial situasiyalara düşür. Haydeggerə görə ekzistenisal anlayış "mövcudluq içində" və ya "birinin digərində mövcudluğu" kimi izah olunur. Başqa sözlə, "mövcudluq içində" "biri-birində" mövcud olmaq deməkdir. "Mövcudluq içində"nin mahiyyəti "dünyada mövcud olmaq" deməkdir [16, s. 308].

C.Mid isə kimlik anlayışını izah etmək üçün "Me"(Mənə) aspektini irəli sürür və kimlik anlayışını şüurlu və şüursuz hissələrə bölür və göstərir ki, şüursuz halında şəxsiyyət mənsub olduğu sosial qrupun tələblərinə əsaslanır. Elə bu səbəbdən C.Mid kimliyi öz xüsusiyyətinə uyğun sosial situasiyalara

münasibət bildirən, insanı fərd kimi müəyyən edən "I" (Mən) və sosial tələblərə tabe olan insan kimi müəyyən edən "Me" (Mənə) ayırır. O, qeyd edir ki, hər iki kimlik aspekti vacib şərt kimi onun özümlülüyünü müəyyən edir [13, s.126].

Müxtəlif yanaşmaları birləşdirib onu deyə bilərik ki, kimlik sosial normaların, qaydaların, mədəni realilərin ("realia" - bir xalqın tarixinə, coğrafiyasına, məişətinə daxil olan söz və ifadələr – N.Ə.) fərd tərəfindən şüurlu şəkildə qəbul edilməsidir. Amma o da qeyd edilməlidir ki, kimlik birtərəfli anlayış deyil. Bir insanın şüurunda eyni zamanda onun bir neçə forması da ola bilər. S.Hantiqton haqlı olaraq mədəni, siyasi, iqtisadi, sosial və ərazi növləri kimi fərqli kimliklərdən söz açır və qeyd edir ki, milli, mədəni və dil formaları olan geniş və onun əksi – dar kimlik məsələləri də mövcuddur. Sonuncular geniş kimlik anlayışları ilə hesablaşırlar [15, s.58]. Məhz geniş milli-mədəni kimliyi ilə seçilən sistemlərdə böhran vəziyyətləri yaranır. Millət anlayışı bəzən konkret sərhədləri bilinməyən və ya etnosla, ya da sivilizasiyalarla müəyyən edilir. Amma biz bilirik ki, millət deyəndə ümumi əraziləri, daxili bazarı, dövlət dili və mərkəzləşdirilmiş dövlətə bağlı siyasi hakimiyyəti olan, ümumi həyat tərzi və mentalitetiylə birləşən insanların tarixi birliyi nəzərdə tutulur. Millət onun ərazisində olan etnik qruplarının mədəniyyətini və həyat tərzinin xüsusiyyətini birləşdirə bilər və ya etnik qrupların qəbul edilmiş davranış qaydalarını irəli sürə bilər, lakin həmişə ondan fərqlənəcək. Ona görə milli-mədəni kimlik fərdin hər hansı bir millətə və milli-mədəniyyətə mənsub olduğunu dərk etməsini ifadə edir.

Dünyada gedən qloballaşma prosesi yeni mədəni hadisələrin yaranmasına rəvac verdi. Mədəni qloballaşma ingilis sosioloqu R.Robertsonun müəyyən etdiyi və elmi dövriyyəyə daxil etdiyi "qlokal" mədəni-tarixi konsepsiyasının təsdiqini tapmasına zəmin yaratdı [10, s.48]. O, dəyişən dünyada lokal və qlobal tarixi hadisələri bir yerdə "qlokal" hadisə ilə əvəzlənməsi ideyasını irəli sürür. R.Robertsona görə qloballaşma prosesinə düşmüş və ondan mənfəət əldə etməyə çalışan lokal mədəniyyətlərin nümayəndələri öz mədəni kimliklərini fəal şəkildə müdafiə etməyə çalışırlar və bu səbəbdən lokal və qlobal tarixi hadisələr biri-birini istisna etmir [5, s.128].

Yaxın Şərqdən, Cənub-Şərqi Asiyadan və Afrikadan gələn mühacirlər Qərbi Avropanın böyük şəhərlərinə yerləşir, eyni zamanda da özləriylə dilini, milli mədəniyyətini, dinini gətirilər. Böyük şəhərlərdə yaşayan mühacirlər yerli mədəniyyətin xüsusiyyətlərini qəbul etmək istəmir, elə buna görə də yerli əhali tərəfindən arzuolunmaz topluma çevrilirlər. Lokal hadisələr tədricən qloballaşır və qarşıdurmalar yaradır. Avstraliyalı tədqiqatçı Kris Barkerin də haqlı olaraq qeyd etdiyi kimi fərd ilk öncə yaşadığı cəmiyyətin mədəni dəyərləri ilə hesablaşmalıdır, sonra öz dilinin, dinin və öz "mən"inin müəyyən etdiyi milli kimliyi ilə həmahəng olacaq" [2, s.54]. Əgər dəqiqləşdirmək mümkün olsa onda mədəni kimlik müəyyən insanların bizdə rəğbət və ya antipatiya oyatdığı xüsusi bir dəyərlər sistemidir. Biz bu münasibətə uyğun onlarla ünsiyyət formasını seçirik. Elə ona görə mədəni kimlik fərdi şüur fenomeni kimi önə çıxır və fərdi kimlik kimi anlaşılır. Fərdi kimlik deyəndə biz şəxsi və çox vaxt sosial kimliyi nəzərdə tuturuq. Görünür elə bu səbəbsən mədəni kimlik deyəndə biz kollektiv deyil, daha çox fərdi kimliyə üstünlük veririk.

Kimlik birmənalı olaraq mədəni anlayışdır. Yəni mədəniyyətsiz kimlik, kimliksiz vətəndaş hissi və azadlığı ola bilməz [11, s.22]. Mədəniyyət və cəmiyyət fərdin kimliyini yaradır və o həmişə sosial quruluşun məhsulu kimi çıxış edir.

Ədəbiyyat

1. Barry, B. Culture and equality: An egalitarian critique of multiculturalism. Cambridge, Mass. 2001, 130p.
2. Barker C. Cultural Studies. Theory and Practice. London: SAGE Publications Ltd, 2011, 584p.səh 54
3. Castells M. The Power of Identity. 2nd ed. / M. Castells // The Information Age : Economy, Society and Culture. – Vol. 2. – Malden – Oxford , 2004. – 584 p.
4. Erik H. Erikson. Identity and the Life Cycle. W.W.Norton&Company. 1994,192p.
5. Global Modernities. Published in association with Theory, Culture and Society. Ed. Mike Featherstone, Scott M Lash, Roland Robertson. London: SAGE Publications Ltd. 1996, 304p.
6. Headley, J. M. The problem with multiculturalism: The uniqueness and universality of Western civilization. New Brunswick: Transaction Publishers. 2012, 122p.
7. Habermas J. The Inclusion of the Other: Studies in Political Theory.The MIT Press. 2000.338p
8. Roy F. Baumeister. Identity: Cultural Change and the Struggle for Self. Oxford University Press.1986.292p.
9. Rogers C. On Becoming A Person. Harper One. 1995. 420p.
10. Robertson R. Globalization: Social Theory and Global Culture . London: SAGE Publications Ltd 1992. 224p..
11. Stryker Sh. Identity theory: Developments and extensions // Self and Identity. N. Y., 1986. P. 89-104.
12. Иконникова С.Н., Большаков В. П. Культурология. Проспект, 2011, 528с.
13. Мид Дж. Социология: классические и современные парадигмы. Хрестоматия. М., 1998. 329с.
14. Хабермас Ю. Гражданство и национальная идентичность // Хабермас Ю. Демократия. Разум. Нравственность. Московские лекции и интервью. М.: Академия. 1995. 252с
15. Хантингтон С. Кто мы? Вызовы американской национальной идентичности / С. Хантингтон ; пер. с англ. А. Башкирова. – М. : АСТ, , 2004. – Т. 85. – 635 с.
16. Хайдеггер М. Бытие и время. М.: Ад Маргинем, 1997.- 452 с.
17. Чертина З. С. Плавильный котел. Парадигмы этнического развития США. - М.: Институт всеобщей истории РАН, - 2000. - 205с.
18. Эриксон Э. Детство и общество : пер. с англ. / Э. Эриксон. СПб., 2000. 416 с.

Açar sözlər: ABŞ ədəbiyyatı, multikultural ədəbiyyat, kimlik, milli-mədəni kimlik

Ключевые слова: литература США, мультикультуральная литература, идентичность, национально-культурная идентичность

Key words: USA Literature, multicultural literature, identity, national cultural identity

Проблема национально-культурной идентичности в мультикультуральной литературе и ее научно-теоретические основы

Резюме

Мультикультурализм – историко-культурный феномен, выражающий сосуществование разных культур и народов. Мультикультурализм США связан со стремлением этнических групп сохранить свои культурные особенности в рамках единой национальной американской культуры. По этой причине в мультикультуральной литературе США на первый план выходит проблема национально-культурной идентичности и формируются ее научно-теоретические основы. В статье рассматриваются концепции национально-культурной идентичности Ю. Хабермаса, С. Хантингтона, Э. Эриксона, связанные с восприятием индивидом своего «Я» как субъекта культуры.

Отмечается, что самоопределение личности также обусловлено включением в смысловые поля культуры традиций, культурных ценностей, языковых форм, правил поведения.

The problem of national-cultural identity in multicultural literature and its scientific-theoretical foundations

Summary

Multiculturalism is a historical-cultural phenomenon that expresses the coexistence of different cultures and nations. USA multiculturalism is related to the desire of ethnic groups to preserve their cultural characteristics within the framework of a single national American culture. For this reason, the problem of national-cultural identity comes to the fore in USA multicultural literature and its scientific theoretical foundations are formed. The article reviews the national-cultural identity concepts of Y.Habermas, S.Huntington, and E.Ericson and connects them with the individual's perception of his "I" as a subject of culture. It is noted that the individual's self-awareness is also conditioned by the inclusion of traditions, cultural values, language forms, rules of behavior in the semantic fields of culture.

Rəyçi: prof. Həmidə Əhməd qızı Əliyeva

Natella Zakir qızı Quliyeva[63]

SƏRDAR ƏSƏDİN POEZİYASINDA UŞAQ DÜNYASI

Giriş. Müasir Azərbaycan şeirinin inkişafında özünəməxsus yeri və rolu olan Sərdar Əsəd (1929-1975) zəngin yaradıcılığa malik olmuş [3 ; 4; 5; 6; 7; 8; 9; 11; 12], həyat yolu, yaradıcılığı, ədəbi və şəxsi taleyi haqqında müxtəlif yazılar yazılmışdır [bax: 15; 16; 17; 14; 13]. O, öz dövrünün novator şairlərindən idi. Daim yeni məzmun və forma axtaran, milli-mənəvi dəyərlərə sıx bağlı olan şairin yaradıcılığı müasirləri tərəfindən maraqla qarşılanır, oxucular onun kitablarını həvəslə alır, qəzet-jurnal səhifələrində imzasını axtarırdılar. Bütün bunlar onun mənsub olduğu real zaman və məkanı orijinal poetik xronotopa (*xronos* – zaman, *topos* – məkan) çevirə bilməsində idi. S.Əsəd öz yaradılıcılığı ilə insana onun içərisində yaşadığı dünyanı sevdirə bilirdi. Çünki o, özü dünyanı sevir, onun gözəlliklərindən zövq alırdı. Bu cəhətdən, şairin yaradıcılığında zamana, xüsusilə uşaqlıq yaşantılarını əks etdirən zamana münasibət dərin poetizmi ilə diqqəti cəlb edir.

Tədqiqat. S.Əsədin şeir dünyasına nəzər saldıqda uşaqlıq xatirələrinin onun bütün yaradıcılığında aydın məna xəttini təşkil etdiyini görürük. Bu xətt ana laylasından başlanmaqla sənətkarın bütün yaradıcılığını əhatə edir. Bu cəhətdən, şairin 1955-ci ildə, yəni 26 yaşında yazdığı "Ana laylası" şeirində deyilir:

Anam körpəsini öz qucağında
Sevib oxşadıqca axşamdan bəri, –
Elə bil dünyanın hər bucağından
Gəlir qulağıma layla səsləri....

Şeirdə "dünyanın hər bucağından gələn layla səsləri" çox maraqlı bədii obrazdır. Şair bununla varlıq aləminin ana laylasının üzərində bərqərar olduğunu bəyan edir. Anadan olan körpənin insana, şəxsiyyətə çevrilməsinin ilk pilləsini ana laylası təşkil edir. Ana layla ilə körpənin dünyasında sevgi, məhəbbət ağacı əkir. Şairə görə, ananın əkdiyi bu ağaclar insanın bütün ömrü boyu çiçək açıb, bar verib ona insan olmağı, həyatı, dünyanı, insanları sevməyi öyrədir:

Oturub analar beşik başında,
İlin baharında, ilin qışında,
Hələ uşağına kiçik yaşında,
Böyüyüb tez boya-başa çat, – deyir.

Çətinlik vurmasın yerə dizini,
Qucaqla dağların şəlaləsini!
Boyun ucaldıqca ucalt səsini,
Gəncliyin səsinə durma, qat, – deyir.

İşində öz əlin, öz başın olsun,
Sənin hər tərəfdə sirdaşın olsun,
Milyonlarla bacın, qardaşın olsun, –
Atasan hər yana qol-qanad, – deyir [3, s. 31].

Şeirin məzmunundan aydın olur ki, S.Əsəd uşaqlıq dünyasını insan həyatının təkcə ən qayğısız, şən, dərdsiz-qadasız dövrü kimi təsvir etmir: uşaq dünyanı sonsuz bir ehtirasla sevməklə həm də dünyanın şagirdi olub, onu öyrənir, dərk edir. İnsan uşaqkən dünyadan aldığı dərsləri bütün ömrü boyu öyrənir.

Məlumdur ki, uşaqlıq xatirələri insanda daha çox yaşlı dövrdə boy verir. Bu da təbiidir, insanın yaşının üstünə yaş gəldikcə dünya onun gözündə dəyişir. Ata-ana, yaşlı insanlar dünyanı tərk edir. Dünyanı tərk edən doğmalar insanın yaddaşından özü boyda bir parçanı qoparıb aparır. Bu zaman insan psixologiyasında keçmiş üçün, xüsusilə də uşaqlıq dövrü üçün güclü bir darıxqanlıq baş qaldırır. Lakin insan nə qədər gəncdirsə hələ uşaqlıq haqqında düşünmür. Çünki gənclik insanın qəlbinin sevgi-məhəbbətlə aşıb-daşdığı bir vaxtdır. Biz bunun ifadəsini S.Əsədin 1956-cı ildə, yəni 27 yaşında yazdığı "Gənclik illəri" şeirində görürük:

Mən ona sirr açıb könül bağladım,
Açıldı ömrümün yeni dastanı.
Onu çox axtarıb, çox soraqladım,
Görsəm də hər dəfə soruşdum: – Hanı?

Ona söz açdığım həmin zamandan,
Mən hərdən su olub, hərdən od oldum;
Bilmirəm, hər ona yaxın olandan,
Uşaqlıq çağıma niyə yad oldum?... [3, s. 47].

Göründüyü kimi, lirik qəhrəmanı onun "uşaqlıq çağına "yad" edən" bir səbəb var. Yəni qəhrəmanın həyatında elə hadisələr baş verir ki, uşaqlıq dövrünün şirin xatirələri arxa plana keçmişdir. Şeirdən məlum olur ki, o, aşiq olmuşdur:

...Küsüb barışmışıq öz aramızda,

[63] Bakı Avrasiya Universiteti, Ümumi filologiya kafedrasının dissertantı, n.zakirli@gmail.com

Könül oxşamışıq, qədir bilmişik,
Sanki sözləşərək mən də, o qız da,
İşıqlı dünyaya qoşa gəlmişik!...

Ürəkdən ürəyə axıb süzüldük,
Gah söhbət, gah da ki, məzəmmət oldu;
Birlikdə qəmləndik, birlikdə güldük,
İstəklər böyüyüb məhəbbət oldu! [3, s. 48].

S.Əsədin 1965-ci ildə, yəni 37 yaşında çap olunmuş "Cərrah ürəyi" adlı kitabında çap olunmuş "Uşağın səfəri" adlı şeirin qəhrəmanı atası ilə birgə babasıgilə qonaq gedən uşaqdır:

Körpə atasıyla aşağı düşdü,
Qatarsa şığıdı ildırım kimi;
Paravoz getdikcə ucaldı tüstü,
Uzandı göylərdə bir şırım kimi.

Tüstüləyərək stansiyadan uzaqlaşan qatar uşağın dünyasında fantastik təsəvvürlər yaradır: qarşıdan görünən dağlar sanki yolu kəsmişdir. Ancaq ətrafında gördüyü hər bir şey uşaqda böyük maraq yaratmaqla onun qəlbində anlaşılmaz bir şənlik ovqatı yaradır:

Quzeydə neşə il yatıb qalan qar
Bu ağır yuxudan doymayırdımı?
Dumanda gizlənib çıxan qayalar
Uşaqla gizlənpaç oynayırdımı?

S.Əsəd şeirdə "baba qucağı" adlı bir obraz yaratmışdır. Bu qucaq dünyanın, bəlkə də, ən isti, ən şirin məkanıdır:

Uçan kəpənəyə hərdən əl atdı,
Göz dikdi göylərin qurşağına o.
Çatdı, babasının evinə çatdı,
Atıldı qocanın qucağına o.

Burda böyümüşdü sanki neçə il,
Çölləri neçə yol ayaqlamışdı;
Uşağı ağ saçlı babası deyil,
Elə bil kənd özü qucaqlamışdı... [6, s. 11-12].

S.Əsədin 1972-ci ildə yazdığı "Uşaq səsində bahar" şeiri boyaların parlaqlığı, poetik səslərin şən ovqatı, təəssüratların gücü ilə əvvəlki şeirlərdən seçilir. Çünki bu şeiri yazanda sənətkarın 44 yaşı var idi. O, 3 ildən sonra öz canına qıyacaq, həyatına son verəcəkdi. Bu da onunla bağlı idi ki, yaradıcılığının coşqun çağını yaşayan S.Əsədin həyatında mənəvi cəhətdən sarsıntılar baş verirdi. Bu fonda uşaqlı onun üçün əlçatmaz və parlaq bir xatirəyə çevrilmişdi:

Bahar şaqqıldadı yağış selində,
Buxarla göylərə çəkildi yuxu.
Uşaq oyununda, sərçə dilində
Səpildi qulağa səs tumurcuğu.

...Körpəcə qədəmlər qaçırdı yerdən,
Çiçəkli kölgələr ətək sərirdi.
Qalxıb gülüşlərdən, qəhqəhələrdən
Bahar havasına səs cücərirdi. [10, s. 10-11].

Bunlarla yanaşı, uşaqlar üçün "Meşədə qonaqlıq", eləcə də A.Bartonun "Kobud ayı balası" və italyan yazıçısı C.Rodarinin "Hər peşənin öz ətri var / Hər peşənin öz rəngi var" əsərlərini Azərbaycan dilinə tərcümə edərək kitab şəklində çap etdirmişdir.

Ata-ana məhəbbəti, övlad sevgisi Sərdarın şeirlərində ictimai məzmunu ilə seçilir. Övlad atanın yaratdıqlarını qorumalı, əkdiklərini becərməli, dünyanı valideynlərin, ulların gözləri ilə görməyi də bacarmalıdır. Şairin ata məzarı önündə dedikləri, əslində, hər bir övladın valideynə münasibətini ifadə edir:

Gözümlə dünyaya hey baxacaqsan,
Mən sənin yanına gələnə kimi.

S.Əsədin azyaşlı uşaqlardan bəhs edən şeir və poemalarının bəzilərində öz oğlanlarına – "iki igid balasına" müraciət edir, ancaq həmin əsərlərdəki duyğuların arxasında uşaqlarının ümumi həyatını da görmək çətin deyil.

Başını sinəmə qoyub yatanda,
Görürəm yuxuya rahat gedirsən.
Toppuş əllərində top oynadanda,
Məni də özünə yoldaş edirsən!

Elə sanırsan ki, anan ilə mən,
Üzünə dikilən iki cüt gözük.
Hələ çıxmamısan bayıra evdən, –
Sanırsan dünyalar elə bir bizik...

Şairin uşaq şeirlərində təsvir olunmuş zaman anlayışı maraqlıdır. Bildiyimiz kimi, şeirdə zaman anlayışını göstərmək olduqca çətindir. Çünki şeir daha çox bir anın, qısa situasiyanın məhsuludur. Zaman anlayışı daha çox nəsr əsərlərinə xasdır. Amma Sərdar Əsəd qısa şeirlərində təkcə illəri deyil, həm də zamanı şeirin "bətninə" ustalıqla sığışdırır.

Sığallayıb alnımı
Deyirsən: qırış nədir?
Sənin gülüşlərinin
Onlar keşiyindədir!

Dahi rus şairi A.S.Puşkin kimi, S.Əsəd də erkən gənclik illərində uşaqlar üçün maraqlı nağıl-poemalar yaratmışdır. "Balaca müdir" (Mart-İyul 1955), "Gecənin sirri" (Avqust-Noyabr, 1955), "Zəhmətsiz ortaq" (Dekabr 1955), "Validənin anası" (Yanvar 1956), "Qardaşlar" (Fevral 1956), "Unudulmaz qayğı" (Mart-Aprel 1957) belə əsərlərdəndir. Bu poemaların hamısı 1950-ci illərdə "Pioner" jurnalı və "Azərbaycan pioneri" qəzetində dərc olunmuşdu və o dövrdə uşaq ədəbiyyatı sahəsində mövcud olan boşluğun aradan qaldırılmasına S.Əsədin verdiyi töhfə sayıla bilər.

Nəticə. S.Əsədin uşaqlıq dünyası ilə bağlı yazdığı əsərlər insan ömrünün zaman dinamikasını özündə əks etdirir. Şair yaşlandıqca uşaqlıq dünyası daha şirin, daha gözəl xatirəyə çevrilir. Şeirlərin təhlili göstərir ki, sənətkarın uşaqlıqla bağlı yazdığı şeirlər onu yaradıcılığında "xatirə" poeziyası kimi motivlənir.

Səməd Vurğun uşaq üçün yazmağın nə qədər məsuliyyətli və çətin bir sahə olduğunu, uşaq təbiətini, uşaq həyatını tərənnüm etməyin nə qədər vacib olduğunu belə qeyd edir: "Uşaq insandır! Onun sadə görünən oynaq, daima xoşbəxt və azad təbiətində böyük insanların bütün xassələri mövcuddur". Sözünə davam edən şair göstərir ki, "uşaqlar üçün yazılan şeirlərdə məna gözəlliyinə fikir verilməlidir, anlaşılmayan, quru, cansıxıcı nəsihətlər uşaq yaddaşında ani bir qığılcım kimi tez parlayıb, tez də sönür. Uşaq xəyalı səyyardır. O, şıltaq bir ulduz kimi daima süzüb oynar. Uşaq xəyalı bəzən ağ buludların cərəyanına qoşulub uçur, seyr edir, ayla batır, günəşlə doğur, dərin dəryalarda qəvvas kimi üzür, keçilməz ormanlarda pələnglərlə pəncələşir. Biz bütün bu sözsüz xəyallar dünyasında qəhrəmanlıq, yüksəliş, uca arzular və əməllər görürük" [13, s. 141].

S.Əsəd digər mövzulu şeirlərinə də eyni məsuliyyət hissi ilə yanaşmış, onların güclü, təkrarsız, yüksək səviyyədə yazılmasına nail ola bilmişdir.

ƏDƏBİYYAT

1. Əsədov S. Gənclik illəri. Bakı, 1957
2. Əsəd S. Səni axtarıram. Bakı, 1960
3. Əsəd S. Yanan memar. Bakı, 1963
4. Əsəd S. Cərrah ürəyi. Bakı, 1965
5. Əsəd S. Gözəl. Bakı, 1969
6. Əsəd S. Simlərin tufanı. Bakı, 1971
7. Əsəd S. Yer ulduzu. Bakı, 1974
8. Əsəd S. Dağları aşdı sellər. Bakı, 1977
9. Əsəd S. İllər ayrısı. Bakı, 1987
10. Əsəd S. I cild. Yenə yaşayıram, mən yenə sağam!. Bakı, 2020
11. Vurğun S. Əsərləri. V cilddə, V cild. Bakı, "Şərq-Qərb", 2005, 384 s
12. Fərəcov S. Şair ürəyinin çırpıntıları // "Mədəniyyət" qəzeti, 02 iyul 2010.
13. Xəlilzadə F. "Sərdar Əsəd intihar etdəndən sonra Məmməd Araz özünə gələ bilmirdi" (az). // *KASPİ*. kaspi.az. 13 iyul 2013.
14. Kazımov Q. "Sərdar Əsəd kifayət qədər bədii irs qoyub gedib // "Xalq cəbhəsi" qəzeti, 18 iyun 2011.
15. Kazımov Q. Ön söz / Əsəd S. I cild. Yenə yaşayıram, mən yenə sağam!. Bakı, 2020, s. 3-39
16. Yusifli V. Sərdar Əsəd. Sevgidən intihara // "Ulduz" jurnalı, 2012, № 3

Açar sözlər: Azərbaycan ədəbiyyatı, Azərbaycan poeziyası, XX Azərbaycan poeziyası, Sərdar Əsəd, xatirəşeirləri, uşaqlıq dünyası

Ключевые слова: Азербайджанская литература, Азербайджанская поэзия, Азербайджанская поэзия xx века, Сардар Асад, стихотворения воспоминаний, детский мир.

Keywords: Azerbaijani literature, Azerbaijani poetry, 20th Azerbaijani poetry, Sardar Asad, memorial poems, childhood.

ДЕТСКОЕ МИРОВОЗРЕНИЕ В ПОЭЗИИ САРДАРА АСАДА.

РЕЗЮМЕ

В современной Азербайджанской стихотворной поэзии, творчество Сардара Асада(1929-1975) занимает особое, специфическое место и роль.

В ней с особенностью отражены временной период, особенно детские переживания. С возрастом детский мир превращается в более сладкое и прекрасное воспоминание поэта.

Анализ стихотворений поэта показывает, что написанные им стихотворения, связанные с детством, мотивируется как поэзия "воспоминаний". Своей поэзией С.Асад смог заставить человека полюбить переживаемый им свой внутренний мир. Потому, что он сам любил мир и наслаждался его красотой. С.Асад, в

ранний период своего творчества, создал для детей интересные поэмы-стихотворения. Можно считать, это даром С.Асада, в преодолении существующих пустот в области детской литературы того периода.

С. Асад, своим общим творчеством одинаково ответственно подходил и к своим другим стихотворениям на иные темы, смог добиться того, что они становились неповторимыми, сильными и высокого уровня.

CHILDREN'S WORLD IN SARDAR ASAD'S POETRY

SUMMARY

In the creative activity of Sardar Asad ,who has a unique place and role in the development of modern Azerbaijan poetry, the attitude for the time , especially the time which reflects childhood memories draws attention with its deep poetism. The works which are written by S. Assad about childhood reflect the time dynamics of human life. As the poet ages, his childhood experiences turns into sweeter, better memories. The analysis of the poems shows that the poems written by the artist about childhood are reflected as "memorial" poetry in his creativity. With his creativity, S. Asad could make people love the world he lives in. Because he himself loved the world and enjoyed its beauties.

S. Asad was one of those who wrote interesting stories and poems for children in his early youth. At that time, the gap in the field of children's literature was filled with the contributions of Asad.

S. Assad, with all his creativity, approached his poems on other subjects with the same sense of responsibility, and succeeded in writing them at a strong, non-repetitive, high level.

Rəyçi: fil.e.n.,dos. E.F.Məmmədova-Kekeç

Sevinc Tələt qızı Məmmədova[64]

FRİDRİX QOTLİB KLOPŞTOKUN MAARİFÇİLİK GÖRÜŞLƏRİ

Giriş. XVIII əsrin 70-80-ci illərində Almaniyanın mədəni həyatında böyük bir "partlayış" baş verdi. Bu "partlayış" alman ədəbiyyatı ilə başladı. "Fırtına və təzyiqçilər" adlanan bir dəstə gənc şair alman ədəbiyyatına öz töhfələrini verdi. "Fırtına və təzyiqçi" şairlər coşqun bir ehtirasla işləyir, çoxlu əsərlər yazıb yaradırdılar, onların belə məhsuldar yaradıcılıqlarında dövrün ictimai ədalətsizliyi öz əksini tapırdı. Bunlardan da biri Fridrix Qotlib Klopştokdur. Fridrix Qotlib Klopştok alman ədəbiyyatının görkəmli nümayəndələrindən biridir.

Əsas hissə. Fridrix Qotlib Klopştok 2 iyul 1724-cü ildə Quedlinburqda məmur ailəsində doğulmuşdur. Onun ailəsi qatı dindar idi. Klopştok uşaqlıq illərini kənddə - ailəsinin yanında keçirmişdir. Hələ məktəbdə təhsil alarkən Bodmeranın və Breytinqeranın tənqidi və estetik məqalələri ilə tanış olan Qotlibdə vətənpərvərlik hissləri baş qaldırmışdır. Onda milli düşüncənin formalaşması da məhz bu illərə təsadüf edir. Yena və Leypçiq Universitetlərində ilahiyyat və filologiya təhsili almışdır.

Klopştok "Məsih" əsərinin ilk nəğmələrini Yenada oxuyarkən yazmışdır. Leypçiq Universitetində təhsilini davam etdirərkən "Bremische Beiträge" jurnalının redaktoru ilə görüşüb "Məsih"in ilk üç nəğməsini 1748-ci ildə çap etdirmişdir. Maraqlısı o idi ki, əsər imzasız çap olunmuşdur. İlk çap olunan əsərlərlə oxucuların diqqətini çəkən Klopştok bundan həvəslənərək əsərin davamını da yazaraq çap etdirmişdir.

Qırxıncı illərin sonlarında gənc şair artıq öz dostlarına "Məsih"in nəğmələrini oxuyur, müsbət qarşılandığını görərək çap etdirməyə başlayır. Bu əsər ictimai rezonans doğurur. Klopştok bu əsərlə bütün ədəbi camiədə tanınmağa başlayır.

Hekzametrlə yazılmış və iyirmi nəğmədən ibarət olan epopeya 1773-cü ildə başa çatmışdır. "Məsih" əsərində İsanın keşməkeşli həyatı haqqında mövcud olan xristian əfsanələrini öz əsərində əks etdirmişdir. "Məsih" əsərində təkcə hadisələr deyil, insan hisləri də ustalıqla verilmişdir. Əsərdəki qəhrəmanların daxili dünyasının açılması üçün emosional ifadələrdən istifadə edilmişdir. Lakin zaman keçdikcə və dövr dəyişdikcə bu əsərə də münasibət dəyişmişdir. "Məsih" əsəri artıq XVIII əsrdə geniş oxucu kütləsini itirmişdir. Buna səbəb isə həcminin böyüklüyü və abstraktlığı idi. Lessinq öz nəzəri əsərlərindən birində istehza edərək yazırdı: "İndi kim Klopştoku tərifləmir? Amma kim onu oxuyur?— Heç kəs".

Əsərdə bəşəriyyətin xilaskarı kimi əks olunan İsa peyğəmbərin İblisin başçılığı ilə aparılan zülmə qarşı mübarizəsi təsvir edilmişdir. Klopştok xristian təliminin dərinliklərindən də söz açmışdır. Klopştokun ustalığı bu mübarizənin dərinlikləri ilə əks etdirməklə yanaşı, obrazların daxili aləmlərinə də baş vurmasında idi. Əsərdə qəhrəmanların daxili hiss və həvəcanları: sevinc, kədər, qəzəb, qorxu, ehtiras və s. ustalıqla qələmə alınmışdır. Klopştok məhz bu qabiliyyətinə görə "psixoloji analizin ustası" hesab olunmuşdur.

Bunu şairin başqa şeirlərində də görə bilərik. "Qızılgüllərlə" şeirində şair təbiətlə sevgilisini vəhdətdə verir.

Bahar kölgəsində onu tapdım,
Qızılgüllərlə sardım onu:
O duymadan sürdürdü uyğusunu.
Mən onu süzərkən, baxışımla
Bağlandı həyatım onun həyatına:
Duydum da, bilmədim nə olduğunu (1, s. 62).

Şair sentimental notlarla yazdığı misralarda pozitiv düşüncələri əks etdirir, sevgilisi ilə qovuşacağına inanır:

Bir söz demədən pıçıldadım
Xışıldadı qızılgüllər:
Açdı gözlərini yuxusundan.
O məni süzərkən, baxışıyla
Bağlandı həyatı mənim həyatıma,
O zaman bir bəxtiyarlıq sardı bizi (1, s. 62).

Klopştok insan münasibətlərinin sadəlik və səmimiliyini şeirlərində ifadə edir. Şairin poeziyasında sevgi kimi fəryad, kədər hisləri də mürəkkəb deyil. "Əski məzarlar" şeiri bunun bariz nümunəsidir. Şeirin əvvəlində təsvirlər təbiətin tərənnümünü xatırladır.

Xoşdur sənin doğuşun ey gümüş ay,
Ey gözəl, səssiz yoldaşı gecənin!
Qaçırmısan?
Yox, tələsmə, dayan, getmə
Ey xəyallarımın sirdaşı!
Durdu, getmədi, bir baxın! (1, s. 63)

Bundan sonra təsvirlər kədər, ayrılıq, hicran motivləri üzərində qurulur. Şeirdə bədii təsvir və ifadə vasitələrinə geniş yer verilir:

Bulud oldu yalnız gedən.
Gözəldir yayda gecələr tək

---

[64] Bakı Dövlət Universitetinin Dünya ədəbiyyatı kafedrasının dosenti

Oyanması may ayının,
Süzülərkən işıq kimi, saçlarından
Şeh damlaları,
Görünərkən təpənin üzərində qızıl rəngi (1, s. 63).

Birdən-birə şeirin əsas məzmun və mahiyyəti üzə çıxır. Şair dostlarını itirdiyinə üzülür,

Yosunlar altında qaldı torpağınız
Ey mənim sevimli dostlarım!
Ah nə bəxtiyardım sizinlə mən
Görərkən qızıl gündüzləri,
İşıl-işıl gecələri (1, s. 63).

Hər iki şeir nümunəsini birləsdirən cəhətlərdən ən başlıcası təbiətlə insanın vəhdətdə verilməsidir. Bu şeirlərdə "təbiət" və "mən" arasında uyğunluq mövcuddur. Şeir qəhrəmanı təbiətlə müqayisə edilir, mənəvi duğuları təbiət cisimləri ilə birləşir.

Klopşot alman ədəbiyyatını yeni formullarla zənginləşdirmişdir. Onun lirikası oxucunun gözündə dünyanı sadələşdirmişdir. Onun poeziyasında insan hislərinin tərənnümü oxucuları cəlb etmişdir. Şeiriyyətinin bu xüsusiyyətləri Klopştoku alman sentimentalizminin sələflərindən birinə çevirmişdir. Klapştok klassisizm estetikasının normativliyini rədd etmiş, antik ölçülərdən istifadə edərək sərbəst şeir janrına öz töhfələrini vermiş, poetik dil sahəsində novatora çevrilmişdir. Klapştokun ustalığı bir də onunla bağlı idi ki, o, orijinal söz birləşmələri yaratmış, alman dilinin imkanlarından istifadə edərək yeni sözlər düzəltmiş, poetik neologizmlərlə ədəbi dili zənginləşdirmişdir. Ədəbiyyat üçün yeni yol axtarışında olan ədib yeni formullar taparkən belə milli özünüdərki də gücləndirməyə çalışırdı.

Qədim alman mistisminin banisi Klopştok Allahı ruhunun dərinliklərində hiss etmiş, hər bir təbiət hadisəsində Onun varlığını duymuşdur. "Təbiət lirikası" və "fikir lirikası" onun yaradıcılığında vəhdət təşkil edir. Dini fikir və duyğularını ifadə etmək üçün uyğun janr və üslub axtarışında olan şair yeni bir yol tapır: beləliklə, o, vers libre (freien Rhythmen - "sərbəst ritmlərdə") ilə fəlsəfi himnin ilk nümunələrini yaradaraq yeni bir janrın əsasını qoyur. Buna misal olaraq, "Yaz bayramı" əsərinin adını çəkə bilərik. Klopştok bu janr ilə XX əsrə körpü atmış olur.

Klopştoka məxsus olan xüsusiyyətlərdən biri də qəhrəmanlıq səlnamələrini əks etdirən dramlarla alman ədəbiyyatında vətənpərvərlik hislərini qabardan əsərlərin sayını artırmaq idi. Klopşot bir çox böyük alman maarifçiləri kimi vətənpərvər idi. Onun böyük amalı olan "bütöv Almaniya" ideologiyası ilə yazılan əsərlərində ölkənin parçalanmasına dəlalət edən ünsürlər tənqid hədəfinə çevrilmişdir. Milli birliyə səsləyən trilogiyasını qədim qəhərmanlıq nəğməsi olan barditin adı ilə verməsi də səbəbsiz deyildir. Qədim ədəbi ənənəyə sadiqliyini göstərən ədib "Bardit" triologiyasına üç əsər daxil etmişdir: "Germanın döyüşü" (Hermanns Schlacht, 1769), "German və knyazlar" (Hermann und die Fürsten, 1784) və "Germanın Ölümü" (Hermanns Tod, 1787). Trilogiyanın birinci hissəsi bədiiliyi ilə fərqlənir.

Alman milli dövlət düşüncəsinin atası kimi tanınan Klopştok 1789-cu ildə "Özünü tanı" (Kennet euch selbst) şeirində "əsrin ən nəcib işi" adlandırdığı Fransa inqilabının tərəfdarı olan Klopştok almanları da inqilaba çağırmışdır.

Frankreich schuf sich frei. Des Jahrhunderts edelste Tat hub
Da sich zu dem Olympus empor!
Bist du so eng begrenzt, daß du sie verkennest, umschwebet
Diese Dämmerung dir noch den Blick,
Diese Nacht: so durchwandre die Weltannalen, und finde
Etwas darin, das ihr ferne nur gleicht (7)

Tərcümə (S.M.):

Fransa özünü azad etdi, əsrin ən nəcib hərəkəti
Olimpə qədər
Onları yanlış dəyərləndirəcək qədər çərçivəlisiniz?
Ətrafda gəzin
Bu alatoranlıq sənə görüntü verir
Bu gecə: odur ki dünyanın səlnamələrində gəz və tap
İçində ona bənzər bir şey

Hətta bu ideologiyasına görə 1792-ci ildə Fransa Milli Məclisi onu fəxri vətəndaş kimi qəbul etmişdir. Lakin qısa bir müddət sonra 1793-cü ildə yazdığı "Yakobinlər" şeirində inqilabın həddi aşmasını tənqid etmiş, Fransadakı yakobin rejimini bütün "sarılan ilan" adlandırmışdır.

Klopştok xalqın bütün yaradıcılıq güclərinin birləşdirilməsinə də səsləyirdi. Ədibə görə hər bir alman yazıçısı xalq qarşısında məsuliyyətini dərk etməli, onlar üçün dəyərli, mənəviyyatı yüksək mövzulardan, dəyərlərdən yazmalıdır.

1751-ci ildə Klopstok Danimarkaya getmişdir. Danimarka kralı Fridrix Klopşotun sənətinə, yaradıcılığına vurğun olduğu üçün ona ömürlük maaş vermişdir.

Maddi imkansızlıq onu Danimarka kralından kiçik pensiyanı qəbul etməyə məcbur etmişdir. Bundan başqa, nisbi azadlıq şəraitində işləmək imkanı şairi cəzb etmişdir. Danimarka dövründə o "Məsih" üzərində işləməyə davam etmiş, mənəvi şeirlər, İncil mövzularında bir sıra pyeslər yazmışdır. 1770-ci ildə Klopştok vətənə qayıtmış, Vamburqda yerləşmiş, ölümünə qədər yaradıcılıqla məşğul olmuşdur.

Nəticə. Fridrix Qotlib Klopştokun yaradıcılığına nəzər saldıqda onun maarifçilik ideyaları üzə çıxır. O, alman ədəbiyyatına bir sıra yeniliklər gətirmişdir:

1. Poeziyada yeni üslub və formalar;
2. Yeni söz və ifadələr;
3. Sərbəst vəzndə fəlsəfi himnlər
4. Dini əsərlərin yeni formada yazılması

Klopstokun böyüklüyü onda idi ki, o insan hislərini səmimi şəkildə ifadə edir, xalqın iç dünyasından xəbər verirdi.

ƏDƏBİYYAT:

1. Alman ədəbiyyatı antologiyası. Bakı: Şərq-Qərb, 2009, 688 s.
2. Fricke Schreiber, Geschichte der deutschen Literatur, Ferdinand Schöningh, Paderborn, 1988, s. 83
3. Gilman, D. C.; Peck, H. T.; Colby, F. M., eds. "Klopstock, Friedrich Gottlieb" . New International Encyclopedia (1st ed.). New York: Dodd, Mead., 1905
4. Güven B.E. Aydınlanma felsefesi ve alman aydınlanma edebiyatı. Trakya Üniversitesi Edebiyat Fakültesi Dergisi, Cilt: 10, Sayı: 20, Temmuz 2020, s. 307-321
5. Rines, George Edwin, ed. "Klopstock, Friedrich Gottlieb" . Encyclopedia Americana, 1920
6. Белинский В. Г. Полн. собр. соч. в 13-ти т., т. 7. М., 1955, с. 406
7. Kennet euch selbst (German) https://www.babelmatrix.org/works/de/Klopstock%2C_Friedrich_Gottlieb-1724/Kennet_euch_selbst

Açar sözlər: Klopştok, maarifcilik, fəlsəfə, alman ədəbiyyatı, şeir

Ключевые слова: Клопшток, поэзия, философия, немецкая литература, стих

Keywords: Klopstok, education, philosophy, German literature, poem

Xülasə

Klopştok XVIII əsrdə Almaniyanın ədəbi həyatında görkəmli yer tutan, milli tarix əsasında yazılmış bir sıra dramların müəllifi, yazıçı, şair kimi şöhrət qazanmışdır. Fridrix Qotlib Klopştok ən görkəmli alman şairlərindən idi. O, maarifçilik dövrünün ən görkəmli nümayəndələrindən biri idi. Onun əsərləri alman ədəbiyyatının inkişafına mühüm təsir göstərmişdir. Klopştok böyük siyasi amala malik yazıçı idi. O, əsərlərində Fransız inqilabını tərənnüm etmiş, alman knyazlarının despotizmini tənqid edərək alman poeziyasına vətəndaşlıq pafosunu daxil etmişdir. Klopştok alman ədəbiyyatı tarixində mühüm rol oynamışdır. O, vətəndaş poeziyasının təşəbbüskarı, sənətdə milli kimlik uğrunda mübarizdir. Klopştok alman dilinin poetik lüğətini zənginləşdirmişdir. Klopştokun poeziyasında təkcə həssaslığın deyil, analitikliyin unikal sintezi - fövqəlhəssaslıq sezilir: o, alman fəlsəfi poeziyasını fərqləndirən fəlsəfi fikrin dərinliyi ilə ekstazı birləşdirmişdir. Klopştok alman lirikası poeziyasının tematik dairəsini həddindən artıq genişləndirmiş, köhnəni dəyişdirmiş və ona yeni tematik təbəqələr, tarixən yeni obrazlar və motivlər daxil etmiş, üslubunu kökündən dəyişdirmişdir. Məqalədə Klopştokun novator poeziyasından bəhs edilir.

ПРОСВЕТИТЕЛЬСКИЕ ВЗГЛЯДЫ ФРИДРИХА ГОТЛИБА КЛОПШТОКА

Резюме

Выдающееся место в литературной жизни Германии XVIII в. занимал Клопшток, прославившийся как одописец, как автор ряда драм, написанных на материале отечественной истории. Фридрих Готлиб Клопшток - один из важнейших **немецких** поэтов. Он был одним из самых ярких представителей эпохи Просвещения. Его пьесы и теоретические труды оказали значительное влияние на развитие немецкой литературы. Клопшток был писателем большого политического темперамента. Он воспевал французскую революцию, подвергал критике деспотизм немецких князей, внес в немецкую поэзию пафос гражданственности. Клопшток сыграл значительную роль в истории немецкой литературы. Он — зачинатель гражданской поэзии, борец за национальную самобытность в искусстве. Клопшток обогатил поэтический словарь немецкого языка. Именно в поэзии Клопштока достигается неповторимый синтез аналитичности и не просто чувствительности – сверхчувствительности, то соединение глубины философской мысли и экстатичности, которыми отличается немецкая философская поэзия. Клопшток невиданно расширил тематический круг немецкой лирической поэзии, преобразив старые и введя в нее новые тематические пласты и исторически новые образы и мотивы, кардинально изменив ее стилистику. В статье рассматриваются новаторские поэзии Клопштока.

ENLIGHTENMENT VIEWS OF FRIEDRICH GOTTLIEB KLOPSTOCK

Summary

An outstanding place in the literary life of Germany in the XVIII century was occupied by Klopstock, who became famous as an ode writer, as the author of a number of dramas written on the basis of national history. Friedrich Gottlieb Klopstock is one of the most important German poets. He one of the most outstanding representatives of the Enlightenment era. His plays and theoretical writings substantially influenced the development of German literature. Klopstock was a writer of great political temperament. He sang of the French Revolution, criticized the despotism of the German princes, introduced the pathos of citizenship into German poetry. Klopstock played a significant role in the history of German literature. He is the initiator of civic poetry, a fighter for national identity in art. Klopstock enriched the poetic dictionary of the German language. It is in Klopstock's poetry that a unique synthesis of analyticity and not just sensitivity - supersensitivity is achieved, that is the combination of the depth of philosophical thought and ecstasy, which distinguishes German philosophical poetry. Klopstock unprecedentedly expanded the thematic range of German lyric poetry, transforming the old and introducing new thematic layers and historically new images and motifs into it, radically changing its style.

This article discusses his pathbreaking poetry of Klopstock.

RƏYÇİ: dos. L.Ələkbərova

Leylaxanım Qurbanova [65]

SƏMƏD BEHRƏNGİ YARADICILIĞINDA AZADLIQ VƏ VƏTƏNPƏRVƏRLİK MOTİVLƏRİ

Azərbaycan mədəniyyəti – Şimal və Cənub siyasi-coğrafi məkanında inkişaf etsə də, eyni xalqın düşüncə, təfəkkür bütövlüyünü qoruyub saxlamışdır. Fərqli ictimai-siyasi şəraitə düşməsindən asılı olmayaraq, bütün dövrlərdə Azərbaycan ədəbiyyatı, folkloru ümumtürk etnokulturoloji xüsusiyyətlərini əks etdirmişdir.

Şimalda Sovet rejimi, Cənubda Pəhləvi rejimi xalqın mədəniyyətinə ideoloji baxımdan öz təsirini göstərmişdir. Siyasi rejimlər xalqın taleyi və mənəviyyatı üçün nə qədər təhlükəli olsa belə, xalq əsrlərdən gələn dəyərləri, soy-kökə bağlılığı yaşatmışdır. Cənubda məhz şifahi xalq ədəbiyyatı xalqın ruhunun özünüifadəsinə çevrilmişdir.

Bu dövrdən başlayaraq Cənubi Azərbaycan ziyalıları, yaradıcı şəxslər mənəvi irsin araşdırılıb təbliğ edilməsi kimi vəzifəni öz boyunlarına götürmüşlər.

Belə yazıçı-publisistlərdən biri də 1950-60-cı illərdə Cənubi Azərbaycan folklorunun toplanması, tərcümə və təbliği işinə böyük əmək sərf edən Səməd İzzətoğlu Behrəngi olmuşdur.

Səməd Behrəngi mütərəqqi İran ziyalılarının mübariz nümayəndələrindən biridir.

Zəhmətkeş kəndlilərin həyatı ilə yaxından tanışlıq Səməddə həmvətənlərinin sıxıntılarını qələmə almaq həvəsi oyadır. Az bir zamanda o, vətəndaş-yazıçı və uzaqgörən pedaqoq kimi tanınır.

Səməd Behrəngi bir tərəfdən İranın ictimai geriliyinə, cəhalət və mədəniyyətsizliyə qarşı mübarizə aparırdısa, digər tərəfdən Qərb həyat tərzinin, əxlaq normalarının təsirindən doğan fəlakətlərə qarşı etiraz səsini ucaldırdı. Bu etiraz haqsızlıqla, ictimai fəlakətlərlə barışmayan mütərəqqi İran ziyalılarının ümumi əhval-ruhiyyəsinin ifadəsi idi.

Səməd Behrəngi yaradıcılığı çoxşaxəlidir. O, həm uşaq nağıllarının, təlim-tərbiyə, ictimai-siyasi problemlərə həsr olunmuş məqalələrin müəllifi, həm də Azərbaycan şifahi xalq ədəbiyyatının tədqiqatçısı və təbliğatçısı kimi tanınır. Onun publisistikasında əsas yeri ictimai tərbiyə problemlərinə həsr edilmiş məqalələri tutur. Səməd Behrəngi az bir müddət ərzində İran təlim və tərbiyə sisteminin bütün qüsurlarını görmüş və bunların aradan qaldırılması yollarına dair maraqlı fikirlər söyləmişdir. Onun bu haqda məqalələri "İran tərbiyə sistemi barədə fikirlər" kitabına daxil edilmişdir.

Səməd Behrənginin tədqiqatçılarından görkəmli alim C.Nəbioğlunun fikirləri yerinə düşər: "Behrəngi yaradıcılığına verilən ən layiqli qiymətdir. O yazır ki, Səməd Behrəngi Azərbaycandakı milli azadlıq mübarizəsində simvollaşmış bir addır. Həmkarları onu "Azərbaycan kəndilərinin canlı dili", "Milli mədəniyyətin oyaq vicdanı", "Xalqa üz tutan", "Səyyar müəllim" adlandırmışlar.

Qələmə aldığı nağıllarda da Səməd qüdrətli yazıçıdır. Nağıllar aləmindən aldığı təəssüratı qüdrətlə əlləri ilə mum kimi yumşaldaraq istədiyi fiquru düzəldən bir rəssamdır, heykəltaraşdır.

Realist Səmədin sənət dünyasında əfsanəlik ilə reallıq elə bir tərzdə bir-birlərinə çulğalaşır ki, bu məxluqdan yüksələn həyati rayihəni duymaq üçün xüsusi qabiliyyət tələb olunmur (1, s. 17).

Səməd Behrəngi əsərlərinin mövzusunu haradan götürürsə-götürsün, İranın, demək olar ki, ən mühüm sosial problemləri orada öz əksini tapır. O, uşaqlar üçün yazdığı nağılların bir çoxunun mövzusunu Azərbaycan folklorundan alır, lakin adi nağıl belə, onun qələmindən ciddi ictimai-siyasi problemlərə toxunan bir əsər kimi çıxırdı.

Onun qəhrəmanları məzlum, əzilən təbəqənin övladlarıdır. Onlar cəmiyyətin kəskin təzadlarını addımbaşı öz çiyinlərində hiss edirlər. Bu bərabərsizlik məngənəsində hələ ruhən kifayət qədər möhkəmlənməmiş uşaqlar daha çox sıxılır.

Müəllifin nəzərində gözəl oyuncaqlara, şəkilli kitablara, bahalı paltarlara ancaq vitrin arxasından baxa bilən bu balacalar İranın sabahıdır.

Onun qəhrəmanları acı taleləri ilə barışa bilmir, yaş və ağıl səviyyələrinə uyğun mübarizə edirlər. "Çuğundursatan oğlan" hekayəsinin qəhrəmanı 10-12 yaşlı Tanrıverdi bacısına pis gözlə baxan sahibkar Hacı Qulunu öldürmək istəyir.

"Ulduz və qarğalar" nağılının qəhrəmanları Yeduz və Yaşar dərd sirdaşları ağıllı qarğalara göz verib işıq verməyən qara köpəyi öldürürlər.

Ulduzun analığının əlinə düşən və öldürüləcəyini hiss edən qarğa qəzəblə deyir: "Məgər bizim bu şəhərdə yaşamağa ixtiyarımız yoxdur? Niyə biz hamı ilə ürəyimiz istədiyimiz kimi dostluq edə bilmirik?".

Səməd Behrəngi canından artıq istədiyi uşaqlara başa salırdı ki, cəmiyyətdə hamı bir yaşamır. Bu isə ictimai bəladır, sağalmaz xəstəlikdir. Lakin hər bir xəstəliyin əlacı var və yazıçı sadə və aydın dillə yazırdı ki, həkimlər xəstəliyi sağaltmaq üçün əvvəlcə onun mikroblarını axtarır, sonra müalicə edirlər. Zorakılıq, yalançılıq, rüşvət və oğurluq da ictimai xəstəliklərdir. "Cəmiyyət bizim həmvətənlərimizin yaşadığı yerdir, ictimai xəstəliklər isə burada baş verən hadisələrdir... Siz heç də bu fikirdə olmayın ki, bu mirası əl vurmamış övladlarınıza verməlisiniz. Cəmiyyət əmanət deyil ki, onu olduğu kimi saxlayasınız" (4, s. 23).

S.Behrəngi belə sadə və aydın dillə öz kiçik uşaqlarının ürəyini ələ alır, oxuduqları kitabı yerə qoymaması üçün, öz qəhrəmanlarını əfsanəvi qəhrəmanlar kimi göylərə uçurur, göyərçin cildinə salır, fövqəladə dərəcədə güclü, qüvvətli göstərir.

İnsan üçün ən ali nemət olan azadlıq ideyası Səməd Behrənginin "Bir şaftalı və min şaftalı", "Qarı və çil fərəsi", "İyirmi dörd saat yuxuda və ayıqlıqda", "Məhəbbət əfsanəsi" və s. əsərlərinin də başlıca motivləridir. Azadlığa qovuşmaq isə

[65] Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universiteti. leylaxanim.gurbanova@gmail.com

heç də asan deyil. Onun üçün həyatını qurban verməlisən. Səmədin qəhrəmanları olan Gecə cücəsi, Laləgülü, Şeytan, Balaca qara balıq, Şaftalı ağacı, Ata qarğa, Ana qarğa azadlığa məhz həyatlarından keçərək qovuşurlar.

Səməd Behrənginin Kiçik Qara balığı azadlıq və əmin-amanlığın, varlısı-yoxsulu olmayan, qardaşlıq və bərabərsizliyin hökm sürdüyü bir cəmiyyət arzulayan İran uşaqlarının ümumiləşdirilmiş sürətidir. Kiçik Qara balıq ata-babalarının illər boyu yaşayıb orada da öldüyü palçıqlı gölməçədən çıxmaq, çaylar keçərək dənizlər, okeanlar arzusundadır. Amma anası deyir ki, səni burdan çıxmağa qoymazlar. Çıxsan da, yolunda dəfələrlə dəhşətli balıqyeyən saqqaya rast gələcəksən, o da səni məhv edəcək. Kiçik qara balıq isə ruhdan düşmür və anasına deyir ki, mən məhv olsam da getməliyəm. Mən bilməliyəm ki, böyük dənizlərdə həyat necədir.

Azadlıq rəmzi olan cəsur Kiçik qara balıq kimi Səməd Behrəngi də nəhənglərdən qorxmayaraq böyük dənizlərə can atırdı. Bu yolda o, son anına qədər çarpışdı, nəhayət böyük bir ümmanda: İran və dünyanın bir çox məzlum, azad xəyallı uşaqlarının ürəyində özünə yol tapdı.

"Balaca Qara balıq" nağılının qəhrəmanı Qara balıq bütün balıqları azadlığa çıxarmaq üçün balıqudanla mübarizəyə girişməyi qət edir. "Bir hulu, min hulu" nağılında şaftalı ağacı öz meyvələrini havayıyeyənlərə qismət olduğunu gördüyündən bəhər vermir.

Yazıçının ilk kitabı "Bir şaftalı, min şaftalı" adlanır. Ustad yazıçı Səməd Behrəngi kiçik dostuna bir nağıl danışır. O, nağılda iki uşağın əkdiyi bir şaftalı tumunun cücərib böyüyərək ağac olana qədər baxın başına nələr gəlir: Beləliklə, mən hərəkətdən və hərarətli əllərdən düşdüm, torpağın altında xoş və şirin yuxuya getdim ki, yazda daha hazırlıqlı və daha qüvvətli ayılım, cücərim, torpaqdan çıxıb Polad və Sahibəli üçün çoxmeyvəli ağac olum. Elə ağac ki, onun şaftalıları mənə baxanda, öz gözəlliyindən utanıb qızların qızarmış yanağına oxşasın, sulu və iri olsun. Qışda gördüyüm yuxulardan yadımda bir şey qalmayıb. Ancaq o yadımdadır ki, yekə ağac olmuşam. Polad və Sahibəli mənim gövdəmə dırmaşıb budaqlarımı silkələyirlər. Ağacın ətrafında toplaşan yarıçılpaq kəndli uşaqları yerə tökülən şaftalıları götürüb ləzzətlə yeyirlər. Ağızlarının suyu sinələrinə tökülür, çılpaq qarınlarını və hətta isladır (6, s. 7).

"24 saat – yuxuda və oyaqlıqda əsərinin qəhrəmanı" Lətif istədiyi oyuncağı almaq imkanı olmayan yüz minlərlə uşaqlardan biridir. Nəzərlərini saatlarla oyuncaq mağazasının vitrinindən zilləyir. Gözü qabağında dəfələrlə dövlətli uşaqları onun sevə-sevə tamaşa etdiyi oyuncaqları adi bir şey kimi qoltuqlarına vurub dükandan çıxırlar. O, hələ uşaqdır, bu bərabərsizliyin əsil səbəbini anlamır. Yazıçı qəhrəmanı Lətifi nağılın sonuna qədər müti bir oğlan kimi təsvir edə bilməzdi, bu onun yaradıcılıq prinsiplərinə uyğun deyildi. O, Lətifi epizoddan-epizoda püxtələşən bir surət kimi oxucuya çatdırır. Lətif konkret hadisələr nəticəsində yavaş-yavaş həyatı anlamağa və özünəməxsus bir tərzdə ictimai bərabərsizliyə qarşı etiraz etməyə başlayır.

Birinci dəfə Lətif iki dövlətli uşağının ikrah hissi ilə ondan uzaqlaşdığı vaxt sanki ayılır. Təhqir olunmuş qəhrəmanın davranışında mübarizənin ilk rüşeymi nəzərə çarpır. O, dövlətli balalarını döymək istəyir.

İkinci dəfə onu dilənçi bilib oyuncaq mağazasının qabağından qovarkən haqsızlığa qarşı üsyan səsini qaldırır və uzaqdan daş atıb vitrini sındırır.

Onun ən çox sevdiyi, yuxusuna girib həyati həqiqətləri ona başa salan oyuncaq dəvə satılarkən dözə bilmir. Şəhərin yarısını dəvəyə baxmaq üçün gəlib-gedən Lətif başa düşür ki, ədalətsiz quruluş onu oyuncaqlara baxmaq hüququndan belə məhrum edib.

Uşaqlar üçün nəzərdə tutulmuş "Buzovun" adlı nağıl hekayədə vətənpərvər ədib orijinal bir yol seçərək kiçik yaşlı uşaqlar üçün örtülü bir şəkildə öz fikir və düşüncələrini əks etdirib.

"Buzovum"

Buzovum
Bir buzovum vardı.
Pəyədə yeri vardı.
Apardım suvarmağa
Ayağa buzdan zövüdü
Dedim: "Buz, sən necə də güclüsən!"
Dedi: "Mən güclü olsaydım, gün məni əritməzdi".
Dedim: "Gün, sən necə də güclüsən!"
Dedi: "Mən güclü olsaydım, yağış məndən yağmazdı".
Dedim: Yağış, sən necə də güclüsən!"
Dedi: "Mən güclü olsaydım, bulud üstümü almazdı".
Dedim: "Bulud, sən necə də güclüsən!"
Dedi: "Mən güclü olsaydım, yağış məndən yağmazdı".
Dedim: "Yağış, sən necə də güclüsən!"
Dedi: "Mən güclü olsaydım, ot məndən göyərməzdi".
Dedim: "Ot, sən necə də güclüsən!"
Dedi: "Mən güclü olsaydım, qoyun məni yeməzdi".
Dedim: "Qoyun, sən necə də güclüsən!"
Dedi: "Mən güclü olsaydım, qurd məni yeməzdi".
Dedim: "Qurd, sən necə də güclüsən!"

Dedi: "Mən güclü olsaydım, it məni qovmazdı".

Dedim: İt, sən necə də güclüsən!"

Bir qələm sahibi kimi şifahi xalq ədəbiyyatından istifadə etmək Səməd Behrəngi üçün öz qəhrəmanlarına bir növ əfsanəvi qüdrət aşılamaq üçün lazım idi. Qəribə deyil ki, onun əsərlərində gəzib-dolaşan adamlar – balaca Ulduzlar, Yaşarlar, Gəlinciklər, Lətifələr, Sahiblər və başqaları istədikləri yerə uçur. Divlər aləmindən xəbər verir, Qarğalarla dil tapıb danışır, onlarla birlikdə qanad açıb əfsanəvi ölkəyə səfər edirlər. Hələ, "Balaca Qara balıq". Bu incə, zərif məxluqu Səməd Behrəngi sözün əsl mənasında insaniləşdirir. Onu sarsılmaz bir qüvvəyə çevirir. Naqqallarla əlbəyaxa döyüşlərdə qalib çıxarır.

Balaca Balıq:

- Qorxaqlar! - dedi, - Elə xəyal edirsiniz ki, yalvarmaqla bu hiyləgər rəhmdillik edib sizi buraxacaq?

Rizə balıqlar qorxuya düşüb dedilər:

- Heç nə danşdığını da bilmirsən. İndi görərsən, həzrəti-ağayi Saqqa quşu bizi necə bağışlayacaq və səni necə "qurt" eləyəcək!

Saqqa quşu dilləndi:

- Doğrudur, sizi bağışlayıram, ancaq bir şərtlə!

- Şərtinizi buyurun, qurban!

- Azadlığınızı bu boşboğaz balığı öldürməklə əldə edə bilərsiniz.

Balaca Qara Balıq bir qədər dala çəkilib Rizə balıqlara:

- İnanmayın, - dedi, - bu hiyləgər bizi bir-birimizin canına salmaq istəyir, mənim başqa fikrim var!..

Rizə balıqlar azadlığa çıxmaq istəyi ilə Balaca Qara Balığın dediklərinə qulaq asmadılar, qalxıb onun üstünə düşdülər. Balaca Balıq yavaş-yavaş arxaya çəkilib:

- Qorxaqlar! - dedi, - Hər halda girə düşmüsünüz, qaçmağa da yolunuz yoxdur. Mənə də gücünüz çatmaz!

- Azadlıqa çıxmaq istəyirik, onun üçün də səni öldürməliyik!

- Ağlınızı başınıza yığın! Məni öldürsəniz də qaçmaq üçün yol tapa bilməyəcəksiniz. Hiləgər quşa inanmayın!

- Sən əsla bizim fikrimizi çəkmirsən, bu sözləri canını qurtarmaq ücün deyirsən!

- Elə isə qulaq asın, sizə nicat yolu göstərim. Özümü ölülüyə vurub ölü balıqların içərisində gizlənəcəyəm. Görək Saqqa quşu sizi azad edəcəkdirmi?! Əgər sözümə qulaq asmasanız bu xəncərlə hamınızı qıraraq quşun da kisəsini parçalayıb çıxaram.

Səməd Behrənginin hekayələri barədə ümumi mülahizələr söyləməklə yanaşı, bədii yaradıcılığında xüsusi bir mövqe tutan "Balaca Qara Balıq" nağılı haqqında bir qədər geniş danışmaq lazımdır. Təbrizlilər Səmədi Qara balıq adlandırırdılar. Bunun səbəbi oxucuya müəllifin həyat və yaradıcılığı ilə kifayət qədər tanış olanda aydın olur. Qara balığın həyat yolu Behrənginin məramnaməsidir.

Qara balığın həyat yolu baş qarışdıran adi nağıl deyil, ibrət götürmək, həyata tətbiq etmək, passiv beyinləri düşündürmək, sönük, ümidsiz gözləri işıqlandırmaq, ölməkdə olan arzuları diriltmək üçündür. Əsər insanların əsrlərdən bəri istədiyi azadlığın labüdlüyünə, həmvətənlərində inam oyadır və onları bu böyük amal uğrunda qəti mübarizəyə səsləyir.

Əsərin qəhrəmanı Qara balıq zahirən milyonlarla başqa həmvətənlərindən heç bir şeylə fərqlənmir. O da başqaları kimi, anası ilə gəzməyə çıxır, yaşadıqları arxın ancaq məhdud bir hissəsini görür, gecələr isə yosunların altında yatır. Lakin onunla bir qədər yaxından tanış olanda görürsən ki, üç əsas xüsusiyyəti Qara balığı dostlarından, yoldaşlarından, qohumlarından fərqləndirir: iradə, dünyagörüşü və təfəkkür. O, çox düşünür. Nə barədə? Qəhrəman həyatın yeknəsəqliyindən, solğunluğundan, mənasızlığından yorulur və nəhayət, üsyan edir. Onun üsyanını şüursuz adlandırmaq olmaz. Bu üsyan ömürdən gedən günlərin faydasız yerə küləyə sovrulmasından doğur. Qara balıq "başqa cür" yaşamaq istəyir. Kiçik vücuduna baxmayaraq əsrlərlə tapdanmış yoldan üz döndərir, arzusuna çatmaq üçün yeni yollar salmaq istəyir.

Onun qarşısında üç yol durur: birinci yol – bu şəraitlə həmişəlik barışmaq, "palaza bürün, elnən sürün" prinsipi ilə ömür çürütmək. İkinci yol – vəziyyətlə müvəqqəti razılaşmaq, məqsədini, ona yetişməyin yollarını aydınlaşdıranadək səbr etmək. Üçüncü yol isə dayanmadan hərəkət etmək, yorulmadan mübarizə aparmaq, böyük məqsədə can atmaq.

Qara balıq yol üstündə bir dəstə balaca balığa rast gəlir. Onlar Qara balığa qoşulub çayın sonunadək getmək istəyirlər, ancaq hamısı balıqudandan qorxur. Balıqudanın kisəsi qorxaqlar üçün keçilməz bir maneədir. Onlardan biri deyir ki, əgər balıqudan olmasaydı, səninlə gedərdik, biz balıqudanın kisəsindən qorxuruq. Bu kəlmələr həyat həqiqətinin acı etirafi kimi səslənir. Mübarizədən qorxanlar az deyil. Qorxu belələrini hər addımda izləyir. Onlar üçün azadlıq yolunu kəsmiş zindan keçilməz bir səddir. Onlar mərd mübarizələrdən fərqli olaraq zindansız, sürgünsüz, qansız bir azadlıq yolunun da olduğunu güman edirlər. Lakin son nəfəsinə qədər döyüşməyə hazır olan, zindandan qorxmayan cəsur bir üsyankarla görüşdən sonra bu miskinlərdən bir neçəsi onunla yol yoldaşı olmağı qət edir.

Balıqudan xırda balıqları udandan sonra qorxaq balıqların qarşısında bir şərt qoyur: onları səadətə səsləyən Qara balığı öldürsələr, azadlıq əldə edəcəklər. Balaca balıqların rəzilliyi tamamilə aşkara çıxır, onlar iradəli, cəsur üsyankarın qurbanı bahasına "azadlıq" əldə etmək istəyirlər. Bir qədər əvvəl özlərini onun məsləkdaşı kimi qələmə verən yol yoldaşları deyirlər: "Gərək səni boğaq, biz azadlıq istəyirik!". Onlar azadlıq istəyirlər, lakin arzuları uğrunda döyüşmək iqtidarında deyillər. Belələri azadlığı ancaq hədiyyə kimi gözləyirlər.

Balaca balıqlar onu öldürməyi qət edirlər, lakin kərtənkələnin verdiyi xəncərdən qorxduqları üçün balıqudana yalandan Qara balığı öldürdüklərini deyirlər. Balıqudan da cavabında əl-ayağı əsən satqınları udur, Qara balıq isə xəncərlə

özünü zindandan xilas edir. O bunu əvvəldən də edə bilərdi, lakin xırda balıqları, dünyanın bütün miskinlərini tanımaq üçün əlinə düşmüş bu imkandan üz döndərmək ağıllı iş olmazdı.

Qara balıq nəhayət, dənizə çatır. Dəniz bütün gözəlliyi ilə onun qarşısında cilvələnir. Oxucuda belə bir təsəvvür yaranır ki, bundan sonra Qara balıq azadlığa çıxmış balıqların qəhrəmanı olacaq, xoşbəxtlik içində ömrünün sonunadək firavan yaşayacaq. Lakin müəllif dünənin kölgəsində yatan qəhrəman istəmir. O, qəhrəmanı ancaq qızğın fəaliyyətdə, əbədi mübarizədə qəbul edir. Behrəngi öz müqəddəs vəzifəsini yerinə yetirmiş, qısa, lakin mənalı ömür sürmüş qəhrəmanın cismən yaşamasını o qədər də vacib saymır. Müəllif Qara balığı əbədiyyətə qovuşdurur. Onun qəhrəmanı bundan sonra azadlığa çıxacaq hər bir balığın həyatında yaşayır. Qara balıq artıq azad olmuş bir fərd deyil, o, azadlığın, səadətin, xoşbəxtliyin bir hissəsidir.

Hekayəni doğma dilimizə çevirən Güntay Gəncalp məqaləsində əsərlə bağlı fikirlərini belə ifadə edir: "…"Qaraca balıq" həqiqəti, sonsuzluğu və ruhi bütünlüyü axtaran bir insanı xatırladır. Bu yoldakı mübarizədə təcrübə qazanıb dolğunlaşan, macəradan macəraya atılan, bir an belə doğrunu aramaqdan vaz keçməyən bir insan. Qarşısına türlü-türlü cəhalət çıxır, həyatını məhv edən vəhşilərlə qarşılaşır Qaraca balıq. Ancaq həyat doğrunu öyrənməyə həsr edilmirsə, onun nə anlamı var. Həyata anlam verən hərəkətdir. Çünki hərəkət edərkən təcrübə qazanılır, yeni hədəflər ortaya çıxır. Behrəngi çox gözəl təsbit etmiş bunu ki, böyük amac yolunda səfərə çıxarkən, qorxu hissi öz-özünə yox olur. …Necə ki, Qaraca balıq öz qılıncı ilə balıqdan quşu, balıqları yeyən naqqanı içlərindən vurur. Öz qılıncı ilə onların qarnını yırtıb və balıqların həyatını təhlükədən qurtarır. Hamı qəhrəman olmaz. Qəhrəmanlıq üçün hünər və xarakter lazımdır. Bir qəhrəmanın, bir fikir adamının hesabına bir millət və bir topluluq azadlığını əldə edir…". (4, s. 6).

Səməd Behrəngi qısa və şərəfli bir ömür sürdü. Azərbaycan xalqının qeyrətli oğlu, görkəmli yazıçı, müəllim yaradıcılığının ən çiçəklənmiyi bir dövrdə 29 yaşında (1939-1968) həyatla vidalaşdı.

Ədəbiyyat siyahısı

1. Cabir Nəbioğlu. Əfsanəyə bənzər ömür. Bakı, 2012
2. Cəlil Al Əhməd. Səməd və xalq əfsanəsi. Tehran, Areş, 1347, s.12
3. Güney Azərbaycan folkloru. III kitab. Bakı, Elm və təhsil nəşriyyatı, 2014, 230 s.
4. Güntay Gəncalp. "Qaraca Balıq". Tehran Areş. 1348
5. Səməd Behrəngi. Məhəbbət nağılı. Bakı, 1987
6. Səməd Behrəngi. Balaca Qara Balıq. Bakı, 1969
7. Səməd Behrəngi. Bir şaftalı, min şaftalı
8. Türk xalqları antalogiyası. Bakı, 2013. II cild

Açar sözlər: cənub, uşaq, azadlıq, ədəbiyyat, nağıl
Key words: south, child, freedom, literature, fairy tale
Ключевые слова: юг, ребенок, свобода, литература, сказка

Xülasə

"Səməd Behrəngi yaradıcılığında azadlıq və vətənpərvərlik motivləri " adlı məqalədə yazıçının həyat və yaradıcılığı haqqında məlumat verilir. Səməd Behrəngi realist yazıçı idi, onun əsərlərinin mövzusu həyatdan, daha dəqiq desək, yaşadığı mühitdən götürülmüşdür. Müəllif bu əsərlərində öz dövründə baş verən müxtəlif ziddiyyətli hadisələrin mahiyyətinə daxil olmuş, onları açıb yeni nəslə göstərməyə çalışmışdır.

S.Behrənginin "Balaca Qara Balıq" alleqorik əsəri çox məşhurdur. Əsərdə təsvir edilən fantastik aləm o qədər inandırıcı, aydın, uşaqların başa düşdüyü dildə təsvir olunmuşdur. Onu oxuyanlar Balaca Qara Balığın başına gələn hadisələrin mahiyyətini anlamaqda çətinlik çəkmir. Behrənginin "Balaca Qara Balıq" kitabı yazıçının ölümündən sonra 1969-cu ildə İtaliyanın Baloniya şəhərində keçirilən Uşaq Kitabları Müsabiqəsində birinci yeri tutmuş, Qızıl medal almışdır. Səməd Behrənginin əsərlərində qoyduğu məsələlərdən aydın olur ki, o, vətənini, xalqını ürəkdən sevən onun ağır günlərinə qəlbən yanan, mübarizə aparan vətənpərvər idi. Behrəngi üçün məslək hər şeydən: hətta həyatdan da qiymətli idi. O, ölümdən deyil, diri ikən yaşaya bilməməkdən qorxurdu. Behrəngi həm də yaşadığı cəmiyyətin dərdlərini yaxşı bilən bir müəllim idi. Oxucularını nəyəsə çağırır, nədənsə üz döndərməyə səsləyirdi. Ədibin "Ulduz və qarğalar", "Binam", "Ulduz və danışan gəlincik", "Bir şaftalı, min şaftalı", "Çuğundursatan oğlan" kimi hekayələri də ümumi amalına xidmət edir.

Motifs of freedom and patriotism in Samad Behrangi's work

Summary

The article " Motifs of freedom and patriotism in Samad Behrangi's work " provides information about the writer's life and work. Samad Behrangi was a realist writer; the subject of his works was taken from life, or more precisely, from the environment in which he lived. In these works, the author got into the essence of various contradictory events that happened in his time, tried to reveal them, and showed them to the new generation.

Samad Behrangi's allegorical work, "Balaca Qara Balıq" is very famous. The fantastic world described in the work is believable, clear, and described in a language that children can understand. Those who read it have no difficulty understanding the essence of the events that happened to the little black fish. Samad Behrangi's book "Balaca Qara Balıq" took first place and received a gold medal at the Children's Book Competition held in Balonia, Italy, in 1969, after the writer's death. It is clear from the issues raised by Samad Behrangi in his works that he was a patriot who loved his country and

people from the bottom of his heart and fought with his heart during its difficult days. For Behrangi, work was more valuable than anything, even life. He was not afraid of death, but of not being able to live while alive. Behrangi was also a teacher who knew well the problems of the society in which he lived.

He was calling his readers to something, calling them to turn away from something. The writer's stories like "Ulduz və qarğalar", “Binam”, “Ulduz və danışan gəlincik”, “Bir şaftalı, min şaftalı”, “Çuğundursatan oğlan” also serve the general purpose.

Мотивы свободы и патриотизма в творчестве Самеда Бехранги

Резюме

В статье «Мотивы свободы и патриотизма в творчестве Самеда Бехранги» представлена информация о жизни и творчестве писателя.

Самед Бехранги был писателем-реалистом, сюжет всех его произведений был взят из жизни, точнее, из среды, в которой он жил. В этих произведениях автор вникал в суть различных противоречивых событий, происходивших в его время, пытался раскрыть их и показать будущему поколению.

Фантастический мир, описанный в известном аллегорическом произведении «Маленькая черная рыбка», настолько правдоподобен, нагляден, написан доступным для детей языком, что читателям нетрудно понять суть событий, произошедших с Маленькой Черной Рыбкой. Книга Бехранги «Маленькая черная рыбка» заняла первое место и получила золотую медаль на Конкурсе детской книги, проходившем в Болонье, (Италия), в 1969 году после смерти писателя. Самед Бехранги был патриотом, всем сердцем любившим свою страну и свой народ. В своих произведениях он затрагивал проблемы бедности и несправедливости. Для Бехранги работа была дороже всего: даже жизни. Он боялся не смерти, а невозможности жить при жизни. Бехранги также был учителем, хорошо знавшим проблемы общества, в котором жил. В своих произведениях: «Звезды и вороны», «Звезда и говорящая кукла», «Один персик, тысяча персиков», «Мальчик, который продает свеклу», он призывал своих читателей к чему-то, призывая их отвернуться от чего-то.

RƏYÇİ: dos. S.Abbasova

Elçin Hüseyn oğlu Məmmədov[66]

QARABAĞ ƏDƏBİ MÜHİTİNİN İNKİŞAFINDA QASIM BƏY ZAKİRİN ROLU

Tarix boyu Qarabağ ədəbi mühiti Yaxın və Orta Şərqdə böyük təsir gücünə malik olmuş, bu qədim Azərbaycan torpağı türk dünyasına görkəmli şəxsiyyətlər bəxş etmişdir. Xüsusilə XIX əsrdə Azərbaycanın ədəbi-mədəni həyatında baş verən yeniliklərdə Qarabağ ədəbi mühitinin əhəmiyyətli dərəcədə təsiri olmuşdur. Dövrün mənzərəsi haqqında tarixi və elmi mənbələrdə geniş məlumat verildiyindən biz deyilənləri yenidən təkrarlamağa ehtiyac duymuruq. Ümumən, diqqət yetirdikdə Qarabağ ədəbi-mədəni mühitinin Azərbaycan ədəbiyyatının inkişafındakı rolunu burada yetişən onlarla ədəbi şəxsiyyətin fəaliyyətindən aydın görmək olar: İlk realist şeirin banisi - M.P.Vaqif; Satirik şeirin, ümumən, tənqidi realizmin yaradıcılarından biri - Qasım bəy Zakir; Azərbaycanın ilk anadilli qadın şairi - Xurşidbanu Natəvan; Tarixi dram janrının yaradıcısı, ilk opera rejissoru və BDU-nun ilk azərbaycanlı müəllimlərdən biri – Əbdürrəhim bəy Haqverdiyev; İlk faciə janrının müəllifi, Azərbaycan teatrının banilərindən biri - Nəcəf bəy Vəzirov; Böyük dramaturq və publisist, Şərqdə ilk operanın banisi və ilk liberetto müəllifi – Üzeyir Hacıbəyov; İlk tarixi romanların müəllifi və dövlət xadimi – Yusif Vəzir Çəmənzəminli; Yazıçı-publisist, alim və ideoloq - Əhməd bəy Ağaoğlu; İlk ədəbiyyatşünas alim, yazıçı, Qori və Qazax Müəllimlər Seminariyasının müdiri – Firidun bəy Köçərli; Uşaq ədəbiyyatının yaradıcılarından biri - Süleyman Sani Axundov; Yazıçı-publisist və ictimai-siyasi xadim Ceyhun bəy Hacıbəyli... Sonrakı dövrləri də nəzərdən keçirsək, bu siyahını bir qədər də uzatmaq olar. Ancaq tarixi reallıq onu deməyə əsas verir ki, Qarabağda doğulan, burada yetişən görkəmli xadimlər Azərbaycanda ədəbi-mədəni fikrin inkişafında müstəsna rol oynamış, onların fəaliyyəti ölkəmizin də sərhədlərini aşaraq dünya ədəbiyyatına və mədəniyyətinə misilsiz töhfələr vermişdir.

Azərbaycan ədəbiyyatının zənginləşməsində, poetik ənənələrin uğurla davam etdirilməsində, ana dilimizin inkişafında mühüm xidmətləri olan görkəmli sənətkarlardan biri də Şuşa ədəbi mühitinin yetirməsi Qasım bəy Zakirdir. Qarabağın məşhur Cavanşirlər nəslindən olan, Şuşada dünyaya göz açan, Rusiya – İran müharibələrində aktiv iştirakı ilə fərqlənən, ömrünün az bir qismini günahsız yerə həbsdə keçirən, çətin məqamlarda qələm dostları M.F.Axundzadə və İ.Qutqaşınlıdan dəstək alan, ağır günlərdə öz iradəsini möhkəm tutaraq kimsəyə əyilməyən Qasım bəy Zakir Qarabağ ədəbi mühitinin, ümumən, ədəbiyyatımızın yüksələn xətt üzrə inkişafında müstəsna xidmətlər göstərmiş, adını ədəbiyyat tariximizə əbədi həkk etmişdir.

"Qasım bəy Zakir XIX yüzilliyin həm görkəmli şairi, həm də ictimai satiranın banisi, maarifçi, aşıq poeziyasının varisi və davamçısıdır. Azərbaycan klassik ədəbiyyatının qabaqcıl ənənələrinin layiqli davamçısı olan şair, onun məzmununu xeyli zənginləşdirmiş, haqsızlığı, ictimai bərabərsizliyi, istismarçı siniflərin yaramaz əxlaqını, yadelli işğalçıların özbaşınalığını ifşa edərək qiymətli əsərlər yaratmışdır" (14, s. 1). Q.Zakirin ədəbi irsi Azərbaycan ədəbiyyatı xəzinəsinə, onun realist qolunun inkişafı tarixinə yeni bir mərhələ açan hadisə kimi daxil olmuşdur.

Qasım bəy Zakirin yaradıcılığı hələ öz dövründə Mirzə Fətəli Axundzadə kimi dahi sənətkarın diqqətini cəlb etmişdir. O, şairin realist yardıcılığını, əsərlərindəki məzmun zənginliyini belə qiymətləndirmişdir: "Amma mən əyyami-səyahətimdə səfheyi-Qarabağda Molla Pənah Vaqifin bir para xəyalını gördüm ki, zikr etdiyim sərt bir növ ilə onda göründü və dəxi Qasım bəy Sarıcaluyi Cavanşirə düçar oldum ki, əhli-türk dilində onun mənzumatı mənim heyrətimə bais oldu. Ondan ötrü ki, dediyim şərt ziyadə onun mənzumatında tapıldı. Mənim əqidəmə görə tarixi-hicrdən indiyədək türk arasında şeir münhəsirdir bu iki şəxsə görə bir də bir Məsihə var imiş. Xəyalatı az tapılar" (13). N.Nərimanov Azərbaycan dili və ədəbiyyatının inkişafı uğrunda mübarizə apararkən ana dilinin gözəl məziyyətlərini əks etdirən Q.Zakirin poeziyasını və onun dilini öyrənməyə çağırırdı. Ədəbiyyatşünas alim F.Köçərli də Q.Zakirə "öz zəmanəsinin ən huşyar, ən istedadlı sənətkarı" kimi baxırdı (14, s. 2).

Q.Zakir haqqında ilk kitabı ədəbiyyatşünas alim Salman Mümtaz 1925-ci ildə çap etdirmiş, ona geniş bir müqəddimə də yazmışdır. Onun barəsində yazılmış məqalələr içərisində H.Səmədzadənin "Qasım bəy Zakir" ("Ədəbiyyat" qəzeti, 1925), Ə.Dəmirçizadənin "Zakirin dili haqqında" ("Ədəbiyyat" qəzeti, 1935), Həmid Araslının "Qasım bəy Zakirin yeni divanı" ("Ədəbiyyat" qəzeti, 1938), Ə.Səidzadənin "Axundov və Zakir arasında məktublaşmalar" adlı məqalələri şairin zəngin yaradıcılığını, onun şeirlərinin dilini, ədəbiyyat tarixində tutduğu mövqeyi öyrənmək baxımından əhəmiyyətlidir.

H.Səmədzadə Zakiri M.P.Vaqifin yaratmış olduğu ədəbi cərəyana, ədəbi məktəbə mənsub bir şair kimi belə xarakterizə edir: "Zakir ədəbi fəaliyyətini, Vaqifin gətirmiş olduğu yeni xüsusiyyətləri yeni şeirin inkişafı yolunda sərf ertmişdir. Zakir bu yeniliyin davamçısı olduğu, Vaqif lirikasını və realizmini daha ziyadə genişləndirdiyi üçün bu yeni cərəyan onların hər ikisinin adı ilə adlandırılsa, daha düzgün, daha doğru olar" (4, s. 51).

Məlumdur ki, Zakir yaradıcılığının kökü şifahi xalq ədəbiyyatı ilə bağlıdır. Buna görə də onun şeirlərinin dili sadə və aydındır. Ə.Dəmirçizadə "Zakirin dili" məqaləsində qeyd edir ki, "O, doğrudan da, XIX əsrin I yarısına məxsus ədəbi-bədii dilimizi öyrənmək üçün ən dolğun, ən zəngin bir xəzinədir. Zakir Vaqif ilə Mirzə Fətəli Axundov arasında yeni bir keçid pilləsi təşkil edir. Mirzə Fətəlinin nəsr dilində yaratdığını Zakir nəzm dilində inkişaf etdirərək ondan əvvəl yaratmışdır" (4, s. 67).

Q.Zakirin ədəbi dilimizin inkişafındakı rolunu yüksək qiymətləndirən akademik T.Hacıyev qeyd edir ki, "Zakirin fərdi üslubunda ənənə ilə yenilik çulğaşır, bununla da deyilənləri hazır təkrar edən bir çox istedadlı çağdaşlarından fərqli

---

[66] Bakı Dövlət Universiteti, Filologiya fakültəsinin dekanı, dosent

olaraq, o, müasir ədəbi şəxsiyyət kimi formalaşır. Zakir bədii nitqi ilə bir tərəfdən, Vaqif demokratizminin davamçısı, digər tərəfdən, Mirzə Fətəlinin yeni sənət dilinin bilavasitə başlanğıcıdır" (1, s. 48).

Q.Zakirin irsini araşdıran alimlərdən biri akademik Feyzulla Qasımzadənin "XIX əsr Azərbaycan ədəbiyyatı tarixi" (2017) kitabındakı "Qasım bəy Zakir" oçerki şairin irsi haqqında mühüm məlumatları özündə əks etdirir. Burada görkəmli şairin tərcümeyi-halı və yaradıcılığı ətraflı şəkildə tədqiq olunur (3, s. 227). Eyni zamanda F.Qasımzadə dövri mətbuatda da Zakir haqqında müxtəlif məqalələrlə çıxış etmişdir. Akademikin "Görkəmli Azərbaycan şairi", "Qasım bəy Zakir", "Mütəfəkkir şair" kimi məqalələri onun bu istiqamətdə olan axtarışlarının məhsuludur.

Q.Zakirin yaradıcılığı janr xüsusiyyətləri ilə də fərqlənir. O, ədəbiyyatımızda ictimai satiranın banisi olmaqla yanaşı, həm də lirik şeirlərin ustasıdır. Zakirin lirikası öz mənbəyini doğma, canlı xalq şeirindən, ölməz klassik Azərbaycan poeziyasından, o cümlədən öncə də qeyd olunduğu kimi, M.P.Vaqif ənənələrindən almışdır. Bu münasibətlə, böyük şairimiz Səməd Vurğun yazmışdır: "Öz xalqının düşüncələrinin hakimi, onun sevimlisi olan Vaqif öldü, lakin onun şeir bayrağını başqa bir dövrün şairi - Zakir ələ aldı" (10, s. 7). Və T.Hacıyevin də vurğuladığı kimi, Zakir Vaqif məktəbindən dərs alıb; "ümumi poetik ruhu, üslub məzmunu və təşbeh sisteminin yaxınlığı ilə yanaşı, ona qeyri-adi olaraq Vaqifdən hazır poetik nitq kəsikləri də gəlir" (1, s. 49). Həqiqətən də, Qasım bəy Zakir yaradıcılığına nəzər yetirərkən aydın görünür ki, o, həmişə dahi Füzuli, ölməz Vaqif kimi şairlərin bədii irsindən məharətlə bəhrələnmişdir. Onların şeirlərindəki səmimilik, xalq ruhuna yaxınlıq, həyatilik kimi keyfiyyətlər Zakir şeirlərinə də hopmuşdur.

Zakirin lirikası incə insani hisslər, nəcib duyğular, xoş arzular lirikasıdır. Onun poeziyasında Füzuli nəfəsi duyulur, Vaqifin şirin ləhcəsinin səsi eşidilir. Ədəbiyyatşünas Ayaz Vəfalı "Füzuli öyrədir" kitabında qeyd edir ki, Zakirin qəzəllərində Füzuli ruhu var. Zakir Füzuli qəzəllərindən təsirlənərək öz qəzəllərini yazmışdır: "Müdrik Füzuli, aşiq Füzuli Zakir ilhamını qanadlandıran, ona qüvvət verən ədəbi şəxsiyyət kimi gözlərimiz önündə canlanır" (8, s. 143).

Professor Kamran Məmmədov "Qasım bəy Zakir" monoqrafiyasının (5), şair haqqında mətbuatda dərc olunan bir sıra məqalələrin ("Zakir yaradıcılığında folklor", "Əsrin güzgüsü", "Zakirin lirikası", "Bahar nəfəsli sənətkar", "Böyük Azərbaycan şairi", "Zakir haqqında yeni sənədlər") müəllifi, seçilmiş əsərlərinin tərtibçisidir.

Qasım bəy Zakir realist şairdir. Onun yaradıcılığı bütövlükdə xalqın mənəvi aləmini, həyatını olduğu kimi bədii lövhələrlə əks etdirdiyi üçün realist yaradıcılıqdır. Akademik M.İbrahimov yazmışdır: "Zakir yaradıcılığında realizm daha da büllurlaşır, kəskinləşir, ictimai mübarizədə bir vasitə olur" (2, s. 15-16).

Görkəmli yazıçı və ədəbiyyatşünas alim M.Cəlal "Füzuli sənətkarlığı" kitabında dahi şairin poetik istedadını belə səciyyələndirir: "Füzuli lirikdir, özü də çox böyük lirikdir, lakin Füzuli lirikasının ən zəngin qida mənbəyi insan və onu əhatə edən mühit, əlvan, mürəkkəb həyat və zəngin təbiətdir. Belə olmasaydı, şair yalnız aşiqin vurğun və məst aləminə qapılıb qalsaydı, yalnız məhdud eşq hissləri ilə yaşasaydı, böyük şair ola bilməzdi. Füzulinin lirik əsərlərindən görürük ki, təbiət gözəlliklərini ən yaxşı, ətraflı duyub, əhatə edən, incə həssas bir müşahidəyə malik idi" (6, s. 84). Bu fikirlər eynilə Zakirin lirikası haqqında da səsləndirilə bilər. Şair ətrafındakı gözəlliyi duyur, ondan zövq alır, bu gözəlliyi lirik şeirə köçürür. Bu münasibətlə ədəbiyyatşünas Ayaz Vəfalı yazır: "Zakir yaradıcılığı öz gözəl şeiriyyəti, qüvvətli lirizmi, dərin ictimai məzmunu ilə neçə-neçə nəslin mənəvi inkişafında, xalqını, vətənini, doğma ana dilini bütün varlığı ilə sevmək ruhunda, tərbiyəsində misilsiz kömək göstərmiş və göstərir" (9, s. 34).

Şair yaradıcılığı boyu feodal dünyasının rəzalətlərinə, yalanlarına üsyan etmiş, yaşadığı dövrün "səringun" olmasını istəmişdi. Onun acı gülüşlərində müsbət, ideal vətəndaş kədəri vardı. Vətənini və vətəndaşlarını hər cür bəladan azad görmək, insanın insan kimi yaşamaq istəyi satirik sənətkarın ən böyük idealı idi. Ədəbiyyatşünas S.Mümtazın sözləri ilə desək, "Zakir doğma yurdu və eli Azərbaycanın dərdinə yanıb yaxılan qəhrəman şairləmizdən biri olmuşdur" (11, s. 4).

Şairin canlı, qəlbə munis, poetik incilərində bəşəri ideallar, vətənin füsunkar mənzərələri, estetik duyum, rəngarəng təsvirlər, kəskin satirik vüsət, habelə doğma musiqimizdən nəşət edən zövq, fərəh, çılğın eşq və gözəlliklərin vəsfi parlaq şəkildə əks olunmuşdur. Bu baxımdan şair öz yaradıcılığında biri-birindən maraqlı bədii təsvir və ifadə vasitələri yaratmışdır. Məsələn, təşbehlər ədibin poeziyasında məna bütövlüyü, fikir bitkinliyi ilə diqqəti cəlb edir. Zakir istər şifahi xalq şeirində, istərsə yazılı ədəbiyyatda məlum təşbehlərdən bəhrələnmişdir:

Gözlərindi nərgiz, qaşlarındır yay,
Heç növcavan ola bilməz sənə tay,
Camalın görəndə daldalanır ay,
Günün nə həddi var çıxa üzünə? (12, s. 204).

Şeirdə *Gözlərindi nərgiz, qaşlarındır yay* misrası maraqlı bənzətməyə cavabdır. Bu hissədən aydın görünür ki, təsvir olunan qızın gözəlliyi misilsizdir. Hətta ay da onun cöhrəsini görəndə gizlənir, bu gözəlliyin önündə günəşin də çıxmağa haqqı yoxdur.

Beləliklə, dörd misralı kiçik parçada təşbehin gözəlliyi ilə sanki bədii portret yaradılmışdır. Şair tərəfindən *qaşları yaya, gözləri nərgizə* bənzədilən gözəlin xəyalı yaddaşımızda əbədi iz salır. Belə oxşar bənzətmələrə Vaqif şeirində də rast gəlirik:

Məhrəba, çeşmin çıraq, qönçədəhan, qaşı hilal,
Ləbləri cürəsi mərcan, şirin, şəhdi-zülal (7, s. 119).

Q.Zakir qoşmalarındakı təşbehlər orijinal yaradıclığın məhsuludur. Ona görə də təşbehlərin vasitəsilə gözəlin real sürəti heç vaxt yaddan çıxmır.

Söylə ki, göz yolda könül intizar,

Şəmtək oturub sübhədək ağlar,
Bu gün-sabah alər, ixtiyarın var,
Nə olur gedəsən, barı görəsən (12, s. 207).

Burada Q.Zakir *Şəmtək oturub sübhədək ağlar* misrasında təşbehdən istifadə etmişdir. Məlum olur ki, aşiq sevgilisinin intizarındadır. Aşiq sübhədək yanaraq ağlamaqdadır. Müəllif aşiqin sübhədək yanaraq ağlamasını şamın yanması ilə müqayisə edir və qoşmanın təsir gücünü artıran bənzətmə yaradır.

Zakir bütün bu bənzətmələrini öz sənətkarlıq süzgəcindən keçirərək orijinal şəkildə işlətmişdir. Şairdə söz ehtiyatının çoxluğu və zənginliyinin nəticəsidir ki, o, bir-birindən fərqli və rəngarəng təşbehlər yaratmağa müvəffəq ola bilmişdir. Bu bənzətmələrlə Zakir, insan qəlbinin dərinliklərinə nüfuz edə bilir və bu dərinliklərdə bəşəri hiss və həyəcanları, kədər və sevinci vüsal və hicranı həssas bir şair qəlbi ilə duya bilirdi.

Q.Zakirin lirikasında qüvvətli bir xəyal vardır. Yaradıcı xəyalın məhsulu olan bu şeir inciləri öz dolğunluğu, eyni zamanda milliliyi və tarixiliyi ilə ədəbiyyatımızda xüsusi mövqe tutur. Onun lirik şeirlərində həyat lövhələrindən alınan təsir hiss və həyəcanın qabarıq mənzərəsinin konkret bir sahəsini o qədər real əks etdirir ki, bu lirika əsasında rəssam asanlıqla tablo yarada bilər. Əsərləri iki əsrdən çox uzun bir zamanın imtahanından şərəflə çıxan şairin yaradıcılığı müasir poeziyamızın formalaşmasında, müxtəlif şeir janrları ilə zənginləşməsində böyük rol oynamışdır. Bu yaradıcılıq klassik Azərbaycan ədəbiyyatını öyrənmək, onun ənənələrindən bəhrələnmək üçün böyük bir xəzinədir. Elə bir xəzinədir ki, o, qədirbilən, öz dərin köklərinə möhkəm tellərlə bağlanan, öz ədəbiyyatını sevən, ona hörmətlə yanaşan xalqımız üçün həmişə qiymətlidir və öz dəyərini əsrlər boyu saxlayacaqdır. Ona görə də Qasım bəy Zakirin bədii irsi hər zaman aktualdır, hərtərəfli öyrənilməyə, tədqiq olunmağa layiq, misilsiz bir xəzinədir.

İstifadə olunmuş ədəbiyyat

1. Hacıyev T. Azərbaycan ədəbi dilinin tarixi. II cild. Bakı: Elm, 2012
2. İbrahimov M. Böyük demokrat. Bakı: Az.SSR EA nəşr., 1957
3. Qasımzadə F. XIX əsr Azərbaycan ədəbiyyatı tarixi. Bakı: Elm və təhsil, 2017
4. Qasım bəy Zakir haqqında məqalələr məcmuəsi. AMEA, Nizami adına Ədəbiyyat İnst. Bakı: Elm, 1985
5. Məmmədov K. Qasım bəy Zakir. Bakı: Elm, 1957
6. Mir Cəlal. Füzuli sənətkarlığı. Bakı: Yazıçı, 1958
7. Sevdiyim şeirlər. 2 cilddə. c 1. Bakı: Gənclik, 1973
8. Vəfalı A. Füzuli öyrədir. Bakı, Yazıçı, 1977
9. Vəfalı A. Müasirimiz Zakir. Ədəbiyyat və incəsənət. Bakı, 1984
10. Vurğun S. Xurşidbanu Natəvan. "Pravda" qəzeti. Bakı, 1940
11. Zakir Q. Seçilmiş əsərləri. Bakı: Yazıçı, 1984
12. Zakir Q. Seçilmiş əsərləri. Bakı: Avrasiya-Press, 2005
13. M.F.Axundzadənin ev muzeyinin rəsmi feysbuk səhifəsi: https://www.facebook.com/229443960737239/posts/331479850533649/
14. Qasım bəy Zakir : https://www.clb.az/files/mv/qasim_bey_zakir.pdf

Açar sözlər: Qarabağ ədəbi mühiti, Qasım bəy Zakir, bədii yaradıcılıq, elmi-nəzəri görüşlər

Ключевые слова: Литературная среда Карабаха, Гасым Бек Закир, художественное творчество, научно-теоретические взгляды

Key words: Karabakh literary environment, Gasim Bey Zakir, artistic creativity, scientific-theoretical meetings

Qarabağ ədəbi mühitinin inkişafında Qasım bəy Zakirin rolu

Xülasə

Məqalədə görkəmli Azərbaycan şairi, Qarabağ ədəbi mühitinin inkişafında mühüm rolu olan Qasım bəy Zakirin yaradıcılığından bəhs olunur. Burada Qarabağ ədəbi mühitində yetişən sənətkarlar haqqında ümumi məlumat verilir, Şuşa ədəbi mühitinin yetirməsi olan Q.Zakirin irsi haqqında elmi-nəzəri fikirlər şərh olunur. Qeyd edilir ki, Azərbaycan ədəbiyyatının zənginləşməsində, poetik ənənələrin uğurla davam etdirilməsində, ana dilimizin inkişafında mühüm xidmətləri olan görkəmli sənətkarlardan biri də Şuşa ədəbi mühitinin yetirməsi Qasım bəy Zakirdir. Qarabağın məşhur Cavanşirlər nəslindən olan, Şuşada dünyaya göz açan, Rusiya – İran müharibələrində aktiv iştirakı ilə fərqlənən, ömrünün az bir qismini günahsız yerə həbsdə keçirən, çətin məqamlarda qələm dostları M.F.Axundzadə və İ.Qutqaşınlıdan dəstək alan, ağır günlərdə öz iradəsini möhkəm tutaraq kimsəyə əyilməyən Qasım bəy Zakir Qarabağ ədəbi mühitinin, ümumən, ədəbiyyatımızın yüksələk xətt üzrə inkişafında müstəsna xidmətlər göstərmiş, adını ədəbiyyat tariximizə əbədi həkk etmişdir.

Роль Гасым Бека Закира в развитии Карабахской литературной среды

Резюме

В статье рассказывается о творчестве Гасым-Бека Закира, выдающегося азербайджанского поэта, сыгравшего важную роль в развитии карабахской литературной среды. Здесь дается общая информация о художниках, воспитанных в литературной среде Карабаха, г. Шуша является воспитанником литературной среды.Комментируются научно-теоретические представления о наследии Закира. Отмечается, что одним из выдающихся художников, внесших значительный вклад в обогащение азербайджанской литературы, успешное продолжение поэтических традиций, развитие нашего родного языка, является воспитанник Шушинской литературной среды Гасым Бек Закир. Потомок знаменитых джаванширов Карабаха, открывших глаза на мир в Шуше, отличившихся активным участием в русско – иранских войнах, проведших в невинном заключении малую часть своей жизни, в трудные времена был близким другом М.F.Ахундзаде и И.Гасым-Бек Закир, получивший

поддержку от гутгашинлы, в тяжелые дни твердо державшийся своей воли и не склонявшийся ни к кому, оказал исключительные услуги в развитии карабахской литературной среды и нашей литературы в целом, навсегда вписал свое имя в историю нашей литературы.

The Role of Gasim Bek Zakir in the Development of the Karabakh literary environment

Summary

The article tells about the work of Gasim-Bek Zakir, an outstanding Azerbaijani poet who played an important role in the development of the Karabakh literary environment. Here general information is given about the artists brought up in the literary environment of Karabakh, the city of Shusha is a pupil of the literary environment. Scientific and theoretical ideas about the heritage of Zakir are commented. It is noted that one of the outstanding artists who made a significant contribution to the enrichment of Azerbaijani literature, the successful continuation of poetic traditions, the development of our native language, is a pupil of the Shusha literary environment Gasim Bek Zakir. A descendant of the famous Javanshirs of Karabakh, who opened their eyes to the world in Shusha, distinguished themselves by their active participation in the Russian-Iranian wars, spent a small part of their lives in innocent imprisonment, in difficult times was a close friend of M.F. Akhundzade and Gasim-Bek Zakir, who received support from İ.Gutgashinly, in difficult days, firmly holding on to his will and not bowing to anyone, rendered exceptional services in the development of the Karabakh literary environment and our literature as a whole, forever inscribed his name in the history of our literature.

Rəyçi: filologiya üzrə fəlsəfə doktoru Ramil Bayramov

Sevinc Abdulla qızı Abdullayeva (Abasova), Sevinc İsa qızı Muğanna (Hüseynova)[67]

ƏBƏDİLƏŞƏN ÜÇ ROMAN HAQQINDA

XX əsr Azərbaycan ədəbiyyatı və mədəniyyəti tarixində, xalqımızın və dövlətimizin ictimai-siyasi həyatında, milli ruhun-milli şüurun, istiqlal və azadlıq məfkurəsinin inkişafında özünəməxsus şərəfli ləyaqətli yer tutan İsmayıl Şıxlı böyük sənəti, mahir sənətkarlığı ilə sağlığında qazandığı oxucu sevgisini vəfatından sonra da qədirbilən xalqının ruhunda qoruyub saxlayan qüdrətli klassiklər nəslinə mənsub sənətkarlardandır.

Bir çox yazıçı kimi yaradıcılığa şeirlə başlayan İsmayıl Şıxlı, bədii yaradıcılığa olan dərin məhəbbətinin, vətəndaşlıq qüdrətinin köməyi ilə əsl sənət yolunu düzgün seçə bilmiş, mərhələ-mərhələ müasirlərinin və tələbkar oxucularının hörmətini qazanmışdır. Tərcümeyi-halından da aydın olduğu kimi o, qələmini bir çox janrdan da aydın olduğu kimi o, qələmini bir çox yaradıcılıq sahələrində sınaqdan keçirmiş, şeir, hekayə, məqalə, oçerk, ressenziya, xatirə, elmi-nəzəri əsərlər, tərcümə məsələləri ilə məşğul olmuş, sonda əsrinin böyük nasiri, məşhur problemlər-romanlar ustası kimi şöhrət qazanmışdır. Ədibin nasirlik şöhrəti hekayə və povestlərindən başlasa da, böyük sosial romanları sayəsində zirvələrə yüksəlmişdir. Heç şübhəsiz ki, İsmayıl Şıxlının zirvələşən şöhrətində onun vətəndaşlıq qüdrətinin, milli qürur hissinin , türkçülük və müasirliyinin müstəsna rolu olmuşdur. Məqsədimiz İsmayıl Şıxlının ədəbi-bədii irsini sistemlə, ardıcıl şəkildə izah və şərh etmək deyil. Onun nasirlik qüdrətinin bəzi məqamları çoxsahəli yaradıcılığının hüdud və imkanları, bədii nəsrinin qüdrətində əsas yer tutan, obrazlı dil və üslub özəllikləri barədə müxtəsər tezislər şəklində məlumat verməkdir. Bu yerdə ədibin özünün dediklərinə istinad etmək, bizcə, daha məqbul sayıla bilər. "Məni əsl mənada nəsrə bağlayan həyatın özü olmuşdur. Böyük Vətən müharibəsində gördüyü hadisələri, döyüş çətinliklərini insanların keçirdikləri iztirabları, onların psixoloji sarsıntı və döyüş əhvali-ruhiyyəsini sezmək üçün nəsrin imkanlarının daha çox olduğunu dərk etdikdən sonra nasir olmağa çalışdım. Hadisələrin sonrakı inkişafi göstərdi ki, deyəsən düz yol seçmişəm" (İ.Şıxlı, "Daim axtarışda" (1, s. 246).

İsmayıl Şıxlı gözəl müəllim , Mehdi Hüseyn , Kamal Talıbzadə səviyyəli tədqiqatçı alim idi. Bu sahədə müasir ədəbiyyatşünaslıqda çoxsaylı tədqiqatlar vardı. İsmayıl Şıxlının dövrü mətbuatla əlaqəsi, ümumən jurnalistlik fəaliyyəti barədə də məlumatlar çoxdur. Bunları deməkdə məqsəd odur ki, İsmayıl Şıxlı müntəzəm olaraq ədəbi mühiti, ədəbi proses və mərhələləri izləyən, son dərəcə müasir, ziyalı vətəndaşları, ictimai xadim və qüdrətli nasir kimi tanınmışdır.

İsmayıl Şıxlının nasirlik həyatı əsasən "Həkimin nağılı"hekayəsi ilə başlasa da, bu kiçik janrlı nasirlik sonradan onun "Kerç sularında", "Şəhəri gözləyirik", "Konserv qutuları", "Haralısan ay oğlan", "Raykom katibi", "Məleykə xala", "Qızıl ilan", "Namərd gülləsi", "Təyyarə gecikir", "Namus qaçağı", "Görüş", "Deputat" və digər hekayələrində uğurla davam etdirilir. İstər "Namərd gülləsi" hekayələr kitabında, istər müharibə mövzusunda, eləcə də müxtəlif mövzularda yazıçı gündəliklərdə və digər hekayələrində İsmayıl Şıxlının müasirliyi, vətəndaş nasirliyi, milli ruhlu nasirliyi çox aydın görünür. Bütün bunlarla yanaşı İsmayıl Şıxlı bir naşir kimi daha çox "Ayrılan yollar", "Dəli Kür", "Ölən dünyam" romanları ilə güclü şöhrət qazanmışdır. Bu əsərlərin hər biri yarandığı, nəşr olunduğu gündən müasir ədəbiyyatşünaslıq elminin , geniş oxucu kütləsinin diqqət və marağına səbəb olmuşdur. Böyük nasir, ictimai xadim, dramaturq, ədəbiyyatşünas alim Mirzə İbrahimov, İsmayıl Şıxlının ilk iri həcmli "Ayrılan yollar" romanından bəhs edərkən deyirdi ki, " "Ayrılan yollar" romanı, məncə həm ədəbi gəncliyin ciddi qələbəsidir, həm də bütün ədəbiyyatımızın gözəl nümunəsidir" (2, s.131). Bu faktın izi-sorağı ilə romana yanaşdıqda tənqidçinin çox haqlı olduğunu etiraf etməliyik. Əvvələn ona görə ki romanın mövzusu zahirən ənənəvi kimi görünsə də, məna və məzmunu, qaldırdığı problem məsələləri ilə tam yeni, xüsusilə yazıldığı zaman üçün olduqca aktualdır. Bu aktuallığın sirri nə idi? Məlum olduğu və tez-tez təkrar olunduğu kimi, XX əsr Azərbaycan ədəbiyyatında, xüsusilə də bədii nəsrimizdə ən çox işlənən kənd – torpaq - əmək – kəndli mövzusu olub. Bu qədər kənd mövzuları içərisində yenidən kənddən – torpaqdan – kəndlidən yazmaq, özü də yeni söz- yeni fikir demək böyük cəsarət idi. "Ayrılan yollar"a ilk oxunuşda hörmət qazandıran məhz yazıçının cəsarəti oldu. Digər tərəfdən həyat materialının yüksək bədiiliklə həlli romana xüsusi münasibət yaratdı. Söhbət ondan getmir ki, roman sovet dövründə , sosialist realizmi metodunun hökmranlığı zamanında yazılıb, özü də kolxoz kəndindən, kolxoz həyatından bəhs edir. Məsələ mövzuya, kəndə, kənd adamlarına tam yeni münasibətdən, özü də milli ruh, milli zövq əhatəsində, istiqlal məfkurəsinə, türkçülük, islamçılıq, geniş mənada müasirlik kontekstində ədibin mövcud zaman və şəraitə vətəndaş münasibətindən gedir. "Romanın birinci sətrindən sonuncu sətrinə qədər bir yazıçının qələmə aldığı hadisələrə və insanlara fəal, canlı münasibətini hiss edirik. Bütün roman boyu o, bir yerdə də olsun yorulmur. Biganəliyin doğurduğu cansıxıcı təsvirlərə yer vermir. "Ayrılan yollar" romanında həyəcanlı, iztirablı bir ürəyin çırpıntısı vardır" (2, s. 151).

"Ayrılan yollar" İsmayıl Şıxlının nasir qüdrətini göstərən əsərlərdən olmaqla yanaşı, yazıldığı illərin bədii nəsrinə istiqamət vermək xarakterinə vətən-vətənpərvərlik-vətəndaşlıq, xüsusilə ictimai və əmək tərbiyəsi – zəhmət məsələlərinə xüsusi hörmət, qayğı və diqqətlə yanaşmağı təbliğ edən müasir nəsr nümunələrindəndir. Kəndin, kənd adamlarının həyat və məişəti, təsərrüfatın inkişafı, əmək və zəhmətin aliliyini təbliğ edən, zamanı üçün yeni olan, bədii qüdrəti ilə əbədi sənət nümunələrindəndir. Obrazlar aləmi; İmran, Zeynəb, Kərim, Nəsib dayı, Tükəzban xala və digər surətləri ilə kənd həyatı, ümumən insanlıq, vətəndaşlıq borcu üçün nümunə olan sənət əsərlərindəndir. Uğurlu bədii dillə, qiraətedici üslubla yazılan "Ayrılan yollar" romanı bu gün də klassik əsərlərdən sayılır. Etiraf etməyə dəyər ki, Azərbaycan nəsr mədəniyyətinin qızıl fonduna daxil olan, ədibə xüsusi şöhrət qazandıran, öz mövzusu, surətlər aləmi ilə yaddaşlarda dərin yer tutan, zamandan-zamana klassikləşən, müasirləşən "Dəli Kür" Azərbaycan kəndinin, tariximizin, taleyimizin inkişaf və tənəzzülyollarını,

---

[67] Bakı Dövlət Universiteti Filologiya üzrə fəlsəfə doktorları

azadlıq, istiqlaliyyət və istiqlal məfkurəsini mərhələli şəkildə təsnifatını verən kamil sənət nümunələrindəndir. Bu əsər İsmayıl Şıxlını əbədi sənət – nəsr yadigarları sırasına daxil etdi. Kürün adında olan "Dəli" sözü həqiqi mənasında əzəmət, qüdrət, cəsarət, məhəbbət, vətən rəmzi kimi qəbul olunmalıdır. "Dəli" sözü tam müstəqim mənada işlənmişdir. Koroğlunun üzvlərinə deyilən "dəliləri" sözü də mərdlik, şücaət, qorxmazlıq, vətən-torpaq-el uğrunda dəlicəsinə döyüşmək mənası kəsb etdiyi kimi romanda da "Dəli" sözü vüqar, əzəmət, vətən rəmzi, əyilməzlik, tarixi yaddaş kəsb edir.

"Dəli Kür" bədii əsər olmaqla yanaşı, həm də tarixdir. "Tarixdə insan, insanda tarix" faktının (prof. A.Abasov), Azərbaycan məfkurəsinin vətən ideologiyasına bir nümunə mənasındadır. Ustad Səməd Vurğun haqlı yazırdı ki;

"Kiçicik bir sudur yer üzündə Kür,
Baxsan bu dünyanın xəritəsinə.
Bəs nədən qəlbimdə ümman görünür,
Mən qulaq asdıqca Kürün səsinə" (3, s. 391).

Vətən rəmzidir, qürur hissidir. "Dəli Kür"də İsmayıl Şıxlı tariximizin açılmamış, işlənməsi vacib olan səhifələrinə toxunur. "Qori Seminariyası" kimi Azərbaycan mədəniyyəti tarixində dərin izlər buraxan, azadlıq, istiqlal məfkurəsi ocağı, sənət və sənətkarlıq diyarı kimi yaddaşlarda yaşayan bu ideal məbədgah, onların əməkdaşları haqda məlumatlar "Dəli Kür"ün bədii materialında xüsusi yer tutur. Tipik Azərbaycan kəndinin, onun çoxsaylı-müxtəlif təbəqəli insanlarının dini mənsubiyyətini, ailə-məişət həyatını yüksək bədiiliklə əks etdirən bu roman üzə çıxar-çıxmaz ədəbi ictimaiyyətin marağına səbəb oldu. Çoxsaylı dairəvi stullar, müzakirələr keçirildi. Bütün ədəbi-bədii ictimaiyyət bu əsəri yüksək səviyyədə qəbul etdi, ağız büzənlər, qısqanclar da oldu. Ümumi-kütləvi rəyə əsasən əsər tezliklə ekranlaşdırıldı. Mədəniyyətimizin qızıl fonduna daxil oldu. Bununla yanaşı mübahisə və müsahibələrin ardı-arsı kəsilmirdi.Ən çox mübahisəyə Cahandar ağa obrazı səbəb oldu. Çoxlu yersiz iradlar deyildi, sonda yekun rəydə yenə də ədib haqlı çıxdı. Çünki o, əsərə siyahı yox, əsl tipik-real insan, seçmə adamlar gətirdi, müqəvva insanlar deyil, tipik şəraitə uyğun canlı obrazlar yaratdı. Cahandar ağa kimi əsl, tipik müsəlman-türk kişisi obrazı ilə əsərini kamilləşdirdi. Heç kimi təkrar təbliğ etmədi, həyatın-zamanın-şəraitin özünü göstərdi. Belə tipik mühitdə özlərini idarə edib aparmaları müqabilində obrazlar silsiləsi yaratdı. Məişəti, adət-ənənələri, din və şəriət qanunlarını, insanların-kəndin onlara münasibətinin mahiyyətini açıqladı. Bir sözlə, tipik şəraitə uyğun tipik obrazlar yaratdı. Göytəpə kəndindən başlayan ailə-məişət hadisələri tədricən ictimai-siyasi kəskinlik səviyyəsinə yüksəldi. Obrazların məqsəd və məramları tədricən sadədən mürəkkəbə doğru açılmağa başladı. Tipik kənd məişəti ailə münasibətləri, əxlaq, tərbiyə hadisələri ictimai məzmun daşımağa doğru inkişaf etdi. Surətlərin; Zərnigar, Cahandar ağa, Allahyar, rus Əhməd, molla Sadıq, Çernyevski, Kipiani və digər obrazlar romanın bəhs etdiyi tarixi şəraitin tələb və prinsiplərinə uyğun, həm fərdi, həm də ictimai mövqe və xarakterlərinə uyğun səciyyələndirilmiş, şübhəsiz ki, romanda ən çox diqqəti cəlb edən obraz Cahandar ağadır. Bütün mübahisələr də əsasən onun ətrafında getdi. Ədəbi tənqidin mübahisəli mülahizələrindən biri, Cahandar ağanın idealizə edilməsi ilə bağlıdır. Müxtəlif, professional tənqidçilər: M.Hüseyn, M.Arif, M.C.Cəfərov, Y.Qarayev, M.İbrahimov və digərləri Cahandar ağanın tipik zamanına-şəraitə uyğun yarandığını təsdiq etmişlər. Necə ola bilərdi ki, İ.Şıxlı mahalda ən mahir atıcı olan Cahandar ağanın bu xüsusiyyətini, ört-basdır eləsin və yaxud onun doğma kəndində, Göytəpədə hamıdan artıq qonaqsevərliyini, ailə-məişət məsələlərində tutduğu pedant mövqeyi, mürəkkəb, ziddiyyətli dəhşətli maneələrlə dolu olan həyat yolunu deməsini-göstərməsini İsmayıl Şıxlı kimə isə xoş gələn, arzu-istəklərinə uyğun siyahı yox, əsl təbii, real, tipik insan obrazı ziddiyyətlərlə dolu olan müsəlman kişisi obrazını yaratmışdır. Cahandar ağaya verilən belə səciyyənamə əslində zamanın hadisələrindən yaşadığı şəraitdən düzgün nəticə çıxarmaq, mövzuya real yanaşmaq əsl müasirlik və realizmdir. Digər obrazlar haqqında da həmin istiqamətdə danışmaq olar. Cahandar ağa bütöv obrazların danışığı, məqsəd və məramı, hadisələrin içərisində hərəkət dinamikası yolu ilə açılır. Yazıçı, kəndi, köhnəliyi, daxili-mənəvi-əxlaqi ziddiyyətləri əhatəsində səciyyələndirdiyi üçün hər bir obrazın, tarixi zaman faktı kimi əsaslandırmaqda korluq çəkməmişdir. Odur ki, əsəri rəğbətlə qarşılayan oxucu, eləcə də ədəbiyyatşünaslıq elmi onu kamil sənət nümunəsi hesab etmişdir. Romanın əsas obrazlarından olan Cahandar ağanı, Gəray bəylər, Hatəmxan ağalar, Kərbəlayi İsmayıllar, Böyük bəylər nəslinin nümayəndələrindən, tipik müsəlman, Azərbaycan türk kişisi hesab etmək olar. Böyük nasir, dramaturq, ədəbiyyatşünas alim, ictimai xadim Mehdi Hüseynin romanı oxuyub qurtardıqdan sonra fəxrlə və xüsusi həyəcanla yazmışdı ki, "Mən səndən yaxşı əsər gözləyirdim, amma bu cür qüvvətli və təsirli bir əsər yaradıcığını gözləmirdim. Əhsən-bərəkallah!".

"Dəli Kür" ağıllı mühakimələri, səviyyəli-mürəkkəb və ziddiyyətli tarixi mühiti, müxtəlif insanları, tipik tarixi keçmişi və müasir şəraiti, xüsusilə yüksək bədii həqiqətlər qiyafəsində işləndiyi və tamamladığı üçün bu gün də çox klassik və müasir əsər kimi yaşayır. Özü də necə?! Həm "Dəli Kür", həm də Ana Kür kimi.

Ədibin üçüncü romanı "Ölən dünyam"dır. Tədqiqatçıların bir qismi bu əsəri "Dəli Kür"ün davamı hesab edirlər. Əlbəttə, zəngin bədii həyat materialı, müxtəlif düşüncəli insanları, güclü obrazlı dili, sirayətedici üslubu, dəqiq konkret zamanı-şəraiti, tarixi keçmişi, müasir vəziyyəti, xüsusilə hadisə, vəziyyət və əhvalatların, ümumən bədii həyat materiallarının səviyyəli şərhi, bədiilik baxımından "Dəli Kür"ün davamı hesab etmək olar. Amma bədii həyat materialının, dövr-zaman-şərait və məkan, müasir insanları, ictimai vəziyyəti ölkədə hökm sürən dərəbəylik, sosial qanunlar və s. məsələlər baxımından "Ölən dünyam"ı XX əsrin ilk onilliklərini əhatə edən gərgin hadisələri, 20-30-cu illəri mürəkkəb ziddiyyətli həyat tərzi və ona yazıçı münasibəti romanın tam orijinal,müstəqil müasir əsər olduğunu deməyə haqq verir. Digər tərəfdən hadisələrə, bədii həyat materialına dərindən-köklü yanaşmaq, onu yüksək bədiiliklə şərh etmək, ana dilinin, milli ruhun, adət-ənənələrin, bədii kateqoriyaların hüdud və imkanlarından məharətlə istifadə etmək, ümumən bədiilik, yüksək sənətkarlıq baxımından İsmayıl Şıxlının bədii nəsrində möhkəm əlaqə və bağlılıq mövcuddur. Həm də İsmayıl Şıxlı bu əsərində daha

müasirdir. Bu romanda ədib bir növ hadisələrə daha yaxın, bələdçi, bəzən də sanki iştirakçı kimi çıxış edir. Bu isə əsl realizm deməkdir.

"Ölən dünyam" romanında tipik şəraitə uyğun bir sıra kamil və maraqlı obrazlar yaradılmışdır: Ömər Koxa, Güllü xanım Kəsəmənli, Çapıq Əmrah, Halay müəllim, Həsən ağa və digər surətlər ədib tərəfindən uğurla yaradılmışdır. Xüsusən də, Fətullayevlə, Çapıq Əmrah obrazı daha güclü, səviyyəli çıxmışdır.

"Ölən dünyam" XX əsrin 20-30-cu illərin ağrı-acılarını, ziddiyyətlərini, müxtəlif insan talelərini göstərən kamil nəsr nümunəsidir. Məqsədimiz ədibin hər üç əsərini sistemli, ardıcıl şəkildə şərh etmək deyil. Bu daha geniş, böyük tədqiqatın işidir. Biz sadəcə olaraq İsmayıl Şıxlının bədii nəsr sahəsindəki uğurlarını ədibin müşahidə və axtarışlarını, obraz yaratmaq sənətkarlığını ümumiləşdirmələr şəklində qeyd etdik. Birmənalı olaraq qeyd etdik ki, bir nasir kimi İsmayıl Şıxlı əbədi-daimi, həmişəyaşar sənətkardır. O, XX əsr Azərbaycan nəsrinin klassiklərindən biri olmağa tamamilə layiqdir. Bir də ona görə ki, İsmayıl Şıxlının bədii nəsri ciddi zəhmətin, davamlı müşahidə və axtarışların, müntəzəm yaradıcılıq məşqlərinin, zəngin təcrübələrin klassik və müasir ənənələrə hörmət, məhəbbət və sayqının məhsuludur. Bu faktın, bu mülahizənin əsasında, kökündə İsmayıl Şıxlının böyük ziyalılığı, nasirlik qüruru, güclü vətəndaşlığı, müəllimlik ləyaqəti, tarixə, ana dilinə dərindən bələdçiliyi, müasir dünyaya, vətəninə dərin məhəbbəti dayanır. Buraya onun zəngin ictimai-sosial xidmətlərini də əlavə etsək İsmayıl Şıxlı klassik sənətkardır. Klassiklər isə həmişə əbədiyaşar - müasir olurlar.

İstifadə olunmuş ədəbiyyat

1. İ.Şıxlı. "Daim axtarışda". Bakı, Yazıçı, 1988
2. M.İbrahimov. Xəlqilik və realizm cəbhəsindən. Bakı, Yazıçı, 1961
3. S.Vurğun Seçilmiş əsərləri. 6 cilddə. 3 cild. Bakı, AMEA, 1961

Ключевые слова: роман, образ, родина, история, время
Key words: novel, image, motherland, history, time
Açar sözlər: roman, obraz, Vətən, tarix, zaman.

Три романа, приобретающие бессмертность

Резюме

Статья посвящена романам видного Азербайджанского прозаика И.Шихлы. Три романа («Пути расходятся», «Буйная Кура», «Мир мой умерший») вовлечены в исследование, проанализированы идейно-художественные особенности, позиция писателя-мастера, язык и стилистика.

Three novels that acquire immortality

Summary

The article is devoted to the novels of the prominent Azerbaijani prose writer I. Shikhly. Three novels ("Forked Roads", "The Violent Kura", "My Dying World") are involved in the study. The ideological and artistic features, the position of the writer-master, language and style are analyzed.

RƏYÇİ : dos. E.Vəliyeva

Aidə Yaşar qızı Əzimova[68]

CƏFƏR CABBARLI DRAMATURGİYASINDA AZƏRBAYCAN QADININ BƏDİİ OBRAZI

Qadın emanisipasiyası, onların cəmiyyətdə hüquq və azadlığı, gender bərabərliyi və s.bu kimi məsələlər bədii ədəbiyyatın bütün dövrlərdə ən aktual mövzulardan olmuşdur. Qadın hüquqsuzluğu məsələsinə müxtəlif dövrlərdəfərqli yanaşmalar olmuşdur.

XX əsrin əvvəllərində qadın azadlığı məsələsinə yaradıcılığında xüsusi yer ayırandramaturqlardan biri də Cəfər Cabbarlı olmuşdur. Cabbarlı yaradıcılığa lirikayla başlasa da ədəbiyyat tariximizdə əsasən dramaturq kimi iz qoymuşdur. Ədibin dramaturji yaradıcılığı təkcə məzmun, ideya cəhətdən deyil, eyni zamanda sənətkarlıq xüsusiyyətlərinə görə dəədəbiyyat tariximizdə xüsusi bir mərhələni təşkil edir. Məhz bu səbəbdəndir ki, XX əsr Azərbaycan ədəbiyyatında Cəfər Cabbarlı özünəməxsus yaradıcılıq mövqeyi olan, dərin və yüksək məzmunlu dramlar müəllifi kimi tanınmışdır.Müəllifin cəmiyyətin həyatına, milli varlığa, ictimai hadisələrə münasibətinin yeniliyi ilə bağlıdır. Sənətkarın yaradıcılığının müasirliyi, milliliyi, dil koloriti, obrazların xarakterik mahiyyəti, yaradıcılıq üslubu onun böyük istedadından, yüksək sənətkarlığından xəbər verirdi. C.Cabbarlı maarifpərvər ziyalı kimi, daima xalqını, onun düçar olduğu "nadanlıq xəstəliyini", qadın azadlığı məsələsini, onlara cəmiyyətdəki münasibətini, ailədə yaşadıqları despotizmi, üzləşdikləri təzyiqi real səhnələrlə canlandırmışdır. O, sələfləri kimi, də hər zaman aktual olan qadın azadlığı məsələsini müxtəlif dövrlərin prizmasından canlandırmağa çalışmışdır.

Professor T.Əfəndiyev "Azərbaycan dramaturgiyasında metodlar" adlı monoqrafiyasında yazır: "C.Cabbarlı yaradıcılığının orijinallığı, novator zənginliyi bir də burasındadır ki, bu yaradıcılıqda bir çox bədii metodlar həm maarifçilik realizm, həm tənqidi realizm, həm sentimentalizm, həm romantizm, həm də Azərbaycan sovet alimlərinin iddia etdiyi kimi sosializm realizmi iştirak etmişdir. Ədibin yaradıcılığında bədii metod müxtəlifliyi və paralelliyi XX əsr ədəbi tarixi prosesinin öz təbiətindən irəli gəlirdi" [5, s. 257].

Görkəmli dramaturq əsərlərində əhəmiyyətli məsələlərə toxunmuş- geriliyi, cəhaləti, qadın hüquqsuzluğunu, kapitalist cəmiyyətindəki pulun rolunu və insanların həyatlarında yaratdığı uçurumları və s kimi nüansları tənqid etmişdir.

C.Cabbarlının ilk dram əsərləri olan "Vəfalı Səriyyə və yaxud göz yaşları içində gülüş", "Solğun çiçəklər" pyeslərində kapitalist cəmiyyətinin insanların həyatlarında yaratdığı qüsurlar, insanların pula hərisliyi ucbatından mənliklərini itirməsi, Şərq qadının taleyi və ona münasibət problemi qoyulub, hadisələrə maarifçi tendensiya ilə bədii həll verilmişdir. Dramaturq burada mövcud cəmiyyətinin qadına qarşı olan mənfi münasibətlərini tənqid hədəfinə çevirərək, onların öz hüquqlarını müdafiə etməyə səsləyir. Burada Səriyyə hüquqları əllərindən alınan qızların ümumiləşdirilmiş obrazıdır. Əsərin əsAS sujet xəttini bir-birini saf məhəbbətlə sevən Səriyyə və Rüstəmin bir-birindən məcbur edilərək ayrı salınması təşkil edir. Cəfər Cabbarlı Səriyyənin qorxmazlığının, vəfasının, cəsarətinin, iradəsinin, dözümlülüyünün təsviri ilə dövrünün gənc qızlarını Səriyyə kimi olmağa, mübarizəli olmağa çağırırdı. Ədib Səriyyənin kiçik bir monoloqu ilə oxucunu onun həyatı ilə dolğun bir şəkildə tanış edir. "Mən 8 yaşında idim, atam vəfat etdi. Əmim məni çox istədiyindən anamı alıb məni də öz evinə apardı. 9 il zəhmətimi çəkib oxutdurdu. Və hərdənbir deyirdi ki; "Səriyyə, səni oğlum Rüstəm üçün alacağam". Biz də bir yerdə məktəbə gedib, oynayıb gülürdük. Səhərlər Rüstəm məni aparıb məktəbin qapısından içəri salıb, öz məktəbinə gedirdi. Bir- birinə can deyib, can eşidirdik. Bir ay bundan qabaq əmim də vəfat etdi. Bir həftə keçməmiş anam məni aldadıb, öz dayısıgilə gətirdi. İndi bir aydır tamam qapıları üzümə bağlayıb, burada məhbus ediblər" [2, s. 8]. Səriyyənin dilindən verilən bu hissədə biz bir gənc qızın yaşadığı haqsızlıqları, hüquqsuzluğu məhkum həyatın bir daha şahidi oluruq.

"Vəfalı Səriyyə" əsərində maraq doğuran qadın obrazlarından biri də Çimnaz obrazıdır. O, köhnə adət-ənənəni təmsil edir. Bir nüansı da qeyd edək ki, Çimnaz obrazı ədəbiyyat tariximizdə rast gəlinən nadir"qəddar ana" obrazıdır.

Dramaturqun əsərdə qadın hüquqsuzluğuna səbəb olan bir çox məqamları -pulun cəmiyyətə göstərdiyi pozucu təsiri, din pərdəsi altında qadınların həyatların məhv edilməsini işıqlandırmağa çalışmışdır.

Cabbarlının teatr yaratmaq arzusu onun "Oqtay Eloğlu" əsərində tərənnüm edilmişdir. Burada Azərbaycan teatr səhnəsinin inkişafı, gənc ziyalıların bu yolda rastlaşdıqları çətinliklər, naqisliklər və s kimi nüanslar ön planda verilmişdir. Əsərdə Firəngiz ən məsum və həyalı, həyata insanlara saf və təmiz duyğularla yanaşan obrazdır. Firəngiz yeni kapitalist cəmiyyətinin simvoluna çevrilir. Bir nüansı da qeyd edək ki, Cabbarlıdan öncə dramaturgiyamızda azərbaycan qadınını teatr səhnəsində görmürük. Firəngizin ilk Azərbaycanlı qadın olaraq səhnəyə çıxması, eyni zamanda, köhnə fikirli cəmiyyətin dağılması, yeni müasir, savadlı, istedadlı cəmiyyətin qurulması üçün təməl daşı rolunu oynayır. O, səhnəyə çıxmaqla mövcud qaydaları heçə sayması Azərbaycan qadını üçün çox böyük və əhəmiyyətli bir addım idi. Sonda Firəngiz ölür, lakin, Azərbaycan qadınının dirçəlməsi üçün şərait yaradır. Bununla da o, mənəvi zəfər əldə etmiş olur.

"Oqtay Eloğlu" əsəri ilə dramaturq Azərbaycan teatr sənətinin inkişafında qadınların da rolunun danılmazlığını bir daha göstərmiş oldu. Cabbarlının Azərbaycan qadınını səhnəyə gətirməsi bir inqilab idi.

Qadın emanispasiyası məsələsi Cabbarlının digər dram əsərlərinin də ana xəttitəşkil edir. Xüsusən 1928-ci ildə qələmə aldığı "Sevil" dramının da ana xəttini qadın hüquqsuzluğudur. Bu əsərin yazıldığı ildə tamaşaya qoyulması Şərq qadınlarının azadlığı üçün bir cığır açdı. Hətta bu əsəri Azərbaycan qadınının "azadlıq rəmzi" də adlandırırlar.

"Sevil" əsərində zamanın tələbinə uyğun olaraq qadının azadlığının rəmzi olaraq çadradan qurtulmaq göstərilmişdir. Fikrimizcə bu əlbəttə zamanın siyasi tələbatından irəli gəlirdi. Qadının azdlığı "qara çadrayla"mı meyarlanır? Əlbəttə ki xeyr. Qadının azadlığı ilk öncə onun haqq və hüquqi azadlığının olması, cəmiyyətdə söz sahibi olması, iqtisadi azadlığı ilə

[68] Bakı Dövlət Universitetinin elmi işçisi

ölçülməlidir. Dramaturq burada "çadranın atılması" nı bir silaha çevirərək qadın azadlığına dair düşüncələrini Sevil və Gülüş obrazları vasitəsi ilə ön plana çıxardır.

Ədib üçün ailə mühüm əhəmiyyət kəsb edən və cəmiyyətin inkişafına əsaslı təsiri olan bir ali orqandır. Məhz bu səbəbdəndir ki, Cabbarlı "Sevil"də olan konflikti ailə daxilində vermişdir. Bu həmçinin reallığın bir nümunəsi hesab edilə bilər. Əsərdə konflikt Balaşla Sevil arasında verilmişdir.Əsərin əvvəllərində Sevil sadəlövh, saf, təmiz qəlbli bir qadın kimi təsvir edilir.

S e v i l. Nə olacaq, əvvəllər yoxsul idik, gündüzləri çalış-vuruş, əlimizə düşən bir parça çörəyi axşam şad ürəklə yeyib, dinc yaşayırdıq. İndi Allah bizim üçün bir parça ruzu yetirmişdir, amma bir-birimizin üzünü də doyunca görə bilmirik: o, ac işləyir, mənim də boğazımdan çörək getmir.

G ü l ü ş. Ax, Sevil, sən yazıq adamsan. Axı sən nədən bilirsən ki, doğrudan da Balaş gecə-gündüz işləyir, özüdə ac-susuz qalır? [2, s. 8].

Burada Sevilin necə saf, sadəlövh olduğunun şahidi oluruq. Sevil Balaşın "xəyanətini" görməyəcək qədər avamdır.

G ü l ü ş. Gedək, Sevil! Mən sənin şəklini çəkdirim.

S e v i l. Yox, a qız, heç Balaş razı olar? Ondan soruşmamış hara gedə bilərəm.Kaş, Gülüş, məndə sənin kimi olaydım, oxuyardım, Balaşa kömək edərdim.

G ü l ü ş. Sən yazıqsan, Sevil, yazıq!

S e v i l. Gülüşcan, nə üçün axır vaxtlar sən tez-tez mənə yazıq deyirsən?

G ü l ü ş. Ax, Sevil, sən doğrudan da yazıqsan, hər şeyə Balaşın yoxsulluq gözüilə baxırsan, sənə bütün dünya da onun səadəti üçün gərəkdir, özün üçün heç bir şey istəmirsən [2, s. 9].

Sevil, özünü evinə və ailəsinə həsr etmiş bir qadındır. "Sevil çox sadəlövhdür. O, hamıya öz sadəlövh nəzərilə baxır; Balaşın sədaqətinə şübhə etmir. Sevilin Balaş haqqındakı sadəlövh təsəvvürü o yerə çatır ki, onun məktubunun içində çıxan yad qadın şəklinə əhəmiyyət vermir, bu qadın şəklinin divardan asılmasına etiraz etmir. Lakin bütün avamlığına və geridə qalmasına baxmayaraq Sevil nəcib və ağıllı bir qadındır" [3, s. 135]. Onların Gündüz adında bir oğlu da vardır. Müəllif Sevilin simasında Azərbaycan qadınlarının kölə vəziyyətində yaşamalarını, heç bir haqq və hüquqa malik olmadıqlarının, özlərini yalnız ailəyə həsr etdiklərini bununla da öz sonlarını gətirdiklərini göstərmişdir. Əsərin sonrakı hissələrində artıq sevil savadsız, avam, cahil olduğu üçün Balaşın təzyiqlərinə məruz qalır. Ailə bir müddət belə kasıbçılıq içində həyat sürdükdən sonra Balaş yüksək burjua cəmiyyətinə qarışır. Balaş cəmiyyətdə müəyyən mövqe tutmuşdur və həyat yoldaşı Sevili, hətta onun ən sadə davranışlarına görə belə alçaldaraq təhqir edirdi.O, Bakıda Dilbər (Edilya) adında gənc, gözəl, aristokratik ailədən olan qadınla tanış olur. Müəyyən müddət sonra Balaş Dilbərlə olan sevgi münasibətini ailəsinə açıqlamaq üçün onu evinə dəvət edir və atası Atakişi bəylə Sevili Dilbərin yanında təhqir edərək alçaldır.

S e v i l. Balaş, on üç yaşında mən bu evə gəlmişəm, altı ilə yarıac, yarıtox quru çörək ilə keçirmişik: bir gün, bir düyün görməmişəm; indi Allah bizim üzümüzə baxıb bir parça çörək yetirmişdir; amma indi də sən məni bir yerə çıxarmırsan. Hərgah sən məni özünlə aparsan, adam arasına çıxarmış olsan, bir yol bilmərəm, iki yol bilmərəm, sonra mən də başqalarına baxıb öyrənərəm. O biriləri, hələ bu şəkildəki arvad, bildiklərini anasının qarnından gətirməmişlər ki!

B a l a ş. O arvad oxumuşdur, özü də böyük, zəngin bir ailədəndir, keçmişdə atası qubernator olmuşdur; yerin altını da bilir, üstünü də. Parisdə manikürçülük kursunu bitirmişdir. Ruscanı rusdan, fransızcanı fransızdan yaxşı danışır, fəlsəfəni beş barmağı kimi bilir. Sən nə bilirsən, heç bilirsən ki, fəlsəfə nədir?

S e v i l. Fəlsəfət... Fəlsəfət...

B a l a ş. Sən hələ heç adını da düz deyə bilmirsən" [2, s. 11].

Messan qadın Ədiləyə aşiq olan Balaş Sevili küçəyə ataraq övladından ayırır. Tək qalan Sevil çətin də olsa yeni, müstəqil həyata başlayır.Artıq Gülüş Gündüzü 10 yaşına çatdırmış,eyni zamanda Sevilə dərs deyir. Bundan sonra Sevil artıq çadrasını açmış və inqilabi hərəkatda iştirak etməyə başlamışdır.

"B a l a ş. Yox, Sevil, yox. Mən elə istəmirdim.Mən səni sevirdim, fəqət, həyat, həyat məni şaşırdı. Mühit bir məngənə kimi mənim varlığımı sıxırdı, ayağımı istədiyim yana atmaq istərkən, görmədiyim qara bir qüvvə ayağımdan tutub, onun bunun bəyənəcəyi tərəfə atırdı. Mən də istər-istəməz gedirdim. Mən gücsüz qadını tək başına həyatın dəhşətləri içinə atdım.

S e v i l. Mən tək deyildim, mənim yoldaşlarım çox idi.

B a l a ş. Sevil, inan ki, bütün bu ayrılıq illərində, mən hər gün sənin taleyini düşünürdüm.

S e v i l. Eləmi? İnanmıram...

B a l a ş. O gücsüz halında sən nə edə bilərdin?

S e v i l. Ehtiyac həyatın müəllimidir. Mən tez öyrəşdim. Mən gündüzlər ac acına oxuyur, gecələri səs ah ilə çıxırdım. Gözaltına aldığım bir kişinin yanından keçir, çiyninə toxunur, sonra da qarşı-qarşıya gəlib, sağ gözümü yavaşcadan qırpırdım: bax, belə... O görürdü...

B a l a ş. Dəhşət... Dəhşət!

S e v i l. Mən hər gecə bir parça çörək üçün, bir doyumluq çörək üçün öz könlümü satır, istəyimi, öz mənliyimi qurban verirdim. O kişi mənim ardımca düşürdü...

B a l a ş. Dəhşət... Bəsdir!

S e v i l. Qaranlıq bir küçədə biz qiymətləşirdik...

B a l a ş. Bəsdir! Bəsdir, Sevil, bəsdir daha, daha danışma!" [2, s. 51].

Sevillə Balaşın arasında verilən bu dialoqu professor Məmməd Arifin təbirincə desək "namus haqqında açıq söhbət" [3, s. 144] adlandırmaq olar. Əslində burada müəllif Sevilin tipajında burjua cəmiyyətində bir çox Azərbaycan qadınlarının yaşadığı faciəli həyatı, uğradığları haqsızlıqları və s bu kimi nüansları qabartmışdır. Sevil obrazı xəyanətə uğradılmış, haqq və hüquqları tapdanmış Azərbaycan qadınlarım bədii obrazıdır. Əsərin son hissəsində Sevilin dilindən verilən "Yazıq, yeddi illik ömrümü onun heçliyinə qapanaraq, bu qara dustaq içində sürünmüşəm. Artıq, al! (Çarşabı atır)" [2, s. 40]. Müəllif Sevilin çarşabını yerə atmasını Şərq qadının mövcud cəmiyyətin əsarət buxovlarından qurtulacağına bir inamı idi.

Sevil təhsil alır və "Azərbaycan qadınının azadlıq yolu" adlı kitab yazır. Gündüzün onuncu yaş günündə Moskvadan qayıdır. Sevil burada da onun kitabından söhbət açıldığını görür. Hətta bir çox insan kitabın əvvəllər bu təbəqənin sakini olan Sevil tərəfindən yazıldığına inanmır. Bununla da Cabbarlı Azərbaycan qadınının mənəvi iztirablarından sonra mənəvi təkamülə inteqrasiya olunduğunu, və onların gələcəyinə olan bir ümidi idi.

Əsərdə maraq doğuran qadın obrazlarından biri də Gülüş idi. Ədib əsərdə insanlara çatdırmağ istədiyini Gülüş vasitəsilə ötürür. Gülüş yaşadığı cəmiyyətdə qadınlara xas olmayan bir azadlıq tələb edir və bunu Sevilə avamlıq və qəflət yuxusundan ayıltmağa çalışırdı.

Ümumiyyətlə qeyd edək ki, Cabbarlının qələmindən çıxan hər bir obraz öz həyatiliyi, nitqinin canlılığı, bədii detalları ilə oxucu yaddaşına həkk olunur. "Sevil" pyesində Cabbarlı Azərbaycan qadınlarının mövcud cəmiyyətdə hüquqsuzluğunu onların kölədən fərqlənmədiyini göstərməyə çalışmış, eyni zamanda islam dini, burjua-meşşan əxlaq və şüurunun qadınların həyatlarında yaratdığı uçurumu, onların ən zavallı, aşağı vəşərəfsiz bir hala salmasını tənqid etmişdir.

ƏDƏBİYYAT SİYAHISI

1. Müasir Azərbaycan Ədəbiyyatı. BDU nəşriyyatı, 2007
2. C.Cabbarlinin seçilmiş əsərləri. Bakı Şərq-Qərb nəşriyyatı, 2005
3. Məmməd Arif. "Cəfər Cabbarlının Yaradıcılığ yolu", ADR nəşriyyatı, 1956.
4. R.Əliyev .Cəfər Cabbarlının yaradıcılıq təkamülü. Bakı, Yazıçı, 1989.
5. Timurçin Əfəndiyev "Azərbaycan dramaturgiyasında metodlar" , Bakı Elm, 2002

Ключевые слова: женщина, гендер, женская свобода, Джафар Джаббарлы, Азербайджан, бесправие

Key words: women, gender, women's freedom, Jafar Jabbarli, Azerbaijan, lawlessness

Açar sözlər: qadın, genlr, qadın azadlığı, Cəfər Cabbarlı, Azərbaycan,Ədalətsizlik

Художественный образ азербайджанки в драме Джафара Джаббарлы резюме

Резюме

Данная статья исследует такие вопросы, как: эмансипация женщин, их равноправие в обществе, гендерное равенство. Следовательно анализируется женское бесправие. В начале XX века, все эти вопросы находят своё отражение в творчестве Джафара Джаббарлы, одного из драматургов, уделявшему особое место вопросу женской свободы. В статье особенно исследуется драматургия Джаббарлы. В ряде его произведений таких как «Верная Сарья или Смех сквозь слёзы», «Увядшие цветы», «ОктайЭльоглу», «Севиль»анализируются такие нюансы как: женская свобода, их борьба за права и гендерное равенство. В частности, в произведении «Севиль», автор ставит себе целью показать беззаконие азербайджанских женщин в нынешнем обществе. Он считает, что они ничем не отличаются от рабынь, тем самым подвергает критике религиозный фанатизмсделавшихих неполноценными и несостоявшимися людьми.

Artistic Image Of Azerbaijani Woman In Jafar Jabbarli's Drama

Summury

İn this article issues such as women's emancipation, their rights and freedom in society, and gender equality has been investigated. İn here, approaches to women's rightslessness have been analyzed. Jafar Jabbarli, one of the dramatists who devoted a special place to the issue of women's freedom in his work at the beginning of the 20th century, was addressed. The article addresses Jabbarlı's creativity, especially his dramaturgy, and analyzes nuances such as women's freedom, their struggle for rights and gender equality in his works such as "Faithful Series or Laughter in Tears", "Pale Flowers", "Ogtay Eloglu", "Sevil". Especially the work "Sevil" is extensively analyzed, in this work the author tried to show the lawlessness of Azerbaijani women in the current society, that they are no different from slaves, criticized the chasm created by religious-fanaticism in the lives of women, making them the most miserable, inferior and dishonorable.

RƏYÇİ: dos. L.Ələkbərova

Расулова Афаг Мирмехди гызы[69]

ЛИЧНОСТНО-ОРИЕНТИРОВАННОЕ ОБУЧЕНИЕ

Личность есть специфическое человеческое образование, созданное общественными отношениями. Развитие рассматривается учеными как результат усложняющейся деятельности человека, в процессе которой он вступает в новые для себя отношения, накапливает опыт, формирует мировоззрение, мотивы, ценности и убеждения. Личность и ее качества развиваются в деятельности, запускаемой мотивом иосуществляемой посредством действий, способ осуществления которых зависит от условий жизнедеятельности. Вне деятельности развитие не существует.

Развитие личности понимается как процесс ее количественных и качественных изменений под влиянием внешних и внутренних факторов. Оно ведет к изменению качеств личности, к появлению новых свойств, которые психологи называют новообразованиями. С. Л. Рубинштейн сформулировал принцип детерминизма как преломление внешних условий через внутренние и доказал наличие внутрен- ней «логики» в развитии личности, а именно не только ее избирательности к внешним воздействиям, но и способности «обособиться» от «логики внешних обстоятельств», самоопределиться по отношению к ним.

Образование несет в себе потенциалы активизации личностного роста обучающихся. Оно представляет собой целостную систему формирования внутреннего мира студентов, их мировоззрения, ценностей и убеждений, самопознания и обеспечения развития и саморазвития участников педагогического процесса. Образовательный процесс протекает так, что в нем спонтанно складываются внутренние условия для активного и целенаправленного самосовершенствования включенного в него человека.

Большую роль в активизации личности играет психическое самосовершенствование, которое включает в себя ее самопрограммирование и самоформирование.

Представители гуманистической психологи все чаще пытаются определить основания для процесса развития и самосовершенствования личности. Авторы часто используют такие понятия как рост, автономность, саморазвитие, самопознание, самоактуализация, самореализация. При этом понятия самореализации и самоактуализации очень часто употребляют как равнозначные понятия, под которым понимается непрерывная реализация потенциальных возможностей, способностей и талантов человека, как свершение своей миссии или призвания, судьбы; а также полное познание и приятие собственной изначальной природы, неустанное стремление к единству, интеграции или внутренней синергии личности.

В современных условиях становится доминирующей и определяющей в содержании современного образования идея развития целостной человеческой личности в рамках гуманистической психологии. Гуманистическая педагогика–направление в современной теории и практике обучения и воспитания, которое возникло в конце 50-х начале 60-х годов в США как педагогическая реализация идей гуманистической психологии. В центре ее внимания находится уникальная целостная личность, которая стремится к максимальной реализации своих возможностей, открыта для получения нового опыта, способна на сознательный и ответственный выбор в разнообразных жизненных ситуациях.

Одним из основных положений гуманистической психологии является идея о том, что человек является активною, творческой сущностью, наделенной потенциями к безграничному развитию и самореализации, которые составляют часть его природы. Главным в теории А. Маслову является направленность человека в будущее, к свободной реализации своих возможностей, особенно творческих, к обретению веры в себя и формированию идеального Я (К. Роджерс). Достижение такого результата провозглашается гуманистической педагогикой главной целью обучения и воспитания в отличие от формализованной передачи ученикам знаний и социальных норм в традиционной педагогике.

Гуманизация образования – центральная составляющая нового педагогического мышления, представляющая пересмотр, переоценку всех компонентов образовательного процесса. Она предполагает внимание педагогов к личности, доверие к ней, принятия ее личностных целей, потребностей и интересов, создание максимально благоприят- ных условий для раскрытия и развития способностей ученика, его самоопределения.

Мера гуманизации воспитательного процесса определяется тем, насколько этот процесс создает предпосылки для саморазвития исамореализации личности, раскрытие заложенных в ней природных задатков, ее способности к свободе, ответственности и творчеству. В соответствии с этими задачами должны быть скорректированы цели учебно-воспитательного процесса, который должен быть ориентирован на интересы каждого конкретного ученика, удовлетворение его потребностей, создание условий для реализации своего потенциала. Эта идея выступает системообразующей по отношению ко всем остальным и является методологической основой для выработки нового педагогического мышления.

[69] **БГУ, кафедра английского языка**

В гуманистической педагогике внимание акцентируется на внутренний мир ребенка, присущие только ему стремления, интересы и цели, то есть субъективные условия учебного процесса, отсутствие внешнего оценивания и представление свободы. Под человекоцентрированным подходом в обучении К. Роджерс понимает учение, которое не представляет собой одно лишь накопление фактов, а направлено на изменение внутреннего чувственно-когнитивного опыта ученика, связанного со всей его личностью. Это любознательность или стремление усвоить все, что он может увидеть или услышать по теме, имеющей для него личностный смысл, самообучаясь. При этом самообучение является наиболее прочным, оно долго сохраняется, так как вовлекает его чувства, мысли и действия. При таком обучении ученик становится ответственным, независимым, творческим, опирающимся на себя, для него главным является самооценка и самокритика.

К. Роджерс подчеркивает, что в современном мире, характеризующемся постоянными изменениями, необходимо перенести акцент в процессе обучения с преподавания на учение, организовать преподавание не как трансляцию информации, а как фасилитацию осмысленного учения. Под фасилитацией понимается облегчение и одновременно стимулирование процесса учения для учащегося, то есть создание благоприятной интеллектуальной и эмоциональной обстановки в аудитории, атмосферы психологической и педагогической поддержки [1].

В такой развивающей атмосфере обучение получает шанс стать более глубоким, оно осуществляется в более высоком темпе и оказывает большее воздействие на жизнь и поведение учащегося, нежели традиционное обучение. Направленность учения выбирается самостоятельно, сам процесс также инициируется самим учащимся, и человек во всей своей целостности включается в учебный процесс. Такой процесс совершенствования обучения К. Роджерс рассматривает как проявление нового мышления, как подлинную реформу образования, которую нельзя обеспечить только путем приобретения необходимых навыков и умений, знаний и способностей.

Реализацией идеи «гуманистической психологии обучения», среди прочего, является известное «недирективное обучение и воспитание» К. Роджерса. Для его применения на практике необходима соответствующая ориентация преподавателей. В процессе авторитарного обучения происходит трансляция информации, переоценка роли педагога, необходимость подчиняться правилам, не делать ошибок, не перечить учителю, не списывать и т. п. И совершенно другой результат мы получаем, когда пребывание в школе доставляет удовольствие.

Психологические последствия недирективного воспитания и обучения, как показал целый ряд специальных исследований, впечатляют. Более частыми у школьников оказывались такие проявления, как любознательность, позитивное отношение к школе, адекватная самооценка, независимость, креативность, интернальность, склонность к кооперации. Все это, как правило, актуализировало соответствующие мотивационные ресурсы, обеспечившие эффективное включение в учебный процесс, свободу от принуждения и самостоятельность.

В дополнение к вышеотмеченному сошлемся на определении соответствующей интеракции со школьниками Р. Бернса. В книге «Развитие Я-концепции и воспитание» он специально выделяет: учет исходной мотивации к учению; помощь в формулировании его целей и задач; готовность поделиться опытом преодоления трудностей; активноеучастие в групповом взаимодействии и эмпатию [2, с. 89]. Именно при таком обращении с детьми можно избежать учения, осуществляющегося только в форме рутинного занятия, когда усвоение знаний происходит в основном по обязанности, а не по желанию.

Личностно-ориентированное обучение направлено на развитие целостного человека: его природных особенностей (здоровья, способностей мыслить, понимать, чувствовать), его социальных свойств (быть гражданином, семьянином, тружеником) и свойств субъекта культуры (свободы, гуманности, духовности, творчества). Его целью является становление человека как личности с учетом индивидуальных особенностей, интересов и потребностей, которая имеет шанс для реализации сущностных сил, обуславливающих перспективу успешности.

Цель личностно-ориентированного образования состоит в создании оптимальных условий для развития и становления личности как субъекта деятельности и общественных отношений: поддержка, развитие механизмов самореализации, саморазвития, адаптации, саморегуляции, самовоспитания, необходимых для становления желаемого личностного образа.

Представители гуманистической психологи предлагают строить обучение на принципах «развивающей помощи». Его суть заключается в том, чтобы не работать за ребенка, не указывать ему, что делать, не решать его проблемы, а помогать ему осознать себя и пробудить свою активность и внутренние силы, чтобы он сам делал выбор, находил решения и отвечал за них. Поэтому задача учителя, считаетК. Роджерс, не диктовать готовое и возможно, ненужные ученику знания, а разбудить его собственную познавательную активность, которая выявляется в выборе целей, ценностей, содержания, методов работы, поведения.

Учитель, считает К. Роджерс, стимулирует и облегчает (gacilitate) самостоятельную деятельность ученика. Для этого вместо авторитарного обучения, в котором процесс обучения сводится к освоению учебной программы и знаний, выбранных учителем, следует ввести другой тип обучения – «исследовательское учение», при котором дети учатся в процессе свободной самостоятельной деятельности, на собственном опыте, в процессе дискуссий и

принятия решений. Целью такого обучения является развитие самосознания личности, ее самореалиация. Знания и школьная программа служат лишь способом развития.

Атмосфера «свободы обучения» характеризуется тем, что ученики свободно выбирают и обсуждают проблемы, не боятся сделать ошибки, общаются друг с другом, видят в учителе источник опыта, знаний, старшего члена группы. К методам, которые стимулируют «свободу обучения», принадлежат: постановка проблем, поиск способов их решения; использование разных источников знания; метод контрактов; организация работы в группах разного состава; организация обучения как исследования; эксперимент; специальные занятия по самопознанию, межличностное взаимодействие. Для создания атмосферы «открытого обучения» педагоги предлагают использовать и эмоционально- окрашенные методы (игровые), и рациональные («учебные пакеты», пособия по программе) [3].

Наиболее ценным в концепциях представителей гуманистической психологии является внимание к внутреннему миру ребенка, развитие личности ученика путем обучения, поиск новых методов, форм и способов обучения.

Проблемы личностного похода и педагогики гуманизма нашли свое отражение в педагогических системах и публикациях известных педагогов России (Б. Г. Ананьев, Ш. Амонашвили, И. Д. Бех, Н. А. Бордовская, В. Г. Бочарова, И. С. Кон, А. С. Макаренко, В. В. Сериков, И. С. Якиманская и др.).

Среди большого числа современных теоретических концепций личностно-ориентированного обучения можно выделить психолого- дидактическую концепцию И.С.Якиманской и дидактическую модель личностно-ориентированного обучения В. В. Серикова, которые более всего отвечают новым потребностям системы образования.

И. С. Якиманская рассматривает процесс обучения как индивидуально значимую деятельность каждого ученика, в которой реализуется его субъектный опыт (опыт, полученный ребенком самостоятельно). Роль обучения состоит в том, чтобы выявить особенности этого опыта (личностный смысл, ценности, отношения), обогатить его научным смыслом, изменить его при необходимости, создать условия для развития индивидуальности ученика. Поэтому основой личностно- ориентированного обучения является принцип субъектности образования. Личностная ориентация педагогического процесса обязывает видеть воздействие образования не только на ученика, но и на учителя, личность которого также развивается в педагогической деятельности, что определяет ряд проблем в подготовке и профессиональном росте педагога.

Концепция И. С. Якиманской показывает возможности возникновения и действий внутренних механизмов развития, которые создаются самим учеником в процессе обучения и самостоятельной познавательной деятельности (способ обучения, способ самореализации и др.). Очевидно, что эти механизмы более действенны, чем те, которые возникают под влиянием внешних педагогических факторов, и превращаются во внутренний план личности [4].

В основе модели личностно-ориентированного обучения, разработанной В. В. Сериковым, положена теория личности С. Л. Рубинштейна, в соответствии с которой сущность личности выявляется в способности достичь такого уровня психического развития, который позволяет ей сознательно управлять собственными поведением и дея- тельностью. Идея концепции – создание условий для полноценного проявления и развития таких функций личности ученика: способности к выбору, жизненной рефлексии, что предполагает поиск собственного понимания жизни, личностных смыслов, возможностей саморазвития. В. В. Сериков разработал педагогическую технологию создания личностно ориентированных ситуаций. Эта технология основана на идее реализации ее трех основных характеристик: жизненного контекста, диалогичности и ролевого взаимодействия ее участников [5].

Таким образом, меняется подход общества к обучению, его социальное содержание, цели и задачи, технологии, отношения участников педагогического процесса. Главными целями системы образования становится создание условий для развития индивидуально-личностных способностей, особенностей с учетом интериоризации (преобразование внешних влияний на внутренний мир человека). Большое значение приобретает персонализация, стремление к самореализации и другие внутренние механизмы индивидуального саморазвития.

Литература

1. Роджерс К.Р. Становление личности. Взгляд на психотерапию. 2001,с.53
2. Бернс Р. Развитие “ Я ”концепции и воспитание. 1986,с. 422
3. Роджерс К.Р. Свобода учиться. 2002,с. 90
4. Якиманская И.С. Личностно-ориентированное обучение в современной школе. 2000,с.230
5. Сериков В.В. Личностный поход в образовании. Концепции и технологии.1994,с.152

Ключевые слова: Современный, личность, педагогика, воспитание, учение, склонность, обучение, реализация, формирование, программа, процесс.

Key words: modern, personality, pedagogy, upbringing, learning, tendency, education, realization, formation, program, process.

Açarsözlər: müasir, şəxsiyyət, pedaqoqika, tərbiyə, təlim, istiqamət, təhsil, reallaşdırma, formalaşma, proqram, prosess.

Xülasə

Şəxsi yönümlu təlim

Məqalə müasir şəraitdə humanist psixologiya çərçivəsində insan şəxsiyyətinin inkişafı ideyası, müasir təhsilin məzmununa həsr olunub. Humanist pedaqogika, müasir təlim-tərbiyə nəzəriyyəsi və praktikası 1950-ci illərin sonu -1960-cı illərin əvvəllərində ABŞ-da humanist psixologiya ideyalarının pedaqoji həyata keçirilməsi kimi yaranmış bir istiqamətdir. Əsas diqqətöz qabiliyyətlərini maksimum reallaşdırmağa çalışan, yeni təcrübə qazanmağa açıq olan, müxtəlif həyat vəziyyətlərində şüurlu və məsuliyyətli seçim etməyə qadir olan unikal vahid şəxsiyyətə yönəlib.

Summary

Personality based learning

In modern conditions, the idea of the development of a holistic human personality within the framework of humanistic psychology is becoming dominant and determining in the content of modern education. Humanistic pedagogy is a direction in the modern theory and practice of teaching and upbringing, which arose in the late 1950s and early 1960s in the United States as a pedagogical implementation of the ideas of humanistic psychology. The focus of its attention is on a unique holistic personality who strives for the maximum realization of his abilities, gaining new experience, and is capable of making a conscious and responsible choice in various life situations.

RƏYÇİ: Prof.L.Əhmədova

Mehtiyeva Tamilla Dadaş qızı[70]

HOW TO USE AUTHENTIC TEXTS AT THE ENGLISH CLASSES

Along with if and how to teach grammar, whether you should use authentic texts or graded texts (ones written or rewritten for language learners) remains one of the most hotly debated matters in TEFL. Researchers seem to be moving towards more of a consensus that grading and rewriting texts is generally a good idea, and that students learn more from a text where the amount of new language is limited, as this helps them guess from context and doesn't overload them. This also ties in with the idea that the language two non-native speakers use to communicate in English for International Communication is nothing like the idiomatic, idiosyncratic and style-obsessed writing that you generally find in a British newspaper. Intelligent use of graded texts is also, in my opinion, common sense. Even if a text that was written for the entertainment of native speakers that is almost perfect for the language learning needs of non-native speakers can be found, surely it is worth changing, however little, to make it truly perfect for learning English.

Therefore, in each lesson related to the Azerbaijani language, this or one of the various areas is considered, for example, grammar, phonetics, etc. but different areas should be covered. The teacher in such a lesson aims to teach only grammatical material or only certain rules of writing, such a lesson cannot be considered acceptable at all. Lexical phenomena must be connected to some extent with other areas of the language.

Key words: primary education, integration, system of lexical concepts, lexical knowledge.

RƏYÇİ: dos. L.Ələkbərova

Quliyeva Aysel [73]

ISSUES OF DEMOCRATIC GOVERNANCE IN EDUCATION

First of all, let me note that improving the educational results of students by increasing the quality of general education, working on personality-oriented and result-oriented education issues, as well as taking advantage of the advanced aspects of world education by studying the advanced experience are the main tasks before us. There are all possibilities for the implementation of practical works in these directions. Now, the pedagogical team and management of each general educational institution should take advantage of these opportunities and establish work that ensures the development of the school.

Management organization and real work.

In fact, regardless of what kind of innovation is introduced, the success of the school directly depends on the level of construction of the work and the organization of management.

Management in our school is based on democratic principles. During the organization of management, the teaching staff, students and parents, as well as the local environment, were taken into account. At the school, favorable conditions have been created for everyone to demonstrate their knowledge and skills, everyone is free in their activities. Teachers and students come up with various suggestions and take initiatives. Their proposals and initiatives are discussed in general and those considered acceptable are implemented. Sometimes such suggestions are useful and help to overcome certain shortcomings.

By the way, there is no specific "recipe" for democratic school management. At this time, taking into account the existing conditions, various options can be used. The main issue is that the school staff, headed by the director, organizes the work correctly.

Based on experience, I can say that the school management should be able to accept comments, shortcomings and suggestions, investigate them and draw conclusions and make an objective decision. Also, the evaluation of the teacher's work and increasing his reputation should be in the focus. Talent, literacy and skills should be prioritized when responsibilities are distributed in the school, suggestions of the teaching staff should be taken into account, teachers should be encouraged and rewarded.

Creating a healthy psychological environment in the collective plays a special role in school management. Thus, the school management should take into account the interests of all participants of the educational process, make them satisfied with their work, and achieve a pleasant moral and psychological environment in the team.

Also, the head of the educational institution must have the ability to communicate. He should build relationships with teachers and students at the level of friendship. At the same time, everyone in the school should be required to follow the general rules, and should be able to take serious measures against those who break the rules. The school director should also be elected with democratic views. In this case, he can establish the work of the Pedagogical Council, regulate school-teacher-parent relations, and organize extracurricular activities.

In short, the head of the school should regulate the educational process. It should not be forgotten that a democratic, favorable pedagogical environment is one of the factors affecting the quality of education.

Individual approach to the school and indicators

In our school, the proper organization of work with students is treated very seriously. Here, every student is in the center of attention. Students are treated individually, regardless of whether their indicators are high or low, and they are given appropriate guidance. Various measures are being implemented to further encourage students who have the potential to enter higher education institutions in the future.

Work is being done in the direction of acquiring vocational education for students with relatively low indicators.

In general, the relationship with students at school should be established correctly. The understanding ability, interests, personal needs and intellectual level of each student should be taken into account. Conditions should be created for them to acquire independent knowledge.

As a result of the implemented measures, high results are achieved in our school. Every year, 70-75 percent of graduates enter universities. Our students take first place in competitions, Olympiads and competitions.

In the democratic management of educational institutions, preference should be given to the management-pedagogical team, management-students, management-public organizations, teachers-students, teachers-parents system.

The head of the pedagogical team should regularly communicate with the employees, conduct conversations, and pay close attention to their wishes and desires, including their useful suggestions. If this is not the case, there will be a pedagogic mismatch between the collective and the management, and it will be difficult to achieve the set goal. Unfortunately, sometimes unhealthy relations between the management and employees arise in individual collectives, which has a negative impact on the general work.

The leading role of the school director in the organizational work is that he involves teachers, students, parents and individual students in management, and creates a system in the team's activities.

The head of the school is required to have deep theoretical knowledge, organizational skills, and to create a certain psychological environment in the team.

---

[73] APDU

All participants in the management of the pedagogical process are responsible for their work and report to their superiors.

The joint activity of the educator and the educated in management expands the experience of the student in the social framework, helps to form positive relations within the school, allows to express one's opinion at decisive stages, directs to create a relationship with teachers, to be their close assistant. Therefore, there is a need for the joint decision of teacher and student management bodies to be necessary, objective and urgent.

The task of the school director in the management of the school is to determine the activities of all the participants in the organization of management, to create conditions to stimulate their work, to correctly assess the individual-psychological activity and, finally, to move in horizontal and vertical directions for the good functioning of the whole team.

The content of the organizational work in management is determined by the nature of mutual relations between teachers and students, the pedagogical team, parents and the general public. First of all, it is important to determine the real situation in the management of the training process.

In order to direct the students, teachers and others involved in management to creative activity, it is necessary to achieve the organization of their mutual work. It is one of the main conditions to increase their theoretical and practical knowledge and to create conditions for their independent thinking.

It is necessary to create an incentive for creative thinking of the collective in the search for effective ways and means to improve the pedagogical process.

It is difficult to implement the above-mentioned by giving orders, orders and instructions. That is why a lot depends on the organizational skills of the head of the school. One of the main factors is to respect others, compete with them, convince them to have a creative attitude to their work, and allow a creative environment in the collective.

The organization of management directs the beginning of activities involving the entire school staff in the pedagogical process. A group of creative teachers in management activities at this stage is completed. In such teachers, to love their work and be theoretically prepared, to take the right direction in the work of understanding the essence of pedagogical influence, to arouse the desire to search, to look for effective forms and methods in solving pedagogical issues, to create a positive psychological environment in the collective, to defend all the important work that has been started. qualities are formed.

A school does not only consist of a building, classrooms, tables and chairs, and a lesson schedule. Ideas live there, are implemented and developed. To organize the collective, it is important to create and develop collective relations among teachers.

Sometimes, the danger is that the fate of a specific student is forgotten when discussing the educational process, the content, methods and principles of education, and the criteria of the general level of students. However, care for the student, his life, health, outlook should organize the activity of the pedagogical team.

CONFERENCE is considered the highest authority in the self-management of general education schools. The conference consists of students, school staff, community members, including parents, who are selected in equal numbers. Its functions mainly consist of the following:

1. Elects the school council, its chairman and the school director by direct, secret ballot.
2. Approves the school charter.
3. Determines the main directions of improving and developing the school, improving the quality of the educational process, increasing its efficiency, justifying the need to strengthen the material and technical base of the school, and, if necessary, allocate additional financial means to it.
4. When necessary, creates various (permanent or temporary) commissions (headquarters, councils, etc.), determines their authority.
5. Determines and approves the school's development program.

The SCHOOL COUNCIL is considered the supreme body during the inter-conference period and is engaged in the following activities:

1. Organizes the implementation of the decisions of the conference.
2. Represents the interests of the school together with the director.
3. Represents the interests of students, their social care-

determines the content, tools and methods of the programs, the necessary changes are made in the programs and textbooks, the curriculum.

4. Supervises the selection and placement of personnel, raises the issue of dismissal or upgrading of qualifications of persons who cannot cope with their work.
5. Raises the issue of employee appreciation.
6. Determines the joint activity of the pedagogical team with relevant departments and organizations.
7. Creates a school fund based on various sources of funding, monitors the effective spending of the budget.
8. He listens to the reports of employees, including the director, analyzes and makes relevant suggestions (how to stay at work, how to improve his work, etc.).
9. Monitors the expectation of legality, raises issues to prevent unwarranted outside interference in the school, etc.

Pedagogical workers, high school students, representatives of society and parents are elected to the council. The number of members is determined by the school's charter.

The sources of creation of the school fund are also reflected in the statute. This includes: the amount allocated from the local budget; assistance of base enterprises and other departments and organizations; voluntary help of parents and other citizens to the school; income from the paid service of the school, etc.

Pedagogical workers, high school students, representatives of society and parents are elected to the council. The number of members is determined by the school's charter.

The sources of creation of the school fund are also reflected in the statute. This includes: the amount allocated from the local budget; assistance of base enterprises and other departments and organizations; voluntary help of parents and other citizens to the school; income from the paid service of the school, etc.

That fund is used to increase the salary, award prizes, purchase equipment for the school, provide awards, etc. may be spent (at the discretion of the school board).

As can be seen, the conference and the school board, which are public bodies, have a lot of power and can do a lot to improve the quality of education.

References

1. John Martin RichProblems and Prospects for Democratic Education 1996
2. Bernard Trafford SOME CHALLENGES FOR DEMOCRATIC SCHOOL GOVERNANCE 2010
3. *Ron Israel* The Improving Educational Quality 2001

Təhsildə demokratik idarəetmə məsələlər

Xülasə

Bu məqalə təhsil müəssisələrində əmək prosesi, insanların təşviqi, dövlət və əmək intizamının möhkəmləndirilməsi, əmək ehtiyatlarının səmərəli istifadəsi, işlərə şüurlu münasibət, həm də kollektivin sosial vəziyyətinin yaxşılaşdırılması, onların əməyinin stimullaşdırılması, hüquq və vəzifələrinin müdafiəsi və s. məsələlər əsas hərəkətverici qüvvə hesab olunur və əmək kollektivinin rəhbər orqanı kimi çıxış edir.

Açar sözlər:təhsil müəssisələri, əmək prosesi, insanların təşviqi, əmək intizamı, əmək ehtiyatları, əmək kollektivi, vəzifələr və hüquqlar

Issues of democratic governance in education

Summary

This article deals about organizations of labor process in educational institutions, creative initiative of people promotion, strengthening of state and labor discipline, efficient use of labor resources, education of a conscious attitude to work, improvement of social conditions of each member of the collective, stimulation of their work, protection of rights and duties, etc. issues are considered the main driving force and act as the governing body of the labor collective.

Key words: educational institutions, labor process, promotion, labor discipline, labor resources, labor collective, duties and rights.

Вопросы демократического управления в образовании

Резюме

В этом резюме показывается об организации трудового процесса в образовательных учреждениях, поощрении творческой инициативы людей, укреплении государственной и трудовой дисциплины, рациональном использовании трудовых ресурсов, воспитании сознательного отношения к труду, улучшении социальных условий каждого члена коллектива, стимулирование их труда, защита прав и обязанностей и др. вопросы считаются главной движущей силой и выступают в качестве органа управления трудовым коллективом.

Ключевые слова: образовательные учреждения, трудовой процесс, продвижение по службе, трудовая дисциплина, трудовые ресурсы, трудовой коллектив, обязанности и права.

Rəyçi: dos. S.Abbasova

Mahirə Mövlud qızı Abdullayeva[74]

İBTİDAİ SİNİFLƏRDƏ İFADƏLİ OXU BACARIQ VƏ VƏRDİŞLƏRİNİN İNKİŞAF ETDİRİLMƏSİNDƏ FASİLƏNİN ROLU

İbtidai siniflərdə əsas təlim fənni Azərbaycan dili sayılırsa, Azərbaycan dili təliminin isə mühüm sahələrindən biri nitq inkişafı gesab edilir. Dilin nitq inkişafı zəminində tədrisi Azərbaycan dili təliminin başlıca prinsipidir. Nitq fəaliyyəti olmadan heç bir dərsin qurulması mümkün deyil. Azərbaycan dilinin digər fənlərlə inteqrasiyasının əsası nitq fəaliyyətidir, gözəl, rəvan və ifadəli oxu bacarığıdır. Şagird öz fikrini, arzu və duyğularını, arzu və duyğularının, ətraf aləm, təbiət və cəmiyyət haqqında olan mülahizələrini ana dilində ifadə edir. İfadəli oxu isə dilin ahəngini və musiqiliyini aşılayan mühüm təlim sahəsidir.

İfadəli oxu mətnin ahəngdar, bədii şəkildə meydana çıxması, səslənməsidir. Oxunun ifadəliliyi mətnin məzmun və ideyasının şüurlu mənimsənilməsini təmin edən amillərdən biridir.

Şagirdlərə ifadəli oxu vərdişlərinin aşılanmasına həsr olunmuş metodik işləmələr təlim prosesinin keyfiyyətcə yüksəldilməsinə təsir göstərən qaynaqlardan sayılır. Təhlil göstərir ki, Azərbaycan dilinin tədrisi metodiksında ifadəli oxudan bu və ya digər dərəcədə bəhs edilsə də, sintaktik biliklərə istinadən ifadəli oxu bacarıqlarının inkişafı məsələsi ayrıca problem kimi sistemli şəkildə araşdırılmamışdır. Xüsusən ibtidai siniflərdə ana dilinin tədrisi prosesi ilə bağlı şagirdlərdə ifadəli oxu vərdişlərinin yaradılması və inkişafı üzrə konkeret metodik vəsait yox dərəcəsindədir. Bununla belə, ayrı-ayrı tədqiqatlarda yeri gəldikcə ifadəli oxu məsələlərinə toxunulmuş, bu haqda müəyyən mülahizələr söylənilmiş, qabaqcıl müəllimlərin iş təcrübələrinə əsaslanraq, faydalı təkliflər irəli sürülmüşdür.

Biz əsasən, Azərbaycan dili dərslərində şagirdlərə ifadəli oxu vərdişləri verilməsi metodikasından bəhs edəcəyik və əsasən. Ifadəli oxu dedikdə biz bədii əsərin və yaxud hər hansı bir mətnin düzgün, düşünülmüş və emosional oxunuşunu başa düşürük.

İbtidai siniflər üçün Azərbaycan dili proqramı elə qurulmalıdır ki, şagirdlərə sözün səs tərkibi haqqında verilmiş məlumat müntəzəm olaraq möhkəmləndirilsin, onlara qrammatika qaydaları tədricən öyrədilsin. I sinifdə onlar cümlə ilə tanış olur, II sinifdə nitq hissələri, III, IV siniflərdə isə sözün tərkibi, nitq hissələri, cümlə, cümlə üzvləri, orfoqrafiya və durğu işarələri və s haqqında daha konkret biliklər alırlar. İbtidai siniflərdə qrammatikaya aid verilən bu məlumatlar nitq inkişafına kömək edən tapşırıqlarla sıx surətdə əlaqələndirilir.

Müəllim şagirdlərə ifadəli oxu vərdişlərini aşılamaq üçün sintaksisin tədrisi prosesində durğu oşarələri, həmçinin, fasilə üzərində dayanmalı, onu düzgün və yerində etməyin yollarını izah etməyə çalışmalıdır. Çünki, fasilədən yerində və düzgün istifadə edilməməsi cümlədə məna dolaşıqlığına aparıb çıxara bilər.

Mətn oxusunda fasilə ifadəliliyin mühüm şərtlərindən biridir. Fasilənin əsas funksiyası ayrı-ayrı cümlələri müəyyən hissələrə ayırmaqdan, sözləri mənaca bir-birinə bağlamaqdan ibarətdir. Fasiləyə düzgün əməl olunması təfəkkürün məhsuldarlığını artırır, mənimsəmənin keyfiyyətini yüksəldir.

Cümlədəki fasilələr bir-birindən öz müddətinə, yəni qısa və uzun olmasına və daşıdıqları vızifələrə görə fərqlənir. Cümlədə fasilə həm qısa, həm orta, həm də uzun müddətli ola bilər. Bu nöqteyi-nəzərdən fasiləni aşağıdakı qruplara ayırmaq olar: 1) qrammatik fasilə; 2) məntiqi fasilə; 3) psixoloji fasilə.

İbtidai siniflərdə qeyd etdiyimiz fasilə qrupları şagirdlərə nəzəri cəhətdən öyrədilmir. Şagirdlərin yaş və psixoloji səviyyəsini əsas götürsək, buna ehtiyac da yoxdur və onlar ifadəli oxunun bu nəzəri cəhətlərini mənimsəməyə də bilməzlər. Bu cəhətlər, əssən, öz ifadəli oxusu ilə şagirdlərə nümunə olan sinif müəllimləri üçün gərəklidir və onlar bunu praktik şəkildə tətbiq edərək tədricən şagirdlərdə ofdəli oxu vərdişlərini formalaşdırmalıdırlar.

Qrammatik fasilələr əsasən qısa olub, duğu işarələri ilə bağlı olan fasilələrdir. Bu fasilənin əsas vəzifəsi cümlədə lazımi sözləri bir-birindən ayırmaqdan ibarətdir. Qrammatik fasilə oxu prosesində fasilənin yerini durğu işarələrinə görə müəyyənləşdirməyi tələb edir. Belə ki, nöqtə fikrin bitdiyini göstərir və səsin aşağı düşməsini tələb edir. Nöqtəli vergül fikrin müəyyən qədər tamamlandığını bildirir. Bu vaxt səs bir qədər az aşağı düşür. Qoşa nöqtə fikrin qurtarmadığını, hələ sadalanacağını, aydınlaşdırılacağını, dəqiqləşdiriləcəyini bildirir. Vergül fikrin bitmədiyini bildirməklə səsin artırılmasını tələb edir. Tire fikrin sözlə ifadəsində müəyyən bir sözün buraxıldığını göstərir və fasilə tələb edir. Sual və nida işarələri isə fikrin, niyyətin emosional boyalarla verilməsinə xidmət edir.

Müəllim sistematik olaraq durğu işarələrinin öyrədilməsi prosesində intonasiya və fasiləyə fikir verməlidir. Çünki bu, şagirdlərdə nitq inkişafı və ifadəli oxu vərdişlərinin formalaşdırılmasının zəruri yoludur. Durğu işarələri yazıda dilin sintaktik cəhətini əks etdirir. Bir sıra durğu işarələrinin işlənmə qaydaları sintaksisə əsaslanır, sintaksis əsas olmayan yerdə durğu işarəsi işlənmir.

Müəllim şagirdlərə başa salmalıdır ki, cümlə sonunda qoylan işarə irəli sürülən fikrin məqsədini, mənasını aydın dərk etməyə kömək edir. Məsələn:

Səhər dənizdə fırtına qopdu.
Səhər dənizdə fırtına qopdu?
Səhər dənizdə fırtına qopdu!

[74] APDU

Bəzən şagirdlərə durğu işarələrinin əsl mahiyyəti yaxşı mənimsədilmir. Ona görə də şagirdlərdə durğu işarələri haqqında birtərəfli və yalnış təsəvvür yaranır. Müəllim yeri gəldikcə, sul işarəsi, olan yerdə də nöqtədəki qədər dayanmağın, sual ifadə edən sözdə səs tonunu ucaltmağın lazım olduğunu başa salmalıdır. Məsələn:

Quşlar, neçin gedirsiz?

Yoxsa ki, seyr edirsiz? (A.Səhhət).

Müəllim ibtidai sinifdə hiss və həyəcanın müxtəlifliyindən aslı olaraq nida işarəsinin müxtəlif intonasiya tələb etdiyini də aydınlaşdırmalıdır:

Sünbülüm, sünbülüm, sarı sünbülüm!

Adına söz qoşum barı, sünbülüm! (S.Vurğun).

Bu parçada nida işarəsi müraciət bildirən sözdən sonra qoyulduğundan, o qədər də coşqun hisslər bildirmir. "Xocalı faciəsi" mətnindən aşağıdkı parçada isə coşqun həyəcan, qəzəb hiss olunur:"Davud kişi yerə sərildi, dodaqlarından çıxan son sözləri eşidildi: - Allah evinizi yıxsın! Qansızlar! Faşistlər!"

Bu parça məzmuna uyğun olaraq daha qüvvətli, yanıqlı, kədərli tonda oxunmalı, qansız ermənilərə qarşı qəzəb və nifrət hissini aydın bir şəkildə nəzərə çarpdırmalıdır.

İfadəli oxu vərdişlərinin formalaşdərəlması prosesində uşaqlar tədricən öyrənirlər ki, oxu zamanı həmişə durğu işarələrinə görə hərəkət etmək, onu gözləmək mümkün deyil. Bir çox hallarda durğu işarələri fasilə və tonun dəyişməsini tələb etmir. Məsələn, cümlənin sonundakı xitabdan əvvəl fasilə edilmir, eyni məqamda işlədilən ara sözlər də fasilə ilə ayrılmır və s. Bəzən isə əksinə durğu işarəsi olmadan fasilənin edilməsi tələb olunur. Məsələn, M.Dilbazinin "Öz vətənimdir" şeirində oxuyuruq:

Baxdıqca ölkəmə doymayır gözüm,

Yamyaşıl tarlalar, düzlər mənimdir!

Verilmiş parçada "tarlalar" və "düzlər" sözləri arasında fasilə edilir ki, bu da beytdəki vergül işarəsi ilə bağlıdır. Lakin burada heç bir işarənin olmadığı "ölkəmə" və "doymayır" sözləri arasında da fasilə tələb edilir. Bunun səbəbi isə misradaxili bölgü ilə bağlıdır.

Bədii əsərlərin oxunması prosesində qrammatik və məntiqi fasilənin gözlənilməsi oxunun ifadəliliyinə, məzmunun şüurlu mənimsənilməsinə güclü təsir göstərir. Məntiqi fasilə mətndəki ayrı-ayrı sözlərin və cümlələrin hissələrinin mənasından asılıdır. Cümlədəki məna yükünü daşıyan mühüm sözlər məntiqi fasilə ilə ayrılır.

Asrazın bu tayında/

Darıxırdı bir çiçək //

Hey o taya baxırdı

Bu yanağı çiyələk... (Məmməd Namaz "Darıxan çiçək").

Bu parçada isə birinci misranın sonunda "tayında" və ikinci misranın sonunda "çiçək" sözlərindən sonra fasilə etməklə biz şagirdlərin diqqətini ikiyə bölünmüş Azərbaycan torpağına, ana və bacılarımızın Arazın o tayında qalmış Güney Azərbaycan həsrətinə, ikiyə bölünmüş Azərbaycanın birləşməsi ideyasına yönəltmiş oluruq.

Fasilənin gözlənilməsi ifadəli oxunun mühüm şərtlərindən biridir. Onun əsas funksiyası ayrı-ayrı cümlələri müəyyən hissələrə ayırmaqdan, sözləri mənaca bir-birinə bağlamaqdan ibarətdir. Fasiləyə düzgün əməl olunması şagirdlərin duyum qabiliyyətini cilalayır, mənimsəmənin keyfiyyətini yüksəldir Qrammatik fasilə durğu işarələri ilə bağlıdır. Belə fasilələr qısa olub ayrı-ayrı cümlələri bir-birindən ayırsa da, müəyyən məna əlaqəsi yaradır və beləliklə, ifadəli oxu prosesinin ahəngdarlığını artırmaq olur.

Müəllim qrammatik fasiləyə əməl edərək mətni oxuyur. Şagirdlər oxunu dərslikdə izləyərək müəllimin harada fasilə etməsinə diqqət yetirirlər.

Məntiqi fasilə ifadəli oxu zamanı daha geniş rol oynayır. Məntiqi fasilə qrammatik fasilədən söz və söz birləşmələrinin məna qruolarına ayrılması ilə və həmin sözlərin mənasının dərkinə xidmət etməsi ilə seçilir. Bəzi geniş cümlələrdə mənaca sıx bağlı olan söz birləşmələri ayrıca tələffüz edilir və bir sintaktik vahid kimi asanlıqla digərlərindən ayrılır. Cümlədə söz və ifadələrin mənaca bu cür ayrılması müəyyən söz və ifadənin mənsını daha aydın nəzərə çarpdırır, sözlər və ifadələr arasında dərin vəhdət yaradır. Məntiqi fasilələr əksər hallarda durğu işarələri ilə uyğun gəlir. Xitab və ara sözlər cümlənin başqa üzvlərindən məntiqi fasilələrlə ayrılır və bu zaman müvafiq durğu işarələri işlədilir:

Əziz uşaqlar! Siz yeni həyatın qurucularısınız!

Sənət, /doğrudn da/, insanın mənəvi köməkçisidir.

Lakin bir sıra hallarda sözlər arasında məntiqi fasilə edildiyi halda, heç bir durğu işarəsinə ehtiyac olmur. Məsələn, sadə cümlədə mübtəda ilə xəbər atasında, məsdər tərkibi ilə cümlənin başqa üzvləri arasında fasilə edildiyi halda, heç bir durğu işarəsinin işlədilməsinə ehtiyac qalmır. Məsələn:

Dərs vaxtında başlandı.

Baş mühəndisin qərarını eşidən qazmaşılar / məəttəl/ qalmışdılar.

Cümlə oxunarkən məntiqi fasilə gözlənilmədikdə ahəng pozulur. İbtidai sinif şagirdlərinə keçilən məşğələlərdə belə hallar tez-tez müşahidə olunur. Oxu sürətli, ya da yavaş-yavaş davam edir, bəzən isə uzun cümlələri oxuyan ibtidai sinif şagirdlərinin nəfəsi çatmər, bunun nəticəsində də nitq kəsilir.

Psixoloji fasiləyə gəldikdə o həm qrammatik, həm də məntiqi fasilələrdən bir sıra xüsusiyyətləri ilə fərqlənir. Əvvələn, psixoloji fasilə öz müddəti etibarilə qrammatik və məntiqi fasilələrdən daha uzundur. İkinci bir tərəfdən, psixoloji

fasilə söz və ya ifadəni cümlədəki başqa söz və ifadələrdən ayırmaqla bərabər, ona həm də emosionl rəngarənglik verir. O, mənadan daha çox hisslərlə bağlı olur ki, bu zaman qəhrəmanın və ya müəllifin daxili həyəcan və hisslərini verə bilməyə xidmət edir. Məhz buna görə də psixoloji fasilələrdən bədii oxu zamanı daha geniş istifadə edilir. Lakin ifadəli oxu zamanı da şagirdlərin psixoloji fasilə haqqında məlumatları olması vacibdir. Belə ki, müddəti etibarilə məntiqi fasilələri uzatmadıqda bu, psixoloji fasiləyə çevrilir və cümlənin quruluşunda, eləcə də mənasında əsaslı dəyişiklik əmələ gətirə bilər. Məsələn, fsilələrin uzadılması, xitab yerində işlədilmiş sözləri adlıq cümlələrə çevirə bilər:

Fəxrəddin, / bu vəhşi nadanlar sənin qədrini, qiymətini bilmədilər.

Fəxrəddin!...// Bu vəhşi nadanlar sənin qədrini, qiymətini bilmədilər!

Qeyd etdiyimiz kimi, psixoloji fasilə qrammatik və məntiqi fasilədən çox müddətli olması ilə seçilir. O, duyğu və hadisələrlə bağlı olub, ifadəli oxu prosesini iradi-emosional intonasiya ilə təmin edir. Əlbəttə, yaş həddi ilə bağlı olaraq I-III ainiflərdə şagirdlər buna əməl edə bilmirlər. IV sinifdə isə H.Ziyanın "Yaxşılığa əvəz" şeirində şagirdlər oxuyurlar:

... Anam mənə söyləyib:

Yaxşılıq eyləyən kəs

Ona əvəz istəməz.

Birinci misrdakı "yox" sözü psixoloji durumu qüvvətləndirir. Sonuncu misradakı sözlər isə oxucuda sevinc qətiyyət hissi oyadır.

İbtidai siniflərdə psixoloji fasiləni, əsasən, praktik yolla başa salmaq mümkündür. Üçüncü sinif dərsliyindəki "Qorxulu yanvar gecəsi mətnində şagirdlər oxuyurlar: " Dinc əhali gecə-gündüz küçələrdə dayanır, ümid edirdi ki, əsgərlər silahsız, dinc əhaliyə atəş açmazlar..."

Cümlədə "ki" bağlayıcısından sonrakı fasilə şagirdlərin diqqətini mühüm bir hadisənin baş verəcəyinə yönəldir.

Çox vaxt psixoloji fasilələr yazıda durğu işarələri ilə də verilir. Belə ki, psixoloji fasilə ediləcək yerdə, yəni müəyyən söz, ifadə və ya cümlədən sonra, çox nöqtə və ya tire işarələri qoyulur. Şagirdlərə ifadəli oxu vərdişləri aşılayarkən onlara psixoloji fasilənin xüsusiyyətlərini də izah etmək, onu qrammatik və məntiqi fasilələrdən fərqləndirməyi öyrətmək lazımdır.

İfadəli oxu zamanı bəzən məntiqi fasilənin gözlənilməsi çətin olduğundan müəllifin fikri tez-tez təhrif edilir. Məsələn, H.Ziyanın "Sünbülüm" şeirində oxuyuruq:

Üstündən əssə külək,

Gen zəmidə dəniz tək

Ləpələnib, de görək

Gülür üzün, sünbülüm!

İbtidai sinif şagirdləri, adətən, şeirin ilk iki misrasını xüsusi ahəglə, nəğməyə salaraq oxuyur, sonra axıradək hər bənddəki ilk iki misra həmin ahənglə davam edir. Məsələn, II sinifdə şagirdlər yuxarıdakı parçanın ikinci və dördüncü misralarından sonra təxminən parçanın ikinci və dördüncü misralarından sonra təxminən nöqtədə olduğu qədər fasilə verirlər. Bu vaxt həmin parça belə məna verir: "Gen zəmidə üstündən dəniz tək külək əssə, ləpələnib de görək..." Halbuki birinci misradan sonra azca fasilə edilməli, ikinci misra və üçüncü misranın yarısı /gen zəmidə dəniz tək ləpələnib/ birnəfəsə fasiləsiz oxunmalıdır. Çünki "dəniz tək" bənzətməsi küləyə deyil, sünbülə aiddir. Şagirdlər parçanın mənasını belə başa düşməlidirlər: Gen zəmidə üstündən külək əssə, dəniz tək ləpələnib de görək..."

Bütün verilmiş misallardan göründüyü kimi, ifadəli oxu prosesində durğu işarələri ilə nəzərə çatdırılan fasilə və intonasiya məzmunun ifadəli və şüurlu mənimsənilməsini təmin edir.

İfadəli oxu vərdişinin aşılanması üzrə iş sinifdənxaric oxunun yekunlaşdırılmasına həsr olunmuş məşğələlərdə, ümumiyyətlə, sinifdənxaric oxu prosesində də aparılır.

İfadəli oxu düzgün tənəffüs və səs çevikliyindən başqa, səslərin aydın və dəqiq tələffüzünü də tələb edir. Yazıçı və şairlərin gözəl əsərlərini mətni çeynəmək, sözün əvvəlini və axırını udmaq, bir səsi lüzumsuz olaraq digəri ilə əvəz etmək, ayrı-ayrı sözləri mənasız şəkildə birləşdirməklə oxumaq yaramaz. Belə oxu mətnin məzmununu təhrif edər və çətin başa düşülər. K.S.Stanislavski obrazlı şəkildə bunu belə ifadə edir : "Hərfləri dəyişdirilmiş sözlər mənə ağzının yerində qulağı, qulağının yerində gözü, burnunun yerində barmağı olan adam təsiri bağışlayır".

İbtidai siniflərdə şagirdlərə yalnız danışıq texnikası, ədəbi tələffüz qaydaları və s. haqqında verilən ilk məlumatla kifayətlənmək olmaz. Bunun üçün ibtidai siniflərin "Azərbaycan dili" dərsliklərində kifayət qədər münasib hekayə, təmsil və şeirlər vardır ki, şagirdlərə ifadə oxunun müəyyən vasitələrini elə bu dərsliklərin köməyi ilə mənimsətmək mümkündür.

İbtidai sinif müəllimləri şagirdlərdə ifadəli oxu vərdişlərini inkişaf etdirmək üçün ana dili dərslərində oxunun müxtəlif üsullarından istifadə edərək fasilənin müxtəlif növlərini aşılaya bilərlər Belə üsullardan müəllimin nümunəvi oxusu, rollar üzrə oxu, şagirdlərin sinif qarşısında oxusundan istifadə edərək ifadəli oxu vərdişlərini inkişaf etdirmək məqsədə-uyğundur.

Yuxarıda söylənilənləri şagirdlərdə formalaşdırmaq müəllimdən səbr və təmkinlə yanaşma və ardıcıl həyata keçirməklə hıyata keçirilə bilər.

IV sinifdən şagirdlər artıq fasilə haqqında müəyyən məlumatları olmasına baxmayaraq, sintaksisin tədrisi prosesində şagirdlərə ifadəli oxu vasitələri haqqında yeri gəldikcə ətraflı və dəqiq məlumat verilməsi də lazımdır.

Müəllim bədii əsəri oxuyarkən müəllifin hisslərini elə verməli, lazım olan yerdə səs tonundan düzgün istifadə etməli, yerli-yerində fasilə etməyi bacarmalı, əsərdəki surətləri, hadisələri şagirdlərə elə təqdim etməlidir ki, onlar fasiləni, məntiqi

vurğunu, intonasiyanın əsas olduğunu dərk etsinlər və onları gözləməyi bacarsınlar ki, nəticə etibarilə əsərin məzmununu da aydın başa düşsünlər.

İbtidai siniflərdə ifadəli oxu prosesində müəllim təlim materialının məzmununa uyğun düzgün və dəqiq intonasiya tonu seçməli, oxu prosesini drijor kimi idarə etməli və fasiləni düzgün vurğulamalıdır. Müəllim yaradıcı təsəvvürün köməyi il oxuduğunu "görməli" və şagirdlərə də göstərməyə" çalışmalı, oxu prosesində hadisənin iştirakçısı kimi hərəkət etməli, əsərin ruhu ilə yaşamalıdır, əsərdəki bədii ifadə vsitələrini tapmalı, məzmuna və formaya uyğun oxumağı bacarmalıdır. Bütün bunları özündə formalaşdırmaq üçün isə əvvəlcə öz üzərində çalışmalıdır, daha sonra şagirdlərinə aşılamalıdır.

İstifadə edilmiş ədəbiyyat

1. Abdullayev A.S. İfadəli qiraət metodikası haqqında. Müəllimə kömək, 1940, N 7.
2. Abdullayev A.A., Abdullayeva G.A. Ana dili dərslərində bədii əsərlər üzərində işin təşkili. Bakı, Müəllim, 2004.
3. Abdullayeva G.A. Nitq mədəniyyəti və nitqin ifadəliliyi. Bakı, 2007.
4. Abdullayev N.Ə. Ədəbi tələffüz təliminin metodikası. Bakı, Maarif, 1986.
5. Y.Ş.Kərimov. İbtidai siniflərdə şagirdlərin nitqinin obrazlılığı üzərində işin təşkili. Azərbaycan dili və ədəbiyyat tədrisi, 1966, N 2.
6. Y.Ş.Kərimov. Ana dilinin tədrisi metodikası. Bakı, Nasir, 2003.
7. Balıyev H.B. Orta məktəbdə Azərbaycan dilinin tədrisi metodikası. Bakı, ADPU nəşri, 2003.
8. Ş.Z.Nəbiyeva, G.A.Abdullayeva, A.S.Kərimova. İbtidai siniflərdə ana dilinin tədrisi merodikası fənnindən mühazirələr. "Elm və təhsil", Bakı 2015.

РЕЗЮМЕ

В данной статье под названием «Роль интонации в развитии навыков и навыков выразительного чтения в начальных классах» обсуждается роль интонации в привитии навыков выразительного чтения в начальных классах. В статье объясняется порядок чтения стихотворений и ролей, подчеркивается важность интонации. В статье в качестве примеров приведены отрывки из произведений учебника «Азербайджанский язык» для начальной школы, а также разъяснены правила их чтения. Также рассматривается работа над интонацией в I-IV классах и подчеркивается целесообразность использования активно-интерактивных методов на уроках выразительного чтения.

В статье также подчеркивается значение пунктуации как средства выразительного чтения. В конце были отражены некоторые рекомендации относительно выразительного чтения.

Ключевые слова:Ученик, интонация, учитель, выразительное чтение, навык, говорение, пауза.

SUMMARİ

This article, titled "The Role of Intonation in Developing Expressive Reading Skills and Skills in the Primary Grades," discusses the role of intonation in developing expressive reading skills in the primary grades. The article explains the order of reading poems and roles, emphasizes the importance of intonation. In the article, excerpts from the works of the textbook "Azerbaijani language" for elementary school are given as examples, and the rules for reading them are explained. The work on intonation in grades I-IV is also considered and the expediency of using active-interactive methods in expressive reading lessons is emphasized.

The article also emphasizes the importance of punctuation as a means of expressive reading. At the end, some recommendations for expressive reading were reflected.

Keywords: Pupils, intoneyshn, teacher, ekspressive reading, ability, apeaking,

RƏYÇİ: dos. T.Əliyev

Bəhram Cəfər oğlu Məmmədov[75]

ORTA ÜMUMTƏHSİL MƏKTƏBLƏRİNDƏ TABESİZ MÜRƏKKƏB CÜMLƏLƏRİN TƏDRİSİNİN ŞAGİRDLƏRİN NİTQ İNKİŞAFINDA ROLU

Yeni fənn kurukulumuna əsasən IX sinif şagirdləri təlim prosesi zamanı dinləyib anlama məzmun xətti üzrə dinlədiyi fikri anladığını nümayiş etdirməli, danışanın mövzuya münasibətini müəyyən etmək üçün tədqiqat xarakterli suallar verməyi bacarmalı, dinlədiyi fikirlərə münasibət bildirmək qabiliyyətinə malik olmalı, şifahi nitq bacarıqları nümayiş etdirə bilməli, dil vahidlərindən məqsədyönlü istifadə etməklə müxtəlif formalı mətnlər qurmaq bacarığına sahib olmalı, müxtəlif tipli rabitəli nitq nümunələri qururmalı, nitq prosesində danışığı ilə ifadə tərzini uzlaşdırmalı, ümumiləşmiş fikirləri yığcam şəkildə təqdim etmək xüsusiyyətinə nail olmalıdır.

Qarşıya qoyulmuş tələblərin yerinə yetirilməsi üçün ilk növbədə fənn müəllimi Azərbaycan dilinin qrammatik, üslubi imkanlarını dəqiq bilməli və tətbiq etməyi bacarmalıdır. Qrammatik kateqoriyalar sırasında cümlə, mürəkkəb cümlə və onun növləri məsələsi də diqqətdə saxlanılmalıdır. Bu mənada mürəkkəb cümlənin tədrisi şagirdlərin nitq inkişafında xüsusi əhəmiyyət kəsb edir. Mürəkkəb cümlənin tədrisi zamanı şagirdlərin nitq inkişafına nail olmağın yollarından biri kimi şagirdlərdə nitqeşitmə bacarığının formalaşdırılmasıdır. Əminliklə qeyd etmək olar ki, öz nitqini yaxşı eşidən, müəlliminin və yaxud şagird yoldaşlarının nitqindəki intonasiyasını olduğu kimi təqlid etməyi bacaran, özünün və başqasının nitqi zamanı intonasiya cəhətdən tənqidi yanaşa bilən şagirdlər oxu zamanı mətni, mətn daxilində verilmiş sintaqmları daha doğru formada tələffüz etmək bacarığına nail olacaqlar.

Məzmun xətləri üzrə əsas və alt standartlarda qeyd edilir ki, şagirdlər nitq prosesində səs seçimini, yəni səsin tonunu, səsin ucalığını ifadə tərzləri ilə aldıqları poza, jest və mimikaları ilə uzlaşdırmağı bacarmalıdır. Məlumdur ki, nitq ifadəli hərəkətlərlə müşayət edilməlidir. Burada məqsəd fikrin məna tutumunu artırmaq, ifadəliliyi gücləndirmək, mənaya ekspressivlik vermək, daha təsirli etməkdir. Mimikalar insan hisslərinin, insanın əhval ruhiyyəsinin təzahür formalarından biri olduğundan sözün, cümlənin təsir gücünü artırmaqla fikrin qavranılmasına kömək edir. Əgər şagirdlərdən biri təqdim edilmiş mətni oxuyarkən lazım gəldiyi zaman bu xüsusiyyətlərə diqqət yetirərsə digər şagirdlər mətndə obrazları daha yaxşı qavrayar, onların xüsusiyyətləri haqqında daha dolğun təsəvvürə malik olar, lazım gəldikdə mətnlə əlaqədar fikir yürütmə imkanlarına malik olar. Bu isə öz növbəsində şagirdlərdə rabitəli nitq qurma bacarıqlarının formalaşmasına təsir edəcəkdir. Yeri gəlmişkən şagirdlərin nitq inkişafına qoyulan tələblərdən biri də onların rabitəli nitqə sahib olma bacarıqlarının inkişaf etdirilməsi məsələsidir. Məzmun xətləri üzrə əsas və alt standartlarda bu məsələ dinləyib anlama və danışma və yazı məzmun xəttində ifadə edilir. Bu məzmun xətlərində göstərilir ki, şagirdlər (1.2.2.) müxtəlif tipli rabitəli nitq nümunələri qurmalı, (3.1)rabitəli yazı vərdişlərinə yiyələndiyini nümayiş etdirməli, (3.1.1) verilmiş mövzuya uyğun müxtəlif tipli (nəqli, təsviri, mühakimə) və malı (inşa, esse, hekayə) mətnlər yazmağı bacarmalıdır. (1. səh. 6.) Rabitəli nitqin qurulması üçün vacib olan bəzi şərtlər vardır. Rabitəli nitq qurmaq üçün şagirdlər nitqin məzmunca dolğun olmasına, nitq predmetinin yaxşı mənimsənilməsinə, hadislərin və ya məvhumların düzgün və hərtərəfli dərk olunmasına diqqət yetirməlidirlər. Şagirdlər hər hansı rabitəli mətn qurarkən müəyyən məntiqi ardıcıllığa əməl etməli, fikrin ardıcıllığını məntiqi cəhətdən düzgün təqdim etməlidirlər. Əgər bu amilə diqqət yetirilməzsə, nitqdə rabitə kəsilir, fikir çətin başa düşülür və yadda qalmır. Şagirdlər eyni zamanda bilməlidir ki, rabitəli nitq qurmaq üçün fikir ifadə olunduğu zaman əsas və ikinci dərəcəli məsələlər bir-birindən ayrılmalıdır.

Şagirdlərin nitq inkişafına verilən tələbləri ümumiləşdirərək tabesiz mürəkkəb cümlələrin tədrisinin şagirdlərin nitq inkişafında rolunu yaxından izləmək mümkündür.

Apardığımız müşahidəyə əsasən tabesiz mürəkkəb cümlənin tədrisi zamanı şagirdlərin nitq inkişafında rolunu müəyyən etmək üçün 9-cu sinif dərsliyinin 3-cü bölməsinə aid bir dərsin gedişinə diqqət yetirək:

Dərsin mövzusu kimi "Qeyri-adi zəka sahibi – Robert Oppenheymer" mövzusunu seçirik. (2.səh.85). Dərsin mövzusuna uyğun olaraq aşağıdakı məzmun standartlarından istifadə edirik:

"3.1.Rabitəli yazı vərdişlərinə yiyələndiyini nümayiş etdirir."

"3.1.1.Verilmiş mövzuya uyğun müxtəlif tipli (nəqli, təsviri, mühakimə) və for malı (inşa, esse, hekayə) mətnlər yazır."

"3.1.2. Formalaşmış fikir və mülahizələrini həyat hadisələri ilə əlaqələndirərək əsaslandırır." "3.1.3. Mətnin hissələri, abzaslar və cümlələr arasında əlaqəni gözləməklə özünün və başqasının yazısını təkmilləşdirir."

"4.1. Dil qaydalarını mənimsədiyini nümayiş etdirir."

"4.1.1. Mürəkkəb cümlənin növlərini fərqləndirir."(1. səh.7)

Qarşıya aşağıdakı məqsədləri qoymaq mümkündür:

1.Şagirdlərin tədqiqat xarakterli suallar verməsini təmin etmək.

2. Şagirdlərin mürəkkəb cümlələrdən istifadə əsasın da mətnlər qurmasını təmin etmək.

3. Mətnin hissələri, abzaslar və cümlələr arasında əlaqəni gözləməklə yazını təkmilləşdirməsini təmin etmək.

İnteqrasiya isə müxtəlif formada, o cümlədən aşağıdakı şəkildə təmin edilə bilər:

"Həyat bilgisi – 2.2.1. Əsas insan hüquqlarının Beynəlxalq hüquq normalarında təsbit olunduğunu əsaslandırır."

"Fizika – 3.2.2. Müxtəlif fiziki hadisələrin inkişafında fizika elminin roluna dair təqdimatlar edir."

---

[75] ADPU

"Kimya – 4.3.1. Qeyri-üzvi kimya sahəsində görkəmli alimlər haqqında məlumatlar toplayır, təqdimatlar edir." "(1. səh.104)

İş formasını qrupla və fərdi iş şəklində təşkil etmək olar.

İş üsulu kimi beyin həmləsi, debat, tənqidi oxudan istfadə etmək mümkündür.

Resurs rolunda Robert Oppenheymer və Mariya Küri ilə bağlı məlumatlar, fotoşəkillər, Xirosima və Naqasakiyə aid faciəvi faktlar-şagirdlərin psixikasına təsir etməmək şərtilə çıxış edə bilər.

Dərsin gedişini təsvir etməzdən öncə bəzi izahların verilməsi yerinə düşərdi. Qeyd etmək istərdik ki, məzmun xətti üzrə seçdiyimiz "rabitəli yazı vərdişlərinə yiyələndiyini nümayiş etdirir" standartı özündə yazılı nitqin inkişaf etdirilməsini ehtiva edir. Bu hər şeydən öncə şagirdin nitqinin inkişafı deməkdir. Qarşya qoyulmuş məqsədlər sırasında şagirdin tədqiqat xarakterli suallar verməsi də yazılı nitqlə paralel olaraq şifahi nitqinin formalaşması ilə bağlıdır. Əgər dərsin gedişində müəllim bu məqsədə çatarsa, o zaman dərsin iştrakçıları, yəni şagirdlərin nitq inkişafında müəyyən uğur əldə edilmiş olar. Eyni zamanda "Formalaşmış fikir və mülahizələrini həyat hadisələri ilə əlaqələndirərək əsaslandırır" standartı da yazılı nitqdə rabitənin olmasını təmin etmək üçündür, buna görə də məqsədlər sırasında "Şagirdlərin mürəkkəb cümlələrdən istifadə əsasın da mətnlər qurmasını təmin etmək" var, əgər şagirdlərdə rabitəli nitq inkişaf etdirilməsə, mətnin qurulması alınmayacaq, onların yazdığı mətn yox, söz yığnına çevriləcək.

Dərsin gedişi:

Motivasiya: Bu mərhələdə şagirdlərə I Qarabağ müharibəsindən sonra erməni vandalları tərəfindən dağıdılmış, 44 günlük II Qarabağ savaşında işğaldan azad edilmiş Ağdam və Cəbrayıl şəhərlərinin görüntülərinin olduğu foto şəkil, video-çarxları nümayiş etdiririk. Tarixi müayisə aparıb bu faciənin başqa ölkələrin tarixində də görüldüyünü söyləyir, səbəbi araşdırırıq. Səbəbkarların adını müqayisəli şəkildə açıqlayır, mətn tənqidi oxu əsasında oxuduruq. Mövzuya uyğun olaraq tədqiqat sualı formalaşdırırıq.

Tədqiqat sualı kimi "İnsanlar belə faciələri hansı yollarla törədə bilər?" sualını qoyuruq.

Tədqiqatın aparılması mərhələsində şagirdləri 3 qrupa bölüb hər üç qrupa eyni dərslikdəki 1,2,3,4 və 5-ci tapşırıqları(2.səh.84) veririk. Burada məqsədimiz şagirdlərin eyni mövzuya yanaşma tərzlərini və abzasları əlqələndirmək bacarığını yoxlamaqdır. Dərsdə şagirdlərdən təşkil etdiyimiz qruplara verdiyimiz tapşırıqlardan 1-ci tapşırığın həlli ilə tanış olaq:

1-ci tapşırığın şərtində deyilir ki, faktlardan istifadə etməklə rabitəli mətn qurun. Cümlələr arasında əlaqələrin düzgün qurulmasına riayət edin. Mətni genişləndirin.

Təqdim edilmiş mətn 1943-1945-ci illər ABŞ-da atom bombasının hazırlanması layihəsinin rəhbəri, atom silahının yaradıcısı Robert Oppenheymerin həyat və fəaliyyəti haqqındadır. Dərslikdə verilmiş 2-ci tapşırığa görə şagirdlər mətni anlaşıqlı qurmalı və quracaqları mətnin son cümləsi dərslikdə verilmiş mətnin ikinci hissəsi ilə əlaqələnməldir. Şagirdlərin tərtib etdikləri mətni nəzərdən keçirdikdə aydın olur ki, mətn sadə, anlaşıqlı dildə tərtib edilmişdir. Mətnin son "*Çox keçməyəcək ki, Robert Kvant mexanikası üzrə əsas işlərin, eləcə də atom nüvəsi fizikası və kosmik şüalanma,izotopların neytron hissəciklərin ayrılması nəzəriyyəsinin müəllifinə çevriləcəkdir."*(2.səh.85) Cümləsi dərslikdə təqdim edilmiş II hissə ilə əlaqələnə bilir. Qeyd edə ki, mətnin dərslikdə verilmiş ikinci hissəsi Robert Oppenheymerin elmi fəaliyyəti ilə əlaqədardır.

Qruplara təqdim edilmiş tapşırıqlardan olan 3-cü tapşırıqda qeyd edilir ki, şagirdlər tərtib etdikləri mətnə əsasən tədqiqat xarakterli suallar qoysun. Mətnə əsasən şagirdlərin bəziləri aşağıdakı sualları tərtib etmişlər:

1.Robert Oppenheymer niyə müəllim kimi fəaliyyətini davam etdirmir?

2.O nə üçün yenidən ABŞ-a qayıdır?

3. Robertin elmi tədqiqatlarının məqsədi nə idi?

4-cü tapşırıqda isə qeyd edilir ki, şagirdlər mətndə mürəkkəb cümlələrdən istifadə etsinlər. Mətnə diqqətlə baxdıqda burada tabesiz mürəkkəb cümləyə rast gəlmək mümkündür. Məsələn: "*Daha sonralar Robert Rezerfordun rəhbərlik Kavendış laboratoriyasında çalışır və Almaniyadan məşhur fizik Maks Born ona birgə işləmək təklifi göndərir, Robert bu təklifi qəbul edib almaniyanın Gettingen Universitetinə işləməyə gedir"* cümləsi üç qrammatik əsasdan ibarətdir:

"Robert çalışır", "Maks Born işləmək təklifi göndərir", "Robert gedir" Burada birinci qrammatik əsasdan sonra məntiqi ardıcıllıq nəticəsində ikinci, eyni qaydada ikinci qrammatik əsasdan sonra üçüncü qrammatik əsasın yaranması zərurəti yaranır.

5-ci tapşırıq şagirdlərə mətnin qurulması ilə əlaqədar verilmiş materiallardan ibarətdir ki, mətndə şagirdlərin həmin materiallardan düzgün istifadə etdiyini görə bilərik.

Qrupların təqdimatları dinləyirik, müzakirə edirik, daha yaxşı olan qrup işi dəqiqləşdirilir. Həmin işin yaxşı olmasının səbəblərini şagirdlərlə birgə müzakirə edilir .

Məlumat mübadiləsi və müzakirə: Bu mərhələdə Robert Oppenheymerlə Mariya Kürinin elmə verdiyi töhfələr müqayisə edirik.

Debat üçün arqument olaraq onu seçirik ki, Mariya Küri bir alim olaraq kəşf etdiyi metala öz ölkəsinin adını vermiş ölkəsinin adını elm tarixinə yazdı. Lakin Robertin kəşfi əksinə minlərlə insanın ölümünə səbəb oldu.

Nəticələrin çıxarılması: Deməli insanlar elmdən düzgün istifadə etmədikdə bəşəriyyətin məhvinə səbəb ola bilərlər. İnsan zəkası ilə qazanılan uğur insanları xilas edə, yaxşı yaşayəışını, rahatlığını təmin edə, onları xoşbəxt gələcəyə apara bilər və yaxud tam əksinə, dünyanı dağıda bilər, milyonların ölümünə, təbiətin məhvinə, yaradılmış min illər ərzində əldə edilm iş

maddi və mənəvi nemətlərin məhvinə səbəb ola bilər. Buna görə də insan oğlu öz biliyini, bacarığını xeyirxah işlərə, dünyanın gözəlləşdirilməsinə sərf etməlidir.

Maraqlıdır ki, mətnin müəllifi B.Yusifoğlu bu mətni "Dünyanı dağıdan adam" adlandırmışdır Şagirdlərin bəziləri mətnin adlandırılması ilə bağlı fərqli fikirlər söyləyə bilər, müəllim isə onların fərqli fikirlərini əsaslandırmağa çalışmalıdır.

Ev tapşırığı olaraq şagirdlərə Atom bombasının törətdiyi faciələrlə bağlı bir səhifəlik esse yazmaq tapşırırıq. **Qiymətləndirmə** zamanı özünüqiymətləndirmədən istifadə edirik.

Dərsin sonunda şagirdlər, əsasən, tabesiz mürəkkəb cümlələrdən istifadə edərək nitq inkişafına nail olur. Dərs prosesində aydın şəkildə müşahidə edə bilərik ki, şagirdlər daha çox tabesiz mürəkkəb cümlələrlə öz fikirlərini ifadə edir, həm yazılı nitqlərində həm də şifahi nitqlərində tabesiz mürəkkəb cümlələrin qurulmasına nail olurlar. Burada onların tabesiz mürəkkəb cümləyə aid əldə etdikləri dil bilgiləribnin də rolu böyükdir.

İstifadə edilmiş ədəbiyyat

1.S. Cavadova, "Ümumtəhsil məktəblərinin 9–cu sinfi üçün metodik vəsait" Bakı, "Şərq-Qərb"2020
2.T.Hacıyev, S.Bektaşi,Y. Hüseynova, Ümumtəhsil məktəblərinin 9-cu sinfi üçün "Azərbaycan dili"(tədris dili kimi) fənni üzrə dərslik, Bakı, "Şərq-Qərb", 2020
3. Q. Kazımov Müasir Azərbaycan dili sintaksis, "Üns" Bakı, 2000
4. M. Ə. Əliyev"Tabeli mürəkkəb cümlələr və onların xüsusiyyətləri", "Maarif", Bakı, 1992
5. Ə. Tanrıverdi, Azərbaycan dilinin tarixi qrammatikası, "Elm və təhsil", Bakı, 2017
6. T.Hacıyev, S.Bektaşi, M. Vəliyeva, Y. Hüseynova, Ümumtəhsil məktəblərinin 8-ci sinfi üçün (tədris dili) fənni üzrə DƏRSLİK, Bakı, "Şərq-Qərb", 2019
7. Dövlət İmtahan Mərkəzi Azərbaycan dili, Bakı, "Şərq-Qərb", 2019

The role of teaching subordinate complex sentences in students' speech development in secondary general education schools

Summary

According to the new subject curriculum, 9th grade students must demonstrate that they understand what they have heard during the learning process, listening and understanding content, they must be able to ask research questions to determine the speaker's attitude to the topic, they must be able to demonstrate oral speech skills, they must be able to use language units in various forms of texts. must have the ability to build, build different types of communicative speech patterns, reconcile speech and expression style in the speech process, and achieve the ability to present generalized ideas in a concise manner. In relation to these issues, the article summarizes the requirements for students' speech development and explains the role of teaching subordinate complex sentences in students' speech development.

In order to determine the role of the subordinate complex sentence in the speech development of students in the teaching process, a test lesson on the topic "The owner of unusual intelligence - Robert Oppenheimer" is explained in the 3rd section of the 9th grade textbook.

Key words: complex sentence, speech development, head member

Текст научной работы на тему «Роль обучения придаточно-сложным предложениям в развитии речи учащихся средних общеобразовательных школ»

Резюме

Согласно новой учебной программе по предмету, учащиеся 9-х классов должны продемонстрировать, что они понимают услышанное в процессе обучения, аудирования и понимания содержания, они должны уметь задавать исследовательские вопросы для определения отношения говорящего к теме, они должны уметь для демонстрации навыков устной речи они должны уметь употреблять языковые единицы в различных формах текстов, должны обладать умением строить, выстраивать разные виды коммуникативных речевых моделей, согласовывать речь и манеру выражения в речевом процессе, достигать умения излагать обобщенные идеи в сжатой форме. В связи с этими вопросами в статье обобщаются требования к развитию речи учащихся и разъясняется роль обучения подчинительно-сложным предложениям в развитии речи учащихся.

С целью определения роли подчинительного сложного предложения в речевом развитии учащихся в учебном процессе в 3-м разделе учебника для 9-го класса разъяснено контрольное занятие по теме «Обладатель необычного интеллекта - Роберт Оппенгеймер».

Ключевые слова:сложное предложение, развитие речи, главный член

RƏYÇİ: dos. S.Abbasova

Məsmə Əliyulla qızı İsmayilova [76]

DİALOQLARDA İDİOMLARIN İŞLƏDİLMƏSİ

Şifahi nitqdə insan fikir və düçüncələrini,emosiyalarını,arzu və diləklərini,istəyini dil vasitəsiylə bildirir.Bu dialoqlarda daha çox öz əksini tapır.Zaman keçdikcə tərkib dəyişir,yenilənir və yenilənmə,dəyişkınlik nitqimizin əsas xüsusiyyətlərini kəsb edir.Qrammatik nəzəriyyəni təcrübədə, danışıqda – şifahi nitqdə rəngarəng təsvir etmək o dilin mükəmməl mənimsənilməsinə sübutdur.Bu baxımdan da istər yazılı,istərsə də şifahi nitqdə işlədilən söz birləşmələri,frazeoloji ifadələr,idiomlar xüsusi yer tutur.Bu birləşmələrin işlədilməsi dili zənginləşdirir, sadələşdirir, anlamlə edir və mövzuya rəng qatır. Belə ifadələr arasında idiomlar xüsusi yer tutur.

Müasir ingilis dili zəngin idiomatik sistemə malikdir. Bu dili işlədən hər bir şəxs bu və ya digər şəkildə nitqində idiomatik ifadələrlə qarşılaşır. İdiomlar danışıq zamanı mətnə xüsusi çalarlıq, rəngarənglik versə də, məna və qrammatikanın vəhdəti ilə onların tədqiqində işlənmə yerinə görə çətinlik törədir. Sabit söz birləşmələri və frazeoloji vahidlərin üzərində aparılan tədqiqatlar göstərir ki, onlar dili zənginləşdirir, nitqi daha cəlbedici edir. İdiomların digər frazeoloji birləşmələrdən fərqləndirilməsi, onların səciyyəvi cəhətlərinə görə təsnifatı, tərkibində idiom olan mətnin anlaşılması, idiomlarda baş verən leksik və qrammatik dəyişikliklərin səbəbləri, sintaksis və semantikanın qarşılıqlı əlaqəsi çərçivəsində dəyişikliklərin izahı, konseptual metaforalar və metonimiyalar, insanın dünyəvi bilikləri nəzdində bir çox idiomların yaranma səbəblərini, habelə onların mənasını əsaslandırmaq, başqa sözlə hərfi məna ilə idiomatik məna arasındakı əlaqəni araşdırmaq kimi məsələlər şifahi nitqdə,istərsə də yazılı nitqdə aktuallıq göstərir. Bu xüsusiyyətlərin hər birinin əsaslı tədqiqə ehtiyacı vardır və onların bir-biri ilə qarşılıqlı əlaqəsi idiomların ətraflı şəkildə öyrənilməsini daha da aktuallaşdırır.

İdiomlar - gündəlik həyatımızda işlədilən,məcazi məna daşıyan ifadələrdir.Elə bu xüsusiyyətlərinə görə idiomlar müxtəlif növlərə bölünür. Bunlara misal olaraq : ümumi idiomlar (in touch - əlaqəli);rənglərlə ifadə edilən idiomlar (to be green around the gills- xəstəlik əlaməti(üz rənginin dəyişməsi); mebel və məişət əşyaları ilə ifadə olunan idiomlar(turn the tables- vəziyyəti alt-üst etmək; greasy spoon-ucuz restoran);insanların təqdim edilməsin bildirən idiomlar (couch potato-tənbəl insan;social butterfly-cəmiyyətə can atan insan); və s.Bu növ idiom qrupları çoxluq təçkil edir.Bu idiomlar daha çox dialoqlarda öz əksin tapır.

İdiomlar müxtəlifsistemli dil lüğətlərinin ən çətin və maraqlı hissəsin təşkil edir. Davranış qaydalarının gözlənilməsində idiomlar əsas meyarlardan biridir.Məsələn: Amerikada hər bir kəs etdiyi hərəkətə görə tənbeh edilirsə bu zaman " off the wall " – yəni kənarda bir öz hərəkətlərinə bax;

Britaniya da isə bu ifadə " mad as a box of frog " – kimi işlədilir.Belə nümunələr bütün dillərdə vardır və onlar mənaca eynilik təşkil etsə də tərkibindəki sözlərə görə fərqlənirlər. Xarici dillərdə işlənən idiomlara aid material azlıq təşkil etdiyinə baxmayaraq,dilcilərimiz dil öyrənənlərə idiomların həm yazılı,həm də şifahi nitqdə tətbiq edilməsinə yaxından kömək edir

İngilis dilində idiomatik ifadələri öyrənmək dil öyrənənlər üçün çox əhəmiyyətlidir. Birincisi başqa bir dilin idiomatik ifadələrini öyrənmək, idiomlar dilin vacib bir mədəni elementini təşkil etdiyi üçün bu mədəniyyətin yumorlarını və xarakterini anlamaq üçün bir həlledici amildir. İkincisi, bu onlara ingilis dilinin xüsusiyyətlərini anladır . İdiomların tədrisinin ənənəvi metodları əsas yaddaşa həkk etmək və tez-tez istifadə etməkdə diqqət tələb edir. Müxtəlif xarici dili öyrənənlər formalar və mənalar arasında əlaqə olmadan ayrı-ayrı idiomları topladıqları üçün cox uzun olan bir yolu keçmiş olurlar.

Hər bir dil üçün əsas material sözdür və dilə marağı olan hər kəs gündəlik olaraq yeni söz və söz birləşmələri öyrənir. Həmin söz birləşmələrinin tərkibində idiomlar xüsusi yer tutur. Bu baxımdan ingilis dili idiom və idiomatik birləşmələrlə zəngin bir dildir. İdiomlara bütün üslublarda rast gəlmək mümkündür: yazıda, danışıqda, bədii ədəbiyyatda,dialoqlarda ,təsvirlərdə və s. Hətta hazır ki dövrdə mətbuatda dərc edilən məqalələrin əksəriyyətinin başlığını idiomlar təşkil edir.İdiomları təşkil edən sözlər bir yerdə öz əvvəlki mənalarını itirir və birləşmə tərkibində müxtəlif və yeni məna yaradır. Məsələn: " scearch your heart" burada to search – tədqiq etmək ; heart- ürək sözü kimi tərcümə edilir. Göstərilən idiomda isə ifadənin mənası "hansısa hərəkəti etməmişdən əvvəl ürəyinin səsinə qulaq as mənasında işlədilir.Başqa bir nümunəyə baxaq: " banner year" bu idiomda banner sözünün bir necə lüğəvi mənası vardır :bayraq,simvol, başlıq; year – isə il demək-dir.Göstərilən idiomda isə "Banner year" – Happy New Year ! və "A year marked by strong success!(Yeni ilin uğurlu olsun ! (Harry Collins. American-English İdioms. USA, 1994) mənasında işlədilmişdir.Bütün bu nümunələrdən görünür ki idiomlarda işlədilən sözlər ya tamamilə,ya da qismən öz mənasını itirir.

Müxtəlif xarici dilə sahib olmaq üçün tək qrammatika deyil ,dildə istifadə edilən idiomları da bilmək vacibdir.İdiomlar artıq həyatın bir hissəsinə çevrilib.Onlar jurnal və qəzetlərdə,TV və radiolarda istifadə edilir.Hətta dilini öyrəndiyin xalqın mədəniyyətni bilmək üçün idiomların öyrənilməsi daha vacibdir.Lakin onların öyrənilməsi üçün həmin idiomun mahiyyətini bilmək hətta yeri gələndə onları əzbər öyrənmək şərtdir.C.Seydlin "English Idioms and How to use them" kitabında idiomlara verdiyi tərifə əsasən: "idiom əzbər bilinməsi zəruri olan hazır forma və sabit ifadədir, çünki onu hərfi tərcümə etmək olmaz"

İdiomlar metaforik – sözlərin məcazi mənasını anladan ifadələrdir.Onlar dilə emosional calar verir,sözün bütün dərinliklərini məcazi mənada açıqlayır.İdiomları öyrənmək təkcə dilçilik tərəfdən deyil,həm də ingilis dilinin tədrisi metodikası tərəfindən vacibdir.Bu məqsədə çatmaq üçün bu idomlar kateqoriyasını araşdırmaq,zəruriliyi aşkara çıxarmaq lazımdır.

[76] ADPU

İdiomların öyrədilməsi zamanı onların təyini,istifadə edilməsi və tətbiq edilməsi əsas götürülməlidir.İdiomların təyini zamanı işlədilən idiomu bəzən söz kimi mənasını açıqlayaraq müəyyənləşdirib izah etmək lazımdır.İdiomların istifadəsi zamanı isə auditoriyada həmin idiomun istifadəsi üçün situasiya yaratmaq lazım gəlir.Bunları etdikdən sonar artıq şagird və ya tələbə müəyyən edilmiş idiomu öz nitqində asanlıqla tətbiq edə bilir.

Bildiyimiz kimi idiomlar hərfi tərcüməsi olmayan ifadələrdir.Hər bir idiom gizli bir mənaya malikdir və bu da onun məcaziliyini ifadə edir.İdiomlar əsasən qeyri-rəsmi birləşmələrdir və cox- mənalı olduqlarına görə hətta qruplaşma da əmələ gətirirlər.

Məsələn ingilis dilində müxtəlif mənalı idiomatic birləşmələr vardır:

Rənglərlə işlənənlər:

roll out the red carpet –şəhzadə kimi davranmaq;

ticked please – çox razı və məmnun olmaq;

to be green and around the gills – xəstə,halsız görünmək

Meyvələrlə işlənənlər:

to be a peach –son dərəcə yaxşı,təsiredici və ya cəlbedici görünən kimsə və ya nəsə;

to go bananas- hislənmək;əsəbdən ağlın itirmək;

Quşlarla bağlı idiomlar:

a home bird – hər anını eve bağlı olan biri;

eagle eyed – iti-gözlü;

Bizneslə bağlı ;

banner year - böyük uğurlarla yadda qalan il;

a penny saved is a penny earned – az məbləq üzərində aparılan danışıqlar;

Ürəklə,hisslərlə bağlı :

lose heart to …- kiməsə vurulmaq;

search your heart – ürəyinin səsinə dinlə;

İnsanlarla bağlı :

couch potato – tənbəl insan;

social butterfly – ictimailəşməyi sevən adam;

Əşyalarla baglı :

iron out – qərarlaşdırmaq;

turn the table – vəziyyəti dəyişmək;

Belə idiomatik qrupları saydıqca bitmir. Bu qrupların diskurs şəkildə işlənməsi onların nitqdə məhsuldar olmasının sübutudur.Bir çox dünya alimləri idiomlar haqqında geniş tədqiqatlar aparmış və müəyyən fərqli fikirlər irəli sürülmüşdür.Məsələn, Ç.Hokket hesab edirdi ki, "İdiom mənanın mövcud strukturu əsasında müəyyən edilməsi mümkün olmayan tək morfem və ya mürəkkəb formadan ibarət qrammatik formadır."A.Makkay isə Ç.Hokketin təsnifatından fərqli olaraq tək morfemli sözləri idiom kimi qəbul etmir. (Hockett C.F. A course in modern linguistics. New York: Prentice Hall College Div, 1958, p. 172.) O, iki və ya daha artıq morfemdən ibarət vahidləri idiom hesab edir. A.Makkay idiomatik ifadələri qruplaşdıraraq, idiomları "frazeoloji idiomlar" adlandırırdı. O göstərirdi ki, bu növ birləşmələrdə tərkib hissələrin mənası ilə bütöv konstruksiya arasında az əlaqə vardır və mənanın aydın olmaması onun idiomatikliyinin yüksək göstəricisidir.

Ona görə də frazeoloji birləşmələrdən fərqli olaraq onların öyrənilməsi daha mürəkkəbdir. Belə birləşmələr həm hərfi, həm də idiomatik mənada anlaşıla bilər.

İstənilən dilin leksikologiyasında sözlərin yaranma tarixi,mənşəyi olduğu kimi idiomlar mənşəyinə görə iki qrupa bölünür:xalis və alınma idiomlar.Xalis dedikdə hər millətin özünə, adət- ənənələrinə məxsus olması nəzərdə tutulur.Bu idiomlar xalqın qədim və zəngin söz bazasına əsaslanır. Bura xalq arasında yaranan və anlaşılan idiomlar,həmin xalqın gündəlik həyat tərzi ,adət ənənələri ifadə olunan idiomlar daxildir.

Xalqların bir-biri ilə əlaqəsi nəticəsində yaranan söz birləşmələri,frazeoloji ifadələr və idiomlar digər dilə daxil olur və el arasında işləndikcə dairəsi genişlənir.Bu tip idiomlar isə alınma idiomlar adlanır. Müxtəlifsistemli dillərdə idiomların tədrisi zamanı onların mənasının aşılnması müxtəlif meyarlar əsasında aparılır.Bu barədə müəyyən tədqiqatlar aparılmışdır.Bunlardan biri Tofiq Quliyevin 2016-cı ildə tərtib etdiyi monoqrafiyada çox geniş tədqiq edilmişdir.İdiomların öyrədilməsi ilə bağlı müəllif idiomların tərcüməsinin altı üsülla aparılmasını araşdırıb müəyyən faktlarla sübut etmişdir.Burada müəllif idiomların tərcüməsini aşağıdakı kimi qruplaşdırmışdır:

1.Ekvivalent tərcümə. Bu zaman Azərbaycan dilində tapılan qarşılıq ingilis idiomatik birləşməsi ilə həm 230 mənaca, həm də ifadə vasitələrinə görə üst-üstə düşür: as cold as ice – buz kimi soyuq, to sing like a nightingale – bülbül kimi oxumaq, to close one's eyes to smth. – nəyəsə göz yummaq, to sing another song – başqa mahnı oxumaq, to die like flies – milçək kimi qırılmaq, to spring up like mushrooms – göbələk kimi çıxmaq,

2.Analoji tərcümə. Bu zaman Azərbaycan dilində tapılan qarşılıq ingilis idiomatik birləşməsinə mənasına görə adekvat olur, lakin ifadə vasitələrinə görə ondan tamamilə, yaxud qismən fərqlənir: a drop in the bucket – dəryada bir damla, a fly in the ointment – milçək heç bir şey deyil, amma ürək bulandırır, make hay, while the sun shines – dəmiri isti-isti döyərlər, one swallow doesn't make a summer – bir gül ilə yaz olmaz,

3.Təsviri tərcümə. Bu zaman ingilis idiomlarının mənası Azərbaycan dilində təsvir yolu ilə verilir. Təsviri tərcümədən ingilis idiomunun Azərbaycan dilində ekvivalent və ya analoqu olmadığı hallarda istifadə olunur: to set the Thames on fire – "qeyri-adi bir şey etmək", Khaki election – "militarist ruhda aparılan seçkilər", a Dutch bargain – "birtərəfli xeyir verən sövdələşmə", chew the fat (və ya rag) – "dilotu yemək", və s.

4.Antonimik tərcümə. Bu zaman inkar formalı və mənalı idiomatik birləşmə Azərbaycan dilində təsdiq konstruksiyasının və əksinə, təsdiq formalı birləşmə inkar konstruksiyasının köməyilə verilir: don't count your chickens before they are hatched – cücəni payızda sayarlar, to keep one's head – başını itirməmək, what is bred in the bone will not go out of the flesh – qozbeli qəbir düzəldər və s.

5. Kalka yolu ilə tərcümə. Bu zaman ingilis idiomu Azərbaycan dilinə kalka edilir: the moon is not seen when the sun shines – "günəş çıxanda ay görünməz", the cold war – "soyuq müharibə", a stony heart – "daş ürək", a ship of the desert – "səhra gəmisi", man is to man a wolf "insan insana canavardır", dead men don't bite "ölü adam dişləmir", an iron hand in a velvet glove – "məxmər əlcəkdə dəmir əl" və s.

6. Kombinasiya üsulu ilə tərcümə. Bu zaman ingilis idiomu Azərbaycan dilnə kalka və təsviri tərcümənin kombinasiyası ilə verilir: to show white feather – "ağ lələk göstərmək" (Bu ifadə döyüşkən xoruzlara aid edilir və "qorxmaq" mənasında işlədilirdi, çünki döyüşkən xoruzun quyruğundakı ağ lələk pis cinsin əlaməti hesab edilirdi). Sonralar bu ifadə insanlara aid edilməyə başladı və "qorxaqlıq göstərmək" mənasında işlədildi və s.

Müəllif bu qruplaşmanı idiomlrın yaddaşa uzunmüddətli həkk olunması üsulları kimi göstərmişdir.Dilin sistemi həm qrammatik modellərin strukturu, həm də leksik material baxımından müəyyən qanunauyğunluqlar üzərində qurulmuşdur. Bu qanunauyğunluqlar müəyyən kateqoriyalar vasitəsilə təzahür edir. İdiomatik vahidlərin də dilin sistemində öz yeri vardır. Hər bir sabit söz birləşməsi dil sistemində paradiqmatik cəhətlərdən kənarda mövcuddur, yəni idiomatik korpusun nominativ vahidləri kimi qiymətləndirilir. Hər bir idiomatik vahid fərdi şəkildə yaranır və bu şəkildə dilin idiomatik tərkibinə daxil olur. Lakin idiomatik tərkiblər dildə müəyyən ümumi cəhətlər qazanır və bu cəhətlər də onların həmin dilin sistemində yarısistem kimi qəbul edilməsini şərtləndirir. İdiomatik vahidlər dilin bir hissəsi kimi onun əsas cəhətlərini, xüsusiyyətlərini özündə ehtiva edir. İdiomlar dilşilikdə xüsusi bir layı təşkil edir. Onlar müəyyən xüsusiyyətləri ilə cümlə şıkilli ifadələrdir.İdiomların işlədilməsi zamanı qarşı tərəfin fikirlərinə qısa və müəyyən məcazlarla anlamlı cavab verilməsində idiomların əhəmiyyəti böyükdür.Bu baxımdan da müxtəlifsistemli dillərdə idiomların öyrənilməsi çox vacibdir.Sadəcə onların hər biri işlənmə qaydalarına görə mənsub olduğu dilin qanunlarına, ənənələrinə, mədəniyyətinə uyğun şəkildə işlədilməlidir.

İstifadə edilmiş ədəbiyyat

1. Pesce, C.(n.d). How to teach idioms and Their Meaning.
2. Rohani, G. & Ketabi, S. (2012). The effect of Context on the Iranian EFL Learner's Idiom Retention. International Journal of Linquistics,4 (4),52-67.
3. Saleh, N.W. I. &Zakaria, M.H. (2013). Investigating Difficulties Faced in Under-standing, and Strategies Used in Processing, English Idioms by the Translation Students, 1 (2), 69-91.
4. Straksine, M.(2009). Analysis of Idioms Translation and Strategies from English into Lithuanian . Studies about Language,13-20.
5.Tofiq Səfər oğlu Quliyev. Müxtəlifsistemli dillərdə idiomatik birləşmələr. -Bakı: Mütərcim, 2016.səh.229-237.

SUMMARY

It was shown using and teaching techniques of idioms at the English lessons. As is known idioms are a group of words, that are used to denote something different, than the separate words it contains. So idioms are considered to be the main part of a spoken language as they play an important part for enlarging word-stock of the appropriate language. In order to master the language well one should know its idioms perfectly well. While teaching idioms at the English lessons both in the higher and secondary schools a number of procedures are to be followed by the instructors and teachers. The article chiefly deals with the definite methods of teaching idioms in the foreign languages. By using idioms of different theme students make up situations, dialogues and monologues. It enables them to develop their communicative skills and enlarge their outlook about the topic they learn.

During teaching idioms in languages with different systems, their meaning is translated on the basis of various criteria. Certain exploring have been carried out on this matter. The translation of idioms related to the teaching of idioms has been investigated in six ways and proved by certain methods. The translation of idioms were been grouped as follows:

1. Equivalent translation. At that time, the equivalent found in the Azerbaijani language coincides with the English idiomatic combination both in meaning and in terms of means the expression: cold as ice- buz kimi soyuq,

2. Analogical translation. At this time, the equivalent found in the Azerbaijani language is adequate in meaning to the English idiomatic combination, but differs from it completely or partially in terms of expression: a drop in the bucket - dəryada bir damla.

3.Descriptive translation. Currently, the meaning of English idioms is given by descriptions in Azeri. A descriptive translation is used in cases where the English idiom has no equivalent or analogue in the Azerbaijani language: to set the Thames in fire - "to do something unusual."

4. Antonymic translation. In this case, the idiomatic combination with the negative form and meaning is given with the help of an affirmative construction in Azerbaijani language, or the combination with the affirmative form is given with the help of a negative construction: do not count your chickens before they hatch - cücəni payızda sayarlar.

5. Tracing Translation . At this time, an English idiom is copied into the Azerbaijani language: the moon is not visible when the sun is shining- günəş çıxanda ay görünməz.

Facts,which was shown explain the importance of idioms in learning a foreign language. Being a means of expressive speech in English, idioms are of great importance and necessitate the development of pedagogical techniques that motivate students to master colloquial speech, master vocabulary and the meaning of words and the ability to use them in all types of speech activities.

Key words: set-expressions, context, component, figurative meaning, equivalent,richness, colority, variable, classification, specificity.

РЕЗЮМЕ

Было показано использование и преподавание приемов идиом на уроках английского языка. Идиомы играют важную роль в увеличении словарного запаса устного языка. Идиомы это устойчивые обороты речи, без которых невозможно преподавать и изучать любой иностранный язык. Они придают эмоциональный оттенок языку и делают речь оживленной. Идиомы являются главным компонентом разговорного языка. Как известно, фразеологизмы представляют собой группу слов, которые используются для обозначения чего-то иного, чем содержащиеся в ней отдельные слова. Таким образом, идиомы считаются основной частью разговорного языка, поскольку они играют важную роль в расширении словарного запаса соответствующего языка. Чтобы хорошо владеть языком, нужно в совершенстве знать его идиомы. При обучении идиомам на уроках английского языка как в высшей, так и в средней школе преподаватели и преподаватели должны соблюдать ряд процедур. В статье в основном рассматриваются специфические методы обучения идиомам на иностранных языках. Используя фразеологизмы разной тематики, учащиеся составляют ситуации, диалоги и монологи. Это позволяет им развивать свои коммуникативные навыки и расширять свой кругозор по теме, которую они изучают. Также представлена условная, тематическая классификация идиом.

При обучении идиомам в языках с разными системами их значение переводится на основе различных критериев. По этому поводу были проведены определенные исследования. Перевод идиомов, связанный с преподаванием идиомом, исследован шестью способами и доказан определенными методами .Сгруппировано перевод идиом следующим образом:

1.Эквивалентный перевод. В это время данный в азербайджанском языке эквивалент совпадает с английским идиоматическим сочетанием как по смыслу, так и по средствам выражения: холодный как лед.

2. Аналогический перевод. В это время найденный в азербайджанском языке эквивалент адекватен по смыслу английскому идиоматическому сочетанию, но отличается от него полностью или частично по выраженности: капля в ведре - dəryada bir damla.

3. Описательный перевод. В настоящее время значение английских идиом дается описанием на азербайджанском языке. Описательный перевод используется в тех случаях, когда английская идиома не имеет эквивалента или аналога в азербайджанском языке: to set the Thames in fire — «делать что-то необычное».

4. Антонимический перевод. В этом случае идиоматическое сочетание с отрицательной формой и значением дается с помощью утвердительной конструкции в азербайджанском языке, и наоборот, сочетание с утвердительной формой дается с помощью отрицательной конструкции: не считай свой цыплята до того, как они вылупятся – cücəni payızda sayarlar.

5. Перевод Калка. В это время в азербайджанский язык копируется английская идиома: луна не видна, когда светит солнце.

Приведенные выше факты объясняют важность идиом в изучении иностранного языка. Являясь средствами выразительности речи в английском языке, идиомы имеют большую значимость и обусловливают необходимость разработки педагогических приемов, мотивирующих учащих к овладению разговорной речи, усвоению лексики и значения слов и способности их использования во всех видах речевой деятельности.

Ключевыеслова: фиксированные фразы, контекст, компонент, переносный смысл, экви- валент, богатство, красочность переменная, классификация, специфичность.

RƏYÇİ: dos. T.Əliyev

Nabat Cəfərova, Mehriban Əlləzova[77]

YENİ TƏLİM TEXNOLOGİYALARI ƏSASINDA LİNQVİSTİK TƏHLİLİN ÖYRƏNİLMƏSİ

Təhsil sektorunun informasiyalaşdırılmasının ən vacib vəzifəsi insan fəaliyyətinin digər sahələrinin informasiyalaşdırılmasını qabaqlamaq olmalıdır, çünki təhsil prosesində əldə olunan bilik və bacarıqlar insan fəaliyyətinin bütün növlərinin əsasını təşkil edir. Texnologiyalar və metodların qarışıqlıqlı əlaqəsi, təlim texnologiyaları əsasında həyata keçirilən linqvistik təhlil prosesi zamanı bir sıra hallarda metodların texnologiyaların tərkibinə, bəzən isə bunun əksinə, müəyyən təlim texnologiyaların öz növbəsində tədris metodlarının tərkibinə daxil olmasına səbəb olur.

"Vahid təhsil informasiya mühitinin inkişafı" təhsilin hədəf proqramına görə perspektivli bir təhsil sisteminin ən vacib fərqləndirici xüsusiyyətləri aşağıdakılar olmalıdır:

- təhsilin gələcəyə açıqlığı;
- bu gün təhsildə birbaşa təhsil prosesindən az rol oynamayan müxtəlif informasiya sistemlərindən pulsuz istifadə;
- təlim prosesinin fərdi yönümlü olması;
- informasiya mədəniyyətinin inkişafı;
- müəllim rolunun dəyişdirilməsi: təlim vəziyyətlərindən asılı olaraq birgə fəaliyyətə keçid [9, s. 12].

Texnoloji sistemlər bir sıra üsullardan istifadə edərək təlim prosesinin ayrılmaz tərkib hissələri kimi əks edilə bilər (V.G. Afanasyevə görə):

- inteqrativ göstəricilər;
- təsis elementləri, komponentləri;
- quruluş (müəyyən hissələr və elementlər arasında mövcud olan əlaqələr);
- funksional göstəricilər;
- kommunikativ xüsusiyyətlər (ətraf mühitlə əlaqə);
- tarixilik.

Hədəf nəticələri və istiqamətləri linqvistik təhlilin öyrənilməsi sisteminin əsas xüsusiyyətləridir.

Pedaqogika üçün yeni bir konsepsiya olan – "texnologiya" həmçinin pedaqoji proseslərin təhlili və dizaynına yeni- "təlim texnologiyaları əsasında linqvistik təhlilin öyrənilməsinin üsul və vasitələri" yanaşmasından da istifadə etmək məsləhətdir [5].

Bu gün "informasiya texnologiyaları" və "cəmiyyətin informasiyalaşdırılması" kimi terminlərə tez-tez rast gəlirik. İnformasiya texnologiyaları "sosial-iqtisadi inkişafın ilk növbədə cəmiyyətin üzvləri arasında məlumat istehsalı, emalı, saxlanması və yayılmasından asılı olduğu bir cəmiyyətdir" [8, s. 5].

İnformasiya texnologiyaları əvvəlkilərdən fərqlənir ki, əsas amil maddi deyil, ideal amillər - bilik və məlumatdır. Belə bir təhsilin fərqli xüsusiyyətləri bunlardır:

- Təhsil sistemində məlumatın rolunun artırılması;
- Şagirdlərin həyatında informasiya kommunikasiyalarının, məhsul və xidmətlərin payının artması;
- qlobal informasiya məkanının yaradılması.

Təhsil istehsal və elm arasında yerləşdiyindən həm ictimai istehsalın inkişaf səviyyəsinə, həm də elmin vəziyyətinə uyğun olmalıdır. 20-ci əsrin ikinci yarısında istehsal və elm sürətlə inkişaf edir, təhsil isə çox yavaş inkişaf edirdi. Nəticə etibarilə, bir tərəfdən istehsal və elm, digər tərəfdən təhsil arasında çox dərin ziddiyyətlər yarandı [10, s. 27]. Təhsil prosesində informasiyalaşdırma kimi bir komponentin meydana çıxması ilə vəzifələrini yenidən nəzərdən keçirmək məqsədəuyğun oldu. Əsas olanlar:

- təhsil prosesində müasir informasiya texnologiyalarından istifadə etməklə mütəxəssis hazırlığı keyfiyyətinin artırılması;
- aktiv tədris metodlarının istifadəsi və nəticədə təhsil fəaliyyətinin yaradıcı və intellektual komponentlərinin artması;
- müxtəlif təhsil fəaliyyət növlərinin (təhsil, tədqiqat və s.) inteqrasiyası;
- tədrisin informasiya texnologiyalarının tələbənin fərdi xüsusiyyətlərinə uyğunlaşdırılması;
- təlim zamanı davamlılığın və ardıcıllığın təmin edilməsi;
- distant təhsil üçün informasiya texnologiyalarının inkişafı;
- tədris prosesinin proqram təminatı və metodiki təminatının yaxşılaşdırılması.

"Təlim texnologiyaları" anlayışı üç üsulla təmsil oluna, həmçinin linqvistik təhlil prosesində istifadə edilə bilər.

1. Elmi: pedaqoji texnologiyalar dedikdə-tədrisin məzmununu, məqsədlərini və metodlarını öyrənən eyni zamanda inkişaf etdirən və eyni zamanda pedaqoji prosesləri tərtib edən pedaqoji elmin müəyyən bir sahəsi nəzərdə tutulur;
2. Prosedur və təsviri üsul: prosesin təsviri yəni (alqoritmi), öncədən planlaşdırılan təlim nəticələrinə çatmaq üçün bir sıra hədəflər, eyni zamanda məzmun, vasitələr və metodlar nəzərdə tutulur;
3. Prosedur cəhətdən təsirli metod: texnoloji və pedaqoji təlim prosesinin həyata keçirilməsi, eyni zamanda bütün şəxsi, metodoloji, instrumental və pedaqoji vasitələrin işləməsini özündə ehtiva edir.

---

[77] ADPU

Bununla da deyə bilərik ki, təlim texnologiyaları əsasında linqvistik təhlil metodunun öyrənilməsinin vasitələri və üsulları həm tədrisin ən rasional yollarını tədqiq edən bir sahəsi kimi, eyni zamanda tədris prosesində istifadə olunan prinsiplər, metodlar və qaydalar sistemi olaraq, o cümlədən həqiqi təlim prosesi kimi fəaliyyət göstərir [6].

Təhsil praktikasında, təlim texnologiyaları əsasında linqvistik təhlilin öyrənilməsinin konsepsiyası üç iyerarxikaya bölünür:

1. Ümumi pedaqoji (ümumi didaktik): ümumi pedaqoji texnologiya təhsil müəssisəsində, müəyyən bir bölgədə, təhsilin müəyyən bir mərhələsində ayrılmaz təlim prosesini özündə əks etdirir. Burada pedaqoji texnologiya anlayışı pedaqoji sistemlə sinonimdir: bu anlayışa bir sıra məqsədlər, tədris vasitələri, tədris məzmunu və metodları, prosesin subyektləri və eyni zamanda obyektlərinin fəaliyyəti üçün müəyyən bir alqoritm daxildir.
2. Xüsusi metodoloji (mövzu): xüsusi fənn pedaqoji texnologiyası "özəl metodologiya" mənasını bildirir, yəni bu o demekdir ki, bir fənn, sinif, müəllim nəznində təlim-tədris fənlərinin metodikası çərçivəsində hər hansı bir təhsil və təlim-tərbiyə məzmununun reallaşdırılması üçün metod və müxtəlif vasitələrin məcmusu olaraq müəllimin ya tərbiyəçinin işini xarakterizə edir.
3. Yerli (modul) səviyyə: yerli texnologiya təhsil prosesinin müxtəlif hissələrinin texnologiyası, əsasəndə didaktik və təhsil vəzifələrinin həlli prosesini özündə birləşdirir (anlayışların formalaşması, müəyyən fəaliyyət növlərinin texnologiyası, fərdi şəxsi keyfiyyətlərin təhsili, yeni biliklərin mənimsənilməsi, dərsin texnologiyası, müstəqil iş texnologiyası, təkrarlama və materiala nəzarət texnologiyası və s.).

Xarici pedaqogikanın bir istiqaməti olaraq "təhsil texnologiyası" nın formalaşması haqqında "Pedaqoji texnologiya, adətən, tədris prosesinin səmərəliliyinin artırılması, şagirdlər tərəfindən planlaşdırılan təlim nəticələrinə zəmanətli nail olma məqsədi daşıyan xarici pedaqogikanın istiqaməti adlanır.

Əslində son zamanlarda "Təlim texnologiyası əsasənda həyata keçirilən təhsil prosesləri" adı altında bir çox qonşu ölkələrdə o cümlədən Rusiyada tərbiyə problemlərinə həsr olunmuş əsərlər getdikcə daha çox ortaya çıxdı. Lakin buna baxmayaraq müasir təlim texnologiyalarına əsaslanan linqvistik təhlilin öyrənilməsi mövzusuna dair elmi əsərlər hələ də azlıq təşkil edir.

Müəllimin vəzifəsi, tədris metodu, tətbiq olunduğu formalar, pedaqoji alətlər və xüsusi pedaqoji texnika daxil olmaqla optimal modeli müəyyənləşdirə bilməkdir. İndi lazımi tərifi verək:

- Təhsil texnologiyası aşağıdakılardan ibarət olan bir kompleksdir.
- planlaşdırılan təlim nəticələrinin bir neçə təqdimatı,
- kursantların mövcud vəziyyəti üçün diaqnostik vasitələr,
- bir sıra öyrənmə modelləri,
- müəyyən şərtlər üçün optimal modeli seçmək meyarları.

Təhsil texnologiyasını nəzərdən keçirməyə bir öyrənmə modeli ilə başlayacağıq. İki təbəqəyə bölmək olar.

Üst səviyyə - metod və formalar didaktikaya aiddir, aşağı səviyyə pedaqoji texnika (vasitə və texnika) təşkil edir və müəllimin şəxsi xüsusiyyətlərinin (intuisiya, davranış, mimika, jestlər, münasibət və s.) əlavə olunduğu pedaqoji sənətdir.L.A.Novikov bədii mətnin aşağıdakı linqvistik təhlil metodlarını müəyyənləşdirir [8]:

1. Əsas vəzifəsi və əsas texnikası anlaşılmaz, qeyri-adi, köhnəlmiş, xüsusi söz və ifadələrin, qrammatik hadisələrin və dilin digər oxşar faktlarının bir lüğət və ya xətlərarası izahı olan bir linqvistik şərh (belə bir təhlil əsasən obyektdir mətnin həqiqi dil səviyyəsi, qismən də ekstralinqvistik);
2. Bədii mətnin vizual vasitələrini, onların sintezinin verdiyi estetik təsiri öyrənən dil və üslub təhlili (burada əsas texnika nitq nümayişi vasitələrində sintez prinsipinin axtarışıdır) və obyekt açar yollardır və rəqəmlər);
3. Vəzifəsi bir bədii mətnin kompleks çoxölçülü bir filoloji tədqiqi olan vahid dil təhlili. Bu təhlilin əsas texnikası mətnin ideoloji məzmunu və dil şəkilli vasitələr sistemi ilə sıx vəhdətdə məcazi poetik quruluşunu aşkar etməklə öyrənilməsidir. Bu sintez edən analiz müəllif obrazının kateqoriyasına əsaslanır.

Bu analiz mətnin poetik (kompozisiya) quruluşunu, əsərin ideoloji konsepsiyasının ifadəsi kimi süjet inkişafindakı obrazlar sistemini, janrının xüsusiyyətlərini, qarşılıqlı əlaqədəki şifahi obrazların estetik funksiyalarını ortaya qoymadan mümkün deyil.

Beləliklə, linqvistik təhlil - bir bədii əsərin dilinin bütün linqvistik səviyyələrdə öyrənilməsi, mətnin məzmununun açılmasında rolunu müəyyənləşdirməyi özündə ehtiva edir.

Bədii mətn anlayışı genişdir. Şeir mətninin linqvistik təhlili mütləqdir, çünki hər hansı bir əsərin dili çoxşaxəli və çox qatlıdır, ona görə də bu cür nitq inlayslarını ehtiva edir, ya da təhrif olunmuş bir şəkil söz və ifadələrin məcazi təbiəti, bədii dəyəri formalaşır və istifadə olunan dil faktlarının yeniliyi, müasir ədəbi norma ilə əlaqəsi və s. özündə birləşdirir. Linqvistik təhlil, bütün səviyyələrdə olan dil vahidlərinin təhlilinə əsaslanır, lakin hər bir dil vahidi poetik obrazın yaradılmasında hansı xüsusi iştirakın olduğu nəzərə alınmadan təhlil edilə bilməz. Beləliklə, mətndə dil quruluşunun bütün səviyyələri növbə ilə təsvir olunur: fonetik (şeir üçün), leksik səviyyə, morfoloji və sintaktik səviyyə. Şeir mətninin dili təbii dilin həyatından fərqli olan öz qanunlarına uyğun yaşayır, bədii mənalar yaratmaq üçün xüsusi mexanizmlərə malikdir. Bədii mətnin həqiqi mənasında sözləri və ifadələri gündəlik dildə istifadə olunan sözlərə bərabər deyil. Bədii mətndəki söz, xüsusi işləmə şərtlərinə görə, semantik cəhətdən dəyişdirilir, əlavə məna, məna, assosiasiya daxildir. Birbaşa və məcazi mənalı oyun bədii mətnin həm estetik, həm də ifadəli təsirlərini yaradır, mətni obrazlı və ifadəli edir. Şeir mətninin spesifik bir xüsusiyyəti, hər hansı bir bədii mətnin təfsirinin çoxluğunu təyin edən semantik yükü, çox mənalılığı, metaforasıdır [1, s. 13].

Beləliklə, linqvistik təhlil zamanı dil vahidlərinin işində bədii mətnin ifadə qabiliyyətini yaratmaq üçün vasitə və üsullar ayrılır.

Qeyd etmək lazımdır ki, poetik bir mətndə tamamilə bənzərsiz və simvolik bir vəziyyət mövcuddur: təbii dil öz nizam-intizamı, sabit sistemliliyi ilə birinci səviyyə işarə sistemi rolunu oynayır. Bu dildən şifahi sənət dili ikinci səviyyə bir işarə sistemi kimi formalaşır. Təsvir olunan işarə vəziyyəti bədii mətnin linqvistik təhlilində "birinci səviyyə" nin dilinin həqiqətən araşdırıldığını iddia etməyə imkan verir. "İkinci səviyyə" nin dili linqopoetik, estetik və müəyyən mənada ədəbi tənqidin təhlil predmetidir [3, s.22].

Müasir təlim texnologiyaları əsasında linqvistik təhlil, təlimin, tədris olunan materialın estetik bütövlüyün mənzərəsini, həqiqi mənada, yazıçının yaratdığı və qavranılmasını istədiyi şəkildə görməyə imkan verir.

İstifadə edilmiş ədəbiyyat

1. Abdullayev Ə.Ə. Mətnin linqvistik təhlili modelləri. Bakı: Səda, 1999
2. Hüseynov A. Sənət meyarı. Bakı: Yazıçı, 1986, 315 s.
3. Müasirlik problemi və nəsrin axtarışları (Dəyirmi stol) // Azərbaycan jurnalı, Bakı, 1977, № 6, s. 161-192.
4. Məmmədov A. Dilçiliyin müasir problemləri. Bakı: "ADU nəşriyyatı" MMC, 2008, s. 320.
5. Süleymanlı M. Ayın aydınlığında. Linqvistik təhlil. Bakı: Gənclik, 1979, 128 s.
6. Айдарова Л.И. Формирование лингвистического отношения к слову у младших школьников: Автореф. дисс, к.п.н. М., 2006. - 20 с.
7. Айдарова Л.И., Цукерман Г.А. Психологическая необходимость изучения поэтики в курсе родного языка. // Вопросы психологии, 1977. № 1. - С. 121
8. Айдарова Л.И. Маленькие школьники и родной язык. М.: Знание, 1983. -96 с..
9. Хомский Н. Синтаксические структуры // Новое в лингвистике. Вып. 1. М., 1962.

ОБУЧЕНИЕ ЛИНГВИСТИЧЕСКОМУ АНАЛИЗА НА ОСНОВЕ НОВЫХ ОБРАЗОВАТЕЛЬНЫХ ТЕХНОЛОГИЙ

Резюме

В последние годы стремительное развитие технологий обучения и интенсивное их использование в учебном процессе привели к существенным изменениям в системе образования. Эти изменения коснулись не только структуры системы образования, методики и технологии учебного процесса, но и ее стратегической направленности. Различные особенности современной эпохи приводят к бурному развитию информационных технологий.

Темпы развития образовательных технологий, проблемы, большой опыт использования педагогических инноваций, изучение методов и средств изучения лингвистического анализа требуют постоянного обобщения и систематизации системы образования. Информатизация образования представляет собой совокупность взаимосвязанных политических, социально-экономических и научных факторов, обеспечивающих свободный доступ к любым источникам информации, кроме тех, которые являются юридически конфиденциальными для каждого участника системы образования.

Попытки применения технологии к процессу лингвистического анализа, создания определенной технической среды примерно до середины 50-х годов были связаны с набором автоматизированных средств традиционного обучения. С середины 1950-х годов появился новый технологический подход к построению самого образовательного процесса. Однако и первый подход развивается за счет освоения новых информационных технологий. Оба направления сближаются и меняется образовательная парадигма. Сегодня понятие технологии обучения можно широко рассматривать как область педагогической науки и конкретную образовательную технологию.

Ключевые слова: система образования, образовательные технологии, лингвистический анализ, проблемы развития, педагогические инновации, методы и средства.

TRAINING IN LINGUISTIC ANALYSIS BASED ON NEW EDUCATIONAL TECHNOLOGIES

Summary

In recent years, the rapid development of learning technologies and their intensive use in the educational process have led to significant changes in the education system. These changes affected not only the structure of the education system, methodology and technology of the educational process, but also its strategic direction. Various features of the modern era lead to the rapid development of information technology.

The pace of development of educational technologies, problems, extensive experience in the use of pedagogical innovations, the study of methods and means of studying linguistic analysis require constant generalization and systematization of the education system. Informatization of education is a set of interrelated political, socio-economic and scientific factors that provide free access to any sources of information, except for those that are legally confidential for each participant in the education system.

Until about the mid-1950s, attempts to apply technology to the process of linguistic analysis, to create a certain technical environment, were associated with a set of automated traditional teaching tools. Since the mid-1950s, a new technological approach to the construction of the educational process itself has appeared. However, the first approach is also developing due to the development of new information technologies. Both directions are converging and the educational paradigm is changing. Today, the concept of learning technology can be widely considered as a field of pedagogical science and a specific educational technology.

Key words: education system, educational technologies, linguistic analysis, development problems, pedagogical innovations, methods and me

RƏYÇİ: dos. S.Abbasova

Aysel Eldar qızı Nəzərova [78]

ŞAGİRDLƏRDƏ LİNQVİSTİK TƏHLİL BACARIQLARININ FORMALAŞDIRILMASI

Hazırda təhsil sistemi sürətli iqtisadi və ictimai dəyişikliklər fonunda inkişaf edir. Məqsəd Azərbaycan təhsilini dünyanın inkişaf etmiş ölkələrinin təhsili səviyyəsinə çatdırmaq, dünya təhsilinin təcrübəsini öyrənmək, mütərəqqi cəhətlərini milli və tarixi dəyərlərimizi nəzərə almaqla tətbiq etməkdir.

Şagirdlərin təlim nəticələrini yüksəltmək, şəxsiyyətyönümlü və nəticəyönümlü təhsilin gerçəkləşməsinə nail olmaq əsas məsələlərdir. Hazırda aparılan məzmun islahatları bu mühüm vəzifələrin reallaşmasına, standartlara əsaslanan təhsil sisteminin qurulmasına xidmət edir [1, s. 43].

Azərbaycan dili fəninin də məzmunu yeniləşmiş, ənənəvi təhsildən fərqli pıaraq şagrdlərin nitq mədəniyyətinin formalaşmasına xidmət edən nitq bacarıqları, dil bacarıqları və linqvistik bacarıqların üzərində qurulmuşdur.

Bilirik ki, nitq bacarıqları ünsiyyət prosesində qazanılır, dil bacarıqları intuitiv şəkildə insana verilmiş, lakin müşahidə və mütaliə əsasında inkişaf edən qabiliyyətləri əhatə edir. Linqvistik bacarıqlar isə dil fakt və hadisələrinin ümumiləşdrilməsi yolu ilə əldə edilir və idraki qabiliyyətlər hesab edilir.

Mövzumuza uyğun olaraq şagirdlərdə linqvistik təhlil bacarıqların formalaşdırılmasndan bəhs edəcəyik.

Ümumtəhsil məktəblərində Azərbaycan dili fənni üzrə mövzuların mənimsədilməsi prosesində geniş istifadə olunan metodlardan bir də linqvistik təhlildir. Şagirdlərə dilin linqvistik əsaslarının mənimsədilməsi təlimdə basılıca məqsəd və vəzifə yox, vasitə rolunu oynamalıdır. Yəni, linqvistik anlayışların, qayda və qanunların öyrədilməsi şagirdlərin dil duyumunun, nitq qabiliyyətlərinin inkişaf etdirilməsinə, lüğət ehtiyatlarının zənginləşdirilməsinə yönəldilməlidir. Bir sözlə, dil təlimində nitq fəaliyyəti ön plana çəkilməli, verilən biliklər ona istiqamətlənməlidir.

Aydınlıq üçün linqivistika sözünün mənasına diqqət yetirək: beynəlxalq termin kimi işlədilən linqivistika sözü iki morfemin – "linqua+istika" nın birləşməsindən əmələ gəlmiş və dilçilik sözünə nisbətən məhdud məna ifadə etsə də, zaman-zaman onun sinonimi kimi işlədilmişdir. Bildiyimiz kimi, linqivistika fonetika, leksika, semasiologiya və qrammatikanın vahidlərini araşdırır və təhlil edir, dilin ayrı-ayrı bölmələri üzrə dil qaydalarını tədqiq edir. Bu baxımından linqivistik təhlili Azərbaycan dili dərslərində hər hansı mövzunun mənimsədilməsi, yoxlanılması və təkrar edilməsi, şagirdlərə verilmiş biliklərin ümumiləşdirilməsi baxımından əlverişli və səmərəli metod kimi qiymətləndirə bilərik. Dilçilik sahəsində linqivistik təhlilin metod, priyom yoxsa üsul olması baxımından müəyyən suallar özünü göstərməkdədir, elə bu suala dilçilər müxtəlif cavablar vermişlər. Bu da başqa bir mövzudur. Gələcəkdə bu barədə də fikirlərimizi bildirməyə çalışacağıq.

Qeyd edək ki, metod yunan sözü olub, "yol, üsul, vasitə" anlamını verir, obrazlı desək, elmə gedən yol, elm yolu kimi qəbul edilir.

Linqvistik təhlil növləri dilin müxtəlif bölmələrinin öyrənilməsində ondan yararlanmağa imkan yaradır. Linqvistik təhlil zaman öyrənilmiş biliklər möhkəmləndirilir, inkişaf etdirilir və nəhayət vərdiş halına çevrilir. Bu zaman çətinlik çəkilən məqamlar üzə çıxır, onların gələcəkdə təkrar olunmaması müəllimin diqqətində olur, aradan qaldırılması üçün səmərəli yollar axtarılır.

Bütün bu məqsədlərə çatmaq və uğurlu nəticə əldə etmək üçün dil qaydalarını, təlim nəticələrini, məzmun standartlarını (əsas və alt standartları), dərslikdə verilmiş nəzəri materialları müxtəlif üsul və metodlar vasitəsliə tədris etmək lazımdır ki, bunlardan ən səmərəlisi linqivistik təhlil metodudur.

Azərbaycan dilinin tədrisi metodu kimi dil təhlili qrammatikanın öyrənilməsində, orfoqrafiya dərslərində, lüğət üzərində işləməkdə və yazıçı dilinin təhlilində və öyrənilməsində geniş istifadə olunur.

Dil təhlili dil hadisələrinin (qrammatik formalar, söz qrupları və ya orfoqramlar) müəyyən əlamətlərə görə təcrid edilməsindən və müəyyən nöqteyi-nəzərdən (qrammatik, üslubi) səciyyələndirilməsindən ibarətdir.

Bu üsul öz ifadəsini dil müşahidələrində, qrammatik təhlildə, bədii əsərlərin lüğət tərkibində, üslub və vizual vasitələrin təhlilində tapır. Birinci halda, dil təhlili bir iş sistemi, ardıcıl olaraq həyata keçirilən bir sıra müxtəlif çalışmalar toplusudur; ikincisi, bunlar həm də yalnız dolayı yolla əlaqəli olan hadisələrdir.

Dillə bağlı müşahidələr şagirdlər tərəfindən mexaniki şəkildə istehsal olunan əsassız qrammatik təhlili aradan qaldırmaq üçün hazırlanmış bir tədris metodu kimi istifadə olundu. Dil üzrə müşahidələr qrammatik tərifləri və terminləri əzbərləməkdən imtina və müşahidələr vasitəsilə şagirdlərin onlara verdiyi suallara müstəqil cavab axtarışlarının təşviqi demək idi.

Bəzi metodistlərinin fikrinə görə, bu müşahidələr tədqiqat metodu (və üstəlik, universal) kimi qiymətləndirilirdi. Onların fikrincə, şagirdlər (o cümlədən ibtidai sinif şagirdləri) müstəqil olaraq müəyyən mətnləri öyrənmək nəticəsində dil hadisələrini ayırmalı, təsnif etməli və bundan nəticə çıxarmalı, qrammatik qaydaları formalaşdırmalı idilər. Şagirdlər üçün dözülməz olan digər tədris üsullarını sıxışdıran bu cür "müşahidələr" təbii ki, heç bir qənaətbəxş nəticə verə bilməzdi.

Müşahidə sistemi tədricən öz yerini müxtəlif və məqsədəuyğun üsul və məşğələlərin kombinasiyasına verdi, lakin bunlar arasında başqaları ilə yanaşı dil üzrə müşahidələr də qorunub saxlanılırdı.

Sonralar qrammatik təhlil metodik bir üsul kimi, daha səmərəli və şagirdlərə qrammatika haqqında xüsusi biliklər verən bir metod kimi ümumi tədris sistemində yenidən öz layiqli yerini tutdu. Buna baxmayaraq, dillə bağlı müşahidələr də öz növbəsində bu günə qədər öz əhəmiyyətini saxlamışdır. Onun rolu öyrənmənin ilkin mərhələsi ilə, yəni şagirdlərin müəyyən bir bölmə üzrə bilik topladığı mərhələdə və yekunda istifadə olunmaqla biliklərini genişləndirməsinə xidmət edir.

---

[78] ADPU

Dillə bağlı müşahidələr bu və ya digər dil hadisəsinin öyrənilməsi prosesində mərhələlərdən (əsasən ilkin) yalnız biridir. Onlar dilin ən müxtəlif aspektlərinə - qrammatikaya, üsluba, orfoqrafiyaya, lüğətə, frazeologiyaya və s. aid edilə bilər və mətndə əlaqəli hadisələrin işıqlandırılmasından, onların hər hansı bir və ya bir sıra əlamətlərə görə seçilməsi və müqayisə edilməsindən ibarətdir. formalarının necə dəyişdiyini izləmək. (4, s. 36)

Müşahidələr, bir qayda olaraq, müəyyən bir plana uyğun olaraq müəllimin rəhbərliyi altında aparılır. Onlar müəyyən nəticələrin və ya qaydaların şagirdlər tərəfindən başa düşülməsinə və şüurlu şəkildə mənimsənilməsinə zəmin yaratmalıdır. Dillə bağlı müşahidələr istənilən qayda və ya hadisənin öyrənilməsindən sonra aparıla bilər. Bu zaman müşahidələrin məqsədi qaydanı illüstrasiya edən və təsdiq edən faktların dairəsini genişləndirmək, şagirdlərin lüğət fondunu zənginləşdirməkdir.

Təhlil effektiv üsul kimi. Dil faktları təhlilinin növlərindən biri də qrammatik təhlildir. Qrammatik təhlil dedikdə, əsasən analitik xarakter daşıyan bu tip dərs başa düşülür ki, bu zaman şagirdlər müəllimin göstərişi ilə mətndəki müəyyən qrammatik hadisələri (bütün cümlələr və ya onların hissələri, cümlə üzvləri, ayrı-ayrı morfemlər və s.), onları müəyyən meyarlara görə bu və ya digər kateqoriyaya aid etmək və onlara dərsin məqsədindən asılı olaraq qrammatik təsvir verməkdir.

Bu iş növü ümumən məntiqi təfəkkürün, xüsusən də şagirdlərin analitik qabiliyyətlərinin inkişafına töhfə verir, məktəblilərin diqqətini və iradəsini nizamlayır, müstəqil iş bacarıqlarını inkişaf etdirir və qrammatika biliklərini təkrarlamaq, möhkəmləndirmək və yoxlamaq üçün uğurlu bir vasitədir.

Qrammatik təhlil şagirdlərin şüuruna yeni qrammatik məlumatların, qayda və təriflərin çatdırılmasının səmərəli üsullarından biridir. Bu, çoxlu sayda faktlarla eyni vaxtda məşğul olmağa imkan verir, onların tez-tez təkrarlanması nəticəsində biliklərin sabitlənməsinə; zərurət yarandıqda əvvəllər tamamlanmış bölmələrdən müəyyən faktları daxil etməyə; vaxta qənaət etməyə imkan verir. Ev tapşırığı kimi qrammatik təhlil öyrənilən materialın xarakterindən, şagirdlərin yaş və fərdi qabiliyyətlərindən, dil hazırlığından və s. asılıdır. Linqvistik təhlil müəllimə həm müxtəlif siniflərə (əgər paralel siniflərdə dərs aparırsa) həm də ayrı-ayrı şagirdlərə fərdi yanaşmanı təmin etməyə imkan verir.

Linqvistik təhlili məzmununa görə morfoloji təhlil - sözün tərkibinə görə təhlil və nitq hissələri üzrə təhlil; sintaktik təhlil də onun iki növü ilə - cümlə üzvlərinə görə təhlil və cümlə üzvlərinin hissələrinə görə təhlilə ayılır.

Fonetik təhlil. Bu təhlil növü fonetika bölməsi ilə tam tanışlıqdan, fonetika bölməsi ilə tam tanışlıqdan, bölmə yekunlaşdıqdan sonra tətbiq olunur. Bu zaman şagird səs və hərfi fərqləndirməyi bacarmalı, sözü hecalara düzgün ayırmalı, sətirdən –sətrə düzgün keçirə bilməli, düzgün yazılış və tələffüz qaydalarını bilməli və sözdə vurğunun yerini düzgün müəyyən etməli, ən əsası da bütün bu qaydaları şüurlu şəkildə dərk edib, tətbiq etməlidir. "Fonetikanın tədrisi rabitəli nitqin (həm yazılı, həm də şifahi) orfoepik və orfoqrafik bacarıq və vərdişlərin yaradılması, inkişaf etdirilməsini təmin etməlidir". (4, 73)

Fonetika bölməsinin də daxili bölgüsü, qanunauyğunluqları vardır. Belə ki, orfoqrafiya-düzgün yazı qaydaları, orfoepiya-düzgün tələffüz qaydaları, heca, ahəng qanunu, vurğu, intonasiya kimi böyük qrupları əhatə edən bu bölməni şagirdlərə şüurlu və düzgün mənimsətmək, dərk etdirmək müəllimdən böyük ustalıq və pedoqoji bacarıq tələb edir. Təbii ki, müəllim dərsi mənimsətmə və möhkəmləndirmə, eləcə də yoxlama və təkrar mərhələlərində linqivistik təhlil metoduna (yerinə görə üsul da deyə bilərik) müraciət edə bilər.

Məsələn, orfoqrafik qaydaların tədrisi zamanı müəllim bir neçə sözü imla şəklində diktə edərək yazdıra bilər və həmin sözlərin düzgünlüyünü yoxladıqdan sonra ikinci tapşırıq kimi sait səslərin altından xətt çəkdirərək onları fərqləndirməyi tapşıra bilər.

Həcm baxımından qrammatik təhlil tam və qosmən ola bilir: təklif olunan mətnin hərtərəfli təhlili aparıldıqda tam və şagirdlərə məlum olan hadisələrin və ya onların əlamətlərinin yalnız bir hissəsinə təsir etdikdə qismən. (4, səh. 8)

İcra üsuluna görə, şifahi (daha çox sinifdə) və yazılı (daha çox ev tapşırığı kimi) ola bilər.Qrammatik təhlilin bu növləri ilə yanaşı, seçmə təhlili də qeyd etmək lazımdır. Bu, şagirdlərdən çox fəal, müstəqil olmağı tələb edir və əsasən şifahi şəkildə həyata keçirilir. Seçmə təhlil ondan ibarətdir ki, şagird müəllimin sözlərindən, dərslikdən və ya antologiyadan müəyyən qrammatik hadisələri seçir və şifahi və ya bütün mətni dəftərə yazdıqdan sonra onları hansısa şəkildə yazılı şəkildə vurğulayır, məsələn, altdan xətt çəkməklə (isimlər, sifətlər, həmcins üzvlər və s.).

Seçmə təhlil seçilmiş faktların hansısa əlamətinə görə təsnifatı ilə də müşayiət oluna bilər (məsələn, mətndə vurğulanan zərflər mənalarına, əmələ gəlmə üsuluna görə qruplaşdırılır və s.).

Qrammatik təhlilin mümkün növlərinin hər birinin çoxlu sayda variantı var. Bundan əlavə, qrammatik təhlilə oxşar olan bir sıra qrammatik tapşırıqlar da var.

Bədii əsərlərin dilinin təhlili linqvistik təhlilin daha mürəkkəb növü kimi.

İstər dil faktları üzərində müşahidə, istərsə də onun müxtəlif formalarında qrammatik təhlil şagirdləri yazıçının dilini və ya konkret əsərin dilini təhlil etmək kimi daha mürəkkəb işlərə hazırlayır. Bu təhlil əsərin lüğət tərkibini (zənginliyi, rəngarəngliyi, semantik silsiləsi və s. baxımından), onda istifadə olunan linqvistik təsvir vasitələrini (obrazlılıq, emosionallıq), müəllifin daha çox istifadə etdiyi sintaktik konstruksiyaların xüsusiyyətləridir.

Bütün bunları ədəbiyyat dərslərində müxtəlif janrlı əsərlərə münasibətdə və ədəbiyyat kursu ilə bağlı olaraq (təbii ki, müəllimin köməyi ilə) etmək olar.

Bu bizim mövzumuza aid olmadığı üçün bu məsələlərə toxunmağı məqsədəuyğun hesab etmirik. Fikirlərimizin sübutu kimi fonetik təhlilə aid bəzi nümunələr təqdim edirik.

. Verilmiş sözlərdə sait səslərin altından xətt çəkin.

*Səadət, büllur, mon*bilik səviyyəsi nəzərə alınaraq elə bu çalışmada ikinci tapşırıq da verilə bilər:

Məsələn: yalnız dodaqlanan sait işlənmiş sözləri seçin və cümlədə işlədin.

Göründüyü kimi bir çalışmada üç tapşırıq yerinə yetirildi: həm düzgün yazı qaydası, həm saitlərin seçilməsi, eyni zamanda dodaqlanan saitlərin fərqləndirilməsi.

Tapşırıq 2.

Verilmiş sözlərdə nöqtələrin yerinə buraxılmış hərfləri yazın.

Pr...qram, k...smos, f...ntan və s.

Bu tapşırıq vasitəsilə şagirdlərin *o* yoxsa *a* qaydasını necə mənimsədiyi aydınlaşır və yerinə yetirildikdən sonra müəllim sinfə şifahi olaraq belə bir sual verə bilər:

- Uşaqlar, nə üçün biz bəzi sözlərdə *o* hərfini *a* kimi, bəzi sözlərdə isə o kimi tələffüz edirik?"

Məsələn, sait səslərin öyrədilməsi zamanı müəllim Eyler-Venn diaqramından istifadə edə bilər: " *a* və *ə* səslərinin ortaq və fərqli xüsusiyyətlərini göstərmək üçün lövhədə diaqram qura bilər, sonra isə uşaqları qruplara bölərək onlara yeni səslər verib diaqram qurmalarını tələb edə bilər. Bu zaman şagirdlərin daha fəal, cəld eyni zamanda şüurlu şəkildə düşünərək öyrəndiklərini saf-çürük etmələrinə, beyinlərinin məhsulunu təqdim etmələrinə zəmin yaratmış olar.

İstifadə edilmiş ədəbiyyat

1. Həsənov H. Qrammatik təhlilin aparılması qaydaları. Bakı: ADU, 1982, 76 s.
And knowledge of English set expressions clearly characterizes the level of language proficiency of the speaker. English set expressions not only decorate our speech, they also allow us to reduce long sentences to small expressions (sometimes even up to two or three words). Speech using English idioms becomes more beautiful and harmonious.

Mypurposeis to study the history of the origin of the meanings of English idioms about animals.

Generally speaking there are no general patterns of formation of idioms. The process of birth of any phraseological phrase is a chain of accidents.

After all, every word must have a story, therefore, every idiom must have its own origin. Some of them were introduced into the language by writers, others find their origin in the Bible, others come from other languages such as French and Latin, for example. But whatever the stories of their origin are, we will approach idiomsfrom different point of view, and they will no longer seem complicated or incomprehensible.

In my work, I studied English idioms, which include the names of animals and now I want to bring to your attention the most interesting ones.

1.It 's raining cats and dogsto rain heavily, pouring rain

Literal translation: rain from cats and dogs. Meaning: pour like a bucket.

There is the following version of the origin, although rather dubious. In 1500s, when modern architecture was still very far away, the roofs of houses were covered with a thick layer of straw, which made them an especially attractive place for cats, dogs and other small animals (apparently due to the fact that this material retained heat better). During heavy rains, animals sometimes slipped and fell down, and the English began to associate heavy rain with falling cats and dogs, hence the expression it's raining cats and dogs.

2. As poor as a church mouse – very poor

Literal translation: poor as a church mouse

The meaning of the idiom: So they say about a poor man who does not have a penny in his pocket or in the meaning of very poor.

History of the idiom: For the first time this idiom about animals began to be used at the beginning of the 17th century . At that time, mice often settled in people's houses, various buildings. However, the churches did not have kitchens where mice could find some food. There were no buffets, no closets where food could be stored. Therefore, the animal, who had the imprudence to settle in the church, was doomed to starvation. Over time, the idiom began to be used not only for a hungry mouse, but also for the name of a poor person.

3. As busy as a beaver - very busy, works like a bee, he's up to his neck in work.

Literal translation: Busy as a beaver.

The meaning of the idiom: So it is about a hardworking person who spins like a squirrel in a wheel, constantly busy, doing several things at the same time. The expression is used in a positive context.

History of the idiom: The expression is easy to explain if you observe a little about the life of these unique mammals. Beavers are very hardworking animals. They build a dam for a long time and carefully, folding a twig to a twig. Their dwelling turns out to be strong and safe, as beavers work consciencely. How much time and effort these small animals spend on gnawing a tree until it falls, and then they divide the tree into parts and arrange it on the river. People should learn from beavers diligence, and the ability to do really high-quality things.

4. A guinea pig - guinea pig means the subject of experimentation, research, or testing.

The literal translation of the term guinea pig is a small rodent.

Meaning of the idiom: Native speakers call a person who is used as a guinea pig when conducting an experiment, introducing new ideas, etc.

Someone who is a guinea pig is being used as a test case in a situation that others do not want to participate in. The safety and well being of the person who is the guinea pig is not considered. For instance, servicemen who were present during early nuclear tests were guinea pigs. A person who allows a barber student to cut his hair is a guinea pig.

[84] Filologiya üzrə fəlsəfə doktoru, Dosent, BDU refibeyli77@bk.ru

History of the idiom: Cute fluffy guinea pigs are one of the most beloved pets of our time. However, the Middle Ages were not an easy time for these rodents. They were eaten, used in folk medicine and in religious ceremonies. And since the 17th century, they have become the main "heroes" of medical and chemical experiments. And this is completely illogical: at that time, guinea pigs were many times more expensive than mice and rats, on which it was also possible to test new drugs and chemical reagents. In the 17th century, an idiom appeared. At the end of the 19th century, it was then those pigs were replaced with cheap relatives. And at this time, "pigs" won the hearts of people.

5. Dog and pony show - a performance that was not as interesting and useful as advertised

Literal translation: "show of dogs and ponies."

The meaning of the idiom: Usually they say this about some kind of presentation, performance, any way of self-expression, accompanied by pathos, loud advertising. Subsequently, they turn out to be something ordinary, already familiar to us.

History of the idiom: The expression appeared around the beginning of the 19th century. Then numerous tent circuses roamed the vast expances of each country. Not all of them could afford to keep exotic animals. But all traveling circuses had talented dogs and ponies in their troupe (often they were the only animal performers). Nevertheless, representatives of the circus announced their performance as something extraordinary, unforgettable. People bought tickets and became frustratedbecause they expected something bright and exotic, not boring ponies and dogs.

6. Aredherring –is a red herring, used in detective stories as a “decoy duck”.

Literal translation: a red herring

The meaning of the idiom:“Red herring” means a foreign object that distracts attention from the main thought of a text or conversation, a diverting maneuver, something that misleads a person. Auburn is a bright color, and bright colors always catch the eye and can divert our attention from something really important.

History of idiom: One of the most popular ways of cooking herring is smoking. During this process, the fish acquires a very pronounced smell and rather saturated color, which the British call red. The pronounced smell of smoked herring was the reason for its original use. The hunters used the odorous fish to train the basset hounds. Dogs had to be taught to take the trail and not to pay attention to odors. Therefore, next to the road along which a rabbit or other game ran, smoked herring was laid out and puppies were followed along the trail. Basset hounds were supposed to take the trail of game, not paying attention to the smelling fish.

7. Let the cat out of the bag - open a secret, tell information that he should not know about.

Literal translation: "let the cat out of the bag"

Meaning of the idiom: So they say when a person accidentally discovered the truth for himself or someone told him a secret. It was an unexpected surprise for him.

History of the idiom: There are two versions of the origin of this idiom. The first story tells us about a dishonest businessman. The farmer came to the fair to buy a piglet. In those days they were expensive. The seller helped to choose the animal and put it in a bag. When the farmer came home, he found not a pig, but a cat. That is, he let the cat out of the bag and thereby discovered the secret for himself. The second story is connected with the very original traditions of navigators, from Britain’s infamous Royal Navy. Sailors often got in trouble with their superiors. In order to keep these salty seamen in line, the Royal Navy employed the help of “ a cat o’ nine tails”, a whip with nine knotted cotton cords that could inflict pretty serious damage onto one’s back. The “cat,” was often kept in a red cloth bag, as a symbolic gesture, as well as keeping it from drying out due to the sea air.

When a sailor didn’t perform their duty or when their behavior got out of a line, the captain ordered that they be trotted out in front of the entire ship and beaten with the whip. The boatswain’s mate, the one in charge of directing and supervising the crew, was the one who was to do the flogging. During the punishment, the knots on the rope left wounds on the unfortunate back that looked like traces of cat claws. That is why the whip was called a cat. They kept her usually in a sack, and traces of flogging could not be kept secret. Perhaps that is why the expression "let the cat out of the bag" has become associated with the concept of "open the secret."

8. The black sheep - a black sheep, a person with a bad reputation.

Literal translation: "black sheep"

The meaning of the idiom: So they say about a person who stands out for his bad reputation, behavior, does not fit into a group or family.

History of the idiom: As we know, all sheep are usually white. However, from time to time, black animals are also born. This is due to a genetic disorder. Farmers never rejoice at the appearance of such lambs, it is not profitable for them. White wool can be dyed any color, but you cannot do this with black, so it is not in demand. In addition, in the Middle Ages, black animals were not particularly favored - they were called servants of dark forces, they tried to get rid of animals with black hair.

9. A bull in china shop –clumsyperson

Literal translation: "a bull in a china shop"

The meaning of the idiom: This is the name of a person who feels awkward or behaves carelessly, rudely in a delicate situation.

History of the idiom: It is believed that this incident actually happened. Around the 17th century, an agricultural fair was held in London. One bull was badly tied on it. It so happened that not far from the square where the fair was held, there was a Chinese shop. And what could be sold in a similar place in the 17th century? Of course porcelain, expensive and beautiful. And so it happened. That the bull went there quite by accident, because the door was opened and made a thorough distruction. Since then, this expression has derived.

10. Barking up the wrong tree - do something wrong, go the wrong way, make a mistake, blame the wrong person.

Literal translation: "to bark up the wrong tree."

Meaning of the idiom: The history of this idiom leads us to hunting dogs. When a dog chases a fowl, the other fowl can fly up a tree. Since dogs cannot climb trees, they stay near him and begin to bark loudly, attracting the attention of hunters. However, sometimes the dog may choose the wrong tree: his scent may fail him, the dog may lose his track, or for some other reason mix up the tree. In this case, the hunters said that the dog was "barking up the wrong tree."

11.A black dog - depression, melancholy, green melancholy, bad mood

Literal translation: a black dog

Meaning of the idiom: Usually people say this when they become depressed, despondent. This expression is attributed to Winston Churchill: he often used it.

Historyofidiom :In fact, the first idiom used by Horace. In ancient Rome, it was considered a very bad sign to see a black dog with puppies. Moreover, this superstition existed for quite a long time. Why such a dislike for animals? The black dog was associated with evil spirits. For instance, Mephistopheles is to Faust in the form of a black poodle. In Scandinavia there was its own evil - the hell-dog Garm. The ancient Greek three-headed Cerberus was also usually depicted as black. All these traditions have become the prerequisite that dogs are not allowed to go to Christian temples and Muslim mosques: these animals are considered unclean. Apparently because of this, the black dog became associated with something bad, dull.

12.A white elephant is an expensive, but unnecessary and uncomfortable thing

Literal translation: a white elephant

Meaning of the idiom:White elephant is called something inconvenient and expensive. Usually they say this about some expensive thing that is not very necessary in everyday life.

History of idiom :The idiom is based on an interesting legend of ancient Siam (now Thailand). According to legend, the ruler of Siam gave white elephants to those who were ill treated. White elephants at that time were considered sacred animals. The maintenance of such an elephant was very expensive: firstly, it was necessary to feed it with a large amount of good food, and secondly, it was necessary to provide access to animals for people who worshiped the “shrine”. The giver could not get rid of the elephant, because it was a gift from the king himself! Often a white elephant destroyed the life of the recipient.

We can talk about the origin of idioms endlessly, finding more and more interesting and funny stories but I am going to speak about the others in my next research article.

I hope that some stories will help you to remember and master the idioms you like. By knowing some of these idioms students will begin to use them actively, so that their speech will become more vivid and close to the original.

I would like to point out that many people get frustrated trying to learn idioms and feel that it is an impossible task.

But don’t worry! I am going to give you some advice, ideas which I come across in the particular scientific sources for how to learn idioms.

Don’t panic

Many people get really frustrated, worried or obsessed with idioms. It’s true that they are used a lot in English, but you don’t need to know all of them. Learning idioms is a natural process, just as it is to learn the rest of English. It takes time and you need routine and regular practice. It’s best to learn them little by little, than to try to learn a lot at one time.

Don’t memorise

Unfortunately, memorising idioms isn’t the best option. You might be able to remember them in the short term for an exam. But if you want to be able to understand and use them naturally, then you have to learn and practice them in a different way.

Context is Key

It is essential to learn idioms in context if you want to understand spontaneously and use them in your communication. Reading is a powerful way of learning vocabulary through context and this is the same for idioms. Reading is also great because you can read as slowly as you need to and read one part more than once to understand its meaning. Make sure you’re reading something that’s good for your level, because you should be able to learn the idioms through the context without checking too much in a dictionary.

Find a great website where you can read short stories that contain a large variety of idioms. There are also practice activities there.

Songs are a great place to find idioms and learn them in a context. You would listen and read the lyrics at the same time. Songs are specifically powerful because of our natural capacity to remember lyrics of songs. Idioms will be easier to remember if they are part of a song.

Use images to help you remember

Connecting images with the idioms can help you remember them easier. The brain can remember more when it sees things.

Keep a notebook of Idioms

Every time you find a new idiom write it in a special notebook or a particular part of your general notebook. Find the definition and write the idiom in an example sentence. Review your notebook regularly.

Use the idioms

The only way to really learn idioms is by using them in context and most importantly in real-life situations.

Use the post it strategy to practice your idioms. This is a great way to help you remember new idioms.

Use the plan it strategy to practice your idioms. This is a fantastic way to help you use idioms in real life situations.

Ədəbiyyat:

1.English Idioms with their Meanings and Origins – Oxford Royal Academy, 2014.
2.Idioms and Phrasal Verbs / G.Ruth, R.Stuart. Oxford University Press,2011
3.Litvinov P.P. English-Russian phraseological dictionary - M.: VAKO Publishing House, 2005
4.Macmillan English Dictionary for Advanced Learners. – Macmillan Publishers Limited, 2002.
5.NTC's American Idioms Dictionary / R. Spears. – McGraw-Hill, 2000
6 . Дубровин М. И. Русские и английские идиомы. – М.: ИЛБИ, 2001.
7. Кунин А. В. Англо-русский фразеологический словарь. – М.: Русский язык, 1984.
8. Литвинов П. П. Англо-русский словарь наиболее употребительных фразеологических выражений. – М.: Яхонт, 2001.
9.ШитоваЛ.Ф., БрускинаТ.Л. EnglishIdiomsandPhrasalVerb,Санкт-Петербург.2004
10.How to learn English idioms - Englishfile:///C:/Users/Admin/Downloads/How%20to%20learn%20English%20idioms%20-%20H2English.html

Açarsözlər: idiomun tarixi, heyvan adları olan deyimlər, deyimin mənası, etimologiya, idiomların mənşəyi, hərfi tərcümə

Key words: history of idiom, idioms about animals , meaning of the idiom, etimology, origin of idioms, literal translation

Ключевые слова: история идиомы, английские идиомы о животных, значение идиомы,этимология,

Xülasə

Məqalədə ingilis dilində heyvan adları ilə bağlı idiomlardan danışılır. Ən çox gündəmdə olan mövzulardan biri də frazeoloji birləşmələrdir.

Tədqiqat zamanı idiomatik ifadələrin mənşəyi və tarixi araşdırılmış, çünki idiomların etimologiyasını bildiyimiz zaman onları öyrənmək və anlamaq daha asandır.Tədris prosesində tələbələrə idiomların mənşəyini öyrətmək daha vacib məsələdir çünki bu, onlara deyimləri asanlıqla yadda saxlamağa və nitqdə düzgün şəkildə istifadə etməyə kömək edir.

Araşdırma ingilis dilində heyvan adları ilə bağlı seçdiyim idiomları asanlıqla qavramağa və yadda saxlamağa yardımçı olmaq məqsədi daşıyır. Belə ki, ünsiyyət prosesində idiom və frazeoloji birləşmələrdən istifadə etdikdə nitqimiz daha gözəl və zəngin olur.

Məqalə bu istiqamətdə sizə yardımçı olacaq, ingilisdilli insanla bir mühitə düşən zaman deyimlərdən istifadə edib bərabər səviyyədə ünsiyyət qura bilmək sizə həqiqətən də gözəl təsir bağışlayacaq.

The origin of the meanings of English animal idioms

Summary

This article deals with theorigin of the meanings of English animal idioms.So I started to find out the origin and history of the idiomatic expressions because it is easier to learn and understand the idiom when you know the etimology of it. When teaching students the etymology of idioms it will be easier for them to remember and to use idioms correctly in speech. The more idioms students learn and use correctly, the more will they sound native-like, and in that way improve their language proficiency. By learning idiomatic expressions, students become aware of cultural differences, and also similarities between countries and nations.

This article is intended to be an attempt of representing a learning material which may promote the access to the English which is rich in idioms. Without them English would lose variety and humor, especially in speaking.

Происхождение значений английских идиом о животных

Резюме

В этой статье рассматриваются идиомыо животных на английском языке. Я начала выяснять происхождение и историю идиоматических выражений, потому что легче выучить и понять идиому, зная ее этимологию. Главное, что обучение студентов этимологии идиом может помочь легче запомнить их и правильно использовать идиомы в речи. Чем больше идиом учатся и правильно используют студенты, тем больше они будут звучать по-родному и тем самым улучшат свое знание языка. Изучая идиоматические выражения, студенты также осознают культурные различия, а также сходство между странами и нациями. Тем не менее, если вы хотите, чтобы англоязычные воспринимали вашу речь всерьез, вам необходимо знать английские идиомы. Я совершенно уверена, что вы останетесь довольны и получите удовольствие от статьи. Советую вам начать изучать эти удивительные идиомы простыми способами, которые были упомянуты в статье.

Rəyçi: dos. G.Kərimova

Sevda Feyruz qızı Quliyeva[85]

HEYDƏR ƏLİYEVİN"MÜSTƏQİLLİYİMİZ ƏBƏDİDİR" ÇOXCİLDLİYİNİN MÖVZU-TİPOLOJİ TƏHLİLİ

Giriş. Müstəqilliyimiz əbədidir çoxcildliyinin bədii və polioqrafik tərtibatı dövrün tələblərinə cavab verən külliyyatın nəfis tərtibatda nəşri xronoloji ardıcıllıqla 1997-ci ildən 2013-cü ilədək Azərbaycan Dövlət Nəşriyyatı tərəfindən çap edilmişdir.1997-ci ildən Azərbaycan Dövlət Nəşriyyatı – "Azərnəşr" tərəfindən çap edilən "Müstəqilliyimiz əbədidir" adlı əsərlər külliyyatı ictimai-siyasi kitabın tiplogiyasında mühüm əhəmiyyət kəsb edir.Bu əsərlər külliyyatına (hazırda 46-ci cildi nəşr olunub) Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin çıxışları, nitqləri, bəyanatları, məktubları, müsahibələri, məruzələri, müraciətləri, fərmanları daxildir. Zəngin və dərin tarixi biliyə malik olan Heydər Əliyevin əsərlərini tədqiq etdikdə, müasir Azərbaycan tarixinin – XX əsrin 70-80 illik tarixinin hər səhifəsinə aid dəqiq, rəsmi və ətraflı məlumatlar əldə edirik.AzərTAc-ın materialları əsasında hazırlanmış bu əsərlər külliyyatında materiallar tarixi ardıcıllıqla təqdim olunur və yalnız bir dildə – Azərbaycan dilində nəşr olunur.

"Müstəqilliyimiz əbədidir" adlı əsərlər külliyyatının statistik göstəriciləri

Cədvəl-1

Kitabın cildi	Nəşr olunduğu şəhər	Nəşriyyatın adı	Nəşr ili	Səhifəsi
C.1.	Bakı	Azərnəşr	1997	612 s.
C.2.	Bakı	Azərnəşr	1997	604 s.
C.3.	Bakı	Azərnəşr	1997	488 s.
C.4.	Bakı	Azərnəşr	1997	528 s.
C.5.	Bakı	Azərnəşr	1998	483 s.
C.6.	Bakı	Azərnəşr	1998	500 s.
C.7.	Bakı	Azərnəşr	1998	509 s.
C.8.	Bakı	Azərnəşr	1998	472 s.
C.9.	Bakı	Azərnəşr	2000	453 s.
C.10.	Bakı	Azərnəşr	2002	460 s.
C.11	Bakı	Azərnəşr	2003	408 s.
C.12	Bakı	Azərnəşr	2004	413 s.
C.13	Bakı	Azərnəşr	2004	508 s.
C.14	Bakı	Azərnəşr	2005	505 s.
C.15	Bakı	Azərnəşr	2005	510 s.
C.16	Bakı	Azərnəşr	2005	535 s.
C.17	Bakı	Azərnəşr	2006	515 s.
C.18	Bakı	Azərnəşr	2006	535 s.
C.19	Bakı	Azərnəşr	2006	513 s.
C.21	Bakı	Azərnəşr	2007	464 s.
C.22	Bakı	Azərnəşr	2007	514 s.
C.23	Bakı	Azərnəşr	2008	466 s.
C.24	Bakı	Azərnəşr	2008	490 s.
C.25	Bakı	Azərnəşr	2008	513 s.
C.26	Bakı	Azərnəşr	2009	497 s.
C.27	Bakı	Azərnəşr	2009	482 s.
C.28	Bakı	Azərnəşr	2009	468 s.
C.29	Bakı	Azərnəşr	2009	504 s.
C.30	Bakı	Azərnəşr	2010	499 s.
C.31	Bakı	Azərnəşr	2010	493 s.
C.32	Bakı	Azərnəşr	2010	495 s.
C.33	Bakı	Azərnəşr	2010	480 s.
C.34	Bakı	Azərnəşr	2011	488 s.
C.35	Bakı	Azərnəşr	2011	520 s.
C.36	Bakı	Azərnəşr	2011	512 s.
C.37	Bakı	Azərnəşr	2011	520 s.
C.38	Bakı	Azərnəşr	2011	480 s.
C.39	Bakı	Azərnəşr	2012	480 s.

[85] *Bakı Dövlət Universiteti, filologiya üzrə fəlsəfə doktoru. sevdaquliyeva@bsu.edu.az, ORCİD İD: 0000-0003-1161-6110*

C.40	Bakı	Azərnəşr	2012	512 s.
C.41	Bakı	Azərnəşr	2012	488 s.
C.42	Bakı	Azərnəşr	2012	472 s.
C.43	Bakı	Azərnəşr	2013	464 s.
C.44	Bakı	Azərnəşr	2013	376 s.
C.45	Bakı	Azərnəşr	2013	384 s.
C.46	Bakı	Azərnəşr	2013	496 s.

Azərbaycan Respublikasının Prezidenti Heydər Əlirza oğlu Əliyevin çoxcildlik əsərlərinin birinci cildinə bu dahi şəxsiyyətin xalqın istəyi və xahişi ilə yenidən ölkə rəhbərliyinə gəldiyi 1993-cü ilin iyunundan 1994-cü ilin may ayına qədər dövrdəki çıxışları, nitqləri, bəyanatları, müraciətləri, müsahibələri və s. toplanmışdır. Bu materiallarda ölkəmizin həmin dövrünün ictimai-siyasi həyatında baş vermiş mürəkkəb proseslər müdrikliklə, obyektiv şəkildə təhlil olunur. Böyük siyasi-tarixi və elmi- nəzəri əhəmiyyət kəsb edən kitabda müstəqilliyin qorunub saxlanılmasının, inkişaf etdirilməsinin dahiyanə praktiki təcrübəsi əksini tapmış, milli dövlət quruculuğu prosesinin başlıca istiqamətləri dəqiqliklə və uzaqgörənliklə müəyyənləşdirilmişdir [1, s. 612].

Ulu öndərin 1994-cü il dekabr ayının əvvəllərindən 1995-ci il iyunun əvvəllərinə qədərki dövrü əhatə edən çıxış və nitqləri, müraciət və bəyanatları, müsahibə və məktubları üçüncü cildə daxil edilmişdir. Materiallarda Azərbaycanın dövlət müstəqilliyinin qorunub saxlanılması və daha da möhkəmləndirilməsi, milli dövlət quruculuğu prosesi, uğurlu daxili və xarici siyasət xətti, eyni zamanda ölkə rəhbərinin Azərbaycan xalqının tərəqqisi və aydın sabahı naminə yorulmaz siyasi fəaliyyətinin, zəngin və mənalı həyatının tarixi məqamları əks olunmuşdur. [3, s. 488].

Azərbaycan Respublikasının Prezidenti Heydər Əlirza oğlu Əliyevin çıxış, nitq, müraciət, bəyanat, müsahibə və məktublarından ibarət dördüncü cild 1995-ci il iyunun əvvəllərindən 1995-ci il noyabrın ortalarına qədərki dövrü əhatə edir. Kitaba zəmanəmizin görkəmli siyasi və dövlət xadimi Heydər Əliyevin Azərbaycan xalqının müstəqil dövlət quruculuğu yolunda ardıcıl və əzmkar mübarizəsini, gərgin və mürəkkəb siyasi hadisələrlə zəngin çağdaş tariximizin obyektiv mənzərəsini əks etdirən böyük ictimai-siyasi əhəmiyyətə malik əsərləri daxil edilmişdi [4, s. 528].

Heydər Əliyevin 1995-ci il noyabrın sonlarından 1995-ci il martın ortalarına qədər olan dövrdəki çıxışları, nitqləri, müraciətləri, bəyanatları, müsahibələri, məktubları və s. beşinci cilddə toplanmışdır. Azərbaycanın tərəqqi və inkişafının əsas istiqamətləri, uğurlu daxili və xarici siyasət nəticəsində respublikamızın beynəlxalq aləmdə nüfuzunun artması, dünya dövlətləri ilə qarşılıqlı əlaqələrin gücləndirilməsi, Dağlıq Qarabağ probleminin sülh və danışıqlar yolu ilə ədalətli həlli xəttinin prioritetliyi, Azərbaycanın müstəqilliyinin, ərazi bütövlüyünün və sərhədlərİnintoxunulmazlığının təmin edilməsi uğrunda ardıcıl və məqsədyönlü mübarizənin siyasi, diplomatik və nəzəri əsasları bu kitabda özünün parlaq əksini tapmışdır [5, s.500].

Azərbaycan Respublikasının Prezidenti Heydər Əlirza oğlu Əliyevin nitqlərindən, müraciətlərindən, bəyanatlarından, müsahibələrindən, məktublarından və s. ibarət çoxcildlik əsərlərinin altıncı cildi 1996-cı il martın ortalarından iyunun sonlarına qədər olan dövrü əhatə edir. Bu əsərlərdə respublikamızda dönməz xarakter almış demokratik, hüquqi və dünyəvi dövlət quruculuğu prosesi, iqtisadi islahatların həyata keçirilməsininsürətləndirilməsi və səmərəliliyinin artırılması, Dünya Birliyində Azərbaycanın mövqelərinin gücləndirilməsi, beynəlxalq sıx əlaqələr yaradılması, milli ordumuzun müdafiə qüdrətinin möhkəmləndirilməsi, daxili və xarici siyasət kursunun başlıca istiqamətləri və ictimai-siyasi həyatın digər aktual məsələləri əks olunmuşdur[6, s. 512].

Azərbaycan Respublikasının Prezidenti Heydər Əlirza oğlu Əliyevin 1996-cı il iyunun sonundan noyabrın əvvəllərinədək olan dövrdəki çıxış, nitq, müraciət, bəyanat, müsahibə və məktubları yeddinci cilddə toplanmışdır. Cildə daxil edilmiş materiallarda Azərbaycan Prezidentinin Dünya Birliyi ölkələri və beynəlxalq təşkilatlarla Azərbaycan arasında əməkdaşlığın gücləndirilməsi, xarici dövlətlərə rəsmi səfərləri, Ermənistanın ölkəmizə qarşı hərbi təcavüzünün nəticələrinin aradan qaldırılması, Azərbaycanda iqtisadi islahatların həyata keçirilməsininsürətləndirilməsi, həmçinin respublikada elm, təhsil, mədəniyyət və idmanın inkişafına qayğı və sosial iqtisadi həyatın digər vacib məsələləri öz parlaq əksini tapmışdır [7, s. 520].

DoqquzuncucildəAzərbaycan Respublikasının Prezidenti Heydər Əlirza oğlu Əliyevin 1997-ci il martın 5-dən mayın 26-dək olan dövrdəki nitqləri, məruzələri, müsahibələri, məktubları, müraciətləri, bəyanatları, fərmanları və s. daxil edilmişdir. Bu əsərlərdə iqtisadi islahatları sürətləndirmək və dünya iqtisadiyyatına inteqrasiya olunmaq, regionda və bütün dünyada sülhü və sabitliyi möhkəmləndirmək, müstəqil dövlətimizin beynəlxalq nüfuzunu durmadan yüksəltmək, Dağlıq Qarabağ münaqişəsinin dinc vasitələrlə ədalətli həllinə nail olmaqla Azərbaycanın ərazi bütövlüyünü təmin etmək, doğma xalqın ədəbiyyat və incəsənətinə yorulmadan qayğı göstərmək istiqamətlərində və digər sahələrdə Azərbaycan Prezidentinin gündəlik fəaliyyəti xronikası parlaq əks olunmuşdur [9, s. 466].

Böyük tarixi şəxsiyyət görkəmli siyasi xadim və nüfuzlu liderlərdən biri, Azərbaycan Respublikasının Prezidenti cənab Heydər Əliyevin 1997-ci il mayın sonundan iyulun sonunadək çıxış, nitq, bəyanat, məktub və müsahibələri onuncu cilddə nəşr edilmişdir. Kitabda Azərbaycanın müstəqilliyinin daha da möhkəmləndirilməsi, dövlətçilik ənənələrinin inkişafı, dünya dövlətləri, o cümlədən Rusiya Federasiyası, Türkiyə, Qazaxıstan, Özbəkistanla siyasi-iqtisadi və mədəni əməkdaşlıq əlaqələrinin genişləndirilməsi, xarici ölkələrdəki Azərbaycan diasporunun mövqelərinin gücləndirilməsi və mütəşəkkilliyinin artırılması, respublikamızda iqtisadi islahatların həyata keçirilməsi və digər sahələrdə Azərbaycan Prezidentinin yorulmaz və məqsədyönlü fəaliyyəti parlaq əks olunur [10, s.472]Kitabda Azərbaycanın müstəqilliyinin daha da möhkəmləndirilməsi,

dövlətçilik ənənələrinin inkişafı, dünya dövlətləri, o cümlədən Rusiya Federasiyası, Türkiyə, Qazaxıstan, Özbəkistanla siyasi-iqtisadi və mədəni əməkdaşlıq əlaqələrinin genişləndirilməsi, xarici ölkələrdəki Azərbaycan diasporunun mövqelərinin gücləndirilməsi və mütəşəkkilliyinin artırılması, respublikamızda iqtisadi islahatların həyata keçirilməsi və digər sahələrdə Azərbaycan Prezidentinin yorulmaz və məqsədəuyğun fəaliyyəti parlaq əks olunur.

Çoxcildliyin onbirinci cildində Azərbaycan Respublikasının Prezidenti Heydər Əlirza oğlu Əliyevin ABŞ prezidenti BillKlintonun dəvəti ilə ABŞ-a ilk rəsmi səfərinin materialları dərc olunur. Burada BillKlinton ilə, digər yüksək vəzifəli şəxslərlə görüş və aparılmış danışıqlardan, imzalanmış önəmli dövlətlərarası sazişlərdən, ABŞ Konqresində konqresmen və senatorların böyük bir qrupu ilə, o cümlədən ayrıayrılıqda keçirilmiş görüşlərdə Azərbaycanın milli mənafelərini əks etdirən dərin məzmunlu söhbətlərdən, bir çox şirkətlərin rəhbərləri ilə çoxsaylı görüşlərdən, ABŞ Konqresinin 1992-ci ilin oktyabrında «Azadlığı müdafiə aktı»na əlavə etdiyi Azərbaycana qarşı ədalətsiz 907-ci düzəlişin ləğv olunmasınınzəruriliyindən, Ermənistanın Azərbaycana təcavüzü nəticəsində yaranmış Ermənistan– Azərbaycan münaqişəsinin aradan qaldırılmasında Azərbaycan dövlətinin tutduğu qəti mövqedən, məsələnin sülh yolu ilə nizama salınmasında beynəlxalq təşkilatların rol və məsuliyyətinin artmasından, ABŞ-da yaşayan soydaşlarımızla görüş və söhbətlərdən və s. ətraflı bəhs edilir. Kitaba daxil edilmiş materiallar Azərbaycan Rrezidentinin ABŞ-a rəsmi səfərinin parlaq nəticələrinin iki ölkə arasında münasibətlərdə həqiqətən yeni mərhələ açdığı barədə aydın təsəvvür oyadır [11, s. 452].

Azərbaycan Respublikasının Prezidenti,xalqın sevimli oğlu və ümummilli lideri Heydər Əlirza oğlu Əliyevin çıxışları, nitqləri, müxtəlif səviyyəli görüşlərdə söhbətləri, bəyanatları, həmçinin təbrik teleqramları və müsahibələrindənibarət"Müstəqilliyimiz əbədidir"çoxcildliyin növbəti on ikinci kitabi 1997-ci il avqustun 17-dən oktyabrın 29-dək olan dövrü əhatə edir. Kitabda dahi rəhbərin Polşaya, İtaliyaya, Vatikana rəsmi səfərlərində bu ölkələrin dövlət və hökümət başçıları ilə apardığı dərin məzmunlu danışıqların, imzalanmış yeni saziş və müqavilələrin əhəmiyyətindən, müxtəlif mətbuat orqanlarında verdiyi müsahibələrindən, Avropa Şurasının üzvü olan ölkələrin görüşündə Strasburq görüşündə Heydər Əliyevin başçılıq etdiyi Azərbaycan nümayəndə heyətinin fəal iştirakından, GUAM təşkilatının yaradılması prosesindən, Ermənistan-Azərbaycan münaqişəsinin ədalətli həll uğrunda böyük öndərin əzmlə irəli sürdüyü yeni sülh təşəbbüslərindən ətraflı bəhs olunur [12, s. 432].

Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin çoxcildlik əsərlərinin on üçüncü cildi 1997-ci ilin oktyabrından dekabr ayına qədər olan dövrdəki çıxışları, nitqləri, bəyanatları, müsahibələri, məktubları, müraciətləri, fərmanları daxil edilmişdir. Cildə daxil edilmiş materiallarda həmçinin Azərbaycan ilə MDB ölkələri arasındakı ənənəvi dostluq Ordusuna ümumxalq qayğısı və diqqətinin artırılması, respublikamızın içtimai-siyasi və iqtisadi-mədəni həyatının vacib məsələləri, daxili və xarici siyasətinin başlıca istiqamətləri əks edilir [13, s. 520].

Zəmanəmizin qüdrətli siyasətçisi və müdrik dövlət xadimi Heydər Əliyevin oxuculara təqdim olunan on dördüncü cilddə ölkəmizdə hüquqi, demokratik, dünyəvi, dövlət quruculuğu prosesindən, ictimai-siyasi iqtisadi mədəni həyatın bir çox sahələrindən xarici ölkələrlə əlaqələrin genişlənməsindən bəhs olunur. 1997-ci ilin dekabrından 1998-ci ilin fevralına qədər olan dövru əhatə edir. Kitabda prezident H.Əliyevin Türkiyə Rusiya, Gürcüstan və Yaponiyaya rəsmi səfərləri zamanı və Azərbaycana gələn dövlət və hökümət başçıları ilə apardığı danışıqlar imzalanmış sənədlər keçirilmiş çoxsaylı görüşlərin söhbətlərin materialları dərc olunmuşdur. Bu və digər görüşlərdə Heydər Əliyev dünya ölkələri ilə əlaqələrin daha da inkişaf etdirilməsi zəruriliyini, Azərbaycanın siyasi strategiyasının xalqımızın milli mənafelərinə xidmət etdiyini, iqtisadi siyasətimizin şəffaf olduğunu, dünya iqtisadiyyatına bəyan etmişdir [14, s. 520].

Heydər Əlirza oğlu Əliyevin əsərlərinin oxuculara təqdim olunan on beşinci cildində dahi şəxsiyyətin anadan olmasının 75 illiyi münasibətilə Bakıya gəlmiş Türkiyə prezidenti Süleyman Dəmirəl, Gürcüstan prezidenti EduardŞevardnadze və başqa dövlət xadimləri ilə keçirilən görüşlərdəki materiallar, dövlət səviyyəsində yübileyi ilk dəfə qeyd olunanAzərbaycan Xalq Cümhuriyyətinin 80 illiyinə həsr olunmuş təntənəli gecədə söylədiyi dərin məzmunlu nitqi, Moskvada MDB ölkələrinin Qara Dəniz İqtisadi Əməkdaşlıq Təşkilatının üzvü olan ölkələrin, başçıları ilə etdiyi söhbətlər, Prezidentimizin çıxışları, informasiya vasitələrinə verdiyi müsahibələri toplanmışdır. Bu cild 1998-ilin martından iyuna qədər olan dövrü əhatə edir. Kitaba daxil edilmiş materiallarda həmçinin ölkəmizin daxili və xarici siyasətinin, milli dövlət quruculuğu prosesinin başlıca istiqamətləri, görkəmli ədəbiyyat və incəsənət xadimləri ilə çoxsaylı görüşləri, eləcə də ictimai-siyasi həyatın digər mühüm məsələləri öz əksini tapmışdır [15, s. 528].

Əsrimizin böyük dövlət xadimi, xalqımızın ümummilli lideri Heydər Əlirza oğlu Əliyevin "Müstəqilliyimiz əbədidir" çoxcildliyinin on altıncı kitabında apardığı danışıqlar, keçirdiyi görüşlər, etdiyi çıxışlar müstəqil, suveren Azərbaycan dövlətinin möhkəmləndirilib inkişaf etdirilməsinə, Azərbaycanın beynəlxalq nüfuzunun, onun haqq işinin dünya miqyasına yüksəldilməsinə, respublikamızın işıqlı gələcəyi, xalqımızın rifahı və tərəqqisi naminə aparılan geniş iqtisadi və siyasi islahatlara həsr olunmuş materiallar toplanmışdır. 1998-ci il iyundan iyula qədər olan dövrü əhatə edir. Kitabda unudulmaz rəhbərin Böyük Britaniya və Şimali İrlandiya Birləşmiş Krallığına rəsmi səfəri zamanı keçirdiyi yüksək səviyyəli görüşləri, dərin məzmunlu danışıqları, imzalanmış sənədlər, dünyanın nüfuzlu mətbuat orqanlarına verdiyi bəyanat və müsahibələr Azərbaycan ilə Birləşmiş Krallıq arasında bütün sahələrdə əməkdaşlığın inkişaf etdirilməsində yeni mərhələnin təzahürüdür. Kitabda, həmçinin görkəmli ədəbiyyat və incəsənət xadimləri ilə görüşlər, qaçqın və məcburi köçkünlərə böyük diqqət və qayğı, tarixi adət-ənənələrə yüksək qiymət və dəyərli tövsiyələr də öz əksini tapmışdır [16, s. 552].

Əsərin on yeddinci cildində Azərbaycanın ictimai-siyasi həyatına, iqtisadiyyatda müsbət dəyişikliklərin əsasının qoyulmasına, dövlət idarəçiliyinin təkmilləşdirilməsi strategiyasının başlıca parametrlərinin müəyyən edilməsinə, bu müddət ərzində görülən tədbirlərin, hazırlanan proqramların ictimai-tarixi dəyərinə həsr olunmuş materiallar toplanmışdır[17, s. 258].

Böyük dahi şəxsiyyət Heydər Əliyevin əsərlərinin oxuculara təqdim olunan on səkkizinci cildi 1998-ci il oktabrdan dekabradək olan dövrü əhatə edir. Kitabda müdrik dövlət xadiminin ölkəmizin ictimai-siyasi həyatına, iqtisadi-maliyyə sisteminə, dövlət idarəçiliyinin inkişafına, özəl sektorun genişlənməsinə, Azərbaycanın beynəlxalq nüfuzunun, onun haqq işinin dünya miqyasına yüksəldilməsinə, tarixi İpək yolunun bərpası üzrə Beynəlxalq Bakı Konfrasına, Azərbaycanda insan hüquqları ilə əlaqədar tədbirlərin müəyyən edilməsinə aid materiallar, həmçinin Türkiyə Cümhuriyyətinin yaradılmasının 75-ci ildönümü münasibətilə yubiley mərasimindəki çıxışı, yüksək səviyyəli görüşləri, danışıqları, Bakı - Tbilisi - Ceyhan neft boru kəmərinin çəkilməsi ilə əlaqədar imzalanmış Ankara bəyannaməsi və s. öz əksini tapmışdır. Kitabda, həmçinin, Azərbaycanın şəhid olmuş döyüşçülərinin valideynlərinə, ailə üzvlərinə, qaçqın və məcburi köçkünlərə, elm, ədəbiyyat, mədəniyyət xadimlərinə və idmançılara böyük diqqət və qayğı, onlara Azərbaycanın dövlət mükafatlarının təqdim olunması, milli-mənəvi dəyərlərə, islam sivilizasiyasına yüksək qiymət də öz əksini tapmışdır [18, s. 552]

Xalqımızın ümummilli lideri Heydər Əlirza oğlu Əliyevin oxuculara təqdim olunan on doqquzuncu cildində apardığı danışıqlar, keçirdiyi görüşlər, etdiyi nitq və çıxışlarında müstəqil Azərbaycan dövlətinin möhkəmləndirib inkişaf etdirilməsinə, respuklikamızın sürətli iqtisadi tərəqqisi və yüksəlişi, xalqımızın rifahı naminə dövlət idarəetmə sistemində dövlət nəzarətinin qaydaya salınması və sahibkarlığın inkişafı, istehsal, xidmət, maliyyə, kredit, səhiyyə, təhsil sahəsində aparılan islahatlara həsr olunmuş materiallar toplanmışdır [19, s. 528].

Müstəqil Azərbaycan dövlətçiliyinin memarı Heydər Əlirza oğlu Əliyevin əsərlərinin oxuculara təqdim olunan iyirminci cildində Azərbaycanın sürətli iqtisadi tərəqqisi və yüksəlişi, demokratik dövlət quruculuğu sahəsində strateji xəttin reallaşması ilə əlaqədar irəli sürdüyü mülahizələr, eləcə də Azərbaycanın beynəlxalq aləmdə nüfuzunun yüksldilməsinə, dünya dövlətləri arasında özünəlayiq yer tutmasına yönəldilmiş siyasi xətti parlaq əksini tapmışdır.

Kitabda Heydər Əliyevin NATO-nun 50 illik yubileyinə həsr olunmuş Zirvə görüşündə ABŞ prezidenti BillKlintonla, ABŞ Konqresinin, hökümətinin, Dövlət Departamentinin, nüfuzlu dairələrin nümayəndələri, iri şirkətlərin rəhbərləri ilə görüşləri, dərin məzmunlu danışıqları, dünyanın aparıcı mətbuat orqanlarına və televiziya şirkətlərinə verdiyi dolğun bəyanət və müsahibələri, həmçinin Azərbaycan xalqına müraciətləri, Antalyada qısamüddətli istirahəti zamanı Türkiyə Cümhuriyyətinin dövlət rəhbərləri ilə görüşləri, söhbətləri geniş yer tutmuşdur.

Bütün cildlərdə olduğu kimi bu cilddə də ulu öndərin Azərbaycanın ən ağrılı problemi olan Dağlıq Qarabağ məsələsinə aid ATƏT, Avropa Şurası, NATO rəhbərləri ilə görüşləri, bu münaqişə ilə əlaqədar onun prinsipial mövqeyi öz parlaq təzahürünü tapmışdır [20, s. 536].

Nəticə. Bu məqalədə xalqımızına ümummilli lideri Heydər Əlirza oğlu Əliyevin çox cildlik əsərlərinin 20 cildi haqqında oxuculara məlumat verilmişdir.Qeyd edək ki, 2003-cü ildən bu günədək keçilən yola nəzər salsaq Ümummilli Liderin siyasi kursunun uğurla davam etdiyini görərik. Dövlət başçısı İlham Əliyev bütün çıxışlarında bu çağırışı edir ki, Azərbaycan gəncliyi milli ruhda tərbiyə olunmalıdır. Təbii ki, 44 günlük Vətən müharibəsi gənclərin nə qədər vətənpərvər, ölkəsini, xalqını sevən olduğunu bir daha təsdiqlədi.

İSTİFADƏ OLUNMUŞ ƏDƏBİYYAT SİYAHISI

1. Əliyev, H. Müstəqilliyimiz əbədidir: çıxışlar, nitqlər, bəyanatlar, məktublar, müsahibələr. Kitab 1: iyun, 1993 – may, 1994. Bakı: Azərnəşr, –1997. – 612 s.
2. Əliyev, H. Müstəqilliyimiz əbədidir: çıxışlar, nitqlər, bəyanatlar, məktublar, müsahibələr. Kitab 2: may, 1994 – dekabr, 1994. Bakı: "Azərnəşr", 1997, 604 s.
3. Əliyev, H. Müstəqilliyimiz əbədidir: çıxışlar, nitqlər, bəyanatlar, məktublar, müsahibələr. Kitab 3: dekabr, 1994 – iyun, 1995. Bakı: Azərnəşr, –1997. – 488 s.
4. Əliyev, H. Müstəqilliyimiz əbədidir: çıxışlar, nitqlər, bəyanatlar, məktublar, müsahibələr. Kitab 4: iyun, 1995 – noyabr, 1995. Bakı: Azərnəşr,– 1997. – 528 s.
5. Əliyev, H. Müstəqilliyimiz əbədidir: çıxışlar, nitqlər, bəyanatlar, məktublar, müsahibələr. Kitab 5: noyabr, 1995 – mart, 1996. Bakı: Azərnəşr, –1998. – 500 s.
6. Əliyev, H. Müstəqilliyimiz əbədidir: çıxışlar, nitqlər, bəyanatlar, məktublar, müsahibələr. Kitab 6: mart, 1996 – iyun, 1996. Bakı: Azərnəşr, –1998. – 512 s.
7. Əliyev, H. Müstəqilliyimiz əbədidir: çıxışlar, nitqlər, bəyanatlar, məktublar, müsahibələr. Kitab 7: iyun, 1996 – noyabr, 1996. Bakı: Azərnəşr, –1998. – 520 s.
8. Əliyev, H. Müstəqilliyimiz əbədidir: çıxışlar, nitqlər, bəyanatlar, məktublar, müsahibələr. Kitab 8: noyabr, 1996 – mart, 1997. Bakı: Azərnəşr, – 1998. – 488 s.
9. Əliyev, H. Müstəqilliyimiz əbədidir: çıxışlar, nitqlər, bəyanatlar, müsahibələr, məktublar, məruzələr, müraciətlər, fərmanlar. Kitab 9: mart, 1997 – may, 1997. Bakı: Azərnəşr, – 2000. – 466 s.
10. Əliyev, H. Müstəqilliyimiz əbədidir: çıxışlar, nitqlər, bəyanatlar, müsahibələr, məktublar, məruzələr, müraciətlər, fərmanlar. Kitab 10: may, 1997 – iyul, 1997.Bakı: Azərnəşr, –2002. – 472 s.
11. Əliyev, H. Müstəqilliyimiz əbədidir: çıxışlar, nitqlər, bəyanatlar, müsahibələr, məktublar, məruzələr, müraciətlər, fərmanlar. Kitab 11: iyul, 1997 – avqust, 1997. Bakı: Azərnəşr, – 2003. – 452 s.
12. Əliyev, H. Müstəqilliyimiz əbədidir: çıxışlar, nitqlər, bəyanatlar, müsahibələr, məktublar, məruzələr, müraciətlər, fərmanlar. Kitab 12: avqust, 1997 – oktyabr, 1997. Bakı: Azərnəşr,– 2004. – 432 s.
13. Əliyev, H. Müstəqilliyimiz əbədidir: çıxışlar, nitqlər, bəyanatlar, müsahibələr, məktublar, məruzələr, müraciətlər, fərmanlar. Kitab 13: oktyabr, 1997 – dekabr,1997. Bakı: "Azərnəşr", 2004, 520 s.
14. Əliyev, H. Müstəqilliyimiz əbədidir: çıxışlar, nitqlər, bəyanatlar, müsahibələr, məktublar, məruzələr, müraciətlər, fərmanlar. Kitab 14: dekabr 1997 – fevral 1998. Bakı: "Azərnəşr", 2005, 520 s.
15. Əliyev, H. Müstəqilliyimiz əbədidir: çıxışlar, nitqlər, bəyanatlar, müsahibələr, məktublar, məruzələr, müraciətlər, fərmanlar. Kitab 15: mart, 1998 – iyun, 1998. Bakı: Azərnəşr, –2005. – 528 s.
16. Əliyev, H. Müstəqilliyimiz əbədidir: çıxışlar, nitqlər, bəyanatlar, müsahibələr, məktublar, məruzələr, müraciətlər, fərmanlar. Kitab 16: iyun, 1998 – iyul, 1998. Bakı: Azərnəşr, – 2005. – 552 s.
17. Əliyev, H. Müstəqilliyimiz əbədidir: çıxışlar, nitqlər, bəyanatlar, müsahibələr, məktublar, məruzələr, müraciətlər, fərmanlar. Kitab 17: iyul, 1998 – oktyabr, 1998. Bakı: Azərnəşr, – 2006. – 258 s.
18. Əliyev, H. Müstəqilliyimiz əbədidir: çıxışlar, nitqlər, bəyanatlar, müsahibələr, məktublar, məruzələr, müraciətlər, fərmanlar. Kitab 18: oktyabr, 1998 –dekabr, 1998. Bakı: Azərnəşr, –2006. – 552 s.
19. Əliyev, H. Müstəqilliyimiz əbədidir: çıxışlar, nitqlər, bəyanatlar, müsahibələr, məktublar, məruzələr, müraciətlər, fərmanlar. Kitab 19: yanvar, 1999 – aprel, 1999. Bakı: Azərnəşr, – 2006. – 528 s.
20. Əliyev, H. Müstəqilliyimiz əbədidir: çıxışlar, nitqlər, bəyanatlar, müsahibələr, məktublar, məruzələr, müraciətlər, fərmanlar. Kitab 20: aprel, 1999 – iyul, 1999. Bakı: Azərnəşr, – 2007. – 536 s.

Açar sözlər:Ümumilli Lider, Azərbaycan Dövlət Nəşriyyatı, kitab nəşri, çoxcildli əsər.

Ключевыеслова: ГлобальныйЛидер, АзербайджанскоеГосударственноеИздательство, изданиекниги, многотомник.
Keywords: GlobalLeader, AzerbaijanStatePublishingHouse, bookpublication, multi-volumework.

HEYDƏR ƏLİYEVİN“MÜSTƏQİLLİYİMİZ ƏBƏDİDİR” ÇOXCİLDLİYİNİN MÖVZU-TİPOLOJİ TƏHLİLİ

XÜLASƏ

Ulu öndər Heydər Əliyevin parlaq şəxsiyyəti və müdrik dövlətçilik siyasəti, məharətli idarəetmə təcrübəsi, zəngin siyasi irsi və gələcək nəsillərə ötürdüyü siyasətin varisliyi ənənəsi təkcə bizim ölkəmizdə deyil, yaxın və uzaq xarici ölkələrdə də politoloji tədqiqatlar üçün aktual mövzulardandır. Bu məqalədə də “Heydər Əliyev. Müstəqilliyimiz əbədidir” çoxcildliyinin kompleks şəkildə təhlili verilmişdir.

МНОГОТОМНИК ГЕЙДАРА АЛИЕВА“НАША НЕЗАВИСИМОСТЬ НАВСЕГДА” ТЕМАТИЧЕСКИЙ ТИПОЛОГИЧЕСКИЙ АНАЛИЗ

РЕЗЮМЕ

Яркая личность великого лидера Гейдара Алиева и мудрая государственная политика, умелый управленческий опыт, богатое политическое наследие и традиции преемственности политики, передаваемые будущим поколениям, являются актуальными темами для политологических исследований не только в нашей стране, но и в ближнем и дальнем зарубежье. В этой статье «ГейдарАлиев. Дается все сторонний анализ многотомника «Наша независимость вечна».

TOPİC TYPOLOGİCAL ANALYSİS OF HAYDAR ALİYEV'S "OUR INDEPENDENCE İS ETERNAL" MULTİVOLUMES

SUMMARY

Thegreat leader Heydar Aliyev's brightper sonality and wisest at epolicy, skill fulmanagement experience, rich political heritage and thetradition of policy succession passed on to future generation sarerele vant topics for politicals ciencere search not only in our country, but also in near and far foreign countries. In this article, "Heydar Aliyev. A compre hensive analysis of the multi volume "Our independence is eternal" is given.

RƏYÇİ: dos.L.Ələkbərova

Nəzakət Qafqazlı[86]

"QARDAŞ KÖMƏYİ" JURNALINDA ƏDƏBİYYAT MƏSƏLƏLƏRİ

Böyük tarixi qəhrəmanlıq yolu keçən türk xalqının əsrlərcə qarşılaşdığı təhlükələrdən biri də dövrünün ən böyük imperiyalarından sayılan Osmanlı dövlətinin qatıldığı I Dünya müharibəsi idi. Bu müharibədə içindən parçalanmağa doğru üz qoymuş yeganə türk dövləti Avropa dövlətləri və böyük Rus imperiyası kimi güclü və pəncəli düşmən qarşısında öz zəifliyi və acizliyi ilə təkbətək qalmışdı. Bu vəziyyəti nəinki Osmanlı dövləti tərkibindəki türklərin, eləcə də bütün Ön Asiyaya səpələnmiş və Rusiya imperiyasının tərkibində əsarət məngənəsində inləyən türk xalqlarının faciəsi idi. Özünü dərk edən hər bir türk bu savaşın həyat uğrunda çox ciddi bir mübarizə olduğunu başa düşürdü və bu yolda öz qan qardaşlarına bacardığı qədər köməklik göstərməyə çalışırdı. Maddi imkana əli çatmasa da, mənəvi bir dayaqla ona dəstək verməyə cəhd göstərirdi. Bu cür mənəvi dəstəklərdən biri də 1917-ci ildə Bakıda "Qardaş köməyi" adı ilə çıxan məcmuə olmuşdu.

"Qardaş köməyi" toplusu Azərbaycan Milli Elmlər Akademiyası Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutunda DM-2173 4445, DM-2174 4226, DM-2175 9396 şifrələri ilə mühafizə olunmaqdadır. Toplu eni 21 sm, uzunu 30 sm olub 80 səhifədən (ərəb əlifbası ilə) ibarətdir. Üz qabığında Əzim Əzimzadənin məcazi mənası olan bir təsvir verilmişdir. Yağı gülləsinə tuş olmuş ana ceyran ağzından qan qusaraq ölümcül halda yerə sərələnmişdir.

Yetim qalmış üç bala ceyran isə məhzun bir görkəmlə analarını yalayır, sanki onu ölümün pəncəsindən xilas etmək istəyirlər. Şəklin altında bu misralar yazılmışdır:

Dutub ormanda zəxmnak ahu
Bakışır zar-zar neçələri
Yad edərlər məzalimi-bəşəri
Bu da bir şeri məxzəni digər.

Üz qabığının yuxarısında böyük hərflərlə toplunun adı "Qardaş köməyi" yazılmışdır. Və bu adın altında ortada kiçik şəbəkənin içində "Hərbzədələr nəfinə" sözləri verilmişdir.

Üz qabığının aşağı hissəsində qırmızı çərçivənin içində isə "Mühərrirlər nəşriyyatı" və Baku-1335 rəqəmi göstərilmişdir. Toplunun nə əvvəlində, nə də sonunda redaktorun adı qeyd olunmayıb. Görkəmli ədəbiyyatşünas professor Vaqif Sultanlının tədqiqatına görə bu nadir jurnalın məsul redaktoru məşhur Azərbaycan publisisti Məhəmməd Əmin Rəsulzadə olmuşdur (1, s. 53).

"Qardaş köməyi" nin içərisində maraqlı fotoşəkillər də verilmişdir:

1. Bakudə Ağa Musa Nəqiyef cənabları tərəfindən mərhum oğlu İsmayıl naminə dikilüb də Baku müsəlman cəmiyyəti-xeyriyyəsinə vəqf olunan "İsmailiyyə" binası
2. Cəmiyyəti-xeyriyyə köməkçisi un paylarkən
3. Cəmiyyəti-xeyriyyə vəkili- ümumisi doktor Xosrov Paşanın nəzarətində un paylarkən
4. Tiflis yetimlər yurdu
5. Cəmiyyəti-xeyriyyə Qars şöbəsi dəftərxanəsi
6. Cəmiyyəti-xeyriyyədə hərbzədələrə paltar dikişi
7. Baku yetimlər yurdunun dikmək odası
8. Müavinət heyətində heyəti-tibbiyyə
9. Baş köməkçi doktur Soltanof dəftərxanəsinin nətzad salonu.
10. Qurban bayramı münasibətilə Qafqasiya xətti-hərbində olan müsəlman saldatlara cəmiyyəti-xeyriyyə hərbzədələrə müavinət şöbəsi tərəfindən verilən ziyafət və başqa şəkillər.

Topluda müxtəlif janrlarda yazan H.Cavid, A.Şaiq, M.Ə.Rəsulzadə, A.Səhhət, Ə.Cavad, F.Köçərli, Ə.Haqverdiyev, S.Hüseyn, M.S.Ordubadi, Ə.Nəzmi, Ö.F.Nemanzadə, Ş.Əfəndizadə, C.Cabbarzadə, H.İ.Qasımov, N.Bəsir kimi ən məşhur imzalarla yanaşı Fateh Kərim, Manafzadə Sabit, Hüseyn Mirzəcamalov, Əli Mişan, Asya Nərimanova, Əli Şövqi, Bədrəddin Əlhüseyni, Oruc Orucov və b. kimi nisbətən az tanınmış imzalara da rast gəlirik.

"Qardaş köməyi"ndə janrlar üzrə seçim aparsaq burada həm nəsr, həm nəzm nümunələri verilmiş, həm də müxtəlif mövzuda məqalələr çap olunmuşdur. Dram janrından yeganə nümunə isə Talıbzadə Abdulla Şaiqin "Bir pərdəli dramı"dır. Ancaq nədənsə əsərin adı qeyd olunmamışdır. Apardığımız tədqiqatlardan məlum olur ki, bu pyesin adı "İdeal və insanlıq"dır və ilk dəfə məhz bu topluda çap olunmuşdur.

A.Şaiqin arxivində dramatik poemanın 7 avtoqrafı vardır və müəllif onun yazılma tarixini 1914-cü il göstərmişdir (Bu avtoqraflar Abdulla Şaiqin mənzil-muzeyində mühafizə olunur).

Əlyazma şəklində olan əsərin 7-ci variantı makina ilə yazılmış və məcmuədə həmin nüsxə verilmişdir.

Müəllif özü əsərin adını "İdeal və insanlıq" göstərmişdir.Romantik üslubda yazılmış bu dramatik poema dünyəvi bir mövzuya- Xeyirlə Şərin mübarizəsinə həsr olunmuşdur.Pyesin iştirakçılarının adı böyük maraq doğurur: İnsanlıq, İdeal, Vicdan, Ədalət, Mərhəmət, Səadət, Zülm, Şeytan, Fəlakət. Romantik olan bu bir pərdəli dram çox realist bir sonluqla bitir. Nə şər, nə də xeyir qüvvələr qalib gəlir.

---

[86] AMEA-nın Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutu. Filologiya üzrə fəlsəfə doktoru, dosent

Elə jurnalın əsl məramnaməsi də şər qüvvələrə qarşı mübarizə, müharibədən zərər çəkmiş insanlara qardaş əlinin uzadılmasına çağırışdır.

İlk redaksiya məqaləsindən jurnalın istiqamətini müəyyənləşdirmək olar.

Həmvətənlərə müraciətlə səslənən: "millətdaş, ey vətəndaş! Bütün Rusiya afaqını işıqlandıran hürriyyət günəşi çıxmış, hər yan işıqlanmışdır. Bax iştə gör: qardaşlıq nə olduğunu anla, qardaşa kömək etmənin əsil həqiqi yollarını bul. Bil ki, bu gün kəmali hürriyyətlə açа bildiyin o al bayraq baqiməndələri bir loxma ətməyinə möhtac qalan o zavallı cinsdaşlarının, o məzlum millətdaşlarının qanı bahasına alınmışdır"-çağırışı fikrimizi bir daha təsdiq edir.

Məcmuədə türkçülük məsələlərinə geniş yer verilmişdir.

XX əsrin görkəmli jurnalistlərindən biri olan Ömər Faiq Nemanzadənin "Bən kiməm?" məqaləsi bu nöqteyi-nəzərdən diqqəti çəkir.

Öz türklüyü ilə qürur duyan ədib bir çoxlarının öz millətinin "hətta quru adını" belə bilməyib "ortada şaşıb qalmışlara" ürəkdən acıyır və bu sözlərlə onlara müraciət edir: "Hə, ey türk! İstər darıx, istərsə karıx! Yaxandan əl çəkən deyiləm.

Sən hər şeyi öyrənmək istədiyin halda niyə bircə zad, yəni özünü-bilmək istəmiyorsun? Niyə öz varlığından, öz vücudundan, öz soy və nəslindən xəbərin yox? Niyə sana: Kimsən? dedikləri vaxt həqiqi cavabından aciz qalıyorsun?

Niyə sadəcə deyə bilmiyorsun ki: Bən türkəm.

Niyə bilmiyorsun ki, şiəlikdən, sünnilikdən, babilikdən də əvvəl sən türk idin. İndi də türksən və bundan sonra da türk qalacaqsan!

Sənin türklügünə nə şiəlik, nə babilik və nə də dinsizliyin mane ola bilməz.

Sən, ey türk, nə əqidədə, nə məsləkdə olursan ol, həmişə türksən!

Sən gərək biləsən ki, dünyada, hələ şiə, sünni, babi şeyxi adları yox ikən, sən var idin!" (2)

Hələ də müasir səslənən bu müraciətdə nə böyük həqiqət var. Elə bil ədib vaxtilə islamiyyətdən əvvəl Altayın ətəklərindən bəri mədəniyyət əsərləri, əlifbası, yazısı, "idarə və asayiş üsuli", "yasaq" qanunları olan bir milləti öz kökünə, öz düşüncəsinə, öz varlığına qayıtmağa, milli ittihada, əsrin ruhu olan azad millətpərəstlik əqidəsinə nail olmağa çağırır.

Sanki Ömər Faiqin Tiflisdən gurlayan səsinə Qazandan Ayaz İsaqi hay verir. "Həyatda yalnız bir qanun vardır, o da mübarizə" sözləri ilə məqaləsini başlayan Ayaz İsaqi türklərin Rusiya imperiyasında rus əksəriyyətindən sonra sayca ikinci qövm olduğunu xatırladır."Biz Rusiyada yaşayan türk əqvamının, İdil boyu tatarı, dala qazağı, Türküstan sartı, özbəyi, Krım tatarı, Azərbaycan türkü... milli, dini, ictimai həyatımızın hər dəqiqəsində şu əsasları bərbad ediyoruz, həyatın mübarizəsində ən mühüm nöqtələrimizi ən zəif buluyoruz. Heç bir vaxt, heç bir ümumi mənfəətimiz uğrunda- gərək dini olsun, gərək milli olsun,-kəndi qüvvətimizi səfərbərlik halına qoya bilməyiriz".

Müəllif İdil boyu türklərinin problemlərinə Krım, Azərbaycan, Türküstan türklərinin laqeyd qalmasının, Qafqazın üzərinə fəlakət gələrkən, Acar qardaşlarımızın yurdu, yeri talanarkən, Qafqaz türkləri aman bağırarkən, Türküstan, Qırğız türklərinin seyrçi vəziyyətində qaldığını yana-yana yada salır. Bu gün də təqribən eyni vəziyyətdə olan bu problemin səbəbini Ayaz İshaqi belə izah edir:

"Otuz milyonlu türk evladının ümumi işlərini, milli mənfəətlərini bərabərcə şu: türk evladlarının dillərinin, lisanlarının coğrafi mövqeinin təsiri altında, qomşu millətlərin mədəniyyətinin təsiri sayəsində azmı, çoxmu fərqli olmasıdır. Bunun sayəsində İdil boyu mətbuatının Azərbaycanda oxunmaması, Azərbaycan mətbuatının Qazan, Ufada lüzumu qədəri intişar etməməsi... Rusiya türklərinin böyük bir məsələsi varsa o da ümumi bir ədəbi lisan meydana gətirməkdir"(3).

Bu yolda Ayaz İshaqi qələm əhlləri arasında daha sıx müzakirə və mübadiləni, ibtidai məktəb proqramlarına Ümumrusiya türklərinin ədəbiyyatları haqqında müfəssəl məlumat verilməsi, məzhəb ayrılığına baxmadan qafqazlı, türküstanlı, qazanlı, krımlı türklər arasında nikahların çoxalması kimi məsələləri vacib sayır.

Türkün ölkələri lərzəyə gətirən şərəfli keçmişi və sonrakı aqibəti Hüseyn Cavidin "Hərb və fəlakət" şerində də öz əksini tapır:

Nə zaman kişnəsəydi türkün atı,
Qırılırdı bir ölkənin qanatı.
Həp krallar, prinslər, xanlar,
Ulu şahlar, kibirli xaqanlar.
Papalar, həp xəlifələr hər gün
Diz çökürlərdi türkə qarşı bütün...

Bu cür həşəmətli xalqın müharibə vaxtı keçirdiyi acınacaqlı vəziyyət şairin ürəyini ağrıdır və o, çox təəssüflə yazır:

O şəhamətli türkün övladı,
Şimdi topraq yuyur da fəryadı.
Nə fəlakət bu, həm nasıl müdhiş?!

Ah, ölüm ən böyük səadət imiş!..
Arkadaş, yoldaş! Ey vətəndaş , oyan!
Yatma artıq yetər... dəyişdi zəman.
****
Qalx, oyan!...Sönməmişsə imanın.

Qalx, oyan! Gör nə fikrə xadimsən?
Kimlərin oğlusan, nəsən, kimsən?
Sürünüb durma böylə, bir yüksəl!
****
.....İttihad!...İştə ən böyük ideal!
Səni qurtarsa, qurtarar birlik,
Çünki birlikdədir fəqət dirlik... (4)

Türkçülük mövzusunda diqqəti çəkən maraqlı məqalələrdən biri də Salman Məhəmməd Əmin oğlu Turxanın Aşqabaddan göndərdiyi "Qul" adlı məqaləsidir. Adlarımıza" yapışdırılan "Qul" sözünün mənşəyini araşdıran müəllif onun ərəbcə "əbd", "qulam" və farsca "bəndə", "çakər" sözlərinin eyni olduğunu göstərir.

Əliqulu, Həsənqulu, Hüseynqulu, Şahqulu, Ocaqqulu, Tanrıqulu, Qulaməli və.s. bu kimi adları sadalayaraq axırda özümüzün də qul halına düşdüyümüzü ürək ağrısı ilə qeyd edir: "Kim bilir şayəd yaradılışda biz elə qul yaranıb qul da doğulmuşuq! Və açun (dünya) varkən də bu qulluqda baqi qalmalıyıq? Çox yaxşı olardı ki, incə düşünən mütəbəhhər ədiblərimiz ilə nazik xəyal, müşkaf təbli şairlərimiz vaxt ikən tağları, daşları tir-tir titrədən "hür"-azad türklərin haçaqdan və nə səbəbə görə qulluq zənciri ilə sarındıqlarını ətraflı yazıb aşkara çıxara idilər. Çünki adlarımızdan belə anlaşılır ki, biz allaha, peyğəmbərə, imamlara qul olduqdan başqa yenə bir çoxlarına qul olmuşuq və bu adət hələ indi də bizim aramızda mütədavil olub dövran sürməkdədir..."(5)

Məqalə müəllifi təkcə adların deyil, hətta şairlərimizin Qulam, Əbd, Çakər kimi təxəllüslərinin belə sırf ərəb, fars lüğətlərindən götürdüklərini aydınlaşdırır.

Hələ bunlar azmış kimi Şah Abbasın dərbar şairi olan türk Həsən bəgin "təxəllüsü o qədər yaraşıqsız, əksik təxəllüsdür ki, insan yazmağa da həya eyliyor. Bütün təzkirə müəlliflərinin yazılarına inanmaq olarsa Həsən bəg kimi şuxtəb və şirinkəlam şairin təxəllüsü "səg" (it) imiş." Fikrini təsdiq etmək için Turxan bəy başqa bir şairin beytini misal gətirir:

"Dut bəni kuyində boynu bağlu itlərdən hesab
Hansı it kuyində bən tək belə əfqan eləmiş" (6).

Ədib "keçənlər keçib, gələcək qeydinə qalıb artıq türk olduğumuzu etiraf etməliyik" deyir. "Qulluq" ləkəsini adlarımızdan, psixologiyamızdan silib uşaqlarımıza gözəl-gözəl türk adları qoyub özlərini də türk ruhunda tərbiyə etməyi məsləhət görür. "Getdikcə xalqımız tərəfindən unudulmaqda olan: Ayxan, Günxan, Dənizxan, Gökxan, Yulduzxan, Turxan, Tuğan bəg, Torqud bəg, Uğurlu bəg, Qara bəg. İldırım bəg, Ağca, Qızıl Arslan, Qaya bəg, Daşdəmir, Özdəmir, Yolbars (şir), Elcan, Qaragöz, Qaraxan, Qutluğ, Yoldaş, Orduxan və ilax, kimi bu gözəllikdə adlarımız ola-ola daha nə vacib olubdur ki, ərəbdən, farsdan ad borc alaq"(7).

Müəllif bu barədə fikrini davam etdirərək yazır: "Bənim əqlim kəsməyir ki, dünyada bir ərəb tapılsın ki, ərəb adını kənara tulluyub və övladına da götürüb türk adı qoysun və yenə inana bilmirəm ki, bir fars şairi öz ana dilində bircə fərd yazmıyıb türk dilində bir böyük divan bağlasın. Elə bu türkçülük ruhu qadın azadlığı, türk övladlarını tərbiyə edəcək gələcək anaların maariflənməsinə həsr olunmuş hekayələrdə əsas ana xətt kimi keçir. İlk qadın ziyalılarımızdan olan Şəfiqə xanım Əfəndizadənin "Qadın səsi" hekayəsində dediklərinə fikir verək: "Analar müəllimlərin ən həqiqi köməkçiləridir"...

"Bir çocuq ilk tərbiyəsini anası qucağında öyrənəcək, vətən və millət hisslərini, yenə oradan alacaqdır..."(8).

"Qadınlıq aləmi öylə bir aləmdir ki, ailə, millət, vətən, cəmiyyət, mədəniyyət, insaniyyət, şəfəqqət, mərhəmət kibi müqəddəs şeylər həp o aləmdədir, orada nəşvü-nüma bulur.

Əgər qızlarımız aləmi-irfandan məhrum qalmış olurlarsa o millətin halı nasıl olur"... "Əgər bir qadın elmü maarif nurundan binəsib, kəndi vəzifəsindən bixəbər, milliyyətindən biganə olursa aşkardır ki, kəndisinə tapşırılan vəzifələrin heç birini layiqilə ifa edəməz. Özlərinin yetişdirdigi övladlarından milləti üçün zərərdən başqa bir şey görülməz". Bu fikirlər bütün dövrlər için müasir səslənmirmi?!

Toplunun ən əsas mövzusu isə müharibə və onun törətdiyi qanlı faciələrdir. "Xuda qəbul nəkə" (Əhməd Cavad), "Qara günlü Həlimə" (A.Səhhət), "Süleyman əfəndi" (Ə.Haqverdiyev), "Bənövşə çiçəgi" (Asya Nərimanova) hekayələrindəki dəhşətli müharibə səhnələrini, övladlarını, əzizlərini itirmiş ata-anaların faciəsini, çiyinlərində ağır qaçqınlıq yükü daşıyan insanların müsibətini, "bənövşə çiçəyi" kimi boynu bükük yetimlərin iztirabını ürək ağrısız oxumaq mümkün deyil.

"Qardaş köməyi" məcmuəsinin bir önəmli özəlliyi də ondan ibarətdir ki, qacqınlar mövzusu istər bədii yazılarda-şeir və hekayələrdə, istərsə də publisist məqalələrdə əsas yer tutsa da, müəlliflər yalnız bu məsələlərlə kifayətlənmirlər, daha geniş temalara da toxunurlar. Daha doğrusu toxunduqları başqa mövzular da son nəticə etibarilə elə qacqınların taleyi ilə, yəni müsəlman, türk xalqlarının başına gətirilən oyunların tarixi səbəbləri ilə və müasir problemləri ilə bağlıdır.

Bu problemlərin ən vacibi, ən mühümü-dilə olan münasibət və gələcək nəsillərin nə şəkildə təlim-tərbiyə görməsi məsələləridir. Həmin mətləblər Ömər Faiq Nemanzadənin, Ayaz İsaqinin, Salman Mümtazın, Şəfiqə xanım Əfəndizadənin, Hacı İbrahim Qasımovun, Xəlil İbrahimin, Rəşid Yusifzadənin yazılarında müxtəlif baxış-bucaqlarından işıqlandırılır.

"Qardaş köməyi" məcmuəsinin yeni, latın əlifbası ilə nəşrinin tarixi baxımından əhəmiyyətini yazıçı Anar belə ifadə edir:

Bu yazılarda qaldırılan məsələlər bu gün də o vaxtkı kimi gündəmlədir. Bu gün qarşımıza çıxan bir çox problemlərin səbəbini və kökünü də bu məcmuədə tapa bilərik. "Tarixi unudanlar onu bir daha yaşamağa məhkumdurlar"-deyiblər. Tariximizin acı səhifələrini unutmamağımız, onları bir daha yaşamayacağımızın rəhnidir" (9, s. 183).

Ədəbiyyat

1. Vaqif Sultanlı. Ağır yolun yolçusu. Bakı, 1996
2. "Ömər Faiq Nemanzadə. "Bən kiməm?" "Qardaş köməyi" jurnalı. Bakı, "Mühərrirlər nəşriyyatı", 1335 (1917)
3. Məhəmməd Ayaz Əlishaqi, "Bəqai həyat məsələsi" "Qardaş köməyi" jurnalı. Bakı, "Mühərrirlər nəşriyyatı", 1335 (1917)
4. Hüseyn Cavid "Hərb və fəlakət" "Qardaş köməyi" jurnalı. Bakı, "Mühərrirlər nəşriyyatı", 1335 (1917)
5. Salman Məhəmməd Əmin oğlu Turxan "Qul" "Qardaş köməyi" jurnalı. Bakı, "Mühərrirlər nəşriyyatı" 1335 (1917)
6. Salman Məhəmməd Əmin oğlu Turxan "Qul" "Qardaş köməyi" jurnalı. Bakı, "Mühərrirlər nəşriyyatı" 1335 (1917)
7. Salman Məhəmməd Əmin oğlu Turxan "Qul" "Qardaş köməyi" jurnalı. Bakı, "Mühərrirlər nəşriyyatı" 1335 (1917)
8. Şəfiqə Əfəndizadə. "Qadın səsi" "Qardaş köməyi" jurnalı. Bakı, "Mühərrirlər nəşriyyatı" 1335 (1917)
9. Anar "Qardaşlıq borcu, insanlıq vəzifəsi" "Qardaş köməyi" Bakı: Nurlan, 2002

Açar sözlər: "Qardaş köməyi", məcmuəsi I Dünya müharibəsi, türkçülük məsələləri, Azərbaycan ziyalıları, xeyriyyə cəmiyyətləri.

Ключевые слова: журнал "Братская помощь", I Мировая война, вопросы тюркологии, интеллигенция Азербайджана, благотворительные общества

Key volds: "Brother's help" journal, First world war, Turkic Issues? intelligentsia of Azerbaijan, charity organizations

Вопросы митературы в журнале "Гардаш кемейи" ("Братская помощь")

Резюме

Встатье даётся широкий обзор сборника под названием "Гардаш кемейи", выпущенного в Баку в 1917 году в пользу пострадавших на войне турецких граждан. Анализируются статьи входящие в сборник. Подчеркивается актуальность этих статей, тот факт что они актуальны и в наши дни, важное место занимаемое авторами в области литературы, политики и культуры. Они являются благородным воплощением дружеской помощи в трудное время. Подчеркиваются также давние связи, взаимопомощь с братской Турцией. К числу этих авторов относятся Гусейн Джавид, Абдулла Шаиг (Талыбзаде), Омар Фаик Неманзаде, Ахмед Джавад, Мамед Эмин Расулзаде, Аббас Сиххат, Салман Турхан (Мумтаз), Мамед Юсиф Джафаров, Хосров Паша бек Султанов, Фирудин бек Кочарли, Джафар Джаббарлы, Абдуррагим бек Ахвердиеви другие.

Встатье подчеркивается, что истинная цель журнала "Гардаш кемейи" ("Братская помощь") – борьба со злымисилами,а также призыв к оказанию помощи людям, пострадавшим из-завойны.

Questions of metering in the magazine "Gardash Kemeyi" ("Brotherly help")

Resume

The article provide sextensive information about the collection "Brotherly Help" published in Bakuin 1917, dedicated to Turkish soldiers. It is not ed that the articles in the collection are still relevant to day in many respects, heauthor's reputationin thefields of literature, politics and cultureis a clearsymbol of our mutual aid relation swith brother Turkey, and a noble example of friendly help in difficult times.The author swhose writing swere published in the collection are the mo stprominent figures of Azerbaijani literature, science and politics at thebeginning of the 20th century. Hussein Javid, Abdulla Shaiq Talibzade, Omar Faiq Nemanzade, Ahmed Javad, Mahammad Amin Rasulzade, Abbas Sahhat, Salman Turkhan (Mumtaz), Sayed Hussein, Shafiqa Efendizade, Mahammad Said Ordubadi, Taghi Shahbazi (Simurg), Mahammad Yusif Jafarov, Khosrov Pashabey Soltanov, Firudin bey Kocharli, Jafar Jabbarzade, Abdurrahimbey Haqverdiyev and so on.

The real purpose of "BrotherlyHelp" is to fight againstevil forces, tocallfor a brotherly hand to be extended to people affected by thewar.

RƏYÇİ : dos. S.Abbasova

Seyidova Sultan Muxtar qızı[87]

LEKSIK VAHIDLƏRİN EKSPRESİV-ÜSLUBİ CALARLARI

(II məqalə)

Dilin leksik imkanları təkcə leksik söz qrupları ilə yox, digər leksik ***üslubi laylar***ın hesabına zənginləşir. Prof. S.Cəfərov müasir Azərbaycan dilinin üslubca leksikasından danışarkən ədəbi dili yazılı və şifahi olmaq üzrə iki yerə ayırır. Yazılı dil "ədəbi dil leksikası" və ya "kitab dili leksikası" hesab edilir və funksional üsublar--bədii, elmi, istehsalat-texniki, ictimai-publisistik və rəsmi üslub şəklində formalaşır.

Şifahi dil leksikası ümumxalq danışıq-məişət leksikası, saya danışıq leksikası və vulqar leksika şəklində fəaliyyət göstərir. Bu barədə məlum ədəbiyyatda yetərincə məlumat verildiyinə görə (6, 78-87), biz onların üslubi cəhətləri haqqında danışacağıq. Prof. H. Həsənov da, sözləri üslubi hüdudlanma baxımından iki qrupa ayırır: şifahi leksika və kitab leksikası. Birinciləri danışıq-məişət leksikası və loru leksika deyə iki qrupa ayırır. O yazır: "Danışıq üslubunun leksikası canlı nitq prosesi ilə əlaqədar olduğu üçün kitab leksikasından seçilir. Burada nitq daha canlı və ekspressiv olur, sözlər konkret mənalarda işlədilir. Şifahi leksikanın lüğət ehtiyatı yazılı dilə nisbətən genişdir, tərkibi rəngarəngdir" (11, 198).

Dilin leksiki--üslubi laylarına daxil olan birinci söz qrupu ***ümumişlək sözlər***dir. Xalq dilinə yaxın olan yazıçıların əsərlərində, demək olar ki, anlaşılmayan söz və ifadə işlədilmir. Məsələn:

Bahar bu gün lap ac idi. Səhər anasının qənaətlə verdiyi bir parça çörək onu yarımqarın eləmişdi. Yamacda yemlik tapmadı, hava da qızdı. Quzular otdan çəkildi, başlarını yerə tikə-tikə, bir-birinə sığınaraq kölgəlik axtarır, toplaşırdılar. Bahar quzuları yaxın bağçaya, yatağa qaytardı. Özü qaçıb ehsanlıq tuta çıxdı.

Xalq yazıçısı Mir Cəlal Paşayevin "Bir gəncin manifesti" əsərindən götürülən bu parçada (təxminən 40-45 söz) demək olar ki, başa düşülməyən söz və ifadə yoxdur. Vaxtilə böyük şairimiz S. Vurğun el sözünün güvənli, yaşarlı olacağını göstərərək yazırdı:

Bəlkə bir sətrim də, bircə bəndim də
Ellərin yadında qalmayacaqdır...
Lakin o qocanın bayaqkı sözü
Nəsildən-nəslə yaşayacaqdır:
"Muğan Muğan olsa, biri üç eylər
Muğan tufan olsa, üçü heç eylər".

Məişətdə, canlı danışıqda saya danışıq leksikasından (*daxma* - ev mənasında, *xoruzlanmaq* - hədə-qorxu gəlmək) və vulqar leksikadan (*donqudanmaq* - deyinmək, *köpmək* - yatmaq, *görməmiş*, *zındıq*, *boynuyoğun*, *fırıldama* - meydan sulama, *vaqqıldamaq* - eybəcər səs çıxartmaq və s.) istifadə olunur. Əslində vulqar leksika ilə mübarirə aparılmalıdır, lakin bədii əsərlərin, xüsusən də satirik əsərlərin dilində bu söz və ifadələr geniş şəkildə işlənir və müəyyən bədii məqsədə xidmət edir. Məsələn:

Qəmi-möhnət füzun oldu,
Səbəb boynu yoğun oldu!;
Lovğalanıb, a görməmiş,
Sən gəl belə fırıldama;
Vaqqıldama bayquş kimi, idbar dilənçi
(M. Ə. Sabir).

Dialektizmlər hər bir obrazın xarakterik xüsusiyyətini ifadə etməyə, onu fərdiləşdirməyə xidmət edir, lakin belə sözlərin dildə çox işlədilməsinə yol vermək olmaz. Məsələn: C.Məmmədquluzadənin "Danabaş kəndinin əhvalatları" əsərində işlədilən *ayama* (ləqəb), *əngənək* (ləyən), *oyza* (o üzə), *şökə* (çubuq), *tuşramaq* (tapşırmaq) tipli sözlər işlənir ki, bunlar əsərin ümumi ahəngində ağırlıq törətmir. Müəllif bəzən bu sözlərin mənasını izah etməyə çalışır:

Bizlər ayama deyirik. Bilmirəm başa düşdünüz, ya yox? Ayama, yəni ləqəb.

Dilin leksik-üslubi laylarından sayılan***arxaizm*** və ***neolgizm*lər**ədəbi dilin aktiv və passivliyinə görə lüğət tərkibini təşkil edir. Əslində tarixi mövzulu əsərlərdən danışarkən və ya onların mətninə müraciət edərkən arxaizm və tarixizmlərdən yan keçmək olmur. Köhnəlmiş sözlər bütünlükdə sosial-ictimai şəraiti xarakterizə etdiyindən onlar həqiqi mənada işlədilir və ədəbi dil leksikasına daxil olur. Məsələn, vaxtilə *mollalıq* və ya *qazılıq* etmək ədəbi dil leksikasının materialı olmuşdur. Hal-hazırda həmin söz və ifadələr saya danışıq leksikasına keçmiş və "özünü ağılı danışan danışan kimi göstərmək" mənasında üslubi çalar yaratmışdır. Arxaizm kimi işlənən bəzi sözlərin (dəli, kəpənək, yazı, uçmaq, əsən, gümrah və s.) hal-hazırda başqa mənada işlədilməsi və onların müqayisəsi leksik-üslubi çalar yaratmağa xidmət edir. Məsələn:

dəli - arxaizim kimi: igid, qəhrəman; müasir dildə: ağıldankəm; *gümrah* - arxaizim kimi: azğın, yolundan çıxmış; müasir dildə: sağlam,özünü yaxşı hiss edən; *kəpənək* - arxaizim kimi: yapıncı; müasir dildə: həşəratın bir növü və s.

Köhnəlmiş sözlər bəzi qanadlı sözlərin, idiom və ibarələrin tərkibində üslubi-frazeolji vahid kimi fəaliyyət göstərməkdədir. Məsələn:

Aydan arı, sudan duru; Dini dinara satan dindən də olar, dinardan da; həmişə şaban, bir dəfə ramazan

---

[87] BDU, dosent .filologiya üzrə fəlsəfə doktoru. sultan@seyidli.com

Bir sıra tarixizmlər onomastik vahid-toponim kimi işlənir və tarixi gerçəkliyi əks etdirir; məs: *Quba meydanı, beşmərtəbə, yeddimərtəbə, İçərişəhər, Qoşaqala qapısı, Hüseynbala açıqlığı* və s.

Neologizmlər müasir dünyanın inkişaf tempi ilə bağlıdır; belə ki, bunların bir qismi dilin daxili potensialı və qohum dillərin təsiri ilə, bir qismi isə qloballaşan dünyanın tələbi ilə dilə daxil olur. Prof. H. Həsənovun fikirincə, ümumi neologizmləri *fərdi-üslubi nologizmlər*dən fərqləndirmək lazımdır. Məsələn, R. Rzanın yaratdığı bir çox sözlər onun poeziyaya gətirdiyi fərdi-üslubi yenilik kimi qiymətləndirilə bilər; məs.: özümlük, *pişiklik, ölümsüzlük* kimi sözlər fərdi-üslubi yenilik kimi ümumişlək sözlər sırasına keçmişdir (10, 285). Bununla belə, şairin yaratdığı bir sıra sözləri (bəziçilər, gündaş, əsirdaş, yanışmaq, tanışmaq, pasportlaşmaq) uğurlu hesab etmək olmaz. Yeri gəlmişkən deyək ki, "yanışmaq və tanışmaq" sözləri dialekt səciyyəlidir və M. P. Vaqif poeziyasında üslubi-poetik gözəllik yaradır:

Xeyli vaxtdır ayrılmışıq yar ilən,
Gördük, amma, tanışmadıq, ayrıldıq....
...Eşq oduna yanışmadıq, ayrıldıq.

Leksikanin üslubi imkanlarından danışarkən ***terminoloji*** leksikadan da söz açılır. Terminoloji leksika bədii ədəbiyyatın üslubiyyatına xidmət edir, onların poeziya, nəsr və dramaturgiyada işlədilməsi obrazın, lirik qəhrəmanın olduğu şəraiti, real həyatı oxucunun gözü qarşısında canlandırır, bədii əsərlərin mövzusuna uyğun olaraq iş prosesi, əmək alətləri və ondan istifadə obrazlılıq və emosionallığın artırılmasına xidmət edir. Məsələn:

Beton tökün!...
Sement verin! Sement verin!
Baltaları ehtiyatla...
Yola getməz dəmirlə daş...
Tez ol yoldaş!
Çoxalt toku! (S. Vurğun).

Leksikanın üslubi imkanlarının bir qismi də***onomastik*** vahidlərlə reallaşır. Elmi ədəbiyatda onomasiologiya xüsusi bir sahə kimi öyrənilir və onun iki əsas tədqiqat obyekti müəyyənləşdirilir: 1) antroponimika; 2) toponomika. Biincilərə xüsusi şəxs adları ("ad" sözünün geniş mənasında), ikincilərə isə yer adları daxil edilir (11, 98-102). "Azərbaycan onomastikası" adlı iri həcmli izahlı lüğətin yaradılması da onomastik vahidlərin linqvopoetik çəkisindən xəbər verir. Kitabın "Bir neçə söz" adlı girişində deyilir: "Poetik əsərlərdə onimlərin rəngarəng məqsədlərlə özünə geniş yer tutması ənənəsi bütün klassik ədəbiyyatımızda davam edib gəlmişdir ki, bu da onomastika sahəsində empirik biliklərin get-gedə çoxalmasına səbəb olmuşdur" (4, 3). Akad. A. Qurbanov üslubi onomastika haqqında yazır: "Onomastik leksika üslubi onomastikanın əsas materialını təşkil edir. Şifahi və yazılı ədəbiyyatda onomastik vahidlərlər çox müxtəlif üslubi məqamlarda işlənir. Hələ lap qədim dövrlərdə yaranmış nağıl, dastan, bayatı, layla, oxşama və xalq ədəbiyyatının başqa nümunələrində şəxs, yer, planet adları və s. onomastik vahidlər ya real, ya da əfsanəvi planda işlənmişdir" (12, 15). Bədii ədəbiyyatda onomastik vahidlərin işlədilməsi sənətkarın özü də daxil olmaqla, obrazların milli mahiyyəti, daxili-mənəvi aləmi, ictimai mənsubiyyəti, yaşadığı yer haqqında məlumat verməklə bərabər, yazıçı ideyasının çatdırılmasına da xidmət edir. Burada milli koloritin gücləndirilməsi, obrazların daha canlı yaradılması və satirik hədəflərin güclü ifşasına geniş imkan yaranır. Məsələn, C.Məmmədquluzadənin "Danabaş kəndinin əhvalatları" povestinin adından başlayaraq, onomastik vahidlər müəyyən məqsədə xidmət edir: *Danabaş kəndi, lağlağı Sadıq, qəzetçi Xəlil, girdik Həsən, dəvə Heydər, yalançı Səbzəli, eşşək Muxtar, doşan Qasım*. Bu ad və ləqəblər əsərdəki komik vəziyyətləri oxucunun gözü qarşısında canlandırır. Yazıçının gücü orasındadır ki, adicə *Xudayar bəy* və *Məhəmmədhəsən əmi* ifadələri ilə bir tərəfdə qudurğan, zalım və murdar sifətli katda obrazını, o biri tərəfdə isə yeganə arzusu (Kərbəla ziyarəti) ürəyində qalan yazıq bir kəndli surətini yaradır.

Onomastik vahidlər satirik ədəbiyyatda üslubi çalar yaratmağa da xidmət edir. Məsələn:

Durma, götür qaç başını, Mir Haşım!;
Doğurdan da, Məmdəli ,qeyrət halal olsun sənə;
Ağladıqca kişi qeyrətsiz olur,
Necə ki ağladı İran, oldu;
Durma, yıxıl yat hələ, Fərhat kişi! (M. Ə. Sabir).

Təmsillərdə bitki və heyvan adlarının xüsusiləşdirilməsi funksional-poetik xüsusiyyət yaradır. Məsələn:

Əlbir olub bir Ayı bir Şir ilə,
Ovladılar dovşanı tədbir ilə (A. Səhhət);
Bir Tısbağa, bir Kəsəyən, bir Qarğa,
Əlbir olub yığışdılar bir bağa (Q. Zakir).

Sabit söz birləşmələri şəklində fəaliyyət göstərən ***frazeoloji birləşmələr***xalqın məcazi təfəkkürünün bariz göstəricisidir. Onlar əsrlərin sınağından çıxaraq, öz leksik tərkibini, eləcə də sözlər arasındakı əlaqə və münasibətləri donuq şəkildə qoruyub saxlayır. İdiomlar, ibarələr, hikmətli sözlər, atalar sözləri, zərbi-məsəllər, tapmacalar və bədii ədəbiyyat dilində işlədilən xalq deyimləri, qanadlı sözlər emosionallıq yaradan ən təsirli vasitələrdən hesab olunur. Frazeoloji vahidlər adi danışığa elə bir ton, çalar qatır ki, oxucu sanki möcüzələr aləminə düşür, gözlənilməzliklərlə qarşılaşır. Natiq öz nitqini məcazi mənalı söz və ifadələr üzərində qurarkən fikir daha canlı və rəngarəng olur, danışıq daha çox auditoriya toplayır. Prof. N. Abdullayev, S. Əliyevanın "Azərbaycanda məhkəmə sənədlərinin dili" adlı dissertasiyasına istinadən belə bir maraqlı nümunə təqdim edir: "Bu birləşmələr nə qədər yerli-yerində işlədilsə, nitq o qədər zəngin, əlvan və rəngarəng olar. "Ulu

öndərimiz H. Əliyevin nitqi bu baxımdan nümunəvi idi. Ümumiyyətlə, H. Əliyevin nitqlərində, çıxışlarında, məruzələrində çox az cümlə tapmaq olar ki, orada frazeoloji vahidlər işlənməmiş olsun" (2, 182).

Frazeoloji birləşmələri, adətən, sərbəst söz birləşmələri ilə müqayisə edirlər. Söz birləşmələri haqqında türkologiyada geniş şöhrət qazanmış monumental tədqiqat əsərinin müəllifi prof. Y. Seyidov yazır: "Sabit birləşmələr sərbəst birləşmələrdən fərqlənir. Onlar belə sərbəstliyə malik olmur, keçici xarakter daşımır, dilin tarixi inkişafı prosesində yaranır və sabitləşir. Buna görə də dildə bunlardan hazır şəkildə istifadə olunur. Belə birləşmələri əmələ gətirən sözlər öz əvvəlki mənalarından az və ya çox dərəcədə uzaqlaşır, onların mənaları birləşmənin ümumi mənası fonunda itir, hissedilməz olur və beləliklə, bu sözlər birləşmənin leksik-semantik ünsürlərinə çevrilmiş olur" (15, 155).

Frazeoloji birləşmələrdən istifadə xalqın obrazlı təfəkkürü ilə fəlsəfi fikrin sintezidir desək, yanılmarıq. Bunlar mətn daxilində, monoloq və dialoqların tərkibində idiom, ibarə, hikmətli söz, atalar sözü və zərbi-məsəl şəklində işlədilir. Hər hansı şəxs və ya bədii əsərin obrazı bu söz və ifadələrdən öz məqsədi üçün, fikrini möhkəmlətmək üçün istifadə edir. Məlumdur ki, bunların, demək olar ki, hamısı sərbəst söz birləşmələrinə paralel olaraq yaranmışdır. Məsələn, *ürəyi qopmaq, ələ gətirmək, göz yummaq, gözdə-qulaqda olmaq, bel bağlamaq, can atmaq, əlbəyaxa olmaq, əl-ayaq etmək, dil vermək, dil açmaq, əl açmaq, söz almaq*(idiomlar); *baş üstə, xoş gördük, and olsun Allaha, sən hara, bura hara, canln sağ olsun* (ibarələr); *Bəlkə də qaytardılar, Soyuq məzara da zinətdir insan, Söz incidir, Könüldən könülə yollar görünür* (hikmətli sözlər); *Hesab var dinar-dinar, bəxşiş var xalvar-xalvar, Uşağa buyur, dalınca yüyür, Nəəkərsən, onu da biçərsən, Sonraka peşmançılıq fayda verməz* (atalar sözü); *Ala itdən məşhurdur, Dava yorğan davasıdır, karın könlündəki, Gəldi qaşın qayırsın, vurdu gözün çıxartdı* (zərbi-məsəl).

Bədii əsərlər idiomlar və digər frazeoloji birləşmələrlə zəngindir. Onların işlədilməsi müəyyən bədii məqsədlə bağlıdır. Məsələn, S. Vurğunun "Vaqif" pyesində Vaqifin Qacarla qarşılaşdığı səhnədə frazeoloji birləşmələrin müxtəlif növlərindən istifadə olunur. Məsələn:

Əyilməz vicdanın böyük heykəli...;
Soyuq məzara da zinətdir insan...;
Dünyada qalacaq yalnız yaradan!..;
Günəşi örtsə də qara buludlar
Yenə Günəş adlı bir qüdrəti var;
Ağılsız köpəklər ulduza hürər;
Qatır cinsisiniz, doğub törəməz;
Qızılı udsa da qara torpaqlar,
Yenə qiymətini özündə saxlar...;
Buyruq sizinkidir, adil hökmdar,
Sizdə fəzilət də, ədalət də var.

Bu qanadlı ifadələr bir şairin qələmindən çıxsa da, bütövlükdə xalq təfəkkürünə söykənir, "söz döyüşü" zamanı müsbət qəhrəmanın idealını təsdiq edir. Sonuncu nümunə prof. S. Cəfərov tərəfindən predikativ (qeyri-idiomatik) ibarə hesab edilir: "Vaqif" əsərində vəzirin tez-tez təkrar etdiyi bu ibarə onun yaltaqlığının ən yüksək dərəcəsini ifadə edir" (6, 100).

İstər canlı danışıqda, istərsə də bədii ədəbiyyatda frazeoloji vahidlərin omonimliyi, sinonimliyi və antonimliyi diqqəti çəkir, ya eyni leksik tərkibə malik olan sözlər bir deyil, daha çox frazeoloji vahidi meydana çıxarır, ya eyni və ya yaxın anlayış müxtəlif frazeoloji vahidlərlə ifadə olunur, ya da frazeoloji vahidlər leksik mənası etibarilə bir-birinə əks olan söz birləşmələri kimi bir-biri ilə qarşılaşdırırlır. Akad. A.Qurbanov üslubi frazeologiyanı belə xarakterizə edir: "Üslubi frazeologiyanın əsasını sinonimlik təşkil edir. İstər canlı danışıqda, istərsə də bədii ədəbiyyatda fikri daha dəqiq, eyni zamanda müxtəlif emosional çalarlarda təzahür etdirmək üçün eyni bir anlayışın müxtəlif frazeoloji birləşmələrlə ifadəsi baş verir" (12, 17). Frazeoloji vahidlərin bədii ədəbiyyatda səmərəli istifadə edilməsi şairin fərdi üslubunu müəyyənləşdirir, fikrin ifadə tərzini zənginləşdirir. Məsələn:

1. *İnsana <u>can verən</u>, ruh verən sənsən;*
Ruhuma <u>can verir</u> ölüm havası;
Lakin sevinmədi bizim babalar,
Qəfəsdə <u>can verdi</u> ellər, obalar;
2. ...<u>Haray çəkib</u>, <u>qıy qoparıb</u> çöllər dolaşır;
<u>Car çəkir</u> çarxların çaxnaşıq səsi...
<u>Hay salır,</u> qışqırır nəhəng motorlar (S.Vurğun).

Nümunələrə fikir versək, görərik ki, 1-ci tip nümunələrdə bir-biri omonim, 2-ci tip nümunələrdə isə sinonim frazeoloji birləşmələr işlənmişdir. Birinci və ikinci "can vermək" ifadəsi həyat vermək, can vermək mənalarını bildirdiyi halda , üçüncü "can vermək" ölmək, vəfat etmək mənalarında işlənir. "Haray çəkmək", "qıy qoparmaq", "car çəkmək", "haray salmaq" frazeologizmləri əslində mətndə onlarla yanaşı işlənən "qışqırmaq" sözünün ekvivalentidir. Sənətkarın fərdi üslubunu səciyyələndirən bu hal onun, demək olar ki, bütün yaradıcılığı üçün səciyyəvi hadisədir: şair bir misrada hansı bir fikri emosional tərzdə, məcazi şəkildə deyirsə, o biri misrada və ya misralarda onu izah edir, açıqlayır. Məsələn:

Uzanmış şəhərin polad əlləri,
Qatarlar, avtolar gəlir Muğana;
Tənhalıq dərdini çöllər unudur,

Dənizə bənzəyir yaşıl zəmilər (S.Vurğun).

Şairin sadə sözlərlə, məcazi ifadələrlə necə poetik fiqurlar yaratdığı göz qabağındadır: şəhərin polad əllərinin uzanması dedikdə şair, texnikanın Muğana gətirilməsinə, yaşıl zəmilərin dənizə oxşamasını göstərəndə tənha çöllərin bar-bərəkət mənbəyinə çevrilməsinə işarə edir. Bu misralarda məcazın qüdrəti ilə yaranan epitet, metafor, təşbehlər əslində bədii üslubun leksik səviyyədə obrazlılığının bariz göstəriciləridir.

Frazeologizmlərin bir qismi də danışıqda birbaşa deyilməsi mümkün olmayan söz və ifadələrin ***evfemistik*** şəkildə ifadəsinə xidmət göstərir. Məsələn, "öldü" əvəzinə *rəhmətə getdi, dünyasını dəyişdi, ömrünü sənə//sizə bağışladı* kimi ifadələr işlədilir. Məsələn:

- *Bu saat səni düşünürdüm,-dedi, - nə yaxşı gəldin. Yoxsa bu dünyadan ürəyi nisgilli gedəcəkdim...* (M. İbrahimov).

Evfemizmlər vulqarizmlərin tam əksinə olan ifadələrdir. Vulqarizmlər ədəbi dil leksikasına daxil olmayan, kobudluq və nəzakətsizlik ifadə edən sözlər olduğu halda, evfemizmlər hər hansı qaba, kobud bir sözün və ya deyilməsi caiz görülməyən ifadənin yumşaq şəkildə işlədilməsidir. Leksikanın üslubi imkanlarından danışan prof. H. Balıyev evfemizmlərin nitqdə işlədilməsi ilə bağlı yazır: "Nitqdə geniş bir şəkildə istifadə edilən təbii evfemizmlər nitq mədəniyyəti nöqteyi-nəzərindən olduqca əhəmiyyətlidir. Belə evfemizmlərdən adi danışıq dilində də geniş bir dairədə istifadə edilir. Məsələn, qıymadığın, hörmət etdiyin bir adama "*ölməsəydi"*əvəzinə, "*başına iş gəlməsəydi*" ifadəsinin işlədilməsi belə evfemizmlərə misal ola bilər" (15, 289-290). İ. Şıxlının "Dəli Kür" əsərində Şamxal qaçırdığı qızı incitməmək üçün ona deyir:

-*Özün bilən yaxşıdır. Tərtəmizsən. Əlim-ayağım sənə dəyməyib....;*

Salatın isə qaçırılan qızın-Güləsərin onsuz da taleyindən razı olduğuna işarə edərək zarafatla ona: *Pişiyin könlü samanlıqdaydı, it də vurdu samanlığa saldı...* - deyir.

Göründüyü kimi, birinci ifadə açıqlanması caiz olmayan fikri ifadə edir, ikinci zərbi-məsəl isə danışığa şirinlik qatır, həm zarafat, həm də ərk çaları yaradır.

Beləliklə, leksikanın üslubi imkanları sözün mənası, potensial qüvvəsi və üslubi-emosional gücü qədər zəngindir. Bu çox təbii hadisədir, çünki üslubiyyat, üslubi rənglər dilin bir fikri müxtəlif vasitələrlə , o cümlədən sinonimlərlə ifadə etməsi ilə bağlıdır. Vaxtilə prof. Ə. Dəmirçizadə üslubiyyatı həm də sinonimlərin məqsədəuyğunluq nöqteyi-nəzərindən seçilməsi qanun-qaydaları sistemindən bəhs edən elm adlandırırdı: "Qeyd etmək lazımdır ki, s i n o n i m termini burada geniş mənada işlənir, yəni eyni məfhumu, məzmunu, fikri ifadə etmək üçün işlədilə bilən müxtəlif söz, ifadə, cümlə və hətta şəkilçi də s i n o n i m sayılır" (7, 75).

Lüğət tərkibinin hər cür vahidi, yəni leksik-semantik söz qrupları, dilin leksik-üslubi layları, aktiv və passivliyinə görə söz qrupları, mənşə etibarilə söz qrupları, frazeoloji vahidlər təkcə leksik vahid kimi işlənmir, həm də üslubi rəng və məqsədyönümlülük ifadə edir. Çünki dilin hər hansı bir yarusundan, dil vahidlərindən istifadə müəyyən kommunikativ məqsədə, fikrin istər yazılı, istərsə də şifahi ifadəsinə xidmət göstərir. Yaddan çıxartmaq olmaz ki, söz üslubi rəngi məhz ünsiyyət prosesində qazanır, bu və ya digər səbəblərdən asılı olaraq, ünsiyyətdə iştirak edənlər öz hiss-həyəcanlarını ifadə edir, başqa fikirlərə münasibət bildirir, həyatda gördüklərini və ya eşitdiklərini ya təqlid, ya da tənqid edirlər. Hər bir söz, o sözün əsas mənası, əlavə mənaları, məna çalarları, sözün emosional-ekspressiv rəngi məhz o sözdən istifadə edənlər tərəfindən, bir növ, "kəşf edilir", yaradılır. Sözün üslubi imkanları bütün funksional üslublarda, xüsusilə bədii üslubda özünü göstərə bilər; bu imkanların bir qismi bu və ya digər üslublarda möhkəmlənib qala bilər. Sözün emosional-ekspressiv gücü özünü daha çox danışıq-məişət üslubunda göstərir, nitqin sərbəstliyi də elə bunu təmin edir.

ƏDƏBİYYAT

1. Azərbaycan bədii dilinin üslubiyyatı (oçerklər). Bakı: Elm, 1970, 356 s.
2. Abdullayev N. Nitq mədəniyyətinin əsasları. Bakı: Elm və təhsil, 2013, 288 s.
3. Abdullayev A. Orta məktəbdə Azərbaycan dilinin tədrisi metodikası. Bakı: Maarif, 1978, 278 s.
4. Adilov M., Paşayev A. Azərbaycan onomastikası. (izahlı terminoloji lüğət). Bakı: Nurlan, 2005, 488 s.
5. Balıyev H. B., Balıyev A. H. Azərbaycan dilinin tədrisi metodikası (dərslik). Bakı: "Qismət", 2014, 384 s.
6. Cəfərov S. Müasir Azərbaycan dili. II hissə (leksika). Bakı: "Şərq-Qərb", 2007, 192 s.
7. Dəmirçizadə Ə. Azərbaycan dilinin üslubiyyatı. Bakı: Azərtədrisnəşr, 1962, 269 s.
8. Dəmirçizadə Ə. Azərbaycan ədəbi dilinin tarixi. I hissə. Bakı: Maarif, 1979, 267 s.
9. Əliyev K. Y. Nitq mədəniyyəti və üslubiyyatın əsasları. Bakı: Bakı Universiteti nəşriyyatı, 1998, 240 s.
10. Həsənov H. Nitq mədəniyyəti və üslubiyyatın əsasları. Bakı: Bakı Universiteti nəşriyyatı, 2003, 399 s.
11. Həsənov H. Müasir Azərbaycan dilinin leksikası. Bakı: Maarif, 1987, 308 s.
12. Qurbanov A. Dil və üslub. Bakı: APU nəşri, 1992, 45 s.
13. Голуб И. Б. Русский язык и культура речи. М.: «Логос», 2010, 432 с.
14. Seyidova S. Nitqin dəqiq ifadəsi üçün söz seçmək bacarığının formalaşdırılması // Azərbaycan dili və ədəbiyyatının tədrisi, Bakı: 2010, № 2, s. 67-70
15. Seyidov Y. Əsərləri. 15 cildə. I cild. Bakı: "Bakı Universiteti" nəşriyyatı, 2006, 626 s.
16. В. В. Виноградов. Проблемы русской стилистики. М.: Высшая школа, 1981, 320 с.
17. Гвоздев А. Н. Очерки по стилистике русского языка. М.: Изд. Академии пед. наук РСФСР, 1952, 334 с.

Açar sözlər: *çöxmənalı sözlər, omonimlər, sinonimlər, sinonim-cərgə, sinonim-dubletlər, antonimlər, bədii təzad, oksimoron*

Ключевые слова: *многозначные слова, омонимы, синонимы, синонимический ряд, синонимический дублет, антонимы, художественный контраст, оксюморон*

Keyswords:*colloquial words, homonyms, synonyms, synonymous series, synonymous doublet, antonyms, artistic contrast, oxymoron*

Зюмрюд Рагимовна Мамедова[88]

ФРАЗЕОЛОГИЧЕСКАЯ ВЕРБАЛИЗАЦИЯ КОНЦЕПТА «АД» В РУССКОМ ЯЗЫКОВОМ СОЗНАНИИ

Неоспоримым является тот факт, что восприятие мира тем или иным народом не может не оставить отпечаток и не отразиться на его культуре и языке. В частности, мысли о загробной жизни всегда интересовали людей и поэтому появились бесчисленные описания, легенды, мифы, пословицы, поговорки, фразеологизмы, которые отражали их представления о том, куда переселяется душа после смерти, и что такое ад и рай.

«Культурная роль фразеологии любого языка состоит в том, что она широко использует и обыгрывает культурно значимые для своих носителей материальные и духовные реалии и ценности» [8, с. 138 Рябцева, Н. К. Язык и естественный интеллект / Н.К.Рябцева. – М.: Academia, 2005. – 640 с.].

В данной статье будут рассмотрены фразеологизмы, репрезентирующие представления русского народа об аде. В толковом словаре живого великорусского языка В. И. Даля лексема «ад» раскрывается как «бездна, преисподняя, тьма кромешная, печь огненная; а также в значении хайло, пасть, зев, горло, глотка» [3;7]. В толковом словаре Ожегова и Шведовой - 1. «В религиозных представлениях: место, где души грешников после смерти предаются вечным мукам: Муки ада. Благими намерениями вымощена дорога в ад (о том, что хорошие намерения часто забываются, уступая место недобрым делам; книжн.). 2. перен. Невыносимые условия, тяжелое состояние; хаос и ужас, царящие где-н. Душевный ад» [5; 10].

Рассмотрим фразеологизмы с номинацией «ад», которые мы получили исследуя материалы русских фразеологических словарей:

1. Фразеологизм **ад в душе** (в груди) (ад на душе у кого, чьей) является устаревшим экспрессивным. Передает смятенное состоянии кого-либо. [12; 7]. Данный фразеологизм широко используется для передачи внутреннего беспокойного состояния человека, например: *«Если при мне рассказывали о несправедливостях, гонениях, жестокостях сильных над слабыми, о злоупотреблении властей, то ад бушевал у меня в душе (В. Г. Белинский. Дмитрий Калинин). —Дядюшка! — сказал Александр, — пощадите меня: теперь ад в моей душе… - «Пришел ночью, — подумал он, — в душе ад… непременно опять разобьет что-нибудь». (Гончаров И. А., Обыкновенная история) — Ад — в душе у меня, и я не русалка, а — дриада… (Горький Максим, Жизнь Клима Самгина). «Холодная, ледяная смерть по всем жилам — и весь ад в душе!.. -В душе моей весь ад… все мучения погибающего грешника!» (Загоскин М. Н., Рославлев, или Русские в 1812 году).*

2. Кромешный ад. Прилагательное в составе фразеологизма ад кромешный имеет некоторые варианты происхождения. По одной из версий кромешный образовано от слова крома "граница, край". По давним представлениям, солнце светило до определенного предела земного шара, после чего начинался иной мир, погруженный во мрак. Поэтому в последующем было образовано прилагательное со значением "тягостный, отчаянный", а ад кромешный - "место мучений". Далее данное сочетание стало ассоциироваться с беспорядком, шумом при ссорах и спорах.

По этимологическому словаря Крылова, «кромешный» образовано в старославянском как калька с греческого eksoteros. Исходное значение — «находящийся вне, за пределами чего-либо». Переход значения на «мучительный, невыносимый; полный, окончательный» связан с тем, что кромешниками называли опричников Ивана Грозного, поскольку они были приписаны к особому уделу, образованному царем». Тем самым фразеологизм «ад кромешный» приобретает значение: 1. экспрес. Невыносимо тяжёлая жизнь, например: *-Живи, скажет, подлая, одна в кромешном аду! (Салтыков-Щедрин М. Е., Пошехонская старина) - Но бывают в «темном царстве» и такие случаи, что неразумные бедняки женятся на бедных девушках… И тут-то начинается ад кромешный!..(Добролюбов Н. А., Тёмное царство)*

2. Беспорядок, суматоха где-либо; полная неразбериха в чём-либо, например: *-«После отъезда переселенцев в горбатовском дворе стоял настоящий кромешный ад». (Мамин-Сибиряк Д. Н., Три конца). «В пичугинской семье воцарился кромешный ад.. Жизнь проходила в каком-то похмелье».» (Мамин-Сибиряк. Наследник). «Музыка кафешантанов, колокольный звон, пение русских и греческих монахов, служащих обедни и вечерни; звонки́ конок, крики разносчиков, сущий ад кромешный». (Г. И. Успенский. Из цикла Очерки переходного времени)*

3. Происхождение выражения **Дантов ад** связано с поэмой Данте Алигьери «Божественная комедия», где автор описывает загробный мир в трёх его частях: рай, чистилище и ад. Ад, по мнению Данте, состоит из девяти кругов. Данте детально описывает каждый круг ада, с его грехами и страшными наказаниями. Поэтому фразеологизм «Дантов ад» употребляется в значении устрашающего места, например: «***И сталкиваются нос к носу в три часа пополуночи в этом Дантовом аду под плавящимся от зноя городом*** (*Р. Брэдбери. Выпить сразу: против безумия толп). «Представьте себе глубокую осень, тёмные улицы, грязь по колена, отсутствие средств передвижения, ей-богу, Дантов ад красивее, наряднее и элегантнее» (Аркадий Аверченко, Родители первого сорта).*

---

[88] Очный докторант Бакинского государственного университета

Фразеологизм Дантов ад имеет два основных значения: 1. Место, обстановка, где человек испытывает муки, страдания» [7; 12], например: «*В кино, чтобы победить, надо пройти через девять кругов Дантова ада... Представьте, что я ваш Вергилий и поведу по этим кругам сравнительно безопасно. И стены Иерихона падут» (Ю. Бондарев. Игра).*

2. Место, обстановка, где царит беспорядок, хаос, например: *«Это уже не лесистый берег небольшой реки, заросшей камышом и водорослями, а изъязвлённый осколками и разрывами передний край, разделённый на пояса, как Дантов ад, лысый, перекопанный, обезличенный и обвеваемый нездешним ветром (Э. Казакевич. Звезда).*

4. С этим же фразеологизмом связан еще одно выражение **пройти все круги ада**, значение данного фразеологизма раскрывается как «испытать неимоверные трудности, выдержать тяжелые испытания»: «***В кино, чтобы победить, надо пройти через девять кругов Дантова ада...»*** *(Ю. Бондарев. Игра).* «*Недавно по воле случая мне попались записки человека сложной судьбы, прошедшего все круги ада, выпавшие на долю его поколения» (И. Герасимов. Чёрное слово). «Все круги ада прошёл Муса Джалиль в заточении и ни разу не поступился человеческим достоинством, ни на одно мгновение не впал в отчаяние»*
(С. Кошечкин. Светом мир богат).

5. Фразеологизм **муки ада** имеет значение тяжкие мучения, страдания, например,: **Все** *муки ада я терплю, но не гневлю судьбу упреком, а всё твержу: Люблю, люблю (Фет. Ненастный вечер, звуки бала...) Тяжкие мучения, страдания. И мне в награду Муки ада Опять ниспосланы судьбой (Я. Полонский. Твой чудный профиль в полумраке...)* [7; 381]

6. В этимологическом словаре А. И. Федоров раскрывает два значения фразеологизма исчадие ада: 1. Устаревшее. Употребляется по отношению к страшному, жестокому человеку, например: *«вслед за нею, лохмат и страшен, словно исчадие ада вырвался откуда-то совсем неожиданно гимназический «батюшка»» (Д. Фурманов. В восемнадцатом году)*. 2. Второе значение является экспрессивным. Так говорят о злых, непокорных, взбалмошных детях, подростках. *Пример употребления: «И хоть невелик был Тимка, но никто, кажется, не жалел это «исчадие ада» и вовсе не думал об «аде», его породившем. Злостное явилось миру дитя, и судьба ему, кажется, уготована была жестокая (З. Ибрагимова. Как его полюбить?).* «*Лёлька — это исчадие ада, совершенно необъяснимое ни с каких позиций существо, не поддающееся ни малейшему определению, вне всякой логики и морали» (И. Лобановская. Бабушка)* «***А младшая, любимица матери, Аля — истинное исчадие ада: влас****тная, подозрительная, скупая; она кричит на отца, на сестру. В. С. Гроссман, «Жизнь и судьба»»* **[7; 279].**

7. Значение фразеологизм **ад разорить** сводится к «сильно рассердившись, начать буйствовать. Выйти из себя, страшно рассердившись, наделать много шуму, поднять всех на ноги. Фразеологизм употребляется в смоленском говоре (СРНГ, 205). Лексема «разорить» в этом контексте употреблена в значении «опустошить, разрушить» [5; 1520].

8. Также встречается словоформа «ад» в таких фразах, как: **добро пожаловать в ад** (о первом сентябре)**, маленький ад** (шутливо о зачёте)**, гореть в аду** (отвечать у доски), которые являются частью школьного жаргона.

9. Кроме того, сочетания с лексемой «ад» употребляются в говорах, в шутливой форме: хоть **в ад, да в самой зад** (подальше от всего плохого), ***бегущий*** **из ада**. (демобилизированный солдат).

10. В нескольких фразеологизмах словоформа ***«ад»*** используется в значении «пасть, рот». Это связано с тем, что лексема «пасть» является производной от «падать». Отсюда образованы также и лексемы напáсть, прóпасть (Образовано из про- и падать ь, от праслав. *padati) [6]) Пропасть использовалась в значении загробного мира. Чем ещё раз объясняется использование лексемы ад в значении рта, глотки. В толковом словаре Даля, значение «пасть» указано как «падать». И раскрывая все значения данной словоформы он даёт значение «Пасть животного - падь, провал, пропасть; || зев животного, самая глубина рта, расширенье за костяным нёбом, перед глоткой [3; 2242]. Следовательно, падать-пасть/пропасть > загробный мир (ад). В данном значении «ад» употреблен во фразеологизмах **ад бездённый** (о том, кто слишком много ест), **ад ненасытный** (**несытый**) (об алчном человеке), **драть/рвать ад** (очень громко кричать, орать), **открыть ад** (громко кричать), **адом брать/взять** (криком отстаивать свои интересы, добиваться чего-либо) **[Словарь многих выражений].**

Проанализировав фразеологизмы русского языка с лексемой «ад», можно сделать вывод, что

1. Некоторые фразеологизмы обозначают:

a) нравственные страдания, душевные муки, испытываемые кем-либо (*ад в душе*);

b) обстановку или же условия, пребывание в которых является мучительным и невыносимым (*ад кромешный, Дантов ад, муки ада, добро пожаловать в ад, маленький ад, гореть в аду, бегущий из ада, бегущий из ада*);

c) беспорядок, хаос, суматоха, крик (*ад кромешный, Дантов ад, ад разорить открыть ад, адом брать/взять*);

d) преодоление трудностей (*пройти круги ада, муки ада, маленький ад, гореть в аду*);

e) характеристика человека, ребенка (*исчадие ада, ад ненасытный/несытый*)

f) пространственная семантика (*хоть в ад, да в самой зад)*

Наблюдается употребление лексемы «ад»:

a) в школьном сленге (*добро пожаловать в ад, маленький ад, гореть в аду*);

b) в народных говорах (*хоть в ад, да в самой зад, бегущий из ада*)

c) в значении рот (*ад ненасытный/несытый, драть/рвать ад, открыть ад, адом брать/взять*).

СПИСОК ИСПОЛЬЗОВАННОЙ ЛИТЕРАТУРЫ

1. Рябцева, Н. К. Язык и естественный интеллект / Н.К.Рябцева. – М.: Academia, 2005. – 640 с.
2. **словари:**
3. А.Н. Баранов, Д.О. Добровольский Фразеологический объяснительный словарь русского языка. М.: ЭКСМО, 2009.- 704 с.
   А. К. Бирих, В.М. Мокиенко, Л.И. Степанова Русская фразеология, историко-этимологический словарь. М.: Астрель, Аст, Люкс, 2005.- 927 с.
   Даль В.И. Толковый словарь живого великорусского языка. В 6 т. М., 1980. 2734 с.
   Кнапов Г.А. Этимологический словарь русского языка. М.: ООО «Полиграфресурсы», 2005. - 432 с.
6. Ожегов С. И. Толковый словарь русского языка М., 1964. - 1836 с.
7. Фасмер М. Этимологический словарь русского языка в 4-х т. М.: Прогресс— АСТ, 1987. - 2944 с.
8. **Фёдоров А. И. Фразеологический словарь русского литературного языка. — М.: Астрель, АСТ, 2008.-880 с.**
9. интернет-ресурс:
10. https://kartaslov.ru/?ysclid=l87kt03ofr37527800
11. **http://rus-yaz.niv.ru/**

Ключевые слова: концепт «Ад», концептуальный, вербализация, этимология, фразеологизм, русское языковое сознание

Key words: concept “Hell”, conceptual, verbalization, etymology phraseological unit, Russian language consciousness

Açar sözlər: “Cəhənnəm” konsepti, konseptual, verbalizasiya, etimologiya, frazeologizm, rus dil şüuru

Phraseological verbalization of the concept "hell" in the russian language consciousness

Summary

The article deals with the idioms the component of which are concept “Hell” in the Russian language. These idioms taken from the phraseological dictionaries are systematized and analysed in the historical aspect. It is emphasized that some of such idioms are polysemantic and some of them lost their etymological and semantic connection with their original variant.

Rus dil şüurunda "cəhənnəm" konseptinin frazeoloji verbalizasiyası

Xülasə

Məqalədə rus dilinin frazeoloji luğətlərindən toplanmış komponentlərdə “Cəhənnəm” adı olan frazeoloji vahidlər sistemləşdirilir və tarixi aspektdə təhlil olunur. Bəzi frazeolgizmlərin çoxmənalılığı, ilkin variantla etimoloji və semantik əlaqəsinin kəsilməsi qeyd olunur; frazeologizmin semantikasında dəyişikliklər izlənilir.

RƏYÇİ: dos. S Abbasova

Məhərrəmova Cəmilə Oruc qızı[89]

"XƏMSƏ"DƏ VƏTƏNPƏRVƏRLİK İDEYALARI

Nizami yaradıcılığında ölkəsini və xalqının sevmək, vətəninin təbiətinə vurulmaq, doğulduğu şəhər – Gəncənin adını poemalarında tərənnüm etmək, onun vətənpərvərlik hissləri ilə sıx əlaqədardır.

Müdriklyin bayrağı deyilsə də əsərin
Yaşatmasın adımı heç bir vədə əsərim,
Ürəyimin qanıyla bir ki yazdım onu mən
Eldən-elə yoxsa ki, yollamazdım onu mən
Şairliyim saxlayəb dustaq kimi Gəncədə,
Mənəm indi dünyanın söz hakimi Gəncədə **[6, s.38]**

Bu misralardan görünür ki, şairin vətənə bağlılığı, boya başa çatdığı Gəncə şəhərinə sədaqəti, onu başqa ölkələrə getməkdən çəkindirmişdir. Şairin yazdığı – "Boğazıma gör necə düyünlənibdir Gəncə, yoxsa mənim olardı, İraq xəzinəsi məncə" – sözləri bunu təsdiq edir. Nizami vətənini daha da şöhrətləndirəcəyinə ümid bəslədiyi üçün "Sirlər xəzinəsi" poemasında yazır: "Bu kitabı oxuyarkən "Dünyaya səs düşəcək" hansı Gəncə və hansı Nizami deyə soruşacaqlar".

Azərbaycanın zəngin təbiəti "Nüşabə" də özünü daha mübariz şəkildə göstərir. Vətəninə qəlbən bağlı olan şair Bərdənin gözəlliklərini cənnətlə müqayisə edir. Bu yerlərin yazının, qışının gül-çiçəyə bürünməsindən, yamyaşıl geyinmiş meşələrindən, sərv ağaclarından və bir də torpağının bərəkətindən vurğunluqla danışan şair, bunu dünyaya elan edir.

Bərdə nə gözəldir, necə qəşəngdir.
Yazı da, qışı da güldür, çiçəkdir.
İyulda dağlara lalələr səpər,
Qışını baharın nəsimi öpər.
O yaşıl meşəsi cənnətə bənzər,
Şən ətəklərinə bağlamış kövsər.
Söyüdlük çöllərə vermişdir zinət,
Ağ bağı elə bil, həqiqi cənnət.
Qırqovul yuvası hər sərv ağacı,
Oxuyur kəkliyi, ötür turacı **[6, s.38]**

Şair yalnız Bərdənin gözəlliyinə yox, həm də mərd, sağlam insanlarından, mərd və gözəl qadınlarından danışır. Elə buna görə də, Nizami Azəebaycanın qədim mədəniyyət mərkəzi olan Bərdəni, "mərdlər və gözəllər yurdu" adlandırır və ölkəyə tayı bərabəri olan ikinci şəhər olmadığını "İskəndərnamə" poemasında bir neçə dəfə təkrar edir. Şair Bərdə haqqında ancaq öz düşüncələrini yox, həm də, qədim ərəb tarixçilərinin elmi əsərlərinə də istinad etmişdir. Nizami ərəb istilası zamanı keçmiş şöhrətini itirən şəhərin acınacaqlı vəziyyətindən kədərlənir, ancaq böyük gələcəyinə ümidini itirmir.

İndisə yerində bu gözəl yurdun,
Var sel yumuş dərə, qurumuş odun.
Yenə də bol olan o göyərtilər,
Ədalət toxumundan göyərsə əgər.
Yenidən gözəlcə bəslənsə diyar,
Get-gedə yaşıllıq, gözəllik artar. **[6, s.39]**

Bədii yaradıcılığında vətənpərvərlik motivləri güclü olan Nizamiyə görə, hökmdar nə qədər ölkələr gəzib dolaşsa, vətənini, xalqını yaddan çıxarmamalıdır. İskəndərin səfərdən qayıtmasını "kamala çatması" kimi qiymətləndirən şair İran hökmdarı Daranın və başqa şahların məğlubiyyətinin bir səbəbini də onların vətənpərvər olmamasında görür. Şairin ədalətsiz müharibələrə nifrəti də onun vətənpərvərlik duyğularının məhsuludur. O "İqbalnamə"nin "Padşaha sitayiş bölməsində" Gəncə zəlzələsinin təsvirini əsərə təsadüfi daxil etməmişdi

Qopdu bu zəlzələ, göyü oynatdı,
Şəhərlər dağılıb yerlərə batdı...
Nə qədər xəzinə batdı o gecə,
O şənbə gecəsi yox oldu Gəncə **[6, s.40]**

Həmin zəlzələdən sonra Gəncənin yenidən abadlaşması və yeni yaraşıqlı binaların tikilməsi şairi sevindirir və iftixar hissi ilə gəncəli olduğunu söyləyir.

Şairliyim saxlayıb dustaq kimi Gəncədə,
Mənəm indi dünyanın söz hakimi Gəncədə

Nizaminin vətənpərvərlik ideyaları yaratdığı obrazlarda bədii əksini tapmışdır. O, yaxın və Şərq ədəbiyyatında ilk dəfə olaraq vətənpərvər hökmdar obrazını yaratmışdır. Ölkələri qarış-qarış gəzən qəlbi vətənlə döyünən çətinliklərə sinə gərən İskəndər yalnız vətənini düşündüyü üçün ölkəsinə qayıtması bayrama çevrilir.

Nizami vətəndən xaricdə yaşamağı zülmət sayır. O, "Leyli və Məcnun" poemasında dəfələrlə göstərir ki, "öz şəhərinin iti olmaq, özgə yerdə həqarət altında yaşamaqdan yaxşıdır". "Leyli və Məcnun" poemasında təsvir edilən təbiət,

[89] ADPU

hər şeydən əvvəl şairin öz vətəninin təbiətidir. Xüsusilə baharın təsviri və Leylinin bu gözəlliklərə vurulması bu cəhətdən çox maraqlıdır.

Sərdi xalısını səhraya min gül,
Bəzədi torpağı süsənlə sünbül.
Ağacda qönçələr baxdı göz-gözə.
Bənzədi qayğısız güllər bir üzə **[6, s.41].**

Nizami bütün məqamlarda doğma diyarının təbii gözəlliklərinə dönə-dönə üz tutur. "Xosrov və Şirin" poemasında Yaxın Şərq ədəbiyyatında ilk dəfə olaraq Məhin Banunun simasında Azərbaycan qadınına məxsus olan nəcib əxlaqi sifətlərin təsvirinə geniş yer vermişdir. Məğrur və ismətli qadın Məhin Banu öz şahlıq taxt-tacını qardaşı qızı Şirinə tapşırarkən ona belə deyir: "Ey dünya gözəli Şirinim mənim, sən gözəllər gözəlisən. Sənin səadətin ismət və nəzakətindədir". Şair Məhin Banunun dili ilə Şirinə dediyi bu sözlərdə Azərbaycan millətinə xas olan müsbət qadın obrazı yaratmışdır.

Əsərdən göründüyü kimi, Şirin öz yüksək mənəviyyatı, sədaqəti, qoçaqlığı ilə Azərbaycan qadınına məxsus olan keyfiyyətləri özündə təcəssüm etdirir. Şirin elmə, biliyə rəğbət bəsləyən, ilk məhəbbətinə son nəfəsə kimi sadiq olan fədakar bir sevgili kimi təsvir edilir. Şairin yaratdığı bu ideal qadın obrazında vətən qızlarına xas olan cəsarət, qürur, ismət, mənəvi yüksəklik, mərdlik kimi gözəl sifətlər səciyyələndirilmişdir.

Bilirsən, baş uca olduğu zaman,
Xoşdur ərə getmək eşqbazlıqdan,
Şirin bu sözlərə qulaq asırdı
Sanki qulağından sırğa asırdı.
Qəlbinə yatırdı bu sözlər yaman,
Onun da könlündə bu oldu yanan
Yeddi parlaq göyə and içdi Şirin
Müqəddəs kamala eylədi yəmin
"Gözümdən qanlı yaş töksə də heyhat,
Olsam, olacağam bir halal arvad" **[6, s.42]**

Şair vətən qızı Şirinin xarici görkəmi ilə daxili aləminin nə qədər zəngin olduğunu göstərir.

Nizami yaradıcılığında beynəlmiləlçilik xüsusi yer tutur. Onun poemalarında millətlərin azərbaycanlı, yunan, ərəb, misirli, rus, hind, fars, çinli və başqaları obrazlarında görürük. Əsərlərində təsvir olunan hadisələr müxtəlif ölkələrdə (Azərbaycan, İran, Hindistan, Misir, Abxaziya, Rusiya, Ərəbistan və s.) baş verir. Bu ölkələr bütövlükdə Asiya, Avropa və Afrika xəritəsini əhatə edir. Şair bu ölkələrdə öyrəndiyi mədəniyyətə, onların alimlərinə, sənət ustalarına hörmətlə yanaşır və onlara tez-tez müraciət edir. Yunanıstanın Sokratı, Platonu, Aristoteli, Arximedi, Romanın Plinini, İranın Firdovsisi, Babilistanın Manisi bir-biri ilə yarışan Çin və Rum rəssamları və başqaları şair üçün eyni dərəcədə hörmətli idilər.

Azərbaycanlı Fərhadın, Şirinin, Ərəbistanlı Leyli və Məcnunun, Rumlu memar Simnarın, Bizanslı Məryəmin faciəsini ürək yanğısı ilə təsvir edən şair, onu öz faciəsi kimi bilmişdir. Müxtəlif millətlərdən olan adamların bu faciələri, bədbəxtlikləri Nizaminin nəzərində ziddiyyətlərlə dolu olan bəşər cəmiyyətinin faciəsidir. Buna görə də, bütün xalqların alimləri ilə fəxr edən, sənət adamlarına yüksək qiymət verən Nizami zəhmətkeş və xeyirxah adamlar tərəfindən sevilir, öz şairliyi ilə fəxr edir, dünyanın xoşbəxti olduğunu hər yerdə, hər diyarda əsərlərinin sevilə-sevilə oxunduğunu qeyd edirdi.

Nizami yaradıcılığında müxtəlif millətlərdən olan, heç bir dini və milli fərqi görünməyən obrazlara rast gəlmək olur. Şairin bu beynəlmiləlçiliyi onun yüksək və bəşəri humanizmi ilə əlaqədardır. O, gənclərə qarşı olan nifrət əleyhinə çıxaraq yazır:

Qəlbiqara kəsin dili düz deyil,
Olmaz bir zəncidən bir Xacə Müqbil.
Zəncinin zahiri qaradır, ancaq,
Sən ağzından çıxan saf sözlərə bax.
Qara olsan əgər söyüd kimi yan,
Zəncinin dişini odur ağardan.
Zənci dəmir kimi qara parlaqdır,
Üzü qaradırsa, ürəyi ağdır**[6, s.44].**

İskəndər yunanların milli qəhrəmanı olsa da, bütün xalqlara eyni gözlə baxır. Onun üçün böyük və kiçik xalq yoxdur. O, hər bir xalqın istər elm-mədəniyyət, istərsə də adət-ənənələrindəki yaxşı şeylərə ehtiramla yanaşaraq, hətta geridə qalmış tayfaları belə unutmur və onları elmə, mədəniyyətə və insanlarla ünsiyyətə çağırır.

İstifadə edilmiş ədəbiyyat

1. Azərbaycan ədəbiyyatı tarixi. 6 cilddə. III cild, Elm, 2007
2. Azərbaycan uşaq antalogiyası. 3 cilddə. I cild. Öndər, 2005
3. Araslı H. Şairin həyatı. Bakı, 1967
4. Əlizadə M. Nizaminin insanın mənəvi məziyyətləri haqqında. "Nizami Gəncəvi-850" kitabında. Bakı, 1992
5. Həsənli B. Azərbaycan uşaq ədəbiyyatı. Bakı, 2015
6. Quliyev S.M. N.Gəncəvi yaradıcılığında əxlaq məsələləri. Bakı, 1994
7. Quluzadə M. Nizami Gəncəvi. Bakı, 1953
8. Namazov Q.Azərbaycan uşaq ədəbiyyatı. Bakı, Bakı Universiteti, 2004
9. Şöhrət Məmmədova. Azərbaycan uşaq ədəbiyyatı antologiyası. 4 cilddə, I cild. Bakı, 2018

Açar sözlər: *yaradıcılıq, ölkə, xalq, poema, vətənpərvərlik, şəhər*
Keywords: *Creativity, country, nation, poem, patriotic, city*

Xülasə

Nizami yaradıcılığında ölkəsini və xalqını sevmək, vətəninin təbiətinə vurulmaq, doğulduğu şəhər – Gəncənin adını poemalarında tərənnüm etmək, onun vətənpərvərlik hissləri ilə sıx əlaqədardır.

PATRIOTIC IDEAS IN "KHAMSA"

Resume

In Nizami's work,to love his country and people,to be immersed in the nature of his homeland, to sing the name of his town Ganja in his poems are closely connected with his patriotic feelings.

RƏYÇİ: dos.S.Abbasova

Иджран Кулиева, Малахат Садыкова[90]

ЯЗЫКОВЫЕ СОДЕРЖАНИЕ ОБУЧЕНИЯ

Любой учитель иностранного языка мечтает в итоге обучения увидеть учащегося, уверенно и свободно владеющего языком, приближающегося по качеству пользования изучаемым языком к его носителям. Всякое обучение есть всегда освоение начал. Но чтобы знания были прочными, обучение должно быть грамотным.

Специфика учебного предмета «русский язык как иностранный» (как и любого иностранного языка) заключается в его «беспредельности», «безграничности». Если сравнить его с любым другим предметом, то в каждом из них (история, химия, литература, биология и др.) есть отдельные тематические разделы, изучив которые студент испытывает удовлетворение. В грамматике это невозможна. Студент не может знать только раздел «виды» и не изучать раздел «времена» и т. д. Он должен знать всю грамматику, всю лексику, необходимые для общения.

Реализация коммуникативно- деятельственного подхода в практике преподавания русского как не родного требует пересмотра не только содержания и методов обучения но и выбора единиц обучения. Когда под обучением языку понималось обучение языковым средством, в качестве предельной единицы обучения выступало предложение. При обучении общению на изучаемом языке предполагается формирование коммуникативной компетенции – способности решать языковыми средствами конкретные коммуникативные задачи в конкретных сферах и ситуациях общения. В лингвистическом смысле коммуникативная компетенция есть способность понимать и порождать целостные речевые произведения – тексты. Иными словами, коммуникативная компетенция формируется лишь на уровне текста. А текст, будучи высшей коммуникативной единицей, выступает и как высшая единица обучения общению.

Сложность процесса реального общения заставляет сознательно идти на ограничения. При множественности выражения одной и той же мысли для методики обучения важно знать, сколько таких способов существует, какие они, есть ли среди них типичные, наиболее часто встречающиеся. При разнообразии передаваемых оттенков значения игнорировать некоторые из них.

Поэтому нужно тщательно отбирать подлежащий усвоению, учебный материал, на основе которого может развиваться речевая деятельностьучащихся. Отбор и есть процесс, в соответствии с которым, зная, что нельзя научить «всему» языку, мы и ограничиваем себя каким -то стилем и видом языка, и именно он попадает в наш учебный материал. Ограничения нужны для того, чтобы система языка проступала в общении на основе самых существенных её признаков.

Мотивированный отбор сопрягается с установлением качественных и количественных характеристик отбираемых лексических и грамматических единиц, достаточных для обеспечения выдвинутых коммуникативных целей. Выделение «учебного (но не упрощенного) языка» связано с проблемой ограничения учебного языкового материала по определенным категориям – чему учить – от условий – как учить и целей обучения – для чего учить. Сама эта проблема не нова. В основном ученые выдвигали три принципа – частотность, общеизвестность слова, методическую целесообразность, стилистическая нейтральность слова. Но в то же время нужно учитывать:

1) невозможность исключить из минимума всеизбыточные элементы (например, падежные формы прилагательных не несут смыслоразличительную функцию при наличии падежной формы существительного);

2) необходимость соблюдать однонаправленность соотношения формы и значения – каждое значение может выражаться одной формой, но одна форма может выражать несколько значений;

3) определенная недостаточность отобранного грамматического минимума. Отсюда дифференцированность лексико-грамматического минимума.

В современном отборе языковых единиц существует три направления: а) отбор минимума по словообразованию; б) отбор лексики (слова и фразеологизмыс уточнением и свободной сочетаемости слов активного запаса; в) отбор речевых моделей, заполнение которых идет за счет лексического минимума.

При отборе активного минимума для начального этапа исключаются слова – синонимы, морфологическая синонимия (чая/чаю; песка-песку; народа-народу) и стилистическая конструкция типа «на уроке/во время урока».

При отборе фактов морфологии выбираются те грамматические значения, которые участвуют в оформлении предложения (Это мая мама; Это мой отец. Мой старший брат учится в девятом классе. Мой младший брат в пятом классе»). Эти предложения построены на основе согласования сказуемого и подлежащего в числе.

Или другой пример – согласование в роде: «Он читал. Она читала». Примерами, объединенными значением синтаксического времени являются. такие, как «Сегодня холодно. Завтра будет холодно. У меня был билет. У меня будет билет».

Эти однородные грамматические признаки создают своеобразный эталон для образования по аналогии других предложений.

Общие грамматические и лексические категории, присущие глаголу и имени (без них невозможно вести разговор) дают возможность строить бесчисленное множество высказываний, и уже на начальном этапе обучения позволяют учащимся общаться на русском языке.

---

[90] BDU

Отбор грамматического и лексического минимумов взаимообусловлены. Эта обусловленность проявляется в двух аспектах:

а) при отборе синтаксических конструкций в зависимости от структурообразной силы слов, включенных в лексический минимум, их сочетаемости;

б) при отборе – в зависимости от продуктивности данной формы, то есть её способности распространяться на большое количество слов; при отборе синтаксических конструкций учитывается способность конструкции наполняться различной лексикой.

В свете сказанного словарь - минимум должен быть не только списком слов, предназначенных для активного усвоения: он должен содержать их конкретную грамматическую характеристику. При наличии грамматической характеристики слов взаимосвязь лексики и грамматики становиться теснее, и мы в большой степени можем приблизиться к обучению речи.

Указанное положение обусловливает и конкретные пути реализации принципа минимизации: поаспектно отобранный материал не должен выступать в противоречие друг с другом – фонетический с процессом усвоения лексики и грамматики, грамматический – с усвоением фонетики и лексики, лексический – с грамматикой и фонетикой. Благодаря этому в каждом конкретном случае обучения возможно такое построение общей минимизированной системы учебного материала, «учебного языка».

Обычно целью изучения языка является как чтение текстов, так и устное общение, которое включает в себя аудирование (рецепция) и говорение (продукция). Поэтому для начального этапа отбирается активный минимум, на базе которого обеспечивается устная речь, понимание текстов. Более же широкие рецептивные цели (понимание неадаптированного текста) относят к более позднему этапу обучения.

Так, учёт при отборе слов тематического и морфологического планов облегчает выделение словаря, осуществление планомерного расширениялексического запаса по годам или этапам обучения, определение того, какие морфологические классы слов, в каком количестве и в каких формах будут изучаться в каждом из циклов, концентров и этапов обучения.

В понятие «отбор» входит не только суммарное количество слов, конструкций на весь период обучения, но и их мотивированное распределение по концентрам, циклам, урокам с тем, чтобы обеспечить максимальную результативность их усвоения для удовлетворения изменяющихся потребностей в речевом общении, педагогически ограниченном в каждый данный момент обучения. Дело в том, что набор языковых средств, достаточный на данном этапе обучения для производства и восприятия некоторых русскоязычных текстов, вынужденно ограничен, а представления о мире у учащихся уже не ограничены. Поэтому в ходе обучения происходит постепенное приведение в соответствие представлений о мире с языковыми возможностями обучаемых, благодаря сочетанию относительной замкнутости отобранного языкового материала для каждого этапа и внутренней потребности расширения минимума в связи с увеличением и усложнением решаемых коммуникативных задач.

Методисты подчеркивают ведущую роль некоторых общих принципов – психолого- дидактического и лингвистического.

Первый предполагает отбор материала с учетом посильности его усвоения и возрастных особенностей и включает, например, ориентацию на устную форму общения, тематическую соотнесенность с программным материалом; второй принцип, раскрываясь через соответствие учебного материала современному этапу развития языка, предполагает достаточность усвоенного для овладения русской речью в заданной мере для реализации запланированных коммуникативных задач обучения.

Итогом мотивированного отбора конкретного лексико-грамматического минимума является редуцированная методическая микросистема, соответствующая грамматическому строю русского языка. Если полная лингвистическая система охватывает все формы и конструкции данного языка, то методическая система - это материал, необходимый и достаточный для развития речи учащихся в определенных программой сферах, темах и ситуациях общения. В связи с этим существенными представляются понятия полноты минимумов, с одной стороны и представленности в них грамматических категорий русского языка – с другой. Иначе говоря, учебный курс русского языка должен представлять систему языка на разных уровнях и содержать достаточные сведения для практического владения русским языком. Эта двуединая задача, конечно, ведет к тому, что некоторые явления русской языка остаются неизученными, неизвестными. Однако это менее опасно, нежели непредставленность его системных регулярных закономерностей и образований. Во избежание нежелательной «загроможденности» «учёного языка» нетипичные, нерегулярные явления правомерно из него исключаются, если их присутствие недиктуется коммуникативной необходимостью, учебно-методической целесообразностью. Однако ознакомление с ними вполне возможно при дальнейшем совершенствовании владения русским языком.

Этот общий языковой минимум (лексический морфологический, словообразовательный), отобранный в соответствии с перечисленными выше принципами включает широкоупотребительные, наиболее частотные единицы, но не только. Согласно принципам коммуникативной ценности сюда же включаются единицы менее употребительные, но обладающие высоким рангом коммуникативнойважности, необходимые для коммуникации в каждой конкретной сфере общения. Благодаря такому их сочетанию иностранный учащийся действительно

сможет понять и сказать всё, что ему требуется т.е. сможет применить усвоенный учебный материал в реальных речевых ситуациях и одновременно усвоить систему русского языка.

Отбор сводится к определению наиболее типичных актов речевого общения, круга наиболее актуальных тем и ситуаций. Затем фиксируется речь носителей русского языка – потенциальных собеседников, обучающихся в аналогичных ситуациях. Путем лингвометодического анализа определяется список для такого общения слов, которые и включаются в материал обучения. Всем этим решается одна из основных задач в определении содержания —обучения выделение учебного языка, ответ на вопрос «чему и для чего учить». Другая не менее важная задача содержания обучения – интерпретация отобранного учебного материала. Она предполагает прежде всего методическую типологию, т.е. проекцию отобранного языкового материала и текстов на родной язык и родную культуру, учащихся, что позволяет выявить сходство и различие, определить объем и характер трудностей, которые предстоит преодолеть учащимся при овладении этим языковым и речевым материалом. Кроме того этот материал должен быть методически организован: установлены пути его семантизации и презентации, определена последовательность его подачи и дозировка, подобраны комплексы упражнений и прочее, т.е. даны ответы на вопрос «как учить».

В целях более глубокого теоретического осмысления проблемы взаимосвязанного обучения необходимо объединить разрозненные упражнения по взаимосвязанному обучению видам речевой деятельности в одну группу. Дополненная система упражнений будет выглядеть следующим образом: 1) упражнения по обучению аудированию; 2) упражнения по обучению говорению; 3) упражнения по обучению чтению; 4) упражнения по взаимосвязанному обучению видам речевой деятельности (эти упражнения в свою очередь, можно разделить на подгруппы).

RƏYÇİ: dos. E.Vəliyeva

Qabil Əhmədov[91],

YAPON DILININ ÖYRƏNİLMƏSİ ÜZRƏ BİZDƏKİ SƏYLƏR BARƏDƏ

"Respublika"qəzetinin 5 dekabr 2919-cu il tarixli sayinin 10-cu səhifəsində "İngiltərə və Ərəbistan arasında dil körpüsü" sərlövhəli məqalədə professor Qabil Əhmədovun "İngiliscə dərhal danış" (1) və "Ərəbcə müəllimsiz" (2) adlı, eləcə də hərəsi 300 səhifəlik iki danışıq kitabçasından bəhs edilirdi. Onların əsas məziyyətlərindən biri bu iki xarici dildəki ifadələrin transkripsiyalarının bizim hərflərlə verilməsi olduğu qeyd edilirdi. Həmin əlamətdar xüsusiyyətə bugünki yazıda barələrində söz açılan üç nəşrdə də Qabil Əhmədov ciddi surətdə riayət edir.

Onlardan birincisi olan "Yaponca gündəlik ifadələr" (4) 2000-ci ildə Dəmir yolu nəşriyyatında, "Təzə başlayanlar üçün Yapon dili" (3) adlı 167 səhifəlik dərslik isə Slavyan Universitetinin nəşriyyatında 2013-cü ildə çap edilmişlər. Üçüncü çap məhsulu isə "Cib dilmancı" (5) adlanır. Bu sonuncuda altı dildə olan ifadələr, yəni Azərbaycanca, İngiliscə, Fransızca, Almanca, Rusca və Yaponca verilən ifadələr üç Avropa dilində orijinalla bərabər transkripsiya əlavə edilməsi ilə verildiyi halda, Rus variantında transkripsiya yoxdur, Japon dilində isə orjinal yazı göstərilmir və yalnız transkripsiya tətbiq olunur. Bu yığcam ölçülü vəsait cibə sığan ölçülərdə olduğundan, müəllif onu xarici ölkələrə səfər edən şəxslərimiz üçün nəzərdə tutmuşdur.

Yuxarıda adı çəkilən dərslik haqqında bir qədər təfərrüatla bəhs etmək münasib olardı. Çünki indiyə kimi respublikamızda nə yaponca heç bir dərslik, nə də ayrı bir bu dili öyrənmə vasitəsi heç vaxt olmadığı şəraitdə ortaya çıxmışdi. İlk belə səy 1992-ci ildə, yəni 30 il bundan əvvəl Rabitə nazirliyinin dayağı ilə "Rabitə dünyası" adlı həftəlik olaraq 16 min tirajla çıxmış bu qəzetin baş redaktoru Gülsüm Abbaslı son səhifənin ikinci yarısında yapon dili guşəsi açaraq, bu dil üzrə mükəmməl yazılar vermək üçün Qabil Əhmədovu redaksiyaya dəvət edir. Yapon dilinə aid materialları orada yerləşdirməyə ta ki müəllifin 1996-cı ildə İREX (İnternational Reaearch and Exchange), yəni beynəlxalq elmi mübadilə təşkilatının keçirdiyi müsabiqədə qalib təki Amerika Birləşmiş Ştatlarına gedənə kimi fasiləsiz davam etmişdir. Həmin qəzetdə çıxmış ardıcıl materiallardan Qabil müəllim 2001-ci ildə Slavyan Universitetinin nəşriyyatında "Təzə başlayanlar üçün Yapon dili" adlı 168 səhifəlik bir kitab ərsəyə gətirir. Məhdud tirajla ortaya cıxmış bu dərsliyə həmin dövrdə respublikada Təhsil naziri olmuş professor Misir Mərdanov "Bu yeni təcrübəyə dəstək" sərlövhəli ön söz əlavə etmişdi. Misir müəllim hələ BDU-ya rəhbərlik etdiyi əvvəlki illərdən kitabın müəllifinin istedadına və əməksevərliyinə bələd idi.

"BDU-da əsrin rübündən daha uzun müddət ərzində ingilis dilindən dərs demişQabil Əhmədovunyaponcayaya son illərdə göstərdiyi marağın hasilə yetməsi sayəsindəvarid olmuş bu dərslik həmin flaqmantəhsil ocağında yapon dilinin tədrisinə son düvrdəbaşlamış, dosent O. Cəlilovun redaktəsi ilə çap edilmiş bu kitab, yəqin ki, bu dilin respublikamızda mənimsənilməsində böyük rolu olacaq.. Çünki bu gündoğar ölkənin nəhəng texoloji naailiyyətləri bizi qarşılıqlı əlaqələr yaratmağa sövq edir və bu uzqaq ellilərin öz dilində danışa biləcək ali təhsilli Azərbaycaycanda hazırlamağa ruhlandırır.

*Yaponiada işgüzar səfərdə olmuş ictimayi xadim kimi mən bu xalqda olan gözəl bir xüsusiyyəti – iş apardıqları hər bir ölkəyə yerli dili çox tez mənimsənilməsinə cəhdlərini sezə bilmişəm. Bizim gənclərin qabaqcəl qismi isə özdillərindən savayı indi rus, türk və qismən də ingilis dillərində danışdıqlarından digər xarici dilləri daha tez mənimsəə bilirlər. Bu kitabın üstünlüyü isəyaponcanı elə sərbəst öyrənənləri işinə də onun çoxrahat bir şəkildə yarımasıdır."*Kitab buxoş fikirlə açılır.

16 bölmədən ibarət olan bu dərslikdəki hər belə hissə beş məqamdan ibarətdir. Onlardan hər birində bizim hərflərlə 5 açar ifadə burada orijnal yapon yazısı ilə yanaşı verilir, Həmin ifadələrin qramatik izahatları ikinci məqamda "təcrübə üçün bir neçə misal" başlıqlı növbəti məqamda (fonetik, leksik və qramatik izahatlarda) yapon ifadələri Azəri əlifbasının köməyi ilə aydınlaşdırılır, bunun dalinca hər iki dildə yanbayan şəkildə danışıq dialoqları gəlir. Bölmənin sonunda növbəti hissə üçün onlarla yeni sözlər və tərcümələri yerləşdirilir. Kitabın sonunda bir daha verilən bu leksik vahidlərin ümumi sayı 835-dir. Hiroqana və Katakana kimi əlifbalarda hər işarənin bir hecanı bildirməsi bu toplunu həqiqətən rövnəqləndirir. Bu nəşr BDU-da tezliklə bakalavr səviyyəsində yapon dili şöbəsinin açılması kimi fərəhli hadisəyə səbəb olur.

Azərbaycanda istifadəyə verilmiş daha bir çap vəsaiti "Yaponca gündəlik ifadələr" (4) adlanır. Qabil Əhmədov onu doktor Hideyçi Ono ilə birlikdə yuxarıda barəsində bəhs olunan dərslikdən yeddi il əvvəl – 1994-cü sənədə oxuculara çatdlrmişdır. Cibdə gəzdirilmək üçün nəzərdə tutulmuş bu kitabçaya "Rabitə dünyası" qəzetininn o vaxtkı redaktorununmüqəddiməsi, Hideyçi Ononun "Azərbaycan nəşrinə girişi və Gabil müəllimin "Ön söz"ü" də buraya əlavə olunmuşdur. Kitabçada "Salamlaşma ifadələri", "Baş çəkmə və xudahafisləşmə", "Masa başında işlədilən kəlmələr", "Yol sorğusu", "Bazarlıq", "Şadliq və qəzəb ifadələri", "Hava barədə cümlələr" və digərləri hər iki dildə yanaşı sütunlarda yerləşdirilmişlər.Sondakı yeddi bölmədə isə mühüm qramatık izahatlar yığcam halda nəzərə çatdırılmışdır. Burada orijinal yapon yazısı gözə dəymir. Kitabçada ona heç elə də ehtiyac da duyulmur. "Sabahın xeyir" ifadəsi "Ohayoo qozatmasu" kimi işlədilir. "Xudahafis" isə "sayanora"dır. "Sağ-salamaat. Uğur olsun" təbirləri Yaponiyada "dooka ogenki de. hakuke kudasay" təkidir. Lakin burada orijinal yapon yazısı əlavə olunması lazım bilinməmişdir.

Bu sahədə üçüncü səy olan daha bir nəşrdə də yapon şriftləri yoxdur. Onun adı "Cib dilmancı"dır. Orada verilən altı sütun həmin nəfis kitabçanı indi yalnız mərkəzi kitabxanda tapmaq olar. Orada sıra ilə bizim dildə, ingiliscə, fransızca, almanca, rusca və yaponca yerləşdirilmiş və səfər zamanı lazım olan ifadələrin qərb dillərində olanlari həm orijinal yazı ilə,

[91] **Filol.e. d-ru, prof. BDU**

həm də bizim hərflərimizlə əlavə olunmuşdur.Cəmi 375 nüsxədə çap olunduğundan onu, ehtimal ki, yenidən çap etmək heç də pis olmazdı.

Post Skriptym:Üç ilöncə çapdan çıxmış "Azərbaycanca- İngiliscə-Fransızca-İspanca hərbi dəniz terminləri" (6) adlı danışıq kitabçasında da 3-cü və 4-cü sütunlardakı bizim hərflərlə artırılmış transkripsiya sayəsində fransızca və ispanca olan xarici ifadələri düzgün tələffüz etmək mümkündür. Buradakı ispan dilli kəlmələri müəllif Q. Əhmədovun təqdim etdiyi artıq səkkizinci əcnəbi dil nümunələridir. Həmin vəsait xarici dənizlərdə üzən gəmilərimizi idarə edənlərə hava və su kimi vacibdir. Axı Cənubi Amerika qitəsindəki ölkələrin əksəriyyəti elə bu dildə ünsiyyət qururlar.Həmin yerlərdə su, yanacaq və digər ehtiyatlarını təzələmək üçün canlı dilmanc axtarmağa ehtiyac aradan qalxır. Bu kitabda da xarici dillər yanaşı sütunlarda verilmələri ilə istifadəni xeyli asanlaşdırır.

İstinadə edilən mənbələr:yyatı.

1. Qabil Əhmədov. "İngiliscə dərhal danış". Bakı. Səhər nəşriyyatı2013.
2. Qabil Əhmədov. "Ərəbcə müəllimsiz". Bakı. ULU nəşriyyatı. 2019.
3. Q.Əhmədov. "Təzə başlayanlar üçün yaon dili". Bakı. Slavyan Universiteti nəşriyyatı. 2001.
4. Q.Əhmədov, Hideyçi Ono. "Yaponca gündəlik ifadələr". Bakı. Azərbaycan Dəmir yolu nəşriyyatı. 1994.
5. Qabil Əhmədov. "Cib dilmancı". Bakı. Slavyan Universitetiti nəşriyyatı. 2003.
6. Qabil Əhmədov. "Hərbi dıniz terminləri üzrə Azərbaycanca-ingiliscə-francızca-ispanca danışıq kitabı".Bakı.ULU nəşriyyatı. 2019.

RƏYÇİ: dos. S.Abbasova

Məmmədova Esmira Fərhad qızı[92]

I-II SİNİFLƏR ÜZRƏ MƏZMUN STANDARTLARININ TƏHLİLİ

Dünyada gedən ictimai, mədəni dəyişikliklər inkişaf etmiş ölkələrdən olan Azərbaycandan da yan keçməmişdir. Bu dəyişikliklər özünü təhsildə də göstərməkdədir. Azərbaycanın təhsil həyatında artıq on beş ildən çoxdur ki, uğurlu təhsil islahatları davamlı həyata keçirilir. Qlobal dünyanın qoyduğu tələblərə əsasəntəhsilin bütün səviyyələrində standartlar, pedaqoji texnologiyalar, idarəetmə və qiymətləndirmə mexanizmləri hazırlanır. Azərbaycanın təhsil siyasətinin tələblərinə uyğun olaraq bütün işlərin uğurluolması, cəmiyyətimizin inkişafi baxımından daha da təkmilləşdirilməsi hazırkı dövrün ən vacib və ciddi vəzifələrindən hesab olunur.

Təhsil sisteminin yenidən yaradılması, koqnitiv fəaliyyət üçün imkanların formalaşdırılması haqqında irəli sürülən müddəalar, ilk növbədə, ümumi təhsilə, xüsusən ibtidai təhsilə yeni yanaşılmanı, onun ən müasir tələblər əsasında qurulmasını mühüm vəzifə kimi qarşıya qoyur. Yeni kurikulumların hazırlanmasının vacibliyi ondadır ki, kurikulum təhsilin müasir inkişaf tendensiyalarını və davamlı inkişaf amillərini kifayət qədər diqqətə almır, biliklərin tətbiqi aspektinə yönəldilmir" (9, s. 115). Məhz buna görə də bu problemin aradan qaldırılması, təhsildə yeni məzmunun müəyyənləşdirilməsi məqsədi ilə ardıcıl və sistemli araşdırmalar aparılmasına ehtiyac yaranmışdır. Araşdırmalardan məlum olmuşdur ki, ibtidai təhsilin məzmunu ilə bağlı indiyənədək xeyli işlər görülmüşdür. Y.Ş.Kərimov, Ə.X.Paşayev, Ə.S.Bayramov, N.M.Kazımov, Ə.Ş.Həşimov, Y.R.Talıbov, Ə.A.Ağayev, G. E.Babayeva, F.A.Rüstəmov, A.O.Mehrabov, L.M.Qasımova, R.M.Mahmudova, S.Həmidov, A.Məcidova, M.M.Əmirov, C.Əliyeva, V.V.Kroyevski, Ə.Ə.Əlizadə, M.A.Skatkin, L.V.Zankov, A.Q.Kazanski, T.S.Nazarov və başqaları ibtidai təhsilin məzmununun nəzəri problemləri ilə bağlı məsələlərə təhlil etmiş və müəyyən nəticələr əldə etmişlər.

Bildiyimiz kimi, Azərbaycan dili tədrisində olan məzmun xətləri 4 saydadır. Bu dilin hərtərəfli öyrənilib təhlil olunmasında vacib ünsirlərdir. Bir-birini tamamlayaraq, dilin hərtərəfli mənimsəməsinə zəmin yaradır. Dinləyib anlamanın vacibliyini bilmədən şagird yaş və anlama səviyyəsinə uyğun danışa bilməz. Oxumanı düzgün həyata keçirə bilmədən şagird yaza bilməz. Bunların əsasında dil qaydaların öyrənib təhlil etmək dayanır. Əvvəlki dərslik və metodik vəsaitləri araşdırıb təhlil etsək, kifayət dərəcədə dəyişikliklərə rast gəlmək mümükündür. Təkcə dərsin məqsəd və vəzifələri deyil, eyni zamanda şagirdlərin yaş və anlaq səviyyəsinə qoyulan tələblər də dəyişmiş və qat-qat çətinləşmişdir. Bu tələblər dərsin məqsəddindən asılı olaraq standart – alt standartda müəyyən edilir. Bu standartlar sinifdən-sinfə, dərsin məqsədindən asılı olaraq dəyişir. Belə bir sual yaranır. Nə üçün standartlar ildən –ilə mürəkkəbləşir, dərinləşir?

Dərslik və dərs vəsaitlərinin beş ildən bir dəyişdiyini təbii ki, hamımız bilirik. Ibtidai sinif dərsliklərini (kurikulumdan öncə tədris olunan) təhlil etsək müəyyən nəticələr əldə etmiş olarıq.

1. Kurikulumdan öncə dərslik və dərs vəsaitləri indiki dövrdə tədris olunan vəsaitlərdən sadə idi.
2. Tapşırıq və materiallar daha çox dil qaydasına və qrammatikanın öyrənilməsinə əsaslanırdı.
3. Tapşırıqların şərtləri daha sadə formada verilirdi.
4. Dil dərsləri oxu dərslərindən ayrı tədris olunurdu.
5. Siniflər üzrə mövzularda fəndaxili və fəndaxili əlaqələr gözlənilir, həyata əlaqələndirmə isə sıfır dərəcəsində olur.
6. Çalışmalarda şagirdin şifahi və yazılı nitqinin inkişaf etdirilməsi üçün bütün tələblər gözlənilmirdi.

2008-ci ilə qədər tədris olunan proqramları təhlil etsək, burada müəllimlərə yalnız hansı saatlarda, hansı mövzu və çalışmaların keçiriləcəyi qeyd edilmişdir. Çalışmaların həlli ilə bağlı tövsiyə xarakterli materiallar yoxdur. Eyni zamanda müəllim üçün araşdırlması vacib olan məsələlər öz əksini proqramlarda tapmamışdır. Bu kimi proqram və dərslikləri müqayisəli təhlil aparsaq xeyli nəticələr əldə etmiş olarıq.

Bizim araşdırmağı vacib bildiyimiz birinci və ikinci sinif Azərbaycan dili dərslərində reallaşan məzmun standartlarıdır. Hər bir standartın təlim prosesində reallaşması üçün müəllim öz bilik və bacarığına güvənməli və müəyyən araşdırmalar aparmalıdır. Təlim prosesində dərsin mərhələlərin pozmadan standarlar şagirdlər tərəfində reallaşdırlmasını müəllim düzgün həyata keçirməli və onların həlli yollarının müəyyən olunmasına şərait yaratmalıdır.

Birinci sinifdə tədris olunan Azərbaycan dili fənni bir neçə sayda vəsaiti özündə ehtiva edir. İki hissəli dərslik, iki hissəli iş dəftəri, müəllim üçün metodik vəsait və valideyn bələdçisi. Bu proses təkcə müəllimin əməyi nəticəsində deyil, valideyn və şagird əməkdaşlığı da xüsusi önəm daşımış olur.

Kurikulumdan öncəki dərslik və dərs vəsaitlərini təhlil etdikdə şagirdlərin birinci və ikinci sinifdə öyrəndiklərini artıq şagirdlər məktəbəhazırlıq qruplarında həyata keçirirlər. Onlar təlim prosesinə 6-7 yaşdan yox, 5 yaşından başlayırlar. Yaşlı şagird məktəbə gələnədək bütün hərfləri tanımalı, çap hərfini yazmalı, üzdən hecalarla oxumağı, şəkil üzrə rabitəli mətn qurmağı, özü haqqında ətraflı məlumat verməyi, partada düzgün əyləşməyi, məktəb ləvazimatları ilə düzgün davranmağı bacarmalıdır. Artıq birinci sinifdə isə artıcıl olaraq tam üzdən oxumalı, rabitəli yaz-mağı həyata keçirməlidir. Bunu müəllim təlim prosesində reallaşdırmalı və saatlara uyğun strandartları reallaşdırmağı bacarmalıdır. Birinci sinif Azərbaycan dili dərsliyinin birinci hissənin tədrisinə 136 saat, ikinci hissənin tədrisinə isə 130 saat vaxt ayrılır. Beləliklə, dərslik komplektində 1--ci yarımil üçün 68 dərs üzrə ma-teriallar öz əksini tapmışdır. 17 həftə üçün nəzərdə tutulmuş bu təhsil mərhələsində dərslərin ümumi sayı isə 85dir (68 qoşasaat + 17 tək saat). 2-ci yarımildə verilən ma-teriallar isə 65 dərs üçün müəyyənləşmişdir. Bu

[92] ADPU

yarımildə dərslərin ümumi sayı (sərbəst dərslərlə birlikdə) 81-dir (65 qoşasaat + 16 tək saat) Birinci siniflər üzrə verilən standartlarla tanış olaq:

Birinci məzmun xətti-dinləyib-anlama və danışma hesab olunur.. Burada iki əsas standart olur. Birinci əsas standartda deyilir: "Şagird dinlədiyi fikrin anladığını nümayiş etdirir." İkinci əsas standartda isə şagirdin şifahi nitq bacarıqlarına malik olduğunu nümayiş etdirir.

1.1.1. Dinlədiyi sadə fikrin mahiyyətini şərh etməyi bacarır. 1.1.2. Dinlədiyi hər hansı bir fikrə münasibət bildirir. 1.2.1. Müşahidə etdiyi əşya və hadisələr haqqında şəkillər üzrə danışır. 1.2.2. Əldə etdiyi məlumatları sadə formada şərh edir və genişləndirir. 1.2.3. Dialoq zamanı fikirlərini rabitəli şəkildə çatdırır.

İkinci məzmun xətti isə oxu hesab olunur. Oxu da özündə iki əsas standartı reallaşdırmağı tələb edir. 2.1. Lüğət ehtiyatının zənginləşdirilməsi;2.2. Oxu texnikası və ilkin oxu bacarıqlarına yiyələndiyini nümayiş etdirir. onların reallaşdıran isə alt standart aşağıdakılardır.

2.1.1. Sözləri müvafiq anlayışla əlaqələndirir. 2.1.2. Sözü cümlədə işlətməklə mənasını anladığını nümayiş etdirir. 2.1.3. Yaxınmənalı və əksmənalı sözləri müəy-yənləşdirir. 2.1.4. Mətndən seçilmiş sadə bədii ifa dələri (bənzətmə, mübaliğə) izah edir. 2.2.1. Oxu qaydalarına riayət etməklə düzgün oxuyur. 2.2.2. Nəzm və nəsri fərqləndirir. 2.2.3. Mətndə zaman, məkan, şəxs və hadisə ilə bağlı məqamları aydın-laşdırır. 2.2.4. Mətndəki əsas fikri müəyyənləşdirir və sadə formada ifadə edir. 2.2.5. Mətndəki hadisələrin ardıcıllığını müəyyən edir.

Birinci sinifdə yazı üçüncü məzmun xəttidir. Bu məzmun xəttini reallaşdırmaq üçün bir əsas standart mövcuddur. Yazı texnikasına və ilkin yazı bacarıqlarına yiyələndiyini nümayiş etdirir.

3.1.1. Hərflərin elementlərini və konfiqurasiyasını müəyyən olunmuş xətt boyunca düzgün yazır və bitişdirir. 3.1.2. Tanış olduğu məlumatları yazıda əks et-dirir. 3.1.3. Öz fikir və duyğularını yazıda əks etdirir. 3.1.4. Oxuduğu, dinlədiyi bədii və informativ mətnlərlə bağlı təqdimat edir. 3.1.5. Özünün və başqasının yazısını dəyərləndirir.

Dil qaydaları isə dördüncü məzmun xəttidir. Onun da əsas standartı belədir: "Şagird zəruri dil qaydalarını mənimsədiyini nümayiş etdirir."

4.1.1. Sait və samit səsləri fərqləndirir. 4.1.2. Sözləri hecalara ayırır. 4.1.3. Yazıda sadə orfoqrafik qaydalara əməl edir. eyilişi və yazılışı fərqlənən bəzi sözlərin düzgün yazılışını müəyyən edir. 4.1.4. Hərfləri əlifba sırası ilə sadalayır.

Bu kimi tələbləri müəllim tam reallaşdıra bilirmi? Şagirdin yaş və anlaq səviyyəsinə uyğun gələn standartlar çoxluq təşkil edirmi? Şagirdlər təlim prosesində yazı və dil qaydalarını tam yerinə yetirə bilirlərmi? Müqayisəli təhlillər aparmağı bacara bilirlərmi? Araşdırmalardan məlum olur ki, təlim prosesində müəllim və şagirdlər bir çox çətinliklərlə qarşılaşırlar. Materiallar dərslikdə asandan çətinə, sadədən mürəkkəbə verilsə də, çalışmalar, tapşırıqlar, testlər şagirdlərin anlaq səviyyəsinə tam uyğun glmir. Çünki standartları reallaşdırmaq uşaqların 5-6 yaş arası uşaqların qavrayacaq səviyyədə deyildir. Tövsiyə edirik ki, bunlar bir qədər sadələşdirilsin.

Bir icmal nümunəsi ilə tanış olaq. Mövzu: "Xoruzun neçə rəngi var?"

Standart:2.2.4. Mətndəki əsas fikri müəyyənləşdirir və sadə formada ifadə edir. 1.2.4. Müşahidə etdiyi əşya,hadisələr haqqında və şəkillər üzrə danışır.4.1.2. Sözləri hecalara ayırır.

Məqsəd:Mətndəki əsas məqamlarla bağlı sualları cavablandırır;Şəkildə və ya həyatda gördüyü əşyaları təsvir edir; Sözü təşkil edən hecaları müəyyən edir.

- İş üsulu: Müzakirə,Beyin həmləsi.
- İşforması: Kollektivləiş.
- Resurslar: Dərslik,elektronlövhə
- İnteqrasiya: Həyatbilgisi 1.3.1. Canlılaraləminə aidolarvarlıqları(bitki,heyvan,insan)tanıyır.
- Dərsingedişi:
- Motivasiya:Pipiyininqırmızı olması,mərcankimigözlərininolması,səhərtezdəndurması,banlaması kimi əlamətlərhansı canlıyaməxsusudur?

Tədqiqat sualı: Xoruzun neçə rəngi var?

Tədqiqatın aparılması:

1)Şagirdlər mətni oxuyur və mətndəki əsas fikri müəyyənləşdirirlər.

2) Şagirdlər mətni hecalar ayırmaqla üzündən oxuyurlar.

Məlumat mübadiləsi:Şagirdlər tapşırıqları həll etdikdən sonra təqdim edirlər və birlikdə fikir mübadiləsi aparırıq.

Məlumat müzakirəsi:Şagirdlərin cavablarını dinləyirəm və onlar üçün qaranlıq olan məqamları izah edirəm.

Ümumiləşdirmə və nəticə:Bu mərhələdə şagirdlər mövzunun nəticəsinə gəlirlər və xoruzun neçə rənginin olduğunu müəyyənləşdirirlər.

Yaradıcı tətbiqetmə: Şeirdəki sözləri hecalara ayırın.

Ev tapşırığı:Evdə "Xoruzun neçə rəngi var"mətninin məzmununu danışmağa öyrənin.

Qiymətləndirmə və ya refleksiya:Şagirdləri tapşırıqları yerinə yetirmə və vaxtdan səmərəli istifadə etmələrinə,müzakirələrdə iştirakına görə qiymətləndiririrəm.

İstifadə edilmiş ədəbiyyat:

1. Nurullayeva, Ü. Bayramova, İ. Allahverdiyeva, N. Xanalıyeva, A. Azərbaycandili (1-ci sinifdərslik) (I hissə) / Bakı, AltunKitab, 2019, 96 s.
2. Nurullayeva, Ü. Bayramova, İ. Zahidova, Ş. Xanalıyeva, A. Azərbaycandili(2-ci sinifdərslik) (I hissə), Bakı, AltunKitab, 2020, 104 s.
3. Nurullayeva, Ü. Bayramova, Ş. Zahidova, Ş. Allahverdiyeva, N. Xanalıyeva, A. Azərbaycandili (I sinifdərslik) (II hissə), Bakı AltunKitab, 2019, 80 s.

4. Nurullayeva, U. Zahidova, Ş. Bayramova, İ. Xanalıyeva, A. Məhyəddinova K. Azərbaycandili (2-ci sinifüçünmetodikvəsait) / Bakı, AltunKitab, 2020, 223s.
5. Rəhimov A.N. Ana dilinin tədrisi metodikası. Bakı, 2003, 408 s
6. Veysova Z. Məktəb müəllimləri üçün fəal təlim metodlarına giriş kursu. Bakı, 2004, 196 s.
7. Orientations, and Attributional Beliefs. The Journal of Educational Research, p,287-298.
8. Schunk, D. H.(1991). Self-Efficacy and Academic Motivation. Educational Psychologist, 207-231.
9. Margolis and McCabe, 2004. p.241-249; Wiesman, 2012. p.102 108.Margolis, H. &Mccabe, P. P. (2004)

Резюме

Свою научную работу автор посвятил анализу норм содержания для I-II классов. Он проводил исследования в этой области и пытался показать недостатки стандартов и их решения. Эсмира Мамедова не только анализировала нормативы I и II классов, но и изучала учебники. В своей исследовательской работе автор просмотрел множество литературы.

Ключевые слова: обучение, начальное образование, стандарт, аудирование, чтение, письмо, языковые правила

The summary

The author devoted his scientific work to the analysis of content standards for classes I-II. He conducted research in this field and tried to show the shortcomings in the standards and their solutions. EsmiraMammadova not only analyzed the standards of class I and II, but also studied the textbooks. The author reviewed many literatures in his research work.

Key Words: teaching, primary education, standard, listening comprehension, reading, writing, language rules

RƏYÇİ: dos. S.Abbasova

Gülnaz Vüqar qızı İbrahimli[93]

AZƏRBAYCAN DİLİNDƏ OMONİM QEYRİ-MƏHSULDAR ŞƏKİLÇİLƏR

Azərbaycan dili zəngin sözyaratma imkanlarına malikdir. Dilimizdə söz yaradıcılığının, əsasən, üç növü fərqləndirilir: 1. Leksik üsulla söz yaradıcılığı; 2. Morfoloji üsulla söz yaradıcılığı; 3. Sintaktik üsulla söz yaradıcılığı.

Son zamanlar dilimizdə leksik və sintaktik üsulla söz yaradıcılığının aktivləşməsinə baxmayaraq, morfoloji üsul hələ də yeni sözyaratmada daha fəal iştirak edir. Müasir Azərbaycan dili zəngin leksik şəkilçi sisteminə malikdir. Bu şəkilçilər müxtəlif meyarlar əsasında təsnif olunur: 1. Ad və ya feil yaratmasına görə; 2. Mənşəyinə görə; 3. İşlənmə tezliyinə görə; 4. Variantlaşmasına görə; 5. İşlənmə yerinə görə və s.

İşlənmə tezliyinə görə şəkilçilər 2 qrupa ayrılır: 1. məhsuldar və 2. qeyri-məhsuldar şəkilçilər. İstər məhsuldar, istərsə də qeyri-məhsuldar şəkilçilər dilimizdə yeni leksik vahidlər yaradaraq lüğət tərkibinin zənginləşməsinə səbəb olur. Məlumdur ki, şəkilçinin məhsuldar və qeyri-məhsuldarlığı onun sözyaratmada müvafiq olaraq aktiv və passiv iştirak etməsi ilə müəyyənləşir. Şəkilçilər də müstəqil lüğəvi mənalı sözlər kimi, omonimlik, sinonimlik və antonimlik xüsusiyyətlərinə malikdir. Şəkilçilərin bu qruplara ayrılması onların qrammatik xüsusiyyətləri ilə meydana çıxır və ona görə də qrammatik omonimlik, qrammatik sinonimlik və qrammatik antonimlik adlanır. Bu təsnifatda şəkilçilərin omonimliyi mühüm yer tutur. Dilimizdə mövcud olan həm məhsuldar, həm də qeyri-məhsuldar şəkilçilərin bir qismində omonimlik xüsusiyyətinə rast gəlinir. Omonimlik dildə gedən uzun və mürəkkəb inkişaf prosesi nəticəsində meydana gəlir. "Leksik omomorfemlərin öyrənilməsi məsələsi həm leksikaya, həm də qrammatikaya aiddir, çünki onlar həm leksik vahidlər əmələ gətirir, həm də qrammatik ünsürlərdir [4, s. 31]. Müasir ədəbi dilimizdə az sayda da olsa, omonimlik xüsusiyyətinə malik olan qeyri-məhsuldar şəkilçilər vardır. Bunların bəzilərini nəzərdən keçirək.

-a, -ə. Dilimizdə omonimlik xüsusiyyətinə malik olan şəkilçilərdən biridir. Həm leksik, həm də qrammatik şəkilçilərlə omonimlik təşkil edir:1) Adlardan isim əmələ gətirir, qeyri-məhsuldar şəkilçidir: *küpə, gecə, qoza* və s. Bu şəkilçinin feildən isim yaratması halına da rast gəlinir: "yarmaq" feilinə əlavə olunaraq *yara* ismini əmələ gətirir. Hər iki halda qeyri-məhsuldar şəkilçidir. S.Cəfərov adlardan isim yaradan -a, -ə şəkilçisindən bəhs edərkən bu şəkilçinin qoşulduğu bəzi sözlərin tərkibinə qarışaraq öz varlığını itirmək üzrə olduğunu göstərir. Müəllif yazır: "Hətta dilimizdə əslində bu şəkilçi ilə əmələ gəlmiş *bağa, kökə, ala, təpə* kimi düzəltmə sözləri kök və şəkilçiyə ayırmaq mümkün deyildir. Halbuki *bağa* sözü *bağ* sözündən, *kökə* sözü *kök* (ləhcələrdə kiçik yumaq) sözündən, *ala* sözü *al* (qırmızı) sözündən və *təpə* sözü isə *tap* (ləhcələrdə çox kiçik təpə) sözündən əmələ gəlmişdir" [2, s. 82]. Qeyd edək ki, dilimizdə çox sayda sözlər mövcuddur ki, onlar vaxtilə düzəltmə söz olmuşdur. Sonralar sözün kökünün öz müstəqilliyini itirməsi, sözdə baş verən hər hansı bir səs dəyişikliyi və s. səbəblərdən artıq onları kök və şəkilçiyə ayırmaq mümkün olmur.2) Adlardan sifət əmələ gətirir, ərəb-fars mənşəli qeyri-məhsuldar əcnəbi şəkilçidir: *qəribə, xaraba* və s. 3) Adlardan feil əmələ gətirir, məhsuldar şəkilçidir: *ələmək, qanamaq, diləmək, yaşamaq, boşamaq* və s. Bu şəkilçidən onomastikada şəxs adları yaradılmasında da istifadə olunur. Əsasən, kişi adlarından qadın adları yaradır. Məsələn, *Samir – Samirə, Vüsal – Vüsalə, İlham – İlhamə, Kamil – Kamilə, Elnur –* Elnurə və s. Bəzən isə bu şəkilçi qadınlara məxsus adlardan da yeni qadın şəxs adlarının yaranmasında iştirak edir. Məsələn, *Aynur – Aynurə, Gülnar – Gülnarə, Nərmin – Nərminə* və s. Maraqlı cəhət odur ki, qadın adları yaradan bu şəkilçinin dilimizdə yalnız -ə variantından istifadə olunur. Məlumdur ki, qadın zərif, incə varlıqdır. Fikrimizcə, bu zərif cinsin nümayəndələrinin adlarının səslənişinin də incə olması məqsədilə -ə variantının işlədilməsi daha uyğun görülmüşdür.

Bütün qeyd olunanlardan əlavə, -a, -ə şəkilçisi həm də ismin yönlük halı və feilin arzu şəklinin qrammatik göstəricisi ilə omonimdir.

-ar, -ər. Dilimizdə işlənən omonim qeyri-məhsuldar şəkilçilərdən biridir. Vaxtilə bu şəkilçi ilə yaranan sözlərin bəzisində şəkilçi sözün kökünə qarışmış və bu sözlər sadə sözlər kimi qəbul olunmuşdur. R.Mahmudova *gəbərmək, dəbərmək, aparmaq* sözlərini buna nümunə göstərir [4, s. 73].

Müasir dilimizdə -ar, -ər omonim şəkilçidir və aşağıdakı funksiyaları yerinə yetirir:

1) Feillərdən isim yaradır: *açar,, kəsər, çapar* və s.

2) Adlardan feil yaradır: *ağarmaq, bozarmaq, göyərmək, otarmaq, yaşarmaq, közərmək* və s.

3) Feillərdən feil yaradır: *qoparmaq, çıxarmaq* və s.

Həmçinin onomastikada xüsusi ad yaradan şəkilçi kimi fəaliyyət göstərir: *Anar, Sevər, Yaşar, Gülər* və s.

-ar, -ər şəkilçisi göstərilən leksik şəkilçilərdən əlavə, feilin qrammatik qeyri-qəti gələcək zaman şəkilçisi ilə də omonimdir.

-ır, -ir, -ur, -ür. Dilimizdə omonimlik xüsusiyyətinə malik olan şəkilçilərdən biridir. Həm isim, həm də feil yaratmağa xidmət edir.

1) Feillərə əlavə olunaraq isim yaradan qeyri-məhsuldar şəkilçidir. Məsələn, *gəlir, yatır, kəsir* və s.

2) Feillərdən feil yaradan məhsuldar şəkilçidir. Məsələn, *aşırmaq, qaçırmaq, keçirmək, köçürmək, uçurmaq, bitirmək* və s.

3) Feilin indiki zaman şəkilçisi ilə də omonimdir.

[93] Bakı Dövlət Universitetinin magistrantı. **E.mail:** gulnazibrahimli660@gmail.com

-ıd, -id, -ud, -üd. Omonimlik keyfiyyətinə malik qeyri-məhsuldar şəkilçilərdən biridir. Həm feillərə əlavə olunaraq isim yaradır (*keçid, öyüd, qurud*), həm də ismə əlavə olunaraq sifət yaradır (*yaşıd*). Göründüyü kimi, hər iki mövqedə qeyri-məhsuldar şəkilçidir.

-dər. Həm isimdən isim, həm də feildən feil yaradan omonim şəkilçidir. Hər iki mövqedə qeyri-məhsuldardır. İsim yaradarkən *ön* isminə əlavə olunaraq *öndər* ismini, feil yaradarkən *çönmək, dönmək* feillərinə əlavə olunaraq *çöndərmək, döndərmək* feillərini əmələ gətirir.

Bəzən feildən feil yaradan -dər şəkilçisindən bəhs olunarkən onun -dar, -tar variantlarının olduğu da qeyd olunur. Məsələn, Q.Kazımov bu şəkilçini -dar, -dər olaraq iki variantda vermiş və nümunələr arasında *qondar* sözünü də göstərmişdir [3, s. 173]. S.Cəfərov -dər şəkilçisinin -dar, -tar variantlarından bəhs etmiş, nümunələr arasında *qondar, axtar* sözlərini qeyd etmişdir [2, s. 121]. *Qondar* və *axtar* sözlərini müasir ədəbi dilimizdə kök və şəkilçiyə ayırmaq mümkün deyil. Ona görə də, -dər şəkilçisinin -dar və -tar variantlarının olduğunu söyləmək, fikrimizcə, doğru deyil. Bu sözlər vaxtilə düzəltmə sözlər olsa da, günümüzdə sadə söz kimi qəbul olunur.

-caq, -cək. Zəif işlənmə tezliyinə malik omonim şəkilçidir. Dilimizdə həm isim, həm sifət, həm də zərf yaratmağa xidmət edir. Hər üç mövqedə qeyri-məhsuldar şəkilçidir.

1) İsim düzəldir: a) isimdən isim yaradır: *əlcək, oyuncaq, diyircək, oduncaq*. b) feildən isim yaradır: *tüpürcək, əmcək, yelləncək, büründcək*.

2) Sifət düzəldir: a) isimdən sifət yaradır: *tumancaq*. b) feildən sifət yaradır: *ərincək, utancaq*.

3) Feildən zərf düzəldir: *sevincək*.

-kəm. Feildən həm isim, həm də sifət yaradan omonim şəkilçidir. Hər iki mövqedə zəif işlənmə tezliyinə malik qeyri-məhsuldar şəkilçidir. *Ötmək* feilinə əlavə olunaraq *ötkəm* sifətini, *görmək* feilinə əlavə olunaraq isə *görkəm* ismini yaradır.

-qan. Feillərdən isim yaradan -qan şəkilçisi qeyri-məhsuldardır, lakin feildən sifət yaradan məhsuldar şəkilçidir. Bizim fikrimizcə, ilkin olaraq sifət düzəldən bu şəkilçi sonradan müvafiq sözlərin substantivləşməsi nəticəsində isim düzəldən şəkilçi kimi də fəaliyyət göstərmişdir. Göründüyü kimi, həm isim, həm sifət yaratmağa xidmət edən -qan şəkilçisi dilimizdə mövcud olan çoxsaylı omonim şəkilçilərdən biridir. 1) feildən isim düzəldir: *asılqan, alışqan, yapışqan* və s. 2) feildən sifət düzəldir: *çalışqan, dalaşqan, vuruşqan, danışqan, uyuşqan, qızışqan* və s.

-an, -ən. Omonim şəkilçi kimi bir çox nitq hissəslərinin yaranmasında iştirak edən qeyri-məhsuldar şəkilçidir. Aşağıda göstərilən işlənmə məqamlarına malikdir:

1) Adlardan isim əmələ gətirir: *ərən, qalxan, talan* və s.

2) Adlardan sifət əmələ gətirir: *şoran, toran* və s.

3) Adlardan zərf əmələ gətirir: *qəsdən, qəflətən, daxilən, xaricən, hərfən, irsən* və s. Qeyd edək ki, zərf düzəldən bu şəkilçi birvariantlıdır.

4) Adlardan və təqlidi sözlərdən feil əmələ gətirir: *gücənmək, hıqqanmaq, hoppanmaq* və s.

Nümunələrdən də göründüyü kimi, -an, -ən şəkilçisi isim, sifət, zərf və feil yaradan qeyri-məhsuldar şəkilçidir. Həmçinin feili sifətin qrammatik göstəricilərindən biri olan -an, -ən şəkilçisi ilə də omonimlik təşkil edir.

-c. Dilimizdə həm isim, həm də sifət yaratmağa xidmət edən omonim şəkilçidir. Hər iki mövqedə qeyri-məhsuldar şəkilçi kimi çıxış edir. İsim yaradarkən feillərin həm kökünə, həm də başlanğıc formasına əlavə olunaraq yeni semantikalı isimlər yaradır. Məsələn, *tıxa-c, qazan-c, güvən-c, əylə-c, söykən-c, sev-in-c, döy-mə-c* və s. Feillərin başlanğıc formasına əlavə olunaraq sifət yaradır. Məsələn, *qıs-qan-c, iy-rən-c* və s. Həmçinin ismə artırılaraq sifət yarada bilir. Buna yalnız *anac* sözündə rast gələ bilərik. **-ca, -cə.** Müasir ədəbi dilimizdə müxtəlif məqamlarda işlənə bilən omonim qeyri-məhsuldar şəkilçilərdən biridir. Sözdüzəldici şəkilçi məqamında yeni semantikalı isim, sifət, zərf yaratmağa xidmət edir:

1) Feillərə əlavə olunaraq isim əmələ gətirən qeyri-məhsuldar şəkilçidir; *əyləncə, düşüncə* və s.

2) İsmə əlavə olunaraq sifət yaradan qeyri-məhsuldar şəkilçidir; *balaca*.

3) Adlara əlavə olunaraq zərf düzəldən məhsuldar şəkilçidir; *gizlicə, xəlvətcə, öncə, arsızca amansızca, mötəbərcə* və s.

-ca, -cə müasir ədəbi dilimizdə şəkilçiləşmiş qoşma və ədat kimi də işlənir. Bundan əlavə, qrammatika kitablarında sifətin dərəcə kateqoriyasından və bu kateqoriyanın çoxaltma dərəcəsinin -ca, -cə ədatı ilə yaranmasından bəhs olunur. Sual yarana bilər ki, əgər sifətin dərəcələri qrammatik kateqoriyadırsa, qrammatik kateqoriya ədat vasitəsilə yarana bilərmi? Ümumiyyətlə, dilçiliyimizdə bir çox problemlər var və bu problemlər hələ də öz həllini tapmamışdır. Fikrimizcə, hər hansı bir qrammatik kateqoriyanın bir nitq hissəsi vasitəsilə yaranmasını söyləmək qəbul edilməzdir.

-am, -əm. Dilimizdə işlənən omonim qeyri-məhsuldar şəkilçilərdən biridir. Adlara və feillərə əlavə olunaraq yeni semantikalı isim yaradır. Məsələn, *anlam, yaşam, dönəm, önəm, qavram, ortam* və s. Saylara əlavə olunaraq sifət yaradan qeyri-məhsuldar şəkilçi kimi də işlənir. Məsələn, *üçəm, dördəm* və s. Bəzən tədqiqatçılar bu şəkilçinin sifət yaratmasından bəhs etmir, yuxarıda qeyd olunan *üçəm, dördəm* sözlərini isə isimlərə göstərilən nümunələr arasında qeyd edirlər. Bunun əsas səbəbi kimi onu göstərmək olar ki, dilimizdə sifətlər digər nitq hissələrindən, xüsusilə də isimlərdən zahiri cəhətdən fərqlənmir. Onları bir-birindən fərqləndirən əsas əlamət lüğəvi mənasıdır. Lüğəvi mənasına görə əşyanın, hadisənin, prosesin adını bildirən sözlər ismə, hər hansı bir əşyanın əlamət və keyfiyyətini bildirən sözlər isə sifətə aid edilir. Sifət özündən sonra əlamətini, keyfiyyətini bildirdiyi ismi tələb edir. *Üçəm, dördəm* sözləri də sifətdir və özündən sonra ismin gəlməsini tələb edir, həmçinin sifətin sualına (hansı?) cavab verir. Fikrimizcə, həmin sözlərlə bağlı çaşqınlığın yaranmasının əsas səbəbi bu sözlərin dilimizdə daha çox substantivləşmiş formada istifadə olunmasıdır. Məlumdur ki, sifət substantivləşərkən ismin qrammatik xüsusiyyətlərini qəbul edir və özündən sonra ismin gəlməsini tələb etmir. Bu da məlumdur ki, sifət və ya digər

nitq hissələri substantivləşərkən ismin xüsusiyyətlərini qəbul etsə də, o, nitq hissəsi olaraq dəyişmir. Göstərilən bütün xüsusiyyətləri nəzərə alaraq, *üçəm, dördəm* sözlərinin sifət olduğunu söyləmək, fikrimizcə, daha doğru olar.

Yuxarıda qeyd olunan məqamlardan əlavə, -am[2] şəkilçisi həm də sifətdən zərf yaradan qeyri-məhsuldar şəkilçidir. Zərf yaradan şəkilçi kimi -am şəkilçisinə yalnız *tamam* sözündə rast gəlinir. *Tamam* sözünün sadə yaxud düzəltmə olması ilə əlaqədar tədqiqatçılar arasında fikir müxtəlifliyi mövcuddur. Məsələn, Q.Kazımov bu sözü sadə miqdar zərflərinə nümunə göstərmişdir [3, s 330]. *Tamam* sözünün kökü olan "tam" omonim sözdür: 1. "Dad" isminin sinonimidir. 2. "Bütün", "bütöv" sözlərinin sinonimidir. *Tamam* sözünün kökü ikinci mənadadır. *Tamam* leksik vahidinin "bütün" anlamını verən *tam* sözü arasında məna cəhətdən bağlılıq vardır. Buna görə də *tamam* sözünü sadə deyil, düzəltmə zərf kimi qeyd etmək, fikrimizcə, daha doğru olar. Göründüyü kimi, qeyri-məhsuldar omonim şəkilçilər müxtəlif işlənmə xüsusiyyətlərinə malikdir və bu omonim şəkilçilər müxtəlif mənalı sözlərə əlavə olunaraq onlardan yeni semantikalı sözlərin yaranmasına səbəb olur. Bu cəhətdən, leksik vahidlərin omonimliyi qədər şəkilçi morfemlərin omonimliyinin öyrənilməsi də zəruridir.

İstifadə olunmuş ədəbiyyat

1. Azərbaycan dilinin orfoqrafiya lüğəti. Bakı: Elm, 2021, 756 s.
2. Cəfərov S. Azərbaycan dilində söz yaradıcılığı. Bakı: Azərbaycan Universiteti, 1960, 204 s.
3. Kazımov Q. Müasir Azərbaycan dili, Morfologiya. Bakı: Elm və Təhsil, 2010, 400 s.
4. Mahmudova R. Azərbaycan dilində şəkilçilərin omonimliyi. Bakı: Çaşıoğlu, 2010, 164 s.

Açar sözlər: morfologiya, söz yaradıcılığı, omonim, qeyri-məhsuldar, şəkilçi

Ключевые слова: морфология, создание слов, омоним, непродуктивный, суффикс

Key words: morphology, word creation, homonym, unproductive, suffix

Xülasə

Müasir ədəbi dilimizdə mövcud olan omonim istər leksik vahidlər, istərsə də şəkilçi morfemlər kimi uzun inkişaf prosesi nəticəsində meydana gəlmişdir. Leksikologiya bölməsindən məlum olduğu kimi, omonim leksik vahidlər dedikdə eyni fonetik tərkibə, eyni tələffüz və yazılışa malik, lakin leksik mənası müxtəlif olan sözlər nəzərdə tutulur. Şəkilçi morfemlərin omonimliyində nə qədər fərqli xüsusiyyətlər olsa da, omonimlik anlayışının əsas məğzi eyni qalır. Yəni omonim şəkilçilər dedikdə fonetik tərkibi eyni, lakin müxtəlif qrammatik mənaları olan vahidlər nəzərdə tutulur. Ona görə də bunlar qrammatik omonimlər adlanır.Dilimizdə məhsuldar şəkilçilərdə olduğu kimi, qeyri-məhsuldar şəkilçilər də müxtəlif məqamlarda işlənərək omonimlik xüsusiyyətinə malik olur. Bir çox tədqiqatçılar dilimizdə mövcud olan qeyri-məhsuldar şəkilçilərin omonimliyindən pərakəndə şəkildə bəhs etmişlər. Qeyri-məhsuldar şəkilçilər həm qeyri-məhsuldar, həm də məhsuldar şəkilçilərlə, habelə həm laksik, həm qrammatik şəkilçilərlə omonimlik təşkil edir. Qeyri-məhsuldar şəkilçilərin omonimliyinin sistemli və ətraflı şəkildə öyrənilməsi, fikrimizcə, dilçiliyimiz üçün çox zəruridir. Bu həm dilçiliyimizin leksikologiya, həm də qrammatika sahəsi üçün əhəmiyyətlidir.

Омонимичные непродуктивные суффиксы в азербайджанском языке

Резюме

И омонимы, и лексические единицы, и суффиксальные морфемы, существующие в нашем современном литературном языке, образовались в результате длительного процесса развития. Как известно из раздела лексикологии, под омонимичными лексическими единицами понимаются слова, имеющие одинаковый фонетический состав, одинаковое произношение и написание, но разное лексическое значение. Как бы ни отличались признаки в омонимии образных морфем, основная суть понятия омонимия остается неизменной. Другими словами, омонимичные суффиксы означают единицы с одинаковым фонетическим составом, но разным грамматическим значением. Поэтому их называют грамматическими омонимами.

Как и продуктивные суффиксы в нашем языке, непродуктивные суффиксы употребляются в разное время и обладают свойством омонимии. Многими исследователями подробно обсуждалась омонимия непродуктивных суффиксов в нашем языке. Непродуктивные суффиксы образуют омонимию как с непродуктивными, так и с продуктивными суффиксами, а также с лексическими и грамматическими суффиксами. Систематическое и детальное изучение омонимии непродуктивных суффиксов, на наш взгляд, очень необходимо для нашего языкознания. Это важно как для лексикологии, так и для грамматики нашего языкознания.

Homonymous unproductive suffixes in the Azerbaijani language

Summary

Both homonyms, lexical units, and suffixal morphemes that exist in our modern literary language were formed as a result of a long development process. As it is known from the section of lexicology, homonymous lexical units mean words with the same phonetic composition, the same pronunciation and spelling, but different lexical meaning. No matter how different features are in the homonymy of figurative morphemes, the main essence of the concept of homonymy remains the same. In other words, homonymous suffixes mean units with the same phonetic composition but different grammatical meaning. Therefore, they are called grammatical homonyms

As with productive suffixes in our language, non-productive suffixes are used at different times and have the homonymy feature. Many researchers have discussed in detail the homonymy of unproductive suffixes in our language. Non-productive suffixes form homonymy with both unproductive and productive suffixes, as well as with both lexical and grammatical suffixes. A systematic and detailed study of the homonymy of unproductive suffixes is, in our opinion, very necessary for our linguistics. This is important for both lexicology and grammar of our linguistics.

RƏYÇİ: dos. L.Ələkbərova

Sevda Əmrah qızı Həsənzadə[94]

DİLİN MORFOLOJİ SƏVİYYƏSİ

Dil sisteminin əsas səviyyələrindən biri də morfoloji səviyyədir. Bu səviyyə dilçilik ədəbiyyatında morfemika səviyyəsi də adlanır. Fonem fonoloji səviyyənin əsas vahidi hesab olunduğu kimi, morfoloji səviyyənin əsas vahidi morfemdir. Həmçinin bu səviyyənin vahidi kimi morfemlə yanaşı sözformanı da qəbul edirlər.

V.İ.Koduxov dilin morfoloji səviyyəsinin iki növ vahidi - paradiqma və kateqotiyalara birləşən morfem və söz formasını əhatə etdiyini göstərmişdir. Dahi dilçi bu vahidlərə tabelilik sırası ilə baxıldığını, morfemin minimum morfoloji vahid olduğunu, o özü də morfoloji paradiqmanın elementi olan söz forma ilə təmsil olunduğunu qeyd edir.

Dilin ən kiçik mənalı vahidi morfemdir. O elə kiçik mənalı vahiddir ki, onu hissələrə ayırmaq olmaz. "Ən kiçik vahid" ifadəsi fonem haqqında işlənsə də, fonem dilin ən kiçik mənasız vahididir. Morfem ən kiçik mənalı vahid olmaqla fonemdən fərqlənir. Morfemlər də fonemlər kimi müxtəlif təzahür formalarına malikdir. Məsələn, Azərbaycan dilində ismin yiyəlik hal şəkilçisini göstərmək üçün *-ın/-in/-un/-ün* şəkilçisindən istifadə olunur. Bu şəkilçilər eyni qrammatik mənanı ifadə etdiyi üçün yalnız bir morfem hesab olunur.

L.Brinton morfemin xüsusiyyətlərini belə müəyyənləşdirir: "Morfem aşağıdakı xüsusiyyətlərə malikdir: 1. Daxili bölünməzdir, onu daha kiçik hissələrə bölmək və ya təhlil etmək olmaz; 2. Mənalı vahidlərdir; 3. Tələffüz edilə bilər; 4.Müxtəlif kontekstdə baş verən dəyişikliklərə və ya sərbəst paylanmaya malikdir" [11, s. 82].

Morfem deskriptiv dilçilikdə dil strukturunun mərkəzi vahidi hesab edilir. Deskriptiv dilçilərin əsərlərində, habelə müasir dilçilikdə morfoloji səviyyənin vahidi kimi morf termininə geniş yer verilir. Sual oluna bilər morf nədir?

Rus dilçisi Y.S.Stepanov morf anlayışını belə izah edir: "Morf - sözün son mənalı hissəsidir, yəni mənasını itirmədən daha bölünə bilməyən hissəsidir... Fonetikadan qrammatikaya qədər olan yolu keçmək üçün morfun mənasının məhz necə olduğunu bilmək vacib deyildir, yalnız onu bilmək lazımdır ki, o vardır" [10, s. 111].

Müəllifdən gətirdiyimiz sitata əsaslanaraq deyə bilərik ki, morf deyərkən, şəkilçi variantları, yəni allomorflar nəzərdə tutulur. Bir də sual oluna bilər ki, morf deyərkən şəkilçi variantları nəzərdə tutulursa, onda bəs morfem nədir?

Dahi dilçi həmin əsərdə bu sualın izahını belə verir: "....morfem hər biri allofonlardan ibarət olan və hansısa müəyyən bir mövqedə rast gəlinən eyni morfların sinfidir. Belə sinfin hər bir morfu allomorf adlanır, bununla belə morfem allomorflara nisbətən daha ümumi vahiddir, yəni dilin onlardan daha yüksək səviyyəsinə məxsus vahiddir. Morfem və onun allomorfları arasındakı münasibətlər "invariant" və "variantlar" arasındakı münasibətlər kimidir" [10, s. 116].

Laurel J.Brinton morf və morfem anlayışlarını fərqləndirərək yazır: "Beləliklə, biz sözləri iki müxtəlif şəkildə təhlil edə bilərik: morfoloji təhlildə sözlər formal bölmələrə görə morflara, morfemik təhlildə isə mövcud olan mücərrəd məna vahidlərini tanıyaraq morfemə çevrilir" [11, s. 79].

Və dilçi fikrini misallarla əsaslandıraraq yazır:

	Morfoloji analiz	Morfemik analiz
Writers	3 morf *writ/er/s*	3 morfem *{write}+{er}+{pl}*
Authors	2 morf *author/s*	2 morfem *{author}+ {pl}*
Mice	1 morf *mice*	2 morfem *{mouse}+{pl}* [11, s. 79]

Morfologiyaya münasibətdə də morfemlər iki fərqli funksiya icra edir: konstruktiv, yəni qurucu və inteqrativ, yəni birləşdirici. Morfem hal, kəmiyyət, cins və s. qrammatik formaların qurulmasında iştirak edir ki, bu onun konstruktiv funksiyasından irəli gəlir. Eyni zamanda morfem eynitipli formaları siniflər halında birləşdirir və bununla da qrammatik mənaların real dil vahidləri kimi qrammatik kateqoriyaların təşəkkül tapmasında iştirak edir. Və bu da onun inteqrativ funksiyasından qaynaqlanır. Morfemlər kök və şəkilçi olmaqla iki yerə ayrılır. A.Qurbanov şəkilçi morfemləri budaq morfem şəklində, Ə.Rəcəbli kök morfemi mənalı, şəkilçi morfemləri isə köməkçi morfem şəklində, F.Veysəlli isə kök morfem və qeyri-kök morfemlər(affiksal) adlandırır. Kök morfemlər qrammatik məna ilə yanaşı leksik məna da ifadə etdiyi halda, şəkilçi morfemlər yalnız qrammatik məna ifadə edir. F.Veysəlli qeyd edir ki, şəkilçi morfemlər funksiyasına görə sözdüzəldici və sözdəyişdirici olmaqla iki yerə bölünürlər.

Rus dilçisi V.İ.Koduxov morfemlərin təkcə kök və affiks deyil, həm də köməkçi sözlər olduğunu göstərmişdir. Həmçinin dilçi qeyd edir ki, monomorfem sözlər olsa da, polimorfem sözlər də morfemə bölünsə də, morfemlər, ümumiyyətlə, dilin, xüsusən, morfemik-morfoloji yarusun müstəqil vahidləri deyildir.

Dilin morfoloji sistemində kök morfemlər aparıcı rola malikdirlər və onlar sistemin özəyini təşkil edirlər. Dillərin quruluşundan asılı olaraq kök morfemlərin müxtəlif formaları olur. Aqlütinativ dillərdə kök morfemlər sadə sözlərə uyğun gəlir, lakin flektiv dillərdə söz şəkilçi və kök morfemin birikməsindən əmələ gəlir. Dilçilikdə söz kökünün sonunda işlənən şəkilçi morfemlər postfiks, suffiks. söz kökünün və ya əsasının əvvəlində işlənən budaq morfemlərə prefiks, söz kökünün və ya əsasının daxilində işlənənlər isə infiks adlanır. Qeyd etmək lazımdır ki, bu xüsusiyyətlər flektiv dillər üçün səciyyəvidir. Azərbaycan dili aqlütinativ dil tipinə daxil olduğuna görə bütün bunları bir deyimlə - şəkilçi adlandırılır.

A.Qurbanov budaq morfemləri izah edərkən qeyd edir: "Dilçilikdə budaq morfemlər sistemindən bəhs olunarkən interfiks termini ilə budaq morfemin bir tipi də göstərilir. Azərbaycan dilində buna uyğun dil hadisəsi *əlbəəl, üzbəüz, anbaan, gəlhagəl, vurhavur* və s. sözlərdə özünü göstərir. Göründüyü kimi, bu sözlərdə *-ba, bə, -ha* interfiks şəkilçiləri eyni söz

---

[94] Bakı Dövlət Universitetinin magistrantı

kökləri ortasında işlənərkən yeni mənalı söz əmələ gətirir. Dildə budaq morfemlərin hamısı yeni mənalı (leksik) söz əmələ gətirir. Buna görə də dilçilikdə budaq morfemlər iki qola ayrılır: sözdüzəldici, sözdəyişdirici" [3, s. 446].

İngilis dilçisi Laurel J.Brinton "Müasir ingilis dilinin strukturu" əsərində morfemləri qrammatik və leksik morfemlər olmaqla iki növə bölür. Öz növbəsində həm qrammatik, həm də leksik morfemlərin növlərini sxem üzərindən göstərmişdir. Dilçi qrammatik morfemləri funksional sözlər və flektiv affiks, leksik morfemləri isə məzmunlu söz və törəmə affiks olmaqla qruplara bölmüşdür.

A.Babayev məsələyə bir qədər fərqli yanaşmış, morfemləri tərkibinə və funksiyasına görə iki növə ayırmışdır. Dilçi tərkibinə görə morfemləri birfonemli, ikifonemli və çoxfonemli qruplara ayıraraq onların izahını verir: *"... a, ə, ı, i* fonemləri morfem funksiyasını kəsb edə bilər. Yəni, yönlük və təsirlik halın qrammatik əlaməti olduqda tək fonem morfem kimi çıxış edir. Cütfonemli morfemlərdə iki fonem olur. Məs., *və, ki, ək, su, lu* və s. cütfonemli morfemlərdir. Çoxfonemli morfemlərin tərkibində bir neçə fonem olur. Əgər affikslərdən başqa köməkçi nitq hissələrini də morfem kimi qəbul etsək, çoxfonemli morfem haqqında aydın təsəvvür yaranar: lakin, amma, bəlkə, çünki və s." [2, s. 348].

A.Babayev funksiyasına görə morfemləri kök və affiksal morfem şəklində növlərə bölür. Dilçi affiksal morfemləri növlərə bölür: Derivasion (sözdüzəldici) morfem, sıfır morfem, birləşdirici morfem, seqment morfem, affiksal morfem və s. A. Babayev sıfır morfemi affiksal morfemlərə aid etdiyi halda, F.Veysəlli sıfır morfemi qrammatik morfemlərin içərisində verir və qrammatik morfemlərin içərisində sıfır morfemlə yanaşı əməliyyat morfemləri, prosodik morfemlər və təkrar morfemlərin mühüm rol oynadığını qeyd edir.

F.Veysəlli "Dilçiliyə giriş" kitabında kök morfemləri beş qrupa bölür: "Dilin kök morfemlərini biz 5 qrupa bölürük: 1.dəyişməz kök morfemlər. Məs., Azərb. d.: */at/, /it/, ing.d.: /koet/"cat" (pişik) və s.;* 2. dəyişməz kök morfemlər + sıfır morfem. Məs., Azərb. d.: *olax/ (çolaq), ing.d.: /fi:p/ "sheep" (qoyun) və s.* 3.dəyişən kök morfemlər + şəkilçi morfem: məs., ing.d. *taild/"child" /tfild+raən/ "children" (uşaq-uşaqlar);* 4.dəyişən kök morfemlər + sıfır morfem. Məs., ing.d.: */fu:t/ /fu:t/ "foot" /fit/ "feet" (ayaq-ayaqlar), Azərb. d.: /uzun-uzan/ və s.* Bundan başqa homofon formalar var ki, onlar aşağıdakı şərtlər daxilində fərqli morfemlər olurlar: 1. Omofon formalar fərqli məna ilə müxtəlif morfemlər yaradırlar. Məs. ing. d. */pear/ (armud), /pare/ (soymaq) və /pair/ (cüt)* omofondurlar: /peal; 2. Nisbi mənalarla omofon formalar o zaman sadə morfem yaradırlar ki, onların sinfi distribusiya fərqlərinə paralel olsun, ancaq onlar məna klasları ilə distribusiya fərqlərində paralel olmasalar, çoxtərəfli morfemlər yaradırlar. Əlbəttə, burada söhbət konversiyadan gedir. Məs., ing. d. */run/ (qaçış). /they run/ (onlar qaçırlar) və /their run/ (onların qaçışı)* və s. [5, s. 208-209].

V.B.Kaseviç bütün morfemləri iki yerə - leksik və qrammatik morfemlərə bölür. Rus dilçisi qeyd edir ki, qrammatik morfemlər daha mücərrəd olub, aydın təzadlar sistemi təşkil etdiyi halda, leksik morfemlər daha konkret və az sistemlidir [7, s. 58].

Rus dilçisi Y.S.Maslov danışıq aktında tutduğu yerə görə morfemləri iki yerə bölür: seqment və superseqment.

Ə.Rəcəbli sözə qarşı münasibətdə morfemin konstruktiv funksiya yerinə yetirdiyini qeyd edir. Dilçi söz və morfem arasında hüdudu müəyyənləşdirərək yazır: "Məlum olduğu kimi, bu, həmin iki dil vahidini yaxınlaşdıran yeganə xüsusiyyət deyildir. Lakin buna baxmayaraq söz və morfem arasında dörd xətt üzrə aydın hüdud müəyyənləşdirmək olar: 1. Dilin mənalı vahidləri kimi morfemlər yalnız sözdə mövcuddur, sözlər isə, adətən, cümlənin tərkibində çıxış edir; morfemlər cümlənin tərtibində bilavasitə iştirak edə bilmir. 2.Sözlər əksəriyyətlə tərkibi xarakterli struktur bütövlər olduğu halda, morfemlər dilin ən kiçik mənalı vahidləridir və daha kiçik (mənalı) hissələrə bölünmür. 3.Sözlərdən fərqli olaraq morfemlər leksik-qrammatik aidliyə malik deyildir. Sözlər dildə həmişə struktur vahidlər kimi çıxış edir və müəyyən leksik-qrammatik dərəcəyə aid olur. Buna görə də hər hansı bir söz leksik-qrammatik vəhdətdir. Morfemlər isə ya leksik mənaya işarə edir, ya da müəyyən qrammatik vəzifə yerinə yetirir. 4. Sözlər təkcə yenidən yaradılan vahidlər deyil, həm də nitq prosesində danışanın yaratdığı yaranmalardır. Morfemlər isə həmişə yenidən yaradılan vahidlərdir və dildə hazır şəkildə mövcud olur" [4, s. 218].

Yuxarıda qeyd olunduğu kimi, morfoloji səviyyənin ikinci vahidi sözformadır. Bəzi ədəbiyyatlarda morfoloji səviyyənin vahidi morfem kimi qəbul edilsə də, digərlərində morfemlə yanaşı sözforma da bu səviyyənin vahidi kimi qəbul olunur. Bu termin Moskva dilçilik məktəbinin nümayəndələri tərəfindən morfoloji nəzəriyyəyə gətirilmişdir. Flektiv və aqlütinativ dillərdə sözforma morfoloji səviyyənin ən mühüm vahididir.

V.İ.Koduxov yazır: Sözforması sözün ilkin artikulyasiyası, söz kökünün sabit hissəsinə və dəyişən bir sonluğuna (fleksiya) leksik və ümumi qrammatik mənaları, sonluq isə xüsusi qrammatik mənaları ifadə edir" [8, s. 139].

L.R.Zinder qeyd edir ki, "Morfoloji təhlil müəyyən bir dildə mövcud olan morfemlərdən hansının verilmiş söz formasında olduğunu göstərir. Verilmiş sözformasının hansı hissələrinin digər leksik vahidlərdə də rast gəlindiyinə və ya bu sözformasının necə əmələ gəldiyinə nəzər salsaq, onda mənzərə fərqlidir. Adətən, affikslər (prefikslər və şəkilçilər) və sonluqlar yalnız sözformalarının bir hissəsi kimi görünür. Onlar köməkçi məna daşıyır, söz və ya sözformaları yaratmaq üçün istifadə olunur. Formalaşdırıcı morfemlər arasında sonluqlar və şəkilçilər fərqlənir. Birincilər sintaktik məna daşıyır və cümlədə verilmiş sözün başqa sözlərlə əlaqəsini bildirmək və ya onun sintaktik funksiyasını ifadə etmək üçün işlənir" [6, s. 31].

Fonemlərdə olduğu kimi morfemlərdə də varinatlıq münasibətləri özünü göstərir, lakin qismən birtərəfli dil vahidi olan fonemdən fərqli olaraq morfemlərdə məsələ bir qədər mürəkkəbləşir. Morfemlər müxtəlif işlənmə məqamlarında allomorf və yaxud morf adlanır. Bəzi dilçilər isə morfemin müxtəlif şəraitdə işlənməsini alloson adlandırır. Söz və fonemlər kimi

morfemlər də xəttilik prinsipi ilə bir-birinin ardınca düzülür. Kök morfemlərdən sonra əvvəlcə sözyaradıcı şəkilçi morfemlərin gəlməsi, sonra isə formadüzəldici morfemlərin işlənməsi məhz xəttilik prinsipinə uyğundur.

ƏDƏBİYYAT

1. Axundov A. Ümumi dilçilik. Bakı: Şərq-Qərb, 2006, 280 s.
2. Babayev A. Dilçiliyə giriş. Bakı: Maarif, 2004, 504 s.
3. Qurbanov A. Ümumi dilçilik. I c., Bakı: Elm, 2011, 756 s.
4. Rəcəbli Ə. Nəzəri dilçilik. Bakı: Nurlan, 2003, 515 s.
5. Veysəlli F. Dilçiliyə giriş. Bakı: Mürtəcim, 2017, 456 s.
6. Зиндер Л.Р. Общая фонетика. Москва, 1987, 176 с.
7. Касевич В.Б. Введение в языкознание. Москва, 2011, 240 с.
8. Кодухов В.И. Общее языкознание. Москва 1974, 303 с.
9. Маслов Ю.С. Введение в языкознание. Москва,1987, 272 с.
10. Степанов Ю.С. Основы общего языкознание. Москва, 1975, 271 с.
11. Laurel J. Brinton. The structure of modern English. Amsterdam/Philadelphia, 1987, 335 s.
12. Mulder J.W.F. Sets and relations in phonology. London, 1968, 63 s.

Açar sözlər: morfem, morf, sözforma, kök morfem, şəkilçi morfem

Key words: morpheme, morph, word form, root morpheme, suffix morpheme

Ключевые слова: морфема, морф, словоформа, корневая морфема, суффиксная морфема

Xülasə

Tədqiqat işində dilin əsas səviyyələrindən biri olan morfoloji səviyyənin xüsusiyyətlərindən danışılır. Məqalədə həm görkəmli dilçilərin morfem haqqında mülahizələri qeyd olunmuş, həm də morfemin əsas əlamətlərindən bəhs olunmuşdur. Qeyd olunur ki, morfem ən kiçik mənalı vahid olmaqla fonemdən fərqlənir. Bununla yanaşı morfem daha kiçik hissələrə bölünə bilməyən, tələffüz edilə bilən vahiddir. Məqalədə morfoloji səviyyənin ikinci vahidi olan sözformadan da bəhs edilir. Sözforma morfoloji səviyyənin vahidi kimi qəbul olunması mübahisəli məsələlərdəndir. Bəzi dilçilər sözformanı bu səviyyənin vahidi kimi qəbul etsə də, digərləri morfemi morfoloji səviyyənin vahidi kimi qəbul edirlər. Həmçinin morfemlə yanaşı morf termini də nəzərdən keçirilmişdir. Morfemlə morf anlayışının əhəmiyyətli fərqi göstərilmişdir.

Summary

The research work talks about the characteristics of the morphological level, which is one of the main levels of the language. In the article, the opinions of prominent linguists about the morpheme were mentioned, and the main signs of the morpheme were discussed. It is noted that the morpheme differs from the phoneme by being the smallest meaningful unit. However, a morpheme is a pronounceable unit that cannot be divided into smaller parts. The word form, which is the second unit of the morphological level, was discussed. Accepting the word form as a unit of the morphological level is a controversial issue. Although some linguists consider the word form as the unit of this level, others consider the morpheme as the unit of the morphological level. Also, the term morph was considered along with morpheme. A significant difference between the concept of morpheme and morph is shown.

Резюме

В исследовательской работе говорится об особенностях морфологического уровня, который является одним из основных уровней языка. В статье упоминались мнения видных лингвистов о морфеме, обсуждались основные признаки морфемы. Отмечено, что морфема отличается от фонемы тем, что является наименьшей значимой единицей. Однако морфема — это произносимая единица, которая не может быть разделена на более мелкие части. Обсуждалась словоформа, являющаяся второй единицей морфологического уровня. Принятие словоформы за единицу морфологического уровня является спорным вопросом. Хотя одни лингвисты считают единицей этого уровня словоформу, другие считают единицей морфологического уровня морфему. Также наряду с морфемой рассматривался термин морфа. В статье также рассмотрены различия между морфемой и морфом.

RƏYÇİ: dos. S.Abbasova

Nailə Kamil qızı Məmmədova[95]

NATİQLİK SƏNƏTİNDƏ PUBLİK ÇIXIŞ

Xalq yaradıcılığının incilərindən olan natiqlik sənəti cəmiyyətdə mühüm yer tutur. Natiqlik sənəti hər bir insanın qabiliyyətini, istedadını üzə çıxarır. Natiqlik sənətinin ən böyük rolu ondan ibarətdir ki, bu sənət vasitəsilə yeni natiqlər və cəmiyyətə xidmət edən təbliğatçılar yetişir. Natiqliyin əsas xüsusiyyətlərindən biri odur ki, bu sənət ilə məşğul olan hər bir adam hansı mövzuda nitq söyləyirsə, həmin elmi dərindən öyrənir və müşahidələr aparır. Bu da fikrin elmi əsaslarla ifadə olunmasına xidmət edir. Millətindən asılı olmayaraq hər bir natiq xalqına yaxından bağlı olur və həqiqətlərin üzə çıxarılmasında, kütləyə çatdırılmasında öz məharətlərindən istifadə edirlər. Bu bir danılmaz faktdır ki, XX əsr Azərbaycanda natiqlik sənəti və onun inkişafı yeni mərhələyə qədəm qoydu. Bu dövrdə natiqlik sənəti, üslub və üslubiyyat haqqında dəyərli fikirlər, elmi məqalələr, kitablar, dərsliklər yazılıb çap olunmuşdur.

Cəmiyyətimiz inkişaf etdikcə informasiya bolluğu yaranır. Televiziya, radio hər gün nə qədər informasiyanı əhatə edir. Dünyada baş verən hadisələrin şərhi, daxili xəbərlər, rəsmi xronika, siyasi icmalçıların təhlili və s. natiqlik sənətinin inkişafına xeyli köməklik göstərir, xalqın dünyagörüşünü zənginləşdirir.

İdarələrdə, yığıncaqlarda, təntənəli gecələrdə nitq söyləyən və ya çıxış edən hər bir şəxs qarşısında belə bir məqsəd qoymalıdır ki, söylədiyi nitq cəmiyyətə xidmət etmiş olsun. Əsl natiq nitqini cəlbedici qurmalıdır. Xalq kütləsi, kollektiv arasında natiqin nüfuzunu qaldıran, onu hörmətli edən əsas cəhətlərdən biri nitqin inandırıcı və qərəzsiz olmasıdır. Fikri sübut və faktlarla ifadə etmək üçün natiq tutarlı materiallardan istifadə etməlidir. Natiqlik sənətinin özünəməxsus xüsusiyyətlərindən biri də nitq zamanı gətirilən sitatların fikirlə bağlı olmasıdır. Fikrin dolğun şəkildə dinləyiciyə çatdırılmasında mənbədən gətirilən sitatlar aydın, düzgün və səlis ifadə olunmalıdır.

Hər bir natiqin şəxsi xüsusiyyətləri ilə bərabər fərdi üslubu olmalıdır. Onun yazdığı hər hansı mühazirə, çıxış xidmət etdiyi cəmiyyətlə güclü təmasda olmalıdır. "Şairə, yazıçıya, jurnalistə, tənqidçiyə və digər şəxslərə xas olan fərdi üslub natiqlik sənətində mühüm və əsas keyfiyyətdir. Hər bir natiq nitqini qurarkən dildə işlənən sözləri saf-cürük edir, fikrini dolğun, obrazlı ifadə etmək üçün dil vahidlərini düzgün seçib işlədir. Bu xüsusiyyət natiqin səviyyəsini üzə çıxarır. Ona görə də natiq olmaq istəyən hər bir şəxs dilin incəliklərini bilməlidir, ondan düzgün istifadə etməlidir" (2, s. 45).

Söylənilən fikirlərdən aydın oldu ki, natiqlik sənəti cəmiyyətə xidmət edir. Cəmiyyət isə uzun bir tarixi yol keçmişdir. Bu tarixi yol natiqlik sənətinin müxtəlif növlərinin və şəkillərinin yaranmasına şərait yaratmışdır. Eyni zamanda cəmiyyətin inkişafına və tərəqqisinə xeyli kömək göstərmişdir. Onu da qeyd edək ki, cəmiyyətin inkişafı bir xətt üzrə getmədiyi üçün natiqlik sənətinin də təsnifi, bölgüsü müxtəlif şəkildə təzahür etmişdir. Yəni cəmiyyətin inkişafında bir sahə yüksək səviyyədə, digəri orta, başqa birisi isə durğunluq dövrü keçirərək yaşamışdır. Bu müxtəliflik şübhəsiz ki, cəmiyyətlə birgə inkişaf edən natiqlik sənətində də özünü göstərməyə bilməzdi. Ona görə natiqlik sənətinin növləri ya tam əhatə olunmamış, ya da bölgülərdə naqislik özünü göstərmişdir. Bu bölgülərin müxtəlifliyinə, tədqiqatçıların fikir ayrılığına baxmayaraq, bu, natiqlik sənətinin müvəffəqiyyəti idi. Artıq bir elm kimi mütəxəssislərin diqqətini cəlb edən natiqlik sənəti elmi mübahisələrin yaranmasına şərait yaratdı və öz varlığını sübut etdi. Publik çıxışda naqitliyin müxtəlif növləri var: İctimai-siyasi natiqlik-

İstər keçmişdə, istərsə də indi ictimai-siyasi natiqlik xalqın həyatında, inkişafında mühüm rol oynayır. İctimai-siyasi natiqlik mövcud quruluşun həm mənfi, həm də müsbət keyfiyyətlərini əks etdirir. Cəmiyyət inkişaf etdikcə siyasi baxışlar ictimai-siyasi natiqlikdə özünə yer tapır. Keçirilən mitinqlər, nümayişlər, yığıncaqlar isə yeni natiqlərin yetişməsinə səbəb olur.

Siyasi natiqlikdə özünə yer tapan natiqlər isə xalq ideyalarının yayılmasında əsl təbliğatçıya çevrilir. Belə nitqlərin təsiri nəticəsiz qalmır. İctimai-siyasi nitqin əsas qollarından birini təşkil edən hesabat məruzələri isə icra olunmuş işlər haqqında yekun sözü deyir, görülən işlər təhlil olunur və qiymətləndirilir. Bu mərhələdən sonra qarşıda duran yeni məqsəd və vəzifələr müəyyən olunur.

İctimai-siyasi natiqlik əsasən mövcud iqtidarı müdafiə edir. Onun siyasi fikirlərini, məqsəd və vəzifələrini təbliğ edir. Müxalifət qüvvələrinin belə fikirlərlə razılaşmaması ziddiyyətli fikirlərin meydana gəlməsinə səbəb olur. Bu isə cəmiyyətin siyasi inkişafına təkan verir. Yeni natiqlərin, liderlərin yaranmasına gətirib çıxarır. Siyasi natiqlik kütləvi xarakter daşıyır, xalqa xidmət edir.

İctimai-siyasi natiqliyin əsas xüsusiyyətlərindən biri ondan ibarətdir ki, o, xalqa xidmət edir. Onun mənafeyini hər şeydən üstün tutur. İctimai-siyasi natiqliyin qədim və zəngin ənənəsi vardır. Bu növ natiqlik təbliğat və təşviqat işlərində xalqa əvəzsiz xidmət edir. Dövlətin yeritdiyi məqsəd və vəzifələri xalqa aşılayır, qarşıya çıxan problemləri aydınlaşdırır, ictimai-siyasi məsələlərin düzgün təhlil olunmasında kəsərli silah kimi nəzəri-diqqəti cəlb edir. Məhz bu xüsusiyyətlər onu digər növlərdən fərqləndirir. Akademik natiqlik- "Ali məktəb ocaqlarında oxunan mühazirələr, elmi məruzələr, müzakirələr bu növə daxildir. Akademik natiqliyi digər növlərdən fərqləndirən əsas xüsusiyyət ondan ibarətdir ki, burada elmiliyə daha çox yer verilir. Hər bir natiq mühazirəyə hazırlaşarkən ona yaradıcı yanaşır, verilən sualları elmi əsaslarla şəhr edir" (3, s. 72).

Akademik natiqliyin əsas məziyyətlərindən biri də mövzunun əvvəlcədən dinləyicilərə məlum olmasıdır. Məsələn, hər hansı bir ixtisas sahibi hazırladığı mühaziräni dinləyicilərin səviyyəsinə uyğun qurmalı və müəyyən ümumiləşmələr aparmaq qabiliyyətinə malik olmalıdır. Mühazirə hazırlanarkən mübahisə doğuran məsələlər aradan qaldırılmalıdır. Əgər fakt, sübut, dəlil varsa, bu, nitqin təsir gücünü artırır.

Bəzi elmi məruzələrdə isə vəziyyət dəyişir. Onlarda konkretlik olmur. Bəzilərində isə fərziyələr irəli sürülür. Bu xüsusiyyət onu mühazirədən fərqləndirir. Belə məruzələrdə məsələnin həlli ümumi xarakter daşıyır, mahiyyət açılmır. Elmi məruzələr fərziyyə xarakteri daşıyırsa, onda sübut, dəlil, fakt işlənə bilmir. Məsələn, zəlzələnin nə vaxt baş verəcəyi faktı elm

---

[95] BDU-nun dosenti

aləminə bəlli deyil. Şübhəsiz ki, bu barədə deyilən sözlərin, fikirlərin nə fakta, nə də sübuta ehtiyacı var. Lakin onu da yaddan çıxarmaq olmaz ki, ayrıca bir problemin həllində, mübahisələrə, dəlil və sübutlara ehtiyac duyulur. Bu zaman elmi məruzə mühazirəyə yaxınlaşır, lakin dilinə görə, ifadə vasitələrinə görə yenə də özünəməxsusluğunu saxlayır. Elmi məruzələrin dili, ifadə tərzi mühazirəyə nisbətən qəliz olur. Elmi məruzələr əsasən simpoziumlarda, konfranslarda daha çox işlənir. Akademik natiqliyin də inkişafı cəmiyyətin tərəqqisinə bağlıdır. Elm, texnika nə qədər çox inkişaf edirsə, akademik natiqlik də bir o qədər tərəqqi edir. Akademik natiqlik hər hansı bir elmi kəşf və ya tədqiqat barədə məlumat verməklə bərabər, müəyyən tezis xarakteri daşıyan müddəalardan da dinləyiciyə məlumat verir. Akademik natiqlik həm də müəyyən məcmuələrdə, jurnallarda elmi xəbərlər adı altında bir qrup adamlara çatdırılır. Bu xəbərlər isə öz növbəsində uzunçuluqdan, təkrarlardan seçilir. Elmi xəbərlərdə əsas meyar xəbərlərin şərhi hesab olunur. Akademik natiqliyin inkişafında müəllimlərin, bilik cəmiyyətində işləyən elmi işçilərin mühüm rolu vardır. Akademik natiqlikdə elmi düsturlar, təriflər, terminlər, dəlil, sübut, fakt, izahlar əsas amil kimi özünü göstərir. Akademik natiqlik kütləvi xarakter daşımır.

Qeyd etmək lazımdır ki, elm inkişaf etdikcə, onun qolları çoxşaxələrə bölündükcə, akademik natiqlik də genişlənir, zənginləşir və daha da təkmilləşir. "Akademik natiqlikdə dil vahidləri məhdud dairədə işlənir, geniş şəkildə işlədilməsi mümkün olmayan, anlaşılmayan sözlərin, ifadələrin işlənməsi isə bu nitqin təsir qüvvəsini azaltmır, əksinə, elmi cəhətdən fikrin orijinallığına xidmət edir" (3, s. 102).

Məhkəmə natiqliyi - Məhkəmə natiqliyi natiqlik sənətində ən qədim tarixə malik demokratik əsaslar üzərində qurulan bir anlayışı ifadə edir. Natiqlik sənətinin inkişafında əvəzsiz xidmətləri olan məhkəmə natiqliyi antik dövrün məhsulu kimi diqqəti cəlb edir. Solon islahatlarından sonra özünü müdafiə nitqlərinin yaranması, loqoqrafların yetişməsi məhkəmə natiqlik sənətinin bünövrəsini qoydu. Qədim Yunanıstanda Demosfen, Lisi, İsey, Romada Siseron, Fransada andlı məhkəmələrə Lemetr, Demanj, Rusiyada Aleksandrov, Plevako, Konn kimi natiqlərin yetişməsi böyük bir məktəbin yaranmasına gətirib çıxardı.

Məhkəmə natiqliyi müttəhimin müdafiəsi üzərində qurulur və ədalətin zəfər qazanması üçün vəkil nitqi kimi hüquqi əsaslarla səciyyələnir.

Bununla da məhkəmə zamanı gizli qalan hadisələr, obyektiv və subyektiv cəhətlər elmi şəkildə araşdırılır və ədalətli nəticə əldə edilir.

Məhkəmə natiqliyini digər növlərdən fərqləndirən əsas xüsusiyyətlər ondan ibarətdir ki, o, hüquq, psixologiya, məntiq, pedaqoqika, dil, ədəbiyyat və digər elmlərlə sıx şəkildə bağlıdır.

Məhkəmə natiqliyində əsas məsələlərdən biri müttəhimin son söz söyləməsidir. Bu son söz adətən ibrətamiz xarakter daşıyır. Müttəhim törətdiyi əmələ görə peşmançılığını bildirir. Bir də heç vaxt cinayət törətmədiyinə söz verir. Bəzən bu fikrin əksilə də rastlaşırıq.

Məhkəmə prosesində prokurorun nitqi əsas rol oynayır. O, dövlət nümayəndəsi kimi çıxış edir və müttəhimin törətdiyi cinayətə görə cəza almasını hakimdən tələb edir. Hakim isə müttəhimin cavanlığını və ya qocalığını, uşaqlarını, ata-anasını və digər cəhətləri nəzərə alıb işi müəyyən qədər yüngülləşdirir.

Məhkəmə natiqliyi öz məzmun və formasına görə, quruluşuna görə o biri növlərdən fərqlənir. Belə ki, bu prosesdə bir neçə adam iştirak edir. Hər birinin də nitqi bir-birindən əsaslı surətdə fərqlənir. Məsələn, prokuror ədalətin bərpası, hadisələrin düzgün təhlil və şərhini ustalıqla yerinə yetirməlidir. Vəkil isə qanunların aliliyini gözləyərək, müttəhimin hüquqlarını müdafiə edir. Həm də şahidlərin nitqini düzgün və dəqiq izləməlidir. Üst-üstə düşməyən fikirləri təkzib etməlidir.

Məhkəmə natiqliyi əsasən rəsmi xarakter daşıyır. Hadisələrin gedişi, sübutlar, dəlillər, faktlar, əşyayi-dəlil olan hər bir şey rəsmiləşir və məhkəmə prosesində istifadə olunur. Məhkəmə natiqliyinin yaranmasında və inkişaf etdirilməsində respublikamızda fəaliyyət göstərən hüquq işçilərinin, prokurorların əməyi yüksək qiymətləndirilməlidir.

Məişət natiqliyi - Məişət natiqliyi qədim tarixə malikdir. O, xalq həyatının, məişətinin inkişafı ilə əlaqədar yaranıbdır. Bizcə, o biri növlərə nisbətən məişət natiqliyi Azərbaycanda daha erkən yaranıb püxtələşmişdir. "İlkin nümunələrinə şifahi xalq ədəbiyyatında rastlaşdığımız məişət natiqliyi fikrimizi sübut etməyə əsas verir" (1, s. 58).

İlk yazılı abidələrimizdən biri Azərbaycan xalqının məişətini, qədimliyini sübut edən, ensiklopedik nümunəmiz olan «Kitabi-Dədə-Qorqud» dastanlarında məişət natiqliyinin nümunəsi kamil şəkildə özünü göstərir. Xalq mərasimlərini, adət-ənənələri, xalq məişətini dolğun şəkildə əks etdirən bu qədim və əvəzsiz abidədə Banuçiçək başının tacı, igid, qəhrəman nişanlısı Beyrək üçün göz yaşı tökərək bu ağını deyir:

Vay, ay duvağın ayası! Vay alnım başım umuru!
Vay şah igidim, vay şahbaz igidim!
Doyunca üzünə baxmadığım, xanım igit!
Qanda getdin məni yalqız qoyub, canım igit!

Məişət natiqliyinin bu qolu indi də yaşamaqdadır. Söylənilən qəbirüstü nitqlər, yazılan nekroloqlar bu gün də davam etdirilir.

Məişət natiqdiyinin ən geniş yayılmış qollarından biri də sağlıq nitqidir. Sağlıq yubileylərdə, şənliklərdə, toylarda, mərasimlərdə söylənilir. Sağlıq nitqlərində əsas yerlərdən birini tutan təbriklər müxtəlif məzmunda olur. Burada natiqin səmimiyyəti, arzu və istəkləri nitqin əsasını təşkil edir. Maraqlı cəhətlərdən biri odur ki, məişət anlayışı bütün xalq həyatını əhatə etdiyi kimi, məişət natiqliyi də geniş və əhatəli bir sahəni əks etdirir. Natiqlik sənətinin digər növləri və onların qolları məişət natiqliyi ilə əlaqəlidir.

Dini natiqlik - Natiqlik sənətinin bu növü qismən sonrakı dövrlərdə yaranmışdır. Qədim zamanlarda təbiət qüvvələri qarşısında aciz qalan insanlar mücərrəd anlayışlara əl atır və özləri üçün çıxış yolu axtarırdı. Lakin orta əsrlərdə özünə möhkəm yer eləmiş din öz ideyaları ilə yaşayıb inkişaf edirdi. Məsələn, İranda, Əfqanıstanda, Avropada, Romada məscid və kilsələrdə fəaliyyət göstərən din xadimləri fikrimizə misal ola bilər.

Azərbaycanda dini natiqlik ərəblərin hakimiyyəti illərində geniş vüsət aldı. Azərbaycanın ən ucqar kəndlərində açılan dini məktəblər, mədrəsələr, xüsusilə müqəddəs Qurani-Kərimin tədrisi dini natiqliyin çiçəklənməsinə təkan verdi. Bu illərdə dini natiqlik məktəblərdə «bəlağət» adı ilə keçilməyə başladı. Məscidlərin tikilməsi, müqəddəs günlərin bayram edilməsi (bu ənənə Azərbaycan müstəqillik qazanandan sonra bizim xalqımız arasında da geniş yayılıb. Məsələn, orucluq bayramı, qurban bayramı, məhərrəmlik ayında müqəddəs aşura günü və s.) xalqın şüurunda özünə yer tapdı. Doğrudur, məscidlərdə fəaliyyət göstərən bəzi din xadimləri tənqid atəşinə tutulurdu. Amma, bütünlükdə islam dini xalqın inam yeri, müqəddəs qibləgah hesab olunurdu. İslam dininin yayılmasına əsas səbəb ərəb dilinin rəsmi dövlət dili olması idi. Bundan sonra dini dərslər, ayinlər bu dildə tədris olunmağa başladı. Lakin xalq öz dilini və adət-ənənələrini qorudu, varlığını saxladı. Lakin din xalqın şüurunu zəbt etdi. Dini ənənələr yaşadıqca təkmilləşdi və özü ilə bərabər dini natiqliyin nümunələrini də qoruyub saxladı.

IV əsrin əvvəllərindən etibarən Arranın müəyyən hissələrində xristianlıq yayılmağa başlamışsa da, Atropatenada atəşpərəstlik VII əsrə qədər əsas hakim din olaraq yaşamış, hətta islamiyyət güclə qəbul etdirildikdən sonra uzun müddət öz təsirini davam etdirmişdir.

"«İstər zərdüştlük, istərsə də bundan daha əvvəlki ibtidai tayfa-qəbilə «dini» görüşləri nağıllara, əfsanələrə də təsir etmiş və bu təsirlərlə bağlı bir sıra surətlər, hətta bəzi süjetlər əmələ gəlmişdir ki, bunların da qalıqları şifahi ənənə ilə zəmanəmizə qədər gəlmişdir. Xalq içərisində yaşamaqda olan «Fatmanın inəyi», «Taxta qılınc», «Ovçu Pirim» kimi onlarca nağıllarda totemizmin qalıqlarını görmək mümkündür" (1, s. 72).

Dini natiqlik Azərbaycanda bu gün geniş yayılıb. Bu isə xalqımızın islam dininə olan inamından irəli gəlir.

ƏDƏBİYYAT SİYAHISI

1. Abdullayev A. Nitq mədəniyyəti və natiqlik məharəti haqqında. Bakı. 1968.
2. Ağayev F. Azərbaycan dilinin intonasiyası. Bakı, 1978
3. Babayev A. Azərbaycan dili və nitq mədəniyyəti. Bakı, 2015
4. Həsənov H. Nitq mədəniyyəti və üslubiyyatın əsasları. Bakı, 1999

Açar sözlər: natiq, çıxış, növ, xüsusiyyət, mövzu, nitq, üslub

Ключевые слова: оратор, речь, тип, черта, тема, речь, стиль

Key words: speaker, speech, type, feature, theme, speech, style

Публичные выступления в публичных выступлениях

Резюме

В статье говорится об искусстве публичного выступления. В статье отражена роль искусства ораторского искусства, одной из жемчужин народного творчества, в жизни общества. Величайшая роль искусства публичных выступлений состоит в том, что посредством этого искусства обучаются новые ораторы и пропагандисты, служащие обществу. Одной из главных особенностей публичного выступления является то, что каждый человек, занимающийся этим искусством, глубоко изучает и наблюдает за предметом выступления. Публичная речь и ее виды в искусстве ораторского искусства подробно рассматриваются в статье. Характеристики каждого типа четко указаны.

Public speaking in public speaking

Summary

The article talks about the art of public speaking. The article reflects the role of the art of oratory, one of the pearls of folk art, in the life of society. The greatest role of the art of public speaking is that through this art, new speakers and propagandists serving the society are trained. One of the main features of public speaking is that every person involved in this art deeply studies and observes the subject of the speech. Public speech and its types in the art of oratory are discussed in detail in the article. The characteristics of each type are clearly indicated.

Rəyçi: dos. E.Vəliyeva

Asifə Telman qızı Əliyeva[96]

KOMMUNİKASİYA ZAMANI ŞİFAHİ NİTQİN ƏHƏMİYYƏTİ VƏ SƏS MƏDƏNİYYƏTİ

Düzgün kommunikasiya insanın cəmiyyət üçün mədəni, yetkin bir şəxsiyyət kimi formalaşmasının başlıca göstəricilərindən biridir. Düzgün kommunikasiya nitq mədəniyyəti ilə əlaqəlidir. Nitq mədəniyyəti insanın lüğət ehtiyatını, onun məqsədə, məzmuna uyğun danışmaq və yazmaq bacarığını, dinləyici və oxucusunun tələbinə uyğun üslub seçimini, rabitəli nitqinin əsas cəhətlərini əhatə edir. İctimai həyatın, tədris olunan fənlərin, həyata keçirilən müxtəlif tipli tədbirlərin elə bir sahəsi yoxdur ki, orada nitqə, nitq mədəniyyətinə, gözəl natiqlik məharətinə diqqət yetirilməsin. Məktəblərdə bu problemin həlli üçün tədris proresindən əlavə tədbirlər keçirilir. Məsələn. Məktəblərdə kommunikasiya zamanı nitq rejminin yaradılması, müəllim və şagirdlərin, hətta məktəbə gələn qonaqların, valideynlərin, digər kənar şəxslərin nitqinə müxtəlif tələblər verilir. Buraya dialekt və şivə xüsusiyyətləri ilə danışmağın qadağan edilməsi, orfoqrafiyanın orfoepiyaya tətbiq edilməməsi, ədəbi tələffüz qaydalarına riayət edilməsi və s. tələblər daxildir. Lakin nitq mədəniyyətinin inkişafını təkcə, məktəblə, təlimlə məhdudlaşdırmaq olmaz. Nitq mədəniyyəti ailədə, məhəllədə, kollektivdəki nitq mühiti ilə əlaqədar inkişaf edir. Ona görə də ailədə valideynlərin, məktəbdə müəllimlərin, məktəbdənkənar müəssisələrdə, kollektivlərdə çalışanların əsas vəzifələrindən biri gənclərin nitq mədəniyyətinin formalaşmasına kömək etməkdir. Nitq mədəniyyəti şəxsin yüksək mədəni göstəricilərindəndir. Məhz bu səbəbdəndir ki, son dövrlərdə Azərbaycan təhsil sistemində nitq mədəniyyətina diqqət artmış, istər orta, istərsə də ali məktəblərdə, dərsliklərdə, elmi-tədqiqat əsəsrlərində nəzəri və metodiki ədəbiyyatlarda bu məsələyə geniş yer verilmişdir.

Nitq mədəniyyəti dedikdə birinci növbədə bu anlayışın məzmununu aydınlaşdırmaq, sonra isə onun normalarını və bu normaların xüsusiyyətlərini izah etmək lazımdır. Bu haqda oxuyuruq."Nitq dil anlayışı ilə sıx bağlıdır. Bunlar bir hadisənini iki cəhətidir. Dil dedikdə, ünsiyyət vasitəsi olan sözün xüsusiyyətləri, yəni, onun səs tərkibi, morfoloji quruluşu, bir-biri ilə əlaqə formaları, sözlərdən cümlə düzəltmək qaydaları kimi cəhətlər nəzərdə tutulur. Bu vasitə və qaydalar özlüyündə donuqdurlar, yalnız ünsiyyət proresində tətbiq olunduqda, onlardan istifadə etdikdə canlanırlar, yeni keyfiyyət qazanırlar. Beləliklə, dil vasitələrinin, qaydalarının ünsiyyət proresində tətbiqinə nitq deyilir" (6, s. 3). Bəs nitq mədəniyyəti nədir? Bu ifadədə mədəniyyət sözü geniş anlayışdır və onun sahələri çoxdur: davranış mədəniyyəti, mətbəx mədəniyyəti, təsərrüfat mədəniyyəti və s. "Mədəniyyət" hamı tərəfindən dəyərləndirilən, qəbul olunan cəhətləri əhatə edir. Nitq mədəniyyəti anlayışını dərindən başa düşmək üçün nitq ilə dil məsəslələrini aydınlaşdırmaq, dərk etmək lazımdır. F. Sosyur dili ictimai, nitqi fərdi hesab edir. Dil ünsiyyət vasitələrini əhatə edirsə, nitq ünsiyyətin özüdür (6, s. 4).

Nitq mədəniyyəti haqqında bir çox təriflər vardır. Ümumiyyətlə, dil və nitq probleminə dair elmi və metodiki ədəbiyyatda bir çox fikirlər mövcuddur ki, bunların hamısı haqqında danışmaq imkan xaricindədir. Bu fikirlərdən yekun nəticəyə gəlmək olar: "Ünsiyyət proresində dil vasitələri və qaydaları hamı tərəfindən bəyənilərək qəbul edilib işlənirsə, dəyərləndirilirsə, bu nitq mədəniyyəti hesab edilə bilər" (1, səh.269). Bir çox dilçilərə görə, nitq mədəniyyəti ədəbi dil normalarına əməl etmək deməkdir. Ensiklopediyada isə yazılır: "Nitq mədəniyyəti - nitqin ədəbi dil normalarına uyğunluğu, dilin ifadə və imkanlarından nitqin məqsəd və məzmununa müvafiq şəkildə istifadə etmək bacarığıdır" (1, s. 269).

Beləliklə, insanın yüksək keyfiyyətlərindən biri onun yüksək nitq mədəniyyətinə yiyələnməsidir. Nitq mədəniyyəti insanın əqli fəaliyyətinin yaranmasında böyük rol oynayır. Insanlar nitq mədəniyyətinə yiyələndikcə xarici aləmdəki əşyalar, hadisələr haqqında biliklərə yiyələnirlər. Nitq mədəniyyətinin yüksək səviyyəsi onun dilin bütün sahələri, cəhətləri – fonetika, leksikologiya, söz yaradıcılığı, qrammatika, orfoepiya, orfoqrafiya, üslubiyyat ilə birlikdə inkişaf edir. Nitq mədəniyyətinə yiyələnmək üçün dilin bütün komponentlərini kompleks şəkildə mənimsəmək lazımdır. Nitqdə bütün normalara – aydınlıq, məntiqilik, səlislik, yığcamlıq, ifadəlilik, obrazlılıq, ardıcıllıq, emosionallıq və s. kimi normalara riayət edilməlidir. Bütün bu işlər təlim zamanı yerinə yetirilir. Belə ki, təlim şagirdlərin nitq mədəniyyətinin mənbələrini üzə çıxarır, nitq inkişafının imkanlarını artırır. Təlim proresində müəllim şagirdlərin həm öz nitqlərinə, həm də başqalarının nitqinə məsuliyyətlə, şüurlu şəkildə yanaşmaları üzərinə iş aparmalıdır. Məşhur metodist Y.Kərimov yazır: "Nitq yalnız fikirlərin ifadə vasitəsi deyil, həm də onların yaranması silahıdır. Ona görə də müəllim nitqin inkişafi ilə birlikdə şagirdlərin təfəkkürünü də inkişaf etdirməlidir" (5, s. 398). Müəllif göstərir ki, şagirdi başlı-başına buraxmaq, ünsiyyət proresində nitqin öz-özünə inkişaf edəcəyinə ümid bəsləmək səhv olardı. Uşaqlara düzgün danışmağı öyrətmək üçün müəllim onun nitqinin bütün sahələrinə, sözlərin necə tələffüz etməsinə, vurğunu düzgün ifadə etməsinə, sözləri, ifadələri yerli-yerində işlətməsinə, intonasiyasına və s. diqqət yetirməli, şagirdin bu sahədəki nöqsanlarını düzəltməlidir.

İnsan öz düşüncələrini, fikirlərini ifadə etmək üçün müvafiq sözlər, ifadələr seçməyi bacarmalıdır, fikrini məntiqi cəhətdən düzgün qurmağa çalışmalıdır. Bu cəhətdən K.Uşinski deyirdi ki, uşaqların dil, nitq qabiliyyətlərini inkişaf etdirmək üçün hər şeydən əvvəl, onlarda düzgün fikirləşmək qabiliyyəti formalaşdırmaq lazımdır: "Fikirdən ayrılıqda dili inkişaf etdirmək mümkün deyil, ona üstünlük verərək, fikirdən əvvəl inkişaf etdirmək isə, şübhəsiz, zərərlidir" (7, s. 42).

Kommunikasiya prosesində nitqin düzgün inkişaf etdirilməsi üçün müəllim bu sahədə didaktik tələbləri bilməli, bu tələblərə təlim prosesində əməl etməlidir.

Şagirdlərin nitqi inkişaf etdikcə onlar təlim materialını daha yaxşı qavrayır, yadda saxlayırlar. Şagirdlərin nitqinin ifadəliliyi, inkişaf etməsi onların fonetika, leksikologiya, qrammatikanı necə mənimsəmələrindən də çox asılıdır. Ona görə də

[96] Bakı Dövlət Universitetinin dosenti

təlim prosesində sözün səs kompleksini, leksik mənasının və s. dərindən mənimsədilməsi davamlı şəkildə həyata keçirilməlidir.

Kommunikasiya zamanı şagirdlərdə nitqin səs mədəniyyətinin də inkişafına diqqət yetirilməlidir. Bu iş nitq mədəniyyətinin demək olar ki, tərkib hissələridir. Nitqin səs mədəniyyəti anlayışına səslənən nitqi xarakterizə edən xüsusi tələffüz keyfiyyətləri – orfoepiya, səsin tələffüzü, diksiya, həmçinin səsin ifadəliliyinin elementləri – intonasiya, səsin sürəti, bundan başqa nitqin ünsiyyət mədəniyyətinin əlamətləri – nitqin tonu, eləcə də şagirdlərin nitqi eşitmə qabiliyyəti və eşitmə aparatının inkişaf etdirilməsi və s. məsələlər daxildir.

Nitqin düzgün, aydın ifadə edilməsi nitqi yaradan artikulyasiya orqanlarının - əsas danışıq üzvlərinin – (dil, dişlər, burun, çənə, damaqlar, qırtlaq, səs telləri, ağ ciyərlər) və s. sağlamlığından, vəziyətindən çox asılıdır. Tələffüz zamanı ağ ciyərlərdən gələn hava axını saydığımız orqanlardan keçərək bir sıra maneələrə rast gəlir və rəqslənmə sayəsində ağız boşluğunda nitq səsləri əmələ gəlir. Nitq cihazında mövcud olan bəzi çatışmazlıqlara, pozuntulara görə şagirdlər bəzən səsləri düzgün tələffüz edə bilmirlər. Bu vaxt müəllim nitqin səs mədəniyyətini formalaşdırmaq üçün yol axtarmalı, səsin düzgün tələffüzünə nail olunca məqsədyönlü işlər aparmalıdır. Təlim prosesində nitq orqanlarının üzərində müəyyən məşqlər də aparıla bilər. Məsələn, alt çənəni bir qədər müəyyən vəziyyətdə saxlamaq, dodaqların çevikliyini inkişaf etdirmək olar. Təlim prosesində nitq səsləri üzərində aparılan işlər nəticə verməzsə, artıq bu işə loqopedlər cəlb edilməlidir.

Orta məktəblərin ibtidai siniflərində, yaxud yuxarı siniflərində, həmçinin ali məktəblərdə nitqin səs mədəniyyəti üzrə işlər əsasən fonetika təlimində yerinə yetirilir. Lakin bu cür işlər ali məktəblərin müvafiq fakültələrində - filologiya fakültəsində "İfadəli oxu" fənninin tədrisi prosesində də həyata keçitilə bilər.

Nitq prosesində tənəffüsün düzgünlüyü də əsas meyarlardan biridir. Y.Kərimov bu haqda yazır: "Adi hallarda nəfəsalma və nəfəsvermənin uzunluğu, təxminən, eyni ritmlə burun vasitəsilə yerinə yetirilir. Nitq prosesində nəfəsalma sürətlə, nəfəsvermə isə yavaş-yavaş, qənaətlə baş verir. Nitqdə fasilənin dəqiq gözlənilməsi, nitqin axıcı və ifadəli olması nəfəsalmanın nə qədər düzgün təşkil edilməsindən asılıdır" (5, s. 417). Müəllif burada maraqlı bir fakta nəzəri cəlb edir və göstərir ki, nəfəs ala-ala danışmağa alışan uşaqlar hava ehtiyatını tam yeniləşdirə bilmədiklərindən tələsir, səsləri təhrif edir, unudurlar. Belə uşaqlar adətən alçaqdan danışır. Onların qeyri-dəqiq, fasiləsiz nitqi bəzən məntiqsizliyə aparıb çıxarır. Müəllifin fikrincə, nitqin səs mədəniyyəti səsin yüksəkliyi üzərində işləməyi tələb edir. Səsin yüksəkliyi nədir? səsin yüksəkliyi səs tonu ilə əlaqədardır. Səsin yüksəkliyi səs tonunun bir qədər diqqətlə qalxması və düşməsinin – rəqslənmənin tezliyi ilə ifadə olunur. Beləliklə, səsin tonu ilə əlaqədar olaraq nitqin səsləri gah uca, gah orta, gah da zəif tələffüz edilir.

İnsanların səsləri öz çalarları ilə fərqlənirlər ki, bu, səsin tembri adlanır. Tembr səsin titrək, tutqun, boğuq, rəvan və s. olması ilə fərqlənir. Səsin düzgün tələffüzü, düzgün nitq mədəniyyətinə yiyələnmək səs mədəniyyəti üzərində işlərin təmin edilməsindən, həmçinin şəxsin özünün səsin qorunmasından – səsi gərgin saxlamamaq, ucadan qışqırmamaq, soyuqdan qorumaq və s. də asılıdır.

Rus metodistlərindən M.A.Ribnikovanın bu haqda fikri maraqlıdır. "İnkişaf etməmiş, qeyri-dəqiq nitq səslərin qarışdırılması aydın olmayan diksiya, sait və samitlərin kifayət qədər ayrılmaması ilə fərqlənir. Nitq üzərində iş fonetik dəqiqliyin inkişafını öz qarşısında bir vəzifə kimi qoymalıdır" (8, s. 149).

Nitqin səs mədəniyyəti üzərində iş – səslərin rəqslənməsinin, artikulyasiyasının, səslərin müxtəlif cəhətlərinin öyrədilməsi vacibdir. Şagirdlərin bir qismi müxtəlif məxrəclərdə tələffüz edilən samitlərin səslənməsində - tələffüz edilməsində çətinlik çəkirlər. Azərbaycan dilinin fonetikası kifayət qədər tədqiq edilmiş və fonetika bəhsinə həsr olunmuş əsərlərdə səslərin təsnifi, tələffüz məxrəci, artikulyasiyası geniş təsvir edilmişdir. Nitq səslərinin bütün xarakterik xüsusiyyətlərinin ənənəvi və müasir təlim metodları ilə dərindən mənimsədilməsi şagirdlərin nitqlərinin inkişafının, onların nitq mədəniyyətinin formalaşdırılmasının özülünü təşkil edir. Bu məqsədlə təlim prosesində fonetik çalışmalara geniş yer vermək lazımdır. Şagirdlərə nitq səslərinin artikulyasiyasının dərindən mənimsədilməsi üçün şifahi çalışmalara üstünlük vermək lazımdır. Belə çalışmalar zamanı şagirdlər səsin müxtəlif sözlərdə, sözün ilk və sonrakı hecalarında, sonunda işlədilməsi, onun səslənməsindəki fonematik incəlikləri praktik şəkildə dərk edirlər. Məslən: ***alim, katib, kamil, arif*** tipli sözlərin yazılışında **a** səsinin uzun tələffüz edilməsini göstərən heç bir işarədən istifadə edilmir. Belə sözlərdə **a** səsinin kəmiyyətə görə dəyişikliyini – uzun tələffüz olunmasını müəllim əyani şəkildə şifahi çalışmalar vasitəsilə mənimsətməlidirlər. Yazılışı ilə deyilişi fərqlənən sözlərin mənimsədilməsi üçün şifahi çalışmalarla yanaşı yazılı çalışalara da geniş yer verilməlidir ki, şagirdlər orfoepiya və orfoqrafiya arasındakı fərqi görmə yaddaşı vasitəsilə daha yaxşı yadda saxlaya bilsinlər. Şifahi çalışmalar zamanı şagirdlərin diksiyası da inkişaf etdirilir ki, bu da nitqin səs mədəniyyəti üzrə işlərdən biri kimi onları yaxşı diksiyaya yiyələndirməkdir. Diksiya səsin aydınlığı deməkdir. Səsin aydınlığı, yəni düzgün diksiya ilk növbədə səslərin - sait və samitlərin düzgün tələffüzündən asılıdır. Səslərin düzgün tələffüz edilməsi isə nitq aparatının, nitqin anatomiyasının düzgün, dəqiq fəaliyyətindən, bu fəaliyyətin düzgün əlaqələndirilməsindən asılıdır. Şagirdlərin normal diksiyaya yiyələnmələri üçün müəllimin nümunəvi nitqinin böyük əhəmiyyəti vardır. Bundan başqa müəllim bu işdə müasir texniki vasitələrdən istifadə edərək normal, gözəl diksiyaya malik olan aktyorların, diktorların lent yazılarını, disklərini səsləndirməklə məqsədlərinə nail ola bilərlər.

Ədəbiyyat

1. Azərbaycan Sovet Ensiklopediyası. VII c., Bakı, səh. 2
2. Abdullayev A. Nitq mədəniyyəti və natiqlik məharəti haqqında. Bakı, 1968
3. Abdullayev N., Məmmədov Z. Müəllimin nitq mədəniyyəti. Bakı, 2001
4. Axundov A. Müasir Azərbaycan dilinin fonetikası. Bakı, 1985

5. Kərimov Y. Ana dilinin tədrisi metodikası. Bakı, 2005
6. Muradov B., Bayramov H. Nitq mədəniyyətindən mühazirələr. Bakı, 2006
7. Ушинский К.Д. Собрание сочинений. Том, V, М, 1947, стр. 42
8. Рыбникова М.А. Очерки по методике литературного читения, Москва, 1963, стр. 149
Açar sözlər: nitq mədəniyyəti, diksiya, ünsiyyət, nitq, səs, nitq prosesi
Ключевые слова: культура речи, дикция, общение, речь, звук, процесс речи
Key words: standard of speech, diction, communication, speech, sound, process of the speech

Резюме

В статье говорится о содержании работ при формировании культуры звука в речи. Отмечается, что есть два вида речи - устная речь и письменная речь. Хотя они связаны друг с другом, но имеют свои особенности, различаются по содержанию и формам. В этом значении для развития речи используются различные формы и методы работ. Так как устная речь является средством общения, ее роль во всех сферах больше роли письменной речи. Однако в процессе обучения и в исследовательской деятельности устной речи уделяется мало внимания и имеется мало источников о правилах разговорной речи и чтении и их технологиях.

Говоря о культуре речи, следует в первую очередь определить содержание этого понятия, затем выявить нормы и особенности этих норм. По мере развития речи у учащихся они лучше усваивают и запоминают материал обучения. Выразительность речи учащихся и ее развитие тесно связано с усвояемостью ими фонетики, лексикологии и грамматики. Поэтому в процессе обучения должно продолжительное время глубоко усваиваться звуковой комплекс слова и его лексическое значение.

Summary

In article it has told about the content of works in forming culture of a sound in the speech. It is noted that thtre are two oral and written types of the speech. Though they are connected with each other and have the features, they differ according to contents and forms. In this meaning for development of the speech various forms and methods of works are used. As oral speech is the means of communication, its role in all spheres is more than role of a written language. However in the course of training and in research activity of oral speech not enough attention is paid and there are few sources about rules of informal conversation and reading and their technologies. Speaking about the standard of speech it is necessary to define first of all the maintenance of this concept, then to reveal norms and features of these norms. In process of development of the speech in pupils they acquire better and remember training material. Expressiveness of the speech of pupils and its development it is closely connected with comprehensibility them phonetics, lexicology and grammar. The refore in the course of training long time a sound complex of a word and its lexical meaning has to be acquired deeply.

RƏYÇİ: dos. S.Abbasova

Asifə Telman qızı Əliyeva[97]

KOMMUNİKASİYA ZAMANI ŞİFAHİ NİTQİN ƏHƏMİYYƏTİ VƏ SƏS MƏDƏNİYYƏTİ

Düzgün kommunikasiya insanın cəmiyyət üçün mədəni, yetkin bir şəxsiyyət kimi formalaşmasının başlıca göstəricilərindən biridir. Düzgün kommunikasiya nitq mədəniyyəti ilə əlaqəlidir. Nitq mədəniyyəti insanın lüğət ehtiyatını, onun məqsədə, məzmuna uyğun danışmaq və yazmaq bacarığını, dinləyici və oxucusunun tələbinə uyğun üslub seçimini, rabitəli nitqinin əsas cəhətlərini əhatə edir. İctimai həyatın, tədris olunan fənlərin, həyata keçirilən müxtəlif tipli tədbirlərin elə bir sahəsi yoxdur ki, orada nitqə, nitq mədəniyyətinə, gözəl natiqlik məharətinə diqqət yetirilməsin. Məktəblərdə bu problemin həlli üçün tədris proresindən əlavə tədbirlər keçirilir. Məsələn. Məktəblərdə kommunikasiya zamanı nitq rejminin yaradılması, müəllim və şagirdlərin, hətta məktəbə gələn qonaqların, valideynlərin, digər kənar şəxslərin nitqinə müxtəlif tələblər verilir. Buraya dialekt və şivə xüsusiyyətləri ilə danışmağın qadağan edilməsi, orfoqrafiyanın orfoepiyaya tətbiq edilməməsi, ədəbi tələffüz qaydalarına riayət edilməsi və s. tələblər daxildir. Lakin nitq mədəniyyətinin inkişafını təkcə, məktəblə, təlimlə məhdudlaşdırmaq olmaz. Nitq mədəniyyəti ailədə, məhəllədə, kollektivdəki nitq mühiti ilə əlaqədar inkişaf edir. Ona görə də ailədə valideynlərin, məktəbdə müəllimlərin, məktəbdənkənar müəssisələrdə, kollektivlərdə çalışanların əsas vəzifələrindən biri gənclərin nitq mədəniyyətinin formalaşmasına kömək etməkdir. Nitq mədəniyyəti şəxsin yüksək mədəni göstəricilərindəndir. Məhz bu səbəbdəndir ki, son dövrlərdə Azərbaycan təhsil sistemində nitq mədəniyyətina diqqət artmış, istər orta, istərsə də ali məktəblərdə, dərsliklərdə, elmi-tədqiqat əsəsrlərində nəzəri və metodiki ədəbiyyatlarda bu məsələyə geniş yer verilmişdir.

Nitq mədəniyyəti dedikdə birinci növbədə bu anlayışın məzmununu aydınlaşdırmaq, sonra isə onun normalarını və bu normaların xüsusiyyətlərini izah etmək lazımdır. Bu haqda oxuyuruq."Nitq dil anlayışı ilə sıx bağlıdır. Bunlar bir hadisənini iki cəhətidir. Dil dedikdə, ünsiyyət vasitəsi olan sözün xüsusiyyətləri, yəni, onun səs tərkibi, morfoloji quruluşu, bir-biri ilə əlaqə formaları, sözlərdən cümlə düzəltmək qaydaları kimi cəhətlər nəzəzrdə tutulur. Bu vasitə və qaydalar özlüyündə donuqdurlar, yalnız ünsiyyət proresində tətbiq olunduqda, onlardan istifadə etdikdə canlanırlar, yeni keyfiyyət qazanırlar. Beləliklə, dil vasitələrinin, qaydalarının ünsiyyət proresində tətbiqinə nitq deyilir" (6, s. 3). Bəs nitq mədəniyyəti nədir? Bu ifadədə mədəniyyət sözü geniş anlayışdır və onun sahələri çoxdur: davranış mədəniyyəti, mətbəx mədəniyyəti, təsərrüfat mədəniyyəti və s. "Mədəniyyət" hamı tərəfindən dəyərləndirilən, qəbul olunan cəhətləri əhatə edir. Nitq mədəniyyəti anlayışını dərindən başa düşmək üçün nitq ilə dil məsəslələrini aydınlaşdırmaq, dərk etmək lazımdır. F. Sosyur dili ictimai, nitqi fərdi hesab edir. Dil ünsiyyət vasitələrini əhatə edirsə, nitq ünsiyyətin özüdür (6, s. 4).

Nitq mədəniyyəti haqqında bir çox təriflər vardır. Ümumiyyətlə, dil və nitq probleminə dair elmi və metodiki ədəbiyyatda bir çox fikirlər mövcuddur ki, bunların hamısı haqqında danışmaq imkan xaricindədir. Bu fikirlərdən yekun nəticəyə gəlmək olar: "Ünsiyyət proresində dil vasitələri və qaydaları hamı tərəfindən bəyənilərək qəbul edilib işlənirsə, dəyərləndirilirsə, bu nitq mədəniyyəti hesab edilə bilər" (1, səh.269). Bir çox dilçilərə görə, nitq mədəniyyəti ədəbi dil normalarına əməl etmək deməkdir. Ensiklopediyada isə yazılır: "Nitq mədəniyyəti - nitqin ədəbi dil normalarına uyğunluğu, dilin ifadə və imkanlarından nitqin məqsəd və məzmununa müvafiq şəkildə istifadə etmək bacarığıdır" (1, s. 269).

Beləliklə, insanın yüksək keyfiyyətlərindən biri onun yüksək nitq mədəniyyətinə yiyələnməsidir. Nitq mədəniyyəti insanın əqli fəaliyyətinin yaranmasında böyük rol oynayır. Insanlar nitq mədəniyyətinə yiyələndikcə xarici aləmdəki əşyalar, hadisələr haqqında biliklərə yiyələnirlər. Nitq mədəniyyətinin yüksək səviyyəsi onun dilin bütün sahələri, cəhətləri – fonetika, leksikologiya, söz yaradıcılığı, qrammatika, orfoepiya, orfoqrafiya, üslubiyyat ilə birlikdə inkişaf edir. Nitq mədəniyyətinə yiyələnmək üçün dilin bütün komponentlərini kompleks şəkildə mənimsəmək lazımdır. Nitqdə bütün normalara – aydınlıq, məntiqilik, səlislik, yığcamlıq, ifadəlilik, obrazlılıq, ardıcıllıq, emosionallıq və s. kimi normalara riayət edilməlidir. Bütün bu işlər təlim zamanı yerinə yetirilir. Belə ki, təlim şagirdlərin nitq mədəniyyətinin mənbələrini üzə çıxarır, nitq inkişafının imkanlarını artırır. Təlim proresində müəllim şagirdlərin həm öz nitqlərinə, həm də başqalarının nitqinə məsuliyyətlə, şüurlu şəkildə yanaşmaları üzərinə iş aparmalıdır. Məşhur metodist Y.Kərimov yazır: "Nitq yalnız fikirlərin ifadə vasitəsi deyil, həm də onların yaranması silahıdır. Ona görə də müəllim nitqin inkişafi ilə birlikdə şagirdlərin təfəkkürünü də inkişaf etdirməlidir" (5, s. 398). Müəllif göstərir ki, şagirdi başlı-başına buraxmaq, ünsiyyət proresində nitqin öz-özünə inkişaf edəcəyinə ümid bəsləmək səhv olardı. Uşaqlara düzgün danışmağı öyrətmək üçün müəllim onun nitqinin bütün sahələrinə, sözlərin necə tələffüz etməsinə, vurğunu düzgün ifadə etməsinə, sözləri, ifadələri yerli-yerində işlətməsinə, intonasiyasına və s. diqqət yetirməli, şagirdin bu sahədəki nöqsanlarını düzəltməlidir.

İnsan öz düşüncələrini, fikirlərini ifadə etmək üçün müvafiq sözlər, ifadələr seçməyi bacarmalıdır, fikrini məntiqi cəhətdən düzgün qurmağa çalışmalıdır. Bu cəhətdən K.Uşinski deyirdi ki, uşaqların dil, nitq qabiliyyətlərini inkişaf etdirmək üçün hər şeydən əvvəl, onlarda düzgün fikirləşmək qabiliyyəti formalaşdırmaq lazımdır: "Fikirdən ayrılıqda dili inkişaf etdirmək mümkün deyil, ona üstünlük verərək, fikirdən əvvəl inkişaf etdirmək isə, şübhəsiz, zərərlidir" (7, s. 42).

Kommunikasiya prosesində nitqin düzgün inkişaf etdirilməsi üçün müəllim bu sahədə didaktik tələbləri bilməli, bu tələblərə təlim prosesində əməl etməlidir.

Şagirdlərin nitqi inkişaf etdikcə onlar təlim materialını daha yaxşı qavrayır, yadda saxlayırlar. Şagirdlərin nitqinin ifadəliliyi, inkişaf etməsi onların fonetika, leksikologiya, qrammatikanı necə mənimsəmələrindən də çox asılıdır. Ona görə də

[97] Bakı Dövlət Universitetinin dosenti

təlim prosesində sözün səs kompleksini, leksik mənasının və s. dərindən mənimsədilməsi davamlı şəkildə həyata keçirilməlidir.

Kommunikasiya zamanı şagirdlərdə nitqin səs mədəniyyətinin də inkişafına diqqət yetirilməlidir. Bu iş nitq mədəniyyətinin demək olar ki, tərkib hissələridir. Nitqin səs mədəniyyəti anlayışına səslənən nitqi xarakterizə edən xüsusi tələffüz keyfiyyətləri – orfoepiya, səsin tələffüzü, diksiya, həmçinin səsin ifadəliliyinin elementləri – intonasiya, səsin sürəti, bundan başqa nitqin ünsiyyət mədəniyyətinin əlamətləri – nitqin tonu, eləcə də şagirdlərin nitqi eşitmə qabiliyyəti və eşitmə aparatının inkişaf etdirilməsi və s. məsələlər daxildir.

Nitqin düzgün, aydın ifadə edilməsi nitqi yaradan artikulyasiya orqanlarının - əsas danışıq üzvlərinin – (dil, dişlər, burun, çənə, damaqlar, qırtlaq, səs telləri, ağ ciyərlər) və s. sağlamlığından, vəziyətindən çox asılıdır. Tələffüz zamanı ağ ciyərlərdən gələn hava axını saydığımız orqanlardan keçərək bir sıra maneələrə rast gəlir və rəqslənmə sayəsində ağız boşluğunda nitq səsləri əmələ gəlir. Nitq cihazında mövcud olan bəzi çatışmazlıqlara, pozuntulara görə şagirdlər bəzən səsləri düzgün tələffüz edə bilmirlər. Bu vaxt müəllim nitqin səs mədəniyyətini formalaşdırmaq üçün yol axtarmalı, səsin düzgün tələffüzünə nail olunca məqsədyönlü işlər aparmalıdır. Təlim prosesində nitq orqanlarının üzərində müəyyən məşqlər də aparıla bilər. Məsələn, alt çənəni bir qədər müəyyən vəziyyətdə saxlamaq, dodaqların çevikliyini inkişaf etdirmək olar. Təlim prosesində nitq səsləri üzərində aparılan işlər nəticə verməzsə, artıq bu işə loqopedlər cəlb edilməlidir.

Orta məktəblərin ibtidai siniflərində, yaxud yuxarı siniflərində, həmçinin ali məktəblərdə nitqin səs mədəniyyəti üzrə işlər əsasən fonetika təlimində yerinə yetirilir. Lakin bu cür işlər ali məktəblərin müvafiq fakültələrində - filologiya fakültəsində "İfadəli oxu" fənninin tədrisi prosesində də həyata keçitilə bilər.

Nitq prosesində tənəffüsün düzgünlüyü də əsas meyarlardan biridir. Y.Kərimov bu haqda yazır: "Adi hallarda nəfəsalma və nəfəsvermənin uzunluğu, təxminən, eyni ritmlə burun vasitəsilə yerinə yetirilir. Nitq prosesində nəfəsalma sürətlə, nəfəsvermə isə yavaş-yavaş, qənaətlə baş verir. Nitqdə fasilənin dəqiq gözlənilməsi, nitqin axıcı və ifadəli olması nəfəsalmanın nə qədər düzgün təşkil edilməsindən asılıdır" (5, s. 417). Müəllif burada maraqlı bir fakta nəzəri cəlb edir və göstərir ki, nəfəs ala-ala danışmağa alışan uşaqlar hava ehtiyatını tam yeniləşdirə bilmədiklərindən tələsir, səsləri təhrif edir, unudurlar. Belə uşaqlar adətən alçaqdan danışır. Onların qeyri-dəqiq, fasiləsiz nitqi bəzən məntiqsizliyə aparıb çıxarır. Müəllifin fikrincə, nitqin səs mədəniyyəti səsin yüksəkliyi üzərində işləməyi tələb edir. Səsin yüksəkliyi nədir? səsin yüksəkliyi səs tonu ilə əlaqədardır. Səsin yüksəkliyi səs tonunun bir qədər diqqətlə qalxması və düşməsinin – rəqslənmənin tezliyi ilə ifadə olunur. Beləliklə, səsin tonu ilə əlaqədar olaraq nitqin səsləri gah uca, gah orta, gah da zəif tələffüz edilir.

İnsanların səsləri öz çalarları ilə fərqlənirlər ki, bu, səsin tembri adlanır. Tembr səsin titrək, tutqun, boğuq, rəvan və s. olması ilə fərqlənir. Səsin düzgün tələffüzü, düzgün nitq mədəniyyətinə yiyələnmək səs mədəniyyəti üzərində işlərin təmin edilməsindən, həmçinin şəxsin özünün səsin qorunmasından – səsi gərgin saxlamamaq, ucadan qışqırmamaq, soyuqdan qorumaq və s. də asılıdır.

Rus metodistlərindən M.A.Ribnikovanın bu haqda fikri maraqlıdır. "İnkişaf etməmiş, qeyri-dəqiq nitq səslərin qarışdırılması aydın olmayan diksiya, sait və samitlərin kifayət qədər ayrılmaması ilə fərqlənir. Nitq üzərində iş fonetik dəqiqliyin inkişafını öz qarşısında bir vəzifə kimi qoymalıdır" (8, s. 149).

Nitqin səs mədəniyyəti üzərində iş – səslərin rəqslənməsinin, artikulyasiyasının, səslərin müxtəlif cəhətlərinin öyrədilməsi vacibdir. Şagirdlərin bir qismi müxtəlif məxrəclərdə tələffüz edilən samitlərin səslənməsində - tələffüz edilməsində çətinlik çəkirlər. Azərbaycan dilinin fonetikası kifayət qədər tədqiq edilmiş və fonetika bəhsinə həsr olunmuş əsərlərdə səslərin təsnifi, tələffüz məxrəci, artikulyasiyası geniş təsvir edilmişdir. Nitq səslərinin bütün xarakterik xüsusiyyətlərinin ənənəvi və müasir təlim metodları ilə dərindən mənimsədilməsi şagirdlərin nitqlərinin inkişafının, onların nitq mədəniyyətinin formalaşdırılmasının özülünü təşkil edir. Bu məqsədlə təlim prosesində fonetik çalışmalara geniş yer vermək lazımdır. Şagirdlərə nitq səslərinin artikulyasiyasının dərindən mənimsədilməsi üçün şifahi çalışmalara üstünlük vermək lazımdır. Belə çalışmalar zamanı şagirdlər səsin müxtəlif sözlərdə, sözün ilk və sonrakı hecalarında, sonunda işlədilməsi, onun səslənməsindəki fonematik incəlikləri praktik şəkildə dərk edirlər. Məslən: ***alim, katib, kamil, arif*** tipli sözlərin yazılışında **a** səsinin uzun tələffüz edilməsini göstərən heç bir işarədən istifadə edilmir. Belə sözlərdə **a** səsinin kəmiyyətə görə dəyişikliyini – uzun tələffüz olunmasını müəllim əyani şəkildə şifahi çalışmalar vasitəsilə mənimsətməlidirlər. Yazılışı ilə deyilişi fərqlənən sözlərin mənimsədilməsi üçün şifahi çalışmalarla yanaşı yazılı çalışalara da geniş yer verilməlidir ki, şagirdlər orfoepiya və orfoqrafiya arasındakı fərqi görmə yaddaşı vasitəsilə daha yaxşı yadda saxlaya bilsinlər. Şifahi çalışmalar zamanı şagirdlərin diksiyası da inkişaf etdirilir ki, bu da nitqin səs mədəniyyəti üzrə işlərdən biri kimi onları yaxşı diksiyaya yiyələndirməkdir. Diksiya səsin aydınlığı deməkdir. Səsin aydınlığı, yəni düzgün diksiya ilk növbədə səslərin - sait və samitlərin düzgün tələffüzündən asılıdır. Səslərin düzgün tələffüz edilməsi isə nitq aparatının, nitqin anatomiyasının düzgün, dəqiq fəaliyyətindən, bu fəaliyyətin düzgün əlaqələndirilməsindən asılıdır. Şagirdlərin normal diksiyaya yiyələnmələri üçün müəllimin nümunəvi nitqinin böyük əhəmiyyəti vardır. Bundan başqa müəllim bu işdə müasir texniki vasitələrdən istifadə edərək normal, gözəl diksiyaya malik olan aktyorların, diktorların lent yazılarını, disklərini səsləndirməklə məqsədlərinə nail ola bilərlər.

Ədəbiyyat

9. Azərbaycan Sovet Ensiklopediyası. VII c., Bakı, səh. 2
10. Abdullayev A. Nitq mədəniyyəti və natiqlik məharəti haqqında. Bakı, 1968
11. Abdullayev N., Məmmədov Z. Müəllimin nitq mədəniyyəti. Bakı, 2001
12. Axundov A. Müasir Azərbaycan dilinin fonetikası. Bakı, 1985

13. Kərimov Y. Ana dilinin tədrisi metodikası. Bakı, 2005
14. Muradov B., Bayramov H. Nitq mədəniyyətindən mühazirələr. Bakı, 2006
15. Ушинский К.Д. Собрание сочинений. Том, V, М, 1947, стр. 42
16. Рыбникова М.А. Очерки по методике литературного читения, Москва, 1963, стр. 149
Açar sözlər: nitq mədəniyyəti, diksiya, ünsiyyət, nitq, səs, nitq prosesi
Ключевые слова: культура речи, дикция, общение, речь, звук, процесс речи
Key words: standard of speech, diction, communication, speech, sound, process of the speech

Резюме

В статье говорится о содержании работ при формировании культуры звука в речи. Отмечается, что есть два вида речи - устная речь и письменная речь. Хотя они связаны друг с другом, но имеют свои особенности, различаются по содержанию и формам. В этом значении для развития речи используются различные формы и методы работ. Так как устная речь является средством общения, ее роль во всех сферах больше роли письменной речи. Однако в процессе обучения и в исследовательской деятельности устной речи уделяется мало внимания и имеется мало источников о правилах разговорной речи и чтении и их технологиях.

Говоря о культуре речи, следует в первую очередь определить содержание этого понятия, затем выявить нормы и особенности этих норм. По мере развития речи у учащихся они лучше усваивают и запоминают материал обучения. Выразительность речи учащихся и ее развитие тесно связано с усвояемостью ими фонетики, лексикологии и грамматики. Поэтому в процессе обучения должно продолжительное время глубоко усваиваться звуковой комплекс слова и его лексическое значение.

Summary

In article it has told about the content of works in forming culture of a sound in the speech. It is noted that thtre are two oral and written types of the speech. Though they are connected with each other and have the features, they differ according to contents and forms. In this meaning for development of the speech various forms and methods of works are used. As oral speech is the means of communication, its role in all spheres is more than role of a written language. However in the course of training and in research activity of oral speech not enough attention is paid and there are few sources about rules of informal conversation and reading and their technologies. Speaking about the standard of speech it is necessary to define first of all the maintenance of this concept, then to reveal norms and features of these norms. In process of development of the speech in pupils they acquire better and remember training material. Expressiveness of the speech of pupils and its development it is closely connected with comprehensibility them phonetics, lexicology and grammar. The refore in the course of training long time a sound complex of a word and its lexical meaning has to be acquired deeply.

RƏYÇİ: dos. S.Abbasova

Nigar Məhəmməd qızı Hacıyeva[98]

KOMMUNİKASİYA PROSESİNDƏ NİTQ ETİKASI

Ünsiyyət hər bir insanın həyatındakı vacib vasitələrdən biridir. İnformasiya mübadiləsi bizim düşüncələrimizin, mülahizələrimizin və hisslərimizin ifadəsidir. Bunun sayəsində biz cəmiyyətdə normal yaşaya, qarşıya məqsəd qoya və onları həyata keçirə bilərik. Şifahi ünsiyyət kommunikasiyanın ilkin formasıdır. Şifahi məlumat mübadiləsi natiqdən aydın diksiya, yaxşı düşünülmüş ifadələr və göndərilən mesajların mövcudluğunu tələb edir. İctimaiyyət qarşısında çıxış edən insan həm də yaxşı danışıq qabiliyyətinə malik olmalıdır.

Şifahi ünsiyyət, insanlar arasında məlumat mübadiləsi prosesidir. Bəzən deyilən fikrin təsirini artırmaq məqsədilə qeyri-verbal vasitələrdən də istifadə olunur. Amma əksər hallarda nitqin aydın olmasını və daha yaxşı mənimsənilməsini təmin etmək üçün şifahi nitq ən yaxşı vasitədir. Şifahi nitq zamanı hissləri ifadə edərkən cümlələrin qurulması üçün müvafiq sözlərdən düzgün istifadə etmək lazımdır.

Ünsiyyət prosesində insanlar nəinki mühit haqqında məlumat əldə edir, eyni zamanda müxtəlif adət və ənənələrə yiyələnir ki, bunlar da real varlığın dərk edilməsinə xüsusi istiqamət verir. Deməli ünsiyyət hər şeydən əvvəl obyektiv varlığın dərk edilməsini təmin edən əsas şərtdir. Həyati faktlar göstərir ki, ünsiyyət eyni zamanda psixi proseslərin təzahüründə özünəməxsus tərzdə iştirak edir. Ünsiyyət psixi proseslərin dinamikasına, təzahürünə təsir göstərir və onları daha da mütəhərrik edir. Ünsiyyət eyni zamanda şəxsiyyətin formalaşmasına da müəyyən tərzdə istiqamət verir. Şəxsiyyətin təşəkkülü ünsiyyət prosesinin məhsuludur. Belə ki, ünsiyyət sayəsində insan keyfiyyətcə dəyişir, onun hərtərəfli, ahəngdar inkişafi mümkün olur, o, müəyyən ictimai vəzifəni yerinə yetirir, sosial rolu ifa edir, zəruri rəftar və davranış normalarına, praktik fəaliyyət vərdişlərinə yiyələnir, ətraf aləmə fəal surətdə təsir göstərməyə can atır (1, s. 57).

Ünsiyyətin vasitəli və vasitəsiz növləri vardır. Vasitəsiz ünsiyyət həm verbal, həm də qeyri-verbal ola bilər. Vasitəsiz ünsiyyətdə nitq mühüm rol oynayır. Elmi-texniki tərəqqi nəticəsində meydana çıxmış mükəmməl texniki vasitələr insanlar arasında ünsiyyət tərzinin yaranmasına səbəb olmuşdur. Belə ünsiyyət "vasitəli ünsiyyət" adlanır.

Kollektiv əmək fəaliyyətinin planlaşdırılması və tənzim edilməsini təmin etmək ünsiyyətin yerinə yetirdiyi ən başlıca sosial funksiyadır. Ünsiyyət eyni zamanda idarəetmə və ictimai nəzarətetmə funksiyasını yerinə yetirir. Yəni ünsiyyətin xüsusən də nitqin köməyilə cəmiyyət öz üzvlərinə bu və ya digər davranış və rəftar normalarını yayır, onun mənafeyinə zidd olanları isə pisləyir. Ünsiyyət vasitəsilə qruplararası qarşılıqlı təsir təmin edilir.

Ünsiyyət informasiya mübadiləsi dedikdə informasiyanın iki tərəfi fərqləndirilir. Birinci, kommunikator - informasiyanı verən, ikincisi resipient -informasiyanı qəbul edən.

İnsanlar ünsiyyət prosesində bir-birlərinin fikirləri, ideyaları, hissləri və s. ilə tanış olurlar. Onlar keçmişdə baş vermiş müxtəlif hadisələr haqqında bir-birinə məlumat verir, ayrı-ayrı məsələlər barəsində bir-birlərinin rəyini və mülahizələrini öyrənirlər. Bu baxımdan kommunikasiya prosesi informasiya mübadiləsi kimi təhlil oluna bilər. Kommunikasiyanın iki tipini fərqləndirmək olar: verbal və qeyri-verbal kommunikasiya (7, s. 34).

Verbal kommunikasiya ünsiyyət prosesində nitq mühüm rol oynayır. İnsan istər onu əhatə edən mühit, istərsə də keçmiş və gələcək barədə hər cür məlumatı əsasən yazılı və şifahi nitq vasitəsilə alır. Nitqin əsas struktur vahidi olmaq etibarilə söz çox böyük qüvvəyə malikdir. İ.P.Pavlovun sözləri ilə desək, «Söz fırtına kimi insanın orqanizminin ən etibarlı hesab edilən psixofizioloji prosesləri belə dağıda bilər, tərsinə çevirər, hətta yox edər və ya dəyişə bilər». Söz yalnız pozan, dağıdan deyil, eyni zamanda müsbət təsirə malik ən qüvvətli qıcıqlandırıcıdır. Ən çətin şəraitdə deyilən bircə kəlmə söz belə insanda ruh yüksəkliyi yaradır, onda müsbət emosiyaların baş qaldırmasına, nəcib əxlaqi keyfiyyətlərin yaranmasına, təzahürünə, həmçinin formalaşmasına istiqamət verə bilər. Burada əsl məsələ hər sözdən yerində istifadə etmək, bununla da ünsiyyətə düzgün qiymət verməkdir.

Ünsiyyətin keyfiyyəti həm də sözün işlənmə məqamı və məqsədi ilə bağlıdır. Bu cəhətdən dildə müraciət formalarının, nitq etiketlərinin işlənməsi xüsusi əhəmiyyət daşıyır. Nitq etiketləri, müraciət formaları dilin milli keyfiyyətini əks etdirən əsas əlamətlərdən biridir. Azərbaycan dilində bu vahidlər üslubi imkanlarına görə çoxşaxəli məzmun və funksiya daşıyır. Nitq etiketləri müxtəlif üslublarda fərqli şəkildə işlənir. Çünki hər sahənin özünəməxsus nitq üslubu vardır. Bu mənada, bədii üslubda işlənən nitq etiketlərinin araşdırılmasının ayrıca əhəmiyyəti vardır. Müraciət – rabitəli nitqin elementlərindən biridir və məntiqə uyğun olaraq o, bu və ya başqa halda nitq mühiti ilə əlaqədardır. Belə ki, danışıq zamanı başqasının heysiyyətinə toxunan, şəxsiyyətini təhqir edən, ədəb qaydalarına uyğun olmayan söz və ifadələrə: *soxulmaq, meymun, keçəl, xosunlaşmaq, kəllən haqqı, böyük fısqırıq, burnunu soxmaq, əkilmək, məzələnmək, soxuşdurmaq, burcutmaq, aradan sürüşmək, sərsəm, boşboğaz, toqqanın altını bərkitmək, özü doğub göbəyini özü bağlamaq, ipli-mıxlı yoxa çıxmaq, eşşəyin quyruğuna bağlamaq* və s. ifadələrə yol verilməməlidir. Belə leksik vahidlər və ifadələr hansı münasibətlə deyilməsindən asılı olmayaraq daim ciddi narazılıqla qarşılanır.

Xalqın milli təfəkkürünə, etnoqrafiyasına, ənənələrinə uyğun müəyyən nitq etiketi normaları, qaydaları vardır ki, hər bir mədəni və savadlı adamın onlara əməl etməsi nitq mədəniyyəti baxımından zəruri sayılır. Danışığın milli mentalitetimizə uyğunluğu ünsiyyətin müxtəlif məqamları, situasiyalarında söz, ifadə, nitq etiketlərindən düzgün istifadə edilməsində özünü göstərir. Ən münasib, xoşagələn etiketlərin (nəzakətli, ürəkaçan söz və ifadələrin) yerində işlədilməsi ünsiyyətə girənlər, dinləyicilər tərəfindən razılıqla qarşılanır. İnsanın arzusu, istəyi, hətta bəzən də taleyi çox zaman onun müvafiq nitq

---

[98] Bakı Dövlət Universitetinin müəllimi

etiketlərini işlədə bilməsindən asılı olur. Bu tələblərin gözlənilməməsi insanların narazılığına, münasibətin, qarşılıqlı anlaşmanın pozulmasına gətirib çıxarır.

Universitet təcrübəsində tələbələrin öz müəllimlərini başqası ilə əvəz etmək barədə müraciətinin dəfələrlə şahidi olmuşuq. Müəllim və tələbə münasibətində belə xoşa gəlməyən hal əksərən danışıq etikasının pozulması, tələbəyə qarşı kobud söz və ifadənin işlənilməsi nəticəsində baş verir. İnsan bütün hallarda öz danışığına nəzarət etməyi, ifadələri ölçüb-biçməyi bacarmalı, heç bir vəziyyətdə etika qaydaları pozulmamalıdır. Xüsusi gərginlik keçirən adamlar çox vaxt əsəbi danışır. Belələrinə onu tanıyanlar "əsəbidir, bənd olmayın" deyə bəraət verirlər. Fikrimizcə, əslində heç də belə olmamalı və qeyri-normal danışığa görə şəxlərə iradlar bildirilməlidir. Həm ailədə, həm də ictimai yerlərdə nitqin etik normaları gözlənilməli, lüzumsuz, təhqiramiz sözlər işlədilməməlidir.

Qeyri-verbal kommunikasiya kommunikasiya vasitələrinin müxtəlif tipləri var. Bu baxımdan aşağıdakılar xüsusi olaraq qeyd olunur:

1. Mimika sifət əzələlərinin dinamik ifadəsi kimi özünü göstərir. Qaş, göz, yanaq, dodaqlar və s. sifətin bu və ya digər dərəcədə lokal mimika sahələridir.

Son zamanlar vizual ünsiyyət- «gözlərin təması» problemi diqqəti daha çox cəlb edir. Anatomik baxımdan gözlər nə qədər müxtəlif olsa da, onların kodları, başqa sözlə, psixosemantikası baxışların, necə deyərlər, rəqsində açıqlanır.

2. İntonasiya ünsiyyətin başlıca akustik vasitəsidir. Ünsiyyət prosesində kommunikatorun resipientə münasibəti bilavasitə onun intonasiyasında əks olunur. Onun ekspressiv- emosional funksiyası önəmlidir. İntonasiyanın bu funksiyası xüsusi məntiqi vurğu, pauza və s. kimi akustik vasitələrlə qaynaqlanır.

3. Kinesika «bədən hərəkətlərinin dili» kimi meydana çıxır. İnformasiya mübadiləsində onun kodları jestlər vasitəsilə açıqlanır (6, s. 67).

İfadə olunan bu və ya digər fikir nitq mədəniyyətinin tələbləri baxımından düzgün, aydın, məntiqi, yığcam, səlis, zəngin, canlı, ahəngdar, sadə, dəqiq və anlaşıqlı olmalıdır. Dilin ifadə imkanları o qədər zəngin və o qədər rəngarəngdir ki, söz və söz formaların hansı sintaktik birləşmədə, hansı mətndə necə işlənməsi haqqında konkret resept vermək mümkün deyil. Buna görə də eyni dildə danışan hər fərdin öz danışıq tərzi, öz ifadə üsulu var. Lakin dilin müqəddəsliyini qorumaq, onun ədəbi dil kimi daha da püxtələşməsi və səlisləşməsi naminə yazıda və nitq prosesində heç kəs ədəbi dilin müəyyən edilmiş normalarından kənara çıxmamalıdır və bu normalara əməl etmək hamının şərəfli vəzifəsidir.

İnsanlara müraciət məqsədilə işlədilən sözlər – xitablar dinləyənin diqqətini cəlb etmək, onu çağırmaq, nəyəsə sövq etmək, nədənsə çəkindirmək və s. məqsədi daşıyır. Qohumluq əlaqələrinə, yaşa, cinsə, ictimai mövqeyinə, vəzifəyə və sairəyə görə toplumun qəbul etdiyi sözlər - bunlara vokativ sözlər deyilir - müraciət olunanları razı salır, onları hərəkət etməyə, fəaliyyət göstərməyə sövq edir. İnsanlara edilən müraciət formaları müxtəlifdir, rəngarəngdir. Bunların bir qismi qohumluq münasibətini bildirən adlardır: *anacan, atam balası, atacan, qardaş, dayıcan, dayıoğlu, dayıqızı, əmi, əmioğlu, əmiqızı, əmican* və s. Bu cözlərlə həm qohumlara, həm də yadlara müraciət olunur. Müraciət bildirən baş sözlərə "ay" vokativ sözü də əlavə olunur.

Müraciət bildirən sözlərin digər qismi şəxsin cəmiyyətdəki mövqeyi, vəzifəsi, peşəsi, milli və yaş mənsubiyyətini, insanların qarşılıqlı əlaqə və münasibətini ifadə edir. *Müəllim, həkim, sürücü, satıcı, mühəndis, biznesmen, fermer, direktor, dekan, müdir, professor* və s. belə sözlərdəndir. "Müəllim" sözü ünsiyyətdə geniş şəkildə işlənən müraciət formasıdır. Bu söz iki şəkildə işlədilir: həm ayrı, həm də xüsusi vokativ sözlə - adlarla. Təlim-tərbiyə ilə məşğul olan adama, həm də rəsmiyyət və hörmət əlaməti olaraq digər sənət sahiblərinə (müəssisənin direktoru, nazirliyin işçiləri, hökumət rəhbərləri və başqalarına) müraciət zamanı **müəllim** sözü şəxs adı ilə işlədilir.

Yeri gəlmişkən qeyd edək ki, "müəllim" müraciət formasından bəzən uyğun olmayan məqamlarda, yersiz istifadə olunur, işindən, peşəsindən və s. asılı olmayaraq istənilən adama bu adla müraciət edilir. Məsələn, bu gün əksər hallarda cəmiyyətimizdə, demək olar ki, hamıya "müəllim" deyə müraciət olunur. Belə uyğunsuz müraciət həmin sözün ehtiva etdiyi mənaya, məzmuna, şübhəsiz ki, xələl gətirir.

Özündən yaşlı adamlara (bir qədər ağsaqqal sayılan adamlara) adı ilə müraciət etmək qəbahət sayılır. İctimai yerlərdə *aşna, lələ, ay arvad, a gədə, qağa, canciyər* və s. kimi müraciət formalarının işlənməsi başqalarına hörmətsizlik kimi qiymətləndirilməlidir. Məhəmməd peyğəmbərin demişdir: "Kim birisini öz adı ilə deyil, onun xoşlamadığı bir adla çağırırsa, mələklər ona lənət oxuyur". Yazıçı, publisist Həsən Mehdiyev öz xatirələrində yazırdı ki, "... müsahibim mənə "qəqəni" deyə müraciət etdi. Bu sözün rayon yerində gədə-güdəyə, əl altında qalana deyildiyini bilirdim. Söz məni yaman bərk tutdu. Bir mülahizəyə görə özümü saxladım. Müsahib bunu hiss etdi, məndən üzr istədi" Bu həyati misal müraciət formasının ünsiyyətdə, qarşılıqlı münasibətlərdə nə qədər əhəmiyyətli rol oynadığına əyani bir sübutdur.

Müraciətlərdən, xitablardan televiziya, radio verilişlərində də istifadə olunur ki, tamaşaçının, dinləyicinin diqqətini cəmləşdirmək, verilən informasiyaya, göstərilən təsvirə, hadisəyə diqqətli olmaq məqsədini daşıyır. Ən əsası odur ki, bu xitablar xoş, lirik, ürəkaçan bir əhvali-ruhiyyə yaratmaq, səfərbəretmə, ruhlandırma, qürur və fəxr məzmunu bildirmək üçün ən zəruri nitq elementləridir.

Ədəbiyyat

6. Abdullayev N. Nitq mədəniyyətinin əsasları. Bakı, 2013
7. Babayev A. Azərbaycan dili və nitq mədəniyyəti. Bakı, 2012
8. Əfəndiyeva T. Azərbaycan ədəbi dilinin üslubiyyat problemləri. Bakı, 2001
9. Əliyev K. Nitq mədəniyyəti və üslubiyyatın əsasları. Bakı, 2001
10. Hacıyeva İ. Nitq mədəniyyəti. Bakı, 2011
11. Həsənov H. Nitq mədəniyyəti və üslubiyyatın əsasları. Bakı, 2003

12. Rzai A. Nitq mədəniyyəti və üslubiyyat. Bakı, 2001
Açar sözlər: ünsiyyət mədəniyyəti, nitq etikası, nitq etiketləri, müraciət formaları, mədəni ünsiyyət modeli
Ключевые слова: культура общения, речевая этика, речевой этикет, формы обращения, культурологическая модель общения
Key words: communication culture, speech ethics, speech etiquette, forms of appeal, cultural communication model

Xülasə

Məqalədə şifahi nitqin əsas elementi olan ünsiyyətindən bəhs olunur. Burada cəmiyyətdə ünsiyyət mühüm faktoru olan müraciət formaları və nitq etiketləri haqqında məlumat verilir. Qeyd olunur ki, nitq etiketləri ünsiyyət etikasının vacib şərtlərindən biridir. Nitq etiketləri danışan ümumi səviyyəsi bağlı olub onun nitq mədəniyyətinin əısas göstəricisidir. Məqalədə müxtəlif yaş və sosial səviyyələr üzrə müraciət formalarının işlənmə meyarları qeyd olunur. Araşdırmada mövzu üzrə müvafiq ədəbiyyatlara istinad olunur, müasir dil faktları təhlil edilir.

Этика речи в процессе общения

Резюме

В статье говорится об общении, которое является основным элементом устной речи. Здесь вы найдете информацию о бланках заявлений и речевом этикете, которые являются важным фактором общения в обществе. Отмечается, что речевой этикет является одним из важных условий этики общения. Речевой этикет связан с общим уровнем говорящего и является основным показателем его речевой культуры. В статье указаны критерии разработки анкет для разных возрастов и социальных уровней. В исследовании упоминается соответствующая литература по теме, анализируются современные языковые факты.

Speech ethıcs ın the communıcatıon process

Summary

The article talks about communication, which is the main element of oral speech. Here you will find information about application forms and speech etiquette, which are an important factor in communication in society. It is noted that speech etiquette is one of the important conditions of communication ethics. Speech etiquette is related to the general level of the speaker and is the main indicator of his speech culture. The criteria for the development of application forms for different ages and social levels are mentioned in the article. Relevant literature on the subject is referred to in the research, modern language facts are analyzed.

RƏYÇİ: dos. T.Əliyev

Tərlan Paşa oğlu Məlikov[99]

ƏRƏB DİLÇİLİYİ TARİXİNİN TƏDQİQAT İSTİQAMƏTLƏRİ

Eramızın VII-XIII əsrlərində Ərəb xilafətinin yaranması ilə regionda dövlət və elm dili ərəb dili oldu. Quranın yazıldığı klassik dil ilə canlı danışıq dili olan müxtəlif ərəb ləhcələri arasında ciddi fərqlər mövcud idi. Bir tərəfdən müsəlmanların müqəddəs kitabını savadsız ərəblərin özlərinə və islamı qəbul etmiş başqa xalqlara düzgün oxuyub başa düşmək, onun təhrif edilməsinə yol verməmək, digər tərəfdən klassik ərəb dilini ləhcələrin və əcəmlərin (qeyri-ərəblərin) dillərinin təsirindən qorunmaq zərurəti ərəb dilinin qayda-qanunlarını bir yerə toplayıb sistemləşdirməyi tələb edirdi. Məhz bu nöqteyi nəzərdən ərəb dilçiliyinin [3, s. 7-16] yaranması əsasən dini amillərlə bağlı olmuşdur. Doktor Əli Əbu əl-Məkarim "المدخل الى دراسة النحو" (Əl-Mədxəl ila dirasət ən-nəhv) [12] əsərində ərəb dilçiliyinin yaranmasını stimullaşdıran amillərdən danışarkən onları ictimai və dini olaraq iki yerə bölür. İctimai amil dedikdə ərəb qəbilələri ilə əcəmlərin qaynayıb qarışması nəticəsində Ərəb Xilafəti daxilində böyük müsəlman millətinin formalaşması nəzərdə tutulur. İnsanların qarşılıqlı ünsiyyətini təmin edən "dil faktoru" olmadan belə bir cəmiyyətin formalaşması mümkün deyildir. Dini amil dedikdə isə sonuncu haqq din olan İslamın insanlara Qurani-Kərim vasitəsilə göndərilməsi və bu müqəddəs kitabın ərəb dilində olması nəzərdə tutulur. İslamın məhz ərəb dilində nazil edilməsi ərəb dilinin geniş imkanlarından xəbər verərək onun Quran təlimində əvəzolunmaz əhəmiyyət kəsb etdiyini bir daha sübut edir.

H.H.Heybətov və T.H.Hüseynbalayevanın "Sami dilləri tarixi" [1, s. 271-279] əsərində qeyd olunur ki, eyni məqsədə xidmət edən bu iki amil qarşılıqlı təsirə malikdir. Belə ki, ictimai amil xilafət tərkibində yaşayan müxtəlif millətlər arasında qarşılıqlı anlaşmanı təmin etmək üçün "müştərək dilin" formalaşmasına gətirib çıxarmışdır. Beləliklə, qarşılıqlı anlaşmanı təmin edən bu müştərək dil ərəb dilinin ən sadə ifadə vasitələrindən yararlanaraq dildə sait-səs məhsulunu genişləndirmiş, nəticədə sözün sonundakı dəyişikliklərə riayət etməyə ehtiyac qalmamışdır.

Dini amil isə ictimai amildən fərqli olaraq "müştərək dil" deyil, "vahid dil" prinsipindən çıxış edir. Sərhədləri möhkəmləndirilmiş, qayda-qanunlarla sistemləşdirilmiş dil olmadan həmin dilin və bu dildə göndərilmiş dinin tədrisi mümkün deyildi. Qeyri-ərəblər arasında dilin tədrisini asanlaşdırmaq, onların arasında fikir və əqidə birliyinə nail olmaq üçün sistemləşdirilmiş vahid dilin mövcudluğu zərurəti yaranmışdı.

Ərəb qrammatika elminin mənşəyi, yaranması, ümumiyyətlə əvvəldən mövcud olub-olmaması haqqında bir sıra nəzəriyyələr mövcuddur. Hər şeydən əvvəl qeyd etmək lazımdır ki, ərəb nəhvi – qrammatika elmi əksər dilçilərin fikrincə islamın birinci yüzilliyində yaranmışdır.

V.Məmmədəliyev "Ərəb dilçiliyi" [3, s. 8-9] kitabında ərəb dilçiliyinin təşəkkülü barəsində elm tarixində aşağıda qeyd olunan üç əsas fikir mövcud olduğunu qeyd edir: 1) Ərəb dilçiliyi xaricdən təsir görməmiş, yerli zəmin əsasında yetişib inkişaf etmiş müstəqil bir elmdir. Bu fikri orta əsr ərəb filoloqları, bir qisim müasir alimləri, həmçinin Avropa şərqşünaslarından A.Kremer, E.Renan, İ.Beys, M.Bravman və s. müdafiə edirlər. 2) Ərəb qrammatikası qədim yunan elminin, xüsusilə Aristotel məntiqinin təsiri altında yaranıb inkişaf etmişdir. Ərəblər isə öz növbəsində Aristotel məntiqi ilə siryani (arami) alimləri vasitəsilə tanış olmuşlar. Avropa və rus şərqşünasları tərəfindən irəli sürülmüş bu fikrə bir çox müasir ərəb alimləri, o cümlədən Taha Hüseyn, Əhməd Əmin, İbrahim Mədkur, İbrahim Salamə, İbrahim əs-Səmarai, Mehdi əl-Məxzumi, Yusif Qaraquş, Xəlil Səman və s. tərəfdar çıxırlar. 3) Ərəb dilçiliyi qədim hind qrammatika elminin təsiri nəticəsində təşəkkül tapıb formalaşmışdır. İlk dəfə K.Follers tərəfindən irəli sürülən bu müddəa sonralar K.Brokelman tərəfindən müdafiə edilmişdir.

Bəzi dilçi alim və mütəxəssislərin fikrincə isə ərəblər həmişə söhbət edərkən ərəb dilinin qanunlarına riayət etmiş, ərəb nəhvi hələ qədim zamanlardan onlarda mövcud olmuşdur. Zaman keçdikcə, nəhv ərəblər arasında unudulmuş, lakin islamın gəlişi ilə o yenidən doğulmuşdur. Belə dilçilərdən olan Əhməd bin Faris həm ərəb qrammatikasının, həm də Əruz elminin qədim zamanlardan bəri mövcud olduğunu qeyd edir. Bu iki elm qədimdə də mövcud idi. Lakin, zaman onları unutdurmuş, insanlar onları yaddan çıxarmışlar. Sonra Əbul Əsvəd əd-Duəli erab-nəhv, Xəlil bin Əhməd isə əruz elmlərini yenidən gündəmə gətirmişlər. Bəzi alimlər isə bu elmlərin banisi Əbul Əsvəd və Xəlili göstərirlər [1, s. 271-273].

Orta əsr filoloqlarının əksəriyyəti ərəb qrammatika elminin yaranmasını IV xəlifə Əli ibn Əbu Talibin və onun ardıcıllarından biri olan Əbu əl-Əsvəd əd-Duəlinin (605-668) adı ilə bağlayırlar. Onların bu barədə söylədikləri rəvayətlərin bir çoxunda göstərilir ki, əd-Duəli ərəb dilinin qayda-qanunlarını Əlidən öyrənmiş və onun tövsiyəsi ilə qrammatikaya dair kitab yazmağa başlamışdır.Əli ibn Əbu Talib nitq hissələrini onların mənalarını müəyyənləşdirmiş, sonra Əd-Duəliyə bu işi davam etdirməyi əmr etmişdir. Əd-Duəlinin tərtib etdiyi "innə" tipli modal sözlər siyahısına "ləkinnə" sözü Əli ibn Əbu Talib tərəfindən əlavə edilmişdir. Bundan sonra əd-Duəli nöqtə şəklində işlənən hərəkələri (qısa saitləri) müəyyənləşdirmiş, ərəb dilində fail, məful (feili sifətlər), ön qoşmalar, ismin halları, təəccüb bildirən feillər və başqa qrammatik hadisələri işləyib hazırlamışdır [2, s. 9].

Müasir dilçilərdən olan Məhəmməd əl-Muxtar Valəd Əbbah da öz əsərində bu fikrə şərik olduğunu yazır. Lakin şeyx Tantavinin [13] bu barədə olan fikirləri ziddiyyətlidir. Belə ki, o əvvəlcə əl-Ənbarinin fikrinə, yəni ərəb qrammatikasının əsası Əli tərəfindən qoyulmuşdur fikrinə üstünlük verdiyini qeyd etsə də, az sonra nəhvi – qrammatikanı tərtib etməyin çox çətin bir iş olduğunu, bunu edən şəxsdən maximum diqqət və ərəb kəlamını tədqiq etmək üçün asudə vaxt

---

99 BDU Şərqşünaslıq fakültəsi, Ərəb filologiyası kafedrası, filologiya üzrə fəlsəfə doktoru, terlan.malikov.1987@gmail.com

tələb etdiyini vurğulayaraq ömrü keşməkeşlərlə dolu olan İmamın (ə.) belə bir imkana malik olmadığını yazır. O, fikrini tamamlayaraq bildirir ki, məhz bu səbəblərə görə nəhvin banisi Əbul Əsvəd əd-Duəlidir [3, s. 8].

Ərəb dilçiliyinin inkişafında ərəb qrammatika məktəblərinin misilsiz xidmətləri vardır. Ümumiyyətlə, bəzi alimlər ərəb dilçilərini müəyyən qrammatik məktəblər və mərkəzlər çərçivəsində öyrənirlər. Bu məktəblərin sayı adətən beş göstərilir. Bunlar Bəsrə, Kufə, Bağdad, Əndəlis və Misir qrammatika məktəbləridir. Bəzi ərəb dilçiləri bəzən bu beş məktəb ilə yanaşı iki, Məkkə və Mədinə mərkəzlərini də göstərirlər. ərəb dilçilik elminin tarixinin tədqiqinin bu istiqaməti özünün ən aydın əksini misirli alim Şövqi Dayfın yaradıcılığında tapmışdır. Şövqi Dayf qrammatik məktəbləri göstərdikdən sonra həmin məktəblərin əsas xüsusiyyətlərini və görkəmli nümayəndələrinin həyat və yaradıcılığını araşdırır, onların əsərlərinin qısa təhlilini verir. O, Bəsrə qrammatika məktəbindən Əbul-Əsvəd əd Duəli, İbn Əbi İshaq, İsa ibn Ömər əs-Səqəfi, Əbu Əmr ibn əl-Əla, Yunus bin Həbib, Xəlil bin Əhməd, Sibaveyhi, Əl-Əxvani Əl-Avsət, Qutrub, Əbu Ömər əl-Cərmi, Əbu Osman əl-Məzini, əl-Mubərrəd, əz-Zəccac, ibn əs-Sirac və Seyrafinin, Kufəlilərdən ər-Ruasinin, əl-Kisaini, Hişam bin Müaviyə əd-Dariri, əl-Fərranı, Sələbi, Əbu Bəkr əl-Ənbarinin həyat və yaradıcılığını araşdırır. Bağdad qrammatika məktəbindən Şövqi Dayf ibn Keysan, əz-Zəccaci, Əbu Əli əl-Farisi, ibn Cinni və əz-Zəməxşərinin, Əndəlis qrammatika məktəbindən ibn Mada, ibn Asfur, ibn Malik, Əbu Həyyan, Misir qrammatika məktəbindən isə İbn Hacib, ibn Hişam və əs-Suyutini tədqiq edir.

Ərəb dilçiliyinin öyrənilməsində mövcud olan müxtəlif istiqamətlər, həmçinin onun inkişaf mərhələləri haqqında danışarkən qeyd etməliyik ki, bu barədə dilçilər arasında vahid bir fikir yoxdur. Belə ki, ərəb nəhvinin tarixini tədqiq edərkən hər bir dilçinin bu məsələyə özünəməxsus şəkildə yanaşdığının şahidi oluruq.

Şeyx Məhəmməd ət-Tantavi ərəb dilçiliyi tarixini dörd dövrə bölür və onları müvafiq olaraq belə adlandırır [1, s. 275-276]:

1. طور الوضع والتكوين – Əsası qoyulma və formalaşma dövrü
2. طور النشوء والنموّ – Nəşət və inkişaf dövrü
3. طور النضوج والكمال – Yetkinlik və kamallıq dövrü
4. طور الترجيح والبسط فى التصنيف – Üstünlük və genişlənmə dövrü

Birinci dövrü Şeyx ət-Tantavi Bəsrə dövrü (ərəb dilçiliyinin yaranma dövrü) adlandırır və onun Əbul Əsvəd əd-Duəli ilə başlayıb Xəlil bin Əhmədlə bitməsini qeyd edir. İkinci dövrü Bəsrə və Kufə məktəbləri dövrü adlandırır və Xəlil bin Əhmədlə Əbu Cəfər ər-Ruasi ilə başlayıb Bəsrəli əl-Mazini və Kufəli ibn əs-Sikkitlə bitdiyini deyir. Onun fikrincə bu dövr qəti formalaşma və müəyyən bir çərçivədə inkişaf etmə dövrüdür. Üçüncü dövrü Bəsrə və Kufə məktəbləri dövrünün davamı hesab edərək Bəsrəli əl-Mazini və Kufəli ibn Sikkitlə başladığını və Bəsrəli əl-Mubərrəd, Kufəli Sələblə bitdiyini qeyd etmişdir. Şeyx ət-Tantavi dördüncü dövrü ərəb dilçilik məktəblərinin şaxələndiyi dövr adlandırır və onun məzmun etibarilə Bağdad, Əndəlis, Misir və Şam dövrü olduğunu qeyd edir. Bu dövrlərdən üçünü tədqiq edərkən Şeyx ət-Tantavi təbəqələr sisteminə qayıdır və bu təbəqələri cədvəl şəklində verir [13, s. 27].

Bəsrə dilçilərini yeddi təbəqəyə bölür: 1) Əbul Əsvəd əd-Duəli, Nasr, Anbasə, İbn Hörmüz və Yəhya; 2) İbn İshaq, İsa ibn Ömər və Əbu Əmr; 3) əl-Əxfəş, əl-Xəlil, Yunis; 4) Sibəveyhi, əl-Yəzidi, Əbu Zeyd; 5) əl-Əxfəş, Qutrub; 6) əl-Cərmi, əl-Mazini, ər-Rəyyaşi; 7) əl-Mubərrəd.

Kufə dilçilərini isə beş təbəqəyə bölür: 1) ər-Ruasi və əl-Hərra; 2) əl-Kisai; 3) əl-Əhmər, əl-Fərra, əl-Lihyani; 4) ibn Sədai, ət-Tival, ibn əs-Sikkit; 5) Sələb.

Zaman etibarilə ən əhatəli dövr Şeyx ət-Tantavi طور الترجيح adlandırdığı dövrdür. O, bu dövrü Bağdadlıların araşdırması ilə başlayaraq, Misir və Şam dilçilərinə keçir, daha sonra Məğrib və Əndəlis dilçilərini araşdırır. Bundan sonra isə Şeyx Tantavi Bağdadın süqutu nəticəsində Məşriq və Məğrib dilçiliyi məfhumunun ortaya çıxmasına toxunur sırf məşriq dilçilərini araşdırır. Məğrib və Əndəlis dilçilərindən danışarkən Əndəlis dilçilik prinsiplərinin Bağdad dilçilik məktəbinin prinsiplərinə üstün gəlməsini qeyd edərək Misir və Şam dilçilərini bu baxımdan tədqiq edir. Əsərin sonunda Şeyx Tantavi türk istilası dövründə yaşayıb yaratmış dilçiləri tədqiq edir.

Ərəb dilçilik tarixini mərhələlər istiqamətində tədqiq edən başqa bir müasir dilçi Misirli doktor Əli Əbu-l-Məkarimdir. O ərəb dilçilik elminin tarixi inkişaf mərhələlərini beş dövrə bölür [1, s. 276; 12, s. 111]:

1) طور النشوء والنموّ – Nəşət və təşəkkül dövrü
2) طور التطوّر – Inkişaf dövrü
3) طور النضج – Yetkinlik (təkamül) dövrü
4) طور التجمّد – Durğunluq (daşlaşma) dövrü
5) طور التحرّك – Dirçəliş (canlanma) dövrü

Əli Əbu-l-Məkarimə görə birinci mərhələ Əbul-Əsvəd əd-Duəli ilə başlayıb Xəlil bin Əhməd əl-Fərahidiyə qədər davam edərək 150 illik bir müddəti ehtiva edir. İkinci mərhələ inkişaf mərhələsi əl-Xəlil bin Əhmədlə başlayıb hicrətin 316cı ilində dünyasını dəyişmiş Əbu Bəkr Məhəmməd bin Səhl əs-Sərraca qədər iki əsr yarımlıq bir dövrü əhatə edir.

Doktor Əbu-l-Məkarimin Yetkinlik mərhələsi adlandırdığı dövr ibn Əs-Sərracla başlayıb 577-ci ildə dünyasını dəyişmiş Əbu-l-Bərəkət Kəmaləddin ibn Məhəmməd ibn Ənbari ilə bitir. İki əsr yarım bir müddəti əhatə edən bu mərhələdə İbn Cinni, Əbu Əli əl-Farisi kimi dilçilər yaşamışlar. Səkkiz əsrdən bir qədər az davam edən "durğunluq dövrü" XX əsrin əllinci illərinə qədər davam etmişdir. Əbu-l-Məkarim durğunluq dövründən danışarkən Əndəlis dilçisi Əbu-l-Abbas Əhməd bin əbdurrəhman bin Məhəmməd bin Mada əl-Ləxmi əl-Qurtubi (v.e. 592-ci il), Cəmaləddin bin Yusif bin Əhməd bin Abdulla Hişamı (v.e. 761-ci il) və Cəlaləddin Əbdürrəhman ibn Əbu Bəkr əs-Suyuti (v.e. 911-ci il) üç dilçini istisna edir.

Bunlardan biri məşhur على النحاة (Dilçilərə Cavab) kitabının müəllifi ibn Madadır. İbn Mada bu kitabında ərəb dilçilik elminin əsası hesab edilən amil nəzəriyyəsini ləğv etməyi təklif etmiş və qrammatikanı asanlaşdırmağı cəhd göstərmişdir. Lakin, kitab uzun müddət naməlum qalmış və müəllifin məqsədi həyata keçə bilməmişdir. İkinci müəllif İbn Hişam özünün مغنى اللبيب فى كتب الاعراب əsərində dilçiliyə yeni funksional baxımdan yanaşmağa çalışmalıdır. Üçüncü müəllif əs-Suyuti özünün الاشباه والنظائر فى النحو kitabında bütün qrammatika elminə vahid bir funksional sistem kimi qiymət vermək istəmişdir. Əbu-l-Məkarimə görə bu üç əsərdən başqa "Durğunluq dövrü"ndə yeni bir şey yaradılmadığını göstərir.

Sonuncu beşinci dövr əllinci illərdən bəri olan müddəti əhatə edir. Doktor Əli Əbu-l-Məkarimin fikrincə ərəb dilçiləri bu dövrdə ərəb dilinə yeni, Avropa dilçiliyinin nailiyyətlərindən istifadə etməyə başlamışlar [12].

Ərəb dilçilik tarixini mərhələlər səpgisində araşdıran dilçilərdən biri də Məğrib dilçisi Məhəmməd əl-Muxtar Valədabbahdır. Doktor Valədabbah ərəb dilçiliyinin tarixi mərhələlərindən danışarkən əsr ifadəsini işlətməyi üstün tutduğunu qeyd edir və bu ifadəni daha işlək və daha aydın hesab edir. O, ərəb dilçiliyinin yeddi inkişaf əsrini göstərir [1, s. 276].

1. عصر النشأة والتأسيس– Nəşət və təsis əsri
2. عصر التدوين والتصنيف – Yazı və əsərlər əsri
3. عصر البيان والتحصيل – İzahat və izləmə əsri
4. عصر الحصر والتنظيم – Toplama və təşkil etmə əsri
5. عصر التأصيل والتقويم – Orjinallaşma və qüvvətlənmə əsri
6. عصر التصحيح والتثبيت – Düzəliş və təsbit əsri
7. عصر التجديد والتيسير – Yeniləşdirilmiş və müasirləşdirilmiş əsr

Ərəb dilçiliyinin birinci inkişaf əsri ərəb dilçiliyinin yaranma dövrü [1, s. 271-278] olub, Əli ibn Əbu Taliblə başlayıb İbn Əbu İshaq əl-Hadrami ilə bitir və zaman etibariylə yüz ili əhatə edir. Qeyd etmək lazımdır ki, bu dövrdə ərəb nəhvinin ilkin əsaslarının müəyyənləşdirilməsi, prinsip və qanunlarının tərtib edilməsi başa çatmışdır.

Ərəb nəhvinin yazılıb qeydə alındığı dövrü [1, s. 276] kimi xarakterizə edilən ikinci inkişaf əsri hicrətin ikinci yüzilliyini əhatə edir. Bu dövr Əbu Əmr bin əl-Əla (689-770-ci illər) və İsa bin Ömər (710-770-ci illər) başlayaraq Xəlil bin Əhməd, Sibəveyhi, əl-Kisai və əl-Əxfəş əl-Övsəti əhatə etməklə Yəhya bin Ziyad əl-Fərra ilə (761-822-ci illər) başa çatır. Qısa bir müddət ərzində şöhrəti nəinki Bəsrə, hətta Bağdad hüdudlarını aşan "əl-Kitab" əsərinin Sibəveyhi tərəfndən ortaya qoyulması ərəb nəhvinin yazılıb qeydə alınması dövrünün artıq lazımı şəkildə inkişaf etdiyini, püxtələşdiyini sübut edir.

İzah və nəticə dövrü [1, s. 277] kimi səciyyələndirilən üçüncü inkişaf əsri hicrətin üçüncü yüzilliyini ehtiva edir. III yüzillik Xəlil, Sibəveyhi, əl-Kisai və əl-Fərranın fikirlərini genişləndirməklə, onların əsərlərində olan tam açıqlanmamış, qaranlıq məqamları izah edib əsaslarını aydınlaşdırmaqla məşğul olan əl-Mubərrəd (832-898-ci illər) və Sələbin (815-904-cü illər) fəaliyyətini əks etdirdiyi üçün eyni zamanda – İzah və təqib dövrü adlanır. Bu əsrdə doktor Valədabbahın fikrincə izah etməyə, onların ortaya çıxardıqları qayda və qanunları izləməyə, Bəsrə və Kufə məktəblərinin prinsiplərini aydınlaşdırmağa və onların arasında olan fərqləri göstərməyə və müəyyən etməyə çalışmışlar.

Məhdudlaşdırma və müqayisə dövrü olan dördüncü inkişaf əsrində [ht] dilçilik sahəsindən araşdırmalar geniş vüsət almış və bütün İslam dünyasını əhatə etməyə başlamışdır. Ümumiyyətlə hicrətin IV yüzilliyində ərəb nəhvinin öyrənilməsi özünün kuliminasiya nöqtəsinə çataraq bütün xilafəti əhatə etdi. Beləliklə, qrammatika məktəbləri normaya salınmış – qanuni şəkil almış nəzəriyyələr forması almağa başladı. Elə buna görə də, bu dövrdə müxtəlif ideya istiqamətlərinin, cərəyan və tendensiyaların formalaşdığını nəzərə alaraq onu "məhdudlaşdırma və müqayisə" dövrü adlandırırıq. Bu dövrün ən ümdə vəzifəsi İslam dünyasındakı dilçilik fəaliyyətinin nəticəsini bir yerə toplayıb, saf çürük etmək idi. Əsasən üç istiqamətdə araşdırmalar aparılan bu dövrdə yaranan tənqidi fikir tərəfdarları olan İbn Keysan (v.e. 921-ci il), İbn Sərrac (v.e. 928-ci il) və ardıcılları artıq yeni bir qrammatika məktəbi formalaşdıra bilir. Bağdad qrammatika məktəbi adlanan bu məktəb irrasional axtarışlarla Bəsrə və Kufə qrammatiklərinin fikir və mülahizələrini təhlil süzgəcindən keçirərərk həmin qrammatik mühakimələrə özünəməxsus və fərqli yanaşma tətbiq etməyə başlayır. Haqqında danışdığımız dövrdə meydana gələn istiqamətlərdən biri də Təfsir hərəkatıdır ki, bu dövrün dilçiləri dilin fəlsəfi aspektini sırf qrammatik yöndən ayırmağa xidmət edən şərhlərlə məşğul olmuşdur. Bu cərəyanın əsas ideoloqları olan əs-Sirafi (v.e. 897-978-ci illər) və ər-Rumaninin (v.e. 904-994-cü illər) əsas qayəsi mövcud məktəbləri əhatə etmək üçün ilkin dərin məlumatları tərtib etmək, Sibəveyhinin fikirlərinin təfsir, yəni şərh edilməsi fonunda qrammatiklərin metodunu doqmatik ilahiyyatçıların metoduna yaxınlaşmaqdan ibarətdir. Üçüncü istiqamət isə əz-Zəccac, Əbul-Qasim əl-Zucəci, İbn Cinni, İbn əl-Ənbəri və əs-Suyuti elmi diskusiyalar keçirərək, qrammatik tədqiqat metodları ilə məntiqçilərin metodlarını ortaq bir məxrəcə gətirməyə cəhd edirdilər. Yəni, həmin bu qrammatiklərin metodunun Üsul elminin metodu ilə müqayisə edən, növbəti əsrlərə təsir göstərən ideoloji cərəyan da əmələ gəlir.

Mənşəyin müəyyənləşdirilməsi və təshih dövrü olan beşinci inkişaf əsri [1, s. 278] iki yüz ildən artıq davam etmiş, təxminən hicrətin V-VI əsrlərini əhatə edir. Doktor Vələdabbahın fikrincə bu dövrdə dilçilik araşdırmalarında ağırlıq mərkəzi Məşriqdən Məğribə keçmiş, əvvəlcə Əndəlis dilçiliyi, sonra isə Məğrib dilçiliyi ön plana çəkilmişdir. Bu dövrdə əş-Şəntəmərinin sayəsində qrammatik araşdırmalar əsas yeri tutsa da, beşinci əsrin ortalarından başlayaraq leksikoqrafiya irəli çıxmış, İbn Sidə əl-Mursi və əz-Zəbidinin sayəsində leksikoloji tədqiqatlar güclənmiş, Ibn Təravə və onun şagirdi əs-Suheyli yaradıcılığında öz zirvəsinə çatmışdı. Altıncı əsr ərzində Əbu Musa əl-Cəzuli ibn əz-Zəccac və ibn Əl-Bərri irsindən yarandığı şəkildə istifadə edərək öz "əl-Muqaddəmə fin-nəhv" kitabını yazmış və düz bir əsr dilçilikdə hökmranlıq etmişdir.

Eyni zamanda bu əsrin sonlarında Ibn Mada inqilabı başlamış və Cəmaləddin ibn Malik əl-Cəyyaniyə qədər dilçilik elmini həyacana gətirmişdir.

Yeddinci əsrdən başlayaraq iyirminci əsrin əvvəllərinə qədər davam edən altıncı inkişaf əsrində (təsbit dövrü) [1, s. 277-278] ərəb nəhvinin tədqiqi və müzakirəsi cəhdləri bütünlüklə başa çatır, bu istiqamətdə mövcud olan düzgün tədqiqat üsullarından birinin seçilməsi, ümumiləşdirilməsi və təsbit edilməsi zərurəti meydana çıxır. Qeyd etmək yerinə düşərdi ki, bu mərhələ ərəb qrammatikasının indiki formasını müəyyənləşdirməyi bacaran Abdulla bin Malik ət-Tai əl-Cəyyani tərəfindən başa çatdırılmışdır. Yarım əsrdən artıq müddətdir ki, onun Əlfiyyə adı ilə məşhur olan əl-Xülasə əsəri ərəb qrammmatika elminin tədqiqində və öyrənilməsində mənbə rolunu oynamışdır. İbn Malikdən sonra gələn dilçilərə isə onun yolunu davam etdirməkdən, yazdığı kitablara şərh yazmaqdan başqa heç bir şey qalmamışdır. Belə ki, Əbu Həyyanın və İbn Hişamın yazdığı əsərlər də İbn Malik məktəbinin inkişafı və öz təsdiqini tapması istiqamətində çox mühüm rol oynamışdır. Bu dövr yeni qrammatika məktəblərinin ortaya çıxmasına təkan vermiş, Məğribdə, Misirdə və Şamda dilçilik mədrəsələri yaranmışdır.

Yeddinci inkişaf əsri ərəb dilçiliyinin müasir problemləri ilə məşğul olan "Müasir dövr" adlanır. H.H.Heybətovun fikrincə bu dövr qrammmatiklərinin, ərəbşünaslarının qarşısında duran ən mühüm vəzifələrdən biri də ərəb nəhvini Avropa dilçiliyi səviyyəsində öyrənməkdən, onu müasir oxuculara, ərəb dili sevənlərə onların başa düşə biləcəyi formada təqdim etməkdən ibarətdir [1, s. 278-279].

Bəzi dilçi və qrammatiklər ərəb dilçiliyinin inkişaf tarixini qeyd etdiyimiz üç məşhur dilçidən fərqli olaraq dövrlər üzrə deyil, təbəqat və əl-məratib (mərhələli) şəklində öyrənir. Bu istiqamət tarixi ardıcıllıq baxımından bəlkə də ilk istiqamətdir ki, adları müəyyən şəhərlərlə bağlı dilçiləri məratib və təbəqələrə bölən orta əsr alimləri Əbu Tayyib əl-Luğavi (v.e. 962-ci il), Əbu Bəkr əz-Zubeydi (v.e. 989-cu i) və Əbu Abdulla ibn Mərzban (v.e. 994-cü il) qrammatik məktəb ifadəsini işlətmir. Onlar dilçiləri bəsrəlilər, kufəlilər, bağdadlılar adlandırırlar.

Əbu-t-Tayyib Əl-Luğavi مراتب النحويين kitabında orta əsr dilçilərini beş təbəqəyə bölür: 1) Əbul Əsvəd əd-Duəli; 2) Yəhya bin Yəmur, əl-Udvani, Meymun əl-Əqrai, Albəsə əl-Fil əl-Mehri, Əbu Əmr ibn əl-Əla, Abdulla bin Əbu İshaq; 3) Bəsrəli Yunus bin Həbib və Əbul Xəttab əl-Əxfani, Kufəlilərdən Əbu Cəfər ər-Ruasi, Asim əl-Qari, Məhəmməd bin Muheysin, Həmzə əz-Zəyyat; 4) Bəsrəli Xəlil bin Əhməd, Əbu Zeyd əl-Ənsari, Əbu Ubeydə Muammar bin əl-Musanna, Əl-Əsmai, Əl-Əhmər, Sibəveyhi, Kufəli əl-Mufaddal bin Məhəmməd əd-Dabi, Xalid bin Gülsüm, və s.; 5) ət-Tuği, əl-Hirməzi, əl-Cərmi, Yəhya bin Zəyyad əl-Fərra, Əbu Ubeyd əl-Qasim bin Səllam, İbn Nəcdə, Yəqub bin Sikkit, Əhməd bin Yəhya Sələb, Qasim əl-Ənbari və s. Əbu Bəkr əz-Zubeydi طبقات النحويين واللغويين kitabında bəsrəlilər və kufəlilərlə yanaşı misirlilər, əndəlislilər və məğriblilərun də təbəqələrini vermişdir. Əz-Zubeydi bəsrəli dilçiləri on təbəqəyə bölür və Əbu Tayyib əl-Luğavidən fərqli olaraq misirliləri də unutmamış, misirli qrammatikləri və leksikoloqları üç təbəqəyə bölmüşdür. Ərəb dilçilik tarixinin tədqiqi sahəsində qiymətli əsərlərdən hesab olunan bu kitabda 286 qrammatik və leksikoloq haqqında məlumat verilmişdir.

Əz-Zubeydinin kitabında diqqəti cəlb edən bir neçə cəhət vardır. Birincisi ondan ibarətdir ki, əl-Mubərrədin və Sələbin tələbələrinin xüsusi bir qrupa ayırmır. Beləliklə, Bağdad qrammatika məktəbini xüsusi olaraq, müstəqil bir məktəb kimi qeyd etmir. İkincisi o dilçiləri təbəqələrə ayırarkən onları qrammatiklər və leksikoloqlar olmaq üzrə iki qismə bölür. Əvvəlcə birinciləri, sonra ikinciləri göstərir və bu zaman müəyyən uyğunsuzluqlar ortaya çıxır. Belə ki, əksər alimlərin dövrünün qüdrətli dilçilərindən hesab etdikləri və dilçilik elmində ilk növbədə Sibəveyhinin "əl-Kitab"ının şərhi ilə məşhurlaşmış Əbu Səid əs-Sirafini o, qrammatiklər arasında deyil, leksikoloqlar arasında verir.

Tədqiqatın sonunda ərəb alimlərinin əsərlərinə əsaslanaraq ərəb dilçilik tarixinin üç aspektdə araşdırıldığını qeyd edə bilərik. Birinci aspekt dilçilərin təbəqələri və məratiblər aspektidir. Tədqiqatda Əbu ət-Tayyib əl-Luğavinin, Şeyx ət-Tantavinin və əz-Zubeydinin bu mövzuya həsr etdikləri əsərləri araşdırılır. Əbu ət-Tayyib əl-Luğavi bəsrəliləri beş, kufəliləri isə üç təbəqəyə bölür, Bağdad, Misir və Əndəlis dilçilərindən danışmır. Şeyx ət-Tantavi isə bu dilçiləri təbəqələr çərçivəsində deyil, inkişaf dövrləri çərçivəsində araşdırır.

Ərəb dilçilik tarixinin tədqiqinin ikinci səpgisi inkişaf mərhələləri üzrədir. Şeyx Məhəmmməd ət-Tantavi ərəb dilçiliyinin dörd inkişaf mərhələsi olduğunu qeyd edir və onları təşəkkül, inkişaf, yetkinlik və üstünlük dövrləri adlandırır. Ərəb dilçiliyini mərhələlər səpgisində tədqiq edən ikinci dilçi Əli Əbul-Məkarimdir. O, ərəb dilçiliyinin beş inkişaf mərhələsini (təşəkkül, inkişaf, yetkinlik, durğunluq, oyanış) göstərir. Ərəb dilçiliyini mərhələlər səpgisində tədqiq edən üçüncü dilçi Məhəmməd əl-Muxtar Valədabbahdır. O, ərəb dilçiliyinin yeddi inkişaf mərhələsini göstərir və bu mərhələləri əsrlər adlandırır.

Ərəb dilçiliyinin tədqiqi istiqamətlərindən biri də onun qrammatika məktəbləri səpgisində araşdırılmasıdır. Bu istiqamət ayrı-ayrı qrammatika məktəblərin tədqiqi səviyyəsində çoxdan mövcud olan bir istiqamətdir. Lakin bütövlükdə bütün məktəbləri araşdıran alimlər çox azdır. Bunlardan birincisi Şövqi Dayfdır. Şövqi Dayf "əl-Mədarisun Nahviyyə" kitabında Bəsrə, Kufə, onların sintezindən yaranmış Bağdad, Misir və Əndəlis dilçilik məktəblərindən bəhs edir. Qeyd etmək lazımdır ki, Şövqi Dayf başqa kitablarında Şamda, Yəməndə, İranda, Sudanda dilçiliyin formalaşmasından və inkişafından ətraflı şəkildə danışsa da "Qrammatika məktəbləri" kitabında bu məsələyə toxunmur.

Ərəb dilçiliyinin tarixinə qısa şəkildə nəzər saldıqdan sonra onun inkişaf tarixini bütövlükdə və tam təfsilatı ilə araşdırmaq hələ heç bir aliminə nəsib olmamışdır. Görünür ki, bu bir tərəfdən böyük bir qrup ərəb dilçisinin, xüsusilə, ərəb dilçiliyinin Sibəveyhiyə qədər olan ilkin formalaşma dövrünə aid olan dilçilər haqqında kifayət qədər məlumatın olmaması, digər tərəfdən ərəb dilçilərinin və bir qədər geniş planda ərəb dilinin tədqiqi ilə məşğul olan müsəlman dilçilərinin geniş bir

ərazidə fəaliyyət göstərmələri, üçüncü tərəfdən isə bu dilçilərin elmi irsinin bu günə qədər əlyazma şəklində qalması və araşdırılmamasıdır. Təkcə onu demək kifayətdir ki, Yəməndə, Sudanda, Məkkə və Mədinədə yaşayıb yaratmış qüdrətli dilçilərin də elmi fəaliyyətləri tədqiq olunub bir yerə toplanılmışdır. Bu əsərlərin müəllifləri öz qarşılarına ərəb dilçiliyinin bütün inkişaf tarixini izləmək, bu inkişaf ərzində müxtəlif ərəb ölkələrində və müxtəlif dövrlərdə fəaliyyət göstərmiş dilçilərin hamısı haqqında tam məlumat vermək vəzifəsini qoymasalar da ərəb dilçiliyinin tarixi haqqında müəyyən təsəvvür yaratmağa nail olmuşlar.

İstifadə edilmiş ədəbiyyat siyahısı

1. Heybətov H.H., Hüseynbalayeva T.H., Sami dilləri tarixi, Bakı: AFPoliqrAF, 2020, 320 s.
2. Məmmədəliyev V.M., Bəsrə qrammatika məktəbi, Bakı: ADU, 1983, 120 s.
3. Məmmədəliyev V.M., Ərəb dilçiliyi, Bakı: Maarif, 1985, 288 s.
4. Məmmədəliyev V.M., Kufə qrammatika məktəbi, Bakı: ADU, 1988, 116 s.
5. Qurani Kərim. Tərcümə edənlər: Z.M.Bünyadov, V.M.Məmmədəliyev, Bakı: Qismət, 1997, 606 s.
6. Gotthelf Bergstrasser, Sami dilleri tarihi, Ankara yayınları, İstanbul, 2006, 160 s.
7. Ахвледиани В.Г., Арабское языкознание средних веков: история лингвистических учений. Средневековый Восток, Л., 1981
8. Звягинцев В.А. История арабского языкознания, Краткий очерк, М., МГУ, 1958, 80 с.
9. Beeston A.F.L.The Arabic language today, London,1970, 147 p.
10. Filstinsky İ.M, Arabic literature. Moscow, 1966, 233 p.
11. شوقي ضيف. المدارس النحويّة. القاهرة. ١٩٦٨. ٣٧٥ ص
12. علي ابو المكارم، المدخل الى دراسة النحو، القاهرة. 1980. ج،1
13. محمد طنطوي، نشاط النحو وتاريخ اشهر النحاة، الطبعة الثانية، دار المعروف، القاهرة
14. https://www.etimolojiturkce.com/kategori/%C4%B0branice

Açar sözlər: Ərəb dilçiliyi, qrammatika, ləhcə, inkişaf
Key words: Arabic linguistics, grammar, dialect, devolopment
Ключевые слова: арабское языкознание, грамматика, диалект, развитие

Xülasə

Məqalə ərəb dilçiliyi tarixinin tədqiqat istiqamətləri mövzusuna həsr edilmişdir. Ərəb dili tarixi və inkişafının öyrənilməsi ərəb dilinin tarixinə ümumi giriş olduğu üçün mövzunun tədqiqi olduqca aktualdır. Ərəb dilçiliyinin tarixi islamaqədərki dövr (məşhur dilçilik əsərləri ilə zəngin olan klassik ərəb dili) və islamdan sonrakı dövr (İslam dininin meydana gəlməsi və ərəb istilalarının başladığı, intişar tapdığı dövr) olmaqla iki mərhələ üzrə tədqiq edilir.

Summary

Research directions of the history of Arabic linguistics are explored in this article. Learning history and development of the Arabic Language is necessary for general introduction to the history of the arabic language. It is divided into two parts: the pre-Islamic language up to the emergence of the first well-known works of Classical Arabic. Secondly, the transition from the pre-islamic situation to the complex Arabic language forms after the emergence of Islam and the Arab conquest.

Резюме

Статья посвящена исследовательским направлениям истории арабского языкознания. Поскольку изучение истории и развития арабского языка является общим введением в историю арабского языка, изучение темы является весьма актуальным. История арабского языкознания изучается в двух направлениях - доисламский период (классический арабский язык, богатый известными лингвистическими трудами) и пост-исламский период (период появления исламской религии и начала арабских завоеваний и их распространение).

RƏYÇİ: dos. N. Əfəndiyeva

Fəridə Əli qızı Əliyeva[100]

FRANSIZ DİLİNİN SÖZ YARADICILIĞI VASİTƏLƏRİ

Giriş. *Söz, kök və şəkilçi.* Söz hərflərdən yaranan və məna kəsb edən kəlimənin sinonimidir. Daha geniş izah versək, söz səslərdən əmələ gələn, müəyyən məna kəsb edən və hiss-həyəcan bildirən səs birləşməsidir. Azərbaycan dilində sözlər tərkib hissələrinə görə 2 yerə ayrılır: *Kök və şəkilçi.* Bunlar sözün mənalı tərkib hissələri hesab olunur. Sözün ayrılıqda işlənə bilən, leksik məna daşıyan hissəsi kök adlanır. *Kök* əsas mənanı ifadə edir. Kökün həm leksik həm də qrammatik mənası vardır. *Şəkilçi* isə sözün ayrılıqda işlənə bilməyən hissəsi olub, heç bir leksik məna daşımayan,kökə qoşulmaqla müəyyən məna kəsb edən hissəsinə deyilir. Azərbaycan dilində, bir qayda olaraq, kök əvvəl, şəkilçi isə sonra gəlir. Şəkilçilərdən hər birinin özünə görə müəyyən vəzifəsi olur. Dilimizdə şəkilçilər leksik və qrammatik olmaqla iki yere bölünür. Leksik şəkilçilər sözün leksik mənasını dəyişir, qrammatik şəkilçilər isə sözün formasını dəyişir.

Bu qaydalar birmənalı olaraq *faransız dili* üçün də keçərlidir. Fransız dilində də sözün ayrılıqda işlənən və məna kəsb edən hissəs kök yəni *la racinese* adlanır. Şəkilçi isə azərbaycan dilində olduğu kimi, sözün ayrılıqda işlənə bilməyən yəni heç bir məna verməyən hissəsi olub *les terminaison\ les suffixes* adlanır. Bunları nümunələrdə də görə bilərik. Məsələn\ Example : Məktəb-li, dəniz-çi, çəmən-lik və s. Donn-ons, donn-eraient, assist-ez etc.

Qeyd: Azərbaycan dilində olduğu kimi, fransız dilində də sözün kökündən əvvəl gələn şəkilçilər vardır. Belə şəkilçilərə ön şəkilçilər deyilir. Fransız dilində isə *les prefixes* kimi adlanır. Bunlara aşağıdakı nümunələri göstərmək olar. Məsələn\ Example: **Na**mərd, **na**razı, **la**qeyd və s. Voir-**re**voir, pluie–**para**pluie etc.

Əsas hissə. *Söz yaradıcılığı.* Söz yaradıcılığı dilçiliyin bir bölməsi olub burada sözlərin yaranma üsulları öyrənilir. Fransız dilin də də söz yaradıcığı belə adlanır *La cteation des mots.*

Dilimizdə söz yaradıcılığının iki əsəs üsulu vardır. Leksik şəkilçilərin köməyi ilə yaranan sözlər yəni bunlara düzəltmə sözlər də demək olar və iki müstəqil sözün birləşməsi ilə yaranan sözlər yəni mürəkkəb sözlər.

1. Leksik şəkilçilərin köməyi ilə düzəltmə sözlər yaranır və bu üsulla düzələn sözlərə, yaranma qaydasına görə **morfoloji üsul** kimi də adlanır. Məs: su-çu, su-lu, su-la, gül-çü, və.s
2. İki müstəqil leksik mənalı sözün birləşməsi ilə mürəkkəb sozlər yaranır və bu üsulla **sintaktik üsul** kimi də adlanır. Məs: ayaq və qab= ayaqqabı, uca və boy = ucaboy, aş və süzən = aşsüzən. və.s

Eyniköklü sözlər: Eyni bir kökdən yaranan sözlər eyniköklü sözlər adlanır. Eyni köklü sözlər həm eyni bir nitq hissəsinə, həmdə müxtəlif nitq hissəsinə aid ola bilir.Məsəslə: *gül* ismindən düzəlmiş *gülçü ,güllük, güldan* eynikök sözlərin hamısı isimdir. *Ot* ismindən düzəlmiş *otlaq, otla, otlu* sözlərinin isə birincisi isim, ikinci sifət, üçüncüsü isə feildir [1]. Eyniköklü sözlər yalnız düzəltmə sözlər sayılır. Məsələn: yazdım, yazır, yazlıq, yazıçı [1].

İki və daha artıq leksik şəkilçili düzəltmə sözlər: Dilimizdə bəzi düzəltmə sözlər iki və daha artıq leksik şəkilçinin köməyi ilə də yarana bilir. Bu, da o deməkdir ki, bir düzəltmə sözdən başqa bir düzəltmə söz yaratmaq olur. Məsələn: yaz-ı-lı, yazı-çı, yazıçı-lıq, ək-in, əkin-çi, üz-gü, üzgü-çü [1].

Mürəkkəb sözlər: İki və daha artıq sözlərin birləşməsindən yaranan yeni mənalı sözlər mürəkkəb sözlər adlanır. Mürəkkəb sözlər bir neçə yolla yaranır:

1. İki müxtəlif mənalı sözlərin birləşməsi ilə yaranan mürəkkəb sözlər.Məs: *dəvəquşu, üçbucaq, yarımada və.s*
2. Yaxın mənalı sözlərin birləşməsi ilə yaranan mürəkkəb sözlər. Məs: səs-küy, toyuq-cücə, oğul- uşaq.
3. Antonim sözlərin birləşməsi ilə yaranan mürəkkəb sözlər . Məs: yer- göy, gecə-gündüz, gec- tez və.s
4. Eyni sözlərin təkrarı ilə yaranan mürəkkəb sözlər. Məs: səhər-səhər, yavaş- yavaş, tez- tez. [1]

Mürəkkəb sözlər üç cür yaranır: Bitişik, defislə, ayrı. İki müxtəlif mənalı sözün birləşməsindən düzələn və vurğusu ikinci sözün üzərinə düşən mürəkkəb sözlər bitişik yazılır. İki sözün birləşməsindən düzələn və məcazi mənada işlənən mürəkkəb sözlər də bitişik yazılır. Məs: üzüyola, suyuşirin,gözucu, dilucu və.s.

Şəkilçilərin növləri. Şəkilçilərə gəldikdə isə ümumilikdə şəkilçilər vəzifəsinə görə 2 növə bölünür: leksik və qrammatik şəkilçilər. Leksik şəkilçilər *sözdüzəldici* şəkilçilər, qrammatik şəkilçilər isə *sözdəyişdirici* şəkilçilər adlanır.

Sözün kökünə qoşularaq yeni mənlı sözlər yaradan şəkilçilər leksik şəkilçilər adlanır. Leksik şəkilçilər qoşulduğu söz köklərindən yeni mənalı sözlər düzəldir,yəni sözün mənasını dəyişir. Qrammatik şəkilçilər isə sözün yalnız formasını dəyişir. Bu şəkilçilər söz birləşmələrində və cümlələrdə söz arasında əlaqə yaradır. Buna görədə bu şəkilçilər qrammatik şəkilçilər adalanır.

Sözün quruluşca növləri: Azərbaycan və fransız dilində sözlərin qrululuşca 3 növə bölünür**:** Sadə, düzəltmə və mürəkkəb.

1. Yalnız kökdən ibarət olan sözlər *sadə* sözlər adlanır. Məs: *ev, uşaq, şagird* və s.
2. Leksik şəkilçilərin köməyi ilə yaranan sözlər *düzətmə* sözlər adlanır Düzəltmə sözlər kök və leksik şəkilçidən ibarətdir. Məs: *işçi, enli, başla, baxış* və s.
3. *Mürəkkəb* sözlər isə iki və daha artıq sözün birləşməsindən yaranır. Məs: *qızılgül, göygöz, kəklikotu* və s.

Söz yaradıcılığına gəldikdə isə, söz yaradıcılığı dilçiliyin xüsusi bir bölməsi olub, bu bölmədə sözlərin yaranma üsullarını öyrənir. Azərbaycan dilində söz yaradıcılığının 2 əsas üsulu vardır. Birinci üsul **leksik** şəkilçilərin köməkliyi ilə, ikinci əsas üsul isə **iki müstəqil leksik mənalı sözün** birləşməsi ilə.

---

[100] Bakı Dövlət Universitetinin magistrantı

Leksik şəkilçilərin köməyi ilə yeni düzəltmə sözlərin yaranması qaydası sözlərin **morfoloji** üsulu adlanır. Məs: *su-lu, gül-dan, gül-lük, gül-çü* və s. İki müstəqil leksik mənalı sözün birləşməsi ilə yeni mürəkkəb sözlərin yaranması qaydası isə sintaktik üsul adlanır. Məs: uca və boy= ucaboy, aş və süzən = aşsüzən, ayaq və qab= ayaqqabı və s.

Orxon- Yenisey abidələrində söz yaradıcılığı. Orxon abidələrində söz yaradıcılığının tədqiqi zamanı qarşımıza çıxan ən mühüm məsələlərdən biri abidələrin lüğət tərkibinin zənginləşdirilməsində istifadə olunmuş söz yaradıcılığı üsullarının müəyyənləşdirilməsidir. Orxon-Yenisey abidələri və ümumiyyətlə qədim türk dilinə dair yazılan əsərlərdə söz yaradıcılığı məsələsi bir çox hallarda diqqətdən kənarda qalmış, yaxud söz yaradıcılığı dedikdə yalnız sözdüzəldici şəkilçilər və mürəkkəb sözlər başa düşülmürdü. Ə.Rəcəblinin fikrincə, Orxon- Yenisey abidələrinin dilində söz yaradıcılığının aşağıdakı üsulları olmuşdur: *Leksik, morfoloji, sintaktik , fonetik* [8]. 1. Leksik- semantik üsulu: Bu üsulda heç bir başqa sözdüzəldici vasitə olmadan sözün mənasının daxilən dəyişməsi nəticəsində yeni sözlər yaranır. 2. Konversiya, morfoloji- sintaktik üsul: Bu üsulda heç bir başqa sözdüzəldici şəkilçi olmadan sözün hansı nitq hissisini aid olduğu və hansı cümlə üzvü rolunda işlənməsinin, başqa sözlə, onun morfoloji paradiqması və sintaktik funksiyasının dəyişməsi ilə yeni sözlər yaranır. 3. Morfoloji üsul: Bu üsulda yeni sözlər söz düzəldici şəkilçilər vasitəsi ilə formalaşır. 4. Sintaktik üsul: Bu üsulda yeni sözlər bir neçə müstəqil mənalı sözün birləşməsi nəticəsində yaranır. Bu üsulların hər biri müxtəlif terminlərlə də adlandırılmışdır.

Leksik-semantik üsul: Bu üsulun adlandırılmasında əsasən leksik-semantik üsul, semantik derivasiya, leksik üsul terminlərindən istifadə olunmuşdur. Leksik- semantik üsul termini daha geniş yayılmış termindir. Bunu belə izah etmək olar: 1. Burada söz heç bir xarici əlavə olmadan dəyişir yəni dəyişmə onun leksik mənasında olur. 2. Söz bir semantik söz qruplarından digərinə çevrilir. Sözün semantik çalarlarından biri müstəqillik qazanır və nəticədə əvvəlkindən məna cəhətdən fərqlənən yeni bir söz yaranır [8, s. 112]. Yəni burada söz heç bir xarici əlavə olmadan dəyişir , dəyişmə onun leksik mənasında olur. Və ya söz bir semantik söz qrupundan digərinə çevrilir.

Konversiya üsulu: Bu üsulun müxtəlif adları vardır. Bəzən isə o, müstəqil söz yaradıcılığı üsulu kimi fərqləndirilməmiş , digər üsullardan birinin tərkibinə daxil edilmişdir.Bu üsul leksik- semantik söz yaradıcılığı üsulundan ilk növbədə onunla fərqlənir ki , burada əsas söz yaradıcılığı vasitəsi sözün paradiqmasıdır, yəni sözün morfoloji xüsusiyyətləri və sintaktik funksiyasıdır [8, s. 113]. Ona görə də konversiya morfoloji-sintaktik yolla söz yaradıcılığı termini ilə də adlandırılır.Bu üsul haqqında çox faktlar vardır. Konversiya və morfoloji-sintaktik söz yaradıcılığı terminlərinin eyni söz yaradıcılığı hadisəsini ifadə etməsi heç də bütün tədqiqatçılar tərəfindən qəbul edilməmişdir. Məs: V.M.Pavlov, A.A.Nasipova, Z.X.Tramova bu kimi tədqiqatçıların bu mövzuda müxtəlif dikirləri olmuşdur.

Morfoloji üsul: Orxon- Yenisey abidələrinin dilində ən məhsuldar söz yaradıcılığı üsulu olan morfoloji üsul müasir türk dillərində də çox geniş yayılmışdır.Bunun səbəbini türk dillərinin aqqlütinariv quruluşunda axtarmaq lazımdır. Aqqlütinativ və sintaktik quruluş türk dillərində şəklçilərin çoc geniş yayılmasına və şəkilçili söz yaradıcılığının böyük imkanlar qazanmasına şərait yaratmışdır. Bu cəhət Orxon-Yenisey abidələrində daha çox nəzərə çarpır.Burada sözdüzəldici şəkillərin köməyi ilə ,demək olar ki, bütün əsas nitq hissələri meydana çıxmışdır [8, s. 115].

Sintaktik üsul: Müasir türk dillərində morfoloji üsuldan sonra ən məhsuldar söz yaradıcılığı üsulu hesab olunsa da Orxon abidələrində bu üsul geniş işlənməmişdir. Sintaktik üsulu ifadə etmək üçün bəzən *sözlərin mürəkkəbləşdirilməsi* terminindən də istifadə olunur. Burada mürəkkəbləçdirmə dedikdə, sözlərin birləşməsi nəzərdə tutulur [8, s. 116].

Sintaktik üsulla yaranmış söz və mürəkkəb söz terminləri bir çox hallarda eyniləşdirilsə də, tərkibcə mürəkkəb olan sözlərin heç də hamısı sintaktik üsulla meydana çıxmamışdır. Onların bir qismi söz birləşmələrinin leksikləşməsi . digər bir qismi isə söz birləşməsinə və ya mürəkkəb sözə sözdüzəldici şəkilçi artırılması ilə yarabmışdır.

Nəticə: Beləliklə, Orxon-Yenisey abidələrində dörd söz yaradıcılığı üsillarindan istifadə olunmuşdur. Bunalarardan ikisi qeyri-xətti, digər ikisi isə xətti söz yaradıcılığı üsulusur. Bunları leksik-semantik üsul, konversiya, morfoloji və sintaktik üsul terminləri ilə adlandırmaq mümkündür. Digər üsullara isə daha az rast gəlinir. Müasir türk dillərindən fərqli olaraq Orxon-Yenisey abidələrinin dilində sintaktik üsulla söz yaradıcılığı məhsuldar olmamış, Bir leksik vahid kimi tam formalaşmış mürəkkəb sözlərin işlənməsinə o qədər də ehtiyac olmamışdır.

İstifadə olunmuş ədəbiyyat

1. https://kayzen.az/blog/Az%C9%99rbaycan-dili/468/s%C3%B6z-yarad%C4%B1c%C4%B1l%C4%B1%C4%9F%C4%B1.html
2.https://kayzen.az/blog/Az%C9%99rbaycan-dili/24099/s%C3%B6z%C3%BCn-t%C9%99rkibi.-s%C3%B6z-yarad%C4%B1c%C4%B1l%C4%B1%C4%9F%C4%B1.html
3.https://az.m.wikipedia.org/wiki/S%C3%B6z
4.https://kayzen.az/blog/Az%C9%99rbaycan-dili/467/s%C3%B6z%C3%BCn-t%C9%99rkib-hiss%C9%99l%C9%99ri.html
5.https://www.alloprof.qc.ca/fr/eleves/bv/francais/le-radical-et-la-terminaison-f1505
6.https://www.francaisfacile.com/exercices/exercice-francais-2/exercice-francais-57590.php
7.https://preparerlecrpe.files.wordpress.com/2015/12/lexique-fiche-7-dc3a9rivation-et-composition.pdf
8.https://www.academia.edu/75313417/ORXON_AB%C4%B0D%C6%8FL%C6%8FR%C4%B0N%C4%B0N_D%C4%B0L%C4%B0ND%C6%8FK%C4%B0_S%C3%96Z_YARADICILI%C4%9EI_%C3%9CSULLARININ_T%C6%8FSN%C4%B0F%C4%B0_V%C6%8F_ONLARI_%C4%B0FAD%C6%8F_ED%C6%8FN_TERM%C4%B0NL%C6%8FR

Açar sözlər: Söz, kök və şəkilçi, farnsız dilində kök və şəkilçi, Orxon-Yenisey abidələrində söz yaradıcılığı anlayışı

Ключевые слова: слово, корень и суффикс, корень и суффикс в французском языке, понятие словообразования в Орхоно-Енисейких памятниках

Key words: word, root and suffix, root and suffix in French, the concept of word formation in the Orkhon-Yenisei monuments

Xülasə

Bu məqalədə mən sizə azərbaycan dilində və fransız dilində söz yaradıcılığı, söz, kök və şəkilçi, şəkilçilərin növləri, sözlərin qruluşca növlərindən bəhs etmişəm.Əlavə olaraq bu yazıda Orxon-Yenisey abidələrində söz yaradıcılığının tədqiqi zamanı qarşımıza çıxan ən mühüm məsələlərə də toxunulmuşdur. Həmin abidələrdə Ə.Rəcəblinin fikrincə, söz yaradıcılığının bu üsulları olmuşdur: *Leksik, morfoloji, sintaktik , fonetik* . Hər bir üsulun özünə xas xüsusiyyətləri olduğunu görə bilərik.

Средства словообразования французского языка

Резюме

В этой статье я рассказала вам о словообразовании в азербайджанском и французском языках, о словах, корнях и суффиксах, видах суффиксов, групповых видах слов. Кроме того, в данной статье затронуты наиболее важные вопросы, стоящие перед нами при изучении словесного творчества в Орхоно-Енисейских памятниках. В этих памятниках по мнению А.Раджабли, существовали следующие способы словообразования: лексическое, морфологическое, синтаксическое, фонетическое. Мы можем увидеть,что каждый метод имеет свои особенности.

Means of word formation in French

Summary

In this article, I told you about word formation in Azerbaijani and French, about words, roots and suffixes, types of suffixes, group types of words. In addition, this article touches upon the most important issues that we face when studying verbal creativity in the Orkhon-Yenisei monuments. In these monuments, according to A.Rajabli, there were the following ways of word formation: lexical, morphological, syntactic, phonetic. We can see that each method has its own characteristics.

RƏYÇİ: dos. L.Ələkbərova

İlahə Sivavus qızı Dadasova[101]

ŞAHİN FAZİL "DİVAN"LARINDA BAĞBAN OBRAZI

Giriş. Klassik divan ədəbiyyatımızın görkəmli nümayəndələrinin yaradıcılıq ənənələrini uğurla və novatorcasına davam etdirən, tarix elmləri doktoru, professor, Azərbaycan Yazıçılar Birliyinin üzvü, "Məcməüş-şüəra" ədəbi məclisinin sədri, görkəmli qəzəlxan, "Divan"lardan "Xəmsə" yaratmaqla yeniliyə imza atan Şahin Fazilin bədii yaradıcılığında xüsusi mövqeyə malik 5 divanı mövzu və problematika, janr və üslub xüsusiyyətləri, sənətkarın məsələlərə orijinal yanaşma tərzi ilə bərabər, yaratdığı obrazlar, onlara xitabı, münasibəti baxımından da diqqət çəkir. Burada janr etibarilə qəzəl, obraz baxımından bağban xüsusilə seçilir. Klassik ədəbiyyatda Nizami, Füzuli və digər görkəmli sənətkarın yaradıcılığında rast gəlinən bu nüans Şahin Fazilin "Divan"larında daha intensiv şəkildə əks olunmuşdur.

Şahin Fazil "Divan"larında bağban obrazı. Şair bağbana rəğbətinin aydın şəkildə duyulduğu nümunələrdə onun torpağa bağlılığını, zəhmət çəkib gül becərməsini, yaratdığı gözəlliyi yüksək qiymətləndirmişdir. Ona müraciətin səbəbi zəhmətkeşliyi, yaratdığı gözəlliklə insanlara sevinc bəxş etməsi ilə bağlıdır. Fikrimcə, şair də bu mövqedən çıxış edir, insan ruhunun təzələnib mənəvi aləminin zənginləşdiyi sənət nümunələri yaradır. İlk "Divan"ında Məmmədbağır Bağırzadənin ifasında sevilərək dinlənilən "Bağiban, ay bağiban, bağa nigarım gəlir,// Mən necə bağdan çıxım, indicə yarım gəlir" [1, 151], – nəğmələşən qəzəlində cənnətə çevirdiyi bağda sevgilisinin gəlişinin onu bəslədiyi gül-çiçəkdən daha xoşbəxt edəcəyini bildirsə də, digər qəzəlində "Bağiban, güllərinin ətri daha cəzb etmir, // Nəfəsi dilbərimin – sünbülü reyhan əvəzi" [1, 77] söyləsə də, onun zəhməti, yaratdığı gözəllik diqqət mərkəzindədir, bəşər üçün nümunədir. Özü də uğurlu söz bağbanı olan Ş. Fazil şərqşünas-alim, professor Vasim Məmmədəliyevə ünvanlandığı "Qismət olsa, Azərbaycanda imkan eylərəm" mətləli qəzəlinin 7-ci beytində "Bağiban ollam, alağdan hifz edib tər gülləri,// Mən qəzəl səhrasını bir gün gülüstan eylərəm" [1, 112], – söyləyərək məqsədinin qəzəl səhrasını gülüstana çevirmək, bu istiqamətdə zəhmətkeş bir bağbantək yorulmadan, inamla, israrla çalışıb, sözün ən uyğun, gözəl məqamını seçib söz gülüstanı yaratmaq niyyətində olduğunu bildirir. Alaq adlandırdığı dilimizdə vətəndaşlıq hüququ qazanmayan əcnəbi sözlərdir ki, şair onlardan deyil, dilimizin zəngin söz ehtiyatından istifadəni zəruri hesab edir, bunu yaradıcılıq kredosuna çevirir. Bu çağırış onun yaradıcılığında güclüdür, bunu ilk növbədə öz yaradıcılığına tətbiqi təqdirəlayiqdir. "Dedilər: İndi bu aşiq yanacaq... – Yanmalıdır!" mətləli qəzəlinin məqtə beytində də "Şeir bağımda mənim varsa alağ, yanmalıdır" [1, 140],– söyləyərək alaq sözlərə qarşı bağban olduğunu vurğulayır.

"Hövsələm olmasa da, işvə görəm, naz çəkəm" təzminindəki bağban kimi davranmalı olduğunu bildirir:

Basdı söz gülşənimi gərçi alağ hərdənbir,
O alağlarə gərək qeyz ilə dəryaz çəkəm [2, 903].

Söylənilənlər vərəqdə qalmır, şair qəliz yazdıqlarının üstündən xətt çəkib onları yandırmaqla mövqeyini qəti şəkildə bildirir. Digər "Divan"larında çoxsaylı şeirlərində, həmçinin "İkinci Divan"da verilən "Alağa verməyəcəkdir imkan, // Bağımın tər süsəni, reyhanı [2, 3] , – fikri də qətiyyətli mövqeyinin təzahürüdür. Gözəllik və təravətin lirikasında daim duyulması səbəbsiz deyil. Şahin Fazil haqlı olaraq ədəbiyyatı elin neməti, şairi sözün bağbanı adlandırır [2, 3]. O bu sərvəti sevərək mühafizə edir. Şairi söz bağbanı adlandıran sənətkar onun daşıdığı məsuliyyətə diqqət yönəldir. "Dibaçə"də yad kəlmələrə qarşı deyir: Bağçamda çəpər görməyəcəklər mənim, amma // Yad kəlmələrə qarşı çəpər var qəzəlimdə [2, 5, 109]. Şair "Eləsən sirrini agah sən əgər başqasına" mətləli qəzəlin üçüncü beytində deyir: Söz bağımdan nə zərurətsə, aparsınlar qoy,// Mane olsun nə gərəkdir ki, çəpər başqasına [2, 52].

Burada əsas məsələ şeir, sənət, onun gözəlliyini duyub zövq almaq, uğurlu şəkildə bəhrələnməkdir. Sənətkar bu sərvəti paylaşmaqda səxavətlidir. Aşıb-daşan ilhamı nəticəsində yazıb-yaratdıqları çəpər, çərçivə tanımır. "Asiman dərvişə yarpaq boyda" qəzəlində "Qələmim bağda ağaclar qədəri, // Mənə dəftər gətirin bağ boyda [2, 59], – fikri mübaliğə təsiri bağışlasa da, yaradıcılığı, xüsusən də irihəcmli "Divan"ları deməyə əsas verir ki, sənətkarın istəyi əbəs deyil. Bu zəngin yaradıcılığı qələmə almaq üçün adi dəftər-qələm yetərsizdir. Şair bağbana müraciət etməklə insanlarda zəhmətkeşlik, gözəllikləri duyub, yenilərini yaradıb qorumaq hissini təbliğ və gücləndirmək istəmişdir. Şeirlərdə məkan da məqsədyönlü seçilmişdir. "Sevmirəm rəqs havası, istəyirəm cəngi ola" qəzəlində dediyi kimi: *Bağiban, mən o səbəbdən yazıram bağda şer,// Sözlərin ətri ola, rayihəsi, rəngi ola* [2, 59]. Məkanın (bağ) və əhatəsində olduğu gözəlliklərin yazdıqlarına təsir edəcəyi inamı ilə əlinə qələm alan şairin şeirdə yarın telinin ətrinin nanə ilə uğurlu müqayisəsi də diqqət çəkir. "Ey şəm, əgər yansan, pərvanəni yandırma" qəzəlinin ilk beyti pərvanənin, ikinci mərdin, üçüncü inamın, dördüncüsü nanənin − əsl təravət və gözəlliyin qorunması naminə səsləniş dir. Bu gözəllik gözəl xatirədir: *Var nanədə, ey bağban, yarın telinin ətri,// Yandır alağı yansın, sən nanəni yandırma* [2, 62].

Alağın məhv edilib nanənin qorunmasına səsləniş "Yaşayırsa kim əgər mey dolu cam xatirinə" qəzəlinin məqtə beytində insana tətbiq edilir və gözəlliklərin təcəssümü olan gül də məhz ləyaqətli adama layiq görülür: *Bağiban, bülbülü qov, bağına Şahin gəldi,// Gülü sən bəslə ləyaqətli adam xatirinə* [2, 120].

Şair şeirlərində əməyin, zəhmətin bəhərsiz qalmayacağına diqqət yönəldir. Bu, bəşərə səsləniş dir: əməksevər olsunlar, zəhmətin bəhrəsini görəcəkləri onlar üçün stimula çevrilsin. "Bağibanəm əməyim varsa, səmərsiz qalmaz" qəzəlinin mətlə beytində zəhmətinin nəticəsiz qalmayacağını bildirən [2, 137], yeddinci beytində isə zəhmət sayəsində yaradılan gözəlliyə qarşı etinasız davranışı qəlb ağrısı ilə qarşılayan "*Gülü kim qırsa, mənim qəlbimi qırmış kimidir*", − [2, 138] deyən sənətkar

[101] Filologiya üzrə fəlsəfə doktoru, AMEA Nizami Gəncəvi adına Milli Azərbaycan Ədəbiyyatı Muzeyinin doktorantı, Dadashova.ilaha@mail.ru

bu məqamda ona edilən bağa çəpər çəkmək tövsiyəsini xatırlayır. O çəpər ki, şair ona lüzum duymamış, hər zaman söz bağçasının qapılarını açıq qoymuşdur. Lakin o, sərvətindən sözün, şeirin, sənətkarın dəyərini bilənlərin bəhrələnməsi arzusundadır. Bu məqamdan uzaq olanlar isə sənəti dəyərləndirib gözəlliklər yarada bilməz. "Mən bilməyirəm can nə təhər bağrıqan olmaz" qəzəlində dediyi kimi: *Cahil görürəm cəhli əyandır əməlindən, // Bağ qeydinə qalmaz kişidən bağiban olmaz* [2, 142].

Bağbanın əsas çağırışı gülün dəyərini bildirmək və mühafizəsi naminədir. "Məni eşq daima sən səmtə çəkər, boş yerəmi?" mətləli qəzəlinin 4-cü beytində bu xatırlanır: *Bağiban söylədi gül qədrini bilmək lazım, // Bu hasar boş yerədirmi, o çəpər boş yerəmi* [2, 189]. Burada gül həm də sözün özüdür. Şahin Fazil "Divan"ları söz gülüstanıdır. O bu gülüstanı təqdim və təbliğ edərkən klassik divan yaradıcılığını, ustadlarını, onların ədəbiyyata bəxş etdiyi inciləri xatırlayıb xatırladır. "Bir gül yaradıb bir neçə bağ saldı Nizami" mətləli qəzəlində N. Gəncəvi və onun ədəbiyyatımıza töhfəsi olan "Xəmsə" ilə əbədiyaşarlıq qazandığına diqqət yönəldilir: *Bir gül yaradıb bir neçə bağ saldı Nizami, // Bir "Xəmsə" yazıb, ölsə də sağ qaldı Nizami* [2, 194].

Şahin Fazil bağı bağ edən əsl sənətkarın qorunmalı, bağı dağ edənin qovulmalı olduğunu, bunu icra etdiyini "Bir əlac eyləmədi, loğmanı qovdum getdi" qəzəlində vurğulayır: *Bağibandır bağı bağ eyləyən aləmdə fəqət, // Bağı dağ eyləyən ol bağbanı qovdum getdi* [2, 195].

Dilin saflığı uğrunda mübarizəni davam etdirərək "Mənə dərd verməyin, öz dərdi-sərim var mənim" qəzəlinin üçüncü beytində qətiyyətlə deyir: *Bağiban hər alağı rədd eləyirsən, əhsən, // Əcnəbi hər sözə qarşı çəpərim var mənim* [2, 229].

"Hərdən ki çəkirdin mənə dağ, inciməmişdim" qəzəlinin yeddinci beyti isə Xətayinin "Dəhnamə"sinində baş verənləri xatırladan məqamla diqqət çəkir: *Hərdən də subaylar kimi tək bağda gəzəndə // Bağban məni qovmuşdu, a bağ, inciməmişdim* [2, 256].

"Eşqi idrak edib sən gözələ yar oldum" qəzəlində gül bəsləməyin kitab yazmaqdan daha çətin olduğunu bildirir: *Bəsləmək gül daha müşküldü kitab yazmaqdan, // Bağiban güldü mənə gör nə sayaq xar oldum* [2, 256].

Qəzəllərdə nanənin daha çox xatırlandığı, ona xüsusi rəğbət diqqətdən yayınmır. "Bağiban, gəldi bahar, nanəni göndər gəlsin" qəzəlinin mətlə beyti də nanənin arzulanan olduğunun daha bir isbatıdır: *Bağiban, gəldi bahar, nanəni göndər gəlsin, // Gülü yox, yanıma gülxanəni göndər gəlsin* [2, 272]. Bu gözəlliklərdən bəhs edərkən şair gələcəyi düşünür, xəbərdarlıq etməyi vacib bilir. "Qeysəm, o gözəl ahu Leylayə dönər bir gün" qəzəlinin 7-ci beytində "Bağban bağa baxmazsa, səhrayə dönər bir gün" [2, 294] fikri bəşərə səsləniş, xəbərdarlıqdır. Sevdiklərinə laqeyd yanaşsalar, ən gözəl münasibət pozula, zərif duyğular sönə bilər. Lakin onda gözəllik yaradıcısı, qoruyucusu olan bağbana inam güclüdür. "Nə gərəkdir ki, odunlarla ocağım yansın" qəzəlinin 3-cü beytində "Bağiban qoymayacaqdır daha bağım yansın [2, 296] fikri bunun isbatıdır. "Neyləyim, hərdən cahan əfsanə görsənməkdədir" qəzəlinin beşinci beytində yenə gülün, gözəlliklərin hifzi naminə biganələrin üzünə darvazanı bağlamaq çıxış yolu kimi göstərilir: *Bağibanə söyləsinlər gülləri hifz eyləsin, // Bağlasın darvazəni biganə görsənməkdədir* [2, 329].

Gülə bağlılığını "Gözüm ondan savayı, bəlli ki, insan görmür" qəzəlinin məqtə beytində lokonik şəkildə bildirir: *Bağiban, söyləmə "Şahin məni görmür bağda", Bağda gül var isə Şahin gözü bağban görmür* [2, 346]. Bağban, zəhmətkeşliyi Ş. Fazil divanlarında müfəssəl şəkildə təqdim edilmişdir. "Təzə gün – "novruz"umuz tazə nübar ilə gəlir" qəzəlinin dördüncü beyti buna nümunədir: *Təzədən göz qoyuram bağibanın mən əlinə, // Mərhəba bağibana əldə qabar ilə gəlir* [2, 370].

Bağ ona gözəllikləri xatırladır. Burada məhəbbət gülünü xatırlayarkən saflıq, təmizlik, irz, namus, həya, əxlaqı ifadə edən iffət və sədaqət xatırlanır ki, bu anlayışlar bir-birinin tələbidir. "Bağban, yadıma bağda məhəbbət gülü düşdü" mətləli qəzəldə bu məqam diqqətdə saxlanılır: *Bağban, yadıma bağda məhəbbət gülü düşdü, // İffət çiçəyi düşdü, sədaqət gülü düşdü* [2, 400].

Ümumilikdə, Ş.Fazilin həyat və sənət yolu bu tələblərə cavab verməsi − iffət və sədaqəti əsas götürməsi üzərində qurulmuşdur. Heca vəznində yazdığı "Aglamasam bağ yanar" şeiri il söz xiridarı yaradıcılığın qəlbin yanğısının bəhrəsi olduğu məqamına diqqət yönəltmişdir. Bir bayatıda qəlbinin istəyini aydın şəkildə yazmış, arzusunun gözəlliklər yaratmaq olduğu bir daha müəyyənləşmişdir: *Güllərim, Bağçada yox güllərim. Bağban olub istərəm, Gül becərim, gül dərim* [2, 1160].

"Təəssüfnamələr" silsiləsinə daxil dostu İmran Xəlilovun faciəli vəfatından kədərlənərək yazdığı mürəbbenin ilk bəndi təəssüf, sual, etiraz doludur: *Bağban, mənə faş eylə, nülufər niyə yandı? Qalmaqda ələf, lalə-sənubər niyə yandı? Bağ içrə alaq yanmadı, qənbər niyə yandı? Dünya, oda qın tabladı, xəncər niyə yandı?* [2, 1208-1209]. Bunlar insanı incidən, düşündürən suallardır ki, şairi də düşündürür. Şair "Üçüncü Divan"ının "Dibaçə"sində öz zəhmətkeşliyini vurğulayır: "İki gözlü evimdə iki gözlü masam var. Hər masanın üstü qələm, varaq, kitab, dəftərlə doludur. Mütəamadi olaraq elmi, publisistik yazılar, tərcümələr, səfərnamələr yazmaq kimi yaradıcılıq işlərimlə məşğulam. Elmlər Akademiyasının elmi qrup rəhbəri, Bakı, Sumqayıt, Lənkəran Dövlət Universitetlərinin professoruyam. Şakərim işdir. İş isə vərdişdir. Gözəl vərdişdir! Məni işsiz qoyma, İlahi! Zəhmətkeşəm. Tez-tez deyirəm özümə: *Kaş zəhmət hər zaman olsun sənə zərbüməsəl. Zəhməti təlqin elə, zəhmət misal olsun sənə* [3, 19].

Bağbana rəğbətinin səbəbi onun zəhmətkeşliyi, yaratdığı gözəlliyi duyub dəyərləndirməsi ilə əlaqədar olan sənətkar özü də söz bağbanıdır. Şahin Fazilin şeirləri gül kimi gözəl, zərif, təravətlidir. Musiqi ahənginə uyğundur. Bəstəkar və xanəndə M.Bağırzadənin onun şeirlərinə musiqi bəstələyib ifa etməsi də bunun sübutudur. "Bir zərrə azalmır kədərü qəm, belə getsə" qəzəlinin üçüncü beytində bunun şairi fərəhləndirdiyini görürük: *Məmmədbağırın təsnifi var şerimə çoxlu,*

Artmaqda yenə... Mən də sevilləm belə getsə [3, 98]. "Getmişdi uçub durna qatarım yenə gəldi" qəzəlində haqlı olaraq özünü qələmə aldığı hər yeni sənət nümunəsi ilə ruzisi, varı artmaqda olan bağban kimi təqdim edir: *Bir bağibanam mən ki, çoxalmaqdadı ruzim, Varsız deyiləm, var idi varım, yenə gəldi* [3, 120].

Onu sevdirən, yaşadan bu sərvətidir. Bağ belləyən hər kəsin bağban adlandırılmasını haqlı olaraq qəbul etməyən şair əsl bağbanın işinə necə yanaşmalı olduğunu, hansı tələblərə cavab verməli olduğunu bildirir, fikrinin əsasında əl əməyi, zəhmətin dayandığı bir daha təsdiqini tapır. "Dünyaya məhəbbət mənə yar ilə gəlibmiş" qəzəlinin dördüncü beytində vurğuladığı kimi: *Bağ belləyən hər kimsənədən bağiban olmaz, Bağban bağa barmaqda qabar ilə gəlibmiş* [3, 226].

Məqsədi halal zəhməti təbliğ edərək insana səadət bəxş etmək olan şair "Təkbeytlər"də də bağbana müraciət edir, gülün, gözəlin verdiyi zövq, bağçanın gül-çiçəyə bürünmə səbəbinə diqqət yetirir: *Gah gülü qoxlayıram, gah da nigarın telini,// Bağiban, gəlmə hələ, qoy bizi tək gülşəndə* [3, 1243]; *İstəsən, gər yenə bağçan, gözəlim, güllənsin,// Məni ağlat ki, gözümyaşı yenə sellənsin* [3, 1248].

Ş.Fazil poeziya sahəsində böyük uğurlara imza atan söz bağbanıdır. Akademik B.Nəbiyev "Şahinin qanadları" adlı məqaləsində yazır: "Şahin Fazilin divanlarını poeziyamızın əlvan bir gülüstanına bənzətmək olar ki, onun hər çiçəyi öz biçiminə, rənginə, gözəlliyinə xas olan ətir saçır. Buradakı dibaçə, minacat, qəzəl, qəsidə, rübai, təxmis, nəzirə, təkbeyt, hecanın rəngarəng bölgülərində yazılmış qoşma, gəraylı və bayatıların hər birinin öz təravəti var" [6, 174-175]. "Dördüncü Divan"da "Nət"ə daxil etdiyi "Məsnəvi"də rəbbindən qəlbində qəmin göyərməsinə imkan verməməsini diləyir, arzusunu bildirir: "Güc ver mənə ki, qələm göyərsin [4, 44]. "Azalır get-gedə qədri, dəyəri insanın" mətləli qəsidədə Qarabağ həsrəti, nigarançılıq duyulur, şairi "Xarı bülbül güləcəkmi üzünə bağbanın?" [4, 72] sualı düşündürür. Qarabağ işğaldan azad olunmaqla Xarı bülbül bağbanın üzünə gülmüş olur.

Onun "Divan"ları həcm baxımından da böyükdür. "Özümə mən səni bilməm niyə canan elədim" qəzəlinin dördüncü beytində deyir: *Neçə min şerimi verdim çapa "bəsdir" demədim,// Təzə çox şerimi yazdım yeni "Divan" elədim* [4, 164].

Şair yazdıqları ilə kifayətlənmir, yenilərini yazır, məqsədinə − qəzəl bağçasını gülzarü-gülüstan etməyə nail olduğunu bu qəzəlin beşinci beytində vurğulayır: *Qəzəlin bağı xəzəllənmiş idi, şerimlə,// Mən qəzəl bağını gülzarü gülüstan elədim* [4, 164]. Bacarığı özündənrazılıq deyil, fərəhinin ifadəsidir. "Meylinə imkan eləyən Şahinəm" qəzəlinində deyir: *Var elə adəm ki, bağı dağ edər,// Bağı gülüstan eləyən Şahinəm* [4, 165].

Söz sahəsində fəaliyyəti bununla bitmir. Rəhbərlik etdiyi "Məcməüs şüəra" ədəbi məclisində söz sənətinin sirlərini gənc şairlərə öyrədərək onları yetişdirməkdə olduğunu bu qəzəlin beşinci beytində vurğulayır: *Öyrədibən dillərini güllərin,// Çox kəsi bağban eləyən Şahinəm* [4, 166]. "O qədər vəsf elədim gülşəni mən" qəzəlində özünü saf sözün bağbanı adlandırmaqda haqlıdır*: Şeri yazmaqda qəliz bir neçəsi, Saf sözün bağbanı sandım məni mən* [4, 189]. Qövsi Təbrizinin "Oldu damağimdən dəmadəm pənbeyi-mərhəm yanar" təzminində günəşə müraciəti təbiətə həssas münasibətinin təzahürüdür: *Ey günəş, mən sübh tezdən bağdayam, göstərmə üz, Qorxuram ki, otların üstündəki şəbnəm yanar* [4, 275]. Göründüyü kimi, təbiətsevər insan olan şair şehin belə qorunması mövqeyindən çıxış edir. Yaratdığı gözəllikdən məmnun olsa da, S.Ə.Şirvanidən "Çəkər canan əlin könlüm ləbi-dildardan keçməz" tənzimində yarın bu gözəl məkandan keçməməsi onu kədərləndirir. Bu duyğu "Bağiban, ay bağiban, bağa nigarım gəlir" mətləli qəzəlindəki yaşantıların tam əksidir: *Gül əkdim bağiban oldum, becərdim cürbəcür güllər,// Neçin bəs gülbədən dilbər bizim gülzardən keçməz* [4, 284].

Onun söz gülüstanı müxtəlifvəznlidir. Şair hər üç vəzndə uğurlu sənət nümunələri yaratmışdır: *Şair olanın təkcə qəzəl yazması düzmü? Varsa əruzum, həm də heca aşiqiyəm mən* [4, 296]. Sərbəst vəzndə yazdığı "Əgər" adlı şeirdə Allah olsaydı, görəcəyi işləri sadalayarkən də bağbanı, yaratdığı gözəlliyi bura daxil edir: "Gül becərərdim bağban kimi" [4, 370].

"Müxtəlif şeirlər" silsiləsinə daxil heca vəznində yazdığı "Qoşma"da da "Bağçanı bağbanın göz yaşı yuyur" [4, 370] ifadəsi bağbanın həssaslığını göstərir. Sərbəst vəzndə yazdığı "Havada hava yoxdur" şerində güclü külək nəticəsində yarpaqların, güllərin qırılmasına təəsüflənir, zəhməti heç olan bağbanın halına acıyır. "Xocalı" adlı şeirdə şəhərin halına acıyarkən də bağban unudulmur: *Günahı nə idi şəhərin, Bağbanın, bağçanın, çəpərin?.. Qurbanı qəzavü qədərin Xocalı* [4, 559]. "Pənbeyi-dağı-cünun" örtdü sənin cismini də" qitəsinin ikinci beytində bu sahənin çətinliyinə diqqət yönəldir, şeir yazmaq bacarığını yüksək qiymətləndirdiyi də görünür: *Aldığın elmi qoyaq bir kənara, ey Şahin,// İftixar et ki, şeir yazmağı öyrəndin sən* [4, 596].

"İstəmirəm girməyi söz bağına" qitəsində isə şair çətinliyindən şikayətlənib yeni "Divan" yaza bilməyəcəyini "Xeyli çətindir, bacara bilmərəm",− [4, 599] desə də, yeni divan yazmağı bacardı və "Beşinci divan"ı ilə "Divanlar Xəmsə"sini ədəbiyyatımıza bəxş edərək bir yeniliyə də imza atdı. Həyat yoldaşı Tamridaya ithaf etdiyi "İtirəndən səni, ey yar, bu dövran içrə" qəsidəsində fəaliyyətinə diqqət yönəldir, gül becərib bağını "Qəzəl gülşəni" etdiyini bildirərkən böyük arzusunu da söyləyir: *Güllələr yox, gül açsın deyirəm hər yanda, Bircə yan içrə deyil, gül bitə hər yan içrə!* [5, 973]. "Şer bağımda mənim varsa alaq, qalmayacaq" mətləli qəzəlində "Gər alaq qalsa, yəqindir ki, o bağ qalmayacaq [5, 1116]",- söyləməklə mövqeyini qəti şəkildə bildirir. "Divan"lardan ardıcıllıqla gətirilən nümunələrdən şairin eyni mövzuya, məsələyə dəfələrlə müraciəti müəyyənləşir. Bu təkrar təsiri bağışlasa da, fikrin qüvvətlənməsinə də xidmət edir. 2016-cı ildə heca vəznində yazdığı "Əsarət əsiri" adlı şeirin son bəndində Qarabağın azad olunmasını arzulayarkən onu fərqli şəkildə adlandıracağını bildirir: *Səni azad edib alacağam kam, O zaman olacaq qara ağ sənə. Bağbandan icazə almayacağam, Ağbağ deyəcəyəm, Qarabağ sənə!* [5, 1118]. Sənətkar, ümumilikdə, xalqımız, 28 illik həsrətdən sonra arzusuna çatıb, Qarabağımız, nəhayət ki, azaddır və bu onun yaradıcılığında əksini tapır.

Nəticə. Beləliklə, bu qənaətə gəlirik ki, Şahin Fazil "Divan"larında bağban obrazına çoxsaylı müraciət təsadüfi deyil. O özündə gözəllik yaradıcısı və mühafizəkarı funksiyasını daşıyır, zəhməti sayəsində bəşərə zövq verir, həmçinin nümunə olur. Şahin Fazil bağban obrazına ona görə çox müraciət etmişdir ki, şair ruhu onuntək zəhmətkeş, gözəllik aşiqi və yaradıcısı bağbanı, yaratdığı gözəlliyi daha dərindən duyur, bu gözəlliyi yaradıb mühafizə etməsini yüksək qiymətləndirir. Şair özü də uğurlu bir söz bağbanıdır. Yazdıqları, qəlblərə yol tapmaqla bərabər, tədqiqat üçün də əhəmiyyətlidir. Şairin bəşərə səslənişi onu düşündüyünün ifadəsidir. Məqalədə toxunduğumuz məsələlər, sənətkarın gözəlliklər yaradan zəhmətkeş bağbanı, söz bağbanı şairi, şeiri, elmi, alimi, təhsili yüksək qiymətləndirdiyinin, əsl səadəti, uğuru elmdə, təhsildə, zəhmətdə gördüyünün ifadəsidir. Bütün bunlar mövzunun tədqiqat üçün əhəmiyyətli olduğunun təsdiqidir.

İstifadə olunmuş ədəbiyyat

1. Fazil Şahin. Divan. Bakı: Azərnəşr, 1996, 456 s.
2. Fazil Şahin. İkinci Divan.Bakı: "Elnur-P", 2005, 1268 s.
3. Fazil Şahin. Üçüncü Divan.Bakı:"Təknur", 2008,1382 s.
4. Fazil Şahin. Dördüncü Divan. Bakı: "Elm və təhsil", 2014, 872 s.
5. Fazil Şahin. Doğruya doğru. Bakı: "Elm və təhsil", 2018, 1224 s.
6. Nəbiyev Bəkir. Şahinin qanadları, "Azərbaycan" jurnalı, № 11, Bakı, 2006 s. 174-175

Açar sözlər: divan yaradıcılığı, qəzəl, bağban obrazı, Şahin Fazil, yaradıcılıq kredosu
Ключевые слова: диванное творчество, газель, образ садовника, Шахин Фазиль, творческое кредо
Keywords: divan creativity, ghazal, image of a gardener, Shahin Fazil, creative credo

Xülasə

Məqalədə tarix elmləri doktoru, professor, "Divan"lardan "Xəmsə" yaratmaqla yeniliyə imza atan Şahin Fazilin "Divan"larında bağban obrazına ilk dəfə ətraflı şəkildə diqqət yetirilmişdir. Şair onun torpağa bağlılığından, böyük zəhmətindən, yaratdığı və qoruduğu gözəllikdən bəhs edir. Özü də uğurlu bir söz bağbanı olan şairin yaradıcılığında bağbana müraciət, onun fəaliyyətinin gözəl şəkildə təqdimi təsadüfi deyil. Şair ruhu onun kimi zəhmətkeş, gözəllik aşiqi və yaradıcısı olan bağbanı, yaratdığı gözəlliyi daha dərindən duyur, onun bu gözəlliyi yaradıb mühafizə etməsini yüksək qiymətləndirir. Şahin Fazil şeir, sənətin inkişafı, qəzəl səhrasını gülüstana çevirmək məqsədilə zəhmətkeş bir bağban kimi yorulmadan, inamla və israrla çalışır, sözün ən uyğun, ən gözəl məqamını seçir. Alaq adlandırdığı dilimizdə vətəndaşlıq hüququ qazanmayan əcnəbi sözlərdən deyil, dilimizin zəngin söz ehtiyatından istifadəni zəruri hesab edir və bunu yaradıcılıq kredosuna çevirir. Şair bağban obrazına müraciət etməklə insanlarda zəhmətkeşlik və gözəlliklər yaradıb qorumaq hissini təbliğ edib gücləndirmək istəmişdir. Burada məkan (bağ) da məqsədyönlü şəkildə seçilmişdir. Söz bağbanı Şahin Fazilin şeirləri gül kimi gözəl, zərif və təravətlidir. Musiqi ahənginə uyğundur. Şair Qarabağın azad olmasını arzu edir və bu məqamda məkanın adına orijinal yanaşacağı diqqət çəkir. Ümumilikdə bəşərin səadətini, haqqın yerini tapması, güllələrin deyil, güllərin açılması, hər tərəfin gül-çiçəyə bürünməsini arzulayır, uğurun, əsl səadətin elmdə, təhsildə, zəhmətdə olduğunu vurğulayır. Bunlar məqalənin yazılmasına əsas verir. Obraza intensiv şəkildə müraciət edilməsinə diqqət yönldilir, səbəbləri şərh edilir.

ОБРАЗ САДОВНИКА В "ДИВАНАХ" ШАХИНА ФАЗИЛЯ

Резюме

В статье акцентируется впервые детальное внимание на образе садовника в «Диван»ах Шахина Фазиля, доктора исторических наук, профессора, который использовал новаторство, создав «Хамсу» из «Диван»ов. Поэт рассказывает о своей привязанности к земле, о своем тяжелом труде, о созданной и сохраненной им красоте. Обращение к садовнику в творчестве поэта, который сам является удачливым садовником слова, и красивое представление его деятельности не случайны. У садовника, такого же трудолюбивого, прекраснолюбивого и творческого огородника, как и он, душа поэта глубже чувствует красоту, которую он создает, ценит её создание и защиту этой красоты. Шахин Фазиль работает не покладая рук, уверенно и настойчиво, как трудолюбивый садовник, чтобы превратить пустыню поэзии, искусства и газели в сад, выбирая самый подходящий и самое красивое значение слова. Он считает необходимым использовать богатую лексику нашего языка, а не иностранные слова, не имеющие права на гражданство в нашем языке, которые он называет сорняком, и превращает это в творческое кредо. Обращаясь к образу садовника, поэт хотел пропагандировать и укреплять в людях чувство трудолюбия и красоты. Здесь место (сад) тоже выбирается целенаправленно. Стихи садовника Шахина Фазиля прекрасны, нежны и свежи, как цветы. Это созвучно с музыкой. Поэт желает освобождения Карабаха, и тут же отмечается, что у него оригинальный подход к названию места. В общем, он желает счастья народу, быть достойным справедливости, чтобы раскрылись цветы, а не пули, чтобы все стороны были усыпаны цветами. Он подчеркивает, что успех, истинное счастье заключается в науке, образовании и упорном труде. Все это является причиной написания статьи. Акцентируется внимание на интенсивном обращении к изображению, объясняются причины.

THE IMAGE OF A GARDENER IN THE "DIVANS" OF SHAHIN FAZIL

Summary

The article focuses in detalı for thefirst timein on the image of a gardener the divans of Shahin Fazil, doctor of history, professor, who signed an innovation by creating "Khamsa" from "Divans". The poet talks about his attachment to the land, his hard work, and the beauty he created and preserved. The appeal to the gardener in the works of the poet, who is himself a successful gardener of words, and the beautiful presentation of his activities are not accidental. The poet feels the soul of the gardener, who is hardworking, beauty-loving and creative like him, feels more deeply the beauty he creates, appreciates his creation and preservation of this beauty. Shahin Fazil works tirelessly, confidently and persistently like a hard-working gardener in order to turn the desert of poetry, art and ghazal into a garden, choosing the most suitable and most beautiful moment of the word. At this point, we will not bemistaken to call te gardener as a poet's prototype. He considers it necessary to use the rich vocabulary of our language and not foreign words that do not have the right to citizenship in our language, which he calls a weed, and turns this into a creative credo. By appealing to the image of a gardener, the poet wanted to promote and strengthen the feeling of hard work and beauty in people. Here, the place (garden) is also purposefully chosen. Poems of the word gardener Shahin Fazil are beautiful, elegant and fresh like flowers. It's in tune with the music. The poet wishes for the liberation of Karabakh, and at this point it is noted that he will have an original approach to the name of the place. In general, he wishes for the happiness of the people, for the right to be found, for flowers to open, not bullets, for all sides to be covered with flowers. He emphasizes that success, true happiness lies in science, education, and hard work. All this is the reason for writing the article. Attention is focused on intensively referring to the image, the reasons are explained.

Rəyçi: dos.E.Vəliyeva

Gülər Qasımova[102]

YƏHUDİ LEKSİKOQRAFİYASININ SƏCİYYƏVİ XÜSUSİYYƏTLƏRİ

Leksikoqrafiya – dilçiliyin lüğətlərin tərtibi və onların öyrənilməsi ilə məşğul olan bölməsi olub sözlərin semantik quruluşunu, xüsusiyyətlərini, şərhini öyrənən elmdir (8). Lüğətçilik müasir dilçiliyə daxil olan tətbiqi elmlərdən biridir. Bu, müxtəlif dil lüğətlərinin tərtib edilməsinin nəzəriyyəsi və təcrübəsidir, yəni bu, lüğətlər elmidir, onları ən ağıllı şəkildə necə etmək barədədir, eyni zamanda, lüğətlərin tərtib edilməsi praktikasıdır. Bu elm lüğətlərin tərtibi nəzəriyyəsi ilə də məşğul olur. Leksikoqrafiya dil haqqında bütün biliklər toplusunun qavranılması üçün ən optimal və məqbul yolları tapmağa çalışır.İlk lüğətlər hələ dil haqqında biliklər sistemli xarakter alıb dil elminə çevrilməmişdən əvvəl hazırlandığındanilk leksikoqraflar daha çox elm adamları deyil, sözlərin etimologiyası haqqında müəyyən biliklərə, təxminlərə və intuisiyaya malik olan sənət və ya sənətkarlıq təcrübəsi olanlar idi. Deməli, praktik leksikoqrafiya insan fəaliyyətinin ən qədim növlərindən biridir. Şumer mədəniyyətinə müraciət etsək (b.e.ə. XXV əsr) görərik ki, artıq o dövrdə insanlar onlara qaranlıq qalan sözləri izah etməyə çalışmış və bu söz toplularını lüğətlər (qlossari və ya əlifba lüğətlər) adlandırıblar (5, 62). Lüğətlərin görməyə öyrəşdiyimiz formada, yəni "erkən lüğət dövrü" adlandırılan formada meydana çıxması XIII əsrə aid edilir. O vaxtdan bəri çoxlu sayda müxtəlif lüğətlər tərtib edilmişdir. Praktiki leksikoqrafiya dilin öyrənilməsini, təsvirini və normallaşdırılmasını, dillərarası ünsiyyəti, dilin lüğət tərkibinin elmi öyrənilməsini təmin edən sosial əhəmiyyətli funksiyaları yerinə yetirir.

XX əsrin əvvəllərində praktik leksikoqrafiyadannəzəri leksikoqrafiya inkişaf etməyə başladı. Nəzəri leksikoqrafiya lüğətin makrostruktur (söz ehtiyatının seçilməsi, lüğətin həcmi və xarakteri, materialın yerləşdirilməsi prinsipləri) və mikrostruktur (leksika girişinin strukturu, lüğət təriflərinin növləri, söz haqqında müxtəlif növ məlumatların nisbəti, linqvistik illüstrasiya növləri və s.) sahələrini özündə ehtiva etməklə lüğətlərin tipologiyasının yaradılmasını nəzərdə tuturdu (1, 58). Artıq əsrimizin ortalarından etibarən bu təcrübə təsvir olunmağa və ümumiləşdirilməyə başlandı və bu ümumiləşdirmələr leksikoqrafiya nəzəriyyəsinin meydana çıxmasına səbəb oldu ki, bu da bu gün "lüğətlərin və lüğət tipli digər əsərlərin yaradılması ilə bağlı məqsədli şəkildə təşkil edilmiş biliklər ilə əlaqəli bütün məsələlər silsiləsinə vahid baxış verən biliklər" kimi müəyyən edilir (2, 114).

Leksikoqrafiya sözün bütün xassələrinin məcmusunda təmsil olunduğundan lüğət təkcə dil üzrə unikal və əvəzolunmaz dərslik deyil, həm də elmi tədqiqat üçün ən mühüm vasitədir. Lüğətlər maarifləndirici, sistemləşdirici, tənzimləyici – normativ və istinadedici funksiyalar yerinə yetirdiyindən lüğət tərcüməçinin işində də istiqamətləndirici və izahedici rol oynayan informasiya resursudur. Bu, müəyyən ardıcıllıqla düzülmüş sözləri (və ya morfemləri, ifadələri, idiomları və s.) ehtiva edən (müxtəlif növ lüğətlərdə fərqli ola bilər), təsvir olunan vahidlərin mənasını izah edən, onlar haqqında müxtəlif məlumatlar və ya onların dilə tərcüməsini verən məlumat kitabçasıdır (2, 160). Lüğətlər informativ (ən qısa yolla (mənalar vasitəsilə) toplanmış biliklərə qoşulmağa icazə verir), kommunikativ (dillərarası ünsiyyətə, həm yerli, həm də qeyri-doğma dil öyrənməyə təşviq edir), normativ (sözlərin mənalarını və istifadəsini təyin edir, dilin ünsiyyət vasitəsi kimi normallaşmasına və birləşməsinə kömək edir) və kommunikativ (dillərarası ünsiyyətə, həm yerli, həm də qeyri-doğma dil öyrənməyə təşviq edir) sosial funksiyaları yerinə yetirirlər (10).

İbri lüğətçilik tarixi qədim köklərə malik olsa da, məlumdur ki, orta əsrlərdə leksikoqrafiya özünün çiçəklənmə dövrünü yaşamış və artıq bu dövrdə ilkin lüğətçilik nəzəriyyəsi formalaşmışdır. XX əsrin əvvəllərində ibri dili dirçəldilməyə başlayanda ibri lüğətçiliyi özünün yeni inkişaf mərhələsinə qədəm qoydu. Bu dövrdə yəhudi leksikoqrafiyasının ən aktual problemlərindən biri həm nəzəri, həm də praktiki baxımdan lüğətlərin tərtibi problemi idi və yəhudi lüğətçilərinin əsas vəzifəsi ümumi istifadədə olan bütün sözlərə "düzgün" məna, orfoqrafiya və vurğu təyin edərək dili "düzəltmək" və faydalı olan bu sözləri lüğətə daxil etmək və ibri leksikoqrafiya nəzəriyyəsinin başlıca xüsusiyyətləri formalaşdırmaq idi. Müəyyən edildi ki, yəhudi leksikoqrafiya nəzəriyyəsi – ibri leksikoqrafiya anlayışının həcmi, məzmunu və strukturu, ibri lüğətlərinin janrları və növləri, ibri lüğətlərinin element və parametrləri, yəhudi leksikoqrafik quruluşun əsasları və kompüterləşdirmə imkanları, məlum yəhudi lüğət materiallarının öyrənilməsi, yəhudi lüğət işinin planlaşdırılması və təşkili, yəhudi leksikoqrafiya qaydalarının işlənib hazırlanması və formalaşması haqqında təlimdir (4, 73). Eyni zamanda bu dövrdə ibri lüğətlərinin tərtibindəki başlıca prinsiplər də müəyyənləşdirildi: tematik prinsip, nisbilik prinsipi, ənənəvilik prinsipi, standartlaşdırma prinsipi, sadəlik prinsipi, tamlıq prinsipi, səmərəlilik prinsipi, semantik təsvir prinsipi və qənaətçilik prinsipi. Artıq XX əsrdən başlayaraq ibri dilində lüğətlər tərtib edilərkən aşağıdakı ümumi prinsiplər nəzərə alınmağa başlandı:

1) qeyri-məhdud üslub – bu, sözün həm yazılı, həm də danışıq nitqinə mənsubluğu və bundan əlavə, sözün istifadəsində heç bir "ərazi məhdudiyyətinin" olmamasıdır;
2) semantik dəyər – əsasən məfhum və hadisələri bildirən, bədii və siyasi-iqtisadi xarakterli sözlərin daxil edilməsidir (ümumi ədəbi və ictimai-siyasi lüğət ən çox dil öyrənənlərə məlumdur, onun ətrafında müxtəlif assosiativ əlaqələr formalaşır, müəyyən konseptual baza yaradılır);
3) polisemiya – lüğət tərcümənin öyrədilməsi zamanı həm aktiv, həm də passiv lüğətin genişləndirilməsinə kömək edən "sözün əsas mənaları"nın biliyinə diqqət yetirməlidir;
4) tezlik meyarı – tezlik meyarı lüğətlər üçün lüğət seçimini tənzimləyən xüsusiyyətdir.

XX əsrin ortalarında yəhudi lüğətlərinin bir sıra xüsusiyyətlərinə görə fərqlənən aşağıdakı növləri ayırd edilirdi:

---

[102] BDU, müəllim

1) Məzmun baxımından. Təkcə sözləri deyil, obyektlərin özünü və təyin etdikləri anlayışları izah edən *ensiklopedik lüğətlər*. Peşəkar tərcüməçilər üçün onlar xüsusi əhəmiyyət kəsb edir, çünki onlar müasir dilin lüğət tərkibinin çoxşaxəli təsvirini ehtiva edir. Krupnov yazırdı ki, "Ensiklopedik lüğət sözün yaşadığı situasiya-nitqi və tarixi fonu daha yaxşı görməyə imkan verir" (3, 50). Hazırda ensiklopedik lüğətlərin tərtibçiləri qarşısında təkcə normativ söz işlətməsinə dair məlumatların deyil, həm də müasir oxucu kütləsinin tələbatına cavab verən digər məsələlərin lüğətə daxil edilməsi vəzifəsi durur.
2) Leksik vahidin seçimi baxımından. Dilin bütün lüğət tərkibini və özəl lüğətləri əhatə edən, onun bəzi tematik və üslub qatlarını (termin lüğətlər, dialekt sözlər, abbreviaturalar, argolar, əcnəbi sözlər, neologizm, arxaizm lüğətləri, xüsusi adlar lüğəti) əks etdirən tezauruslar.Tezaurus sözlərin tərifini verən və onları əlifba sırasına görə sıralayan lüğətdən fərqli olaraq, məna oxşarlığına görə qruplaşdırılmış sözləri (sinonimlər və bəzən antonimləri ehtiva edən) birləşdirən istinad işidir (11).
3) Sözlərin təsviri baxımından. Sözlərin müəyyən tərəflərini və onlar arasındakı əlaqəni açan lüğətlər. Bunlara daxildir:
   - ✓sözlərin mənşəyini izah edən etimoloji lüğətlər;
   - ✓məlumat rolunu icra edən akademik lüğətlər;
   - ✓müəyyən dövrlərin yazılı abidələrində qeydə alınmış müxtəlif xronoloji bölmələrin lüğətini əks etdirən və sözlərin tarixini izləməyə imkan verən tarixi lüğətlər;
   - ✓tarixi və bioqrafik məlumatları ehtiva edən lüğətlər. Krupnov qeyd edirdi ki, "Mədəni və tarixi məlumatlar tərcüməçinin fəaliyyət göstərdiyi ümumi semantik və informasiya kontekstinin ayrılmaz hissəsidir və buna görə də bu "fon" haqqında kifayət qədər biliyə malik olmadıqda, tərcüməçi xarici dildəki mətni öz dilinə adekvat şəkildə çatdıra bilməyəcək" (2, 48). Belə lüğətlər, xüsusilə, təcrübəsiz tərcüməçilər üçün son dərəcə faydalıdır,
   - ✓leksik vahidlərin sözdüzəltmə quruluşunu əks etdirən sözdüzəldici lüğətlər;
   - ✓sözün qrammatik xüsusiyyətləri haqqında təsəvvür yaradan qrammatik lüğətlər;
   - ✓sözlərin normativ orfoqrafiyasını təsbit edən orfoqrafiya lüğətləri;
   - ✓dilin ayrı-ayrı leksik-semantik kateqoriyalarının təsvirinə həsr olunmuş lüğətlər, sinonim və antonimik lüğətlər. Sinonim lüğətləri müəyyən qrupun sinonimlərini sadalamaqla yanaşı, mətndə həyata keçirilən söz mənalarının çalarlarını təklif edə bilər. Sözü daha yaxşı başa düşmək üçün sinonim lüğətlər tez-tez konnotativ mənaları izah edir və nitqdə sinonimlərin istifadəsi ilə bağlı tövsiyələr verir;
   - ✓ tərcümə edilmiş mətnin üslubunu başa düşməyə və ana dilində uyğun üslub vasitələri seçməyə kömək edən üslub planı haqqında məlumat verən lüğətlər. Nitqin düzgünlüyü ilə bağlı sual yarandıqda belə lüğətlərə müraciət etmək olar. Bildiyiniz kimi, "düzgün nitq" dedikdə adətən "kitab nitqi" başa düşülür, lakin son illərdə bu anlayış bir qədər genişlənmiş və təkcə ümumi ədəbi lüğəti deyil, həm də danışıq üslublarının lüğətini, hətta jarqonları da əhatə etməyə başlamışdır.
4) Leksikoqrafik təsvir vahidi baxımından. Bu, təkcə söz lüğətləri deyil, həm də kök, morfem lüğətləri, həmçinin söz birləşmələri, frazeoloji vahidlər və sitatlar ola bilər.
5) Dillərin sayı baxımından. Çoxdilli və ikidilli lüğətlər. İkidilli və ya bəzən tərcümə lüğətləri adlandırılan bu lüğətlər ən geniş tətbiq dairəsinə malikdir. Onların populyarlığı xarici dil sözlərinin mənalarının lüğət uyğunluğu və ekvivalentlərinin köməyi ilə açıqlanmasının aydınlığı ilə izah olunur, əgər ekvivalentlər yoxdursa, müxtəlif izahatlar, təsvirlər və tərifər verilir. İkidilli və ya çoxdilli lüğətlər ana dilinin lüğət girişindəki yerindən asılı olaraq passiv (sağ tərəfdə ana dili) və aktiv (sol tərəfdə ana dili) qruplarına bölünür (9).
6) Materialın düzülüşü baxımından. İdeoqrafik, analoji (sözlər əlifba sırası ilə deyil, semantik assosiasiyalara görə düzülür), tərs (burada sözlər sözün son hərflərinin əlifba sırası ilə düzülür) lüğətlər.

Ədəbiyyat siyahısı:

1. Həsənov H. "Müasir Azərbaycan dilinin leksikası", Bakı 1988
2. Брисина А. «История еврейской лексикографии», Москва 1992, 194 с.
3. Вайнберг Э., Бар-Север Р. Правописание на иврите / Издание на русском языке подготовлено Т. Аксеновой и Б. Гамзу. Тель Авив, 1993. 216 с.
4. Крюков А.А. «Краткая история возрождения разговорного иврита», Москва 2003, 272 с.
5. ווינרייך א. יידיש לאוניברסיטה: מבוא ללשון יידיש ולתרבותה, ניו-יורק-ירושלים, תשל"ז, 2018. 374 עמ'.
6. מחקרים בלשון העברית העתיקה והחדשה - מוגשים למ. צ. קדרי / העורך ש. שרביט. רמת-גן, תשנ"ט, 1999. 432 עמ'.
7. https://ru.frwiki.wiki/wiki/Histoire_de_la_grammaire_h%C3%A9bra%C3%AFque
8. https://eleven.co.il/jewish-languages/general-info/11655/
9. https://jewish-speech.philosophy.spbu.ru/content/Archive/issue.aspx?isid=1&arid=5
10. https://lechaim.ru/academy/yazykovoi-renessans/
11. http://www.zuckermann.org/obogashcheniya.html

Açar sözlər: lüğətçilik, kök prinsipi, lüğətlərin tərtibatı qaydası, lüğətlərin tərtibolunma meyarları, dilin dirçəldilməsi.

Характерные черты еврейской лексикографии

Лексикография — раздел языкознания, занимающийся составлением словарей и их изучением, и представляет собой науку, изучающую семантическую структуру, характеристики и толкование слов. Хотя история еврейской лексикографии имеет древние корни, известно, что еврейская лексикография пережила свой

расцвет в средние века и первоначальная теория лексикографии уже сформировалась в этот период. В начале XX века, с возрождением иврита, ивритская лексикография вступила в новый этап своего развития. Одной из актуальнейших проблем еврейской лексикографии в этот период была проблема составления словарей как с теоретической, так и с практической точки зрения, а главной задачей еврейских лексикографов было «исправить» язык путем присвоения «правильного» значения , написание и ударение ко всем общеупотребительным словам, а также ввести эти полезные слова в словарь, чтобы сделать и сформировать основные черты теории еврейской лексикографии.

Ключевые слова: лексикография, корневой принцип, порядок составления словарей, критерии составления словарей, возрождения языка.

Characteristic features of Jewish lexicography

Lexicography is a branch of linguistics that deals with the compilation of dictionaries and their study, and is a science that studies the semantic structure, characteristics and interpretation of words. Although the history of Jewish lexicography has ancient roots, it is known that Jewish lexicography experienced its heyday in the Middle Ages and the original theory of lexicography was already formed during this period. At the beginning of the 20th century, with the revival of Hebrew, Hebrew lexicography entered a new stage in its development. One of the most urgent problems of Jewish lexicography during this period was the problem of compiling dictionaries, both from a theoretical and practical point of view, and the main task of Jewish lexicographers was to “correct” the language by assigning the "correct" meaning, spelling and stress to all commonly used words, and also enter these useful words into the dictionary to make and form the main features of the theory of Jewish lexicography.

Key words: lexicography, root principle, order of compiling dictionaries, criteria for compiling dictionaries, therevival of the language.

Elmi rəhbər: **prof. N.N. Məmmədov**

Məhərrəm Tahir oğlu Vəliyev[103]

YUSİF MƏDDAHIN "VƏRQA VƏ GÜLŞAH " POEMASINDA VALİDEYN OBRAZLARI

XIII-XIV əsrlər Azərbaycanın ədəbi-fəlsəfi tarixində yeni bir mərhələnin yaranması ilə diqqəti çəkir. Bu dövrdə elm və mədəniyyətin inkişafi anadilli ədəbiyyatın çiçəklənməsinə müsbət təsir göstərmiş, müxtəlif janrlarda, ölçülərdə rəngarəng mövzulu əsərlər meydana gəlmişdir. Lirik, fəlsəfi əsərlərlərlə yanaşı, Azərbaycan epik şeiri də inkişafının təşəkkül mərhələsinə daxil olmuşdur. "Dastani-Əhməd Hərami", "Vərqa və Gülşah", "Yusif və Züleyxa" və s. əsərlərdə cəmiyyəti, insanları düşündürən problemlərə toxunulmuş, saf, təmiz ilahi eşq, dostluq, qəhramanlıq alqışlanmış,insanların mənəvi azadlığını məhdudlaşdıran qayda-qanunlar, zülm və haqsızlıq tənqid olunmuşdur. Bu mənada Y.Məddahın "Vərqa və Gülşah" poeması xüsusilə seçilir. Ərəb əbəbiyyatından, həmçinin bir sıra xalqların – türk, özbək, qazax, tacik və s. şifahi ədəbiyyatında olan variantlardan faydalanan bir çox sənətkarlar bu mövzuda əsərlər qələmə almışlar. XI əsrdə Əyyuqi bu mövzunu fars dilində yazılı ədəbiyyata gətirmişdir. Y.Məddah isə anadilli ədəbiyyatımızda ilk dəfə 1369-cu ildə "Vərqa və Gülşah" əsərini qələmə almışdır. Y.Məddah digər əsərləri ilə bərabər, bu poeması ilə anadilli epik şeirimizin ideya, məzmum, bədii keyfiyyətlərinin formalaşmasında müstəsna xidmət göstərmişdir.

Poema bir cox görkəmli tədqiqatçılar tərəfindən araşdırılmış, təhlil edilmişdir. Əsəri araşdıran alimlərin fikir və mülahizələri dəyərli və əhəmiyyətlidir. Məsnəvinin öyrənilməsində xüsusi xidmətləri olan görkəmli alimlərdən Ə.Səfərli, C.Qəhrəmanov, Z.Haciyeva, A.Mirzəyev və s. adlarını qeyd etmək lazımdır. Lakin bir məsələni də bildirməyi məqsədəuyğun hesab edirik. Belə ki, tədqiqatçılar poemanın mövzusu, ideyası, məzmunu, əsas surətləri, bədii keyfiyyətlərinin araşdırılmasına daha çox diqqət yetirmiş, əsərdəki epizodik surətlərin təhlilinə yer ayırmamış, bu obrazların hər birini ayrıca təhlilə cəlb etməmiş, bu surətlərin süjet xəttinin inkişafindakı əsas rolunu müəyyənləşdirməmişlər. Tədqiqatlarda poemadakı epizodik surətlərlə bağlı ümumi məlumat verilmişdir. Bədii mətndə adları keçən epizodik surətlərin adları göstərilmiş,bəzi hallarda onlara xas xüsusiyyətlər vurğulanmışdır. Ümumiyyətlə, bu kimi halları digər poemaların öyrənilməsində də müşahidə etmək mümkündür. Görkəmli alim Ə.Səfərli Məsihinin "Vərqa və Gülşa" poemasını araşdırarkən, Y.Məddahın eyni adlı əsərini müqayisə etmiş, epizodik surətlər haqqında ümumi fikir söyləmişdir. O yazırdı: "Vərqa və Gülşa" da digər epizodik surətlər vardır ki,onlar məhəbbət və qəhrəmanlıq aləmindən kənarda qalmırlar… Onların məsləki, mənəvi siması iki aşiqə münasibətdə üzə çıxır" (4, s. 599).

Tədqiqatçı A. Mirzəyevin poemadakı epizodik obrazlara münasibətinə diqqətə layiqdir: "Əsərdə (*"Vərqa və Gülşah" - M.V*). Vərqa və Gülşah obrazlarından başqa, bir sıra köməkçi obrazlar da vardır ki, onların hər biri mövzunun və Vərqa ilə Gülşahın xarakterinin açılmasına xidmət edir. Məsələn, Vərqanın atası Hümam şah, dayısı Səlim şah, Gülşahın atası Hilal şah, mal-dövlət düşkünü anası, nəcib keyfiyyətləri ilə seçilən Möhsün şah, öz mənfi hərəkətləri ilə oxucuda nifrət hissi oyadan Bəni-Əmir, Məlik Əntər və s. belə obrazlardandır" (3, s. 103).

Qeyd edək ki, poemadakı epizodik obrazlar altı məclisdə təqdim olunan bədii mətndə bəzən aktiv, bəzən də passiv şəkildə iştirak edirlər. Bəzi hallarda isə süjetin inkişafinda aparıcı obrazlardan, yəni baş qəhrəmanlardan üstün mövqeyə sahib olurlar,əsərin ideya-məznunun oxucuya çatdırılmasında əvəzsiz status qazanırlar. Bu mənada poemanın epizodik obrazı olan Möhsün şah surəti səciyyəvidir (Bu obrazla bağlı məqaləyə diqqət yetirmək olar: 5).

Bu yazıda əsərdə passiv və ya aktiv şəkildə iştirak edən valideyn surətlərinin əsas xüsusiyyətlərinin təqdiminə nəzər salınacaq. Əsərin ilk məclisində oxucu Vərqanın atası Hümam şah və Gülşahın atası Hilal şah haqqında məlumat alır. Sonrakı məclislərdə isə poemanın daha maraqlı istiqamət almasında rolu olan Gülşahın anası diqqəti cəlb edir. Müəllif poemanın əvvəlində hər iki ata obrazı barəsidə oxucunu bilgiləndirir, onları Məhəmməd peygəmbərin dövründə tayfa rəisləri kimi təqdim edir. Hümam və Hilal doğma qardaşdılar, bir gecə Hümamın oglu, qardaşının isə qızı dünya gəlir:

Bunların iki rəisi var idi,
İkisi dəxı qarındaş idi.
Qüdrətilə ol Hümamın bir gecə,
Oğlu doğdu, bərq urar aydım, necə
Həm Hilalın ol gecə qızı olur.
Ol dəxi bir qiyməti gövhər bulur.
Vərqa verdilər Hümam oglına ad,
Qız adı Gülşah dedilər xoş nihad (2, s. 113).

Hər iki gəncin tərbiyə və təhsilnə valideynlər xüsusi diqqət yetirir, onlara qayğı göstərirlər. Hümam övladını bir igid, qəhrəman kimi böyüməsini də nəzərə alaraq, onu "silahşur"un yanına qoyur,onun bir gəncavər kimi qorxmaz, cəsur, mübariz yetişməsini istəyir.

Verdi oğlunı silahşura Hümam,
Ki, ərlik təbirin ögrənə təmam (2, s. 113)

Hümam və Hilal üzərlərinə düşən valideynlik vəzifəsindən irəli gələn öhdəlikləri layiqincə yerinə yetirirlər. Tayfa üzvlərinin nəsihətinə qulaq asan, iki gəncin bir-birinə olan sevgisinə hörmətlə yanaşan hər iki ata onların ailə qurmasına razılıq verir,yeddi gün toy məclisi təşkil edirlər. Lakin Gülşahın gözəlliyinə aşiq olan Bəni Əmir onu toy günü oğurladır. Bu

[103] **BDU-nun Azərbaycan ədəbiyyatı tarixi kafedrasının dosenti, filologiya üzrə fəlsəfə doktoru. E-mail: maharram_veliyev@mail.ru**

hadisə Vərqanı narahat etdiyi kimi valideynləri də cox məyus edir. Hümam və Hilal Gülşahı azad etmək üçün düşmən üzərinə getməyi qərara alırlar. Bəni Əmirlə vuruşda Hümam oğlunu qorumaq üçün önə çıxır, onunla döyüşür. Bu səhnə oxucunu təsirləndirir, oxucu övladının xoşbəxtliyi naminə Hümamın hərəkətini alqışlayır . Hümam düşmən üzərinə bir neçə dəfə həmlə etsə də, vuruşda qələbə çala bilmir. Artıq Hümam rəis yaşlaşmışdı, zəif, gücsüz idi. O, xoş amalı, istəyi uğrunda şəhid olur:

Vərqa atası yetilmiş pir idi,
Qüvvəti yoq,taqəti təqsir idi…
Ol qolu qanlu Bəni Əmirü pəlid,
Vərqanın atasını qıldı şəhid (1, s. 120).

Bu səhnəni müşahidə edən Vərqa mənəvi əzab keçirir, atasının ölümü onu sarsıdır, atasız qalmağın çətinliyini dərk edir, vəfalı övlad kimi atasına olan məhəbbətini ifadə edir. Vərqa atasının şəhid olduğu yerə gəlir, atdan düşür, onu bağrına basır, üzündən öpür. Müəllif bu ağrılı məqamı təbii və canlı təsvir edir, Vərqanın atasına olan dərin ehtiram və sayqısını oxucuya ustalıqla təqdim edir.

Vərqa çün gördü atasını halini,
Zari qıldı dutubani belini.
Dedi – Bəni yalunuz qodun ata,
Zari qılub qamçıyı urdı ata (2, s. 120).

Poemanın növbəti məclisində əsirlikdən qurtaran Vərqa və Gülşahın düyün məsələsi gündəmə gəlir. Tayfa üzvləri baş vermiş hadisənin bir daha təkrar olmaması üçün onların tez bir zamanda evlənməsini məsləhət bilir. Məhz bu hadisədən sonra Gülşahın valideynlərinin iç dünyası açılır. Tayfa üzvlərinin məslətinə razılıq verən Hilal rəis bu barədə həyat yoldaşına məlumat verir, iki gəncin xoşbəxt olmasını istəyir. Bir ata kimi yeni təhlükələrdən xilas yolunu onların qovuşmasında görür. Lakin hadisələr düz xətlə inkişaf etmir. Gülşahın anasının bu məsələdə tutduğu mövqe Hilalı çıxılmaz vəziyyətə salır. Gülşahın anasının cavabı hiddət doğurur. O, müqəddəs ana adına ləkə vurur, acgözlüyü, tamahkarlığı onu insanlıqdan çıxarır:

Övrət aydur: Vərqa olmışdur yetim,
Şimdi Vərqa kim,ya Gülşah kim.
Yoq əlində xanüman, altun, gümiş,
Söyləmə bu sözi kim, bitməz bu iş,
Vərqanun irməz əli həm altuna,
Gülşanı bən verməzəm versün tana (2, s. 125).

Bu sözləri eşidən Hilal həyat yoldaşına onların uşaqlıqdan bir-birinə olan münasibətini xatırladır. Onun məlumatından bəlli olur ki, Vərqa və Gülşah hələ beşikdən göbəkkəsdi edilmişdir. Onları ayırmaq günah olar. Çünki uşaqlıqdan bir yerdə böyüyüblər, təhsil alıblar, bir- birlərini dəlicəsinə sevirlər. "Ver riza, girmə buların qanına", – söyləyən Hilala xanımının cavabı qəti olur.Gülşahın anasını düşündürən əsas məsələ qızının xoşbətliyi deyil,var- dövlətdir.Ananın dünyagörüşündə əsas amil varidatlı olmaqdır. Bu səbəbdən qızını imkansız qohumu Vərqaya vermək istəmir, "rayigan" qalır. Çünki Gülşahın anasının ruhu nəfsinin əsiri olmuşdur.

Qeyd edək ki ,bir- birini sevən gənclərin vüsalına qovuşmasına mane olan səbəblərdən biri də ictimai bərabərsizlikdir. Prof. Ə.Səfərli haqlı olaraq yazırdı: "Cəmiyyətdə eşqin faciəsi ictimai bərabərsiliklə bağlıdır". Y.Məddah poemada bu problemə toxunmaqla, onu obrazlı təqdim edir, cəmiyyətdə mövcud olan, bəsit dünyagörüşə sahib olan insanların faciəsini ümumiləşdirir. Bu əqidəyə sahib olan, özünü həmişə haqlı bilən insanlar, xüsusilə, valideynlər bağışlanmaz günaha batırlar. Müəllifə görə, bu insanlar mənəvi saflıqdan uzaq bədbəxtlərdir. Onlar elə zənn edirlər ki, insanın saədəti, xoşbətliyi dünya malına bağlıdır. Gülşahın da anası məhz bu qəbildən olan cahil insanlardandır. Poemanı ciddi şəkildə araşdıran prof. Ə.Səfərli yazırdı: "Cəmiyyətdə eşqin faciəsi ictimai bərabərsizliklə bağlıdır" (4, s. 587).

Bədii mətndə diqqəti cəkən problemlərdən biri də ailə modelidir,daha doğrusu ər- arvad münasibətlərinin normal şəkildə olmamasıdır. Tayfa başçısı olan Hilal rəisin sözü, fikri həyat yoldaşı tərəfindən qəbul edilmir. Bu ailə başçısı Hilalın faciəsidir. Müəllif bununla Hilalin zəif, bütöv bir şəxsiyyət olmadığını ortaya qoyur. Məlum olduğu kimi Şərq düşüncəsində, eləcə də bir çox bədii əsərlərdə ata sözü "fərman" kimi ("Dastani-Əhməd Hərami" poemasını və digər əsərləri yada salaq) qəbul edilir. Bu keyfiyyət Hilala mənsub deyil. Hilal rəis bu tip atalar, təbii ki, həyat yoldaşı silsiləsinə mənsub olmayan "kişi"lərdəndir. Müəllif əsərin sonrakı məclisində də Hilalin xarakterindəki acizliyi, mala, var-dövlətə hərisliyini, cəmiyyətdə, eləcə də, ailədə nüfussuzluğu bir daha oxucuya təqdim edir. O, poemada sayğısız, səviyyəsiz bir ata, həyat yoldaşı obrazının ümumiləşdirilmiş nümayəndəsi kimi yadda qalır.

Əsərin dördüncü məclisində Hilal və onun həyat yoldaşının mənəviyyatdan uzaqlıgı Möhsün obrazı vasitəsi ilə bir daha ortaya çıxır. Möhsün şah surəti cəmiyyətin çatışmamazlıqlarını bilən,insanların dünya malına hərisliyinin şahidi olan bir obraz kimi təqdim etməklə, qarşısına qoyduğu problemi asanlıqla həll etməyi bacaran obrazdır. Möhsün şah nişanlı olan Gülşah ilə evlənmək diləyində olduğu üçün özünü xeyirxah bir tacir kimi tanıdır, insallara müxtəlif hədiyyələr bəxşişlər edir. O, bilir ki, Gülşahın valideynlərini yalnız bu yolla ələ ala bilər. Dünyada hər şeyi var-dövlətə qurban verməyə hazır olan Hilal və onun həyat yoldaşı Möhsün şahın planına uyğun davranırlar. Çünki,onların həyat fəlsəfəsi dünya malıdır. Hilal rəis Möhsün şahın xeyirxahlığı,əli açıqlığı, hədiyyə və bəxşişləri barəsində eşitdikləri və gördükləri barəsində arvadına məlumat verir. Təbii ki, bunu eşidəndə Gülşahın anasının maraq dairəsi artır. Nəticədə bu varlı şəxsi qonaq edirlər. Möhsün şah Hilala

qızını almaq, onunla evlənmək istəyi xəbərini yollayır. Hilal rəisin cavabı qəti olur, Möhsün şahın təklifini rədd edir. Bədii mətndə olan Hilalin cavabı oxucuda obraza marağı artırır, oxucu elə zənn edir ki, Hilal sözünün ağası olacaqdır:

Dedi: varun aydunuz ol tacirə
Kim,bu sözün tərkini külli urə,
Bən qızımı namizəd eyləmişəm,
Kim,qardaşüm oğliçün söyləmişəm (2, s. 148).

Bu cavab Hilalın xarakterinin ciddi olduğunu göstərsə də, hadisələr başqa istiqamətdə cərəyan edir. Hilal rəis xarakterinə uyğun davranışına sadiqlik göstərir, xəbəri xanımına həmən çatdırır, həyat yoldaşının "qismət olsa görəlim" - cavabına etiraz edir, Gülşahı Vərqaya verəcəyini bəyan edir. Dövrün psixologiyasına dərindən bələd olan Möhsün şah qonşu qarının vasitəsi ilə Gülşahnın anasını hədiyyələrlə yola gətirir. Ər və arvadın dialoqunda Gülşahın Möhsün şaha verilməsi məsələsində ana öz qərarından dönmür. Hilal əvvəlki məclislərdə olduğu kimi "ver qızını tacirə" - deyən arvadına bəlli hadisələri bir daha vurğulayır. Hilal xanımına əvvəl söylədiyi fikirləri daha ətraflı şəkildə təkrarlayır. Yoldaşının Vərqa və Gülşaha zülm etdiyini bəyan etməklə bərabər, el içində biyabır olacaqlarını söyləyir:

Namzəd oldı beşikdə uşbu qız,
Vərqaya verdik hələ Gülşahi biz...
Nə susadun sən ularun qaninə,
Kim, qılursan qəsd ikisinin caninə...
Hə yüz ilə həzrətə varmaq gərək,
Bunlara necə sori vermək gərək (2, s. 151).

Gülşahın anası verdiyi qərarı Vərqadan xəbər çıxmaması ilə əlaqələndirsə də, məsələnin kökündə onun həyata baxışı, düşüncəsi dayanır. Gülşahın valideynləri övladlarının taleyini düşünmədən,onun arzu və istəkləri nəzərə almadan Möhsün şaha ərə verirlər. Onlar tutduqları çirkin işdən usanmırlar, get-gedə murdarlaşırlar. Səfərdən qayıdan Vərqa ölkədə hər kəsin qara geyindiyini görür,bunun səbəbini soruşsa da, cavab ala bilmir. Saraya gələn Vərqa Gülşahı xəbər alır, əmisi və onun yoldaşı qızlarının vəfat etdiyini utanmadan, çəkinmədən bəyan edirlər. Y.Məddah bu hissədə cahil və nadan valideynlərin nə qədər düşüncəsiz olduqlarını oxuculara çatdırır. Həyatda məqsəd və amalları yalnız var-dövlət olan ata-ana həqiqəti danır, qoyun basdırdıqları qəbri Gülşahın məzarı kimi göstərirlər. Bir valideyn ücün övladına qarşı bundan faciəli daha hansı hərəkət etmək mövcuddur. Bu səhnə bu tip valideynlərin ifşasının göstəricisidir:

Ol araya Vərqayi gətürdilər,
Ol ölü qoyını gömmişdi bular.
Dedilər, Gülşahin iştə sini bu,
Bunun içində yatur ol mahru (2, s. 155).

Y.Məddah sufi dünyagörüşünə sahib bir sənətkar idi. "Əsərdə sufi təriqət ədəbiyyatının təsirləri göz qabağındadır, qəhrəmanların ölümündən sonra dirilməsi, qəbirdən qalxıb həyatlarını davam etdirmələri möcüzə təsiri bağışlayır və sufi dünyagörüşünün təsiri və nüfuzunun nəticəsidir". Y.Məddah poemada təsəvvüfi düşüncələrini müxtəlif yollarla oxuculara təqdim edir. Bu mənada onun Möhsün şah obrazı kamil insan mərhələsinə yüksələn bir surətdir. Ədib Gülşahın ata və anasının xarakterlərini Möhsün şah obrazı ilə sanki qarşılaşdırır. Möhsün şahın Gülşaha olan münasibəti onun doğma valideynlərinin münasibəti ilə müqayisə oluna bilməz. Mənəvi safliq mərtəbəsinə yüksələn Möhsün şah, Hilal və onun həyat yolaşından fərqli olaraq, eşqin mahiyyətini anlayır, sevənlərin qovuşması naminə bütün məsələlərin çözülməsinə çalışır və sonda arzusuna nail olur. Dünyasını dəyişən aşiq və məşuqəyə yenidən həyat verilməsində onun xidməti əvəzsizdir. Kamillik zirvəsinə qovuşan Möhsün şah taxt-tacdan əl çəkir, onu Vərqaya verir, özü ibadətlə məşğul olur. O, nəfsindən arınan, mənəvi təkamül yolu tutan bir mürşiddir. Vərqa və Gülşah faciəsinin səbəbkarı isə qınaq və lənət obyekti olan Gülşahın valideynləridir. Hümam kimi ata obrazları isə həmişə alqışlanan insanlar olaraq yad ediləcəkdir.

Bilindiyi kimi, bədii ədəbiyyatın məqsəd və məramı insanların tərbiyə etməkdir. Y.Məddahın yeddi əsr bundan əvvəl qələmə aldığı Gülşahın valideynlərinin oxşarları olan insanlar, təəssüflər olsun ki, müasir həyatımızda var və bu, danılmaz bir həqiqətdir. Y.Məddahın "Vərqa və Gülşah" poeması və bu məzmunlu dəyərli əsərlərin geniş təbliği, öyrənilməsi müasir ədəbiyyatşünaslığın vacib məsələlərindən biridir. Çünki bu əsərlər cəmiyyətdə insanların dünyagörüşünün formalaşmasına, mənəvi paklığına və yüksəlişinə xidmət edən qiymətli mənbələrdir.

İstifadə olunmuş ədəbiyyat

1. Azərbaycan ədəbiyyat tarixi: 6 cilddə, III cild, Bakı, 2009
2. Yusif Məddah. Vərqa və Gülşah. Bakı, 1988
3. Mirzəyev A. Azərbaycan epik şeirinin təşəkkül dövrü. Bakı, 2016
4. Səfərli Ə., Yusifli X. Azərbaycan ədəbiyyatı tarixi. Bakı, 2008
5. Vəliyev M. Y.Məddahın "Vərqa və Gülşah" poemasında Möhsün şah obrazı haqqında // "Dil və ədəbiyyat" beynəlxalq elmi –nəzəri jurnalı, № 3 (111), Bakı, 2019

Açar sözlər: Y.Məddah, Vərqa və Gülşah, anadilli ədəbiyyat, epik şeir, epizodik obrazlar, təsəvvüf, bədii mətn, süjet

Ключевые слова: Ю.Мадда, Варга и Гульшах, литература на родном языке, эпическая поэма, эпизодические образы, суфизм, художественный текст, сюжет

Key words: Y.Maddah, Varga and Gulshah, native language literature, epic poem, episodic images, Sufism, literary text, topic

Y.Məddahın "Vərqa Gülşah" poemasında valideyn obrazları haqqında Xülasə

Məqalədə XIII-XIV əsrlər Azərbaycan epik şeirinin təşəkkülündə xüsusi yeri olan Y.Məddahın yaradıcılığına daxil olan "Vərqa və Gülşah" poemasında epizodik obrazlardan olan valideyn surətləri ilk dəfə ətraflı təhlilə cəlb edilir. Ədəbiyyatşünaslığımızda epizodik surətlərin araşdırılmasına xüsusi əhəmiyyət verilmir. Buna görə də həmin obrazların rolu ideya-məzmun keyfiyyətlərinin müəyyənləməsində tam aşkarlanmır. Bu baxımdan poemada epizodik obraz olan Hümam, Hilal və Gülşahın anası surətlərinin əsas xüsusiyyətləri vurğulanır, onların əsərdə süjetin inkişafında yeri müəyyənləşdirilir,hər bir obrazın fərdi keyfiyyətləri açıqlanır, digər obrazlarla müqayisəsi aparılır. Təhlil zamanı cəmiyyəti düşündürən ailə münasibətlərinin formalaşması və ailə modeli problemi ilə bağlı əsərin tərbiyyəvi əhəmiyyəti vurğulanır. Araşdırmada mövzu ilə bağlı elmi ədəbiyyatlara və adıkeçən poemaya istinad olunur.

Краткое изложение родительских образов в поэме Ю.Мадда «Варга Гульшах»
Резюме

В статье впервые показаны родительские образы из эпизодических образов в поэме «Варга и Гюльшах», включенной в произведение Й. Маддаха, которому принадлежит особое место в становлении Азербайджанской эпической поэзии XIII-XIV веков, участвуют в детальном анализе. В нашем литературоведении изучение эпизодических копий не имеет особого значения. Поэтому роль этих образов в определении качеств идеи-содержания раскрыта не полностью. С этой точки зрения в поэме подчеркнуты основные характеристики эпизодических персонажей Хумам, Хилал и матери Гульшаха, определено их место в развитии сюжета, выявлены индивидуальные качества каждого персонажа, проведено сравнение с другими персонажами. В ходе анализа подчеркивается воспитательное значение работы по формированию семейных отношений и проблема модели семьи, которая заставляет общество думать. Исследование обращается к научной литературе по теме и упомянутому стихотворению.

About parental characters in Y. Maddah's poem "Varga Gulshah"
Summary

In the article, for the first time, parental images from episodic images in the poem "Varga and Gulshah" included in the work of Y.Maddah, which has a special place in the formation of Azerbaijani epic poetry of the XIII-XIV centuries, are involved in a detailed analysis. In our literary studies, the study of episodic copies is not particularly important. Therefore, the role of these images in determining the qualities of idea-content is not fully revealed. From this point of view, the poem emphasizes the main characteristics of the episodic characters Humam, Hilal and Gulshah's mother, their place in the development of the topic is determined, the individual qualities of each character are revealed, and comparison with other characters is made. During the analysis, the educational importance of the work regarding the formation of family relations and the problem of the family model, which makes the society think, is emphasized. The research refers to the scientific literature on the topic and the aforementioned poem.

RƏYÇİ: dos. S.Abbasova

Nurşərəf Tağıyeva[104]

AZƏRBAYCANDA YENİ MEDİA FORMATLARININ YARANMASI

Yeni medianın Azərbaycanda yaranmasını və formalaşmasını zəruri edən amillərdən, eləcə də dünya mediasında müşahidə olunan trendlərin Azərbaycan internet mediasında tətbiq olunmasından bəhs edəcəyik. İlk növbədə onu vurğulamaq lazımdır ki, Azərbaycanda qeyd etdiyimiz bu proseslərin baş verməsi müstəqillik illəri ilə bağlıdır. Ümumiyyətlə, yeni medianın yaranmasının ilk əlamətləri dünya üzrə XX əsrin sonlarında müşahidə olunmağa başlamışdır. Belə bir dövrdə, yəni XX əsrin sonlarında Azərbaycan siyasi baxımdan gərgin bir dövrdən keçir, ölkə olaraq çətin illər yaşayırdı. Həmin gərginliklərin və mübarizənin nəticəsi olaraq müstəqillik əldə edən ölkəmizdə bir çox sahələrdə olduğu kimi mediada dakəskin dəyişikliklər görünməyə başladı. Belə ki, uzun illərdir nəzarət və senzura altında fəaliyyət göstərən, üstəlik, sadəcə dövlətə aid olan müəyyən çərçivədən kənara çıxa bilməyən media qurumlarının sırasına kommersiya qurumları da qoşulmağa başladı. Həmin illərdə ilk növbədə mətbuatda, daha sonra isə televiziya və radioda özəl qurumlar görülməyə başladı. Ölkənin müstəqillik əldə etməsi nəticəsində beynəlxalq əlaqələrini genişləndirməsi və dünya arenasına çıxması mümkün oldu ki, bununla da Azərbaycan beynəlxalq informasiya mübadiləsi prosesində də iştirak etməyə başladı.

XX əsrin sonları Azərbaycan mediası üçün sadəcə kömmersiya qurumlarının yaranması ilə deyil, həm də internetdən və kompüter texnologiyalarından ilk dəfə mediada istifadə olunması ilə xarakterikdir. Müstəqillik illərində fəaliyyət göstərən ilk özəl qəzetlərdən olan Ayna-Zerkalo Azərbaycanın internetdə yayımlanan ilk qəzetləri kimi də tarixə düşür. "Bu qəzetlər, həm də Qərb qəzetçilik praktikasının ilk dəfə dərindən mənimsəmiş, mənəvi meyarlara da ciddi riayət edən media orqanları kimi də tanınırlar" [2]. Bunlar Azərbaycanda yeni medianın yaranması və formalaşaması üçün ilk addımlar idi desək, yanılmarıq. Müstəqilliyimizin növbəti illərində digər media orqanları da tədricən bu texnologiyalardan istifadə edərək, həm zaman, həm də auditoriya qazanmaq üçün öz fəaliyyətlərini yeni şərtlərə uyğunlaşdırmağa çalışırdılar.

Qəzetlərlə yanaşı həmin illərdə Azərbaycanda bir neçə televiziya və radio kanalları da fəaliyyətə başladı. Onların əksəriyyəti özəl qurumlar idi. Özəl teleradio qurumlarının yaranması bu sahədə bir çox yeniliklərə və irəliləyişlərə səbəb oldu. Çünki uzun illərdir sadəcə dövlət televiziya və radiosundan ibarət olan Azərbaycan teleradio məkanı senzuranın nəzarətindən keçərək fəaliyyət göstərməklə yanaşı, həm də bir sıra vacib məqamlardan da uzaq qalırdı. Özəl qurumların yaranması ilə bu sferada rəqabət, reklam kimi anlayışlar gündəmə gəldi. Hansı ki, bunlar media menecmentinin əsası olub həmin istiqamətdə trendlərin başlanğıcı hesab oluna bilər. Qeyd etdiyimiz proseslər nəticəsində yaranan rəqabət nəticəsində media qurumları bir-birini üstələmək üçün müxtəlif metodlardan istifadə etməyə başlamışdılar. Həmin dövrdə isə üstünlük qazanmağın ən yaxşı üsulu internetdən istifadə idi. Artıq ölkə ərazisində bir sıra fəaliyyət sahələrinə daxil olub təsir edən internet, media üzərində də öz sözünü deməyə başlamışdı. Amma həmin dövrdə bu təsir media qurumlarının işini asanlaşdırmağa xidmət edirdi, bugünki səviyyədə onları qabaqlamırdı. Müasir dövrdə Azərbaycanda kifayət qədər özəl media qurumları həm ənənəvi, həm də yeni formatda fəaliyyət göstərir. Azərbaycanda ənənəvi medianın yaranması və formalaşması tarixi daha uzun illərə dayanır və bu sahədə araşdırmalar həmin yaranma və formalaşma prosesləri haqqında təsəvvür yaradır. Yeni medianın formalaşması, ümumilikdə, yeni media özü son illərin məhsulu olduğu üçün ətraflı və sistemli araşdırma mövcud deyil. Amma onu qeyd edə bilərik ki, Azərbaycan XX əsrin sonunda müstəqlillik əldə etdikdən sonra, tədricən internet mediaya təsir göstərməyə başladıqca yeni medianın formalaşması istiqamətində ilk addımlar atılmış oldu. Bütün bu proseslərin nəticəsində ölkədə yeni media formalaşmış oldu. Bu gün hər bir Azərbaycan vətəndaşının internet əldə etmək və istifadə etmək hüququ var. Eyni zamanda internet istifadəçilərinin böyük əksəriyyəti həm də, sosial şəbəkə istifadəçiləridir. Bu isə ölkədəyeni media formatlarının hamısının tətbiq olunmasına şərait yaradır. Qeyd etdiyimiz vətəndaş jurnalistikası, bloqçuluq, konvergensiya, "backpack" jurnalistikası Azərbaycan mediası üçün də aktualdır. Sadəcə olaraq, bu sahədə müəyyən problemlər özünü göstərir.

Müasir dövrdə yeni media ənənəvi media üzərində ciddi üstünlüyə sahibdir. Burada üstünlük dedikdə nə nəzərdə tutulur? Yeni medianın ənənəvi media üzərində üstünlüyü bir neçə məqamda özünü göstərir:

1. Operativlik
2. Sərhədsizlik
3. İnteraktivlik
4. Auditoriyanın genişliyi
5. Konvergenlik, eyni anda bir neçə formatın birgə istifadəsi.

Operativlik yeni medianın əsas üstünlüyüdür desək, yanılmarıq. Artıq informasiya prosesləri, yəni informasiya almaq, onu emal etmək, saxlamaq, ötürmək kimi proseslər cəmi bir neçə saniyə ərzində baş verir.

İkinci xüsusiyyət olan sərhədsizlik isə informasiyanın sərhəd tanımadan dünyanın istənilən nöqtəsindən istənilən nöqtəsinə çatdırılmasını nəzərdə tutur.

İnteraktivlik də internetin yeni media üçün yaratdığı üstün cəhətlərdən biridir. İnteraktivlik dedikdə auditoriyanın yayımlanmış materiala reaksiyası, öz fikirlərini, rəylərini və iradlarını paylaşması, dərhal qarşılıqlı şəkildə münasibət bildirməsi nəzərdə tutulur. Doğrudur, ənənəvi mediada, xüsusilə də, televiziya və radioda telefon zəngləri və ya mesajlar ilə interaktivlik yaratmaq mümkün olsa da, bu bir qədər qarşılıqlı ünsiyyətin daha passiv formasıdır və məhduddur. Yeni media isə eyni anda auditoriyanın bütün üzvlərinə rəy bildirmək imkanı verir.

[104] **Bakı Dövlət Universiteti.nurseref.yahyazade@gmail.com**

Auditoriyanın genişliyi. Bu bir reallıqdır ki, yeni media istifadəçilirinin sayı ənnəvi mediaya üz tutanlardan dəfələrlə çoxdur, yəni yeni media daha güniş audditoriyaya nüfuz edir. Bu isə həm də sərhədsizlik xüsusiyyətinin nəticəsi kimi ortaya çıxır.

Konvergenlik xüsusiyyəti isə yeni medianın əsas silahıdır deyə bilərik. Bu cəhət imkan verir ki, bir xəbər mətni paylaşarkən ona eni zamanda həm foto, həm video, həm də audio formatda əlavələr etmək mümkün olsun. Yəni multimedialı xəbər, ümumilikdə mulimedialılıq burada əsas üstünlük kimi çıxış edir.

Bununla yanaşı, bu xüsusiyyətlər bəzi məqamlarda yeni medianın zəif cəhətlərinə çevrilə bilər. Məsələn, qeyd olunan xüsusiyyətlər yeni media mühitində sərhədsiz informasiya istehsalına səbəb olursa, bu informasiya bolluğu özü ilə müxtəlif problemlər gətirir. Bu problemlərdən birincisi dezinformasiyanın çoxalmasıdır. İkincisi, auditoriya üçün etibarlı və inamlı mənbə tapmaq çətinləşir. Üçüncüsü, internetdə qısa müddətli belə olsa, hər hansı texniki nasazlıq media qurumunu rəqabət mühitində geri apara bilər.

Yeni media haqqında ümumi məlumat və Azərbaycanda onun formalaşması haqqında bəhs etdikdən sonra müasir dövrdə Azərbaycan internet mediasını nəzərdən keçirə bilərik. Hazırda Azərbaycanda kifayət qədər veb-saytlara, onlayn televiziya və radiolara, qəzetlərə, ənənəvi media qurumlarının onlayn versiyalarına, eləcə də yüksək dərəcədə sosial şəbəkə istifadəsinə rast gələ bilərik. Bu gün yeni media bütün xüsusiyyətlərini ölkəmizdə də göstərməkdədir. Yeni media formatlarına aid olan konvergensiya, bloqçuluq, vətəndaş jurnalistikası, backpack jurnalistikası da internet mediada özünü göstərən, eləcə də tədricən araşdırmaya cəlb olunan mövzulardır.

Müasir Azərbaycanda internet mediasının müəyyən çatışmazlıqları özünü göstərməkdədir. Bu çatızmazlıqlardan ən böyüyü, ümumilikdə cəmiyyətin bir hissəsində media savadlılığının olmaması ildə bağlıdır. Belə ki, informasiya bolluğu mühitində yeni media auditoriyasından həm diqqətliolmağı, həm də media savadlılığı tələb edir. Ümüumiyyətlə, savadlılıq dedikdə, oxumaq və yazmaq qabiliyyətinin olması nəzərdə tutulur. Media savadlılığının mahiyyəti isə auditoriyanın verilən mesajları düzgün başa düşməsi ilə izah oluna bilər. Təbii olaraq, bu gün yeni media istifadəçilərinin hamısı bu bacarıqlara sahib deyil. Digər problem isəinternetin gətirdiyi ümumi problem olan informasiya bolluğudur. Azərbaycan internet istifadəçisinin çətinlik çəkdiyi və tez-tez yanıldığı məqamlardan biri də bu informasiya bolluğunda etibarlı mənbələri digərlərindən ayıra bilməkdir.

Yeni medianın xüsusiyyətləri sadəcə auditoriya üçün deyil, bəzən media nümayəndələri üçün də problemlər yarada bilir. Qeyd etdiyimiz kimi, internetin gətirdiyi sürətlilik, əlçatanlıq kimi xüsusiyyətlər media qurumları arasında rəqabəti artırır, əsasən də, operativlik uğrunda mübarizə gedir desək, yanılmarıq. Amma təəssüf ki, operativliyi təmin edərkən, həmişə dəqiqlik və düzgünlük prinsiplərini qorumaq olmur. Bəzən bu prinsiplər operativliyə görə unudulur.

Göründüyü kimi, yeni medianın üstün cəhətləri bəzən onun əleyhinə də çevrilə bilər. Bu baş verməsin deyə, media nümayəndələri yeni medianın xüsusiyyətlərini və tələblərini bilməlidir.

İstifadə olunmuş ədəbiyyat:

1. Alper Altunay. Geleneksel medyadan yeni medyaya: görüntü yüzeyi. Selçuk Universitetsi Sosyal bilimler enstitüsü dergisi 27/2012.
2. Aşırlı Akif. Azərbaycan mətbuat tarixi. 1920-1990. Bakı, Elm və təhsil, 2010. 225 s.
3. Bəşirli Aynur, Cavadova Xanım, İzzətli Səbinə. Yeni media jurnalistikası. Avropa Şurası, 2017 68 s.
4. Gündüz Osman. İnternet. Azərbaycan İnternet Resursları. Bakı, Multimedia mərkəzi, 2004. 200 s.
5. Gündüz Osman. Jurnalistlər üçün informasiya texnologiyaları. Bakı, Multimedia informasiya və texnologiyaları mərkəzi. Bakı, 2009. 101 s.
6. Mynewdesk. Journalism trends 2016. A look into the world of journalism and the implications for communicators.
7. https://dictionary.cambridge.org

Xülasə

İnternetin yaranması və müxtəlif sahələrə inteqrasiyası digər sahələrdə olduğu kimi, medianın da inkişafına və yeni cəhətlərinin formalaşmasına gətirib çıxarmışdır. Media sahəsindəki bu təsirlər onun sürətlənməsində, əhatə dairəsinin genişlənməsində özünü daha çox büruzə verir. Bu dəyişikliklər və yeniliklər Azərbaycan mediasında da özünü göstərir. Belə ki, Azərbaycanın müstəqillik əldə etməsindən sonra özəl media qurumlarının yaranması, onların tədricən kompüter texnologiyalarından istifadəni genişləndirməsi yeni medianın formalaşmasında ilk addımlardandır. Bu məqalədə yeni medianın əsas xüsusiyyətləri, ənənəvi mediadan fərqlənən cəhətləri və Azırbaycanda yeni media formatlarının yaranmasından bəhs olunur. Yeni medianın formalaşması ilə mediada gedən yeni trendlər və bu trendlərin Azərbaycan internet mediasında əks olunması məqalənin əsas xəttini təşkil edir.

Açar sözlər: yeni media, format, trend, internet, auditoriya

Summary

The emergence of new media formats in Azerbaijan

The emergence of the Internet and its integration into various fields has led to the development and formation of new aspects of the media as well as in other fields. These effects in media field are more evident in its acceleration and expansion of coverage. These changes and innovations are also reflected in the Azerbaijani media. Thus, after the independence of Azerbaijan, the establishment of private media organizations and their gradual expansion of the use of computer technologies are among the first steps in the formation of new media.

This article discusses the main features of new media, their differences from traditional media, and the emergence of new media formats in Azerbaijan. The main idea of the article is the new trends in the media with the formation of the new media and the reflection of these trends in the Azerbaijani internet media.

Keywords: new media, format, trend, internet, audience

Резюме

Появление новых форматов медиа в Азербайджане

Появление Интернета и его интеграция в различные сферы привели к развитию и формированию новых аспектов медиа, а также в других сферах. Эти эффекты в сфере медиа в большей степени проявляются в ее ускорении и расширении охвата. Эти изменения и новшества находят отражение и в азербайджанских СМИ. Таким образом, после обретения Азербайджаном независимости создание частных медиа-организаций и постепенное расширение ими использования компьютерных технологий являются одними из первых шагов в формировании новых медиа.

В данной статье рассматриваются основные черты новых медиа, их отличия от традиционных медиа, а также появление новых форматов медиа в Азербайджане. Основная линия статьи - новые тенденции в СМИ с формированием новых медиа и отражением этих тенденций в азербайджанских интернет-СМИ.

Ключевые слова: новые медиа, формат, тренд, интернет, аудитория.

RƏYÇİ: dos. L.Ələkbərova

Şelemanova Aynur Astan qızı[105]

ÜMUMİLƏŞDİRİCİ DƏRSLƏRİN YENİ MƏZMUNUNA DAİR

Çağdaş Azərbaycan təhsilində kurikulum yeni metodologiyadır. Ona pedaqoji dildə tədris proqramı, təlim planı və təhsil ilə bağlı olan bütün sənədlərin cəmi deyilir. 14-cü ildir ki, məktəb təhsili onun əsasında fəaliyyət göstərir. 2008-ci ilə qədər bütün fənnlərin dövlət kurikulumu yaradıldı həmin kurikulum da fənn kurikulumlarını doğurmuş oldu. Fənn kurikulumu da dərsliklərin, metodik vəsaitlərin, şagird üçün işçi dəftərlərinin və tədris resurslarının kompleksini verdiyi ideya istiqamətini müəyyən etdi. Bu da ənənəvi təhsildən öz ideya məzmunu və strukturu cəhətdən xeyli fərqli səciyyə daşıdı. Kurikulum təhsili üçün başlıca əsas olan və ya kriteriya sayılan səciyyəvi cəhət interaktivlikdir. İnteraktivlik yeni təlim metodları ilə qurulan fəal təlim prossesini innovasiya kimi nümayiş etdirdi. Belə təlim metodları ilə qurulan təlim prossesi, şagirdlərin fəallığı, dərsliklərin və vəsaitlərin, habelə resursların fəallıq yaratma imkanları ilə bir yerdə yeni təhsil sistemini doğurmuş oldu. Bir sözlə, Azərbaycan dili təliminin də fəlsəfəsi interaktivlik oldu. Digər fənlərdə olduğu kimi, Azərbaycan dili fənni də 2008-ci ildən interaktiv kurikulum tələblərinə uyğun fəaliyyət göstərməyə başladı. Qərbdən xüsusən də Boloniya prossesindən əxz edilən və milliləşdirilən yeni bir metodoloiya ilə işləyən müasir sistemin məzmunu, standartları, təlim məqsədi və təlim nəticələrinin hər biri sistem daxilində alt sistemlər yaranması demək idi.

Dərsliklərin mətn didaktikası yeni sistemdə geniş yer tutmağa başladı. I-XI siniflərdə Azərbaycan dili dərslikləri mətn didaktikası əsasında quruldu və 4 məzmun xəttinin başlanğıc və çıxış nöqtəsi oldu. Dərsliklərin bu didaktika ilə qurulması dinləyib-anlama və danışma, oxu-yazı və dil qaydaları ilə inteqrativ təhsil sayıldı. Bu şəbəkədə təkrar dərslərin yeri də müəyyənləşdi. Bütün bunlar tədqiqatlarla təhlil olunmalı və üstünlükləri sınaqlardan keçirilməli idi.

Verilən biliyin təkrarı ilə möhkəmləndirilməsi, dərinləşdirilməsi ümumiləşdirilərək sistemə salınması ənənəvi təlimdə vardı. Ancaq hazırda həmin məsələ yeni məzmunda və ideya istiqamətində dərk olunmalıdır. Belə ki, yeni didkatika olaraq ümumiləşdirici dərslər müasir təlimin 4 məzmun xətti üzrə qurulması ilə səciyyəvi şəkil alır. Ənənəvi təlimdə isə ümumiləşdirici dərslər yalnız linqvistik qaydaların ümumiləşdirməsini nəzərdə tuturdu. Yeni Azərbaycan dili dərsliklərində olduğu kimi tədqiqat mövzumuzla əlaqədar olan V-VII siniflərdə də təkrar dərslər fərqli məzmunda verilməsi, fərqli təlim nəticələrinin alınmasına səbəb olmuş və ümumilikdə kurikulum tələblərini lazımı səviyyədə ödəyə bilməmiş, bu səbəbdən də təkrar dərslər üzrə təlimin məzmununu müşahidələr əsasında tədqiqatlar aparmağı zəruri etmişdir. İlkin araşdırmalarımız göstərmişdir ki, təkrar dərslərin məzmunu V sinifdə yalnız dil qaydalarına, VI-VII siniflərdə isə dinləyib-anlama və danışma, oxu və yazı məzmun xətlərinə dair tapşırıqlar əsasında tərtib olunmuşdur ki, burada da prinsipial nöqsan fərqli yanaşmalarla əlaqədardır. Eyni zamanda 4 məzmun xəttinin standartları əsasında aparılan təkrar məqsədli çalışmaların və ya tapşırıqların icra şərtləri, 4 məzmun xəttinin əsasında bərabər qaydalarda bölünməmişdir. Digər cəhətdən təkrar dərs tapşırıqlarının bəzi icra şərtləri yaradıcı təkrar, bəzilərinin isə cari təkrarı xatırlatdığı müəyyən edilmişdir. Qabağcıl fənn müəllimlərinin fikirlərini öyrənərkən məlum olmuşdur ki, dərsliklərdə məsələnin qoyuluşu nəzəri cəhətdən nöqsansız deyil. Belə ki, dərsliklərin hər bir bölməsindən sonra verilən təkrar materialları ümumiləşdirici təkrar məntiqinə uyğun qurulmamışdır.Məktəb təcrübəsini araşdırarkən o da təsdiq edilmişdir ki, ümumiləşdirici təkrarı bir anlayış kimi müəllimlərin dərk etməsi üçün metodik vəsaitlərdə lazım ola biləcək informasiya yoxdur. V-VII siniflər üzrə Azərbaycan dili dərslik tərtibçilərinin eyni didaktlardan olmalarına baxmayaraq, yeni sistemi dərslik tərtibində məntiqi cəhətdən düzgün dərk etməmiş ardıcıllığı pozmuş, nəticədə pərakəndə yanaşmalara yol vermişlər. Ona görə də biz öz tədqiqatımızla ilk növbədə ümumiləşdirməni fəlsəfi və pedaqoji aspektlərdən təhlil etməli, habelə ümumiləşdirici təkrarı, təlimi, ümumiləşdirici bilik, bacarıq və vərdiş anlayışlarına konkretlik gətirməli olduq. Müəyyən etdik ki, ümumiləşdirici təkrarın yeni didaktikası 4 məzmun xətti üzrə verilən bilik-bacarıq və vərdişlərin rabitəli nitqə çevirilməsi kimi dərk olunmalıdır. Bölmələrarası qurulan belə təlim prossesi bir çox şərtləri də özündə əks etdirməlidir. Bunlar da aşağıdakılardan ibarətdir :

1) Təkrarın, keçilən, tamamlanan mövzulardan sonra qurulması və çalışmaların bu məqsədlə bilik-bacarıq və vərdişləri əhatə etməklə tamamlanması ümumiləşdirici nəticələr sayılsa da onlara əhatəedici nəticələr kimi qiymət vermək olar. Bizim fikrimizcə, verilən bilik-bacarıq və vərdişlərin nəticələrini imla, ifadə, inşa , esse və s. tətbiqi məsələlərlə sübuta yetirmək həm yaradıcı və həm də ümumiləşdirici nəticələrdir.

2) Çalışma şərtlərinin mütləq ədəbi-tələffüz vərdişlərini ümumiləşdirməsi şifahi nitq üçün başlanğıc və son nöqtə olmalıdır.

3) Rabitəli nitqi son meyar kimi götürsək, o cümlədən inşanı pedaqoji fəaliyyətdə zirvə hesab etsək, bizə pedaqoji ümumiləşmə də didaktik cəhətdən səmərə verə bilər.

Tədqiqatda qurulan sistem şagirdlərin bilik-bacarıq və vərdişlərlə silahlandırılması üçün optimal əmsal sayıldığı kimi, onlarda nitq və təfəkkür fəallığının da inkişafa səbəb olmasını hesabatlar, məruzələr, təqdimatlar və s. zəruri vərdişlər aşılamalıdır. Bildiyimiz kimi, dərslikdəki əsas mətnlər əslində şagird üçün ifadə mətninin məzmunu üzərində aparılan işləri xatırladır. Həmin mətnləri və ya ifadələri inşalara çevirmək yaxud da inşa mövzularının istiqamətini esselərə döndərmək əsl ümumiləşdirmə bacarıqlarıdır ki, bunları da həm fəlsəfi və həm də pedaqoji anlamda qəbul etmək lazımdır. Linqvistik inşaların özü də dil qaydalarına dair həm şifahi həm də yazılı ümumiləşdirmələrdir.

Ümumiləşdirici dərslərin yeni sistemi kimi yaradılan təklif etdiyimiz didaktika, elmilik, sistemativlik, əyanilik, nəticəyönümlük cəhətlərdən və ya aspektlərdən məqsədə uyğun olduğu kimi tərbiyəedicilik və inkişafetdiricilik prinsiplərinə də tam cavab verir, eyni zamanda biz bütün bunları rabitəli nitqin inkişafına daxil olan şifahi və yazılı formalarda əsas

[105] **Bakı Slavyan Universitetinin dissertantı** aynurselemanova@gmail.com mob. əlaqə: 077-302-25-59

götürülən üstünlüklərlə də sübuta yetirməyə çalışdıq. Bütün nəzəri müddəalarımızı, fərziyyələrimizi, ideyalarımızı eksperimentlərlə yoxlayıb sübuta yetirərkən gözlənilən nəticələrin son nəticələrə aparan optimallığında hesablamış olduq. Odur ki, dil təlimi üçün ümumiləşdirici təkrar və ya təkrar dərslərin yeni modelinin, yeni sisteminin qurulması istiqamətində aşağıdakı təkliflərlə çıxış etməli olduq.

1. Nəticə hissədə deyilənləri birinci növbədə Azərbaycan dili fənni üzrə dərslik və müəllim üçün metodik vəsait tərtibçilərinə ünvanlayırıq. 1) Bölmələrdən sonraki təkrar dərslər ümumiləşdirici təkrar dərsləri, rüblərin sonunda qurulan təkrar dərslər, rüblük təkrar dərslər və ilin sonundakı təkrar dərslər yekun ümumiləşdirici təkrar dərslər adlanmalıdır.
2. Ümumiləşdirici təkrar dərslərin nəticələri əsasən çox mühim problem məsələ olduğu üçün və hazırda aktuallıq kəsb etdiyinə görə ədəbi-tələffüz vərdişlərinin səviyəsi ilə ölçülməlidir.
3. Ümumiləşdirici təkrarlar yaradıcı xarakter daşımalı və rabitəli nitq vərdişləri ilə tamamlanmalıdır.
4. Ümumiləşdirici təkrar dərslər bütün məzmun xətlərini əhatə etməlidir.
5. Ümumiləşdirici təkrar dərslər summativ qiymətləndirilmələrlə tamamlanmalıdır.
6. Tədqiqatın nəticələri konfranslarda müəllimlər qarşısında məruzə olunmalı, habelə məqalə və tezislər şəklində öz tətbiqini tapmalıdır. Bu mənada seminar müşavirələr və elmi praktik konfranslar təşkil olunmasına ehtiyyac var.

Ədəbiyyat :

1. Azərbaycan dili. V sinif üçün dərslik . Bakı : "Altun kitab", 2012, 200 səh.
2. Azərbaycan dili. V sinif. Müəllim üçün metodik vəsait, "Altun kitab" , Bakı, 2012, 200 səh.
3. Azərbaycan dili. VI sinif üçün dərslik. Bakı: "Altun kitab", 2015, 192 səh.
4. Azərbaycan dili . VI sinif. Müəllim üçün metodik vəsait. Bakı: "Altun kitab", 2013, 176 səh.
5. Azərbaycan dili . VII sinif üçün dərslik. Bakı : "Altun kitab", 2014, 176 səh.
6. Azərbaycan dili . VII sinif. Müəllim üçün metodik vəsait. Bakı: : "Altun kitab", 2014, 200 səh.

Açar sözlər : təkrar, öyrədici təkrar, yaradıcı təkrar, ümumiləşdirici təkrar, təkrar dərslərin strukturu, ənənəvi təlim, müasir təlim, yeni məzmun, yeni sistem .

Ключевые слова: повторение, учебное повторение, творческое повторение, обобщающее повторение, структура повторных занятий, традиционное обучение, современное обучение, новое содержание, новая система.

Key words: repetition, educational repetition, creative repetition, summarizing repetition, structure of repeated lessons, traditional training, modern training, new content, new system.

Xülasə

Müasir təlim öz interaktiv texnologiyaları və metodlarına görə xarakterizə olunur. Ümumiləşdirici təkrar dərslərində məzmunu inteqrativ qurulmaqla fəallaşdırıcı metodlar vasitəsi ilə öyrədilir. Ənənəvi təlimdə də belə dərslər olmuşdur. Həmin dərslərdə ümumiləşdirmələr yalnız dil qaydalarını əhatə edərdi. Çünki digər məzmun xətləri, məsələn, rabitəli nitqin inkişafı, lüğət üzrə işlər və s. dil qaydalarının kölgəsində qalardı. Müasir Azərbaycan dili təlimində isə dil qaydaları, yəni fonetika, leksika söz yaradıcılığı, qrammatika və s. nitq praktikasının vahidləri olan oxu, dinləyib-anlama, şifahi və yazılı nitqdən sonraki təlim lakomativi hesab olunur. Belə olduqda ümumiləşdirici təkrar dərslərinin tapşırıqları da bu ardıcıllıqda qurulmalı olur. V sinif Azərbaycan dili dərsliyində və müəllim üçün metodik vəsaitdə isə təkrar tapşırıqları ənənəvi təlimdə olduğu kimi dil qaydalarına aid edilmişdir. (Bax:1;2)

VI-VII siniflərdə isə : (Bax:3;4) təkrar tapşırıqları bütün məzmun xətlərini əhatə etmişdir. Bununla belə, burada da oxu və danışmaq xətlərinə az yer verilmişdir. Ona görə də belə hallar ümumiləşdirici dərslərin yeni sistemini qurmaq işini əngəlləmiş olur. Məqalədə bu kimi məsələlərdən danışılır.

Summary

Modern training is characterized by its interactive technologies and methods. İn generalizing repetition lessons, the content is taught by means of active metods with an integrative structure. There were also such lessons in traditional education. İn those lessons, generalizations would only cover language rules. Because other content lines, for example, the development of communicative speech. vocabulary works ect.would remain in theshadowof the language rule. In the modern teaching of the Azerbaijani language, the language is organized, that is, phonetics, lexis, word creation. grammar etc. speech practice with units of reading, listening comprehension, oral and written speech is consideredto be a training course. İn this case, the tasks of generalizing repetition lessons should be arranged in this order. İn the 5th grade Azerbaijani language textbook and in the methodical materials for the teacher, repeated tasks are related to the language rules, as in traditional training.(See: 1, 2) And in classes: (See: 3,4) the repeated assignment covered all content lines. However, here too, little space is given to reading and speaking lines. Therefore, such cases hinder the work of building a new system of general lessons. Let's talk about such issues in the article.

Резюме

Современное обучение характеризуется интерактивными технологиями и методами. На уроках обобщающего повторения содержание преподается с помощью активных методов с интегративной структурой. Были такие уроки и в традиционном образовании. На этих уроках обобщения касались только языковых правил. Потому что другие содержательные направления, например, развитие коммуникативной речи.словарный запас и т. д. останется в тени

языкового правила. В современном преподавании азербайджанского языка организуется язык, то есть фонетика, лексика, словотворчество.грамматика и др. Учебным курсом считается речевая практика с единицами чтения, восприятия на слух, устной и письменной речи. В этом случае задания обобщающих уроков повторения следует располагать в таком порядке. В учебнике азербайджанского языка для 5 класса и в методических материалах для учителя повторные задания связаны с языковыми правилами, как и при традиционном обучении. (См.: 1, 2)
А в классах: (См.: 3,4) повторное задание охватывало все строки содержания. Однако и здесь мало места отводится чтению и говорению. Поэтому за такими случаями скрывается работа по построению новой системы общих уроков. О таких вопросах поговорим в статье.

RƏYÇİ: dos. S.Abbasova

Məhəmməd Vəliyev[106]

MÜASİR AZƏRBAYCAN DİLİNDƏ «DAYAQ SÖZ+ *İDİ, İMİŞ, İSƏ VƏ İKƏN*» KOMPONENTLI ANALITIK FEİLLƏR

Azərbaycan dili daha çox öz daxili qanunları əsasında inkişaf etmiş və etməkdədir. Bu inkişafi söz formalarının zaman-zaman dəyişkənliyi, mürəkkəbləşməsi, analitik keyfiyyət qazanması, köhnələrək sıradan çıxması və «yerində sayması», sintetikliyə meyil etməsi faktları da göstərir.

Dilçilikdə sözün forması və onun aspektləri mürəkkəb və çoxcəhətli problemlərdəndir. Həmin formalardan biri də feil formalarıdır. Sözün forma nəzəriyyəsində struktur tiplərdən biri də *«dayaq söz+ köməkçi söz»* sıralı modeldir. Bu sıra başqa türk dillərində olduğu kimi, Azərbaycan dilində də derivasiya prosesinin nəticəsi kimi meydana çıxmışdır.

Bəllidir ki, feil mühüm bir nitq hissəsi kimi hal və hərəkət, habelə gerçəkliyin hal və hərəkət kimi baxılan hər bir hadisə və prosesini ifadə etmək gücünə malikdir. Feilin təzahür etdirdiyi bütün cəhətlərdə real hadisələrə münasibət inikas olunur və bu münasibət dil sisteminin müxtəlif formalarında, o cümlədən analitik formalarında gerçəkləşir.

Qeyd edək ki, nitq hissələri sistemində feilin yeri və mövqeyi bir sıra amllərlə səciyyələnir: Bu amillərdən biri də onun analitk formalarıdır. Analitik üsulla yaranan həmin formalar dil sistemində forma və sözlərin sərhədlərinin təyin olunmasında mühüm rola malikdir. Müasir Azərbaycan dilində forma və sözlərin sərhədlərinin müəyyənləşdirilməsi başlıca problemlərdən biri olduğu üçün həmin strukturun daha dərindən öyrənilməsinin elmi-nəzəri əhəmiyyəti ölçülməzdr. Həmin məsələnin struktur-qrammatik xüsusiyyətlərinin tədqiqi qarşıda duran problemlərdən biridir. Sözügedən formaların izomorf və allomorf əlamətlərinin aşkar olunması vacib məsələlərdəndir.

Analitik formalar felin mürəkkəb formalarının bir tipidir. Mürəkkəb feil formalarının əmələ gəlməsi prosesinin özü də mürəkkəbdir. Həmin mürəkkəblik sözyaradıcılığı potensiyası ilə, birinci dayaq komponentlə bağlıdır, bütün yerdə qalan əlamətlər həmin vasitələrlə üzə çıxır. Tədqiqatçıların göstərdiyi kimi bu tip feillər az öyrənilmişdir [1; 4]. Çünki bu quruluş qarışıq dil hadisəsidir, onların əmələgəlmə mexanizmi qarışıqdır [2, 23]

Analitik formalar feil sistemində universal linqvistik fenomen kimi özünü göstərir. Biz bu yazıda analitik feillərin *idi, imiş, ikən* və *isə* yarımçıq feillərinin iştirakı ilə yaranan formalarından bəhs edəcəyik. Tarixi qrammatika tədqiqatçılarının fikincə, *idi, imiş "etmək", "olmaq"* mənasını verən «*er*» sözü ilə bağlıdır. Müasir ədəbi dilimizdəki *idi, imiş, ikən, isə* hissəcikləri də "irmək" (çatmaq, qovuşmaq) feilinin ekvivaleni kimi tədqiq edilmişdir: Belə bir inkişaf formulu müəyyənləşdirilmişdir: *erdi//irdi=idi (di)* [3; 39, 4; 136, 5; 160, 6; 280]

Həmin forma analitik konstruksiyanın tərkibində kateqorial mənasına görə indiki-gələcək zamanı bildirir.

Belə analitik konstruksiyaların sıfır formaları formal cəhətdən nitq rejimi üçün xarakterikdir, şəkilçili formalar isə navrrativ (nəqli) rejimə xas olan əlamətlərdəndir. Həmin konstruksiyalar nitq rejimində hərəkətin aktual vasitələrini, narrativ rejimdə isə aktuallıq mənasını kəsb edir. Beləliklə, tədqiqat göstərir ki, analitizm demək olar ki, bütün nitq hissələri sahəsində özünü büruzə verir. Ancaq feillərin analitizmi, daha doğrusu, feilin qrammatik kateqoriyalarının analitik ifadə üsulu daha çox müşahidə olunmaqdadır, belə ki, felin zaman, forma və s. kateqoriyalarının **idi, imiş, isə, ikən** hissəcikləri (köməkçi sözləri) ilə yaranaraq rəngarəng məna yükünü daşıyan analitik vahidlər yarada bilirlər. Həmin hissəciklər sözügedən formanın tərkibində modifikator rolununda çıxış edir.

Başqa səmtdə birləşmənin ikinci hisssisini təşkil edən yardlımçı feillər izah edilmişdir. Q.Kazımov indiyə qədərki izahla (*ikən*in izahı ilə) haqlı olaraq razılaşmır. - *kən şəkilçisinin daha düzgün izahına ehtiyac var.* ***İkən*** *sözü* ***er (mək)*** *feilindən əmələ gəlsə də, artıq feillik xüsusiyyətini itirmişdir. Qeyd etdiyimiz feli bağlama şəkilçilərinin ikinci komponenti sabitdir -* ***ikən*** *köməkçi sözünün ixtisar şəklindən ibarətdir. Birinci komponenti isə dəyişkəndir, zaman mənasına görə fərqlənən feili sifət şəkilçilərindən ibarətdir: -mış+-kən, -ur+-kən, -ar+-kən* [*7; 123*]

İdi, imiş, isə, ikən köməkçi feillərinin analitik formalar olub-olmaması bəzi tədqiqatlarda mübahisə doğurmuşdur. Bu mübahisəyə son qoymaq üçün belə bir müddəa əsas sayılmışdır ki, dil elementlərinin (o cımlədən, *idi, imiş, isə hissəcikli*) analitik forma sayılmasından ötrü birləşmənin qrammatik məna təzahür etdirməsi, birləşmənin içindəki bir dayaq mənaya malik sözün (əsasən) və bir məna artıq ola bilər) köməkçi sözün olması şərt hesab edilməlidir [8, 9]

Belə birləşmələr sırf analitizmə verilən izaha uyğun olaraq əsas mənalı sözlə qeyd edilən sözlərin qrammatik mənasının dəqiqləşməsinə xidmət göstərən köməkçi söz vasitəsi ilə yaranan vahidlərdir. Odur ki, əslinə qalanda bu cür birləşmələr daha çox analitik feillər kimi öyrənilməlidir.

Bilavasitə bu mövzuya ayrıca məqalə həsr etmiş Azərbaycan türkoloqu F.Zeynalov yazır ki, "*Qədim abidələrdə (oğuz-səlcuq) analitik yolla yaranan feillərin böyük bir qismi* ***idi, imiş, ikən*** *və* ***isə*** *yarımçıq feillərinin rəngarəng feil formalarına əlavə olunması ilə ortaya çıxır. Əslində xalis analitik feillər elə bu yolla yaranan feillər hesab edilməlidir*". [11, s.7]

Feilin əsil analitik formaları haqqında və digər alimlər də müəyyən fikirlər söyləmişlər.

Belə çıxır ki, biz felin analitik formalarını (I) əsil və I (epizodik) olmaqla qruplaşdırmalıyıq. Əsil analitik formalar biz bu yazıda haqqında danışdığımız vahidlərdir. Ona görə də bu formalardan geniş bəhs etmək lazım gəlir.

[106] **Gəncə Dövlət Universiteti. Muhammedveliyev@mail.ru**

«Bəzən feilin bu tip analitik formaları ilə mürəkkəb feillər qarışdırılır, amma bunlar iki müxtəlif dil hadisələridir, birincisi qrammatik, ikinci isə sözyaradıcılığı vahididir. Feilin analitik formaları qrammatik hadisədir, mürəkkəb feillər isə nitq prosesində leksik vahid kimi fəaliyyət göstərir, türk dillərinin lüğət tərkibində funksionallaşır» [12; 153]

Analitik formalar feilin qrammatik kateqoriyalarının ifadə vasitələrindən biri kimi özünü göstərir. Feilin zaman, tərz, növ, arzu və şərt, şəxs və kəmiyyət kateqoriyaları məhz həmin analitik formalarla da ifadə olunur.

Biz öncə bu formaları «Kitabi-Dədə Qorqud»un mətnlərində izlədik: *Qazana **düşmən imişsən**, bildim!-dedi (KDQ); Bizim eldə **gərək idin**, ağac! (KDQ); Sağ yanında Qazan oğlı Uruz **turmış idi** (KDQ); Ol zəmanda bəglərin alqışı alqış, qarğışı **qarğış idi** (KDQ); On altı yıldır ki, Oğuz içindən **getmiş idik** (KDQ); Pasnik qara Dərvənd ağzına **düş vermiş idik** (KDQ); Dəlü Qarçar dəxi ağ ban evini, ağ otağını qara yerin üzərinə **qurdırmış idi** (KDQ); Zira Dədə Qorqud vilayət **issi idi** (KDQ); Məgər Beyrək buna bir kömlək **bağışlamış idi; geyməz idi**, saqlardı (KDQ); Beyrəgi Qara Dərvənddə **öldümüş idilər** (KDQ)*

Bizə elə gəlir ki, analitik ənənəni müasir Azərbaycan dilində haqqında bəhs etdiyimiz formalar da davam etdirir. Bu mövzuda tarixi perspektivlər özünü müasir dövrdə də doğruldur. Belə ki, tarixən gücləndirici xüsusiyyət müasir formalarda da ehtiva olunur. Analitik cəhətlər (köməkçi sözlərdən istifadə) qabarıq görünür. Tarixi inkişaf prosesində analitizm dərəcə etibarilə türk dillərində güclənir. Müşahidələr göstərir ki, Qıpcaq qrupu türk dilləri ilə müqayisədə ***idi, imiş, isə*** köməkçi feilləri vasitəsi ilə əmələ gələn analitik formalar ən çox oğuz qrupu dilləri üçün işlək duruma çevrilmişdir: *olur imiş, geyir imiş.* Bu formantlı analitik konstruksiyalar həm klassik ədəbiyyatda, həm də müasir dövr ədəbiyyatında ən çox icrası şərtlə əlaqədar müəyyən iş, hərəkət barədə informasiya ötürür. Bu formalarda keçmiş zaman daha qabarıq görünür. Məsələn, *Şəha kirpiklərindən anladım bən, Ki xunidə **olur imiş** uzarı (Q.Bürhanəddin); Vəsli qısa, hicri yoğun **olur imiş** bu dünyada, Məşuqənin bulunacak saçı uzun, beli incə (Q.Bürhanəddin)*

-ar,-maz+imiş formantı ilə: *Bu qapıya uğradı yolum bənim, Qapıcı **bilməz imiş** dilim bənim (Ş.Həmzə); Gizləyimdir idi eşq raznin, Göz yaşı yüz sarısı **qammaz imiş** (Q.Bürhanəddin)*

Qazi Bürhanəddinin «Divan»ında feilin məsdər forması ***imiş*** hissəciyi vasitəsilə yananan analitik konstruksiyalara seyrək hallarda olsa da təsadüf olunur: *Can **oynamaq imiş** yenə həm canı bu dərdimn//Dərd **istəmək imiş** yenə dərmanı bu dərdin.*

Belələrini *xüsusi-iltisaqi analitik formalar* da adlandırmaq olar.

Azərbaycan dilində feilin analitik strukturunu təşkil edən vahidin birinci tərəfi quruluş etibarilə fərqlidir. Dayaq söz qrammatik baxımdan, yəni morfoloji göstəricilərə görə fərqlənir.

Təkrar olsa da, qeyd edək ki, müasir Azərbaycan dilinin feil sistemində analitik feillər dayaq sözlə ***idi, imiş*** hissəciklərinin birləşməsindən də yaranır, struktur-semantik bütövlüyünü qoruyub saxlayır.

-mış+ idi formalı analitik feillər: *Bu ağır faciədən sonra onun həyatı sanki iki yerə **bölünmüş idi**.*

-acaq+idi formalı analitik feillər: *Vaxtında **gələcək idi.***

-ar (-a və –r)+idi formalı analitik feillər. Bu formanın semantik strukturunu E.İ.Korkina 4 əsas mənaya ayırır: 1) hərəkətin icrası konkret zaman çərçivəsində məhdudlaşmır, davamedici və ya öz təbiətinə uyğun reallaşır; 2) –ar forması "əvvələr başlamış və hal-hazırda, danışıq aktı anında davam edən" hərəkət mənasını ifadə edir. 3) danışıq aktın anından sonrakı hərəkətin icrasını ifadə edir; 4) keçmişdə davam edib bitmiş hərəkətin ifadəsi.

Müasir Azərbaycan dilinin morfoloji strukturunda ***–malı+idi*** analitik formalarının xüsusi yeri vardır. Məsələn, *İndiyə kimi **gəlməli idi.***

Müasir Azərbaycan dilində sözügedən analitik formalar üstün qrammatik mənaları ifadə edir. Yəni ümumi qrammatik məna konstruksiya daxilində üstünlük təşkil edir. M.Hüseynzadə yazır ki, mürəkkəblik təkcə şəkilcə deyil, məzmunca da müəyyən fərqlərə malikdir. Həm forma, həm də məzmun (keçmiş zaman məzmunu) fərqi yalnız ***idi, imiş*** *ədatları* vasitəsilə meydana çıxır. [14, s.194]

Tədqiqat göstərir ki, feilin növ, zaman və şəkil kateqoriyaları sözügedən analitik formalarla təzahür edir: *Biz əşyaları götürmüş olacağıq. Bu həftənin sonuna ərzaq məhsulları kəndlərə çatdırılmış olacaq. Bu ağır faciədən sonra onun həyatı sanki iki yerə **bölünmüş idi**.*

Ş ə r t - a r z u şəkilli analitik formalar türk dillərində *-sa,-sə* şəkilçisinin feil əsasına artırılması + feilin keçmiş zamanı ol(maq) - idi quruluşunda da müşahidə edilir: *olsa idi - olsaydı-bilsə idi-bilsəydi, görsə idi-görsəydi.*

Növ kateqoriyası və onun analitik formalarla ifadəsi

Q.Kazımov yazır ki, təbii ki, iş, hal, hərəkət obyekt ilə və həmin işi, hərəkəti icra edən subyekt ilə bağlı olur. İşin icraçısı - subyekt bəzən fəal, bəzən qeyri-fəal olur; bəzən işi müəyyən bir obyekt üzərində, bəzən də öz üzərində icra edir; bəzən iş bir neçə subyekt tərəfindən icra olunur. Bu cür hallarda subyektlər işi ya qarşılıqlı şəkildə icra edirlər, yaxud da iş bilavasitə subyektin özü tərəfindən deyil, onun xahişi, məsləhəti, göstərişi, tapşırığı ilə başqası tərəfindən yerinə yetirilir. Bütün bunlar xüsusi şəkilçilər vasitəsilə feillərdə öz ifadəsini tapır, bir sistem təşkil edir və birlikdə feilin növ kateqoriyasının yaranmasına səbəb olur» [16; 211]

Məchu növdə: *... ağacın budağı kəsilib **qırılmış idi**. Məhsul yığılıb dövlətə **təhvil verilmiş idi**.*

Qayıdış növdə: *Duman dağlardan **çəkilmiş imiş**.*

İcbar növdə: *Anam payız yununu **daratdırmış idi***

Feilin şəkil kateqoriyası və onun analitik formalarla ifadəsi. Feillərin ümumiliyini və orijinallığını sübuta yetirən kateqoriyalaran biri də onun şəkilləridir. Feil şəkilləri subyektin hərəkətin icra olunub-olunmamasına müxtəlif münasibətini əks etdirir və məntiqi modallığın qrammatik ifadə vasitələrindən biri kimi özünü göstərir.

Qeyd edək ki, müasir Azərbaycan dilində feilin əmr şəkli analitik yolla düzələ bilmir, çünki həmin quruluş ***idi, imiş*** zaman ədatları ilə işlənmir.

Xəbər şəklinin analitik formalarla ifadəsi**:** Bu şəkil zaman morfoloji göstəriciləri ilə yaranır. Xəbər şəklində hər hansı bir işin müəyyən şəxs tərəfindən müəyyən zamanda icra edilib-edilməməsi ifadə olunur.

*Xəbər şəklinin analitik keçmiş zamanı -mış+idi***:** Bu formantın məzmunu belədir: Təsvir yolu ilə artıq çoxdan olub keçmiiş iş, hal və hərəkət haqqında (mütləq zaman) informasiyanı əks etdirir: *Müəllim dünən **gəlmiş imiş**. Müəllim dünən **gələr idi**. Müəllim dünən **gələcək idi**.*

F.Zeynalov yazır ki, «Abidələrdə müasir dilimiz üçün məqbul hesab olunmayan, məzmun etibarilə daha çox *–m ı ş + i d i* formasına uyğun gələn iki forma özünü göstərir. Onların biri keçmiş zamanın şühudi keçmiş forması ilə i d i yarımçıq feilinin birləşməsi vasitəsilə yaranan analitik feillərdir (-dı//idi). Müəllif fikrini əsaslandıraraq aşağıdakı örnəkləri verir: S*onuncu qardaşlarını buldud//Müşəbbəgin ol geri **yıxdı idi** (Ş.Həmzə); Yusifin ol vaxtı ki, öldü anası, **Aldı idi** gör ki, yatı atası? (Ş.Həmzə); Ol yerdə ki, Yəqub Nəbi **gəldi idi**//Yusifi ol arada **buldu idi** (Ş.Həmzə) və s.* [11, s.9]

F.Zeynalov onu da qeyd edir ki, bu tip analitik feil formasına oğuz qrupu türk dillərinin ancaq ikisində - qaqauz və türk dillərində indi də rast gəlmək olur: *alıydıydı, qeldiydim, etdiydim, seslediydim.* [11]

Bu kimi modellər zamanla bağlıdır. Hadisə və proseslə müəyyən zamanla əlaqələnir. Xəbər şəklinin mürəkkəbi feilin analitik formaları ilə adekvatlıq təşkil edir. Yəni bu mürəkkəb forma elə analitik formalardır. *Məhkəmdə dindirləndə Alı **susmuş imiş** (Ə.Vəliyev); Müharibədən gec **qayıtmış imiş** (İ.Hüseynov); Çox haqlı olaraq dədəm düşmənlərindən qisas **almış idi** (İ.Hüseynov)*

L a z ı m şəklinin analitik formalarla ifadəsi. Feilin lazım şəklində hərəkətinin icrasının lazımlılığı ifadə edilir. *–ası, -əsi* bu şəklin morfoloji göstəricisidir. Lazım şəklinin analitik quruluşu ***idi, imiş, isə*** ədatlarının köməyilə düzəlir: *Nazını çəkəsi idi/nazını çəkəsi idin/nazını çəkəsi idi…* Şühudi və nəqli keçmiş zaman məzmunu bu formalar üçün səciyyəvi haldır.

A r z u şəklinin analitik formalarla ifadəsi. *–a,- ə* forması arzu olunan işi deyil, icrası əmr olunan iş və ya hərəkəti, şərt, hər hansı bir hərəkətin icrasının səbəbini, məqsədini bildirir. Arzu, gərəklilik məzmunu bu şəkil üçün xarakterikdir. *–a,- ə* morfoloji göstəricisi ilə bu forma yaranır. Quruluş modeli: *feil kökü-şəkli əlamət-imiş-şəxs sonluğu*: *Hədiyyəni **saxlaya imiş**. Biz məktubu **yaza imişik**.* Feillər *idi, imiş* ədatları ilə birgə işləndikdə və feildən öncə *gərək, barı, təki, nola* ədatları da artırıldıqda arzu və təəssüf mənası daha da qüvvətlənir: *Mən gərək qala idim/gərək qala idin/gərək qala idi/gərək qala idik/gərək qala idiniz/gərək qala idilər. Nola bir yaxşı gün doğa imiş. Təki problem çözülə imiş.* Bu kimi analitik formalar mənaca dəyişkəndliyə məruz qalır və gələcək zamanı deyil, keçmiş zamanı ifadə edir.

V a c i b şəklinin analitik formalarla ifadəsi. Analitik formalar hərəkətin icrasının zəruriliyini bildirən feilin *vacib şəkli* ilə də ifadə olunur və belə bir formul yaranır: *feil kökü-malı-imiş-şəxs sonluğu. -malı,-məli+idi* quruluşu feilin analitik formalarının əmələgəlmə vasitələri kimi çıxış edir. Həmin formalardan biri feilin birinci tərəfinin vacib şəklində (-malı, -məli) ikinci tərəfinin isə *idi, imiş* zaman ədatlarından ibarət olmasıdır: *Bu gün gəlməli idim/gəlməli idin/gəlməli idi/gəlməli idiniz/gəlməli idilər. Ömrünü Div varisi Maranşahla çarpışmaya **həsr etməli ikən** indi özünü Maranşahsan, şah! (İ.Hüseynov). Lakin Nəsimi yoldan qaytmalı və bu vaxta qədər gördüyü müsibətlərdən də dəhşətli bir müsibətin şahidi **olmalı idi** (İ.Hüseynov) Biz kotançılar elə **işləməli idik** ki, payızda qırx birinci ildəkindən iki dəfə artıq taxıl səpib, həm hərbi fonda, həm də camaata taxıl çatdıra biləydir (İ.Hüseynov)*

Misaldan göründüyü kimi, analitik feilin birnici tərəfi işin icrasının vacib olduğunu bildirir. Q.Kazımov Azərbaycan dilində feilin vacib şəklini belə ümumiləşdirir: *Felin vacib şəkli modallığın mühüm ifadə vasitələrindən olub, feil kökü və ya əsasında –malı,-məli şəkilçisinin və şəxs şəkilçilərinin artırılması ilə düzəlir: Vacib şəkli=feil kökü və ya əsası+-malı,-məli+şəxs şəkilçisi. Məsələn,*

Ürək təmiz olmalıdır bulaqların suyu kimi,
Bəzisinin vicdanı isə qaralmışdır quyu kimi (S.Vurğun) [14, s.293]

Ş ə r t şəklinin analitik formalarla ifadəsi. Gələcəkdə görüləcək işin icrası müəyyən şərtlə bağlanır.

Bəllidir ki, feil zamanlarının mürəkkb *idi, imiş* zaman ədatlarının iştirakı ilə formalaşır. *İdi* zaman ədatı hekayə, *imiş* rəvayəti düzəldir. *İdi, imiş, isə, ikən* köməkçi sözləri tarixən ***irmək*** feilinə şühudi və nəqli keçmişin, şərt şəklinin əlamətinin *(-sa,-sə)* və *–kən* şəkilçisinin artırılması ilə düzəlmişdir. *İdi, imiş* öz funksiyası etibarilə yaxın olub *isə* və *ikən* köməkçi sözlərindən fərqlənir və dildə zaman anlayışına xidmət edir. *İdi, imiş* ədatları leksik mənadan tam məhrumdur. Xarakterini nəzərə alaraq biz də *idi, imiş* köməkçi sözlərini «zaman ədatı» adlandırmağı müvafiq bildik. [14, s.286]

–sa,- sə morfoloji göstəricisi bu şəkil üçün xarakterikdir. Formul belədir: feil kökü-şəkil əlaməti-idi-şəxs sonluğu: *Təklifi qəbul etsə idim/təklifi qəbul etsə idin...*

D a v a m şəklinin analitik formalarla ifadəsi**.** Bu şəklin məzmunu xəbər verildiyi zamanda işin hələ də davam edildiyi bildirilir. *–maqda, -məkdə* morfoloji göstəricisi ilə düzəli. Feilin davam şəkli xəbər verildiyi vaxtda işin davam etdiyini bildirir. Davam şəkli quruluşca mürəkkəb də olur. Deməli, həmin mürəkkəb forma analitik formadır. *-maqda, -məkdə + zaman ədadtı* formulu da analitik formalar üçün səciyyəvidir: *O, bizə gələndə mən yatmaqda imişəm/sən yazmaqda imişsən\o yazmaqda idi… Mən oxumaqda idim. Onlar işləməkdə idilər.* Gələcək zaman üçün: *-maqda, -məkdə + ol(maq)+gələcək zaman. Sən getməkdə olacaqsan*

Beləliklə, əsas sözün qrammatik semantikasının daha da dəqiqləşməsinə bəzən dildə ehtiyac yaranır. Bəhs etdiyimiz *idi, imiş, isə* məhz bu funksiyanı yerinə yetirir.

Feilin ş ə x s kateqoriyasının analitik formalarla ifadəsi**.** Feilin qrammatik sistemində şəxs kateqoriyası da mühüm yerlərdən birini tutur. Bu kateqoriya analitik üsulla da formalaşdırılır: *Mən başqa şəhərə köçüb* ***getməli idim****. Sən başqa şəhərə köçüb* ***getməli idin****. O başqa şəhərə köçüb* ***getməli idi****. Biz başqa şəhərə köçüb* ***getməli idik****. Siz başqa şəhərə köçüb* ***getməli idiniz****. Onlar başqa şəhərə köçüb* ***getməli idilər***. Digər türk dillərində də feilin şəxs kateqoriyasının analitik formalarla ifadəsi faktlarına rast gəlmək olur. Məs.: uyğur dilində: Ular başka şeherqə köçüp kəmkən edu; Mən bu kitapni ourimən və s.

Tərz kateqoriyası da morfoloji analitik vahidləri formalaşdırır. Məç.: *susub durmaq, uçub getmək, uzanıb getmək* və s. Bu formalarldan ayrıca bəhs edəcəyik.

Beləlikləri, bu deyilənləri aşağıdakı kimi ümumiləşdirə bilərik: Nitq hissələri sistemində feil xüsusi yer tutur. Feilin müəyyənləşdirdiyi başlıca amillərdən biri də analitik formalardır. Bu formalar kateqoriyal və semantik baxımdan türk dillərində, o cümlədən Azərbaycan dilində zəngindir. Feilin nitq hissələri içərisində əsas semantik göstəricisi onun prosesuallığıdır. Haqqında danışdığımız analitik formalar da bu mənanı ehtiva edir.

Müasir Azərbaycan dili çoxobrazlı, çoxcəhətli feilin növ, zaman, şəkil formaları ilə səciyyələnir. Məqalədə sözügedən formalar mühüm qrammatik göstəricilərdəndir. Bu göstəricilər futural semantikaya (qrammatik zamanı əks etdirən) malikdir. Beləliklə, əsas məna yaradan feil forması *idi, imiş, isə* hissəcikləri ilə birləşərək müasir Azərbaycan dilində imperfekitiv mənalı analitik konstruksiyalar yaradır. Bir çox aktual və konkret – prosesul mənalar (aktuallıq, intensivlik, gücləndiricilik, komitativlik, iterativlik, uzuallıq, xüsusiləşmə, imperativlik və s.) ifadə olunur.

Haqqında danışılan feili formalar (analitik) müasir Azərbaycan dilində hərəkət və prosesin semantik ifadə vasitəsi kimi özünü göstərir. Bu vasitələrlə zaman (temporal) mənası və münasibətləri gerçəkləşir. Bunlar feili sifət, feili bağlama və köməkçi feil struktunda reallaşır.

Beləliklə, tərkibində *imiş, idi, ikən* hissəciklərinin yer aldığı analitik formalar öz semanikası ilə gerçəkləşir, dəyişməz qalır, yeni məna formalaşdırmır, feillər onlara birləşir. *İdi* (gəlir idi), *imiş* (yaşayacaq imiş) morfoloji yolla ifadə olunan analitik formalardandır. Göründüyü kimi, zaman kateqoriyası analitik konstruksiyaların bu tipinə aiddir.

Yəqinliklə demək olar ki, *-malı +idi* quruluşlu analitik feillər intensivlik (gücləndirici) keyfiyyətlərə malikdir.

Bu formalar nitqdə narrativ (nəqli) feillər kimi bədii əsərlərdə müəllifin mövqeyini nümayiş etdirir və nitq rejimdə funksionallaşır. Nəqli rejimdə zaman lokalaşır.

Təhlil göstərir ki, Azərbaycan dilinin qrammatik quruluşunun tarixində mövcud olmuş feilin analitik formaların bu qrupu da zaman keçdikcə dilin indiki səviyyəsində də öz yerini müəyyən dərəcədə sintetik formalara (müqayisə üçün: *minər idi-minərdi, gizlədərlər idi-gizlədərdi, qaçmış imiş-qaçmışmış, qalsa idi-qalsaydı* və s.) vermiş və sonuncu meyil güclənmişdir.

İstifadə edilmiş ədəbiyyat

1.Касымова Б. Сложные глаголы в современном казакском языке. Автореф. Дис. …канд. Филол. наук. Алма-Ата, 1992
2.Шамина Л.А. Аналитические грамматические формы в констукции в функции сказуемого в тувинском языке. Новосибирск, «Любава», 2010.
3. Cavadova M. Şah İsmayıl Xətainin leksikası. Bakı, 1977
4.Mirzəzadə H. Azərbaycan dilinin tarimxi qrammatikası. Bakı, 1990
5.Seyidov Y. Seçilmiş əsərləri. III cild, Bakı, 2007
6.Əzizxan Tanrıverdi. Azərbaycan dilinin tarixi qrammatikası. Bakı, «Elm və təhsil», 2010
7. Kazımov Qəzənfər. Azərbaycan dilinin tarixi sintaksisi. Bakı, «Elm», 2019 608 s.
8. Смирницкий А.И. Аналитические формы. _ «Вопросы языкознания», 1956, № 2
9. Гухман М.М. Глагольные аналитические конструкции как особый тип сочетаний частичного или полного слова._ «Вопросы грамматического строя». М., 1955
10. Аналитические конструкции в языках различных типов. М., 1965
11. Zeynalov F.R. Türk dillərində analitik yolla yaranan feil formaları (Oğuz-səlcuq abidələri üzrə)._Müqayisəli-tarixi türkologiyanın aktual problemləri. Bakı, 1984, s.3-19
12. Kazımov İ. Türk dillərinin müqayisəli morfologiyası. Bakı, «Elm», 2019
13. Коркина Е.И. Наклонения глагола в якутском языке. М., Наука, 1970
14. Hüseynzadə M. Müasir Azərbaycan dili. Morfologiya, III hissə, Bakı, «Maarif», 1983 458 s.
15. Kazımov Q.Ş. Müasir Azərbaycan dili. Morfologiya, Bakı, «Elm və təhsil», 2014

Açar sözlər: *analitik formalar, dayaq söz, idi, imiş, isə, ikən hissəcikləri, sintetik formalar, yarımçıq feillər*
Ключевые слова*: аналитические формы, основные слове, частицы «*иди», «имшш», «исэ» и «икен», *синтетичесике формы, неполные глаголы*
Key words: *analyitic forms, baisi word, paricles "idi", "imish", "ise", "ikhen" incomplete verbs*

Xülasə

MÜASIR AZƏRBAYCAN DİİLİNDƏ «DAYAQ SÖZ + İDİ, İMİŞ, İSƏ VƏ İKƏN» KOMPONENTLİ ANALİTİK FEİLLƏR

Feilin analitik formaları iki sözün (dayaq söz+köməkçi söz) birləşməsindən formalaşır. Məqalədə bu cür feillərin sonuncu komponenti olan *idi, imiş, isə* və *ikən* formaların dayaq sözlə birləşmə təşkil etməsi öyrənilir. Bu hissəciklər analitizm mövqeyində funksionallaşır, analitik feillərin bir tipi kimi çıxış edir. Belə analitik feillərin birinci komkonetli

zaman, növ, şəkil kateqoriyalarının leksik-semantik məna yükünü daşıyır «dayaq söz» adlandırılır. Köməkçi feil məzmununda çıxış edən feillər xalis köməkçi xarakterli semantika hesabına öz mənalarını irərərək məzmunlarını dəyişir.

Feilin mövcud kateqoriyalarının idi, imiş, isə, ikən yardımçı sözlərlə -analitik formalarla ifadəsi uzun və mürəkkəb bir təkamül prosesinin məhsuludur. Müasir dildə də bu formalar özünün tarixi məna zənginliyindən hələ də tam aza dola bilməişdir. Sintetikliyə meyil bu fikri təsdiqləyə bilər.

Summary

ANALYTICAL VERBS WITH "BASIS WORD + IDI, IMISH, ISE AND IKEN" COMPONENT IN MODERN AZERBAIJANI LANGUAGE

The analytical forms of the verb are formed by the combination of two words (basis word + auxiliary word). İn the articl studied formation of the last component of such verbs “idi” (was), “‘imish”, “ise” and “ikhan” with baisi word. These particles become functional in the position of analytics and acts as a type of analytical verbs. The first component of such analytical verbs carries the lexical-semantic meaning of time, type and mould categories and calls “basis word”. Verbs, which acting in the auxiliary verb content, change their content by losing their meaning at the expense of purely auxiliary semantics.

The expression of existing categories of the verb with auxiliary words “idi”, “imish”, “ise”, “ikhan” - analytical forms is the product of a long and different evolutionary process. Even in the modern language, these forms have not yet completely freed from their historical meaning. A tendency towards syntheticsm can confirm this idea.

Резюме

АНАЛИТИЧЕСКИЕ ГЛАГОЛЫ С КОМПОНЕНТАМИ «ОСНАВНОЕ СЛОВЕ + ИДИ, ИМИШ, ИСЭ И ИКЕН» В СОВРЕМЕННОМ АЗЕРБАЙДЖАНСОМ ЯЗЫКЕ.

Аналитические формы глагола формируется сочетанием двух слов (основное слово + вспомогательное слово). В статье изучается соединение с основным словом и последним компонентов таких глаголов «иди», «имиш», «исэ», «икен». Эти частицы функционализируются в позиции аналитизм, выступая в качестве типа аналитических глаголов. Первый компонент таких аналитических глаголов несет лексико-семантическое содержене категории время, залога, вида, и называется «оснавное слово». Глаголы, выступающие в содержание вспомогательного глагола, изменяют свое содержание, теряя свое значение за счет чисто вспомогательной семантики.

Выражение существующих категорий глагола с вспомогательными словами «иди», «имиш», «исэ», «икен» - аналитическими формами является продуктом длительного и сложного эволюционного процесса. В современном языке эти формы еще не полностью освободились от своего исторического значения. Склонность к синтетизм может подтвердить эту мысль.

Rəyçi: əməkdar elm xadimi, filologiya elmləri doktoru, professor Qəzənfər Şirin oğlu Kazımov

İradə Rəhmanova[107]

"GÖZ MUNCUĞU" – XEYİRLƏ ŞƏRİN MÜBARİZƏSİ

Bütün yaradıcılığı boyu hər yeni nəsr əsəri ilə oxucuları düşünməyə sövq edən, onları narahat edən suallara cavab axtaran və təkcə məzmununa, təlqin etdiyi fikir və ideya anlamına görə deyil, həm də bədii-sənətkarlıq priyomlarına görə seçilən Anar nəsr əsəri ilə aləmə bir lərzə saldı.

Ədəbi hadisələr uzun quraqlıqdan sonra yağan yağmur kimi idi, bütün kütləsi ilə acıxmış düşüncələrə hopar. Xalq yazıçısı Anarın "Göz muncuğu" povesti də işığa çıxınca ədəbi mühiti canlandırması və son illərin ən həssas reaksiyalarına səbəb olması ilə öz statusunu təyin etdi. Oxuculara ideologiyanın və siyasətin üstündə duran, ilk yönü ilə sosial, digər yönləri ilə mistik və hər səviyyədə auditoriyanın diqqətini çəkən bir əsər təqdim olundu. Amma müəllifin hədəfi, sadəcə cazibə yaratmaq deyil. Bu əsərlə Anar həm də milli nəsrimizdə yeni istiqamət olan təcrübi-təhlili bir mətnə imza atdı.

"Göz muncuğu" povesti XXI yüzilin aydınının düşüncələr kompleksidir. Burada çağdaş insanın, ötən yüzilliklərin elmi, fəlsəfi, dini, ədəbi görüşlərini qavrayıb ümumiləşdirən həməsrimizin yaşantıları, günümüzün sosial gerçəkliklərinə baxış tərzi, maddi və mənəvi-əxlaqi dünyamızın itkilərinə münasibəti dolğun bədii əksini tapıb. Əsərdə belə bir izahla qarşılaşırıq: "Müəllif üçün vacib olan diri-diri yer altına gömülmüş insanın oyandığı zaman keçirdiyi halların təhlili və möcüzəli şəkildə sağ qalıb, "xortlayıb", qəbirdən çıxan "ölünün" onun kim tərəfindən qətlə yetirildiyini bilmək üçün axtarışlar aparmasıdır" [1, s. 33].

Əlbəttə, romanın qayəsini təkcə bu izahla məhdudlaşdırmaq olmaz. Çünki Anar bu "ölüb-dirilmə" motivindən Əhlimanın həyat tarixçəsinə bir yol açır. Bu yol uşaqlıq illərinin acılı xatirələrindən başlayır. Varlı qonşunun ərköyün oğlu Nəsib Əhlimanı təhqir etməkdən xüsusi zövq alır.

Yazıçı Əhlimanı Əhriman edən səbəbləri, eləcə də onun tənhalığının köklərini israrla axtarır. Haqlı olaraq bunu qəhrəmanın uşaqlıqda uğradığı haqsızlıqlara, gördüyü zülmə yozur. Dünya ədəbi təcrübəsində də məsələnin bu şəkildə çözümü ilə qarşılaşırıq. Fransız yazıçısı Jan Gevr "Xacə şah" romanında Qacar despotizminin səbəblərini onun uşaqkən gördüyü amansız işgəncələrlə, sonralar bütün həyatının kabusuna çevrilən şiddətli əzablarla izah edirdi.

Əhlimanın da vəziyyəti təxminən bu cürdür. Hələ səkkiz yaşında ikən yuxarı mərtəbədəki qonşunun, "hansı idarəninsə böyüyü" Qasımın oğlu, həmyaşıdı Nəsibdən olmazın zülümlər görmüşdü. Küləyin, sazağın "adamın iliyinə işlədiyi" soyuq vaxtda Nəsibin yuxarıdan əndərdiyi bir ləyən buz kimi suyun ağrısı, yenə də Nəsibin təkidi ilə maşınlarına minib Keşlədə hiylə ilə düşürdüləndə soyuq havada pay-piyada şəhərin o başından evə çatmağın sətəlcəm sızıltısı, daha sonra əyyaş atasının "yağlı qapazı", qırmancların "zolaq-zolaq göynərtisi"... daha neçə-neçə ağrı Əhlimanı dəyişir, onun içində Əhriman yetişir. Beləcə bir vaxtlar məktəbdə Nəsibin ona qoyduğu "Əhriman" ayaması reallığa çevrilir. Lakin buna baxmayaraq, yazıçı öz qəhrəmanının təbiətinə yeni çalarlar əlavə etmək, onun xislətini dəyişmək üçün müxtəlif situasiyalar yaradır. Əhlimanın konkret vəziyyətlərdə çevik, dinamik inkişafına zəmin hazırlayır. Bu cəhətdən povestin "Aydan", "Ay rəqsi" fəsillərinin üzərinə daha çox "yük" düşür. Ay adamı – yuxuda gəzən Aydan Əhlimanın həyatına Ay işığının cazibəsi ilə gəlir və onun monoton ömrünə rəng qatır. Aydanın "ipisti" gözəlliyi aparıcı qəhrəmanın həyata soyuq münasibətini birdən-birə dəyişir. Əhlimanın qəlbində indiyədək ünsiyyətdə olduğu heç bir qadına qarşı duymadığı hisslərin təlatümü baş verir: "İçim ən zərif qoxularla, ən incə musiqi nəvalarıyla, ən gözəl şeir misralarıyla həlim-həlim dolurdu". Qürub çağı üstü açıq maşında xəyali Mərdəan gəzintisi, küləyin saçlarını üzünə çırpdığı qızın cazibəsi, ürəyi "ən nəvazişli, ən isti sözlərlə dolu" qəhrəmanın sevgi həyəcanı bambaşqa bir Əhliman obrazından danışır. Lakin Əhliman həyatın təzadları arasında tərəddüddə qaldığı üçün Ay qızının gətirdiyi ani xoşbəxtlik onun bütün ömrünü, qəlbinin ən uzaq guşələrini işıqlandırmağa yetmir. Çünki onun yaşadığı dünyanın bir-birinə zidd reallıqları xoşbəxtlik qapılarını qəhrəmanın üzünə kip bağlayır. Çünki bu dünyada insanların bir qismi "yer üzündə özü kimi canlılara qənim kəsilmiş", "bir ovuc dən, toxum səpib bir torba yox, on torba, on xaral məhsul götürməkçün torpağı kimyəvi gübrələrlə zəhərləyən, çirkab axıntılarıyla dənizləri kirləyən, meşələri qıran, qazlarla, tüstüylə havanı korlayan doyumsuz acgöz"lərdir. Digər qismi də "əqidəsi yolunda edama gedən Nəsimidir. "Hacı Murad"ı yazan Tolstoydur, Mahatma Handidir, Alber Şvetserdir, Tereza anadır. Şagirdlərini ölüm yolunda yalqız buraxmayan, onların aqibətini paylaşan, onlarla birlikdə ölümü qəbul edən Yanuş Korçakdır", "dünyanın ən gözəl, ən incə qadınlarıdır, ən cəsur, ən güclü, ən iradəli kişiləridir, ən məsum uşaqlarıdır, ən müdrik qocalarıdır", "Füzulidir, Lİ Bodur, Rafaeldir, Motsartdır, Çexovdur". Əhliman belə bir qarışıq dünyanın sakinidir. Bu tərəflərdən daha düzgün olanını seçməkdə acizdir. Buna görə də qəhrəmanın iç dünyasındaı "müharibələr" ara vermir.

Əsərdə bəşər tarixinin ən qədim mübarizəsi – Xeyirlə Şərin güclü qarşıdurması ayrı-ayrı tərəflərin arasında yox, bir obrazın daxilində baş verir. Kim qalib gələcək? Okkultizm üzrə müdafiə etmək istəyən tədqiqatçı, dünya fəlsəfəsini, dini kitabları, ədəbi abidələri mükəmməl səviyyədə öyrənib mənimsəyən ziyalı Xeyir-Əhlimanmı, yoxsa içindəki sevgi hissləri "cücərməmiş" məhv olan, ata-anasına belə nifrət edən, qədim sirli xalının sahibini öldürmək üçün görəvləndirilmiş Şər-Əhrimanmı? Bunu müəyyənləşdirə biləcəyimiz son məqamda da yazıçı bizi hər iki personajla qarşılaşdırır. Bir qədər əvvəl toxunduğumuz nüans, finaldan sonra hiss etdiyimiz yüngüllük hissi bəlkə də elə bununla bağlıdır. Sonda yazıçının Hörmüzdün və ya Əhrimanın qələbəsini oxucunun ixtiyarına buraxması məsələni Xeyirin-Hörmüzdün xeyrinə həll etməyimizə imkan yaradır. Fyodor Dostoyevski realizmi ilə Qabriel Qarsia Markes magik realizminin sərhədləri bir-birindən nə qədər uzaqdırsa, realizmin hər iki çalarının "Göz muncuğu" povestindəki vəhdəti, harmoniyası bir o qədər gerçəkdir. Anar

[107] Bakı Dövlət Universitetinin müəllimi

da Dostoyevskisayağı, bədii məntiqin yekununu, finaldan hasil olan fkri hazır şəkildə oxucuya təqdim etmir, hadisələri analiz edib nəticə çıxarmağı, son qənaətə gəlməyi oxucu mühakiməsinin ixtiyarına buraxır. Bununla da qəhrəmanın son aqibətini, taleyinin yozumunu oxucuya həvalə etmiş olur. Yazıçı Somambulizm bəlasının gənc ömrünə son qoyduğu Ay qızı Aydanın cəsədinin yanında yerə sərilmiş cəsədin – eyvandan itələnib yıxılan adamın kimliyini, Əhriman və Hörmüzd olduğunu, eləcə də əsərin əvvəlində məzardan dirilib qayıdanın Xeyirmi, Şərmi olduğunu oxucu mühakiməsinə verir. Əslində, əsərin finalında son üç abzaslıq müəllif fikrini oxumadan da Anarın öz qəhrəmanının taleyini oxucuya etibar etdiyi bəllidir. Oxucu fəhmlə duyur, ya bələ də belə duymaq istəyir ki, qayıdan Hörmüzddür. Ən azı, Şərin yenidən dünyaya qayıdışını və təzə Əhrimanlar yetişdirməsini yazıçının istəməyəcəyi ümidi ilə bu inama köklənir. Aparıcı qəhrəmanın öz şəxsində iki paradoksal xarakteri – Hörmüzd və Əhrimanı birləşdirməsi qeyri-ixtiyari Lev Tolstoy yaradıcılığından yaxşı tanıdığımız ruhun dialektikasını yada salır. Əhliman obrazında ruhun ikiləşməsi hadisəsi o qədər ani baş verir ki, Hörmüzd və Əhrimanın çalın-çarpaz izləri, təzadlı aləmləri fikrimizdə dolaşıq düşür, bəzən az qala bu iki fərqli personaj arasındakı sərhədlər itir, onlar bir-birinə qarışır, əhvalatların hansında Əhlimanın, hansında Əhrimanın iştirak etdiyi sual altında qalır. Lakin oxucu bunu çətin çözsə də, bir həqiqəti aydın dərk edir ki, hər iki personaj bir insanın daxili-mənəvi aləminin, psixoloji yaşantılarının təmsilçisidir. Eyni insanın ruhunun fərqli yönlərə şaxələnməsi, ikiləşməsidir.

Əsərdə fərqli yazıçı üslubunun stixial elementləri göz önündədir. Tanış mövzuya – insan və həyat mücadiləsinə, ölüm həqiqətinə fərdi sənətkar münasibəti bəd nəzər sindromu, çoxəsrlik inanclar fonunda təzahür edir.

"Göz muncuğu"nda Markesin magik realizmində olduğu kimi sirli aləmdən qopub gələn mistik obrazlar, bədii ünsürlər, detallar var. Bəd nəzəri ilə məhv etmək bacarığına malik qəhrəman, naxışalrında dünyanın sonu haqqında məlumatın şifrələndiyi xalı, qeyb olmuş qaraj, həmin qarajda gizlədilmiş apparatura, badımcan rəngdə buludlar, isti yağış, axsaq külək... və s. sirlilik, müəmmalıq son dərəcə inandırıcıdır. Əsərin ümumi ruhuna, pafosuna o qədər uyğun gəlir ki, oxucuda heç bir şübhə, etiraz doğurmur, əksinə təbii və səmimi qəbul edilir.

Следует особо отметить глубоко гуманистическое содержание сентиментализма, снимавшего традиционные представления о социальном неравенстве**,** его критическое отношение ко всему официально-казённому и бездушному, провозглашение свободы личности. Именно в литературе сентиментализма все более возрастает личностное начало, всё больше и больше проявляется интерес к отдельному, частному, внутреннему миру человека. Само слово «сентиментализм» означает «чувствительность», но не ограничивается данным понятием. Сентименталисты, веруя в прогресс, пытаются выдвинуть в качестве преграды на пути растущего социального зла человеческое чувство – прежде всего чувство гуманизма и сострадания. Демократизм, гуманистический интерес к человеку, его переживаниям и сложному душевному миру – это наиболее привлекательные и важные черты сентиментализма. Литература сентиментализма глубоко демократична. В произведениях пробуждается интерес к маленькому человеку, сочувствие его несчастьям. Именно в сентиментализме впервые появилось понятие «маленький человек», получившее впоследствии свое продолжение в творчестве Ф.М.Достоевского и Ч.Диккенса. Подобных аналогов и параллелей можно привести очень много, и эти черты еще раз подтверждают, что сентиментализм не является миросозерцанием, оторванным от реальной жизни и ограничивающимся умилением семейными добродетелями. В литературе сентиментализма впервые внимание сосредоточивалось на простом человеке, которые были представлены как самостоятельные личности с собственными жизненными принципами. Эта особенность является главным достижением литературы сентиментализма.

СПИСОК ЛИТЕРАТУРЫ

1. Алексеев М.П. Русско-английские литературные связи (XVIII век - первая половина XIX века.) М.1982. – 863 с.
2. История всемирной литературы. В 9 томах. М.: Наука, 1988. Т.5. – 348 с.
3. Либан Н.И. Становление личности в русской литературе XVIII века // Либан Н.И. Лекции по истории русской литературы. М., 2005, с. 123-346.
4. Орлов П.А. Русский сентиментализм. М., 1977. 268 с.
5. Пирожкова Т. Н.М. Карамзин – издатель «Московского журнала» (1791-1792). М., 1978, 200 с.

О НЕКОТОРЫХ ОСОБЕННОСТЯХ РУССКОГО И АНГЛИЙСКОГО СЕНТИМЕНТАЛИЗМА

Xülasə

Məqalədə sentimentalizm ədəbi cərəyanının xüsusiyyətlərindən, həmin ədəbi cərəyanın yaranması, sonrakı müqədaratı və formalaşmasından bəhs edilir. Oxucuya həmdə rus və ingilis sentimentalizminin umumi əlamətləri, XVIII əsrdə Rusiyanın tarixi mövgeyi, ədəbi mühiti, onun ədəbi prosesə təsiri, Rusiyanın üzdə olan elm xadimlərinin sentimentalizmin inkişafında rolu göstərilir. Sentimentalizm ədəbi cərəyanına xas olan "kicik insan"a maraq, "kicik insan"ı bir şəxsiyyət kimi təqdim etmək, o insana bir şəxsiyyət kimi münasibət bəsləmək, hansı təbəqəyə aid olmasından asılı olmayaraq bərabərcəsinə münasibət göstərmək kimi xüsusiyyətlər sadalanır. Sentimentalizmdən sonra gələn ədəbi cərəyanların inkişafında rolu geyd olunur.

ABOUT SOME FEATURES OF RUSSIAN AND ENGLISH SENTIMENTALISM

SUMMARY

In the article the peculiarities of the literature of sentimentalism, the historical background that predetermined the engendering and formation of this literary trend is spoken about. The common features of Russian and English sentimentalism are listed and characterized, the specifics of the historical situation in Russia in XVIII century, its influence on the development of the literary process are also pointed out in article, as well as the role of progressive public figures in Russia in the development of sentimentalism is represented. The main features of the literature of sentimentalism, such as interest in the "no-one important man", the attitude and approach towards such character as to a person, the assertion of the equality of people, regardless of class affiliation are accented also. The role of sentimentalism in the development of subsequent literary trends is emphasized.

Рецензент: проф. Мамед Годжа оглы Годжаев

Vaqif Allahverdiyev[112]

BƏXTİYAR VAHABZADƏ YARADICILIĞINDA İNSAN VƏ ZAMAN PROBLEMİ

Bütün sənətkarların yaradıcılığı öz mündəricəsini dövrdən, əsrdən, zamandan alır. Elə sənətkarların böyüklüyü də bundadır ki, zamanı dərindən duyub anlayırlar, dövrün fəlsəfi mündəricəsini dərk edirlər, yaxşını pisdən, mütərəqqi düşüncəni qaraguruhdan ayıra bilirlər, həqiqəti və insanpərvərliyi dönmədən müdafiə edirlər.Bədii ədəbiyyatda onun ayrı-ayrı təmsilçilərinin simasında yaranır, formalaşır və daha da inkişaf edir.

Məlumdur ki, söz sənəti sənətkarın özünəməxsus, fərdi bədii yaradıcılığıdır. Məhz bu yaradıcılıqda onun dünyagörüşü, əsərlərinin ideya-bədii xüsusiyyətləri , bədiimaterialın təsvirində işlətdiyi təsvir və ifadə vasitələri sənətkarlıq cizgiləri, dil amilləri, yazı tərzi, dəst-xətti fərdi prizmadan oxucuya təqdim olunur. Bədii sənəti şərtləndirən yaradıcılıq fərdi xarakter daşıdığı üçün, bu fərdiliyin özündə hər şairin özünəməxsus söz aləmi, bədii obyektə yanaşma prinsipləri, zaman anlayışı , insan taleyi, obyektiv reallığa , cəmiyyətə münasibəti, dünyagörüşü, hiss həyəcan, duyğu və düşüncələri ehtiva olunur.Sadalanan fikirlər hər bir sənətkarın fərdi möhürüdür ki, yaratdığı əsərlərdə onun yazı manerası, ifadə tərzi, dəst-xətti həmin möhürlə təsdiqlənir, tanınır. Fikrimizi sübut üçün müasir Azərbaycan poeziyasının qüdrətli nümayəndəsi, xalq şairi B.Vahabzadənin yaradıcılığına diqqət edək.

B.Vahabzadənin yaradıcılığı bədii-fəlsəfi siqləti, poetik əlvanlığı, zamanla səsləşən mövzuların seçimi və yüksək poetik ovqatda işlənməsi, həmçinin böyük vətəndaşlıq keyfiyyətləri ilə əyaniləşir. Böyük şair lap gəncliyindən xalqın içtimai ideyalarına həyan duran və fikrinin şah damarını tutan sənətkarlardandır.İnsanın mənəvi həyatında baş verən dəyişmələr onun poeziyasında müəyyən zaman kəsiyində mərhələ-mərhələ öz bədii-fəlsəfi ifadəsini tapmışdır.

Poeziya oxucunun həyatına və düşüncəsinə təsir etmək istəyirsə, o insana yaxın olmalı, onun daxili aləmini, fikir və hissi aləmi ilə dərindən təmasda olmalıdır.Həyat, ölüm,məhəbbət, qısqanclıq, həqiqət, ehtirası, insanın doğumu, vəzifəsi, həmçinin insanın özünü təbiətdə dərk etməsi, ölümsüzlük anlamları poeziyanın əbədi və əzəli mövzuları sırasındadır.

B.Vahabzadənin zəngin düşüncə tərzi sərrast müşahidə dairəsi, özünəməxsus poetik təfəkkürü həmişə geniş vüsətli olmuşdur. Onun yaradıcılığı duyğu və düşüncələrinin, şəxsi həyəcanlarının, həmçinin həyatı, zamanı, dünyanı şairanə dərk etməkdən ibarətdir.

Poeziyanın meyarı, sənətkarın yetkinliyi, fəlsəfi və mənəvi müdrikliyidir, həmçinin şəxsiyyət bütövlüyü də bu keyfiyyətin önəmli cəhətlərindəndir. Zaman, dövr dəyişir, ömür ötür, ancaq əsl sənət dünyanı bizim üçün həmişəyaşar varlığa çevirir.

B.Vahabzadə yaradıcılığında insanı düşündüemək bacarığı, onun milli köklə, milli keçmişlə, yaddaşla bağlılığını poetik şəkildə tədqiqi üstünlük təşkil edir. Şairin poetik təfəkküründə, düşüncəsində yaranan, üzə çıxan hər bir tapıntı, əsasən milli vətənpərvərlik ruhunu kəsb edərək təqdim olunur.

Bu qəmim, bu dərdim dağlardan ağırdı,
Arazın suyuna qarışıb axıram.
Füzuli həsrətlə qürbətdən vətənə baxırdı,
Mən isə Vətəndən-Vətənə baxıram. (1-17)

Şairin şeirlərində zaman içində bir səyahət, bir ekskursiya var. O, hər bir mövzunu zamanla naxışlayır və bu poetik gözəlliyi bizim ruhumuza, beynimizə həkk edir. Öz yaradıcılıq dəst-xətti ilə seçilən Bəxtiyarın qələmə aldığı mövzuya yanaşma tərzi həmişə diqqətəlayiqdir. Belə ki, şair poetik düşüncənin fəlsəfi qatlarına enməyi bacarır, dəfələrlə müraciət olunmuş mövzuda yeni poetik fəlsəfi məqamları kəşf edir.

"Qocalar" şeirində bədii özünəməxsusluğun əlvan cəhətlərini görürük. Bu poetik nümunə sanki bir rəssamın çəkdiyi lövhəyə bənzəyir.Şair şeirdə söz fırçasıyla iki əlini əl ağacına, çənəsini də iki əlinin üstünə qoymuş və dərin düşüncələrə dalmış bir qocanı təsvir edir və poetiközünəməxsusluğun, sənətkarlıq məharətinin sübutu kimi bu bədii təsvirə zaman məfhumunu bir obraz kimi əlavə edir.

Poetik idrakının gücüylə xəyallara dalmış bir qocanın yaddaşından zamana yolaçır.

Bu şeiri bir sənət əsəri kimi dəyərləndirmək olar. Yəni burada təkcə poeziyanın deyil, incəsənətin digər komponentlərinin cizgilərini də görmək mümkündür.

Çomağın ucuna dikib gözünü,
Onlar saatlarla oturar belə.
Fikir bir gəmi ki, bilinmir sonu,
Çırpınır, çıxammır ancaq sahil.

Onlar düşündükcə dolar, boşalar,
Fikrin nə sonu var, nə də əvvəli.
Doqqazlar başında bizim qocalar,
Düşüncə heykəli, fikir heykəli.(1-200)

[112] **ADPU- Ağcabədi filialınındosenti**

B.Vahabzadənin poeziyasında zaman məfhumu onun milli içtimai və estetik idealı ilə sıx bağlıdır. Zamana dərin maraq , xalqın mənəvi dünyasına-keçmişinə , bu gününə həmçinin gələcəyinə olan sevginin təzahür formalarından biridir. Xalqın tarixi taleyi, mənəvi və əxlaqi həyat təcrübəsi, ruhunun genişliyi ilə bağlılığı cəhətdən zaman məfhumu Bəxtiyarı düşündürür, onun sənətkar narahatlığının bir ədəbi parçasına çevrilir.

Zaman keçdikcə şairin yaradıcılıq üfüqləri , şeirinin fikri-fəlsəfi əhatə dairəsi, içtimai mündəricəsi, janrı və forması genişlənir. Onun poeziyasında insan, təbiət və zamanla bağlı düşüncələr aşılanan ideyanın mühüm tərkib hissəsi kimi nəzərə çarpır.

Şairin poeziyasının təravətli, canlı və səmimi məzmun kəsb edən mövzularından biridə məhəbbətdir. Müasir Azərbaycan poeziyasında məhəbbət mövzusunda qələmə alınmış ən təravətli, ən orjinal və səmimi şeirlərin yaradıcıları sırasında B.Vahabzadənin xüsusi yeri vardır. Məhəbbətin insanı mənəvi zənginliyə, daxili nəcibliyə, həmçinin saflığa,paklığa səslədiyini şairin poetik nümunələrində aydın görürük.

Baxışdan söz götür, söz anla sözdən,
Həssas ol, sevgilim, ömrün boyu sən.
Əgər sevirsənsə, ayaq səsimdən,
Gərək biləsən ki, Bəxtiyar gəlir. .(1-243)

B.Vahabzadənin məhəbbət şeirlərinin bütün məziyyətləri ilə bahəm, həm də fəlsəfi yönümdə inkişafı da diqqətdən yayınmır. Bu mənada şairin məhəbbət lirikası zaman və məkan sərhədlərini aşan çağdaş insanın duyğu və düşüncələrini, mənəvi iztirablarını, qəlbinin çırpıntılarını məharətlə inikas etdirən könül harayı, ruh yanğısıdır.

Yaman darıxmışam hər axşam çağı,
Arzumu günəşin telinə sardım.
Mənimlə olsaydı mən darıxmağı
Zamana ən uzun ölçü sanardım. (1-272)

Qələmə aldığı mövzularda həmişə zamanım nəbzi duyulur, müasirliyin nəfəsi hiss olunur. Böyük mütəfəkkirin misralarda gerçəkləşdirdiyi bədii niyyətin saflığı, aydınlığı, məna dərinliyi şairin yaradıcılığının fəlsəfi mündəricəsinin genişliyini göstərir.

Sənətkarın diqqətində İnsan və Zaman məfhumu yaradıcı müstəvidə mücərrəd, ümumi anlayışlar kimi deyil, yığcam, realist təhlilini tapan obrazlar kimi səciyyələnir. Şair əksər şeirlərində cəmiyyətin sosial ab-havasını, günün əxlaq və mənəviyyat qatlarını, bəşəri sual-problemləri, tarixin və çağdaşlığın ortağı kimi dəyərləndirir.Bəxtiyarın şeirlərində olumların fəlsəfi mahiyyəti həm ədəbiyyat qanunlarından, həm də bitkin zaman və məkan siferasından çıxış edərək aşkar olunur və nəticədə o, şairin estetik idealı tərəfindən aydın, konkret şəkildə təsdiq və ya inkar edilir. Burada cahanı tədqiq edən idrakın imkanları öyrənilir, suallar ümmanı olan, külli-aləmi sual yağışına qərq edən idrakın özü suallar qarşısında qalır.

"Piyada-sərnişin" şeiri də fikrimizin istinadgahıdır.

Sərnişin yol getdi, yoldan xəbərsiz,
Bilmədi bu yolda kələ kötür var.
Ancaq piyadanın, xəbər-ətərsiz,
Alnında iz açdı getdiyi yollar.

Yol özü apardı sərnişinləri,
Yolda nə iz qaldı, nə də toz oldu.
Ancaq piyadalar gördü dünyanı,
Sərnişin dünyadan xəbərsiz oldu. (1-73)

Şair hadisənin zahiri dəyişikliyindən deyil, daxili dəyişməzliyində mənalar arayır, həmişə mahiyyətdə özəkdə, alt qatda gizlənmiş mənaya nüfuz edir.

Həyatı mənbə, ötəridə əbədini həkk edə bilmək məharəti sənətkarlıq qüdrətinə xasdır. Piyada ilə şərnişinin hərəkətindəki məzmuna fəlsəfi yanaşaraq, onun içtimai dəyər kontekstində mənalandıran şair bədii-fəlsəfi ideyanı belə indeksləşdirir. Yəni rəmzi mənada sərnişin yolu həyat yolu kimi mənalandırır və sərnişin bu məsafəni sürətlə gedir, ancaq bu sürətdə sərnişin hərəkət imkanını dincə qoyur, gördükləri sürətlə dəyişir və yox olur. Lakin piyada isə ayağı altında torpağı duyaraq gedir, gördükləri yaddaşının aynasında naxışlanır. Şair şeirin bədii həllini poetik-fəlsəfi dərinlikdə ümumiləşdirir, çünki məzar hamının mütləq görüş yeridir.

Qəribə dünyadı, sərnişin ilə
Piyada görüşür mənzil başında.

Belə fəlsəfi dərin məna yüklü misraların çiynində şairin bədii müstəvidə düşüncələrinin daha məzmunlu və fəlsəfi dolğunluğunu dərk edirik.

Biri təkər üstə gətirildisə,
Birini gətirən ayaqlar oldu.
Biri bu mənzildə kirədar isə,
Biri bu mənzildə sahibkar oldu. (1-74)

Onun şeirlərində Vətən ilə zaman arasında möhkəm bağlılıq vardır. O, zamanla topağı milli varlığın iki ünsürü kimi götürür. Şair üçün hər şey doğma Vətənin yaddaşında əbədiləşir. Ona görə ki, bu yaddaş ötəri, keçici deyildir, bu yaddaş özündə milliliyi və həqiqəti əks edən bədii ruhu mənəvi özünəməxsusluğu , fərdiliyi və özgürlüyü yaşadır.

Odur ki, B.Vahabzadə gələcəyi də, keçmişi də məhz xalqın genetik kodu vasitəsilə oxuyur və dəyərləndirir. Milli xarakter, müasir qəhrəman anlayışları da onun üçün yalnız vahid və ədəbi Azərbaycan kontekstində mövcuddur.

Şair qəlbindəki tükənməz yurd, Vətən sevgisilə xalqın mənəvi tamlığını və böyüklüyünü daha dərindən duyur və Vətənini dünyaya təqdim etmək üçün onu böyük bir şövqlə tərənnüm edir.

Şairin ardıcıl və ədəbi axtarışlarının bəhrəsi olan " İnsan və Zaman" silsiləsi onun sənətkarlığının yetkin nəticələrini açıqlayır. Ədəbiyyatşünas Vaqif Allahverdiyev yazır:"Böyük Vətən müharibəsindən sonrakı ikinci onillikdə poeziyamız, onun inkişaf yolu və doğurduğu ideya bədii problemlər baxımından bir sıra yeni cəhətlərlə səciyyəvidir.Bu da hər şeydən əvvəl şairin insanın insana, dünyaya münasibətilə bağlı şəkildə meydana çıxır.Hələ S.Vurğunun "Komsomol" poemasındakı məşhur "Dünya" qoşmasında ilk əlamətləri görünən bu cəhət 1950-ci illərin sonlarında daha çox R.Rza və B.Vahabzadənin yaradıcılığında tədricən ardıcıllıq mahiyyəti kəsb etməklə sistem halına düşür və get-gedə insanla dünyanın, kainatın dialoquna çevrilir" (4-61)

İnsan zəkası yeni üfüqlər açdıqca , yeni zirvələr fəth etdikcə dinamika, sürət artır, zaman ləngiyir , kainatın parametrləri böyüyür. B.Vahabzadə şeirində bu cəhət daha çox dünya və zaman haqqında mühakimə və ümumiləşdirmələr şəklində meydana çıxır. Şairin əsasən bu dövrdə yazdığı əsərlərinin toplandığı "İnsan və Zaman" kitabı adından da göründüyü kimi daha çox bu məsələlərə həsr edilmişdir.Kitabdakı "Göy-Yer", "İki saat", "Qaliley", "Kibernetika", " İnsan" kimi onlarca şeirlər də insanın dünyada mövqeyi , onun cazibə qüvvəsi poetik mühakimələr yolu ilə təqdim edilir.

-Qurudan çox çoxdur bu dünyada su,
Bəs niyə dünyanın adı yer oldu?
-İnsandır şöhrəti bütüb aləmin,
O, yerdə yaşadı, yerdə doğuldu. (2-39)

Ədəbiyyatşünas alim Vaqif Allahverdiyev yazır:"Maraqlıdır ki, Bəxtiyarın poeziyasının ümid və inam tribunluğunu dərin fəlsəfi nikbinlik müəyyənləşdirir və şairin mənəvi dünyası öz bakirəliyini qoruyur. Zamanla ünsiyyət, üzbəüz müsahibə, onun bir çox şeirləri üçün səciyyəvi önəm daşıyır. Zaman və müasir insan , zaman və heçlik, zaman və ölüm, zaman və gənçlik arasında əlaqə və təzadlar mövzusu şairi həmişə düşündürmüşdür" (5-69)

Bu baxımdan şairin "Narahat olanda" şeirində səciyyəvi məqamlara diqqət edək.

Zamanın dolanbac pillələrindən ,
Köçmək istəyirəm, keçə bilmirəm.
Narahat çırpınan dünyamızda mən,
Necə rahat ölüm, necə bilmirəm. (1-117)

Şairin "Rəqəmlər", "Mənim yolum", "Dünyamı,mənmi", "Şeir və mən", " Qara saçlar ağ saçlar", "Yenə bir arzu qaldı", "İkinci yara" və s. onlarca şeirlərində də insan və zaman, insan və dünya problemi ön plana çəkilmiş, şairin daim axtarışda olduğu , yeri gəldikcə tərəddüt etdiyi, narahatlıq hissi keçirdiyi və bu əzablı yaradıcı prosesdə müxtəlif mühakimə , sorğu-suallara meydan verdiyi aydın nəzərə çarpır.

Bəlkə ayrılmışam özüm özümdən,
Özgə adamam bəlkə ində mən?
Dünya gözəlləşir, dəyişir aləm,
Ömür yollarını bir anda keçdim.
Anlaya bilmirəm, qana bilmirəm,
Dünyamı dəyişdi, mənmi dəyişdim? (1-156)

"İnsan və zaman" silsiləsindəki poetik nümunələrdə filosof-şair duyğu və dşüncələrini özünə xas bir ovqatda sərgiləyir. Bu şeirlərdə fəlsəfi məzmun yüksək romantika, həyat və cəmiyyət hadisələrinə yeni düşüncə tərzindən yanaşma özünü göstərir.

"Vaxt aldanmadı" şeirinə zamana münasibətin yeni çalarlarını görürük.

Aldanan anlamır ki, aldadanda aldanır,
Bu dünyanın ələyi xəlbirinə qarışdı.
Yamanlıqla yaxşılıq bir-birinə qarışdır.
Həqiqəti, rəngləyib ,ağartdılar bozları,
Dünyanın ən hilyəgər, mahir kələkbazları,
Saat ilə təqvimə əl qata bilmədilər.
Yalnız vaxtı, zamanı aldada bilmədilər. (1-226)

Və yaxud "Çox imiş" şeirində ölümlə bağlı poetik düşüncələri bədii ümumiləşdirmə, poetik obrazlılıq baxımından diqqəti cəlb edir.

Usanıb şəhərin hay-həşirindən,
Gəldim ziyarətədost məzarını.
Gördüm sıralanmış qəbirlərdə mən,
Ölümün möhtəşəm addımlarını. (1-227)

Şairin yaradıcılığı həyati-fəlsəfi problematikasına, insana, zamana münasibətinə görə və lirik qəhrəmanın mənəvi keyfiyyətlərinə görə poeziyanın tədqiqat sahəsini, fikir üfüqlərini genişləndirir, həmçinin yeni poetik cizgilərlə məzmunu dolğunlaşdırır.

B.Vahabzadənin fərdi poetik üslublarının əsas komponentlərindən biri fikir və onun poetik ifadəsidir. İnsanın dünyaya gəlişi və gedişi, həyat ehtirası, cəmiyyətdə öz yerini tutmaq arzusu, həmçinin zamanın qarşısında məsuliyyət və cavabdehlik hissi kimi xüsusiyyətlər şairin lirik qəhrəmanını şərtləndirən önəmli cəhətdir. "Bir ürəkdə dörd fəsil" şeiri fikrimizə ayna tutur.

Dörd fəsil yaşayır bir ildə torpaq,
Qış, qış kimi gəlir, bahar bahartək.
Bir saat içində bəs nədən ancaq,
Dörd fəsil yaşayır bəzən bir ürək?(1-166)

Tənqidci Aydın Məmmədov "Azərbaycanın Bəxtiyarı" məqaləsində yazır: "B.Vahabzadə poeziyası əzabkeş fikrin, dünya, insan, sevgi və azadlıq haqqında çırpıntıların poeziyasıdır. Bu poeziya tarixin şah damarını axtarır, bir sözün, bir obrazın maqnit sahəsində keçmiş, bu günü və gələcəyi qovuşdurur.Hər dəfə də dünyanın taleyinə bir nöqtədən-bütün mənəvi qüdrətini insanların yolunda sərf etməyə hazır olan fədakar humanizm zirvəsindən yanaşır"

Beləliklə60-70 ci illər poeziyasında insan əsas poetik obyekt kimi diqqəti cəlb edir. Onun mahiyyəti, taleyi və fəaliyyəti tipik cizgilərlə bədii əsərlərdə öz poetik ifadəsini tapır. Dünyanın, zamanın və insanın lirik qavrayışının əhatəliyi göz qabağındadır. Görkəmli ədəbiyyatşünas alim, tənqidçi Yaşar Qarayev bu fikirləri özünün "Poeziya və nəsr" kitabında daha geniş şəkildə şərh edərək yazır:

"Bütünlüklə 70-ci illər poeziyasını xarakterizə edən bu əlamətdar cəhət müasir lirikada vətəndaşlıq və şair şəxsiyyəti problemini xüsusi bir kəskinliklə irəli sürür. İndi şeirin içtimai mövqeyi cahanın və zamanın qayğılarına şərikliyin daha da artan dərinliyi ilə ölçülür" (3-198)

Bu baxımdan B.Vahabzadənin yaradıcılıq siferasının zənginliyi , insanı və dünyanı narahat edən problemlərə poetik münasibəti, şeirlərində ümumbəşəri ideyaların təbliği xüsusi əhəmiyyət kəsb edir.

İstifadə olunmuş ədəbiyyat.

1. Bəxtiyar Vahabzadə. Seçilmiş əsərlər. I cild Bakı.Öndər2004.
2. Bəxtiyar Vahabzadə. İnsan və zaman, Azərnəşr. 1964.
3. Yaşar Qarayev.Poeziya və nəsr Bakı, Yazıçı 1989.
4. V.Zaurlu Poeziyanın inkişaf yolları.Bakı Ozan-1977 .
5. Vaqif Allahverdiyev B. Vahabzadə yaradıcılığında milli özünüdərkin bədii - fəlsəfi ifadəsi Bakı, Yazıçı 2011.
6. Y.Qarayev, Ş.Salmanov, Pozeziyanın kamilliyi. Bakı, Yazıçı 198
7. Müasir Azərbaycan ədəbiyyatı II cild . Bakı 2007. Dərslik.

Açar sözlər: Bəxtiyar Vahabzadə, zaman, insan, dünya, ölüm həyat, fəlsəfi fikir, şeir, poeziya, yaradıcılıq, sənətkar.
Key words: BakhtiyarVahabzade, time, man, world, death, life, philosophical thought, poem, poetry, creativity, artist.

Xülasə

Bəxtiyar Vahabzadənin yaradıcılığı bədii-fəlsəfi siqləti, poetik əlvanlığı, zamanla səsləşən mövzuların seçimi və yüksək poetik ovqatda işlənməsi, böyük vətəndaşlıq keyfiyyətləri ilə əyaniləşir. İnsanın mənəvi həyatında baş verən dəyişmələr onun poeziyasında müəyyən zaman keşiyində mərhələ-mərhələ öz bədii-fəlsəfi ifdəsini tapmışdır.

Şairin poeziyasında zaman məfhumu onun milli, ictimai və estetik idealı ilə sıx bağlı olmaqla xalqın mənəvi dünyasına – keçmişinə, bu gününə və gələcəyinə olan sevginin təzahür formalarından biridir.

Sənətkarın diqqətində insan və zaman məfhumu yaradıcı mütəvidə mücərrəd, ümumi anlayışlar kimi deyil, yığcam, realist təhlilini tapan obrazlar kimi səciyyələnir.

Şairin ardıcıl və ədəbi axtarışlarının bəhrəsi olan "İnsan və Zaman" silsiləsi onun sənətkarlığının yetkin nəticələrini açıqlayır. Zamanla ünsiyyət, üzbəüz müsahibə onun bir çox şeirləri üçün səciyyəvi önəm daşıyır. Zaman və müasir insan, zaman və heçlik, zaman və ölüm, zaman və gənclik arasında əlaqə və təzadlar mövzusu B.Vahabzadəni həmişə düşündürmüşdür.

Summary

Bakhtiyar Vahabzade's creativity is manifested by his artistic-philosophical strength, poetic eloquence, the choice of topics that resonate with time and his high poetic voice, and great citizenship qualities. The changes in the spiritual life of a person gradually found their artistic and philosophical expression in his poetry over a certain period of time.

The concept of time in the poet's poetry is closely related to his national, social and aesthetic ideal and is one of the forms of manifestation of love for the spiritual world of the people - past, present and future.

In the artist's mind, the concept of man and time is characterized not as abstract, general concepts, but as images that find a concise, realistic analysis.

The "Man and Time" series, which is the result of the poet's consistent and literary searches, reveals the mature results of his artistry. Communication over time, face-to-face interview is characteristic for many of his poems. B. Vahabzade has always thought about the connection and contrasts between time and modern man, time and nothingness, time and death, time and youth.

RƏYÇİ: dos. S.Abbasova

Afaq İmaş qızı İsmayılova[113]

MÜCƏRRƏD QRAMMATİK MƏNA BİLDİRƏN SADƏ ÖNLÜKLƏR VƏ ONLARIN AZƏRBAYCAN DİLİNDƏ İFADƏSİ

İngilis dilində önlüklər zaman və məkan qrammatik mənalarından əlavə, sözlər arasında mücərrəd qrammatik münasibətlər - mücərrəd qrammatik məna da ifadə edir. Burada müasir ingilis dilində mücərrəd qrammatik münasibət ifadə edən önlüklər və onların müasir Azərbaycan dilində ifadə vasitələri araşdırılacaqdır.

İngilis dilində sözlər arasında mücərrəd qrammatik münasibətlər ifadə edənönlüklər arasında qrammatikallaşmış önlükləri qeyd etmək lazımdır. İngilis dilinin sintetik quruluşundan analitik quruluşa doğru inkişafı ilə əlaqədar olaraq, hal kateqoriyası şəkilçiləri ilə əlaqədar olan bir sıra qrammatik münasibətlər, ingilis dilində halların sayı azaldıqca və hallar bir-bir sıradan çıxdıqca, hal şəkilçilərindən önlüklərə keçir, yəni keçmişdə hal şəkilçilərininin ifadə etdiyi funksiyaları önlüklər ifadə etməyə başlayır. Beləliklə, bu önlüklərin məxsusi zaaman və məkan mənaları zəifləyir, onlarda bu iki məna ilə yanaşı, mücərrəd münasibətlər ifadə qabiliyyəti yaranır və onlar mücərrəd qrammatik münasibətlər ifadə etməyə də başlayır, onlar nitqin formal ünsürlərinə çevrilir.

İngilis dilində qrammatik ünsürə çevrilmiş dörd əsas önlük mövcuddur: *of, to, by, with.* Ayrı-ayrı hallarda qrammatikallaşmış funksiya ifadə edən önlüklərə *for, about, on, in,* at və *from* önlüklərini aid etmək olar.

Of önlüyü. Bu önlük ingilis dilində işlənən ən qədim önlüklərdən biridir; onun ingilis ədəbiyyatında 855-ci ildən işləndiyi qeyd edilmişdir. Müasir ingilis dilində ən işlək önlüklərdən biridir.

Müasir ingilis dilində *of* önlüyü əsasən mənsubiyyət münasibətlərini ifadə edir: o bu funksiyanı və ingilis dilinin qədim yiyəlik halının ifadə etdiyi digər münasibətləri orta ingilis dili dövründə mənimsəmişdir. Keçmiş yiyəlik halın, daha doğrusu, yiyəlik hal şəkilçilərinin funksiyasının of önlüklü tərkiblərə keçməsi tarixi *of* önlüyünün müasir semantik strukturunun yaranmasını izah edə bilər.

Qədim ingilis dilində *of* önlüyünün əsas mənası yer mənası bildirən isimlərə artırılan və müasir Azərbaycan dilində çıxışlıq hafin -dan, -dən şəkilçisinə ekvivalent olmuşdur, yəni bu önlük müəyyən yerdən, məkandan başlanan hərəkəti və ya müəyyən mənbədən gələn hərəkəti bildirmişdir. Lakin bəzi hallarda "törəmə" mənası mənsubiyyət mənasına da keçirdi. Məhz bu əsasda *of* önlüyünün maddi məkani mənası zəifləməyə başlayır və o, tədricən, mənsubiyyət anlayışı ifadə edən qrammatik ünsürə çevrilməyə başlayır.

Orta ingilis dili dövründə mənsubiyyətin bu yeni analitik ifadə üsulu mənsubiyyətin yiyəlik hal şəkilçisi ilə ifadə edilməsinin köhnə üsulu ilə uğurla rəqabət aparır, yeni ingilis dili dövründə isə onu bütün mövqelərdən sıxışdırıb çıxarır; mənsubiyyət anlayışının flektiv üsulla, yəni genetive case ilə (yiyəlik halla) ifadə edildiyi kiçik bir sahə müasir ingilis dilində istisna təşkil edir.

Köhnə yiyəlik halı işləkdən sıxışdırıb çıxardıqdan sonra *of* önlüklü tərkib həmin hal vasitəsilə ifadə edilən bəzi ziddiyyətlərin də varisi olur. Məsələn, feldən əmələ gələn bəzi isimlərdə (feli isimlərdə) *of* önlüklü tərkib həm məntiqi subyekti, həm də məntiqi obyekti göstərə bilər: the love of his father konstruksiyası həm onun atasına məhəbbət, həm də onun atasının məhəbbəti mənalarım ifadə edə bilir.

Hələ orta ingilis dilində partitivliyin ifadəsi, məsələn, some of the people "adamların/adamlardan bəziləri», many of the children «uşaqların/uşaqlardan çoxu» və s. kimi ifadələr bütövlükdə (tamamilə) of önlüklü tərkiblərə keçir.

Bununla əlaqədar olaraq, partitivliyin ifadəsi ilə müəyyən qədər əlaqəsi olan özünəməxsus xüsusiyyəti olan bir müasir tərkibi nəzərdən keçirmək maraqlı olardı. Bu tərkibi bəzən səhv olaraq ikiqat yiyəlik halı tərkib adlandırırlar. Bu tərkib, məsələn, a friend of George's, a friend of my sister və s. kimi ifadələrdə təzahür edir. Bu ifadələrin ilkin mənaları parlitiv ola bilərdi, yəni bu tərkiblər "Corcun dostlarından biri», «bacımın dostlarından biri" mənasını ifadə edə bilərdi. Müəyyən mənada həmin nümunələr üçün belə izah indi də mümkündür: *a friend* of George's = one of George's friends, a friend of my sister = one of my sister's friends. Lakin müasir ingilis danışıq dilində belə tərkiblərin işlənməsi dairəsi xeyli dərəcədə genişlənmişdir və bu tipli tərkiblərin işlənməsi elə hallara da yayılmışdır ki, həmin tərkiblərin partitiv izahı mümkün deyildir; məsələn, that loıg nose of his "onun elə uzun burnu". Bu tipdən olan ifadələr üslubi əhəmiyyət kəsb edir: dil ifadəsi ilə onun ilkin partitiv mənası arasındakı ziddiyyət komik effekt törədir. Lakin ayrı-ayrı hallarda "of + ümumi (common) halda duran isim" və "of + yiyəlik (genitive) halda duran isim" ifadələri arasındakı fərq əhəmiyyətli semantik fərqlərin ifadə edilməsi üçün istifadə edilə bilər. Müqayisə et: a picture of my father's *və* a picture of my father. Birinci ifadə "mənim atama məxsus şəkil" (yaxud "atama məxsus şəkillərdən biri"), ikinci ifadə isə "atamın şəkli", yəni "atamı əks etdirən şəkil" mənasındadır. Bu fərq, müəyyən dərəcədə, əvvəllərdə nəzərdən keçirilmiş of önlüklü tərkibin subyekt və obyekt kimi işlənməsi arasındakı fərqlə analojidir.

Of önlüyü xüsusi isimlərlə (adlarla) işləndikdə xüsusi səciyyəyə malik olur; məsələn: the city of London "London şəhəri", the city of Manchester "Mançester şəhəri", the Isle of Wight "Uayt adası" və s. Danışıq üslübünda a devil of man, a monster of a dog tipli tərkiblər də işlənir ki, onları da bu qəbildən olan ifadələrə aid etmək olar. Azərbaycan dilində belə tərkibləri "iblis kimi adam", "iblis sifət adam", "nəhəng it", "əjdahaya oxşar it" söz birləşmələri ilə və ya "adam deyil, iblisdir", "it deyil, əjdahadır" tipli cümlələrlə ifadə etmək olar. Gətirilən nümunələrdən göründüyü kimi, bu tərkiblər həmişə

---

[113] *Filologiya üzrə fəlsəfə doktoru, dosent. BDU-nun Humanitar fakültələr üzrə İngilis dili kafedrası*

mənfi üslubi çalara malikdir. Bu tipli tərkibləri artıq yuxanda nümunə göstərilmiş that long nose of his tipli üslubi çalarlı tərkiblərlə müqayisə etsək, aşkar olar ki, bu tip önlüklü tərkiblər işlənmənin məntiqi əsaslanmış hüdudlarından kənara çıxan kimi üslubi səciyyə daşıyır, xüsusilə rişxənd (ironiya), istehza, etinasızlıq çaları kəsb edir.

Of önlüyünün əsas konkret hərəkət və ya halı onun başlandığı (çıxış) nöqtəsi, məntəqəsi, hərəkətin, gücün, gəlirin və s. mənbəyi ilə əlaqələndirmək, bağlamaqdır. Məsələn: East (West) of "şərq (qərb)"+dən, so many miles, steps...of "filan qədər mil, addım və s.", to be descended of "kiminsə nəslindən olmaq, (kimdənsə) törəmək", origin, source of "(nəyinsə) mənbəyi olmaq", to build of, to construct of, to do, to make of "(nədənsə) etmək, düzəltmək, hazırlamaq", fragrant, redolent "(nəyinsə) iyini vermək" və s.

It stands on the right *of* the bridge, quite away from the river (5, s.140) "O, çaydan xeyli aralı, körpünün sağ tərəfində (körpüdən sağ tərəfdə) durmuşdu".

It is more like a stage village than one build of bricks and montar (5, s.110) "Bu, kərpic və əhəng qarışığından tikilmiş bir şeydən daha çox kənd səhnəsinə bənzəyirdi".

And Harris never sees what an ass he is making of himself (5, s.61) "Və Hərris təsəvvür etmirdi ki, o, hansı eşşəkdən düzəldilmişdir".

Of önlüyünün ilkin mənasından inkişaf etmiş qədim (köhnə) mənalarından biri də müəyyən bir şeydən ayrılmağı, xilas olmağı, təmizlənməyi, azad olmağı, müəyyən bir şeyi (məsələn, müqaviləni, əhdi, bağlaşmanı) ləğv etməyi, pozmağı göstərməyə işarə etməsidir. Lakin bu məqamda *from* önlüyü ilə işlənən sözlərin sayı *of* önlüyü ilə işlənən sözlərin sayından xeyli çoxdur. Buna görə də müasir ingilis dilində bu məqamda *from* önlüyünün işlədilməsinin norma, *of* önlüyünün işlədilməsinin isə norma qalığı olduğundan danışmaq olar. Məsələn: to get rid of "kimdənsə/nədənsə xilas olmaq", free of "nədənsə azad olmaq/sərbəst olmaq", to disturben, to lighten of "(ürəyi, qəlbi, işi, yükü) yüngülləşdirmək", to divert oneself of "(hakimiyyətdən, hüquqdan, ümumiyyətlə, nədənsə) imtina etmək", to acquit of "üstündən ittihamı götürmək", to wash one's hands of "bir şeydən (nədənsə) əl çəkmək, ümidi üzülmək" və s.

Cowperwood had liked his face and intelligence, had judged him to be able, but had wondered instantly how he could get rid *of* him (3, s. 470). "Kaupervud onun sifətini və ağlını xoşlayırdı, onu bacarıqlı hesab edirdi, amma dərhal ondan necə xilas ola biləcəyi haqqında düşündü".

Of önlüyü mərhumiyyət, aldatma, oğruluq, sonsuzluq bildirən bütün sözlərlə, nəyinsə olmadığını (bədənin naqisliyini, vəsaitin çatızmamazlığını, inamın və ya şəfqətin yoxluğunu) bildirən sözlərlə, nəhayət, əsasən, ərzağın ehtiyatının, faydalı qazıntı yataqlarının tükəndiyini bildirən sözlərlə, hətta bəzən səhhətin pozulmasını bildirən sözlərlə işlənir. Məsələn: to plunder, to rob of "(nəyi isə) çapmaq", to strip of "(nəyi isə) soymaq (fiziki soymaq mənasında), (kimi isə) soymaq (oğurlamaq mənasında)», bare, destitute, devoid of "(nədənsə) məhrum olmaq", short of "kifayət qədər pulu, vaxtı olmamaq", lack, want of "(nəyinsə) çatışmamazlığı", loss of "(nəyisə) itirmək" və s.

We found ourselves short *of* water at Hambledon lock... (5, s. 106). "Biz özümüzü Hambledon qəsrində su qıtlığında hiss etdik".

Your complete lack of information about a train from Salonika has them stunned (140, s.110) "Salonikdən gələn qatar haqqında sənin heç bir məlumatın olmaması onları təəccıibləıidirdi".

Men were robbed *of* very vestige *of* faith or even of charity *(3, s.564)* "Adamlar inamın bütün izlərini, hətta mərhəmət hissini də itirmişdilər".

Of önlüyü bir şeyin bütövlüyünü, tamlığını, çoxluğunu, zənginliyini bildirən sözlərlə, habelə bununla əlaqədar təzahür edən xüsusiyyətləri ifadə edən sözlərlə işlənir: a great deal of (a great number of), heaps of, a lot of, a multitude of, plenty of, dozens of, hundreds of smth, an abundance of, a profusion of "bir şeyin bolluğu", brimful of "nə isə qıraqlarına qədər dolu", full of, free of, wasteful of "bir şeyə əliaçıq olmaq, nədəsə bədxərclik etmək".

... and the thought of a week of spring time in tlıe country was full *of* attraction (1, s. 60) "...ölkədə yaz vaxtının həftəsi haqqında fikirlər mənim üçün də cəzbedici idi".

Hundreds of private citizens swarmed over his home demanding a lesolution *of* their problems (7, s. 528) "Şəhər əhalisinin minlərlə nümayəndəsi onun evini mühasirə edərək, bu problemlərini həll etməyi tələb edirdi".

Müasir ingilis dilində *of* önlüyünün ən geniş yayılmış, ən çox işlənən mənası mənsubiyyət, malikiyyət, aidlik və bu mənalarla qovuşan digər səciyyəvi münasibətləri ifadə etməsidir. Onun bu mənalarda həm *of* önlüklü tərkiblərin müstəqil şəkildə, həm də ismin yiyəlik halında işlənən sözlərə qovuşaraq *(of* önlüyü + yiyəlik halda duran isim - Robert's) işlənməsinə rast gəlmək olar. Bundan başqa, *of* önlüyü nisbi əvəzlik adlanan əvəzlik növü ilə (ours, hers) işlənir. Qeyd etmək lazımdır ki, ingilis dilində canlı əşya adı bildirən isimlərin isının yiyəlik halında, cansız əşya adı bildirən isimlərin isə önlük tərkibi ilə işlədilməsi ədəbi dil norması hesab edilir. Bundan əlavə hal da, önlük tərkibi də ˈistər hərəkətin subyektini (subjective genitive), istərsə hərəkətin obyektini (objective genitive) təyin edə bilər. Aşağıda verilən nümunələr də, uyğun olaraq, insanlara aid olanlara (A), əşyalara aid olanlara (B), subjective genitive (C), objective genitive (D) şəklini izah edənlərə, habelə *of* onlüyünün nisbi əvəzliklərlə birləşmədə əmələ gətirdiyi tərkiblərə (E) ayrılır.

5. You can come to no harm in the company *of* a Christian girl like tlıat (2, s.147) "Sən, ondan fərqli olaraq, Xristian qızlar cəmiyyətində heç bir zərər çəkməyəcəksən".
6. With the object *of* speed in her mind she had worked all morning (2, s.147) "Başında bir-birini sürətlə əvəz edən fikirlərlə o bütün səhəri ağır işlədi".
7. There were the very poor who saw in Cowperwood's wealth and in the fabulous stories of his New York home... a

heartless exploitation *of* their needs (objective genitive – of önlüklü tərkibdə isim hərəkətin obyektini bildirir): (3, s. 567) "Kaupervudun dövlətində və onun Nyu Yorkdakı evi haqqında əfsanəvi hekayələrdə... öz ehtiyaclarının vicdansızcasına istismar edilməsini görməyənlər olduqca fağır adamlar idi".

8. ...his eyes bent upon the red glow *of* the fire (subjective genitive - o*f* önlüklü tərkibdə isim hərəkətin subyektini bildirir): (1, s. 51) "... onun gözləri odun qırmızı istisinə zillənmişdi".

9. He is an old chum *of* mine (5, s. 9) "O mənim köhnə dostumdur".

Partitivlik *of* önlüyünün köhnə mənalarına da aiddir. Görünür, partitivlikdə ilkin mənalardan - çıxış, mənşə mənalarından nəşət edən mənalar və ümuminin, tamın bir hissəsi kimi götürülən yiyəlik halın mənası birləşmişdir. Lakin *of* önlüyünün sonrakı inkişafı buna gətirir ki, o, əvvəlkinin əksi olan münasibət mənasını, yəni hissələrinin birləşməsindən ibarət olan bütöv, tam mənasını da ifadə edir. Bir sıra hallarda *out of* önlüyü ilə məna əlaqəsi müşahidə edilir. Buna aşağıdakı nümunələri göstərmək olar: to consist of nədənsə/kimdənsə təşkil olunan», to drink of «içmək, dadmaq», a bit of, a part of, apiece of, a fraction of, a little of "nəyin isə/kimin isə bir (az) hissəsi", many of, much of "kimin isə/nəyin isə çoxu", a cup of "bir fincan nə isə", a ton of "nədən isə bir ton", both of "hər ikisi", some of «kimin isə/nəyin isə bəzisi», all of «kimin isə/nəyin isə hamısı» və s. və i.a.

In a few *of* the stately brick homes.. .windowpanes were knocked out, front doors stove in (7, s. 334) "Bir neçə kərpic evdə... pəncərə şüşələri (pəncərələr) örtülmüş, qapılar bağlanmışdı".

She offered to sell some *of* the covvs but there were no buyers (145, s. 520) " O, bir neçə inəyi satmağı təklif etdi, lakin alıcı yox idi".

Of önlüyünün ən az aşkar görünən mənası səbəb bildirməsidir. Səbəbiyyət, əsasən, müxtəlif sözlərin başqa önlüklərlə birləşməsi vasitəsilə ifadə edilir. Bu məqamda *of* önlüyü ilə birləşmədə məzmunu səbəb ifadə edən bir neçə sözü nümunə göstərmək olar: to die of "nədənsə (hansı səbəbdənsə) vəfat etmək/ölmək», to be sick of, to be tired of «nədənsə (hansı səbəbdənsə) yorulmaq, əldən düşmək, cana doymaq" və s.

Why do you stand there and lie? I'm so tired of it; I'm so sick of it all (3, s. 270) "Sən orada niyə durmuşsan və niyə yalan danışırsan? Mən bundan yorulmuşam; mən bütün bunlardan cana gəlmişəm ki".

İnsanların nitq ünsiyyətinə və əqli fəaliyyətinə aid olan bir sıra sözlər ayrıca qrup təşkil edir. Bu tipli sözlərin bir qrupu müəyyən bir məsələni və ya mövzunu fikirləşmək və ya onu kiminləsə müzakirə etmək məzmunu ifadə edir. Başqa bir məqamda *of* önlüyü ilə tərkib əmələ gətirən bu sözlər kimə isə müraciət etmək, sual vermək, inandırmaq, başa salmaq, tələb etmək, xahiş etmək və s. məzmunu ifadə edir; məsələn: to know of "nə haqdasa bilmək, məlumata malik olmaq", to think of "kimin isə, nəyin isə haqqında fikirləşmək", (un)aware of "nəyi isə dərk etməmək, başa düşməmək", (un)sure of "kimə isə, nəyə isə əmin olmama", to expect of "gözləmək", to chat of, to speak of "kim haqdasa/nə haqdasa danışmaq, söhbət etmək (bəzən kiminləsə boş-boşuna danışmaq", to write of "nə haqda isə azmaq", to predict of "nəyi isə qabaqcadan xəbər vermək" və s.

He became aware vividly *of* her trust, her loveliness, her faith in him, thought of her at first tenderly (2, s. 229) "O, qızı ona etibar etdiyini, gözəlliyini, ona inandığını, qız haqqında ilk dəfə incə hisslərini dərk etməyə başladı".

Captain Geoffrey Stone was sure *of* himself (6, s. 199) "Kapitan Ceffri özünə əmin idi".

They were talking *of* love (4, s. 192) "Onlar məhəbbət haqqında danışırdılar".

... the soft feel *of* her arm renıinded him *of* her charm and beauty, *of* the delightful attractions of her fresh body (2, s.158) "Qızın əllərinin istiliyini duymaq onun cazibədarlığını, gözəlliyini, onun tər bədəninin cəzbedici şrnikdiriciliyini oğlanın yadına saldı".

He subsided in his chair, unconscious of the fact that lıe had arisen (4, s.286) "O, hələ ayıldığı faktı başa düşmədən, stula çökdü".

Of önlüyü insanların bir-birinə və onları əhatə edən obyektiv aləmin əşya və hadisələrinə münasibətini ifadə edə bilər: love of "kimə isə, nəyə isə məhəbbət, sevgi", dislike of "kimə isə, nəyə isə biganəlik, laqeydlik, xoşu gəlməmə», to be ashamed of "kimdənsə, nədənsə utanmaq, xəcalət çəkmək" və s.

Carter was fond *of* explaining, *of* elephants and camels parading in the distance, (3, s. 386) "Karter izahatları, müəyyən məsafədə rəsm-keçid keçirən filləri və dəvələri çox sevirdi".

Then, ashamed o/his weakness, he continued rouglıly: "She's in a bad way" (2, s. 221) "Sonra, onun zəifliyindən təəccüblənib, daha kobud şəkildə davam etdi: "Qız pis yoldadır"..

Of önlüyünün müəyyən qrammatik qurumlarda bir sıra sifətlərlə birləşmədə hansı bir şəxsinsə danışan(lar)a münasibətini ifadə etmək məqamında işlənməsində ifadə etdiyi mənanı qeyd etmək məqsədəuyğundur; məsələn: It is good, ice, kind of (you, him, her, tez-tez+infinitiv) "kiminsə tərəfindən bu çox xoşdur, lütfkarlıqdır", It is bad, mean, cruel silly of (you, her, him, tez-tez+infinitiv) "pisdir, ağırdır, kobudluqdur, axmaqlıqdır" və s.

Secretly they felt it unreasonable *of* Ann to have left them like this without a ord, without even a struggle (4, s. 114) "Daxilən onlar Annanın heç bir söz demədən, hətta mübarizə aparmadan onları tərk etməsinin Anna tərəfindən düşüncəsizlik olduğunu hiss etdilər".

It isn't very gallant *of* you, I must say, restraining a woman against hcr will (3, s.338). "Deməliyəm ki, qadını onun ifadəsinin əksinə saxlamaq sənin tərəfindən ədəbsizlikdir".

Of önlüyü "qorxu, həyəcan, çəkilmə" məfhumuna aid olan bütün sözlərlə işlənir; məsələn: dread of, fear of, terror of "bir şeydən dəhşətə gəlmə, qorxma", afraid of, anxious of, frightened of, scared of, terrified of "bir şeydən qorxma, bir şeydən ehtiyat etmə" (lakin startled with), careful of, watchful of "kimə isə, nəyə isə ehtiyatlı olma, sayıq etmə".

Meantime you must be careful *of* what you say and how you say it (3, s. 169) "Eyni zamanda sən ehtiyatlı olmalısan ki, nə deyirsən və bunu necə deyirsən".

Of önlüyü vasitəsilə habelə insanın ailədə və cəmiyyətdə tutduğu mövqedən irəli gələn münasibətlərdəki hissi ifadə etmək də bildirilir: neglect of "(öz vəzifəsinə, uşağa, arvada, işçiyə və s.) laqeydlik", appreciation of "kimi isə, nəyi isə müsbət qiymətləndirmə", deserving of "(hörmətə, qibtəyə) layiq olma", proud of "kiminlə isə, nə ilə isə iftixar, fəxr etmə", worthy of "nəyə isə layiq olma" envious of "kimə isə, nəyə isə qibtə etmə", characteristic of «kimin üçünsə, nəyin üçnnsə səciyyəvi olma».

They could think of nothing worthy *of* him and were silent (2, s. 397). "Onlar onun haqqında hörmətsiz heç bir şey düşünmədilər".

He was proud *of* himself (4, s. 281) "O özü ilə fəxr edirdi".

İstifadə edilmiş ədəbiyyat

1. Conon Doyle A. Selected Stories. M., 1960, p. 696
2. Cronin A.J. Hatter's Castle. M., 1963
3. Dreiser Th. The Titan. M., 1957, 603 p.
4. Galswarthy J. The Fortsyte Saga, Book I, M., Издательство «Прогресс», 1954, p. 383
5. Jerome J.K. Three Man in a Boat. M., 1976, p.158
6. Ludlum Robert. The Gemini Contenders. Printed in the USA, 1989, p. 411
7. Stone Irving. Those who Love. Printed in the USA, 1965, p. 622

Açar sözlər: müasir Azərbaycan dili, ingilis dili, önlüklər, mücərrəd, qrammatik məna

Ключевые слова: современный азербайджанский язык, английский язык, предлоги, абстракт, грамматическое значение

Key words: modern Azerbaijani language, English language, prepositions abstract, grammatical meaning,

Mücərrəd qrammatik məna bildirən sadə önlüklər və onların Azərbaycan dilində ifadəsi

Xülasə

İngilis dilində önlüklər zaman və məkan qrammatik mənalarından əlavə, sözlər arasında mücərrəd qrammatik münasibətlər - mücərrəd qrammatik məna da ifadə edir. Burada müasir ingilis dilində mücərrəd qrammatik münasibət ifadə edən önlüklər və onların müasir Azərbaycan dilində ifadə vasitələri araşdırılacaqdır.

Простые предлоги с абстрактным грамматическим значением и их выражение в азербайджанском языке

Резюме

В английском языке предлоги, кроме своих грамматических значений времени и пространства, выражают также абстрактные грамматические отношения между словами – абстрактное грамматическое значение. Здесь будут рассмотрены предлоги, выражающие абстрактные грамматические отношения в современном английском языке, и средства их выражения в современном азербайджанском языке.

Simple prepositions with abstract grammatical meaning and their expression in Azerbaijani language

Summary

In English, prepositions, in addition to their grammatical meanings of time and space, also express abstract grammatical relations between words – an abstract grammatical meaning. Prepositions expressing abstract grammatical relations in modern English and the means of their expression in modern Azerbaijani will be considered here.

RƏYÇİ: dos. L.Ələkbərova

Sevinc Ağadin qızı Bağırova[114]

AZƏRBAYCAN DİLİNDƏ İŞLƏNƏN İNGİLİS MƏNŞƏLİ SÖZLƏRDƏ BAŞ VERƏN LEKSİK VƏ SEMANTİK DƏYİŞİKLİKLƏR

Giriş. Dilin başqa dillərdən aldığı sözlər müəyyən anlayışların, əşyaların, hadisələrin adlarını ifadə etməyə xidmət edir Alınmalar ilkin dövrdə konkret semantikaya malik olur. Adətən, söz aid olduğu dildə bir sıra mənalara malik olursa, keçdiyi yeni dildə onun bu mənalardan çox vaxt biri istifadə olunur. Zaman keçdikcə, alınma söz yeni mənalar qazana bildiyi kimi, əvvəlki mənasını itirə bilir. Alınma sözün belə bir prosesə qoşulmasının dil vasitəsilə assimilyasiyası əlaməti kimi qəbul edilir. Alınma obyekt dildə semantik transformasiyaya məruz qalır. Semantik transformasiya dilçilikdə araşdırılmış məsələlərdəndir. Obyekt dildə alınma sözün mənasının genişlənməsi və ya daralması, onun məcazi mənada işlənməsi semantik transformasiya kimi başa düşülür.

Bir sıra tədqiqatçılar alınma sözlərə yalnız onların mənalarının daralmasının, bu sözlərin məcazi mənalarda işlənməsinin xas olmasını qeyd etmişlər. Bu fikir sonralar tənqid olunmuşdur. Alınma sözlərin yeni keyfiyyət qazanması cəmiyyətdə baş vermiş dəyişmələrlə millətlərarası əlaqələrin, o cümlədən dil əlaqələrinin genişlənməsi ilə bağlıdır. V.Q.Kostomarov müasir dövrdə sözlərin semantik strukturunun dərinləşdiyini, onların yeni mənalarının yaranmasını qeyd edir. İngilis dilində alınmaların semantik strukturunun genişlənməsi onların həyatımızın müxtəlif sahələrinə nüfuz etməsi prosesində baş verir.

Əsas hissə. Alınma sözün müxtəlif sahələrə keçməsi onun məna dairəsinə təsir göstərir. Bəzi hallarda keçid prosesində söz bir vaxt dilə daxil olduğu ilkin mənanı itirərək yeni məna qazanır. Başqa halda ilkin məna qalmaqla alınma sözün semantikasında dəyişmə yaranır. Qeyd olunan məsələləri konkret nümunə əsasında araşdırmaq düzgün nəticələr əldə etməyə imkan verir.

Biznes (ing. *busness*) sözü 1966-cı ildə çapdan çıxmış Azərbaycan dilinin izahlı lüğətinə daxil edilməmişdir. Avropa mənşəli sözlərin qısa lüğətində alınma sözün mənası şəxsi yığımla əlaqədar kommersiya işi kimi izahlanır. Bu fəaliyyətlə məşğul olan şəxs isə *"biznesmen"* adlanır. Lüğətdə *"biznesmen"* sözünün izahında yazılır: "ABŞ-da tacir, fırıldaqçı, işbaz, sahibkar; hər şeydən yüksək gəlir almağa çalışan kapitalist" (ASML). Göründüyü kimi, rus dili vasitəsilə Azərbaycan dilinə keçmiş alınma leksik vahid sovet dövründə mənfi məna daşımışdır. İngilis dilində biznes çoxmənalıdır. Onun əsas mənası "iş", "daimi məşğuliyyət", "ixtisas"dır. Sözün digər mənası "ticarət və kommersiya fəaliyyəti"dir. Hazırda Azərbaycan dilində istifadə edilən biznes sözü "gəlir gətirən iş" mənasında işlənir. İşlənmə səviyyəsinə görə məhsuldardır. Təkcə iqtisadi sahəyə aid termin olmayıb, ümumişlək leksik vahiddir: "Deyirəm ki, Həmid yaradıcı insan olmaqla yanaşı, biznesi də çox gözəl bilir. Ailə qurandan sonra,onun müəyyən ehtiyacları var ıdi, o, bir biznes əməliyyatını həyata keçirdi və çox da uğurlu alındı" ("Şərq" qəzeti, 12 oktyabr, 2004); "Bir neçə gün öncə Şəkidə Regional biznes Tədris Mərkəzinin açılışında iştirak edən Fərhad Əliyev özünü prezident kimi aparırdı" ("Etimad" qəzeti, 06-09.11.2004).

Böyük tennisdə və voleybolda topun oyuna daxil edilməsi *servis* (service) adlanır. İngilis dilindən Azərbaycan dilinə ilk keçən məna da idman termini olmuşdur. "İlahə Qədimovanın əsas heyətdə oyuna buraxılması servis zamanı olur. Görünür, məşqçi Faiq Qarayev yetirməsinin servisdən komandamıza xal qazandıracağına ümidlidir" ("Olimpiya dünyası", 1 oktyabr, 2004).

Sonralar servis "məişət xidməti" anlamında da işlənməyə başlanmışdır.

Server də idman terminidir. Tennisdə topu oyuna daxil edən idmançı server adlanır. 90-cı illərdə həm *servis*, həm də *server* sözlərinin semantikasında dəyişmə baş vermişdir. Terminlər indi sosial-iqtisadi və başqa sahələrə aid anlayışları ifadə edir. *Server* -"kiçik və orta biznesdə istifadə olunan, əsas məlumatları saxlayan və ötürən kompüter" mənasındadır. Servis sözünün daha iki mənası yaranmışdır: 1) məhsulun istehlak və satışı sisteminin təkmilləşdirilməsinə yönəlmiş kompleks xidməti təmin edən marketinq fəaliyyətinin alt sistemi; 2) sosioloji sorğu.

Eyni hadisə özünü *server* sözünə münasibətdə də göstərir. Bu söz də yeni məna qazanmış, müxtəlif sözlərlə yeni terminoloji birləşmələr əmələ gətirmişdir. İndi server – "internet şəbəkəsinə qoşucu kompüter" mənasında işlənir. "İnternetə girmək üçün əvvəlcə serverə qoşulmaq lazımdır. Bunun üçün serverin telefon nömrəsi yığılmalıdır".

Alınma leksika, o cümlədən ingilis dilindən alınma sözlər dilin leksik sistemində gedən proseslərdə fəal iştirak edir. Ümumişlək leksik vahid kimi alınmış söz terminləşə bildiyi kimi, alınma terminin xüsusi leksik vahid səciyyəsini itirməsi də mümkündür. Müasir dövrdə terminoloji mənanın itirilməsinin tez-tez baş verməsi ədəbiyyatda qeyd olunur.

İngilis dilindən alınma sözlərin publisistik mətnlərdə, mətbuatda tez-tez istifadə olunması onların semantikasına əsaslı təsir göstərir. Mətbuatda işlənən alınma sözlərin semantik strukturunda dəyişmə baş verir. Sözün məna həcminin genişlənməsi yeni **semlərlə** (mənalarla) zənginləşməsi özünü göstərir. Belə hallarda determinləşmə semantik genişlənmənin təzahür amilidir. Bir çox innovasiyalar məcazi mənada istifadə olunur, yeni mənalı söz müxtəlif semantik qrupun sözləri ilə söz birləşməsi tərkibində işlənir. Semantik derivasiya prosesində mənanın genişlənməsi əsas yeri tutur.

İngilis dilindən alınma sözlərdə mənanın genişlənməsində ilkin leksik-semantik variantın arxiseminin ümumiləşməsi baza leksik-semantik paradiqmasının hüdudlarından kənara çıxması da mühüm rol oynayır.

Məsələn, *xit* müəyyən dövrdə böyük populyarlıq qazanmış musiqi əsərinə deyilir. "Populyar musiqi əsəri" arxisemi semantik derivasiya prosesində istənilən populyar hadisə və fakta aid edilir.

---

[114] Azərbaycan Dövlət İqtisad Universiteti "Xarici dillər" kafedrası, filologiya üzrə fəlsəfə doktoru

Pressinq – basketbolda qarşı tərəfin oyunçusuna tətbiq olunan sərt mübarizə formasıdır. Əsas arxisem kiminsə fəaliyyətini məhdudlaşdırmaq, onun sərbəstliyini əlindən almaqdır. Əvvəllər bu yalnız idman oyunlarına aid olsa da, hazırda istənilən fəaliyyət sahələrinə şamil olunur.

Ч.Абдуллаев является автором политических детективов о разведчике Дронго, которые состоят из отдельных повестей и романов: «Голубые ангелы» (1983-1985), «Почти невероятное убийство», первоначальное название «Исчезнувший убийца» (1986), «Охота на человека» (1989), «Игры профессионалов» (1991), «В ожидании Апокалипсиса» (1992-1993), «Правила профессионалов» (1994-1995), «Выбери себе смерть» (1994-1995), «Правила логики профессионалов» (1994-1995), «Закон негодяев» (1994-1995), «Стань его тенью» (1994-1995) и другие.

Ч.Абдуллаев является создателем образа легендарного героя Дронго. И до него ни один из авторов многочисленных детективных произведений, после А. К.Дойла, А.Кристи, Ж.Сименона и других, не смог создать такой ярчайший персонаж, достойного встать рядом с именами великих героев: Шерлока Холмса, Эркюля Пуаро, Комиссара Мегрэ. Уместно вспомнить слова азербайджанского литературоведа А.Гаджиева: «…После отмены идеологических преград … только одному из современных авторов удалось создать в своих произведениях образ литературного детектива, достойного встать в один ряд с вышеназванной великолепной тройкой…».

Дронго – это символическое имя, птица из Юго-Восточной Азии, которая обозначает отвагу и веру в лучшее будущее. Так назвал своего героя Ч.Абдуллаев, так как это собирательный образ, в котором отразились и многие черты самого автора. Самой основной и характерной чертой почерка Ч.Абдуллаева является то, что он в своих творениях умело соединяет политические события с детективным расследованием. В основу его романов положены реальные документы и факты, характеризующие то или иное преступление с политической точки зрения.

Ч.Абдуллаев автор большой серии детективов с участием Дронго. Его герой Дронго известен всем читателям. Дронго – это образ частного детектива, спецагент, герой-одиночка, обладающий незаурядными сыскными способностями, который умело выступает против преступников. К расследованию запутанных преступлений он подходит как дальновидный и опытный стратег, успех которого зависит от продуманности действий, а не от меткого выстрела. Герой Ч.Абдуллаева целеустремлен, любит своих друзей, но бывают моменты, когда он агрессивный, не против помудрить, а иногда его действия лишены четкости, он может прибегнуть к использованию оружия и жестокости. Он верен своим идеалам. Ему противостоит международная наркомафия, действующая в Москве, Баку, Батуми, Тбилиси, Нью-Йорке, Париже и Лондоне.

Писателя волнует бездумье, пустота, инерция современного общества. В своих творениях он затрагивает самые актуальные проблемы, которые волнуют человечество. И это борьба со злом и преступностью. В романах «Охота на человека», «В ожидании Апокалипсиса», «Три цвета крови» и др. показаны глобальные, общечеловеческие проблемы – это борьба с мафией, коррупцией, наркомафией, терроризмом. Таким образом, детективы, созданные Ч.Абдуллаевым, являются актуальными и современными.

В целом, детективная литература является одной из наиболее востребованных читателем жанрово-тематических линий массовой литературы. Борясь со злом, в поисках истины и справедливости он одерживает победу над всеми «злыми силами».

Детективы азербайджанского писателя Чингиза Абдуллаева, вбирая в себя политические столкновения, международные конфликты, затрагивающие глобальные катаклизмы современного мира, основывались на политическом сюжете и представляли собой схватку умов, интеллектов, современного видения мира в целом.

Азербайджанская проза, опираясь на традиции предшествующей литературы, идет дальше в своих исканиях, постепенно отказываясь от привязанности своих героев к профессионально - производственным отношениям, все чаще переводя плоскость изображения в нравственный, морально-этический план. Это явилось предпосылкой большего внимания писателей к собственной биографии, к месту, где они родились и выросли, к тем жизненным впечатлениям, которые были ими накоплены и реализованы в художественном плане в их произведениях.

Писать о том, что прожито и прочувствовано изнутри, основываться на подлинных фактах, создавать характеры, подкрепленные личными воспоминаниями и эпизодами из собственной жизни, руководствоваться критерием правды, истинность которой ни у кого не вызывает сомнений - все эти эстетические принципы и легли в основу идейно художественной сущности новой азербайджанской прозы. Для художников, не мыслящих иного пути в художественном освоении современного мира, правда жизни во всей её глубине, со всеми её противоречиями, светлыми и тёмными проявлениями, во всей её грубости и жажде человечности стала единственным источником и критерием эстетической ценности творчества. Это отмечали многие исследователи, обращавшиеся к этой литературе.

Список использованной литературы

1. Жирмунский В.М. Теория литературы. Поэтика. Стилистика. JL: Наука, 1977
2. Гаджиев А. Суперцикл о Дронго // Литературный Азербайджан, 2003, № 2, с. 90. 22 Ч.
3. Детектив: Эволюция жанра // Filologiya məsələləri. Bakı, 2007, № 6, s. 229-236.
4. Популярность современной детективной литературы // Filologiya məsələləri. Bakı, 2007, № 7, s. 198-203.
5. Становление и развитие детективного жанра в азербайджанской литературе // Dil və ədəbiyyat. Beynəlxalq elmi-nəzəri jurnal. Bakı, 2008, № 4 (64), s. 89-92.
6. Современный взгляд на прошлое // Elmi axtarışlar (folklorşünaslıq: filologiya, fəlsəfə, tarix, incəsənət və nəzəriyyə aspektləri). Bakı, 2009, № IV, s. 204-209.

Ключевые слова: детектив, криминальная проза, Ч.Абдуллаев, Дронго, преступность
Açar sözlər: detektiv, kriminal nəsr, Ç.Abdullaev, Dronqo, cinayətkarlıq
Key words: detective, criminal prose, C.Abdullayev, Drongo, crime

Detektiv janrının əsas meylləri

Xülasə

Müasir Azərbaycan ədəbiyyatında detektiv janrı inkişaf edərək dəyişmiş, yeni formalar və məzmunlar kəsb etmişdir. Ədəbiyyatımızda detektiv janrının əsasını Cəmşid Əmirov qoymuşdur. Məqalədə Anarın, R.İbrahimbəyovun, N.Rəsulzadənin və b. əsərlərinə nəzər yetirilmişdir. XX əsrin 80-ci illərində detektiv janrını inkişaf etdirən Ç.Abdullayev, S.Seyranov, V.Cumazadə, L.Əkbər və b. olmuşdur. Ç.Abdullayev Azərbaycan ədəbiyyatında «siyasi» detektiv janrının banisidir. Yazıçı "Göy mələklər", "İnsan ovu", "Böyük oyun" və b. əsərlərində cəmiyyəti maraqlandıran məsələlərə toxunmuşdur. Ç.Abdullayev dünyanın bir çox ölkəsində məşhur olan, baş qəhrəman Dronqo obrazının yaradıcısıdır. Bu obraz cinayətkarlarla və zülm edənlərlə müvəffəqiyyətlə mübarizə aparan peşəkar kəşfiyyatçı detektivdir. O, öz fikirlərinə,

düşüncələrinə və gördüyü işinə sadiqdir. Ç.Abdullayev detektiv janrını yeni priyomlar, maraqlı obrazlarla zənginləşdirmiş, günümüzdə populyar olan bu janrın davamçıları üçün yeni imkanlar yaratmış və beynəlxalq səviyyəyə qaldırmışdır.

The main trends of the detective genre

Summary

In modern Azerbaijani literature, the detective genre has developed and changed, acquired new forms and contents. The detective genre in our literature was founded by Jamshid Amirov. In the article, the works of Anar, R.Ibrahimbeyov, N.Rasulzade and other have been considered. In the 80's of the XX century Ch. Abdullayev, S. Seyranov, V.Jumazade, L.Akbar, etc., were the ones, who developed the detective genre. Ch. Abdullayev is the founder of the "political" detective genre in Azerbaijani literature. The writer touched on the issues of interest to the society in his works, such as "Blue Angels", "Human Hunting", "Big Game" and others. Ch.Abdullayev is the creator of Drongo, the main character, which is popular in many countries of the world. This character is a professional scout detective who successfully fights criminals and oppressors. He is committed to his ideas, thoughts and work. Ch.Abdullayev enriched the detective genre with new ideas and interesting characters, created new opportunities for followers of this popular genre and raised it to an international level.

RƏYÇİ: dos. L.Ələkbərova

Sanurə Sahib qızı Səmədova[119]

BEYNƏLXALQ DİL KİMİ İNGİLİS DİLİNİN TƏHSİLDƏ ROLU

"Beynəlxalq ortaq dil" statusunu qazanmış ilk dil ingilis dilidir. Başqa dillərdə danışan insanlar arasında ortaq ünsiyyət vasitəsi hesab edilir. Müasir dünyada bu dil ən çox danışılan dillərdən hesab olunur. Müasir dövrümüzdə ingilis dili siyasi danışıqlar və biznes dilinə çevrilib. Əsas elmi və tibbi araşdırmarlar da ingilis dilində aparılır. Beynəlxalq razılaşmalara görə, təyyarələrdə işləyən bələdçilər ingilis dilinə dərindən bələd olmalıdır. Yer kürəsinin ən güclü dövləti ABŞ başda olmaqla, Avstraliya, Böyük Britaniya, CAR, Yeni Zelandiya, İrlandiya və Sinqapur kimi inkişaf etmiş ölkələrin dövlət dilidir. İngiliscə 400 milyon insanın ana dili, bir milyard 400 milyon insanın isə ikinci dilidir. 53 ölkənin və BMT də daxil olmaqla əksər beynəlxalq təşkilatların əsas rəsmi dillərindən biri, İngilis Millətlər Birliyinin rəsmi dilidir. Bu dil Okeaniyadan Avropaya, Afrikadan Amerikaya qədər dünyanın hər tərəfində əsas ünsiyyət vasitəsidir.

Xarici dil öyrənmək isə beyni işlətməyin ən yaxşı yollarından biridir. Beyin yeni informasiyanı qəbul edir, daha sonra onu emal edərək bazasında saxlamağa çalışır. Bu mərhələdə isə yadda saxlanılmış informasiya istifadə olunmadığı müddətdə öz işləkliyini itirir və qəbul olunmuş yeni sözlər aktiv söz bazasından çıxaraq passiv söz bazasına keçir. Dil öyrənərkən ən vacib nüans həmin dilə bir dərs kimi baxmaqdan çox sanki simulasiyadaymış kimi onu yaşamaqdır. Xarici dillər arasında isə ən məşhurlardan biri İngilis dilidir. Məşhurluğu ilə yanaşı düzgün metodlarla tədris edildiyi halda İngilis dili həm də ən asan dillərdən biri kimi dəyərləndirilir.

İngilis dili "Beynəlxalq ortaq dil" statusunu almış ilk dildir. Dünyanın bir sıra hegemon dövlətlərində dövlət dili olmaqla yanaşı, 2 milyarda yaxın insanın da ikinci dilidir. Əhatə dairəsi bu qədər geniş olduğuna görə İngilis dilinə olan tələbat da buna müvafiq olaraq çoxdur. İngilis dilinin tarixi erkən əsrlərə gedib çıxır. Mənşə etibarilə Hind – Avropa dil ailəsinə aid olan İngilis dilinin ilkin versiyası indiki halından tamam fərqlənir. Əsrlər ərzində əsaslı şəkildə dəyişmiş bu dildə ilk yazılı material 9-10-cu əsrlərə aid olan epik əsər sayılır. Dəyişikliklərin səbəbi isə tarix boyunca mövcud olan daimi istilalardır.

Müxtəlif dillərin danışıldığı ölkələrdə insanların bir-biri ilə ünsiyyətini təmin etmək üçün çox vaxt ingilis dili rəsmi dövlət dili kimi çıxış edir. Hindistan buna yaxşı misaldır. İngilis dili 24 müxtəlif dilin hər birlində bir milyondan artıq insanın danışdığı bu ölkədə hamı üçün ümumi dildir. Hal-hazırda dünyada diplomatiya, kommersiya, dənizçilik, elmi-texniki və kütləvi informasiya dili rolunu yerini tutur. İki, üç və daha çox dil bilmək dünyagörüşünün formalaşmasına müsbət mənada təsir göstərir, hadisələrə daha geniş prizmadan baxmağa əməkdaşlıq edir. Crystal yazır: "Dillər xalqların yaradıcılıq məhsuludur, onlar eyni zamanda ayrı-ayrı fərdlərin ağzında yaradılır və yaşayır. Danışan ayrı-ayrı şəxslərdir, bu cəhətdən dil fərdlərin yaratmasıdır. Lakin dil ayrıca fərdin yaratması deyil, bütün xalqa məxsusdur (1, 36). Bu dili bilmək iş tapmaqda başlıca rol oynayır. Belə ki, bu gün yerli və xarici şirkətlər ingilis dilini səlis bilən mütəxəssislərə üstünlük verir. Bu gün dərc olunan və son iki əsrdə dərc olunmuş ədəbiyyatın böyük qismi, internet resurslarının 80%-i ingilis dilindədir. Yəni istər elmi biliklərin öyrənilməsində, istər diplomatik münasibətlərin, istər ticari, iqtisadi əlaqələrin qurulmasında, istər xarici ölkələrə səfərlərdə dünyanın hansı ucqar nöqtəsi olur-olsun, ingilis dili əvəzedilməz vəzifəni həyata keçirir.

İnternet getdikcə dil öyrənməkdə daha çox görünməyə başlayır, dilin rolu, mərkəzi olur. Həqiqətən də, diqqətəlayiq texnoloji nailiyyətlərə və ekran təqdimatının vizual çətinliyinə baxmayaraq, internetin bu funksiyası xüsusi qeyd olunmalıdır. İnternet inqilabdırsa, deməli, o çox güman ki, linqvistik inqilab olacaq. Crystal qeyd edir: "bu kitabı yazmaqda məqsədim internetin dil və ona təsirii bildirməkdir" (2, 7).

Valideynlər övladlarını təkcə məktəbdə deyil, həm də ingilis dilini öyrənməyə təşviq etməlidirlər. Redalyc açıq giriş təşəbbüsü çərçivəsində hazırlamış akademik qeyri-kommersiya layihəsi tələbələri ingilis dilini öyrənməyə həvəsləndirmək, məlumat vermək və əhəmiyyətini izah etmək kimi faktorlara həsr etmişdir. İngilis dili öyrənmə üsulları və təbii öyrənmə mühiti tərəfindən dəstəklənən innovasiyalar inkişaf etdirilməyə davam etməlidir və məktəblərdə ingilis dilinin ikinci dil kimi istifadə edilməsində bütün tərəflərdən dəstək göstərilməlidir (5, 414).

Xarici dilin praktik mənimsənilməsini təmin etmək üçün müəllim tədrisin ilk günlərindən öyrənilən dildə ünsiyyət q urmağa çalışmalıdır. Psixoloqların tədqiqatları göstərir ki, dərslərdə rollu oyunların geniş istifadəsi şagirdlərin imkan və bacar ıqlarının üzə çıxarılmasına şərait yaradır. Kiçikyaşlı uşaqların ünsiyyət qurmaq bacarıqlarını daha da inkişaf etdirmək üçün ki çikhəcmli mətnlərdən, dialoqlardan, tamaşalardan istifadə etmək daha məqsədəuyğundur. Hər bir rollu oyun şagirdə müəyyə n xarakter seçmək imkanı verir. Bu seçim şərtləri müxtəlif ola bilər:real insan həyatı və ya müxtəlif əsərlərin personajları, nağ ıl qəhrəmanları və s.Bu baxımdan, rollu oyunlar çox geniş dil öyrətmək imkanlarına malikdir. Usaqlar hər zaman işin oyun f ormalarına maraqla yanaşırlar, müxtəlif insanların rollarını oynamağı, heyvanların personajlarını hazırlamağı daha çox xoşla yırlar.Rollu oyunlar bütün siniflə birlikdə və yaxud qruplarla keçirilə bilər. Hər hansı bir səhnənin rollarla təqdimatı zamanı iş tirak edən şagirdlərin bir-birlərinə kömək etmələri əməkdaşlığın yaranması üçün geniş imkanlar yaradır.

Dərs prosesində rollu oyunlardan istifadə şagirdlərin mövqe tutmaq və şifahi nitqi inkişaf etdirməyə yönəlmişdir. Bu zaman şagirdlər yalnız öz rolunu deyil, tərəf-müqabilinin də replikalarını yadda saxlamalı olur. Onlarda nə isə deməyə, soruşmağadəqiqləşdirməyə, sübut etməyə, fikirləri ni həmsöhbəti ilə bölüşməyə ehtiyac yaranır. Dərsin maraqlı keçməsi təkcə rolları ifa edəni deyil, qulaq asanları da fəal iştirak etməyə sövq edir. Bu da onların nitq fəaliyyətini daha da gücləndirir.

[119] Bakı Dövlət Universiteti Qazax filialı, müəllim. sanurasamadova91f@gmail.com

Rollu oyunlar tədrisin bütün tələblərinə cavab verməlidir. Tədris prosesində rollu oyun öyrənmə üçün motivasiya yar atmalıdır ki, dərs şagirdlər üçün maraqlı olsun və onlar tapşırıqları həvəslə yerinə yetirsinlər. Rollu oyunda hər kəs rol alır və bu zaman onlar həmsöhbətini axıradək dinləmək bacarığına malik olur.

İngilis dili müəllimləri həm sinifdə, həm də dərsdən sonra çoxlu rollar yerinə yetirməlidirlər. Əvvəllər işlənib hazırlanmış rolları təhlil etməlidirlər. Onlar bütün şərtlər altında öz dəyər və faydalarını sübut etməlidirlər. Çox yönlü ingilis dili müəllimi işində müsbət dəyişiklik gözləyir. Daha gənc öyrənənlər üçün daha çox aşağıdakı kimi dərsi təşkil etmək məqsədəuyğundur:

- Müəllimin dediklərini uşaqlar ingilis dilində təkrarlamaq
- Mövzuya uyğun əşyadan istifadə etmək
- Rəsm və fotoşəkillərdən istifadə etmək
- Şəkillərdən istifadə edərək hekayələr danışmaq (5, 133)

Xarici dil kimi ingilis dili, həm rəsmi təhsil müəssisələrində, həm də qeyri-formal təhsil müəssisələrində yalnız təhsil müəssisələrində öyrənmə kimi istifadə olunan ingilis dili deməkdir. İngilis dili sosial həyatda bir dil kimi istifadə edilmir və bir ölkədə əsas dil deyil (2, 123).

Şifahi nitq təlimi zamanı ingilis dili tədrisi üçün zəmin olan dil materialına dildə ünsiyyət üçün gərəkli dil vasitələri dax il edilir. Sifahi nitq üçün mövzular təlimin məzmununa daxildir. İngilis dilinin tədrisi məqsədi təlimin məzmun və xarakterin ə təsir göstərir. Aşağı siniflərdə təlimin məzmunu problemini nitq modeli vasitəsi ilə həll etmək olar və bu potensial ünsiyyət vasitəsi ola bilər. Fəal təlim prosesini reallaşdırmaqla qabaqlayıcı təlim prinsipinə əsaslanaraq şagirdlərə erkən yaşlarında mü stəqil idrak fəallığı aşılanır. Şagirdlər düşünür, onlarda hər şeyi öyrənmək həvəsi, fikrini çatdırmaq keyfiyyətləri yaranır. Aşa ğı sinif şagirdləri böyüklərə nisbətən dili daha asan öyrənir, yadda saxlamaq üçün daha az qüvvə sərf edirlər. Aşağı siniflərdə ingilis dilinin öyrənilməsinin müvəffəqiyyəti ondadır ki, bu yaşda uşaqlar artıq öz ana dilini bilir və ingilis dilinin öyrənilməsi nə şüurlu yanaşırlar. Bu yaşda uşaqlar ümumi standartlardan uzaq olur və fikirlərini asanlıqla yeni dildə kodlaşdırır, xarici dil də ünsiyyətə girməkdə çətinlik çəkmirlər.

Ünsiyyət vasitəsi olan ingilis dili şagirdlərin beynəlmiləl tərbiyəsində xüsusi əhəmiyyətlidir. İctimai,mədəni sahələrdə sürətli inkişaf dövründə, texnologiyaların rolunun artdığı müasir dövrdə qloballaşma prosesinin və inteqrasiyanın təsirindən b aş verən keyfiyyət dəyişiklikləri ingilis dilinin tətbiqi imkanını artırır. Elmin və texnikanın inkişafı ingilis dili təlimini maksim um fərdiləşdirməyə imkan verir və öz növbəsində, sinfin kollektiv işləməsini təmin edir. Uşaqlıqda öyrənilən uzun müddət y addan çıxmır. Metodiki sistemin didaktik və psixoloji nöqteyinəzərdən düzgün qurulması şagirdlərin gələcəkdə dili mənimsə məsinin praktik əhəmiyyətinə təminat verər.

Bu onu göstərir ki, ingilis dili yalnız nəzəri və elmi cəhətdən öyrənilir. Bu, dil öyrənmə konsepsiyası ilə ziddiyyət təşkil edir, burada dili öyrənmək 4 bacarığı öyrənir: dinləmə, danışma, oxuma və yazma. Təhsillə məşğul olan tələbələr olaraq biz ingilis dilini öyrənməklə bağlı təsəvvürləri dəyişməliyik. Əgər dil istifadə etmək bacarığıdırsa, ondan real həyatda istifadə edin İngilis dili dili mənimsəməkdə uğurun açarıdır. Nümunə: çox söz ehtiyatına malik olan bir tələbə mütləq ingiliscə yaxşı danışa və ya başa düşə bilməz, hər növ zaman və ya qrammatikanı əzbərləyən tələbə ingilis dilini yaxşı yaza bilməyə bilər və bir çox ingilis ifadələrini bilən tələbə lazımi şəkildə istifadə etmək mümkün olmaya bilər (4, 211).

İngilis dilinin beynəlxalq bir sosial dil olduğuna şübhə yoxdur. Birləşmiş Millətlər Təşkilatının (BMT) rəsmi sessiyasında ingilis dilində danışılır. İngilis dili də beynəlxalq aviasiya standart dili kimi istifadə olunur. Dünyanın harasına getsək də, getdiyimiz ölkənin hava limanında ilk dəfə ingilis dilinin istifadəsinə xidmət göstərəcəyik. Bu, ingilis dilinin çox geniş yayıldığını sübut edir. Bu səbəbdən ingilis dilini öyrənmək zərurətdir. İndoneziyada ingilis dilini öyrənmək hələ də əksər insanlar üçün çox çətin, hətta bəzən bəzi insanlar üçün qorxulu bir şeydir. Baxmayaraq ki, ingilis dili bilikləri insanın rəqabət qabiliyyəti üçün vacibdir. Yaxşı İngilis dili bacarıqları ilə, Yaxşı rəqabət qabiliyyəti ilə kimsə ölkə üçün faydalı olan yaxşı dəyərlərə sahib olacaq. Amma bu o demək deyil ki, biz milli dilə çevrilmiş İndoneziya dilini unutmalıyıq. Dünya Təhsil İnstitutu tərəfindən aparılan araşdırmalara əsaslanaraq, English First (EF) 44 ölkədə İngilis dili bilikləri indeksi və ya EF İngilis Dili Yetərlilik İndeksi (EF EPI) üzrə ilk əhatəli hesabatını açıqlayıb. İndoneziyada ingilis dili biliyi 34-də çox aşağıdır. EF EPI müxtəlif ölkələrdə böyüklərin ingilis dili biliyini müqayisə edən ilk indeksdir. Bu indeks 2007-2009-cu illər ərzində üç il ərzində pulsuz onlayn testlərdən istifadə edən 44 ölkədə iki milyondan çox insan üçün unikal test məlumatlarından (xüsusi metodologiya) istifadə edir (Fisher, 2011). İndoneziyalıların ingilis dili biliklərinin aşağı səviyyədə olması təhsillə bağlıdır. İndoneziyada ingilis dili yalnız məktəbdə öyrənilir, lakin gündəlik həyatda istifadə edilmir. Buna görə də İndoneziyada ingilis dili ümumiyyətlə xarici dil kimi tədris olunur. Dil tədrisində "xarici dil" termini "ikinci dil"dən fərqlidir.

Ədəbiyyat siyahısı

1. Brian Tomlinson. Englih as a Foreign Language. London 2015
2. Crystal D. English as a global language. 2 edition. Cup 2003
3.Crystal D. Language and the İnternet. Cambridge 2004
4. English Education for Student in Globalization Era: Teacher´s Perspective in Jabodetabek. Page 414)
5. Maria del Mar Suarez Vilagran. Classroom language. Paris, 2003

Açar sözlər: beynəlxaq, ünsiyyət, sinif otağı, tədris, müxtəlif ölkələr
Ключевые слова: интернациональная, коммуникация, класс, обучение, разные страны
Key words: international, communication, classroom, teaching, different countries

Xülasə

Bir neçə dil bilmək insan dünyagörüşünün formalaşmasına müsbət mənada təsir edir, hadisələrə daha geniş prizmadan baxmağa kömək edir. Digər sözlə desək, çox dil bilmək bir qalanın bir neçə qapısının açarına sahib olmaqdır. Bir fərd nə qədər savadlı olsa da, əcnəbi dil bilmədən biliyini dar çərçivədən çıxarıb daha da təkmilləşdirməsi, dünya təcrübəsindən faydalanması, elmi mübadilə aparması mümkün deyildir.

Beynəlxalq dil kimi ingilis dilini öyrənmək vacibdir. Təhsillə bağlı ingilis dili yalnız məktəbdə öyrənmək üçün istifadə olunur, lakin gündəlik həyatda istifadə edilmir. İngilis dilinin xarici dilə çevrilməsinə səbəb olur. Buna görə də, təhsil aləminə qarışan tələbələr olaraq biz ingilis dilini öyrənməklə bağlı təsəvvürləri dəyişməliyik.

Summary

Knowing several languages has a positive effect on the formation of a person's outlook, helps to see events from a broader perspective. In other words, to know many languages is to have the keys to several doors of a castle. No matter how well-educated an individual is, without knowing a foreign language, it is impossible for him to improve his knowledge beyond the narrow framework, benefit from world experience, and conduct scientific exchange.

It is important to learn English as an international language. In relation to education, English is only used for learning in school, but not used in everyday life. It causes English to become a foreign language. Therefore, as students entering the world of education, we must change the perception of learning English.

Резюме

Знание нескольких языков положительно влияет на формирование мировоззрения человека, помогает смотреть на события с более широкой точки зрения. Другими словами, знать много языков — значит иметь ключи от нескольких дверей замка. Каким бы образованным ни был человек, без знания иностранного языка для него невозможно совершенствовать свои знания за узкими рамками, извлекать пользу из мирового опыта, вести научный обмен.

Важно учить английский как международный язык. Что касается образования, английский используется только для обучения в школе, но не используется в повседневной жизни. Это приводит к тому, что английский язык становится иностранным. Поэтому, как студенты, вступающие в мир образования, мы должны изменить представление об изучении английского языка.

RƏYÇİ: dos. S.Abbasova

Gülgün Şükür qızı Əliyeva[120]

TÜRKMƏN ŞAİRİNİN NƏSİMİ YARADICILIĞINA MÜRACİƏTİ

Türk xalqları ədəbiyyatının maraq dairəsində olan şəxsiyyətlərdən biri Seyid İmadəddin Nəsimidir. Onun həyat və yaradıcılıq yolu yeddi əsrə yaxındır ki, düşüncə və ehkamlara, inam və etiqadlara sığmayan təfəkkür möcüzəsi kimi yüzilliklərin ədəbi-fəlsəfi fikrini özünə cəlb etməkdədir.

Böyük sənət korifeyləri Nizami Gəncəvi, Əfzələddin Xaqani, Məhsəti Gəncəvi, İmadəddin Nəsimi, Şah İsmayıl Xətai, Məhəmməd Füzuli, Saib Təbrizi və başqaları ədəbi fikrin inkişafındakı möhtəşəm xidmətləri ilə orta əsrlərdə Şərq dünyası miqyasını aşaraq, beynəlxalq aləmdə də əsl sənət ulduzları kimi parlamışlar. Bu sənətkarların adları ilə bağlı olan ədəbi məktəblər, poetik-üslubi istiqamətlər türk-müsəlman aləmində uzun əsrlər poeziyanın inkişafında aparıcı mövqeyə malik olmuşdur. Azərbaycan ədəbiyyatının dünya mədəniyyətinə bəxş etdiyi belə qüdrətli sənətkarların sırasında İmadəddin Nəsimi görkəmli yer tutur.

İmadəddin Nəsimi Türkiyə, İran və basqa Ümumşərq ölkələrində şöhrətli şair, ümumxalq məhəbbəti ilə sevilən böyük sənətkarlardan biridir. Nəsimi dünya ədəbiyyatında danılmaz iradəsi və möhkəm əqidəsi ilə əzəmətinin nümunəsini göstərmiş və böyük ədəbi məktəb yaratmışdır. Türk xalqları içərisində qardaş Türkmənistan elində Seyid İmadəddin Nəsimiyə olan maraq və sevgi mübahisəsizdir. Türkmən klassik ədəbiyyatında İ.Nəsiminin adı böyük rəğbətlə çəkilmiş və vəsf olunmuşdur. Orta əsr klassik Azərbaycan lirikasının bənzərsiz nümunələrini yaratmış İmadəddin Nəsiminin şeirləri insanın böyüklüyünün himni kimi səslənir və kamil insanın güdrəti vəsf olumuşdur. Nəsiminin şeirlərində kamil insan olmağa qüvvətli çağırışlar ifadə edilmişdir. O, kamil insanı təkcə real dünyanın yox, geniş mənada kainatın ən uca varlığı kimi təsvir etmişdir:

Mərhəba, ey bəhri-zatın gövhəri-yekdanəsi,
Şəmi-vəhdətdir cəmalın, kün-fəkan pərvanəsi.
...Hər ki, qəvvas oldu bildi vəhdətin bəhrində kim,
Aləmin cismi sədəfdir, sənisən dürdanəsi.
... Ey bu şeyda könlümün halın soran hər dəm mana,
Dərdini bildirməz ol, eşqin oduna yanəsi.
...Buldu ləlindən Nəsimi nəfxeyi-ruhulqüdüs,
Ey Nəsiminin həyatı, canımın cananəsi.

XVIII əsrdən başlayaraq türkmən poeziyasında Nəsiminin yaradıcılığına müraciət geniş miqyasda yayılmışdır. Demək olar ki, ən şöhrətli və ən istedadlı türkmən şairləri öz əsərlərində Nəsimi obrazına müxtəlif poetik aspektlərdən müraciət etmişlər. Bu dövr türkmən ədəbiyyatında Nəsimiyə həsr olunmuş şeirlərin sayı hesabsızdır. Nəsiminin təkcə əsərləri deyil, onun faciəli həyatı və şəxsiyyəti də türkmən şairlərinin maraq dairəsinə çevrilmişdir.

Bir çox tanınmış türkmən klassikləri Dövlətməhəmməd Azadi, Nurməhəmməd Əndəlib, Məhtimqulu, Abdulla Şahbəndə, Molla Nəfəs, Zəlili, Qayibi, Məmmədvəli Kəminə və digər türkmən şairlərinin əsərlərində Nəsimi ruhu öz əksini tapmışdır, yüzillər keçsə də, unudulmamasına səbəb olmuşdur. Tanınan və sevilən şair Məhtimqulu Nəsimi simasına dəfələrlə müraciət etmişdir.

Böyük türkmən şairi, azadlıq carçısı Məhtimqulu Fəraqinin həyatı və yaradıcılığı Azərbaycanla bağlı olduğunu söyləsək yanılmarıq. Bu Məhtimqulu Fəraqinin Azərbaycana səfəri ilə bağlıdır və şairin yaradıcılığında öz əksini tapmışdır. Türkmən şairinin şeirlərində vətənimizin füsunkar təbiətindən, xalqımızın qonaqpərvərliyindən yazılar ilhamla qələmə alınmışdır. Vətənimizin dilbər guşələrindən olan Nuxanı vəsf edərək gəzib gördüyu yerləri, insanlarımıza qarşı rəğbətini, doğmalığı "Yaylaqları var" şeirində göstərmişdir:

Səfər edib getsək Nuxa mülkünə,
Könül istəyən tək yaylaqları var.
Seyran etsək qönçəsinə, gülünə,
Bağçasında bülbül oylaqları var.
Yeri sazdır, xəstə olan sağalar,
Arıq, müflis, qərib olan onqalar,
Sərçəmən ağacı ilə dəngələr,
Əcəb quş salmalı ovlaqları var.

Şeiri diqqətlə oxusaq anlamaq olar ki, Məhtimqulu Fəraqi Azərbaycanın Nuxa (indiki Şəki) elinin füsunkar gözəlliyini vəsf etməklə yanaşı, həm də doğma və səmimi münasibətini dəyərləndirmişdir. Bu şeirdə belə bir misra var: "Könül istəyən tək yaylaqları var, Yeri sazdır, xəstə olan sağalar" bu o deməkdir ki, şairin vətənimizə ürəkdən, qəlbdən doğma münasibət bəslədiyinin nümunəsidir və doğma vətəni Türkmənistan kimi, Azərbaycanı da həm özü, həm də türkmən xalqı üçün "yeri saz olan", yəni rahat, əlverişli diyar kimi göstərmişdir.

M.Fəraqinin "Yaylaqları var" şeirində adıçəkilən Nuxanın Azərbaycan şəhəri olduğunu professor Xalıq Koroğlu da öz tədqiqatlarında vurğulamışdır, və türkmən şairinin Azərbaycana səyahət etdiyini də göstərmişdir. Qeyd edək ki, M.Fəraqi bu şeiri rus dilinə tərcümə edib, və adını dəyişərək "Azərbaycan" etmişdir. Bu şeir və M.Fəraqinin Azərbaycana gəlişi haqqında

---

[120] BDU, filologiya üzrə fəlsəfə doktoru

bizim ədəbiyyatşünas alimlərimiz də təsdiq etmişlər. Məsələn professor Araz Dadaşzadə Məhtimqulu Fəraqinin 1960-cı ildə Bakıda nəşr edilmiş şeirlər kitabına yazdığı "Böyük türkmən şairi" adlı giriş məqaləsində oxuyuruq: "Məhtimqulunun Azərbaycanla əlaqəsi də maraqlıdır. Əsərlərindən məlum olur ki, şair Azərbaycana səyahət etmiş, Nuxada, Şirvanda, Təbrizdə olmuşdur. Azərbaycanın səfalı təbiəti, insanları onda xoş təəssürat oyatmışdır".

Məhtimqulunun yaradıcılığında bir çox Azərbaycan və Şərq şairlərinin, o cümlədən Nəsiminin adına və obrazına rast gəlinməsi təsadüfi deyildi. Bu ondan irəli gəlir ki, bir mütəfəkkir şair kimi Məhtimqulu Azərbaycan və Şərq sənətkarlarının ədəbi ənənələrinin və poetik irsinin təsiri altında formalaşmışdır. Böyük türkmən şairinin bədii əsərlərində Azərbaycan klassiklərinin adlarının və obrazlarının tərənnüm olunmasının səbəblərini akademik İsa Həbibbəyli belə izah edirdi: "Yaradıcılığı ilə yaxından tanış olduqda, onun görkəmli Azərbaycan şairlərinin əsərlərindən yaradıcılıqla bəhrələndiyinin şahidi oluruq. Şair öz şeirlərində dönə-dönə görkəmli Azərbaycan şairlərindən dahi Nizami Gəncəvinin, İmadəddin Nəsiminin, böyük Füzulinin adını çəkmişdir. Məhtimqulu Fəraği "San olsam" adlı şeirində Şərqin məşhur şairlərindən Əbu Seyid, Ömər Xəyyam, Həmədani, Firdovsi, Hafiz, Cəlaləddin Rumi, Əbdürrəhman Cami ilə bir cərgədə dahi Nizami Gəncəvinin adını yüksək ehtiramla yad edir, Azərbaycan klassik ədəbiyyatının görkəmli nümayəndəsi, şair-filosof Əfzələddin Xaqaninin "Mədain xərabələri" əsərindən söz açır. Başqa bir şeirində isə dövrandan şikayətlərini dilə gətirən şair fikirlərini şərh etmək üçün Nəvai və Firdovsi ilə yanaşı, Nizami Gəncəviyə də üz tutur". Yuxarıda qeyd olunan fikirlərin təsdiqini, Məhtimqulunun "Xunlar tökərlər gözündən" qəzəlində görürük. Şair öz dərdlərini və iztirablarını tərənnüm etmək üçün Nizami və Nəvainin məşhur obrazlarına, onların müqəddəs və mötəbər sandığı ulu şəxsiyyətinə müraciət edir:

Dərdlilər dərdimi görsə, utanarlar özündən,
Təbib əhli çarə tapmaz, xunlar tökərlər gözündən.
Görsə aşiqlər bu odu, unudar öz atəşin,
Çıxar dağu-daşlar üstə, Məcnunu tapmaz düzündən.
Bir telinə yarımın əhli müsəlman dustaq olar,
Kafirlər istəyib ədalət, zarlayıb gedərlər izindən.
Eşitsə Nəvai, Nizami, Firdovsi qılan zarımı,
Tərki-dünya eyləyib, hamısı keçər sözündən.

Azərbaycan ədəbiyyatşünaslığında Məhtimqulunun Seyid İmadəddin Nəsimi haqqındakı məşhur misraları barəsində ilk dəfə görkəmli tədqiqatçı Salman Mümtaz məlumat vermişdir. Onun "Türkmən şairləri" adlı məqaləsində Məhtimqulunun məşhur el şairi Durdu Şeyxlə sual-cavabı misal tərzində gətirilmişdir.

Yuxarıda qeyd olunan məqalə haqqında akademik İsa Həbibbəyli yazmışdır: "Salman Mümtaz bu məqaləsində gələcəkdə türkmən şairlərinin yaradıcılığı haqqında məqalələr yazıb "Maarif və mədəniyyət" jurnalında dərc etdirəcəyindən bəhs etmişdir..." Məqalənin sonunda Salman Mümtaz Məhtimqulu ilə Durdu Şeyxin bir-birilərinə müəmma tərzində verdikləri 12 bəndlik sorğu-qaytarğıların Azərbaycan dilinə uyğunlaşdırılmış variantını vermişdir. Məhtimqulu və Durdu Şeyx arasındakı həmin sual-cavab aşağıdakı bəndlərdə ifadə edilmişdir:

Məhtimqulu:

Ol nəmədir yemədilər, doydular,
Ol nəmədir uluq günə qoydular.
Ol kim idi dabanından soydular,
Şair olsan, şundan bizə xəbər ver.

Durdu Şeyx:

Ol didardır, yemədilər doydular,
Ol namazdır, qiyamətə qoydular,
Nəsimini dabanından soydular,
Bizdən salam olsun, cavab şöylədir.

Nəsimi və klassik Şərq şeir mədəniyyəti ilə Məhtimqulu Fəraqinin sıx bağlılığını bir necə Azərbaycan və Türkmənistan ədəbiyyatşünasları da öz tədqiqatlarında qeyd etmişdilər. Məsələn akademik Teymur Kərimli "Türk ellərinin böyük sənətkarı" adlanan məqaləsində mühüm elmi mülahizələr haqqında deyir: "Hər bir xalqın mədəniyyət və ədəbiyyat tarixində elə dahi şəxsiyyətlər yetişir ki, zaman keçdikcə onlar xalqın mədəni-mənəvi simvoluna, vizit kartına çevrilir. Qədim Yunanıstanda bu Homer, İranda Firdovsi, Azərbaycanda Nizami, Özbəkistanda Nəvai, İngiltərədə Şekspir, Rusiyada Puşkin olmuşdur. Bəşəriyyətin yetirdiyi bu cür dahi şəxsiyyətlərin sırasında qardaş türkmən xalqının böyük oğlu Məhtimqulunun da özünəməxsus şərəfli yeri vardır. Tərəddüd etmədən demək olar ki, Məhtimqulu Fəraqi özünəqədərki Yaxın və Orta Şərq ədəbiyyatının və mədəniyyətinin bütün ideya-estetik məziyyətlərini tam mənimsəmiş bir fikir adamı, öz poeziya sələflərinin layiqli xələfidir. Özündən əvvəlki şairlərin yaradıcılığını hörmətlə qiymətləndirən Məhtimqulu bəzən poetik hiperbola yolu ilə müəyyən yaradıcılıq məsələlərində, xüsusi ilə də lirikada, hicran oduna yanan aşiqin acınacaqlı halının tərənnümündə onlardan da üstün olduğunu dilə gətirə bilən şairdir".

Məhtimqulunun "Bəndi oldum" qəzəli bizim böyük sənətkarımız Nəsimi dünyası ilə bağlılığını göstərən əsərlərindən biridir. Bu qəzəl 8 beytdən ibarətdir və müəllif öz iztirablarını cəsarətlə, açıq şəkildə ifadə etmişdir. Həqiqətən, şairin şəxsi faciəsini, onun həyatında misilsiz rol oynamış bu ayrılığı və mənəvi iztirabları göstərmək üçün Nəsimidən başqa bir bənzətmə tapmaq çətindir:

Mengli xanım, əyyamından qorxub, gedə bilməz oldum,

Göz ilə qara qaşından ələ düşüb, bəndi oldum.
Cəlladlar mən bəndi qulu zəncir ilən bənd eyləyir,
Gər ki, sən də əl tutmasan, naəlac can neyləyir.
Nəsimi tək soyub məni, itlərə şam qılar indi,
Leş üstündə çalağanlar cəngi-savaş salar indi.
Sümüklərimi yel sovurub, veyil yerə vasil eylər,
Bəndi qalan əziz canı bil, duzəxə hasil eylər.

Görkəmli akademik İsa Həbibbəyli yuxarıdakı qəzəldən çətin mənəvi iztirablar və yaşantılardan söz açmış, Məhtimqulu və Nəsiminin həyatlarını müqayisə etmiş və bu sözləri qeyd etmişdir: "Bu misralardan görünür ki, Məhtimqulu Fərağı yaşadığı dövrün qorxulu olduğuna işarə etmiş, ona da Nəsimi kimi ağır işgəncə verilə biləcəyini nəzərə çarpdırmışdır. "Neyləyim, biçarəyəm" adlı şeirində isə fələyin zülm etdiyi zəmanədə Nəsiminin dabanından soyulduğunu, özünün Məngli adlı sevgilisi əlindən alınaraq, "iki gözünün oyulduğunu", Nəsimi kimi zülmə düçar olduğunu, el içində rüsvay edildiyini bildirir".

Görkəmli ədəbiyyatşünas alimin toxunduğu "Neyləyim, biçarəyəm" şeiri də Məhtimqulu və Nəsimi münasibətlərini aydınlaşdırmağa kömək edir. Şair bu qəzəlində də özünün dözülməz mənəvi ağrılarından və iztirablarından söhbət açır. Məhtimqulu həyatının mənası, sevdiyi Mengli xanımdan ayrılığa dözə bilmir. Onun mənəviyyatına və sonrakı həyatına vurulan bu zərbə amansız və müqayisə edilməz bir faciə kimi dəyərləndirilir:

Neyləyim mən, bu fələyin zülmü ilə qalmışam,
Dəydi başa, getdi huşum, neyləyim, biçarəyəm.
Badi-səba əsib gəldi, vurdu canım, ölmüşəm,
Dəydi başa, getdi huşum, neyləyim, biçarəyəm.

Mengli xanım aldı getdi cismim içrə canımı,
Sormadan iqbalı fələk tikdi hicran donumu.
Bir nakəsə bəxş etmiş fələk Mengli xanımı,
Dəydi başa, getdi huşum, neyləyim, biçarəyəm.

Ağıllı olmaz, kəsər huşum başdaşımdan ayrılıb,
Ağlım çaşdı, başım boşdur, gör, huşumdan ayrılıb,
Çətinlikdə qalıb qan ağlaram, qardaşımdan ayrılıb,
Dəydi başa, getdi huşum, neyləyim, biçarəyəm.

Şairin yaşadığı mühit ağır və dözülməz idi, xüsusən, onun çox sevdiyi Mengli xanımın zor gücünə əlindən alınması şairin qəlbinə böyük zərbə vurmuşdur. Məhtimqulu düşdüyü vəziyyəti düzgün çatdırmaq üçün Nəsimidən başqa uyğun obraz tapa bilməzdi. Beləliklə, şeiri oxuyarkən, biz Məhtimqulunun da Şərqin ən böyük üsyankar şairlərindən biri olduğunu, və həyatının Nəsiminin qədər təhlükələrlə dolu olduğunu təsəvvür edə bilərik. Şair işlətdiyi poetik ifadə və ibarələr – "fələyin zülmü", "dəydi başa", "getdi huşum", "vurdu canım", "ölmüşəm", "aldı getdi cismim içrə canımı", "fələk tikdi hicran donumu", "kəsər huşum baş daşımdan ayrılıb", "ağlım çaşdı", "huşumdan ayrılıb", "çətinlikdə qalıb qan ağlaram" və s. şairin faciəsindən, mənəvi əzablarından xəbər verir, və bu mənada öz böyük sələfi ilə eyni taleləri olduğunu vurğulayır. Məhtimqulu və Nəsiminin yaşadıqları oxşar tale bu şeirdə, xüsusən, son bəndlərində bədii-fəlsəfi və həyati-psixoloji cəhətdən kifayət qədər əsaslandırılmışdır:

Nəsimini dabanından soydular da, qoydular,
Məni aləmə rüsvay edib, iki gözüm oydular.
Eldə-gündə yoxdur üzüm, pünhanımı aydılar,
Dəydi başa, getdi huşum, neyləyim, biçarəyəm.
Məhtimqulu, yeddi iqlim zar ilə qan ağlayıb,
Özünü qafil eyləyib sən, daim pünhan ağlayıb,
Tərk eylədi malı-mülkün, gəlib hicran ağlayıb,
Dəydi başa, getdi huşum, neyləyim, biçarəyəm.

Qeyd edək ki, Məhtimqulunun Nəsimi obrazına öz yaradıcılığında tez-tez müraciət etməsinin əsas səbəbi bu uyğunluq idi. Baxmayaraq ki, öz ictimai-siyasi və fəlsəfi görüşlərinə görə Məhtimqulu Nəsimidən çox uzaq idi, ancaq şeirlərində o, ustadını böyük hörmətlə yad edirdi. Yəni Məhtimqulunun nəqşbənd təriqətinə, Nəsiminin isə hürufi təriqətinə mənsub olması onların mənəvi yaxınlığına və ünsiyyətinə qətiyyən mane olmamışdır. Dünyagörüşlərindəki bu fərqlər isə xüsusən həmin dövrlər üçün son dərəcə böyük əhəmiyyətə malik səbəblər idi.

Bu məsələ haqqında, görkəmli türkmən ədəbiyyatşünası, Türkmənistan Elmlər Akademiyasının müxbir üzvü, prof. Annaqurban Aşırov "Məhtimqulu Fəraqi" adlı məqaləsində yazır: "Məhtimqulunun Buxaradakı Kökəldaş mədrəsəsində oxuması barəsində də məlumat var. Bu məlumatı şairin:

Bir gecə yatırdım səhər vaxtında,
Bəhavəddin adlı divanə gəldi–

deyilən sətirləri də təsdiqləyir. Məhtimqulu Bəhavəddin Nəqşbəndiyə xüsusi hörmət etmişdir. Hətta şair özünün şairlik ilhamını da Nəqşbəndi ilə əlaqələndirir:

"Bir gecə yatırdım, şah Nəqşibəndi,
Kərami cuş eyləyib, bir nan gətirdi".

Tanınmış türkmən ədəbiyyatşünası A.Aşırovun Məhtimqulunun nəqşbəndilik təriqəti ilə əlaqələrindən bəhs edərkən, bildirdiyi aşağıdakı elmi mülahizələr də Nəsimi və Məhtimqulu münasibətlərini dərindən dərk etmək üçün mühüm əhəmiyyətə malikdir: "Məhtimqulu sufiliyin nəqşbəndilik qoluna inanmışdır. Sufiliyin bu qolu vətənsevərlik, azadlıq uğrunda mübarizələri təqdir etmişdir. Onun coşğun vətənsevərliyinin formalaşmasına sufiliyin bu yolu da müəyyən dərəcədə təsir edib. Məhtimqulu öz dövründə gözəl təhsil almış və Şərq ədəbiyyatını əsaslı surətdə öyrənmişdir. Şair "San olsam" adlı qoşmasında Əbu Seyid, Ömər Xəyyam, Firdovsi, Nizami, Hafiz, Nəvai kimi məşhur şairləri böyük hörmətlə yad edir". Görkəmli ədəbiyyatşünasının bu düşüncə və mülahizələri türkmən şairinin Şərqin dahi ustadına olan məhəbbətini açıq göstərir. Qeyd edək ki, filologiya elmləri doktoru, professor Araz Dadaşzadə "Məhtimqulu və Azərbaycan poeziyası" adlı məqaləsində bizə çatdırır: "Məhtimqulunun türkmən, Vaqifin isə Azərbaycan poeziyası və ədəbi dilinin inkişafında oynadığı rol, demək olar ki, eynidir. Hər ikisi ədəbi forma və dil cəhətdən milli ədəbiyyatlarda müəyyən bir inqilab yaratmışlar. Hər ikisi klassik Şərq şeirini yaxşı bilməklə bərabər, öz xalqının folkloruna, aşıq şeirinə dərindən bələd olmuş, əsl ilhamlarını ondan almışlar... Azərbaycanda XII əsrdən etibarən poeziya nümunələri yaranmağa başlamışdı. Burada hələ XIV-XVI əsrlərdə Nəsimi, Xətayi və Füzuli kimi Azərbaycan dilində yazan, milli şeir dilini zənginləşdirən klassik şairlər yetişmişdir. Biz Nəsiminin, Xətayinin, Əmaninin sadə şəkildə, heca vəznində şeirlər yazdığını görürük".

Nəsiminin adının və əsərlərinin uzun əsrlər boyu bu dərəcədə sevilməsi, hətta ideallaşdırılması və müqəddəsləşdirilməsi dahi şairin və mütəfəkkirin təkcə türkmən ədəbiyyatında deyil, bütün türkmən xalqının qəlbində əziz və mötəbər obrazının yaranmasına, yüz illər keçsə də, unudulmamasına səbəb olmuşdur.

İstifadə olunan ədəbiyyat

1. Dadaşzadə A. Məhtimqulu və Azərbaycan poeziyası. "Azərbaycan" jurnalı, 1960, №9.
2. Salman Mümtaz. Türkmən şairləri. "Maarif və mədəniyyət" jurnalı, 1923, №8-9, səh. 9-10; S.Mümtaz. Azərbaycan ədəbiyyatının qaynaqları. Bakı: Yazıçı, 1986.
3. Həbibbəyli İ. Məhtimqulu Fəraqinin ədəbi irsi və əsərlərinin Azərbaycanda nəşri haqqında söz // Görkəmli türkmən şairi Məhtimqulu Fəraqinin yaradıcılığı Azərbaycan ədəbiyyatşünaslığında. Elmi-tədqiqi məqalələr toplusu. Bakı, "Elm və təhsil", 2017.
4. Məhtimqulu Fəraqi. Seçilmiş əsərləri. Bakı: Elm və təhsil, 2014
5. Teymur Kərimli. Türk ellərinin böyük sənətkarı. Bax: Görkəmli türkmən şairi Məhtimqulu Fəraqinin yaradıcılığı Azərbaycan ədəbiyyatşünaslığında. Elmi-tədqiqi məqalələr toplusu. Bakı, "Elm və təhsil", 2017.
6. Annaqurban Aşırov. Məhtimqulu Fəraqi. Bax: Məhtimqulu Fəraqi. Seçilmiş əsərləri. Bakı. "Elm və təhsil", 2014.
7. Araz Dadaşzadə. Məhtimqulu və Azərbaycan poeziyası. "Kommunist" qəzeti, 1989-cu il, 26 oktyabr.
8. Məhtimqulu Fəraqi. Seçilmiş əsərləri. Türkmən türkcəsindən Azərbaycan türkcəsinə çevirəni, izahların, lüğətin müəllifi və nəşrə hazırlayanı İsmixan Osmanlı. Bakı: "Elm və Təhsil", 2014
9. Кор-оглы Х. Туркменская литература. М.: Изд-во "Высшая школа", 1972.

Açar sözlər: Seyid İmadəddin Nəsimi, klassik türkmən poeziyası, Nəsimi haqqında şeirlər, Məhtimqulu Fəraği, üsyankar şair.

Ключевые слова: Имадеддин Насими, классическая туркменская поэзия, стихи о Насими, Махтумкули Фараги, поэт бунтарь.

Keywords: Imadeddin Nasimi, classical Turkmen poetry, poems about Nasimi, Magtymguly Faragi, rebel poet.

Обращение туркменского поэта к творчеству Насими

Резюме

Начиная с XVIII века обращение к личности и творчеству Насими в туркменской поэзии получило широкий характер. Не случайно имя и образ Насими появились в творчестве Махтумкули. Это связано с тем, что как поэт-мыслитель Махтумкули формировался под влиянием литературных традиций и поэтического наследия азербайджанских и восточных поэтов. В статье рассматриваются произведения Махтумкули, посвященные гениальному азербайджанскому поэту и мыслителю Имадеддину Насими.

Appeal of the Turkmen poet to the work of Nasimi

Summary

Since the 18th century, the appeal to the personality and work of Nasimi in Turkmen poetry has received a wide character. It is no coincidence that the name and image of Nasimi appeared in the work of Makhtimgulu. This is due to the fact that, as a poet-thinker, Makhtimgulu was formed under the influence of literary traditions and the poetic heritage of Azerbaijani and Eastern poets. The article deals with the works of Makhtimgulu, dedicated to Seyyid Imadeddin Nasimi, the great Azerbaijani poet and thinker.

RƏYÇİ: dos.E.Vəliyeva

Mərcan Sabir Sofiyeva[121]

CEYMS OLDRİCİN "DİPLOMAT" ROMANINDA ERMƏNİ İDDİALARININİFŞASI

XX əsr Azərbaycan tarixində bir çox əhəmiyyətli hadisələrlə yadda qaldı. Bu hadisələrin cərgəsində azadlıq, inqilab, yüksəliş, zəfərlə bərabər, həm də ürək ağrısı ilə xatırlanan müharibə, mənfur düşmən və itkilər dururdu. Hər bir xalq öz qonşuları ilə tarix boyu sınanmaqdadır. Azərbaycan xalqının sınağı isə mənfur qonşusu ermənilər oldu. Azərbaycana qarşı işğalçılıq və soyqırım siyasəti yürüdən ermənilər bir əsr içərisində bir neçə dəfə fərqlizamanlarda terror əməlləri və soyqırım aktları ilə Azərbaycanın ən müxtəlif bölgələrində qırğınlar törətmiş, əzəli vətənimizə qarşı torpaq iddiasında bulunmuş, hətta milli mədəni irsimizi, incəsənət və mədəniyyət nümunələrimizi mənimsəyərək öz adlarına çıxmağa çalışmışlar. Sözsüz ki, bunu görən düşmənə dost olanlar da dəstək vermiş, təsdiqləmiş, yollarındakı maneələriaşmağa kömək olmuşdular. Lakin həqiqətin, ədalətin, düzgünlüyün yanında da səf tutanlar da tapılır.Həqiqətin yanında duran çox az şəxsiyyətlərdən biri də ingilis ədəbiyyatının təmsilçisi, böyük yazıçı Ceyms Harold Oldric oldu.

Ceyms Oldricin ürəyindəki Azərbaycan sevgisi Cənubi Azərbaycandan qaynaqlanır. Pişəvəri inqilabı zamanı hərbi müxbir kimi cənubda iş ezamiyyətində olan Oldric bu inqilabın təsvirini yartdığı romana daşıyır. Zərurət ya təsadüf 1949-cu ildə qələmə aldığı "Diplomat" romanında bir sıra məqamlarda erməni kimliyinin mənfi cəhətlətini, yalan və fitnəkarlıqlarını ifşa etmək üçün hadisə və vəziyyətlərə müraciət etmiş, səhnələr yaratmışdır.

Gələcəkdə baş verəcək hadisələrdən, Qarabağ problemindən, erməni aqressiyasından xəbərsiz olan Oldric intuitiv şəkildə əsərinə erməni obrazları və bir sıra hadısələr daxil etmişdir ki, bu səhnələr vasitəsilə o, ermənilərin daxili aləmindəki xəbisliyi, yalanı, fitnəni aşkar etməyə, kimliklərini ifşa etməyə kömək edir.

Ermənilər haqda kitabda ilk məlumat onların yerləşdiyi yerlə bağlıdır. Yazıçı İranda olan erməni və rusların savaş zamanı Qafqaza və Sovet Ermənistanına qayıtdıqlarını vurğulayır. *"I don't ever remember seeing any Soviet Russians in Iran,' Mac Gregor said. 'There were plenty of White Russians and they were a rather unhappy sort of people who did not want to go back home, and yet did not like Iran. Most of them did go back during the war, particularly those from the Caucasus and Soviet Armenia".* [1.56]

Burdan oxucuya məlum olan fakt Ermənistanın Qafqazda yerləşməsidir. Daha sonrakı səhifələrdə Azərbaycan və Türkiyə ilə sərhədlənməsi, ermənilərin fitnəkar torpaq iddiaları haqqında da məlumat alırıq. Belə ki, əsərin qəhrəmanı Mak Qreqor ermənilərin iddia etdiyi və rusların da dəstəklədiyi torpaqlar haqqında məlumat öyrənmək üçün araşdırma aparmaq və səfirlikdə bununla bağlı sənədlərin arasında axtarışa başlamaq istəyir. *'What I came to see you about,' he said, 'was some material on the Turkish provinces which the Russians are claiming as Armenian. Where would I find all the Embassy documents and information on it?'* [1.150]. Yazıçı sanki, xüsusilə bu məqamda belə bir iddiayla çıxış edən ermənilərin dəstəkçilərinin üzərinə diqqət çəkməklə, dağın görünməyən tərəfini göstərməyə çalışır. İllər boyu şahidi olduğumuz bu faktı yazıçı açıq-aşkar şəkildə elan edir.

Bütün məlum arxiv sənədlərinə baxmaq istəyən Mak Qreqora yalnız bir kitab verməklə kifayətlənirlər. Bu kitab isə Robert Kurzonun "Ermənistan" kitabı olur. Kitabı ona səliqəli möhürlü bağlamada təqdim edirlər. "*Miss Boyle came back and gave MacGregor a large manilla envelope tied with red tape. Also a brown-covered dusty book which she said was Curzon's Armenia".* [1.151]

Bəs, Robert Kurzon kimdir? Həqiqətən belə bir şəxs və əsər var yoxsa yazıçının əsərə daxil etdiyi bir təxəyyül məhsuludur. Elə burada yazıçı özüdə cavab verir. "*While Essex was out looking at his Churches, MacGregor spent the afternoon before the fire reading the documents on the Turkish or Armenian provinces of Kars, Ardahan, Van, Bitlis and Erzerum. He then turned toCurzon'sArmenia, a volume dated 1854. It was an account by the Honourable Robert Curzon of his experiences with the Anglo-Russian-Persian-Turkish Frontier Commission for settling border disputes in Armenia*". [1.151]

Lord Robert Kurzonun tarixi şəxsiyyət kimi kimliyinə nəzər salsaq növbəti faktlarla üz-üzə qalırıq və kitabın nə qədər tərəfsiz yazılmasına da əsaslı şübhələr dogur. Demək olar ki, bütün mənbələr Kurzonun Türkiyəyə qarşı münasibətini aydın şəkildə sərgiləyir və erməni məsələsinin bu danışıqların iflasa uğraması üçün ortaya atılmış bir fitfadan başqa bir şey olmadığını sübut edir. Atatürk Universitetinin siyasi tarix tədqiqatçısı dosent, doktor Mehmet Sait Dilek araşdırmalarında yazır: *"Lozan Konferansı'nda Ermenilere toprak verme sorununu gündeme getiren ingiliz yetkili Lord Curzon ile diğer büyük devletlerin temsilcileri, İsmet Paşa'nın kararlı tutumuna rağmen Ermeniler için toprak parçası talebinde bulundular ve Türk tarafını diplomatik yollarla ikna etmeye çalıştılar. Aynı zamanda Curzon'un azınlıklar sorununu ileri sürmesi bir taktik meselesiydi. Curzon, tehciri gündeme getirerek Türkleri, devletler nezdinde zor duruma düşürmeyi umuyordu. Böylece, Türk delegasyonu savunmaya çekilecek, Curzon da onların gerileyen bu tavrından yararlanarak isteklerini dikte ettirecekti".*[2.809]

Bütün güç ilə türklərin məğlubiyyətinə çalışan və sonda uğursuzluğa düçar olan Kurzonun bu əsəri yazarkən nəyi hesaba aldığını düşünsək belə bir nəticəyə gəlirik. Elə "Armenians" adlı bu kitab türklərə qarşı təyiqlər etmək üçün düşünülmüş şəkildə yalan və cəfəng informasiya yığınından başqa bir şey deyil. Məhz, Lozan danışıqlarında İsmet İnönü və Robert Kurzon arasındakı dialoq bu siyasi agentin xain məqsədinin ən parlaq nümunəsidir. Atatürkün birbaşa tapşırığı ilə Lozan danışıqlarına gedən İsmet Paşa bütün xain təkliflərə etiraz etdiyində Kurzon:*"İsmet Paşa, bu olamaz dediklerimizin de*

[121] **AMEA Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutu . Dünya ədəbiyyatı və komparativistika şöbəsi elmi işçi, dissertant. mercan.sofiyeva@mail.ru**

olması için ısrar ediyorsunuz, ve sabrımızın tahammül hududunun sonuna kadar gidiyorsunuz. Unutmayınız, bu olamaz dediklerinizi cebimize atıyoruz. Siz harap ve fakir bir memleketsiniz. Bu memleketi imar etmek için muhtaç değil misiniz? Bir gün bize size yardım etmemiz için geldiğiniz zaman cebimize attıklarımızı teker teker çıkarıp bunların hesabını sizden soracağız" dedi [3.47].

Beləliklə, "Diplomat" romanındakı əsərin qəhrəmanına məhz ingilis səfirliyində verilən kitabın müəllifinin tarixən bilinən tərəfləri elə dövlətinin maraqlarını təmsil edirdi. Sözsüz ki, bu kitabı Mak Qreqorun oxumsının təmin edilməsi, həqiqətlərin orda yazıldığı kimi cərəyan etməsinə inandırmaq istəyindən irəli gəlirdi. Çünki, Lord Esseks həqiqətdə nələrin baş verdiyini yaxşı bilirdi. Lord Esseks bu məqamda Kurzonun iddialarının dəstəkçisi kimi yer alır və əslində dövltinin təmsil etdiyi fikirlərin davamını nümayiş etdirir. Bu faktı da yazıçı gözdən qaçırmır və ölkəsinin siyasi maraqlarını təmsil edən diplomatın həqiqətləri bilməsi faktını da oxucusuna eşitdirir. "*Why bother?' Asquith said. 'Harold should know all about the Armenian dispute. He took it up once before, in Paris just after the First War. Then it was a dispute with the Turks*"[1.156].

Bildiyiniz kimi, dil vahidinin funksiyası bu vahidin mənası ilə sıx əlaqədə olur. Eyni zamanda qeyd etmək lazımdır ki, linqvistik vahidlərin mənası "onları həm reallığın (referensial, denotativ məna), eləcə də onun haqqında təfəkkürün (siqnifikativ mənanın, eləcə də kateqoriyalı mənaların müxtəlif növləri) gerçəklik kimi dilxarici dünya ilə bağlayan xüsusiyyətidir. Bu baxımdan məna linqvistik ikitərəfli vahidlərin mütləq, əsas xassəsidir, funksiya isə dil sistemi daxilində müəyyən edilir, funksiya dil sistemi daxilində müəyyən edilsə də, lakin bu vahidlərin nitq konstruksiyalarında oynadığı rola görə, yəni dil sisteminin təmin etdiyi imkanlara nisbətən müəyyən edilir" (10, 30-31). Deməli, dil sistemindəki münasibətlərlə şərtlənən elementin xassəsi kimi funksiya ondan istifadə imkanlarını müəyyən edir. Dil vahidinin funksiyası anlayışı onun həm denotativ, həm də mənalı və kateqorik mənası ilə bağlıdır. Hər bir təfəkkür feili müəyyən məna kəsb edərək xarici aləm, denotat haqqında məlumat daşıyır. Mətndə təfəkkür feilləri müxtəlif düşüncə proseslərini (düşünmək, başa düşmək, təhlil etmək, əsaslandırmaq, məsləhətləşmək) ifadə edə bilər, məzmun, emosional rəngləmə baxımından əlavə xüsusiyyətlərini verə bilər.

Dil funksiyaları bir-birinə münasibətdə müəyyən iyerarxiya təşkil edir. Dilin əsas funksiyalarını müəyyən etmək cəhdi K.Ammer tərəfindən edilmişdir. O, dilin dialoq və monoloq funksiyalarını ayırıb, sonra onları alt funksiyalara ayırıb. Dialoji funksiyasına ifadə funksiyası (ifadə); müraciət, motivasiya, iradənin ifadəsi funksiyası, məlumat hesabat funksiyası daxildir. Monoloji funksiya özünü ifadə etməyə (həmsöhbətə diqqət yetirmədən), intellektual fəaliyyətin özünü idarə etməsinə bölündü. Bu təsnifatda dialoq funksiyası kommunikativ funksiya (ünsiyyət), monoloji funksiya isə təfəkkürün ifadə funksiyasıdır. Əgər K.Ammerin konsepsiyasında ünsiyyət funksiyası və təfəkkür funksiyası ilə bərabər, dilin əsas funksiyaları kimi müəyyən edilirsə, digər dilçilər kommunikativ (15), yaxud ictimai şüurun ifadəsi (1) prioritetini tanıyırlar. Bütün bunlara baxmayaraq, bu funksiyaların hüquq baxımından bərabər və birlik təşkil etdiyinə inanan müəlliflərin nöqteyi-nəzəri daha çox dialektik görünür. "Ünsiyyət funksiyası ilə fikrin ifadəsinə təsir funksiyasının vəhdətindən kənarda nə dil, nə də dil haqqında elm ola bilər" (4, 3). Bu baxımdan "daha əhəmiyyətli evristik əhəmiyyət hər hansı bir funksiyanın

[124] AzMİU Azərbaycan dili və pedaqogika kafedrasının baş müəllimi. mina.ismayil@mail.ru

prioritetinin deyil, onların dərin bərabər qarşılıqlı əlaqəsinin qurulmasıdır" (7, 37).

Hər hansı bir məlumatın ötürülməsindən başqa, dil başqa bir funksiyanı yerinə yetirə bilər (5). Dilin bu funksiyası çox vaxt bədii ədəbiyyatda ən tam reallaşdırılmış söz olan poetik, estetik təsirlə əlaqələndirilir, natiq və ya yazıçı sadəcə olaraq intellektual məzmunu və ya məlumatı çatdırmaqla məhdudlaşmır, həm də belə bir əsərdə bildirilənləri təqdim etməyə çalışır, dinləyicinin və ya oxucunun müəyyən emosiyaların olması üsulu, bildirilənlərə müəyyən qiymətləndirici münasibəti göstərir (14, 8). Dilin poetik funksiyası, V.Vinoqradovun tərifinə görə (5, 165) kommunikativ funksiyaya söykənir, ondan irəli gəlir, lakin sənət qanunlarına tabe olaraq ondan yuxarıya, yeni nitq mənaları və korrelyasiya aləmini qaldırır.

Funksiyaların ziddiyyəti haqqında L.Şerba, R.Budaqov, Ş.Balli və s. kimi dilçilərin fikirləri qeyd edilmişdir. Bununla belə, ünsiyyət və təsir funksiyaları arasında ziddiyyət mütləq deyil, daha çox şərti xarakter daşıyır, çünki birincisi, onlar arasında dialektik əlaqə mövcuddur və biz istənilən mətndə xalis "mesaj" və ya "təsir"lə deyil, bir "məlumat"la qarşılaşırıq (14, 10), ikincisi, müasir informasiya nəzəriyyəsinin işığında, bədii yaradıcılıq da daxil olmaqla, hər şeyi ünsiyyət baxımından nəzərdən keçirmək olar: istənilən estetik təsir müəyyən məlumat daşıyır. Nəticə etibarı ilə, hər hansı yaradıcılıqdan danışarkən, yalnız müxtəlif növ mətnlərdə (mesajlar - elmi üslubda, təsir - bədii ədəbiyyatda) bu və ya digər funksiyanın üstünlük təşkil etdiyini qeyd edə bilərik.

Təsir funksiyası çox vaxt hisslərə, onların vasitəsilə insan intellektinə, bədii yaradıcılığına göstərdiyi poetik, estetik təsirlə əlaqələndirilir. Lakin nitqin təsiri yalnız estetik forma ilə məhdudlaşmır. Nitqin praqmatikasında təsir başqa formalar da ala bilir, linqvistik əlamətlərdən həmsöhbətin marağını oyatmaq, onun arzularına, ümidlərinə müraciət etmək, onda müəyyən reaksiya (verbal və ya qeyri-verbal) oyatmaq üçün istifadə oluna bilər. Bu təsir formalarının hər biri həm danışanın, həm də dinləyicinin tərəfini əhatə edir, çünki natiq ünvana hansısa şəkildə təsir göstərməyə çalışır, öz fikirlərini ifadə edir, müəyyən qiymətlər verir və məlumat alanı nəyəsə həvəsləndirir. Ona görə də dil vahidlərinin fəaliyyətində ünsiyyətin linqvistik tərəfləri deyil, psixoloji və sosioloji cəhətləri ön plana çıxır. Bu məqalənin yazılmasında bədii ədəbiyyatdan, qəzetlərdən, jurnallardan mətnlərdə təfəkkür feillərinin istifadəsinə dair nümunələrdən istifadə olunduğundan onların məlumatı çatdırmaq və ya onun alıcısına təsir etmək üçün feillərdən istifadə imkanları haqqında daha dolğun təsəvvür yaratdığını, eyni zamanda fəaliyyətin janr və üslub xüsusiyyətlərini təmsil eydiyini müşahidə etmiş oluruq.

Feilin nitqdə əsas dil funksiyası predikativdir. Predikat cisimlərin xassələri, hərəkətləri, münasibətləri vasitəsilə atributları bildirir. Belə ki, xarici aləmdən xəbər verən predikativ feil cümlənin digər linqvistik vahidləri ilə qarşılıqlı əlaqədə olur və onun bu vahidlərlə əlaqələri, bir tərəfdən, kateqorik mənası (sintaktik uyğunluğu) ilə, digər tərəfdən isə, digər dil vahidlərlə leksik məna ilə (leksik-semantik uyğunluq) çıxış edir. Cümlədə predikativ funksiya yerinə yetirən təfəkkür feilləri leksik-semantik və sintaktik (sintaqmatik) münasibətlərin müəyyən xüsusiyyətləri ilə səciyyələnir.

Hər bir fikrin predikasiya forması var. Natiqin danışmaq istədiyi mövzu haqqında təsəvvürü olmalıdır. Mətnin əsas struktur vahidi ifadəüstü birlik və mətn yaratmaq problemidir, Q.V.Kolşanskinin fikrincə, (8, 52) mətni törədən problem bir-biri ilə əlaqəli cümlələr silsiləsi yaratmaq probleminə endirilir. Cümlənin sintaksisin mərkəzi vahidi kimi təhlili, Stepanovun (11) fikrincə, dünya dilçiliyində diqqət mərkəzi kimi dildən "hərəkətdə olan dil"ə keçməsi ilə əlaqədar olaraq ön plana çıxır, buna da həm rus dilində, həm də xarici dilçilikdə çox diqqət yetirilir.

Dilçilikdə cümlənin müxtəlif cəhətləri, formal təşkili, məzmun tərəfi, paradiqmatik, sintaqmatik və törəmə potensialı tədqiq edilmişdir. Cümlə dilin iki əsas funksiyasını - əqli və ünsiyyət funksiyasını birləşdirir.

Hər bir dildə sonsuz sayda spesifik ifadələrin qurulması üçün istifadə olunan məhdud cümlə strukturları, sxemləri, modelləri var. Cümlələrin struktur sxemlərinin əksəriyyəti şifahi konfiqurasiyalara əsaslanır ki, bu da şifahi nüvənin optimal mühiti ilə birləşməsi kimi başa düşülür (13, 234). Buradan belə nəticəyə gəlmək olar ki, nominasiya baxımından feil bir sıra xüsusiyyətlərə malikdir, çünki feilin mənasında leksik komponent bir-birinə sıx bağlıdır və qrammatik komponentlə daim qarşılıqlı əlaqədə olur (3).

Obyekti bildirən və substansiya kateqoriyası ilə əlaqədə olan isimlərdən fərqli olaraq, feillər işarələri - bu əşyaların münasibətlərini və xassələrini bildirir, feil mənasında obyekt adlarından fərqli olaraq işarə və denotata ayrılır, atribut adlarının işarəsi isə "münasibətlər, proses" anlayışıdır (12, 135). Beləliklə, obyektin atributu onun hərəkəti ilə təmsil olunur.

Nəticə. Nəticə etibarilə, nitq ünvanının psixi vəziyyətinin natiq tərəfindən idarə olunduğu və bu nitq aktı vasitəsilə natiqin ünvanlananın psixi sferasında dəyişikliyə nail olduğu zaman ifaçılığa yaxın olan istifadələr diqqətəlayiqdir.

Ədəbiyyat:

1. ***Абрамов Б.А.*** Текст как закрытая система языковых средств.// Лингвистика текста. Материалы научной конференции. Часть I. МГПИИЯ им. М. Тореза, М., 1974. - с.3-4.
2. Бюлер К. Теория языка. Репрезентативная функция языка. – М.. 1993. – С. 37
3. ***Бондарко А.В.*** Теория морфологических категорий. Л. Наука. 1976. - 255с.
4. ***Будагов Р.***А. Введение в науку о языке. М.: Учпедгиз. 1958. - 435с.
5. ***Виноградов В.В.*** Русский язык. Грамматическое учение о слове. М-Л.. Учпедгиз. 1947. - 783с.
6. ***Гулыга Е.В.*** К вопросу о взаимосвязи уровней /Языковые макро-и-микрополя/ //Лингвистика и методика в Высшей школе. - М., 1967. Вып.4. - С. 13-22.
7. ***Киселева А.А.*** Вопросы теории речевого воздействия. - Л.. ЛГУ. 1978. – 159 с.
8. ***Колшанский Г.В.*** Соотношение субъективных и объективных факторов в языке. М.: Наука, 1975. - 213с.
9. Мартине А. Основы общей лингвистики Гв:1 Новое в лингвистике. – М.. 1963. – С. 373.
10. ***Слюсарева Н.А.*** Проблема функциональной морфологии современного английского языка. М.: Наука, 1986. - 215с.
11. ***Степанов Ю.***С. В мире семиотики // Семиотика. М.: Радуга. 1983. - С. 3 - 32.
12. ***Уфимцева*** А.А. Лексическое значение // Принципы семиологического описания лексики. -М.: Наука, 1986. -239с.
13. ***Холодович*** А.А. Опыт теории подклассов слов // Проблемы грамматической теории. Л.. 1979. - 164с.
14. ***Чаковская М.С.*** Текст как сообщение и воздействие / на материале английского языка/. М.: Высшая школа. 1986. - 128с.
15. ***Чикобава*** А.С. К вопросу о взаимоотношении мышления и речи в связи с ролью коммуникативной функции // Язык и мышлений М.: Наука, 1967. - с: 16-30.

16. *Novak* P., *Sgall P.* On the Prague: // Travaux linguistique de Prague 3. - Prague: Academia, 1968. - p. 291 -297.

funksiya, feil, kommunikativ, model, dil vahidi, qrammatik, asılı
слова: функция, глагол, коммуникативный, модель, языковая единица, грамматика, зависимый
function, verb, communicative, model, language unit, grammar, dependent

Выражение прагматических функций в языке

Резюме

Язык как система единиц и правил их использования для передачи информации имеет два назначения: одно связано с коммуникацией, другое с мышлением. Языковая способность говорящего в первую очередь служит ему для того, чтобы он словесно выражал мысль, то есть говорил (писал) и воспринимал эту мысль, то есть слушал (читал). Перефразируя высказывание, можно сказать, что функция языка – речь.

Другое назначение языка (функция) связано с деятельностью мышления, со знанием. Язык обеспечивает аккумуляцию сведений о мире. Язык – одна из форм существования опыта. Также язык используется в процессе мышления, является основанием мысли. Это, конечно, разные функции, но в модели, предназначенной для учебных целей, их можно объединить, назвав когнитивной или гностической. Конечно, всякой речи предшествует мысль, и в психофизиологическом плане функция языка – это умозаключение. Но именно речью – линейным вербальным выражением мысли – определяется все, что происходит с языком, а обеспечивать хранение знаний – назначение, сопутствующее.

Expression of pragmatic functions in language

Summary

Language as a system of units and rules for their use, for the transmission of information has two purposes: one is associated with communication, the other with thinking. The language ability of the speaker primarily serves him so that he verbally expresses a thought, that is, he speaks (writes) and perceives this thought, that is, he listens (reads). Paraphrasing the statement, we can say that the function of language is speech.

Another purpose of language (function) is connected with the activity of thinking, with knowledge. Language provides the accumulation of information about the world. Language is one of the forms of existence of experience. Also, language is used in the process of thinking, it is the basis of thought. These are, of course, different functions, but in a model intended for educational purposes, they can be combined, called cognitive or gnostic. Of course, any speech is preceded by a thought, and in the psycho-physiological plan, the function of language is a conclusion. But it is speech - a linear verbal expression of thought - that determines everything that happens with the language, and ensuring the storage of knowledge is a concomitant purpose.

RƏYÇİ: dos. L.Ələkbərova

Nərmin Kərəm qızı Rzayeva[125]

AZƏRBAYCAN ƏDƏBİYYATŞÜNASLIĞINDA KLASSİK İRS PROBLEMİ
(A.Rüstəmovanın tədqiqatları əsasında)

Klassik Azərbaycan epik şeirini - xalqımızın bu keçmiş mədəni irsini müasir elmin tələbləri əsasında öyrənib tədqiq etmək ədəbiyyatşünaslığın ən ümdə vəzifələrindən biridir. İslam yaşayış tərzinin və Quran biliklərinin öyrənilməsinin yasaqlandığı sosializm cəmiyyətində təməli İslam olan ədəbiyyatın anlaşılması, mütəxəssis alimlərin yetişməsi məsələsi çox müşkül məsələ idi. Təkcə onu demək kifayətdir ki, Qurani-Kərimin hətta rus dilinə tərcümə olunmuş kitabı belə, kitabxanaların xüsusi fondunda saxlanılır və hər oxucuya verilmirdi. Qədim və orta əsrlərin tədqiqi ilə məşğul olmuş görkəmli alimlər: Həmid Araslı, Rüstəm Əliyev, Azadə Rüstəmova, Mirzəğa Quluzadə, Fuad Köprülüzadə klassik irsimiz, onun keçdiyi inkişaf yolu və problemləri barədə geniş tədqiqat işləri aparmışlar. Azadə Rüstəmovanın "Azərbaycan epik şeirinin inkişaf yolları (XII-XVII əsrlər)" adlı doktorluq dissertasiyası beş əsrlik bir dövrü əhatə edir.

Azadə Rüstəmova ədəbiyyatşünaslığımızın ən çətin sahəsini - qədim və orta əsrlər dövrünün Azərbaycan ədəbiyyatını tədqiqat obyekti kimi seçmişdir. Orta əsrlərdə yaşamış şairlərin özünəməxsusluğunu araşdırmaq olduqca böyük çətinliklər yaradır. Eyni dövr və məktəb ardıcıllarının əsərlərini tədqiq edərkən, sənətkarın fərdiliyini üzə çıxarmaq, demək olar ki, mümkün deyil. Ancaq Azadə Rüstəmova bu çətin işin öhdəsindən hünərlə gəlmiş, ədəbiyyatşünaslıq tarixində az araşdırılmış bir çox şairin həyat və yaradıcılığı haqqında tədqiqatında geniş yer ayırmışdır.Tədqiqatda dastanlar, epik əsərlər müqayisəli şəkildə, əsas problemləri əhatə edən fəlsəfi-estetik cəhətdən araşdırılmışdır. Bu geniş tədqiqat işində Azadə Rüstəmova birinci olaraq epik şeirin təşəkkül dövrlərinə nəzər salır, qeyd edir ki, epik şeirin bəzi ünsürləri özünü ilk olaraq totemlərdə göstərmişdir. Totemlər müəyyən dərəcədə ibtidai insanın təbiət və cəmiyyət haqqındakı təsəvvürlərinin bədii ifadəsi idi. İnsanın şüuru, dərrakəsi oyandığı gündən obrazlığa meyl etmiş, həyatın və varlığın mənasını anlamaqda, həqiqəti dərk etməkə, insan şüuru üçün müqayisələr, bənzətmələr həmişə qüdrətli vasitə olmuşdur. Həyat dəyişdikcə, insanın fikri inkişaf etdikcə bu ibtidai və sadəlövh təsəvvürlər dəyişir, yerini animistik təsəvvürlərə verir. Bu mərhələdə insan bütün varlığın ilk başlanğıcı olaraq ruhu qəbul edir və mövcud şeylərin ruhuna sitayiş etməyə başlayır. İnkişafın yuxarı pillələrində mənaca daha dərin, formaca daha kamil olan və insanın xeyli artmış zövqünə uyğun gələn miflər və əsatirlər yaranmışdır.

Belə uzaq lakin zəruri başlanğıcdan sonra müəllif yavaş-yavaş Azərbaycan eposunun ilkin mərhələlərinə yaxınlaşır. "Avesta", "Dədə Qorqud", "Divani-lüğət-it-türk", "Qutad-qu-bilik" kimi əsərlərdən danışır. Yaxın Şərq, eləcə də Azərbaycan epik şeirinin ilk izlərinə eramızdan əvvəl IX əsrdə təşəkkül tapmış qədim midiyalıların müqəddəs kitabı olan "Avesta"da təsadüf edilir (2, s. 24).

Keçmiş dövrlərə edilən bu ekskurs epik şeiri yaradan mənbələr barədə geniş təsəvvür oyatdığı üçün qiymətlidir. A.Rüstəmova epik şeirimizin Nizami Gəncəvi yaradıcılığına qədərki dövrdən danışarkən Xaqani Şirvani və onun məşhur "Töhvətül-İraqeyn" əsəri haqqında da danışır.

Xaqani Şirvani böyük dühalı, böyük ilhamlı və ağır taleli bir şair olmuşdur. Onun faciəsi işıqlı, əzəmətli bir düha ilə dar, qaranlıq mühit arasındakı ziddiyətdə idi. Xaqanini bir sıra ədalət tərəfdarı şairlərdən ayıran cəhət, onun şeirində mübarizlik və ədalətin qələbəsinə tam inamın olması idi.

Biz ədl sarayıykən zülm ilə xərab olduq,
Zalımlar olan qəsrə gör neyləyəcək dövran!

A.Rüstəmova haqlı olaraq qeyd edir ki, Xaqaninin "Töhvətül-İraqeyn" əsəri epik şeir tarixində zəmanəyə, mövcud üsuli-idarəyə, haqsızlığa qarşı etiraz və üsyanın bədii ifadəsi idi. Tədqiqatda təkcə Orta əsr Azərbaycan poeziyasında deyil, bütün Yaxın və Orta Şərq ictimai-bədii fikir tarixində yeni bir dövr açmış Nizami Gəncəvi yaradıcılığı geniş şəkildə tədqiq olunur. Bütün tədqiqat boyu orta əsrlər Azərbaycan poeziyasının mütərəqqi estetik keyfiyyətləri, yaradıcılıq xüsusiyyətləri, romantizm və realizm məsələləri tədqiq olunur.

Klassik irsin problemləri mövzusundan danışdıqda elə realizm və romantizm məsələləri ətrafında daha çox danışmaq lazım gəlir. Ən başlıcası odur ki, Azərbaycan klassik şeirini, xüsusən orta əsrlər şeirini realizmdən təcrid etmək, onu romantik axın kimi səciyyələndirmək olmaz. Ümumiyyətlə böyük yazıçılarda romantizm və realizm üzvi şəkildə birləşmişdir. Onların bir əsəri realist; bir əsəri romantik də ola bilər. Məsələn, Nizami Gəncəvinin "Xosrov və Şirin" əsərində Nizaminin qəhrəmanlara münasibəti, onların psixoloji aləmini, bədii təsvir vasitələri realist boyalarla, insan ehtiraslarının konkret tarixi şəraitdə müvafiq real cizgiləri və ziddiyətləri ilə təsviri "Leyli və Məcnun"dakı xəyalın romantik uçuşlarından kəskin şəkildə fərqlənir. Bunları hiss etdiyi üçün Azadə Rüstəmova yazır: "Həqiqilik və gerçəkliyə riayət etmək - Orta əsrlər Şərq, eləcə də Azərbaycan romantik şeirinin qabaqcıl nümayəndələri yaradıcılıqda bu prinsipi əsas götürürdülər" (2, s. 54).

A.Rüstəmova tədqiqatında Şəms (XV əsr) və Kövsəri (XVI-XVII əsrlər) yaradıcılığını ədəbiyyat tariximizdə ilk dəfə olaraq ədəbi-estetik predmetin materialı kimi tədqiq edir. Həmçinin klassik Azərbaycan ədəbiyat müstəvisində Nizami-Həqiri-Füzuli "Leyli və Məcnun"ları, Nizami-Arif Ərdəbili - Kövsəri Xosrov-Fərhad-Şirinləri tədqiqata cəlb edilir.

Azərbaycan ədəbiyyatı tarixinin inkişaf mərhələlərinin təsnifatına əsasən intibah dövrü, orta əsrlər və erkən realizm dövrünü əhatə edən (1, s. 114) bu geniş tədqiqat işi klassik epik poeziyasının məntiq və təkamül dinamikasını, buradakı aparıcı ədəbi-nəzəri problemləri müəyyən faktik bədii material əsasında işıqlandıran ilk ümumiləşdirici tədqiqat xarakteri daşıyır.

---

[125] Azərbaycan Milli Elmlər Akademiyası Nizami Gəncəvi adına Ədəbiyyat institutunun doktorantı. rzayeva.nk@gmail.com

Ədəbiyyat siyahısı
1. Həbibbəyli İ. Azərbaycan ədəbiyyatı dövrləşdirmə konsepsiyası və inkişaf mərhələləri. Bakı: Elm, 2019, 450 s.
2. Rüstəmova A. Seçilmiş əsərləri: II cilddə, I cild. Bakı: Elm, 2014, 655 s.
Açar sözlər: klassik irs, poeziya, Azadə Rüstəmova, epik əsərlər, müqayisəli metod
Key words: classical heritage, poetry, Azade Rustamova, epic works, comparative method
Ключевые слова: классическое наследие, поэзия, Азаде Рустамова, эпические произведения, сравнительный метод.

Xülasə

Azərbaycan Milli Elmlər Akademiyasının müxbir üzvü, filologiya elmləri doktoru, professor Azadə Rüstəmova güclü analitik təfəkkürə malik olan müqayisəli idrak metodundan yerli-yerində, səmərəli istifadə edə bilən görkəmli ədəbiyyatşünas - alimlərimizdən idi.

Alimin doktorluq dissertasiyası olan "Azərbaycan epik şeirinin inkişaf yolları (XII-XVII əsrlər)" monoqrafiyası onun ilk fundamental tədqiqat işidir. Bu əsər klassik ədəbiyyatımızın təxminən 500 illik bir dövrünü əhatə edir. R.Azadə bu tədqiqat əsərində klassik epik şeirimizin ilk dəfə olaraq neçə-neçə şərhi vacib mövzu və problemlərinə işıq salmağa müvəffəq olmuş və müasir elmi düşüncə zirvəsindən bir sıra ciddi nəticələr əldə etmişdir.

Əsərdə klassik epik şeirimizin təşəkkül tarixinə qısa ekskurs edilir, onun formalaşmasında ilkin totemik-animistik obrazların, əfsanələrin, tarixi rəvayətlərin, dastanların, xüsusən ilk rüşeym şəklində, neçə minillikləri adlayaraq bizə gəlib çatan Azərbaycan-türk xalq nağıllarının mövqeyi vurğulanır.

Ədəbiyyatşünas alimin adı çəkilən monoqrafiyası Azərbaycan və bəlkə də, dünya nizamişünaslığında XII əsrin bu öndər şairinin sənət ecazlarını çağdaş təfəkkür işığında, geniş vüsətdə tədqiqata cəlb edən nəzəri-metodoloji bir araşdırmadır.

Klassik Şərq, o sıradan Azərbaycan şeirində metod və janr problemi R.Azadənin elmi fəaliyyətinin həmişə diqqət mərkəzində olmuş, əsərində Şərq-Azərbaycan romantizminin bədii-estetik komponentləri çərçivəsində nəzəri fikri istiqamətləndirən müddəalar irəli sürmüşdür.

Summary

Corresponding member of the Azerbaijan National Academy of Sciences, doctor of philological sciences, professor of strong analytical mind Azade Rustamova was one of our leading literary critics - scientists who can effectively use the comparative cognitive method how needed.

Scholar's doctoral thesis named "Development Paths of Azerbaijani Epic Poetry (XII-XVII Centuries)" is her first basic research work. This work covers a period of about 500 years of our classical literature. In this research, for the first time, R.Azade addressed many important issues and interpretation problems of our classical epic poetry. She has succeeded in clarifying and has achieved some serious results from the top of modern scientific thought.

In the work, a short tour is made of the formation history of our classical epic poetry, and the position of the first totemic-animistic images, legends, historical rumors, epics, especially Azerbaijani-Turkish folk tales are given. The first to us is highlighted in the formation, in the form of the embryo.

The aforementioned monograph of the scholar is a theoretical-methodological work that includes the artistic wonders of this leading poet of the 12th century in the light of contemporary thought in Azerbaijan and perhaps in the world. Classical East, method and genre problem in Azerbaijani poetry since then has always been the focus of R.Azade's scientific activity, and in her work she put forward propositions that guide theoretical thought within the artistic-aesthetic components of East-Azerbaijan romanticism.

Резюме

Член-корреспондент Национальной Академии Наук Азербайджана, доктор филологических наук, профессор с сильным аналитическим складом ума Азаде Рустамова была одним из ведущих наших литературоведов - ученых, умеющих эффективно использовать сравнительно-познавательный метод там, где это необходимо.

Докторская диссертация ученого под названием «Пути развития азербайджанской эпической поэзии (XII-XVII века)» является ее первой фундаментальной исследовательской работой. Эта работа охватывает период около 500 лет нашей классической литературы. В этом исследовании Р.Азаде впервые затронул многие важные вопросы и проблемы интерпретации нашего классического эпоса. Ей удалось внести ясность и добиться серьезных результатов с вершины современной научной мысли.

В работе сделан краткий экскурс по истории становления нашей классической эпической поэзии, дано положение первых тотемно-анимистических образов, легенд, исторических слухов, былин, особенно азербайджано-тюркских народных сказок. Первый нам выделяется в формировании, в виде зародыша.

Вышеупомянутая монография ученого представляет собой теоретико-методологическую работу, включающую художественные чудеса этого ведущего поэта XII века в свете современной мысли в Азербайджане и, воз-можно, в мире. Классический Восток, проблема метода и жанра в азербайджанской поэзии с тех пор всегда были в центре научной деятельности Р.Азаде, и в своем творчестве она выдвинула положения, направляющие теоретическую мысль в рамках художественноэсте-тических компонентов восточно-азербайджанского романтизма.

Rəyçi : dos. S Abbasova

Əliyeva Nuşabə Əjdər q., Novruzəliyeva Sevda Caid q.

VİDADİ BABANLININ "VİCDAN SUSANDA" ROMANINDA DÖVRÜN İCTİMAİ MÜHITIN TƏSVİRİ

Vidadi Babanlının "Vicdan susanda" romanı 70–80-ci illər Azərbaycan nəsrində, ümumən ədəbiyyatında əhəmiyyətli yer tutur. Romanda qaldırılan sosial, ictimai-siyasi, ailə-məişət problemləri bu gün də aktuallığını itirməmişdir. Bəlkə də müasir dövrümüzdə cəmiyyətdəki mənəvi-əxlaqi münasibətlərdəki, ictimai-siyasi mühitdəki çatlar əsərin əhəmiyyətini bir qədər də artırmışdır. İlk növbədə belə bir faktı vurğulamaq lazmdır ki, Vidadi Babanlının "Vicdan susanda" romanı çoxplanlı, çoxşaxəlidir. Yazıçı cəmiyyətdəki, insanların həyatındakı çoxsaylı problemləri müxtəlif istiqamətlərdən, cəhətlərdən təsvir etməyə, araşdırmağa müvəffəq olmuşdur. Başqa sözlə desək, yazıçı ayrı-ayrılıqda istehsalatı, elmi mühiti, kəndi, şəhəri, ailəni, cəmiyyəti təsvir etmişdir. Vidadi Babanlı bütün problemləri vahid məcraya yönəltməyə nail olmuş, əsərdə tamlıq, bütövlük yaratmışdır. Fikrimizcə, müxtəlif zümrələri təmsil edən obrazların koloritliyi, bütövlüyü, mürəkkəbliyi, canlılığı da məhz yuxarıda göstərilən, vurğulanan səbəblərlə, amillərlə bağlıdır, əlaqəlidir. Eyni zamanda Vidadi Babanlı yaxın keçmişdə ailədə, ictimai-siyasi münasibətlərdə baş verən hadisələrin unudulmadığını, yaddan çıxarılmadığını, ən başlıcan isə insanların sonrakı həyatlarında dərin izlər buraxdığını, bir an belə rahatlıq vermədiyini inandırıcı şəkildə göstərməyə müvəffəq olmuşdur. Bu mənada mübaliğəsiz söyləmək olar ki, Vidadi Babanlının "Vicdan susanda" romanı zamanı qabaqlayan əsərlərdəndir. Həm də romanda mövcud ictimai quruluşun, ideologiyanın prinsiplərinə, qanun-qaydalarına uyğun gələn məqamlar yox deyildir. Digər tərəfdən əsər sovet ədəbiyyatının əsas yaradıcılıq metodu, "ideoloji silahı" olan "sosialist realizmi"nin nəzəri müddəalarına uyğun gəlmirdi...

"Vicdan susanda" romanı gənc aspirant Vüqar Şəmsizadənin elmi rəhbəri Söhrab Günəşlinin evinə ayaq açması, getməsi ilə başlayır. İlk görüşdə baş verən tanışlıq hadisələrin hansı gözlənilməz istiqamətdə gedəcəyinə təminat vermirdi. Ancaq sən saydığını say... "Vidadi Babanlı xüsusi emosional ölçülərdə verdiyi təfərrüatlarda Vüqar obrazında özünü tapır, hiss və düşüncələrini təhlil edərək gerçəkliklərə bir addım da yaxınlaşır." (7, s. 3)

Vüqar Söhrab Günəşlinin həyat yoldaşı Mərhəmət xanımın onun həyatında, taleyində oynayacağı mənfi rolu bilsəydi, yəqin ki, həqiqi və mənəvi ata hesab etdiyi elmi rəhbərinin qapısının döyməzdi, açmazdı... Yəqin ki, səhvlərdən, səhv, yanlış addımlardan hələ heç kim sığortalanmayıb... Hələlik isə Vüqar sevincindən, gələcəkdə onu gözləyən xoşbəxt anlardan qanad alıb uçmaq istəyirdi. "–Sevin, yetim Vüqar, sevin! Gör üzünə necə qapılar açılır, necə xoşbəxt günlərin başlayır?! – deyə öz-özünə pıçıldadı. – Hələ bu harasıdır?! Aylar, illər ötəcək, vaxt gələcək, belə gözəl binaların birində də sən yaşayacaqsan. Sənin də mənzilinin qapısında iri hərflərlə professor filan – filankəs sözləri yazılacaq... Pəh-pəh!!

Vüqar xəyalından keçənləri bir anlığa gözləri önünə gətirdi. Sevinci lap aşıb – daşdı. Quş kimi qanadlanıb özünü bayıra atdı. Kənarlarında körpə çinar ağacları cərgələnmiş, seyrək gediş – gəlişli küçənin hamar səkisində əl-qolunu yellədərək, iti-iti addımladı" (2, s. 11). "Romanın hər bir hissəsində yeni pəncərə açılır. Hadisələr canlanır, yeni şəxsiyyətlərlə, insan taleləri ilə tanış oluruq. Lakin bütün bunlar müəllifin diqqətini əsas qəhrəmanlardan yayındırmır. Əksinə, bu, onların xarakterini daha geniş şəkildə göstərməyə kömək edir." (5,s.140) Vüqar xoşbəxtlikdən uça-uça elmi rəhbərinin evində baş verənləri sevdiyi qıza – Arzuya danışdı. Mədənsə Arzu bu xəbərə ürəkdən sevinmədi, qaşları çatıldı. Duyğuları, hissləri onu aldatmadı. Vüqarı vaxtında xəbərdar etdi... Onlar səni özlərinə kürəkən etmək istəyirlər. Vüqar qulaqlarına inana bilmirdi. Axı nə onun, nə də elmi rəhbəri, professor Söhrab Günəşlinin belə bir fikri yox idi... Vüqar elmi rəhbərinin düzgünlüyünə, doğruluğuna, təmizliyinə öz varlığı kimi inanırdı... Əlbəttə, professor Söhrab Günəşli düzgün olaraq romanda ideal insan, elmi işçi, rəbər kimi təsvir olunmuşdur. Ancaq Vidadi Babanlının "Vicdan susanda" romanında vurğulanır ki, insanın şəxsi xoşbəxtliyi üçün ideal insan, alim, vətəndaş olmaq kifayət deyildir. Ailə möhkəm, alınmaz qala olmalıdır.Nəyin bahasına olursa-olsun kənar müdaxilələr ailələrin daxilinə, sirlər, problemlər dünyasına ayaq açmamalıdır. Təsadüfi deyildir ki, Süleyman Rəhimovun "Mehman" povestində baş verən hadisələr yaddaşlardan silinməmişdir, qeyri-ixtiyari olaraq gözlərimiz qarşısında canlanır... Bu mənada Söhrab Günəşlinin evindəki "məcburiqonaqlıqla" Arzunun atası Ağarzanın evindəki "könüllü qonaqlığı" müqayisə etəmək yerinə dəşərdi, düzgün olardı. Baxmayaraq ki, Vüqarı birinci dəfə görürdülər. Ağarzagildə təşkil olunan qonaqlıqda Vüqar səmimiyyətin, doğmalığın, hörmətin, alicənablığın şahidi oldu. Belə bir ailə ilə qohum olmağı özü üçün böyük xoşbəxtlik kimi qəbul etdi... Ancaq, görünür, insanın həqiqi xoşbəxtliyə çatması müşkül məsələymiş... Nə qədər ki, paxıl, xydpəsənd, arxadan zərbə vuran insanlar vardır, həqiqi xoşbəxtlik bir çox məqamlarda əlçatmaz, ünyetməz olaraq qalacaqdır. Müasir dövrdə olduğu kimi... Vüqar Şəmsizadə Arzunun valideynləri ilə baş tutan görüşdən və qonaqlıqdan sonra özünü xoşbəxt, göyün yeddinci qatında hiss edirdi. Həmin gün onun namizədlik dissertasiyasının mövzusu təsdiq edilməliydi. Vüqar bir qədər müzakirəyə gecikdi. "Kim isə ötkəm – ötkəm deyirdi: - Aspirant Şəmsizadənin dissertasiya mövzusu ayrılıqda və geniş müzakirə olunmalıdır. Onun hesabatı keçirilsin başqa vaxta. Vüqarın ürəyi çırpındı. Bu kim idi? Hesabatı başqa vaxta saxlatdırmaqda məqsədi nə idi?... Vüqar birdən-birə içəri keçməyə ehtiyatlandı. Aralı qalmış qapını ehtiyatla bir az da araladı, danışan adamın üzünü görmək istədi. Lakin elmi rəhbərinin sakit və həlim səsi onu qabaqladı: - Bağışlayın, Bəşir Osmanoviç, fikriniz mənə çatmadı. Etirazınız nəyədir? Vüqarın narahatlığı gücləndi. Əlehdarının üzünü görə bilməsə də, Günəşlinin müraciətindən onu dərhal tanıdı. Bu, professor Bədirbəyli idi" (2,s. 35). Professor Bəşir Bədirbəylinin Söhrab Günəşliyə və onun aspirantı Vüqar Şəmsizadəyə bəslədiyi kinin, nifrətin dərin kökləri vardı. Bu ilk növbədə Bəşir Bədirbəylinin "başabəla alim" olmasıyla bağlıydı. Ancaq məsələ, "başabəla alim" olmaqla bitsəydi , dərd yarıydı. Bəşir Bədirbəyli qəddar, qaniçən, paxıl, xudpəsənd, yeniliyi sevməyən, "burda mənəm, Bağdadda kor xəlifə" prinsipləri ilə yaşayan alim və insandı. Bidadi Babanlı Bəşir Bədirbəyli kimi alimlərin keçmişinə dərindən və hərtərəfli ekskurs edir və onun kimliyinə aydınlıq gətirir. Yəqin ki, yoxsul, kasıb, proletar mənşəyindən yetərincə

istifadə edib elmin və vəzifə pillələrinin imkanlarından yararlanan Bəşir Bədirbəyli kimi ikinci bir adam, alim tapmaq çətindir. Söhrab Günəşli ilə Bəşir Bədirbəylinin konflikti istehsalatda başlayıb və sonralar elən aləminə "köç etmişdi..." Bəşir Bədirbəylinin atası inqilabdan əvvəl Bakıya – neft mədənlərində işləməyə gəlmişdi. Ağır həyat yaşadı. Atası vəfat etdikdən sonra Bəşir yetim qaldı. Ancaq gözlənilmədən üzünə Günəş doğdu. Sovet hakimiyyəti qalib gəldi. Keçmiş fəhlə –kəndli balalarının üzünə bütün qapılar açıldı. Ancaq öz proletar keçmişindən, mənşəyindən Bəşir kimi istifadə edənlər az tapılardı. Bunun üçün, şübhəsiz ki, şəxsi fərasət, xüsusi bacarıq lazım idi. Təbiət həmin xüsusiyyətləri Bəşirə artıqlaması ilə vermişdi. O, instituta da çək-çevirsiz, sorğu-sualsız götürüldü. Təhsilini tamanlayıb işə başlayanda yenə də bəxti özündən yeyin tərpəndi. Böyük bir neft emalı zavoduna təyinat aldı. Səyi, çalışqanlığı sayəsində yüksəldi. Üç il müddətində üç mühüm vəzifə dəyişdi, zavoda baş mühəndis vəzifəsinə keçdi. Haqq üçün, həmin illərdə zavodun işləri xeyli irəlilədi, yaxşı məhsul verdi. Qəzetlər qucağını Bəşirə geniş açdı. Müxbirlər qələmlərini xüsusi həvəslə itilədilər, ən qiymətli söz incilərini ondan əsirgəmədilər. Bəşir şişdi, nüfuz sahibi oldu. "Çox çəkəmədi ki, onu zavodlar birliyi idarəsinə rəis apardılar. Yuxarılı, aşağılı bütün təşkilat və müəssisə rəhbərləri Bədirbəylinin qulluğunda müntəzir durdular. Neft qabaqçıllarına mükafat vermək lazım gəldi, Bəşirin adı siyahıya ilkin yazıldı. Orden-medal söhbəti başlandı, Bəşir onun ən şərəflisini aldı. Bir yana hörmətli nümayəndə göndərmək məsələsi meydana çıxdı. Bəşir yenə unudulmadı. Yubiley gecələrində, təntənəli bayram şənliklərində də o, nəzər – diqqətdən kənarda qalmadı, fəxri rəyasət heyətinə seçilib, ən görkəmli yerdə əyləşdirildi." (2, s. 157). Müharibədən sonrakı illərdə ölkədə neft sənayesinə diqqət və qayğı artırılmışdı. Həmin dövrdə Bəşir yenə də yada düşdü. Onun "təcrübəsini" nəzərə aldılar, yeni yaradılmış elmi-tədqiqat institutuna direktor təyin etdilər. Burada da tale onun üzünə güldü. Qəzetlər onun "təcrübəsindən", "peşəkarlığından" geninə-boluna yazdılar. Bəşir Bədirbəylinin elmə gətirdiyi "yeniliklər" barəsində isə susurdular. Bəşir Bədirbəyli elm cəbhəsində də "xüsusi ustalıq", "məharət" göstərdi. Ətrafına yaltaqları, savadsızları yığdı. Ehtiyatlandığı, nüfuzundan, istedadından qorxduğu alimləri ustalıqla düşünülmüş hiylə və siyasətlə, tədbir və tədriclə institutun ictimai həyatından uzaqlaşdırdı. Necə deyərlər, "zərərsizləşdirdi". Bu "zərəsizləşdirilmiş" adamlardan biri və ən təhlükəlisi Söhrab Günəşli idi. Bədirbəyli hələ zavodlar birliyində rəis işləyərkən onunla bərk toqquşmuşdu. Günəşlinin zərbəsini dadmışdı. Qisasını qiyaməvə saxlamadı. Söhrab Günəşli zavodlar birliyində rəis işləyən Bəşir Bədirbəylinin "qınlıncının arxasının, qabağının kəsməsindən" qorxmayaraq, onun dissertasiyasının zəif olduğunu bildirməkdən çəkinməyərək mənfi rəy yazmış, geri qaytarmışdı. Bəşir Bədirbəyli elmi-tədqiqat institutunun direktoru olanda güc − bəla ilə namizədlik, doktorluq dissertasiyasını müdafiə etmişdi. Ancaq elmdə naşı, savadsız olduğunu Bəşir Bədirbəyli yaxşı bilirdi. Hər halda bunu etiraf etməyə gücü, cəsarəti çatardı. Əlbəttə, özü-özünə... Başqalarının yanında onun "dahi alim" olduğuna şübhə edənləri amansız şəkildə cəzalandırırdı. Ancaq hər yüksəlişin bir tənəzzül dövrü olur. Uzun müddət cəzasızlıq, elmsizlik, nadanlıq mühitində, şəraitində işləmək, yaşamaq bəzən qeyri-mümkün olur. Əks-təqdirdə, həyatda yaşamağın mənası olmazdı. Nəhayət, Söhrab Günəşlinin və digər qabaqcıl alimlərin birgə səyi, ardıcıl tələbi ilə onu institut direktorluğundan götürdülər. Bəşirin köpü yatdı. Buynuzu sındırıldı. Amma, o, özünü sındırmadı. Hiyləgərlik, mələk donuna büründü. Əvvəllər saymadığı, salam vermədiyi institut əməkdaşlarından "köməyini", "qayğısını", "məsləhətini" əsirgəmədi. Xeyirdə, şərdə fəal iştirak etdi. İnsanlara etdiyi pisliklərin, haqsızlıqların yuxarıların sifarişi ilə yerinə yetirdiyini dəfələrlə vurğuladı. Bu minvalla özünü, təmizə çıxardı, çoxlarının rəğbətini qazandı. Bəzi umu-küsülər, haqsızlıqlar yaddan çıxdı. Ancaq Bəşir Bədirbəyli heç nəyi unutmadı. Fürsət, məqam gözlədi. Söhrab Günəşlinin Vüqar Şəmsizadə kimi istedadı, parlaq gələcəyi olan aspirantın elmi rəhbəri olmasını sinirə bilmirdi. Vüqar Şəmsizadə bütövlüklə Söhrab Günəşlinin gəncliyini xatırladırdı. Sanki Söhrab Günəşli Vüqarın şəxsindəyenidən dünyaya və elm aləminə qədəm başmışdı. Məhz bu səbəbdən Bəşir Bədirbəyli var qüvvəsi ilə Vüqar Şəmsizadəni məhv etmək istəyirdi. Əvvəlcə Vüqarı ələ almağa çalışdı. Ağsaqqal "qayğısı", "hörməti" göstərdi. Vüqarın sınmadığını, tora düşmədiyini gördükdə açıq şəkildə hücuma keçdi. Yaşına, təcrübəsinə, ümumən insanlığa layiq olmayan tərzdə ifrat vicdansızlıq nümayiş etdirdi... Elmi şuranın iclasında vicdansız, qəddar, qaniçən insan və alim olduğunu bir daha sübut etdi. Ancaq zəmanə, dövran müəyyən mənada dəyişmişdi. Həqiqət, həqiqi elm uğrunda mübarizə aparanların sayı artmışdı. Söhrab Günəşli, Mürşüd Həmzəyev kimi alimlərin sayəsində Bəşir Bədirbəylinin əsassız elmi fikirləri, mülahizələri rədd edildi. Məğlub olan Bəşir Bədirbəyli isə sakitləşmək bilmirdi ki, bilmirdi. Qisas almaq üçün fürsət, məqam gözləyirdi. Tülkü kimi marığa yatmış, ilan kimi çalmaq üçün "səbirsizliklə" günlərini sayırdı. Aspirantının uğurlarına ata kimi sevinən, fərəhlənən Söhrab Günəşli güman edirdi ki, nə vaxtsa onun yaşadığı çətinliklər, faciələr Vüqardan yan keçəcəkdir. "Mənim gördüyüm dəhşətləri, həyatın ömür gödəldən, qan zəhərləyən açılarını sən görməyəcəksən. İnsanı insanlıqdan çıxaran zillətlərlə üzləşməyəcəksən. Nağıllardakı vahimələrin gerçəkliklərilə qabaq-qənşər gəlməyəcəksən. Maneələr, gözəgörünməz badalaqlar hiss etməyəcəksən. İndi zəmanə başqadır. Heç nə susdura bilməz səni" (2,s. 116). Nədənsə Söhrab Günəşli bir məsələni unutmuşdu. Əlbəttə, gənclik illərində onun qarşısına yuvarladılan "iri, canavar, tülkü xislətli canlı kötükləri" tamamilə yaddan çıxarmamışdı. Zəmanə, mühit, dövran dəyişmişdi. Ancaq, Bəşir Bədirbəylilər dəyişməmişdilər, daha da "təkmilləşmişdilər, təcrübələnmişdər", müasir dövrün mənfi metodları və üsulları ilə "silahlanmışdılar". Necə deyərlər, "ustalıqla", "pambıqla baş kəsməyi" öyrənmişdilər, "yaxud mənimsəmişdilər". Keçmiş "xidmətləri" də həmişə onların karına gəlirdi. Söhrab Günəşli qeyri-ixtiyarı olaraq keçmiş günləri, qaysaqlanan, amma sağalmayan yaraları,rahatlıq verməyən, yaddan çıxmayan anları, günləri, dəqiqələri, ayları, illəri yenidən ürək ağrısı ilə xatırladı. Dərindən ah çəkdi. Deyəsən, heç nə, heç kim unudulmamışdır... Söhrab Günəşlinin atası Murğuz Soltanoğlu köhnə inqilabçılardan, mətin bolşeviklərdən, kommunistlərdən olmuşdu. Uzun müddət Bakının neft mədənlərindən fəhləlik etmişdi. 20-ci illərdə kəndlərdə böyük dəyişikliklərin baş verdiyi bir zamanda geri qayıtmışdı. Qaçaqlara, quldurlara, oğrulara aman verməmişdi. Qaçaqlar ot tayasına od vurub, böyük oğlunu diri-diri doğramışdılar. Lakin Murğuz Soltanoğlunu susdura və sınıdra bilməmişdilər. Murğuz Soltanoğlu yeni bir güvvə ilə

düşmənlərlə mübarizəyə başlamışdı. Böyük oğlunun ölümü sinəsinə çalın-çarpaz dağ çəkmişdi. Murğuz Soltanoğlu, daha ehtiyatlı hərəkət etməyə başladı. Kiçik oğlu Söhrabı Bakıya oxumağa göndərdi. "Söhrabın alimlik istedadı tez parladı. Hələ üçüncü kursda ikən mətbuat səhifələrində elmi-nəzəri məqalələrlə çıxış etməyə başladı. O vaxt yenicə inkişaf yolu tapmış neft kimyasının mühüm problem məsələlərinə həsr olunmuş bu məqalələrdən bəziləri Moskvada da dərc olundu. İndiyə qədər çalışqan və tərbiyəli bir tələbə kimi yalnız fakültə daxilində tanınan Söhrabın şöhrəti bütün universitetə yayıldı. Onu "tələbə – alim" – deyə çağırırdılar. Tələbə qızlar arasında öz qızlıq qürurunu tapdayıb ona gizlindən məhəbbət məktubları yazanlar da az olmadı. Ancaq Söhrabın ağlını heç kəs oğurlaya bilmədi. Bu barədə hər cür söz-söhbəti kəsmək üçün o, şənlik gecələrinə, bayram yığıncaqlarına Zinyətlə qoşa gəldi. Şanlı məktubların arası əsildi. Təkcə bir nəfərin inadı yenilmədi. Həmin o bir nəfər Söhrab Günəşlinin indiki həyat yoldaşı Mərhəmət oldu. Həqiqətən taledən, fələyin acı, rəhmsiz, qəddarlıqla zəngin olan qismətindən qaçmaq, yaxa qurtarmaq müşkül məsələymiş... Mərhəmət Söhrabı addım-addım izlədi, müxtəlif bəhanələrlə ona yaxınlaşdı, hal-əhval tutdu. Söhrabın Zinyəti sevdiyini biləndə isə cin atına mindi. Dəlicəsinə yüyürüb özünü Zinyətin işlədiyi kitabxanaya çatdırdı. "- Sən Söhrabdan əl çək. O, mənimdir! – deyib hamının yanında ucadan çar çəkdi. Onun bu ərkli, inamlı sözlərini kənardan eşidənlər həm heyrətləndilər, həm də qəhqəhə çəkib güldülər. Zinyət özü də güldü: "- Sənindir, bəs niyə yanında olmur! – deyə ona etinasız cavab verdi. Mərhəmət qızışdı. Nəyəsə böyük gümanı olan adamlar sayağı ötkəm – ötkəm dedi:

-İndi olmasa da, gələcəkdə hökmən olacaq! Sənə bəri başdan xəbərdarlıq eləyirəm, əl çək ondan. Özünə get adam tap! Abırsız qızın bu sözlərinə də qaqqıldayıb gülüşdülər, əhəmiyyət vermədilər. Ağlı başında adam belə sərsəm danışmazdı. Amma kimin xəyalına gələrdi ki, bu sərsəmləmə bir vaxt həqiqət olacaq" (2,s. 88). Təəccüblü və qəribədir ki, həyatda çox zaman sərsəm insanların sərsəmləmələri tez və uğurla həyata keçirilir. Bu mənadaMərhəmətin Söhrab və özünün gələcək taleləri, birgə ailə həyatı istiqamətində qurduğu planların necə həyata keçirilməsini, təəssüflər olsun ki, çox gözləmək lazım gəlmədi. Dördüncü kursda, 1937-ci ilin əvvəllərində Söhrabı universitetin komsomol komitəsinə şağırdılar. Komsomol komitəsinin katibi Seyfəli Xalidov onu soyuqqanlılıqla qarşıladı. Eşitdiyi xəbər Söhrabı varından yox elədi, dərindən sarsıtdı.

Onun atası Murğuz Soltanoğlunu "xalq düşməni" kimi həbs etmişdilər. "Xalq düşməninin oğlu komsomolun sıralarında qala bilməzdi. Komsomoldan qovulmalı, universitetdən xaric edilməliydi. Elə də oldu. Söhrab Günəşli universitetdə və digər ictimai təşkilatlarda keçirilən iclaslarda "xalq düşmənlərinin", ifşa edilməsinin dəfələrlə şahidi olmuşdu. Bu düşmən "ünsürlərinə" qarşı mübarizə, ifşa Söhrabın ürəyində açıq nifrət və qəzəb hissi alovlandırmışdı. Onların əleyhinə iclaslarda neçə dəfə atəşin nitq də söyləmişdi. Ancaq indi çaşbaş qalmışdı. Atası doğrudanmı xalq düşməni idi? O, doğrudanmı öz Kommunist partiyasının əksinə, uğrunda min bir məhrumiyyətlərə dözdüyü bir hökumətin əleyhinə danışmışdır, işləmişdi? Bu qəbildən olan çətin, dolaşıq suallara cavab tapa bilməyən Söhrab Zinyətgilə yollandı. Əhvalatı olduğu kimi danışdı. Zinyəv evdə yox idi. Söhrab böyük ümüdlərlə onlara yollanmışdı. Ancaq gözlədiklərinin tam əksi oldu. 37-ci ilin dəhşətləri sadə, heç bir vəzifəsi olmayan insanları da vahiməyə salmışdı, qorxu işində saxlayırdı, "damoklov qılıncı" kimi başlarının üstündən asılmışdı... Heç kimi qınamaq olmurdu. Hərə öz başının hayına qalmışdı. Vəzifəsindən, mövqeyindən asılı olmayaraq istənilən adamı həbs edə bilərdilər. Səhər evdən çıxan insanların axşama sağ-salamat qayıdacaqlarına ümüd çox az idi. Ona görə də Zinyətin valideynləri Söhrabdan onlardan əl çəkmələrini, birdəfəlik unutmaqlarını xahiş etdilər. Həm özlərini, həm də Zinyəti xilas etmək üçün... Evə qayıdan "Söhrab keçmişləri xatırlaya-xatırlaya özü də hiss etmədən sakitlərdi. Qəlbinin dərinliklərində atasına olan inam hissi gücləndi. "Yox! – deyə hündürdən, bütün gücü ilə qışqırdı. – Yox, mənim atam düşmən ola bilməz! Uğrunda on beş yaşlı oğlunu, bütün var – yoxunu qurban verdiyi, can çürütdüyü bir hökümətin əleyhinə iş görməz! Səhv salıblar. Tezliklə, lap tezliklə məsələ aydınlaşar, həqiqət üzə çıxar" (2,s. 96). Həqiqət isə təxminən 20 ildən sonra üzə çıxdı... Həmin gündən Söhrabın ağır, məşəqqətli günləri başlandı. Bütün qapılar üzünə bağlandı... Zinyətdən isə heç bir xəbər çıxmadı. Valideynləri Zinyətə Söhrabın ata-anasının tutulduğunu, Sibirə sürgün olunduğunu, özünün isə kəndə getdiyini xəbər verdilər. Söhrab üçün demək olar ki, həyatın sonu gəlib çatmışdı. O, nə edəcəyini, hara gedəcəyini bilmirdi. Kirayə etdiyi mənzilində başını əlləri arasına alıb düşünürdü. Özünə qəsd etməyi fikrindən keçirirdi... Son dəfə Zinyətə məktub yazdı... "Əzizim Zinyət! Məni bağışla. Özümdən asılı olmayan günahlarıma, çarəsiz qəbahətimə görə bağışla. Mən səni xoşbəxtliyin ulu zirvəsinə çatdırmaq niyyətindəydim. Köhnə nisgilini qəlbindən, büsbütün silib bəxtiyar bir qadın etmək istəyirdim. Sənlə birlikdə özüm də bəxtəvər olmaq arzusundaydım... Bacarmadım. Unut məni. Həmişəlik unut!" (2,s. 101). Zinyət səhəri dirigözlü açdı. Səhər tezdən Söhrabgilə yollandı. Onu mənzilində tapmadı. İş yerinə gələndə Söhrab Soltanovun komsomoldan xaric edildiyini, universitetdən qovulduğunu eşitdi... Zinyət o gündən qara geydi. Daha heç vaxt eyni açılmadı. Nakam məhəbbətinə ömürlük yas saxladı... Söhrab bundan xəbər tutmadı. Yağışdan çıxıb, yağmura düşmüş, ikinci uğursuz addımdan da büdrəmiş Zinyəvtin nələr çəkdiyini bilmədi. Və heç bir zaman da bilməyəcəkdi!... Söhrab üçün isə, doğrudan da, dünyanın sonunun çatdığı bir məqam yetişmişdi... Qəflətən qapının təkrar-təkrar döyülməsi onu dərin, sonu görünməyən, çıxışı, nicat yolu olmayan düşüncələrindən ayırdı... Söhrab qarşısında polkovnik rütbəli bir insanın dayandığını gördükdə dərin təşviş hissi keçirdi, sonunun çatdığını güman etdi. Polkovnik Söhraba şeylərini yığışdırmağı, geyinib onunla getməsini əmr etdi. Həyətdə, qara maşın yox idi. Söhrab nisbətən sakitləşdi. Onlar birlikdə şəhərin mərkəzi məhəllələrinə tərəf getdilər. Söhrabı getdiyi evdə iki qadın mehribanlıqla qarşıladı. Qəribədir, onlardan biri Söhrabın dalınca sürünən Mərhəmət idi... Söhrabın xilaskarı isə atasının keçmiş tanışlarından idi. Dəfələrlə rayonda, Murğuz Soltanoğlunun evində qonaq qalmışdı...

Səhərisi gün polkovnik Söhraba düşdüyü vəziyyəti ətraflı şəkildə anlatdı. Atasının həbs olunduğunu bildirdi, Söhrabı kəndə getmək fikrindən birdəfəlik daşındırdı. Vəziyyətin ağırlığını, çıxılmaz vəziyyətdə olduğunu bir daha vurğuladı. "Xalq düşməninin" oğluna kömək etməyin, onu gizlətməyin ailə və həyat üçün hansı ağır nəticələrə gətirib çıxaracağını da

deməkdən çəkinmədi... Bir müddət sonra polkovnik Söhraba pasport düzəltdi, isi itirmək üçün familiyasını Günəşli yazdırdı. Moskvaya oxumağa göndərdi... Söhrabın həyatını, gələcəyini xilas etdi... Mərhəmət də sakit durmadı. Söhrab haqqında beynində planlaşdırdığı bütün fikirləri həyata keçirdi. Söhrab nə qədər çalışsa, səy göstərsə də Mərhəmətin inadla, böyük səbrlə qurduğu "məhəbbət torundan" yaxa qurtara bilmədi... İlk baxışdan çox xoşbəxt göründü. Neçə illər parklarda, küçələrdə Zinyəti axtardı, tapa bilmədi. İlk məhəbbətini unutmadan dəfn etdi... Atası Murğuz Soltanoğlu bəraət alıb Bakıya, oğlunun yanına qayıtdı. Ancaq köhnə bolşevikin, mətin kommunistin inamı tamamilə məhv edilmişdi. Söhrab Murğuzoğlunu çəkdiyi əzablardan, nahaqdan Sibirə sörgün olunmaqdan daha çox gördükləri narahat edirdi, dəhşətə gətirirdi. Uğrunda həyatını, ailəsini qurban verdiyi ideyalardan, prinsiplərdən, həyat tərzindən əsər-əlamət qalmamışdı. İnsanların baxışlarında sevincin, xoşbəxtliyin əlaməti hiss olunmurdu. İqtisadi, sosial, mənəvi-əxlaqi problemlərin, qayğıların sayı-hesabı yoxuydu... Bərabərlik, qardaşlıq, iqtisadi cəhətdən, müstəqillik ideyalarını əyən kökündən əymişdi... Baş verən hadisələrdə "yuxarılarla" bərabər, "aşağıların" da günahı az deyildi. Söhrab Günəşli bütün bunlara Bəşir Bədirbəylinin ətrafında olan insanlara vicdansız, qəddar, xudbin münasibətində əyani olaraq şahid olmuşdu. Söhrab Günəşli və Bəşir Bədirbəyli eyni ictimai quruluşda yaşayır, eyni elmi müəsisədə çalışır, eyni ideologiyaya xidmət edirdilər. Ancaq necə? Varaq-varaq "dillənən" xatirələr professor Söhrab Günəşlini yenidən real həyatı düşüncələrə, problemlərə qaytardı. Bəşir Bədirbəyli aspirant Vüqar Şəmsizadənin vasitəsi ilə Söhrab Günəşlini vurmaq, məhv etmək istəyirdi. Çünki Söhrab Günəşlinin elmi potensialı, gələcəyi, istedadı sevimli tələbəsi Vüqar Şəmsizdədə davam etməliydi... Bəşir Bədirbəyli "xüsusi bir uzaqgörənlik", "müdriklik", "canfəşanlıq" göstərərək problemi, məsələni rüşeym halında olanda, kökündən "həll etmək" istəyirdi. Bilirdi ki, elmi istiqamətdə olan mübarizələrdə, mübahisələrdə Söhrab Günəşliyə qalib gəlmək mümkün olmayacaq. Ancaq qətiyyən təslim olmaq fikrində deyildi. Gözlənilmədən Mərhəmət xanım həyat yoldaşının barışmaz, qəddar düşməninin "köməyinə" çatdı. Heç bir ailə dəyərləri, əxlaq, mənəviyyat, adət-ənənələr nəzərə alınmadı. Həm də Mərhəmət Bəşir Bədirbəylini yaxşı tanıyırdı. Gənclik illərində Söhratın başına acdığı oyunu qızı Alagözlə Vüqarın başına gətirmək fikrini qətiləşdirmişdi. Qarşılıqlı sevgi, məhəbbət kimi ülvi, müqəddəs hisslər, duyğular ona tamamilə yaddır. Bacısı qızı, əxlaq mücəssəməsi, gözəllər gözəli Şölənі zorla Bəşir Bədirbəylinin düzgün olaraq "çoxlu kəm-kəsiri olan insan" adlandırdığı Ziya Lələyevə ərə vermişdi. Şölə nadir hallarda gülümsəyir, başını qaldırmır, sanki "qızıl teştin içinə qan qusurdu. Şölənin həyatda sevginin, məhəbbətin mövcud olduğu haqqındakı fikirlərini xüsusi qəzəb, nifrətlə qarşılayır, susdururdu. Mərhəmət xanım bütün həyatı məsafələri öz arşınıyla ölçürdü. Kiminsə ona etiraz edəcəyini, məğlub olacağını ağlına belə gətirmirdi. Ancaq, deyəsən, daş qayaya rast gəlmişdi. Vüqar elmi rəhbərinin "cavanlıq səhvini" təkrar etmədi. Mərhəmət xanım Vüqarın Arzunu ürəkdən sevdiyini, ondan ayrılmayacağını bildikdə, cin atına mindi. Müxtəlif məkrli planlar üzərində baş sındırsa da, həyata keçirə bilmədi. Nəhayət, Bəşir Bədirbəylidən istifadə etmək qərarına gəldi. Bəşir Bədirbəyli belə fürsəti, məqamı çoxdan gözləyirdi. Göydə axtardığını yerdə tapmışdı. Həyatda, elm aləmində vicdansızlıq mücəssəməsi hesab edilən Ziya Lələyevi də bu isə qoşdular. Birləşib Elmi şuraya məktub yazdılar. Vüqarı əxlaqsızlıqda, Alagözü aldatmaqda, digər qızları bədbəxt etməkdə ittiham etdilər. Elmi şura üzvləri elmi problemi deyil, ailə, məişət məsələlərini müzakirə etməyə məcbur oldular. Söhrab Günəşli Bəşir Bədirbəylidən bu qəbildən olan vicdansızlığı gözləmirdi. Hər halda azərbaycanlı idilər. Bir çox müqəddəs ailə münasibətlərinə, adət-ənənələrə, yazılmamış qayda-qanunlara hörmətlə yanaşılmalı idi... "Günəşlinin də əsəbləri artıq gərilmişdi. Heyrətamiz dözümə, iradəyə malik bu sakit, müdrik adamın səbri dolub – daşmışdı. Alçaqdan, ürəkdolusu nifrətlə dedi:

- İnsafın, namusun olsun, Bəşir. Düşmənçiliyin, intiqamın da qaydası var. Kişi sözü danış. Bu cür alçaq böhtana bel qurşamaq namərd sifətidir!" (2, s. 331). Bəşir Bədirbəyli iclasın əvvəlindən özünü qalib, "qalalar fəth etmiş sərkərdələr" kimi aparırdı. Söhrab Günəşlinin qapısından qovanda bacasından girdiyi Ziya Lələyev Mərhəmətin Elmi şura üzvülərinə yazdığı məktubu oxudu. Hamının üzərinə sükut çökdü. Söhrab Günəşli ürəyini tuta-tuta iclası tərk etdi. Vüqar Şəmsizadəni isə otağı süpürən qadının səsi oyatdı. O, uzun müddət nə baş verdiyindən xəbərsiz oldu... Evə gələn professor Söhrab Günəşli son qərarını verdi. 37-ci ildə etdiyi səhvini cəzasını çəkdi və gec də olsa düzəltdi. " – Daha bəsdir! Bu son həddir!... İndiyəcən sənə çox şeydə gözəştə getmişəm. Çox təqsirini bağışlamışam. Və böyük səhv eləmişəm. Artıq yetər, kifayətdir! Səninlə ər-arvadlığımız bitdi. Nöqtəsi qoyuldu! – deyib əsəbi yeyinliklə iş otağına keçdi, qapını arxadan cingilti ilə kilidlədi" (2, s. 338). Doğrudan da, vicdanı susduqmaq ən böyük rəzalətdir. Vicdanını susduran insan şər də atar, cinayət də törədər. Bəşir Bədirbəyli, Mərhəmət, Ziya Lələyev kimi... "Vicdan susanda" romanında Vidadi Babanlının gəldiyi əsas nəticə məhz budur...

Ədəbiyyat

1. Babanlı V. Vidan susanda. Roman. Bakı, "Yazıçı", 1990, 528 s.
2. Babanlı V. Seçilmiş əsərləri. II cilddə. Bakı, "Şərq-Qərb", 2018, 783 s.
3. Cəfərov N. Vidadi Babanlı. Bakı, "Nurlan", 2010, 65 s.
4. Qarayev Y. Azərbaycan ədəbiyyatı XIX-XX yüzilliklərdə. Bakı, Elm, 2002, səh. 274-277
5. Məmmədov Ə. Azərbaycan bədii nəsri. Bakı, "Elm" 1983, 150 səh.
6. Vəliyev V.T. Müqəddəs ocağın istisi. // Ədəbiyyat və incəsənət, 1984, 22 iyun, s. 2.
7. Yusifli V.Ə. Vicdanı susmayan. // Azərbaycan gəncləri, 199, 7 aprerl, s. 3.

Keywords: novel, conscience, good, evil, epoch, setting

Ключевые слова: роман, совесть, добро, зло, эпоха, среда.

Açar sözlər: roman, vicdan, xeyir, şər, dövr, mühit

РЕЗЮМЕ

Изображение эпохи, общественной среды в романе ВидадиБабанлы «Когда совесть молчит»

` Роман известного азербайджанского писателя ВидадиБабанлы «Когда совесть молчит» занимает особое место в азербайджанской литературе 70 – 80-х годов XX века. Роман написан в 1968-ом году. И до сих пор о романе идут споры, литературные дискуссии.

Впервые в произведении показана научная среда, её проблемы. События, изображённые в романе, происходят в 30 – 50-е годы XX века. Главный герой романа – известный учёный, профессор СохрабГюнешли. Он человек бескомпромиссный, совестливый, учёный с большой буквы. Очень предан своей Родине, работе. Ведёт большую общественно-политическую и научную работу. Постоянно заботится о молодёжи. В этом видит смысл жизни. Но на этом поприще встречает немыслимые трудности. По мнению автора в жизни всегдаесть добро и зло. Со злом надо бороться всегда и везде. В статье анализируются вышеназванные проблемы.

SUMMARY

Description of the epoch and public setting in Vidadi Babanly's novel "When conscience conceals"

The novel written by Azerbaijani writer Vidadi Babanly "When conscience conceals" holds a special place in Azerbaijani literature in the 70-80th of the XX century. Though written back in 1968, there are still debates and literary discussions going around the novel.

His work piece points out the scientific setting and its concerns for the first time.

The events described in the novel take place in the 30-50th XX century. The main hero in the novel is a well–known scientist, professor Sohrab Gunashly. He is a person very attached to his Motherland and work. He performs major socio-political and scientific work and is constantly concerned about the youth as long as he sees the meaning of life in it. However, he faces unimaginable challenges in his efforts. According to the author, good and evil always coexist in life and we should always counter evil everywhere. The article casts light on the above concerns.

Rəyçi: dos.L.Ələkbərova

Ramiyə İskəndərzadə

QADIN AŞIQ SƏNƏTİNİN YARANMA TARİXİNDƏN

Azərbaycan aşıq sənətinin bir qolu olan qadın aşıq sənəti mənşəyi etibarı ilə bir tərəfdən folklora və ümumiyyətlə aşıq sənətinə, digər tərəfədən el şairliyinə bağlıdır. Folklorşünaslıqda bu sahə o qədər də sistemli şəkildə tədqiq olunmasa da, məlumdur ki, folklorun böyük bir hissəsi yaradıcı qadınlardır. "Layla"nın, "oxşama"nın, "əzizləmə'nin, "eydirmə"nin, "ağı"nın, "bayatı"nın (əksər hissəsinin), "nağıllar"ın və s. yaradıcısının əsasən qadın olması şübhə doğurmur. Eləcə də "atalar" sözünün, "holavar"ın, "sayacı" sözünün, "dastan"ın və s. - kişi yaradıcılığının məhsulu olması da müşahidə oluna biləcək səviyyədədir. Bu mənada söz sənəti dual (ikili) başlanğıca malikdir.

1. Ata sözü (və müvafiq olaraq kişi ədəbi irsi)
2. Ana sözü (və müvafiq olaraq qadın ədəbi irsi)

Qoşa başlanğıcdan gələn müxtəlif mərhələdə yaxınlaşmış və uzaqlaşmış (auditoriyanın tələbinə uyğun olaraq differensiallaşmış), amma bütün mərhələ və tarixin diskret kəsiyində fasiləsiz inteqrasiya olmuşdur. Başlanğıcda sosial situasiyanın diqtəsi ilə təbii şəkildə fərqlənən kişi və qadın el sənəti mədəni tərəqqi nəticəsində kişi və qadın məclislərinin sənətkar subyekti ilə təmin etmiş, toplunun estetik ehtiyacını ödəmişdir.

Təbii kı, qadın aşıq sənəti mənşə baxımından çağdaş aşıq sənəti ilə ortaq genetik qaynağa bağlı deyil. Folklorşünas H.İsmayılovun "Aşıq sənətinin inkişaf meyilləri" [1] adlı məqaləsində aşkarlanmış "Ata-Baba-Dədə-sufi, aşıq-sənətçi, aşıq" inkişaf prosesi və mərhələləri qadın sənətkar subyektini (və tipini) nəzərdə tutmur. Başqa sözlə, "qadın aşıq" tipi burada tamamilə kənarda qalır. Çünki "qadın aşıq" inkişaf prosesi və mərhələləri heç birində iştirak etmir. Əgər formal şəkildə həmin düsturu (Ata-Baba- Dədə) cəmiyyətin qadın hissəsinə tətbiq etsək, onda belə bir inkişaf xəttini nəzəri şəkildə (ehtimal olaraq) bərpa etmək olar: ana-nənə-cici-buta (məşuq), sənətçi qadın aşıq. Buraya bir tendensiya da əlavə etmək olar. Bu da türk dünyasında tanınmış düstur olan Azərbaycan aşıq sənətinin formalaşma tarixini, onun genetik qaynaqlarını izləyərkən onun bir çox mərhələlərdən keçdiyinin şahidi oluruq.

Türk təfəkkür tərzinin ilkin qaynaqlarından, əfsanələrdən, inanclardan üzü bən bu günümüzə qədər yaranıb formalaşan aşıq sənətində qadın sənətkarların özünəməxsus yeri və zəhmətləri olmuş, sadəcə olaraq onlar tarixin gözəgörünməz dərin qatlarından ötüb bu yana keçə bilməmişdir.

"Dərviş-Qazi-Alp Ərən"dir. Adından və mahiyyətindən göründüyü kimi, bu düstur qadın aurasına daxil deyil. Bu fakt bir daha xatırladır ki, "qadın aşıq" ifadəsi gerçəklikdən uzaqdır. Amma bütün hallarda qadın aşıq sənətinin kökü ana və nənə laylasından, oxşamasından, ağısından və s.-dən - el şairliyindən gəlir. Musiqi sənətkarlığı isə həm aşığa, həm də ozana bağlanır. Folklor informasiyasından görünən "qadın aşıq" obrazının təhlilinə yer verməyimiz, heç də hərfi mənada qadın aşıq sənətkar subyektinin bu sənətin içində olan bir hadisə kimi götürülməsi təsəvvürünü yaratmamalıdır.

Tariximizin qəhrəmanlıq səhifələrində Azərbaycan qadınının öz şöhrəti, öz şərəfli yeri vardır. "Kitabi Dədə Qorqud" qəhrəmanı igid Buğaca süd verən anası, Koroğlunun sadiq Nigarı, Qaçaq Nəbinin silahdaşı, qoçaq Həcər - xalqımızın iftixarıdır. Məğrur, əyilməz bir qızın şərəfinə Bakıda möhtəşəm qala ucaltmış şair xalqımız ən füsünkar guşələrinə şairanə adlar verib - Qızbənövşə yaylağı, Qırxqız bulağı, Gəlin qayası...

Xalqımızın keçmişində müdrik hökmdar da olub, tədbirli dövlət xadimləri Sara xatun da, Tuti Bikə də... [2, s.3]. Bu sətirlərin, sözlərin müəllifi qadın sənətkarın nə kimi cəfakeş ömür sürdüyünə bələd olan Azərbaycan şairəsi Nigar Rəfibəylidir. Qadın sənətkarların yaradıcılıq zəhmətinə böyük qiymət verən Nigar xanım fikrini davam etdirərək yazır: "Sənət, şer həmişə zəhmətlə yaranır. Qadın sənətkarların zəhməti bəlkə də ikiqatdır. Ədəbiyyat tarixinin böyük simaları - antik yunan şairəsi Safodan, XX əsrdə yazıb yaratmış, Nobel mükafatı lauryatı Qabriella Mistrala qədər bir çox qadın sənətkarlar həyatlarının və peşələrinin bu ikiqat çətinliyindən dönə-dönə danışmışlar. Sevgilərinə, ailələrinə, əzizlərinə sədaqətlə, ilhamla şerlər həsr etmişlər" [2, s.4-5]. El nəğmələrini, toy mahnılarını, laylaları, ağıları, müxtəlif qadın əmək nəğmələrini oyun və s. folklor janrlarında qadın sənətkarların rolunu nəzərə alsaq, onda onların zəhmətlərinin möhtəşəmliyi göz önündə canlanar.

Azərbaycan qadın aşıq sənətinin formalaşmasında ilkin mənbə kimi mühüm rol oynayan cəhətlərdən biri də əmək və mərasim nəğmələridir. Əmək prosesində qoşulan bu nəğmələr xüsusi bacarıq, istedad, söz qoşmaq qabiliyyəti, incə, yatımlı səs tələb edir. Peşə nəğmələrindən gümçü (barama yetişdirən) nəğmələri, hana nəğmələri tamamilə qadın yaradıcılığının nümunələridir. Bu nəğmələr istər poetik cəhətdən, istərsə də məzmunca yüksək estetik zövqdən, bədii təxəyyüldən xəbər verir:

Evin direyi,
Gəlin gərdəyi,
Gülün qonçası, Evin xonçası, Güllü gözəlim.
Qırmızı kəlim,
Qəmim, məlalım,
Səbri, qərarım,
Ala göz sonam,
Xan qızım Hanam [3, s.29]

Doğum nəğmələri, toy nəğmələri, ağılar, laylalar qadın poetik yaradıcılığının zərif, gözəl nümunələridir ki, bütün bunlar qadın aşıq sənətinin formalaşmasında, təşəkkülündə mühüm amillərdən biri olmuşdur. Xüsusən bu janrlar içərisində

toy nəğmələri və yasda oxunan ağılar, qədim "Yuğ" mərasimi və Ölləng mərasimləri ilə əlaqədar olmuşdur. Maraqlı cəhətlərdən biri də budur ki, qədim türklər yas mərasimlərində "Yuğ'larda qopuz çalıb ağılar söyləmişlər.

Vaxtı ilə Ə.Haqverdiyev yazırdı ki, Qədim Azərbaycanda ölən böyük qəhrəmanlar üçün ağlamaq bir adət idi. Qəhrəman ölən günü camaatı bir yerə toplayırdılar. Toplantıya "Yuğ" deyərdilər. Toplantılar üçün qonaqlıq düzələrdi, xüsusi dəvət edilmiş "yuğçular" isə iki simli qopuz çalıb oynayırdılar [4]. Buradan göründüyü kimi "yuğçü'luq xüsusi peşə olmuş, onu həm kişilər, həm də qadınlar ifa etmişlər [5, s.11-192].

Bütün bu folklor yaddaşından mühüm bir amil bizə gəlib çatır ki, bir sıra poetik nümunələrin yaranmasında bilavasitə qadın-xatun iştirak edir, mahnı qoşur, söz söyləyir, ifa edir. Bütün bunlar isə qadın aşıq sənətinin yaranmasına və ta ilkin mərhələdən qadınların bu sənətin formalaşmasında iştirakına dəlalət edir.

Sənətin incəliklərinə bələd olan qam-şamanların əksəriyyəti qadınlardan ibarət olmuşdur. Şaman və qamların hamısı olmasa da, tarixdən məlum olur ki, bu sənətin aparıcı çoxluğu qadınlara məxsus olmuşdur. Bu cəhətdən M.Seyidovun Şəmsəddin Səmərqəndidən gətirdiyi misal səciyyəvidir: "Bəzən də bakirə qız kahinlər, (qam şamanlar -M.S.) musiqi və oxuyanların (xanəndələrin) müşayiəti ilə rəqs edir. Bu qız yorulduqdan və havasızlıqdan boğulmaq dərəcəsinə gəlir... Qızın bu vaxt söylədiyi sözlər və sorğulara verdiyi cavablar əsas götürülürdü" [5, s.293].

Azərbaycanda qadın problemlərinin ən yaxşı bilicisi Y.V.Çəmənzəminli yazırdı: "Şifahi ədəbiyyatımızın əksər hissəsi bütün lətafət və zərafəti ilə bərabər qadın fikrinin məhsuludur" [6, s.177]. Qadın aşıq və şairlərinin tədqiqatçısı Ə.Cəfərzadə çüng və təzgirələrdən 50-yə qədər aşıq və şairin yaradıcılığı nümunələrini toplayıb nəşr etdirdiyi əsərə yazdığı müqəddəmədə göstərir: "Bu qadınların bir qismi saz çalmış, şairlərlə müşairəyə çıxmış, həm şer, həm də musiqi sənətinə bələd olmuş və haqlı olaraq aşıq adını qazanmışlar. Bir qismi isə saz çalıb aşıqlıq etməmişsələr də, yenə xüsusi təhsil görmədən, bədahətən şer söyləyən şairlər olmuşlar. Buna baxmayaraq onları da "aşıq" adlandırmışlar" [7, s.178-179]. Dastan yaradıcılığında qadın aşığın olması ehtimalını Ə.Cəfərzadə 70-ci illərin ortalarından ehtimal etsə də, sonralar bu "ehtimalın" üzərində dayanmamışdır. O yazırdı: "Bəzi qadın aşığın müəyyən bir dastanın qəhrəmanı olmaq ehtimalı var, lakin biz belə xətalardan bacardıqca qaçmağa çalışmış, əsasən yazılı mənbələri, cüng və təzkirələri nəzərə almışıq" [6, s.180].

Dərbəndli aşıq Zərnigarın Qarabağlı Abdal Gülablı aşıq Valehlə deyişməsi tarixi gerçəklikdir ki, bu hadisə "Valeh və Zərnigar" dastanının yurd yerinin əsasını, süjet xəttini təşkil etmiş, qüdrətli bir qadın aşığın adının qorunub saxlanmasına səbəb olmuşdur.

Qadın aşıqlarla deyişmə qadınların saz-söz meydanına gəlməsilə əlaqədar sonralar da müxtəlif süjetlər yaranmışdır. Onlardan biri də "Kərim Süsən" və yaxud "Ordubadlı Kərimin nağılı" adlı məşhur dastandır. Burada aşıq Hüseynin Reyhan xanımla deyişməsi diqqəti cəlb edir və süjet Naxçıvanda Süsən, Reyhan adlı qadın aşıqlarının olmasından soraq verir. Bu dastanlarda da süjet eynən təkrar olunur, qadın aşıqlar kişi aşıqları söz meydanına çağırırdılar [7, s.82-83].

"Koroğlu" dastanında sevinəndə "hörüyündən üç tel ayırıb, mərmər sinəsinə sıxıb" qoşma söyləyən, oxuyan, dərdini, qəmini, sevincini ifadə edən ala gözlü Nigar xanım tarixi şəxsiyyət və ya qadın-xatun sayıla bilərmi?

Bağçalar olmasın narsız,
Heyvalar olmasın barsız, Heç gözəl olmasın yarsız, Ay bu gələn yar olaydı!
Ay bimürvət çıxdı canım, Müjganların tökdü qanım, Sənə qurban Nigar xanım, Ay bu gələn yar olaydı [8, c.4, s. 187].

Bu bənddəki incə ruh mərhəmliyin duruluğu, sözün məna çalarlarının zənginliyi, qadına məxsus hissin gözəlliyi, Nigar xanımın şairlik - aşıqlıq bacarığından xəbər vermirmi? Bu misraları yalnız ana, eşq ilə döyünən bir ürək sahibi, qadın-xatun deyə bilərdi.

Necə baxım ev, eşiyə,
Yaralı könlüm üşüyə,
Toz bürümüş boş beşiyə,
Şirin layla çalan yoxdur [8, c.4, s.112].

"Qaçaq Nəbi" dastanının yaranma və formalaşma tarixinə ötəri nəzər salaq. Buradakı dastan qəhrəmanlarının əksəriyyəti, xüsusən Qaçaq Nəbi və Həcər xanım obrazları gerçək həyati faktlardır. Hətta belə bir ehtimal var ki, Qacaq Nəbinin həlak olmasından sonra uzun müddət yaşamış Həcər xanımın "Qaçaq Nəbi" dastanının yaranmasında xidməti və yaradıcılığı olmuşdur. Hətta H.Əlizadə "El aşıqları" kitabında Həcər xanım imzası ilə təqdim olunan qaşmaların əksəriyyəti bu dastanın süjeti olmuşdur [9, s.84].

Bütün bunlar imkan verir ki, dastan yaradıcılığında tərəf müqabil kimi usdad aşıqlarla sinə-sinəyə gələn, onlarla süjet boyu deyişən, qarşılaşan, hətta "buta" sayılan tərəfdə qadın xatun aşıq yaradıcılığının real izlərini, faktlarını ortaya çıxaraq.

Aşıq şerində deyişmədən söhbət açan M.H.Təhmasib bu cəhəti müşahidə edərək yazır: "Ancaq deyişmələr yalnız kişi aşıqları arasında olmamışdır. İslam dininin şəriət qanunlarının bütün qadağalarına baxmayaraq bizdə müxtəlif əsrlərdə çox görkəmli şairələr, qadın aşıqlar da yetişmişdir. Belə şairələrin kişilərlə deyişmələri haqqında müxtəlif rəvayətlər olduğu da məlumdur. Uzaq keçmişin Məhsətisi, XIX əsrin Natavanı, Aşıq Pərisi, Fatma xanım Kəminəsi, XX əsrin Zərnişanı (Xızılı), nəhayət müasir Azərbaycanın Aftab, Mehri, Əsli, Nabat kimi qadın aşıqlarını xüsusilə qeyd etmək olar. Sairlər tərəfindən deyişməyə, müsabiqəyə dəvət olunan aşıqların sərgüzəştlərinə həsr edilmiş dastanlarımız da az deyildir. Belə şairlərin bəzilərinin, hətta "Valeh-Zərnigar" da olduğu kimi 39 aşığı məğlub edib zindana salınmasından danışılır [10, s.50].

Qadın aşıqlarla deyişmələrin tarixi qədimdir. Bununla bağlı müxtəlif rəvayətlər də vardır. Onlardan biri Sarı Aşığın adı ilə bağlıdır. Rəvayətdə deyilir ki, Sarı Aşıq Araz qırağında bir dəstə qızla rastlaşır. Onlar aşığı imtahana çəkmək qərarına

gəlirlər. Saza- sözə bələd olan dilli-dilavər qızlardan biri qabağa çıxıb aşığı deyişməyə çağırır və gözlənilmədən bayatı ilə soruşur:

Aşıq bənək-bənəkdir,
Xalın bənək-bənəkdir.
Səndən soruşum aşıq, Araz neçə sənəkdir?

Həmin qızın bu sualı elə-belə deyildir, burada dərin ağılın, dərrakənin izləri əks olunur. Çətin qəfil sual qarşısında Sarı Aşıq aciz qalmır, qıza belə bir qaytarma ilə cavab verir:

Ay qız bənək-bənəkdir,
Xalın lənək-lənəkdir.
Çağır Araz dayansın,
Ölçüm neçə sənəkdir! [11, s.62].

Aşığın bu cavabı qızları razı salır.

Bütün bunlar göstərir ki, Azərbaycan aşıq sənətinin formalaşması və təşəkkülü yolunda qadın xatun yaradıcılığının mühüm rolu olmuş və aşıq sənətinin genezisində duran ilkin mərhələ hesab edilən qam - şaman mərhələsindən tutmuş aşıq sənətinin formalaşmasına qədər qadın söz sənətkarları da fəaliyyət göstərmişlər və zəngin sənət nümunələri yarada bilmişlər.

Artıq XIX əsr Aşıq Pəri yaradıcılığı ərəfəsində Azərbaycan aşıq sənətində profesional, usdad aşıqlarla qadın aşıq sənətkarları da mövcud olmuş və Aşıq Pəri bu ənənələri yeni tərzdə davamçılarının bünövrəsində dayanmış Azərbaycan qadın aşıq sənətinə təzə nəfəs və üslub gətirmişdir.

Təbii ki, bu məsələyə baxışın folklor informasiyasından görünən hissəsidir. Nəzərdən qaçırmayaq ki, folklorda qadın - aşıq obrazının mövcudluğu faktı hələ aşıq sənətinin bütün kriteriyalarına cavab verən qadın aşıqlarının mövcudluğu faktı deyildir. Amma bununla yanaşı aşıq üslubunda söz qoşan, saz çalan və bunları yüksək səviyyədə ifa etməyi bacaran qadın sənətkarların olduğunu inkar etmək mümkün deyildir.

Ədəbiyyat siyahısı

1. İsmayılov H. Aşıq sənətinin inkişaf mərhələləri// "Dədə Qorqud" jurnalı, №1, 2, Bakı, 2001
2. Rəfibəyli Nigar. "İşıqlı həyat həsrətində" məqaləsi. Azərbaycanda aşıq və şair qadınlar. Bakı: Gənclik, 1974, 184 s.
3. Nəbiyev A. Azərbaycan folklor jurnalı. ADU-nun nəşri, Bakı, 1983, 83 s.
4. Həkimov M. Aşıq şerinin növləri. Bakı: APİ-nun nəşri, 79 s.
5. Seyidov M. Azərbaycan mifik təfəkkürün qaynaqları. Bakı: Yazıçı, 1983, 325 s.
6. Cəfərzadə Ə. Azərbaycan ədəbiyyatında XIX əsrdə aşıq tərzində yazan şairlər (doktorluq dissertasiyasının mətni). BDU-nun kitabxanası, 1970, 350 s.
7. Paşayev S. Azərbaycan folkloru. BakcGənclik, 1989, 87 s.
8. Azərbaycan dastanları, 5 cilddə, IV cild, Bakı: Elm, 1969, 506 s.
9. Əlizadə H. El aşıqları, Bakı: Azfan, 1936, II cild, 1938, 480 s.
10. Təhmasib M. Azərbaycan xalq dastanları. Bakı: Elm, 1972, 397 s.
11. Paşayev S. El yaddaşı dinəndə. Bakı: Ozan, 1992, 325 s.

Xülasə:

Məqalədə, Azərbaycan aşıq sənətinin qədim kökləri əsrlərin dərinliyinə gedib çıxan hər bir sənət növü olub milli təfəkkürün formalaşmasında mühüm rol oynamışdır. Azərbaycanın aşıq sənətinin qaynaqlarını, etnogenik mənşəyi izlənməklə mülahizə və fikirlər ümumiləşdirici şəkildə, aşıq sənətinin genetik qaynaq düzümünə - ozan və qam-şaman ilkin olmaqla qadın aşıq sənətinin yaranma tarixinə nəzər salınmış, aşıq sənətində qadın aşıq yaradıcılıq qolunun formalaşması və təşəkkülü haqqında məlumat verilmişdir. Azərbaycan qadın aşıq yaradıcılığının tarixi təkamül yolunun izlənməsi, bu yaradıcılığın mahiyyəti qeyd olunmuşdur. [f] "

Резюме:

В статье, посвященной истории создания женского ашугского искусства, говорится, что каждый вид искусства, древние корни которого уходят в глубь веков, сыграл важную роль в формировании национального мышления. Следуя этногенетическому материализму источников ашугского искусства Азербайджана, мнения были обобщены, был рассмотрен генетический источник ашугского искусства - история создания женского ашугского искусства, включая Озан и гам-шаман, дана информация о формировании и становлении женской ашугской творческой ветви ашукского искусства. Было отмечено, что азербайджанское женское ашигское творчество следует по пути исторической эволюции.

Summary:

In an article titled the history of female ashug art, Azerbaijan ashug art has played an important role in the formation of National thinking, each of which has ancient roots for centuries.

Following the ethnogenetic product of Azerbaijani ashug art, judgments and opinions were generalized, the genetic source of ashug art, the history of the creation of female ashug art, being the primary Bard and qam - shaman, was given information about the transformation and formation of female ashug creative branch in ashuk art.

The essence of this creativity was noted following the historical evolution of Azerbaijani female ashig creativity.

RƏYÇİ: dos. E.Vəliyeva

Белла Тофиг гызы Агаева[126]

МАШИННЫЙ ПЕРЕВОД КАК НАПРАВЛЕНИЕ ИСКУССТВЕННОГО ИНТЕЛЛЕКТА. ЛИНГВИСТИЧЕСКИЕ ПРОБЛЕМЫ МАШИННОГО ПЕРЕВОДА

Понятие машинного перевода. Термин машинный перевод (МП) можно понять, по меньше мере, в двух смыслах. Машинный перевод в узком смысле этого слова – это процесс перевода некого текста с одного языка на другой, осуществляемый компьютером полностью или практически полностью. При данном виде машинного перевода, в компьютер вводится текст, без каких-либо указаний относительно его словестной части, а на выходе получаем текст на другом языке, который является переводом исходного текста, причем трансформация входного текста в выходной происходит без вмешательства человека. Хотя в некоторых случаях возможно постредактирование. Машинный перевод в самом широком понимание – это сфера научных исследований, происходящих на стыке лингвистики, математики, кибернетики, с целью построение систем, осуществляющих непосредственно сам машинный перевод.

Основные стимулы развития исследований в области МП. В современно мире принято выделять два основных стимула к проведению исследований и развитию в области машинного перевода. Первый стимул – это непосредственно научный. Он характеризуется комплексностью и сложностью компьютерного моделирования перевода. В качестве языковой деятельности процесс перевода затрагивает все уровни языка – от распознавания графем в письменном переводе, а при переводе устной речи фонем, до передачи смысла переводимого текста. Более того, для перевода возможна, так называемая, обратная связь, то есть можно непосредственно проверить теоретические предположения об организации и функционирование тех или иных языковых уровней. А также возможность на практике проверить эффективность предлагаемых алгоритмов. Эта специфическая черта перевода в целом и особенно машинного перевода продолжает привлекать внимание теоретиков, в результате чего про разрабатываются все новые теории автоматизации перевода, а также происходит формализация языковых данных и процессов. Второй стимул развития систем машинного перевода – социальный. Он основан на все возрастающей роли практики машинного перевода в современном мире. В настоящее время машинный перевод – это необходимое условие для обеспечения межъязыковой коммуникации, масштабы которой возрастают с каждым годом. Альтернативный вариант преодоления языковых барьеров при межъязыковой коммуникации, а именно разработка или внедрение в практику единого языка, а также изучение иностранных языков – не могут сравниться по эффективности с машинным переводом. Принимая во внимание все выше изложенное, можно смело утверждать, что альтернативы машинному переводу в настоящее время нет. Следовательно, дальнейшая разработка и развитие качественных и высокопродуктивных систем машинного перевода способствует разрешению важных социально-коммуникативных задач.

Преимущества машинного перевода. Основным преимуществом машинного перевода является высокая скорость перевода по сравнению с традиционными способами перевода. Внедрение систем машинного перевода способствует значительному сокращению времени, необходимого для перевода текстов различной сложности и тематики. Также с числу преимуществ можно отнести и низкую стоимость машинного перевода. Обращаясь к услугам профессиональных переводчиков, мы платим деньги за каждую страницу перевода. Зачастую нет необходимости в получении идеального перевода текста, достаточно просто быстро понять смысл текста или содержания страницы в Интернете. В этом случае машинный перевод, без сомнений, является предпочтительным по сравнению с традиционным переводом. Машинный перевод становится все более надежным и эффективным помощником. Еще одним преимуществом машинного перевода является его высокая конфиденциальность. Многие пользователи компьютерных сетей регулярно используются системами МП для перевода личной корреспонденции. Ведь не каждый человек согласен доверить постороннему переводчику свою личную переписку или перевод финансовых документов и отчетов. Универсальность также можно отнести к преимуществам машинного перевода. Каждый профессиональный переводчик, как правило, имеет свою область специализации по переводу текстов конкретной тематики. Переводчик, работающий с литературными текстами не всегда способен выполнить на высоком уровне перевод технических или информационных текстов. Программа-переводчик способна переводить тексты из самых разных областей знаний и самой разной тематики. Для верного перевода специальных терминов достаточно наладить соответствующие настройки. Современные системы машинного перевода способны выполнять перевод в режиме онлайн, что очень удобно при переводе содержания Интернет-страниц и прочих Интернет ресурсов. Преимущества онлайн-перевода информации также очевидны и неоспоримы. Сервисы онлайн-перевода всегда доступны и в любой момент помогут в переводе необходимой информации, если у вас нет под рукой

126 Бакинский славянский университет

программы-переводчика. Более того, используя системы перевода можно переводить содержание интернет страниц и запросы поисковых систем.

Виды и стратегии машинного перевода. Можно выделить две основные классификации типов перевода: a) принимая за основу характер переводимых текстов (жанрово-стилистические особенности оригинала); b) принимая за основу характер речевых действий переводчика в процессе перевода (формы перевода). В жанрово-стилистической классификация переводов, в зависимости от жанрово-стилистических особенностей оригинала, принято выделять три функциональных вида перевода: художественный; общественно-политический; специальный.

Классификации по формам перевода. При классификации по формам перевода принимается во внимание способ, при котором осуществляется перевод и выделяются следующие подвиды: письменный (письменно-письменный, зрительно-письменный, письменный перевод на слух); устный (устный перевод на слух, зрительно-устный перевод или перевод с листа, т. е. устный перевод зрительно воспринятого исходного письменного текста). При машинном переводе легче всего иметь дело с письменным переводом. Тогда как при машинном переводе устной речи появляются дополнительные задачи, такие как распознавание и синтез устной речи.

Виды машинного перевода по степени автоматизации. По степени автоматизации выделяют следующие виды машинного перевода: полностью автоматический; автоматизированный машинный перевод при участии человека (с пред или постредактированием); перевод, осуществляемый человеком, с использованием компьютера (например, с использованием электронных словарей, баз данных и прочих справочных ресурсов).

Стратегии машинного перевода. Системы машинного перевода первого поколения в основном создавались в период с конца 40-х до середины 60-х гг. Первые системы машинного перевода основывались на принципе прямого или пословного перевода. Суть этого принципа заключается в том, что исходный текст на входном языке постепенно проходя через ряд этапов преобразуется в текст выходного языка. Преобразования подразумевают замену слова или словосочетания на входном языке на его полный эквивалент на выходном языке. В системах первого поколения, использующих тактику прямого или пословного перевода, не было необходимости в моделирование функционирования языковой системы в целом. Для функционирования подобных систем было достаточно выявить правила словарных соответствий. В редких случаях проводился анализ контекста с целью перевода неоднословных выражений, которые были представленных в словаре данной компьютерной системы. Необходимо отметить, что при прямом переводе не делается различий между пониманием, то есть анализом и синтезом, то есть воспроизведением, поскольку это невозможно по правилам словарных соответствий. Как правило, прямой перевод всегда бывает привязан к конкретной паре языков. При этом, многозначность выражений входного языка допускается только в той мере, в которой это необходимо для выходного языка. Значительное изменение стратегии прямого перевода обнаруживается в системах с трансфером. В системах с трансфером этапы межъязыковых операций не ограничиваются заменой лексем входного языка на словарные соответствия выходного языка. В системах типа трансфера присутствие этапа трансфера подразумевает наличие «промежуточного» или «внутреннего» представления, которое далее «приспосабливается» к структуре предложения языка перевода. В отличие от первого варианта, в системах машинного перевода с трансфером, анализ, то есть понимание и синтез присутствуют как особые процедуры и обслуживаются различными алгоритмами. Появление идеи трансфера послужило толчком к развитию систем перевода, имеющего в своей основе глубинный лингвистический анализ. При данной системе перевода подразумевается анализ входного текста на всех языковых уровнях, а именно на морфологическом, синтаксическом, семантическом и прагматическом. Наряду с этим подразумевается многоуровневый синтез выходного текста. В результате критики стратегии прямого перевода появилось понятие языка-посредника (интерлингвы). Характерная особенность этой стратегии состоит в том, что между структурами входного языка и структурами выходного языка располагаются один или несколько промежуточных языков. На эти языки по соответствующим правилам последовательно «переписываются» выражения входного языка. При использовании языка-посредника понятия анализа и синтеза принципиально не совпадает и разделяется. Анализ проводится в категориях входного языка, в то время как синтез осуществляется в категориях выходного языка. В качестве языка или языков-посредников могут выступать языки, представляющие синтаксической и семантико-синтаксической структуры, чисто семантические языки, а также языки глубинной семантики. В последнее время значительное развитие приобрела стратегия памяти переводов. Память переводов представляет собой базу данных, где собраны блоки ранее переведенных текстов. Каждая запись в подобной базе данных соответствует «единице перевода». За единицу перевода обычно принимают одно предложение, в некоторых случаях часть сложносочинённого предложения или абзац. В случае, если переводимое предложение исходного текста в точности совпадает с предложением, имеющимся в базе, оно может быть автоматически вставлено в перевод. Новое предложение может также незначительно отличаться от имеющегося в базе. Подобное предложение также может быть использовано в переводе, но в этом случае переводчик будет должен сделать необходимые изменения.

Список использованной литературы:

1. Нелюбин Л.Л. Компьютерная лингвистика и машинный перевод. М., 1991.

2. Мамедова М.Т. Машинный перевод. Эволюция и основные аспекты моделирования – Баку, 2006
3. Марчук Ю.Н. Проблемы машинного перевода. М., 1983
4. Семенов А. Современные информационные технологии и перевод. М., 2008.
5. Рябцева Н.К. Информационные процессы и машинный перевод. М., 1986.
6. Кулагина О. С. Исследования по машинному переводу. – М., 1979.
7. Марчук Ю.Н. Основы компьютерной лингвистики. М., 2000.

Açar sözlər: komputer, tərcümə, dil, qlossariy, mətn
Ключевые слова: компьютер, перевод, язык, глоссарий, текст
Key words: computer, translation, language, glossary, text

Maşın tərcümənin süni intellekt kimi istiqaməti. Maşın tərcümənin linqvistik problemləri

XÜLASƏ

Tərcümə problemləri muasir dövürdə çox aktualdır. Tərcümə - dil vasitəçiliyinin növüdür, hansı ki xarici dilin orijinalina yönədilmişdir. Tərcümə ozünü orijinalda olanın başqa bir dildə forma mövcudluğu göstərir. Son on il ərzində isə informasiya və kompüter texnoloqiyanın sürətli inkişafi ilə əlaqədar olaraq maşın tərcüməsi xüsusi əhəmiyyət kəsb edir. Maşin prosesinin tərcüməsi – bu bir mətnin məzmunu təbii dildən başqa dilə ekvivalent məznunu kompüter dönüşum hərəkətidir. Bu məqalədə, maşın tərcüməsinin mahiyyəti, onun formalaşması və inkişaf mərhələrinə çox diqqət etirilib. Tədqiqatın inkişafi üçün əsas təşviqlər MT, eləcə də maşın tərcüməsinin növləri və strategiyaları ayrılıqda təsvir edilmişdir. Tərcümə forması ilə ətraflı tənsifat verilmişdir. Maşın tərcüməsinin növləri və inkişaf strategiyalarina böyük diqqət yetirilir. Eləcə də linqvistik analizə əsaslanan maşın tərcüməsinin hər mərhələsi dəqiqliklə verilib.

Mashine translation as a trend of artificial intelligence. Linquistic problems of machine translation

Summary

The problems of mashine translation are very important nowdays. Translation is a means of communication which deals both original and target languages. In the process of translation we transform the text in the original language into the one in the target language. For the last decade with a vast development of computer and information technology the problems of machine translation have acquired great importance. The process of machine translation implies the tranformation of the original text into the traget language with the help of computer programmes which were epecailly designed for these purposes. In this article we analyse the meaning of mashine trasnlation, the inner proceses of translation realization as well as the level of its development nowdays. Different kinds and strategies of machine traslation development were closely considered and detaily described in the article. Using the method of the linquistic analyse each stage in the procces of machine translation has been thoroughly studied.

Rəyçi: dos. Firuzə Kərimova

Qasımaova Səbinə, Əhmədova Aybəniz [127]

ŞƏXSİYYƏT KEYFİYYƏTLƏRİ VƏ DAHİLİK

”Yaradıcı şəxsiyyətə iki əsas baxiş istiqaməti mövcuddur. Onlardan biri yaradıcılığın hər bir normal insana moxsusluğu bu və ya digər" mərhələdə olan kreativlik və yaradıcı fəaliyyətin olmasıdır. Bu qabiliyyət də düşünmək, hiss etmək və danıçmaq qabiliyyəti kimi insandan asılı deyil. Bundan əlavə miqdarından asılı olmayaraq yaradıcı potensialın həyata keçirilməsi insanı psixi cəhətdən normal edir. İnsanı belə qabiliyyətdən məhrum etmək onda nevroloyi vəziyyəti yaratmaq deməkdir. Bəzi psixonevroloqlar insanı nevrozdan xilas etmək üçün psixoterapiya zamanı onda olan yaradıcılıq fəaliyyətini, potensialını oyadırlar. M.Zoşenko öz avtobioqrafik əsərində yaradıcılığın köməyi ilə depressiyadan necə qurtulmaq haqqında geniş məlumat verir.

Kreativliyə insan şəxsiyyətinin universal cizgisi kimi yanaşma yaradıcılığa müəyyən olunmuş sərhəd qoymur. Yaradıcılıq proqramlaşdırılmamış, öncədən bilinməyən, gözlənilmədən gələn nə isə yeni bir şeyin yaranması prosesi kimi xarakterizə olunur. Bu zaman diqqəti yaradıcı aktın nəticəsinin dəyərliliyi və onun böyük insan qurupu, cəmiyyət, insanlıq üçün yenilik gətirib gətirməməsi çox cəlb etmir. Əsas odur ki, nəticə yeni və “yaradıcı” üçün mənalı olsun. Məktəblilərin özbaşına olaraq hər hansı bir tapşırığı orijinal yerinə yetirməsi yaradıcı akt sayılır, məktəblinin özünü isə burada yaradıcı şəxsiyyət kimi qiymətləndirmək lazımdır.

İkinci baxış istiqamətinə görə isə hər (normal) insanı yaradıcı şəxsiyyət və ya yaradıcı hesab etmək olmaz. Qeyd olunan mövqe yaradıcılığın təbiətinin başqa istiqamətləri ilə əlaqəlidir. Burada yeniliyin yaranmasının proqramlaşdırılmamış prosesi qismində yaranaraq yeni nəticənin dəyəri diqqəti cəlb edir. Onun ölçüsü müxtəlif olsa da cəmiyyətə yararlı olmalıdır. Yaradıcının önəmli cizgisi onda yaradıcılığa güclü və davamlı meylin olmasıdır. Yəni yaradıcı şəxsiyyət yaradıcılığa çox dəyər verib, onu həyatının əsas manası olduğunu qəbul edərək onsuz yaşaya bilmir.

Qeyd olunmalıdır ki, elə ixtisaslar mövcuddur ki, onları “yaradıcı ixtisaslar” adlandırırlar. Bu ixtisasları yerinə yetirən insanlardan önəmli keyfiyyət kimi yaradıcı şəxsiyyət tələb olunur. Belə ixtisaslara aktyoru, musiqiçini, ixtiraçını misal göstərmək olar. Burada təkcə “mütəxxəsis” olmaq kifayət eləmir. Təbii ki, yaradıcı şəxsiyyətə başqa ixtisas növlərində də rast gəlinir. Məs: pedaqoqlar, həkimlər və s.

Nəzərə almaq lazımdır ki, müasir dövrdə yaradıcılıq daha çox elitar xarakter daşıyır. Peşəkar yarıdıcılıq üçün tələb olunan yaradıcılıq istəyi və enerji insan mədəniyyətinin əksər sfernlarının sərhədləri xaricində olur. Belə bir nəzəriyyə var ki, yaradıcı şəxsiyyətlərdə hədsiz energctik potensial mövcuddur. Adaptiv davranışa sərf olunan eneriidən qat-qat çoxdur. Yaratmınq imkanı bir qayda olaraq insanda hər hansı bir tapşırığı həll etmək lazım olan zaman deyil, o “sakitlik və azadlıqla” əhatə olunan zaman baş verir.

Çox insanlarda hətta yaradıcılıqla məşğul olan insanlarda da yaradıcılıq komponentliliyi çatışmır. Belə komponentliyin üç aspektini ayırd etmək olar. Birincisi, insan müasir mədəniyyətin altermitiv və çoxölçülü şərtləri qarşısında nə dərəcədə yaradıcılığa hazırdır.

İkincisi, insan müxtəlif sahələrdən olan informasiyaları kodlaşdırmaq və onu öz yaradıcılıq “dili"nə keçirmək üçün nə qədər kod dəstinə və müxtəlif yaradıcı fəaliyyətin “dil” spesifikasına malik olması tam araşdırılmayıb. Məs: rəssam nə dərəcədə müasir musiqinin nəaliyyətlərindən istifadə edə bilər və ya iqtisadçı - alimin riyazi modelləşdirmə sahəsində uğurları nə qədərdir?

Üçncüsü, ideyaların “düşünülməsi” və düşünülənlərin həyata keçirilməsi qabiliyyətinin asılı olduğu şəxsiyyətin “texniki yeniliklər və bacarıqlar” sistemini özündə birləşdirən (məs: peşəkar rəssamın texnologiyası) mərhələni özündə ehtiva edir. Yaradıcılığın müxtəlif növləri yaradıcılıq komponentliyi mərhələsində müxtəlif tələblər irəli sürür.

Yaradıcı komponentlilik – sadəcə olaraq kreativ qabiliyyətin yaranması şərtidir. Orta mərhələni yüksəldən və həll edilən tapşırıqları artıran ümumi intellektual və xüsusi qabiliyyətlərə də eyni şərtlə yanaşırlar. Bəs kreativ qabiliyyət özü nədən ibarətdir?

Yaradıcı nailiyyətlərin praktikası və testləşdirmə belə nəticəyə gəlməyə imkan verir ki, kreativlik qabiliyvətinin psixoloi əsasını empatiya və təsəvvürün sintezi kimi başa düşülən yaradıcı fantaziya qurmaq qabiliyyəti təşkil edir. Yaradıcı şəxsiyyətin önəmli cizgisi kimi iştirak edən, yaradıcılığa olan tələbatda isə yaradıcı fantaziyaya daimi və güclü istək kimi başqa nəsə də var. ”

K.Paustovski yazırdı “ ... təsəvvürlərə qarşı mərhəmətli olun. Onlardan qaçmayın, onları izləməyin və ən əsası kasıb bir qohumunuzdan utandığınız kimi ondan utanmayın. Bu Qolkondun saysız hesabsız xəzinəsini özündə gizlədən kasıbdır.”

Yaradıcı fantaziyanı təyin edən şüurun istiqamətidir. Bu fəaliyyət həqiqətin vasitəsiz dərk edilməsindən və öz “Mən”indən ayrılıb onların yenidən obrazlaşdırılmasına, yeni (fikri olaraq) həqiqilik və yeni “Mən”in yaranmasına yönəlmişdir. Bəs nə daima yaradıcı fantaziyaya müraciət edərək yaradıcı şəxsiyyətin potensialını oyadır? Yaradıcı şəxsiyyətin aparıcı fəaliyyəti və motivi qismində nə çıxış edir? Bu suallara cavab vermək yaradıcı şəxsiyyətin mahiyyətini anlamaq deməkdir.

Yaradıcı fantaziyanın köməyi ilə yaradıcı öz şüurunda (və şüursuzluğunda) reallıqla toqquşan bir disharmoniya qurur. O, özünə rahat və xoşbəxt ola biləcəyi bir dünya yaradır. Buna görə yaradıcılıq prosesi özü və onun məhsulları yaradıcı şəxsiyyətdə rahatlıq yaradır və daima yenilik tələb edir. Real təzad, diskomfort və disharmoniya sanki özü yaradıcı

[127] Azərbaycan Memarlıq və İnşaat Universiteti

şəxsiyyəti tapır. Bu yaradıcı şəxsiyyətlərin nə üçün bir-birini əvəz edən iki reyimdə yaşadıqlarını izah etməyə imkan verir. (sıxılma və relaksiya, həyacan və sakitləşmə, narazılıq və sevinc).

Yaradıcı şəxsiyyətdə özünü göstərən əsas cəhətlərdən biri neyrotizmdir. Neyrotizm yüksək həssaslıqdır. Adi insanın istənilən fəaliyyətində emosiyanın norma olduğu kimi, yaradıcı insanda da neyrotizm norma hesab edilir. Ancaq neyrotizm yaradıcı şəxsiyyətin ikiləşməsidir və psixopatologiyanın başlanğıc sərhəddinə yaxındır. Bir faktı da qeyd etmək lazımdır ki, yaradıcılıq qabiliyyəti bəzi psixopatoloji cizgilər hesab oluna bilər.

Yaradıcının ikiləşməsi “”MƏN” in həqiqi ikiləşməsi fenomenini əks etdirir (real “Mən” və yaradıcı “Mən”). Yaradıcı, ona ən şiddətli ilham gələn zaman belə öz real “Mən”ini unutmur. Buna baxmayaraq insanı təsəvvürlər dünyasında olmağa “məcbur edən” yaradıcı “Mən”in fəaliyyətini adi insanın fəaliyyətindən fərqli olaraq yaradıcı şəxsiyyətin, cizgilərinin və qabiliyyətlərinin tərkibinə aid edirlər. Adi həyatda yaradıcının fəaliyyətini “qəribə” qarşılayırıq və onun da öz izahı var.

Hər şeyi öyrənməklə və yeni fikirlərə yönəlməklə əlaqəli olan təsəvvürlərə qarşı güclü istək və fəaliyyət yaradıcı şəxsiyyətə “uşaqlıq” cizgiləri verir. Məs: bioqroflar yazırlar ki, Eynişteyn çox müdrik və dünyagörüşü geniş şəxsiyyət olub, lakin bununla bərabər o ilk dəfə kompas gördükdə özündə beş yaşlı uşağın təəcüblük hissini gizlətməmişdir. Təsəvvürlər zamanı “oyun” komponenti göründüyü kimi, uşağın oyuna olan məhəbbəti kimi yaradıcıların yaradıcılığa olan məhəbbətini izah edir.

Uşaq kreativliyi adətən böyüklərin kreativliyindən fərqlənir. O yaradıcı şəxsiyyətin mədəni kreativliyindən fərqli olaraq başqa quruluşa və tərkibə malikdir. Uşaqların dünyaya yeni baxışında onun təcrübəsinin kasıblığı və onun fikirlərinin azadlığı ilə əlaqəli olaraq həqiqətən də hər şey ola bilər. Uşaq kreativliyindən fərqli olaraq yaradıcının mədəni kreativliyi daha uzaq və çəkilidir.

Yaradıcının qorxusuz fikirləri sadəlöhv xarakter daşımır, o özündə zəngin təcrübəni, dərin və ölçülü fikirləri birləşdirir. Bu qorxusuz yaradıcılıq cəhdi riskə hazırlıqdır. O konfliktlərdən qorxmayaraq yenisini və daha yaxşısını yaratmaq üçün streotipləri dağıtmağa tərəf gedir. A.S.Puşkin yazırdı: “Yüksək cəsarət var: ixtira cəsarəti”.

İxtira cəsarəti yaradıcı “Mən”in cizgisidir və o adi həyatdakı yaradıcının real “Mən”indən kənarda qala bilər. Belə ikiliyə başqa şəxsiyyət keyfiyyətlərində də rast gəlinə bilər. Yaradıcı etika real “Mən”in etikası ilə eyni deyil. Rəssam Valentin Serov tez - tez boynuna alırdı ki, o insanları sevməyib. O, öz əsərlərində insanları deyil, onların xarakteristikalarını təsəvvür edirdi.

A.Blok incəsənət sevgisinin xüsusiyyəti haqqında yazır: “Biz təsəvvür etmək istədiklərimizi sevirik”. Qriboyedov Famusovanı, Qoqol Çiçikovanı, Şekspir Falstavanı sevib. Bu onların yaratdığı işlərdə tez - tez rast gəlinən obrazlardır. Yaradıcılıqlarında onlar böyük əməksevərliyi, daxili düzgünlüyü, məsuliyyətliliyi tapırlar. Aydın göstərilən yaradıcı “Mən”in özünü təsdiq etməsinə yönəliş real həyatdakı davranış mərhələsində xoş olmayan formalar ala bilərlər: başqasının nailiyyətlərinə qısqanclıqla diqqət; məsləkdaşlara və onların nailiyyətlərinə qarşı düşmənçilik hissi və s. İntellektual sərbəstliyə yönəliş yaradıcı şəxsiyyət üçün xarakterikdir, özünə inama və öz qabiliyyətlərinə və nailiyyətlərinə yüksək qiymət verməyə meyllidirlər. Belə meyllilik “yaradıcılar”da yeniyetməlik dövründən başlayır. K.Q.Yunq qeyd etmişdir ki, yaradıcı şəxsiyyət öz təbiətlərinin əks cizgilərini davranışlarında bildirməkdən çəkinmirlər. Çəkinmirlər ona görə ki, öz real “Mən”lərindəki çatışmazlıqlar yaradıcılıq “Mən”lərindəki çatışmazlıqları kompensasiya edir.

Kreativlik yaradıcı şəxsiyyətin spesifik qabiliyyəti kimi yaradıcı insanda vergi kimi anadangəlmə mövcud olur. Ancaq bu qabiliyyətlərin və verginin realizasiyası şəxsiyyətin tam və ya hissələrlə inkişafından, başqa ümumi və xüsusi qabiliyyətlərin inkişafından asılıdır. Belə qəbul olunmuşdur ki, bunun üçün intellekt normadan yuxarı olmalıdır. Yaddaşın inkişafi böyük əhəmiyyət kəsb edir: musiqi, görmə, rəqəm, hərəkət yaddaşı və s. İnsanın anadangəlmə fiziki, anatomik-fizioloji xüsusiyyətləri də böyük əhəmiyyət kəsb edir. Eyni zamanda kreativliklə qabiliyyətlər və real “Mən”in temperament və xarakter xüsusiyyətləri arasında yüksək korellyasiya müəyyən edilməmişdir. İstənilən xarakter və temperamentdə yaradıcı şəxsiyyət ola bilər.

Yaradıcı şəxsiyyət kimi doğulmurlar, formalaşırlar. Çoxunda anadangəlmə xarakter daşıyan kreativ qabiliyyət yaradıcı şəxsiyyətin nüvəsi kimi çıxış edir, amma sonuncusu sosial - mədəni inkişafın məhsulu, sosial şəraitin və yaradıcı iqlimin təsiridir. Bax buna görə kreativ qabiliyyətlərin testləşdirilməsinin müasir praktikası əsas kimi sosial sifariş verə bilməz. Yaradıcışəxsiyyət yalnız kreativ qabiliyyətlərin yüksək mərhələsi ilə deyil, insanın xüsusi həyat mövqeyi, onun dünyaya münasibəti kimi xarakterizə olunur. Əsas əhəmiyyəti şəxsiyyətin daxili dünyasının ruhi zənginliyi, onun daimi xarici dünya ilə yaradıcılıq əlaqəsinə yönəlişliyi kəsb edir. Yaradıcı şəxsiyyət problemi yalnız psixoloji deyil, həm də humanitar və sosial -mədəni problemdir.

“Yaradıcı şəxs qüvvətli təfəkkürə malikdir ki, cisim və hadisələrin mahiyyətini dəqiq dərk edə, onlar arasındakı əlaqə və asılılıqları düzgün müəyyənləşdirib, optimal nəticə çıxara bilsin: onun yaxşı yaddasaxlama və yadasalma qabiliyyəti olmalıdır ki, hər bir incəliyi beynində həkk edə və dərhal yada sala bilsin: onda mətin iradə olmalıdır ki, çətinliklərdən qorxmasın, işi sona qədər davarm etdirsin: hiss və emosiyası coşğun olmalıdır ki, gördüyü işdən ilham alsın, son nəticəyə daha böyük həvəslə can atsın. Beləliklə, yaradıcı təfəkkürün formalaşması üçün yuxarıda qeyd olunan zəruri şərtlərin olması və onların bir-biri ilə qarşılıqlı əlaqədə fəaliyyət göstərməsi zəruridir.

Yaradıcılığa həsr olunmuş tədqiqatları təhlil etsək, belə qənaətə gələ bilərik ki, yaradıcı təfəkkür sahəsində aparılan tədqiqatlar təfəkkür sahəsindəki tədqiqatlarla eynidir və əlaqəlidir. Bu araşdırmaların nəticələrini necə izah ctmək olar? Onların hamısında bir fikir vurğulanır: yaradıcılığın səmərəli olması üçün intellektin müəyyən səviyyəsi olması zəruridir. Lakin intellektin yüksək olması öz-özlüyündə kafi əsas deyil. Yaradıcılığın başqa şərtləri də vardır. Bu şərtlər sırasında

şəxsiyyət amili şübhəsiz ki, xüsusi yer tutur. J.Qodfranın intellektual şəxsiyyətlə yaradıcı şəxsiyyət anlamlarını vurğulaması bu baxımdan məntiqi səslənir. Üçüncü variantı da bu ölçülərlə asanlıqla izah etmək olur: yaradıcı və intellektual fəaliyyət arasında korrelyasiya ancaq və ancaq şəxsiyyət məkanında yarana bilər.

Tədqiqatçılar yaradıcılıq prosesində tələbatlarla motivlərin əlaqəsini müəyyənləşdirərkən motivlərin hansı talabatlara daha ox əsaslandıqlarını, yəni yaradıcılıq prosesinə təsir edən əsas tələbatların nədən ibarət olduğunu aydınlaşdırmağa çalışmışlar.

Müasir dövrdə psixi sapmalar, əyilmələr və yaradıcılığın qarşılıqlı əlaqəsi haqqında mübahisələr hələ də səngimir. Görəsən, ağlın bir anlığa itməsi vəziyyəti ilə müşahidə olunan adət olunmuş dünyanın vulkanik püskürməsi ilə psixi enerjini dağıdıb yaradıcı prosesi meydana çıxaran hallüsinasiya və fantaziya vəziyyəti ilə bir əlaqəsi varmı? Nə üçün istedadlılıq bailavasitə xəstə təəssüratlılıqla bağlıdır? Hansı səbəbdən dahilər yaradıcı ekstazın somnambulizm vəziyyətinə daxil ola bilirlər? Zahirən sadə görünən bu suallara birmənalı cavab vermək olduqca çətindir. Ona görə ki, talantlı şəxslərin psixikasının qeyri - şüuri təzahürləri hər hansı şərhə müyəssər deyillər. Ancaq bir məsələni qeyd etmək olar ki, yaradıcılıqla qəribə hallusinasiya və fantaziya prosesləri və psixopatik təzahürlər arasında müəyyən əlaqə vardır.

Tarixdən məlumdur ki, dahilər çox zaman dəlilik sərhədinə yaxın olurlar. Hətta dahiliklə dəliliyin bir pərdə ayrıldığını söyləyənlər də vardır. Dahilik və dəlilik: fenomenini ilk dəfə C.Lombro təklif etmişdir. Özünün müşahidələri, dahi
insanların gündəliklərinin təhlili, yaşadıqları qeyri-adi həyat tərzi müəllifi bu sahədə ilk ideyaları sistemləşdirməyə və konkretləşdirməyə təhrik ctmişdir.

Ç.Lombrozonun yaşadıqları qeyri-adi həyat tərzi müəllifi bu sahədə ilk ideyaları sistemləşdinməyə və konkretləşdirməyə təhrik etmişdir. Ç.Lombrozonun ideyasının başlıca qayəsi ondan ibarətdir ki, dahiliklə psixi sapmalar arasında birbaşa əlaqə var. Dahilərin yaratdıqları orijinal fikirləri, ideyaları, onlarin dərinliyi və dərkolunmazlığı onun müəlliflərinin yaradıcı prosesdə və bir sıra məqamlarda psixolqii vəziyyətlərinin. dəliliyə yaxın olması kimi izah edilə bilər. Əgər söhbət yaradıcılıqdan gedirsə, burada şəxsiyyət amili kənara atılmamalıdır. Bütövlükdə şəxsiyyətin özü deyil, yalnız yaradıcılıq prosesində onun psixoloyi vəziyyətinin normadan artıq həddə olması və ya sərhəd hududuna yetişməsi nəzərdə tutulur. Ç.Lombrozo özünün kitabında qeyd edir ki, əksər dahi adamlar qeyri-normal adamları xatırladırlar. Ancaq burada bir məqam qeyd edilməlidir ki, Lombrozonun əsəri yazdığı vaxt insan psixikasının bir sıra faktları hələ yaxşı öyrənilməmişdi və elmi-texniki tərəqqi lazımi şəkildə bu məsələlərə aydınlıq gətirməmişdir. Deməli, faktların kəmiyyət təhlili nəticəsində müəllif belə qənaətə gəlmişdir. Bununla belə hal-hazırda istənilən qədər fakt gətirmək mümkündür ki, dahilər olduqca normal adamlardır və onların psixikasında heç bir pozuntu müşahidə olunmur. Lombrozo dahilərə məxsus keyfiyyətləri psixopatlara aid edərək onları identifikasiya etmiş və belə qənaətə gəlmişdir ki, həmin əlamətlər üst-üstə düşür.

Dahilərdən misal gətirən Lombrozo qeyd edir ki, tanınmış sərkərdə B.Napaleon tez-tez çiynini və dodağını səyirdirmiş və qəzəbinin azalması zamanı başqa qeyri-adi vərdişlər onu müşayiət edirmiş. I Pyotr üz sinirlərinin, filosof Monteskaya ayağını daima tərpədirmiş, fizik Amper isə bir yerdə qərar tuta bilməzmiş və bütün ayaq və əllərini danışıq zamanı tərpətməyə başlayırmış. Müəllif çoxlu sayda belə anormal davranış nümunələri gətirir. Lombrozonun fikrincə, dahilər sadə adamlardan yalnız xəstə təəssüratlarına görə fərqlənirlər.

Tədqiqatçının fikrincə, əqli qabiliyyətlərin inkişafı, eləcə də, təəssüratlılıq dahilərdə elə səviyyədə inkişaf edir ki, bu, onların problemlərinin və şöhrətinin mənbəyi olur. Dərin zəkanın yüksək təəssüratlılığı, həmçinin, güclü ehtiraslara səbəb olur ki, bunlar onların ideyalarına canlılıq bəxş edir. Ancaq eyni zamanda fövqəladə təəssüratlılıq sinir pozuntularının mənbəyi olur və onlarda qeyri - adi təxəyyül obrazları yaradır. Belə insanlar Lombrozoya görə kəmiyyət və keyfiyyət münasibətlərində başqalarına və ya adi adamlara nisbətən daha həssas olurlar. Onlarınhəyat təəssüratları və qavrayışı yaddaşda üzün müddət qalır və ayrı - ayrı obrazlarda kombinasiya otunurlar. Adi insanlar üçün sadə görünən məsələlər dahilərin psixikasında dərin iz buraxar, minlərlə obraz yaradır ki, bunu da yaradıcılıq adlandırırlar.

Lombtrozo tərəfindən sadalanan dahilərin bütün psixi xüsusiyyətləri onların istedadının daxili mahiyyətinin deyil, yalnız xarici və fiziki ölçülərini səciyyələndirir ki, bu dahilik və dəlilik haqqında mövcud olan fikirlərə birmənalı aydınlıq gətirməyə imkan vermir. Daha dəqiq desək, müəllifin dahilik və dəlilik fenomenlərinə aydınlıq gətirməsi, yaradıcılığın psixoloği mahiyyətini və mexanizmini açmağa zəmin yaratmır. Belə demək olar ki, hətta dahi olmayan adamlar da qeyd olunan vəziyyətlərə düşə bilir ki, bunun da dahiliklə və ya psixi xəstəliklə elə bir əlaqəsi yoxdur. Ancaq bununla belə demək olmaz ki, Lombrozonun gətirdiyi elmi faktlar təkzib oluna bilər və ya onlar gərəkli deyil. Elə faktlar məlumdur ki, hətta dəli adamlar da dahilər kimi nəsə yaratmışlar. Ancaq bu yaradıcılıqla psixi vəziyyətin böhran həddi arasındakı əlaqəni hələ də tam sübut etmir.

Lombrozadan sonra bu faktı təsdiqləməyə çalışan alimlər olmuşdur. Onlar da dahiliklə dəlilik arasındakı əlaqəni araşdırmış, lakin başqa yolla getmişlər. Onlar daha çox fraqmentar xarakterli amillərə diqqət yetirərək müəyyən etməyə çalışmışlar ki, görəsən psixi sapmalar dəlilərdə olduğu kimi dahilərdə də eyni təzahür edirmi? Və ya nə üçün dahi adamlar normal psixikaya malik deyillər?

Lombrozonun opponentlərinin fikrincə, dahilərin psixikasının xüsusiyyətlərini zah edən bir neçə ehtimal edilən fərziyyələr irəli sürülə bilər. Bəziləri hesab edirlər ki, qabiliyyətlərin inkişafi elə nevrozun yaranmasının səbəbidir. Başqaları isə bunu intellektual inkişafın yüksək səviyyəsi ilə izah etməyə çalışırlar və güman edirlər ki, məhz bu vəziyyət sinir pozuntularının yaranmasını şərtləndirir. Üşüncü qrup tədqiqatçılar hesab edirlər ki, nevrozla dahilik arasında heç bir əlaqə

yoxdur. Amma bəzi hallarda dahilər müəyyən psixi vəziyyətlərdən əziyyət çəkmişlər, bəziləri isə tamam sağlam olmuşlar. Ribo təxəyyülün təbiətini öyrənərkən qeyd edir ki, hər iki fərziyyəni sübut edən çoxsaylı faktlar mövcuddur.

Dahilik və dəlilik fenomenin öyrənilməsində genetik N.Efroimsonu geniş tədqiqatları vardır. Butədqiqatlar onun ölümündən sonra çap olunmuşdur. Genlərin xəstəliyini öyrənən alim müəyyən etmişdir ki, görkəmli adamlar manikal - depressiv psixozdan əziyyət çəkirlər. Tədqiqatçı bu psixi pozuntunu ayrı-ayrı peşə sahiblərində - rəssamlarda, şairlərdə və başqalarında ayırd etmişdir.

Yaradıcılığa yalnız nə isə yeni bir şeyin yaradılması prosesi kimi yox həm də insanın daxili dünyası kimi baxmaq lazımdır. Burada dəyişikliklər yalnız həqiqətdə deyil, şəxsiyyətdə də baş verir. Bununla belə yaradıcılıq və şəxsiyyətin əlaqəsinin səciyyəsini belə təsvir etmək olar:"Şəxsiyyət fəllıqla, subyektin öz fəaliyyət sferasını genişləndirməsinə istiqamətlənmiş yönəlişliyi ilə, möhkəm üstünlük təşkil edən motivlər sistemi və s. ilə xarakterizə olunur." Tələb olunmuş situasiya sərhəddindən kənarı çıxmış fəaliyyət yaradıcı fəaliyyət adlanır.

L.S.Rubinşteynin yazmış olduğu prinsiplərlə əlaqəli olaraq deyə bilərik ki, öz ətrafında dəyişiklik yaradaraq insan özü dəyişilir. Bu istiqamətdə insan yaradıcılıq fəaliyyəti göstərərək özünü dəyişdirir.

B.Q.Ananyev belə hesab edir ki, yaradıcılıq insanın daxili dünyasının obyektivləşdirilməsidir. Yaradıcılıq fəaliyyəti insanın bütün həyat formalarının inteqral işi, onun fərdiliyinin təzahürüdür.

Yaradıcılıqla şəxsiyyət arasındakı əlaqəni daha sərt formada N.A.Berdyayev açaraq yazır: "Şəxsiyyət substansiya deyil, yaradıcı aktdır." V.N.Drujin yazır ki, "Yaradıcılığın əsnasında insanı dünyadan uzaqlaşdıran qlobal irrasional motivasiya dunur. O üstünlük əldə etmək tendesiyasına yönəlir, "əks əlaqə yaranma" tipinə görə funksionallaşır, yaradıcılıq məhsulu isə yalnız bu prosesi artıraraq möhkəmləndirir. Bu istiqamətdən poblemə yanaşsaq yaradıcılıq vasitəsi ilə insanın dünya ilə əlaqəsi yaranır. Yaradıcılıq özü özünü stimullaşdırır. Psixoanalitik istiqamətin tərəfdarı D.V.Vinnikott digər mövcud ola biləcək vəziyyəti göstərir. Onun fikrincə, oyunda, yalnız və sadəcə oyunda uşaq və böyük sərbəst yaradıcılığa malik olur. Yaradıcılıq oyunla əlaqəlidir. Oyun insana kreativ olması üçün imkan yaradan mexanizmdir. Yaradıcılıq fəaliyyətindən keçərək insan özünü tapmağa yönəlir. Vinnikottun fikrincə, yaradıcı fəaliyyət insanın sağlamlıq vəziyyətini təyin edən vasitədir. Oyunla yaradıcılıq fəaliyyəti arasındakı əlaqəyə K.Yunqun fikrilərində də rast gəlmək olar. O yazır: "Nə isə yeniliyin yaranması intellekt deyil, daxili aləmini əks etdirən oyun hadisəsidir. Yaradıcı ruh öz sevdiyi obyektlərlə oynayır. Ekzistensial humanistik istiqamətin tərəfdarı R.Mey qeyd edir ki, yaradıcılıq prosesində insanın dünya ilə görüşü hiss olunur. O yazır:"Yaradıcılıq kimi nə olursa olsun - o həmişə şəxsiyyət və dünyanın əlaqəsi kimi çıxış edəcək."

N.A.Berdyayevin fikrincə, "Yaradıcı aktda həmişə yaşam və güc var. Belə olduqda yaradıcılıqda insan özünün azadlığı, arzuları və daxili aləmi ilə əlaqəsini həyata keçirir.

ƏDƏBİYYAT:

1. Əlizadə Ə.Ə. İdrak prosesləri və hisslər. Bakı, ADPU, 2006, 346s.
2. Əlizadə Ə.Ə. Təxəyyül. Bakı, ADPU, 2006, 166s.
3. Həmzəyev M.Ə. Seyidov S.İ. Psixologiya. Bakı, Nurlan, 2007, 700s.
4. Məmmədov A.U. Yaradıcılıq psixologiyası. Bakı, ADPU, 2000, 100s.
5. Mirzəcanzadə A.X. İxtisasa giriş. Bakı, BDU, 1990, 368 s.
6. Годфура Ж. Что такое психология. В 2-х томах. Т.1., М.,Мир, 1992,496с.
7. Маклаков А.Г. Общая психология, Л.2000, 592с.
8. Немов Р.С. Психология. Кн.1, 3-ое изд..,М.,Гуманитар изд.центр ВЛАДОС, 998, 608 с.
9. Сейидов С.И. Социальная психология творчества. Баку,1994, 206с.

Key words: End: creative, psychology, activity, imagination, personality, research, a genius, connection.

Ключевые слова: творческий, психология, деятельность, воображение, личность, исследование, гений, связь.

Summary

In this article the research of creative human personality is carried out. Here, information is provided on which professionals are more creative and there world view. The article also reflects the children's different view of the world. It this emphasized that not all creative people are stubborn and not all stubborn people are creative.

Резюме

В данной статье исследуется личность креотивного человека. Здесь также указываются те профессии, которые более креотивны, также их мировоззрение. В статье отражается отношение детей на этой мир их ними глазами. В данной статье подчёркивается, что все творческийе люди упрямые, но не все упрямые люди творческие лица.

RƏYÇİ: dos. L.Ələkbərova

Mətanət Abdullayeva [128]

İNTERAKTİV TƏDRİSDƏ HİSSİ-EMOSİONAL QAVRAYIŞ PROBLEMİ

Ədəbiyyatın interaktivlik xüsusiyyəti. Müasir dövr orta məktəb tədrisi, o cümlədən, ədəbiyyat fənninin tədrisi üçün nəzərdə tutulmuş təhsil proqramında şagirdlərin mənəvi-əxlaqi keyfiyyətlərinin formalaşması,tam dəyərli insan və vətəndaş yetişməsi üçün optimal tədris şəraitinin yaradılması nəzərdə tutulub. «Bu məqsədlə sənəddə ümumi orta və tam orta təhsil pilləsində fənnin bir-biri ilə üzvi əlaqədə olan məzmun xətləri və standartları, şagird bacarıqlarının inkişaf istiqamətləri dəqiqləşdirilmişdir. Bu sənəd təlim nəticələrini konkretləşdirməklə fəndaxili və fənlərarası inteqrasiyanı, fənnin tədrisinə verilən əsas tələbləri, təlimin təşkili formaları və üsulları barədə tövsiyələri özündə əks etdirir.»[Təhsil Proqramı. Bakı, 2010]. Ümumi təhsil pilləsində dövlət standartları və proqramlarının (kurikulumlarının) hazırlanması zamanı istinad edilən ümumi prinsiplərdən biri də inteqrativlikdir.Təhsil proqramında ədəbiyyat təliminin məzmununun 6-cı bəndi «Fəndaxili və fənlərarası inteqrasiya»dır.

Müasir tədrisdə inteqrasiya problemi şagirdlərin təlim-tərbiyəsində çox mühüm mənəvi-əxlaqi, didaktik funksiya daşıyır. «İnteqrativ təlim mühüm pedaqoji problem kimi müasir dünyagörüşlü, fəal, yaradıcı, problemlərin həlli və müstəqil qərarlar qəbul etmək üçün zəruri təhsil səviyyəsinə və bacarıqlara malik şəxsiyyət formalaşdırılması vəzifəsinin ön plana çıxdığı hazırkı dövrdə xüsusi aktuallıq kəsb edir. Bu problemin tədqiqi və həlli təkcə ədəbiyyat tədrisinin elmi, nəzəri əsaslarının inkişafı üçün deyil, müəllimlərin praktik fəaliyyəti üçün də böyük əhəmiyyət kəsb edir»[Təhsil Proqramı. Bakı, 2010]. Ədəbiyyat fənni öz mahiyyəti, təbiəti etibarilə inteqrativ səciyyə daşıyır. «Belə ki, **bədii ədəbiyyatın həyatı obrazlı şəkildə əks etdirməsi artıq onun inteqrativlik xüsusiyyətinin ifadəsidir** və bu, bilavasitə təlim prosesində də öz əksini tapmalıdır. Ədəbiyyat gerçəklik, ətraf aləm haqqında zəngin informasiya mənbəyi kimi çıxış edir, insanın şəxsiyyətinin formalaşmasında mühüm rol oynayır. Ədəbiyyatın Azərbaycan dili, tarix, coğrafiya, xarici dil, informatika, həyat bilgisi və s. fənlərlə əlaqəsi vardır və təlim prosesində bu əlaqələr reallaşdırılmalıdır. Şagird elmi bilikləri sistemli, əlaqəli şəkildə mənimsəməli, onun şüurunda həyatın tam, dolğun mənzərəsi yaradılmalıdır» [Təhsil Proqramı. Bakı, 2010]. Fənlərarası inteqrasiyada ədəbiyyat dərslərinin həm də musiqi və incəsənətin digər növləri ilə (mövzunun xarakterindən asılı olaraq)əlaqələndirilməsi mühüm məsələdir. Belə inteqrasiya şagirdlərin elmi bilikləri mənimsəmə keyfiyyətini qaldırmaqla bərabər, onların hissi-emosional qavrayışlarının formalaşması və zənginləşməsi işinə də xidmət edir. Uşaqların yaradıcı potensialının açılmasında, onların özlərinə və canlı aləmə bütöv sistem kimi baxmağı öyrətməkdə, kainatı vahid canlı orqanizm (fizikada kainatın vahid orqanizm anlayışı «Qoloqrafik sistem»[129]adlanır) kimi dəyərləndirməkdə hissi-emosional qavrayış fəal rol oynayır. Ona görə də hissi-emosional qavrayışı inkişaf etdirməktəlim - tərbiyə işinin çox mühüm aspektidir.

Ədəbiyyat fənni və musiqi:Bütün məktəb fənlərinin içərisində ədəbiyyatın müxtəlif elm və sənət sahələri ilə əlaqələndirilmə imkanları daha geniş olduğu üçün o, uşaqların mənəvi-əxlaqi, estetik tərbiyəsinin imkişafında daha aktiv rol oynamaq vəzifəsini daşıyır. Bunların içində musiqi daha unikal və universal funksiya daşıyır.Görkəmli pedaqoq Vasili Aleksandroviç Suxomlinski (1918-1970) demisdir ki, musiqi tərbiyəsində başlıca məqsəd musiqiçilər tərbiyə etmək deyil, adamlar tərbiyə etməkdir [Suxomlinski V.A. Bakı, 1975]. Müasir tədrisin pedaqoji texnologiyaları şagirdlərin həm əqli-mental biliklər almasına, həm də emosional-yaradıcı imkanlarının inkişaf etdirilməsinə yönlənməlidir; uşaqların həm fiziki, həm psixiki və ruhi sağlamlığı təmin olunmalı və inkişaf etdirilməlidir. Ədəbiyyat dərslərinin incəsənət sahələri, o cümlədən, musiqi ilə, təsviri sənətlə əlaqələndirilməsi çox mühüm metodiki yoldur. Belə yolla aparılan dərslərdə uşaqlar elmi-intellektual səviyyəsi yüksək, həm də estetik zövqlü mədəni insan kimi formalaşırlar.«Yeniyetmələrin incə, ağıllı emosional tərbiyəsi zəruridir. O, biliyin, təlimin onların mənəvi həyatında intellektual inkişafın rolu ilə müəyyən edilir. Dünyada uşaqlıq, yeniyetməlik və ilk gənclik illərində olan təlim qədər çətin və gərgin əmək yoxdur. Bu əmək yalnız o zaman arzu edilən olur və mənəvi aləmi zənginləşdirir ki, insan dərketmə ilə, biliklərə yiyələnməklə bir vaxtda həm də yüksək emosional mədəniyyətə yiyələnsin. Etibarlı emosional əsas olmadan nəinki müvəffəqiyyətli təlim, ümumiyyətlə, normal təlim mümkün deyildir. Emosional tərbiyənin və dünyanın dərk edilməsinin vəhdətinin olmaması biliklərə etinasız münasibətin və nəhayət, oxumaq istəməməyin ən uzun sürən və ən qorxulu mənbələrindən biridir. Əqli əməyin emosional mədəniyyəti, biliklərə yiyələnmə prosesi – ümumiyyətlə, məktəb həyatının intellektual zənginliyinin mühüm tərəfidir" [Suxomlinski V.A. Bakı, 1975]. Hissi-emosional tərbiyəni şərtləndirən mühüm metodiki üsullardan biri (xüsusən də ədəbiyyat dərslərində) elmin incəsənətlə əlaqəli tədrisidir, musiqi, rəngkarlıq sahələri ilə ədəbiyyatın uzlaşdırılmasıdır. «Təhsil gərək ağlın, intellektin, mənəvi-əxlaqı dəyərlərin formalaşdırılmasına, insansevərlik hissinin, hər cür pozitiv emosional-psixoloji halların inkişaf etdirilməsinə yönəldilsin. Belə yönəldilmə, sadəcə, qanunlar şəklində təlqin edilməməlidir, onun dəyəri uşaqların daxili potensialının, hiss və duyğularının ayıldılması formasında olmasındadır» [Abdullayeva M. Bakı, 2019]. Bədii sözlə musiqinin vəhdəti şagirdlərin hiss və duyğularının ayıldılmasının ən gözəl yoludur. Bədii əsərlərin musiqi ilə əlaqəli tədrisinin metodiki səciyyəsini anlamaq üçün əvvəlcə musiqinin insan fiziologiyasına funksional təsirini anlamaq lazımdır.

---

[128] Bakı Dövlət Universiteti Azərbaycan dil i və ədəbiyyatının tədrisi metodikası kafedrasının professoru, fəlsəfə üzrə elmlər doktoru
Ünvan: Akademik Zahid Xəlilov küçəsi-23E-mail: matanat.a@hotmail.com Tel. nömrəsi : 012 539 10 88 ; 070 218 15 17

[129]"Qoloqrafik sistem" - görkəmli fizik, filosof, Eynşteynin tələbəs iDevid Bom (1917-1992) tərəfindən yaradılmış "kainatın bötövlüyü" nəzəriyyəsidir. Nəzəriyyəyə görə, dünyanın istənilən hərhansı bir məkan-zaman hissəsi özündə kainatın bütün nizamını ehtiva edir. Həyatımızda mövcud olan heçnə və heçkəs ayrıca bir ada deyil, hər kiçik seqment belə, özündə bütöv üninformasi yasını daşıyır; hətta bütün hərəkətlər və fikirlər, şüurvəmateriyabaşlanğıcınıvahidəsasdangötürür. Ona görə də dünyanın bir yerində baş verən bir dəyişiklik uyğun olaraq bütün digər yerlərdə əks-sədasını tapır. D.Bomun bu nəzəriyyəsi kainatın kvant mənzərəsinin izahlarından biridir. Bu nəzəriyyə humanism fəlsəfəsininəsasını anlamanın ən qısa yoludur.

Bildiyimiz kimi, insan beyninin sağ və sol yarımkürələri[130] müxtəlif funksiyalar yerinə yetirir və onlar düşünmənin müxtəif tiplərinə görə cavabdehdir. «Bizim biokompüterimizin iki yarısına iki proqram yığını, iki düşüncə tipi cavabdehdir. Sol yarımkürə məntiqi idarə edir, sağ isə obrazlılığı»[131]. Baş beyinin fəaliyyəti ilə bağlı son onilliklərdə aparılan təcrübələr Rocer Sperrinin[132] adı ilə bağlıdır. Nobel mükafatı laureatı R. Sperri ilk dəfə olaraq beyinin iki hissəsinin spesifik fəaliyyətini izah edə bilmişdir. Beyinin hər iki yarımkürəsi eyni vaxtda fəaliyyət göstərir – sağ yarımkürə solun məhsulunu, sol isə sağ yarımkürənin məhsulunu qavrayıb emal edir. Sol yarımkürə insanın dil, nitq qabiliyyəti, oxu və yazı bacarıqlarına cavabdehdir. O, həmçinin faktların, adların, tarixlərin, rəqəmlərin və riyazi simvolların yadda saxlanmasını, informasiyaların məntiqli və ardıcıl emalını təmin edir. Sağ yarımkürə isə sözlərlə yox, obrazlarla ifadə olunan informasiyaların emalı ilə məşğul olur; xəyallar qurmağa, təxəyyülü işlətməyə, müxtəlif hadisə və süjetlər uydurmağa imkan verir; rəqs, təsviri sənətlə bağlı bacarıq və qabiliyyətlər sağ yarımkürə ilə əlaqədardır. İnsanların çoxunda konkret olaraq bu və ya digər yarımkürə dominantdır. Bu isə təhsil sisteminin xüsusiyyətlərindən irəli gəlir – birtərəfli beyin məşqlərindən. Uşaq doğulanda, demək olar ki, onun hər iki beyin yarımkürəsi eyni dərəcədə - harmonik vəziyyətdə olur, o, hər iki yarımkürənin imkanlarından eyni səviyyədə istifadə etmək imkanına malik olur. Sonra isə, məktəb təlimlərinin birtərəfli istiqamət tendensiyası nəticəsində beyinin bir yarımkürəsi aktiv, digəri passiv vəziyyətə keçir. Məktəb sistemində tədris metodları, əsas etibarı ilə, beyinin sol yarımkürəsinə təsiri mexanizmi üzərində qurulub.

Ümumtəhsil orta məktəblərində tədris-təlim prosesində, göründüyü kimi, sağ yarımkürə deyil, sol yarımkürə aktiv işləyir. Əslində isə, uşaqların dolğun və bütöv insan kimi formalaşmaları üçün hər iki yarımkürə aktivləşdirilməlidir. Metodiki düzgün qurulmuş dərs prosesi və müəllimin professionallığı nəticəsində uşaqların hər iki beyin yarımkürəsi aktiv ola bilər. Müəllimin qarşısında duran ən ümdə məsələ budur.

Nə üçün ədəbiyyatın musiqi ilə əlaqələndirilməsinə xüsusi diqqət verilməlidir?! - musiqi insan beyninin hər iki yarımkürəsi ilə eyni zamanda qavranılır. Bu səbəbdən şagirdlərin intellektual informasiyaları, bilikləri qavraması prosesi (münasib olarsa) musiqi müşayiəti ilə həyata keçirildikdə gözlənilən nəticənin yüksək olması ehtimalı artır. «Musiqi tərbiyəsinin qiymətli və zəruri olması onun hisslər dilinin dərk edilməsindən başqa, bir də ondan ibarətdir ki, musiqini dinləmək mənəvi tələbata çevrilir» [Suxomlinski V.A.Bakı, 1975]. Çünki musiqi həm ağılın, həm də duyğuların dilidir. **Söz musiqinin ifadə etdiyiməzmunu sona qədər ifadə edə bilmir, musiqi isə sözün ifadə etdiyi bütünincəlikləri insanın qəlbinə və ağlına ötürə bilir**. Belə ötürmələr insanın emosional yaddaşına həkk olur. Emosional yaddaş isə insan həyatında ən son unudulan yaddaşdır.

Tarixi ekskurs: Ədəbi əsərlərin musiqi ilə əlaqəsi haqqında hələ antik dövr filosofları fikirlər söyləmişlər. İnsanların, xüsusən də, uşaqların estetik tərbiyəsində ədəbiyyatın təsir gücünün musiqi ilə qüvvətlənməsi fikri söylənilirdi. İnsan fəaliyyətinin müxtəlif sahələri, xüsusilə də, intellektual sahə beyində informasiyanın qavranılması və emalı ilə bağlı funksional iş ilə həyata keçirilir. İnsan orqanizminin funksional imkanları qədim dövrlərdən bu günə qədər dəyişilməz olaraq qalır. Qədim dövrlərdə musiqinin insan orqanizminə təsirinin üç səviyyəsini bilirdilər: insanın ruhuna, intellektinə və fiziki bədəninə təsirini. Müasir elm bunu təsdiqləyir.

Musiqinin insanın psixologiyasına, sağlamlığına, davranışına və s. təsiri haqda hələ antik dövr filosofları - Pifaqor, Platon, Aristotel, Plutarx fikir söyləmişlər. Qədim Yunanıstanda gənclərin və uşaqların tərbiyəsində musiqiyə xüsusi yer ayrılırdı. «Pifaqor hesab edirdi ki, musiqi ladlarının xüsusiyyətlərindən uyğun şəkildə istifadə etməklə sağlamlığı tənzimləmək olar. Belə ki, o, (Pifaqor – M.A.) bu yolla (ruhun) təmizlənməsi kimi ikinci dərəcəli olmayan vərdişə sahib idi. Məhz təmizlənmənin bu növünü o, musiqi ilə təmizlənmə adlandırmışdı» [Pifaqor. Moskva, 2001]. Pifaqor tədrisdə musiqi vasitəsiləilə tərbiyəni birinci yerə qoyurdu; o, mənəviyyatın və ehtirasların arıdılmasıvə ruhi qüvvənin başlanğıc halına yetişmək, ruhun bütöv yaşantısını bərpa etmək üçün xüsusi musiqilərdən istifadə etməyi tövsiyə edirdi. O, musiqini təlim-tərbiyənin ayrılmaz hissəsi sayaraq elm sahəsinə çevirmişdi. Pifaqor qəzəb və hirsə qarşı ən yaxşı vasitə kimi musiqidən istifadə edirdi. Deyirlər ki, Pifaqor qəzəblənəndə lirasını götürüb evinin arxasında bağçaya gedər və lirasını çalarmış. Bu yolla əsəblərini sakitləşdirdikdən sonra insanlarla ünsiyyətə girərdi. Platon deyirdi: «Musiqi sənətinin başlıca tərbiyəvi önəmi bundadır: o, insan ruhunun dərinliklərinə daha çox daxil ola bilir və daha güclü təsir edir; ritm və harmoniya gözəllik qaynağı olub düzgün tərbiyə olunan insana gözəllik, düzgün tərbiyə almayana isə əksinə, eybəcərlik bəxş edir. Bu sahədə necə lazımdırsa elə tərbiyə alan, cürbəcür xətaları, çatışmazlıqları və ya təbii qüsurları çox tez duyur. Onun qıcıqlanması və ləzzət alması düzgündür, o, gözəlliyi tərifləyib bütün ruhu ilə qəbul edəcək, onunla qidalanacaq və qüsursuz olacaq. Gənclik yaşlarından, hətta şüurlu nitqə malik olmadan öncə həyasızlığı (eyibliyi) düzgün qiymətləndirib nifrət edəcək; şüurlu nitqə yiyələndikdə isə tərbiyənin sayəsində nəyə malik olduğunu anlayaraq onu sevəcək» [Platon. Bakı, 1999]. Platon gənclərin tərbiyəsində melik poeziyaya[133] önəm verərək söz, harmoniya və ritm vəhdətini melos (melodiya) adlandırırdı, bunun həm tərbiyəvi, həm terapevtik rolundan danışırdı. [Platon. Bakı, 1999]. Eyni zamanda, Platon pis musiqini tərbiyəni korlayan amil kimi dəyərləndirirdi, «sakit və abırlı musiqidən uzaqlaşma qədər mənəviyyatı pozan başqa pis üsul yoxdur. Düşük ritm və ladlar vasitəsi ilə insanların qəlbinə ədəbsiz və aşağı hisslər daxil olur, belə ki ritmlər və ladlar insanların qəlblərini özlərinə

---

[130]Qədin Çin fəlsəfəsində sol və sağ beyin yarıkürələriuyğun olaraq yan və in enerjilərinə mütabiqdir;Uzaq Şərq fəlsəfəsində insanın kamilliyi bu iki enerjiinin ahəngdar əlaqələnməsi, vəhdətdə fəaliyyəti deməkdir.

[131]Арманд А.В. Ян – Инь и дополнительность. https://cyberleninka.ru › article › yan-in-i-dopolnitelnost

[132] Rocer Sperri (1913-1994) – Amerika neyropsixoloqu; psixobiologiya üzrə professor; ABŞ Milli Elmlər akademiyasının üzvü (1960), London Kral Cəmiyyətinin xarici üzvü (1976), SSRİ Elmlər Akademiyasının üzvü (1988); 1981-ci ildə fiziologiya və tibb sahələri üzrə Nobel mükafatı alıb.

[133] Melik poeziya (yunan.*melikos*- musiqi ilə müşayiət olunan, oxunan) – qədim Yunanıstanda (VI- V əsrlər) lira ilə ifa olunan müxtəlif vəznli şeirlər, lirik poeziya

uyğunlaşdırmaq keyfiyyətinə malikdir»[134]. Aristotel musiqinin həm pedaqoji, həm də terapevtik əhəmiyyətini qeyd edirdi; o hesab edirdi ki, musiqi həyəcanlı yaşantıları, psixiki gərginlikləri silir. Parfiya dövlətində (e.əv. III əsr) musiqili tibb teatrı mövcud idi, orada xüsusi melodiyalar vasitəsi ilə sinir və ürək xəstələri müalicə olunurdu [135].Hippokrat özünün tibbi fəaliyyətində musiqidən xəstələrə xoş təsir edən vasitə kimi istifadə edirdi. Musiqinin insanların həyatındakı tərbiyəedici və sağlamlaşdırıcı rolu, unikal funksiyası Şərq aləminə də məlum idi. İbn Sina (980 – 1037) sinir pozuntusu olan insanların müalicəsində pəhriz, rayihələr və gülüşlə bərabər, musiqi terapiyasından istifadə edirdi.

İlkin söz sənəti ilə - ritmik deyimlərlə musiqinin əlaqəsi, ahəngi, belə ahəngin insanların psixiki və mənəvi-əxlaqi durumunun formalaşmasında mühüm funksiya daşıması qədim Misirdə terapevtik və təlimi məqsədlər üçün istifafə edilirdi. Qədim və orta dövrlərdə sufilər səslər və rənglər haqqında ezoterik biliklərindən fiziki bədəni diaqnostika etmək, sağaltmaq və sağlamlaşdırmaq, mistik qavrama mərkəzlərinə - lətif çarxlara (çakralara) təsir göstərmək, ruhani transformasiya və s. məqsədlərlə istifadə edirdilər. Aqioqrafik mənbələrdən bir çox mistiklərin gözəl təbib olmaları faktları məlumdur. Məsələn, «303/915-ci ildə əl-Həllac xəlifəni qızdırma xəstəliyindən sağaldır; iki il sonra vəliəhdin sevimli tutuquşunu həyata qaytarır. Belə gözəl şəfavermə sayəsində əl-Həllac, xəlifənin anası başda olmaqla, nüfuzlu ailə üzvləri tərəfindən müdafiə olunur» [Knış A.D. Moskva, 2004].

Dahi mütəfəkkirimiz Nizami Gəncəvinin əsərlərində musiqinin insan psixikasına və fiziologiyasına təsirinə, insanın musiqi vasitəsi ilə ətraf aləmə, canlılara təsir etmək bacarığının təsvirlərinə xeyli yer ayrıldığını görürük. «İsgəndərnamə»nin «Əflatunun nəğmələr yaratması» hissəsində Nizami səmadan gələn musiqini eşidib onu səsləndirən filosofun musiqi vasitəsilə diaqnostika etmək bacarığından danışır**: «*Musiqidən elə bir hava düzəltdi //Ki, ondan başqa heç kəs onu çala bilməzdi. //Hər pərdədə səsi elə düzəltdi// Ki, nalə çəkənin ürəyini cuşa gətirsin.// O çalğıcı musiqini o yerə çatdırdı ki, //Alim onunla eyib və xəstəlikləri tapardı. //Qanunla o musiqi səsinin köməyi ilə // Ağıl hər cür xəstəlikdən xəbər tuturdu*»** [«İsgəndərnamə», s.482**]**.Nizami Platonun musiqi vasitəsilə «eyib və xəstəlikləri tapırdı» deməklə bu gün tibb elminə hələ də sonadək məlum olmayan, lakin onun özünün çox yaxşı bildiyi ənənəvi təbabətdən, həmçinin insanın təlim-tərbiyə prosesində yüksək nailiyyətlərə nail olmaq üçün, insanı islah etmək üçün istifadə olunan qeyri-adi metodiki üsuldan danışdığını görürük. Orta əsrlərdə də musiqi ilə diaqnostika və müalicə edən təbiblər fəaliyyət göstərirdilər. Türkiyənin Amasya şəhərində 1308-ci ildə inşa edilmiş və indi muzey kimi ("Amasya Belediyesi Sabunçuoğlu Tip ve Cerrahi Tarihi Müzesi") fəaliyyət göstərən "Bimarxana"da ("Xəstəxana") musiqiylə müalicə təcrübəsinin ən bariz nümunəsidir.

Musiqinin insan orqanizminə təsiri mexanizminin elmi yolla əsaslandırma cəhdləri XVII əsrə, təcrübi – eksperiment səciyyəli tədqiqatlar XIX-XX əsrlərə aiddir. «Alimlər fizioloji bazisi empirik faktlarla əsaslandırmağa çalışırdılar. Akademik V.M.Bexterevin[136] (1857-1927) təşəbbüsü ilə 1913-cü ildə Rusiyada musiqi-terapevtik effektlərin tədqiqatı üzrə komitə təsis olunur. Komitəyə tanınmış həkimlər və musiqiçilər daxil idi. Tanınmış rus psixiatrı S.S.Korsakovun (1854-1900), farmakoloq-alim, professor İ.M.Dogelin (1830-1916), görkəmli təbiətşünas-alim, maarifçi-pedaqoq İ.M.Seçenovun (1829-1903) və başqa alimlərin xüsusi tədqiqatları nəticəsində məlum olur ki, musiqi insan orqanizminin müxtəlif sistemlərinə - ürək-damar, dayaq-hərəkət, tənəffüs və mərkəzi sinir sistemlərinə müsbət təsir göstərir. Əsas nəticələr ondan ibarət idi ki, **mənfi emosiyalar baş beyin qabığının funksiyalarınınqabağını alır**, bu da insanın ətraf mühitdə oriyentirinin itməsinə səbəb olur. İncəsənətlə təmasdan yaranan müsbət emosiyalar insanın psixosomatik proseslərinə müalicəvi təsir edir, onun ehtiyat gücünü mobilizə edir»[137].Müasir dövrdə musiqi terapiyası bir sıra ölkələrdə müxtəlif səviyyələrdə tətbiq edilir. Amerika, İsveç, Rusiya və Almaniyada musiqi terapiya məktəbləri var. Sankt-Peterburq ənənəvi xalq təbabəti və musiqi terapiyası elmi-tədqiqat İnstitutunun direktoru, Royalmed klinikasının baş həkimi, tədqiqatçı, tibb elmləri doktoru, professor Ruşel Blavo bu sahədə tanınmış mütəxəssisdir. Onun həkimlər və kliniki psixoloqlar üçün musiqi terapiyası sahəsində ilk yazılan metodik vəsaiti Rusiya Səhiyyə Nazirliyi tərəfindən təsdiq edilib.

Elmi tədqiqatlar göstərir ki, musiqinin koqnitiv (dərketmə) xarakteri var və onun öyrənilməsi şagirdlərin ümumi akademik davamiyyətlərinə mühüm təsir göstərir, eyni zamanda musiqi uşaqlara saf mənəviyyat və zövq dünyasına qapı açır. «İncəlik, mehribanlıq, istiqanlılıq, səmimilik – mən musiqi ilə məhz həmin hissləri oyatmağa çalışırdım, bu musiqi «qəlbin dərinliklərinə çox gözəl toxunaraq» (*M.Qorki*) insanda olan ən qiymətli şeyi – insanlara məhəbbəti, gözəlliyi yaratmağa və təsdiq etməyə hazırlığı kəşf edir. Musiqi gənc ürəklərdə səmimi incə hiss, həssas nəvaziş oyadır, bu musiqi təbiətin, ...heyranlığın, heyrətin, ehtiramın incə gözəlliyini aşkar edir. Hər dəfə, musiqi melodiyasında sözlə deyilməsi mümkün olmayan bu sehirli, cazibədar gözəllik ifadə edilən zaman mən hiss edirdim ki, mənim oğlanlarımın və qızlarımın ürəkləri sözə, baxışa, çağırışa, xahişə tez inanan, həddən artıq həssas olur – insanın insana elə incə toxunması meydana gəlir ki, bunda münasibətlərin həssaslığı, səmimiliyi ifadə edilir. Təbiətin əzəmətinə heyranlıq ifadə edən musiqi sehirli qüvvəyə malikdir. Bu heyranlıq mənim şagirdlərimə onlar Komitasın «Kəklik» mahnısını və ya Çaykovskinin Dördüncü simfoniyasının finalından parçanı dinlədikləri zaman keçirdi, uşaqların dünyanı qavraması nikbin olurdu. Bu isə insan zərifliyinin, mehribanlığının, səmimiliyinin ən mühüm mənbəyidir» [Suxomlinski V.A. Bakı,1975].

Məktəb təlimində müxtəlif fənlərin tədrisi zamanı musiqidən istifadənin zəruriliyini anlamaq üçün onun insan, o

---

[134]Закономерности воздействия музыки на человека. Связь музыкального искусства и педагогики. https://superinf.ru/view_helpstud.php?id=2662

[135]Orada.

[136]Vladimir Mixayloviç Bexterev – psixiatr, nevropatoloq, fizioloq, psixoloq, Rusiyada refleksologiyanın və patopsixoloji istiqamətin əsasını qoyub; akademik, 1907-ci ildə Sankt-Peterburqda dünyada ilk elmi mərkəz sayılan Psixonevroloji İnstitut təsis edib (hal-hazırda Beyin İnstitutudur).

[137]Закономерности воздействия музыки на человека.Связь музыкального искусства и педагогики. https://superinf.ru/view_helpstud.php?id=2662

cümlədən, uşaq orqanizminə təsir mexanizmini bilmək zəruridir. İ.M.Seçenov, İ.P.Pavlov, S.P.Botkin kimi tanınmış alimlər musiqinin psixofizioloji təsir effektini öyrənərək belə nəticəyə gəlmişlər:

- Musiqi qanın bir dəqiqə müddətindəki həcminə və nəbzin tezlik göstəricisinə hiss olunacaq dərəcədə təsir edir;
- Əzələnin tonusunu qaldırır və salır;
- Emosiyaların yaranmasını stimullaşdırır;
- Nitq və hesablama qabiliyyətini yaxşılaşdırır;
- Yaddaşın qavrama proseslərini stimullaşdırır;
- Yaradıcı təxəyyülü aktivləşdirir.[138]

Yaxşı müəlimçalışır ki, şagirdlərin qavrama qabiliyyəti, diqqəti və yaddaşıgüclü, yaradıcılıq potensialı geniş olsun. Bunun ən yaxın yollarından biri misiqidir. Əminliklə demək olar ki, xüsusi seçilmiş musiqi bütövlükdə beyinin fəaliyyətini optimallaşdıra bilir. İnsanın musiqi qavrama bacarığı hər cür qavramalardan əvvəl başlanır, bu isə o deməkdir ki, insan beyninin və ürəyinin fəaliyyəti, ilk növbədə, musiqi vasitəsi ilə tənzimlənir. Ədəbiyyat dəsrlərində bədii mətnlə musiqinin uzlaşdırılması əsərin təsir keyfiyyəini gücləndirir – orada cərəyan edən hadisələrin təsir dinamıkasını sürətləndirir, bədii təsvir və ifadə vasitələrinin rolunu aktivləşdirir, sözlərin semantik tutumunun anlaşılmasını təmin edir, emosiyaları yaşantı formasına keçirir, təxəyyül imkanları aktivləşir. Belə metodiki yanaşmada uşaqlar bədii əsəri daha dərin səviyyələrdə anlaya bilir və fərdi yaşantılarını daha parlaq təsvir və dəqiq ifadə edə bilirlər. "Biz öz biliklərimizi, ideyalarımızı və hisslərimizi öz beynimizdən başqasının beyninə və ürəyinə köçürə bilmərik; biz yalnız uyğun təəssüratlar vasitəsi ilə onları başqalarının ağlında yaratmağa cəhd göstərə bilərik, başqasını belə bir şəxsi fəaliyyətə sövq edə bilərik ki, nəticədə məlum fikirlər və duyğular yarana bilər. Etiraf edin ki, tələbələrin yaradıcı bacarıqlarının inkişafında və mənəvi-estetik dəyərlərinin formalaşmasında ədəbiyyat və musiqi bizim ən yaxsı köməkcilərimizdir"[139].

Nəticə :Uşaq orqanizmini həddindən artıq yükləməmək üçün təlim prosesini maksimal dərəcədə optimallaşdırmaq lazımdır. Müəllim psixologiya və fiziologiya sahəsində ən progressiv tədqiqatlara və pedaqoji elmin nailiyyətlərinə əsaslanaraq təlim formalarını və metodlarının seçilməsi isinə yaradıcı yanaşmalıdır. Sinifdə dərs prosesi pozitiv emosional şəraitdə keçməlidir. Şagirdlər dərs prosesində biliklə bərabər, müsbət emosiyalar da almalıdır, yəni bilikalma müsbət psixiki yaşantılarla müşayiət olunmalıdır. Bunun üçün dərsin digər sahələrlə - musiqi ilə, rəngkarlıqla integrativ keçirilməsi, elmin incəsənətlə uzlaşdırılması mühüm şərtdir. Belə dərslərdə uşaq həm təlimlənir, həm də tərbiyə olunur. "Əxlaq tərbiyəsi prosesi bəşəriyyətin əxlaqi sərvətlərinin nəsildən-nəsilə verilməsindən ibarətdir" [Suxomlinski V.A. Bakı,1975]. Belə ötürmədə aparıcı rol müəllimin üzərinə düşür.

Musiqinin insan orqanizminə təsiri mexanizmi tədrisdə nəzərə alınarsa və uyğun şəkildə tətbiq olinarsa,şagirdlərin beyinlərinin fəaliyyəti aktivləşər. Bədii sözlə musiqinin uzlaşması sağ və sol beyin yarımkürələrinin ahəngdar birgə fəaliyyətini şərtləndirir. Bu zaman insanın fiziologiyası ruhu, psixikası ilə vəhdətə girir.Musiqinin insan beyninə təsiri mexanizmini dərk etdikdə yalnız musiqiylə müalicə işini yox, həmçinin musiqi vasitəsilə tədris olunan mövzuların qavranılması, mənimsənilməsi keyfiyyətini yüksəltmək olar. Belə işi aparmaq üçün insanın müəyyən qədər introspektiv təcrübəsi olmalıdır. Hindistanda çişti təriqətinə mənsub böyük pedaqoq, musiqiçi,mütəfəkkir Həzrət İnayət Xan (1882-1927) yazırdı: «Uşaqların təlimləndirilməsinə beş müxtəlif nöqteyi-nəzərdən baxmaq lazımdır: fiziki, əqli, mənəvi, sosial və ruhsal. Əgər bir tərəf inkişaf edib qalanları inkişafdan qalıbsa, təbii ki, uşağın təhsilində qüsur olacaq» (Həzrət İnayət Xan. Moskva, 2000). Bu görkəmli pedaqoq da uşaqların təlimləndirilməsində musiqinin, rəsm çəkməyin əhəmiyyətini önə qoyur. Əgər musiqi insanın fiziki, mental və psixoloji aspektlərdə sağlamlığına xidmət edirsə, deməli, onun – insanın formalaşmasında musiqi əvəzsiz vasitə kimi müasir **təhsil texnologiyalarının ayrılmaz tərkib hissəsi** olmalıdır. Çümki təhsil yalnız uşaqların başının biliklərlə doldurulması deyil. Əxlaqi, intellektual, estetik hisslərin, ruhsal yaşantıların qarşılıqlı surətdə formalaşması təlim-tərbiyədə öndə duran məqsəd olmalıdır. «Yeniyetməlik yaşında emosional və estetik tərbiyənin vəhdəti xüsusi əhəmiyyət kəsb edir. Təfəkkürün keyfiyyətcə yeni pilləsi ona imkan yaradır ki, insan artıq nəinki şeyləri, faktları, hadisələri, habelə, ideyaları, prinsipləridərk edir, fikir və hisslərlə qavrayır. İctimai ideyaya şəxsi emosional-estetik münasibət nə qədər aydın olsa, əxlaqi hisslər bir o qədər dərin olar. Yeniyetməlik illərində ideyaların, ətraf aləmin emosional-estetik cəhətdən qiymətləndirilməsi hissini şəxsiyyət xüsusuilə aydın keçirir. Bu, onunla izah olunur ki, insan sanki dünyanı kəşf edir, onu ideyalar və prinsiplər nöqteyi-nəzərindən birinci dəfə görür. Keyfiyyət etibarı ilə dünyanı yeni şəkildə görmə, bir çox şeylərin kəşfi ideyalara və prinsiplərə şəxsi münasibət yaradır: xeyir yeniyetməni ruhlandırır, heyran edir; şər isə onu düşündürür, axtarışlara, idrakın yeni qatlarına daxil olmağa, yeni həll yollarına sövq edir. Bu, əxlaqi hisslərin əmələ gəlməsi prosesinin mühüm tərəfidir. Yeniyetmənin əxlaqi mədəniyyəti müəyyən dərəcədə onun ictimai həyatın mürəkkəb hadisələrinin, qarşılıqlı insani münasibətlərin mahiyyətini dərindən başa düşməklə əlaqədar olaraq nəcib, yüksək hisslər keçirməsindən asılıdır"(Suxomlinski V.A. Bakı,1975). Belə prizmadan baxdıqda ədəbiyyat dərslərinin şagirdlərin bədii-estetik tərbiyəsində rolunun çox böyük olduğu görünür.

---

[138]Музыка в процессе обучения.открытыйурок.рф › статьи

[139]Сухомлинский об умственном воспитании. DjVu и полный ..Сухомлинский об умственном воспитании. DjVu и полный ...https://sheba.spb.ru › suhomlin-um-1983

Təhsil təlimlə tərbiyənin vəhdətidir, lakin çox zaman təlimə ciddi fikir verilir, tərbiyə isə axsayır; çox zaman tərbiyə qadağalar şəklində həyata keçirilir. Məktəblər daha çox «alim yetişdirməyə» yönlənib, «adam yetişdirmək» isə ikinci planda durur. Hissi-emosional qavrayış dərinləşdikcə uşaqların mənəvi-əxlaqı tərbiyəsi, o cümlədən, estetik tərbiyəsi formalaşıb inkişaf edir, uşaqlar introspeksiv təcrübənın mahiyyətinə vara bilirlər; belə təcrübə onların özlərini dərk yolunda uğurlu addım hesab oluna bilər. «Ədəbiyyat humanist tərbiyə mədəniyyətini formalaşdırmaqla insanları birləşdirir»[140]. Hissi-emosional qavrayış insanların humanizm fəlsəfəsi istiqamətində əldə edə biləcəyi biliklərin mənimsənilməsində mühüm rol oynayır.

Ədəbiyyat

1. Abdullayeva M. (2019) Humanist pedaqogikanın fəlsəfi və psixoloji əsasları. Təhsil. №02 (100), Bakı, səh. 46-42. 2.Nizami Gəncəvi. (1983).İsgəndərnamə (filoloji tərcümə).Bakı, «Elm», 625 s.
3. Platon.(1999). Dövlət.Bakı, «Təbib», 358 s.
4. Suxomlinski V.A. (1975).Vətəndaşın doğulması.Bakı, «Maarif», 362 s.
5. Ümumi təhsil pilləsinin dövlət standartları və proqramları (kurikulumları). (2010), Bakı.
6. Кныш А.Д.(2004).Мусульманский мистицизм. Москва – Санкт-Петербург: ДИЛЯ, 453 с.
7.Пифагор.(2001). Золотой канон.Фигуры эзотерики. Москва, «Эксмо-Пресс», 448 с.8.Хазрат Инайят Хан. (2000). Очищение ума. Москва, «Сфера», 416 с.

Açar sözlər:ədəbiyyatın inteqrativliyi, estetik tərbiyə, baş beyin fəaliyyəti, əqli-mental biliklər, emosional-yaradıcı imkanlar.**Key words:**integration of literature, aesthetic education, head brain activity,mental knowledge,emotional-creative possibilities.

XÜLASƏ

Məqalə ədəbiyyat fənninin inteqrativlik xüsusiyyəti probleminə həsr olunub. Məqalədə göstərilir ki, ədəbiyyat dərslərinin musiqi ilə əlaqələndirilməsi şagirdlərin elmi bilikləri mənimsəmə keyfiyyətini yüksəltməklə bərabər, onlarda hissi-emosional qavrayışın formalaşması işinə də xidmət edir; hissi-emosional qavrayışın formalaşması və inkişaf etdirilməsi şagirdlərin yaradıcılıq potensialının açılmasında, estetik tərbiyənin yönləndirilməsində mühüm mərhələdir.

Məqalədə Pifaqor, Platon, Aristotel, Nizami kimi görkəmli mütəfəkkirlərin müsiqinin uşaqların təlimləndirilməsindəki rolu haqqında fikirləri verilir, həmçinin İ.M.Seçenov, İ.P. Pavlov, S.P.Botkin kimi alimlərin musiqinin psixofizioloji təsiri ilə bağlı gəldikləri elmi qənaət təqdim edilir. Gəlinən nəticə budur ki, ədəbiyyat fənninin musiqi ilə əlaqəli tədrisi sağ və sol beyin yarımkürələrinin ahəngdar fəaliyyətinin tənzimlənməsinə kömək edir, bu da ş agirdlərin idraki bacarıqlarını aktivləşdirir, onlara saf mənəviyyat və zövq dünyasına qapı açır.

The Problem of Sensual and Emotional Perception in Integrated Teaching

SUMMARY

The article is devoted to the problem of integrative nature of the subject of literature. The article shows that the integration of music into teaching of literature not only improves the quality of students' acquisition of scientific knowledge, but also serves the formation of their sensory-emotional perception. This in return contributes to the formation of aesthetic and cultural values.

The article presents the views of prominent thinkers such as Pythagoras, Plato, Aristotle, Nizami on the role of music in educating children, as well as the scientific conclusions of scientists such as I. M. Sechenov, I. P. Pavlov, S. P. Botkin on the psychophysiological effects of music into teaching literature helps of the right and left hemispheres of the brain, which activates the cognitive abilities of students, opens the door to a world of pure spirituality and aesthetic values.

RƏYÇİ: dos. L.Ələkbərova

[140]Xəlilov B. (2018).Humanist tərbiyə mədəniyyəti – II məqalə-m.modern.az › news

Əhmədova Nailə[141]

YAPON DİLİNDƏ FEİLİN ARZU ŞƏKLİNİN MÜQAYİSƏLİ TƏDQİQİ

Azərbaycan dili və yapon dilinin qrammatik cəhətdən oxşar cəhətləri və bəzi hallarda oxşar strukturu vardır. Azərbaycan dilində feilin əmr, xəbər, arzu, vacib, lazım, şərt şəkilləri olmaqla, yapon dilində felin bir neçə şəkilləri mövcuddur: xəbər,vacib, arzu,qadağa, şərt, ehtimal, bacarıq ,əmr.

Yapon dilində Azərbaycan dilində olduğu kimi feil şəxsi, sayı və cinsi ifadə etmir.

Yuxarıda qeyd olunduğu kimi, yapon dilində feilin növləri Azərbaycan dilindən daha azdır, lakin yapon dilində feilin bəzi şəkilləri vardır ki, onlar Azərbaycan dilində ayrı bir şəkil olaraq qeyd olunmur. Bildiyimiz kimi, Azərbaycan dilində feilin əmr şəkli, xəbər şəkli, lazım şəkli, vacib şəkli, arzu şəkli və şərt şəkilləridir.

Yapon dilində feilin əsas şəkilləri aşağıdakilərdir:

1. Arzu şəkli (意向形ikoukei)
2. Əmr şəkli (命令形meireikei)
3. Qadağa şəkli (禁止系kinşikei)
4. Şərt şəkli (条件系coukenkei)

Yapon dilində feilin arzu şəkli bir neçə müxtəlif formada düzəldilir və Azərbaycan dili ilə oxşar cəhətləri ilə yanaşı feil dəyişdirilir.

Bu məqalədə yapon dilində arzu şəkillərini və Azərbaycan dilində feilin şəkilləri ilə oxşar və fərqli xüsusiyyətləri haqqında söhbət açacağıq.

	買 か K A うう au lmaq	吸 す Su Çə うう u kmək	書 か K ya くく aku zmaq	聞 き Ki Eşi くく ku dmək	行 い İ G くく ku etmək	飲 の N İç むむ omu mək
I	食 た T Y べる べる aberu emək	起 お Ok oy きる きる iru anmaq	降 お O D りる りる riru üşmək	信 し Şin İna じる んじる ciru nmaq	着 き K る る iru	寝 ね N Y る る eru atmaq
II	来 く k G る る uru əlmək	す す Sur Et る る u mək				

Onu da qeyd etmək vacibdir ki, bu qruplarda, əsasən 1-ci qrupda feilin əsaındaki hecada "i" və lüğət formasında "u" saiti olan feillər, 2-ci qrupda əsasda "i"saiti və lüğət formasında "u" olmayan feillər və üçüncü qrupda isə ancaq yuxarıda göstərilən iki feil vardır.

Azərbaycan dilində arzu bildirmək üçün əsasən feilə "a", "ya" şəkilçilərinin artırılması ilə düzəlir. Məsələn: bax-a,oxu-ya.

Şəxslərə görə və cəmə görə şəkilçilər dəyişir, məsələn:

Şəxslər	Tək	Cəm
I	Gələm	Gələk

141 *Bakı Dövlət Universiteti, E-mail: ahmadovanaila@gmail.com*

II	Gələsən	Gələsiniz
III	Gələ	Gələlər

Yapon dilində nə cəmlərə görə, nə də şəxslərə görə feil dəyişmir və feilin şəkilçiləri də eyni formada dəyişdirilir. Onu da qeyd etmək lazımdır ki, yapon dilində feilin arzu şəkli bir neçə müxtəlif şəkilçi artırılmaqla düzəldiləbilər və şəkilçiyə görə məna da bir gədər dəyişir.

Feilin arzu şəkli və こう şəkilçisi.

Yapon dilində feilin əsasını dəyişərək, -kou affiksi əlavə edərək yeni feil düzəldilir.

Bu feillər üç qrup üzrə, yuxarıdakı qrafikda göstərildiyi kimi, həmin godan, içidan və kökündə dəyişən する-suru, くる-kuru feillər üzrə bölünür.

～こう feilin arzu formasıdır. Bu feil şəkilçisi 行こう (gedəm), 飲もう (içəm) və 泳げよう(üzəm) kimi feillə təsvir edilən hərəkəti etmək istəyini, arzusunu ifadə edir.

Nümunə:

明日学校へ行こうと思います。Aşita qakkou e ikou to omoimasu.Fikirləşirəm(İstəyirəm) ki sabah məktəbə gedəm.

Yapon dilində üç danışıq, yazı üslubu vardır ki, bunlar sadə, nəzakətli və ehtiramlı danışıq formalarıdır. İlk(こう)üslub daha çox ailə daxili və dostlarla, yəni yaxın tanışlarla istifadə oluna bilər.Bu formada iş yerində və rəsmi strukturlarda danışmaq bir gədər nəzakətsiz görünə bilər.

Yapon dilində feilin üç arzu formalarından こう,よう～kou, you forması aşağıdakı qaydada düzəldilir:

Feil: 行きます・いきます-ikimasu (getmək) – いこう-ikou (gedəm)

Burada feilin əsasındakı き-ki hecası ko hecasına dəyişdirilir vəますmasu sonluğunu～うu sonluğu əvəz edir.

1-ci qrup feillərdə feilin əsasında samit ilə yanaşı-i saiti yer alır və bu -i saiti -ou saitləri ilə əvəz edilir.

Nümunə:

遊びます～あそびます～遊ぼう- asob+i+masu (əylənmək) +aso+bo+u(əylənək,əylənəm)

書きます～書こう～かこう–kak+i+masu(yazmaq) kak+o-u (yazam)

2-ci qrup feillərdə feilin əsasında heçbir dəyişiklik baş tutmur, lakin feilin sonluğundaki ます-masu yerinə ～よう-you sonluğu əlavə olunur.

Nümunə: たべます・食べます(yemək)-tabe+masu 食べよう tabe+you(yeyim,yeyəm)

Nümunədə göründüyü kimi, ikinci qrup feillərdə feilin əsasənda heçbir dəyişiklik olmur, ancaq -masu sonluğu -you sonluğu ilə əvəz olunur.

3-cü qrupda iki feil var və bu feillər kökdən dəyişir.

来ます・きます-kimasu(gəlmək) – koyou (gələm,gələk,gələsən, ,gələ,gələlər)

します–şimasu(etmək) – şiyou (edəm,edək,edəsən,edə, edələr)

Yapon dilində feilin arzu şəkli Azərbaycan dili ilə bir gədər oxşarlığı vardır ki, feilin kökünə şəkilçi əlavə edilərək düzəldilir.

Feilin arzu şəkli və ～たい tai şəkilçisi

Beləliklə, yapon dilində arzu şəklini düzəltmək üçün feilin məsdər formasındakı ます-mas sonluğu götürülərək, たい tai sonluğu ilə əvəz olunur.

Nümunə:

1ci qrup-立ちます(taçimas-qalxmaq)-立ちたい(taçitai-qalxmaq istəyirəm)

2ci qrup-で+ます(demas-çıxmaq)-で+たい(detai-çıxmaq istəyirəm)

3cü qrup-し+ます(şimas-etmək)-し+たい(şitai-etmək istəyirəm)

き+まFeil birinci qrup feilidir və bir əvvəlki arzu formasında (kou) bu qrupda feilin əsasındakı sait -o saitinə dəyişdirilərək yeni forma düzəldilirdi. たい tai formasında isə əsas olduğu kimi qalır və feildən sonra dəyişilməz nitq hissəsi olan desu-です、だ yada -da cümlənin sonuna əlavə olunur.

Digər feillərdə də -tai arzu formasının düzəldilməsinə nəzər yetirək.

待ちます–maçimasu (gözləmək) – まち+たい maçi+tai (gözləyəm,gözləyə,gözləyəsən)

しらべます–şirabemasu (tədqiq etmək) – しらべ+たい şirabetai (tədqiq edəm, tədqiq edə, tədqiq edəsən)

みせます-misemasu (göstərmək) みせ+たい mise+tai (göstərəm, göstərə,göstərəsən)す(kimas-gəlmək)-き+たい(kitai-gəlmək istəyirəm)

明日大学へ行きたいです。

Aşita daiqaku e ikitai des.

Sabah universitetə getmək istəyirəm.

Qeyd: yapon dilində feilin arzu şəkli, feilin sonuna "tai" şəkilçisi əlavə edilməklə, feil artıq təkcə feil deyil, feli-sifət şəklinə keçir, xüsusən isə -İ sifəti olaraq cümlədə rol oynayır. Buna görə də arzu şəklindəki feildən sonra, digər şəkildəki feillərdən fərqli olaraq biz dəyişməz nitq hissəsi olan です(des) yada だ(da) işlətməliyik.

Nümunə:

早く旅行に行きたいです。

Hayaku ryoko ni ikitai desu.

Tezliklə səyahətə getmək istəyirəm.
Nümunə: あした美術館へ行きたいです。
Aşita bicütsukan he ikitai desu.
Sabah muzeyə getmək istəyirəm/İstəyirəm sabah muzeyə gedəm.
Beləliklə deyəbilərik ki yapon və Azərbaycan dilində feilin arzu şəklinin düzəldilməsində bir gədər oxşar cəhət varsa da, fərqlilik daha çoxdur.

Ədəbiyyat:

1. Cəlilbəyli O.B."Yapon dilində fellərin leksik-qrammatik kateqoriyalarının bəzi xüsusiyyətləri". Bakı, AzAtam-2007, -143 səh.
2. A. Axundov "Ümumi dilçilik". Bakı, "Şərq-Qərb", 2011, 270səh.
3. Minna no Nihongo, Tokyo, 2006.
4. Kanji Look and Learn, Japan, 2009.
5. www.tofugu.com
6. www.nihongo.pro

Açar sözlər: feil,şəkil, ,arzu, ifadə, şəkil
Ключевые слова: глагол ,форма,желательная форма, аффикс
Key words: verb,form,will, expression, affix

XÜLASƏ

Məqalədə Azərbaycan dili ilə müqayisə edilərək, Uzaq Şərqin fərqli dillərindən sayılan yapon dilinin feilin fərqli şəkillərini təmsil edən feilin arzu şəkillərindən danışılmışdır. Yapon dilində feilin şəkilləri Azərbaycan dili ilə müqayisəli şəkildə təhlil edilmişdir. Bu məqalədə yapon dilində feilin növləri və şəkilləri haqqında məlumat və nümunələr göstərilmişdir. Feilin arzu şəkli haqqında geniş məlumat verilmişdir. Azərbaycan dili ilə müqayisədə yapon dilində felin növləri bir gədər azlıq təşkil etdiyinə baxmayraq, feilin şəkilləri bir o gədər fərqli və maraqlıdır. Yapon dilinin də özünün spesifik dil qaydaları mövcuddur. Yəni bir qayda müxtəlif dillərdə müxtəlif cür düzəldilir və bəzi hallarda tamamilə fərqli şəkildə düzəldilir.

Məqalədə geniş və ətraflı formada feilin şəkillərinin qaydaları, onların işlənmə yerləri və cümlədə işlədilməsi göstərilmişdir. Beləliklə Azərbaycan dili ilə bir çox nümunədə və fərqli formada verilən müqayisəli izah məqaləni daha ətraflı və dəqiq olmasına töhvə verir.Yapon və Azərbaycan dillərinin oxşar və fərqli cəhətləri var. İeroqlif və struktur baxımından çətin dil olmasına baxmayaraq, yapon dili bir çox cəhətdə Azərbaycan dili və tələffüzuna yaxınlığı,cümlənin strukturunun oxşarlığı, samit və sait uyğunluğu, ahəng qanunu ilə oxşar söz düzəltmə qaydası yapon dilin daha da yaxından öyrənilməsinə zəmin və maraq yaradır.

РЕЗЮМЕ

В статье, в сравнительной форме с Азербайджанским языком рассматриваются формы глагола, представляющие различные формы глагола в японском языке, который считается одним из интересных дальневосточных языков. Форма пожелания(желательная) глагола в японском языке была проанализирована в сравнении с азербайджанским языком. Эта статья содержит информацию и примеры типов глаголов и изображений на японском языке. Дается обширная информация о желательной(намерительной) форме глагола. Несмотря на то, что типов глаголов в японском языке немного меньше, чем в азербайджанском, формы глаголов разные и интересные.

Японский язык также имеет свои особые языковые правила. То есть правило создается по-разному на разных языках и в некоторых случаях совершенно иным образом. В статье подробно описаны правила образования различных форм глагола, места их использования и сходства с другими формами глагола, а так же с азербайджанским языком. Таким образом, сравнительное объяснение с азербайджанским языком во многих примерах и в разных формах способствует тому, что статья становится более подробной и точной.Японский и азербайджанский языки имеют сходства и различия. Хотя иероглифически и структурно сложный язык, японский во многих отношениях близок к азербайджанскому языку и произношению, особенно по соответствию согласных и гласных, а так же очень схожая структура предложения создают основу и интерес для более подробного изучения этого языка.

SUMMARY

The article discusses the willing form of the verb, representing various forms of the verb in Japanese, which is considered one of the different languages of the Azerbaijani and Far Eastern languages. The form of the verb in Japanese was analyzed in comparison with the Azerbaijani language. This article provides information and examples of Japanese verb and picture types. Extensive information is given on the possible form of the verb. Despite the fact that the types of verbs in Japanese are slightly less than in Azerbaijani, the images of verbs are so different and interesting. The Japanese language also has its own specific language rules. That is, the rule is created differently in different languages and in some cases in completely different ways.

The article describes in detail the rules for the formation of the probable form of the will form of the verb, the places of their development and similarities with other forms of the verb. Thus, the comparative explanation with the Azerbaijani language in many examples and in different forms contributes to the fact that the article becomes more detailed and accurate. Japanese and Azerbaijani languages have similarities and differences. Although it is a hieroglyphically and structurally

complex language, Japanese is in many respects close to Azerbaijani and pronunciation, especially in terms of consonants and vowels, similar word formation rules with the law of harmony create the basis and interest for a more detailed study of this language.

Mövzunun adı:

Yapon dilində feilin arzu şəklinin müqayisəli tədqiqi

Сравнительное изучение желательной(намерительной) формы глагола в японском языке

Comparative study of the will(wish) form of the verb in Japanese

Reviewer, Prof. O.B. Jalilbayli

Mirqədirova Şəbnəm[142]

YAPON DİLİNDƏ FEİLİN İCBAR NÖVÜNÜN MÜQAYİSƏLİ TƏDQIQI

Felin qrammatik məna növləri danışan şəxsin (iş görənin -subyektin) üzərində iş görülən əşya ilə (obyektlə) qarşılıqlı münasibətini bildirir. Burada subyektin məlum olub-olmaması, işin subyektin öz üzərində görülməsi və ya qarşılıqlı - birgə şəkildə yerinə yetirilməsi əsas götürülür. Bu baxımdan Azərbacan dilində felin aşağıdakı qrammatik məna növləri var: məlum növ, qayıdış növ, qarşılıq - birgəlik növ, icbar növ, məchul növ, şəxssiz növ. İcbar növ fellərdə iş va hərəkəti danışan (və ya haqqında danışılan) səxs yox, başqası icra edir. Azərbaycan dilində bu növ feillərə -dır4, bəzən də -t şəkilçisini artırmaqla düzəlir. Məsələn:

Məktubu yaz+dır+dım.
Çəkməni sil+dir+ər+sən.
Otağı döşə+t, bəzə+t.

Bu şəkilçilər təsirsiz feillərə qoşulduqda icbar növ yox, təsirsiz feildən təsirli feil düzəlir. Məsələn:

Biz onu inan+dır+dı+q. (İşi görən bizik).
Mən uşağı gül+dür+dü+m. (İşi görən mənəm).
O, məni kiməsə oxşa+t+dı (İşi görən məlumdur+odur)

Belə feillərdən icbar növ düzəltmək üçün onlara yenidən icbar növün şəkilçisini artırmaq lazımdır. Məsələn:

Uşağı gül+dür+t. Onu yerində otur+t+dur

Azərbaycan dilində icbar növ feilin yeganə növüdür ki, bir qayda olaraq, təsirli feillərdan düzəlir və təsirli olaraq qalır. Bu məqaləmizdə isə yapon dilində felin icbar növü və onun fərqli xüsusiyyətləri haqqında söhbət açacağıq. Bundan əlavə, yapon dilində felin bir neçə növü də mövcuddur: bacarıq növ可能態形 (kanoukei), məchul növ受身形 (ukemikei) və icbar növ使役形(şiekikei)

Yapon dilində də Azərbaycan dilində olduğu kimi, cümlələrdə subyekt obyekt tərəfindən ifadə olunan başqa bir obyekti hərəkətə gətirir. Kimisə bir şey etməyə məcbur etmək lazım olduqda istifadə olunur. İndi isə bu formanın yapon dilində hansı qaydada düzəlmə qaydasına nəzər yetirək.

Bildiyimiz kimi, yapon dilində fellər 3 qrupa bölünür. I qrup, II qrup və III qrup fellər. Məhz bu bölünməyə əsasən icbar növün düzəlmə qaydası fərqlilik təşkil edir.

1) **1-ci qrup felləri üçün 1-ci kökə (Sonunda うsonluqlarının əvəzinə あsonluqlu hərfləri qoyuruq) +せる**

飲む(nomu) - içmək 飲ませる(nomaseru) - bir içirtmək
待つ(matsu) - gözləmək待たせる(mataseru) - sizi gözləməyə məcbur etmək
話す(hanasu) - danışmaq 話させる(hanasaseru) - danışdırmaq
買う(kau) - almaq 買わせる(kawaseru) - almağa məcbur etmək

1-ci qrup feillərdə icbar növün əmələ gəlməsinə nümunələr:

む(mu) => ま(ma) 読むyomu - oxumaq => 読ませる(yomaseru)
す(su) => さ(sa) 話すhanasu - danışın => 話せる(hanaseru)
う(u) => わ(wa) 会うau - görüşmək => 会わせる(avaseru)
ぬ(nu) -な(na) 死ぬsinu - ölmək => 死なせる(sinaseru)
つ(tsu) - た(ta) 立つtatsu - dayanmaq => 立たせる(tataseru)
ぶ(bu) - ば(ba) 学ぶmanabu - öyrənmək => 学ばせる(manabaseru)
く(ku) - か(ka) 書くkaku - yaz => 書かせる(kakaseru)
ぐ(gu) - が(ga) 急ぐisoqu - tələsin => 急がせる(isoqaseru)
る(ru) - ら(ra) 降るfuru - yağmaq => 降らせる(furaseru)

彼女は私に指輪を買わせました。
Kanoco va vatashi-ni yubiva-o kavasemaşita. Qız mənə üzük almağa məcbur etdi

2) **2-ci qrup felləri üçün sonunda olan るişarəsini atıb, onu させるilə əvəz edin.**

見る(miru) - baxmaq 見させる(misaseru) - baxdırmaq
食べる(taberu) - yemək 食べさせる(tabesaseru) - yeməyə məcbur etmək
調べる(shiraberu) - tapmaq 調べさせる(shirabesaseru) - öyrənməyə məcbur etmək

2) 3-cü qrup fellər isə kökdən dəyişir.

来る(kuru) "gəl" こさせる gəlməyə məcbur etmək (icazə vermək).
する(suru) "etmək" させる məcbur etmək (icazə vermək).

母は姉に掃除をさせました。
Haha va ane-ni souci-o sasemaşita.
Ana böyük bacıma evi təmizlətdi.

Fel qrupları	Felin lüğət forması	Felin kökü	Felin icbar növü	Tərcümə
1-ci qrup	書く“yazmaq"	かか	かかせる	yazmağa məcbur etmək (icazə vermək).

[142] **Bakı Dövlət Universiteti**, *E-mail: shebnemmirqedirova@gmail.com*

	聞く*kiku* "qulaq asmaq"	きか	きかせる	dinləməyə məcbur etmək
	読む"oxumaq"	よま	よませる	oxumağa vadar etmək
	飲む*nomu* "içmək"	のま	のませる	sərxoş olmaq
	買う*kau* "almaq"	かわ	かわせる	almağa məcbur etmək
2-ci qrup	食べる*taberu* "yemək"	たべ	たべさせる	yeməyə vadar etmək
	受ける*ukeru* "qəbul etmək"	うけ	うけさせる	almağa məcbur etmək (icazə vermək).
3-cü qrup	来る*kuru* "gəlmək"	こ	こさせる	gəlməyə məcbur etmək (icazə vermək).
	する "etmək"	さ	させる	məcbur etmək (icazə vermək).

Felin icbar növündə istifadə olunan cümlələrdə hərəkətə təhrik edilən subyekt "を" (o) və yaxud "に"(ni) hissəciyi ilə işlədilir. Əgər cümlədəki fel təsirsiz feldirsə, həmin subyekt (əşya, insan) "を" (o) hissəciyinə birləşir. Yəni onunla birgə işləmir. Əgər xəbər təsirsiz fel kimi işlənirsə, bu zaman subyekt felə təsiri olub-olmamasından asılı olmayaraq, bu, "に"(ni) hissəciyi ilə işlənir.

部長は加藤さんを大阪へ出張させます。

Buçou va Katou sano-o Oosaka-e shuççou sasemasu. Bölmə rəisi cənab Katounu Osakaya ezamiyyətə yollayır.

Yerin və məkanı ifadə edən təsirsiz fellər istisna təşkil edir. Bu halda aşağıdakı nümunədə olduğu kimi hərəkətə təhrik edilən subyekt "に"(ni) hissəciyi ilə işlənir. Əgər "を" (o) hissəciyini tələb edən çevirmə yoxdursa, bu zaman hərəkətə təhrik edilən subyekt "を" (o) hissəciyi ilə yazılır. Məsələn:

私は子供に道の右側を歩かせます。

Vataşi va kodomo-ni miçi-no migiqava-o arukasemasu.. Mən uşağa yolun sağı ilə gəzməyi öyrədirəm.

Bu nümunədə təsirsiz felin icbar növlə işlənməsi aydın görünür. İndi isə təsirli fellərin icbar növlə necə işlənməsinə diqqət edək. İcbar növdə olan fellər müəyyən bir hərəkətə məcburiyyət yaxud icazə alınması tələb olunan hallarada istifadə edilir. Belə ki, bunlar – valideynlər və uşaqlar arasında, yaşca böyük və kiçik bacı-qardaılar arasında, vəzifəli şəxslər və tabelikdə olan şəxslər arasında tabeçilik müəyyən edilən bütün hallarda istifadə edilir. Nümunələr vasitəsilə buna aydınlıq gətirək. Məsələn:

朝は忙しいですから、娘に朝ご飯の準備を手伝わせます。

Asa va isoqaşi desu kara, musume-ni asagohan-no junbi-o tetsudavasemasu.

Səhər məşğul olduğuma görə, səhər yeməyi hazırlığını qızıma etdirirəm.

Digər bir nümunə:

先生は生徒に自由に意見を言わせました。

Sensey va seito-ni ciyu ni iken-o ivasemaşta.Müəllim şagirdlərə sərbəst formada deməyinə imkan yaradır (dedirdir)

Göründüyü kimi, 1-ci nümunədə təhrik edilmə forması, 2ci nümunədə isə icazə verilmə (razılıq) forması göstərilib. Bununla yanaşı, növbəti nümunədə göstərildiyi kimi, təhrik edilməmüəyyən bir sosial qrupun daxilində ifadə edilir. Belə ki, icbar növ bu sosial qrupun daxilində tabeçiliyin olmasından asılı olmayaraq istifadə edilir.

駅に着いたら、お電話をください。

Eki-ni tsuitara, o-denva-o kudasai.

Vağzala çatanda, zəhmət olmasa zəng edin.

係りの者を迎えに行かせますから。

Kakri-no mono-o mukae-ni ikasemasu kara.

Mən qarşılamq üçün işçimi göndərəcəm.

Əgər tabelikdə olan şəxs tabeliyində olan şəxsi təhrik edirsə, bu nitq forması , yəni, "ていただきます"(te itadakimasu) istifadə edilir. Əgər hər iki şəxs eyni statusdadırsa, o zaman "てもらいます" (te moraimasu) formasından istifadə edilir.

私は部長に説明していただきました。

Vataşiva buçou-ni setsumei şite itadakimaşta.

Bölmə Rəisi mənə izah etdi.

私は友達に説明してもらいました。

Vataşi va tomodaçi-ni setsumei şite moraimaşta.

Dostum məni başa saldı.

Buradakı 1-ci nümunədən göründüyü kimi, tabelikdə olan şəxs, tabeliyində olduğu şəxsin ona münasibətini ifadə edirsə, bu zaman felin icbar növündən istifadə edilir. Bununla yanaşı, tabelikdə olan şəxsi tabeliyində olan şəxsin ona münasibətini ifadə edərkən, istisna hal kimi, aşağıdakı nümunədə göstərildiyi qaydada felin hiss və emosiyaları ifadə edən icbar növləri istifadə edilə bilər. Məsələn: 安心する (anşin suru) sakitləşmək、心配する(şinpai suru) narahat olmaq、がっかりする(qakkari suru) təəccüblənmək、よろこぶ (yorokobu) sevinmək、かなしむ (kanaşimu) kədərlənmək、おこる(okoru) hirslənmək.

A.ağıdakı nümunəyə nəzər yetirək:

子供の時、体がよわくて、 母を心配させました。
Kodomo-no toki, karada-qa yovakute, haha-o şinpai sasemaşta.
Uşaq vaxtı, bədənim zəif olduğundan, anamı narahat etmişəm.
“ていただけませんか” forması həmsöhbətin hər hansı bir işi etməsi üçün nəzakətli xahişi ifadə edir. əgər danışan şəxs qarşı tərəfin razılığını almaq istəyirsə və hərəkəti əgər özü icra edəcəysə, bu zaman “ていただけませんか” formasından istifadə edilir.
コピー機の使い方を教えていただけませんか。
Kopi ki-no tsukaikata-o oşiete itadakemasen ka.
Kopya maşınının necə istifadə emək lazım olduğunu izah etməzsinizki?
友達の結婚式があるので、早退させていただけませんか。
Tomodaçi-no kekkonşiki-qa aru no de, soutai sasete itadakemasen ka.
Dostumun toyu olduğu üçün, mənə tez getməyi icazə verməzsinizki?

Göstərilən 1-ci nümunədə おしえる (oşieru) “izah etmək” ifadəsi həmsöhbətin hərəkətini, 2-ci nümunədə olan そたいする (soutai suru) “erkən buraxmaq” ifadəsi isə danışan şəxsin hərəkətini bildirir.

Ədəbiyyat:

1.Cəlilbəyli O.B."Yapon dilində fellərin leksik-qrammatik kateqoriyalarının bəzi xüsusiyyətləri". Bakı, AzAtam-2007, -146səh.
2.Axundov A."Ümumi dilçilik". Bakı, "Şərq-Qərb", 2011, 280səh.
3.3.Minna no Nihongo, Tokyo, 2006.
4.Kanji Look and Learn, Japan, 2009.
5.www.nihongo.aikidoka.ru
6.www.animemo.ru

Açar sözlər: *fel, icbar növ, ifadə, şəkilçi*
Ключевые слова: *глагол, побудительный залог, выражение, аффикс*
Key words: *verb, causative verbs, expression, affix*

XÜLASƏ

Məqalədə Azərbaycan dili və Uzaq Şərqin maraqlı dillərindən sayılan yapon dilinin geniş mövzularından olan felin icbar növündən (Azərbaycan dili ilə müqayisəli şəkildə) söhbət açılmışdır. Burada yapon dilində olan feilin növləri haqqında məlumat verilmiş, ancaq əsasən feilin icbar növü geniş formada işıqlandırılmışdır. Azərbaycan dili ilə müqayisədə yapon dilində felin növləri nisbətən azlıq təıkil edir. Ancaq bu heç də yapon dili qrammatikasının kasadlığına dəlalət etmir. Sadəcə hər bir dildə olduğu kimi, yapon dilinin də özünün spesifik dil qaydaları mövcuddur. Yəni bir qayda müxtəlif dillərdə müxtəlif cür özünü büruzə verir. Məqalədə geniş və aydın formada felin icbar növün düzəlmə qaydaları, onların işlənmə yerləri göstərilmişdir. Həmçinin Azərbaycan dili ilə aydın formada verilən müqayisəli izah məqalənin daha anlaşıqlı olmasına zəmin yaradır. Hər iki dilin oxşar cəhətləri olduğu kimi, fərqli cəhətləri də mövcuddur. Çətin dil olmasına baxmayaraq, Yaponiyanın özünəməxsus müsbət keyfiyyətlərinin üstünlük təşkil etməsi bu ölkənin dilini də yaxından öyrənilməsinə böyük həvəs yaradır.

РЕЗЮМЕ

В статье обсуждается принудительный залог глагола Азербайджанского и Японского Языка. Здесь говорится о формах глагола на японском языке,в особенности о принудительном залоге глагола. В Японском языке глаголов меньше,чем в Азербайджанском языке. Но это не значит, что грамматика Японского языка скудная. Как и в любом другом языке, в Японском языке тоже есть свои специфические правила грамматики. В статье обсуждается принудительный залог глагола и места его использования. Сравнительное объяснение Японского языка с Азербайджанским ,помогает понимать статью ещё лучше. У этих двух языков есть схожие и разные стороны. Не смотря на то , что Японский язык довольно сложный, положительные стороны Японии пораждают интерес к изучению этого языка.

SUMMARY

In this article, causative verbs will be mentioned in both Azerbaijani and one of the interesting languages of Far East, Japanese. There will be an information about all forms of verb, however causative form of verb will be enlightened in particularly. In comparison to Azerbaijani, Japanese verbs are relatively rare.Nevertheless, It does not indicate a lack of grammar in Japanese. Just like any other language, Japanese has its own specific language rules. That is, a rule manifests itself differently in different languages.This article illustrates in a broad and clear way how to change a verb to a causative verb and how it should be used in a sentence. Also, the comparative explanation given in the Azerbaijani language makes the article more understandable. Both languages have similarities as well as differences.Despite the fact that Japanese is a pretty much difficult language, the predominance of Japan's unique positive qualities makes it very interesting to study the language of this country closely.

Mövzunun adı:
Yapon dilində feilin icbar növünün müqayisəli tədqiqi
Сравнительное изучение принудительного залога глагола на японском языке
Comparative study of the causative form of the verb in Japanese
Reviewer, Prof. O.B. Jalilbayli

Arzu Məhəbbət qızı Zeynalova[1]

İDRAK FƏALLIĞININ İNKİŞAF ETDİRİLMƏSİNİN DƏRSİN SƏMƏRƏLİLİYİNƏ TƏSİRİ

Əgər dil ünsiyyətin əsas vasitəsidirsə, o zaman təlim dilin əsasında qurulmalı, seçilən metod və priyomlar şagirdin nitqini və təfəkkürünü inkişaf etdirməlidir. Şagird fikrini ifadə etməyi, başqasının nitqini anlamalı, söz və ifadələrdən yerli-yerində istifadə etməyi bacarmalıdır. Bu yolda müəllimlərin əsas məqsədlərindən biri şagirdlərin idraki (koqnitiv) bacarıqlarının inkişafına yönəlməlidir. Azərbaycan dili dərslərində idraki bacarıqları aşağıdakı açar sözlərlə qruplaşdıra bilərik: tanımaq; nümunə göstərmək; istifadə etmək; təhlil etmək; müqayisə etmək; qaydanı izah etmək; fərqləndirmək; dəyərləndirmək və s.

Təlimdə hansı bacarıqları formalaşdırmağı istəyiriksə, ilk növbədə, məhsuldar nəticəni qazanmağa fokuslanmalıyıq. Eyni zamanda, şagirddən əldə olunan biliyi nəinki dərk etməsi, yadda saxlaması, həm də praktikaya cəlb etməsi tələb olunur. Şagirdlər dil qaydalarını yadda saxlayaraq, başa düşərək idraki bacarıqları əldə edə bilmirlər. Bunu öz təcrübələrində həm zehni, həm də praktik olaraq tətbiq etməyi öyrənlər, təhsil və idrak porsesi daha səmərəli nəticə verə bilər.

İdrak və təfəkkür insana xas olan mühüm keyfiyyətlər sırasındadır. Təfəkkür elə idrak proseslərindən biridir. O, ilk növbədə şagirdin bütün parametrlərini əhatə edir, onun fəaliyyətini tənzimləyir. İdrak fəaliyyətinin gedişində şagirdlərin məntiqi, tənqidi, yaradıcı təfəkkürü inkişaf edir. Təfəkkürün fəallığı təlim materialının dərk edilməsi prosesini sürətləndirir, mənimsəməni xeyli asanlaşdırır. Təfəkkür dil materialları, dil qaydaları üzrə formalaşır. Hər bir şagirdin öz nitqi olmasının əsas səbəbi də təfəkkür məsələsidir. Belə ki, eyni materialı bütün sinifdən soruşsaq, fikirlər oxşar olsa da, ifadə etdikləri sözlər və cümlələr hər bir şagirdin özünəməxsus dərk etmə bacarığının, təfəkkür qabiliyyətinin fərqli olmasının sübutudur.

Qeyd etdiyimiz kimi, dil və təfəkkür dialektik vəhdət təşkil edir, deməli, təlim prosesi bu zəmində təşkil olunmalı, metod və priyomlar bu əsasda seçilməlidir. Bu cür təşkil olunan təlim prosesi şagirdin həm nitq, həm təfəkkürünün inkişafında xüsusi rol oynayacaq. Buradan çıxış edərək deyə bilərik ki, əyani və mücərədləşdirmə mərhələlərindən ibarət olan idrak qanunu əsasında təlimi qurmalı, elə metod seçməliyik ki, bu qanunun tələblərinə uyğun olsun. "Şagirdin əvvəlcə dil faktları ilə tanış olması, onları görməsi, eşitməsi, bir sözlə, müşahidə etməsi zəruridir. Bu ilk mərhələ - əyani idrak mərhələsi şagirdin dil qanunlarını mənimsəməsinin əsasını təşkil etməli, onun müvafiq nəticələr çıxarması işini asanlaşdırmalıdır." (1,17)

İdrakın mənbəyi olan praktika, həm də onun hərəkətverici qüvvəsi, həqiqi meyarıdır. Buradan belə nəticəyə gəlirik ki, idrak prosesi zamanı şagirdlərin nitq bacarıqlarının inkişafına çalışmalı və tədris zamanı ona uyğun metodlar seçilməlidir. "Şagirdin nitq praktikasına əsaslanmaq, onun nitqini öyrənmək, nəzəri materialları həmin nitq praktikası əsasında şərh etmək və yenidən nitq praktikası əsasında yoxlamaq, həqiqiliyini sübut etdikdən sonra yenə də nitq praktikası (terminlər) vasitəsilə möhkəmləndirmək lazımdır. O şeyi ki uşaq nitqində işlətmir, onu nəzəri cəhətdən şərh etmək faydasızdır. Müəyyən dil faktların əvvəl nitqə daxil edib, sonra nəzəri cəhətdən aydınlaşdırsaq, daha çox qazanarıq." (1,17)

Əşya, hadisə və onların elementləri arasında dialektik əlaqə vardırsa, deməli, bu özü də bir obyektiv qanunauyğunluqdur. Bunun üçün də ana dilini şagirdə öyrədərkən dilin elementləri arsındakı əlaqə və münasibətlər izah olunmalıdır. Dilin bölmələrinin arasındakı əlaqə hər zaman diqqət mərkəzində saxlanmalıdır. Çünki tədris olunan bir dil bölməsi digəri üçün zəmin rolunu oynayır. Ayrı-ayrı bölmələr əslində bütövlükdə Azərbaycan dili fənninin məzmununu təşkil edir.

Təlimin əsas üstünlüklərindən biri də oxumağa həvəs, motivasiya yaratmaqdır. Bu da idrak fəaliyyətinin gedişində şagirdlərin bilikləri "hazır" şəkildə deyil, öz "kəşf"ləri hesabına əldə etmələri sayəsində mümkün olur. Təlimin səmərəliliyinin (daha qısa müddətdə daha çox informasiyanı mənimsəmək imkanının) artırılmasının aşağıdakı səbəblərini göstərmək olar:

- şagirdlərin idrak fəaliyyəti və təlim motivasiyası hesabına;
- təfəkkürə əsaslanaraq biliklərin müstəqil, məhsuldar və yaradıcı şəkildə əldə edilməsi və mənimsənilməsi sayəsində. (5)

Metodik ədəbiyyatlarda koqnitiv fəaliyyyətin üç səviyyəsi qeyd olunur. Birinci səviyyə - reproduktiv fəaliyyətdir ki, şagirdin biliyi dərk etməsi, yadda saxlaması, mənimsəməsi ilə xarakterizə olunur. İkinci səviyyə - şərhetmədir. Öyrənilən məzmunun mənasını müəyyən etmək, hadisələr və proseslər arasındakı əlaqəni öyrənmək, verilmiş tapşırıqlarda çətinlik olarsa, tapşırığı yerinə yetirməkdən imtina etməyib, əksinə həll yollarının axtarılması ilə özünü göstərir. Üçüncü səviyyə - yaradıcı yanaşmadır. Bu fəaliyyət səviyyəsinə şagirdlər yeni biliyə, hər hansısa tapşırığa, problemin həllinə fərqli, yaradıcı təfəkkürü vasitəsilə nail olur.

Məlum bir həqiqətdir ki, hər yaşda kitab oxuyan, yazı yazan və beyni stimullaşdıran fəaliyyətlərlə məşğul olan şagirdlər digərlərindən daha yaxşı idraki inkişafa malikdirlər. Pedaqoqlar dil dərslərində istifadə olunan mətnlərlə yanaşı, şagirdlərə yaş səviyyələrinə uyğun bədii ədəbiyyatlar verməli, dərsdən sonra mütaliə olunmuş əsər haqqında danışıqlar aparılmalıdır. Şagirdlərə oxuduqları parçalardan müəyyən dil qaydaları nümunələri seçməyi tapşırmaqla həm dil qaydalarını necə mənimsədiyini, həmçinin əsəri danışarkən nitqlərindəki dəyişikliyi, dinamikliyi, yeni sözlərdən istifadə imkanlarını nəzərə alaraq, idrak prosesini daha səmərəli təşkil etmək olar.

---

[1]ADPU-nun magistrantı

"Təlim prosesinin emosionallığı şəraitində şagirdlərdə idrak fəaliyyətinə maraq və daxili tələbat yaranır. Bunun üçün müəllimlər müxtəlif didaktik metod və üsullardan istifadə etməli, "müqayisə edin", "ümumiləşdirin", "təhlil edin", "fərqlən-dirin" kimi produktiv fəallığa təhrik edən suallar hazırlayaraq düşündürməyə vadar edən tapşırıqlar verməlidir. Müəllimin əsas məqsədi dərsə maraq formalaşdırmaqdır ki, buna sadə priyomların növbələşdirilməsi, digər fənlərə inteqrasiya, müəllimin fəallığı, emosionallığı, dərs boyu maraqlı fakt və misalların, nümunələrin çəkilməsi ilə nail olmaq olar." (5)

V sinif "Azərbaycan dili" dərsliyində "Əlincə qalası" mətni üzrə dil qaydalarının, əməkdaşlığın, nitq inkişafının təmin edilməsi üçün "öyrənirəm-öyrədirəm" metodundan istifadə edərək təlim nəticəmizi uğurlu əldə edə bilərik. Motivasiya mərhələsində müəllim şagirdlərə belə bir müraciət edə bilər:

– Siz indiyə qədər hansı qalalar haqqında məlumat almısınız? Bu qalalar nə məqsədlə tikilmişdi? Həmin qalalar hansı ərazilərdə yerləşir? və s.kimi hafizəyə və xatırlamağa yönəlik suallar verməklə şagirdlərin idraki fəaliyyətlərini işə salır.Şagirdləri üç qrupa bölür. Mətnin bütün hissələri həm oxunur, həm dinləmə vasitəsi ilə mənimsənilir. Metodun tələbinə uyğun olaraq, şagirdlər öz öyrəndiyi məlumatı digər qrupa izah edərək öyrənmə-anlama fəaliyyətini effektiv qururlar. Habelə dərsin digər mərhələlərində də standartlar əsasında fəal(interaktiv) dərs modeli qurulur, şagirdlərin idraki bacarıqları öz səmərəli həllini tapır.

"Əgər şagird təlim prosesində öz fərdi məqsədini aydın dərk edirsə, onu özlüyündə lahiyələşdirə, planlaşdıra bilirsə, məqsədə nail olmaq üçün öz iradi səyini səfərbər etməyi bacarırsa, demək bu halda təlim prosesinin özü motiv kimi çıxış edir. Bu zaman həm də təlim prosesindəki şagird fəaliyyəti onun idrak fəaliyyəti kimi çıxış edir. Belə hallarda şagird müəllimə əsas informasiya mənbəyi kimi baxmır, o, informasiyanı özü axtarır, onun üzərində işləyir və nəticədə informasiyanı mənimsəyir. Bu zaman müəllim şagirdin kənardan idarə olunmasını təşkil edir." (2,88)

Ana dili təlimi öyrədici xarakteri ilə yanaşı yaradıcı-axtarış fəaliyyətinə keçərsə, şagirdin mövzunu mənimsəməsi daha səmərəli və uzunmüddətli olar. Təlimin aktiv təşkil edilməsi onun keyfiyyət göstəricilərinə daxildir.

Müəllim tərəfindən idarə olunan, şagirdin şüurunda reallığı əks etdirən mürəkkəb və rəngarəng təşkil olunmuş dərs konkret olaraq idrak fəallığına əsaslanan prosesdir. Müəllimin rəhbər, bələdçi rolu şagirdlərdə bilik, bacarıqların mənimsənilməsi, eyni zamanda yaradıcılıq qabiliyyətlərini inkişaf etdirir.

Hissi qavrayış, nəzəri təfəkkür və təcrübi fəaliyyət koqnitiv fəaliyyətin tərkib hissələridir. Təhsil almağın ən vacib yolu öyrənməkdir. Öyrənmə ünsiyyət prosesində baş verir və hərəkətlə bağlıdır. Söz bilik vasitəsi olmaqla yanaşı ünsiyyət və təcrübi idrak fəaliyyətinin təşkili vasitəsidir. İdrak fəaliyyəti müstəqilliklə birbaşa əlaqədə özünü göstərir. Şagirdlərin motivasiyası fəaliyyətlə bağlıdır. Bu, müstəqil fəaliyyətdə müəllim köməyi olmadan tapşırığın şagirdin özü tərəfindən icra olunmasında özünü göstərir. Bu zaman şagird tapşırığı daha fəal və həvəsli şəkildə icra edir. Şagirdin müstəqil işi bacar-maması onu başqalarından asılı vəziyyətə salır.

Pedaqoji təcrübədə şagirdin idrak fəallığının artırılması üçün müxtəlif üsullardan istifadə olunur. Bu zaman ən böyük vasitə şagirdlərin özünü fəaliyyətə cəlb etmək, "özün düşün", "fikrini müdafiə et", "nə üçün belə düşünürsən?", "fikrini əsaslandır" kimi idrak fəallığını artıran vasitələrdən istifadə məqsədəuyğun hesab edilir. Məsələn, V sinif Azərbyacan dili dərsliyində "Rəmzə çevrilən adlar" başlıqlı mətn verilmişdir. Bu mətnin sonunda idrak fəallığını artıran, şagirdi düşünməyə və xatırlamağa, həm də xatırladıqlarını ümumiləşdirməyə vadar edən tapşırıqlar verilmişdir. Onu da qeyd edək ki, mətn inteqrativ xarakter daşıyır. Ədəbiyyat fənni ilə fənlərarası inteqrasiyaya malik olan bu mətnin tədrisi zamanı şagird ədəbiyyat biliklərindən istifadə edərək burada verilən tapşırıqların öhdəsindən gələ bilər. Hətta bir tapşırıq da araşdırma üçün nəzərdə tutulmuşdur. Bu tapşırıq şagirdin axtarış-tədqiqat, "məlumatı özün əldə et" bacarıqlarını inkişaf etdirmək baxımından əhəmiyyətlidir.

Müəllim motivasiyanı düzgün qurarsa, şagirdlərin müstəqil və kollektiv fəaliyyətinin uğurlu alınmasına nail ola bilər. Şagirdlərin idrak fəaliyyətinin artırılması metodları və prinsipləri seçilərkən təhsil prosesinin xüsusiyyətləri nəzərə alınmalıdır.

Dərs prosesinin aktiv təşkil edilməsi, o cümlədən şagirdlərin idrak fəaliyyətinin artırılması üçün ana dili müəllimi şagirdlərin "özü etməli" tapşırıqlar verməli, sinfi bu tapşırıqların icrasına sövq etməlidir. Buraya "müəllimə və yoldaşlarına sual ver, müzakirələrdə iştirak et, cavabları nəzərdən keçir və qiymətləndir, yoldaşına kömək et" kimi tapşırıqlar daxil ola bilər.

Müəllimin təşkil etdiyi suallar şagird təfəkkürünü fəaliyyətə gətirməkdə böyük əhəmiyyətə malikdir. Təcrübəli müəllim maraqlı və düşündürücü suallar verməklə onları axtarışa, düşünməyə, məlumatları saf-çürük etməyə vadar edir və uğurlu nəticəyə nail olur. Bu cür idraki fəallıq öyrənmə prosesinin hərəkətverici qüvvəsi hesab olunur. Bununla müəllim şagirdlərdə öyrənmə bacarıqları formalaşdırır, onlarda özünəinam yaradır, şəxsiyyət kimi inkişafına təkan verir.

Uğurlu tədris şagirdin həvəsi, bilik səviyyəsi, müstəqil fəaliyyəti və öyrənməyə münasibəti ilə xarakterizə edilir. Şagirdin biliyi isə şüurlu dərketmə, yadda saxlamaq, daha çox öyrənməyə çalışmaq ilə müəyyən edilir. Əgər şagird "niyə?" sualını vermirsə, bu onun bilik və dərsə maraq səviyyəsinin aşağı olmasını göstərir. Pedaqoji prosesin ikitərəflilik, şəxsiyyətin inkişafına diqqət və s. xüsusiyyətləri ilə təşkil olunan təlim uğurlu təlim sayılır.

İstifadə edilmş ədəbiyyat:

1. B.Əhmədov. "Azərbaycan dil təliminin qanunları, prinsipləri və metodları. Təkrar nəşr. Bakı: "Mütərcim",2007.120 səh.
2. C.Zeynaloğlu: "Təlim fəaliyyətinin psixoloji prosesi" (Metodik tövsiyələr) Bakı, "Print-S" nəşriyyatı. 2017,144 səh.
3. R.İsmayılov, A.Rüstəmova, D.Cəfərova. Azərbaycan dili.(5-ci sinif). Metodik vəsait. Bakı: "Altun kitab", 2020. 200 səh.
4. R.İsmayılov, A.Rüstəmova, D.Cəfərova, X.Qasımova Azərbaycan dili.(5-ci sinif). Dərslik. Bakı: "Altun kitab", 2020. 202 səh.
5. http://www.anl.az/down/meqale/az_muellimi/2019/aprel/646986.htm

Açar sözlər: idrak fəallığı, dərsin səmərəliliyi, təfəkkür, dil

Key words: cognitive activity, lesson efficiency, thinking, language.
Ключевые слова: познавательная деятельность, эффективность урока, мышление, язык.

Summary

As we know, active (interactive) training means training based on students' cognitive activity and carried out in cooperation with other participants of the educational process. Active learning is a set of methods of organization and management of teaching and cognitive activity based on modern principles. The main advantage of active learning is that it increases students' cognitive activity, makes them think, and directs them to make independent decisions. In the course of cognitive activity, students' logical, critical and creative thinking develops. The article examines the development of cognitive activity and its effect on the efficiency of the lesson.

Резюме

Как известно, под активным (интерактивным) обучением понимается обучение, основанное на познавательной деятельности учащихся и осуществляемое во взаимодействии с другими участниками образовательного процесса. Активное обучение представляет собой совокупность методов организации и управления учебно-познавательной деятельностью, основанных на современных принципах. Основное преимущество активного обучения состоит в том, что оно повышает познавательную активность учащихся, заставляет их думать, ориентирует на принятие самостоятельных решений. В ходе познавательной деятельности у учащихся развивается логическое, критическое и творческое мышление. В статье рассматривается развитие познавательной активности и ее влияние на эффективность урока.

RƏYÇİ: dos. S.Abbasova

Səbinə Sumqayıt qızı Məmmədova[143]

BƏDİİ TƏRCÜMƏNİN SƏCİYYƏVİ XÜSUSİYYƏTLƏRİ

Tərcümə dillərarası ünsiyyət vasitəsidir. Elm və texnikanın sürətli inkişafı, həmçinin xalqlar, dövlətlər, arasında mədəni, iqtisadi, siyasi əlaqələrin davamlı inkişafı lazımlı məlumatlatın digər dillərə tərcüməsinə zəruriyyəti ortaya çıxarmışdır. Dünyamızın bugününün və sabahının ehtiyaclarının ödənilməsində bu əlaqələr olduqca əhəmiyyətli olduğundan, tərcümə sənətinə də ehtiyyac gündən günə artır. Necə ki, hazırki həyatımızı elmin və texnikanın nailiyyətlərindən kənar təsəvvür etmək mümkün olmadığı kimi, tərcümə olmadan da təsəvür etmək mümkünsüzdür. Tərcümə yalnızca bu əlaqələrin qurulmasında rol oynamamış, həmçinin insan daxili aləminin, əxlaqı və tərbiyəsinin, estetik zövqünün, mədəniyyətinin formalaşmasına, müsbətə doğru dəyişməsinə təsir göstərir. Yeni bir dil öyrənmək yeni bir dünya ölkəsinə qapı açmaq, həmin ölkənin tarixinə, mədəniyyətinə yiyələnmək deməkdir. Nəinki keçmişdə, hətta müasir dövrümüzdə belə bəzən məlumat azlığından əziyyət çəkirik. Bəzi sahələr ölkəmizdə yeni yarandığından onlar barədə yeni məlumatlar əldə etmək bizə çətinlik yaradır. Bu zaman xarici mənbələr köməyimizə çatır. Məlumatı xarici dildə oxuyub tərcümə edirik və beləliklə tərcümənin köməyilə biz həmin məlumatlara yiyələnirik.

Tərcümə təkcə fərdlərin, bir-iki xalqın formalaşmasında deyil, bəşəriyyətin inkişafında dərin izlər buraxmışdır. Biz bu sözləri tərcümə sənətinin önəmini mübaliğə etmək üçün qeyd etmədik. Bildiyimiz kimi, tərcümə vasitəsi ilə xalqlar bir-birinin mədəniyyəti, tarixi barədə məlumat öyrənir,daha köklü əlaqələr qururlar. Bu da öz növbəsində qədimdən bəri dövlətin siyasi, iqtisadi, mədəni həyatına dərin göstərir. Hər bir ölkə digər ölkələrlə olan siyasi-iqtisadi əlaləqələri vasitəsilə daha da böyüyür, öz iqtisadiyyatının gücləndirir. Bu əlaqələrin qurulması, sazişlərin, müqavilələrin tərtib olunması, danışıqların həyata keçirilməsi – bütün bu proseslər tərcümənin köməyi ilə həyata keçir. Ölkəmizdən missal gətirsək neft və qazla müqavilələr, sammitlər buna ən gözəl nümunələrdəndir. Biz bu müqavilələrin ölkənin iqtisadiyyatına, inkişafına necə dərindən təsir etdiyini hamımız bilirik.

Müasir dövrdə qlobal istiləşmə, ətraf aləmin çirklənməsi, su ehtiyatlarının azalması kimi bir sıra qlobal problemlər vardır ki, bütün dünya liderlərini narahat edir. Bu problemləri həll etmək üçün dünya liderləri bir araya gəlib müntəzəm görüşlər keçirirlər. Xüsusilə belə görüşlərdə tərcüməçilərə böyük önəm düşür. Müxtəlif dildə danışan liderlər bir araya toplanır və onlar xüsusi qulaqcıqlar və ya pıçıltı ilə tərcümə vasitəsilə fikirləri dinləyirlər. Tərcümə ticarətin inkişafında da əhəmiyyətli rol oynayır. Qədim zamanlardan bəri tacirlər müxtəlif ölkələri gəzərək öz ölkələrinin məhsullarını satırdılar. Materiklərin kəşfi, səyahət gəmilərinin, qayıqlarının, dünya xəritələrin ixtirası ilə dövlətlər arası ticari əlaqələr inkişaf etməyə, güclənməyə başladı. Həmən dövrlər tarixdə tərcüməyə ən çox tələb olunan dövrlərdən idi. Qədim zamanlardan misal gətirsək də, hazırki dövrümüzdə də ticarəti tərcümə olmadan etmək qeyri mümkündür.

Tərcümə ədəbiyyata və mədəniyyətə digər sahələrə nəzərən daha çox təsir göstərmişdir. Daha əvvəl də qeyd elədik ki, tərcümə insanın daxili aləminin, zövqünün formalaşmasında da rol oynayır. Biz bədii əsərlər oxuduqca dünyagörüşümüz artır, bir insan olaraq kamilləşirik, daha da tərbiyələnirik, ətraf aləmdə baş verən hadisələrə daha çevik reaksiyalar veririk və insanları rahatlıqla tanıya bilirik. Mütaliə etmək insanın təfəkkürünün və təxəyyülünün inkişafına müsbət təsir göstərir. Ədəbiyyat, mütaliə bəşəriyyətə verilmiş ən böyük xəzinələrdən, möcüzələrdən biridir. Tərcümənin istifadə edildiyi sahələrdən biri də tibb sahəsidir. Tibbi tərcümə ən qəliz və məsuliyyət tələb edən, tərcümənin sahələrindən biridir. Diqqət etmək lazımdır ki, tibbi tərcümə zamanı edilən hər hansı səhv insan həyatına bədəl ola bilər. Bu da öz növbəsində xüsusi diqqət tələb edir. Tibbi tərcümə səhiyyə, tibbi cihaz və ya əczaçılıq sahələri üçün təlim materialları, marketinq və ya klinik, tənzimləyici və texniki sənədlər kimi müxtəlif növ sənədlərin tərcüməsidir. Tibbi tərcümə əczaçılıq məhsulları və səhiyyə sənayesini təşkil edən bütün elementlərlə bağlı sənədlərin tərcüməsinə aiddir. Sektorun yaratdığı bütün sənədləri yerli dildə hazırlamaq belə çətindir, ona görə də onu başqa dillərə tərcümə etmək sözbəsöz tərcümədən kənara çıxan bir prosesdir. Mənbə mətninin mənası qorunub saxlanılmalı və sektorun istifadə etdiyi mürəkkəb terminologiya üçün ekvivalentlər tapılmalıdır. Bir çox həkimlər xəstə qeydləri, reseptlər, tibbi keçmiş və başqa dildə yazılmış diaqnozlar üçün tibbi tərcüməçilərin xidmətlərindən istifadə edirlər. Tibbi tərcümə yalnız həkimlərlə işləməkdən ibarət deyil, çünki ehtiyac duyulan bir neçə başqa sahə var. Məsələn, yerli olaraq satılan əczaçılıq məhsulları və tibbi cihazlara aid etiketlərdə və ədəbiyyatda onların lazım olan dilə tərcümə olunmasında da istifadə edilir. Tərcümə sənəti islamın yayılmasında da əhəmiyyətli rol oynamışdır. Quran ərəb dilindən bir neçə dilə tərcümə edilmişdir. Bununla belə, müsəlmanlar Allahın Məhəmməd peyğəmbərlə əlaqə saxladığı orijinal ərəb dilini Allahın həqiqi Kəlamı hesab edirlər; Quranın tərcümələri bu orijinala sadəcə əlavədir. Ərəb işğallarının başlamasıyla islam dini də bütün ölkələrdə, qitələrdə yayılmağa başladı. İslam dini üç qitənin birləşdiyi yerdə yaranmağa başlamışdı. Ərəb dilindən tərcümə olunan ədəbiyyatlar əsasında tibbdə, elmdə və digər sahələrdə avropalılar irəliləməyə başladılar.. Bədii tərcümə mənbə sənədlərinin bədii olduğu tərcümə növüdür. Bədii mətnlərin tərcüməsinə kitabların, məqalələrin, hekayələrin və nəsrin digər növlərinin bədii tərcüməsi; şeirin bədii tərcüməsi, reklam materiallarının tərcüməsi, yaradıcı və çevik yanaşma tələb edən digər mətnlərin tərcüməsi daxildir. Ədəbiyyatın tərcüməsi digər tərcümə kateqoriyalardan əsaslı şəkildə fərqlənir. Çünki bədii tərcümənin əsas prinsipi poetik funksiyanın üstünlük təşkil etməsidir. Demək, bədii tərcümənin oxucuya məlumat verməklə yanaşı, estetik funksiyaları da var. Konkret ədəbi əsərdə yaradılmış bədii obraz (istər personajın obrazı, istərsə də təbiət obrazı) şübhəsiz ki, oxucuya təsir edəcək. Bu səbəbdən bədii tərcüməçi mətnin spesifik xüsusiyyətlərini nəzərə almalıdır. Bu tərcümə növünü, məsələn, informativ tipli mətnlərdən fərqləndirən mətnin poetik xüsusiyyətidir. Xarici dildən tərcümə edilmiş hekayə, şeir və ya hər hansı digər növ ədəbi əsəri oxuyarkən biz mətnin özünü mənası, duyğuları və xarakterləri ilə qavrayırıq. Tərcümənin əsas məqsədinə çatmaq - oxucu üçün konkret obraz yaratmaq kifayət qədər çətin işdir. Buna görə də, bədii tərcümə standart qaydalardan bəzi kənarlaşmaları ehtiva edə bilər [1, 126]. Bədii tərcümənin böyük əhəmiyyəti var. Bu, ətrafımızdakı dünya haqqında anlayışımızı bir çox cəhətdən formalaşdırmağa kömək edir. Məktəbdə klassik təhsilin bir hissəsi kimi Homeri, Aristoteli oxumaq tarix, siyasət, fəlsəfə və daha çox şey haqqında anlayışın formalaşmasına kömək edir. Eyni zamanda, müasir tərcümələri oxumaq başqa mədəniyyətlərdə və digər ölkələrdə həyata dair maraqlı fikirlər təqdim edir. Anlaşılmazlıq və çaşqınlıqla dolu sürətlə inkişaf edən dünyada mədəni sərhədlər boyu bilik və təcrübə mübadiləsi

[143] Azərbaycan Dillər Universitet

üçün bu cür səylər alqışlanmalıdır..Hərfi tərcümə ədəbi əsərin dərinliyini və mənasını əks etdirə bilməz. Bədii tərcüməçi orijinal mətnin hərfi olmayan tərcüməsini təkrarlayır. Hər şey tərcüməçinin onu necə qəbul etməsindən asılıdır. O, mətni əvvəldən axıra qədər yenidən yazır.

İş konkret alqoritmlə aparılır. Tərcüməçi mətni oxuyur, sonra ayrı-ayrı terminlər ayırır, mətni məntiqi bölmələrə ayırır və bu bölmələri bir-bir tərcümə edir. Bundan əlavə, üslubi tərcüməyə də böyük diqqət yetirir. Tərcümə edilmiş mətn bir neçə mərhələdə işlənir. Bədii tərcümə böyük məharət tələb edir. Unutmaq olmaz ki, hansısa kitabın və ya şeirin tərcüməsini bəlkə də minlərlə oxucu oxuyacaq. Bu o deməkdir ki, mətn adekvat olmalıdır və üstəlik - biz tərcümə edilmiş sənədin orijinal ilə eyni təsviri yaratmasına diqqət yetirməliyik. Mükəmməl icra olunan iş çox vaxt tərcüməçini məşhur edir. Ədəbiyyatın tərcüməsi digər tərcümə formalarından çox fərqlənir. Bədii tərcümədə iştirak edən mətnlərin böyük ölçüsü onu digər növlərdən fərqləndirir. Yüz minlərlə sözə çatan tərcümə ilə məşğul olmaq, eyni zamanda orijinal əsərin gözəlliyini və mahiyyətini itirmədən yeni dildə şeir yaratmaq ürəyi zəif olanlar üçün bir iş deyil. Bədii tərcümənin əsas problemlərindən biri orijinal əsərə sadiq qalmaqla orijinalla eyni hissləri və reaksiyaları oyadacaq unikal və fərqli bir şey yaratmaq ehtiyacını balanslaşdırmaq ehtiyacıdır. Bu isə yaradacılığı yazıçılıq qabiliyyəti olmayan tərcüməçilərə çətinlik yaradır. Şeirin tərcüməsinə gəldikdə bu, xüsusilə çətin ola bilər. Şeirlərin, nəzmin tərcüməsi ən çətin tərcümə növüdür. Misraları, beytləri, rədifləri hər iki dildə həm məna, həm də quruluş cəhətdən uyğunlaşdırmaq olduqca çətindir. Aydındır ki, bədii tərcümə çox xüsusi bacarıq tələb edir. Ədəbiyyatın tərcüməsi tərcümənin bir çox formalarından qat-qat yaradıcı sənətdir. Məsələn, əczaçılıq məhsulu haqqında məlumat vərəqəsini tərcümə edərkən, orijinalın sözə tərcüməsi olan mətni çatdırmaq vacibdir. Bununla belə, nəsr və poeziyanın tərcüməsi üçün linqvistik bacarıq qədər yaradıcı yazı bacarığı da vacibdir. Öz qabiliyyətinə inam da vacibdir. Cümlənin və ya hətta bir sözün mənasını həqiqətən necə ifadə edəcəyi ilə bağlı araşdırmalara boğulmaq yaxşıdır, lakin tərcüməçi həm də seçim etmək və davam etmək vaxtının nə vaxt gəldiyini bilməlidir (həmçinin, bir neçə səhifədən sonra geri qayıtmaq və dəyişikliklər etmək barədə şübhə doğuran şübhələrə qulaq asmaq lazımdır). Bədii tərcümədə diqqət olunmalı məqamlardan biri də yazıçı və tərcüməçinin uyğunluğdur. Yazıçı və tərcüməçi arasında müəyyən uyğunluq olmalıdır. Xüsusilə də, hər ikisinin psixologiyası, dünyagörüşü, ifadə tərzləri üst üstə düşməlidir. Biz buna tarixə baxdıqda bir daha şahid oluruq. Gəlin, elə öz şairlərimizdən misal gətirək. Abbas Səhhətlə Lermontov, Səməd Vurğunla Puşkin müxtəlif dövrlərdə yaşasalar da yaradıcılıq, üslub və psixologiya baxımından bir–biri ilə olduqca uyğun idilər [2, 216]. Hər birimiz aydın bilirik ki, hər bir yazıçının özünəməxsus yazı tərzi, üslübu, əsərində istifadə etdiyi bədii təsvir və ifadə vasitələri özünməxsusdur. Bəzi yazıçılar təsvirə uzun-uzun yer verərkən bəziləri isə, daha çox realist üslubda yazmağa önəm verirlər. Bunu tapmaq üçün ən gözəl vasitə yazıçının digər üsullarını oxuyub, təhlil etməkdir.

Yazıçının əsərlərini, üslubunu təhlil ettikdən sonra isə sıra gəlir əsərə. Əsəri də tərcümə etməyə başlamazdan əvvəl onu oxuyub, təhlil etmək, əsas çatdırılmalı olan fikri dərk etmək arzuolunandır. Şairin, yazıçının ruhu olduğu kimi hər bir əsərin də ruhu var. Tərcüməçi əsərin ruhunu anlamalı, ruhunu duymalıdır. Hadisələrə yazıçıyla eyni pəncərədən baxmalı, eyni tərzdə ifadə etməlidir. Bunlar üst-üstə düşmədiyi təqdirdə əsər təhrif olunur ki, bu da oxucuları aldatmaq deməkdir.

İstifadə olunmuş ədəbiyyat

1. С.Влахов и С.Флорин. Мастерство перевода. Реадии. М., 1970
2. Adilov M.İ., Verdiyeva Z.N., Ağayeva F.M. İzahlı dilçilik terminləri. Bakı, 1989
3. Tərcümə tarixi
https://www.translateday.com/the-history-of-translation/
4. Tərcümə tarixi
https://www.iapti.org/iaptiarticle/a-short-history-of-translation-through-the-ages-marie-lebert-2/

Açar sözlər: informativ mətn, poetik funksiya, əlaqələr, təfəkkür tərzi,anlayışlar
Key words: informative text, poetic function, relationships, thinking, insights
Ключевые слова: информативный текст, поэтическая функция, отношения, мышление, прозрения

Особенности художественного перевода

Резюме

Художественный перевод – это форма перевода, в которую пишутся исходные документы. Перевод художественных текстов в книги, статьи, рассказы и другие формы генерации; включает в себя художественный перевод поэзии, перевод рекламных материалов, перевод других текстов, требующих творческого и экологического подхода. Перевод литературы принципиально отличается от других категорий перевода. Потому что основной принцип художественного перевода заключается в том, что поэтическая функция преобладает. Таким образом, помимо информирования читателя, художественный перевод имеет эстетические функции. Образ, созданный в конкретном литературном произведении (будь то образ персонажа или образ природы), несомненно, повлияет на читателя. Поэтому литературному переводчику необходимо учитывать специфические особенности текста.

Specific features of a literary translation.

Summary

A literary translation is a form of translation into which source documents are written. Translation of literary texts into books, articles, stories, and other forms of generation; includes a literary translation of poetry, a translation of advertising materials, and a translation of other texts that require a creative and environmental approach. The translation of literature differs fundamentally from other translation categories. Because the basic principle of literary translation is that poetic function prevails. Thus, in addition to informing the reader, the literary translation has aesthetic functions. The image created in a specific literary work (whether the image of the character or the image of nature) will undoubtedly affect the reader. Therefore, a literary translator needs to take into account the specific characteristics of the text. This type of translation is a poetic feature of a text that distinguishes it from informational texts.

RƏYÇİ: dos. S.Abbasova

Məsmə Zöhrab-Məcid[144]

İNGİLİS DİLİNİN AMERİKA VƏ BRİTANİYA VARİANTLARININ FORMALAŞMASINDA DİALEKTLƏRİN ROLU

Məlumdur ki, ingilis dilindəki variativlik özünü Britaniya və Amerika variantında da göstərmişdir. Belə ki, bu iki variant arasındakı fonetik, qrammatik, fonetik fərqlərlə yanaşı, məhdud miqdarda orfoqrafik və leksik-semantik fərqlər də mövcuddur. Lakin bu iki variativ arasındakı fərqlər o qədər də böyük deyil ki, biz onları ayrı-ayrılıqda dil adlandıraq. Britaniya və Amerika variantı əslində bir dil olub leksik məna variativliyi cəhətdən getdikcə müxtəlif istiqamətdə inkişaf etməkdədir. Bu variativliyi yaradan amillərdən biri də dialektlərdir.

İlk ingilis kolonistləri Şimali Amerika ərazisinə 1620-ci ildə Meyflover (Mayflower) gəmisində gəldilər. Onlar Massaçusets sahilinə çıxdılar və Atlantik okeanı boyu ərazidə məskunlaşdılar. Nəticədə bu torpaqlar Yeni İngiltərə adını aldı. Sonralar Qərbi Appalaç dağlarındakı torpaqların məskunlaşdırılmasına başlanıldı. Amerikada ilk mühacirlərin danışdığı ingilis dili XVII əsr dili idi. XVII-XVIII əsrlər boyu formalaşan amerika xalqı XVIII əsrin sonunda öz dövlət müstəqilliyini əldə etsə də, ingilisdilli qaldı. Amerikalıların milli dili artıq bu vaxta qədər onu İngiltərə ingilis dilindən fərqləndirən bəzi səciyyəvi xüsusiyyətlər əldə etmiş ingilis ədəbi dili oldu. Bəzi müəlliflər bunu (ingilis dilinin) ümumdünya forması adlandırırlar.

Ümumamerika forması amerikalıların milli ədəbi dili olub ərazinin böyük hissəsinə yayılıb. Bununla yanaşı olaraq müasir Amerikada dilin şərq və cənub tipləri ayrılır (fərqləndirilir). Digər qisim müəlliflər isə dili qərb, şərq və cənub dialektlərinə ayırırlar.

İngilis dilinin Amerika variantını 3 əsas dialektə ayırmaq adi hal olmuşdur. İngilis dilinin Amerika variantında bu 3 əsas dialect 1-Yeni İngiltərə dialekti, 2-Cənubi dialect, 3-Ümumi Amerika dialekti (ölkənin yerdə qalan hissəsinin dialekti mənasını verir). Dialektlər bir-birindən öz xüsusiyyətlərinə görə fərqlənirlər.

1949-cu ildə professor Hans Kurath öyrənmək üçün vacib olan "A Word Geography of the Eastern United States "i çap etdirdi. Leksik sübutlar əsasında, daha çox Cənubi Karolina qədər uzaq Atlantik sahili ştatlarında, o 18 danışıq bölgəsini ayırırdı, hansıları ki, 3 əsas qrupda birləşdirirdi:

1) Şimali
2) Mərkəzi
3) Cənubi

Şimalini Mərkəzdən ayıran xətt, şimali Pensilvaniya boyunca uzanır, ştata tərəf yarıyoldan cənubi şərqə dönür və bu ümumi kursu Nyu Cersiyə tərəf davam etdirir. Cənubi və Mərkəzi arasında əks istiqamətdə hərəkət edən bölgü, Delmarva yarımadasında mərkəzdə Atlantik okeanında başlayır, Meriland (Maryland) boyunca şimal qövsünü təsvir edir, Virciniya və Şimali Karolinada "Blue Ridge Mountains"in şərq kənarına toxunaraq cənubi-qərbə dönür və Gürcüstanda Atlantanın şimalında qərbə dönür. Şərqə Piedmont və sahilboyu düzənlik uzanır. Bu üçdəfəlik bölgünün sadəlik qüvvəsi vardır, bütün bunlar ölkə üçün Mississippi qədər uzaq qərbin həqiqi bölgüsünü sübut edə bilər. Amerika Birləşmiş Ştatlarının üç şərqi hissəsindən daha çox, ölkənin müxtəlif yerlərindən çoxlu əhali qarışığından ibarət olduğundan daha sonra uzaq qərbdə olan bölgə üçün fikir yürütmək ağılsızlıq olardı. Təsnifat Amerika variantı üçün həqiqi müxtəliflik kimi tanınmalı olan Şərqi Nyu İnqlənd dialektinin ibarət olduğu kimi, Şimal tipi üçün mövcud olandan daha çox eynilik göstərməyində zəifliyi var, bu da bizə tələffüz əsasında Nyu Yorkun çox hissəsinin Ümumi Amerika dialektinin bir hissəsi olduğunu deməyə əsas verir.

İndiki biliyimiz əsasında Amerika Birləşmiş Ştatlarında 7 regional dialekti tanımağımız daha məqsədəuyğundur.

1. *Şərqi Nyu İnqlənd.* Bu Massaçusets və Konnektikutu, Konnektikut çayının şərqi boyu və Vermontda Yaşıl dağların şərqi boyu uzanan bütün və ya ştatların bir neçə hissəsini əhatə edir. Bir halda ki, dialektin bütün xüsusiyyətləri bölgüdə eyni deyil, biz *hot* və *top* sözlərində dodaqlanan saitin uzanmasını xarakterik xüsusiyyət kimi qeyd edə bilərik, hansı ki, ölkənin qalan hissəsi *father* sözündə dodaqlanmayan qısa *a* səsinə; *fast, past, grass* və s. sözlərdə isə uzun *a* səsinə malikdir və *r* hərfinin *car, hard* kimi sözlərdə düşməsi və s. Boston bu dialektin mərkəzidir.

2. *Nyu York Siti.* Baxmayaraq ki, hər zaman *Şərqi Nyu İnqlənd* dialektinin bir hissəsi kimi nəzərdə tutulub. Nyu York şəhərini və ona qonşu şəhərlərin danışığı bütünlüklə müxtəlifdir, *r* hərfi ümumiyyətlə düşdükdən, *o* hərfi *cot* və *top* kimi sözlərdə kar səslərdən qabaq dayanıb, həmişə dodaqlanmayan olduqdan sonra *cot* və *cought* sözləri fonetik cəhətdən ziddiyyətlidir. Ən yaddaşda qalanlardan *curl-coil, third-thoid* kimi sözlərin tələffüzü Nyu York şəhərinin ən səciyyəvi xüsusiyyətlərindəndir, buna baxmayaraq inkişaf etmiş Nyu Yorklular arasında *curl* və *coil* sözlərin fonetik cəhətdən fərqli olduğunu qeyd etməliyik.

3. *Orta Atlantik.* Bu şimali orta xəttdən aşağıda Pemsilvaniyanın 3 şərq hissəsini, Nyu Cersinin cənub yarısını, Delaveyerin şimal yarısını və Meriləndin qonşu hissələrini əhatə edir. Bu dialekt *r* hərfini istənilən vəziyyətdə qoruyub saxlayır, *hot* sözündə olduğu kimi *forest* sözündə də dodaqlanmayan saitə malikdir, fats, ask, grass sözlərində həmişə *[əe]* kimi tələffüz olunur. *Forest* və *closet* sözlərindəki dodaqlanmayan saiti çıxmaq şərtilə Ümumi Amerika dialekti ilə uyğunlaşır. Filadelfiya bu dialektin mərkəzidir.

4. *Qərbi Pensilvaniya.* Biz bu dialektin Pensilvaniya xəttindən o biri tərəfdə nə qədər qərbə uzandığını bildiyimiz üçün , bu ərazidən Qərbi Orta dialekt kimi bəhs etməyi lazım bilirik. Bu dialekt Qərbi Meriləndə və Qərbi Virciniyanın cənubda qonşu ərazilərinə doğru genişlənir. *R* hərfinin həmişə tələffüz olunması *ask* və *path* sözlərində *[əe]* səsi ilə Ümumi Amerika dialektinə aiddir. *Cot* və *cought* sözləri isə ümumiyyətlə omonimdilər [kɔt].[Woolford. American English yaz].

5. *Cənubi Dağ.* Bu dialektin ərazi hüdudunu, xüsusilə də cənub və qərb sərhədlərində hələ ki, əminliklə qeyd etmək mümkün deyil. Bu dialekt Pensilvaniya və Meriləndə sərhəd olan şəhərləri çıxmaq şərtilə bütün Şərqi Virciniyanı, Virciniya və Şimali Karolinanın dağlıq ərazilərini, Kentuki və Tennizin çox hissəsini, cənuba yaxın ştatların kiçik hissəsini əhatə edir. Beləliklə *r* hərfi Mərkəzdə olduğu kimi səslənir, *[ar]* ümumiyyətlə [ɑɛ] kimi, yaxud da, ərazinin cənub hissəsində [ɑə, ɑ] cənubun bir çox hissəsində olduğu kimi tələffüz

[144] Azərbaycan Dillər Universitet

edilir. Hal-hazırda bu dialektin Mərkəz və Cənubun dialekt müxtəlifliyi olduğunu demək mümkünsüzdür, nə vaxt ki, o Cənub vasitəsilə şəklini dəyişmiş Mərkəz tipi kimi çıxış edir, indi üçün bu dialekti xarakteri baxımından əsasən topoqrafik olan adla qeyd etmək yaxşı olardı.

6. *Cənubi.* Bu dialekt geniş sahəni əhatə edir. Vacib mərkəz ərazilər Virciniya Piedmont və Cənubi Karolinanın sahilində aşağı şəhərdir. Bir çox bölgələrdə bu dialekt Yeni İngiltərə ilə uyğunlaşır, *r* hərfinin sonda və samitlərdən qabaq düşməsi *car* və *hard* sözlərində olduğu kimi , lakin daha uzağa getməyə can atır və saitlə başlayan sözün qarşısında *r* hərfini ötürür. Məsələn, far away [fɑ: ə'weɪ]. Lakin bu dialektin *top* və *hot* sözlərindəki kimi dodaqlanan saiti yoxdur və ya *grass* və *dance* sözlərində uzun *a* səsi yoxdur. Cənubi dialektin səciyyəvi cəhəti "out" zərfində diftonqun işlənməsidir. Adi [αu] əvəzinə Cənubi dialektinin natiqi cingiltili samitdən qabaq və sonda bu diftonqu *[əe]* kimi başlayır, o zaman ki, Virciniya və Cənubi Karolinada bu diftonq kar samitlərdən qabaq [ou, Λu] formasında olur. Cənubi dialektdə ağır tələffüz eyni dərəcədə səciyyəvidir. Bu yalnız yavaş tələffüzün işi deyil, həmçinin vurğulu saitlərin diftonqlaşması və ya ikiqat diftonqlaşmasını cəlb edir. Ən çox tələffüz olunan formasına misal olaraq "yes"-in tələffüzünə rast gəlinir [jeis] və ya [jejəs].

7. *Ümumi Amerika.* Bu dialekt fast, past sözlərində yumşaq *a* səsi ilə, *top* və *hot* sözlərində dodaqlanmayan saitlə, *r* hərfinin bütün vəziyyətlərdə uzanmaması, *late* və *note* kimi sözlərdə [e] və [o] saitlərindən sonra Britaniya variantına nisbətən daha az sürüşkənlik nümayiş etdirməyilə xarakterizə olunur. Cənubi İngiltərədə *note, go* [ou] kimi sözlərin tələffüzündə eşidilən diftonq, Ümumi Amerika dialektinin bir çox hissəsində yoxdur. Yuxarıda sadalanan bütün ərazilər Yeni İngiltərədən başqa, paytaxt Nyu York, Cənub adətən Ümumi Amerika dialektinin tərkibidir. Geniş mənada Ümumi Amerika Birləşmiş Ştatların ərazisinin 3/2 hissəsini və ümumi əhalinin də 2/3 hissəsini əhatə edir. Bu Amerikanın ən səlis danışıq tərzi kimi adlandırılıb [3, s. 112].

Məlumdur ki, London dialekti hələ XV əsrdə, qeyd etdiyimiz kimi İngiltərənin bir çox yerlərində standart dil kimi qəbul edilmişdi. Amerikan ingiliscəsi də bütün variantlarına baxmayaraq, Britaniya ingiliscəsi ilə əlaqədardır. H.L.Menckenz yazırdı: "Amerikan danışıq dili, əlbəttə qrammatik cəhətdən vulqar ingilis dili ilə eynidir. Başqa bir çox xüsusiyyətləri ilə, məsələn, ikiqat inkar forması, sifətin zərf kimi işlədilməsi feil zamanlarının qarışdırılması və s. Britaniya ingiliscəsinə tamamilə uyğun gəlir" [2, 130].

Yuxarıda qeyd etdiyimiz kimi London dialekti ölkə daxilində yəni Böyük Britaniyada əsas danışıq dili olmuş, sonra isə standart dil əsasən bu dialektə görə formalaşmışdır. XV əsrin ikinci yarısından başlayaraq bu dialektdə yazı da meydana gəldi və demək olar ki, Böyük Britaniyanın şimal hissəsindən başqa, ölkənin qalan hissəsi bu dialektdən istifadə etməyə başladı, ingilis dilinin qrammatikası 1586-cı ildə yazıldı. Mövcud qrammatikalar da latın modeli əsasında yazılaraq, Latın qrammatikasının nəzəri əsaslarını öyrənmək məqsədi daşımışdır. 1750-ci illərdə bir çox qədim ingilis dilindəki düzgün olmayan feillər ya işlədilmir, yaxud da düzgün feillərə çevrilərək işlədilirdi. Məsələn, help — holp feilləri, wash — wosh feilləri wash — washed formasına çevrilmişdir.

İstifadə olunmuş ədəbiyyat

1. Oxford Advanced Learner's Dictionary, 1958
2. Thomas Alan. Language in the British Isles, 1984
3. Tradgil P. Verb System in English Dialects, 1973
4. Webster N. American Dictionary of the English language. 1828

Açar sözlər: dialect, xarakterik xüsusiyyətlər, variant, fonetik fərqlər
Ключевые слова: диалекты, вариант, характерные особенности, фонетические различия
Key words: dialect, characteristic features, variant, phonetic differences

The role of dialects in shaping The American and British variants of English

Summary

It is understood that in the 15th century, the London dialect was adopted as the standard language in many parts of The UK as we noted. American English has also had to do with British English, despite all its options.

As mentioned in the article, the London dialect was the principal language in Britain, and then the standard language was based on it. However, because the differences between the two variants are not so great, they cannot be described as separate languages. The article describes the role of dialects in shaping The American and British variants of English.

Роль диалектов в формировании американского и британского вариантов английского языка

Резюме

В статье рассматривается роль диалектов в формировании американского и британского вариантов английского языка.

Понятно, что в 15 веке лондонский диалект был принят в качестве стандартного языка во многих частях Великобритании, как мы отметили. Американский английский также имел отношение к британскому английскому, несмотря на все его варианты.

Как упоминалось в статье, лондонский диалект был основным языком в Британии, и тогда на нем основывался стандартный язык. Однако, поскольку различия между двумя переменными не так велики, их нельзя описать как отдельные языки.

RƏYÇİ: dos. L.Ələkbərova

Джаваншир Ханкиши оглы Мурадов [145]

О РОЛИ РУССКОГО ЯЗЫКА В ФОРМИРОВАНИИ АЗЕРБАЙДЖАНСКОЙ КОМПЬЮТЕРНОЙ ТЕРМИНОЛОГИИ

Русский язык, став средством межнационального, а в нынешней ситуации, после приобретения независимости бывшими советскими республиками, уже международного общения, тесно взаимосвязан с языковой культурой постсоветских стран, в том числе Азербайджана.

Мы вошли в век высокоразвитых технологий. Нашу жизнь невозможно представить без компьютера, интернета. Еще в советские времена в Азербайджане русский язык выступал в роли проводника научно-технической информации. В сегодняшних условиях государственной независимости эта функция русского языка не потеряла свою значимость.

Наука и техника, являющиеся компонентами культуры, в век всеобщей глобализации оказывают огромное влияние на развитие многих стран. Нужно отметить и особую заинтересованность нашей страны в научно-техническом прогрессе. У нас есть твердая убежденность в том, что современная наука и техника способны не только внести вклад в наше экономическое развитие, но и разрешить ряд сложных социальных проблем. А русский язык мы ассоциируем с языком научно-технического прогресса.

Растет поток информации, усвоение которой необходимо для расширения профессионального кругозора. Без знания русского языка сегодня в Азербайджане невозможно быть в курсе всех достижений современной науки по разным специальностям, так как 30% всей печатной продукции на планете (по данным ЮНЕСКО) выпускается на русском языке и большое количество сайтов в Интернете составлена на русском языке. На русском языке выходит богатая литература по вопросам науки, культуры, общественной и политической жизни, как в России, так и за ее пределами. Познать все новое, передовое, приобщиться к достижениям русской и мировой литературы, о развитии современной технологии, о достижениях науки, о прогрессе в медицине, о последних тенденциях моды, о состоянии мировой экологии… Этот список можно продолжить до бесконечности, так как именно на русский язык осуществляется большинство переводов книг, журналов, брошюр и т.д.

Немаловажное значение русский язык имеет для работы в интернете, так как большое количество сайтов составлено на русском языке. Такие российские сайты, как rambler.ru, mail.ru и другие очень популярны в Азербайджане. Большинство населения республики нужную им информацию получает через эти каналы. Такое положение продолжится, по крайней мере, на протяжении еще нескольких десятилетий, так как английским или другими иностранными языками в достаточной степени владеет очень небольшая на сегодняшний день часть азербайджанцев, в основном молодежь.

Английский язык является широко распространенным международным языком общения в мировом масштабе. В то же время должна учитываться роль русского языка в развитии различных сфер науки и техники в Азербайджанской республике. Русский и азербайджанский языки заимствуют из различных языков мира научно-технические термины английского происхождения. Среди них особое место занимает компьютерная терминология.

Компьютерная терминология является одним из наиболее динамичных пластов лексики языка, что связано с быстрым темпом развития компьютерных технологий. Во второй половине XX века сформировалась и получила развитие компьютерная терминология. Развитие компьютерных технологий обусловило высокие темпы пополнения номинативного и коннотативно-экспрессивного потенциала профессиональной речи программистов и пользователей компьютеров.

Компьютерная терминология является частью специальной (компьютерной) лексики. И.Л.Комлева называет эту лексику «компьютерный язык», понимая под этим определением «специальный язык, формирующийся в предметной сфере, технологически связанной с производством персональных компьютеров и программного обеспечения к ним» (3, с. 16).

Языком-источником для формирования компьютерной терминологии выступает английский. Обычно компьютерная терминология подразделяется на две части: оборудование и программное обеспечение. Оборудование состоит из составных частей компьютера, приборов, манипуляторов. В программное обеспечение входят основные операции, проводимые компьютером: программы, файлы, папки и т.д. Пути и способы образования компьютерной лексики весьма разнообразны. В качестве основных путей пополнения русской и азербайджанской компьютерной терминосистемы выступают заимствование, семантическое словообразование и собственно словообразование. Русская и азербайджанская компьютерная терминология продолжает развиваться и формироваться, так как англоязычные компьютерные термины не освоены в полном объеме русским и азербайджанским языками.

Русские модели играют важную роль в разработке компьютерной терминологии во многих языках. В частности, большую роль в формировании азербайджанской компьютерной терминологии играет русская компьютерная терминология. Многие термины являются прямыми кальками русских терминов.

Во взаимодействии языков различается два разных процесса: смешение языков и заимствования. Учитывая это можно сказать, что в обогащении терминологии азербайджанского языка русский язык является одним из

[145] доктор философии по филологии, доценткафедры общего языкознания Бакинского государственного университета molodoylev@mail.ru

основных источников. Заимствование терминов русского происхождения можно связать с билингвизмом. Основной признак билингвизма свободное использование двух языков на национальной почве.

О.С.Ахманова термин «заимствование» объясняет следующим образом: «1. Обращение к лексическому фонду других языков для выражения новых понятий, дальнейшей дифференциации уже имеющихся и обозначения неизвестных прежде предметов. 2. Слова, словообразовательные аффиксы и конструкции, вошедшие в данный язык в результате заимствования» (1, с. 150).

В широком значении термин «заимствование» означает процесс перехода слова с одного языка на другой язык. Это слово употребляется в двух значениях. Во втором значении этот термин указывает на процесс, в первом значении результат этого процесса. Термины «заимствование» и «заимствованное слово» выражают разные понятия. Когда говорят о «заимствовании», то имеют в виду все лингвистические единицы, переходящие с одного языка на другой язык. «Заимствованное слово» рассматривается только как усвоение лексических единиц. Другими словами, термин «заимствование» выражает более расширенное понятие. Таким образом, само понятие «заимствованное слово» входит в состав значения термина «заимствование»

Общеизвестно, что заимствование является основным источником пополнения компьютерной лексики. В русской и азербайджанской компьютерной терминологии происходят заимствования разных видов: - собственно заимствования или прямые заимствования (заимствуется и материальная форма и значение); - кальки (заимствуется только значение); - полукальки или гибриды (заимствуется содержание при частичном заимствовании формы, то есть в слове сочетаются иноязычные и исконные морфемы). В своей работе Д.Зауташвили пользуется следующими наименованиями: прямые заимствования, кальки, гибриды. Традиционная структурно-семантическая классификация заимствований выглядит следующим образом: 1. Прямые заимствования: 1.1. Варваризмы; 1.2. Частично освоенные заимствования; 2. Кальки: 2.1. Структурные кальки; 2.2. Семантические кальки; 2.3. Фразеологические кальки; 3. Гибридные образования (2, с. 135).

Русские термины, используемые в азербайджанском языке, являются прямыми заимствованиями. Эти прямые заимствования структурно-семантически обосновываются так, что основным принципом в заимствовании является буквенный перевод. Но этот принцип не является абсолютным. По мнению некоторых исследователей, заимствования ограничивают словообразование. Значит, терминообразование ослабляется за счет заимствованных терминов. Нужно учитывать и то, что заимствование имеет влияние только в некоторых определенных областях лексики и терминообразование пассивнее словообразования.

Пополнение русскими терминами компьютерной терминологии азербайджанского языка осуществляется, по нашему мнению, следующими путями: 1) компьютерные термины русского языка, заимствованные без изменений или с частичным изменением: marker - маркер (англ.bullet), klaviatura - клавиатура (англ. keyboard), лента - lent (англ. ribbon), шрифт - şrift (англ. font), abzas - абзац (англ. paragraph), parol - пароль (англ. password); pegistr - регистр (англ. case), вентилятор – ventilyator (англ. cooler); disketa - дискета (англ.floppy disk), diskovod – дисковод (англ. drive), 2) образование новых терминов, используя словообразовательные средства азербайджанского языка: proqramlaşdırma - программирование, qruplaşdır - группировать, форматирование - formatlaşdırma, редактирование - redaktə; 3) словосочетания, оба компонента которых образованы в русском языке: planşet kompüter - планшетный компьютер, elektron musiqi – электронная музыка; 4) словосочетания, где один из компонентов является слово азербайджанского языка: software - программное обеспечение - proqram təminatı, səhifə parametrləri - параметры страницы.

Присоединение к заимствованным словам аффиксов национального языка происходит во всех языках. Однако присоединение заимствованных аффиксов к словам национального языка носит случайный характер. Например, термины с суффиксом -ация в азербайджанском языке в некоторых случаях употребляются без изменений: регенерация – regenerasiya, телекоммуникация – telekommunikasiya и т.д. Термины с суффиксом -ация употребляются с суффиксом азербайджанского языка –laşdırma: дискретизация – diskretləşdirmə, интеллектуализация – intellektuallaşdırma, информатизация – informatikləşdirmə. Термины с суффиксом -ование употребляются с суффиксом азербайджанского языка –laşdırma: тестирование – testləşdirmə, пакетирование – paketləşdirmə, прогнозирование – proqnozlaşdırma, программирование – proqramlaşdırma, профилирование – profilləşdirmə и т.д. Термины–словосочетания по количеству занимают одно из первых мест в любой отраслевой терминологии. Все эти термины-словосочетания оформляются по правилам грамматики азербайджанского языка. Уровень терминологических заимствований из русского языка зависит от развития лексико-семантической системы азербайджанского языка, от наличия и отсутствия слова, выражающего того или другого понятия.

Англоязычные и русские компьютерные термины, проникая в азербайджанский язык, подвергаются всесторонней адаптации, т.е. становятся членами его языковой системы. Компьютерная терминология азербайджанского языка продолжает развиваться и формироваться, так как англоязычные и русские компьютерные термины не освоены в полном объеме азербайджанским языком.

Невзирая на выше перечисленные факты, азербайджанский язык, сохраняя свой основной лексический фонд, успешно развивается.

Список использованной литературы

1. Ахманова О.С. Словарь лингвистических терминов. М.:1966. 607 с.

2. Заугашвили Д. Тенденции заимствования и адаптации компьютерной терминологии (на материале английского, русского и грузинского языков). 2009. http://old.press.tsu.ge/GEO/internet/disertaciebi/DISERTACIA111111111.pdf (дата обращения: 17.12.2014).
3. Комлева И.Л. Принципы формирования русской компьютерной терминологии: Дис. … канд. филол. наук: 10.02.01. М.: 2006. 221 с.
Ключевые слова: компьютерная терминология, компьютерный язык, заимствование
Key words: computer terminology, computer language, borrowing

Резюме

Настоящая статья посвящена анализу компьютерных терминов азербайджанского языка, заимствованных из русского языка. Рассматривается классификация, особенности, место русской компьютерной терминологии в азербайджанском языке и специальной (компьютерной) лексике.

TOWARD THE ROLE OF THE RUSSIAN LANGUAGE IN THE FORMATION OF THE AZERBAIJANI COMPUTER TERMINOLOGY

Summary

The article deals with the analysis of computer terms of the Azerbaijani language, borrowed from the Russian language. There classification, features, place of Russian computer terminology in the Azerbaijani language and special (computer) vocabulary are considered.

RƏYÇİ: dos. E. Vəliyeva

Könül Babaş qızı Dənziyeva[146]

FOLKLOR MATERİALLARININ DİLİNDƏ BİRLƏŞDİRMƏ, SƏBƏB-NƏTİCƏ VƏ AYDINLAŞDIRMA ƏLAQƏLİ TABESİZ MÜRƏKKƏB CÜMLƏ STRUKTURLARI

Giriş. Azərbaycan folklor materialları xalqımızın varlığını, mənəvi dəyərlərini özündə cəmləşdirən şifahi dil nümunələridir. Bu şifahi dil nümunələri vasitəsilə xalqımızın milli mədəniyyəti, adət-ənənələri, canlı danışıq dilimizin özünəməxsus xüsusiyyətləri ifadə olunur. Şifahi danışıq dilinin incəliklərini əks etdirən folklor materillarının məzmunu cümlə strukturları ilə ifadə olunur. Folklorumuzun mahiyyətini ifadə edən cümlə strukturlarının toplanılıb, sistemləşdirilib, araşdırılması dilimizin tarixi sintaksisinin öyrənilməsində əhəmiyyətli mənbə rolu oynayacaqdır. Azərbaycan ədəbi dili tarixinin tədqiqatçılarından olan Ə.Dəmirçizadə yazır: "Nağıllarda, dastanlarda, zərb-məsəl, tapmaca və atalar sözlərində bəzən dilin çox qədim izləri, bu günü üçün ölmüş hesab olunan sözlər, qrammatik formalar saxlanmış olur: Dilin tarixindəki izlərini müəyyənləşdirmək üçün folklor çox zəngin bir xəzinə olduğundan, dilin tarixini öyrənərkən bir mənbə kimi ondan istifadə etmək çox zəruridir" [13, s. 46].

Folklorumuzun mahiyyətini, məzmununu ifadə edən cümlə strukturlarından biri də tabesiz mürəkkəb cümlə strukturlarıdır. Tabesiz mürəkkəb cümlələr geniş məlumatlandırma funksiyasına malik bərabərhüquqlu cümlələrin birləşməsindən ibarət sintaktik vahiddir. Tədqiqatçılar tabesiz mürəkkəb cümlələrin əsas xüsusiyyətlərini belə səciyyələndirir: "Tabesiz mürəkkəb cümlə məzmunca bu və ya digər cəhətdən bir-biri ilə əlaqədar olan və ya bir bütöv kimi nəzərdə tutulan bir neçə iş, hal-hərəkət, əlaməti ifadə edən cümlələrin birləşməsidir. Buna görə də tərkibindəki cümlələr arasında belə qarşılıqlı məzmun bağlılığı tabesiz mürəkkəb cümlənin mahiyyətini, həmin cümlələr arasında işlədilən bağlayıcı vasitələr isə onun yaranmasında formal cəhəti təşkil edir [1, s. 304]. Xalq zəkasının ifadəçisi olan folklor materialları da tabesiz mürəkkəb cümlə strukturları ilə zəngindir. Müxtəlif quruluş xüsusiyyətlərinə malik tabesiz mürəkkəb cümlələr iki və daha artıq komponentdən ibarət olur. Struktur xüsusiyyətlərinə, qarşılıqlı məzmun bağlılığına, bağlayıcıların və intonasiyanın xarakterinə görə tabesiz mürəkkəb cümlənin komponentləri arasında birləşdirmə, səbəb-nəticə, aydınlaşdırma kimi məna əlaqələri formalaşır. Bu əlaqələrin yaranmasında komponentlərin qarşılıqlı məzmun münasibəti, intonasiya və tabesizlik bağlayıcıları mühüm rol oynayır. Bununla bağlı T.Müzəffəroğlu yazır: "Tabesiz mürəkkəb cümlənin komponentlərini əlaqələndirən daha çox vasitələr aşkarlana bilər: intonasiya, sıralanma, bağlayıcı, leksik vahid, xəbərlərin şəkilcə uzlaşması və s. Lakin bunlar içərisində leksik vahidlə əlaqələnmə komponentlərin real bağlılığını meydana çıxarır" [18, s. 69]. Q.Kazımov isə aydınlaşdırma əlaqəsinin əksərən bağlayıcısız, bölüşdürmə əlaqəsinin həmişə bağlayıcılı olduğu cəhətləri nəzərə alaraq, bağlayıcılı və bağlayıcısız tabesiz mürəkkəb cümlələrdə qrammatik məna münasibətlərini birlikdə nəzərdən keçirmək lazım gəldiyini qeyd edir [15, s. 28].

Əsas hissə: Folklor materiallarında rast gəlinən birləşdirmə əlaqəli tabesiz mürəkkəb cümlələrdə eyni zamanda və ya ardıcıllıqla baş verən fakt və ya hadisələr ifadə olunur. Ona görə də belə cümlələr eynizamanlı və ardıcılzamanlı birləşdirmə olmaqla iki qrupa bölünür. Eynizamanlı birləşdirmə əlaqəli tabesiz mürəkkəb cümlələrdə eyni zaman ərzində baş verən müxtəlif fakt və hadisələr sadalanır. Məsələn: *Aman, məni dərd əydi, namərd əydi, dərd əydi. (5, s. 41); Köç köçər, it hürər, ikisi də mənzilə birgə yetər (2, s. 446); Mən gedirəm, o da gedir (kölgə) (19, s. 145)*; *Biri var imiş, biri yox imiş, bir dərzi var imiş, bunun da bir şagirdi varmış. (6, s. 261) Abbas zəhər quyusuna salınır, Qurbaninin taleyi qumara qoyulur, Tahir sandığa qoyulub çaya atdırılır (9, s. 9) və s.* Belə cümələrin komponentləri daha çox intonasiya ilə əlaqələnmişdir.

Eynizamanlı birləşdirmə əlaqəli tabesiz mürəkkəb cümlələrin komponentlərində zaman müddəti bəzən konkret, bəzən də ümumi olur. Bu tipli cümlələrin tərkib hissələrinin xəbərləri həm ismi, həm də feili xəbərli ola bilir. Feili xəbərli cümlələrin komponentlərinin xəbərləri, əsasən, eyni zaman şəkilçili feillərdən ibarət olur. Məsələn: *Külək darar bağımı, Torpaq örtər tağımı. (12, s. 147); Qara toyuq qaqqıldar, Qanadları şaqqıldar. (bulud, göy gurultusu) (19, s. 32); It hürər, karvan keçər (2, s. 376); Biri yanır, biri batır, biri yatır (2, s. 138).*

Qoşun cəmləndi, şeypur çalındı, hambal Əhməd qoşunun qabağına düşüb, çaya tərəf getməyə başladılar (7, s. 74) və s.

Folklor materiallarının dilində ismi xəbərli eyni zamanlı birləşdirmə əlaqəli tabesiz mürəkkəb cümlələrə daha çox təsadüf olunur: *Biri varıydı, biri yoxuydu, bir padşah varıydı (6, s. 85). Hadıydı, Huduydu, kor oğlu kosa idi, bir də mən (10, s. 17); Tərəzi var, təngi var, Hər bir rəngdə rəngi var. (göy qurşağı) (19, 42); O yanı taxta, bu yanı taxta, Şahqulu bəy otaqda. (tısbağa) (19, s.75) və s.*

Səhərin ətrafı dağdı, meşədi, əjdaha var, hərami var, yırtıcı heyvanlar var, sehrkarlar var. (8, s.224) və s. Belə cümlələrin xəbərləri bəzən eyni sözlərlə ifadə olunur:

Yazan sən, pozan sən, kim deyir yalan sənsən?(2, s.239)
Rum mənəm, İraq mənəm,
Bu yanan çıraq mənəm. (5, s.19)
Dağlarda maralım var,
Ürəyi yaralım var. (5, s.20)
Evimizdə bir kişi var, xorhaxor yatışı var. (pişik) (19, s. 73)
Bir balaca gözü var,

[146] Lənkəran Dövlət Universiteti, Filologiya üzrə fəlsəfə doktoru, dosent.konuldenziyeva@mail.ru

Dünya dolu izi var. (qələm)(19, s.159)
Yay var, qış var, hələ çox iş var. (2, s.386) və s.
Bu hal feili xəbərli, eynizamanlı birləşdirmə əlaqəli tabesiz mürəkkəb cümlələrdə də müşahidə olunur.
Baban atdan düşdü,
Donu bənddən düşdü.(yaşıl qabıqlı qoz) (19, s.54)
Mən baxıram, o da baxır. (güzgü) (19, s.31)
Gül Simana neylədi, Siman gülə neylədi? (6, s.133)
Az keçdi, çox keçdi, qız özünə gəldi. (6, s.170) və s.
Həm feili, həm də ismi xəbərli bu tipli cümlələrin bir qismində təkrar olunan xəbər komponentlərin birində ixtisar olunmuş və cümlənin ümumi məzmunu əsasında təsəvvür edilmişdir. Məsələn:
Tülkü tülküyə buyurar, tülkü də quyruğuna. (2, s.224)
Nə səs var, nə də səmir. (2, s.508)
Qazı da bilir, quzu da.(2, s.173)
İki yolun var, bir dirəyin. (burun) (19, s.108)
Ocaq közsüz olmaz, gəlin sözsüz. (2, s.190)
Amma burada bir çarmıx var, qırx kom da çubuq. (8, s.218) və s.
Eynizamanlı birləşdirmə əlaqəli tabesiz mürəkkəb cümlələrin bir qisminin komponentlərinin xəbərlərində xəbərlik şəkilçisi ixtisar edilmişdir:
Əlisi dəli, vəlisi dəli, qırğın qırmışın hamısı dəli. (4, s.52)
Əzizim əziz, tərbiyəsi ondan əziz.(4, s.53)
Üstü pulcuq, içi qılcıq. (balıq) (19, s.77)
Dağ kolunda bir damcı qan,
Hər tərəfi yaşıl orman.(çiyələk)(19, s.56)
Bu yoldan ötən yaxşı,
Geyməyə kətan yaxşı. (12, s.17)
Özü ala, yeri tala,
Para-para, qəlbi qara.(lalə) (19, s.46)
Özü qara, sözü ağ.(yazı lövhəsi) (19, s163)
Anası qaraca,
Qızı qırmızıca,
Oğlu qıvrımca. (baca, od, tüstü).(19, s.28)
Sən hara, bura hara. (6, s.160) və s. Daha çox atalar sözləri və tapmacalar üçün səciyyəvi olan belə cümlələrin komponentləri paralelizm əsasında qurulmuşdur. Paralelizm komponentləri əlaqələndirmiş, fikrin emosionallığını, ekspressivliyini artırmış, ritmik səslənməsini də təmin etmişdir.
Folkor materiallarında rast gəlinən eynizamanlı birləşdirmə əlaqəli tabesiz mürəkkəb cümlənin komponentlərinin əlaqələnməsində mənsubiyyət şəkilçiləri də mühüm rol oynayır. Komponentləri mənsubiyyət şəkilçili olan bu cür cümlələrin bir qisminin tərkib hissələri elliptik olub paralelizm əsasında formalaşmışdır:
Altı qoyun, üstü keçi,
Başı şabalıd, quyruğu qayçı. (kəklik) (19, s.79)
Çölü sarı, içi darı. (əncir) (19, s.61)
İçi qırmızı, çölü boz,
Üstü yemiş, içi qoz. (şaftalı) (19, s.57)
Üzü bəzək, içi təzək. (2, s.229)
Düşmənin gəlişi də tələdir, gülüşü də. (4, s.46)
Yetmin ağzı aşa, başı daşa. (4, s.123)
Biri minə bağlıdır, mini də birə. (4, s.28) və s.
Mənsubiyyət şəkilçili eynizamanlı birləşdirmə əlaqəli tabesiz mürəkkəb cümlələrin ixtisar olunmayan formalarına da folklor materiallarında təsadüf olunur: *Qəmərin ürəyi yumşaldı, gözlərinin yaşı sel kimi axdı. (7, s.12) Zəfəran kimi sapsarı saraldı, nəfəsi kəsildi, dili tutuldu. (8, s.14) Elə ki, oğlan bunu gördü, tükləri biz-biz oldu. (8, s.72) Mərd pəncərədən baxırdı, kefi yaman kök idi. (6, s.178) Tülkünün bir mənzili var idi, mənzilin qabağı enli, gerisi dar idi. (8, s.240)* və s.
Eynizamanlı birləşdirmə əlaqəli tabesiz mürəkkəb cümlələr açıq sıralı olur, ona görə də iki, üç və daha artıq komponentlərdən ibarət ola bilir. Məsələn:
Sən ağa, mən ağa, inəkləri kim sağa.(2, s.566)
Sən razı, mən razı, nə qələt eləyir qazı. (2, s.570)
Üstü palım-palazım,
Altı suyum bulağım,
İçi yemim, yeməyim.(qoyun) (19, s.77)
Biri var idi, biri yox idi, Döşgüvar adlı bir padşah var idi. (8, s.286) və s.

Beləliklə, folklor materiallarının dilində işlənən eynizamanlı birləşdirmə əlaqəli tabesiz mürəkkəb cümlələr rəngarəng struktura malik olmuş və komponentərinin əlaqələnməsində intonasiya mühüm rol oynamışdır.

Birləşdirmə əlaqəli tabesiz mürəkkəb cümlələrin ikinci növünə ardıcılzamanlı birləşdirmə əlaqəsi daxildir. Bu əlaqədə fakt və hadisələrin müəyyən ardıcıllıqla baş verdiyi ifadə olunur. Q.Kazımov yazır: "Birləşdirmə əlaqəsinin bu növündə sadalama üsulu ilə birləşmiş tərkib hissələrdəki iş və hadisələr zaman ardıcıllığının nəzərə alınması ilə yerləşdirilmiş olur" [16, s. 404].Ardıcıl zamanlı birləşdirmə əlaqəli tabesiz mürəkkəb cümlələrin komponentlərinin xəbərləri əsasən eyni zaman şəkilçili feillərdən ibarət olur. Məsələn:

Ağ sandığım açıldı,
İçindən nur saçıldı. (sübh çağı) (19, s.27)
Balta vurdum nimçəyə,
Səsi gəldi Gəncəyə. (göy gurultusu) (19, s.29)
Dağ başına səs gəldi,
Ocaq yandı his gəldi. (5, s.42)
Ağzını açdı, gövhər saçdı. (2, s.23)
Gün çıxar, dağ gün görər,
Boylanar bağ gün görər. (12, s.156)
Sabah deyərəm, atam toyumu edər, məni buna verər. (8, s.10) -kimi cümlələrin komponentlərinin xəbərləri –dı[4] şühudi keçmiş və -ar[2] qeyri-qəti gələcək zaman şəkilçili feillərlə ifadə olunmuşdur. Bəzi ardıcılzamanlı tabesiz mürəkkəb cümlələrin tərkib hissələrinin xəbərləri isə feilin əmr şəklindədir:

Yoldaşını mənə de, sənin kim olduğunu deyim. (2, s.415)
Gəl, qapıdan gir, qardaş,
Desinlər adamın var. (5, s.31)
Ay paççа, mən gedim, sənə un gətirim, çörək bişir, ye. (6, s.160) Al bu almanı, tən bölüb yarısını özün ye, yarısını da hərəmin yesin. (8, s.5) və s.

Folklor materiallarında olan atalar sözü və məsəllərdə əvvəl və sonra zərflərinin iştirakı ilə yaranan ardıcılzamanlı tabesiz mürəkkəb cümlə strukturlarına da rast gəlinir. Məsələn: *Əvvəl salam, sonra kəlam (3, s. 111)*; *Əvvəl hesab, sonra qəzəb (2, s. 320)*; *Əvvəl evin içi, sonra çölü (4, s. 54)*; *Əvvəl namaz, sonra niyaz. (4, s. 111).*

Əvvəl usta, sonra iş.(3, s.54)- kimi komponentlərinin xəbərləri ixtisar edilmiş elliptik tabesiz mürəkkəb cümlələrdir. Paralelizmlə əlaqələnmiş belə cümlələrin tərkib hissələrinin xəbərləri yığcamlığına və ritmik səslənməsinə görə burarxılmışdır. Burada işlənən zərflər isə icra edilən hərəkətin zaman ardıcıllığını daha qabarıq şəkildə nəzərə çatdırma məqsədi daşıyır. Ardıcıl zaman əlaqəli tabesiz mürəkkəb cümlələr də açıq sıralı olur, komponentləri intonasiya ilə əlaqələnir. Iki ilə yanaşı, üç və daha artıq tərkib hissədən ibarət ola bilir. Məsələn: *Taxçadan düşdü, tap elədi, Gülsənəm onu hap elədi. (siçan və pişik) (19, s. 77)*

Qız getdi, vəzir getdi,o qədər getdilər ki, axırda şəhərdən çıxdılar.(8, s.226) *Bir az keçdi, göy guruldadı, bulud oynadı, dev göydən yerə endi (6, s. 170)* və s.

Belə cümlələrdə ardıcıl sadalanan fakt və hadisələr ifadə olunduğu üçün komponentlərin yerini dəyişmək qeyri-mümkündür. Bununla bağlı B.Xəlilov yazır: "Ardıcıl zamanlı birləşdirmə-sadalama əlaqəli tabesiz mürəkkəb cümlənin komponentləri bir-birinin ardınca baş vermiş hadisələri bildirir. Ona görə də ardıcıl zamanlı birləşdirmə-sadalama əlaqəli tabesiz mürəkkəb cümlənin komponentlərinin yerini dəyişmək olmur" [14, s. 258]

Folklor materiallarının dilində tabesiz mürəkkəb cümlə strukturlarının komponentləri arasında səbəb-nəticə əlaqəsinə də təsadüf olunur. "Səbəb-nəticə əlaqəli tabesiz mürəkkəb cümlənin tərkib hissələrindən birincisində ifadə edilən fikir ikincisində irəli sürülən fikir üçün səbəb, ikinci tərkib hissədəki fikir isə birinci üçün nəticə məzmununa malik olur" [17, s. 382]. Demək, səbəb-nəticə əlaqəli tabesiz mürəkkəb cümlələrdə birinci komponent səbəbi ikinci komponent isə həmin səbəbdən doğan nəticəni ifadə edir. Məsələn:

Döndüm qürbət ellərdən,
Qüvvət gəldi canıma. (5, s.15)
Qorxuram qərib öləm,
Ağlayanım yad ola. (5, s.15)
Saqqlaım yoxdur, sözüm keçir. (4, s.103)
Molla bəyə qoşuldu, xalqın evi yıxıldı. (4, s.93)
Vaxt başa çatdı, bunlar yaşa doldular. (7, s.9)
Qanadı ilə qızın üzün vurdu, qız yuxudan ayıldı. (7, s.70)
Qızıl ağac yırğandı,
Sırğaları sallandı. (zoğal) (19, s.56)
Ağ qıza əl uzatdım,
Məsti budaqda qaldı. (pambıq) (19, s.45) və s.-cümlələrin komponentlərinin birincisində səbəb, ikincisində həmin səbəbdən doğan nəticə özünü göstərir.

Səbəb-nəticə əlaqəli tabesiz mürəkkəb cümlələrin də komponentləri feili xəbərli olur və eyni zaman şəkilçili feillərlə ifadə olunur:

Yar başa qara bağlar,
Ürəyim yara bağlar. (5, s.21)
Qiblədən külək əsdi,
Eşqin səbrimi kəsdi. (5, s.43)
Qara toyuq qaq elədi,
Qanadları taqq elədi.(qapı) (19, s.116)
Burdan vurar qılıncı,
Bağdadda oynar ucu. (şimşək)(19, s. 50)

Qəmər xanım bağçaya gəldi, bütün otlar, ağaclar, güllər onun gözəlliyinə heyran qaldı (7, s. 41). Qarışqa şıllaq atdı, dəvənin qıçı sındı. (2, s. 86) və s.

Səbəb-nəticə əlaqəli tabesiz mürəkkəb cümlələrin komponentləri də folklor materialları üçün daha çox səciyyəvi olan intonasiya ilə əlaqələnir. Belə cümlələr qapalı sıralı olduğu üçün iki komponentdən ibarət olur. Onların bu xüsusiyyətini səciyyələndirən Q.Kazımov yazır: "Səbəb-nəticə əlaqəli tabesiz mürəkkəb cümlələr qapalı sıralı olur, ona görə də iki sadə cümlənin birləşməsi şəklində formalaşır. Lakin bəzən tərkib hissələrindən biri həmcins və ya paralel olur" [15, s. 292]. Bu xüsusiyyət folklor materiallarında da özünü göstərir:

Yar getdi can kəsildi, əhdi-peyman kəsildi.(5, s.42)
Bulud daldalandı, el köçdü, oba köçdü. (5, s.51) və s.

Tabesiz mürəkkəb cümlə strukturlarının komponentləri arasında işlənən məna əlaqələrindən biri də aydınlaşdırma əlaqəsidir. Aydınlaşdırma əlaqəli tabesiz mürəkkəb cümlə strukturları ilə də folkor materiallarının məzmunu ifadə olunur. H.Bayramovun fikrincə : "Aydınlaşdırma əlaqəsi tabesiz mürəkkəb cümlənin tərkib hissələrindən birində (əvvəlkində) ifadə olunan fikrin o birində (ikincidə) irəli sürülən fikirlə bu və ya digər cəhətdən aydınlaşdırılması əsasında yaradılır" [11, s. 60]. Təbii ki, bu əlaqəli tabesiz merəkkəb cümlə strukturlarında komponentlərdən biri digərini izah edib aydınlaşdırır. Belə cümlələr də qapalı sıralıdır, ümumilik və aydınlaşdırma bildirən iki tərkib hissədən ibarət olur. Məsələn: *Qızlar başladılar oxuyub- çalmağa; kimi oynayır, kimi çalır, kimi də oxuyurdu (7, s. 41). Üç qardaşın var; biri suluyur, biri üfürür, biri bitirir.* (yağış, yel, Günəş) (19, s. 43) *Bir quşum var; dərisi puldan, gözləri nurdan.* (Balıq) (19, s. 71) -kimi cümlələrdə ümumilik bildirən hissə bir cümlədən ibarət olduğu halda, aydınlaşdırma bildirən hissənin isə iki və daha artıq komponentli eynizamanlı birləşdirmə əlaqəli tabesiz mürəkkəb cümlədən ibarət olduğu görünür. Demək, aydınlaşdırma əlaqəli tabesiz mürəkkəb cümlələrin komponentlərindən biri sadə, digəri isə mürəkkəb cümlədən də ibarət ola bilir.

Aydınlaşdırma əlaqəli tabesiz mürəkkəb cümlələr sintez-analiz və analiz-sintez üsulları ilə qurulur. Sintez-analiz üsulunda əvvəl ümumilik bildirən, sonra isə aydınlaşdıran komponent işlənir. Analiz-sintez üsulunda isə əksinə aydınlaşdıran komponent əvvəl, ümumilik bildirən komponent isə sonra işlənir. Hər iki üsulda komponentlər bir-biri ilə intonasiya ilə əlaqələnir. Folklor materialları şifahi dil nümunələri olduğu üçün daha çox sintez-analiz üsulu ilə qurulan aydınlaşdırma əlaqəli tabesiz mürəkkəb cümlələrlə ifadə olunmuşdur. Məsələn: *Üç qardaşdır;biri yatır, biri oturur, biri gedir. (daş, ağac, su) (19, s. 176)*; *Bir kişi var; özü burda, bağırsağı orda. (qarpız və tağı) (19, s. 49).*

Bir dükanım var; həm məxmər dükanıdır, həm əllaf dükanı, həm də odun dükanı. (iydə) (19, s. 55) Göydən üç alma düşdü; biri mənim, biri nağıl söyləyənin, biri də özümün. (7, s. 75) Qonaq çağıraq; onlar bir tərəfdə otursun, biz bir tərəfdə. (7, s. 74) Ta başqa çarəsi yoxdur; altı onlardır, altı biz. (7, s. 74) – cümlələrin hamısında ümumilik bildirən komponent əvvəl, aydınlaşdırma bildirən komponent isə sonra işlənmişdir.

Nəticə: Beləliklə, folklor materiallarının dilində tabesiz mürəkkəb cümlə strukturlarının komponentləri arasında birləşdirmə, səbəb-nəticə və aydınlaşdırma məna əlaqələrinin həm folklorumuzun mahiyyətinin ifadəsində, həm də komponentlər arasında qarşılıqlı məzmun münasibətinin, struktur zənginliyinin, eləcə də əlaqələnmə vasitələrinin üzə çıxarılmasında özünəməxsus rolu vardır. Onların toplanılıb araşdırılması tarixi sintaksisə zəngin material verəcək, dilimizin tarixi inkişafının, folklorumuzun poetikliyinin, obrazlılığının öyrənilməsində mənbə rolu oynayacaqdır.

İstifadə olunmuş ədəbiyyat

1. Abdullayeva Ə.Z., Seyidov Y.M., Həsənov A.Q. Müasir Azərbaycan dili. IV hissə. Sintaksis. Bakı: Şərq-qərb, 2007, 424 s.
2. Atalar sözü. Bakı: Yazıçı, 1985, 690 s.
3. Atalar sözü. Bakı: Öndər nəşriyyatı, 2004, 264 s.
4. Atalar sözləri və məsəllər. Bakı: Şərq-qərb, 2019, 128 s.
5. Azərbaycan bayatıları. Bakı: XXI-Yeni Nəşrlər Evi, 2004, 304 s.
6. Azərbaycan nağılları. Beş cilddə. I cild. Bakı: Şərq-qərb, 2005, 360 s.
7. Azərbaycan nağılları. Beş cilddə. III cild. Bakı: Şərq-qərb, 2005, 296 s.
8. Azərbaycan nağılları. Beş cilddə. IV cild. Bakı: Şərq-qərb, 2005, 336 s.
9. Azərbaycan məhəbbət dastanları. Bakı: Elm, 1979, 503 s.
10. Azərbaycan xalq ədəbiyyatından seçmələr. (Qaravəlilər, oyunlar və xalq tamaşaları) Bakı: Şərq-qərb, 2005, 312 s.
11. Bayramov H. Müasir Azərbaycan dilində tabesiz mürəkkəb cümlələr. Bakı: AMEA nəşriyyatı, 1960, 121 s.
12. Bayatılar. Bakı: Yazıçı, 1985, 199 s.
13. Dəmirçizadə Ə. Azərbaycan ədəbi dili tarixi. Bakı: Maarif, 1979, 268 s.
14. Xəlilov B. Müasir Azərbaycan dili. Sintaksis. Bakı: Adiloğlu, 2017, 428 s.
15. Kazımov Q. Müasir Azərbaycan dili. Sintaksis. Bakı: Təhsil, 2007, 496 s.
16. Kazımov Q. Azərbaycan dilinin tarixi sintaksisi. Bakı: Elm, 2019, 608 s.
17. Müasir Azərbaycan dili. Sintaksis. III cild. Bakı: Elm 1981, 443 s.
18. Müzəffəroğlu T. Müasir Azərbaycan dilində mürəkkəb cümlənin struktur semantikası. Bakı: Azərnəşr, 2002, 304 s.
19. Tapmacalar. Bakı: Şərq-qərb, 2004, 208 s.

Açar sözlər: cümlə,mürəkkəb cümlə, tabesiz mürəkkəb cümlə, birləşdirmə əlaqəsi, səbəb-nəticə əlaqəsi, aydınlaşdırma əlaqəsi
Keywords: sentence, composite sentence, compound sentence, composition relationship, cause-and-result relationship, clarifying relationship
Ключевые слова: предложение, сложносочиненное предложение, сложноподчиненное предложение, составное отношение, причинно-следственная связь, уточняющее отношение

Xülasə

Məqalədə folklorumuzun məzmununu ifadə edən cümlə strukturlarından biri olan tabesiz mürəkkəb cümlələrin komponentləri arasındakı birləşdirmə, səbəb-nəticə və aydınlaşdırma əlaqələrindən bəhs olunmuşdur. Qeyd edilmişdir ki, tabesiz mürəkkəb cümlələr bərabərhüquqlu cümlələrdən təşkil olunur. Belə cümlələrin komponentləri arasında qarşılıqlı məzmun bağlılığına görə birləşdirmə, səbəb-nəticə və aydınlaşdırma məna əlaqələri formalaşır. Folklor materiallarında rast gəlinən birləşdirmə əlaqəli tabesiz mürəkkəb cümlələrdə eyni zamanda və ya ardıcıllıqla baş verən fakt və ya hadisələr ifadə olunur. Ona görə də belə cümlələr eynizamanlı və ardıcılzamanlı birləşdirmə olmaqla iki qrupa bölünür. Eynizamanlı birləşdirmə əlaqəli tabesiz mürəkkəb cümlələrdə eyni zaman ərzində baş verən müxtəlif fakt və hadisələr sadalanır. Ardıcılzamanlı birləşdirmə əlaqəsində isə fakt və hadisələrin müəyyən ardıcıllıqla baş verdiyi ifadə olunur. Səbəb-nəticə əlaqəli tabesiz mürəkkəb cümlələrdə birinci komponent səbəbi ikinci komponent isə həmin səbəbdən doğan nəticəni ifadə edir. Aydınlaşdırma əlaqəli tabesiz mürəkkəb cümlə strukturlarında komponentlərdən biri digərini izah edib aydınlaşdırır. Folklor materiallarının dilindəki tabesiz mürəkkəb cümlə strukturlarının komponentləri arasında birləşdirmə, səbəb-nəticə və aydınlaşdırma məna əlaqələrinin həm folklorumuzun mahiyyətinin ifadəsində, həm də komponentlər arasında qarşılıqlı məzmun münasibətinin, struktur rəngarəngliyinin, eləcə də əlaqələnmə vasitələrinin üzə çıxarılmasında özünəməxsus rolu olduğu da məqalədə qeyd olunmuşdur.

Compound sentence structures related to composition, cause and result and clarification in the language of folklore materials

Summary

In the article, the connection, cause-and-result and clarification relationships between the components of tabesiz sentences, which are one of the sentence structures expressing the content of our folklore, were discussed. It has been noted that compound sentences are composed of equal sentences. Between the components of such sentences, connection, cause-and-result and clarification meaning relationships are formed due to the mutual content connection. The connection found in folklore materials is expressed in the connected compound sentences, facts or events that happen at the same time or in a sequence. Therefore, such sentences are divided into two groups, simultaneous and sequential. A simultaneous conjunction lists different facts and events that happened at the same time in related compound sentences. In the connection of sequential connection, it is expressed that facts and events occur in a certain sequence. In compound sentences related to cause and result, the first component expresses the cause, and the second component expresses the result arising from that reason. Clarification In compound sentence structures, one of the components explains and clarifies the other. It is also mentioned in the article that unification, cause-and-result, and clarifying meaning relationships between the components of compound sentence structures in the language of folklore materials have a unique role in expressing the essence of our folklore, as well as in revealing the mutual content relationship between the components, structural diversity, as well as the means of communication.

Структуры сложных предложений, связанные с составом, причиной и следствием и разъяснением в языке фольклорных материалов

Резюме

В статье рассмотрены связь, причинно-следственные и уточняющие отношения между компонентами придаточных предложений, которые являются одной из структур предложений, выражающих содержание нашего фольклора. Известно, что сложные предложения состоят из равных предложений. Между компонентами таких предложений за счет взаимной содержательной связи образуются связи, причинно-следственные и разъяснительно-смысловые отношения. Связь, встречающаяся в фольклорных материалах, выражается в связанных сложных предложениях, фактах или событиях, происходящих одновременно или в последовательности. Поэтому такие предложения делятся на две группы, одновременные и последовательные. Одновременный союз перечисляет различные факты и события, которые произошли в одно и то же время в связанных сложных предложениях. В связи последовательной связи выражается то, что факты и события происходят в определенной последовательности. В сложных предложениях, связанных с причиной и следствием, первый компонент выражает причину, а второй компонент выражает результат, вытекающий из этой причины. Уточнение В структурах сложных предложений один из компонентов объясняет и поясняет другой. В статье также отмечается, что унификация, причинно-следственные и выяснительные смысловые отношения между компонентами сложносочиненных конструкций в языке фольклорных материалов имеют уникальную роль в выражении сущности нашего взаимные содержательные отношения между компонентами, структурное разнообразие, а также средства связи.

RƏYÇİ: dos. S.Abbasova

Nigar Mahir qızı Vəliyeva[147]

FRANSIZ DİLİNDƏ FRAZEOLOJİ SİNONİMLƏR

Giriş. *Frazeologiya, frazeoloji birləşmələr*. Frazeologiya termini qrammatikada geniş yayılmışdır. Frazeologiya yunan sözü olub, iki sözün- ifadə və təlim- sözlərinin birləşməsindən yaranmışdır. Frazeologiya bir elmdir, frazeoloji birləşmələri öyrənir. Elə söz birləşmələri vardır ki, onlar artıq dilimizdə daşlaşmış formada istifadə olunur. Belə söz birləşmələrinə **frazeoloji birləşmələr** diyilir. Bütün dillərin özünə məxsus frazeoloji söz birləşmələri vardır. Frazeoloji birləşmələr məcazi məna daşıyır. Belə birləşmələr məxsus olduğu xalqın dil mədəniyyətini, tarixini əks etdirir və dəyişməz olaraq qalır. Məhz buna görə də frazeoloji birləşmələr başqa dillərə olduğu mənada tərcümə oluna bilmirlər. Bütün dillərdə frazeoloji vahidlərin yaranması fərqli olsa da, oxşar cəhətləri də vardır [1]. L.V.Şerba özünün yazdığı rusca-fransızca lüğətində bildirmişdir ki, yaxşı tərcümə tərtib olunmur, yaradıcı şəkildə yaradılır. Nə qədər desək də ki frazeoloji vahidlər dəyişməzdir, söz sırasının pozulmasını tez-tez görürük. Onların tərcümə olunması isə müxtəlif dillərdə fərqlidir. Hər bir dildə frazeoloji birləşmələr lüğəti mövcuddur. Frazeoloji birləşmələrdən ailə-məişət üslubunda daha çox istifadə olunur. Frazeologiya bir növ dilin zənginliyini də göstərir. Frazeoloji birləşmələr özündə yüksək obrazlılıq, bədiilik, yüksək ifadəlilik əks etdirir. Frazeoloji birləşmələr cümlədə təkrarın qarşını almaqda böyük rol oynayır. Bu cəhətinə görə frazelogiyadan bədii ədəbiyyatda da geniş şəkildə istifadə olunur. Elə frazeoloji birləşmələr də vardır ki, onlar yalnız bir məhəllənin, bölgənin dilində istifadə olunur. Bu bir növ dialektik xarakter daşıyır. Bu tip birləşmələrdə komponentlərin ayrılmaz olması onun sabit söz birləşməsi olduğunu göstərir. Sabit söz birləşmələrinə misal olaraq zərbi məsəlləri, hikmətli sözləri, bayatılar, tapmacalar, müəyyən bir şəxs tərəfindən söylənmiş aforizmləri, təkrar-təkrar qarşılaşdığımız ifadələr idiomlar və.s göstərmək olar. Müxtəlif şairlərimiz, yazıçılarımız öz əsərlərində frazeoloji birləşmələrdən istifadə etmişdir. Frazeologizmlərin **inteqral** və **diferensial** əlamətləri vardır;

İnteqral əlamət- onun digərinə uyğun olduğunu göstərir.

Diferensial əlamət- frazeoloji birləşmələrin rəngarəngliliyini göstərir.

Bu birləşmələrin mənası hər iki tərəfin mənasına əsasən yox, ümumilikdə təyin olunur. Onlar ayrı-ayrı hissələrə bölünmədən bütöv şəkildə cümlə üzvü olurlar.

Frazeoloji birləşmələrdən şeir dilində geniş istifadə olunur. Bu birləşmələr şeirin poetikliyini artırır [4].

Rəngin dalındakı həqiqətə bax,
Həqiqət nəzilər amma üzülməz.
Yalanar çiçəklənər, boy atar, ancaq
Bəhər verə bilməz, bar verə bilməz.

Nümunədən də göründüyü kimi, frazeoloji birləşmələr şeirin poetikliyini gücləndirib.

Əsas hissə. *Fransız dilində frazeoloji sinonimlər.* Giriş hissədə frazeologiya haqqında geniş şəkildə məlumat verildi. Frazeoloji birləşmələr özlüyündə sinonimlik, antonimlik, omonimlik xüsusiyyətini daşıyır. Fransız dilində də bütün dillərdə olduğu kimi frazeologiya mövzusu fransız qrammatikasında əsas rol oynayır. Fransız dilində frazeologiya aşağıdakı sxemdəki kimi məna qruplarına bölünür [1].

Frazeoloji dilin frazeoloji vahidləri
Frazeoloji çoxmənalılıq
Frazeoloji variantlıq
Frazeoloji sinonimlik
Frazeoloji antonimlik
Frazeoloji omonimlik

Azərbaycan dilində müxtəlif sözlər qrupu mövcuddur ki onlar dilin inkişafına köməklik edir. Bunlardan bir qrupu omonimlər, sinonimlər, antonimlərdir. Frazeoloji sinonimlər dedikdə, yazılışı tələffüzü fərqli, lakin, məna cəhətdən oxşar olan frazeoloji birləşmələr nəzərdə tutulur. Sinonimlər Azərbaycan dilində olduğu kimi bütün dillərdə də eyni məna daşıyır. Həmçinin sinonimlər də yazıda təkrarın qarşısını almaq, oxucunu eyni sözlərlə yormamaq üçün əlverişli üsuldur. Lakin elə sinonimlər vardır ki bir birini əvəz edə bilmir. Məsələn: uca bina deyə bilərik amma uca oğlan ifadəsi biraz fərqli səslənir. Bu fransız dilində də belədir bütün sinonimlər birbirini əvəz edə bilmir. Sinonimlərin bir birini əvəz etməsi üçün məna uyğunluğu da olmalıdır, əks halda ifadə gözəl səslənmir. Azərbaycan və fransız dilindəki sinonimlərin oxşar cəhətini dedik ki, onların hər zaman bir birini əvəz edə bilməməsidir. Fərqli cəhəti isə cins kateqoriyasıdır. Bildiyimiz kimi Fransız dilindən fərqli olaraq Azərbaycan dilində cins kateqoriyası mövcud deyil. Cinsə görə dəyişmək sinonimlərə də aiddir. Sinonimlər özlüyündə iki qrupa bölünür: nisbi sinonimlər və mütləq sinonimlər. Sinonimlər mövzusunda sinonimik cərgə anlayışı vardır ki burada ən azı 2 söz iştirak etməlidir. Məsələn: gözəl-qəşəng, ağıllı-müdrik, hündür-uca və.s. Sinonimik cərgə məcazi və həqiqi ola bilər. **Kakofemiz**-bu sinonimlər sözə mənfi çalarlar gətirir. Məsələn: qoca-kaftar-qarı. Sinonimlər müxtəlif köklərdən ibarət olmalıdır. Eyniköklü sözlər sinonim hesab olunmur. Buna misal olaraq, ödəniş-ödəmə, dolanmaq-dolaşmaq ifadələrini göstərə bilərik. Sinonimlərdən cümlədə bir neçə məqsədə görə istifadə olunur:

---

[147] Bakı Dövlət Universitetinin magistrantı

1. Fikrin daha emosional, dəqiq şəkildə oxucuya çatdırılması
2. Cümlədə və ya fikrdə məzmuna əsasən məna koloriti yaratmaq, məsələn fikri daha drammatik, və ya daha da komik və s. etmək.
3. Nitq normalarına riayət etmək, dildə vulqarizmlərin işlənməsinə yol verməmək.
4. İfadə və ya cümlədə yorucu təkrarlardan qaçmaq üçün sinonimlərdən istifadə olunur.

Müşahidələr göstərmişdir ki, söz ehtiyatı zəngin olan, ifadə və ya sözləri yerində işlədə bilən şəxsin nitqi daha gözəl və təsirli olur. Həmçinin natiq öz nitqində sinonimlərlə bərabər, frazeoloji sinonimlərdən də doğru istifadə etməyi bacarmalıdır. Məsələn: başına vurmaq-burnundan gətirmək, başından üstü çıxmaq-özündən çıxmaq, sevincdən uçmaq-yerə göyə sığmamaq və s.

Fransız dilində də sinonimlər yuxardakı sadaladığlmız xüsusiyyətlərə malikdir. Fransız dilindəki sinonimlərə nümunə olaraq göstərə bilərik: beau-belle-parfait/e-chouette-esthetique-gentil/e-pimpant/e, courageux/euse-brave-villant/e, intelligemment-sagement-judicieusement-raisonnablement, vite-rapide-prompt/e, maniable-commode-praticable-pratique-utile və s.

Hər hansı bir xarici dili öyrənərkən sinonimlərin öyrənilməsi daha vacib sayılır:

1. Əgər siz hər hansı bir dildəki sözün sinonimini bilsəz, qarşı tərəf həmin sinonimdən istifadə etsə siz onun fikrini anlaya biləcəksiz

Mərhəm qoyub sinəmdəki qanlı yaranı sağaltma. Bu elə çıraqdır, elə atəşdir ki, sən onu öz əlinlə yandırmısan. Bu beytdə elə bir ustad manerası vardır ki, *öz əlinlə* birləşməsini həm birinci, həm də ikinci misraya aid etmək olar (Yandırdığın çırağı öz əlinlə söndürmə/ öz əlinlə yandırdığın çırağı söndürmə). Eşq birinci növbədə Allahdan qula doğrudur. Əvvəl Allah qulu sevər, sonra qul Allahı. Ona görə ki, qulu Haqq yaratmışdır və ona eşq qabiliyyətini verən də Haqdır. Allah özünü tanıtmaq üçün kainatı yaratdı və kainatın şüuru olan insan da Onu tanıya bilən yeganə varlıqdır. Allahı yalnız eşqlə tanımaq mümkündür, çünki o elə bir məşəldir ki, Haqq yalnız onun işığı ilə görünə bilər. Bu məşəli insanın qəlbində yandıran yenə də Allahdır. Eşq nə qədər əzablı, iztirablı olsa da, Haqqa qovuşmağın yeganə yoludur. Bu səbəbdən aşiq onun sönməsini də, atəşin çəkdiyi dağın, açdığı yaranın sağalmasını da istəmir.

Xəncəri-bidad ilə hər dəm görər zəxm üzrə zəxm,

Hiç bir dəm görmədim onmuş, onulmuş könlümü [6, s. 305].

Zülm öz xəncəri ilə hər an yara üzərinə yara açır. Heç bir zaman könlümü bu yaralardan sağalmış, rahatlığa çatmış görmədim. Birinci nümunədə Haqqın çəkdiyi dağın sağalmasından ehtiyat edən aşiq burada zülm xəncəri ilə açılan yaranın sağalmamasından şikayət edir. Çünki Allahdan gələn hər əzab aşiqin mükafatıdır. Feilin tərkibindəki iki müxtəlif şəkilçi (-ər; -əl) onun quruluşca düzəltmə olduğunu göstərir və **ön** sözünün kök olduğu müəyyənləşir. Türk dilləri üçün xarakterik olan ö//o əvəzlənməsi ön feilini həm də on kimi düşünməyə əsas verir. XI əsrə aid olan türkologiyanın ən qədim yazılı abidəsi "Divanü lüğat-it-türk"də Mahmud Kaşğarinin onq/onğ formasında göstərdiyi söz sağ (əl), asan, yüngül mənalarını ifadə edir: *onq iş – asan iş; onq əlig – sağ əl* [10, s. 114].

Xronoloji cəhətdən daha əvvəlki dövrlərə aid olan, qədim uyğur əlifbası ilə yazılmış burhan abidələrinin dilində də *onarmaq* feili işlənmişdir: *Ayturulmuş öd ərigig atırdığ onarıp / Alkınmaksız ağılıkığ alğu iş kılınlar* - Sorulan öyüd, nəsihəti açıqca yaxşılaşdırıb / Tükənməz xəzinəni alan iş edin [12, s. 291].

Ə. Rəcəblinin uyğur abidələrində işlənən sözlərdən ibarət lüğətində bu feildən törəyən başqa sözlər də verilmişdir: onaltmak-düzəltmək, onardğu- asan, yüngül, onardğulmak-asanlaşdırmaq, onaru-sağa doğru, onay-asan, onulmak-sağalmaq [13, s. 402].

Lüğətdə həmçinin eyni mənaları bildirən önədmək, önətdürmək variantları da qeyd olunmuşdur [13, s. 409]. Onalmaq feilinə "Kitabi – Dədə Qorqud" dastanının dilində də rast gəlirik və burada da sağalmaq sözünün qarışılığıdır*: Xanım, oğlanın qırq gündə yarası onaldı, sapasağ oldı* [10, s. 33].

Müasir ədəbi dilimizdə bir şeyin, xüsusən, toxunmuş şeyin üst tərəfi, sığallı tərəfi, üz mənasında *avand* sözü, uğurlu olmaq, müvəffəqiyyətli olmaq mənasında *avand olmaq* ifadəsi işlənir. Sözün etimologiyasını araşdırdıqda məlum olur ki, bu söz tarixən *onand* formasında olub və kökü *on* kəlməsidir. Bəşir Əhmədov müəllifi olduğu " Etimologiya lüğəti"ndə avand sözü haqqında yazır : " Bu söz tarixən *onand* kimi olub, *on* isə "sağ" deməkdir, " səmt " mənasında işlədilir (tərs-onand deyirik). "Uğur" anlamını əks etdirir. *Onalmaq* sözü də burdandır, "sağalmaq" deməkdir (ayınmaq kimi də işlədilir)" [5, s. 28].

Besim Atalay "Divanü-lüğatit-türk"dən günümüzə qədər gələn kəlmələr sırasında **onqulmak** sözünü qeyd etmişdir. Müasir Türkiyə türkcəsində bu sözün onmak (daha yaxşı vəziyyətə gəlmək, xəstəlikdən sağalmaq), onmaz (yaxşılaşma ehtimalı olmayan), onulmaz (sağalmaz), onum (pis vəziyyətdən qurtulmaq) variantları işlənməkdədir. Bərpa etmək mənası ifadə edən onarmak sözünün də kökündə **on** (maq) feili vardır. **Önermek** isə **"**təklif etmək" deməkdir.

Bütün bu faktları mentalinqvistik aspektdən dəyərləndirdikdə maraqlı bir mülahizə ortaya çıxır. Belə ki, sağ tərəf və sağalmaq mənalarını bildirən sözlər tarixən də, indi də eyni kökdən törəmiş, eyni fonetik tərkibdə olmuşdur. Bu sözlər müsbət mənalar ifadə edir və dilimizdə "sağ" (tərəf, səmt mənasında) kəlməsi ilə bağlı xeyli sayda ifadə, deyim, inanc vardır ki, onların da hamısı pozitiv mənalar daşıyır. "Sağ əl" – ən yaxın və etibarlı insan, "sağ əlim başına" – insanın özünün

[152] Bakı Mühəndislik Universitetinin magistrantı. aidanabadova@gmail.com

başına gələn hər hansı xoşbəxtliyi başqasına arzulayarkən işlətdiyi ifadə, "sağ əlin içi qaşınanda pul gələr, sol əlin içi qaşınanda xərc çıxar" , "sağ gözün səyirməsi şadlıq gətirər", "evə sağ ayaqla girilər " və s. Belə inancların sayını bir az da artırmaq olar, ancaq hər birini eyni cəhət birləşdirir. Söylənilən fikrin təsdiqini dini ədəbiyyatda da tapmaq mümkündür. Bir sıra hədislərdə, rəvayətlərdə və Quranda da sağ tərəf yaxşı mənada fərqləndirilir. "Vaqiə" surəsinin 8-ci ayəsində deyilir: "Sağ tərəf sahibləri (əməl dəftərləri sağ əllərinə verilənlər). Kimdir o sağ tərəf sahibləri? (Nə uğurludur onlar!)". Sağ əllə yemək yemək, su içmək, dəstəmaz alarkən, paltar geyinərkən və başqa xoş əməllərdə əvvəlcə sağdan başlamaq Məhəmməd Peyğəmbərin (s.ə.s.) buyruğudur. Sağ tərəfin uğuruna inamın dini inanclarla əlaqəsini inkar etmək mümkün olmadığı kimi, yalnız onunla bağlamaq da doğru olmaz. Ən azı ona görə ki **on** sözünün mənbələrdə işlənməsi islamdan əvvəlki dövrə aiddir, sözün işləndiyi abidə də qeyri-islam dini ilə bağlıdır (həmin dövrdə uyğurlar burhan dininə sitayiş etdikləri üçün abidələr də burhan abidələri kimi tanınır) və hər bir xalqın təfəkküründən, düşüncə tərzindən xəbər verən deyimlərin, inancların yaranma tarixi barədə dəqiq söz demək qəliz məsələdir.

Linqvistika və teologiyanın qarşılıqlı əlaqəsinə toxunmuşkən mövzunu bir az da genişləndirərək yazılı ədəbiyyata da nəzər sala bilərik. XII əsr ədəbiyyatımızın siması Nizami Gəncəvinin "Xosrov və Şirin" poemasından olan misraların analitik təhlilini apararkən burada da sağ-solun müvafiq olaraq düzgünlüyü və əyriliyi təmsil etdiyini görə bilərik: Sol böyürdən olmuş qadın, deyirlər, // Soldan sağı ummaq olarmı məgər? [8, s. 262].

Allahın 40 gündə Adəmi palçıqdan yaratması və sonra tək qalıb darıxdığını gördükdə isə onun sol qabırğasından Həvvanı yaratması dini əfsanədə əksini tapmışdır. Verilmiş beytdə də soldan, yəni əyri olandan yaradılan qadından düzlük gözləməmək lazım gəldiyi bildirilir. Fars dilində də çəp (sol), rast (sağ) sözləri əyri və düz mənası bildirir (dilimizdə işlənən "işin rast getsin" ifadəsini də xatırlamaq yerinə düşür).

Dilin tarixi inkişafını izləməkdə dialekt materiallarının xüsusi əhəmiyyəti vardır. Füzulinin dilində *önərmək* kimi işlənən feil müxtəlif ərazilərdə fərqli formalarda işlənir. Qax, Zaqatala bölgəsində sağalmaq mənasında *onalmax*, Balakəndə avand mənasında *onand*, Başkeçid, Borçalıda parçanın düz üzü mənasında *onant* sözləri işlənir [2, s. 382].

Zaqatalada onalmaq sözü ilə yanaşı *önəlmax* da sağalmaq, yaxşılaşmaq mənalarını bildirir [2, s. 388]. Borçalıda "*iş onatdığı*" ifadəsi iş asanlığı, yüngüllüyü, iş avandlığı mənasında istifadə olunur: "*İşin onand olsun*", " *Onatdı ol*" və s.

Üləşmək. Füzilinin dilində işlənmiş, dövrümüz üçün arxaik hesab edilən feillərdən biri də **üləşmək** feilidir. Bu feil *bölüşmək*, *paylaşmaq* mənalarını ifadə edir. Baba Məhərrəmli sözün kökündə "xırdalamaq, kiçiltmək" mənaları bildirən **uş** feilinin olması fikrini irəli sürür. Müəllif qədim *uş* kökünün uşaq // uşak ismində asemantikləşdiyi söyləyir [11, s. 89]. Bəzi türk dillərində həmin söz "kiçik, balaca" mənasındadır. Müasir qırğız dilində uşat- feili "xırdalamaq" anlamında işlənir. L // ş paralelliyinin türk dillərinə izlənməsi qədim ül- "bölüşmək" feili ilə uş - "xırdalamaq, parçalamaq" feilinin eyniköklü olmasını deməyə əsas verir. Üləşmək - "bölmək" feili yazılı qaynaqlarda işlənmişdir. Mahmud Kaşğarinin divanında üləşdi – bölüşdü, ülətti – payladı (Ol çığayka yarmak ülətti – O, kasıblara pul bölüşdürdü, payladı.) feilləri qeyd olunmuşdur [9, s. 238, 255].

"Derleme sözlüğü"ndə bu kəlmələr "üleşmek" (paylamaq, bölüşmək), "üleştirmek" (paylaşdırmaq, bölüşdürmək) formalarında öz əksini tapmışdır [15, s. 4793]. "Tarama sözlüğü"ndə isə eyni mənalarla feil forması ilə yanaşı üleşük (üleşik), ülü (ülüş) variantlarında isim kimi də göstərilmişdir. Bu isimlər hissə, pay anlamı bildirir [14, s. 4066, 4067].

XII əsrin məşhur mütəfəkkir şairi Əhməd Yasəvinin "Divani-Hikmət" ində də bu feil işlənmişdir: Otuz üçdə saqi bolup mey üləştim, // Cami-şərab kolğa alıp toya içtim [16, s. 18].

Füzulinin dilində elə də çox rast gəlinməyən bu feilin işlənməsinə dair aşağıdakı nümunəni göstərmək olar: Buraxmış itlərinə parə-parə könlümü ol məh, // Üləşdirmiş, kəsib ərbabi-istehqaqə qurbanın [6, s. 250].

O ay üzlü könlümü parça-parça edib itlərinə verib, yəni qurbanını kəsib haqq sahiblərinə bölüşdürüb. Aşiq sevgilinin qurbanıdır və İslam dininə görə qurban yoxsulların, kasıb qonşu və qohumların haqqıdır. Sevgilinin diyarında isə hətta itlər də dəyərlidir, haqq sahibidir. Füzulinin seçdiyi sözlərə diqqət yetirdikdə onların bir-birini necə tamamladığını duya bilirik. Yuxarıda da dediyimiz kimi, üləşmək feili ilə eyni kökdən olan, hissə mənası verən **ülüş** ismi də vardır və beytdəki "parə-parə" (parça-parça, tikə-tikə), qurban kəsmək ifadələri semantik cəhətdən "üləşmək" feilinin daşıdığı məna ilə əlaqələnir (qurban kəsəndə də onu paylamaq üçün bərabər hissələrə bölmək lazımdır). Deməli, Füzuli elə sözlər seçir, onlar arasında elə manevrlər edir ki, uzun-uzadı təsvirlərə, izahlara ehtiyac qalmadan bütöv bir hadisə, proses göz önündə canlanır. Kəlmələri, anlayışları rabitələndirən gizli bağlara sanki bir işıq tutulur və bu görünməz əlaqələr insan təxəyyülündə aydınlanır.

Üləşmək feili və onunla eyni kökdən törəyən bir sıra sözlər dialekt və şivələrimizdə də işlənməkdədir. Gəncə, Tovuz, Qazax bölgələrində *kiçik su ayırıcı* anlamında **üləşix'** sözü işlənir ki, onun da mənasına diqqət yetirdikdə kökündə bölmək hərəkətinin dayandığı aşkar görünür. Ağcabədidə **ülüç,** Ağdam, Kürdəmir, Salyan, Sabirabadda **ülüş** variantında işlənən, mənası *arasına halva qoyulmuş yuxa, lavaş* olan ismi *hissə, pay* anlamı ifadə edən **ülüş** sözü ilə əlaqələndirmək olar. Bunlarla yanaşı dialekt və şivələrimizdə mövcud olan **pay-ruş, pay-tüş, pay-ülüş, pay-ürüş, pay-ülüş eləmək** kimi ifadələrin ikinci tərkib hissəsi də haqqında danışdığımız feillə bağlıdır [4]. Onu da qeyd etmək yerinə düşər ki, "Azərbaycan dilinin izahlı lüğəti"ndə **pay-bölüş** (aralarında paylamaq, bölüşdürmək), **paylı-lüşlü** (pay gətirən və ya aparan; payla gələn və ya yola salınan), **pay-lüş** (pay, hissə, qismət) sözləri vardır. Lüğətdə verilmiş sözlərin hər birinin izahında "danışıq dilində" qeydi vardır. Bu mürəkkəb sözlərin Borçalıda da fəal şəkildə işləndiyini müşahidə etmək olar.

İstifadə olunmuş ədəbiyyat

1. Atalay B. Kaşgarlı Mahmud ve Divanü Lugat-it-Türk. İstanbul:Toker yayınları, 1986, 151s.
2. Azərbaycan dilinin dialektoloji lüğəti. Bakı: Şərq-Qərb, 2007, 568 s

3. Azərbaycan dilinin izahlı lüğəti. Dörd cilddə. III cild. Bakı: Şərq-Qərb,2006, 672s.
4. AZLEKS
5. Əhmədov B. Etimologiya lüğəti (araşdırmalar,mülahizələr). Bakı: Altun kitab, 2015, 288s.
6. Füzuli M. Əsərləri. Altı cilddə. I cild. Bakı: Şərq-Qərb,2005,400s.
7. Füzuli M. Əsərləri. Altı cilddə. II cild. Bakı: Şərq-Qərb, 2005, 336 s.
8. Gəncəvi N. Xosrov və Şirin. Bakı: Lider nəşriyyat, 2004, 392 s.
9. Kaşğari M. Divanü lüğat-it-türk. I cild. Bakı: Ozan, 2006, 400 s
10. Kitabi Dədə Qorqud. Əsil və sadələşdirilmiş mətnlər. Bakı: Öndər, 2004, 376 s.
11. Məhərrəmli B. Türk dillərinin qədim leksikası. Bakı: "Xəzər Universitəsi" nəşriyyatı, 2017, 272 s.
12. Rəcəbli Ə. Qədim türk yazısı abidələri. 4 cilddə, III cild. Qədim uyğur yazısı abidələri, I hissə. Bakı: Elm və təhsil, 2010, 664 s.
13. Rəcəbli Ə. Qədim türk yazısı abidələri. 4 cilddə, IV cild. Qədim uyğur yazısı abidələri, II hissə. Bakı: Elm və təhsil, 2010, 500 s.
14. Tarama sözlüğü. VI cild. Ankara: Ankara Üniversitesi Basımevi, 1996, 4814 s.
15. Türkiyede halk ağzından Derleme sözlüğü. XII cild. Ankara: Ankara Üniversitesi Basımevi, 1993, 4842 s.
16. Yəsəvi Ə. Divani hikmət. Bakı: Çaşıoğlu, 2004, 128 s.

Açar sözlər: arxaizm, arxaik feil, Füzuli dili, dialekt, lüğət
Anahtar sözler: arkaizm, arkaik fiil, Fuzuli dili, lehçe, sözlük
Key words: archaism, archaic verb, the language of Fuzuli, dictionary

Xülasə

Azərbaycan milli ədəbi dilinin banisi olması Məhəmməd Füzulinin leksikası, qrammatikası,bütövlükdə Füzulinin dili dilçilik elmi üçün daim aktuallığını qoruyan məsələdir. Təqdim olunan məqalədə Füzulinin dilində işlənmiş, müasir dövrümüz üçün arxaikləşən feillərin bir neçəsi haqqında geniş araşdırma aparılmışdır. Təhlilə cəlb edilən arxaik feillərin digər yazılı mənbələrdə işlənməsi, müasir dövrdə dialektlərdə mühafizə olunması və hansı məna dəyişikliklərinə məruz qalması məsələlərinə də toxunulmuşdur. Məqalədə maraq doğuran tərəflərdən biri də müəllifin dilindən nümunə göstərilən beytlərin təkcə linqvistik aspektdən deyil, yeri gəldikcə, linqvopoetik, mentalinqvistik cəhətlərdən də təhlil olunmasıdır. Bu yolla seçilən sözlərin semantikası, məhz onların seçilməsindəki məqsəd, oxucunun əxz etməli olduğu ideya, bir sözlə, müəllifin fəlsəfəsi daha da aydınlaşır.

Özet

Fuzuli dilindeki arkaik fiillerin semantikası

Azerbaycan'ın milli edebî dilinin kurucusu olan Muhammed Fuzuli'nin lügatı, grameri, Fuzuli'nin dili bir bütün olarak dil bilimini her zaman ilgilendiren bir konudur. Sunulan makalede, Fuzuli dilinde kullanılan ve günümüz için arkaik hale gelen birkaç fiil üzerinde kapsamlı bir araştırma yapılmıştır. İncelemede diğer yazılı kaynaklarda da kullanılmış, modern çağ lehçelerinde korunmuş arkaik fiiller ve bunların anlam değişikliği konularına da değinilmiştir. Makalenin ilgi çekici yönlerinden biri de Fuzulinin beyitlerinin sadece dilbilimi yönünden değil, lingvo –poetik açıdan da analiz edilmesidir. Bu şekilde seçilen kelimelerin anlamı, seçilme amacı, okuyucunun anlaması gereken ana fikri, kısacası yazarın felsefesi daha net anlaşılıyor.

Summary

Semantics of verbs used in the Fuzuli language

Being the founder of the national literary language of Azerbaijan, the lexicon, grammar of Muhammad Fuzuli, Fuzuli's language as a whole is a matter that is always relevant for the science of linguistics. In the presented article, an extensive research was conducted on several verbs used in Fuzuli's language, which have become archaic for our modern times. The archaic verbs included in the analysis are used in other written sources, preserved in dialects in the modern era, and the issues of their meaning changes were also touched upon. One of the interesting aspects of the article is the analysis of verses from the author's language not only from the linguistic aspect, but also from the lingopoetic and mentalinguistic aspects. The semantics of the words selected in this way, the purpose of their selection, the idea that the reader should understand, in short, the author's philosophy becomes clearer.

Rəyçi: Fil.ü.f.dok. T.Hacıyeva

Nüşabə Əlizadə[153]

AZƏRBAYCANDA ŞƏHRİYARŞÜNASLIQ

Bəşəriyyətin söz xəzinəsini poetik əsərləri ilə zənginləşdirən ustad sənətkarlardan biri də İranın əzəmətli şairi Məhəmmədhüseyn Şəhriyardır. O, 1905-ci ildə Təbrizdə vəkil Mirağa Xoşginabinin ailəsində dünyaya gəlmişdir. 1905-1911-ci illər Məşrutə inqilabı dövründə doğma şəhərdə baş verən ictimai- siyasi hadisələrdən bir qədər təhlükəsiz yerə getmək məqsədi ilə ailə ata-baba yurdu olan Xoşginab kəndinə köçür. Beləliklə Məhəmmədhüseynin uşaqlıq illəri səfalı təbiətə malik Qaraçəmən yaxınlığmda olan Heydərbaba dağının ətəklərində yerləşən Xoşginab, Şəngülava, Qayışqurşaq kəndlərində keçir və təbiidir ki, böyük istedada malik olan gələcək şairin zəngin təbiətdən bəhrələnməsi onun zərif, incə, kövrək hisslərini daha da cilalayır. O, ilk təhsilini Qayışqurşaqda dərs deyən Molla İbrahimin məktəbində almışdı və çox sonralar anasının istəyi və məsləhəti ilə Azərbaycan dilində yazdığı "Heydərbabaya salam" poemasında şən, qayğısız, niskilli uşaqlıq xatirələri arasında ilk müəllimini də minnətdarlıqla yad etmişdi. Sonralar Şəhriyar ibtidai və orta təhsilini Təbrizdə almışdı. O, ali təhsil almaq üçün Tehran universitetinin tibb fakültəsinə daxil olmuş, lakin V kursdan çıxarıldığı üçün bu təhsil ocağını bitirə bilməmişdir. Buna səbəb gənc şairin Sürəyya adlı qıza vurulması, lakin qızın ailəsinin bu məhəbbətə qarşı çıxması və Şəhriyarı təhsildən uzaqlaşaraq Məşhədə getməyə məcbur etməsi olmuşdur. Bu hadisə Şəhriyarı tibb sahəsindən uzaqlaşdırmışdır. Hələ tələbəlik illərində M.Şəhriyar onu həyəcanlandıran, narahat edən, iztiraba salan hisslərini şeir sətirlərində əks etdirirdi və bu nəzmlə ifadə olunan yazıları onun istedadına pərəstiş edən oxucuları maraqlandırırdı. Təsadüfi deyil ki, görkəmli ədəbiyyatşünas, Nizami Gəncəvi irsinin iranlı araşdırıcısı Vəhid Dəstgerdı bu gənc şairin şeirlərini təsis etdiyi «Ərməğan» məcəlləsində çap edərkən onun istedadından da bəhs etmişdi. Şəhriyarın ilk şeir kitabı Məliküşşüəra Bahar, Səid Nəfisi və Pəjman Bəxtiyarinin müqəddimələri ilə 1931-ci ildə Tehranda çap olunur və tezliklə böyük oxucu auditoriyası qazanır. İranın görkəmli şairi Məliküşşüəra Baharın müqəddimədə uzaqgörənliklə qeyd etdiyi kimi «Şəhriyar yalnız İranın deyil, bütün dünyanın iftixarı olan şair olacağını» elə ilk əsərləri ilə nişan verirdi.

Şəhriyar Tehranda ali təhsilini başa vurmadan sevdalı məhəbbət qanadlarında pərişan əhval-ruhiyyə ilə 1931-ci ildə Xorasana gedir. O bu vilayətin İmam Rza məqbərəsini öz qoynunda əzizləyən Məşhəd, Nişabur və başqa şəhərlərində yaşayıb işləyir, görkəmli şair, alimlərlə, rəssam Kəmalülmülk və başqa maraqlı və görkəmli ziyalılarla görüşüb, öz intellekt və dünya baxışı ilə həm onları bəhrələndirib, həm də onlardan bəhrələnmişdir. Şəhriyarın atası Mirağa Xoşginabi dünyasını dəyişdikdən sonra bütün ailənin qayğısını şair çəkməli olur. Anasını, qardaş, bacılarını, bacı uşaqlarını dolandırmaq üçün Şəhriyar şəhərbəşəhər dolanır, çox işləyir və böyük övlad kimi atasının ailəyə başçılıq etmək vəzifəsini öhdəsinə götürür. Tehranda yaşayarkən Şəhriyar ağır xəstələnir, anası Kövkəb xanım pərəstarlıq etmək üçün oğlunun yanına gəlir və təqribən 5 ilə qədər ona qulluq edir. Anası oğluna mənəvi dayaq olmuş, bədbinləşmiş Şəhriyarı ruhlandırmış, onu yenidən həyata, poeyziaya, xalqına qaytarmışdır. Anasının təsiri ilə Şəhriyar Azərbaycan dilində də şeirlər yazmağa başlayır. Şairin ana dilində yazdığı «Heydərbabaya salam» poeması İranda və başqa ölkələrdə türkdilli xalqların şeir xəzinəsində əsl inci kimi parladı və Şəhriyarın poetik qüdrətini nümayiş etdirdi. Şəhriyar poemanın II hissəsini Təbrizə döndükdən sonra yazır. «Heydərbabaya salam» poemasını Azərbaycan və fars dillərində onlarla nəzirələr yazılmış, bu əsər İranda türkdilli şeirin ehyası üçün bir simvol olmuşdur.

Şair ömrünün 35 ilini Xorasanın Məşhəd, Nişabur, Kaşan, Şəhriyar, Tehran şəhərlərində yaşadıqdan sonra Təbrizə qayıdır. Doğma yerlərin cazibəsi, sağ qalan dost-tanışla, qohumlarla görüş Şəhriyarın həssas qəlbini riqqətə gətirir. O, doğma yerlərin təbiətindən çəmən-bağatından, daşından, dağından ilhamlanır və qələmə sarılır. Şair fars və Azərbaycan dillərində şeirlər yazır, gözəllikləri tərənnüm edərkən təbiətin ən mükəmməl əsəri olan insanın hiss və duyğularını, sevinc və kədərini, məhəbbət və nifrətini, xarakterik cəhətlərini təkrarolunmaz şeir misralarında təcəssüm etdirir. Şəhriyarın fars dilində yazdığı əsərləri 1950-ci ildə I cildi, 1958-ci ildə sonuncu cild nəşr edilən dörd cilddə toplanmışdır. Q. Beqdelinin göstərdiyinə görə, bu cildlərə şairin 19330 misrası daxil edilib. Sonuncu dəfə 1990-cı illərdə Tehranda Şəhriyarın dördcildlik külliyatı dərc olunub.

Şəhriyar yaradıcılığı çoxcəhətli inkişaf prosesi keçmiş, onda həm milli, həm beynəlmiləl ideyalar müxtəlif mövzularda inikas etdirilmişdir. Hər şeydən əvvəl qeyd olunmalıdır ki, Şəhriyar öz yaradıcılığında klassik fars şeirinin ənənələrini yaşatmış və inkişaf etdirmişdir. XX əsrdə İranda əsası Nima Yuşiç tərəfindən qoyulan və elmi-nəzəri prinsipləri həm şairin özü, həm də müxtəlif ədəbiyyatşünaslar, şairlərin şərh etdiyi «şeyre nov» cərəyanının tərəfdarları və əleyhdarlarının elmi mübahisələrində Şəhriyar da yaxından iştirak etmiş, öz dəyərli mülahizələrini ədəbi ictimaiyyətə açıqlamışdır. Şəhriyar yaradıcılığında həm klassik, həm də yeni formadan istifadə etmiş, hər iki üslubda qəlboxşayan, gözəl poetik əsərlər yaratmışdır. Şəhriyar İran poeziyasının elə parlaq simalarındandır ki, onun yaradıcılığı XX əsr fars şerinin ən parlaq cəhətlərini əks etdirməklə Sədi, Hafiz, Vətvat, Saib irsinin layiqli davamçısı olduğunu nümayiş etdirmişdir. Yaxın qonşumuz olan İranda poeziya sahəsində böyük nüfuza malik Şəhriyar yaradıcılığı Azərbaycanda elmi-ədəbi dairələrin diqqətini keçən əsrin 1960-cı illərindən cəlb etmiş, bir çox alim və şairlərimiz Şəhriyar şəxsiyyətini, Şəhriyar poeziyasını Azərbaycan xalqına tanıtmaq, çatdırmaq üçün bu əsrarəngiz şairin yaradıcılığını, keçdiyi həyat yolunu araşdırmağa başalmışlar.

1960-cı illərdə Şəhriyarın "Heydərbabaya salam2 poemasının sorağı Azərbaycana çatandan sonra şairin şəxsiyyətinə, yaradıcılığına böyük maraq oyanmış və burada bir "Şəhriyarşünaslıq" məktəbi yaranmışdır. Həmin məktəbin nümayəndələrindən Qulamhüseyn Beqdelinin «Məhəmmədhüysen Şəhriyar» (1), Hökumə Billurinin "Məhəmmədhüseyn

[153] Bakı Dövlət Universiteti

Şəhriyar" (2), Bəkir Nəbiyevin "Şəhriyar kəlamının vüsəti" (7), Elman Quliyevin «Seyid Məhəmmədhüseyn Şəhriyar» (8), "Heydərbabaya salam" "necə varsa" (9), "Şəhriyar poeziyası və milli təkamül" (10), Esmira Şükürovanın "Məhəmmədhüseyn Şəhriyar: həyatı, mühiti və yaradıcılığı" (11), «Şəhriyar poeziyasında xalq həyatı» (12), İsa Həbibbəylinin «Ustad Məhəmmədhüseyn Şəhriyar» (13), Qulamhyseyn Beqdeli və Həmid Məmmədzadənin tərtib etdikləri «Aman ayrılıq» (5), Qulamhüseyn Beqdelinin redaktorduğu və tərtibi ilə «Şəhriyar. Seçilmiş əsərləri» (4), Hökumə Billuri və Nazim Rizvanm tərtib etdikləri «Şəhriyar. Yalan dünya» (6), Budaq Budaqovun «Şəhriyarın «Heydərbabaya salam» poemasında təbiət» (3), Nazim Rizvan, Xuraman Quliyeva və İslam Qəribovun tərtib etdikləri "Məhəmməd Hüseyn Şəhriyar. Seçilmiş əsərləri" (14) kitabları və başqa əsərlər Məhəmmədhüseyn Şəhriyar yaradıcılığına yönələn böyük maraq və məhəbbətin ifadəsini tam əks etdirməyən siyahısıdır. Sonuncu qeyd olunan kitab 2005-ci ildə Azərbaycan Respublikasinin Prezidenti İlham Əliyevin "Azərbaycan dilində latın qrafikası ilə kütləvi nəşrlərin həyata keçirilməsi haqqında" verdiyi sərəncama əsasən 2000-ci ildə nəşr olunmuş "Seçilmiş əsərlər" kitabı əsasında nəşr olunub və yeni nəşrə "Kəlamın vüsəti" adlı ön sözü görkəmli alim, akademik Bəkir Nəbiev yazmışdır.

Şairin farsca yazdığı şeirlərin tərcüməsini Azərbaycanın ən istedadlı şair və alimləri öhdələrinə görütüb, bu əsərləri öz vəznində Azərbaycan dilinə çevirərək oxuculara təqdim ediblər. Şəhriyar yaradıcılığının çox az hissəsini təşkil edən Azərbaycan dilində yazdığı əsərləri oxucuları nə qədər cəlb etmişdisə, farscadan edilən tərcümələr də Şəhriyar sənətkarlığından, şairin tükənməz ilhamından xəbər verdiyinə görə şəhriyarsevərləri maraqlandırmışdı.

Azərbaycan-İran ədəbi əlaqələrinin mühüm qollarından olan bədii əsərlərin tərcümələri qonşu xalqları bir-birinə mənəvi cəhətdən yaxınlaşdırır, bədii söz xəzinəsini zənginləşdirir və sevimli sənətkarların əsərləri ilə ana dilində tanışlıq imkanı yaradır. Məlum olduğu kimi hər hansı dilə tərcümə üçün seçilən əsərlər yüksək mənəvi tələblərə cavab verməli, bəşəri duyğular, cəlbedici məzmun və məzmuna uyğun formada olmalıdır. Bizcə, Şəhriyar yaradıcılığı bütövlükdə bu tələblərə cavab verdiyindən, tam məsuliyyətlə deyə bilərik ki, şairin bütün yaradıcılığı ana dilimizə tərcümə olunsa, oxucuların zövqünü oxşar, qəlbinə, ruhuna mənəvi qida olar. Şəhriyar xəlqi olduğu qədər də beynəlmiləlçi şairdir. Onun xəlqiliyində yalnız doğma millətinə olan məhəbbətlə bütün insanlığa, bəşəriyyətə yönələn məhəbbət öz əksini tapıb. Şəhriyar yaradıcılığı onu yaşadığı cəmiyyətin ən ağrılı problemləri ilə bağlı məsələlərə biganə qalmamasından və bəşəri duyğulara sadiq qalmasından xəbər verir.

Q.Beqdelinin redaktorluğu və tərtibi ilə nəşr edilən «Şəhriyar. Seçilmiş əsərləri» kitabı redaktorun «Şəhriyarın poeziyası» adlı müqəddiməsi ilə başlayır. Müqəddimədə görkəmli alim Q.Beqdeli Şəhriyar yaradıcılığında «Heydərbabaya salam» poemasının tutduğu yüksək yerdən, əsərin bədii, mənəvi xüsusiyyətlərindən bəhs açır, yeri gəldikcə, poemadan nümunələr verməklə fikrini təsbit edir. Müəllif məqalədə oxuculara tərcüməsi təqdim olunan əsərlər və mütərcimlər haqda məlumat verir. Q.Beqdeli yazır ki, biz Şəhriyarın əsərlərində Xaqani, Nizami, Sədi, Mollayi Rumi, Marağalı Əvhədi, Hafiz həmçinin Şekspir, Volter, Tolstoy və bu kimi bədii söz dühalarının adlarının tez-tez çəkildiyini görürük. Bu böyük sənət bahadırlarının, xüsusilə Hafizin güclü təsirini öz üzərində hiss edən Şəhriyar heç bir əsərində açılmış cığırla getmir, həmişə yeni söz, yeni fikir deməyə çalışır və buna da nail olur. Şəhriyar poeziyası güclü, mütərəqqi ədəbi ənənələrə sədaqətin və novatorluğun vəhdətindən yaranmış bir poeziyadır (4, 16). Həmin kitabda Şəhriyarın «Heydərbabay salam» poemasının I və II hissələri, şərh və izahlarla çap olunmuşdur.

Müqəddimə və poemadan sonra Azərbbaycan mütərcimlərinin Şəhriyar yaradıcılığından etdiyi tərcümələr verilmişdir. Kitabda çap olunan şairin «Gecənin əfsanəsi» poeması, «Səba ölərmi?» qitəsi və «Tanrım mənim» qəzəlini Ə.Mübariz, «Şeir və hikmət», «Ey vay anam!», «Qəsidədən bir parçanı» X.Rza, «Stalinqrad qəhrəmanları» poemasını M.Zehtabi, «Qardaşım oğlu Hüşəng», «Bir gecə Qəmərlə», «Arazın qayıqları», «Ey vəfasız», «İndi niyə?» qəzəllərini Ə.Hüseyni, «Atamın matəmində» «Döyüş», «Əbədi xəzan» qəzəllərini H.Bülluri «Vətənə qayıdarkən» qəzəlini B.Azəroğlu, «Mumiyalanmış adam» məsnəvisini, «Azərbaycan» qəzəlini F.Sadıq, «Əlim ətəyinə», «İntizar» qəzəllərini Q.Beqdeli və qalan 20 qəzəli M.Seyidzadə Azərbaycan dilinə tərcümə etmişlər.

Şəhriyarın «Gecənin əfsanəsi» poeması ictimai-fəlsəfə məzmunda olub, sənətkarın həyata, varlığa münasibətinin mahiyyətini açmağa xidmət edir. Şair fikir və mülahizələrini şərh etmək üçün «gecə» məfhumundan istifadə etmişdir. Şairin bu mövzuya müraciət etməsinin xüsusi mənası vardır. H.Bülluri «Məhəmmədhüseyn Şəhriyar» monoqrafiyasında yazır: «Şair gecəni özünün poetik axtarışları və bu axtarışlardan çıxartdığı nəticələr və fəlsəfi fikirlərlə mənalandırır: gecə fikir adamlarına, duyan könüllərə fəaliyyət, xeyirli işlər üçün daha yaxşı fürsət verir. Gecənin sükutundan istifadə edən sənətkar daha dərin, zəngin xəyallara dalır. Eybəcər, naqis adamlar isə gecədən cinayət üçün istifadə edirlər» (2, 99). Poemanm ilk sətirlərindən malum olur ki, gündüzün oyunu gecə sona yetişdikdə:

«Bu zaman açılar yeni bir pərdə,
Aləm bürünsə də, qara bir dona,
Gülməli bir səhnə düzəldər gecə,
Başlanar göylərdə atəşfəşanlıq.
Nə qədər sehrkar bir rejissordur
Gecənin işini sezsən bir anlıq!
Fələk iynə alıb, qara atlasın
Üstünə şahanə gövhərlər düzər,
O sonsuz dənizin ənginliyində
Səma pəriləri qu kimi üzər.

Ülduzlar başlayar minakarlığa,
Üzünə xal düzər mavi fələyin,
Üfüq arxasından işıq saçan ay,
Səhnəni bəzəyər qızıl tac təkin» (4, 49).

Şair gecənin təsvirini bədii boyalarla, real, duyğulandıran təşbihlərlə verdikdən sonra gecə baş verən hadisələrə münasibət bildirir. Sənətkarı gecədə baş verən bütün hadisələr cəlb edir və bu məqamların təsiri onu xatirələr dünyasına aparır. Gecə meşədə ay işığı da, tufan da, xortdan da ayrı-ayrı məqamlardan təsvir edilir. Gecə meşədən gələn xortdan soyuq komada qalan uşağı qorxudarkən o, qorunmaq üçün ölmuş anasını köməyə çağırır. Şair anaların fədakarlığını, balasını xilas etmək üçün hətta o dünyadan «məhtab kəməndi ilə» oğlunu yanına aparıb «həyatın daş zindanından» qurtarmasını təsvir edir (4, 59).

Şəhriyar «Gecənin əfsanəsi» poemasında həyatın müxtəlif hadisələrini 36 başlıqla qələmə almış və hər hissəyə müəyyən ictimai-fəlsəfi məna verməklə oxucusunu düşündürmüşdür. Bu mövzular içərisində kəndçinin adaxlıbazlığından, dağ simfoniyasından, uşaqlıq xatirəsindən, gecə xatirələrindən, dilbərin naz eyvanından, şəm və pərvanədən, gecə basqını zamanı gəncin bəyanatından, dəniz simfoniyasından, qu quşlarının xəlvətxanasından, Təxti-Cəmşiddən, Daradan, Makedoniyalı İskəndərdən, mədəniyyətin qətlgahından bəhs edilir. Şəhriyar İranın keçmiş əzəmətindən, Daranın Makedoniyalı İskəndərə məğlubiyyətindən sonra böyük fədakarlıqla, zəhmətlə tikilmiş, insan əli ilə yaranmış əzəmətli Təxti Cəmşid sarayının məhv edilməsini ən böyük cinayətlər sırasına daxil edir.

«Qəsrin qapıları, fərşi, tavanı,
Yanır, gözü yaşlı qoyur İranı.
Saray külə dönmək istəyir, nədən?
İstəməz hüsnündən kam alsm düşmən.
Üzərlik yerinə mirvarid, gövhər
Yandıqca atılar, düşər, rəqs edər.
Qüdrətlə, cəlalla tikilən saray
Yandı, diz çökmədi, salmadı haray!» (4, 134).

Şəhriyar nədən yazırsa yazsın, sanki söz ilə rəsm əsəri yaradır. Onun söz gülüstanı xalqın dumduru bulağından qidalanır. Şairin «Gecənin əfsanəsi» poemasında həm xəyal quşunun pərvaz etdiyi səmalardan, həm insan oğlunun keşməkeşli, iztirablı həyatından, həm ən ülvi hisslərin yaradıcısı olan məhəbbət dünyasından, xalqırı adət-ənənələrini qoruyub saxlayan bayramlardan, tarixin sərt dönəmlərində düşmənlə üz-üzə gələn həmvətənlərin keçirdiyi duyğulardan, verdiyi qurbanlardan, bəşəri ideyalardan, humanizmdən, sədaqət və vəfadan, vətəndaşlıq qayələrindən, milli qürurdan ətraflı söz açılmış, şair-vətəndaşın hadisələrə bəsirət gözlü münasibəti bildirilmişdir.

Kitabda şairin «Stalinqrad qəhrəmanları» poeması da çap olunmuşdur. Bu əsər II Dünya müharibəsində Hitler Almaniyasının bəşəriyyətə vurduğu ağır. zərbələrdən, ölkələri viran edərək arxalarında yanıb külə dönmüş torpaqlar, büsatı dağılmış, növrağı pozulmuş insanları qoymasından və bu qəddarlığın, ədalətsizliyin qarşısının keçmiş Sovetlər ölkəsi xalqlarının əlbir köməyi ilə alınmasından bəhs edilir. Şair Hitler qoşununu Əhrimənin şər qüvvəsi adlandırır və onun labüd məhvini həyatın, bəşəriyyətin qanunauyğunluğu kimi qələmə verir.

«Son vuruşdur, qapqaranlıq bir gecə, zülmətləri Tar-mar etməkdədir xəncər tək aydın bir səhər, Çarpışır daim qaranlıq taleyilə Əhrimən, Qalmayır artıq üfüqlər içrə zülmətdən əsər. Qanlı meydanlarda əks olmaqdadır gülgün şəfəq, Ərlərin qan ümmanından qaldırır baş ağ zəfər, Nazlı, parlaq bir günəş, ağ üzlü zəna bir pəri» (4, 190). Şəhriyar bütün əsərlərində müharibə zorakılıq, ədalətsizlik əleyhinə çıxır və Tanrının azad yaratdığı insanın qurub-yaratmaq, əkib-becərmək, sevib-sevilməkdən məhrum edənlərə qarşı barışmaz mövqedə dayanır. Şəhriyarın «Eynşteynə peyğam» şeiri şairin ictimai-fəlsəfi görüşlərini əks etdirən əsərlərdəndir. O, əsərdə göstərir ki, şair görkəmli alim Eynşteynin görüşünə gedir və ondan şərqli qonağın arzularını dinləməyi xahiş edir. Şair Eynşteyni bəşəriyyətə böyük xidmətlər göstərən ixtirasına görə alqışlayır və qarşısında baş əyir. O, alimdən ixtirası ilə insanların səadətə, xoşbəxtliyə çatması üçün yardım etməsini xahiş edir. Şairə görə, alim ixtirasından xalqları əsarət altına almaq, torpaqları işğal etmək üçün istifadəyə yol verməməlidir. Harın işğalçı dövlətlərin bu ixtiradan öz xeyirləri üçün istifadəsi xalqları fəlakət, faciə qarşısında aciz qoya bilər. Şəhriyar bu şeirində elmin, ixtiranın bəşəriyyətə xidmət etməsini arzulayır və kövrək dünyanın hegemon dövlətlər tərəfindən darmadağın edilməməsi üçün narahatlığını izhar edir. Şəhriyarın qardaşı oğluna yazdığı şeirdə dünyada qəm-qüssə içərisində. yaşamış, dünyagörmüş bir şairin həyat haqqında fəlsəfi-ictimai düşüncələri öz əksini tapıb. Dünyaya təzə gəlmiş, yenicə doğulmuş qardaşı oğlu Hüşəngə əmisi həyatın əzablarla dolu olmasına baxmayaraq, yaşamaq eşqinin güclü olduğunu, həyatın şirin və mənalı olduğunu söyləyir. Şəhriyar həyata yeni gələn nəslin qocalara biganə münasibətindən yazır, onlara dövranı başa vurmağın vaxtı çatdığını xatırladanlara müraciətlə deyir:

«Səni öz qəlbim ilə sevmişəm mən,
Mənimlə olmusan sən isə düşmən.
Məni ölmüş dilərsən, ya ki, xəstə,
Deyirsən ki, görəydim tabut üstə.
Qocalmış görcəyin üz döndərərsən,
Qoyub tabuta qəbrə göndərərsən» (4, 192).

Şair Hüşəngin dilindən verdiyi bu fikirlərə qarşı çıxır, həyatın hər anından bəhrələnmək istədiyini bildirir. Şəhriyar «həvayi-eşq ilə» qanad açmaq, cananın nazını çəkmək, «yarın əsmər yanağın» görüb, «lalə doğadından öpmək», baharda açan çiçəklərə şeir qoşmaq, arzuları qədər «göm-göy şəlalənin» axmasını görmək, ona göz yaşları vermiş zəmanədən yazmaq istəyir. Şair tez ölmək istəmir, çünki zəmanə onu şad etməsə də danışmaq, həyat təcrübəsini gələcək nəsillərə yadigar qoymaq üçün söhbətləri çoxdur. Ancaq Şəhriyar təəssüf edir ki, dövran Hüşəngə dil verəndə amansız əcəl bir düşmən kimi əminin dilini bağlayacaq və qardaşoğlu əminin kimliyini biləndə şairin həyatda izi qalmayacaq. Bax, o zaman Hüşəng Şəhriyarın yazdıqlarını oxuyacaq, dərdini biləcək və o zaman əmisini tapmaq istəyəcək, axtaracaq.

«Məni yaddan çıxarmaq mümkün olmaz,
Məni heç vaxt unutmaq mümkün olmaz.
Mənim sözdür qalan son yadigarım,
Həyatımda budur dövlətim, varım» (4, 194).

Şəhriyar körpə qardaşoğluna nəsihət və vəsiyyətini etmək üsulundan istifadə edərək, sanki bütün gəncliyə insanlığa, özündən sonra gələn nəsillərə həyat fəlsəfəsini, yaşam qanunauyğunluğunu başa salmışdır.

«Bu sirri anladın, oğlum, əgər sən,
Yanar qəlbinlə qəbr üstən dönərsən.
Gedib zahid və ya ki, meypərəst ol,
Namaz qıl, səcdə et, yainki məst ol.
Fəqət insanlığı atma könüldən,
Məni sən yad elə, mümkünsə, hərdən» (4, 197).

Dünyanın daimiliyi, insanın dünyaya müvəqqəti gəlişi, həyatın şirinliyi, cazibəsi, axirətin labüdlüyü və bəşəriyətdə sənət amilinin uzun ömürlülüyü Şəhriyar düşüncələrinin əsasıdır. Şəhriyarın əsərlərində saflıq, səmimiyyət onun yaradıcılığının əsas leytmotividir. Şair sevəndə də, nifrət edəndə də, vüsalda da, hicranda da - hər zaman ictimai mühitin ali, şah fikirlərini öz bədii təxəyyülündən keçirərək sadə, səmimi şəkildə bəyan etmişdir.

Şairin lirik şeirləri, qəzəlləri zəngin klassik irsə malik fars ədəbiyyatının müasir dövrdə yaranmış ən gözəl nümunələridir. Şəhriyarın XX əsrdə yazdığı qəzəllər onun klassik ədəbiyyatın, poeziyanın ən layiqli davamçısı olduğunu nəzərə çarpdırır. Şəhriyarın bütün tədqiqatçıları onun həyatında Sürəyya adlı gözəlin varlığından, şairin bu əlçatmaz sevgili üçün çəkdiyi əzablardan bəhs edir.

Şəhriyar dünyaya şair gəlib. Tanrı ona böyük istedad verib. Sayılan, seçilən şair olmaq üçün bu cəhətlər mühüm və vacibdir. Ancaq Şəhriyar yaradıcılığında kövrək bir sızıltı, qəlblərə nüfuz edən inilti, kədərdən doğan və həssas ürəkləri riqqətə gətirən bir ahəng var. Bax, bunlara görə, Şəhriyarı belə zərif duyğularla qüdrət sahibi etdiyinə görə qədirbilən oxucular şairin nakam Sürəyya məhəbbətinə minnətdar olmalıdrlar. Şairi şair edən nakam sevgi, əlçatmaz arzular, çarəsiz dərdlərdir!.. Heç bəxtəvər, şad, bütün arzuları çin olan, yüksək məqam sahibi olan görkəmli şairə rast gəlibsinizmi? Şair özü duyub yaşadığı qəm-kədəri ilə dərdli ürəklərin tərcümanı olanda ilahiləşir, müqəddəsləşir! Şəhriyar da öz nakam məhəbbətinin əzablarında misilsiz şair oldu, sevgilisi ailə həyatı qurub ana olanda belə şair qəlbindəki müqəddəs hisslərə sadiq qalıb evlənmədi, xəyal dünyasının duyğuları ilə yaşadı. Şəhriyar qəzəlləri könül harayı, qəlb hıçqırıqlarıdır.

«Ey vəfasız, səni mən ta özümə yar elədim,
Gül kimi ömrümü saldım ayağa, xar elədim.
Əhdü-peyman bizim, zövqü səfa özgələrin,
İnanıb andına əvvəl səni dindar elədim.
Kafir olsaydı əgər rəhmə gələrdi, gözəlim,
O qədər ki, sənə mən dərdimi izhar elədim.
Qoymusan naz balışa başını, hardan biləsən ki,
Daş üstündə nə cür canımı bimar elədim.
Şəhriyara, məni zülm ilə o pamal etdi,
Ta öpüb yollarını eşqimə sərdar elədim» (4, 268)

Və ya şair «Aşiqin gileyi» qəzəlində çəkdiyi əzab və iztirabları qələmə alaraq birbaşa sevdiyinə müraciət edir:

«Sənin hicrində elə yandı könül, can, sorma,
Məni bir atəşə yaxmış ki, bu hicran, sorma.
Giley etdikdə sənə üz çeviribsən məndən,
Gileyim var nə qədər səndən, a canan, sorma» (4, 252).

Deyilənə görə Şəhriyar tarda gözəl müğam çala və qəzəllərini tarın müşaiyyəti ilə söylərmiş. Şairin dərin kədərinə qəmxar olan tarına həsr etdiyi qəzəl onun pərişan əhvalını, səmimi iztirablarını bəyan edir:

«Sızlayır əhvalıma şübhə qədər tarım mənim,
Təkcə tarımdır qara günlərdə dildarım mənim.
Çox vəfalı dostlarım vardır, yaman gün gəlcəyin,
Tardan özgə qalmayır yarı-vəfadarım mənim.
Yer tutub qəmxanədə qıldım fəramuş aləmi,
Mən tarın qəmxarı oldum, tar qəmxarım mənim» (4, 256).

Şəhriyar yalnız tarın qəmxarı deyil, yaradıcılığı ilə bütün sevənlərin, həssasların, duyğulu insanların, nakam məhəbbətdən inləyənlərin qəmxarı olmuşdur. Onun həyatsevərliyi, Vətənə, doğma yerlərə məhəbbəti, münasibəti, xəlqiliyi və bütün bu cəhətləri özündə ehtiva edən şairliyi dünyasını dəyişdikdən sonra da Şəhriyarın fövqəlbəşər olduğuna bariz sübutdur. Sənətkarın, şairin ömrü onun yaradıcılığında, əsərlərində yaşayır. Şəhriyar kimi qüdrət sahibi olan şairin ömrü sələfləri olan Firdovsi, Nizami, Rumi, Sədi, Hafiz və bir çox korifey sənətkarların ömrü kimi əsrləri aşacaq və gələcək nəsillərin ruhunu, könlünü şad etmək üçün seir-sənət nümunələrini ərməğan edəcəkdir. Məhəmmədhüseyn Şəhriyarın yaradıcılığı bəşəri ideyalara xidmət etdiyinə, yüksək bədii məfkurəyə malik olduğuna, səmimiyyətinə, xəlqiliyinə, beynəlmiləlçiliyinə görə insanlar tərəfindən rəğbətlə qarşılanıb və qarşılanacaq. Məhz bu cəhətlərinə görə sənətsevər Azərbaycan oxucuları M.Şəhriyarın ana dilində və fars dilindən edilmiş tərcümədə çap olunan əsərlərini səbirsizliklə gözləyir.

Ədəbiyyat

1. Beqdeli Q. Məhəmmədhüseyn Şəhriyar, Bakı: Azərnəşr, 1963
2. Billuri H. Məhəmmədhüseyn Şəhriyar, Bakı: Elm, 1984
3. Budaqov B. Şəhriyarın "Heydərbabaya salam" poemasmda təbiət, Bakı: Oğuz eli, 1998
4. Məhəmmədhüseyn Şəhriyar. Seçilmiş əsərləri. Bakı: Azərnəşr, 1966
5. Məhəmmədhüseyn Şəhriyar. Aman ayrılıq. Bakı: Yazıçı, 1981
6. Məhəmmədhüseyn Şəhriyar. "Yalan dünya", Bakı, 1993
7. Nəbiyev B. Şəhriyar kəlamının vüsəti. Bakı: Nafta-press, 1998
8. Quliyev E. Seyid Məhəmmədhüseyn Şəhriyar. Bakı: Mütərcim, 1999
9. Quliyev E. "Heydərbabaya salam" necə varsa, Bakı: Elm, 2001
10. Quliyev E. Şəhriyar poeziyası və milli təkamül, Bakı: Elm, 2004
11. Şükürova E. M.Şəhriyar: həyatı, mühiti, yaradıcılığı, Bakı: Elm, 1998
12. Şükürova E. Şəhriyar poeziyasında xalq həyata. Bakı: Elm, 1996
13. Həbibbəyli . Ustad Məhəmmədhüseyn Şəhriyar. Bakı: Elm, 1999
14. Məhəmmədhüseyn Şəhriyar. Seçilmiş əsərləri, Bakı, 2005.

Açar sözlər: M.Şəhriyar, şair, poeziya, İran, böyük, tərcümə
Ключевые слова: М.Шахрияр, поэт, поэзия, Иран, великий, перевод
Key words: M.Shahriyar, poet, poetry, Iran, great, translated

Резюме

Великий поэт Ирана М.Шахрияр своим творчеством находится в центре внимания любителей поэзии Азербайджана. Его прозведения переведены на Азербайджанский язык переводчиками А.Мубариз, Х.Рза, М.Зехтаби, А.Биллури, Балаш Азероглу, М.Сейидзаде, А.Гусейни и др.

Summary

The work of the great poet of Iran, Mahammad Hossein Shahriyar, The center of attention of poetry lovers. A.Mubariz, Kh.Rza, M.Zahtabi, H.Billuri, B.Azeroghlu, M.Seyidzadeh, H.Husseini can be referred to the translators who translated his works into Azerbaijan language and delivered them to the readers.

Rəiçi: dos. S.Abbasova

Aida Zal qızı Nabadova[154]

FEİLİN SADƏ ŞƏKİLLƏRİ VƏ ZAMAN

İnsanın gerçəklik haqqındakı əsas təsəvvürləri ilə, varlığın, bütün insan fəaliyyətinin həm idraki, həm də təcrübi cəhətdən öyrənilməsilə birbaşa bağlı olması zaman anlayışını daim diqqət mərkəzində saxlayır. Buna görə də zaman kateqoriyasının müxtəlif cəhətlərdən təhlili və araşdırılması elmin ən aktual məsələlərindən olmuşdur. Zamanı tədqiqatçıların maraq dairəsindən kənarda qalmağa qoymayan əsas tərəflərdən biri onun çoxcəhətliliyidir ki, bu da onun müxtəlif elmi yönümlərdən tədqiqini zəruri etmişdir. Qlobal məsələ olan zaman anlayışı bir çox elmlərin ortaq vahidi, tədqiqat obyekti olmuşdur.

Fəlsəfə elmi zamanı fəlsəfi anlayış hesab edir və bunun fiziklərin işi olmadığını iddia edir. Zaman qeyri-sabit, hissələri bir-birilə qopuq olmayan, bitişik olan hadisədir. Zaman görünmür, toxunulmur, lakin əlamətləri və əqli təhlillər nəticəsində onun varlığı müşahidə edilir. Zaman və hərəkət bir-birilə əlaqəlidir. Hərəkət isə tədrici dəyişiklikdir, bir şeyin qeyri-aktiv haldan aktiv hala keçməsidir. Bütün maddi aləm hərəkətdədir və maddi aləmdə hərəkətsizlik qeyri-mümkündür. Zamanın yaranma yeri insanın zehnidir və onun hissələri vardır. Zamanın heç bir hissəsi eyni anda mövcud olmur, keçmiş yox olanda bu gün olur.

Fizika elmi zamanın öyrənilməsində mühüm rol oynamışdır. Zaman haqqında düşünən, onun barəsində fikirlər irəli sürən ilk fizik Qalileo Qaliley idi. Klassik fizikanın banilərindən hesab olunan Q.Qaliley və Nyuton kimi fiziklərin fikrincə, zaman mütləqdir, dəyişməzdir, sabitdir və heç nədən asılı olmadan axıb gedir. Xüsusilə, mütləq zaman dedikdə hər kəsin ağlına Nyuton gəlir. "Zamanın atası" Nyuton zaman və məkanın obyektiv gerçəkliyin tamamilə ayrı ünsürləri olduğuna inanırdı və kainatda heç nə qalmasa, hər şey yox olsa belə zamanın varlığının davam edəcəyini düşünürdü. O hesab edirdi ki, dəyişməyən tək şey zamandır. Alimlərə görə, zaman mütləq və universaldır. Mütləq olduğu qəbul edilən zaman hər kəs üçün eyni, dünyanın hər yerində sabit sürətlə hərəkət edə bilən, ölçülə bilən, lakin dərk edilməyən anlayışdır. E.Kant zamanı özlüyündən mövcud olan anlayış adlandırırdı. Albert Eynşteyn isə zaman haqqında deyilən bütün fikirləri "Xüsusi nisbilik nəzəriyyəsi" adlanan məqaləsi ilə alt-üst etdi. O özündən 200 il əvvəl Nyutonun irəli sürdüyü işıq sürəti və zamanın sabitliyi ideyasını inkar edir, işıq sürəti sabit olsa da, zamanın müxtəlif insanlara görə fərqli olduğunu bildirirdi. Eynşteynə görə, hərəkətdə olarkən zaman daha yavaş, sükunətdə olarkən daha tez keçir. Əgər işıq sürətinə yaxın sürətə çatmaq mümkün olsa, zaman yavaşlayar. O bu fikirlərini "əkizlər paradoksu" ilə izah edirdi. Dünyanın ən məşhur, dahi fiziki Albert Eynşteyn keçmiş və gələcəyi illüziya adlandırırdı.

Dilçilik elmində feilin zamanları hərəkət və ya halın danışıq vaxtına nisbəti ilə müəyyən edilir. Burada obyektiv və qrammatik zaman anlayışları bir-birindən ayrılır. Obyektiv zaman bizdən asılı olmayaraq obyektiv aləmdə mövcuddur. Dil və təfəkkür əlaqələrini nəzərə alaraq obyektiv zamanın dərk edilməsinin dildən ayrılmaz olduğunu deyə bilərik. Bəli, məhz dərk edilməsi, ifadə edilməsi dillə bağlıdır, lakin onun mövcudluğu nə insan şüurundan, nə də başqa amillərdən asılıdır. Maddi aləmin özü kimi onun mühüm parametri olan zaman da obyektiv şəkildə daim mövcud olmuşdur. Şüurlu insanın yaşamadığı dövrdə də maddi aləm mövcud idi, zaman və məkan daxilində inkişaf edirdi. Zamanın mahiyyəti hərəkətlə müəyyən olunur hər hansı hadisənin müəyyən zaman daxilində baş verməsi o deməkdir ki, maddi aləm daimi hərəkətdədir.

Dil təfəkkür normalarını və davranışı müəyyənləşdirir, məntiqi kateqoriyaların yaranmasında aparıcı mövqedə dayanır. Kateqoriya dillə təfəkkür arasındakı vasitəçi rolunu oynayır. Dil və ya təfəkkür kateqoriyaları bir-birindən fərqli formadadır. Bu fərq onların mahiyyətini aydınlaşdırmağa imkan verir. Təfəkkür öz kateqoriyalarını dəqiqləşdirməkdə sərbəstdir, lakin dil kateqoriyaları sistemlidir. Məntiqi kateqoriyalar ilə dil kateqoriyalarının qarşılıqlı münasibətini təhlil etmək dil və təfəkkürün qarşılıqlı əlaqəsini öyrənmək baxımından çox mühüm rol oynayır. Ona görə mühüm rol oynayır ki, hər hansı bir idrak kateqoriyası insanlar üçün ümumi olsa da, hər bir dildə xüsusi ifadə formasına malik olur və bu ifadə formaları öz rəngarəngliyi ilə bir-birindən fərqlənir. Zamandan məntiqi kateqoriya kimi bəhs etməkdə məqsədimiz qrammatik zaman kateqoriyasına daxil olmayan bəzi məqamları bu prizmadan daha ətraflı təhlil etməkdir. Filosofların da dediyi kimi, hərəkət olan yerdə zaman da vardır. Belə olan halda, şübhəsiz ki, zaman anlayışı da feilin xəbər şəkli ilə məhdudlaşa bilməz. Deməli, tərkibində heç bir zaman şəkilçisi olmayan, qrammatik cəhətdən feilin xəbər şəklində olmayan feillər də müəyyən qədər zaman məzmunu daşıya bilir.

Əmr şəkli. Xüsusi qrammatik şəkilçisi olmayan, feilin kökünə və ya başlanğıc formasına şəxs şəkilçiləri artırmaqla düzələn əmr şəkli yalnız əmretmə mənası deyil, xahiş, məsləhət, təklif, nəsihət və b. mənalar da ifadə edir. Qrammatik cəhətdən heç bir zamanda olmasa da, məzmun baxımından gələcək zamana aid olduğunu təsəvvür etmək olur. Əslində, əmr şəklindən danışarkən yalnız indiki və gələcək zamanları düşünmək olur. Bu şəkildə işlənən feillərdə əmretmə hərəkəti indiki zamana aid olsa da, həmin fəaliyyət yalnız danışıq vaxtından sonrakı zamanda icra oluna bilər. Burada eynizamanlılığın olduğunu da düşünə bilmirik, çünki işin icrasına başlaya bilmək üçün əvvəlcə göstəriş verilməli, sonra onun yerinə yetirilməsinə başlanılmalıdır. Sonrakı zaman da danışıq vaxtından bir saniyə və ya bir saat, hətta bir il sonra olmasından asılı olmayaraq gələcək zaman hesab olunur. Hər iki hərəkətin eyni anda baş verməsi fikizi cəhətdən mümkün deyil. Eynizamanlılıq düşünülə bilmədiyi kimi, keçmiş zaman haqqında da danışmaq olmaz, çünki artıq icra olunmuş işlə bağlı indiki zamanda əmr vermək mümkünsüzdür.

Məhəmməd Füzulinin dilində əmr şəkli həm şəkilçiləri, həm də daşıdığı məna çalarları ilə olduqca rəngarəngdir. I şəxsin təkində şəxs şəkilçiləri bir neçə formada işlənmişdir. Bunların içində müasir dövrdə işlənən –ım[4] nisbətən az istifadə

[154] Bakı Mühəndislik Universitetinin magistrantı, aidanabadova@gmail.com

